Nəhcül-bəlağə (A. Mehdiyev, D. Cəfərli, E. Quliyev tərcüməsi)

Exported from Wikisource on 1 aprel 2023

Nəhcül-bəlağə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

- Nəhcül-bəlağənin Azərbaycan dilinə tərcüməsi haqqında bir neçə söz
- Ocaqnejadın ön sözü
- /Ön söz
- /Feyzül-İslamın yazdığı müqəddimə
- **Fəsil**
- **I Hissə**

- /1-ci xütbə
- /2-ci xütbə
- /3-cü xütbə
- /4-cü xütbə
- /5-ci xütbə
- /6-cı xütbə
- /7-ci xütbə
- /8-ci xütbə
- /9-cu xütbə
- /10-cu xütbə
- /11-ci xütbə
- /12-ci xütbə
- /13-cü xütbə
- /14-cü xütbə
- /15-ci xütbə
- /16-cı xütbə
- /17-ci xütbə
- /18-ci xütbə
- /19-cu xütbə
- /20-ci xütbə
- /21-ci xütbə
- /22-ci xütbə
- /23-cü xütbə
- /24-cü xütbə
- /25-ci xütbə
- /26-cı xütbə
- /27-ci xütbə
- /28-ci xütbə
- /29-cu xütbə
- /30-cu xütbə
- /31-ci xütbə
- /32-ci xütbə
- /33-cü xütbə
- /34-cü xütbə
- /35-ci xütbə
- /36-cı xütbə
- /37-ci xütbə
- /38-ci xütbə
- /39-cu xütbə
- /40-cı xütbə
- /41-ci xütbə
- /42-ci xütbə
- /43-cü xütbə
- /44-cü xütbə
- /45-ci xütbə
- /46-cı xütbə
- /47-ci xütbə
- /48-ci xütbə
- /49-cu xütbə
- /50-ci xütbə
- /51-ci xütbə
- /52-ci xütbə
- /53-cü xütbə
- /54-cü xütbə
- /55-ci xütbə
- /56-cı xütbə
- /57-ci xütbə
- /58-ci xütbə
- /59-cu xütbə
- /60-cı xütbə
- /61-ci xütbə
- /62-ci xütbə
- /63-cü xütbə
- /64-cü xütbə
- /65-ci xütbə
- /66-cı xütbə
- /67-ci xütbə
- /68-ci xütbə
- /69-cu xütbə
- /70-ci xütbə
- /71-ci xütbə
- /72-ci xütbə
- /73-cü xütbə
- /74-cü xütbə
- /75-ci xütbə
- /76-cı xütbə
- /77-ci xütbə
- /78-ci xütbə
- /79-cu xütbə
- /80-ci xütbə
- /81-ci xütbə
- /82-ci xütbə
- /83-cü xütbə
- /84-cü xütbə
- /85-ci xütbə
- /86-cı xütbə
- /87-ci xütbə
- /88-ci xütbə
- /89-cu xütbə

- **II Hissə**
- /Feyzul-İslamın II hissəyə yazdığı müqəddimə

- /90-cı xütbə
- /91-ci xütbə
- /92-ci xütbə
- /93-cü xütbə
- /94-cü xütbə
- /95-ci xütbə
- /96-cı xütbə
- /97-ci xütbə
- /98-ci xütbə
- /99-cu xütbə
- /100-cü xütbə
- /101-ci xütbə
- /102-ci xütbə
- /103-cü xütbə
- /104-cü xütbə
- /105-ci xütbə
- /106-cı xütbə
- /107-ci xütbə
- /108-ci xütbə
- /109-cu xütbə
- /110-cu xütbə
- /111-ci xütbə
- /112-ci xütbə
- /113-cü xütbə
- /114-cü xütbə
- /115-ci xütbə
- /116-cı xütbə
- /117-ci xütbə
- /118-ci xütbə
- /119-cu xütbə
- /120-ci xütbə
- /121-ci xütbə
- /122-ci xütbə
- /123-cü xütbə
- /124-cü xütbə
- /125-ci xütbə
- /126-cı xütbə
- /127-ci xütbə
- /128-ci xütbə
- /129-cu xütbə
- /130-cu xütbə
- /131-ci xütbə
- /132-ci xütbə
- /133-cü xütbə
- /134-cü xütbə
- /135-ci xütbə
- /136-cı xütbə
- /137-ci xütbə

- **III Hissə**
- /Feyzul-İslamın III hissəyə yazdığı müqəddimə

- /138-ci xütbə
- /139-cu xütbə
- /140-cı xütbə
- /141-ci xütbə
- /142-ci xütbə
- /143-cü xütbə
- /144-cü xütbə
- /145-ci xütbə
- /146-cı xütbə
- /147-ci xütbə
- /148-ci xütbə
- /149-cu xütbə
- /150-ci xütbə
- /151-ci xütbə
- /152-ci xütbə
- /153-cü xütbə
- /154-cü xütbə
- /155-ci xütbə
- /156-cı xütbə
- /157-ci xütbə
- /158-ci xütbə
- /159-cu xütbə
- /160-cı xütbə
- /161-ci xütbə
- /162-ci xütbə
- /163-cü xütbə
- /164-cü xütbə
- /165-ci xütbə
- /166-cı xütbə
- /167-ci xütbə
- /168-ci xütbə
- /169-cu xütbə
- /170-ci xütbə
- /171-ci xütbə
- /172-ci xütbə
- /173-cü xütbə
- /174-cü xütbə
- /175-ci xütbə
- /176-cı xütbə
- /177-ci xütbə
- /178-ci xütbə
- /179-cu xütbə
- /180-ci xütbə
- /181-ci xütbə
- /182-ci xütbə
- /183-cü xütbə
- /184-cü xütbə
- /185-ci xütbə

- **IV Hissə**
- /Feyzul-İslamın IV hissəyə yazdığı müqəddimə

- /186-cı xütbə
- /187-ci xütbə
- /188-ci xütbə
- /189-cu xütbə
- /190-cı xütbə
- /191-ci xütbə
- /192-ci xütbə
- /193-cü xütbə
- /194-cü xütbə
- /195-ci xütbə
- /196-cı xütbə
- /197-ci xütbə
- /198-ci xütbə
- /199-cu xütbə
- /200-cü xütbə
- /201-ci xütbə
- /202-ci xütbə
- /203-cü xütbə
- /204-cü xütbə
- /205-ci xütbə
- /206-cı xütbə
- /207-ci xütbə
- /208-ci xütbə
- /209-cu xütbə
- /210-cu xütbə
- /211-ci xütbə
- /212-ci xütbə
- /213-cü xütbə
- /214-cü xütbə
- /215-ci xütbə
- /216-cı xütbə
- /217-ci xütbə
- /218-ci xütbə
- /219-cu xütbə
- /220-ci xütbə
- /221-ci xütbə
- /222-ci xütbə
- /223-cü xütbə
- /224-cü xütbə
- /225-ci xütbə
- /226-cı xütbə
- /227-ci xütbə
- /228-ci xütbə
- /229-cu xütbə
- /230-cu xütbə
- /231-ci xütbə
- /232-ci xütbə
- /233-cü xütbə
- /234-cü xütbə
- /235-ci xütbə
- /236-cı xütbə
- /237-ci xütbə
- /238-ci xütbə
- /239-cu xütbə

- **Fəsil**
- **V Hissə**
- /Feyzul-İslamın V hissəyə yazdığı müqəddimə

- /1-ci məktub
- /2-ci məktub
- /3-cü məktub
- /4-cü məktub
- /10-cu məktub
- /11-ci məktub
- /12-ci məktub
- /13-cü məktub
- /19-cu məktub
- /20-ci məktub
- /21-ci məktub
- /22-ci məktub
- /28-ci məktub
- /29-cu məktub
- /30-cu məktub
- /31-ci məktub
- /37-ci məktub
- /38-ci məktub
- /39-cu məktub
- /40-cı məktub
- /46-cı məktub
- /47-ci məktub
- /48-ci məktub
- /49-cu məktub
- /55-ci məktub
- /56-cı məktub
- /57-ci məktub
- /58-ci məktub
- /64-cü məktub
- /65-ci məktub
- /66-cı məktub
- /67-ci məktub
- /73-cü məktub
- /74-cü məktub
- /75-ci məktub
- /76-cı məktub

- /5-ci məktub
- /6-cı məktub
- /7-ci məktub
- /8-ci məktub
- /9-cu məktub
- /14-cü məktub
- /15-ci məktub
- /16-cı məktub
- /17-ci məktub
- /18-ci məktub
- /23-cü məktub
- /24-cü məktub
- /25-ci məktub
- /26-cı məktub
- /27-ci məktub
- /32-ci məktub
- /33-cü məktub
- /34-cü məktub
- /35-ci məktub
- /36-cı məktub
- /41-ci məktub
- /42-ci məktub
- /43-cü məktub
- /44-cü məktub
- /45-ci məktub
- /50-ci məktub
- /51-ci məktub
- /52-ci məktub
- /53-cü məktub
- /54-cü məktub
- /59-cu məktub
- /60-cı məktub
- /61-ci məktub
- /62-ci məktub
- /63-cü məktub
- /68-ci məktub
- /69-cu məktub
- /70-ci məktub
- /71-ci məktub
- /72-ci məktub
- /77-ci məktub
- /78-ci məktub
- /79-cu məktub

- **Fəsil**
- **VI Hissə**
- /Feyzul-İslamın VI hissəyə yazdığı müqəddimə
- Hikmətli sözlər

Nəhcül-bəlağə (A. Mehdiyev, D. Cəfərli, E. Quliyev tərcüməsi), «Nəhcül-bəlağə»nin Azərbaycan dilinə tərcüməsi haqqında bir neçə söz
Müəllif: Allahşükür Paşazadə

Ön söz→

Nəhcül-bəlağə, Nurlar, Bakı, 2009, səh. III-XI

«Nəhcül-bəlağə»nin Azərbaycan dilinə

tərcüməsi haqqında bir neçə söz

Bismillahir-Rəhmanir-Rəhim!
Əl-Həmdu lillahi Rəbbil-aləmin vəs-səlatu
vəs-səlamu əla əşrəfil-ənbiyai vəl-mürsəlin -
Mühəmmədin və alihil-məxsusin
bit-təharəti vət-tənzih. Əmmə bə'd...

Həzrət Əli ibn Əbu Talib əleyhis-salamın bəlağət və fəsahətdə misli-bərabəri olmayan xütbələri, hikmətli kəlamları, nəsihətləri və məktublarının Şərif Rəzi (vəfatı - 1015) - rəziyəllahu anhu - tərəfindən hazırlanmış toplusu olan «Nəhcül-bəlağə» İslam və bütün dünya mədəniyyəti inciləri sırasına ölməz bir əsər kimi daxil olmuşdur. Bu gün bu əsərin Azərbaycan dilinə tərcümə edilməsi müasir Azərbaycanın dini, elmi, mədəni və ədəbi həyatında son dərəcə əlamətdar və mühüm bir hadisə kimi qiymət¬ləndirilməlidir. Bu baxımdan tərcümənin müəllifləri - Dürdanə xanım Cəfərli, Etibar Quliyev, Ağabala Mehdiyev, habelə höccətul-islam vəl-müslimin Hacı Şeyx Adil Mövlayinin İslam maarifinin mühüm mənbələrin¬dən olan bu əsəri Azərbaycan türkcəsində ərsəyə gətir¬mək üçün göstərdikləri səy və zəhmət yüksək təqdirə layiqdir. Onlar «Nəhcül-Bəlağə»nin mərhum ayətullah Seyyid Əliyənnəqi Feyzul-İslam tərəfindən təqribən 50 il bundan qabaq İranda fars dilində şərhlərlə çap edilmiş mükəmməl tərcüməsini Azərbaycan dilinə çevirmək kimi ağır və məsuliyyətli bir işin öhdəsindən bacarıqla gələ bilmişlər. Əsəri oxuduqca mütərcimlərin həqiqətən fars, ərəb və Azərbaycan dillərini gözəl bildiklərini, İslamın tarixinə, əsas prinsiplərinə yaxından bələd olduqlarını hiss edirsən. Şübhə yoxdur ki, az bir müddət içərisində belə bir böyük işin öhdəsindən gəlmək mütərcimlərdən yüksək bacarıq, geniş bilik və böyük səy tələb etmişdir.
İmam Əli əleyhis-salamın əshabı onun xütbələrini, moizələrini, məktublarını

və hikmətli kəlamlarını o hələ həyatda ikən cəm etməyə və yazıya almağa başlamışlar. Sonralar əzbərlənərək Əhli-beyt imamlarının (əleyhimus-salam) hafizələrində həkk olunan və müqəddəs əmanət kimi nəsildən-nəslə ötürülən bu əlçatmaz-ünyetməz bəlağət və fəsahət nümunələri həm də xüsusi katiblər tərəfindən qələmə alınmışdır. İlk dəfə İmam əleyhis- salamın xütbələrini onun yaxın əshabmdan olan və o Həzrəti (ə) Nəhrəvan səfərində müşayiət edən kufəli Zeyd ibn Vəhb əl-Cüheyni (vəfatı -714) yazmağa başla¬mışdır. Sonralar bir çox yazıçılar bu xütbələri öz kitablarına daxil etmiş, Həzrət Əlinin hikmət dolu xütbə, kəlam və moizələrinə geniş şərhlər yazmışlar. Bu şərhlər arasında ən məşhuru İbn Əbil Hədid Əbdülhəmidin (vəfatı -1275) şərhi sayılır.

Əlbəttə, İmam əleyhis-salamın bütün nəzəri irsini, dediklərini və yazdıqlarını bircə-bircə toplayıb tam də¬qiqliyi ilə küll halında yazıya almaq çətin və bəlkə də qeyri-mümkün bir işdir. Hər halda tam qətiyyətlə demək olar ki, bu gün İmam əleyhis-salamın bizə gəlib çatan kəlamları çatmayanlardan qat-qat azdır. Digər tərəfdən qeyd edilməlidir ki, ayrı-ayrı müəlliflərin tarixi şəraitdən, dövrün əhvali-ruhiyyəsindən, sosial-siyasi hadisələrinin xarakterindən asılı olaraq Həzrət Əli əleyhis-salamın xütbə, kəlam, məktub və moizələrini bir-birindən fərqli deyim və mənalarda yazıya alması da sonralar bu mübarək yazıların dürüst tərtibi işini xeyli çətinləşdirən amillərdən olmuşdur. Bunların hamısını araşdırmaq, tədqiq etmək, hər bir sözü artırıb-əskiltmədən, rəvayət edildiyi şəkildə yazıya almaq xüsusi səriştə, hazırlıq və cidd-cəhd tələb etmişdir. «Nəhcül-bəlağə»nin tərtibçisi Şərif Rəzinin ən böyük xidməti onda olmuşdur ki, o təqribən min il bundan qabaq ayrı-ayrı qaynaqları diqqətlə öyrənmiş, bu qaynaqlardakı materialı bir-birilə tutuşdurmuş, heç bir şübhə yeri qoymadan Həzrət Əli əleyhis-salama aid olan kəlamları bir kitabda topla¬mışdır. Topladığı materialın xütbə və əmrlərdən, yazı və məktublardan, hikmətli kəlam və ibrətamiz moizələrdən ibarət olduğunu görən Şərif Rəzi kitabını həmin mövzular üzrə tərtib etmək qərarına gəlmişdir. İmam əleyhis-salamm tovhid və ilahi ədi, qəzavü-qədər, Allahı Ona xas olmayan sifətlərdən uca tutmaq-tənzih məsələ¬lərinə dair bəlağət və fəsahətlə dolu kəlamlarının həm bilik sahibləri, həm də bilik sorağında olanlar, həm gözəl danışıq qabiliyyətinə malik olanlar, həm də ifadəli nitqə can atanlar üçün maraqlı olduğunu görəndə isə, kitabını «Nəhcül-bəlağə» («Bəlağət yolu») adlandırmışdır. Bu gün əlimizdə olan «Nəhcül-bəlağə» bu yolla ərsəyə gəlmişdir. Sonralar

bu kitab Həzrət Əli əleyhis-salamı sevənlər, onun bəlağət dolu kəlamlarına, ibrətamiz moi¬zələrinə maraq göstərənlər üçün əvəzedilməz qaynaq rolunu oynamışdır. Bir çox bəlağət və fəsahət sahibləri ifadəli nitqi, natiqlik sənətini İmam Əli əleyhis-salamm xütbə və kəlamlarını əzbərləməklə öyrənmiş, aydın danış¬ma qabiliyyətinə bu yolla yiyələnmişlər. Əbdülhəmid Katibi (vəfatı - 750) iftixarla bildirirdi ki, Həzrət Əli əley¬his-salamm xütbələrindən yetmişini əzbərləməklə bəla¬ğəti mənimsəmişdir.
«Nəhcül-bəlağə» ərsəyə gəldikdən sonra ona da çoxlu şərhlər yazılmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, «əş-Şəqşəqiyyə» adı ilə tanınan xütbəyə hazırda on altı şərh mövcuddur. Misirin tanınmış ilahiyyat alimi Məhəmməd Əbduhun (vəfatı - 1905) «Nəhcül-bəlağə»yə yazdığı şərh də öz məzmunu, əhatəliliyi sayəsində geniş yayılmışdır.
«Nəhcül-bəlağə» ayrı-ayrı xalqların dillərinə tərcümə edilmişdir. Şərhli tərcümələr daha uğurlu olmuşdur. Belə şərhli tərcümələrdən biri və mən deyərdim ki, ən uğur¬lusu və mükəmməli Ağa Seyyid Əliyyənnəqi Feyzul-İslamm fars dilində hazırladığı tərcümədir. Bu tərcüməni başqa müvafiq tərcümələrdən fərqləndirən əsas məziyyət filoloji dəqiqlik, ərəb dilindəki çətin söz və ifadələrin fars dilində stilistik qarşılığını seçmək qabiliyyəti ilə bağlı izah edilə bilər. Şərhlərdəki dərin təhlil, məzmun zəngin¬liyi, açıqlanan məsələlərin mahiyyətinə nüfuz etmək bacarığı Ağa Seyyid Əliyyənnəqinin hazırladığı əsəri Həzrət Əli əleyhis-salamın irsi ilə bağlı ən gözəl ədəbiy¬yat nümunələri sırasına çıxarmışdır.
Məhz bu səbəbdən «Nəhcül-bəlağə»nin bu gün Azər-baycan oxucusunun sərəncamına verilən tərcüməsi Ağa Seyyid Əliyyənnəqinin həmin əsəri əsasında hazırlan¬mışdır.
İran İslam Respublikasının Azərbaycandakı Mədə¬niyyət Mərkəzinin rəhbəri Ağa Seyyid Əli Əkbər Ocaq- nejadm nəşrə yazdığı Ön Sözdə «Nəhcül-bəlağə»nin mötəbər və mübarək bir yazılı abidə kimi müxtəlif səpki¬ləri nəzərdən keçirilir, onun yaranma tarixi işıqlandırılır, quruluş xüsusiyyətləri açıqlanır. Müəllif Həzrət Əli əleyhis-salamm xütbə və kəlamlarını ehtiva edən ayrı- ayrı topluları, onlara yazılmış müxtəlif şərhləri təhlil edir, Azərbaycan dilinə tərcümə üçün nə səbəbdən məhz Şəril Rəzinin hazırladığı «Nəhcül-bəlağə»nin seçildiyini əsaslandırır. Orta əsrlər müəlliflərinin və müasir yazıçı¬ların Həzrət Əli əleyhis-salamm xütbə və kəlamlarının əhəmiyyəti barədə rəyləri diqqətlə təhlil edilir. Ön Sözdə fundamental tarixi əsərlərin tərcüməsi və şərhi ilə bağlı yer tapan metodoloji prinsiplər

həcminin qısalığına rəğmən onu müstəqil tədqiqat əsəri kimi səciyyələn¬dirməyə haqq verir. Həqiqətən nəşrə yazılmış Ön Söz öz sanbalı, siqləti, metodoloji cəhətdən tutarlılığı ilə diqqəti cəlb edir və «Nəhcül-bəlağə»nin tərcüməsi və şərhinə dair yığcam bir əsər kimi qiymətləndirilə bilər.

Bir məsələyə də toxunmaq istərdim. Kimsə fikirləşə bilər ki, görəsən, bu gün, bizim indiki zəmanədə «Nəh- cül-bəlağə»nin Azərbaycan dilinə tərcüməsi nə əhəmiyyət kəsb edir? Mən bu əhəmiyyəti hər şeydən əvvəl «Nəhcül- bəlağə»nin İslam fikri tarixində yeri ilə əlaqələndirmək istərdim. Həqiqətən Həzrət Əli əleyhis-salamın xütbələri, məktubları və hikmətli kəlamlarında hər bir müsəlmanı maraqlandıran ən ümdə din məsələlərinə dair dolğun məlumat vardır. Digər tərəfdən, «Nəhcül-bəlağə» Həzrət Əli əleyhis-salam haqqında, onun şəxsiyyəti, fəzilətləri, bəlağət və fəsahəti, elmi barədə biliklərimizi zənginləş¬dirməyə, daha dolğun bilik hasil etməyə imkan verən fundamental bir əsərdir. Natiqlik məharətinə nə dərəcədə malik olursansa-ol, nə səviyyədə elmi, dini, fəlsəfi təhsil alırsansa-al, Həzrət Əli əleyhis-salamm fəzilət və üstün¬lüklərindən söz açmaq çətindir, çünki belə bir nəhəng fikir dühası haqqında danışmaq kimi böyük cəsarət tələb edən bir işdə dil acizlik göstərir, bilik naqislik nümayiş etdirir. İslam fikri tarixində yüksək məqam sahibi sayılan İbrahim ibn Səyyar ən-Nəzzam (vəfatı - 836) Həzrət Əli əleyhis-salamm şəxsiyyəti haqqında bir söz deməyi insan üçün imtahan kimi bir şey hesab etmişdir. Belə olan təqdirdə bu əzəmətli şəxsiyyətin bəlağəti, elmi, fikri, dilinin zənginliyi, nitqinin yığcamlığı, səlisliyi, anlaşıq- lılığı, təmizliyi haqqında ən gözəl biliyi onun xütbələrin¬dən, məktub və kəlamlarından almaq olar. Tərcüməni oxuduqca şirkdən uzaq müvəhhidlər ailəsində dünyaya gələn, Allah - sübhanahu və təalamn qarşısıalınmaz istə¬yinə əsasən Peyğəmbərin (səllallahu əleyhi və alih) yanında tərbiyə alan, böyüyüb boya-başa çatan, ondan bir an d'1 olsa ayrılmayan, Peyğəmbərə (səlləllahu əleyhi və alih) həm ən yaxın qan qohumluğu, həm də kürəkənlik qohumluğu ilə qohum olan Həzrət Əli əleyhis-salamm Peyğəmbər məktəbindən çıxdığını, imanında sabit, yəqinliyində sal qayalardan da möhkəm olduğunu hiss edirsən, duyursan ki, Əli əleyhis-salam həqiqətən Peyğəmbər hikmətinin qapısı, Peyğəmbər elminin xəzinadarı olmuşdur.

«Nəhcül-bəlağə» bir daha sübut edir ki, Peyğəmbər (səlləllahu əleyhi və alih) Həzrət Əli əleyhis-salamın Qur'an elmlərinə və şəriətə dair biliklərini

yüksək qiymətlən¬dirəndə, onu «bu ümmətin ən çoxbiləni» adlandıranda, nə qədər uzaqgörən olmuş, bu uzaqgörənliyi səmadan ilhamlanaraq almışdır. Xəlifəlik kürsüsünə əyləşən Həz¬rət Əli əleyhis-salam müsəlmanlar ona bey'ət edəndə başında Peyğəmbərin (s) əmmaməsi, çiynində Peyğəm¬bərin (s) əbası, belində Peyğəmbərin (s) qılıncı, ayaqla¬rında Peyğəmbərin (s) nəleyni məscidə gəlmiş, minbərə qalxıb demişdi: «Ey insanlar! Mən sizin aranızdan getməmişdən qabaq (Allahın kitabı barəsində bilmədiklərinizi) məndən soruşun...». İnsan gərək nə qədər bilikli olsun və özünə nə dərəcədə arxayın olsun ki, Allahın ecazkarlığı ilə ərəbləri mat-məəttəl qoyan, bəlağəti, fəsahəti, yığcamlığı ilə bənzərsiz olan Kitabı haqqında Peyğəm¬bərə (səllallahu əleyhi və alih) yoldaşlıq edən, Qur'ani- Kərimin nazil olduğu vaxtlarda onun yanında olan mötəbər səhabə arasında belə bir söz desin. Yalnız Həzrət Əli əleyhis-salamın belə bir cəsarətə haqqı vardı, çünki özünün də dediyi kimi, Allahdan savayı heç kəsin bilmədiyi qeyb elmindən başqa bütün elmləri Allah Öz Peyğəmbərinə (səllallahu əleyhi və alih) təlim etmiş, o da Əli əleyhis-salama öyrətmişdi, dua etmişdi ki, sinəsi bu elmləri qavraya, ehtiva edə bilsin. Peyğəmbər (səllallahu əleyhi və alih) ona göylərdən nazil olan mübarək ayələri əvvəlcə Əli əleyhis-salama oxuyur, ona imla edir, yaz¬dırır, tə'vil və təfsirini, nasix və mənsuxunu, möhkəm və mütəşabihini öyrədir, Allaha dua edirdi ki, onları fəhm etmək üçün Əli əleyhis-salama qüvvət versin. Əli əleyhis- salam da oxuduqlarını əzbər yadda saxlayır, bu mübarək ayələrin halal-harama dair hökmlərini, əmr və qadağan¬larını, olanlara və olacaqlara dair xəbərlərini bilirdi. Həzrət Əli əleyhis-salam bu barədə belə buyurmuşdur: «Allahm Rəsuluna (s) elə bir ayə nazil olmamışdı, Allah- təala ona halal-haram, əmr və nəhy, itaət və asilik, yaxud olmuş və ya olacaq barəsində elə bir şey öyrətməmişdi ki, o da onu mənə öyrətməsin, mənə oxutdurmasın, mənə imla etməsin və mən də onu öz xəttimlə yazmayım. O, bütün bunların tə'vilini, zahirini və batinini mənə xəbər vermiş, mən də yadda saxlamışam, sonra da ondan bir hərf belə unutmamışam». İlahi təqdirin sayəsindədir ki, Həzrət Əli əleyhis-salam dərin elmə, geniş biliklərə malik olmuşdur. Bir hədisdə Peyğəmbər (səllallahu əleyhi və alih) buyurur ki: «Mən Allahdan nə diləmişəmsə - verib... Ondan diləmişəm ki, səni mənim vəsim, varisim və elmimin xəzinədarı etsin, o da edib». Peyğəmbərin (səlləllahu əleyhi və alih) «Mən elm şəhəriyəm, Əli isə onun (şəhərin) qapısıdır - elm istəyən qapıya gəlsin» və «Mən elm şəhəriyəm, Əli isə onun (şəhərin) qapısıdır - şəhərə girmək istəyən qapıya

gəlsin» kimi kəlamları Həzrət Əli əleyhis-salamm Peyğəmbər elminə varisliyindən xəbər verir. Həzrət Əli əleyhis-salam bu barədə belə deyir: «Allahın Rəsulu (s) halal-haram, olanlar və Qiyamət gününədək olacaqlar barəsində mənə min növ (bilik) öyrətmişdir ki, hər biri min növ biliyə qapı açır və hər qapı min-min biliyə yol göstərir, ta ki, əcəl və (bəndələri imtahana çəkmək üçün) olacaqlar elmini (ilmül- mənaya vəl-bəlaya) və fəsahəti öyrəndim».

İmam əleyhis-salam Peyğəmbərdən (səllallahu əleyhi və alih) aldığı bilikləri ətrafmdakılara öyrədir, Qur'ani-Kə- rimin ayrı-ayrı ayələrinin mənasını açıqlayırdı. Onun bir təfsiri öz məna dərinliyi və konkretliyi baxımından diqqəti xüsusilə cəlb edir. Əleyhis-salam bir nəfər müsəl¬manın Qur'ani-Kərimin «İnna lillahi və inna ileyhi raci- un» (Bəqərə, 156) ayəsini oxuduğunu eşidib dedi: «Bizim «inna lillahi» deməyimiz Allahın padşahlığını etiraf etməyimizdir, «inna ileyhi raciun» deməyimiz isə həlak olacağımızı iqrar etməyimizdir» (Nəhcül-bəlağə, Əmirəl- möminin əleyhis-salamın hikmətli kəlamları, 95).

Həzrət Əli əleyhis-salam Qur'ani-Kərimə dair biliklərini bilavasitə Peyğəmbərin (səllallahu əleyhi və alih) özündən almış, ona ən yaxın adam olmuş, onun işlərində yaxından iştirak etmiş, davranış və hərəkətlərinin şahidi olmuşdur. Peyğəmbər (səllallahu əleyhi və alih) aldığı vəhy¬lərin mənasını hamıdan əvvəl ona açıqlamışdır. Məhz buna görə Əli əleyhis-salamm «Allahm Kitabı barəsində məndən soruşun, çünki elə bir ayə yoxdur ki, onun gecə və ya gündüz, aranda və ya dağda nazil olduğunu bilməyim» - deməyə tam haqqı vardı. Şeyx Müfidin (vəfan - 1022) yazdığına görə, «Əmirəl-möminin əleyhis- salam nazil olan Qur'anı əvvəlindən axırma kimi cəm etmiş, vacib olduğu şəkildə yazmış, Məkkə ayələrini Mədinə ayələrindən, nəsx edilmiş ayələri nəsx edən ayə¬lərdən qabağa çəkmiş, oradakı hər şeyi öz yerinə qoy¬muşdun).

İmam Əli əleyhis-salamm bəzi kəlamları öz məna yü¬künə, yığcamlığına və bəlağətinə görə minilliklərdən ke¬çə-keçə cilalanaraq gələn, bitkinləşən, ibrətamiz məzmun kəsb edən, gözəl vəznə və qafiyəyə malik olan atalar sözləri kimi səslənir. «Təxəffəfu təlhəqu» - «Yüngülləşin - yetişərsiniz)) deyən İmam əleyhis-salam müsəlmanlara günah yükündən yüngülləşmək və bu yolla əməlisaleh- likdə onları ötüb keçmiş qardaşlarına yetişmək tövsiyə edir. İmam əleyhis-salamm «Allahı tanıyanın mərifəti kamil olar», «Allahı tanıyan bədbəxt olmaz» kimi kə¬lamları bu gün də aktuallığını qoruyub

saxlayır.
Bu gün oxuculara təqdim olunan kitab bu cür təfsir¬lərin, xütbələrin, ibrətamiz kəlamların toplusu olan «Nəhcül-bəlağə»nin tərcüməsidir. Tərcümə, həqiqətən gözəl alınmışdır. Mütərcimlər hikmətli kəlamların, çətin atalar sözlərinin, mürəkkəb idiomatik ifadələrin Azər¬baycan dilində münasib qarşılığını tapa bilmiş, fars dilində ifadə edilmiş məzmunu Azərbaycan dili vasitəsilə gözəl ifadə edə bilmişlər. Mətnin mənaca tam dəqiqliyi və emosional-ekspressiv çalarları qorunub saxlanılmışdır. Təbiidir ki, bütün müsbət məziyyətləri ilə yanaşı, «Nəhcül-bəlağə)> kimi iri həcmli bir əsərin Azərbaycan dilinə tərcüməsində müəyyən xətalar, düzgün seçilməmiş ifadələr, kifayət qədər cilalanmamış cümlələr, bir qədər qeyri-səlis görünən bəzi məqamlar da olmalıdır. Başqa cür ola da bilməzdi. İmam Əli əleyhis-salamm xütbə¬lərini, məktub və kəlamlarını başqa bir dilə tərcümə etməyə girişən hər kəs qabaqcadan bilməlidir ki, ucu- bucağı olmayan bir dəryaya girir və mütəxəssislər onun gördüyü işdə qüsur, mübahisəli məqamlar axtarıb tapa biləcəklər. Lakin əlimizdə olan tərcümənin müsbət cəhət¬ləri onun xətalarından qat-qat çoxdur. Hər şeydən əvvəl yeni nəşr minlərlə Azərbaycan oxucusuna İslamı, İslam adət-ənənələrini, İslam əxlaqını, erkən İslam dövrünün tarixi hadisələrini, Həzrət Əli əleyhis-salamm şəxsiy¬yətini, görüşlərini, hadisələrə yanaşma tərzini daha yaxşı başa düşməyə imkan verəcəkdir. «Nəhcül-Bəlağə»nin əlimizdə olan bu tərcüməsi bu vaxta qədər Azərbaycan oxucusunun sərəncamında olan tərcümələrdən ən mü¬kəmməli və oxunaqlısıdır. Tərcümənin nəşrinə uğurlar diləyir və yaxın zamanlarda onu kitab şəklində oxuya biləcəyimizə ümid edirəm.

Vəs-Səlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

Şeyxülislam Allahşükür Paşazadə

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Tarix elmləri doktoru, professor

Nəhcül-bəlağə, Nurlar, Bakı, 2009, səh. XII-XLII

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

اَلْحَمدُ لِلّهِ الذِّى تَجَلّي بِاَسْمائِهِ فِى مَجْلي أولِيائِهِ وَ أظْهَرَ صِفاتَهُ فِى مَظْهَرِ أصْفِيائِهِ وَ أهْدي خَلائِقَهُ بِظُهُورِ أنْبِيائِهِ ثُمَّ الصَّلوةُ وَ السَّلامُ عَلي أشْرَفِ سُفَرائِهِ وَ أفْضَلِ نُجَبائِهِ اِبى الْقاسِمِ مُحَمَّد الْمُصْطَفي وَ عَلي آلِهِ سِيَّما بْنِ عَمِّهِ عَلِيٍّ الْمُرْتَضي الَّذِينَ جَعَلَهُمْ حُجَجاً عَلي عِبادِهِ وَ مَناراً فِي بِلادِهِ وَ أدِلّاءَ عَلي صِراطِهِ وَ اللَّعْنَة عَلي أعْدائِهِمْ إلى يَوْمِ لِقائِهِ

Varlıq aləminin bənzərsiz, qadir və uca yaradanı yaratdıqları içərisində Özü üçün insan cinsindən canişin təyin etmək istəyəndə adları öyrətmək, əşyaların sirlərini əta etmək və uca məqamlara qaldırmaqla onu elə əziz və hörmətli tutdu ki, belə bir varlıq yaratdığı üçün fəxr etdi və özünü «əhsənül-xaliqin» adlandırdı, hətta mələklərə ona səcdə etmələrini əmr etdi və onu mələklərin səcdə¬sinə layiq bildi. Bəşəriyyətin atası Adəm əleyhis-salam yer üzünə gəlməklə Allahın həmin xəlifəsinin ən kamil və tam nümunəsi kimi peyğəmbərlər və övliyalar silsiləsinin başlanğıcı oldu. Ondan sonra Şis, İdris, Nuh, İbrahim və bəşər tarixinin digər müqəddəs simaları bu nurani sil¬siləni davam etdirdilər. Nəhayət, bütün varlıqlar, xüsu¬silə insan cinsi peyğəmbərlər və övliyaların zühurlarının və ilahi maarifin nazil olmasının tədrici və müqəddimə mərhələsini arxada qoyduqdan sonra ən kamil hökmlər və ilahi maariflə birgə peyğəmbərlərin ən üstünü və övliyaların başçısı Məhəmməd Mustafanın (səllallahu əley¬hi və alih) zühurunun şahidi olmaq ləyaqəti tapdı. Həmin zaman bəşəriyyətin istedadı peyğəmbərlərin ən kamilinin və ilahi elçilərin ən üstününün nurundan bəhrələnməyi, əbədi

möcüzə və kamil ilahi səhifəni əldə etməyi tələb etdiyi kimi, canişin və övliyaların da ən kamil və üstü¬nünün məhzərindən, eləcə də onun tək olan Allahın kəlamının cilvəsi olan nurani kəlamından bəhrələnməyi tələb edirdi.

Əli - parlaq sima

İslam elmləri tədqiqatçılarına və ilahi dinlərin maarifindən xəbərdar olanlara, hətta bəşər tarixinin ilahiyyat mənbələri və mətnlərinə maddi çərçivədən baxan hər bir şəxsə Əmirəl-möminin imam Əli ibn Əbu Talib əleyhis-salamın özünəməxsus şəxsiyyətə malik olması məlumdur. Belə ki, İslam peyğəmbəri Həzrət Məhəmməd ibn Abdullahdan (səllallahu əleyhi və alih) sonra övliyalar və ilahi şəxsiyyətlərdən heç kəs vücudunun əzəmət və genişliyi baxımından ona çatmaz. İlahi dinlərin mənbələ¬rindən məlum olur ki, onun zühuru və son peyğəmbərin canişini olması məsələsi əvvəlcədən xəbər və müjdə verilmiş məsələlərdəndir. İmam Əli əleyhis-salam maddi aləmə qədəm qoyduqdan sonra, dünyaya gəlməsinin ilk vaxtlarından hamının diqqət mərkəzində olub və daha sonralar özünün parlaq həyatı boyu elə heyrətləndirici cazibə və əzəmətə malik olub ki, bütün qəlb və nəzərləri özünə cəlb edib, bəşəriyyəti öz vurğunu edib. Bəli, insan və insanlıq o Həzrətin dünyəvi həyatından min neçə yüz il keçməsinə baxmayaraq, hələ də təəccüb və heyrətlə onun vücudunun əzəmət və kamilliklərinə vurğunluqla tamaşa edir. Bəşər tarixinin müxtəlif dövrlərində, bir çox alim və tədqiqatçılar özlərinin imam Əliyə olan hədsiz sevgiləri nəticəsində onun vücudunun məhəbbət doğuran minlərlə sirlərindən birini açmaq üçün qollarını çırmayıblar, eşq və sevgi ilə onu tanımaq və dərk etmək yoluna qədəm qoyublar. Lakin sonda əvvəlkindən daha artıq heyranlıqla ağıl və eşqi onu tanımağın uca zirvəsinə çatmaqda aciz görüblər və ancaq aşiqanə şəkildə onu vəsf etməyə başlayıblar. Bəzən də həmin şəxslər o Həzrətin dünya həyatının heç olmasa bir anını görmək arzusunu ürəklərinə salıblar. Həqiqətən də imam Əli əleyhis-salamn şəxsiyyəti heç vaxt bəşəriyyətin seçilmiş və dahi şəxsiyyətləri ilə müqayisə edilməməlidir. Bu parlaq sima və nurlu günəş ancaq bəşər tarixinin müqəddəsləri, peyğəmbərləri və övliyaları ilə müqayisə edilməlidir ki, onun peyğəmbərlərin sonuncusu Məhəmməd ibn Abdullahdan (səllallahu əleyhi və alih) başqa hamıdan üstün olması dərk

edilsin. Hərçənd ki, o, peyğəmbər olmayıb və peyğəmbərlərin sonuncusundan sonra heç bir peyğəmbər göndərilməyəcək.

Əsl örnək

İnsanın tərbiyə və təşəkkülündə örnəklərin rolu tamamilə aşkar məsələlərdəndir və bu gün insanın tərbiyəsi ilə məşğul olan elmlərdə və onun müxtəlif qollarında örnəyin təsir və zəruriliyi tamamilə sübuta yetirilib. Peyğəmbərlər və övliyalar bəşər tarixində həmişə kamil örnək kimi öndə olublar. Peyğəmbərlərdən hər biri ilk növbədə öz ümmətləri, sonrakı mərhələdə isə özlərindən sonrakı bütün gələcək nəsillər üçün kamil örnək və hərtərəfli nümunədirlər. Qur'ani-Kərim bu məqsədlə peyğəmbərlərin və övliyaların əhvalatlarından müxtəlif dastanlar nəql edir və Həzrət İbrahim əleyhis-salamı tam aşkar şəkildə örnək və nümunə kimi təqdim edir. Peyğəmbərlərin sonuncusu Həzrət Məhəmməd (səllallahu əleyhi və alih) ən kamil sifətlərə malik olduğu və kamil insanın vücudunda varlığı mümkün olan bütün fəzilət və üstünlükləri bir yerə topladığı üçün xüsusi imtiyaza malikdir və Allah-təala Əhzab surəsinin 21 ci ayəsində onu gözəl nümunə və kamil örnək adlandırmışdır. «Həqiqət ən Allahın "əmbərində (onun həyatında) sizin üçün gözəl nümunə və örnək vardır.») Əqlə və nəql edilmiş rəvayətlərə, eləcə də vücudunun nişanələrinə əsasən Əli əleyhis-salam Həzrət Məhəmmədin (səlləllahu əleyhi və alih) kamil tərbiyə etdiyi yeganə varlıqdır. O, Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) ilə bir kökdəndir. İmam Əli əleyhis-salam dünyaya gəldikdən sonra uşaqlıq dövründən Peyğəmbərin qucağında böyüyüb, o Həzrətin əlindən yemək alıb yeyib və onun həyatının son anlarına kimi yanında olub. O, Həzrət Peyğəmbərin (Ali İmran surəsinin 61-ci ayəsində deyildiyi kimi: «gəlin biz də öz oğullarımızı siz də öz oğullarınızı, biz də öz qadınlarımızı siz də öz qadınlarınızı, biz də öz canlarımızı siz də öz canlarınızı çağıraq») canı kimi həmişə yanında olub (və bütün müsəlmanların yekdil nəzərinə əsasən həmin ayədə oğul, qadın və canlar sözlərinin mənası Həsən, Hüseyn, Fatimə və Əli əleyhimus- salamlardır). Və Həzrət Peyğəmbərin vəfatından sonra Əli əleyhis-salamm bütün rəftar, danışıq və əzəməti onu ilk növbədə İslam və müsəlmanlara, sonra isə bütün bəşəriyyət üçün Allahın Peyğəmbərinin əvəzsiz nümunəsi etmişdir.

Fəzilətlər toplusu

İmam Əli əleyhis-salamm fəzilətləri barəsində danışmaq son dərəcə çətindir. Bütün İslam firqələrindən olan alimlərin, tədqiqatçıların və hədis rəvayətçilərinin, hətta qeyri-İslami müəlliflərin o Həzrət əleyhis-salam barəsində müxtəlif kitablar yazmalarına baxmayaraq, onların hər biri öz növbəsində İmamın lazımınca tanınması və vəsf edilməsində aciz qaldıqlarını bildirmiş və öz naqisliklərini etiraf etmişlər. Lakin bu müqəddimədə o Həzrətin fəzilət və əzəməti barəsində bəzi nöqtələrə işarə etmək zəruri olduğu üçün məşhur «bütövlükdə əldə edilə bilinməyən şey bütövlükdə tərk edilməməlidir»[1] məsələnə əsasən «Nəhcül-Bəlağə»nin məşhur şərhçisi, yeddinci əsrdə yaşamış böyük İslam alimi, İbn Əbil Hədid Mö'təzili adı ilə tanınmış və 656 h.q. ilində vəfat etmiş İzzəddin Əbu Hamid Hibətullahın sözlərinin bir hissəsini ixtisarla nəql edirik. Bəzi yerlərdə isə bu İslam aliminin sözlərini təsdiq etmək üçün mötərizədə İmam Əli əleyhis-salamın kəlamlarından və ya başqalarından sitatlar gətirəcəyik. O, «Nəhcül-Bəlağə»nin şərhinin müqəddiməsində deyir:

Əli əleyhis-salamm fəzilətləri elə çox, məşhur və əzə-mətlidir və hər yerdə elə yayılıb ki, onları sadalamaq və onları müfəssəl şəkildə izah etmək mümkün deyil. Qısası, o Həzrətin vəsfi və fəzilətlərinin bəyan edilməsi kiminsə gündüz çağı hamıya məlum olan günün işıqlılığmdan və ya aylı gecədə aym işıq saçmasından danışmaq istəməsinə bənzəyir. Mən yəqinlik əldə etdim ki, o Həzrətin mədhi barəsində söz danışmaq hər nə qədər kamil olsa belə, yenə də mənim söz danışmaqdakı acizliyimi və sözlərimin son həddən aşağı olmasını göstərir. *(Necə ki, Əli əleyhis-salam özü «Nəhcül-Bəlağə»nirı üçüncü xütbəsinin əvvəlində buyurur: «sellər (elm və maarif selləri) məndən axır və heç bir quşun mənim kamillik zirvələrimə uçmaq qüdrəti yoxdur.»)* Buna görə də çıxış yolunu bunda gördüm ki, o Həzrəti mədh etmək və tərifləməkdənsə, ona dua etməyə üz tutum və fəzilətlərini nəql etmək əvəzinə bunu ümumi camaatın onun barəsində bildiklərinə həvalə edim.

İndi mən hətta düşmənləri belə fəzilətlərini etiraf etdikləri bir şəxs barəsində nə deyim? Düşmənləri onun fəzilətlərini inkar və ört-basdır edə bilmədilər,

halbuki bildiyiniz kimi Bəni Ümməyyə dünyanın şərq və qərbində şahlıq edib və var gücü ilə və bütün hiylə və kələyi ilə Əli əleyhis-salamm fəzilətlərinin çırağını söndürməyə çalışıb. Onlar camaatı o Həzrətə qarşı qıcıqlandırırdılar və özlərindən onun barəsində müxtəlif nöqsanlar və çirkin iftiralar uydururdular, bütün minbərlərdə ona lənət oxuyurdular, onu tərifləyənləri nəinki hədələyir, hətta zindana salır, bir dəstəni isə öldürürdülər. O Həzrətin fəziləti barəsində olan və ya zehinlərdə onun xatirəsini canlandıran hər hansı bir rəvayətin nəql edilməsinin qarşısını alırdılar. Hətta o yerə kimi ki, uşaqlara Əli adının qoyulmasına mane olurdular. Bütün bunlara baxmayaraq, onun ad və xatirəsi nəinki unudulmadı, bəlkə əksinə, məqamının ucalıq və aliliyini daha da artırdı, üstünü örtsələr də gözəl ətri hər yeri bürüyən və ürəyə yatan iyi hər tərəfə dağılan müşk-ənbər kimi oldu, əl və pəncələrin gizlədə bilmədiyi günəş və saysız gözlərin görməsinə baxmayaraq, korun görə bilmədiyi gündüz kimi oldu Əli! Mən bütün fəzilətlərin mənbəyi, bütün fırqələrin dayaq nöqtəsi olan və hər bir tayfanın özünü nisbət verdiyi şəxs barəsində nə deyim? O bütün fəzilətlərin başı, mənbəyi, fəzilətlər meydanının yeganə adamı və qabaqcılıdır. Bütün fəzilətlərin meyarı odur. Ondan sonra kim bir nur tapıbsa ondan işıq alıb, ona tabe olub və onun yoluna qədəm basıb.

İlahi tovhid elminin mənbəyi

Çox yaxşı bilirsiniz ki, elmlərin ən şərəflisi Allah barəsində olan elmdir. Çünki hər bir elmin şərəfi onun mövzusunun nədən ibarət olmasından asılıdır. Allah barəsində olan elm bütün elmlərdən şərəflidir. Ona görə ki, Allah bütün varlıqlardan şərəflidir. Allah barəsində olan elm Əli əleyhis-salamın sözlərindən iqtibas olunub və ondan nəql edilib. Allah barəsində olan elm və maarifin bütün yollarının başlanğıcı ondandır və onunla da sona çatıb. *(Məsələn, «Nəhcül-Bəlağə»nin birinci xütbəsində tovhid və Allah barəsində elm haqqında o qədər böyük və heyranedici mətləblər var ki, böyük filosof və ariflər deyiblər ki, əgər bütün filosoflar, mütəfəkkirlər, ariflər və tədqiqatçılar bir yerə toplaşsalar, İmam əleyhis-salamın həmin xütbədəki təkcə «Hər şeylə birlikdədir, amma yanaşı olmadan; hər şeydən fərqlidir, amma onlardan kənar, ayrı deyil» cümləsinin dərinliyini dərk edə bilməzlər.)* Tovhid və ədi əhli olan, bu iki məsələdə nəzər sahibi olan və

başqalarının bu iki məsələni onlardan öyrənmiş olduğu mö'tə- zilə hamılıqla o Həzrətin şagird və səhabələrindəndir.

Amma əş'ərilər də özlərini imam Əli əleyhis-salama nisbət verirlər. İmamiyyə şiələri və zeydilərin də o Həzrətə mənsub olmaları tamamilə aşkar və aydındır.

Fəqihlər ustadı

İlahi elmlərdən digəri də fiqh elmidir ki, Əli əleyhis-salam onun əsas və təməlidir. İslamda hər bir fiqh alimi onun tikəsini yeyir və onun fiqhindən bəhrələnir. Əhli- sünnənin dörd fəqih və imamının hamısı Əbu Hənifənin şagirdidirlər və onun özü İmam Cə'fər ibn Məhəmməd Sadiq əleyhis-salamm şagirdidir. İmam Sadiq əleyhis- salam atası imam Baqir əleyhis-salamm, o da atası imam Səccad əleyhis-salamm, o, atası İmam Hüseyn ibn Əli əleyhis-salamın və İmam Hüseyn əleyhis-salam İmam Əli ibn Əbu Talib əleyhis-salamm şagirdidir və bu silsilə İmam Əli əleyhis-salama gəlib çatır. Şiə fiqhinin mənşəyinin İmam Əli əleyhis-salam olması aşkar bir məsələdir və bu barədə dəlil-sübut gətirməyə ehtiyac yoxdur. Hamıya məlumdur ki, səhabələrin fiqh elminə ən yaxşı bələd olanı İbn Abbasdır. O da Əli əleyhis-salamm xüsusi şagirdlərindəndir.

Bütün firqələr Peyğəmbərdən belə bir kəlam nəql ediblər ki: «Sizin aranızda qəzavət elminə ən yaxşı bələd olan Əlidir.[2] Qəzavət elə həmin fiqh elmidir. Bu hədisə əsasən Əli əleyhis-salam Peyğəmbərin səhabələrinin fiqh elminə ən yaxşı bələd olanıdır. Hamı rəvayət edir ki, Peyğəmbər Əli əleyhis-salamı qəzavət etmək üçün Yəmənə göndərəndə belə buyurmuşdur: «Pərvərdigara, onun qəlbini hidayət və dilini sabit et.» Əli əleyhis-salam da deyərmiş ki: «Ondan sonra heç vaxt iki nəfər arasında qəzavət edən zaman şəkk və tərəddüd etmədim.» Bəli, o Əli idi ki, minbərdə olanda bir qadının irs payı barəsində ondan sual soruşan şəxsin cavabında dərhal «irsin səkkizdə biri doqquzda birə çevrilir» buyurdu. *(Məsələ belə idi ki: bir kişinin atası, anası, iki qızı və arvadı ondan irs aparırdı. Həzrət qadının irsinin miqdarı barəsində sual soruşanın cavabında arvadın səkkizdə bir olan payının bu təqdirdə doqquzda birə çevrilməsini buyurur. Bəzi fiqh alimləri bunu*

«عول»[3].[1] «aul»un nümunələrindən sayıblar. Yəni onlar məcburdurlar ki, irsin hamısını iyirmi yeddi yerə bölsünlər. Onun on altı payını iki qıza, səkkiz payını ata ilə anaya və iyirmi yeddi payın doqquzda biri olan üç payını arvada versinlər.) Bu elə bir məsələdir ki, irs və onun bölüşdürülməsində mütəxəssis olan şəxs, haqqında uzun müddət düşündükdən sonra onun doğruluğunu dərk edə bilər. İndi sən onun barəsində fikirləşmədən dərhal cavab verən şəxs haqqında nə düşünürsən?!

Təfsir alimlərinin müəllimi

Elmlərin digər biri də təfsir elmidir. Bu elmdə hər nə varsa Əli əleyhis-salamdandır. Əgər təfsir kitablarına müraciət olunsa bu sözün doğruluğu təsdiqlənər və məlum olar ki, təfsirin ən əsas kökləri o Həzrətdən və Abdullah ibn Abbasdan nəql edilib. Hamı bilir ki, Abdullah ibn Abbas həmişə Əli əleyhis-salam ilə birgə olub və onun şagirdlərindəndir. İbn Abbasa «sənin elminin miqdarı əmin oğlu Əli əleyhis-salamın elmi ilə müqayisədə nə qədərdir?» deyiləndə cavab verib ki: sahilsiz dənizə düşən yağışın bir damcısı qədər.

İrfan mənbəyi

İlahi elmlərindən digər biri də məslək, həqiqət və hal elmi olan irfan və sufilikdir. Çox yaxşı məlumdur ki, bütün İslami torpaqlarda bu elmin əhli öz silsilələrini o Həzrətə nisbət verirlər. Bu elmin Şebli, Cüneyd, Səri Səqti, Əbu Yezid Bəstami, Əbu Məhfuz Mə'ruf Kərxi və digər böyük şəxsiyyətləri hamılıqla bu elmin mənbəyinin o Həzrət olmasını bildiriblər. Sufilər və irfan əhlinin bu günə kimi ən mühüm əlamətləri olan cod bez paltar geyinmək bu barədə tutarlı dəlildir. Çünki onlar bu məsələni Əli əleyhis-salama nisbət verirlər.

Ərəb dili elmlərinin banisi

Himlərdən digər biri ərəb dilinin kökləri və sintaksisidir və hamı bilir ki, onu Əli əleyhis-salam ixtira edib, qaydalarını açıqlayıb və Əbul Əsvəd

Duvəliyə diktə edib. O cümlədən İmam əleyhis-salam bu elmin əsasları barəsində əvvəldə belə buyurmuşdur: kəlmə üç növdür - isim, fel və şəkilçi. Kəlmə ya məlum olur ya da məchul. Əlamətlər dörddür: zəmmə, fəthə, kəsrə və sükun. Bu cür bölgü aparmaq və tərif demək möcüzəyə yaxın bir şeydir. Çünki insanın qüvvəsi adi yolla bu cür dəqiq bölgülər aparmağa qadir deyil və belə nəticələr əldə edə bilməz.

Qiraət elminin müəllimi

Əli əleyhis-salamm Qur'anı qiraət etməsi və bu müqəddəs kitabla məşğul olması barəsində hamı yekdildir və bütün İslam firqələri Əli əleyhis-salamm Peyğəmbərin (səlləllahu əleyhi və alih) zamanında Qur'anı hamıdan əvvəl əzbərləməsi və o Həzrətdən başqa heç kəsin Qur'ani əzbər bilməməsi barəsində vahid fikirdədirlər.

Əgər qiraət kitablarına müraciət olunsa məlum olar ki, qiraət elminin başçılarının hamısı ona söykənir. Məsələn, qiraət elminin başçılarından olmuş Əbu Əmr ibn Əla və Asim ibn Əbi Nəcud və başqalarının qiraəti Əbu Əbdürrəhman Süləmi Qaridən götürülüb və o, Əli əleyhis-salamm şagirdi olub, Qur'anı ondan öyrənib. Bu elm də əvvəldə qeyd etdiyimiz bir çox digər elmlər kimi o Həzrətə söykənir.

Əgər Əli əleyhis-salamın əxlaqi xislətlərinə ruhi və dini fəzilətlərinə nəzər salsan onu çox nurani, parlaq və şərafət zirvəsində görəcəksən.

Şücaətli qəhrəman

İmam Əlinin şücaəti elə həddədir ki, o özündən qabaqkı bütün qəhrəmanların adını camaatın zehnindən silib və ondan sonrakı qəhrəmanların hamısı onun müqabilində adlarının çəkilməsinə layiq deyildirlər. Onun müharibələrdəki şücaət və müqaviməti elə məşhurdur ki, qiyamətə kimi bu barədə ondan məsəl kimi istifadə ediləcəkdir. O elə bir pəhləvandır ki, düşmən qarşısından heç vaxt qaçmayıb və heç bir qoşundan qorxusu olmayıb. (Necə ki, «Nəhcül-Bəlağə»nin 45-ci məktubunda buyurur: Allaha and olsun ki, əgər bütün ərəblər mənə qarşı müharibə etməyə birləşsələr onların qabağından

qaçmaram.») Həmçinin vuruş-duğu hər bir kəsi öldürüb və heç vaxt ikinci zərbəyə ehtiyacı olan bir zərbə vurmayıb. Hədisdə deyilir: «Onun zərbələri həmişə tək və bir olub.» Əli əleyhis-salam Müaviyəni camaatın onlardan birinin öldürülməsi ilə müharibədən can qurtarması üçün təkbətək döyüşə dəvət edəndə, Əmr ibn As Müaviyəyə dedi: Əli insaflı söz danışıb. Əmr ibn Asm məqsədi budur ki, Əli ilə təkbətək vuruşmağı qəbul et. Müaviyə dedi: indiyə kimi mənə nə qədər məsləhət vermisənsə, bircə bu gündən başqa heç vaxt mənə xəyanət etməmisən. Mənə Əbulhəsən ilə təkbətək döyüşə getmək göstərişi verirsən, halbuki bilirsən ki, o başı bədəndən ayıran bir qəhrəmandır. Deyəsən sən məndən sonra Şama başçı olmağa göz dikmisən və buna görə məni ölümün ağzına göndərirsən. Ərəb döyüşdə onunla üz-üzə gələrək tab gətirə bilməsi ilə öyünür, onun əli ilə öldürülmüş şəxslərin qohum-əqrəbaları həmin şəxsin Əlinin tərəfindən öldürülməsi ilə fəxr edirlər. Bu barədə fəxr edərək öyünənlər az deyil. Ərəbin məşhur pəhləvanı Əmr ibn Əbdəvud Əhzab mühari-bəsində Əlinin əli ilə öldürüldükdən sonra, onun bacısı qardaşı üçün oxuduğu mərsiyədə belə deyib: «Əgər Əmri Əlidən başqası öldürmüş olsaydı həmişə nə qədər ki, sağam ona ağlayardım. Bəli, onu bənzəri olmayan və atası Məkkənin şərəfi olan bir şəxs öldürüb.»

Xülasə, bu dünyada hər bir qəhrəman və şücaət sahibinin igidliyi Əli şücaətindən bir damcıdır və dünyanın şərqində və qərbində şücaət ilə vəhdətdə səslənən ancaq Əlinin adıdır.

İlahi güc

Onun qol və biləginin gücü də dillərdə dastandır. İbn Quteybə «Əl-Məarif» kitabında deyir: O əlbəyaxa olduğu hər bir kəsin kürəyini yerə vurub. Xeybər qapısın: yerindən Əli çıxara bildi və qapı yerindən qopardıldıqdan sonra bir dəstə adam gəlib onu arxaya çevirmə?, istədi, lakin bacarmadı. Bütün böyüklük və ağırlığın . baxmayaraq, Hubəl adlı bütü Kə'bənin üstündə yerində - qopararaq atan Əli idi. O, Əli idi ki, xilafəti dövrünü - bütün qoşunun yerindən qoparmaqda aciz qaldığı da> təkcə öz əli ilə yerindən çıxartdı və həmin daşın altından su çıxaraq axmağa başladı.

Səxavət mədəni

Əli əleyhis-salamm səxavət və əliaçıqlıqdakı vəziyyəti də məlumdur. O oruc tutar və aclıqdan zəifləməsinə baxmayaraq, yenə də öz azuqə və xörəyini başqasına verərdi necə ki, İnsan surəsinin səkkiz və doqquzuncu ayələri onun barəsində nazil olub və buyurur: «Özlərinin ehtiyacları olduğu halda təamı miskin, yetim və əsirə yedirdərlər. Sizi ancaq A xatirinə yedirdirik və sizdən nə əvəz istəyirik və nə təşəkkür.» Təfsir alimlərinin hamısı nəql ediblər ki, Əli ək; salamın dörd dirhəmdən artıq pulu yox idi. O, həc pulun bir dirhəmini gecə, bir dirhəmini gündü, dirhəmini gizlin və bir dirhəmini aşkar sədəqə verd onun barəsində Bəqərə surəsinin iki yüz yetmiş dördüncü ayəsi nazil oldu. Həmin ayədə deyilir: «öz mallarını gecə və gündüz və gizlin və aşkar sərf edənlər» Əmirəl-möminin Əli əleyhis-salamm öz dilindən nəql edilib ki, o özü quyudan su çəkib Mədinə yəhudilərinin bir dəstəsinin xurma ağaclarını suvararmış. Belə ki, onun əli qabar bağlayarmış və bu işdən aldığı pulu sədəqə verərmiş və acından öz qarnına daş bağlayarmış. Bəni Mərvan dövlətinin hakimiyyəti zamanının bö-yüklərindən olmuş və Şə'bi adı ilə tanınan Amir ibn Şərahil Kufi Əlidən danışanda belə deyir: o hamıdan səxavətli idi. Onun Allahın sevdiyi bir xüsusiyyəti var idi və o, səxavət və əliaçıqlıqdır. O, ehtiyacı olan yoxsula heç vaxt «yox» cavabı vermədi. Hətta onunla qatı düş¬mən olan və ona müxtəlif eyb və nalayiq əməllər nisbət vermək istiqamətində çox çalışan Müaviyə ibn Əbu Süfyan, Muhfən ibn Əbu Muhfən Zəbbi Əlidən ayrıla¬raq Müaviyəyə qoşulan zaman Əli barəsində «insanlarm ən xəsisinin yanından gəlmişəm» deyəndə Müaviyə dedi: Vay olsun sənə! Əlini insanların ən xəsisi necə adlan-dırırsan, halbuki əgər onun bir qızıldan və bir dənə də samandan evi olmuş olsa, qızıl evi saman evdən əvvəl bağışlayar və Allah yolunda sərf edər. Bəli, o Əli idi ki, evinin bütün var-yoxunu Allah yolunda paylayır və evi süpürüb orada namaz qılırdı. O, Əli idi ki, deyirdi: ey dünyanın qızıl-gümüşü! Məndən ayrısını aldadın. Əli idi ki, özündən sonra bir miras qoymadı, halbuki İslam dünyasının Şamın az bir hissəsi istisna olmaqla hamısı onun əlində idi.

Səbr və həlimlik dəryası

Əli səbr, həlimlik və günahdan keçmək baxımından da insanların ən çox güzəşt edəni, təqsirdən ən çox keçəni olub. Həmçinin onun barəsində pislik etmiş şəxsləri ən çox bağışlayan o olub. Misal üçün, Cəməl müharibəsində o

Həzrətə qarşı ən çox ədavət bəsləyən və kinli olan Mər- van ibn Həkəmə qalib gəldikdən sonra Mərvanı bağışlayaraq günahından keçməsini göstərmək olar. Abdullah ibn Zübeyr aşkar şəkildə və hamının hüzurunda Əli əleyhis-salamı söyürdü və Cəməl müharibəsində də çıxış edərək ona qarşı çox ədəbsizliklər etdi və dilinə nalayiq, çirkin sözlər gətirdi. Elə həmin müharibədə Əli Abdullaha qalib gəldi və onu əsir götürdü. Sonra onu bağışlayaraq dedi: get, bundan sonra səni görməyim. O Abdullaha bundan artıq bir şey demədi. Cəməl müharibəsindən sonra düşmənlərindən olan Səid ibnAsı ələ keçirdi və ondan üz döndərərək Səidə heç bir söz demədi.

Bəsrə əhalisi Əli ilə müharibə etdi və ona və övladlarına qarşı qılınc çəkdi. Onlar Əli əleyhis-salamı söydülər və ona nifrin etdilər. Amma Əli onlara qalib gəldikdən sonra onları bağışladı və göstəriş verdi ki, qoşunun carçıları qaçanın təqib edilməməsini, heç bir xəstə və yaralının başının kəsilməməsini, əsir almanın öldürülmə- məsini, öz silahını yerə qoyanın və həmçinin İmamın qoşununa qoşulanın amanda olacağını elan etsinlər. Əli əleyhis-salam bəsrəlilərin ona qarşı bütün düşmənçiliklərinə baxmayaraq, onların ev və mallarını əllərindən almadı, arvad-uşaqlarını əsir götürmədi, var-dövlətlərin- dən heç nəyi qənimət kimi əlinə keçirmədi. Halbuki əgər istəsəydi bütün bunları edə bilərdi. Amma o əfv edərək bağışlamaqdan başqa bir iş görmədi və Peyğəmbərin (səl-lallahu əleyhi və alih) Məkkənin fəthində etdiyi sünnəyə tabe oldu. O bağışladı, amma (ona qarşı olan) kinlər sönmədi və pisliklər unudulmadı.

Siffeyn müharibəsində Müaviyənin qoşunu Fərat çayına İmamın qoşunundan tez çatmışdı. Onlar suyu ələ keçirdilər və oranı mühasirəyə aldılar. Şam qoşununun başçıları Müaviyəyə dedilər ki, Əlinin qoşununa su vermə və elə onları susuzluqla öldür. Əli əleyhis-salam və onun tərəfdarları Şam qoşunundan su götürmək üçün icazə istədilər. Şamlılar dedilər: Allaha and olsun ki, sizə bir damcı da olsun su verməyəcəyik ki, elə susuzluqdan öləsiniz. Əli əleyhis-salam susuzluğun onları əldən salacağını görəndə ətrafmdakılarla irəli çıxaraq Müaviyənin qoşununa güclü hücum etdi və onlarla amansız vuruşduqdan sonra Müaviyənin qoşununu öz mövqeyindən arxaya qovaraq Fərat çayını ələ keçirdi. Müaviyənin qoşunu arxaya, səhraya çəkildi, elə yerə çatdı ki, yanlarında qətiyyən su yox idi. Əli əleyhis-salamm şiə və tərəfdarları o Həzrətə dedilər: onlar sənə su vermədikləri kimi sən də

onlara su vermə. Onlara bir damcı da su vermə və onları susuzluq qılıncı ilə öldür ki, sonda məcbur olub sənə bey'ət etsinlər və sənin, bir də müharibə etməyə ehtiyacın olmasın. Əli buyurdu: Yox, Allaha and olsun ki, mən onları öz əməlləri ilə cəzalandırmayacağam. Çayın bir hissəsini onlar üçün açm və oradan kənara çəkilin. Qılınc (mərdcəsinə döyüş) ola-ola bizim bu işə ehtiyacımız yoxdur. İndi əgər Əli əleyhis-salamm bu rəftarının mənşəyi səbrlilik və güzəştdirsə necə də gözəldir və əgər dindarlıq, təqva və pəhrizkarlıqdırsa Əlidən başqa belə bir iş gömüş şəxs tapmaq olarmı?

Mücahidlər ağası

Allah yolunda cihada gəldikdə isə həm dost və həm düşmən yanında Əli əleyhis-salamm Allah yolunda cihad edən mücahidlərin ağası və başçısı olması məlum və aşkar bir məsələdir. Əlinin müqabilində ondan başqasını mücahid adlandıraraq cihadı başqasına nisbət vermək olarmı?! Peyğəmbərin ən böyük müharibəsi və müşrikləri ən çox alçaldan və sındıran müharibə əzəmətli Bədr müharibəsi olub. Həmin müharibədə müşriklərdən yetmiş nəfər öldürülüb və onların yarısını Əli əleyhis-salam öldürüb. Yerdə qalan yarını isə digər müsəlmanlar qeybdən gələn yardım ilə öldürüblər. Əgər Məhəmməd ibn Ömər Vaqidinin «Məğazi», Yəhya ibn Cabir Bəlazurinin «Tarixul-Əşraf» əsərlərinə və həmçinin digər tarix və hədis kitablarına müraciət etsən, deyilənlərin tamamilə doğru olmasını özün görərsən. O Həzrətin Ühüd, Xəndək və digər müharibələrdə şəxsən göstərdiyi qəhrəmanlıqları və kafir, müşrik və qəhrəmanlardan nə qədər öldürməsi də öz yerində qalmaqdadır və onları burada sadalamağa ehtiyac yoxdur.

Çünki Əli əleyhis-salamm bu fəziləti, barəsində çox danış-mağın mənasız olduğu bir fəzilətdir. Ona görə ki, bu məsələ zəruri məlumatlar, yəni, məsələn, Məkkə, Misir və bu kimi yerlərin mövcudluğu barəsində danışmaq və onların mövcud olmalarını sübut etmək istəmək kimidir *(yəni tamamilə qəti və bəlli olan məsələlər qismindəndir)*.

Fəsahət qəhrəmanı

O Həzrət fəsahət və bəlağət sahiblərinin də ağası və başçısıdır. Onun sözü barəsində belə deyilib: Əlinin kəlamı yaradanın kəlamından aşağı, yaradılmışın kəlamından üstündür. Camaat natiqlik və qələmə alma qaydalarını ondan Öyrənib. (Öz zəmanəsinin ən fəsahətli şəxslərindən və Mərvani xəlifələrinin katibi olmuş) Əbdülhəmid ibn Yəhya deyir: Əlinin xütbələrindən yetmişini öyrəndim və bu xütbələr mənim üçün dayanmadan qaynayan fəsahət və bəlağət çeşmələri oldu. (Dördüncü əsrin çox məşhur yazıçı və xətiblərindən olmuş) İbn Nəbatə deyir: Əlinin xütbələrindən elə bir xəzinə əzbərlədim ki, ondan hər nə qədər xərcləyir və işlədirəmsə fəsahət və bəlağətimin artmasına səbəb olur. Mən Əli ibn Əbu Talibin moizə və öyüd-nəsihətlərindən yüz xütbə əzbərləmişəm.

Muhfən ibn Əbi Muhfən Əli əleyhis-salama kömək et-məkdən əl götürüb Müaviyənin yanma gedəndə Müaviyəyə dedi: İnsanların söz danışmaqda ən acizinin yanından, sənin yanma gəlmişəm. Müaviyə dedi: vay olsun sənə! O, insanların söz danışmaqda necə ən acizidir?! Halbuki and olsun Allaha, Qüreyşə fəsahət qaydalarını ondan başqası öyrətməyib və həmin qaydaları onların arasında bir qanun şəklinə yalnız o salıb. Onun kəlamının cazibədarlığı və gözəlliyi barəsində yazılanların onda biri, bəlkə hətta iyirmidə biri fəsahət və bəlağət sahiblərinin heç biri haqqında yazılmayıb.

Xoş xasiyyətlilik mücəssiməsi

Əli əleyhis-salam həqiqətən xoş xasiyyətlilik, gülərüzlülük, gözəl sözlər danışmaq, dodaqları həmişə təbəssümlü olmaq kimi bəyənilən fəzilətlər baxımından da dillər əzbəridir. Əli əleyhis-salamm şiə və tərəfdarlarından olan Sə'sə'ə ibn Sauhan və başqaları deyiblər ki: Əli bizim aramızda bizlərdən biri kimi idi. O çox təvazökar, mülayim, xoş xasiyyətli və xoş davranışlı idi. Amma bununla belə, o elə bir heybət və əzəmətə malik idi ki, onun yanında bizim dilimiz tutulurdu və onun yanında özümüzü tam ədəblə aparırdıq.

Qeys ibn Sə'd deyərmiş: Əli öz səhabələri ilə çox gülərüz və zarafatcıl idi, necə ki, Allahın Peyğəmbəri də öz səhabələri ilə zarafat edir və onlara təbəssüm edirdi. Lakin Allaha and olsun ki, bütün gülərüzlülük və

zarafatcıllığına baxmayaraq, şirdən də heybətli idi və həmin heybət Əlinin təqva və pəhrizkarlığınm heybəti idi. Əli əleyhis-salamın bu xüsusiyyət və xisləti indiyə kimi irsi olaraq onun dost və davamçılarına da keçib və insanların xasiyyət və xarakterləri ilə azacıq tanış olanlar onun şiə və davamçılarında belə bir xüsusiyyətin olmasını görürlər.

Kamil zahidlik

Zahidlik və dünyaya rəğbətsizlik barəsində də demək lazımdır ki, Əli bütün zahid və pəhrizkarların başçısı və bütün övliyaların cilvəsidir. Bütün zahidlər ondan örnək götürür və onun zahidliyi müqabilində diz çökürlər. O heç vaxt doyunca yemədi və yemək və geyim baxımından hamıdan təvazökar idi. Onun paltarları bəzən yamanmış dəridən, bəzən də xurma ağacının qabığından və ayaqqabısı xurma ağacının qabığından olardı. Həmişə cod bez geyinərdi. Çörək ilə nəsə bir yavanlıq yemək istəyəndə ona bir az duz və ya sirkə əlavə edərdi. Bəzən də göyərtidən istifadə edərdi və əgər ondan da yaxşı yemək istəsəydi bir az dəvə südü ilə kifayətlənərdi. Az bir miqdar istisna olmaqla ət yeməzdi *(necə ki, «Nəhcül-Bəlağə»nin 45-ci məktubunda Osman ibn Hüneyf Ənsarinin cavabında buyurur: bil ki, sizin imamınız öz dünyasından iki köhnə paltarla, yeməklərdən isə iki tikə çörəklə kifayətlənib... Allaha and olsun ki, sizin dünyanızdan qızıl topla-mamışam, onun qənimətlərindən çoxlu mal yığmamışam və əynimdəki köhnə paltardan başqa digər bir köhnə paltar hazırlamamışam. Əgər istəsəm yolumu bu balın saf və təmizinə, buğda çörəyinin xalisinə və bu ipək paltarın toxunulmuşu istiqamətinə sala bilərəm. Amma Hicazda, yaxud Yəmamədə kiminsə bir tikə çörəyə ümidsiz olması və tox yatdığı vaxtı yadından çıxarması ehtimalı ola-ola nəfsi istəklərin mənə qalib gəlməsi və hərisliyin çoxluğunun məni yemək seçməyə vadar etməsi, məndən necə də uzaqdır!! Həmçinin ətrafımda ac qarın və isti ciyərlər ola-ola tox qarınla yatmaq məndən çox-çox uzaqdır.)* Həmçinin buyurardı: qarınlarınızı heyvan qəbristanlığma döndərməyin. Bütün bunlarla yanaşı o hamıdan güclü və qüvvətli idi. Aclıq onun gücünü azaltmır, az yemək onun qüvvəsini zəiflətmirdi. O, Əli əleyhis-salam idi ki, dünyanın talağım vermişdi və Şamdan başqa bütün İslam torpaqlarının mallarının ona göndərilməsinə

baxmayaraq, onların hamısını paylayar, öz yerində sərf edər və sonra bu şe'ri oxuyardı:

Bu mənim seçdiyim yol və üsuldur və bu, yol və üsulların ən yaxşısıdır. Çünki hər bir meyvə yığan meyvəni ÖZ ağzma qoyur. *(Mənası budur ki, hər bir əməlin nəticəsi onu yerinə yetirənə qayıdır. «Nəhcül-Bəlağə»nin üçüncü xütbəsinin axırında deyir: Bilirsiniz ki, sizin dünyanız mənim üçün dişi keçinin burun suyundan da dəyərsizdir. Digər bir yerdə buyurur: sizin dünyanız mənim gözümdə yabanı şabalıt ağacının acı dənəsindən də dəyərsizdir.»)*

Abidlər abidi

Əli ibadətdə də camaatın ən abidi idi və namaz, oruc kimi ibadətləri yerinə yetirməyə hamıdan çox çalışardı. Camaat namaz qılmağı, gecə namazı, nafilə namazlar, dua, münacat və zikrlərin necəliyini ondan öyrənib. Hətta «Hərir» gecəsində *(Siffeyn müharibəsində döyüşlərin səhərə kimi şiddətli şəkildə davam etdiyi gecədə)* belə, diqqəti namazda olan və döyüş meydanında yerə bir parça dəri saldırıb hər tərəfdən - sağdan, soldan, qarşıdan və arxadan keçərək ayağının altına düşən ox yağışı altında namaz qılan və həmin vəziyyətdə heç bir qorxu və vahimə keçirməyən şəxs barəsində nə demək olar?! Səcdənin çoxluğundan alnı dəvənin dizi kimi qabar bağlamış şəxs barəsində nə demək olar?!

Əgər o Həzrətin dua və münacatlarına diqqət yetirilsə, onlarda Allahın əzəmət və cəlal sahibi kimi mədh edilmə¬sinə nəzər salınsa və onlarda Allahın izzət və heybəti müqabilində nə həddə təvazökarlıq, kiçiklik hissi, təslimçilik olmasına baxılsa o Həzrətin ixlasının nə dərəcədə olması, həmin sirlərin hansı qəlbdən nəş'ət etməsi və hansı dilə cari olması məlum olar. İbadətdə son həddə çatmış və məhz bu səbəbdən «səcdə edənlər və abidlərin ağası» adı verilmiş İmam Əli ibn Hüseyn əleyhis-salama deyirlər: babanın ibadəti müqabilində sənin ibadətin nə dərəcədədir? Buyurur: mənim ibadətim onun ibadəti müqabilində onun ibadəti Peyğəmbərin (səllallahu əleyhi və alih) ibadəti müqabilində olan kimidir. İlahi qanunların gözətçisi Əli ilahi qanunların qorunması, ilahi hökmlərin ciddi tutulması və onlardan

kənara çıxanların cəzalandırılması məsələsində də misilsizdir. *(O, «Nəhcül-Bəlağə»nin 215-ci xüt-bəsində ilahi hökmlərin qorunması və onlardan kənara çıxmamaq barəsində buyurur: Allaha and olsun, əgər yeddi iqlimi onların göylərinin altında olan bütün şeylərlə birlikdə mənə versələr ki, bir qarışqanın ağzından arpanın qabığını çıxarmaqla Allaha itaətsizilk edim, etmərəm.»)* Allah yolunda çox möhkəm idi və Allahdan başqa heç nəyi nəzərə almırdı. Belə ki, əmisi oğluna verdiyi hakimiyyətdə heç nəyi nəzərə almadı. Həmçinin qardaşı Əqilin ondan olan istəyini və beytül-maldan artıq mal istəməsini nəzərə almadı. *(Onun allahlığına etiqad bəsləyən)* bir dəstənin cəzalandırılması barədə göstəriş verdi. Əlinin haqq çərçivəsi və Allahın hökmlərinin icrası yolunda müqavimət göstərməsi, möhkəm dayanması və barışmazlığını sübut etmək üçün onun xilafəti zamanında Cəməl, Siffeyn və Nəhrəvan mühari¬bələrində baş vermiş hadisə və səhnələrə diqqət etmək kifayətdir ki, dünyada heç bir siyasətçinin onun və səha¬bələrinin qəhrəmanlıq və şücaətinə malik olmaması və onun və səhabələrinin gördüklərini görə bilməməsi qənaətinə gələk.

Saydıqlarımız bəyənilən bəşəri sifətlər, xislətlər və məziyyətlərdir və beləliklə, aydın oldu ki, Əli əleyhis-salam onların hamısında rəftar və davranışına tabe olunmalı imam və arxasınca gedilməli başçıdır.

İmam və bütün dünyanın könül alanı

İbn Əbil Hədid Mö’təzili sonra İmam Əli əleyhis- salama qarşı vurğunluq və sevgisini bildirərək belə deyir: Mən Zİmmə əhlinin (kitab əhli olan yəhudi və xristianların) Peyğəmbərin (səllallahu əleyhi və alih) nübüvvətini inkar etmələrinə baxmayaraq, sevdikləri, filosofların şəriət əhli ilə qalmaqalda olmalarına baxmayaraq, təzim etdikləri, Rum şahlarının qılıncı çiynindən asaraq döyüşmək üçün ətəyini çırmalamış halda şəklini kilsə və ibadətgahlarmda həkk etdirdikləri və Türk və Deyləm padşahlarının şəklini qılınclarına oydurduqları şəxs barəsində nə deyim? Əzududdövlə ibn Buyə, Ruknuddövlə və həmçinin Alp Arslanın və onun oğlu Məlikşahm qılınclarında Əlinin şəkli işlənmişdi. Sanki onlar o Həzrətin şəklini zəfər və qələbə üçün yaxşı fal kimi özləri ilə gəzdirirdilər.

Mən hamının sevdiyi və özünü ona nisbət verməklə öz yaxşılıq və gözəlliyini daha da artırmağa çalışdığı şəxs barəsində nə deyim? Hətta bütün mərdlik və igidlik sahibləri özlərini ona nisbət verirlər. Bu barədə bir kitab yazılıb və onda dəlillərlə sübut olunub ki, mərdlik və igidlik Əlidən başlayıb və igidlik kamalı ona məxsusdur. Ona mərd və igidlərin başçısı ləqəbi veriblər. Həmin şəxslər öz yollarını Ühüd müharibəsi günü eşidilmiş və səma carçısının qeybdən fəryad qopardığı «Əlidən başqa igid, Zülfüqardan başqa qılınc yoxdur» şüarı əsasında möhkəmləndiriblər.

Mən atası Bəthanm ağası, Qüreyşin şeyxi və Məkkənin böyüyü olmuş şəxs barəsində nə deyim? Deyirlər ki, yoxsul bir şəxsin başçı və ağa olması çox nadir hadisədir. Əbu Talib yoxsul olmasına baxmayaraq, ağa və başçı oldu və Qüreyş onu «şeyx» adlandırırdı. Əfif Kendinin nəql etdiyi hədisdə deyilir ki, Həzrət Peyğəmbərin *(səllallahu əleyhi və alih)* dəvətinin əvvəlində onu bir gənc və bir qadın ilə birlikdə namaz qılan görüb. Kendi deyir ki, Abbasdan soruşdum: bu nə məsələdir? Abbas dedi: Bu kişi mənim qardaşım oğludur və camaat üçün Allahın peyğəmbəri olmasını güman edir. Qardaşım oğlu olan bu gəncdən və peyğəmbərlik iddiası edənin arvadı olan bu qadından başqa heç kəs bu əqidəsində ona tabe olmur. Əfif deyir: Abbasa dedim: Bu barədə sizin nəzəriniz nədir? Dedi: Şeyxin nə deməsini gözləyirik. Onun şeyxdən məqsədi Əbu Talib idi. Əbu Talib uşaqlıqdan Pey-ğəmbəri öz himayəsinə götürmüşdü və böyüyəndən sonra da onu himayə edir, Qüreyş müşriklərinin şərindən qoruyurdu. Əbu Talib Peyğəmbərə görə çoxlu məzəmmət və əzab-əziyyətə qatlaşmalı olub və o Həzrətə yardım göstərməkdə çoxlu səbr edərək müqavimət göstərib. Rəvayətdə deyilir ki, Əbu Talibin ölümündən sonra Peyğəmbərə vəhy olundu ki, sənin köməkçi və yardımçın dünyadan köçdüyü üçün Məkkədən xaric ol.

Əli əleyhis-salam belə bir atası olmaq şərafətinə malik olmaqdan əlavə, ona əmisi oğlu Məhəmmədin *(səllallahu əleyhi və alih)* bütün keçmiş və gələcək nəsillərin başçısı olması və Cə'fər Təyyar kimi qardaşının olması şərəfi də nəsib olub. O Cə'fər ki, Peyğəmbər ona buyurub: Ey Cə'fər, sən əxlaq və xasiyyət baxımından mənə oxşayırsan. Cə'fər Peyğəmbərin bu sözündən çox sevindi və güldü. Əlinin həyat yoldaşı hər iki dünya qadınlarının xanımı, iki oğlu Həsənlə Hüseyn əleyhimus-salam Cənnət cavanlarının başçılarıdır. Onun ata və ana tərəfdən olan bütün baba və əcdadları Peyğəmbərin

babalarıdır. O, Peyğəmbərin əti və qanı ilə yoğrulub. Allah Adəmi yaradan zamandan onlar bir-birlərindən ayrı olmayıblar və nəhayət, Əbdülmüttəlibdən iki qardaşa yəni Abdullah ilə Əbu Talibə keçiblər. Abdullah ilə Əbu Talibin anaları da birdir və o iki qardaşdan bəşəriyyətin iki rəhbər və başçısı yaranıb-biri birinci və digəri ikinci, biri qorxudan və digəri hidayət edən və yol göstərən.

Hidayət tapmaqda bütün insanlardan qabağa düşmüş və hamının daşa ibadət edərək Allahı inkar etdiyi bir zamanda tək olan Allaha iman gətirərək ibadət etmiş şəxs barəsində nə deyim? Tovhid və təkallahlılığa imanda bütün xeyirlərdə hamını ötmüş şəxsdən - Allahın elçisi Məhəmməd Mustafadan *(səllallahu əleyhi və alih)* başqa heç kəs onu ötmədi və ondan qabağa düşmədi.

Hədis əhlinin əqidəsinə görə Əli Peyğəmbərə *(səlləllahu əleyhi və alih)* ilk tabe olmuş şəxs olub. Əlinin özü bu barədə belə buyurmuşdur: Mən böyük doğruçu və ilk ayıranam. Hamıdan qabaq İslama üz tutdum və müsəlman oldum və onların hamısından qabaq namaz qıldım.

İbn Əbil Hədid Mö'təzili Əli əleyhis-salam barəsində bu şövqlü mətləbləri bəyan etdikdən sonra deyir:

Bu, Əli əleyhis-salamm fəzilətlərinin çox az bir hissəsi idi ki, mən qısa və az da olsa onları deməyi özümə lazım və vacib bildim. Əslində isə Əli əleyhis-salamm fəzilətlərini bəyan etmək üçün böyük kitablar yazmağa ehtiyac vardır.

Bu böyük İslam alimi və mövla Əli əleyhis-salamm kəlamının şərhçisi öz şərhinin altıncı cildində 376-cı səhifədə o Həzrətin 86-cı xütbədəki «Peyğəmbərin əhli-beytini Qur'anı qoyduğunuz ən yaxşı yerlərə endirin, yerləşdirin» kəlamının şərhində deyir:

Əlinin bu kəlamında böyük bir sirr vardır. Həmin sirr budur ki, o, müsəlmanlara Peyğəmbərin əhli-beytini əzəmət və ehtiram baxımından Qur'an kimi bilmələri və onlara tabe olmağı Qur'ana tebe olmaq kimi dəyərləndirmələri göstərişini verir.

İbn Əbil Hədid daha sonra deyir:

Əgər irad tutub desəniz ki, «bu mətləb peyğəmbərin əhli-beytinin də Qur'an kimi səhv və xətadan mə'sum və uzaq olmasına dəlalət edir və belədirsə, əhli-sünnədən olan mö'təzilə alimlərinin bu barədə nəzəri nədir?» cavab verərəm ki: *(böyük mö'təzilə alimlərindən olmuş)* Əbu Məhəmməd ibn Məttəvih rəhiməhullah «Ə1-Kifayə» kitabında tam aşkar şəkildə Əlinin mə'sum olması məsələsini açıqlayır. Hərçənd ki, *(həmin alimin fikrincə)* imamət üçün mə'sumluq şərt deyil. Lakin müxtəlif hədis və rəvayətlər Əlinin mə'sum olmasına dəlalət edir. Biz dəlillər əsasında bu mətləbin gizlin və aşkar cəhətləri barəsində tam yəqinliyə malikik. Bu mə'sumluq elə bir şeydir ki, Peyğəmbərin səhabələri arasında yalnız Əliyə məxsusdur və başqaları ondan məhrumdurlar.

Hər halda Əli əleyhis-salamın fəzilətləri və ilahi məqamı barəsində danışmaq çox çətin, bəlkə də qeyri- mümkündür. Müxtəlif əsrlərdə müxtəlif din və məzhəblərdə olan müxtəlif sahələrin alimlərinin onun barəsində dedikləri də onların şəxsi çıxarışlarıdır ki, hər biri özünün dərki və məlumatlarının çərçivəsi miqdarında bəyan ediblər. Yoxsa məgər okeanı üsküklə ölçmək olar?! Buna görə də o Həzrətin fəzilət və üstünlüklərinin bəyanı barəsində bu qədər ilə kifayətlənirik və bu barədə, xüsusilə o Həzrətin ədaləti barəsində araşdırma aparmağı oxucuların öz ixtiyarına buraxırıq. Əli əleyhis-salam həqiqətən də canlı ədalət simvolu olub və bəşər tarixi üçün ədalətin gerçək mənasına çevrilib. Böyük xristian alimi Corc Cordaq doğrudan da gözəl deyib: «Əli ibadət mehrabında ədalətinin çoxluğu səbəbindən öldürüldü.»

Əli əleyhis-salamın kəlamı

Kəlam elmində deyildiyi kimi peyğəmbərlərin vücudlarının nişanələri nübüvvət və risaləti isbat edən dəlillərdən biridir. Nübüvvət və peyğəmbərlik iddiasında olan şəxsin danışıq, davranış, rəftar və digər cəhətləri onun peyğəmbərliyini isbat edən ən böyük dəlildir. Bu məsələ eyni ilə imamət barəsində də mövcuddur. İmam və peyğəmbərin canişini danışıq, davranış, elm, əxlaq və vücudunun bütün digər cəhətlərində peyğəmbər kimi

olmalıdır. Əmirəl-möminin Əli əleyhis-salamın kəlam və sözləri o Həzrətin imam və peyğəmbərin canişini olmasına qəti və tutarlı dəlildir. Çünki onun kəlamları onları deyənin hədsiz əzəmət və böyüklüyünü göstərir ki, heç bir mütəfəkkirin düşüncələrinin onun möhkəm və uca zirvə lərinə qalxmaq qüdrəti yoxdur. O, ilahi elm və maarif sellərinin töküldüyü uca bir qüllədir. Bu söz və məsəl bütün İslam alimləri və tədqiqatçıları arasında məşhur və hamı tərəfindən qəbul olunandır ki:

Yəni: Əlinin kəlamı sözlərin ən üstünüdür və Mürtəzanın dedikləri bəyəniləndir.

O Həzrətin sözlərinə vurğunluq onun öz zamanından başlanıb və hətta düşmənləri, bu məsələni etiraf ediblər. Müaviyə ibn Əbu Süfyan dəfələrlə belə deyib ki: "And olsun Allaha ki, fəsahəti Qüreyşə Əlidən başqası gətirməyib, gözəlləşdirməyib və uca zirvəyə çatdırmayıb.» Halbuki məlum olduğu kimi Qüreyş ərəbin ən fəsahətli qəbilələrindəndir və həm keçmişdə və həm də indi bu qəbilədən çoxlu xətib və şairlər çıxıb.

Əli əleyhis-salamın həyatından sonra da bu heyranlıq davam edib və İslamın ilkin əsrlərindən xətiblər, yazıçılar və şairlər o Həzrəti xütbə söyləmək və natiqlikdə özlərinə örnək və nümunə seçiblər, onun kəlamının heyranediciliyi və gözəlliyini açıqlayıblar.

Öz zəmanəsinin ən məşhur və böyük yazıçı və natiqlərindən olmuş, 132 h.q. ilində öldürülmüş, son Mərvani xəlifəsi Mərvan ibn Məhəmmədin katibi olmuş və barəsində «yazı yazmaq sənəti Əbdülhəmid ilə başladı» deyilən Əbdülhəmid ibn Yəhya Amiri deyir: Əlinin xütbələrindən yetmişini əzbərlədim və həmin xütbələr mənim zehnimdə dayanmadan qaynayırdı.

Cahiz ləqəbi ilə tanınan, 255 h.q. ilində vəfat etmiş, ərəb ədəbiyyatının atası sayılan və Məs'udinin keçmiş yazıçıların ən fəsahətlisi adlandırdığı Əbu Osman Əmr ibn Bəhr İmam Əli əleyhis-salamın «Hər bir insanın qiyməti onun sevdiyi şey miqdarındadır» kəlamını nəql etdikdən sonra belə yazır: Əgər Əlinin kəlamlarından əlimizdə bundan başqa heç nə olmasaydı, təkcə o, dərdimizə çarə üçün bəs edər və ehtiyaclarımızı ödəyərdi. Bu kəlam

həddindən artıq gözəl, yetərli və kamilliyin son zirvəsindədir. Çünki ən gözəl söz azı səni çox təmin edən və mənası yetərli olandır.

Ərəbin məşhur yazıçı və xətiblərindən olmuş, Hələbdə Seyfüddövlənin vaxtında xütbə oxumaq məqamına malik olmuş və 374 h.q. ilində vəfat etmiş İbn Nəbatə Əbdür-rəhim ibn Məhəmməd ibn İsmayıl deyir: Əlinin xütbələrindən elə bir xəzinə əzbərlədim ki, ondan hər nə qədər xərcləyir və işlədirəmsə fəsahət və bəlağətimin artmasına səbəb olur. Mən Əli ibn Əbu Talibin moizə və öyüd-nəsihətlərindən yüz xütbə əzbərləmişəm.

Nəhayət, dediyimiz kimi, İslam alimləri arasında Nəhcül-Bəlağə»nin ən böyük şərhçilərindən olmuş və 656 h.q ilində vəfat etmiş İbn Əbil Hədid Mö'təzili bu Kitabın 216-cı xütbəsini şərh edərkən İmam Əli əleyhis-salamın kəlamlarının gözəlliyi və fövqəladə təsiri barəsində bəzi mətləblər bəyan etdikdən sonra deyir:

Həqiqətən mən bu şəxsə təəccüb edirəm ki, müharibədə şir kimi cəsarətlə xütbə oxuyur. Elə həmin vaxt əgər moizə etmək istəsə elə moizə edir ki, elə bil tam guşənişinlikdə olub və heç vaxt ət (isti yemək) yeməyən və qan tökməyən rahib və zahidlərdəndir. O Həzrət bəzən ərəbin məşhur qəhrəman və cəsurları kimidir, bəzən böyük yunan filosof və alimi Sokrat kimi və bəzən də Bəni İsrail abidləri Yuhənna və Məsih ibn Məryəm kimi, ilahi şəxsiyyətlər kimi!

Bütün ümmətlərin and içdiyi Allaha and içirəm ki, mən əlli il bundan əvvəldən indiyə kimi bu xütbəni min dəfədən çox oxumuşam və onu nə vaxt oxumuşamsa hər dəfə canımda vahimə və moizə qəbul etmək hissi yaranıb, qəlbimə qorxu və bədənimə titrəmə salıb. Ona nə vaxt baxmışamsa qohum, yaxın və dostlardan dünyasını dəyişənləri yadıma salmışam və belə zənn etmişəm ki, Əlinin bu xütbədə halını vəsf etdiyi şəxs mən özüməm. Bu barədə çox xətiblər, moizə edənlər və fəsahət sahibləri sözlər deyiblər, çoxlarının sözlərini dəfələrlə eşitmiş və oxumuşam. Onların heç birinin mənə bu cür təsir etməsini görməmişəm.

Bu mövzuda son söz İslam alimlərinin bu sözüdür ki: «Əlinin kəlamı insan kəlamından üstün, Allah kəlamından aşağıdır.»

«Nəhcül-Bəlağə» nədir?

«Nəhc» yol və üslub, «bəlağə» isə sözü çatdırmaq mənasındadır. Ədəbiyyat terminolagiyasmda «bəlağət fəsahətli sözün şəraitə uyğun olması» deməkdir. Yəni «dinləyicinin və ya oxucunun vəziyyətini onun idrak və məlumatının səviyyəsi baxımından nəzərə almaq və həmçinin söz və ya yazının dinləyici və ya oxucuya istənilən təsiri göstərməsi üçün zaman, məkan və digər xüsusiyyətlərə riayət etməkdir.»

«Nəhcül-Bəlağə» imam Əmirəl-möminin Əli əleyhis- salamm xütbə, moizə, məktub, hikmətli kəlamlar və öyüd-nəsihətləri toplusuna onları toplamış böyük İslam alimi Seyyid Rəzi tərəfindən verilmiş addır. Bundan əvvəl dediyimiz müqəddimədən məlum olduğu kimi «Nəhcül-Bəlağə»nin içindəkilər Əli əleyhis-salamm kəlam və sözləridir ki, sözlərin ən üstünüdür və Qur'ani- Kərim və Həzrət Peyğəmbərin (səllallahu əleyhi və alih) kəlamından sonra müqəddəs İslam dini maarifi və əqidəsinin ikinci mənbə və sənədidir.

«Nəhcül-Bəlağə» İslam mədəniyyətinin ensiklopediyasıdır ki, onda Allahı tanımaq, mələklər aləmi, dünyanın yaradılışı, insanın təbiəti, ümmətlərin sərgüzəştləri, saleh və ya zalım hökumətlər, dünyanın mahiyyəti, dünyatələblik, dünyatələbliyin aqibəti, Allah övliyalarının mənəvi hərəkət yolu, yaxşı əməl sahiblərinin davranış üsulu, zahidlik, iman və yüzlərlə digər mövzular barəsində söhbətlər edilib. Daha mühümü isə budur ki, həmin mövzular haqq, həqiqət, yəqinlik və inamın son həddinin dayaq nöqtəsi olan bir kəsin dilindən bəyan edilir. Buna görə də onun bəyan, nəzər və düşüncəsi həqiqət axtarışında olan sərgərdan şəxs üçün arxalanmalı yerdir. Amma əsas nöqtə budur ki, İmam əleyhis-salamm bütün bu sözlərdən məqsədi təbiətşünaslıq, zoologiya elmlərini tədris etmək və ya fəlsəfi, tarixi və digər məsələləri başa salmaq deyil. Əli əleyhis-salamm kəlamları bu cür məsələləri irəli sürməkdə Qur'ani-Kərim kimidir ki, dinləyicinin gözü önündə hiss olunan və ya ağıl ilə dərk edilən şeylərdən bir nümunə qoyur və sonra yavaş-yavaş onu çatmalı olduğu mənzil başına, yəni Allah dərgahına və tək olan Rəbbin hüzuruna aparır.

«Nəhcül-Bəlağə»nin mövzusu barəsində məsələnin qısa şəkildə bəyan edilməsi üçün bu müqəddəs kitabın müasir şərhçilərindən olan böyük əhli-sünnə alimlərindən biri, Misirin keçmiş müftisi Şeyx Məhəmməd Əbduhun sözlərinin bir hisəssini nəql etməklə kifayətlənirik. Şeyx öz müqəddiməsində deyir: Mən «Nəhcül-Bəlağə»ni oxuyanda, bir ibarədən digər bir ibarəyə keçəndə düşüncə cövlangahı və bəsirət baxışının dəyişməsini görürdüm. Bəzən özümü nurani və heyrətləndirici kəlmələrə bükülmüş halda pak ruhların ziyarətinə gələn və çirkinliklərdən təmizlənmiş qəlblərdə yurd salan çox yüksək mənalar aləmində görürdüm... Cümlə və ibarələr bəzən də belə olurdu ki, sanki qaşqabaqlı üzlər, bir-birinə qıcanmış dişlər və hücum etməyə hazırlanmış qəzəbli qartalllarla üz-üzəyəm. Bəzən də öz cismani qəlibi ilə heç bir oxşarlığı olmayan nurani bir ağılı görürdüm ki, ilahi karvandan ayrılaraq insan ruhuna qoşulub və onu çirkinlik və vəsvəsələrdən təmizlədikdən sonra ona təbiət aləmindən gözəllik verib və daha sonra onu özü ilə uca mələklər aləminə aparıb, ilahi nurun saçdığı məkana kimi çatdırıb və Rəbbin müqəddəs dərgahında məskunlaşdırıb. Bəzən də ümmətin valilərinə xitab edərək uca səslə onlara təlim verən, doğru və səhv yolu onlara göstərən, ölkə idarəçiliyinin incəliklərini onlara öyrədən və azğınlıq uçurumuna gedib çıxan yol ilə getməkdən çəkindirən bir xətib görürdüm.»

Seyyid Rəzi kimdir?

Seyyid Rəzi və ya Şərif Rəzi ləqəbi ilə tanınan Əbulhəsən Məhəmməd ibn Əbi Əhməd alim, fəzilət sahibi və şair şəxslərdən, İraq Seyyidlərinin nəcib və böyüklərindən və Əbu Talib nəslinin ən yaxşı şairlərindən olub. O on yaşından şer deməyə başlayıb və otuz yaşında çox az bir müddət ərzində Qur'anı əzbərləyib. O çox çalışqan və pak nəfsli insan olub. Heç kəsdən hədiyyə və mükafat qəbul etməzmiş. O, bütün elm və yaxşılıqlardan paya malik olub. Seyyid Rəzi və onun Ələmulhüda ləqəbi ilə tanınan qardaşı Əbulqasim Əli Mürtəza uşaqlıqlarından şiənin böyük fəqih və alimlərindən olmuş Şeyx Müfidin tərbiyəsi altında olublar. Şeyx Müfidin bu iki qardaşın tərbiyəsini öz öhdəsinə götürməsinin maraqlı bir tarixçəsi var və İbn Əbil-Hədid onu öz şərhində belə nəql edir: Şeyx Müfid ləqəbi ilə tanınan məşhur böyük şiə alimi Əbu Abdullah Məhəmməd ibn Nö'man bir gecə yuxusunda görür ki, Bağdadın Kərx məhəlləsində olan məscidində oturub və birdən

Həzrət Peyğəmbərin *(səllallahu əleyhi və alih)* qızı Fatimə əleyhas-salam uşaqlıq yaşlarında olan iki oğlu Həsənlə Hüseynin əlindən tutub məscidə daxil oldu və salam verdikdən sonra buyurdu: ey Şeyx, bunlara fiqh öyrət! Şeyx Müfid tam heyrət içində yuxudan oyanır. Həmin gecənin səhərisi günü Seyyid Rəzi ilə Mürtəzanm anası Fatimə binti Hüseyn öz oğlanlarının əllərindən yapışmış və yanında kənizlər olan halda məscidə daxil olur və salam verdikdən sonra deyir: Ey Şeyx bu iki oğlumu sənin yanma gətirmişəm ki, onlara fiqh öyrədəsən. Şeyx ağlayır və öz yuxusunu o möhtərəm xanıma danışır. Bundan sonra Şeyx Müfid həmin iki uşağın tərbiyəsini öhdəsinə götürür.

Seyyid Rəzi 359 h.q. ilində Bağdadda dünyaya gəlib və 404 və ya 406 h.q. ilinin məhərrəm ayının altısı, bazar günü səhər tezdən dünyadan köçüb. Onun məzarı Bağdadın Kərx mələləsində yerləşir və hamı tərəfindən ziyarət edilir. Seyyid Rəzinin «Nəhcül-Bəlağə»dən başqa əldə on üç kitabı var ki, «Təlxisul bəyan ən məcazatil-Qur'an» da onlardan biridir.

Əlinizdə olan tərcümə haqqında

Bir tərəfdən «Nəhcül-Bəlağə»nin müqəddəs İslam dini maarifinin ən mühüm mənbələrindən biri kimi əhəmiyyətli olması, digər tərəfdən Azərbaycan Respublikası əhalisinin - İslamın Ərəb yarımadasından yayılmasının ilkin çağlarından bu pak dinə iman gətirmiş, xüsusilə etiqad və imanı Əmirəl-möminin Əli əleyhis-salam və o Həzrətin əhli-beyti əleyhimus-salamm məhəbbəti ilə . ğrulmuş millətin xalis və həqiqi İslam təliminə bağlılıq və şövqü, İran İslam Respublikasının Mədəniyyət Mərkəzinin Dini Şöbəsini bu fikrə saldı ki, müsəlman Azərbaycan xalqına mədəni və dini xidmət göstərmək istiqamətində məsuliyyət hissi ilə «Nəhcül-Bəlağə»nin Azərbaycan dilinə tərcüməsinə başlasın. Xüsusilə, İran və kzərbaycan xalqları arasında olan dil mədəniyyət, tarix və din kimi çoxsaylı müştərək cəhətlər bu məsuliyyəti bir daha da artırırdı. Məlumdur ki, digər elmi və mədəni işlər kimi bu işin də bir sıra çətinlikləri var idi. Amma çətinlikləri, başqa sözlə desək işin zəriflik və incəliyini daha da artıran bir 'ira digər nöqtələr də var idi ki, bunlar aşağıdakılardan ibarətdir:

1- «Nəhcül-Bəlağə» kitabının əhəmiyyət və müqəddəsliyi və onun yüksək məqamlı sahibi İmam Əli əleyhis-salama ehtirama riayət etmək məsələyə daha çox diqqət yetirilməsini tələb edirdi.
2- Tərcümə özü özlüyündə çox incə, dəqiqlik tələb edən və çətin bir iş olduğu üçün gərək tərcüməçi tərcümə etdiyi və tərcümə edilən dillərin hər ikisini mükəmməl bilsin ki, məna və məqsədi tərcümə edilən dildən tərcümə olunan dilə ötürə bilsin. Bu məsələ «Allah kəlamından aşağı, insan kəlamından isə yuxarı olan bir kəlam»ın tərcümə edilməsində həddən artıq incəlik tələb edir.
3- «Nəhcül-Bəlağə» hərtərəfli ədəbi bir kitabdır və hər bir ədəbi kitabın təşbih, məcaz, kinayə, təmsil, misal, mütənasiblik, qafiyə və sair kimi malik olmalı olduğu bütün zəriflik və incəliklər bu əsərdə çox yüksək səviyyədə mövcuddur. Buna görə də məlumdur ki, zəriflik və incəlik dəryasına baş vurmaq və onun dürr və mirvari mənalarını əldə etmək, qavramaq hər dalğıcın işi deyil. Bu sonsuz dəryanın üzgüçüsü gərək daha çox ustalıq və məharətə malik olsun və ədibcəsinə deyilmiş kəlamın bütün incəliklərini dərindən bilsin.
4- «Nəhcül-Bəlağə» elə bir kitabdır ki, onda bir çox müxtəlif elmlərin əsaslarından və şöbələrindən bəhs olunur. Onda irfan, fəlsəfə, kəlam, əxlaq, ictimaiyyət, siyasət, idarəetmə, iqtisadiyyat, fiqh, təfsir, tarix, təbiətşünaslıq və digər elmlərin bir çox ali və dəqiq məsələlərinin irəli sürülməsi onu tərcümə edən şəxsin həmin elmlərin dəqiqlik və incəliklərindən xəbərdar olmasını tələb edir.
5- İmam əleyhis-salam öz kəlamlarını müxtəlif zaman-larda müxtəlif adamlara - bəzilərini öz zəmanəsində yaşayanlara, bəzilərini isə gələcək nəsillərə xitab olaraq buyurmuşdur və buna görə də «Nəhcül-Bəlağə»nin tərcü-məsində diqqət edilməsi lazım olan mühüm məsələlərdən biri xitab olunanların kimliyinə bələd olmaq, başqa sözlə desək, imamın kəlamının buyurulma səbəbini bilməkdir.
6- İmam əleyhis-salam öz kəlamlarında bir çox şəxs və məkanların adlarını çəkib və çoxlu atalar sözlərindən istifadə edib ki, onların hər biri bu kitabın oxucusu üçün aydın olmalı və onlar barəsində lazımı izahlar verilməlidir.
7- İmam əleyhis-salamın kəlamları içərisində Qur’an ayələri kimi möhkəm (mənası tam aydın olan) və mütəşabih
(mənası hamıya məlum olmayan), qeydsiz-şərtsiz və asılı, ümumi və xüsusi

kəlamlar vardır. Buna görə də onların hər birini digərindən seçmək üçün tərcüməçidən xüsusi məharət tələb olunur.

Bu məsələlər və söhbətin uzanmaması üçün deyil- məsinə lüzum görmədiyimiz digər cəhətlərə görə belə qərara gəldik ki, «Nəhcül-Bəlağə»nin Azərbaycan dilinə tərcüməsi üçün vasitə rolunu oynayan bir dildən istifadə edək. Xüsusilə ona görə ki, indiyədək «Nəhcül-Bəla- ğə»nin Azərbaycan dilinə kamil tərcüməsi yox idi. Məlumdur ki, mövcud çoxlu və əvəzolunmaz qarşılıqlı əlaqələr səbəbindən fars dili bu işdə Azərbaycan türkcəsi üçün ən yaxın vasitə ola bilərdi. Çünki əsrlər boyu bu diyarın alim, şair və digər böyük şəxsiyyətləri ondan tam istifadə ediblər, həm Azərbaycan, həm də fars dilində kitablar yazıblar və özlərinin şerlərini və ədəbiyyat və mədəniyyətə dair digər əsərlərini yadigar qoyublar.

Lazımı araşdırmalardan sonra belə nəticəyə gəldik ki, 1406 h.q. ilində vəfat etmiş mərhum ayətullah Seyyid Əliyyənnəqi Feyzul-İslamın «Nəhcül-Bəlağə» tərcüməsi və şərhi müasir ehtiyacları təmin edən bir əsərdir. O, son əsrin məşhur İslam alimlərindən və İslamın müxtəlif elm sahələrinə tam bələd olan bir şəxs olub. Alim öz mübarək ömrünün on ildən çoxunu «Nəhcül-Bəlağə»nin şərh və tərcümələrinə, eləcə də onun barəsində yazılmış kitabların mütaliəsinə sərf edib və sonda «Nəhcül-Bəlağə»ni tam aydın və gözəl şəkildə qısa, amma eyni zamanda çox faydalı, yetərli, tutarlı və mötəbər şərhlərlə altı cilddə[4] tərcümə və şərh edib.

Bu tərcümə və şərh izahlı şəkildədir. Belə ki, izahına ehtiyac hiss olunan kəlmə və cümlələrin qarşısında mötərizədə və ya haşiyədə ölçüsü hədisin yazıldığı şriftlərin ölçüsündən fərqli şriftlərlə lazımı izahat və məlumatlar verilib. Feyzul-İslam bu işin öhdəsindən doğrudan da çox məharətlə gəlib. Onun bu tərcümə və şərhi həmişə geniş diqqət mərkəzində olub və az bir zaman ərzində həm alimlər, həm də geniş oxucu kütləsi arasında böyük nüfuz qazanmışdır. Dini mədrəsə və universitetlərdə ensiklopedik kitablardan birinə çevrilən bu əsər indiyə kimi milyonlarla tirajla çap olunaraq müsəlmanların ixtiyarına verilmişdir. Bu tərcümə və şərhin mühüm üstün xüsusiyyətlərindən biri ondadır ki, tərcüməçinin bütün İslam firqələrinin mənbələrindən istifadə etməsidir. Çünki mərhum Şeyx Ağa Bozorq Tehraninin öz dəyərli «əz-Zəriə ila təsanifiş-şiə» kitabında dediklərinə

əsasən, indiyə kimi «Nəhcül-Bəlağə»yə müxtəlif firqə və məzhəb alimləri tərəfindən səksəndən artıq şərh yazılmışdır.

İşin genişliyi və əhəmiyyəti nəzərə alınaraq «Nəhcül- Bəlağə»nin tərcüməsinə iki tərəfdən başlandı. «Nəhcül- Bəlağə»nin əvvəlindən yüz altmışıncı xütbəyə kimi Feyzul-İslamın altı cildlik tərcümə və şərhinin üçüncü cildinin təqribən yarısmə qədər - İslam elm və maarifi ilə gözəl tanışlığı olan çox möhtərəm alim Dürdanə xanım Cəfərli və onun həyat yoldaşı Etibar Quliyev tərəfindən tərcümə edilib. Yerdə qalan cildləri isə İslam elm və maarifi sahəsində ali təhsili olan Ağabala Mehdiyev tərcümə etmişdir. Hər üç mütərcim bu işə böyük səy, diqqət, həssaslıq və incəliklə başladılar və onu uğurla sona çatdırdılar. Eyni zamanda diqqətin kamilliyi və mənanın Azərbaycan dilində tam əksini tapmasını təmin etmək məqsədi ilə tərcümə qrupu Mədəniyyət Mərkəzinin yüksək mütəxəssisi və mahir islam-şünas, yaxşı ədəbiyyatçı, ərəb, fars və Azərbaycan dillə rının gözəl bilicisi və tərcümə işinin incəliklərinə dərindən bələd olan höccətül-İslam vəl-müslimin Hacı >eyx Adil Mövlayinin rəhbərliyi altında tərcümə olunmuş hissələri əsas mətn ilə məna baxımından tutuşdurublar. Tərcümə tam başa çatdıqdan sonra bir daha kinci dəfə) «Nəhcül-Bəlağə»nin əsas mətni ilə tutuşdurulub və beləliklə, mənanın dəqiqliyinə lazımı diqqət yetirilib. Azərbaycan dili qrammatikasının qaydalarına riayət olunmasını yoxlamaq üçün də ən yaxşı üsul və şəxsdən istifadə olunub. Bu səbəbdən tərcümə olunmuş mətnin redaktəsi üçün Azərbaycan Respublikasının möhtərəm alim və məşhur ədəbiyyatşünası, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin Elmi-dini şurasının üzvü, akademik Hacı Bəkir Nəbiyev cənabları dəvət edildi. Çox alicənab şəxsiyyət olan Bəkir müəllim, öz pak təbiətindən doğan ürəyiaçıqlıq və məhəbbətlə bu işi qəbul etdi və dörd ay ərzində tərcümənin redaktəsilə məşğul olaraq onu gözəl şəkildə sona çatdırdı. Düzəlişlər aparıldıqdan sonra bu tərcümənin məna dəqiqliyi və ifadənin gözəlliyi baxımından Azərbaycan dili qrammatikasının qaydaları səviyyəsində olması üçün çox səylər göstərildi. Hərçənd ki, bəzi yerlərdə mənanın qorunması və onun tam çatdırılması üçün ifadələrin gözəlliyinə xələl gələ bilər. Lakin bu, bizim tərcümə zamanı qarşılaşdığımız müəyyən naçarlıqdan irəli gəlir və bu naçarlıq və məhdudiyyət bütün tərcümələrdə mövcuddur.

Budur, bir ildən artıq göstərilən fasiləsiz səy və təlaşdan sonra bu arzu gerçəkləşdi və ümid öz bəhrəsini verdi. İndi biz Əmirəl-möminin Əli ibn Əbu Talib əleyhis- salamın müqəddəs «Nəhcül-Bəlağə» kitabının şirin Azərbaycan dilinə tərcümə və şərhinin şahidiyik və bu çox dəyərli əsəri Azərbaycan Respublikası müsəlmanlarına təqdim edirik.

Mən İran İslam Respublikasının Azərbaycan Res-publikasındakı Mədəniyyət Mərkəzinin sədri kimi, bu qiymətli əsərin hazırlanıb çap edilməsində əməyi olmuş bütün şəxslərə - tərcüməçilərə, redaktora, çap edən nəşriyyatın rəhbərliyinə səmimi təşəkkürlərimi bildirir və bizə belə bir dəyərli xidmət nəsib etdiyi üçün Allah dərgahına həmd və şükr səcdəsi edirəm. Bu, bizim bacarıq və imkanımız daxilində olan bir tərcümədir. Ümidvaram ki, gələcəkdə bundan daha kamil bir tərcümə edilsin. Oxucudan xahiş edirəm ki, hər hansı bir qüsurla rastlaşsalar (yəqin ki, bunsuz deyil) növbəti çaplarda onların təkrar olunmaması üçün bizə xəbər versinlər. Mövlamız Əmirəl-möminin Əli ibn Əbu Talibdən də acizanə şəkildə bizim elə də böyük olmayan bu işimizi qəbul etməsini və onu qiymətləndirməsini istəyirəm. Çünki «hədiyyə onu bağışlayanın özünə layiq miqdarda olur».



Seyyid Əli Əkbər Ocaqnejad İran İslam Respublikasının
Azərbaycan Respublikasındakı
Mədəniyyət Mərkəzinin sədri

Qeydlər

1. ↑ Bu atalar misalının mənası budur ki, əgər bir şeyi bütövlükdə əldə edə bilmirsənsə, bütövlükdə kənara qoymalısan, yəni məsələn, əgər dənizin suyunu tamamilə çəkmək mümkün deyilsə, bu o demək deyil ki, ondan mümkün olan qədər çəkməyi də tərk etmək lazımdır. (tərc.)
2. ↑ Suyuti; Camius-Səğir; cild. 1, səh. 58

3. ↑ «Aul» fiqh elminin mühüm qaydalarından biridir ki, müxtəlif məsələlərin həllində ondan istifadə edilir.
4. ↑ Qeyd etmək lazımdır ki, Feyzul-lslanıın altı cildə böldüyü bu əsər əlinizdə olan çapda iki cilddə, yəni hər cilddə əsərin orijinalının üç cildinin yerləşdirilməsi şəklində nəşr edilmişdir və əsərin orijinalındakı bölgü üsulunun saxlanılması üçün həmin cildlər burada «hissə» adı altında verilmişdir.

Həmd Allaha ki, ona həmd etməyə, ne'mətlərini əda etməyə, bəladan sığınmağa, qurtulmağa bir vasitə, cənnətlərinə və razılığına yetişməyə bir yol qılmış, ehsanın çoxalmasına səbəb etmişdir. Səlatu salam olsun aləmlərə rəhmət kimi göndərdiyi, özünə tabe olanların da ona qulaq asmasını təqdir buyurduğu, ümməti nurlandıran bir işıq kimi göndərdiyi, varlığını kərəm xəmirindən yoğurduğu, əzəli böyüklük soyundan yetirdiyi, ucalıq ağacının kökündən yaradıb fəzilət budağında bitirdiyi, qollu-budaqlı, meyvələrlə yetişdirib böyütdüyü Rəsuluna, onun qaranlıqları işıqladan nurlar, açıq-aşkar din yolunun əlamətləri, ölçüyə gəlməz fəzilət mizanları olan Əhli-beytinə. Onların hamısına elə səlatu salam olsun ki, fəzilətlərinə tay və bərabər, lütflərinə qarşılıq, nəsillərinə və əsillərinə uyğun və layiq olsun.
Nə qədər ki, dan yeri doğub ağarır, ulduz çıxıb-batır, rəhmət olsun onlara.
Ömür budağım hələ təzə-tər idi, hələ yaşıl idi ki, salam onlara, imamların xüsusiyyətlərinə, közəl hallarına aid xəbərləri, onların inciyə bənzər sözlərini əhatə edən bir kitab yazmağa başlamışdım. O kitabda, bu mətləbi ərz edərkən, bildirdiyim kimi, Əmir-əl-mö'mininin (ə) xüsusiyyətlərini topladıqdan sonra zamanın qarşıya çıxardığı maneələr onu tamamlamağa qoymamışdı. Kitabımı bir neçə hissoyə və bölümə ayırmışdım. Son bölümdə uzun xütbələrə deyil. öyüdlərə, hikmətlərə, ədəblərə aid bə'zi sözləri dərc etmişdim.
Dostlardan, qardaşlardan bir qismi o kitabı oxuyub bəyəndi. Həzrət Əmirin (o) sözlərinin taysız-bərabərsiz olmasına, fəsahət və bəlağətinə heyran oldular. Cürbə-cür mövzulara, müxtəlif qollara ayrılan sözlərindən bir seçmə meydana gətirməyimi xahiş etdilər. Çünki bilirdilər ki, o həzrətin xütbələrində, məktublarında, öyüdlərində, hikmətlərində cəm şəkildə mövcud olan və ərəb dilinin heyranedici bəlağət və fəsahətini özünə hopdurmuş, dinə, dünyaya aid bütün hikmətləri, o dərəcədə cəm halda ehtiva edən hsç bir söz, heç bir kitab yoxdur və ola da bilməz. Çünki Əmir-əl-mö'minin (ə) doğrudan da fəsahət və bəlağətin mənşəyidir, bəlağət ondan zühur etmişdir, fəsahət qaydaları onun sezləriylə yayılmışdır. heç bir xətib yoxdur ki, onun sözlərinə bənzər söz söyləyə bilsin. heç bir vaiz yoxdur ki, sözlərindən yardım diləməsin. Bütün bunlarla borabər, yenə də onların hamısından irəlidədir;

yenə də onlar həzrət Əmirdən (ə) geri qalmışlar. Çünki onun sözləri Allah bilgisiylə işıqlanmışdır, parıldayır. O sözlərdə Peyğəmbərin (s) rayihəsi vardır, ətrafa yayılır.
Nəhayət, xahişlərinə qulaq asdım. Bu kitabı, bu kitabdakı sözləri toplamağa başladım. Bilirdim ki, xalq bu kitabdan çox böyük faydalar əldə edəcək, bu kitabın şöhrəti bütün aləmə yayılacaq, əcri, savabı isə axirət günündə mənə bir azutə olacaq.
Məqsədim, o həzrətin elm, əməl, təqva, şücaət və başqa fəzilətlərdəki ucalığı kimi, bəlağətdəki ucalığının da üzə çıxması, ondan əvvəl kəlib-gedən, ondan çox az rəvayətlər etmiş alimlərin, bəlağət sahiblərinin, xətiblərin bəlağətindən daha üstün bir bəlağətə sahib olduğunu, heç birinin onunla müqayisəyə kəlməyəcəyini meydana çıxarmaq idi. Doğrudan da onun sözləri ucu-bucağı, dibi-sahili olmayan bir dənizdən coşmaqdadır. O dəniz, suyunun artmasıyla daşmaz, başqalarının sözləriylə də bulanmaz. Bunun meydana çıxmasını, beləliklə də Fərəzdəqin Cərirə dediyi bu sözləri demək istədim:
Mənim atalarım bunlardır, ey Cərir,
Səndə də onlara bərabər olanları varsa,
Köstər onları mənə, qarışma kətir.
Kördüm ki, həzrətin sözləri bir neçə mehvər ətrafında fırlanır. Əvvəlcə xütbələri, əmrləri var; ikinci məktubları, üçüncü isə hikmətləri və öyüdləridir. Nöqsan sifətlərdən münəzzəh olan Allahın tovfiqiylə əvvəl xütbələrinə, sonra məktublarına, sonra da öyüd və hikmətlərinə ayrıca bölümlər ayırmağı, hər bölümü yazdıqdan sonra o bölümə aid olub, o vaxta qədər əlimə keçməyən. fəqət zaman keçdikcə əldə etmək ehtimalımın olduğu sözlərini də irəlidə yazmağım üçün bir neçə səhifəni boş qoymağı əsas tutaraq bu bölümlərdən başqa bölümlərə daxil ola biləcək olanları, məsələn, söhbət zamanı suallara verdiyi cavabları da yazmağı nəzərdə tutub işə başladım. Əvvəlcə xütbələrini, sonra məktublarını, sonra da hikmətlərini və öyüdlərini seçdim. Mövzu baxımından bu bölümlərdə bir-birinə uymayanlar, yaxud bir-birinə uyanlar ola bilər. Fəqət mən, həzrətin (o) sözlərinin tərtibinə yox, əsas məqsədim sözlərini toplamaq olduğundan, əlimə keçən gözəl və xoş sözlərini yazmağa daha çox fikir verirdim.
O həzrətin heyrətamiz hallarından biri də, üstünlükdə heç kəsin ona tay olmadığı fəsahət və bəlağətidir. Zahidlikdə, öyüddə, qorxutmaqda onun düşüncəsinə çatan yoxdur. O ucalıqda söz söyləmək, onun həndəvərinə yetişmək imkanına heç kim malik deyildir. Bu sözləri oxuyub ibrət alan adam

elə zənn edər ki, o həzrətin dünyadan nəsibi yalnız zahidlikdir, dünyanı tərk etməkdir, Allaha qulluq göstərməkdir. O bir küncə çəkilmiş, yaxud dağ ətəyinə sığınmış, xalqdan kizlənmişdir. Öz hisslərindən başqa bir şey duymaz, öz nəfsindən başqa bir səs eşitməz. Özündən başqa kimsəni görməz. Əsla inanmaq olmaz ki, döyüş dənizlərində dalğalar udan, coşub-daşan, vuruş dəryalarına baş vurub çıxan, əlində yalın qılınc haqdan boyun qaçıranların başlarını bədənlərindən ayıran, adlı-sanlı qəhrəmanları Allaha qulluq yolunda yerə sərən, qılıncından qan dama-dama qələbə meydanından dönən bir adamın sözləridir. Halbuki, bununla bərabər, yenə zahidlikdə, təvazökarlıqda, qulluqda dünyanın bütün zahidlərinin zahididir. Bəndəliyi ucalıqdan üstün tutanların başçısıdır. Bu, o həzrətə xas olan heyrətamiz xüsusiyyətlərdəndir. Onun nəfsində zidd şeylər: igidliklə təvazö'karlıq, ucalıqla itaətkarlıq bir yerə cəm olmuşdur.

Bu kitabın ehtiva etdiyi sözləri seçərkən tərəddüd etdiyim, mə'naca təkrarlanmış sözlərə rast gəldiyim anlar çox olmuşdur. Bunun səbəbi odur ki, o Həzrətin sözlərini çatdıran rəvayətlərdə ixtilaflar vardır. Çox zaman bir rəvayətə əsasən seçilib yazılan bir söz, başqa rəvayətdə bir başqa şəkildə gəlib çatmışdır. Bir cümləsi artıqdır. hətta mə'naca daha da gözəldir. Buna görə də, ehtiyatı əldən buraxmayıb, seçilən sözlərdən bir şeyin əskik olmamasını gözləyərək, o közəl sözlərin unudulmamasına çalışaraq o rəvayəti yazmışam. Zaman keçdikcə ilk rəvayətin unudulması, yaxud mə'lum olmaması üzündən, qəsdən olmamaq şərtilə eyni mə'nada, fəqət başqa bir tərzdə nəql edilməsi də mümkündür.

Bütün bu səyimə baxmayaraq, o Həzrətin sözlərindən heç birini buraxmadığım, hamısını da yazdığım barədə iddia etməkdən çox uzağam. Mənə çatmayan sözlərinin, çatanlardan daha artıq olması da mümkündür. Mən ancaq qüvvəm yetənə qədər çalışıb-əlləşmişəm. Həqiqəti aşkar edib doğru yolu işıqlandırmaq isə yalnız Allah-təalanın sonsuz lütfüylə mümkündür.

Bütün bu çalışmanın nəticəsi kimi meydana çıxan bu kitaba "Nəhcül-bəlağə" adını verməyi uyğun gördüm. Çünki bu kitab oxuyanlara, istəyənlərə bəlağət qapılarını açan, fəsahət qaydalarını çatdıran bir əsərdir. Alimin də bu kitaba ehtiyacı var, elm öyrənmək istəyənin də. Bəlağət və xitabətlə məşğul olanlar da istər bu kitabı, zöhd və təqva sahibləri də. Sözlərində tövhid, ədalət və Allah təalanı öz yaratdıqlarına bənzətməkdən çəkindirmək barəsində, arzu edənlərin yanğısını yatıra bilən, könüllərdəki dərdlərə dərman edən, gözləri

hər cür şübhədən, korluqdan qurtarıb işıqlandıran mə'nalar da vardır bu kitabın.
Allah-təaladan uğur, yanlışdan qurtarmaq, həqiqəti tapmaqda yardım diləyirəm. Dilimlə edə biləcəyim xətalardan əvvəl, könlümlə düşə biləcəyim xətalardan, ayaq sürüşməsindən əvvəl dilimin sürüşməsindən qorxaraq Ona sığınıram. O mənə yardım edər və o, necə gözəl bir vəkildir.

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّهِ عَلى ما عَرَّفَنا مِنْ نَفْسِهِ وَ أَلْهَمَنا مِنْ شُكْرِهِ وَ فَتَحَ لَنا مِنْ أَبْوابِ الْعِلْمِ بِرُبُوبِيَّتِهِ وَ دَلَّنا عَلَيْهِ مِنَ الْإِخْلاصِ لَهُ فِى تَوْحِيدِهِ وَ جَنَّبَنا مِنَ الْإِلْحادِ وَ الشَّكِّ فِى أَمْرِهِ وَ الصَّلوةُ عَلى عَبْدِهِ وَ رَسُولِهِ الْبَشِيرِ النَّذِيرِ السِّراجِ الْمُنِيرِ سَيِّدِ الْأَنْبِياءِ وَ الْمُرْسَلِينَ مُحَمَّدٍ وَ اٰلِهِ الْأَئِمَّةِ الطَّيِّبِينَ.

اللّهُمَّ عَجِّلْ فَرَجَهُمْ وَ انْصُرْ شِيعَتَهُمْ وَ أَهْلِكْ أَعْدائَهُمْ مِنَ الْأَوَّلِينَ وَ الْاٰخِرِينَ امِينَ رَبَّ الْعالَمِينَ

Kim diqqət və düşüncə ilə «Nəhcül-Bəlağə»ni mütaliə etsə, əbədi səadətə yol tapar. Kim ona əməl etsə, Allah və Peyğəmbərin razılığını əldə edər və onun nəticəsində dünya həyatında başı uca və qəlbi diri, qəbr və qiyamətdə rahat, Cənnətdə isə kam alan olar. Bu müqəddəs kitab, bəşəriyyətin hidayətçi və bələdçisi olan İslam elm və hikmətlərinin xülasəsidir və o, səadət və xoşbəxtliyə çatmaq üçün cahilcəsinə təəssübdən əl çəkən və bu kitabı özünə örnək edən kəsi məqsədinə çatdırır. Çünki onda nadanlıqlar üzərindən pərdə götürülüb, həqiqətlər aşkar edilib və oxucu bu əsərdə hər bir hadisədən xəbərdar olur. Buna görə də onunla tanış olan və ona əməl edən kəs azğınlıq yoluna qədəm qoymaz və avara və sərgərdan qalmaz. Onun bir fəslini diqqətlə mütaliə edən insaflı kəs bizim sözümüzün düzgünlüyünə və doğruluğuna inanar. Allaha şükr edirəm ki, uzun illərdən bəri onun məziyyət və xüsusiyyətləri ilə tanış olub bütün məclis və yığıncaqlarda hamını Əmirəl-möminin əleyhis-salamın kəlam və əməllərini araşdırıb onlara tabe olmağı tövsiyə edən məni ərəb dilini bilməyənlər üçün tərcümə və şərh etməyə müvəffəq edib. İndi dördüncü hissənin tərcümə və şərhinə başlayır və qadir Allahdan istəyirəm ki, bu və sonrakı iki hissəni başa çatdırmağa məni müvəffəq etsin.

اللّهمَّ أَغْنِنِى بِمَسئَلَتِكَ عَنْ مَسْئَلَةِ خَلْقِكَ وَارْحَمْنِى بِرَحْمَتِكَ يا أَرْحَمَ الرّاحِمِينَ

Fani bəndə : Əliyyənnəqi Feyzul-İslamİsfahani Ali -Məhəmməd əd - Dibac.

Bu fəsildə Əmirəl-möminin əleyhis-salamın xütbələri, fərmanları seçilib və bura o böyük şəxsiyyətin (öz dövründəki) məclislər, müharibələr və çətin işlərdə (buyurduğu moizə və öyüdlərdən ibarət) xütbə əvəzi olan bəzi kəlamları əlavə edilmiş¬dir.

Nəhcül-bəlağə. 1-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

2-ci xütbə→

İmam Əlinin (*əleyhis-salam*) səmanın və yerin yaradılışının, Adəmin xilqətinin başlanğıcının xatırlandığı xütbələrindəndir.

Bütün danışanların mədh etməkdə və öyməkdə aciz qaldığı Allaha həmd olsun![1] Onun nemət və bəxşişlərini saymaq istəyənlər, sayıb qurtara bilməzlər.[2] Çalışanlar Onun nemətlərinin haqqını qaytara bilməzlər.[3] O, elə bir mə'buddur ki, dərin düşüncəlilər belə Onu dərk edə bilməzlər. Əql və fikir dəryasına dalanlar (düşüncə dənizinə baş vuranlar) Onun zatının əslinə vara bilməzlər. (*Vücudu mümkün olan Onun zatının həqiqətlərini necə dərk edə bilər?*) O, elə bir mə'buddur ki, sifətlərini əhatə edə bilən hüdud yoxdur. (*Onun heç bir sifəti zatına əlavə deyil ki, məhdud olsun.*) Nə də Onun mövcud və sabit (*Onda məhdudlaşan, özəlləşən və Onun bütün sifətlərini əhatə edən*) sifəti vardır.[4] Onun üçün müəyyən edilmiş zaman da yoxdur.[5] Nə də Onun üçün uzun müddət vardır.[6] Məxluqatı Öz qüdrəti ilə yaratdı.[7] Külәkləri Öz mərhəmət və mehribanlığı ilə əsdirdi.[8] Yerin hərəkətini, titrəyişlərini nəhəng daşlar və əzəmətli dağlarla möhkəmləndirdi.[9]

Dinin əsası (*Allaha sitayişin səbəbi*) Onu tanımaqdır. (*Bilinməlidir ki, varlıqları yaradan Odur.*) Allahı tanımağın kamalı Onu təsdiqləyib Ona tərəf yönəlməkdir. Təsdiq etməyin kamalı tovhid və Onu tək bilməkdir. Tovhidin kamalı əməlləri Onun üçün xalis etməkdir.[10] İxlasın kamalı Onun zatına əlavə olunmuş sifətin təsəvvür edilməməsidir.[11] Çünki hər bir sifət vəsf olunandan ayrı olduğunu göstərir. Hər vəsf olunan isə sifətdən ayrı olduğuna dəlalət edir. (*Buna görə də*) Allahı vəsf edən (Onun zatına əlavə olunmuş sifətlə vəsf edərsə) Onun üçün hər hansı bir bənzər və tay bilmiş, (*«vacib-ül-vücud» olmaqda başqa mövcudu Ona tay tutmuş olar*). Başqasını Ona tay bilən ikiliyə düşmüş olar. İkiliyə düşən isə Onun bölünüb-parçalana biləcəyinə inanmış olar[12] Onun bölünə biləcəyinə inanan hər kəs Onu tanımır. Onu tanımayan Ona doğru işarə edər. Ona işarə edən Onu məhdudlaşdıraraq çevrələyər. (Onun üçün hədd və nəhayət yaradar.) Onu

məhdud hesab edən Onu sayar. (*Onu özündən xaricdə say vahidinə çevirər.*) «Nədədir?» sualını verən isə Onu nəyinsə daxilində yerləşdirər. (Onun üçün yer və məkan seçər.) «Nəyin üstündədir?» deyə soruşan bəzi yerləri Ondan boş hesab edər.[13]

Allah-təala həmişə olmuşdur, sonradan əmələ gəlmiş və yeni yaranmış deyil.[14] Yoxdan var olmayan bir varlıq və mövcuddur.[15] Hər şeylə yanaşı olmadan onlarladır. (Beləliklə, O, hər bir şeylədir. Yəni, hər bir şey Onunla dirçəlib, mövcud olub.*) Hər bir şeydən fərqlidir, amma onlardan kənar, ayrı deyil.*[16] *İş görəndir, Ondan iş hasil olur, amma bu, nə haldan-hala keçmə, nə hərəkət*[17] *və nə də alət mənasında deyil. (*Əgər alət vasitəsilə iş görərsə, demək Onun Özündən başqasına ehtiyacı var. Ehtiyac isə nöqsandır. Vücudu vacib olanın nöqsanlı olması qeyri-mümkündür. Buna görə də zatən gözü olmadan*) görəndir.*

Yaratdıqlarından heç biri olmayarkən də görən idi. Onunla üns tutmaq (aramlıq tapmaq üçün) və yoxluğundan dəhşətə gəlməmək üçün üns tutulan və aramlaşdıran (*əminlik əldə olunacaq bir şey*) olmadığı halda da tək və vahid idi. (*İndi ki, Onu tanıdın, qısacası bil ki, Odur tam qüdrət sahibi olan Allah ki,*) fikir və düşüncədən istifadə etmədən[18], heç bir təcrübə və sınaqdan faydalanmadan[19], Özündə heç bir hərəkət yaratmadan[20] və iztirablı, narahat nəfsin səyləri olmadan məxluqatı yaratdı.[21] Hər bir şeyi yoxdan və heçlikdən öz vaxtında varlığa çevirdi (*məsləhət olan anda onlara varlıq libası geydirdi*) və onların müxtəlifliklərі arasında uyğunluq yaratdı və təbiətlərini sabitləşdirdi. (*Hər bir tələbat və təbiəti öz istedadı qədərincə olan yerdə yerləşdirdi*) və O, təbiətləri həmin əşyaların ayrılmaz hissəsinə çevirdi[22] halbuki onları yaratmamışdan öncə, onlardan agah idi. O, şeylərin hüdudlarını, ətrafını və sonlarını əhatə edirdi. O, əşya, onun hissə və kənarlarına bağlı olan şeylərlə də tanış idi (*bütün məxluqatı ümumiliklərinə və xüsusiliklərinə qədər bilirdi*).

(*Allah-təalanı tanıdıqdan və aləmlərin yaranma tərzi barədə ümumi anlayışın olduqdan*) Sonra (*deyilənlərin ardı olaraq, indi müfəssəl şəkildə bil ki, Allah-təala öz güc və qüdrətiylə*) ucsuz-bucaqsız səmaları yardı, onun ətraf və kənarlarını açdı, fəzanın yuxarısında hava və boşluq yaratdı. Daha

sonra isə arasıkəsilməyən tələtümlü dalğaları olan və çoxluqdan bir-birinin üzərinə sıx yığılan suyu axdırdı. O, suyu möhkəm uğultu ilə əsən şiddətli və bərk küləyin belinə yüklədi, sonra isə küləyə o suyu (bir-birindən ayrılıb qopmaması üçün hər tərəfdən) qaytarmağı və möhkəm saxlamağı əmr etdi, küləyi suyun sərhədlərində saxladı və o suyun məkanında yerləşdirdi. Hava geniş və açıq küləyin altında, axan su isə yuxarısında (hərəkətdə idi). Bu zaman başqa bir külək yaratdı və onun əhatəsini məhdud etdi (*O, küləyi başqa bir şey üçün deyil, yalnız su dalğası üçün yaratdı*). Onu daima suyu hərəkət etdirməsi üçün yaratdı, onu möhkəm əsdirdi, onun yaranma mənşəyini (*əsmə yeri öyrənilə bilinməyən hissəsini*) əlçatmaz etdi. Sonra isə ona bol olan suyu hərəkətə gətirib bir-birinə qarışdırmaq və dənizlərin dalğasını tələtümləndirib qaldırmaq əmri verdi (*dənizin özündən olan suyun hər bir hissəsini dalğalandırmağı əmr etdi*). Sonra külək də suyu nehrə kimi çalxalayıb qarışdırdı, külək boş və geniş ərazidə əsirmiş kimi şiddətlə ona (*doğru*) əsdi. (O suyu elə çalxaladı ki,) suyun əvvəlini axırına qaytardı və hərəkətsizini, böyük su kütləsini yuxarı qalxıb, bir-birinin üzərinə sıx yığılmış su hissəsini köpükləndirəcəyi həddə qədər hərəkətə gətirdi. Sonra Allah-təala o köpükləri boş və geniş yerdə, açıq fəzada yuxarı qaldırdı, yeddi səmanı (*O köpüklərdən heç bir əyrilik olmadan yaratdı*). O, səmaların altında axıb tökülməsin deyə dalğa yaratdı, onların üstündə isə saxlayıcı sütunları olmadan, onları nizamlayan mıx (*və ya kəndir*) olmadan qorunan tavan yaratdı. Bu zaman O, səmaları ulduzlar və nur ələyənlərin işığı ilə zinətləndirdi. Onda günəşin nursaçan çırağını və parlaq ayı, dövr edən üfüqdə, seyr edən tavanda və hərəkətli lövhədə yerləşdiyi halda (*ulduzların, günəşin və ayın hər birini*) hərəkətə gətirdi.

Bu zaman isə səmaların arasını açdı, Özünün müxtəlif növ mələkləri ilə doldurdu (*Onların birinci dəstəsi elə mələklərdilər ki,*) onlardan bəziləri səcdə halındadırlar, ruku etmirlər, bəziləri isə ruku halındadırlar, ayağa qalxmırlar, bir dəstəsi isə cərgə ilə dayanıblar, öz yerlərindən kənara çıxmırlar və bəziləri də yorulmadan təsbih edəndirlər. (*Mələklərin heç bir növü maddi olmadığına görə*) onların gözlərinə yuxu, ağıllarına səhv gəlməz, onlarda nə süstlük, nə də unutqanlıq baş verər.

Onların başqa bir dəstəsi (*ikinci dəstə mələklər*) Allah vəhyinin əminləridir. Onun peyğəmbərləri uçün danışıq vasitəsi və tərcumanlarıdır, Onun hökm və

fərmanlarını yetirmək üçün get-gəl edirlər. Onların bir dəstəsi isə (*üçüncü hissəsi*) Onun bəndələrinin mühafizəçiləri, behiştlərinin keşikçiləridirlər. Onların başqa bir hissəsinin (mələklərin dördüncü dəstəsinin) ayaqları yerin ən alt təbəqələrində sabitdir, boyunları ən yüksək səmaları ötüb, əzaları cahanın hüdudlarından kənara çıxıb, onların çiyinləri ərşin dayaqlarıyla bərabərdir. (*İlahi nurun əzəmət və heybətindən*) ərşin müqabilində nəzərləri yerə dikilib və onun altında özlərini qanadlarına bürüyüblər.[23] O mələklər və onlardan daha aşağıdakılar arasında izzət hicabları və qüdrət pərdələri çəkilib.[24] (*O mələklərin Allahı tanımağı və mərifəti elə bir səviyyədədir ki,*) Allahı xəyallarında canlandırmaz, məxluqatın sifətlərini Ona aid etməzlər, Onu məkanla məhdudlaşdırmazlar, bənzər və misli olanlarla Ona işarə etməzlər.[25]

Bu xütbənin bir hissəsi Adəm əleyhis-salamın xəlq olunması barəsindədir

(*Böyük Allah yeri, göyü, günəşi, ayı və ulduzları yaratdıqdan*) sonra daşlıq ərazidən, torpağın hamar, əkin-səpinə yararlı yerindən və şoran torpaqdan bir qədər torpaq yığaraq onun üstünə təmizlənib saflaşana qədər su tökdü və bir-birinə yapışana qədər su ilə qarışdırdı. Yoğrulmuş torpaqdan ətrafları, üzvləri, birləşmələri və kəsişmələri olan surət yaratdı. Bir-birindən qopmaması üçün onu bərkitdi, möhkəmləndirib yumşaltdı, palçıq quruduqda müəyyən zaman üçün (*onu öz ixtiyarına buraxdı. Bu vaxt ona ruh və həyat verilməsi üçün zəruri idi*). Sonra qurumuş palçığa can verdi, insan şəklində ayağa qaldırdı. O, dərk oluna bilənlərin idrakında istifadə üçün idrak qüvvəsinə, işlərə yiyələnmək üçün düşüncəyə, özünə xidmət göstərmək üçün əzalara, işlərində hərəkət etdirmək üçün (*əl və ayaq kimi*) haqla batili, dadına baxılanlarla qoxulanları rənglərlə cinsləri bir-birindən ayırd etmək üçün fəhmə malik oldu. (*Qurumuş palçıq elə bir insan oldu ki,*) onun xilqəti və təbiəti müxtəlif rənglərlə qarışdı,[26] bir-birinə bənzər şeylərə (*sümük və diş kimi*) biri digərinə zidd halətlərə, bir-birindən ayrı təbiətlərə sahib oldu (həmin təbiətlər bundan ibarətdir:) istilikdən (*səfra*), soyuqluqdan (*bəlğəm*), rütubətdən (*qan*), quruluqdan (*sovda*) və (*təzadlı hallar isə bunlardır*) sevinc və qəm (*yuxu və oyaqlıq, aclıq və toxluq kimi hallar*). Böyük Allah (insanı yaratdıqdan və onu Adəm adlandırdıqdan sonra) öz əmanətini

mələklərdən istəyərək onlarla bağladığı əhd-peymanı yerinə yetirmələrini, (*mələklərlə bağlanan əhd-peyman, onlara verilən əmanət bu idi:*) Adəmə səcdə etmək üçün hazır olmalarını, onun böyüklük və əzəməti qarşısında təvazökarlıq göstərmələrini istədi.[27] Beləliklə, Allah-təala onu xəlq etdikdə Adəmə səcdə etmələrini buyurdu. Şeytandan başqa hamı səcdə etdi. Şeytan qürurlandı və lovğalandı, bədbəxtlik ona qalib gəldi, təkəbbür etdi. Oddan yaradıldığına görə özünü böyük sayaraq bir parça quru torpaqdan yaranmış Adəmi özündən aşağı sandı.[28] Beləliklə, Allah qəzəbinin ona şamil olması üçün Şeytana möhlət verdi.[29] Və (*şeytana da möhlət verdi*) onun imtahan və sınağının tamamlanması, ona verdiyi vədin başa çatması üçün buyurdu: «Sən məlum günə qədər möhlət verilmişlərdənsən» (*müəyyən olunmuş günə qədər həyatdan bəhrələn*).

(*Şeytanın İlahi əmrin əleyhinə çıxaraq, Adəmi öz qibləsinə çevirməməsindən, mələklər etdiyi kimi ona təzim etməməsindən*) sonra Allah-təala Adəmə azad və xoş güzərana şərait olan məkanda yer verdi və onun məkanını (bütün hadisələrdən) amanında saxladı.[30] Şeytandan və onun düşmənçiliyindən qorxutdu.[31] Sonra düşməni onu aldatdı (*Qur'ani-Kərimin Taha surəsinin 120-ci ayəsində buyurulduğu kimi:* فَوَسْوَسَ إِلَيْهِ الشَّيْطَانُ قَالَ يَا آدَمُ هَلْ أَدُلُّكَ عَلَى شَجَرَةِ الْخُلْدِ وَمُلْكٍ لَّا يَبْلَى *«Şeytan Adəmə vəsvəsə edərək dedi: «Ey Adəm! Səni əbədiyyət ağacı və zavalsız mülkə tərəf yönəltməyimi istəyirsənmi?» Belə sözlərlə Adəmi aldatdı*). Sonra düşməni o Həzrətin əbədi sarayda olmasının və xeyir əməl sahiblərilə ünsiyyətinin paxıllığını çəkdiyinə görə onu aldatdı, beləliklə, (*Adəm şeytanın vəsvəsəsinin təsirindən*) öz yəqinliyini itirərək şəkk və tərəddüdə düşdü.[32] (*Qadağan olunmuş ağacın meyvəsindən yeməmək barədə*) öz qərarını (*Allahın əmrinə itaətdə*) süstlük və səhlənkarlığa dəyişdi (*və meyvədən yedi*). Şadlıq və sevinc yerinə xofa və qorxuya mübtəla oldu (*şeytana aldandığını görüb öz əməlindən xəcalət çəkdi*) və peşmançılığını bildirdi. Beləliklə, Haqq-təala tövbənin yolunu öyrədərək rəhmət kəlməsini ona təlim etdi[33] və yenidən Behiştə (*əvvəlcə olduğu yerə*) qaytaracağına söz verdi. Sonra onu dərd-qəmli, bəla ilə dolu olan dünyaya, nəsilartırma və övladlarının doğum yerinə göndərdi.

Və[34] böyük Allah onun övladları arasından peyğəmbərlər seçdi, onlardan vəhy və risalətin təbliği üçün əhd-peyman aldı (*ki, Haqq-təala tərəfindən onlara çatdırılanların hamısını yerinə yetirəcəklər və xalqı Allahı tanımağa dəvət edərək bu yolda heç nədən çəkinməyəcəklər*)[35]. Halbuki insanların çoxu (*onlarda fitri olan*) ilahi əhd-peymana vəfa etmədilər.[36] Beləliklə, Onun haqqını bilmədilər (*və Onu vahid saymadılar*) və Ona bənzərlər, şəriklər qoşdular. Şeytanlar onları ilahi mərifətdən (*ki, əsas və fitri məqsəd idi*) daşındırdılar (aldatdılar) və Allaha sitayişdən çəkindirdilər. Beləliklə, Allah-təala onların arasından Öz peyğəmbərlərini seçərək onlarda fitri olan Tanrının əhd-peymanını tələb etmək və unudulmuş neməti (*fitri tovhidi*) xatırlatmaları, təbliğ yolu ilə onlarla söhbət etmələri (*dəlillərlə danışmaları*), gizlənmiş ağılları (*ki, küfrün tozu altında gizlənmiş və zəlalətin, günahların qaranlığının təsirindən örtülmüş idi,*) üzə çıxararaq işə salmaları və Allahın qüdrət nişanələrini onlara (*insanlara*) göstərmələri üçün onları bir-birinin ardınca göndərdi. (*Və onun qüdrət nişanələri bunlardan ibarətdir:*) Başlarının üstündə ucaldılmış səma, ayaqlarının altında sərilmiş yer, məişət güzəranları, məhv edən əcəllər, qocaldan və əldən salan xəstəliklər, dalbadal üzləşdikləri hadisələr. Allah-təala bəndələri göndərilmiş peyğəmbərlərdən, ya nazil edilmiş kitabdan, ya qəti dəlillərdən və ya möhkəm yoldan məhrum etmədi (və peyğəmbərlər) elə elçilər idilər ki, dostlarının azlığı və onlara qarşı çıxanların çoxluğu onları (*risalətin təbliğindən*) çəkindirmədi. Elə peyğəmbərlər idilər ki, gələcək peyğəmbərin adı qabaqcadan onlara deyilmişdi və ya ondan əvvəlki peyğəmbər onu tanıtdırmışdı.[37] (Şeytan insanların çoxunu aldatdığına və elə buna görə də fitri əhd-peymanlarına vəfa etmədiyinə, Haqqın haqqını dandığına görə, böyük Allah da hüccətin tamam olması və insanların doğru yola yönəlməsi üçün bir-birinin ardınca peyğəmbərlər göndərdi.) Beləliklə də, əsrlər yarandı, ruzgarlar ötüşdü, atalar vəfat etdi və övladları onların yerinə keçdi. Nöqsan sifətlərdən münəzzəh olan Allah Öz vədini yerinə yetirmək, peyğəmbərliyi o Həzrətlə yekunlaşdırmaq üçün (ondan sonra peyğəmbər göndərməyəcəkdir) Allahın Rəsulunu (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçdi. (Çünki o böyük insanı sonuncu peyğəmbər seçəcəyini əvvəlki peyğəmbərlərə vədə vermişdi.) Peyğəmbərlərdən əhd-peyman almışdı,[38] onun əlamət və nişanələri məşhurlaşdı. Anadan olduğu vaxt əziz və bəyənilmiş (vaxtların ən yaxşısı) idi və o vaxtlar camaat arasında dağınıq

məzhəblər, çoxsaylı bid'ətlər, müxtəlif təriqətlər yayılmışdı. Bir dəstə Allah-təalanı Öz yaratdıqlarına bənzədirdi[39] bəziləri Onun adında təsərrüf edirdilər.[40] Bir dəstə isə Ondan qeyrisinə işarə edirdilər.[41] Beləliklə, Allah-təala o Həzrətin vasitəsilə həmin insanları azğınlıqdan xilas etdi və onun şəxsiyyətinə görə onlara nadanlıqdan nicat verdi. Sonra (*o Həzrət xalqı doğru yola yönəltdi, onları ilahi maariflə tanış etdi və xeyir-ziyanlarını bəyan etdi*) Haqq-təala o böyük şəxsiyyətə öz yaxınlıq və rəhmətinin ən yüksək dərəcəsini əta etdi. Heç kəsin təsəvvürünə gətirə bilmədiyi məqam və rütbəni onun üçün bəyəndi, meylini dünyadan Özünə tərəf döndərdi. Onu müsibət və bəlalardan qurtararaq ruhunu Öz dərgahına götürdü. Ona və Əhli-beytinə Allahın salamı olsun! (*Camaatın qiyamət gününə qədər doğru yola yönəldilməsi üçün özünün dünyadan köçməsindən əvvəl*) sələfi olan peyğəmbərlərin öz ümmətləri arasında qoyduğunu sizin aranızda qoydu. Çünki peyğəmbərlər onları aydın yolsuz və aşkar nişanəsiz özbaşına buraxmamışlar. O Həzrət də Allahınızın Kitabını sizin ixtiyarınızda qoydu. Onun halal-haramını, vacib-müstəhəblərini, nasix-mənsuxunu, ruxsət və əzaimlərini, ümum və xüsusunu, ibrət və məsəllərini, mütləq və müqəyyədini, möhkəm və mütaşabehini bəyan etməklə mucməllərini təfsir, müşküllərini aşkar etmişdir.[42] Və o kitabın mətləbləri bilmək və öyrənmək vacib olandan[43] onu bilməməyin maneəsi olmayandan[44] vacibliyi sübuta yetirilmiş, sünnədə isə nəsx edilib aradan qaldırıldığı məlum olandan[45] əməl edilməsi sünnədə vacib olan və ona əməl edilməməsinə də icazə veriləndən[46] xüsusi bir vaxtda vacib olan, başqa vaxtlarda isə vacib olmayandan[47] ibarətdir. O kitab haram olmuşlar arasında fərq qoymuşdur: Belə ki böyük günah törədənə atəş və əzab vədəsi vermiş,[48] kiçik günaha batan kəs üçün isə bağışlanmaq hazırlamışdır.[49] Və (yenə də o kitabın mətləbləri) azının qəbul edildiyi, çoxunun isə daha layiqli, bəyənilən olan və ilzami olmayan şeylərdən (*ibarətdir*).[50]

Bu xütbənin bir hissəsi də Həcc barəsindədir

(*Kə'bənin tikilməsinin bəzi sirləri, Həcc ziyarətini yerinə yetirənlərin əməlləri və imkanı olanın onu ziyarət etməsinin vacibliyi xatırlanmışdır*) Böyük Allah Beytül-Həramın ziyarətini sizə vacib etdi (*elə bir Evin həccini ki, ora daxil olanlara bir çox şey haram edilmişdir*) və onu xalqın qibləsi

etdi. Həcc ziyarətini yerinə yetirənlər oraya dördayaqlılar kimi daxil olar,[51] göyərçinlərin (*öz yuvalarına olan*) şövqü kimi ora gəlməyə şövqlə can atarlar. Pak olan Allah xalqın Onun əzəmət və böyüklüyü qarşısında baş əyməsi, izzət və səltənətinin onlar tərəfindən təsdiqi üçün o evi bir əlamət və nişanə etdi. Öz bəndələrindən dəvətini eşidib qəbul edənləri seçdi[52] və fərmanını təsdiqləyərək yerinə yetirər. Onlar peyğəmbərlərin yerində dayanıb özlərini Allah-təalanın ərşini təvaf edən mələklərə oxşadırlar və Allaha bəndəlik, sitayiş müamiləsindən (imanın sərmayəsi ilə) böyük qazanc götürürlər. Onun, günahları bağışlayacağını vədə verdiyi yerə (*çatmaq üçün*) tələsir, bir-birindən önə keçirlər. Pak Allah o Evi İslamın əlamət və nişanəsi, pənah gətirənlərin pənahgahı etdi, onun həccini vacib, ehtiramının qorunmasını lazım bilib ora getməyi əmr etdi. Sonra (Qur'ani-Kərimin Ali-İmran surəsinin 97-ci ayəsində) buyurdu: «Beytül-Həramın ziyarəti insanlardan, ora getmək iqtidarında olanın üzərində Allahın haqqıdır. (*Bu haqqı yerinə yetirmək vacibdir.*) Haqq-təalaya kafir olan hər kəs (*ora getməyə iqtidarı olduğu halda İlahi əmri yerinə yetirməzsə*) Allah-təalaya heç bir ziyan vurmayıb, çünki Allahın dünya əhalisinə ehtiyacı yoxdur (*bəndələrin ibadət və imanına möhtac deyil. Deməli, itaətsizlik edən özü ziyana uğramış olar*).

Şərhlər

1. ↑ *Onun zatına layiq olan tərif və mədh etmək gücündə deyillər. Buna gö-rə də Həzrəti Seyyid-ul-mürsəlin buyurmuşdur:* لا أُحْصِى ثَنَاءً عَلَيْكَ أَنْتَ كَمَا أَثْنَيْتَ عَلى نَفْسِكَ *** *«Mən Səni mədh etmək qüdrətində deyiləm. Gərək Sən Özün müqəddəs zatını mədh edəsən».*
2. ↑ *Haqq-təalanın əta etdiyi nemətlər saysız-hesabsızdır və onların sonunu təsəvvür etmək mümkün deyil. Qur'ani-Kərimin İbrahim surəsinin 34-cü ayəsində buyurulur:* وَاِنْ تَعُدُّوا نِعْمَتَ اللهِ لا تُحْصُوها *«Allahın nemətlərini saymaq istəsəniz buna qüdrətiniz çatmaz.» Elə isə Yaradanın nemətlərini saya bilməyən kimsə, Onun haqqını necə ödəyə və Ona necə şükr edə bilər?*
3. ↑ *Belə isə, şükür etməyin ən yüksək dərəcəsi bəndənin Onun*

nemətlərinin haqqını ödəməkdə aciz olduğunu etiraf etməsidir.

4. ↑ Məhdudlaşma və ehtiva olunma vücudu mümkün olanlara xasdır. Vücudu vacib olan Allah-təala bundan münəzzəhdir.
5. ↑ *Onun barəsində «xeyli vaxt öncədən mövcud olduğu» söylənilə bilməz. Çünki O, zamanın yaradıcısıdır və zamanın içində olmağa ehtiyacı yoxdur ki, zaman onu əhatə edə bilsin.*
6. ↑ *Onunla tamamlansın. Yəni, Onun müddəti yoxdur, əzəli və əbədi olan Odur. Zamanı yoxdur ki, sonu və müddəti olsun. Belə ki, zaman hərəkətin ölçüsüdür. Hərəkət isə maddənin xassələrindəndir. O isə materiyadan uzaqdır. Deməli, Onun zaman içində olması qeyri-mümkündür.*
7. ↑ *Qur'ani-Kərimin İsra surəsinin 51-ci ayəsində buyurulur: «فَسَيَقُولُونَ مَنْ يُعِيدُنا قُلِ الَّذِى فَطَرَكُمْ أَوَّلَ مَرَّةٍ» Deyərlər bizi ölümdən sonra kim qaytarıb dirildəcəkdir? Ey Peyğəmbər, onların cavabında de ki, sizləri ilk dəfə yaradan yenidən dirildəcək.*
8. ↑ *Qur'ani-Kərimin Ə'raf surəsinin 57-ci ayəsində buyurulduğu kimi: وهُوَ الَّذِى يُرْسِلُ الرِّيَاحَ بُشْراً بَيْنَ يَدَىْ رَحْمَتِهِ «Rəhməti olan yağışı yerə yağdırmazdan öncə külәkləri müjdə kimi göndərən Odur.*
9. ↑ *Sizin rahat yaşamanız üçün tərpənib silkələnməsin. Qur'ani-Kərimin Nəhl surəsinin 15-ci ayəsində buyurulduğu kimi: وَأَلْقَى فِي الْأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِكُمْ «Böyük Allah yeri, tərpənib sizi bir tərəfdən başqa tərəfə atmaması üçün nəhəng dağlarla möhkəmləndirdi.*
10. ↑ *Çünki tovhid ixlasdan başqa bir yolla kamilləşə bilməz. Yəni, Allahı tanıyanın hər bir sözü, hər bir əməli Ona xatir olmalıdır, heç bir dünyəvi məqsədlərə qarışmamalıdır.*
11. ↑ *Məsələn, «Haqq-təalanın elmi Onun zatına artırılmış, özündən xaric bir sifətdir» deyilməsin. Belə düşüncə təkallahlılığa və tovhidə ziddir.*
12. ↑ Bölünüb-parçalana bilən hər bir şey isə tərkibdən təşkil olunub və hər tərkib də hissələrdən ibarətdir.
13. ↑ *«Harada deyil», «nəyin üstündədir» deyərsə Onu materiya və tərkibdən ibarət sanmış olar. Bundan isə belə çıxar ki, O sonradan əmələ gəlmiş, yeni yaranmışdır.*

14. ↑ *Bu cümlədə O Həzrət müəyyən zamanda yaranışı Haqq-təaladan istisna edir.*
15. ↑ *Onun varlığı zatən sonradan yaradılmış deyil. Bu cümlədə də Onun zatının yoxdan var olması istisna olunur.*
16. ↑ *Belə ki, hər hansı bir şeydən kənara çəkilsə, ondan bir şey qalmaz. Çünki hər şeyi saxlayan Odur.*
17. ↑ *Çünki hərəkət materiyanın xassəsidir. O isə, materiyadan uzaqdır.*
18. ↑ *Çünki hər bir işdə düşünmək, olmamış bir işin baş tutması üçündür. Belə ki, hər şey zat məqamında Allah-təala üçün əzəli və əbədi olaraq sabitdir.*
19. ↑ *Çünki təcrübə sınaq vasitəsilə elm əldə etmək istəyənlərə aiddir, elmi zatı ilə eyni olan Allah-təala üçün deyil.*
20. ↑ *Onun yaratması hərəkətə əsaslanmır. Çünki hərəkət dəyişiklik deməkdir. Dəyişiklik isə, imkan aləminin xassələrindəndir.*
21. ↑ *Gördüyü işin düzgün olub-olmaması barədə narahatlıq keçirmədən. Belə ki, iztirab və narahatlıq işlərin sonunu bilməməkdən irəli gəlir. Nadanlıq və cəhalət isə, zatı ilə elmi eyni olana rəva deyil.*
22. ↑ *Belə ki, onların arasında ayrılıq mümkün deyil; Şücaət igid insanın ayrılmaz xüsusiyyəti, səxavət kəramətli insanın ayrılmaz sifəti olduğu kimi bir sözlə məxluqatı yaratdı,*
23. ↑ *İki qanadı ilə bacardığı qədər havada uça bilən quş tək, İlahi maarifin sonsuz aləmlərində seyr edə biləcək həddə öz elm və mərifətlərinə qərq olublar.*
24. ↑ *O pərdənin arxasına peyğəmbərlər, onların vasiləsi və Allahın xüsusi bəndələrindən başqa heç kəsin elmi yolu yoxdur.*
25. ↑ *Çünki mələklər elmli və Allahı tanıyandırlar. Allahı bir şəkildə təsəvvür edən, məxluqatın sifətlərini Ona aid edən, Onu məhdudlaşdıran və Ona tərəf işarə edən nadandır; bundan əvvəl Allahı tanıma və mərifət fəslində bəyan olunduğu kimi.*
26. ↑ *Sümüyünün ağlığı, qanının qırmızılığı və tükünün qaralığı kimi, əzasının hər bir üzvü hikmətə uyğun olaraq bir rəngdə oldu.*
27. ↑ Qur'ani-Kərimin Sad surəsinin 71-ci və 72-ci ayələrində buyurulduğu kimi: إِذْ قَالَ رَبُّكَ لِلْمَلَائِكَةِ إِنِّي خَالِقٌ بَشَرًا مِن طِينٍ فَإِذَا

سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُّوحِي فَقَعُوا لَهُ سَاجِدِينَ «Sənin Allahının mələklərlə «Mən Adəmi torpaqdan xəlq edəcəyəm, yaradıb ruh verildikdə onun müqabilində əyilərək səcdə qılarsınız» dediyi günü yada sal. Yəni, ona təzim edin və ya onu öz qiblənizə çevirin».

28. ↑ *Həzrəti Rəbbil-Aləminə qarşı çıxaraq dedi: «Mən ondan daha üstün olduğuma görə Adəmə səcdə etmədim. Çünki məni oddan, onu isə torpaqdan xəlq etmisən». Bu iddiada olduğuna görə, Allah ona mələklərin sırasından çıxmasını əmr etdi: «Sən Mənim rəhmətimdən qovuldun. Qəzəb və lənətim cəza gününə qədər sənindir». Bu vaxt Şeytan dedi: (Qur'ani-Kərimin Sad surəsinin 79-cu ayəsində buyurulduğu kimi:) رَبِّ فَأَنْظِرْنِي إِلَى يَوْمِ يُبْعَثُونَ «Ey Allah, insanların diriləcəyi günə qədər mənə möhlət ver» Bəlkə də məqsədi ölümdən xilas olaraq daima diri qalmaq olmuşdur.*

29. ↑ Necə ki, Qur'ani-Kərimin Ali-İmran surəsinin 178-ci ayəsində kafirlər barəsində buyurur: وَلاَ يَحْسَبَنَّ الَّذِينَ كَفَرُواْ أَنَّمَا نُمْلِي لَهُمْ خَيْرٌ لِّأَنفُسِهِمْ إِنَّمَا نُمْلِي لَهُمْ لِيَزْدَادُواْ إِثْمًا وَلَهُمْ عَذَابٌ مُّهِينٌ «Kafir olanlara möhlət verməyimizin onlar üçün yaxşı olduğunu güman etməsinlər. Möhlət verməyimiz daha çox günah edib rüsvayedici əzaba mübtəla olmalarından başqa bir şey deyil».

30. ↑ *Qur'ani-Kərimin Bəqərə surəsinin 35-ci ayəsində buyurulduğu kimi: وَقُلْنَا يَا آدَمُ اسْكُنْ أَنتَ وَزَوْجُكَ الْجَنَّةَ وَكُلاَ مِنْهَا رَغَداً حَيْثُ شِئْتُمَا وَلاَ تَقْرَبَا هَـذِهِ الشَّجَرَةَ فَتَكُونَا مِنَ الْظَّالِمِينَ «Dedik: Ey Adəm! Sən və zövcən Həvva cənnəti öz məkanınıza çevirin, onun nemətlərindən istədiyiniz qədər tam şadlıqla yeyin və bu ağaca yaxınlaşmayın. Əgər yaxın gəlsəniz, zülümkarlardan olmuş olarsınız».*

31. ↑ *Qur'ani-Kərimin Taha surəsinin 117-ci ayəsində buyurulur: فَقُلْنَا يَآ ادَمُ إِنَّ هَذَا عَدُوٌّ لَّكَ وَلِزَوْجِكَ فَلَا يُخْرِجَنَّكُمَا مِنَ الْجَنَّةِ فَتَشْقَى «Dedik: Ey Adəm! Bu sənin lə və zövcənlə düşməndir. Diqqətli olun ki, sizi cənnətdən çıxardaraq, bədbəxtliyə düçar eimək üçün bir iş görməsin».*

32. ↑ *Həmin ağacın meyvəsini yeməmək ona əmr edilsə də, xeyrinin, meyvəni yeməkdə olduğunu güman etdi.*

33. ↑ *Tövbəsini qəbul etmək istədiyinə görə, rəhmət kəlməsini ona öyrətdi ki,*

tövbəsinin qəbul olunması üçün Allah-təalanı onunla səsləsin.

34. ↑ *Həzrəti Adəm dünyada məskunlaşdıqdan və ondan çoxlu övladları və nəsli dünyaya gəldikdən sonra.*

35. ↑ *Qur'ani-Kərimin Əhzab surəsinin 7-ci ayəsində buyurulur:* وَإِذْ أَخَذْنَا مِنَ النَّبِيِّينَ مِيثَاقَهُمْ وَمِنكَ وَمِن نُّوحٍ وَإِبْرَاهِيمَ وَمُوسَى وَعِيسَى ابْنِ مَرْيَمَ وَأَخَذْنَا مِنْهُم مِّيثَاقًا غَلِيظًا *«Peyğəmbərlərdən vəhy və risalətin təbliği haqda əhd-peyman aldığımızı yada sal. Səndən, Nuh və İbrahimdən, Musa və İsa ibn Məryəmdən möhkəm əhd-peyman aldıq».*

36. ↑ *Necə ki, Qur'ani-Kərimin Ə'raf surəsinin 172-ci ayəsində buyurulur:* وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنْفُسِهِمْ أَلَسْتُ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا *«Sənin Allahının Adəm övladlarından onlar atalarının belində olduqları vaxt peyman aldığını və onlarda fitri olan Allahı tanımağı və tovhidi etiraf etmələri üçün onları özlərinə şahid tutduğunu yada sal. Sonra dedi: «Mən sizin Tanrınız deyiləmmi?» Dedilər: «Bəli, şəhadət veririk ki, sən bizim Tanrımızsan». Lakin öz fitri əhd-peymanlarına vəfa etmədilər.*

37. ↑ *Öz ümmətinə onun peyğəmbərliyinin müjdəsini vermişdi. Qur'ani-Kərimin Səff surəsinin 6-cı ayəsində buyurulduğu kimi:* وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقًا لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ *İsa ibn Məryəmin «Ey Bəni-İsrail, mən Allahın sizə göndərdiyi elçi və məndən əvvəlki Tövratı təsdiqləyənəm, məndən sonra adı «Əhməd» (səlləllahu əleyhi və alih) olacaq peyğəmbərin müjdəsini verirəm» dediyini yada sal».*

38. ↑ Peyğəmbərlər də onun risalətini izhar etməli və onun seçilməsini, sonuncu peyğəmbər olmasını və peyğəmbərliyin onunla sona çatmasını öz ümmətlərinə xəbər verməli idilər.

39. ↑ *Onun xəlq edilmişlər kimi bədən üzvləri və məkanı olduğunu sanan «mucəssimə» tayfası kimi.*

40. ↑ *Allahın adlarını seçərək öz bütlərinə qoymuşdular. Bütpərəst ərəblər Allahdan Latı, Əzizdən Uzzanı, Mənnandan Mənatı götürərək onları öz mə'budları hesab edirdilər.*

41. ↑ Təbiəti və planetlərin hərəkətinin, vaxtın ötməsinin bütün işlərin səbəbi olduğuna inanan materialistlər kimi. Bir sözlə, bu kimi batil din və inanclar dünyanı zülmətə qərq etmişdi.
42. ↑ *O Kitabın halalı: Maidə surəsinin 1-ci ayəsində olduğu kimi, أُحِلَّتْ لَكُم بَهِيمَةُ الْأَنْعَامِ yəni, «dili bağlı dördayaqlıların əti sizə halaldır və onda heç bir qadağa yoxdur». Onun haramı isə Maidə surəsinin 3-cü ayəsində göstərildiyi kimi حُرِّمَتْ عَلَيْكُمُ الْمَيْتَةُ وَالْدَّمُ وَلَحْمُ الْخِنْزِيرِ «ölmüş heyvanın əti, qan və donuz əti sizə haram və qadağan olmuşdur». Onun vacibi, Bəqərə surəsinin 43-cü ayəsində olduğu kimi أَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ «namaz qılın və zəkat verin», müstəhəbbi isə İsra surəsinin 79-cu ayəsindəki وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً «nafilə namazı üçün gecənin bir vaxtı oyan», nasixi Tövbə surəsinin 5-ci ayəsindəki kimi فَاقْتُلُواْ الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ «müşrikləri harda görsəniz öldürün». Bu ayə sülh barəsində olan ayənin nasixidir, məsələn Kafirun surəsinin 6-cı ayəsi لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ «İndi ki, öz şirkinizdən əl çəkmirsiniz, sizin, din və ayinləriniz sizin, tovhid isə mənim dinim olsun», bu ayənin mənsuxudur; ruxsətləri, yəni, bəndələrin işlərinin yüngülləşməsi üçün yaradılmış əhkamları, məsələn Bəqərə surəsinin 184-cü ayəsindəki kimi فَمَن كَانَ مِنكُم مَّرِيضًا أَوْ عَلَى سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَر «Sizlərdən Ramazan ayında xəstə və ya səfərdə olanlar, Ramazandan qeyri aylarda, xəstə və müsafir olarkən tutmadığınız günlər qədər oruc tutsun», onun əzaimləri, yəni, keçilməsi mümkün olmayan əhkamları Bəqərə surəsinin 185-ci ayəsində olduğu kimi فَمَن شَهِدَ مِنكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ «Səfər etməyən və vətənində olan hər bir şəxs ayı gördükdə oruc tutmalıdır», onun xassı, yəni, xüsusi halallar barəsində deyilən, amma mənası ümumi hallara da aid olan sözlər; Maidə surəsinin 32-ci ayəsində deyildiyi kimi مِنْ أَجْلِ ذَلِكَ كَتَبْنَا عَلَى بَنِي إِسْرَائِيلَ أَنَّهُ مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الْأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا «Adəmin oğlu Qabil qardaşı Habili öldürdüyünə görə peşman olduğundan Bəni-İsrailə göstəriş verdik ki, hər kəs heç kəsi qətlə yetirməyən və yer üzündə ölümlə

nəticələnən bir fəsad törətməyən bir kəsi öldürərsə, bütün camaatı öldürmüş kimidir. Bir kəsin həyat və yaşayışına səbəb olan kimsə isə sanki bütün camaatı diriltmişdir». Bu ayə Bəni-İsrail barəsində nazil olsa da mənası bütün insanlara şamildir. Onun ümumu isə Bəqərə surəsinin 47-ci ayəsində deyildiyi kimi يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُواْ نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَنِّي فَضَّلْتُكُمْ عَلَى الْعَالَمِينَ *«Ey Bəni-İsrail, sizlərə bəxş etdiyim nemətlərimi və sizi dünya əhlindən üstün etdiyimi yada salın». Burada dünya əhli sözü ümumi məna daşıyır və bütün dünya əhalisinə şamil edilir. Lakin onun mənası Bəni-İsrail dövrünün insanlarına məxsusdur. Onun ibrətləri isə heyrətamiz və bir növ öyüd-nəsihətdir, Naziat surəsinin 25 və 26 -cı ayələrindəki kimi:* فَأَخَذَهُ اللَّهُ نَكَالَ الْآخِرَةِ وَالْأُولَى إِنَّ فِي ذَلِكَ لَعِبْرَةً لِّمَن يَخْشَى *«Böyük Allah Fironu axirət əzabı olan odda yanmağa və dünya əzabı olan suda batmağa mübtəla etdi, onun batması qorxan hər kəs üçün hər zaman ibrətdir. Onun məsəlləri, yəni, təşbihlərə şamil olan ayələri, məsələn Cumə surəsinin 5-ci ayəsində olduğu kimi,* مَثَلُ الَّذِينَ حُمِّلُوا التَّوْرَاةَ ثُمَّ لَمْ يَحْمِلُوهَا كَمَثَلِ الْحِمَارِ يَحْمِلُ أَسْفَارًا *«Tövratı oxuyub-öyrənməyə məmur olunan, lakin ona əməl etməyənlər böyük kitabları daşıyan uzunqulaq kimidir», onun mütləqi, yəni, qeyd vurulmamış kəlmələri, Maidə surəsinin 6-cı ayəsində olduğu kimi:* يَآ أَيُّهَا الَّذِينَ امَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ وُجُوهَكُمْ *«Ey iman gətirənlər, namaza dayandıqda, üzlərinizi yuyun», onun müqəyyədi, yəni, qeyd vurulan kəlmələri, Maidə surəsinin 6-cı ayəsində olduğu kimi* وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ *«Dəstəmaz alarkən əllərinizi dirsəklərinizlə (birlikdə) yuyun», onun möhkəmi, yəni, mənasında səhv və şübhə yeri olmayan kəlmələri, Bəqərə surəsinin 231-ci ayəsindəki kimi:* وَاعْلَمُواْ أَنَّ اللّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ *«Bilin ki, Allah hər şeydən agahdır», onun mütəşabihi, yəni, mənası aydın olmayan kəlmələri, Bəqərə surəsinin 228-ci ayəsində olduğu kimi* وَالْمُطَلَّقَاتُ يَتَرَبَّصْنَ بِأَنفُسِهِنَّ ثَلاَثَةَ قُرُوءٍ *«Tələğı verilmiş qadınlar iki heyzdən ibarət olan üç paklanma dövrü və ya üç heyz müddəti gözləsinlər», çünki ərəb dilində «قُرُوء» kəlməsinin tək forması olan «قُرْء» kəlməsi*

hicazlılar arasında «طهر» paklanma, iraqlılar arasında isə «heyz» mənasındadır. Onun mucməli, Bəqərə surəsinin 43-cü ayəsində olduğu kimi: أَقِيمُواْ الصَّلوةَ «Namaz qılın», onun müşkülü Məryəm surəsinin 1-ci ayəsi kimi; كهيعص «Kaf, hə, yə, əyn, sad».

43. ↑ Böyük Allahın vahidliyini bilmək kimi, necə ki, İbrahim surəsinin 52-ci ayəsində buyurulur: لِيَعْلَمُواْ أَنَّمَا هُوَ إِلَـهٌ وَاحِدٌ «Bilməlisiniz ki, odur vahid olan Allah»
44. ↑ Fussilət surəsinin 1-ci ayəsi olan حم «ha, mim»in mənasını bilməmək kimi
45. ↑ Nisa surəsinin 15-ci ayəsində olduğu kimi وَاللاَّتِي يَأْتِينَ الْفَاحِشَةَ مِن نِّسَآئِكُمْ فَاسْتَشْهِدُواْ عَلَيْهِنَّ أَرْبَعةً مِّنكُمْ فَإِن شَهِدُواْ فَأَمْسِكُوهُنَّ فِي الْبُيُوتِ حَتَّىَ يَتَوَفَّاهُنَّ الْمَوْتُ أَوْ يَجْعَلَ اللهُ لَهُنَّ سَبِيلاً «Sizin qadınlarınız arasında zina edən ərli arvadların pis işlərinə öz içinizdən həddi-buluğa çatmış, ağıllı, ədalətli, dörd mömin kişini şahid tutun. Onlar şəhadət versələr, o qadınları öz evlərində ölüncəyə və ya Allah onları həbsdən azad edincəyə qədər saxlayın». Deməli, bu ayənin məzmununa görə, zinakar qadınların hökmü ölüncəyə qədər öz evlərində saxlanaraq, həbs olunmaları idi. Sünnədə həbs hökmü nəsx olaraq, daşqalaq edilmə ilə dəyişdi
46. ↑ İslamın ilk dövrlərində Beytül-Müqəddəsə doğru namaz qılmaq sünnəyə görə vacib idi. Qur'anda isə nəsx olundu. Bəqərə surəsinin 144-cü ayəsində buyurulur: فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ وَحَيْثُ مَا كُنتُمْ فَوَلُّواْ وُجُوهَكُمْ شَطْرَهُ «Kə'bə evi olan, Beytül-Hərama tərəf namaz qılın, harada olursunuz-olun, üzlərinizi ona tərəf döndərin»
47. ↑ Cumə surəsinin 9-cu ayəsində buyurulduğu kimi: يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نُودِىَ لِلصَّلَاةِ مِن يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلَى ذِكْرِ اللَّهِ «Ey iman gətirənlər, cümə günü namaza çağırıldığınız zaman namaz qılmağa tələsin»; Beləliklə, cümə namazı yalnız cümə gününə məxsusdur, başqa günlərdə isə vacib deyil.
48. ↑ Nisa surəsinin 93-cü ayəsində buyurulur: وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا «Qəsdən mömin öldürənin cəzası cəhənnəmdir və əbədi olaraq orada qalacaqdır»
49. ↑ Rə'd surəsinin 6-cı ayəsində buyurulur: وَإِنَّ رَبَّكَ لَذُو مَغْفِرَةٍ لِّلنَّاسِ عَلَى ظُلْمِهِمْ «Sənin Rəbbin camaatın etdiyi zülm və sitəmə görə bağışlayandır». Bağışlanan

zülm dedikdə, kiçik günahlar nəzərdə tutulur.

50. ↑ *Muzzəmmil surəsinin 20-ci ayəsində olduğu kimi فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ «Mümkün olan qədər Qur'an oxuyun». Deməli, onun az oxunmasını da qəbul edir, çox oxunmasını isə bəndələrin öz ixtiyarına qoyub və bunu etməyən kəsin boynuna bir şey gəlməz.*

51. ↑ *Onların savaba çatmaq üçün həmin Evdə izdihamlı hərəkətləri, təşnə dördayaqlıların su başına toplaşması kimidir.*

52. ↑ *Ora getmək üçün Qur'ani-Kərimin Həcc surəsinin 27-ci ayəsində buyurulduğu kimi: وَأَذِّن فِي النَّاسِ بِالْحَجِّ يَأْتُوكَ رِجَالًا وَعَلَى كُلِّ ضَامِرٍ يَأْتِينَ مِن كُلِّ فَجٍّ عَمِيقٍ «Ey İbrahim, xalqı səslə və onu həccə dəvət et. Xalq sənin tikdiyin Evə minikləri zəif, arıq dəvə olsa da belə hər uzaq yoldan atlı-piyada gələr*

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

İmam Əli əleyhis-salamın Siffeyndən qayıtdıqdan sonra oxuduğu xütbələrdəndir:
(*Siffeyn Fəratın Şama tərəf olan qərb istiqamətində yerləşən ərazidir. Burada o Həzrətlə Müaviyə arasında olan məşhur döyüş baş vermişdir.*)
Verdiyi nemətini tamamladığına, izzəti müqabilində itaət etdiyimə və məni günahlardan saxladığına görə Allaha həmd edirəm. (*Hər bir nemətin müqabilində şükür etmək neməti artırmaqdan əlavə, günah etməmək və bəndəlik üçün də bir vasitədir.*) Möhtaclıqdan qurtarmaq üçün Ondan kömək diləyirəm, çünki Onun hidayət etdiyi şəxs azmaz və Onunla düşmənçilik edib Ona itaət etməyən şəxs isə nicat tapmaz. Onun ehtiyacdan qurtardığı kəs möhtac olmaz, çünki Onun ehtiyacdan qurtarmağı (*əgər əql tərəzisi ilə ölçülsə*) eyni çəkidə və bərabərində olan hər bir şeydən daha artıqdır, saxlanıb, qorunan hər şeydən (*xəzinələrdəki cəvahirlərdən*) daha yaxşıdır.

Şəhadət verirəm ki, bütün kamal sifətləri özündə cəmləşdirən Allahdan başqa heç bir mə'bud yoxdur və şəriki olmayan yalnız Odur. Şəhadət verirəm, doğru və ixlaslı bir şəhadətlə (*dildə deyib qəlbdə inanmadan deyil*), diri olduqca özümüzü onunla (*kəlmeyi-şəhadətlə*) günahlardan qoruyur, qiyamətdə bizi gözləyən qorxular və çətinliklər üçün ona olan imanı azuqə saxlayırıq. Çünki kəlmeyi-şəhadət imanın şərti, ilahi ehsanı vüsətləndirən, Allah-təalanın razılığına, şeytanın isə uzaqlaşmasına səbəbdir. [1] Şəhadət verirəm ki, Məhəmməd (səlləllahu əleyhi və alih) Allahın bəndəsi və Onun elçisidir. Allah onu, şöhrəti bütün dünyanı bürümüş dinlə, çatan nişanələrlə (*o Həzrətin möcüzələri*), gətirdiyi kitabla (*ki, xalqın arasındadır*), parlaq nur və işıq saçan aydınlıqla (əqli və nəqli dəlillərlə), haqla batili bir-birindən ayıran fərmanla batil şübhələri (*küfr və şirki*) aradan götürüb, xalqla dəlillər əsasında söhbət etmək, öz möcüzələrini göstərmək, onları Qur'an ayələriylə tənbeh edərək əvvəlki ümmətlərə verilmiş əzablarla (*ibrət götürərək günah və itaətsizlikdən əl çəkmələrindən ötrü*) qorxutmaq üçün göndərdi. Onu insanların (*müxtəlif inanclara, fikir ayrılığı və azğınlığa görə*) çoxsaylı fitnələrə mübtəla

olduğu bir vaxtda göndərdi. O zaman dinin kəndiri qırılmış, imanın dirəkləri sarsılmışdı, dinin əsası ixtilaflı idi, işi (*əhkamı*) isə bir-birinə qarışmışdı, bu fitnələrdən qurtulmaq üçün yol daralmışdı (*ondan qaçmaq qeyri-mümkün olmuşdu*), doğru yola yönəlmək üçün heç bir vasitə yox idi. Beləliklə, doğru yol göstərmə və hidayət itib-batmış, korluq və azğınlıq yayılmışdı. Allaha asi, şeytana isə köməkçi olmuşdular. İman zəlil, onun dayaqları viran olmuş, iz və nişanələri dəyişmiş, yolları dağılıb məhv olmuşdu. İnsanlar şeytana tabe olaraq, onun yolu ilə gedir, şeytanın bulağından su içirdilər (*azğınlıq suyu içirdilər. Yəni, onun göstərişlərini qəbul edirdilər. Beləliklə, o gücləndi və*) onların köməyilə hiylələri işə düşdü və onun küfr və azğınlıq bayrağı dalğalandı. Öz fitnələrilə (*dördayaqlılar ayaqlarının altındakı hər şeyi tapdaladıqları kimi), insanları tapdalayıb əzdiyi hamının sərgərdan, nadan, giriftar olduğu vaxt, dünyanın ən yaxşı yerində (*Məkkeyi Müəzzəmədə*) yuxuları yuxusuzluq, gözlərinin sürməsi ağlamaq olan ən pis qonşuların (*Məkkə əhalisi*) arasında (*fitnəkarlığa, qantökməyə və çətinliyə elə düçar olmuşdular ki, bir an belə istirahət etmirdilər*), düşüncəlisinin ağzının bağlandığı, zəlil olduğu, nadanının isə cilovu qırılmış və möhtərəm sayıldığı bir əraziyə onu (*Həzrət Məhəmmədi səllallahu əleyhi və alih*) göndərdi.*

Bu xütbənin Peyğəmbər (salavatullah) nəslinin (on iki İmamın) kamalı barədə olan hissəsində buyurur:

Peyğəmbər (*səlləllahu əleyhi və alih*) nəsli o Həzrətin gizli sirrinin qoruyucusu, fərmanının pənahı (*o böyük şəxsiyyətin Haqq-təala tərəfindən əmr etdiyinə itaət göstərdilər*), o hörmətli vücudun elm xəzinəsi (*Həzrətin bildiyini onlar da bilirdilər*), o cənabın (*xalqın onlara müraciət edib bilmədiklərini soruşması üçün*) hikmətlərinin mərcəyi, kitablarının (*Qur'an və sünnənin*) hafizi və dininin (*müxalif küləklərdən və düşmənlərin dağıntılarından sarsılmaması və onlara görə qorunub, saxlanılması üçün*) arxasında dayanan dağlar kimidirlər. Allahın Rəsulu (*səlləllahu əleyhi və alih*) onların köməyilə qamətini düzəltdi (*əvvəlcə zəif və gücsüz olan dinini onların yayması sayəsində maarifi bütün dünyanı bürüyəcək səviyyəyə qədər gücləndirdi*), bədəninin titrəyişlərinə sakitlik gətirdi (*pak İmamlar əleyhimus-salamın xidmətləri sayəsində İslam dininin düşmənlərindən olan iztirab və narahatlıqları özündən uzaqlaşdırdı*).

Bu xütbənin bir hissəsi haqdan əl çəkərək batil yola qədəm qoyanlar barəsində buyurulmuşdur (və sonra isə yenidən Peyğəmbərin Əhli-Beytini mədh etmiş, öymüşdür):

(*Xəvaric, ya münafiqlər və ya Müaviyənin tərəfdarları və ya başqaları ürəklərində*) itaətsizlik (*toxumu*) əkərək onu yalan və qəflətlə suvarıb həlakət biçdilər.[2] (*Deməli,*) bu ümmətdən heç kim Məhəmməd (*səlləllahu əleyhi və alih*) Əhli-Beyti ilə müqayisə oluna bilməz və həmişə onların nemət və bəxşişindən (*elm və maariflərindən*) bəhrələnənlər, onlarla eyni deyildirlər (*belə isə, necə özlərini onlardan üstün bilərək xalqı öz tərəflərinə çağırırlar, halbuki*) Məhəmmədin (*səlləllahu əleyhi və alih*) Əhli-Beyti dinin əsası və təməli, iman və yəqinliyin dirəyidir. (*Çünki onların hidayəti və yol göstərmələri sayəsində İslam dini mövcuddur və Məhəmmədin (səlləllahu əleyhi və alih) Əhli-Beyti onlardır ki,)* Haq yoldan uzaq düşənlər onlara üz tutar, əlacsızlar onlara qoşularlar. İmamətin xüsusiyyətləri *(haq elmlər, ayələr və möcüzələr)* onlarda cəm olmuşdur və onların haqqıdır. Onlar barəsində *(Allah Rəsulunun)* vəsiyyəti və *(O hörmətli vücuddan)* irs aparmaq sabit olmuşdur (*Onlar hər bir baxımdan o Həzrətə daha yaxın və layiqlidirlər. Buna baxmayaraq, ümmətdən bəziləri o böyük şəxsiyyətin vəsiyyətinə əməl etməyərək onun irsini tapdalamış, yer üzündə fəsad toxumu səpmişlər.*) İndi haqq öz əhlinə tərəf qayıtmış, tərk etmiş olduğu yerə dönmüşdür *(çünki bundan əvvəl əmirlik və xilafəti qəsb, bu mənsəbə layiqli olanı isə dustaq etmişdilər)*.

Şərhlər

1. ↑ *Şeytan həmişə Adəm övladını Allaha şərik qoşması üçün aldadır, beləliklə, kəlmeyi-şəhadət demək və ona etiqad bəsləmək şeytanın işinin qarşısını almağa və onu uzaqlaşdırmağa səbəb olar.*
2. ↑ *Dünya və axirət səadətini əldən verdilər. Rəsulullahın (səlləllahu əleyhi və alih) Əhli-Beyti isə yolunu azmışları doğru yola yönəldir, həlak olmaqdan və bədbəxtlikdən xilas edirlər.*

İmam Əli əleyhis-salamın «Şiqşiqiyyə» adlanan xütbəsidir.[1]

Agah ol! Allaha and olsun ki, Əbu Quhafənin oğlu *(cahiliyyət dövründə Əbu Bəkrin adı Əbdülüzza olmuş, sonra Həzrət Rəsul -səlləllahu əleyhi və alih- onun adını dəyişərək Abdullah qoymuşdur)* mənim xəlifəlik üçün dəyirmanın orta qütbü kimi (elmdə və əməldə kamillik baxımından) oduğumu bildiyi halda xəlifəliyi köynək kimi əyninə geydi.[2] Elm və maarif mənim feyz bulağımda sel tək çağlar, elm və bilik səmasında qanad çalanların heç biri mənim zirvəmə çata bilməz. Sonra *(Əbu Quhafənin oğlu xəlifəlik köynəyini haqsız yerə geydiyinə və camaat onu təbrik etdiyinə görə)* xəlifəlik köynəyini soyunub, ondan kənara çəkildim. Öz işlərim barəsində fikirləşdim ki, əlsiz *(ordu və tərəfdarsız)* hücum edim *(öz haqqımı tələb edim)*, yoxsa qocaları həlak edən, gəncləri solduran və qocaldan, möminlərin *(fəsadın aradan qalxması üçün)* ölüncəyə qədər əziyyət çəkdiyi kor qaranlığa *(xalqın azğınlığına)* səbr edim. Səbr etməyin ağıllı iş olduğunu görüb, gözlərimi toz, çör-çöp, boğazımı isə sümük tutduğu halda səbr etdim.[3] Mirasımın tarac olunduğunu görürdüm.[4]

(Allah Peyğəmbərinin - səlləllahu əleyhi və alih - vəfatından sonra xəlifəliyi haqsızcasına qəsb edərək xalqı azğınlığa düçar etdikləri vaxt İslamın qorunub saxlanılması, daxili inqilabın baş verməməsi və düşmənlərin ondan sui-istifadə etməmələri üçün xəlifəlikdən çəkinərək dözməyi məsləhət bildim.) Birincisi *(Əbu Bəkr)* öz yolunun sonuna çatıb *(iki il, üç ay, on iki gündən sonra öldü. Ölməmişdən qabaq)* xəlifəliyi-özündən sonra İbn Xəttabın *(Ömərin)* boynuna atdı. *(Seyyid Rəzi əleyhir-rəhmə deyir)*: Bunları bəyan etdikdən sonra Həzrət, məsəl olaraq şair Ə'şanın şe'rini *(Amirin mədhi və Əlqəmənin həcvi barədə olan qəsidəsini)* oxudu: شَتَّانَ ما يَوْمِی عَلی كُورِها **** وَ يَوْمُ حَيَّانَ أَخِی جابِرِ *(Bu şe'ri iki cür izah etmək olar, birincisi)* dəvənin donqar və palanı üstündə səfərin əzab-əziyyətinə qatlaşdığım bu günümlə Cabirin qardaşı Həyyanın dostu olaraq naz-nemət içrə keçirdiyim dünənim arasında nə qədər fərq var. *(İkinci məna isə)*: və

dəvənin belinə minən mənimlə, səfərin məşəqqət və çətinliklərindən azad olan Cabirin qardaşı Həyyanın güzəranı arasında nə qədər fərq var.[5] Çox heyrətamiz və təəccüblüdür ki, sağlığında xalqdan bey'ətinin geri götürülməsini istəyir.[6] Ancaq ölümünə bir neçə gün qalmış xəlifəliyə Öməri vəsiyyət edir. Bu iki qarətçi xilafəti dəvənin iki döşü kimi öz aralarında böldülər (dəvənin bir döşünü Əbu Bəkr, digərini isə Ömər öz əlinə götürüb sağdılar, dəvənin sahibini isə ondan məhrum etdilər). (Beləliklə, Əbu Bəkr xilafəti) hamar olmayan, sərt yerdə yerləşdirdi (Öməri özündən sonra xəlifə etdi), halbuki Ömər sərt və acıdil idi, onunla görüş əziyyət verici idi və (dini məsələlərdə) səhvləri, (verdiyi səhv fətvalara görə) etdiyi üzürxahlıqları saysız-hesabsız idi.[7] Onunla ünsiyyət (həm İmamın, həm başqalarının onunla ünsiyyəti) cilovunu bərk tutduqda burnunu yaralayıb dağıdan, cilovunu boş tutub, öz başına buraxdıqda isə süvarsini həlak edən dikbaş, itaətsiz dəvəyə minmək kimi idi. Allaha and olsun, onun vaxtında camaat çətinliyə düçar olaraq, səhvə yol verdi və doğru yola qədəm qoymadan haqqdan uzaqlaşdı. Mən də bu uzun müddətdə (on il altı ay) dözdüm və ağır möhnətlə, qəmlə yoldaş oldum.

Ömər də öz yolunun sonuna yetişdi (və libası tərk etməzdən öncə) xilafət məsələsini, məni də onlardan biri güman etdiyi bir neçə adamın arasında ortaya qoydu.[8] Pərvərdigara, təşkil olunmuş şuradan və etdikləri məşvərətdən sənə pənah gətirirəm. Camaat məni necə Əbu Bəkrə bərabər tutub, mənə şəkk-şübhə ilə yanaşdı? İş o yerə çatdı ki, bu gün belə şəxslərlə (şura üzvü olan beş nəfərlə) bir sırada dayandım. Bununla belə (yenə də səbr edib şurada iştirak etdim) eniş-yoxuşlarda onların ardınca getdim (məsləhətə görə, hər yerdə onlarla razılaşdım). Beləliklə, onlardan biri paxıllıq və kininə görə haqdan əl çəkərək batil yola qədəm qoydu,[9] başqa birisi Osmanın kürəkəni və qohumu olduğundan məndən üz döndərdi.[10] Başqa iki nəfərinsə (Təlhə ilə Zübeyr rəzalət və alçaqlığına görə) adını çəkmək rüsvayçılıqdır.

(Ömərin ölümündən sonra, onun göstərişilə yaradılan şurada) qövmün üçüncüsü (Osman) ayağa qalxdı (haqsız yerə xəlifəlik məqamını qəsb etdi). Yeyib bayıra getməkdən (çox yeyib-içməkdən şişən dəvə kimi) hər iki tərəfini şişirtmişdi (onun işi heyvanlar kimi yeyib peyin tökmək idi və

xəlifəliyə aid məsələlərə riayət etmirdi) və onun atalarının övladları da (onun qohumu olan Əməvilər) onunla əlbir idilər. Onun dolaşıq ipi çözülənə qədər (səhabələr əhdlərini pozaraq yan-yörəsindən uzaqlaşana qədər) iştahlı dəvə bahar otlarının hamısını yediyi kimi Allahın malını (müsəlmanların beytulmalını) yeyirdilər (yoxsulları və bu mala haqqı olanları isə məhrum, ac saxlayırdılar). Rəftarı qətlinin tezləşməsinə, qarnının doluluğu devrilməsinə səbəb oldu.[11]

(Osmanın öldürülməsindən) sonra kaftarın boynunun tükü tək camaatın məni dövrəyə almasından başqa heç nə məni bu çətin və böyük işə vadar etmədi. Hər tərəfdən üstümə elə hücum çəkdilər ki, izdihamdan, camaatın çoxluğundan Həsən və Hüseyn ayaq altında qaldılar. Paltarım və əbam hər iki tərəfdən cırıldı, (bey'ət etmək üçün) qoyun sürüsü kimi məni dövrəyə aldılar. Bey'ətlərini qəbul edib xəlifəliyə başladıqda isə bir hissəsi (Təlhə, Zübeyr və başqaları) mənimlə olan bey'ətlərini pozdu, bir dəstə (Nəhrəvan Xəvarici və başqaları) bey'ətdən çıxdı, bəziləri isə (Müaviyə və sair şəxslər) Allah-təalanın itaətindən çıxdılar. Sanki, müxaliflər pak olan Allahın (Qəsəs surəsinin 83-cü ayəsində) «əbədi sarayı məqsədləri yer üzündə ucalıq və fitnə-fəsad törətmək olmayanlar üçün yaratdıq. Gözəl mükafat pərhizkarlar üçündür»-deyə buyurduğunu eşitməyiblər. Bəli, Allaha and olsun, bu ayəni eşidib və əzbərləyiblər. Lakin dünya onların gözlərini qamaşdırıb və dünyanın zinəti isə onları aldatmışdır. (Haqqdan əl çəkərək itaətsizlik etmiş, yer üzündə fitnə-fəsad törətmişlər.)

Agah olun! Toxumu ortadan yaran və insanı xəlq edən Allaha and olsun, bu qədər camaat (mənə bey'ət etmək üçün) toplaşmasaydı, höccətin tamam olmasına kömək etməsəydilər, Allah-təalanın zalımın (zülm vasitəsilə) doyması və məzlumun (onun zülmündən) ac qalmasına razılaşmamaları üçün üləmalardan aldığı əhd olmasaydı xəlifəlik dəvəsinin yüyənini hər an onun hörgücünün üstünə atardım[12] xəlifəliyin sonuna əvvəlcə verdiyim kasada su verərdim. (Əvvəllər də bu işi etmədiyim kimi indi də kənara çəkilər, xəlifəliyi tərk edib camaatı azğınlıq içində buraxardım, çünki) bilirsiniz ki, sizin bu dünyanız mənim üçün dişi keçinin asqırığı qədər dəyərsizdir.

Deyirlər, Həzrət bu sözləri buyurduqda İraq kəndlilərindən olan bir kişi ayağa qalxaraq ona bir məktub verdi. O Həzrət məktubu oxumağa başladı.

Oxuduqdan sonra İbn Abbas dedi: «Ey Əmirəl-möminin, kaş ki, sözünü kəsdiyin yerdən nitqinə davam edəydin. O Həzrət buyurdu: «Heyhat, ey İbn Abbas (belə sözlər bir daha deyilməyəcək, sanki) səslənib, sonra yenidən öz yerində duran dəvənin şiqşiqəsi idi.» İbn Abbas dedi: «Allaha and olsun, mən heç bir sözün kəsilməsinə o Həzrətin öz sözünün istədiyi yerə çatdırmadan kəsilməsi qədər kədərlənməmişdim».

(Seyyid Rəzi əleyhirəhmə deyir:) Bu xütbədə Həzrətin (ikinci xəlifə Ömər barədə) كَراكِبِ الصَّعْبَةِ إِنْ أَشْنَقَ لَهاَ خَرَمَ وَ إِنْ أَسْلَسَ لَهاَ تَقَحَّمَ dedikdə məqsədi budur ki, itaətsiz dəvəni minən şəxs hər zaman onun cilovunu bərk tutsa, dəvə itaətsizlik edib burnunu dağıdar, əgər cilovunu boş tutsa onu möhkəm çırpıb tullayar, bir daha sahibinə qayıtmaz. أَشْنَقَ النّاقَةَ dəvəyə minib cilovu vasitəsilə başını yuxarı dartmağa deyilir, وَشَنَقَهَا də deyilər, İbn Sikkitin «İslahul-məntiq» kitabında deyildiyi kimi, belə ki, Həzrət أَشْنَقَ لَهَا buyurur أَشْنَقَهَا demir, bu iki söz eyni bir mənada işlədilməsinə baxmayaraq, o Həzrətin أَشْنَقَ لَهَا deməsinin səbəbi bu sözün əvvəlki cümlədəki أَسْلَسَ لَها ilə həmvəzn olması üçündür. Sanki, o Həzrət belə buyurub: Dəvəyə minən onun başını cilovuyla yuxarı dartsa, yəni, cilovu dəvənin üstündə möhkəm saxlasa dəvənin burnu dağılar. Hədisdə buyurulur: Allahın Rəsulu dəvənin üstündə olduğu halda camaata xütbə oxuyurdu.

قَدْ شَنَقَ لَهَا وَ هِيَ تَقْصَعُ بِجَرَّتِهَا - yəni, dəvənin cilovunu dartıb saxlamışdı, dəvə boğazından çıxardığı bir şeyi çeyniyirdi. (Bu hədisdən məlum olur ki, «شَنَقَ» və «أَشْنَقَ» eyni mənalı sözlərdir.) اَشْنَقَ sözünün شَنَقَ ilə eyni mənada olmasına başqa bir dəlil isə Ədiyy ibn Zeyd İbadinin aşağıdakı beytdə söylədiyi sözdür. سائَهَا ما تَبَيَّنَ فِى الْأَيْدِى وَإِشْناقُها إِلَى الْأَعْناقِ Cilovları bizim əlimizdə olmayan itaətsiz dəvələr ram olmurlar, onlar pis dəvələrdir.

Şərhlər

1. ↑ Həzrət xütbənin sonunda İbn Abbasa buyurdu: يا ابن عَباسٍ تِلْكَ شِقْشِقَةٌ هَدَرَتْ ثُمَّ قَرَّتْ «Burada zülm və sitəm vasitəsilə məndən önə keçən üç xəlifədən şikayət xalqı doğru yola hidayət coşqusuna və şövqünə görə edilmişdir. Bir dəvənin şiqşiqəsi tək səs salıb öz yerində dayanması

kimi. Yəni, belə sözlər hər zaman və həmişə söylənilməz». «Şiqşiqə» lüğətdə həyəcanlandıqda və nəfəsi daraldıqda dəvənin ağzından bayıra çıxararaq boğazının alt hissəsində səsləndirdiyi, ilk baxışda dillə səhv salınan qoyunun ağ ciyərinə oxşar maddədir. Dəyirmanın dövr etməsi və fırlanması ortadakı dəmir mismardan asılı olduğu, onsuz dəyirman xüsusiyyətinə malik olmadığı kimi, xilafətin məndən qeyrisinin əlində olmağının da ziyanı vardır, belə olduqda o, bir küncə atılmış, küfr və zəlalətin ayaqları altında tapdanan daşa bənzər.

2. ↑ Dəyirmanın dövr etməsi və fırlanması ortadakı dəmir mismardan asılı olduğu, onsuz dəyirman xüsusiyyətinə malik olmadığı kimi, xilafətin məndən qeyrisinin əlində olmağının da ziyanı vardır, belə olduqda o, bir küncə atılmış, küfr və zəlalətin ayaqları altında tapdanan daşa bənzər.
3. ↑ Çox kədərləndim, çünki Əbu Bəkr və qeyrilərinin xəlifəliyində azğınlıqdan başqa bir şey görmürdüm. Tənha və köməksiz olduğumdan söz deyə bilmirdim.
4. ↑ Xəlifəiyi qəsb etdilər və bundan törəyən fəsadlar yer üzündə Ali-Məhəmmədin Qaiminin-əleyhis-salam-qiyamına qədər qalacaqdır
5. ↑ Cabirin qardaşı Həyyan Yəmamə şəhərində çoxlu qala, dövlət və sərvət sahibi, qövmünün böyüyü idi, hər il Kəsra ona qiymətli hədiyyələr göndərdiyinə görə xoş güzəran keçirir, heç vaxt səfər çətinliklərinə qatlanmırdı. Şair Ə'şa da Bəni-Qeys tayfasından olub, onun yaxın dostu idi. İmam əleyhis-salamın onun şe'rini misal çəkməkdə məqsədi birinci mənaya görə Rəsulullahın (səlləllahu əleyhi və alih) vəfatından sonra haqqı qəsb olunaraq, ev dustağı və zülmsitəmlərə məruz qaldığı vaxtla, Həzrət Peyğəmbərin sağlığında camaatın pərvanətək onun başına dolandığı iki gün arasında fərqi; ikinci izaha görə isə möhnət və qəm içində keçirdiyi güzəranla, özlərinin batil məqsədlərinə çatmaqla şad-xürrəm olanlar arasında olan fərqi bəyan etmək idi. Sonra Əbu Bəkrin məkr və şeytançılıqlarını xatırladaraq buyurur.
6. ↑ Deyirdi أَقيلونِى فَلَسْتُ بِخَيرِكُمْ وَ عَلِىٌّ فِيكُمْ yəni, «ey camaat, öz bey'ətlərinizi məndən götürərək məni xəlifəlikdən uzaqlaşdırın, mən sizlərdən yaxşı deyiləm və Əli əleyhis-salam sizin aranızdadır.
7. ↑ O, cümlədən, hamilə qadının daş-qalaq olunmasını əmr etməsi. Əmirəl-möminin bununla əlaqədar olaraq buyurdu: «Əgər bu qadın

günah edibsə, onun uşağının ki, bir günahı yoxdur və o, daş-qalaq olunmamalıdır. Ömər dedi: لَوْ لا عَلِيٌّ لَهَلَكَ عُمَرٌ yəni, «Əli olmasaydı Ömər mütləq fətva verməkdə həlak olardı». Bu sözü həmişə təkrar edərdi.

8. ↑ Çünki Əbu Lolo ona altı bıçaq zərbəsi vurmuşdu və o, həmin yaralar nəticəsində öləcəyini bilirdi. Xəlifəni təyin etmək üçün Şura məclisi təşkil etdi. Bu o zaman baş verdi ki, qəbilə başçıları onun yanında toplaşıb dedilər: «Yaxşı olar ki, sən razı olduğun bir kəsi özünə canişin və xəlifə təyin edəsən» və Ömər onların cavabında dedi: «Ətrafımda yığışan sizlərdən heç birinizin nə ölüsü, nə də dirisinin xilafət yükünü öz öhdəsinə götürməyini istəmirəm. Dedilər: «Sənինlə məsləhətləşirik, məsləhət bildiyini söylə». Dedi: «Bu işə yeddi nəfəri layiq bilirəm. Rəsulallahdan eşitmişəm ki, onlar Behişt əhlidir. Birincisi Sə'd ibn Zeyddir. O, mənimlə qohum olduğuna görə onu çıxardıram. Digər 6 nəfər Sə'd ibn Əbi Vəqqas, Əbdürrəhman ibn Əuf, Təlhə, Zübeyr, Osman və Əlidir. Sə'd ibn Vəqqasın kobudluq və pis əxlaqdan başqa xəlifəlik üçün başqa bir maneəsi yoxdur. Əbdürrəhman ibn Əuf bu ümmətin Qarunu olduğuna görə layiq deyil. Təlhə qürur və təkəbbürünə, Zübeyr paxıllıq və xəsisliyinə, Osman qohum-əqrabasını sevdiyinə, Əli əleyhis-salam isə xəlifəliyə həris olduğuna görə layiq deyil. Sonra dedi: «Soheyb üç gün camaatla namaz qılsın, siz bu altı nəfəri öz içlərindən birini xəlifə seçmələri üçün üç gün bir evdə toplayın. Əgər onlardan beşi müttəfiq, biri onların əleyhinə olarsa, həmin bir nəfəri öldürün. Əgər üç nəfər razılaşıb, üçü onlara qarşı çıxarsa Əbdürrəhmanın da arasında olduğu üç nəfəri seçib digər üç nəfəri öldürün. Onun ölümündən və dəfnindən sonra xəlifəni təyin etmək üçün yığışdılar. Əbdürrəhman dedi: Mən və əmim oğlu Sə'd ibn Əbi Vəqqas bu işin üçdə birini təşkil edirik. Biz ikimiz xəlifəlik istəmirik, sizlərdən ən yaxşısını bu vəzifəyə seçirik. Sonra üzünü Sə'də tutaraq dedi: «Gəl biz bir şəxsi təyin edib ona bey'ət edək ki, camaat da ona bey'ət etsin. Sə'd dedi: «Osman sənin arxanca gəlsə, mən üçüncü olaram. Osmanı təyin etmək istəyirsənsə, mən Əlini istəyirəm. Əbdürrəhman Sə'din razılığını əldə etməkdən məyus olduqda Əbu Təlhəni əlli nəfər ənsarla götürüb onları xəlifə təyin etməyə vadar etdi. Üzünü Əli əleyhis-salama tərəf çevirərək onun əlindən tutub dedi: «Bir halda sənə bey'ət edərəm ki, Allahın kitabı, peyğəmbərin sünnəsi və əvvəlki iki xəlifə Əbu Bəkrlə Ömərin yoluna əməl edəsən. Həzrət buyurdu: «Qəbul edərəm, bir halda

ki, Allahın kitabı, Rəsulallahın sünnəsi və öz ictihadım, fikrim əsasında hərəkət edim. Sonra Əbdürrəhman o Həzrətin əlini buraxıb, Osmana üz tutub onun əlini götürüb Əli əleyhis-salama dediyini ona da dedi. Osman qəbul etdi. Sonra Əbdürrəhman üç dəfə bunu Əliyə və Osmana təkrarladı, hər dəfə onların hər birindən eyni cavab eşitdi. Sonra dedi: «Ey Osman, xəlifəlik sənindir». Ona bey'ət etdi və camaat da ona bey'ət etdi.

9. ↑ Hətta Osmanın qətlindən sonra belə o Həzrətə bey'ət etməyən Sə'd ibn Vəqqas nəzərdə tutulur
10. ↑ Osmanın ana bir bacısının əri olan Əbdürrəhman ibn Əuf nəzərdə tutulur.
11. ↑ İsrafçılıq və beytülmalın qövmünə bəxşiş olunması, yoxsullara və buna haqqı çatanlara isə qadağan edilməsi nəticəsində camaat yığılaraq xəlifəliyi qəsb etməsindən on bir il on bir ay on səkkiz gün sonra onu öldürdü.
12. ↑ Xilafət dəvəsi istədiyi yerə getsin, istədiyi tikanlıqda otlasın, hər zalım və fasiqin azğınlığına tuş gəlsin.

←3-cü xütbə

Nəhcül-bəlağə. 4-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

5-ci xütbə→

İmam Əli əleyhis-salamın (Təlhə və Zübeyrin öldürülməsindən sonrakı) xütbələrindəndir. Azğınlığ və nadanlığın zülmətində olduğunuz vaxt bizim səbəbimizə doğru yola qədəm qoydunuz, uca zirvələrə yüksəldiniz (böyüklük və şərəf əldə etdiniz) və bizim vasitəmizlə ayın son gecələrinin qaranlığından (küfr və şirkin ən son həddindən) sübhün nuruna (İslam dininə) çıxdınız. (Bədbəxtlik və sərgərdanlıqdan xilas oldunuz. Deməli, sizin boynunuzda böyük haqqımız var və onun qədrini bilməlisiniz.) Kar olsun yol göstərən fəryaddan nəsihət almayan qulaq. Uca səsdən (Allahın buyurduqları və Həzrət Peyğəmbərin kəlamlarından) ağırlaşaraq kar olan qulaqlar asta səsi (Allahın, Peyğəmbərin moizə və öyüd-nəsihətləri onlara təsir etmədiyi halda, sözsüz ki, mənim çağırış və nəsihətimin də təsiri olmayacaqdır) necə eşidə bilər? Allah xofu və qorxusundan narahat olan qəlblər rahat olsun. (Bu, İlahi əzabdan qorxaraq haqqın yolundan dönməyənlər üçün duadır.) Daima sizlərdən xəyanət, vəfasızlıq və əhdinizi pozmağınızın nəticələrini gözləyirəm. Qiyafələrinizə baxmaqla (şeytanın müjdəçisi olan) aldadıcı bər-bəzəyin sizi aldatdığını anlayıram. (Deməli, mənə göz yumub haqq-ədalətdən heç bir bəhrəsi olmayan başqa birisinə üz tutmağınız təəccüblü deyil.) Təqva libası və dindarlıq köynəyi məni sizlərdən gizlətdi (heç vaxt pozğunluq libası geyinmədiyimə və Allahın istəyinin əksinə heç bir iş görmədiyimə görə məndən əl çəkib başqalarına bey'ət etdiniz), batinimin səfası sizləri tanımaqda gözümü açdı (sizin hiylə, məkr, nifaq və ikiüzlülüyünüzü anladım). Azğınlıq yollarında hamınızın bir-birinizin dövrəsinə toplaşdığı, yolu azdığı, yol göstərəniniz olmadığı zaman (cəhalət və nadanlıq biyabanında elm və biliyə təşnəlikdən ölmək üzrə idiniz) sizə yol göstərmək üçün ayağa qalxdım. Quyu qazırdınız, ancaq su əldə etmirdiniz (sizi həlak olmaqdan və bədbəxtlikdən xilas etdim). Bu gün sizin üçün bəyan sahibinin bağlı dilini açdım (sizin hidayətiniz və əminiliyiniz üçün bu xütbədə mənim halımdan bəhs edən rəmz və sirləri bəyan etdim. Buna görə də) mənim əleyhimə çıxanın (itaətimdən boyun qaçıranın) rəyi uzaq olsun (çünki batil yola qədəm qoymamışam). Haqqı tapdığım gündən ona şəkk-şübhə etməmişəm. (Necə ki,) Həzrəti Musa öz-özündən qorxmurdu (o özünün haq

və doğru olduğuna, sehrkar və cadugərlərin məğlub olacaqlarına əmin idi). O, nadanların qələbə çalmasından və azğınlıq ərbablarının qabağa düşməsindən (bunun nəticəsində camaatın yolunu azmasından) qorxurdu. Bu gün biz və siz haqla batil yolda qarşılaşdıq (mən haqq yolunda, siz isə batil yolda), suya əmin olan (mənim sözlərim və əməllərimə tabe olan, heç vaxt) susamaz (küfr, şirk, nifaq vadisində heyran və sərgərdan qalmaz).

Allah Peyğəmbərinin (səlləllahu əleyhi və alih) vəfatından sonra, Abbas ibn Əbdülmüttəliblə Əbu Süfyan ibn Hərbin bey'ət etmək məqsədilə o böyük şəxsiyyətin hüzuruna müşərrəf olduğu vaxt Həzrətin (əleyhis-salam) buyurduğu kəlamlarındandır. Ey camaat! Nicat və qurtuluş gəmiləri ilə fitnə dalğalarını yarıb keçin. Müxalifət yolundan dönərək bayıra addım atın və öyünmək, lovğalıq tacını başınızdan yerə qoyun (fitnə-fəsad dalğasından amanda qalmaq üçün Əbu Bəkrin Bəni-Teym və Ömərin Bəni-Ədi tayfaları ilə yola gedin. Çünki) qol-qanadları (dostları və tərəfdarları) ilə qiyam edən nicat tapar, təslim olaraq (dost və tərəfdarları olmadığına görə) bir küncə qısılan rahatlıq tapar. (İndi bizim köməyimiz yoxdur, öz haqqımızı tələb etsək) bu, iylənmiş (təmiz olmayan) su, yeyənin boğazında qalan tikə kimidir. (Belə bir vaxtda öz haqqımdan keçərək səbr etməyim daha yaxşıdır. Çünki) meyvəni yetişməmiş dərən yararsız torpaqda əkin əkən kəs kimidir. (Tənha və tərəfdarlarımın olmadığı belə bir vaxtda xəlifəliyi tələb etməyim kal meyvə dərmək və yararsız torpaqda əkin əkmək kimi ziyandan başqa heç bir xeyri yoxdur.) Buna görə də (tənha və köməksiz olduğumdan) bir söz desəm (öz haqqımı tələb etsəm) «padşahlıq və hakimiyyət tamahına görədir» deyəcəklər (necə ki, Ömər bu sözü dəfələrlə demişdir). Sakit oturub, dinməsəm «ölümdən qorxur» deyəcəklər. Heyhat! Bu qədər qorxulu və ardıcıl hadisələrdən sonra mənim haqqımda belə güman olunmasına layiq deyildim. Əslində isə, and olsun Allaha, Əbu Talib oğlunun ölümə meyli südəmər uşağın anasının döşünə olan meylindən daha artıqdır. (Deməli, xəlifəlik məsələsində sükut etməyim ölüm qorxusuna görə deyil.) Sükut etdiyim, qərq olduğum gizli elmə görədir. Bildiklərimi üzə çıxarıb aşkar etsəm sizlər dərin quyuda titrəyən kəndir tək hər an titrəyər və əzab çəkərsiniz. (Buna görə də qəzavü-qədərlə razılaşıb, dözməyim məsləhətdir.)

(Təlhə və Zübeyr bey'ətlərini pozaraq, qaçdıqları zaman) Təlhə və Zübeyri təqib etməmək, onlara qarşı müharibəyə hazırlıq görülməməsi barədə İmam Əlidən rica edildiyi (İmam Həsən əleyhis-salam xahiş etmişdi) vaxt Həzrətin (əleyhis-salam) buyurduğu kəlamlardandır: And olsun Allaha, mən yatmış kaftar kimi deyiləm ki, ovçu bir müddət pusquda duraraq aldatmaq üçün əli və ya çubuğu onu tutana qədər (yuxudan sıçrayıb qalxaraq, heç kəsi görmədən səsin dalınca yuvasından çıxması üçün) yavaş-yavaş yerə vursun. (Qoymayacağam ki, düşmənlər müsəlmanları aldadıb, fitnə və qarışıqlıq salsınlar. Belə isə) nə qədər ki, sağam haqqa üz tutan, itaətkar və məni eşidənlərlə birgə qılınc çalacam, haqqdan üz döndərən, ona şək-şübhə ilə yanaşan günahkarla müharibə edəcəyəm. Allaha and olsun, Həzrət Peyğəmbər vəfat edəndən bu günə qədər məni həmişə öz haqqımdan məhrum edib qadağa qoymuşlar və işimdə tənha qalmışam.

İmam Əli əleyhis-salamın (ona qarşı çıxanların məzəmmət edilməsi haqda olan) xütbələrindəndir. Onlar öz işlərində şeytana etimad etdilər. Şeytan da (başqalarını azdırmaq üçün) onları öz şərikinə və tələsinə çevirdi. Sonra onların köksündə yumurta qoyaraq cücə çıxardı və tədricən (özünə itaət etdirənə qədər) onlarla təmasda oldu. Onların gözləri ilə görür, dilləri ilə danışırdı. (Söz və əməllərində ona tabe olurdular) sonra onları azğınlıq atına mindirərək mənasız sözləri nəzərlərində bəzəkli göstərdi. Onların işləri şeytanın öz qüdrətində şərik edib onun dili ilə öz səhv və batil sözlərini dediyi bir kimsənin işi kimi idi.

İmam Əli əleyhis-salamın müvafiq vaxtda Zübeyri nəzərdə tutaraq buyurduğu kəlamlarındandır. (Həzrət buyurdu:) Zübeyr güman edir ki, Əliyə bey'ət edərək ürəyində əleyhinə olub. Öz bey'ətində qalıb və iddia edir ki, batinində onun əksini gizlətmişdir. Buna görə də (dediklərinin doğruluğu məlum olsun deyə) dəlil və sübut gətirməlidir. Əgər heç bir dəlili olmasa onun bey'əti öz qüvvəsində qalır və müti olmalı, itaət etməlidir.

İmam Əli əleyhis-salamın kəlamlarındandır. (Burada Təlhə, Zubeyr və onların Cəməl döyüşündəki yoldaşları pislənilir, qınanır.) İldırım kimi güruldayaraq qorxutdular və şimşək tək çaxaraq yerlərindən qopdular. (Boş sözlərlə, səs-küylə fitnə-fəsad törətdilər və müharibəyə şərait yaratdılar.) Bu coşqu və gurultuya baxmayaraq, döyüş vaxtı aciz və qorxaq idilər. Biz iş görənə qədər səs salıb qorxutmuruq. (Sözlərimiz əməllərimizlə əlaqəlidir) yağmayana qədər sel axıtmırıq.

←9-cu xütbə

Nəhcül-bəlağə. 10-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

11-ci xütbə→

İmam Əli əleyhis-salamın («Cəməl» döyüşünün səhabələri barəsindəki) xütbələrindəndir. Agah olun ki, şeytan öz dəstəsini və qoşununu (insanları günaha salmaq üçün) toplayaraq (dində fitnə-fəsad yaratmaq üçün) öz ordusunun süvarilərini və piyadalarını yığsa da, (dünya və din işlərində) bəsirətim məndən ayrılmaz. (Heç vaxt qəflət və unutqanlığa düçar olmaram ki, şeytanın və onun kimilərin dəstəsinə daxil olum.) Nə haqqı əynimə (cəhalət və nadanlıq libasında) geymişəm, nə də o mənim üstümə (batil libasında) geyindirilib (Şeytan və ona tabe olanlar haqqı azğınlıq paltarında mənə geyindirməmişlər). Allaha and olsun, onlar (dinin düşmənləri və haqdan əl çəkərək şeytana qoşulanlar) üçün hovuz doldurub suyunu özüm çəkəcəyəm (döyüş meydanı düzəldib onları məhv edəcəyəm). Belə ki, bu hovuza ayaq qoyan hər bir kəs bayıra çıxmayacaq. Bayıra çıxsa belə, bir daha ona doğru qayıtmayacaq (o meydana qədəm qoyan sağ qalmayıb öləcək. Xilas olub qaçan isə bir daha geri dönməyəcək).

İmam Əli əleyhis-salamın «Cəməl» döyüşündə (Aişənin dəvəyə mindiyi döyüşdə) döyüş bayrağını övladı Məhəmməd ibn Hənəfiyyəyə verdiyi vaxt ona xitabən buyurduğu kəlamlarındandır:

Dağlar yerlərindən qoparılsa da, sən öz yerindən tərpənmə. (Sən döyüş meydanında dağdan möhkəm olmalı, qaçmamalısan.) Dişlərini bir-birinə sıx (özünü müharibənin çətinliklərinə alışdır). Başını Allaha tapşır (döyüşdə başından keç, ya bütün fikir və xəyallarını Allaha bağla). Ayağını mismar tək torpağa mıxla (döyüş meydanında möhkəm dayan, düşmənin çoxluğundan qorxma). Qoşunun sonunu görüncəyə qədər bax (bütün düşmənlər məğlub olmayanadək arxayınlaşma və ya öz işində uzaq görən olman üçün onların ən son hiylə və tədbirlərini nəzərdə tut). Gözlərini yum (düşmənlərin hiylə və tədbirlərini bildikdən sonra hər tərəfə baxma və onların qılınclarının parıltısından vahiməyə düşmə). Bil ki, qələbə və fəth pak olan Allahdandır. (Döyüş qaydalarına əməl etdikdən sonra, əgər Allahın istəsə qələbə və zəfər sənə nəsib olacaqdır.)

Nəhcül-bəlağə. 12-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın kəlamlarındandır. «Cəməl» döyüşündə Allah o Həzrətə qələbə nəsib etdikdən sonra Həzrətin yoldaşlarından biri dedi: «İstəyərdim qardaşım filankəs də bu döyüşdə bizimlə olaydı və Allahın sənə düşmənlərin üzərində necə qələbə çaldırdığını görəydi». Həzrət buyurdu: «Sənin qardaşının meyli və istəyi də bizimlədirmi?» Dedi: «Bəli». Həzrət buyurdu: «O da bu döyüşdə bizimlə olmuşdur». (Bizi istəyənlərdən hətta) kişilərin belində və qadınların bətnində olanlar da bizimlə birgə qoşunumuzda olmuşlar (yəni, olmuş kimidirlər). Tezliklə ruzigar onları insanın burnundan qəfil axan qan kimi meydana gətirib zahir edəcəkdir. Onların (xidmət və yayılmalarının) səbəbinə iman güclənəcəkdir. (Bizim düşmənlərimiz onlar tərəfindən məğlub ediləcəklər).

İmam Əli əleyhis-salamın Bəsrə şəhəri və əhalisini məzəmmət etdiyi kəlamlarındandır: Ey camaat, siz bir qadının (Aişənin) qoşunu idiniz və dilsiz bir heyvana (Aişənin dəvəsinə) tabe olmuşdunuz. Onun səsi ilə (onun ətrafına toplaşıb) idarə olunurdunuz damarları kəsildikdə (öldürüldükdə) isə hamılıqla qaçdınız. Sizin əxlaq və xasiyyətiniz süst, əhd-peymanınız boş, inancınız ikiüzlü, şəhərinizin suyu şor və dadsızdır. Sizlərin arasında yaşamış hər kəs öz günahının girovuna çevrilmişdir. Sizləri tərk edən hər kəs Pərvərdigarının rəhmətini dərk etmişdir. (Çünki sizinlə birlikdə olma günahının cəzasından xilas olmuşdur.) Mən sizin məscidi (suda batan) gəminin sinəsini görürmüş kimi görürəm. Allah-təala bu şəhərin yuxarısından və aşağısından əzab göndərmişdir (göydən yağış, yerdən isə dənizin suyunun daşması) ki, onda olanların hamısı qərq olmuşdur. Başqa bir rəvayətdə deyilir (Həzrət buyurub): Allaha and olsun, sizin şəhəriniz batacaqdır. Onun məscidini (suda batan) gəminin sinəsi və ya sinəsi üstə yatmış dəvəquşu kimi görürəm. Başqa bir rəvayətdə göstərilir ki, (buyurdu: suda batan məscidi) dənizdə batan toyuğun sinəsi kimi (görürəm).

İmam Əli əleyhis-salamın əvvəlki (Bəsrə şəhəri və onun əhalisini məzəmmət etdiyi) bəyanına bənzər kəlamlardır: Sizin şəhərin torpağı suya (dənizə) yaxın, səmadan uzaqdır. (Çünki çökəklikdə yerləşmişdir. Yaxud rəzil əxlaqınıza görə İlahi rəhmət sizdən uzaqdır.) Sizin ağılınız yüngüldür və helminiz, səbriniz lazım olmayan yerlərdə işlədilir (öz din və dünyanızın məsləhətini bir qadının əlinə verib dəvəyə itaət etdiyiniz kimi). Buna görə də (ağlınız yüngül, helminiz nöqsanlı olduğuna görə) oxatanlar üçün hədəf, yeyənlər üçün loxma və hücum edənlər üçün ovsunuz.

İmam Əli əleyhis-salamın öz xəlifəliyi dövründə müsəlmanlara qaytardığı torpaqlar barədə kəlamlarındandır. Bu, Osmanın (xəlifəliyi dövründə qohumlarına və ehsana layiq olmayanlara) bağışladığı torpaqlar idi.

And olsun Allaha, Osmanın bağışladığını tapsam, onunla qız ərə verib kəniz alsalar belə sahibinə qaytaracağam. Çünki ədalət və düzlükdə (camaat üçün din və dünya işlərində) açılma və genişlik var. Ədalət və düzlük dar gələn şəxsə (ona uyğun rəftar etməkdə aciz olana sözsüz ki,) zülm və sitəm daha dar (daha aciz və gücsüz) olar.

Nəhcül-bəlağə. 16-cı xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın Mədinə şəhərinin əhalisinin onunla bey'ət etdiyi zaman buyurduğu xütbələrindəndir. Mənim əhdim dediyim sözlərdədir və onların hamısına zəmanət verirəm. (Sözlərimin doğruluğu şübhəsizdir və onda batildən əsər-əlamət yoxdur.) Ruzigarın hadisələri və ibrətləri qarşıda olan günahın cəzasından və dünyadakı dəyişikliklərdən saxlayan şəxsi təqva və pərhizkarlıq şübhələrə düşməkdən (haqqın batil və halalın haramla səhv salındığı şeylər) saxlayar. Agah olun ki, əzab və bəla (fikir ayrılığı və cahillik) Allahın Peyğəmbərinizi seçdiyi gün (cahiliyyət dövrü) kimi sizlərə qayıtmışdır. And olsun haqq olaraq Peyğəmbəri göndərənə ki, sizlərdən ən aşağıda olan ən yüksək məqama yüksələnə, sizlərdən ən yüksəkdə olan isə ən aşağı məqama düşənə qədər bir-birinə qarışacaqsınız. (İmtahan ələyində) ələnəcək, bir-birinizdən ayrılacaq, (qaynayıb daşan zaman) kəfkirin xörək qazanının dibini qarışdırdığı tək qarışdırılacaqsınız. İslamda qabağa düşən, (Təlhə, Zübeyr və başqaları kimi Peyğəmbərin yanında) qədri və məqamı olmayanlar önə keçəcəklər (irəli düşənlər, hamıdan əvvəl İslama iman gətirənlər Allahın peyğəmbərinin yanında böyük məqam və hörmət sahibi olanlar) əlbətdə dayanacaqlar. Allaha and olsun, heç bir sözü gizlətmədim, (deməli olduğunu dedim) heç vaxt yalan danışmadım. Bu məqam (sizin bey'ətiniz) və bu gün (bey'ət üçün toplaşmanız) barədə mənə xəbər verilmişdi (Allahın Rəsulu mənə xəbər vermişdi). Agah olun ki, günahlar yüyəni qırmış azğın atlara bənzər ki, ona minən günahkarları od-alova atar. Təqva və günahdan çəkinmək isə yüyəni sahibinin əlində olan ram edilmiş dəvələrə bənzər. Onlara minənləri behiştə daxil edərlər. Təqva və günahdan çəkinmə haq və doğru yol, günahkarlıq isə batil və həlakət yoludur. Bu hər iki yolun öz əhli var. Batil yolun yolçuları çox olsalar (qəribə deyil, çünki) əvvəlki dövrlərdə də çox olub və günaha batıblar. Əgər haqq azalarsa onun artmasına ümid var. Haqq zəifləyərsə güclənməsi çətin olar. (Bundan sonra Seyyid Rəzi əleyhir-rəhmə buyurur:) Deyirəm: bu qısa söz (İmam əleyhis-salamın) söz gözəlliklərindən bəzilərini özündə daşıyır. Mədh edənlərin öz dərk etdikləri kimi tərifi ona çatmaz. Bu sözlərin heyranlığından olan xeyir, xudpəsəndliyin xeyrindən çoxdur. Dediklərimizə əlavə olaraq bildirirəm ki,

o Həzrətin sözlərində heç bir dilin vəsf etmək gücünə malik olmadığı, heç bir insanın dərinliklərini dərk edə bilmədiyi fəsahət var. Bəyan etdiyim sifətləri dərk etmək bütün ömrünü fəsahətə həsr edib onun kök və əsasını əldə edən şəxslərdən başqa heç kəsə nəsib olmur. Bu sözü alimlərdən başqa kimsə qavraya bilməz.

Bu xütbənin bir hissəsidir

Qarşısında Cənnətlə Cəhənnəm olan hər bir kəs asudə deyil. (Birinci, saleh əməllərlə) cəld səy göstərən (İlahi əzabdan) nicat tapmışdır. (İkinci) Haqqı axtaran ki, tənbəldir və (Allahın rəhmət və bağışlamağına) ümid edir. (Üçüncü) Təqsirkar (haqqa göz yuman), ilahi atəş və əzab içində həlak olandır. Yolun sağı və solu ilə getmək azğınlığa gətirib çıxarar. Doğru yol orta yoldur (ondan kənara çıxmaq olmaz. Çünki) qorunmuş kitab (Qur'ani-Kərim) və peyğəmbərliyin nişanələri (Həzrət Rəsulun sünnəsi) onu (şahid) göstərir. Bu doğru yoldan (xalis ədalətdən) Allah Peyğəmbərinin yolu, sünnəsi əldə olunur və işlərin sonu (dünya və axirətdə insanlar) ona doğru qayıdır. Haqdan qeyrisini iddia edən hər kəs həlak oldu, yalan danışan hər kimsə ziyan gördü. Nadan camaatın arasında haqqı bəyan edən hər kimsə həlak olur. (Onların əllərindən və dilindən ziyan görür və ya öldürülür.) Öz məqam və qədrini bilməyən kişiyə cəhalət və nadanlıq bəs edər. Təqva və günahdan çəkinmək üzərində qurulmuş sarsılmaz əsas və möhkəm dayaq məhv olmaz, camaatın əkdiyi onun təsirindən susuz qalmaz. Öz evlərinizdə gizlənin (fitnə-fəsad üçün bayıra çıxmayın) aranızda olan ixtilafları aradan qaldırın, tövbə (Allaha tərəf qayıdaraq pis əməllərdən peşman olmaq) sizin arxanızdadır. (Günahlardan peşman olduğunuz zaman tövbəyə qayıdın, o sizdən ayrı deyil.) Heç bir şükr edən (nemət gördükdə) Pərvərdigarından başqasına həmd və şükr etməsin (çünki bütün nemətlər Ondandır.) Heç bir məzəmmət edən də (bir şər gördükdə) özündən başqasını məzəmmət etməsin.

İmam Əli əleyhis-salamın camaata hökmranlıq edən, am-ma bu vəzifəyə layiq olmayan kəslər barəsində kəlamlarındandır. Məxluqat arasında Allahın ən düşmən bildiyi (Haqqın rəhməti heç vaxt halına şamil olmayan) iki şəxsdir: (Əvvəl) Allahın (itaətsizlik etdiyinə və asi olduğuna görə) özbaşına buraxdığı şəxs. Belə ki, (bu cür şəxs istədiyi hər bir şeyi etdiyinə görə) doğru yoldan azıb, bid'ət yaradan sözə, camaatı azğınlığa dəvətə ürək bağlayıb (dində olmayan bir şeyin dində yaranmasına səbəb olacaq sözü danışmağı sevir, camaatı azğınlığa və pis əməllərə vadar edir). Beləliklə, bu kişi onun vasitəsi ilə fitnəyə düşən şəxs üçün fitnə-fəsad səbəbidir. Ondan əvvəl doğru yolla gedənlərin (kitab və sünnəyə əməl edənlərin) yolundan azandır, sağlığında və ölümündən sonra ona tabe olan şəxsləri azdırandır. (Azdırdığına və günaha saldığına görə) başqalarının günah yükünü daşıyır və eyni zamanda öz günahlarının da girovundadır. (İkinci) nadanlıqları özündə birləşdirən (və onların vasitəsi ilə) nadan camaatı azdıran şəxsdir. Fitnə-fəsadın qaranlıqlarında (onun üçün nicat yolunun olmamasından) xəbərsizdir. (Camaatın arasını) düzəldərkən kordur. (Onların necə islah olunacaqlarını bilmir) Avamlar onu alim adlandırır, halbuki o, nadandır. Hər səhərini azlığı çoxluğundan daha yaxşı olan şeyi artırmaq istəyi ilə açdı. Ona çatdıqda isə iylənmiş su ilə doydu, boş mətləblərlə doldu. Camaat arasında hökm vermək üçün əyləşib özündən qeyrisi üçün anlaşılmaz olanları anladığını güman edir (hər bir mübahisəli məsələnin və çətinliyin həllinə hazırdır). Əgər çətin məsələlərdən biri ondan soruşulsa, cavabında öz rəyinə əsaslanaraq boş və mənasız sözlər düzüb-qoşar (sözlərinə uyğun hökm verər) və verdiyi cavabın doğruluğuna əmin olar. Onun (camaatı aldatmaq üçün) şübhəli məsələləri (bir-birinə) qarışdırması hörümçəyin tor hörməsinə bənzəyir. Doğru hökm verdiyini və ya xəta etdiyini bilməz. Əgər doğru hökm vermiş olsa belə, xəta etməyindən qorxar. Əgər səhv etmiş olsa ümidvar olar (ki, camaat) düzgün hökm verib (desin). Nadandır və nadanlığı ilə də çoxlu səhv edir. Gözlərinin nuru çatmır (cəhalət və nadanlığın zülmətində əlacsız qalıb, hansı yolla gedəcəyini bilmir) və önünü görməyən dəvələrə çox minir (çətin məsələlərdə mat-məəttəl qalır, nə cavab verəcəyini bilmir). Nadanlığına görə qəti cavab

verə bilmir (dedikləri təxəyyül əsasındadır. Heç bir məsələdə elmi və yəqinliyi yoxdur). Hədisləri (məlumatsızlığı, səhihliyini və batilliyini başa düşməməsi səbəbindən) küləyin quru və faydasız otları dağıtması kimi göyə sovurur (hədislərdəki məqsədi başa düşmür və onlardan harada istifadə yerini bilmir, hədisləri səbəbsiz olaraq hər yerdə danışır). Allaha and olsun, ona verilən suala cavab vermək gücündə deyil (elm və bilikdən bəhrələnməyib). (Camaatın din və dünya işlərindən) ona həvalə olunana ləyaqəti çatmır. Özünün inkar etdiyi şeyi başqa birisinin bildiyini güman etmir. Başqa birinin onun dediyinə zidd biliyinin olduğuna inanmır (özünü hamıdan daha bilikli sandığından, kimsənin onun dedi¬yinin əksinə sözü olduğunu güman etmir). Hər hansı bir məsələ ona qaranlıq qaldıqda (məsələnin cavbında ilişib qalanda), onu bilmədiyini başa düşdükdə (bilənlərdən) gizlədər və («o bilmir» deməsinlər deyə) aşkarlamağa qoymaz. Onun zülm və sitəmlə verdiyi hökmlərə görə axıdılan nahaq qanlar dilə gələrək fəryad çəkirlər. Miraslar (haqsız yerə öz sahiblərinə çatmadıqlarına görə) onun zülmünün əlindən uca səslə nalə çəkirlər. Cəhalət və nadanlıqla yaşayan, azğınlıqla ölən dəstədən Allaha şikayət (öz dərdlərimi izhar) edirəm. Doğru oxuduqda və onda heç dəyişiklik etmədikdə onlar üçün Allahın kitabından daha kasad və dəyərsiz mal yoxdur. Təhrif və dəyişiklik etdikdə (öz batil qərəzlərinə uyğun tə'vil etdikdə) ondan qiymətli və geniş yayılmış başqa bir mal olmaz. Onlar üçün yaxşı işlərdən pis və pis əməllərdən yaxşı olan iş yoxdur. (Çünki onların qərəzli məqsədləri dində qadağan edilmiş şeylərlə bağlıdır.)

İmam Əli əleyhis-salamın əks fətva verən (hökmü «şəriət» dəlilləri ilə deyil, «qiyas» əsasında, öz rəyləri ilə verən) üləmaları məzəmmət etdiyi kəlamlarındandır.

Üləmaların birindən dinin əhkamı barəsində bir məsələ soruşulduqda, o, öz rəyi əsasında fətva verir, həmin məsələ digər qazıdan soruşulduqda, onun fətvası birinci qazının fətvasının əksinə olur, bu zaman bir-birinə zidd hökmlərilə onları qazı təyin edən rəhbərin ətrafına toplanırlar (onun təsdiq etməyini istəyirlər). Qazılar qazısı onların, Allahı, bir, Peyğəmbəri bir, Kitabı bir olduğu halda hamısının rəyinin düzgün olduğunu söyləyir. Allah-təala onlara (eyni bir məsələdə) ziddiyyətli fətva verməyə əmr edibmi ki, onlar da onun göstərişinə itaət ediblər? (Ziddiyyət, heyrət və sərgərdanlığın səbəbidir, belə bir işə isə əmr verməyin Allah-təalanın şəninə layiq olmadığı aydındır.) Ya onları ziddiyyətdən çəkindirib, onlar isə itaətsizlik və günah ediblər? (Belə isə qazılar qazısının fikir ziddiyyətlərini düzgün hesab etməsi və onların hamısının doğruluğuna hökm verməsi yersizdir.) Yaxud da Allah-təala naqis bir din göndərib, onu tamamlamaq üçün onlardan kömək istəyib? (Bu da düzgün deyildir, çünki Xaliqin məxluqdan kömək istəməsi ağıla ziddir.) Və ya özlərini Allaha şərik bilib (öz rəylərinə əsasən istədikləri kimi) hökm verirlər və O da razıdır? (Bu da batildir. Çünki Allahın heç bir şəriki olmadığı aydındır.) Və ya Allah-təala tam bir din göndərmiş, (qazıların ixtilafının səbəbi budur ki,) Allahın rəsulu (səlləlahi əleyhi və alih) isə onun təbliğində və çatdırılmasında bir nöqsan etmişdir? Halbuki (belə deyildir, çünki) Allah-təala (Qur'ani-Kərimdə Rəsulu vasitəsi ilə camaata Ən'am surəsinin 38-ci ayəsində) buyurub: «Biz Qur'anda heç bir şeyi əsirgəməmişik» (deməli olduğumuzu demişik). وَ قالَ فِيهِ تِبْيانُ كلِّ شیءٍ yəni, orda hər bir şeyin bəyan olunduğunu buyurub və xatırladır ki, Qur'anın bəzi hissələri başqa hissələrini təsdiq edir, onda heç bir ixtilaf yoxdur, beləliklə, (Nisa surəsinin 82-ci ayəsində) buyurub: «Əgər bu Qur'an Allahdan qeyrisi tərəfindən olsaydı (necə ki, kafirlərin və münafiqlərin onun Allah tərəfindən

deyil, bir insan tərəfindən bəyan edildiyinə etiqadları vardır) onda çoxlu ziddiyyətlər tapardınız».

Qur’ani-Kərimin zahiri heyrətamiz və gözəl, batini isə dərin və sonsuzdur (belə isə hər kəs onun sirlərini əldə edə bilməz), qəribəlikləri (incəlikləri və sirləri) tükənməzdir (onları öyrənmək üçün nə qədər çalışılsa belə tükənməz), qaranlıqlar (cəhl, nadanlığı və şübhələrin qaranlığı) ondan başqa heç nə ilə aradan qaldırılmaz.

İmam Əli əleyhis-salamın Əş'əs ibn Qeysə kəlamlarındandır.

Həzrət Kufə şəhərində minbərdə xütbə oxuyarkən, xütbə əsasında dediyi bəzi sözlərə Əş'əs etiraz etdi və dedi: «Bu söz Həzrətin zərərinə tamamlandı və heç bir faydası olmadı». Həzrət ona sərt bir nəzər salaraq buyurdu: «Hansı bir şey səni nəyin bizim zərərimizə, nəyin xeyrimizə olduğundan agah etdi? Allahın lənəti (Onun rəhmətinin uzaqlığı) və lənət edənlərin lənəti, qarğışı sənə olsun, ey, toxucu oğlu toxucu. Ey kafirin oğlu münafiq!

Allaha and olsun, bir dəfə küfr zamanı, bir dəfə də İslamın zamanında əsir oldun. Bu iki əsirliyin heç birində nə var-dövlətin, nə əsil-nəcabətin və nə də böyüklüyün səni xilas edə bildi. Öz qövmünü qılınca (ölümə) yönəldən, onları ölümə tərəf qovan kişi yaxınlarının onu düşmən bilmələrinə, yadların isə ona etimad etməmələrinə layiqdir. (Seyyid Rəzi buyurur):

Deyirəm: O Həzrətin məqsədi budur ki, Əş'əs bir dəfə kafir olarkən əsir olmuşdur, bir dəfə də İslama gəldikdən sonra əsir olmuşdur. Amma Əş'əsi məzəmmət edərkən qılıncı öz qövmünə yönəldən şəxs dedikdə o Həzrət Yəmamədə Əş'əs ilə Xalid ibn Vəlidin hadisəsini nəzərdə tutur. Əş'əs o şəhərdə öz qövmünü aldatdı, hiylə işlətdi və Xalid onların hakimiyyətini ələ keçirdi. Bu hadisədən sonra onu «عُرْفُ النّار», yəni, alovun ucalığının nişanəsi adlandırdılar. Onların arasında məkr və hiylə işlədən bu adla çağırılırdı (yəni, məkr edən öz alovunun nişanəsidir, ona yaxınlaşan oda düşər).

Nəhcül-bəlağə. 20-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın xütbələrindəndir (günahkarları ölümdən sonrakı çətinliklərlə agah edir, sanki buyurur: Ey, İlahi göstərişlərə əməl etməyən kəslər).

Əgər siz ölülərinizin gözləri ilə gördüklərini gözünüz ilə görsəniz, mütləq qəmgin olarsınız və ahu-zar edərsiniz, (Allahın əmr və qadağanını) eşidər və itaət edərsiniz, lakin keçmişdəkilərin gördükləri şeylər sizdən gizlindir (Buna görə də ahu-zar etmir, qorxmur və Allaha, onun Rəsuluna və haq olan xəlifəsinə itaət etmir və tabe olmursunuz). Tezliklə (keçmişdəkilərin gördüklərini siz də görəsiniz deyə) pərdə qaldırılacaq. Həqiqətən görən olsanız, gözlərinizi açıblar, eşidən olsanız qulaqlarınızı açıblar, əgər hidayət qəbul etsəniz (sizə doğru yolu göstəriblər), hidayət olunmusunuz. Həqiqətən deyirəm: ibrətlər sizə (peyğəmbərlər vasitəsi ilə) aşkar edildi, qadağan olunmuşdan siz çəkindirildiniz (belə isə üzrxahlıq yeri qalmayıb) səmavi elçilərdən (mələklərdən) sonra insandan başqa heç kəs Allah tərəfindən haqqı təbliğ etməyəcək.

İmam Əli əleyhis-salamın (ölüm və qiyamət barəsində) xütbələrindəndir. Aqibət və son qarşınızdadır (nəticədə hər bir kəs sonu görəcək, Behiştə, yaxud Cəhənnəmə daxil olacaq), sizi haylayıb qovan qiyamət və ölüm ardınızdadır, (çünki Qiyamət və ölüm gələsidir, elə bil kiminsə ardınca düşüb qovur, buna görə də) yüngülləşin (qiymətli yükləri tərk edin), yetişin (gedənlərə çatın) ki, sizin əvvəldəkilərinizi saxlayıb, axırdakılarınızı gözləyirlər. (Sizdən öncə gedənləri yolda saxlayıblar, axırıncı nəfərin onlara qovuşmasını və bütün karvanın bir dəfəlik Qiyamətə daxil olmalarını gözləyirlər. Seyyid Rəzi buyurur:) Deyirəm: Bu kəlam pak olan Allahın və Həzrət Rəsulun kəlamından sonra müqayisə olunduğu hər bir kəlamdan daha üstün və daha öndədir (heç bir kəlam ona çata bilməz). Amma o Həzrətin buyurduğu: تَخَفَّفُوا تَلْحَقُوا (yüngülləşin ki, yetişəsiniz) kəlamından daha qısa və daha mənalı kəlam eşidilməyib, bu kəlam necə də dərindir (hər nə qədər fikirləşsən onun dərinliyinə çata bilmirsən). Necə də bu cümlə əvvəldən axıra qədər hikmətli və nəsihətlidir, (hər bir təşnənin) susuzluğunu aradan qaldırır və biz də «Xəsais» kitabında bu kəlamın əzəmət və böyüklüyünü şərh etmişik.

İmam Əli əleyhis-salamın (Osmanın qətlini onun adı ilə bağlayan Təlhə və Zübeyr kimi şəxslərin pislənib məzəmmət edildiyi) xütbələrindəndir. (Onların iddiasının batilliyini sübut edir, sonra isə öz şücaət və igidliyini bəyan edir.) Agah olun ki, şeytan zülm və cövrün öz yerlərinə dönməsi (fasiqin zülmü özünə peşə etməsi), batilin əslinə qayıtması (cahilin nadürüst danışması) üçün öz dəstəsini səfərbər edib və şər qoşununu toplayıb. Allaha and olsun, pis bir işi (Osmanın qətlini mənimlə bağlayıb onun öldürülməsində razılığım olduğunu yalandan iddia etdilər) mənim adımla bağlamaqdan çəkinmədilər, mənimlə öz aralarında ədalət və insafla danışmadılar (çünki ədalət və insafla rəftar etsəydilər onların iddiasının batilliyi aydın olardı) və (onların doğru olmayan iddiası belədir ki,) özlərinin tərk etdikləri haqqı, özləri tökdükləri qanı (qisası) tələb etməkdədirlər. Belə isə əgər mən o qanın tökülməsində (Osmanın qətlində), onlarla ortaq olmuş olsaydım, onlara da bundan fayda çatardı. Əgər mənsiz özləri bu işi ediblərsə onda onlardan başqa heç kəs təqsirləndirilməməlidir. Onların ən böyük dəlil və sübutları (Osmanın qətlində iştirakı mənim adımla bağlamaları) öz zərərinədir. (Çünki özləri onu qətlə yetiriblər və mən bilirəm ki, onlar Osmanın qanını almaq niyyətində deyillər, onlar) südü qurumuş anadan süd istəyirlər, ölmüş bid'əti diriltmək istəyirlər. Ey dəvət edən naümid, (ya məni müharibəyə, ya da özünlə razılaşmağa çağırırsan, hazır ol) dəvət edən kimdir və nə ilə cavab veriləcək?. Mən Allahın onlara olan hüccətinə və onlar barəsində elminə razıyam. Əgər onlar boyun qaçırsalar, (haqq yoluna dönməsələr) qılıncın iti tərəfini onlara yönəldərəm (onları qətlə yetirərəm) ki, batildən (zülm və cövr xəstəliyindən) şəfa tapmaq üçün bu onlara kifayət edər və haqqa kömək olar. Vuruşmaq üçün meydana çıxmağımı mənə xəbər yollamaları, döyüşdə dözümlü və səbrli olmağımı demələri nə qədər heyrətlidir! Anaları vaylarına otursun, heç vaxt mən müharibə ilə təhdid olunmamışam, qılınc zərbəsindən qorxmamışam. Mənim öz Rəbbimə yəqinliyim var, öz dinimdə heç bir şəkk və şübhəm yoxdur. (Təhdid olunmaq və qorxmaq öz Allahına yəqinliyi olmayan, dinində şübhəsi olan kəslərə layiqdir. Onlar buna görə ölməkdən və öldürməkdən qorxurlar).

İmam Əli əleyhis-salamın xütbələrindəndir. (Burada o yoxsullara dövlətlilərin paxıllığını çəkməmək, dövlətlilərə də heç bir işi riya və özlərini göstərmək üçün etməmək göstərişi verir, qohumlarla əlaqənin, mehribanlığın, yaxınlarına köməyin faydalarını bəyan edir:) Allaha həmd və səna, peyğəmbərinə salamdan sonra, ilahi fərman (qəzavü- -qədər) hər bir kəsə yağış damlaları göydən yerə düşdüyü kimi yetişər. Hər bir kəsin qisməti, az və ya çox, ona çatır. Buna görə də sizlərdən biriniz (eyni cinsdən olan) qardaşınızın əhli-əyalında, malında və ya vücudunda bir üstünlük görsəniz, onun üçün fitnə-fəsada səbəb olmayın (onun paxıllığını çəkməyin, özünüzü dünya və axirətin xətərlərinə atmayın). Müsəlman kişi nə qədər ki, (başqasının paxıllığını çəkməyib) alçaqlıq və rüsvaylığını izhar etməyib, camaatın dilinə düşməyib, dəyərsiz olmayıb və bu səbəbdən də dar düşüncəli alçaq şəxslər onu qınamayıb, özünün ilk zərlərindən qələbə və uduş gözləyən uduzmuş qumarbaza bənzər ki, qənimət əldə edib öz ziyanını ödəsin. Eyni ilə də xəyanətdən (Allaha və məxluqa xəyanətdən) çəkinən yoxsul müsəlman kişi iki yaxşı şeydən birini Allahdan gözləyir: -Ya Allahın dəvət edənini (hamını Allaha tərəf çağıran ölümü) Allah dərgahında tapdığı (axirət nemətləri), onun üçün (dünya nemətlərindən) daha yaxşıdır. -Yaxud da (dünyada) Allah ruzisini. Beləliklə, o, dini və şərəfi (elm, ədəb və səbri) özündə olmaqla yanaşı əhli-əyal və var-dövlət sahibi olar. Həqiqətən mal və övlad bu dünyanın (puç olacaq) bəhrəsidir, xeyir əməl isə (qalan və bərqərar olan) axirətin bəhrəsidir. Bəzən də Allah-təala bir qism insanlara bunların hər ikisini nəsib edir (onlar həm dünyadan, həm də axirətdən bəhrələnirlər). Buna görə də (olanla razılaşın, günah və itaətsizlik etməyin), Allahın sizləri qorxutduğu əzabından qorxun. Qorxmağınız üzrə və bəhanəyə görə (xəta və ya təqsirə yol verməkdən qorxan, ağıllı insanlar kimi) olmasın. İbadət edin (Allaha), bunu özünüzü camaata göstərmək üçün etməyin, çünki Allahdan başqası üçün iş görənin əcrini Allah-təala kimin üçün iş görülübsə ondan almağı tapşırar. (O Həzrət bütün sözlərində və əməllərində Allahdan başqa kimsəni düşünmədiyinə görə, burada da dua etməyə başlayır:) Allahdan (bəlaya dözümlü olan) şəhidlərin məqamını, (heç kəsin paxıllığını çəkməyən)

xoşbəxt insanlarla yaşamağı, (riyakarlıq və özünü göstərmək üçün iş görməyən) peyğəmbərlərlə yanaşı olmağı istəyirik. Ey camaat, heç kəs var-dövlət sahibi olsa belə, öz tayfa və qohum-əqrabasından tam ehtiyacsız deyil. Onların əməldə və sözdə köməklərinə və müdafiələrinə ehtiyacı var. Yaxınları insanın eyiblərinin qorunması üçün ən mühüm şəxsdirlər və onun dağınıqlığını, çətinliklərini daha yaxşı aradan götürə bilərlər. Dar anda və onun başına ağır hadisələr gəldikdə (başqalarından) ona daha mehriban olarlar. Allah-təalanın bir şəxs üçün camaat arasında yaxşı ad əta etməsi, ona başqasına miras qoyacağı var-dövlət verməsindən daha yaxşıdır. Bu xütbənin bir hissəsidir: Agah olun ki, sizlərdən heç biri öz qohumlarından üz döndərməməlidir. Onları yoxsulluq və pərişanlıq içində gördükdə, onlara ehsan etməlisiniz. Onlara verməkdən çəkindiyiniz mal artmayacaq, onlara sərf etdiyiniz mal azalmayacaq. (Allah onun əvəzini verəcəkdir.) Hər kəs öz tayfasından əl çəkərsə (onlara kömək edib əl tutmazsa) onlardan bir əl azalmış olur, ondan isə çoxlu əllər. (Öz qohumları ilə) təvəzokar, mehriban və yoldaş olan kimsə onların əbədi dostluğunu qazanmış olar. (Seyyid Rəzi buyurur:)

Deyirəm: غَفِيرَة bu xütbədə çoxluq mənasındadır. Necə ki, جمع كثير sözünün yerinə جَمٌّ غَفِير və جَمّآءُ غَفِير deyilir. Bir rəvayətdə onun əvəzinə عَفْوَةً deyilmişdir. عَفْوَة yaxşı bir şeyə deyərlər. Necə ki, أَكَلْتُ عَفْوَةَ الطَّعامِ yaxşı bir xörək yedim deməkdir. O Həzrət öz buyruğunda bu sözü necə də gözəl mənada işlətmişdir. وَمَنْ يَقْبِضْ يَدَهُ عَنْ عَشِرَتِهِ Hər kəs yoldaşlığını və xeyrini qohumlarından əsirgəyərsə, onlara bir köməyini əsirgəmişdir, onların yardımına və köməyinə möhtac olan vaxt, onları köməyə çağıranda ona yardımdan imtina edib sözünə qulaq asmazlar. Buna görə də çoxsaylı əllərin yardımından, saysız-hesabsız ayaqların yoldaşlığından məhrum qalar.

←23-cü xütbə

Nəhcül-bəlağə. 24-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

25-ci xütbə→

İmam Əli əleyhis-salamın xütbələrindəndir. (Döyüşdə öz möhkəmlik və dəyanətini izhar edib, o Həzrətin vuruşmaqda süstlük etdiyini deyən bir kəsin sözünü düzgün bilməyib, camaatı təqva və pərhizkarlığa rəğbətləndirərək buyurur:) Öz canıma and olsun, haqqa qarşı çıxanlara, azğınlıq yoluna ayaq basanlara qarşı vuruşmaqda süstlük və yumşaqlıq göstərməyəcəyəm (çünki haqqa qarşı çıxanlarla vuruşmaq vacib, bu işdə süstlük və səhlənkarlıq isə günahdır). Belə isə, ey Allah bəndələri, Allahdan çəkinin (yersiz danışmayın, nalayiq söz deməyin), Allahdan Allaha (onun qəzəbindən rəhmətinin, əzabından əfvinin, ədlindən fəzlinin pənahına) sığının. Sizin önünüzdə qoyduğu aydın yola (şəriətin doğru yoluna) yönəlin. Sizin boynunuza qoyduqlarını (şəriət məsələlərini) yerinə yetirin. Beləliklə, (ilahi göstərişə əməl edib şəriət məsələlərini yerinə yetirsəniz) əgər dünyada nicat tapmasanız, axirətdə sizin nicat və qələbənizə Əli zamindir.

Nəhcül-bəlağə. 25-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın xütbələrindəndir. Müaviyənin səhabələrinin və qoşununun şəhərləri ələ keçirmə xəbəri ardı-arası kəsilmədən o Həzrətə çatırdı və Bosr ibn Əbi Ərtatın o Həzrət tərəfində Yəməndə vali və hakim olan Übəydullah ibn Abbas və Səid ibn Nəmran üzərində qələbəsindən sonra, onlar Kufədə o Həzrətin yanına gəldilər. O Həzrət öz səhabələrinin cihada tənbəllik etmələrindən və onun rəyinə, tədbirinə qarşı çıxmalarından əziyyət çəkdiyi, sıxıldığı bir halda durub minbərə qalxdı və buyurdu:

İxtiyarı və ipi əlimdə olan Kufədən başqa heç bir yer mənim hakimiyyətimdə deyil. Ey Kufə, əgər mənə səndən başqa heç nə qalmasa və sənin də qorxunc küləklərin əssə (sənin əhlinin fitnə-fəsadı, nifaqı və ikiüzlülüyü zahir olsa) onda Allah səni pis vəziyyətə salsın. (Xaraba və viran etsin ki, kimsə səni tanımasın.) Misal olaraq şairin bu şe'rini oxudu: لَعَمْرُ أَبِيكَ الْخَيرِ يا عَمْرُو إِنَّنِى عَلى وَضَرٍ مِن ذا الْإِنآءِ قَلِيلِ -yəni, ey Əmr, yaxşı atanın canına and olsun ki, mən bu xörək qabında qalan azacıq çirkə və yağa çatmışam. (Məmləkətdə payının bu qədər az olmasına işarə edilir.) Ondan sonra buyurdu: Mənə xəbər çatıb ki, Bosr (Müaviyənin əmrilə böyük bir qoşunla) Yəmənə daxil olub. Allaha and olsun ki, onların öz batil yollarında birlik və həmrəyliklərilə sizin haqq yolunda təfriqə və dağınıqlığınıza görə tezliklə sizlərə hakim kəsilib hakimiyyətə sahib olcaqlarını güman edirəm. Ona görə ki, siz haqq yolunuzda İmam və rəhbərinizə itaətsizlik göstərirsiniz, onlar isə batil yolda olsalar belə öz rəhbərlərinə itaət edirlər. Onlar rəhbərlərinin əmanətini qoruyur, siz isə xəyanət edirsiniz (onların bey'əti davamlıdır, siz isə əhdinizi pozursunuz). Bir də şəhərlərindəki islah işlərinə (bir-birilə ülfət və dostluq edir, birliklərini saxlayırlar), sizin isə fəsadınıza görə (bir-birinizə kin, paxıllıq bəsləməyinizə, ikiüzlülüyünüzə və təfriqənizə görə. Bu bir qövmün məğlubiyyət səbəbidir). (Beləliklə, sizi o qədər xəyanətkar sanıram ki,) əgər sizdən birinə taxta qədəhi belə tapşırsan, qorxuram ki, onun (dəvənin palanından asdıqları) tutacağını aparasınız. Pərvərdigara, mən onlardan (Kufə əhlindən) bezmişəm və qəlbim sıxılıb, onlar da məndən doyublar. Belə isə, onlardan daha yaxşısını mənə nəsib et, mənim əvəzimə onlara bir şər ver.

Allahım, onların ürəklərini (əzab və qorxudan) duz suda əriyən kimi ərit. (Ey Kufə əhli,) agah olun ki, Allaha and olsun, mənim üçün sizlərin yerinə (öz qeyrət, şücaət və yoldaşlıqları ilə məşhur olan) Fəras ibn Qənm övladlarından min süvarinin olmasını istərdim. (Burada Fəras ibn Qənmin övladlarını tərif etmək üçün şairin bu şe'rini oxuyur:) هُنالِكَ لَوْ دَعَوْتِ أَتاكِ مِنْهُمْ فَوارِسُ مِثْلُ أَرْمِيَةِ الْحَمِيمِ -yəni, ey Ummu-Zənba (Ummu-Zənba bir qadının ləqəbidir) kömək və zəfər üçün əgər onları (Bəni-Təymi) çağırsan, süvariləri yay buludları kimi sənə doğru gələrlər. Bundan sonra Həzrət minbərdən endi. (Seyyid Rəzi buyurur:) Deyirəm: أَرْمِيَة kəlməsi رَمِيّ kəlməsinin cəmidir və mənası bulud deməkdir. حَمِيم burada yay fəsli mənasında işlənmişdir. Şair də yay buludlarına ona görə təşbih işlətmişdir ki, yay buludlarında su olmadığından iti sürətlə hərəkət edirlər. Bulud su ilə dolu olduqda, adətən yavaş hərəkət edir və qışda rast gəlinir. Şair də həmin camaatın, kömək və zəfər üçün çağırdıqda, dəvəti dərhal qəbul edib köməyə tələsdiklərini buna bənzətmişdir. Buna sübut şairin bu şe'rdə dediyi sözləridir.

←25-ci xütbə

Nəhcül-bəlağə. 26-cı xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

27-ci xütbə→

İmam Əli əleyhis-salamın xütbələrindəndir (Nəhrəvana doğru hərəkət etməzdən öncə buyurmuşdur).

Həqiqətən böyük Allah dünya əhlini ilahi əzabdan qorxudan və özünə nazil edilənə əmin olan Məhəmmədi (səlləllahu əleyhi və alih) göndərdi. Siz, ey ərəb qövmü, sizlər o vaxt ən pis (şirk və bütpərəstlik olan) dinə etiqad edir, ən pis yerdə (Hicazda) yaşayırdınız (oralar quraqlığın, fitnə-fəsadın çox olduğu bir yer idi). Daşlıq torpaqlarda və sanki karmış kimi səsdən ürkməyən çox zəhərli ilanların arasında həyat sürür, qara çirkab suyu içir, bərk xörəklər (ələnməmiş arpa unu, xurma çərdəyinin unu və kərtənkələ kimi) yeyir, bir-birinizin qanını tökür, qohum-əqrabanızdan uzaq gəzərdiniz (güzəranızın ağırlığına və əxlaqınızın pisliyinə görə qohumlarla əlaqə saxlamırdınız). Aranızda bütlər asılmışdı (öz əllərinizlə yaratdıqlarınıza pərəstiş edirdiniz) və günahlardan çəkinib uzaqlaşmırdınız.

Bu xütbənin bir hissəsidir

(Həzrət Peyğəmbərin vəfatından sonra başına gələnləri qısa şəkildə bəyan edir: Müxaliflərim mənim haqqım olan xəlifəliyi qəsb etdikdə) Beləliklə, (öz işlərimi) fikirləşib gördüm ki, öz əhli-beytimdən (Bəni-Haşimdən) başqa yavərim yoxdur, (onlar da bu qədər əleyhdarlarımla mübarizə apara bilməzdilər. Buna görə də) onların öldürülməsinə razı olmadım. Çöp batmış gözümü yumdum, sümük boğazımı tutsa da uddum, tənəffüs yolunun tutulmasına (qəm və kədərin çoxluğundan) və əlgəm otundan (olduqca acı bir bitkidir) daha acı şeylərə dözdüm. Bu xütbənin başqa bir hissəsidir

(Əmr ibn Asın Müaviyəyə necə bey'ət etdiyini bəyan edir və buyurur:) Əmr girov və qiymət şərtini (Misirin hakimliyini) qoymayınca Müaviyəyə bey'ət etmədi. Satıcının (dinini dünyanın qiymətinə satanın) əlinin bərəkəti olmaz və alıcının (Müaviyənin) əhd-peymanı onun rüsvayçılığına səbəb olar. Buna görə də (indi ki, Əmr Müaviyəyə qoşulub), müharibəyə hazırlaşın, onun

tədarükünü görün ki, döyüş məşəli alovlanıb, onun işığı ucalıb. Dözümü özünüzə şüar edin (döyüşdə sabit olun, onun ziyanına dözün) ki, düşmənə zəfər çalmağın ən mühüm yolu dözümdür.

İmam Əli əleyhis-salamın (şərafətli ömrünün sonlarında buyurduğu və öz səhabələrini Müaviyə ilə cihad etmədiyinə görə qınadığı) xütbələrindəndir: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra, cihad (dinə qarşı çıxanlarla döyüş) Allahın özünün xüsusi dostlarının üzünə açdığı Cənnət qapılarından biri, təqva və pərhizkarlıq libasıdır. (Paltar insanı soyuqdan və istidən qoruduğu kimi təqva əhlini müxaliflərin şərindən qoruyar.) Haqq-təalanın möhkəm zirehi və onun (təqva əhlini düşmənlərin silahlarından qorumaq üçün) güclü qalxanıdır. Hər kəs ondan uzaqlaşıb, onu tərk edərsə Allah ona zillət və xarlıq paltarı, bəla və çətinlik cübbəsi geyindirər. Bunun təsirindən isə həmin adam həqir, alçaq, zəlil və biçarə olar. Allah öz rəhmətini onun qəlbindən götürdüyünə görə ağılsızlığa mübtəla olar (öz işlərində heyran və sərgərdan olar). Cihada getmədiyinə və bu mühüm işə əhəmiyyət vermədiyinə görə haqqın yolundan uzaqlaşaraq batil yola qədəm qoyar. Müsibətə və biçarəliyə düçar olaraq ədalət və insafdan məhrum olar (zülmkar ona hakim kəsilərək onunla insafsızcasına davranar). Agah olun, mən sizləri gecə və gündüz, gizlində və aşkarda döyüşə (Müaviyə və ona tabe olanlara qarşı döyüşə) dəvət edərək dedim ki, onlar sizinlə döyüşə gəlməmiş, siz onlarla döyüşə çıxın. Allaha and olsun, hər hansı qövmün öz evində (diyarında) elə bir müharibə olmayıb ki, orada onlar zəlil və məğlub olmasınlar. Siz isə vəzifənizi bir-birinizə həvalə etdiniz (sizlərdən hər biriniz başqasının öz vəzifəsinə əməl etməsini umurdunuz). Mal-mülkünüz hər yandan qarət olunana, (düşmən qələbə çalıb) yurdunuz əlinizdən çıxana qədər bir-birinizi xar etdiniz. Bu, öz süvarilərilə (Müaviyənin əmrinə əsasən Fərat çayının şərq sahillərində yerləşən İraqın qədim şəhərlərindən biri olan) Ənbar şəhərinə daxil olub, Həssan ibn Həssan Bəkrini (şəhərin vali və hakimi) öldürüb, süvarilərinizi şəhərin hüdudlarından uzaqlaşdıran Qamidin (Bəni Qamid qəbiləsindən olan Süfyan ibn Əuf) qardaşlarındandır. Mənə xəbər çatdı ki, onların bir döyüşçüsü bir müsəlman qadına və müsəlmanların amanında olan bir kafir qadına hücum edərək xalxalı, bilərzik, boyunbağı və sırğalarını qoparmış, o qadın da zar-zar ağlayaraq öz qohumlarını köməyə çağırmaqdan başqa cür onlara mane ola bilməmişdir. Düşmənlərdən heç

birinin yaralanmadığı, qanları tökülmədiyi halda onlar (bu döyüşdən) böyük qənimət və sərvətlə qayıtdılar. Əgər müsəlman kişi bu hadisəni eşidib qəm-qüssədən ölərsə ona eyib deyil. Mənə görə isə ölüm bundan daha layiqlidir. Nə qədər də heyrətli və təəccüblüdür! And olsun Allaha, onların (Müaviyə və tərəfdarlarının) özlərinin nahaq işlərinin ətrafında birləşməsi, sizin isə haqq işinizdə təfriqə və ixtilafa düşməniz ürəyi öldürür, qəm və hüznü özünə çəkir. Onların oxlarına tuş gəldiyiniz vaxt üzünüz qara, qəlbləriniz qəmli olsun (düşmən sizə doğru ox atır, siz isə qeyrətsizliyinizə, təfriqə və ixtilafınıza görə sinələrinizi onun hədəfinə çevirib sakit oturmusunuz). Onlar sizin malınızı yağmalayırlar, siz isə əlinizə heç nə almırsınız. Sizinlə döyüşürlər, sizsə döyüşmürsünüz. Allaha asi olurlar, siz isə razısınız. Yayda sizə onlarla döyüşə çıxmağı əmr etdikdə dediniz ki, indi hava istidir və istilər sınana qədər bizə möhlət ver. Qışda onlarla döyüşmənizi əmr etdikdə isə dediniz ki, bu günlər hava çox soyuqdur və soyuqlar çıxana qədər bizə möhlət ver. Siz isti və soyuqdan qaçmaq üçün bu qədər bəhanə gətirirsiniz, Allaha and olsun (döyüş meydanında), qılıncdan daha tez qaçacaqsınız. Ey kişilikdən nişanəsi olmayan namərdlər! Ey ağlı uşaq və bəy otağına təzə girmiş qadın ağlı kimi olanlar! Ey kaş mən sizləri nə görə, nə də tanıyaydım. And olsun Allaha, sizi tanımağın nəticəsi peşmanlıq, qəm və qüssədir. Allah sizləri məhv etsin ki, mənim ürəyimi qan etdiniz, sinəmi qəzəblə doldurub-daşırdınız. Aldığım hər nəfəsdə mənə qəm və hüzn yedirtdiniz. Mənə itaətsizlik, etinasızlıq edərək tədbirimi pozub, puç etdiniz, bunun nəticəsində də Qüreyş «Əbu Talibin oğlu igiddir, ancaq müharibə aparmaq qaydasını bilmir» dedilər. Allah atalarına rəhmət etsin! (Öz dedikləri sözü fikirləşmirdilər.) Onlardan hansı biri döyüşdə mənim qədər çalışqan və ciddi idi, yoxsa öndə getməkdə və ya müqavimətdə məndən artıq idilər? Hələ iyirmi yaşıma çatmamış döyüşə hazır idim və indi də ömrümdən altmış ildən çox keçmişdir. (Mənim döyüşlərdəki fikrim və tədbirim həmişə düz olmuşdur.) Ancaq fərmanına itaət olunmayanın, hökmünə əməl edilməyinin əlacı yoxdur.

←27-ci xütbə

Nəhcül-bəlağə. 28-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

29-cu xütbə→

İmam Əli əleyhis-salamın (dünyaya etimadsızlıq və axirətə hazırlıq barədə buyurduğu) xütbələrindəndir. Haqq-təalaya həmd-sənadan və Həzrət Peyğəmbərə salamdan sonra. Həqiqətən dünya arxa çevirərək (sizin ürək bağladığınız şeylərdən) ayrılıqdan xəbər verir. Axirət yaxın və aşkar olmuşdur. (Dünya hamı üçün ötəridir. Ölümlə başlayan axirət isə gələcəkdir. Ona görə də, fani dünyaya ürək bağlamamaq, əbədi məkana getməyə hazırlaşmaq lazımdır.) Agah olun ki, bu günlər (ömrümüzdən qalan müddət xeyir işlər görmək və bəyənilmiş əxlaqa çatmaq üçün) mizmar və hazırlıq günüdür (dünyanın ləzzətinə göz yummaq lazımdır), sabah isə (axirət) önə keçmək günüdür. Önə keçmək (yarışın qalibi olanın yeri) cənnətdir, (axıra qalanın) sonu atəşdir. Belə isə, ölümü çatmadan öz günahından tövbə edən bir kimsə yoxdurmu? Görəsən özünün bədbəxtlik günü gəlmədən (ilahi əzabdan) öz nicatı üçün çarə edən yoxdurmu? (Yaxşı əməllər etsin ki, o gün saleh əməllərdən başqa heç nə nicata səbəb olmayacaq.) Agah olun ki, siz ardında ölüm dayanan arzu və ümid (həyatın əbədiliyi və yaşayışın davamı) günlərindəsiniz. Əcəli çatmazdan öncə arzu və ümid günlərində iş görən (camaata köməklik, Allaha bəndəlik edən) kimsənin əməli ona xeyir gətirəcək, ölümü ziyan vurmayacaqdır. Əcəli çatmamış həmin günlərdə səhlənkarlıq edənin (camaata köməklik, Allaha bəndəlik etməyənin) işi xarabdır və ölümdən ziyan çəkəcəkdir. (Çünki ölüm vaxtı camaata xidmət və Allaha bəndəlikdəki təqsirlərinə görə peşmançılığın xeyri yoxdur. Buna görə də nəticə etibarı ilə ziyan görəcəkdir.) Agah olun, rahatlıq və əmin-amanlıq vaxtında (əlləriniz çatan vaxt), xof və qorxunun sizə hakim kəsiləndə iş gördüyünüz kimi (xalqa xidmət və Allaha ibadət yolunda çalışın) əməl edin. Agah olun, mən Cənnət kimi bir nemət görmədim ki, onu arzulayan qəflət yuxusunda olsun. Nə də atəş kimi bir əzab gördüm ki, ondan qaçan bihuşluq yuxusunda olsun! Bilin ki, haqqdan xeyir tapmayana mütləq batilin ziyanı yetişəcəkdir. Hidayətlə doğru yola gəlməyəni azğınlıq çarəsizliyə və ölümə sürükləyir. Agah olun ki, sizlər köçməyə (bu saraydan əbədi saraya getməyə) məmur edilmisiniz (bundan başqa çarəniz yoxdur) və azuqə toplamağa yönəldilmisiniz. Ən qorxulu olan iki şey var və sizin üçün onlardan

qorxuram: Biri nəfsinizin arxasınca getməniz (gözlərinizi həqiqətə yumar) və digəri isə arzularınızın çoxluğudur. (Sizə axirət üçün azuqə və ehtiyat toplamağa imkan verməz.) Belə isə sabah onun vasitəsilə özünüzü qiyamətdə (əbədi əzabdan) qoruyacağınız şeyin, (camaata xidmət və Allaha bəndəliyindən) tədarükünü bu dünyada görün. (Seyyid Rəzi buyurur:) Deyirəm: Xalqı zahidliyə, dünyaya rəğbətsizliyə, axirətdə işə yarayan xeyir əməllərə vadar edən söz olarsa, hərhalda bunlar Həzrətin həmin sözləridir. Camaatı çox bağlı olduqları amal və arzulardan daşındırır, öyüdün, Allaha və Peyğəmbərə qarşı üsyan və itaətsizliyin qadağa şöləsini həddən çox alovlandırır. O Həzrətin sözlərinin heyranediciliyi ondadır ki, buyurur: «أَلا وَ إِنَّ الْيَوْمَ المِضْمارُ وَ غَداً السِبَاقُ وَالسَّبْقَةُ الْجَنَّةُ وَالْغايَةُ النَّارُ» Çünki bu sözdə ifadənin böyüklüyü və mənanın dərinliyilə yanaşı həqiqətə və işin mahiyyətinə uyğun təşbihdə heyrətamiz sirr və incə məna vardır. Buyurur: وَالسِّبْقَةُ الْجَنَّةُ وَالغايَةُ النَّارُ İki mənadakı fərqə görə iki növ sözdən istifadə etmişdir: أَلسَّبْقَةُ sözünü Cənnət üçünأَلْغايَة sözünü isə atəş üçün işlətmişdir. وَالسِّبْقَةُ النَّارُ deyilوَالسَّبْقَةُ الْجَنَّةَ buyurmuşdur. Çünki إسْتِباق (önə keçmək) sözü yaxşı bir iş üçün və müsbət mənada işlədilir və Behiştin sifətidir. Atəş bu mənanı vermir. O atəşdən Allaha pənah aparırıq. Deməli, وَالسِّبْقَةُ النَّارُ buyurması düzgün olmazdı və ona görə də belə buyurmuşdur: وَالغايَةُ النَّارُ Çünki الغاية ona çatan hər bir kəs üçün bəzən şadlıq gətirmir, bəzən də sevinc bəxş edir. Deməli, bu sözü hər iki mənada izah etmək olar. الغاية kəlməsi burada Allah-təalanın buyurduğu مَصِير و مَأل sözü kimidir. (Qur’ani-Kərimin İbrahim surəsinin 30-cu ayəsi) قُلْ تَمَتَّعُوا فَإِنَّ مَصِيرَكُمْ إِلَى النّارِ «De, nalayiq işlərdən ləzzət alın. Beləliklə, sizin işlərinizin sonu atəşdir». Burada فَإِنَّ سَبْقَتَكُمْ إِلَى النَّارِ deyilməsi düzgün olmaz. Belə isə bu sözü dərindən düşün ki, onun batini heyrətamiz və çox dərindir. O Həzrətin sözlərinin əksəriyyəti belədir. Bəzi əlyazmalarda göstərilir ki, başqa rəvayətə görə سُبْقَة kəlməsində sin zəmmə ilə qeyd olunmuşdur. Ərəblər (yarışda) ötdüyü üçün önə keçənə (qalibə) mükafat verilən mala سُبْقَة (sini zəmmə ilə) deyərlər. سَبْقَة sözünün fəthə ilə olan mənası zəmmə ilə olan mənasına yaxındır. Çünki سُبْقَة (sözündə) sinin zəmməli olması pis və qəbahətli işin cəzası deyil, bəyənilən və sevilən işin mükfatıdır.

İmam Əli əleyhis-salamın (düşmənlərlə döyüşə səhlənkar və etinasız yanaşmalarına görə öz səhabələrini pislədiyi) xütbələrindəndir. Ey bədənləri bir, fikir və arzuları müxtəlif olan insanlar! Sizin (boş və mənasız) sözləriniz sərt daşları yumşaldır, sizin işiniz isə (öz evinizdə oturub, düşmənlə döyüşə hazırlaşmamanız) düşmənlərdə (malik olduğunuz hər şeyi ələ keçirib sizə sahib olmaq üçün) tamah yaradır. (Bir yerə yığışdığınız) məclislərdə özünüzdən çox danışır (boş və mənasız sözlərdən çox danışıb, igidlik və mərdlikdən dəm vurursunuz), düşmənlə döyüş vaxtı çatanda isə حِيدِی حَيادِ yəni, «ey müharibə, bizlərdən uzaq ol» deyirsiniz (حيدی حياد cümləsi ərəblərin düşməndən qaçarkən işlətdikləri misaldır). Sizi (zəfərə və özünə köməyə) dəvət edənin dəvəti qəbul olunmadı (çünki ona köməklik etmədiniz). Sizin uğrunuzda sizlərə zəhmət və əziyyət çəkənin ürəyi rahatlıq tapmadı. (Cihada getməmək və düşmənlə döyüşməmək üçün gətirdiyiniz) üzr və bəhanələr (doğru deyil), borclu şəxsin öz borcunu (üzrsüz yerə) gecikdirməsi kimi azğınlıqdır. Zəlil və qorxaq (ona edilən) zülmə mane ola bilməz. Zəhmət və səy olmadan haq (və asayiş heç bir qövm üçün) əldə edilə bilməz. (Düşməni əzib məğlub etmək üçün evdə oturub, cihada getməməklə asayiş və rahatlıq istəməniz xətadır.) Hansı evi (diyarı) öz evinizdən sonra (düşmənin işğal və dağıtmasından) saxlayarsınız? (Sizi evinizdən bayıra atdıqda) məndən sonra hansı əmir və İmamla (düşməni özünüzdən uzaqlaşdırmaq üçün) cihada gedəcəksiniz? Allaha and olsun, sizin aldatdığınız şəxs doğrudan da aldanıb. Allaha and olsun, sizin kömək və yoldaşlığınızla nicat tapan (düşməninə qalib gələn) kimsə, (qumarla oynanılan ox atıcılığında qumar üçün təyin olunan bütün oxlardan) daha uğursuz (çox ziyanlı) oxla nicat tapandır. Sizin köməyinizlə (düşmənə tərəf) ox atan (onun zülm və özbaşınalığının qarşısını almaq istəyən) kimsə başı sınmış, ucluğu olmayan ox atmışdır (belə bir ox hədəfə dəysə belə təsiri olmaz. Siz də düşmənlə qarşılaşsanız belə, qorxduğunuza görə onların irəliləməsinə mane ola bilməzsiniz). Allaha and olsun, sizin sözlərinizə (əhd-peymanınıza) inanmadan, sizin yoldaşlığınıza tamarzılanmadan səhəri açdım

və düşməni (Müaviyə və qoşununu) sizlərin köməyi ilə qorxutmuram (çünki sizin vəfasızlığınız, yalançılığınız mənə və düşmənə aydın olmuşdur). (Hər nə qədər sizləri düşmənlə döyüşə həvəsləndirsəm də, səhlənkarlıq edən), sizlərin halı nədir, sizin dərdinizin dərmanı nədir (ki, hazırlayım), nə ilə əlac olunursunuz (ki, əlac edim)? Düşmənlər də sizin kimi insanlardır. (Niyə siz də onlar kimi deyilsiniz və onların qorxusu ürəyinizə oturub?) Bilmədiyiniz və inanmadığınız sözləri danışırsınız? (Cihada getmək üçün bir-birinizə «onu edəcəyik, bunu edəcəyik» deyirsiniz. Həqiqətdə isə düşmənlə döyüşməyə əsla iradəniz yoxdur.) Günahlardan uzaqlarda qəflətdəsiniz? (Elə isə oyanın) Haqqdan qeyrisinə tamah salırsnız?

İmam Əli əleyhis-salamın Osmanın qətli barəsindəki kəlamlarındandır. Əgər onun qətlinə əmr vermiş olsaydım, sözsüz ki, qatil olardım, əgər qarşısını alsaydım, təbii ki, kömək göstərmiş olardım (onu öldürənlər mənimlə məsləhətləşməyiblər ki, mən onlara əmr vermiş, yaxud çəkindirmiş olum). Lakin (bilirəm ki,) ona kömək edən (Mərvan ibn Həkəm və Bəni-Üməyyədən bir dəstə adam) «Mən onu xar edəndən (ona köməklik göstərməyəndən) daha yaxşıyam» deyə bilməz. Onu xar edən də (Mühacir və Ənsardan bir dəstə) deyə bilməz ki, «ona kömək edən məndən daha yaxşıdır». (Burada o Həzrətin məqsədi Osmanı məzəmmət etməkdir.) Belə isə mən indi sizin üçün onun qətl səbəblərini (müxtəsər şəkildə) bəyan edirəm: Osman xilafəti öz ixtiyarına keçirib istibdad və özbaşınalıq etdi. (Məsləhətləşmədən, ümmətin razılığını nəzərə almadan istədiyini edirdi.) Deməli, belə iş görüb özbaşınalıq etməklə çox pis etdi, (siz isə zülm və sitəmdə) səbirsizlik etdiniz (səbr etməyib onu qətlə yetirdiniz), deməli, siz də bu səbirsizliyinizlə pis iş tutdunuz (gərək səbr edəydiniz ki, bu iş yumşaqlıqla islah olunardı və ya onun ətrafından dağılardınız ki, haqq öz sahibinə qayıtsın). Özbaşına hərəkət edən və onu öldürməkdə dözümsüzlük göstərən şəxs barəsində Allahın hökmü dəyişməzdir (Allah-təala qiyamət günü onlar barəsində hökm verəcək və hər kəsi öz günah və təqsiri qədər cəzalandıracaqdır).

İmam Əli əleyhis-salamın Cəməl müharibəsindən əvvəl, Zübeyrin itaət etməsi üçün Abdullah ibn Abbasi onun yanına göndərdiyi zaman buyurduğu kəlamlarındandır. Əlbəttə, Təlhə ilə görüşmə, onunla görüşsən görərsən ki, o, buynuzunu əyib itiləmiş öküz kimidir. İtaətsiz dəvəyə minib deyir: Bu, ram olan dəvədir (çətin işlərdən yapışıb nadanlıq və özbaşınalıq üzündən onları asan hesab edir). Lakin Zübeyrlə görüş, çünki o yumşaq təbiətlidir (gözəl əxlaqı və itaətkarlığı daha çoxdur). Ona de: Dayın oğlu (Zübeyrin anası Səfiyyə Əbu Talibin bacısı idi) deyir ki, sən məni Hicazda (Mədinədə) tanıdın (mənə bey'ət etdin), İraqda (Bəsrədə) inkar etdin (öz əhd-peymanını sındırıb, itaətdən çıxdın). Bəs nə oldu ki, sənə aşkar və aydın olandan üz döndərdin? (Nə baş verdi ki, öz əhd-peymanını pozub mənə qarşı çıxdın və mənimlə müharibəyə qalxdın. Seyyid Rəzi buyurur:) Deyirəm: O Həzrət əleyhis-salam bu kəlməni «فَمَا عَدَا مِمَّا بَدَا» işlədən ilk şəxsdir.

←31-ci xütbə

Nəhcül-bəlağə. 32-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

33-cü xütbə→

İmam Əli əleyhis-salamın (öz zəmanəsinin əhlindən şikayət etdiyi) xütbələrindəndir. Ey camaat, (əhalisi) zülmkar və nemətə küfran edən, yaxşı əməl sahibinin pis sanıldığı və zalımın öz zülmünü artırdığı bir rüzigarda sabahı açdıq (qərar tapdıq). Bildiyimizdən bəhrələnmirik (bildiyimizə əməl etmirik), bilmədiyimizi də soruşmuruq və (nadanlıq və təkəbbürün təsirindən) bizə yetişənə qədər böyük bəladan qorxmuruq. Deməli, (bədbəxtliyə və çarəsizliyə mübtəla olana qədər öz işimizin sonunu düşünmürük. Bu zəmanədə) insanların dörd sinfi var: birinci qism insanları çarəsizlik, qılıncının kütlüyü və mal-dövlətinin azlığından başqa heç nə fitnə-fəsaddan çəkindirməz. İkinci qism qılıncını qınından sıyırıb öz şərini aşkar edərək, piyada və süvarilərini (qoşununu) toplayaraq, özünü fitnə-fəsada hazırlayıb və qənimət olaraq oğurladığı mala və ya (təkəbbür və böyüklüyünü izhar etmək üçün) ardınca gedən süvarilərə, yaxud da (xalqa öz rəhbərliyini göstərmək üçün) çıxmaq istədiyi minbərə görə dinini zay edəndir (əldən verəndir). Özünü və Allahın sənin üçün yaratdığı Cənnəti satıb, onun qiymətinə dünyanı almaq uğursuz ticarətdir. Üçüncü qismi axirət əməli ilə (özünü abid və bəndə kimi göstərməklə) dünyanı, dünya əməli (həqiqi zöhd, təqva və ibadət) ilə axirəti istəməyən, özünü vüqarlı və mətanətli göstərən (pərhizkarlar tək özünü təvazökar aparan) addımlarını bir-birinə yaxın atan (əziyyətsiz adamlar kimi yol gedəndə asta-asta addımlayan) və (ibadət və bəndəlik üçün) paltarının ətəklərini yığıb tam sürətlə yol gedən, özünü mötəbər və əmin tanıtmaq üçün (camaat arasında zöhd və təqvayla) bəzənən, Allahın pərdəsini (din və şəriətin yolunu) günah vasitəsinə çevirəndir. Dördüncü qism həqarətinə, alçaqlığına və hakimiyyətə çatmaq üçün vasitəyə malik olmadığına görə xanənişin olandır. Öz arzularına əli çatmadığından özünü qaldığı vəziyyətə qane olan kimi göstərər. Nə gecələr sakitləşən daxilində, nə də gündüzləri keçirdiyi zahirində (heç vaxt) qənaət və zöhd əhli olmadığı halda, özünü zöhd və təqva əhlinin libası ilə bəzəyər. Qalan bir neçə kişi də Qiyamət gününü xatırlatmaq onların gözlərini (dünyanın ləzzətinə) yummuşdur, o günün qorxusundan gözlərindən yaş axır. Bəziləri

qovulmuş və hürküdülmüşdür bir dəstəsi qorxaq və xar, bəziləri isə sakit və dilləri bağlı qalıblar (haqqı aşkar edə bilmirlər). Bəziləri də ixlas və doğruluqla (xalqı doğru yola) dəvət edir (və ya Allahı ixlasla çağırır, bağışlanmalarını diləyirdilər), başqa bir dəstə isə (zülmkarların sitəminin təsirindən) qəmgin və incikdir. Təqiyyə və (düşməndən) gizlənmək onları itirib-batırmış (belə ki, heç kəs onları tanımır), başdan başa zəlalət və xarlıq onları bürümüşdür. Deməli, onlar şor dənizdə batmışlar, ağızları bağlı, ürəkləri isə yaralıdır. Özləri incik düşənə qədər (çünki onların sözlərinə qulaq asmır, onları saymırdılar) camaata öyüd-nəsihət verdilər. Məğlubiyyətin təsirindən zəlil və xar olub öldürüldülər və beləliklə, azaldılar. (Əcdadlarınızla belə rəftar etmiş) dünya sizin nəzərinizdə (səhrada bitən və yarpağından dabbaqlıqda istifadə olunan) səlm ağacının yarpağının qurusundan, (qoyun və bu kimi heyvanların yununu qırxılmasından sonra) qırxımdan qalan tullantıdan da dəyərsiz olmalıdır. Gələcək nəsillər sizlərin halından ibrət almamış (köçüb gedən və əməllərinin cəzasına çatan) əcdadlarınızın halından ibrət alın (tənbeh olunun). Bu pislənmiş və bəyənilməyən dünyadan əl çəkin. Çünki dünya onu sizlərdən daha artıq sevənlərə vəfa etməmişdir. (Seyyid Rəzi buyurur:) Deyirəm: Hansısa bir nadan bu xütbəni Müaviyənin adına çıxmışdır. Bu xütbənin Əmirəl-möminin əleyhis-salamın sözləri olmasına heç bir şübhə yoxdur. Qızıl torpaqla, şirin su şor su ilə necə bərabər ola bilər? Bu sözün doğruluğunu mahir yol göstərən və gözüaçıq bəsirətli birisi – Əmr ibn Bəhr Cahiz sübut etmiş və aydınlaşdırmışdır. O, bu xütbəni «بیان و تبیین» kitabında bəyan etmiş, onu Müaviyənin adına çıxanın da adını göstərdikdən sonra demişdir: «Bu xütbə Əli əleyhis-salamın sözlərinə daha çox bənzəyir. İnsanların bölgüsü, onların sifətlərinin təsnifatı, məğlubiyyət, zəlillik, təqiyyə və xof kimi vəziyyətlərinin təsviri o Həzrətin üslubuna daha layiqdir». (Elə həmin kitabda) qeyd edir: «Biz Müaviyənin öz sözlərində zahidlərin yolunu tutduğunu, Allahın bəndələri kimi rəftar etdiklərini harada görmüşük?».

←32-ci xütbə

Nəhcül-bəlağə. 33-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

34-cü xütbə→

İmam Əli əleyhis-salamın Bəsrə camaatı ilə müharibəyə (Cəməl müharibəsinə) gedərkən buyurduğu xütbələrindəndir. Abdullah ibn Abbas deyir: «Zi-Qar»da (Bəsrənin yaxınlığında bir yerdir) Əmirəl-möminin əleyhis-salam ayaqqabısının cırığını tikərkən onun yanına getdim. Mənə buyurdu ki, bu ayaqqabının qiyməti nə qədərdir? Ərz etdim ki, dəyəri yoxdur. Buyurdu: «Allaha and olsun, bu ayaqqabı sizlərə rəhbərlik və əmirlik etməkdən mənim üçün daha qiymətlidir. Lakin (mən əmirliyi və hakimiyyəti ona görə qəbul etdim ki,) haqqı sübut etməli, batili aradan götürməliyəm». Sonra Həzrət bayıra çıxaraq camaata bu xütbəni oxudu: Eyb və nöqsan sifətlərdən uzaq olan Allah Həzrət Məhəmmədi (səlləllahu əleyhi və alih) aralarında bir nəfər kitab oxuyanın və peyğəmbərlik iddiası edənin olmadığı ərəblərin içinə göndərdi. (Onların arasında nə peyğəmbər, nə də kitab var idi.) Sonra o Həzrət, onlar öz məqamlarına çatana, rahatlığa yetişənə qədər yol göstərdi (çirkin söz və əməlləri qadağan etdi) və (onları) bədbəxtlikdən xilas etdi. Beləliklə, onların nizələri düzəldi (müstəqilliyə və həyatlarında nizam-intizama çatdılar) və onların titrəyən böyük daşı sakitləşdi (əmniyyətsizliyə görə çəkdikləri iztirab və narahatlıq aradan götürüldü). Agah olun, Allaha and olsun, mən elə insanların arasında idim ki, düşmənin bütün qoşunu arxa çevirib qaçana qədər onlar doğru yola və nicata sövq edirdilər. (İtaəti qəbul etməyib döyüşənlərlə müharibə etdim.) Mən (o vaxt) aciz qalmadım, qorxunu özümə yaxın buraxmadım. Mənim Bəsrə camaatı ilə müharibəyə getməyim Peyğəmbərlə xalqı doğru yola yönəltmək və nicat vermək üçün getdiyimiz vaxtlarda olduğu kimidir. (İndi də aciz deyiləm və qorxu mənə yaxın düşməz.) Haqqı onun içindən çıxarmaq üçün batili yaracam. (Mən haqqın üzə çıxması üçün öz əməlimin işığı ilə haqqı örtmüş batil zülmətini dağıdacağam.) Mənim Qüreyşlə nə işim var? (Onların mənimlə düşmənçiliyinin səbəbi nədir?) Allaha and olsun, (onlarla müharibə etməkdən məqsədim budur ki,) kafir (müşrik və bütpərəst) olduqları vaxt onlarla döyüşdüm və haqqın yolundan dönərək fitnə-fəsad yolunu tutduqları indiki vaxtda da onlarla döyüşürəm. (Deməli, bu iki dövranda onlarla döyüşməyim küfr və azğınlığa görədir, yoxsa Qüreyşlə düşmənçiliyim

yoxdur.) Mən dünən (Peyğəmbərin sağlığında müharibələrdə) onlara yol yoldaşı olduğum kimi (müqavimət göstərirdim) bu gün də onlarlayam.

Nəhcül-bəlağə. 34-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın öz səhabələrinə Şam əhalisi ilə döyüşməyi əmr etdiyi vaxt buyurduğu xütbələrindəndir: Mən sizlərdən bezmişəm və narahatam. Sizi danlamaqdan əziyyət çəkirəm. Əbədi həyatın əvəzinə dünyanın müvəqqəti həyatından şadsınız? İzzət və başıucalığın yerinə rəzalət və alçaqlığa boyun əymisiniz? Sizləri düşmənlə müharibəyə çağıranda gözlərinizi döyürsünüz (həyəcanlanırsınız). Çətinliklə can verirmiş, huşsuzluqdan əziyyət çəkirmiş kimi mənimlə danışmaq üçün diliniz tutulur, qulaqlarınız bağlanır, sözlərimin müqabilində mat-məəttəl qalırsınız, elə bil ağlınızı itirib dəli olmusunuz (doğru yolu səhv yoldan, yaxşını pisdən, izzəti zillətdən seçə bilmirsiniz) və başa düşmürsünüz. Heç vaxt sizlərdən əmin olmadım və sizləri düz əməl sahibləri saymadım (sizə etimad etmədim və indi də inanmıram). Nə (düşməni dəf etmək üçün) meyl salınası ordu, nə də ehtiyac duyulası güclü dostlarsınız. Siz, bir tərəfdən yığdıqda, digər tərəfdən dağılan sarvansız dəvələr kimisiniz. Allaha and olsun, siz müharibə atəşini alovlandırmaq üçün pis camaatsınız. (Çünki) Sizə qarşı hiylə və məkr işlədirlər, siz isə hiylə işlətmirsiniz. Sizin şəhərləri tuturlar, siz isə qəzəblənmirsiniz (müdafiə olunmağı düşünmürsünüz). Düşmən yuxulamır, sizi isə qəflət yuxusu aparıb və unutqansınız. Allaha and olsun, (düşmənin irəliləməsinin qarşısını almaq üçün) bir-biri ilə yoldaşlıq etməyənlər məğlubdurlar. Allaha and olsun, güman edirəm ki, müharibə şiddətlənsə və ölüm, qətl atəşi alovlansa, sizlər baş bədəndən ayrılan kimi Əbu Talibin oğlundan (onun yanından) ayrılarsınız. (Belə xof və qorxaqlığınızla ikinci dəfə mənim ətrafıma yığışmağınız mümkün deyil.) Allaha and olsun ki, ətini sümükdə heç nə qalmayana qədər gəmirən, sümüyünü sındıran və dərisini soyacaq həddə düşməni özünə hakim kəsən (yəni, onun varlığını, canını, malını, arvad-uşağını ələ keçirən düşmənin qarşısını almayan) kimsənin acizliyi və qeyrətsizliyi hədsiz, ürəyi və ya onun sinə tərəfdən ürəyini əhatə edənləri zəifdir. Ey eşidən, sən də acizlikdə və qeyrətsizlikdə bu kişi kimi olmaq istəyirsənsə, ol. Amma mən, and olsun Allaha, düşmənə bu fürsət və imkanı verməzdən əvvəl Məşrəfi qılınclarla (Məşarif bu qılıncların hazırlandığı kəndin adıdır) onu elə vuracağam ki, başının sümüyünün

xıncımları göyə sovrulsun və qolları, qıçları kəsilsin. Mənim səylərimdən sonra fəth və qələbənin ixtiyarı Allahın əlindədir. Ey camaat! Mənim sizin üstünüzdə, sizin də mənim üstümdə haqqınız var: Sizin mənim üstümdə olan haqqınız sizə nəsihət vermək (bəyənilmiş əxlaqa təşviq etmək və nalayiq söz və əməllərdən çəkindirmək), qənimət və hüquqları bütünlüklə (israf edilməyə qoymadan, müsəlmanların beytülmalından) sizə çatdırmaq, nadan qalmamanız üçün (kitab və sünnədən bilmədiklərinizi) sizlərə öyrətmək, öyrənənə qədər də (şəriət qaydalarını öyrənib ona uyğun rəftar etməniz üçün) tərbiyə etməkdir. Mənim sizin üzərinizdə olan haqqım isə bey'əti saxlamanız, gizlində və aşkarda ixlas və dostluğunuz, sizi çağırdığım an cavab verməniz və sizə əmr etdiklərimə itaət etmənizdir.

İki hakimin rəy verməsindən sonra İmam Əli əleyhis-salamın buyurduğu xütbələrindəndir: Ruzigar böyük bəlalar və ağır hadisələr yaratsa belə, sitayiş Allaha məxsusdur. Şəhadət verirəm ki, şəriki olmayan Allahdan başqa Allah və ondan başqa mə'bud yoxdur, Məhəmməd onun bəndəsi və elçisidir. Ona və ailəsinə Allahın salamı olsun! (Hər şeyi) Bilən və təcrübəli olan mehriban nəsihətvericiyə itaətsizliyin nəticəsi həsrət və kədərdir. Bunun arxasınca isə təəssüf və peşmançılıq durur. Mən bu hakimlik barədə (onun zərərini bildiyim üçün) öz fikrimi və nəzərdə tutduğumu qısaca sizə bəyan etdim. (Siz sözümə əməl etmədiniz. Peşmançılığa düçar oldunuz ki, bunun da heç bir faydası yoxdur.) «لَوْ كَانَ يُطاعُ لِقَصيرٍ أَمْرٌ» Ey kaş Qəsirin göstərişinə və sözünə əməl olunaydı. Nəsihət verən (sizin itaətsizlik və müxaliflikdə şüarınız nəticəsində) nəsihət verməkdə tərəddüd edənə, alov verən alov verməkdən imtina edənə qədər zülmkar müxaliflər, itaətdən çıxan əhd pozanlar kimi mənə tabe olmayıb imtina etdiniz. Mənimlə sizin hekayətimiz Həvazənin qardaşının (Durəyd ibn Simə) dediyi kimidir. فَلَمْ تَسْتَبِينُوا النُّصْحَ إِلّاضُحَى الْغَدِ أَمَرْتُكُمْ أَمْرِى بِمُنْعَرِجِ اللِّوى

Yəni: Mun'əricul-livada öz fikrimi sizə dedim. Mənim nəsihətimin faydasını sabahkı gün səhər günəş çıxana qədər bilmədiniz.

Nəhcül-bəlağə. 36-cı xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın Nəhrəvan əhlini qorxutmaq üçün buyurduğu xütbələrindəndir.

Mən sizi öz Rəbbinizin yanında (mənim əleyhimə çıxmanız və düşmən kəsilməniz üçün) səbəb və höccət olmadan, (bu işdə) aydın dəlilsiz bu çayla dərə-təpəli yerlər arasında öldürülmüş halda səhərə çıxmağınızla çəkindirirəm. Dünya sizi həlak edir və ilahi qəzavü-qədər sizi tora salır (öz İmamınızın əleyhinə çıxmağınızın öldürülməkdən başqa cəzası yoxdur). Mən sizi (indi peşman olduğunuz) iki hakimin hökm verməsindən çəkindirdim. Siz isə əhdini pozan müxaliflər kimi imtina edərək əleyhimə çıxdınız. (Siffeyn müharibəsində Müaviyənin qoşunu Qur'anları nizələrinə sancdıqları vaxt dediniz: «Onlar bizi Allahın Kitabına tərəf dəvət edirlər və dəvətlərini qəbul etməyimiz lazımdır». Mən onların, məğlub olduqlarına görə bu hiyləni işlətdiklərini bildiyimdən sözlərinə inanmadım. Siz mənə qarşı çıxıb dediniz ki, əgər dəvətlərini qəbul etməsən səni onlara təslim edəcəyik. Mən razı deyildim, amma çarəsiz idim.) Beləliklə, sizin istək və xahi¬şinizə uyğun hərəkət etdim (döyüşdən əl çəkib Malik Əştəri geri çağırdım. Dünən iki hakimin hökm çıxarmasını vacib bilən, bu gün isə onu küfr sanan) sizlər quşbeyin, səfeh və səbrsiz bir dəstəsiniz (çünki söz və əməllərinizdə möhkəm deyilsiniz, ağılla söz danışıb iş görmürsünüz). Mən sizlərə şər gətirmədim, sizin ziyan görmənizi istəmədim, ey atasızlar.

İmam Əli əleyhis-salamın xütbə əvəzi olan kəlamlarındandır: Müsəlmanlar zəif və gücsüz olduqları vaxt İslam dininə kömək üçün ayağa qalxdım. Onlar (acizlik və gücsüzlükdən) boyunlarını bükdükləri zaman özümü aşkar etdim. Əldən düşdükləri vaxt (din məsələlərini) danışdım. Onlar heyran və sərgərdan olduqları vaxt ilahi nurla (cəhalət zülmətindən) keçdim. (Hər məchul mənə məlum idi.) (Bu sifətlərə malik olduğum halda, özünü göstərməkdə) Hamıdan sakit, önə keçməkdə (kamal baxımından) onlardan üstün idim. Fəzilətlərin cilovunu tutaraq pərvazlandım (çətinlikləri həll etmək üçün dərhal hazır olurdum) və bərk, dağıdıcı küləklərin yerindən tərpədib qopara bilmədiyi dağlar kimi fəzilətləri udurdum (kamal və fəzilətdə heç kəsin məqamı mənə çatmadı hər bir işdə dönməz idim). Heç kəs (nə hüzurumda, nə də yoxluğumda) məndən eyb və nöqsan tuta bilməyib. Zəlilin və sitəm çəkənin haqqını (zalımdən) alana qədər o, mənim üçün əziz və dəyərlidir. Güclü və zülmkar (məzlumun) haqqı ondan alınana qədər mənim üçün gücsüzdür. Biz ilahi qəzavü-qədərə şadıq və onun fərmanına təslimik. (İlahi vəhy və peyğəmbərin aşkar və aydın təsdiqi ilə onun canişini və xəlifəsi olduğum halda) Məni Allahın Rəsulu barəsində yalan danışan görmüsənmi?! And olsun Allaha, mən onu təsdiq edən ilk şəxsəm. Belə isə (vəfatından sonra) onu təkzib edən ilk şəxs deyiləm. (Çünki gizlində və aşkarda mənim doğruluğumu, dürüstlüyümü və paklığımı öymuş və öz qardaşı adlandırmışdır. Deməli, yalan danışsam onu təkzib etmiş olaram. Xəlifələrlə sərt rəftar etməməyimin səbəbi budur ki,) öz xəlifəlik məsələm barəsində düşünüb gördüm ki, Həzrət Peyğəmbərin fərmanına itaət edib tabe olmaq mənə vacibdir (iş çəkişməyə gedib çıxarsa, boyun əyməyimi buyurmuşdur). Buna görə də bey’ət edib o Həzrətlə öz əhd-peymanıma uyğun rəftar etdim.

İmam Əli əleyhis-salamın (şübhənin «şübhə» adlandırılması haqqında və heç kəs üçün ölümdən xilas yolu olmaması barədə) xütbələrindəndir. Şübhə haqqa bənzər və oxşar olduğu üçün şübhə adlandırılmışdır. (Hər adam haqla batili bir-birindən ayıra bilməz Allaha və Peyğəmbərə) iman və etiqad Allah dostlarının şübhəli görünən işlərdə işığıdır. Yolları hidayət və nicat yoludur. (Bu yolla öz ardıcıllarını şübhələrin qaranlığından xilas edərək haqqı onlara aşkar edərlər.) Ancaq Allahın düşmənlərini o şübhələrə dəvət edən azğınlıq, bələdçiləri isə korluq və sərgərdanlıqdır. (Bu səbəbdən də öz yolçularını dünyada bədbəxt, axirətdə isə ilahi əzaba düçar edərlər.) Deməli, (Allah dostlarının ardıcılları ölümdən və öldürülməkdən qorxmur. Çünki) qorxan üçün hər halda ondan nicat və qurtuluş yoxdur. Diri qalmaq istəyən də həmişə diri qalmayacaqdır.

İmam Əli əleyhis-salamın xütbələrindəndir: Elələrinə düçar olmuşam ki, əmr etdikdə boyun əymir, çağırdıqda cavab vermirlər. Ey atasızlar, öz Allahınıza kömək və yardım üçün nəyi gözləyirsiniz? (İşlərinizdə süstlüyünüzün və Allah yolunda cihada getməməyinizin səbəbi nədir?) Sizi (dünya və axirət səadətini qazanmaq yolunda bir-birinizə kömək etməyiniz üçün) bir yerə toplayacaq din, (düşməni dəf etmək üçün) sizi tərpədəcək (din və onun əhlini qorumaq üçün) bir qeyrət yoxdurmu? Sizin aranızda dayanıb fəryad çəkə-çəkə yar və yoldaş istəyirəm. Mənim sözümə qulaq asmır, (itaətsizlik etdiyinizin və mənə qarşı çıxdığınızın nəticəsində) pis hadisələr aşkar görünənə qədər əmrimə itaət etmirsiniz (düşmən sizin can, mal və imanınıza hakim kəsilir), sizlərlə intiqam almaq olmaz, (sizlərlə düşmənə müqavimət göstərmək mümkün deyil), sizlərlə (din və dünya işlərində) məqsədə çatmaq olmaz. Sizi qardaşınıza kömək etməyə çağırdım (ah-vay etdiniz), göbəyi ağrıyan dəvə kimi nalə çəkdiniz. (Döyüş meydanına və qardaşınıza köməyə getmək üçün) arxası yaralı xəstə dəvə kimi (yol getməkdə) süstlük etdiniz. Sizlərdən mənə tərəf gələn azsaylı qoşun da narahat və acizdirlər. Sanki ölümə göndərilir və ölümü öz qarşılarında görür. (Seyyid Rəzi buyurur:) Deyirəm: Həzrət مُتَذَآئِب sözünü narahat və həyəcanlı mənasında işlətmişdir. Bu ərəblərin işlətdiyi تَذَآءَبَتِ الرِّيحُ (həyəcanlı küləklər əsdi) sözündən götürülmüşdür. Buna görə də narahat rəftarı ilə seçilən canavara da ərəbcə ذِئْب deyilir.

İmam Əli əleyhis-salamın Nəhrəvan Xəvaricinin «hökm ancaq Allaha məxsusdur!» sözünü eşidərkən buyurduğu kəlamlarındandır. Batil məqsəd üçün işlədilən haqq bir sözdür. Bəli, Allahdan başqa qeyrisinin hökmü yoxdur. Ancaq xəvaric deyir: (Xalqın arasında) əmirlik və rəislik Allaha məxsusdur. Xalq arasında istər xeyirxah, istərsə də pis əməl sahibi əmirin lazım olması labüddür. Onun rəhbərliyi və hakimliyi altında mömin ibadətlə məşğul olur, kafir isə öz bəhrəsini götürür (əmirin olması sayəsində hamı hərc-mərclik, iztirab və narahatlıqdan azaddır). Allah onun zamanında hər kəsi müəyyən olunmuş əcəlinə yetirir (əmir olmasa camaat bir-birinin canına daraşar) və onun vasitəsilə (ehtiyac olan vaxt istifadə edilməsi üçün) vergilər yığılır. Düşmənlə müharibə edilir, yollarda (oğru və soyğunçuların əlindən) əmin-amanlıq olur. Xeyir əməl sahibinin pozğunlardan (şərindən) asudə olması və rifahda yaşaması üçün zəif və gücsüzün haqqı güclü və zülmkardan alınır. (Seyyid Rəzi buyurur): Başqa bir rəvayətdə göstərilir ki, Həzrət Xəvaricin sözünü (Allahdan qeyrisinin hökmü yoxdur) eşitdikdə buyurdu: «Sizin (öldürülməniz) barədə Allahdan hökm gözləyirəm. Sonra buyurdu: Günahlardan pərhiz edən şəxs ədalətli əmirin hakimiyyətində Allaha ibadətlə məşğul olar və ziyankar şəxs isə pozğun əmirin vaxtında öz bəhrəsini götürər, ta ki, hər ikisi ömrünü başa vurar və onları ölüm haqlayar. (O vaxt biri mükafata, digəri isə öz əməllərinin cəzasına çatar.)

İmam Əli əleyhis-salamın xütbələrindəndir. (Bu xütbədə vəfalılıq təqdir, hiylə isə məzəmmət olunur.) Vəfa doğruluğun yoldaşıdır və mən (ilahi əzabın qarşısını almaq üçün) əhdə vəfa etməkdən daha qoruyucu sipər tanımıram. (Qiyamətdə) qayıdışın nə cür olmasından agah kimsə (ondan hansı şəkildə sorğu-sual ediləcəyini bilən heç vaxt) məkr işlətməz. Elə bir zəmanədəyik ki, adamlarının çoxu məkr işlətməyi zirəklik sanırlar və nadanlar onları zirək bilirlər. Bu məkr edənlərin xeyirləri nə olur? Allah onları həlak etsin (ki, camaat şərlərindən azad olsun və ya Allah onları öz rəhmətindən uzaq salsın)! Zirək və işini bilən insan hiylənin və hər bir işin çarə yolunu bilir. Hiylə işlətməməyinin səbəbi isə Allahın əmr və qadağasının ona mane olmasıdır. Hiyləni gördüyü, tanıdığı və işlətmək qüdrətinə malik olduğu halda onu tərk edir. Dində (Müaviyə və Əmr ibn As kimi) heç bir günahdan qorxusu olmayanlar, fürsəti əldən verməyərək hər işdə hiylə və məkrə əl atırlar.

İmam Əli əleyhis-salamın (nəfsi istəklərə itaətin və hədsiz arzuların dalınca düşməyin məzəmmət olunduğu) xütbələrindəndir. Ey camaat! Sizin iki ən dəhşətli şeyə-birincisi nəfsi istəklərə itaətə, ikincisi isə saysız-hesabsız arzuların dalınca getməyə mübtəla olmağınızdan qorxuram. Nəfsi istəklərin ardınca getmək insanı haqq yoldan saxlayar, saysız-hesabsız arzular isə axirəti yadından çıxardar. Agah olun, dünya (öz əhlindən) sürətlə üz döndərər (onun əhli tezliklə fani olacaq və ya onda xoş güzəran keçirmək, ona ürək bağlamaq nəticəsiz qalacaq). Bir kimsənin (başıaşağı tutaraq) tökdüyü su qabının dibində qalandan (həmin qabda azacıq sudan başqa su qalmaz) başqa bir şeyi qalmadığı kimi ondan bir şey qalmaz. Bilin ki, axirət yaxındır və dünya ilə axirətin hər birinin (öz) övladları var. Elə isə siz axirət övladlarından olun (Allahın və Peyğəmbərin göstərişinə uyğun rəftar edin və bu müvəqqəti həyata ürək bağlamayın) və dünyanın övladlarından olmayın. Çünki tezliklə qiyamətdə hər övlad anasına qovuşacaq. (Deməli, dünyanın övladı odda, axirətin övladı isə Cənnətdə olacaq.) (Bilin) bu gün (fani ömrün günləri) əməl və iş günüdür, hesabı, sorğu-sualı yoxdur. Sabah (qiyamət) əməl və iş günü deyil, hesab və sorğu-sual günüdür. (Seyyid Rəzi buyurur.) Deyirəm: حَذّاء sözü sürət və tələskənlik mənasını verir. Bəziləri جذّاء - cim və zal hərfləri ilə nəql edərlər yəni, bu dünyaya ürək bağlamağın xeyir və faydası yoxdur.

İmam Əli əleyhis-salamın (bey'ət almaq üçün) Cərir ibn Abdullah Bəcəllini Şama, Müaviyənin yanına göndərdikdən sonra buyurduğu kəlamlarındandır. O böyük şəxsiyyətin səhabələri (Müaviyənin Həzrətin əmrinə itaət etməyəcəyini bildiklərindən, Cərir Şamdan qayıtmamış və cavab gətirməmiş) dedilər ki, Şam camaatı ilə müharibəyə hazırlaşmaq məsləhətdir. (Həzrət buyurdu:) Cəririn onların yanında olduğu (hələ mənim cavabımı gətirmədiyi) halda mənim Şam əhalisinə qarşı müharibəyə hazırlaşmağım qapını onların üzünə bağlamaqdır və niyyət etmiş olsalar, onların yaxşılıqdan (bey'ətdən) üz döndərmələrinə səbəb olar. Amma mən Cərir üçün bir vaxt qoymuşam ki, (Müaviyəyə) aldanmasa (onu cavabı almaq üçün məəttəl saxlamasa) və ya itaətsizlik göstərməsə (ondan cavab almağa səhlənkar yanaşmasa) bundan artıq orada qala bilməz. Mənim rəyim (onlarla) mülayim rəftar etməkdir, siz də mülayim rəftar edin. (Hərçənd ki) döyüşə hazır olmanızdan da acığım gəlmir. وَلَقَدْ ضَرَبْتُ أَنْفَ هَذَا الْأَمْرِ وَ عَيْنَهُ Yəni, mən bu işin burnunu və gözünü vurmuşam, gizlinini və aşkarını alt-üst etmişəm. Mən özüm üçün başqa çarə görmürəm. Ya (Müaviyəyə və tərəfdarlarına qarşı) döyüşməli və ya küfrü və Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) gətirdiklərini inkar etməliyəm. (Daha sonra Müaviyənin o Həzrətin adı ilə bağladığı Osmanın qətlinin səbəbi haqda buyurur:) Osman ümmətə rəhbərlik edirdi və bir neçə bid'ət (nalayiq və imana zidd işlər) yaratdı, (bu çirkin işlər də) xalq arasında söz-söhbətə (məzəmmətə və etiraza) səbəb oldu. Onlar da, (onun barəsində deyilməli olanı) dedilər və ona rəğbətlərini itirib dəyişdirdilər. (Onu öldürdülər, buna görə də onun qətlini Müaviyənin mənim adıma çıxması həqiqətə ziddir.)

İmam Əli əleyhis-salamın Məsqələ ibn Hübeyrə Şeybaninin Müaviyənin yanına qaçdığı vaxt buyurduğu kəlamlarındandır. O, Bəni-Naciyə əsirlərini Əmirəl-möminininin nümayəndəsindən satın alaraq azad etmiş, Həzrət onların pulunu istədikdə isə xəyanət edərək Şama qaçmışdı.

Allah Məsqələnin üzünü qara eləsin. Böyüklərə layiq iş görüb (əsirləri satın alıb, azad etdi), qullara layiq qaçışla qaçdı. Onu öyəcək adama fürsət verməmiş susdurdu. Vəsf edən onun işini təsdiqləməmiş, onu qınamağa və pisləməyə məcbur oldu. Əgər getməyib qalsaydı, gücü çatan qədərini ondan alacaq, (qalan hissəsini almaq üçün) var-dövlətinin artmasını gözləyəcəkdik.

←44-cü xütbə

Nəhcül-bəlağə. 45-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

46-cı xütbə→

İmam Əli əleyhis-salamın (dünyanı və onun fəsadlarını qınadığı) xütbələrindəndir. Həmd olsun Allaha ki, heç kəs rəhmətindən məyus olmaz, nemətləri hamıya şamil edilər, heç kimsə onun bağışlamasından ümidsiz olmaz, ona ibadət kimsəyə başıaşağılıq gətirməz. Elə bir mə'buddur ki, rəhmətini əsirgəməz və neməti bitib-tükənməz. Dünya bir saraydır ki, onun üçün fənalıq və yoxluq, əhli üçün isə köçünü çəkmək labüddür. O (öz əhlinin nəzərində), xoş və yamyaşıldır və (aldatmağının, qəflətə salmağının səbəbi budur ki,) tələsik onu istəyənlərin, tələb edənlərin sorağına gəlir, öz məhəbbət və istəyini ona nəzər salanın ürəyinə salır. Belə isə ondan köçün (ona ürək bağlamayıb, axirət səfərinə hazırlaşın və rahatlığı orada axtarın) və ən yaxşı malınızdan (Xaliqə ibadət və xalqa xidmətdən) azuqə yığın, orada ehtiyacınızdan artıq istəməyin. Sizə çatandan artığını tələb etməyin.

İmam Əli əleyhis-salamın Şam şəhərinə hərəkət etmək qərarına gəldiyi vaxt buyurduğu kəlamlarındandır: Ey Allah! Səfərin məşəqqətindən, (yaxınların ölümü və ya malın tələf olmasından yaranan) dönüşün kədərindən, (camaatın) əhli-əyala, mala və övlada pis baxışından Sənə pənah gətirirəm. Allahım, Sən səfərdə yoldaşım, ailəmdə isə canişinimsən. Səndən başqa səfərdə yoldaşım, vətənimdə isə canişinim ola biləcək kimsə yoxdur. Çünki (vətəndə) hər kim canişin olsa, (səfərdə) yoldaş olmaz, yoldaş olan isə canişin deyil (Seyyid Rəzi buyurur:) Bu sözlərin əvvəli Allahın peyğəmbərindən (səlləllahu əleyhi və alih) nəql olunur və Həzrət əleyhis-salam ondan sonra وَلا يَجْمَعُهُمَا غَيْرُكَ sözündən buyuruğunun sonuna qədər ən bəlağətli kəlmələr işlətmiş və onu ən gözəl şəkildə tamamlamışdır.

İmam Əli əleyhis-salamın Kufə barədə (onun viran olması, o böyük şəxsiyyətdən sonra zülmkarların şəhər əhalisinə edəcəyi zülm və sitəm haqda xəbər verdiyi) kəlamlarındandır. Ey Kufə! Səni sanki Okkaz gönü kimi (müxtəlif qoşunların gediş-gəlişi və hərcmərclikdən) dartılmış görürəm. Baş verən hadisələrdən (zülmkarların zülm və sitəmindən, dabbaqlar gönü ayaqlayan kimi) tapdalanacaq, (cürbəcür müsibət və bəlalarla) çalxalanacaqsan. Mən bilirəm ki, yalnız Allah-təalanın bəlaya düçar etdiklərindən və ya onların üzərində bir qatili hakim etdiklərindən başqa heç bir zülmkar sənə zülm və sitəm etmək qəsdində olmaz.

İmam Əli əleyhis-salamın Şama gedərkən (Nuxeylədə) buyurduğu xütbələrdəndir. (Siffeyn müharibəsi iyirmi beş şəvval otuz yeddi h. q. ilində baş vermişdir.) Gecənin düşdüyü və dünyanın zülmətə, qaranlığa qərq olduğu hər dəfə Allah həmd olunmağa layiqdir. Ulduzların görünüb və gizləndiyi hər vaxt Haqq-təalaya sitayiş etmək rəvadır (həmişə, günün hər bir vaxtında Allah-təalaya həmd və şükür etmək hər bir kəsə vacib və lazımdır). Saysız-hesabsız şükrlər bütün kamal sifətləri özündə cəmləşdirən, nemət və bəxşişləri bitib-tükənməyən (hamıya şamil olan), fəzl və kəramətinin bərabəri olmayan bir mə'buda məxsusdur. Sonra öz qoşunumun önündə gedənləri (Ziyad ibn Nəsr və Şüreyh ibn Hanini on iki min süvari ilə) göndərdim və mənim (hərəkət barədə) fərmanım onlara çatana qədər Fəratın sahilində ləngimələrini əmr etdim. Məsləhət bildim ki, bu sudan (Fəratdan) keçərək Dəclənin ətrafında yaşayan (Mədain əhalisi) sizlərdən (müsəlmanlardan) bir dəstənin yanına gedim və onları təchiz edərək sizinlə birgə düşmənlərinizə qarşı döyüşə gətirim, onları sizə köməkçi edim. (Seyyid Rəzi buyurur:) Deyirəm: Həzrət مِلْطَاط dedikdə Fəratın sahilində yerləşən və öz qoşununun öndə olanlarına ora enməyi əmr etdiyi yeri nəzərdə tutur. Bundan başqa, dəniz sahilinə də مِلْطَاط deyirlər. Bu sözün əsl mənası isə «hamar yer» deməkdir. Həzrətin نُطفَة dedikdə məqsədi (az və ya çox miqdarda saf su mənasını daşıyır) Fəratın suyudur. Bu təbirlər qeyri-adi və heyrətamiz ifadələrdəndir.

İmam Əli əleyhis-salamın (Haqq-təalanın sifətləri vəsf olunduğu) xütbələrindəndir. Həmd olsun Allaha ki, gizlin işləri bilir, (gizli şeylər onun üçün aşkardır. Deməli, aşkar olan hər şeyi, şübhəsiz, bilir) görünən və aşkar nişanələr (bütün varlıq) onun mövcudluğuna, varlığına dəlalət edir gözlə görünməsi mümkün deyil (çünki bir yerdə deyil ki, gözlə görünsün). Deməli, Onu görməyənin gözü (varlığının nişanələrini gördüyünə görə onun mövcudluğunu) inkar etməz, varlığını (nişanə və əlamətlərinə görə) başa düşənin qəlbi isə zatının həqiqətini dərk etməz. Yüksəklikdə (hər şeydən) üstündür, heç nə ondan uca deyil, yaxınlıqda (hamıya) yaxındır və heç nə ondan daha yaxın deyil. Deməli, (hər şeyi əhatə etdiyinə görə) yüksəkliyi onu yaratdıqlarından uzaqlaşdırmamış, yaxınlığı isə xalqı bir məkanda onunla bərabərləşdirmişdir. Ağılları öz sifətinin sərhəd və hüdudlarından agah etməmiş (çünki onun zatının eyni olan sifətləri üçün həddd-hüdud yoxdur) və (ancaq) onları vacib həddə özünü tanımaqdan məhrum etməmişdir. Deməli, O elə bir Allahdır ki, mövcud əlamət və nişanələr Onu inkar edənin qəlbinin Onu təsdiqləməsinə şəhadət verir. Allah Onu məxluqata bənzədənlərin və Onu inkar edənlərin sözlərindən pak və nöqsansızdır.

←49-cu xütbə

Nəhcül-bəlağə. 50-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

51-ci xütbə→

İmam Əli əleyhis-salamın (fitnə-fəsadın səbəblərinin izahı haqqında) xütbələrindəndir. (Camaat arasında) fitnə-fəsadın mənşəyi nəfsi istəklərə tabe olmaqda və şəriətə zidd çıxarılmış hökmlərdədir. Allahın kitabı (Qur'ani-Kərim) belə istək və hökmlərin əleyhinə olmuşdur. (Eyni zamanda fitnə-fəsad vasitələrindən biri də budur ki,) camaatın bir hissəsi dinə zidd istək və hökmlərdə başqalarına yardım edir, onların ardınca gedir. (Haqla batili bir-birinə qatdıqlarına görə fitnə-fəsad yaranır.) Deməli, batil haqqa qarışmasaydı haqqın yolu onu istəyənlərə bağlanmazdı. Haqq batilin içində gizlənməsəydi, düşmənlər (heç vaxt) onun haqqında pis danışa bilməzdilər. Lakin bir hissə haqdan, bir hissə isə batildən qarışdığına görə şeytan öz dostlarına hakim kəsilir. Allahın lütfünə şamil olan insanlar isə (şeytanın azğınlığından) xilas olurlar (haqqın batilə qarışmasından şübhəyə düşmürlər).

Siffeyn döyüşündə Müaviyənin qoşunu o böyük şəxsiyyətin səhabələrindən önə keçdiyi və Fərata çıxış yolunu bağladığı, ondan su götürmələrini qadağan etdiyi vaxt İmam Əli əleyhis-salamın buyurduğu kəlamlarındandır.
Müaviyənin qoşunu (Fəratın mənsəbini tutmaq və sizi ordan su götürməyə qoymamaqla) sizlərlə döyüşmək istəyir. Belə olduqda siz ya zəlillik və rəzilliyi boynunuza alaraq şücaət və şərəfinizi əldən verməli (acizlik və gücsüzlüyünüzü bildirməli, susuzluqdan əlacsız qalaraq, özünüzü düşmənə təslim etməlisiniz), yaxud da sudan doymanız üçün qılınclarınızı (onların) qanı ilə doydurmalısınız. Deməli, əgər məğlub olsanız (əsl) ölüm sizin həyatınızda, (düşmənə) qalib gəlsəniz (həqiqi) həyatınız ölümünüzdə olacaq (şərəfli və başıuca ölüm, rəzillik və zillət içində yaşamaqdan yaxşıdır). Agah olun ki, Müaviyə az sayda azğın və nadanı döyüşə gətirib və (Osmanın qanının alınmasını bəhanə edəcək) işin həqiqətini (hakimiyyət və rəhbərliyi əldə etmək üçün müharibə apardığını) onlardan gizlətmişdir ki, onlar öz boğazlarını ölümün (oxlarının) hədəfinə çevirsinlər. (Nadanlıqlarına və azğınlıqlarına görə ölümə hazırdırlar.)

İmam Əli əleyhis-salamın (dünyanın vəfasızlığı və ona əhəmiyyət verməmək, camaatın axirətə təşviqi, savab, əməlin cəzası və Haqq-təalanın nemətlərinin böyüklüyü haqda) xütbələrindəndir. (Bu xütbə daha öncə bir rəvayətin əsasında nəql olunmuşdur. Burada iki rəvayət arasında olan fərqə görə, başqa bir rəvayətə əsasən nəql edirəm.) Agah olun, dünya faniliyə və məhvə doğru getməkdədir və (onda müşahidə olunan dəyişikliklərə görə) sonun yetişdiyini elan etmişdir. Onun (gənclik və sağlamlıq kimi) xoşluğu daimi qalmır və sürətlə (öz əhlindən) üz döndərir. Öz sakinlərini fənalığa və yoxluğa sürükləyir, qonşularını (qəbristanlığa tapşırmaq üçün) ölümə doğru qovur: (Cavanın qocalması və sağlamlığın xəstəliklə əvəz edilməsi kimi vasitələrlə) şirinliyi acıya çevrildi, saflığı qaraldı. (Onda hər an və sürətli dəyişikliklər baş verirsə, ondan faydalanmaq müvəqqətidirsə, dünyaya ürək bağlamaq lazım deyil.) Bu dünyadan (hər kəsin ömrü baxımından) kiçik müşkün dibində qalan az çöküntü tək çöküntüdən (bir neçə gün) və ya Məqlə qurtumu qədər bir qurtumdan (az bir vaxtdan) başqa bir şey qalmayıb. (Ömürlərindən az bir müddət qalan, dünyaya) təşnə həmin çöküntünü və ya Məqlə qurtumunu sorsa, (dünyaya ürək bağlayıb, axirətə göz yumsa) susuzluğu yatmaz (nəzərdə tutduğu faydanı götürə bilməz). Ey Allah bəndələri, (dünya sizinlə belə rəftar etdiyi halda) sakinlərinə zaval və yoxluq labüd olan bu saraydan köçməyə hazırlaşın. Arzu sizləri üstələməsin, orada yaşadığınız müddət nəzərinizdə uzun görünməsin (yersiz arzulara arxalanmayın və sizi qəflətən haqlayan ölümdən qafil olmayın). Allaha and olsun, əgər balası ölmüş dəvə kimi nalə çəksəniz, göyərçin kimi ötsəniz, dünyanı tərk edən rahib tək fəryad çəkərək zarısanız və Onun yanında məqam və mövqe baxımından yaxınlaşmaq üçün, yaxud yazılmış və Onun mələklərinin qeydə aldığı günahın bağışlanması üçün Allah yolunda malınızdan, övladlarınızdan keçsəniz, mənim, böyük Allah tərəfindən sizə veriləcəyinə ümidvar olduğum savabın müqabilində həqiqətən azdır. (Eyni zamanda) bunlar mənim sizlər üçün qorxduğum Onun əzabının müqabilində də azdır. Allaha and olsun! Əgər Haqq-təalaya şövqdən və ya onun qorxusundan ürəkləriniz közərsə, yaxud gözlərinizdən qan axsa və dünya

durduqca bu minvalla yaşasanız belə, sizin əməllərinizvə cidd-cəhdli səyləriniz Allahın sizə əta etdiyi böyük nemətlərə, sizləri imana yönəltməsinə bərabər olmaz.

Bu xütbənin bir hissəsi Qurban bayramı və qurbanlıq heyvanın xüsusiyyəti barədədir

Qurbanlıq heyvanın şərtlərindən biri budur ki, qulağı bütöv (kəsilmiş və deşilmiş olmasın), gözü sağlam olsun. Qulağında və gözündə eybi olmasa, qurban doğru və səhihdir. Buynuzu sınmış olsa (qurbanlığa yaramır, ayağı sınmış qoyun kimidir ki,) qurban kəsilən yerə gedəndə axsayar. (Ayağı və buynuzu sınmış qoyunu qurban kəsmək düzgün deyil. Seyyid Rəzi buyurur:) Mənsək (ibadət yeri mənasını versə də,) burada qurban kəsilən yer mənasında işlənmişdir.

İmam Əli əleyhis-salamın (camaatın o böyük şəxsiyyətə) bey'əti barədə olan kəlamlarındandır. (Osmanın öldürülməsindən) Sonra camaat mənim yanımda özlərini bir-birinə vurdular, sarbanın açıb buraxdığı, dizlərinin kəndiri açılmış susuz dəvələrin su içərkən yaratdıqları izdiham kimi (bey'ət etmək üçün) izdiham yaratdılar. (Mənə elə hücum çəkdilər ki,) elə bildim ya məni öldürmək istəyirlər, ya da bəziləri mənim hüzurumda digərlərini qətlə yetirmək niyyətindədirlər (beləliklə, onların bey'ətlərini qəbul etdim, bun¬dan sonra Təlhə və Zübeyr kimiləri əhd-peymanını pozdular). Mən bu işin zahir və batinini o qədər ələk-vələk etdim ki, (bu barədə düşünməkdən) yuxum çəkildi. Onlarla (əhd-peymanı pozanlarla) vuruşmaqdan, ya da Məhəmmədin (səlləllahu əleyhi və alih) gətirdiyini inkar etməkdən başqa çarəm qalmadı. (Allahın Rəsulunun əhkamını inkar etmək ilahi əzaba səbəb olduğundan) beləliklə, mənim üçün müharibəyə əlac etmək ilahi əzaba əlac etməkdən daha asan idi, dünya ölümləri (məşəqqət və çətinlikləri) mənə qiyamət ölümlərindən (əzablarından) daha asandır.

İmam Əli əleyhis-salamın Siffeyndə səhabələrinin onun (Şam əhalisi ilə) müharibəni gecikdirdiyini və yubatdığını güman etdmkləri vaxt buyurduğu kəlamlarındandır: Amma sizin sözünüz: bu qədər düşünmək və gecikdirmək ölmək və öldürülmək qorxusuna görədirmi? And olsun Allaha, ölümə doğru getməkdən (döyüş meydanında öldürülməkdən), ya da ölümün məni qəfil yaxalamasından heç bir qorxum yoxdur. Amma sizin Şam əhli ilə (döyüşün vacibliyinə) şəkk və tərəddüd barəsində olan sözünüzə gəldikdə isə, Allaha and olsun, (onlardan) bir dəstəsinin mənə birləşərək hidayət olmalarını (azğınlıqdan əl çəkərək doğru yola gəlmələrini), yolumun aydınlığını öz zəif gözləri ilə görmələrini istəməsəydim döyüşü bir gün belə təxirə salmazdım. Azğınları öldürməkdənsə döyüş barəsində düşünməyi və təxiri daha çox sevirəm. Hərçənd ki, (onlar azğınlıqdan əl çəkməyib son nəticədə öldürüləcəklər və qiyamətdə İmama qarşı çıxdıqlarına və o Həzrətin düşmənlərinə itaət etdiklərinə görə) günahları ilə qayıdacaqlar (məşəqqətdə olacaqlar).

İmam Əli əleyhis-salamın kəlamlarındandır. (Özünün və Həzrət Peyğəmbərin digər səhabələrinin müqəddəs İslam dininə kömək üçün aparılan müharbələrdəki fədakarlığını və dönməzliyini bəyan edərək öz səhabələrini Allah yolunda cihada və düşmənlərlə müharibəyə həvəsləndirir və onların bu işdə süstlüyünü pisləyir.) Biz Allahın peyğəmbəri (səlləllahu əleyhi və alih) ilə olduğumuz vaxt (İslam dininə kömək üçün) öz atalarımızı, övladlarımızı, qardaş və əmilərimizi (döyüşlərdə) öldürürdük. Belə rəftar iman və etiqadımızı çoxaldırdı, itaət yolunu tuturduq və doğru yolda dönməzliyimiz çoxalırdı. Ağrıların yanğısına dözümümüz və düşmənlə cihad yolunda səylərimiz daha da artırdı. (Peyğəmbər dövrünün müharibələrində döyüş üslubu belə idi ki,) bizlərdən biri düşmənlərdən biri ilə bir-birinə hücum edirdi və onlardan biri başqasına ölüm camı ilə doydurana qədər iki erkək heyvan bir-birinin canına düşən kimi bir-birinin üstünə düşürdülər (bir-birini öldürmək qəsdində olurdular). Bəzən biz düşmənə zəfər çalır, bəzən də düşmən bizə qalib gəlirdi. Allah bizim doğruluğumuzu gördüyündən (İslam yolunda hər şeydən keçməyi göstərdik) dəvənin istirahət vaxtı sinə və boynunu yerə qoyduğu tək, İslam möhkəmlənənə (din nizamlanana), öz yerlərində yayılana qədər düşmənlərimizi xar, qələbəni isə bizə nəsib etdi. (İslam düşmənin iztirab və narahatlığından xilas oldu, onun həqiqətləri dünyanın hər yanına yayıldı.) Öz canıma and olsun, əgər (İslam dininə köməkdə) rəftarımız sizin kimi olsaydı, (düşmənlə döyüşdə sizlər tək süstlük və səhlənkarlıq etsəydik) dinin bünövrəsi qoyulmazdı (Allaha iman olmazdı) və iman ağacının budağı göyərməzdi (İslamın qanunları yayılmazdı). And olsun Allaha! Bu (bəyənilməyən) rəftarınıza görə (döyüşdə səhlənkarlığınıza görə, dünyanın dəvəsindən süd əvəzinə) qan sağacaqsınız və ondan sonra (düşmən sizə hakim kəsildikdə) peşman olacaqsınız.

Nəhcül-bəlağə. 56-cı xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın öz səhabələrinə buyurduğu kəlamlardandır. (O böyük şəxsiyyətdən sonra Kufə əhlinin başına gələcək bəlalardan onları xəbərbar edir və o zaman necə rəftar etmələri barədə göstəriş verir.) Agah olun ki, məndən az sonra iri hulqumlu və yekə qarınlı bir kişi (Müaviyə ibn Əbu-Süfyan) sizə qalib gələcək, tapdığı hər bir şeyi yeyəcək, tapmadığını istəyəcək. Belə isə (gücünüz və imkanınız olsa) onu öldürün, hərçənd ki, onu heç vaxt öldürməyəcəksiniz (onu öldürmək gücündə deyilsiniz). Agah olun, həmin kişi tezliklə sizləri məni söyməyə məcbur etsə, söyün məni. Çünki mənə söyməyiniz məqamımın yüksəlməsinə, sizin isə nicatınıza və (onun şərrindən) xilasınıza səbəb olacaq. Üz döndərməyə gəldikdə isə, məndən sonra məndən üz döndərməyin (batində məni sevin). Çünki mən fitrətən müsəlman doğulmuşam. İmanda və (Allahın Peyğəmbərinə yardım və onun zəfəri üçün vətənimdən) hicrətdə öndə olmuşam.

İmam Əli əleyhis-salamın Nəhrəvan xəvaricinə buyurduğu kəlamlarındandır: Üzünüzə çınqılları tərpədən küləklər əssin (İlahi əzaba tuş gəlin), sizlərdən xurma ağacını buduyan (ya söz danışan, yaxud tərpənən) bir nəfər belə qalmasın. (Xülasə, nəsliniz kəsilsin) Allaha iman gətirdikdən, Həzrət Peyğəmbərlə (səlləllahu əleyhi və alih) birlikdə (döyüşlərdə) cihaddan sonra öz küfrümə, səhvimə şəhadət verim? Belə olan surətdə (öz səhvimi etiraf etməklə) yolumu azaraq, doğru yoldan kənara addım atmış olaram. Qədəm qoyduğunuz ən pis yoldan dönün. (Bu batil yolunuzdan geri dönərək bir daha bu çirkin sözləri dilinizə almayın) və öz ayağınızın yerinə qayıdın (tərk etdiyiniz yola qayıdın və haqqa itaət edin). Bilin ki, məndən az sonra böyük rəzillik və zillətlə üzləşəcək, doğrayan qılınca tuş gələcəksiniz. Mallarınızı zülmkarlar alaraq, özlərinə çıxacaq, bu işi sizlər arasında öz adətlərinə çevirəcəklər. (Seyyid Rəzi buyurur:) Həzrətin buyurduğu وَلا بَقِىَ مِنْكُمْ آبِرٌ sözünü üç cür izah edirlər: Birinci, qeyd etdiyimiz kimi, آبِرٌ ra hərfi ilə ərəb sözü olub xurma ağacını budayana رَجُلٌ آبِرٌ deyilir. İkinci ehtimala görə آثِرٌ üç nöqtəli sə hərfi ilə-hədis deyən və ya söz danışan şəxs nəzərdə tutulur. Fikrimcə, bu daha düzgün ehtimaldır. Sanki Həzrət «sizlərdən danışan kimsə qalmasın» deyə buyurmuşdur. Üçüncüsü, آبِزٌ nöqtəli za hərfi ilə-sıçrayan mənasındadır. آبِزٌ həm də هالِكٌ yəni, məhv olmuş mənasında da işlədilir.

İmam Əli əleyhis-salamın Xəvariclə müharibə etmək qərarına gəldiyi və onların Nəhrəvan körpüsündən keçməsi o Həzrətə deyildiyi vaxt buyurmuşdur: Onların qətlgahları (öldürüldükləri yer) suyun (Nəhrəvanın) bu tərəfidir. Allaha and olsun, onlardan on nəfəri belə (ölməkdən) xilas olmayacaq, sizlərdən onca nəfər də həlak olmayacaqdır. (Seyyid Rəzi buyurur:) Həzrətin نُطْفَة (saf su) sözündən məqsədi çay suyudur. Su çox həcmdə olsa belə, bu, su üçün ən fəsahətili ifadədir. Bundan öncə bu məna (Xəvariclə müharibə barədə olan qırx səkkizinci xütbənin sonlarında) qeyd olunmuşdur.

Nəhrəvan xəvarici öldürüldükdə İmam Əliyə dedilər: Ya Əmirəl-möminin, onların hamısı öldürüldülər. Buyurdu: And olsun Allaha, belə deyil. Onlar kişilərin bellərində, qadınların bətnlərində olan rüşeymlərdir. Hər zaman onlardan bir budaq (bir baş) qalxacaq və sındırılacaqdır (tezliklə qətlə yetiriləcəkdir) beləliklə, onların sonuncuları da (əcdadları tək) oğrular (və), quldurlar olacaqlar.

İmam əleyhis-salam Xəvaric barəsində buyurub:
Məndən sonra Xəvarici öldürməyin çünki haqqı əldə etmək istəyib xəta edən (yolunu azan), batili diləyib onu əldə edənə bənzəməz (Seyyid Rəzi buyurur:) مَنْ طَلَبَ الْباطِلَ فَأَدْرَكَهُ yəni-batili istəyib onu əldə edənlər ifadəsinində Həzrətin nəzərdə tutduğu Müaviyə və tərəfdarlarıdır.

İmam Əli əleyhis-salamı qəfil qətlə yetirməklə hədələdikləri vaxt Əli əleyhis-salamın buyurduğu kəlamlardandır (Səhabələri İbn Mülcəmin onu öldürmək niyyətində olduğunu xəbər verdikdə buyurdu:) Allah mənim üçün möhkəm qalxan yaratmışdır. (Mənim üçün ölüm təyin etdiyi vaxta qədər məni qoruyar.) Belə isə mənim günüm başa çatdıqda, o qalxan (qoruyucu) məndən ayrıldıqda və məni (ölümə) təslim etdikdə o zaman nə ox (ölüm) boşa çıxar, nə də yara (qəzavü-qədərin nizəsindən) şəfa tapar.

Nəhcül-bəlağə. 62-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın (fani dünyaya bel bağlamamağın və qiyamət hesabından qorxmağın bəyan edildiyi) xütbələrindəndir. Agah olun, dünya elə bir saraydır ki, ondan xilas olmaq ancaq ordaykən (təqva və pərhizkarlıqla) olar. Heç kəs dünya üçün gördüyü işə (söz və əmələ) görə nicat tapmaz. (Axi¬rətdə sözləri və əməlləri Allaha xatir olanlar nicat tapacaqlar.) İnsanlar imtahan və sınağa görə bu dünyaya mübtəla olublar. Deməli, dünyadan dünya üçün topladıqları hər şey (mal) ovuclarından çıxar (ölən vaxt yerdə qoyarlar) və (axirətdə) bunların hesabını onlardan sorarlar. Dünyadan qeyri (o biri) dünya üçün (axirət) tədarükü gördükləri onlara qalar və həmişə onlarla olar. Belə isə (dünyanın işi ziyanlı olduğuna görə, ona ürək bağlama. Çünki) ağıllı insanlar üçün dünya sanki kölgənin qayıtması kimidir ki, onu yayılmış görən kimi yığışar, çox göründükdə itər (itən kölgə kimi öz əhlinə qalmaz).

İmam Əli əleyhis-salamın (xalqı Allaha pərəstişə və dünyada xeyir əməllər etməyə, axirət səfərinə hazır olmağa çağırdığı) xütbələrindəndir. (Allaha şükr və sitayişdən, Həzrət Peyğəmbərə salamdan sonra:) Ey Allahın bəndələri, Allaha qarşı günah etməkdən çəkinin (günah etməyin və əzabdan qorxun) və öz əməllərinizin sayəsində ölümlərinizi qabaqlayın (ölümdən sonra rahat olmaq üçün həyatınızda xeyir əməllər görün). Əlinizdən çıxan şeyi deyil, sizlərə qalan şeyi (saleh əməlləri) alın. (Həmişəlik qalacaq axirəti əldə edin və tezliklə puç olacaq dünyanın şəhvətlərinə göz yumun. Axirət səfərinə) hazır olun ki, sizi köçürməyə çalışır və tələsir, sizləri kölgəsinə alan (yaxınlaşan və nişanələri görünən) ölümə hazırlaşın. (Ölümün çəngi boğazlarına keçənə qədər qəflət yuxusunda olanlar kimi deyil.) Onlar üçün zəng çalındıqda agah (oyaq) olanlar və dünyanın onların (yaşayış) yeri olmadığını bilənlər, sonra isə (onu axirətə) döndərənlər kimi olun, çünki Böyük Allah sizləri boş yerə yaratmayıb və boş da buraxmayıb. Sizlərin heç birinizlə Cənnət və ya Cəhənnəm arasında sizi tapacaq ölümdən başqa bir fasilə yoxdur. (Çünki ölümdən sonra əməl, tövbə və qayıdış qapısı bağlanır. Deməli, ölən hər kəs dünyada itaət və ibadət edibsə Cənnətə düşər, itaətsizlik etmişsə Cəhənnəmdə qalar.) Hər anın azaltdığı və (ölüm) saatının aradan götürdüyü (dünyadakı) həyat müddətiniz qısa olmağa layiqdir. (Tezliklə başa çatacaq dünya həyatınızı qısa sanmalı, axirət işlərindən geri qalmamalısınız.) Gecə və gündüzün (həqiqi mənzilinə) qovduğu (öz əsl vətəni olan axirətdən uzaqlaşmış) qəribin tezliklə (vətəninə) qayıtması yaxşıdır (əsl vətənlərinə qayıtmaq fikrində olmalı və dünyaya səfərindən orada asayiş üçün faydalanmalıdır). Səadət, xoşbəxtlik və ya bədbəxtliklə (vətəninə) gələn ən yaxşı tədarükə möhtacdır. Belə isə, dünyada sabah (qiyamətdə ilahi əzabdan) sizi xilas edəcək şeylərdən azuqə yığın. (Axirət üçün ən yaxşı azuqə budur ki,) bəndə Allahın əzabından çəkinsin, özünə öyüd versin (gözəl rəftar və danışığı öz şüarına çevirsin) və tövbədə, qayıdışda önə keçsin (ölüm gəlmədən öncə günahlardan tövbə etsin), şəhvətinə (nəfsi istəklərinə) hakim kəsilsin. Çünki onun ölümü özünə gizlindir (ömrünü nə

vaxt başa vuracağı məlum deyil) və arzuları onu aldadır (axirət işlərindən saxlayır). Şeytan onunla yoldaşdır və günahı, (Allaha və Rəsuluna) itaətsizliyi onun üçün cilvələndirir ki, onlara minsin (bulaşsın). Şeytan onu arxayın salar ki, tövbəni gecikdirsin, ölüm isə onu çox qəflətdə olduğu vaxt qəfildən yaxalasın. Belə isə, ömrü (qiyamətdə) ona sübut və dəlil olan o qafil insan həsrət və qəm çəksin (ki, dünyada onun üçün hər cür şərait olduğu halda nəyə görə xoşbəxtliyə çatmadı) və dünyadakı həyatı onu bədbəxt edər (dünyadakı itaətsizliyinə görə əbədi əzaba düçar olar). Pak və uca Allahdan istəyirəm ki, bizi və sizləri heç bir nemətin düşmənə və itaətsizə çevirmədiyi (nə qədər nemət tapsa, təvazökarlığı bir o qədər artan) insanlardan etsin, heç bir fayda və məqsəd (özünü göstərmək və riya kimi batil məqsədlər) bizi Allaha ibadət və bəndəlikdən saxlamasın, (elə iş görək ki,) öləndən sonra peşman olub kədərlənməyək.

İmam Əli əleyhis-salamın (Allahın sifətləri barədə) xütbələrindəndir. Həmd və şükr heç bir sifəti başqa sifətindən önə keçməyən Allaha məxsusdur. Deməli, son olmamışdan qabaq, əvvəldir. Gizli olmazdan əvvəl isə aşkardır. Ondan qeyri hər nə vahid və tək adlandırılsa (çoxun müqabilində) azdır. Ondan qeyri hər əziz zəlil və xardır, (çünki nəticədir. Nəticə isə səbəbin zəlilidir) Ondan başqa hər bir güclü gücsüzdür. Ondan qeyri sahib və mülkiyyətçi (Onun iradə və istəyi müqabilində zəlildir), Onun quludur. (Çünki Allah Təaladan başqa hər nə varsa vücudu mümkün olanlardandır və mümkün isə nəticədən doğmadır, nəticə səbəbdən aslıdır və deməli, həqiqi sahib Odur.) Ondan başqa hər bir bilikli isə öyrənəndir. Ondan qeyri hər bir güclü və qadir (bəzi işlərdə) güclü və (digər işlərdə) acizdir. Ondan başqa bütün eşidənlər çox yüksək səslərdən kar olar, yavaş və uzaqdan gələn səsləri isə eşitməzlər. Ondan qeyri bütün görənlər (qaranlıqda rənglər tək) gizlin rənglərə və (zərrələr kimi) zərif cisimlərə (onları görməyə) kordur. Ondan başqa, hər bir aşkar olan gizli, gizlin isə aşkar deyil. (O, elə Allahdır ki,) yaratdıqlarını nə hakimiyyət və padşahlığını gücləndirməyə, nə ruzigarın hadisələrindən qorxduğuna görə (bir gün möhtac qalmasın deyə), nə Onunla çəkişən tayına qarşı (onu dəf etmək üçün) kömək almağa, nə də öz şərikinin və Ona qarşı olanın qələbə, öyünmə və iftixarının qarşısını almaq üçün yaratdı. (Yaranmışlar Onun nemətləri ilə) bəslənmiş məxluqat və (Onun hökm və iradəsi qarşısında) zəlil, xar bədənlərdir. O, nələrdəsə hülul etmədi ki, «onlardadır» deyilsin. (Çünki əşyaya hülul etmək cismilik və imkan tələbatlarındandır) və heç nədən uzaqlaşmadı ki, «ondan uzaqdır» deyilsin. (Çünki bütün əşyaları əhatə edir.) Məxluqatı yaratmaq və onların vəziyyətini düzəltmək Onu yorub əldən salmadı, əşyanı yaratmaqda aciz olmadı. Hökm verdiyi və müəyyən etdiyi şeylər barədə şübhəsi yaranmadı. Onun hökmü qəti, elmi möhkəm, işləri dönməzdir. Bəndələr Onun qəzəb və cəzalarına rəğmən Ona ümidvardırlar. (Çünki Ondan başqa pənahları yoxdur) və nemətləri, bəxşişləri olsa da Ondan qorxurlar (ki, nəbadə əzaba düçar olacaqları bir iş görsünlər).

←64-cü xütbə

Nəhcül-bəlağə. 65-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

64-cü xütbə→

İmam Əli əleyhis-salamın (döyüş qaydaları barədə) kəlamlarındandır. Siffeyndə döyüş günlərinin birində (37-ci hicri-qəməri ilinin səfər ayında, «Hərir» gecəsində) səhabələrinə buyurmuşdur: Ey müsəlmanlar, xof və qorxunu özünüzə şüar edin (Allahdan qorxun və düşmənlə döyüşdə süstlük etməyin). (Döyüşdə) vüqar və sakitliyi öz düşüncənizə çevirin (düşmənlə qarşılaşmaqdan çəkinməyin) və dişlərinizi bir-birinə sıxın (döyüşdə müqavimət göstərin, döyüşün çətinliklərini özünüzə asanlaşdırın). Çünki belə rəftar qılıncları başlardan daha da uzaqlaşdırır (müharibədə müqavimət və döyüşün çətinliklərinə sinə gərmək düşməni məğlub etmək üçün hər hiylə və tədbirdən daha yaxşı olub, nəticəsi isə fəth və qələbədir). Zirehi tam geyinin. (Bədəninizin heç bir yerinin görünməməsi üçün qoruyucu, astarı olan zireh geyinin) və qılınclarınızı çəkməzdən qabaq qınlarında tərpədin. Düşmənə gözünüzün ucu ilə (çəpəki), acıqlı baxın. Sağınıza, solunuza nizə vurun (ətraflarınızı məhv edin ki, düşmən pusqu qurub, sağ və ya solunuzdan hücuma keçə bilər). Qılınclarınızın ucu və tiyəsi ilə zərbə endirin (düşməni irəliləməyə qoymayın), (əgər qısadırsa) qılınclarınızı addım atmaqla (düşmənə) çatdırın. Sizlər Allahın nəzərindəsiniz (O, sizin əməllərinizi görür) və Allahın Rəsulu səlləllahu əleyhi və alih və səlləmin əmisi oğlu ilə olduğunuza görə, (düşmənə) arası kəsilmədən hücum edin və qaçmaqdan isə xəcalət çəkin. Çünki qaçmağınız sizdən sonrakılar üçün rüsvayçılıq (sizdən sonra övladlarınızın başına qaxacaqlar), hesab və Qiyamət günündə atəşdir (müharibədən qaçanlar qiyamətdə ilahi əzaba düçar olacaqlar). (Döyüşdə) ruhunuzun bədəninizdən ayrılmağına şad olun, rahatlıqla ölümə doğru gedin. Bu böyük qaragüruha (Müaviyənin qoşununa) və kəndirlərdən asılmış xeyməyə (Müaviyənin çadırına hücum etmək) sizin öhdənizdədir. O xeymənin daxilinə zərbə endirin (çalışıb o çadırı ələ keçirin). Çünki şeytan (Müaviyə) onun küncündə gizlənib. İrəli atılmaq üçün əlini qabağa, geri dönmək üçün isə ayağını arxaya qoyub. Deməli, haqqın həqiqəti sizlərə aydın olması üçün (onunla və yoldaşları ilə döyüşməyi) niyyət edin (onları məhv etmək üçün hücuma hazırlaşın və bu yolda çalışın). Siz üstün və yüksəksiniz (siz haq yolundasınız və qələbə, zəfər sizinlədir). Allah sizinlədir və heç vaxt

əməllərinizin (mükafatını) naqis və az etməz (sizə dünya və axirətdə nicat verər).

İmam Əli əleyhis-salamın Ənsarın (xilafət barədə) iddiası haqda kəlamlarındandır. Belə deyilir ki, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) in vəfatından sonra Səqifə xəbərləri Əmirəl-möminin əleyhis-salama çatdı. Həzrət buyurdu: «Ənsarlar nə dedi?» Cavab verdilər ki, Ənsarlar dedilər ki, bizdən bir, sizdən də bir əmir olsun. Həzrət buyurdu ki, Rəsulullahın (səlləllahu əleyhi və alih) onların yaxşılarına yaxşılıq edilməsi və pis əməl sahiblərinə güzəşt olunması barədə vəsiyyətini niyə dəlil, sübut gətirmədiniz? Dedilər: «Bu cümlə Ənsarlılar üçün necə dəill və sübut ola bilər?» Buyurdu: «Əmirlik onların işi olsaydı, (xəlifəliyə layiq olsaydılar), onlar barədə tövsiyyəyə ehtiyac qalmazdı» (onlara başqaları barədə tapşırılardı). Daha sonra buyurdu: «Qüreyş (Ənsarların sübutları müqabilində) nə dedilər?» Cavab verdilər ki, Qüreyş Peyğəmbərin şəcərəsindən (bir əsil-nəsəbdən olduqlarını və xəlifəliyə daha layiqli) olmalarını sübut gətirdilər. Buyurdu: «Ağacı dəlil göstərib meyvələrini zay etdilər».

Misirə hakimiyyətin boyunduruğunu (Siffeyn hadisəsindən qabaq) Məhəmməd ibn Əbu Bəkrin boynuna keçirdiyi (oranın xeyir-şərini, əyri və düzgününü ona tapşırdığı) vaxt İmam Əli əleyhis-salamın buyurduğu kəlamlarındandır. (Lakin Siffeyn hadisəsindən sonra) Misir onun hakimiyyətindən çıxdı, özü isə öldürüldü. Mən Haşim ibn Utbəni Misirə hakim təyin etmək istəyirdim. Əgər onu oranın hakimi seçsəydim, bir an belə onlarla (Əmr ibn As və qoşunu ilə) döyüş meydanını boş qoymazdı. Onlara (şücaət və qəhrəmanlıq göstərmək üçün) fürsət verməzdi. Haşimi mədh etməklə Əbu Bəkrin oğlu Məhəmmədi qınamaq niyyətində deyiləm. (Çünki o, qınağa layiq deyil.) O, mənim dostum və rəbibim (arvadımın oğlu) idi.

İmam Əli əleyhis-salamın öz səhabələrini (Şam əhli, yəni, Müaviyənin qoşunu ilə döyüşə hazırlaşmadıqlarına görə) qınadığı kəlamlarındandır. Yükün ağırlığı donqarını əzən cavan dəvələrlə yol gedilən kimi (Allah yolunda cihada hazır olmadığınıza görə) nə vaxta qədər sizinlə yola gedim, dalbadal cırılan, bir yerini tikdikdə başqa tərəfdən sökülən paltarlar kimi rəftar edim? (Sizləri hər tərəfdən yığıb, müharibəyə hazırlayıram, yenə də dağılırsınız.) Şam əhlinin qoşunundan bir dəstə sizlərə yaxınlaşdıqda, hər bir kişiniz (azacıq səs eşitdikdə, öz yuvalarına qaçan) kərtənkələ və kaftar öz yuvalarında gizlənən kimi (qorxudan) evlərinizin qapısını bağlayıb, bir guşəsində gizlənirsiniz. Allaha and olsun, sizin kömək göstərdiyiniz şəxs (döyüşdə) zəlil və xardır (çünki ağıllı və igid deyilsiniz). Sizlərin köməyilə (düşmənə doğru) ox atan (düşmənin irəliləməsinə mane olmaq istəsə) ucsuz, başı sınıq ox atmışdır (belə oxun faydası olmadığı kimi, düşməni dəf etməkdə və məğlub etməkdə də sizin heç bir faydanız yoxdur). And olsun Allaha, sizlər evlərinizdə çox, bayraqların altında isə azsınız (evlərinizdə olarkən yığışıb mənasız sözlər danışır, ancaq düşmənlə döyüşmək üçün yığılmırsınız). Mən sizləri islah edib (düşmənlə döyüşə hazırlayan) və əyriliyinizi düzəldən (itaətcil edən) şeyi bilirəm. Ancaq, Allaha and olsun ki, özümü puç və zay etməklə sizi islah etməyi caiz bilmirəm. (Çünki bu yolla islah etmək mənim ilahi əzaba düşməyimə səbəb olar və mən buna razı deyiləm.) Allah üzünüzü qara etsin (mənim öyüd-nəsihətlərimi qəbul etməyə layiq olmadığınıza görə əzaba düçar olun), bəhrə və nəsibinizi az etsin (axirətdə bədbəxt olacağınız kimi, dünyada da bədbəxt olun, çünki) batillə tanış olduğunuz (ona itaət etdiyiniz) qədər, haqqı tapmırsınız (ilahi hökmlərə əməl etmirsiniz). Haqqı və həqiqəti batil etdiyiniz qədər batili məhv etmək niyyətində deyilsiniz (doğru yola qədəm qoymur, həmişə batil yolda olursunuz).

İmam əleyhis-salam mübarək başına qılınc vurulduğu gün (Hicrətin qırxıncı ili Ramazan ayının on doqquzu) gecə yarını keçdikdə (sübh açılarkən) buyurdu: (Əbdür-Rəhman ibn Mülcəm Muradinin vurduğu zərbə nəticəsində Ramazan ayının iyirmi biri gecənin əvvəlində o Həzrət vəfat etdi.) Oturmuşdum, məni yuxu basdı, Allahın Rəsulunu (səlləlahu əleyhi və alih) gördüm. Dedim ki; Ya Rəsulullah, sənin ümmətindən çoxlu əyrilik (itaətsizlik) və düşmənçilik gördüm. Buyurdu ki, onlara qarğış et. Mən də dedim: Pərvərdigara, onlardan daha yaxşı şəxslər mənə ver və onlara isə mənim əvəzimə ən pis şəxsi yetir. (O Həzrətin duası müstəcəb oldu. Həccac onlara hakim oldu və cürbəcür zülm və sitəm edərək onları zəlilliyə və bədbəxtliyə düçar etdi.) Seyyid Rəzi buyurur: O Həzrətin أَوَدٍ kəlməsindən məqsədi اِعْوِجاج (əyrilik və nadürüstlük), لَدَدٍ kəlməsindən məqsədi isə خِصام (düşmənçilik)dir və bu, çox fəsahətli kəlamlardandır.

İmam Əli əleyhis-salamın İraq camaatını pislədiyi kəlamlarındandır. (Həzrət buyurdu:) Böyük Allaha şükr və sitayişdən və Həzrət Peyğəmbərə salamdan sonra, ey İraq camaatı! Siz hamiləliyi başa vurduqdan sonra uşağını salaraq, ölü doğan, əri ölən və dulluq müddəti uzun çəkən, (öldükdən sonra oğlu və əri olmadığına görə) tamamilə yad adamların, irsinə sahib çıxdığı hamilə qadın kimisiniz. Bilin ki, Allaha and olsun, mən öz ixtiyarımla sizə doğru gəlmədim (Mədinədən yola düşməyim, sizə tərəf gəlməyim və Kufədə qalmağım ürəyimcə deyildi). Ancaq (Cəməl döyüşündə Hicaz qoşunu kömək barədə əhdinə vəfa etmədiyinə görə, sizin qoşunu istədim. Buna görə də) naçar qalıb gəldim. Mənə xəbər çatıb ki, siz (nifaqa və ikiüzlülüyünüzə görə) deyirsiniz: «Əli yalan deyir. Allah sizi həlak etsin! (Öz rəhmətini sizdən uzaq tutsun!) Kimə yalan danışıram? Allah barəsində yalan danışıram? Mən ki, ona ilk iman gətirən şəxsəm. Yoxsa onun Peyğəmbərinin adından yalan qoşuram? Mən ki, onu təsdiqləyən ilk şəxsəm. Allaha and olsun, belə (sizin dediyiniz kimi) deyil. Dediklərim doğru, sözlərim aydındır. Siz (bu sözləri Peyğəmbərdən öyrəndiyim) vaxtlar orada yox idiniz və (əgər olsaydınız belə) onu eşitməyə layiq deyildiniz (qeybin xəbərlərini başa düşmədiyinizə görə sizə gizli qalmışdır). Vay (mənim yalan danışdığımı söyləyənin) anasının halına! (Yəni, anası onun yasını tutsun. Çünki) pulsuz müamilə edirəm (umacaqsız və pulsuz hər şeyi öyrədirəm). Onun qabında bir şey olsa (bacarığı olsa), bundan sonra həqiqətən sözümün doğruluğunu başa düşəcək.

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

İmam Əli əleyhis-salamın xalqa Peyğəmbərə (səlləllahu əleyhi və alih) salavat və salam göndərməyi təlim etdiyi xütbələrindəndir. Allahım! Ey yerləri açıb-genişləndirən və göyləri yığıb-saxlayan! Ey bədbəxtliyi seçən ürəkləri, səadət və xoşbəxtliyi seçən qəlbləri yaradan! Özünün ən böyük salavat və salamlarını və ən çox bərəkətini ondan əvvəlki peyğəmbərlərə gələnləri (vəhy və risaləti) xətm edən, bağlı qalan yolları (bəşərin səadət və ucalıq yolunu) açan bəndən və elçin Məhəmməd üçün qərar ver. O, haqqı (din və şəriəti) haqla (əqli və elmi dəlillərlə) aşkarladı, batilin və nadürüstlüklərin (cahiliyyət dövrü fitnələrinin) coşub-daşmasının önünü kəsdi, (yolundan dönən və çıxanların), azğınlıqların hökmranlığını yox etdi. Vəzifəsinin ağırlığı onun öhdəsinə qoyulduqda, var gücü ilə dözdü, Sənin əmrinlə qalxdı (haqq olan dini, elm və maarifi camaata öyrətdi). İrəliyə keçmədən və geridə qalmadan, iradə və qərarında süstləşmədən Sənin razılığını qazanmağa (risalətin təbliğinə) tələsdi. Sənin vəhyini qorudu, əhd-peymanını saxladı və atəşi alovlandırana qədər (Allahı tanımaq elm və biliklərini xalq arasında yayana qədər) Sənin fərmanının icrasında israr etdi, əyri yolda (nadanlıq və fitnə yolunda) olanlara haqq yolu aşkar edib göstərdi. Fitnə və azğınlıqlara qərq olmuş ürəklər o Həzrətin vasitəsilə doğru yola yönəldilər. O böyük şəxs aydın nişanələri və şəriət hökmlərini ucaltdı. O, Sənin doğru əmrinin və Sənin elminin, sirlərinin xəzinəsidir. Qiyamət günündə (yaxşı və pis əməl sahiblərinə) Sənin tərəfindən şahiddir. Haqq yolu üçün peyğəmbər edilib, Sənin xalqa göndərilən rəsulun və elçindir. Allahım! Öz rəhmət və ehsan kölgəndə onun üçün geniş bir yer aç. Ona (haqq olan elmi və maarifi yaymaq yolunda çəkdiyi əziyyətlərin müqabilində) fəzl və kərəmindən yaxşı mükafat ver. Allahım, onun binasını əvvəlki qurucuların binasından (onun dinini sələfi olduğu peyğəmbərlərin dinindən) uca (zəfərli) et. Onun məqamını yanında əziz et, nurunu (haqq yolda yandırdığı çırağını bütün dünya əhalisinin ondan bəhrələnməsi üçün) tamamla. Onun risalətinin mükafatı olaraq şahidliyini qəbul edilən, sözlərini bəyənilən et ki, o, düz danışan və haqla batili bir-birindən ayıran idi. Allahım! Bizlərlə onu

yaşayışı gözəl, nemətləri əbədi, istəkləri bəyənilən və yerinə yetirilən, çox asayişli, gözəl ərməğan və töhfələrlə istirahət məkanı olan yerdə qovuşdur.

İmam Əli əleyhis-salamın Bəsrədə Mərvan ibn Həkəm barədə buyurduğu kəlamlarındandır. Deyilənə görə, Mərvan ibn Həkəm «Cəməl» döyüşündə əsir düşdükdə İmam Həsən və İmam Hüseyn əleyhimas-salam vasitəsilə Əmirəl-möminin əleyhis-salamdan bağışlanmasını istəmişdir. Həmin iki böyük şəxs onun barəsində demişlər: «Ya Əmirəl-möminin, Mərvan sənə bey'ət edir». Həzrət onu azad edərək buyurmuşdur:

Osman öldürüldükdən sonra o mənə bey'ət etmədimi? (Ondan sonra da «Cəməl» döyüşündə iştirak etdi.) Mənim onun bey'ətinə ehtiyacım yoxdur. Onun bey'ət üçün mənə əl uzatmağı (məkr, hiyləgərlik və əhdinə vəfasızlığı ilə məşhur olan) yəhudinin əl verməsi kimi bir şeydir. Öz əli ilə mənə bey'ət etsə də, hər an arxası ilə hiylə və məkr işlədəcəkdir. Agah olun, o, itin burnunu yalaması tək (çox qısa müddət) əmirlik və hakimlik edəcəkdir. (Mərvanın hakimiyyəti təxminən dörd ay on gün olmuşdur) O, dörd rəisin atasıdır. Çox çəkməz ki, camaat ondan və övladlarının əlindən qanlı-qadalı günlər (qətl-qarət, onların əlindən bir çox çətinliklər) görərlər.

İmam Əli əleyhis-salamın camaatın Osmana bey’ət etmək əzmində olduğu vaxt buyurduğu kəlamlarındandır. Siz bilirsiniz ki, xəlifəliyə mən hamıdan daha layiqli və hamıdan daha üstünəm. (Bununla belə, onu xəlifə seçirsiniz.) Allaha and olsun, müsəlmanların işləri nizam-intizamla davam edənədək (onların arasında fitnə-fəsad qopmayanadək) və başqasının xilafəti zamanında məndən başqasına zülm olunmayanadək xəlifəliyi (başqasına) buraxıram. (Öz haqqımı tələb etmir, ona göz yumuram.) Bu, (Haqq-təalanın məzlumlara əta etdiyi) əcr və savabı əldə etməyə, sizin vurğunu olduğunuz dünya malına, zinətinə (başçılıq və rəhbərliyə) rəğbətim olmadığına görədir.

İmam Əli əleyhis-salamın Bəni-Üməyyənin onu, Osmanın qətlində iştirakda ittiham etmələrini eşitdikdə buyurduğu kəlamlarındandır. Bəni-Üməyyənin məni tanıması onları məndə eyb axtarmaqdan çəkindirmədimi? İslamdakı keçmişim nadanların məni ittiham etmələrinin qarşısını almadımı? (Mənim sözlərimin bu camaata təsiri olmayacaq, çünki) Allah-təalanın nəsihət olaraq buyurduğu mənim dilimdən (sözlərimdən) daha bəlağətli və gözəldir. (Bununla belə təsiri olmadı.) Mən dindən çıxanlara dəlil gətirir, dinə şübhə edənlərlə isə düşmənçilik edirəm. (Mənim dəlil və sübutlarımdan biri də budur ki, məni Osmanın qanının tökülməsində şərik bilməkləri tək) haqqa oxşar işlər Qur'ani-Kərimlə tutuşdurular. Allah bəndələri öz sinələrində olanlara uyğun cəzalandıracaqdır.

İmam Əli əleyhis-salamın (insanları dünya və axirət səadəti qazandıran bəyənilən sifətlərə rəğbətləndirmək üçün buyurduğu) kəlamlarındandır. Allah rəhmət eləsin o kişiyə ki, ağıllı sözü eşidir və qəbul edir, doğru yola çağırıldıqda ona tərəf gedir, yol göstərənin (Həzrəti Peyğəmbərin və mə'sum İmamların) belindən yapışaraq (dünya və axirətin çətinliklərindən) xilas olur. Pərvərdigarına (onun əmrlərinə) itaət edir, (Allahın buyurduqlarına uyğun rəftar edir), öz günahından qorxur, xalis əməli (riya və özünü göstərməkdən uzaq olan əməli) öncədən göndərir, gözəl və layiqli rəftar edir, onun üçün (axirətdə) ehtiyat toplananları (ibadət və bəndəliyin savab və mükafatını) qazanır və qadağan edilmişlərdən (çirkin əməl və söz) uzaq durur. Oxu düz hədəfə vurur (həmişə Allahı nəzərində saxlayır), dünya malının yerinə axirət malı toplayır (dünyaya göz yumaraq əbədi səadəti qazanmağa çalışır), öz nəfsi istəklərinə qalib gəlir və arzularını yalan sanır. Dözümü özünün nicat və qurtuluşuna, öz minik vasitəsinə çevirir, (müsibətlərdə səbri öz şüarına çevirir, yük daşıyan dəvə tək dünyanın ağrı-acılarına qatlaşır), təqva və pərhizkarlığı öz ölüm anına azuqə yığır. Aydın bir yola (İslam şəriətinə) qədəm qoyur və parlayan (aşkar və aydın olan) əsas yoldan uzaqlaşmır (yolsuzluğa ayaq basmır). Həyatın bir neçə günlük möhlətini qənimət sayır və fürsəti əldən vermir (Allahın və Peyğəmbərin razılığına səbəb olan iş görür, ömrünü boş yerə başa vurmur) ölümə hazır olur (dünyaya bel bağlayır, onu qəfil yaxalayan ölümə hazır olur) və əməlindən (layiqli əməl, Allaha bəndəlik və xalqa xidmətindən) azuqə toplayır.

İmam Əli əleyhis-salamın kəlamlarındandır. (Sə'd ibn As Osmanın təyinatı ilə Kufədə hakim olduğu vaxt Mədinəyə Həzrət üçün hədiyyə və məktub göndərərək bildirmişdi ki, mən Osmandan başqa heç kimə belə qiymətli hədiyyə göndərməmişəm. Həzrət onun məktubunu oxuduqdan sonra buyurmuşdu:) Bəni-Üməyyə Məhəmmədin (səlləllahu əleyhi və alih) mirasından (o Həzrətin bərəkətindən əldə olunmuş qənimətlərdən) mənə anası sağılarkən dəvə balasına verilən süd qədər az verirlər. Allaha and olsun, onlara hakim olsam qəssab cigər tikələrini və ya torpağa bulaşmış qarını atdığı kimi onları uzağa ataram. (Seyyid Rəzi buyurur). Başqa bir rəvayətdə اَلتُّرابُ الْوَذَمَةَ göstərilir və bu da اَلْوِذامَ التَّرِبَةَ-nin əksinədir. Həzrət əleyhis-salamın buyurduğu لَيُفَوِّقُونَنِى sözünün mənası budur ki, beytülmaldan mənə dəvənin «فُواقِ »kimi az verirlər. «فُواق» dəvə balasına anasının südündən bir dəfə verməyə deyilir. «وِذامُ» sözü «وَذَمَةٍ» kəlməsinin cəm formasıdır, yerə düşüb torpağa bulaşmış qarın, yaxud ciyər parçası mənasındadır.

←76-cı xütbə

Nəhcül-bəlağə. 77-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

78-ci xütbə→

İmam Əli əleyhis-salamın duada buyurduğu kəlamlarındandır: Allahım, məni (günahımı) bağışla ki, Sən onu daha yaxşı bilirsən. Mən yenə dönsəm (ikinci dəfə onu törətsəm) sən bağışlanmağı da mənə qaytar. Allahım, mən özümlə bağladığım və mənim ona vəfalı olduğumu görmədiyin əhdimi (əməl etməyi öhdəmə götürdüyüm itaət və bəndəliyi) bağışla. Allahım, dildə Sənə yaxınlaşmaq istəyimi, ürəyimin onun əksinə olmasını (işin əvvəlində Sənə yaxınlaşmaq üçün ibadət və bəndəlik etsəm də, ondan sonra beynimə riya və özünü göstərmək kimi fikirlər gəldiyinə görə) bağışla. Allahım, gözümün ucunun işarələrini (gözünün ucu ilə işarə edib möminə əziyyət verməyi və ya onun qeybətini edib arxasınca pis danışmağı), boş söhbətlərimi, ürəyimin arzularını və dilimin büdrəmələrini bağışla.

←77-ci xütbə

Nəhcül-bəlağə. 78-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

79-cu xütbə→

İmam Əli əleyhis-salamın Xəvariclə döyüşə gedərkən bəzi səhabələrinə (Əş'əs ibn Qeysin qardaşı Əfifə) buyurduğu kəlamlardandır. O, Həzrətə ərz etmişdi: Ey Əmirəl-möminin, (Xəvaricin üstünə) bu vaxt yola düşsən, qorxuram ki, zəfər çalmayasan və öz məqsədinə çatmayasan. Bu xəbəri nücum elmindən əldə etmişəm. Həzrət buyurdu: Həmin saatda yola çıxanların bəla və pisliklərdən uzaq olduğu hər hansı bir saat göstərə biləcəyini güman edirsən? O saatda səfərə çıxanların ziyan və çətinliklə üzləşəcəyi bir saatdanmı çəkindirirsən? Kimsə sənin bu sözlərinə inanarsa Qur'anı yalan sanar, İstədiyini əldə etmək və istəmədiklərindən uzaqlaşmaq üçün Allahdan kömək istəməyə ehtiyacı qalmaz. Sənin sözlərindən belə çıxır ki, göstərişinə uyğun rəftar edən kəs Allahına deyil sənə həmd və şükr etməlidir. Çünki güman edirsən ki, onu xeyir götürdüyü, ziyandan amanda qaldığı saata yönəldən sənsən. Bu sözlərdən sonra Həzrət üzünü camaata tutaraq dedi: Ey camaat, onunla biyabanda və dənizdə yolu tapmaq (səfərdə yolları bilmək, ibadət vaxtlarını öyrənmək, qibləni təyin etmək, gəminin yolunu müəyyənləşdirmək və s. kimi işlər) üçün lazım olan (ehtiyacınız olan qədər) həddi çıxmaqla, nücum elmini öyrənməkdən çəkinin. Çünki nücumu öyrənmək kahinilk və qeybdən xəbər verməklə nəticələnər. Münəccim kahin kimi, kahin isə sehrkar kafir kimidir. Kafir (cəzası) oddadır (əzab çəkməkdir). (Buna görə də münəccimin sözlərinə və əməllərinə inanmayın.) Allahın adının köməkliyi və yoldaşlığı ilə səfərə çıxın.

İmam Əli əleyhis-salamın «Cəməl» döyüşü başa çatdıqdan sonra qadınları pisləyərkən buyurduğu kəlamlardandır. (Aişə və onun arxasınca gedənləri də pislədiyi güman edilir.) Ey camaat! Qadınların iman, irs və ağıldan payları azdır. İmanlarındakı çatışmazlıq heyzli günlərində namaz qılmayıb, oruc tutmamalarına görədir. Ağıllarının nöqsanı isə buna görədir ki, (İslamda) iki qadının şahidliyi bir kişinin şahidliyi yerinədir. İrs və pay baxımdan çatışmazlıqları onlara çatan miras kişiyə çatan mirasın yarısı qədər olduğuna görədir. Pis qadınlardan uzaq durun, yaxşılarından isə çəkinin. Bəyənilmiş söz və əməllərdə onlara itaət etməyin ki, nalayiq söz və əməllərə tamah salmasınlar (və sizləri onu yerinə yetirməyə məcbur etməsinlər).

←79-cu xütbə

Nəhcül-bəlağə. 80-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

81-ci xütbə→

İmam Əli əleyhis-salamın (camaatı tərkidünyalığa və Allahın nemət və bəxşişlərinə şükr etməyə təşviq etdiyi) kəlamlarındandır. Ey camaat! Zöhd və dünyaya bel bağlamamaq (nişanələri) arzuları azaltmaq və (Allahın) nemətlərinə şükr etmək, haramlardan uzaqlaşmaqdır. Bu üç şeyə nail olmasanız (hər üçünü yerinə yetirə bilməsəniz, onlardan ikisini tərk etməyin: birincisi), haram sizin dözümünüzə üstün gəlməsin (dözümlü olun və günaha batmayın) və (ikincisi, Allahın) nemətlərinə görə şükr etməyi unutmayın. (Çünki bunu etməsəniz) Allah-təala (qiyamətdə əzab üçün) aydın-aşkar dəlillər (peyğəmbərlər və ağlın dəlilləri) və (hamınızın əlinin altında olan) aydın (səmavi) kitablar vasitəsilə sizlər üçün üzr istəməyə yer qoymamışdır

İmam Əli əleyhis-salamın dünyanın sifəti barədə kəlamlarındandır. Əvvəli əziyyət, sonu yoxluq olan bir sarayı necə vəsf edim? Halalının hesab-kitabı, haramının cəzası var (halal yolla qazandığının Qiyamətdə sorğu-sualı edilər, haram yolla qazanansa axirətdə əzaba düçar olar). Onda varlı və ehtiyacsız olan fitnəyə, bəlaya düşər, möhtac və fəqir qəmgin olar. Onu əldə etməyə çalışan istəyinə çatmaz, dünya onun üçün çalışmayana üz tutar. Dünya ona (ibrət gözü ilə) baxanı gözüaçıq və agah edər (ki, doğru yolu taparaq özünü axirətə hazırlasın), zinətinə və bəzəyinə nəzər yetirəni kor edər (ki, yolunu aszın. Seyyid Rəzi buyurur:) Kim İmam Əli əleyhis-salamın مَنْ أَبْصَرَ بِهَا بَصَّرَتْهُ «dünya ona ibrət gözü ilə baxanı gözüaçıq və agah edər» buyruğu üzərində dərindən düşünüb-daşınsa, onda sonuna çatmaq mümkün olmayan heyrətamiz məna və böyük məqsəd tapar. Onun həqiqətini dərk etmək olmaz. Xüsusilə də, bu cümləni وَ مَنْ أَبْصَرَ إِلَيْها أَعْمَتْهُ «dünya, zinətinə və bəzəyinə nəzər yetirəni kor edər» أَبْصَرَ بِهَا cümləsi ilə أَبْصَرَ إِلَيْهَا yanaşı qoysa, arasındakı fərqi heyrətlə açıq-aydın görər.

İmam Əli əleyhis-salamın «Qərra» (nurani, görkəmli) xütbəsi adlandırılan, heyrətamiz xütbələrindəndir. Şükür etmək öz gücü və qüdrəti ilə (hər şeyə) qalib gələn, bəxşiş və ehsanı ilə (hər kəsə) yaxın olan, hər fayda və xeyiri bağışlayan, bütün böyük və ağır bəlaları dəf edən Allaha məxsusdur. Ardı-arası kəsilməyən ehsanlarına və bol nemətlərinə görə Ona şükr edir, Ona iman gətirirəm. (Varlığına və vahidliyinə yəqinliyim var) ki, əvvəl (hər bir şeyin başlanğıcı) və (varlığı hamıya) aşkardır. Ondan məni doğru yola yönəltməsini istəyirəm ki, O, (hamıya) yaxın və yol göstərəndir. Ondan kömək diləyirəm ki, güclü və qüdrətlidir (hər bir şəri məndən uzaqlaşdırıb, hər bir xeyri mənə çatdırsın). Ona təvəkkül edirəm ki, (mənə) kifayətedən və köməkçidir. Şəhadət verirəm ki, Məhəmməd (səlləllahu əleyhi və alih) onun bəndəsi və elçisidir. Onu əmr və buyruqları yerinə yetirmək, dəlil və sübutlarını təbliğ etmək, (günah iş görənləri) oyanış günündən qabaq Onun əzabından qorxutmaq üçün göndərmişdir. Ey Allah bəndələri! Sizlərə (yol göstərmək) üçün (Qur'ani-Kərimdə) misallar çəkən (qəflətdən azad olmanız üçün əhvalatlar danışan), əcəllərinizi müəyyən edən, sizə (başqa yaradılmışlardan üstün olmaq üçün insanlıq) paltar geydirən, məişətinizi yüngülləşdirən (rahatlığınız üçün vasitələr yaradan), əməllərinizdən (yaxşı və pisindən, böyük və kiçiyindən) agah olan, onlara görə əvəzləri hazır qoyan, sizlərə bol nemət və saysız-hesabsız ehsan bəxş edən, açıq-aşkar dəlillər (peyğəmbərlər və səmavi kitablar) vasitəsilə sizləri (əzabdan) qorxudan, sizləri (imtahan və sınaqda) sayan (onun elmi bütün söz və əməllərinizin cüziyyatını və külliyatını əhatə edir), ömür və həyatınızın müddətini sınaq evində və ibrət sarayında təyin edən Allahdan (onun əzabından) qorxmağı və təqvalı olmağı tövsiyyə edirəm. Siz (yaxşı əməl sahiblərinizin pis əməl sahiblərinizdən ayrılması üçün) dünyada imtahan olunursunuz və (qiyamətdə) dünyada dediyiniz sözlərin və tutduğunuz işlərin hesabı soruşulacaq. Beləliklə, (dünyaya ürək bağlamayın ki,) dünya çeşməsinin gözü bulanıq və palçıqlıdır. (Dünyapərəstlərin gözündə) onun mənzərrəsi heyrətamiz, imtahan və sınağı isə kor edəndir. Yox olan bir aldadıcı, gizlənən bir işıqlıq, itən bir kölgə, dağılmağa doğru gedən bir

söykənəcəkdir (sabitlik və davamlılıq onun üçün deyil). (Öz ağlına əsasən) ondan uzaqlaşıb, ona ürək bağlamayan kimsə onunla ünsiyyətdə olub, arxayınlaşdığı zaman dünya at və yaxud dəvə kimi (onu yerə yıxmaq üçün) ayaqları ilə ona zərbə vurar, (yollarda qurduğu) tələləri ilə ovlayar, (kamana çəkdiyi) oxları ilə həlak edər, ölüm kəndirlərini (cürbəcür xəstəlikləri və çətinlikləri şücaətli və igid) kişinin boynuna salar, onu uyuyacağı dar yerə (qəbrə), qayıdacağı qorxulu yerə (axirətə) və əbədi məkanına (cənnət, ya cəhənnəm), əməllərinin (pis və ya yaxşı) əvəzini görməyə çəkər. Öz ata-babalarının canişini sayılan gəlməkdə olanlarla da dünyanın rəftarı belədir: Ölüm (onları) qırmaqdan (və biçarə etməkdən) qalmır, yerdə qalanlar isə günah törətməkdən əl çəkməyərək peşman olmurlar. Özlərindən əvvəlkilərin yolu ilə gedir və axırı fənalıq və yoxluq olan sona qədər dalbadal (gəlib) keçirlər (hamısı ölürlər). İşlərin kəndiri (məxluqatın ölümü nəticəsində) çözüldükdə, zaman ötüb keçdikdə, insanların oyadılmaları günü yaxınlaşdıqda (qiyamət qopduqda) Allah onları qəbirlərdən, (onları yemişlərsə) quşların yuvalarından, (onlara yem olmuşlarsa) yırtıcıların mağaralarından, müharibə meydanlarından (ölmüş olsalar) bayıra çıxarar. Haqq-təalanın əmr və fərmanını yerinə yetirməyə hazır vəziyyətdə sürətlə Allahın onlar üçün ayırdığı məad və qayıdış yerinə doğru gedərlər. Sakit, dinməz və sıraya düzülmüş (əyləşməyə və danışmağa taqəti olmayan) bir dəstə olarlar. Allah onların hamısını görəndir (onlardan heç kimsənin dünyadakı sözü və əməli Allaha gizli deyil) və (hesab-kitab üçün çağrıldıqda) carçı öz səsini hamıya eşitdirər. (O günün qorxusunun təsirindən) onlara təvazökarlıq, itaət, zillət və xarlıq paltarı geyindirilər. O gün (dünyada çətinliklərdən xilas olmaq üçün işlədilən) məkr və hiylə işə yaramaz, ümidlər kəsilər və ürəklər (əzabın qorxusundan) əzgin və qəmgin olar, səslər təvazökarlığın təsirindən alçalar və batar, ağızları (atın ağzındakı cilov kimi) köpük basar. (Günahlarının cəzasına görə) qorxu hüdudsuzdur. Haqqı batildən ayırmaq, xeyir və şər əməlin cəzasını, savab və mükafatını vermək üçün carçının səsinin heybətindən qulaqlar lərzəyə gələr. (Dünyanın onlara qarşı rəftarı, qiyamət günü yenidən diriləcəkləri və geri dönəcəkləri haqda danışdığınız insanlar Allahın) qüdrətdən yaradılmış, ixtiyarsız boya-başa çatdırılmış, ölümə düçar olaraq, qəbrlərdə parça-parça olan, (ailəsindən və var-dövlətindən uzaq) təkcə dirildilən, (yaxşı, pis əməl və sözlərinin) cəzasına çatan və hesab-kitabla, təhqiqlə (yaxşı əməl sahibi pis əməl sahibindən) ayırd edilən bəndələridir. (Onda, yaxşı olar ki, qəflət

yuxusundan ayılıb, günah və itaətsizlik etməyin ki, öləndən sonra peşmançılığın faydası yoxdur. Çünki insanlara dünyada) azğınlıqdan xilas olmaq üçün möhlət verilmişdir, (onlar peyğəmbərlərin vasitəsilə) doğru yola yönəldiliblər. Onlara özündən narazı olanın razılığını qazanmaq üçün verilən fürsət kimi fürsət verilmişdir. Şübhələrin (nadanlıq və azğınlığın) qaranlıqları (ağıl neməti və peyğəmbərlərin təbliği ilə) onlar üçün qaldırılmışdır. Yaxşı atları cıdırda hamını ötmək üçün arıqladaraq hazırladıqları kimi hazırlaşmaları, Haqqı-həqiqəti əldə etmək üçün düşünüb fikirləşmələri, axtaranın elm və bilik nuruna yiyələnməkdə tələsməməsi üçün ömürləri boyunca əcəl gəlib çatana kimi əllərində olan fürsətlə (dünyada) öz ixtiyarlarına buraxılmışlar. Heyrət, bircə bu doğru-düzgün (xəta və səhvin olmadığı) örnəklər, (nadanlıq və azğınlıq xəstəliklərinə) şəfa bəxş edən bu öyüdlər təmiz qəlblərə, eşidən qulaqlara, möhkəm düşüncələrə və (doğru ilə fəsadı bir-birindən ayıran) güclü ağıllara çatsaydı. Beləliklə, nəsihəti eşidib ondan boyun qaçıranın, (nadanlığı ucbatından) günaha bataraq etiraf edən (tövbə edib geri dönən) və (günahdan, itaətsizlikdən) qorxaraq savab iş görən (Allahın və peyğəmbərin razılığını əldə edib) və (ilahi əzabdan) çəkinən, (ibadətə və bəndəliyə) tələsən, (qiyamət gününə) yəqinlik hasil edən, (dünyada) öz rəftarını yaxşılaşdıran və ona öyüd-nəsihət verdikdə (doğru yola yönəltdikdə) qəbul edən, (ölümdən sonrakı çətinliklərlə) qorxutduqda qorxan (özünü çətinliyə salacaq iş görməyən), (günah və itaətsizliyi) qadağan etdikdə (ondan) uzaqlaşan, (Allahın fərmanına) boyun əyən, (azğınlıqdan) uzaq olan, (öz ağlına) müraciət edən, (törətdiyi günahlardan) tövbə edərək geri dönən, (rəhbərlərinə) tabe olan, (eynilə onların) yolunu gedən, doğru yol göstərildikdə onu görən (ona qədəm qoyan), sonra isə tələsə-tələsə haqqı axtaran, (nadanlıq və azğınlıqdan) qaçdığı halda nicat tapan, (qiyamət gününə ehtiyacı üçün) azuqə qazanan, öz batinini paklaşdıran, məad və qayıdışını (təqva və pərhizkarlıqla) abad edən, (dünyadan) köç günü, yol (axirət səfəri), ehtiyac və kasıblıq vaxtı (qəbr və qiyamət) üçün azuqə (Allaha ibadət və xalqa xidmət) ilə öz arxasını gücləndirən, həmin azuqəni özündən qabaq əbədi məkana (axirətə) göndərənin qorxduğu kimi Allahdan qorxun. Belə isə, ey Allah bəndələri, pərhizkar olun, onun üçün yaradıldığınızı (ibadət və bəndəliyi) niyyət edin, sizi qorxutduğundan (əbədi əzabdan) artıq dərəcədə qorxun. Qiyamətin dəhşətinin qorxusu haqda Ondan əhdinə vəfa etməsini istəməklə sizin üçün hazırladığı cənnətə layiq olun. Onun vədi həmişə doğrudur.

Bu da həmin xütbənin (insan bədənimn xəlq edilməsi, Haqq-təalanın nemətlərinin xatırlanması, Siratın vəhşətindən qorxudulması və təqvaya, pərhizkarlığa həvəsləndirilməsi barədə) bir hissəsidir.

Böyük Allah sizin (eşitməkdən) faydalanmanız üçün iki qulaq (eşitmə hissi) yaratdı ki, lazım olanı (cəmiyyətin həyatında işə yarayanı) qoruyasınız. (Görmək üçün) iki göz (görmə hissi) yaratdı ki, qaranlıqdan xilas olub, görəsiniz. Hər (zahiri) üzvü (batini) üzvlərin mühtəvasına çevirdi. (Hər bir üzv bir neçə üzvdən ibarətdir. Məsələn, əl damar, qan və sümükdən və bu kimi digər hissələrdən ibarət olduğu kimi.) Həmin üzvləri öz faydalı hissələri ilə bərqərar olan bədənlərə, (ağıl və tədbirlə) o bədənlərin ruzisini istəyən (və ya öz ruzisinə «elm və maarif»- cəlb edən) ürəklərə quruluş və şəkil verdi, davamlılığına görə münasib yerlərdə yerləşdirdi. Bir halda ki, Onun ucsuz-bucaqsız nemətinin minnətinə sahibsiniz, Onun minnətinin səbəbləri sizə aşkardır. (Xəstəliklərə) maneə olan vasitələrlə onun salamatlıq nemətindən faydalanırsınız. (Sizə əta etdiyi nemətlərdən biri budur ki,) ömrün və həyatın müddətini sizdən gizli saxladı (nə vaxt öləcəyinizi bilmirsiniz. Bunu bilməməyinizin özü dünyəvi işlərinizin nizamlanması üçün çox xeyirlidir). Sizdən öncəkilərdən sizlərə ibrət nişanələri qoydu. Dünyadan aldıqları ləzzət və faydadan, ölüm kəndirinin boğazlarına keçməsinə qədər nəsibləri olan vaxtın uzunluğundan və bolluğundan. Arzularına çatmadan öncə ölüm onları tələsik haqladı və onlarla arzuları arasına ayrılıq saldı. Sağlam olduqları vaxt (axirət üçün) azuqə yığmadılar, ilkin çağlarda (cavan və güclü olarkən) ibrət götürmədilər (ömürlərini boş yerə başa vurdular). Cavanlıq və gücünün zirvəsində olanı qocalıqdan və bükülməkdən başqa bir şey gözləyirmi? Sağlam olan kimsənin gözü müxtəlif xəstəliklərdən qeyri bir şeyin yolunda olarmı? Bərqərar və mövcud olan kimsə yoxluq və fənalıqdan başqa bir şeyi gözləyərmi? (Xoşbəxt o kəsdir ki, nə qədər ki, sağlam və güclüdür, fürsəti qənimət bilib işlərini sürətləndirsin.) Özü də (dünyadan) uzaqlaşmaq ayrılıq, (axirətə) köç və daşınma, müsibət və çətinliyin (can vermənin) ağrısının iztirab və narahatlığından titrəmək, qəm və kədərin çoxluğundan ağız suyunu axıtmaq, fəryada çatmağa çağırmaq üçün gözlərini ətrafa dolandırmağın, xidmətçilərdən (və ya övladlarınızın balalarından), yaxınlardan, dostlardan və əyaldan kömək istəməniz yaxın olduğu bir vaxtda. Qohumlar (ölümün çətinliklərini) dəf edəcəklərmi? Onların vay-şivənlərinin xeyri varmı? Bir

halda ki, qəbristanda gora tapşırılmış, dar yataqda (qəbirdə) tənha qalmışdır. Gəmiricilər (ilan, əqrəb, qurd və başqa heyvanlar) bədəninin dərisini parça-parça etdilər, çətinliklər onun təravətini çürütdü və məhv etdi. Şiddətli küləklər izlərini, zəmanənin müsibətləri nişanələrini yox etdi. (Ondan qəbirdə bir iz, camaat arasında isə sorağı qalmadı.) Cəsədləri təravətli, təzə olduqdan sonra dəyişdi, sümükləri gücləndikdən sonra çürüdü, canları ağır yükün (günahın) altında qaldı. Qeybdən və görünməzdən gələn xəbərlərə (qəbir, qiyamət, hesab haqqında heyran və sərkərdan olduqları Cənnət və Cəhənnəmə) yəqinlik əldə etdilər. (Bu vaxt) onlardan yaxşı əməllərini artırmaq istəməzlər, (onların) xətalarının pisliyindən razı və şad olmazlar. Sizlər bu camaatın oğulları, onların ataları, qohumları və qardaşları deyilmisiniz ki, onların rəftarına əməl edib, atlarına minib, getdiyi yolla gedirsiniz? Ürəklər öz nəsibini və bəhrəsini əldə etmək üçün bərk və doğru yola yönəlməkdən və nicatdan qəflətdədir. Öz yolundan qeyri bir yolla (günah və itaətsizliyə doğru) gedir. Sanki məqsəd (ilahi vəzifələrə diqqət) onlardan qeyrisi üçündür. Sanki, onların nicatı dünyanı (malını) toplamaqdadır. (Axirət azuqəsi qazanmaq, deyil!) Bilin ki, sizin yolunuz Siratdan (cəhənnəm körpüsündən) keçəcək ki, addımlar onun üzərində büdrəməkdən titrər, insan böyük qorxu və həyəcana düşər. Belə isə, ey bəndələr, qorxun Tanrıdan! (Qiyamət gününün) fikir və düşüncəsi ürəyini bürüdüyü, (ilahi əzabdan) xof və qorxu bədənini incitdiyi, gecə ibadət və itaətlərinin az olan yuxusunu da əlindən aldığı, (Pərvərdigarın rəhmətinə) ümidin günün günorta çağı (isti və hərarətin şiddətli çağında) onu susuz saxladığı (gecələri oyaq, gündüzləri oruc olan), dünyaya meylsizliyi nəfsi istəklərinin qarşısını aldığı, Allahın zikri dilinin əzbəri olan (həmişə Allahı xatırlayan) ağıllı insanın qorxduğu tək qorxun! (Qiyamət günündə) əmin-amanlıqda olmaq üçün (günah və itaətsizlikdən olan) qorxunu üstün tutdu (qiyamətdə əzaba mübtəla olmamaq üçün dünyada günah etmədi), onu doğru və aşkar yoldan saxlayan söz və əmələ gözlərini bağladı və yaxşı olan, aydın, doğru yola (Allahın razılığı və şadlığına) çatmaq üçün ən yaxşı yolları seyr etdi. (Nicat üçün) böyük maneə olan (dünyaya) aldanmaq onu (ibadət və bəndəlikdən) saxlamadı. Şübhəli şeylər ona gizli deyil (heç bir işdə o, nadan deyil), müzəffər və (cənnət) müjdəsinin sevincindən, ən asudə yatağında (qəbirdə) çox rahat və xoş olmağına, daha əmin-aman gündə (qiyamətdə) şaddır. Dünyanın keçidindən keçdi və tərifləndi. Axirətinin azuqəsini əvvəlcədən göndərərək xoşbəxt oldu. (Allah) qorxusundan (doğru yola

tələsdi). Möhlət verilmiş dünyada (ibadət və bəndəlik üçün) sürətlə irəlilədi. Allahı razı salmaq üçün şövqə gəldi. (İlahi əzabdan) qaçmaq üçün (doğru yolla) getdi. Bu günündə (dünyada) sabahını (axirətini) qoruyurdu. Onu gözləyənləri (qəbir, bərzəx və qiyamətdəki halını) köçməmişdən qabaq gördü. Deməli, cənnət bəxşiş və savablarına görə (xeyir əməl sahiblərinə) kifayət edər. (Elə işlər görün ki, əbədi məkanınız orada olsun), cəhənnəm də əzab və çətinliklərinə görə (günahkar insanlara) bəs edər. (Elə iş görün ki, ora düşməyəsiniz). Yetər ki, Allah (pis əməl sahiblərindən) intiqam alsın və (yaxşı əməl sahiblərinə) mədəd və kömək olsun. Qur'anın (ona əməl etməyənlərə qiyamət günündə) sübut gətirərək düşmən kəsilməsi bəs edər. Mənim sizə vəsiyyət və tövsiyyəm pərhizkarlıq və qorxutduğu şeylə (qiyamətin əzab və çətinlikləri) üzrxahlığa yer qoymayan, aşkar, aydın etdiyi şeylə (Qur'ani-Kərimlə) hüccəti (dəlil-sübutu) tamam edən Allahdan qorxmaqdır. (O) sizi düşmənlə (Şeytanla) qorxutmuşdur «وَلاَ تَتَّبِعُواْ خُطُواتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ» ki, gizlincə sinələrə nüfuz edər, xeyirxahcasına (azdırmaq üçün) qulaqlara söz deyər. Sonra, (dalınca gələni) azdıraraq puç edər. (Ona) vəd verərək (yersiz istəklərə) meylləndirər, pis günahları (onun nəzərində) bəzəyər, öldürücü böyük günahları asan göstərər. Tədricən öz ardıcılını aldadaraq girov kimi öz itaətinin əsarətinə keçirər. (Bu vaxt) zinət verib bəzədiyini (istəkləri) danar, asan qələmə verdiklərini (günahları) böyük sanar, (arxasınca gələnləri) əmin etdiyi ilə qorxudar.

Bu xütbənin bir hissəsi insanın necə yaradılması barəsindədir

(Onun dünyadakı və qəbirdəki halını şərh edərək insanlara keçmişlərdən ibrət götürməyi xatırladır və onları tövbə etməyə həvəsləndirib buyurur:) (Sizi Şeytanın hiyləsindən agah etdim, indi) sizə insanın necə yaradılmasını xatırladım ki, Allah onu bətnlərin (uşaqlıqların) və (onun üçün) örtük olan pərdələrin qaranlığında (bətnlər dedikdə qarın, uşaqlıq və uşağla birlikdə çıxan pərdə kimi cift nəzərdə tutulur) tökülmüş nütfədən və naqis qan laxtasından yaratdı. O, qarında uşaq, daha sonra isə südəmər körpə oldu və südəmərlikdən başlayaraq yetkinlik yaşına çatdı. Sonra ona anlaması (keçmişlərdən) ibrət götürməsi, itaətsizlik və günahdan uzaqlaşması üçün qoruyan qəlb (ağıl), danışan dil, görən göz bəxş etdi. Kamal həddinə çatdıqda qəd-qamətini düzəltdikdə təkəbbür və qürur ona hakim kəsildi, qaçdı (Allaha və peyğəmbərə itaət etmədi) və azğınlaşdı, (batil yola qədəm

qoydu, pis əməl və sözdən) qorxmadı, belə ki, (quyunun başında vedrə ilə su çəkən kimi) öz nəfsi istəyini böyük vedrədə (azğınlıq quyusundan bayıra) çəkir, öz dünya ləzzətlərinə və istəklərinə yetişmək üçün çox səy göstərir və çalışır, ona nakamlığın və bəlanın üz verəcəyinə inanmır və heç bir günahdan qorxmurdu. Beləliklə də, öz günah və xətaları ilə (dünyada) yaşadığı az müddətdə Allahın ona bəxş etdiyi nemətlərin müqabilində (axirət üçün) fayda götürmədən və ona vacib olanı yerinə yetirmədən nadanlıq, qəflət, azğınlıqla ömrünü başa vurdu. İtaətsizliyin, həvayi-nəfsə tabe olmağın və xoşhallıq anının sonunda ölümün kədəri onu yaxaladı. Gecələr şiddətlənən müxtəlif xəstəliklər, ağır ağrılarla, heyranlıq və dalğınlıqla gündüzü gecəyə çatdırır, gecə də sübhədək oyaq qalırdı. Qəm çəkən qardaşı, mehriban atası, səbirsizlikdən «vay-vay» deyən həyat yoldaşı, iztirab və narahatlıqdan sinəsinə vuran qızı (yaxud anası) onun ətrafında olduqları halda o kişi başını qatan can vermənin bihuşluğunda çox qəm və kədər, dərdli nalə içində, çətin can verməyə, əziyyətlə dünyadan köçməyə mübtəla olmuşdu. (Öldükdən) sonra ümidsiz halda kəfənə bükülüb (əlindən bir iş gəlmədiyindən) itaətkar və sakit vəziyyətdə (qəbrə doğru) çəkilər. Sonra onu səfərdən qayıdan və xəstəlikdən arıqlayan əzgin dəvə kimi əlacsız və haldan getmiş vəziyyətdə tabut taxtalarının üstünə atarlar. (Ondan sonra) qulluğunda duran övladlar və qardaşlar yığılaraq onu qürbət və kimsəsiz evə (qəbrə) bir daha görüşməyəcəkləri yerə qədər çiyinlərinə alarlar (apararlar). Dəfnə gələnlər və müsibət sahibləri (qəbristanlıqdan) qayıtdıqdan sonra, onu (İnkir və Minkirin) sual və imtahanında büdrəməyin qorxusundan, vəhşətindən yavaş danışdığı halda qəbirdə oturdarlar. Orada ən böyük müsibət nazil olmuş qaynar su, cəhənnəmə daxil edilmək, alovun səsinin həyəcanı və şiddətidir. Əzabda nə ona rahatlıq verən süstlük, nə əziyyətləri aradan qaldıracaq asayiş, nə ona mane olacaq gücü, taqəti, nə də onu (bu çətinlikdən) xilas edəcək ölüm, nə kədərini siləcək azacıq yuxu və gözünü qırpmaq var. Müxtəlif növ ölümlərə (ağır dərdlər) və ardıcıl əzablara mübtəladır. (Bu əzablardan) Allaha pənah aparıram (və ondan bu çətinliklərdən xilas olmağı diləyirəm). Ey Allah bəndələri, Allahın ömür və həyat əta etdiyi, öz nemətlərinə sahib etdiyi insanlar haradadır? Bilməli olduqlarını onlara öyrətdi, anladılar. Onlara möhlət verdi, onlar isə oyunla, boş yerə fürsəti əldən verdilər. Sağlam və rifah içində olanda (Allahın əta etdiklərini) unutdular? Onlara uzun müddət möhlət verib, ehsan və yaxşılıq edib, ağrılı əzabla qorxutdular. Böyük nemətlər vəd etdilər (onlar isə qəflət yuxusundan

oyanmadılar). Ölüm və puçluq gətirən günahlardan, (Allahı) qəzəbləndirən eyblərdən uzaqlaşın (ki, nicat tapasınız). Ey görən gözləri, eşidən qulaqları, sağlam bədəni və dünya malı (mal və övladı) olanlar, (Allahın əzabından) qaçmağa, qurtulmağa, pənah aparmağa, arxalanmağa və ya qayıtmağa bir yer var, yoxsa yox? (Allahın hökmündən) necə dönür, hara qayıdır, nəyə aldanırsınız?! Sizlərdən hər birinin (torpaqla örtüləcəyiniz zaman) torpaqdan nəsibi toz-torpağa bulaşmış çöhrə, qamətinizin eni və uzunu qədər olan torpaqdır. (Belə isə, evlərə və saraylara sahib olmaq üçün bu qədər əziyyət və zəhmət nə üçündür?) İndi ey Allah bəndələri! Nə qədər ki, kəndir (ölüm) boşdur və sizin boğazlarınıza keçməyib, ruhunuz bədəninizdədir, doğru yola yönəlməyə və nicata vaxt var, bədənləriniz rahatdır, toplama (meydanı) geniş, həyata möhlət, iradə və ixtiyar var, tövbəyə, qayıdışa vaxt, ehtiyacı yerinə yetirməyə macal qalıb fürsəti qənimət bilin və fürsət keçmədən, dar yerə (qəbrə) düşmədən, yoxluq qorxusundan öncə, canın bədəndən ayrılmasından və sizi gözləyən gözəgörünməzin (ölümün) gəlişindən, qalib və güclü Allaha (əzabına) düçar olmamışdan qabaq fürsəti qənimət bilin. (Seyyid Rəzi buyurur:) Xəbərdə göstərilib ki, İmam əleyhis-salam bu xütbəni bəyan etdikdə bədənlər lərzəyə düşdü və gözlər yaşardı, ürəklər narahat oldu, iztirab çəkdi. Bir sıra insanlar bu xütbəni «Qərra» (nurani, görkəmli) xütbə adlandırıblar.

←82-ci xütbə

Nəhcül-bəlağə. 83-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

84-cü xütbə→

İmam Əli əleyhis-salamın Əmr ibn As barəsində (onun nadürüst söz və əməllərini pislədiyi və qınadığı) xütbələrindəndir: Zinakar arvadın oğluna heyrətlənirəm. (Belə atasızın biri) Şam camaatına yalandan deyir ki, mən zarafatcıl, lağlağı bir adamam və daim zarafatla, oyunla məşğulam. Nadürüst söz danışıb, bu sözləri ilə günahkardır. Agah olun ki, sözlərin ən pisi yalandır. Əmrin dilinə alıb danışdığı söz yalandır və (hər kəsə) vəd etsə, onun əksinə əməl edər, öz sualları ilə naqqallıq edər, ondan soruşulduqda isə (cavabında) xəsislik edər, əhd-peymanını pozar, öz qohumlarından uzaqlaşar. Müharibə meydanına gəldikdə qılınclar işə düşməyənə qədər (fəsadı və müharibə atəşini alovlandırmaq üçün) çox əmrlər verər, qadağalar qoyar, söz oynadar. Qılınclar qınından çıxandan, müharibə başlanandan sonra isə onun ən böyük hiyləsi cinsiyyət üzvünü camaata göstərməkdir. Bilin! Allaha and olsun, ölümü xatırlamaq məni zarafatdan və oyundan saxlayır, axirəti unutması isə Əmrə haqq sözü danışmağa mane olur. O, hədiyyə və bəxşiş şərti olmasaydı, dinindən əl çəkmək üçün (öz zəmanəsinin İmamının əleyhinə çıxması üçün) azacıq rüşvət (Misirin bir neçə günlük hakimliyi) bağışlamasaydı, Müaviyəyə bey'ət etməzdi.

Nəhcül-bəlağə. 84-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın (tovhid və Allah-təalanın bəzi sifətləri haqqında) xütbələrindəndir. Şəhadət verirəm ki, Allahdan başqa heç bir mə'bud yoxdur, şəriki olmayan təkdir. Əvvəldir, ondan öncə heç bir şey olmayıb (əzəlidir və hər bir mövcudun mənşəyidir). Axırdır, onun üçün heç bir həd və son yoxdur (əbədidir və hər bir mövcud onda sonlanır). Təsəvvürlər onun heç bir sifətinə yetişməz və qəlblər (ağıllar) onun necəliyini təsdiq edə bilməz (çünki onun necəliyi yoxdur ki, ağıl onu dərk etsin). Bölünmə və ayrılma onun üçün rəva deyil (çünki hissə və tərkib varlığı mümkün olanlara layiqdir). Gözlər və qəlblər onu əhatə etməz. Bu, xütbənin (camaata nəsihət etdiyi) hissəsidir

Ey Allah bəndələri, faydalı ibrətlərdən öyüd götürün, parlaq və aşkar əlamətlərdən ibrət alın, (Qur'an və sünnədə) gələn (günahlardan) hər növ qorxudulduğunuz şeylərdən (ilahi əzabdan) çəkinin, xatırlatmalardan və öyüdlərdən (nəsihət verənlərin öyüdlərindən) bəhrələnin. Sanki ölüm pəncələri (yırtıcı heyvanların pəncələri kimi) sizdən asılıb (əcəl sizə yaxındır), dilək-istək bağları sizdən üzülübdür, çətin rüsvayedici işlər (can vermək, dünyanı əliboş tərk etmək, dəhşət və qorxu məkanı olan qəbirdə qalmaq və sairə), gedilməli olan yerə (qiyamətə) sürülüb aparılmaq sizi bürümüşdür. (Bütün məxluqat ora gedəcək) və (bu yolda) hər insanın bir qövanı və bir də şəhadət verəni vardır: qövanı (ölüm) onu Məhşərə qovur, şəhadət verən (bədən üzvləri) onun (yaxşı və pis) işlərinə şəhadət verir.

Bu da həmin xütbənin Cənnətin vəsfi barəsindəki bir hissəsidir

Cənnətin biri digərindən üstün olan dərəcə və özülləri, bir-birinin müqabilində imtiyaza sahib mənzilləri var. Onda rahatlıq və xoşluq puç olmur. Orada yaşayanlar köçmürlər və oradan bayıra çıxmayacaqlar. Orada əbədi olan qocalmaz, oranın sakini yoxsullaşmaz.

İmam Əli əleyhis-salamın (Haqq-təalanın bəzi sifətlərinin bəyan edildiyi, camaata öyüd-nəsihət verildiyi və onların ibadətə, bəndəliyə təşviq edildiyi) xütbələrindəndir. Böyük Allah gizlinləri bilən və (ürəklərdəki) düşüncələrdən agah, bütün şeyləri əhatə edən (əşyanın cüziyyatına və külliyyatına hakimdir), hər şeydən üstündür və hər bir şeyə gücü yetər. Belə isə, ölüm tezliklə onu haqlamamışdan öncə möhlət günlərində, (qəbir və qiyamətin dəhşətinə, qorxusuna) düçar olmamışdan qabaq, əldə fürsət varkən, nəfəs yolu açıqkən, bu yol bağlanmamış (ölməmiş) sizlərdən əməl edənlər iş görməlidirlər (Allahın və Peyğəmbərin razılığını qazanmalıdırlar) özünün rahatlığı və addımının möhkəmliyi üçün yaxşı işlərlə məşğul olmalıdırlar. (Allah və Peyğəmbərin fərmanına əməl etməlidirlər ki, qiyamət günü rahat olub ayaqları Siratda büdrəməsin.) Özlərinin köç yeri olan saraydan (dünyadan) əbədi məkanları (axirət) üçün azuqə götürməlidirlər (oranın azuqəsi bu saraydan başqa heç yerdən götürülmür). Ey Allah bəndələri, Allahın öz kitabında (Qur'anda) qorumağı və riayət etməyi sizə əmr etdiyindən, (Qur'anı dərindən düşünün və fikirləşin) öz haqqınızdan sizin yanınızda əmanət qoyduğundan qorxun (Allahın əmrlərinə və qadağalarına riayət edin). Çünki pak və münəzzəh Allah sizi əbəs yerə yaratmayıb, işsiz, bihudə buraxmayıb və sizləri nadanlıqda, korluqda (azğınlıqda) özbaşına qoymayıb. O sizin əməllərinizi məlum etdi (xeyir və şər, ibadət və günah yolunu sizə göstərdi) və sizin rəftarınızdan (yaxşısından, pisindən, böyük-kiçiyindən, gizlin və aşkarından) agahdır, həyatınızın, ömrünüzün müddətini müəyyən etdi və Kitabı (Qur'ani-Kərimi) hər bir şeyə dəlil kimi sizlərə göndərmişdir. (O öz əmr və qadağalarını orada bəyan etmişdir.) Bir müddət səmadan yerə göndərdiyi kitabdakılarla dinini peyğəmbər və sizin üçün kamilləşdirənə qədər diri peyğəmbərini sizin aranızda saxladı. Bu onun bəyəndiyi bir dindir (dinlərin ən kamilidir). O Həzrətin dili ilə yaxşı əməllərdən sevdiyini, çirkin əməllərdən ikrahına səbəb olanları, öz qadağa və əmrlərini sizə çatdırdı. Sizə üzrxahlıq üçün yer qoymadı və sizə höccəti (dəlil-sübutu) tamam etdi. Sizi qiyamət qopmamış əzabla təhdid etdi, ağır əzab gəlməmiş qorxutdu. Belə isə (qəflət yuxusundan

oyanın və) ömrünüzdən qalanını qənimət bilin (Allahın razılığı üçün çalışın) və ömrünüzdən qalan günlərdə dözüm yolunu tutun (özünüzü günahdan və itaətsizlikdən saxlayın). Çünki bu qalan günlər (ola bilər ki, əldən buraxılmışların tədarükünə sərf edilsin) qəflətdə (yaşadığınız), öyüd-nəsihətdən üz döndərdiyiniz çoxlu günlərin müqabilində azdır. (İtaətsiz) Nəfslərinizə fürsət verməyin (günahı asan sanmayın) ki, bu fürsətlər sizi zülmkarların yollarına sürüklər, (onların rəftarının ardınca aparar) və (heç bir işdə) səhlənkar olmayın ki, səhlənkarlıq sizi bilməyərəkdən günaha batırar. Ey Allah bəndələri, insanlardan özünə ən çox öyüd verəni Pərvərdigarına daha çox itaət və bəndəlik edəndir. İnsanlardan özünü ən çox aldadanı Allahına qarşı daha çox günah və itaətsizlik edəndir. Aldanmış şəxs ziyanı özünə rəva görəndir (özünü həlak və puç edərək ilahi əzaba səbəb olan bir iş görəndir), şad, xoşhal şəxs dinini qoruyandır. Xoşbəxt o şəxsdir ki, başqalarından öyüd alsın (yaxşı əməl sahiblərinin yolu ilə gedərək pis insanların çirkin əməllərindən uzaqlaşsın) və bədbəxt o şəxsdir ki, nəfsinin istəklərinə və öz nadürüstlüklərinə aldansın (nəfsinə itaət edərək onun təhlükəsindən xəbərsiz olsun). Bilin ki, (ibadətdə və bəndəlikdə) azacıq riya və özünü göstərmə şirkdir. (Çünki hər kəs Allaha ibadətdə qeyrisini nəzərdə tutsa, şübhəsiz ki, onu Allaha şərik bilmişdir.) Nəfsinə uyanlarla (günahkarlarla) yoldaşlıq imanın unudulmasına və şeytanın gəlişinə səbəb olar. Yalandan uzaq durun ki, o imandan uzaqdır. Doğru danışan (əzabdan) nicat, qurtuluş məqamındadır. Yalançı ölüm, zəlillik və xarlıq çuxuruna düşməyə yaxın olan yüksəklikdədir. Bir-birinizin həsədini çəkməyin (başqasının zavala uğramasını arzulamayın). Çünki alov odunu diddiyi kimi (yandıraraq külə döndərdiyi kimi) həsəd də imanı didər (məhv edər, dağıdar). Bir-birinizlə düşmənçilik etməyin, çünki düşmənçilik (qohumlarla əlaqənin kəsilməsinə və) hər bir xeyrin, bərəkətin (ülgücün saçı başdan qırxdığı kimi dibdən) kəsilməsinə səbəb olar. Bilin ki, arzu ağlın yanılmasına və səhvinə, Allahın zikrini unutmağa gətirib çıxarar. Belə isə (ölümü, qiyamət gününün qorxu və vəhşətini xatırlamaqla) arzunu yalan sanın. Çünki (həqiqi olmayan şeylərin) arzu aldadıcıdır və arzulayan aldanmışdır.

←85-ci xütbə

Nəhcül-bəlağə. 86-cı xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

87-ci xütbə→

İmam Əli əleyhis-salamın (Allahın çox sevdiyi bəndənin və düşmən bildiyi kimsənin sifətlərini bəyan edərək camaatı İmamların əleyhimus-salam ardınca getməyə təşviq etdiyi) xütbələrindəndir. Ey Allahın bəndələri! Allahın yanında ən sevimli (Haqq-təalanın mərhəmət nəzəri şamil olan) bəndə öz nəfsinə hakim kəsilməkdə Allahın kömək və yardım etdiyi bəndədir (şəhvətlər və nəfsani istəklərə uymamaq üçün onun ağlını gücləndirmişdir). Beləliklə, (həmin bəndə) hüzn və kədəri öz şüarına çevirdi (Haqqın rizasını qazanmaq üçün ona səbəb olan işlər barəsində düşündü), xof və (ilahi əzabdan) qorxunu özünə yol seçdi. (Heç vaxt Allahın və Peyğəmbərin qanunlarına zidd hərəkət etmədi.) Beləliklə, onun ürəyində hidayət çırağı (ilahi elm və maarif) işıqlandı (onunla nadanlıq və azğınlığın zülmətindən xilas olub doğru yola qədəm qoydu) və çatacağı bir gün üçün ziyafət (süfrəsini) hazırlayıb (ibadət və bəndəlik etdi ki, öləndən sonra əliboş olmasın), uzağı özünə yaxın etdi və çətinliyi (ölümü, qəbri və qiyamət gününün qorxu və dəhşətini ibadətinin, bəndəliyinin azuqəsi ilə) asanlaşdırdı, (yerin, göyün və onlarda olan hər şeyin yaradılışı barədə) fikirləşdi, düşündü. (Mənşə və məad barəsində) gözü açıldı. Və Allahı xatırlayıb (axirət azuqəsi olan) yaxşı əməlləri artırdı. Və giriş yolları onun üçün asanlaşdı, təmiz və şəffaf sudan doydu. Elə ilk dəfə içən kimi doydu. Doğru və hamar yolla getdi (ibadət və itaət yolu bilən pərhizkarların yolu ilə addımladı). Şəhvət və nəfsi istəklər libasını əynindən çıxardı (dünyaya və onda olanlara ürəyini bağlamadı), yalnız bir məqsəddən (Allahın razılığın qazanmaqdan) başqa bütün məqsədləri özündən uzaqlaşdırdı. (İlahi elm və mərifət sifətini qazanaraq) korluqdan (cəhalət və nadanlıqdan) və öz nəfsinə uyanlarla ünsiyyətdən xilas oldu və özü hidayət, nicat qapılarının açarına, həlakət qapılarının qıfılına çevrildi (başqalarına yol göstərməklə azdıranların qarşısını aldı). Öz yolunu görüb ona qədəm qoydu və özünün (hidayət və nicat) əlamətlərini, nişanələrini tanıdı, içində qərq olduqlarını (çətinlikləri və kədərləri) özündən uzaqlaşdırdı, ən möhkəm halqalardan, ən qırılmaz iplərdən (Qur'ani-Kərimdən və Peyğəmbərin əhli-beytindən) yapışdı (və nicat, qurtuluş yolunu tapdı). Onun (Haqqa) yəqinliyi günəş

işığına və aydınlığına olan yəqinlik kimidir. (Ona heç bir şəkk-şübhə yol tapa bilməz və Haqq elmlərdən, ilahi maarifdən bəhrələndiyinə, camaata yol göstərdiyinə görə.) Hər cəhətdən böyük işlərdə öz nəfsini Allahın ixtiyarına verdi (ki, ondan nə istənilsə yerinə yetirsin və nə soruşulsa cavab versin) və hər bir töräməni öz əslinə qaytardı (doğru əsaslandırma və ictihadla onun barəsində hökm çıxardı). Odur qaranlıqların çırağı, aydın olmayan oxşar işlərə aydınlıq gətirən, mübhəm işlərin açarı (ehkamı öyrədən) və müşkülləri dəf edən (öz kamil sözləri ilə məsələləri, deyilən iradları aradan götürən) və geniş bəyanların (əqli məsələlərin) yol göstərəni. Deyir və (mətləbi) başa salır (nadanlığı və şəkki artırmır), sakit qalır ki, (danışığın büdrəyişindən və haqsız fətvalardan) amanda olsun. Rəftarını Allahına görə (şirk, riya və özünü göstərməkdən) təmizlədi və Haqq-təala da onu Özü üçün seçdi (ona cürbəcür feyzlər və kamil sifətlər bəxş etdi). Deməli, (bu sifətlərlə) o, dinin mədənlərindən və yer üzündəki sütunlarındandır. Ədaləti (düzlüyü və doğruluğu) özünün zərurətinə çevirib (ondan uzaqlaşmadı və heç vaxt, heç bir işdə ifrata, yəni, həddini aşmağa, nə də təfritə, yəni, haqda təqsirə, təxirə yol vermədi) Deməli, onun ədalətinin ilk mərhələsi budur ki, nəfsinin istəklərini özündən uzaqlaşdırar və haqqı bəyan edər (xalqa yaxşı əməlləri buyurar və pis əməllərdən çəkindirər), özü də ona uyğun hərəkət edər. Heç bir yaxşı, xeyir əməlin sonunu niyyət etməmiş tərk etmədi, heç bir yaxşılıq ehtimalını niyyət etməmiş buraxmadı. (Onun bütün səyləri bundan ibarətdir ki, yaxşılıq, xeyir yolların hamısı ilə getməklə nicatın ən yüksək həddini, güman yolu ilə olsa belə, qazansın.) Öz cilovunu kitaba (Qur'ana) tapşırıb. Deməli, Allahın kitabı onun rəhbəridir. Qur'anın yükünün endiyi hər məqamda aşağı enər, Qur'anın yeri olduğu hər yerdə yerləşər. (Allahın özünə düşmən bildiyi) bəndə isə (o kəsdir ki,) nadan olduğu halda özünü alim, bilikli adlandırar. Nadanlardan nadanlığı, azğınlardan isə azğınlığı öyrənib aldadıcı kəndirlərdən və yalan sözlərdən camaata tələ qurar. Kitabı (Qur'ani-Kərimi) öz düşüncələri əsasında daşıyıb (təfsir edər) və (Qur'anı öz fikri ilə təfsir edən) haqqı öz istəklərinə uyğunlaşdırıb camaatı böyük təhlükələrdən arxayın salar, böyük günahları (onların nəzərində) asanlaşdırar. İçində batdığı halda (riyakarlıqla və özünü göstərməklə) şübhələrdən (şübhəli və qaranlıq hökmlərdən) uzaqlaşdığını deyər (hökm verər və şəriət hökmləri, onun halları barəsində nadan olduğuna görə hər bir qaranlıq məsələ onun nəzərində doğru olar). Onların arasında yatdığı halda bid'ətlərdən (şəriət qanunlarına zidd hökmlərdən) çəkindiyini söylər (verdiyi

hər hökm bid’ətdir). (Onun) surəti insan surəti, (onun) qəlbi isə heyvan qəlbidir. Hidayət qapısını və doğru yolu tanımır ki, (ona qədəm qoyub) onun ardınca getsin. Nadanlıq və korluq qapısını tanımır ki, ondan uzaqlaşsın. O, dirilərin arasında bir ölüdür. (İndi ki, haqqı və batili tanıdınız, Allahın sevdiyi və düşmən bildiyi bəndələri bildiniz) hara gedirsiniz (hansı yola gedirsiniz ki, daha layiqli olsun) və (haqqın) bayraqları asıldığı, (həqiqət) nişanələri aşkar göründüyü, (hidayət və qurtuluşdan) mayak qurulduğu halda sizləri (hidayət və nicat yolundan) necə döndərirlər? (Və ya sizi nə vaxt və harada doğru yoldan daşındırırlar?) Bəs sizi harada heyran və sərgərdan ediblər? Peyğəmbərinizin əhli-beyti (pak İmamlar) aranızda olduğu halda necə heyran və sərgərdansınız? (Doğru yolu görmürsünüz.) Onlar (adamın dəvənin cilovunu əlinə alıb onu istədiyi tərəfə apardığı kimi camaatı) haqq yola çəkənlər, rəhbərlər və dinin nişanələri, doğru danışan dilləridir. (Sözləri doğru, düzgündür, yalan olması ehtimal edilmir. Həzrət Peyğəmbərə vəhy edilənləri xalq üçün təfsir edib onları həqiqətlərlə tanış edirlər.) Onları Qur’anın ən yaxşı mənzillərinə endirin. (Onlar elm və maarif çeşməsi olduqlarına görə) çox təşnə dəvələrin (su başına) çatmağa tələsdiyi tək onlara doğru tələsin (və elmlərindən, biliklərindən bəhrələnin). Ey camaat! Bu rəvayəti Xatəmül-ənbiya səlləllahu əleyhi və alih və səlləmdən öyrənin (öz ailəsinin mədhi və əzəməti barədə buyurmuşdur). Bizlərdən biri (zahirən) ölsə belə diridir. Və (nadanların səhv əqidələrinə görə) bizdən çürüyənlər də çürümüşdür, halbuki çürüməmişlər. Belə isə tanımadığınız (bilmədiyiniz) şeydən (Həzrət Peyğəmbərin ailəsi barədə) danışmayın, çünki sizin inkar etdiklərinizdə həqiqət daha çoxdur. (İlahi əzab sizə çatdıqda) dəlil və sübutunuz olmadığı kimsəni üzürlü bilin və o mənəm. Sizinlə böyük qiymətli yükə (Qur’ani-Kərimə) uyğun rəftar etmədimmi? (Qur’anı sizə öyrətmədimmi?) Qiymətli kiçik yükü (Həzrət peyğəmbərin ailəsini, Həsən və Hüseyni) sizlərin arasında qoymadımmı? Sizin aranızda imanın bayraq və nişanəsini asdım (ki, azmayasınız). Sizləri halal və haramın hüdudlarından hali etdim. Öz ədalət və dada yetişməyimlə sizə nicat libası geydirdim (zülm və sitəmdən xilas olmağın yolunu sizə öyrətdim). Öz sözlərim və rəftarımla (Allahın və Peyğəmbərin razı olduğu) xeyir əməlləri yaydım (göstərdim). Öz bəyənilən əxlaqımı sizə aşkar etdim (layiqli əxlaqla tanış etdim). Belə isə əslini bəsirət gözünün dərk etmədiyi, düşüncə və fikirlərin yol tapmadığı şeylərdə (öz nadürüst) fikir və tədbirlərinizi işlətməyin.

Bu da həmin xütbənin bir hissədir

(Bəni-Ümməyyənin xalqa hakim kəsiləcəyini, onun hakimiyyətinin tezliklə məhv olacağını xəbər verir.) (Bəni-Ümməyyə xalqa hakim kəsilib şəhərləri ələ keçirəcək, Allaha ibadət edən kişiləri öldürüb arvadlarını əsir, mallarını qarət edəcək. Onların zülmünə, sitəminə qarşı qiyam edənlər məğlub olub öldürüləcəklər.) Güman edən (zahiri görən dünyapərəst) dünyanın (dəvə bəndə bağlandığı kimi) Bəni-Ümməyyənin əlinə keçdiyini, xeyrini onlara verdiyini, onları saf və təmiz suyuna saldığını, (xülasə, dünya onlara məxsusdur və başqaları ondan bəhrələnmir) qamçı və qılınclarının (onların törətdiyi qətl, qarət və cürbəcür çətinliklərin) bu ümmətin başının üstündən çəkilməyəcəyini zənn edəcək. Halbuki bunu güman edən səhv düşünmüşdür. Bəni-Ümməyyənin hökuməti, dünya həyatından bəhrələnmələri azacıq dadılıb sonra (hələ içilməmiş) hamısı çölə atılan (ağızdakı) su kimidir. (Tezliklə onların zülm və sitəm əli kəsiləcək, başqaları onlara hakim olacaq, dövlətləri məhv olacaq.)

İmam Əli əleyhis-salamın (camaatı dində ixtilafa, batil inanclara, fikirlərə etimadı tənqid etdiyi və peyğəmbərə, İmama itaət etməmələrinə görə qınadığı) xütbələrindəndir. Böyük Allaha həmd və şükrdən, Xatəmül-ənbiyaya salamdan sonra (bilin, dünyanın adəti budur ki): Pak və münəzzəh Allah heç vaxt zəmanənin asilərini möhlət vermədən və xoş güzəran keçirmədən həlak etmədi, heç bir ümmətin (peyğəmbər ümmətinin) sümüyünün əyriliyini (yaşayışlarında) çətinlik və əziyyət olmadan düzəltmədi. (Belə isə siz də zülmkarların zülmünə dözün və Allahın onların zülmkar əlini qısaldacağı günü gözləyin.) Üz tutduğunuz (qarşılaşdığınız) çətinliklərdə, böyük işlərdə və arxada qoyduğunuz (qurtulduğunuz) çətinliklərdə ibrət vardır. (Lakin) hər qəlb sahibi ağıllı deyil (ki, həqiqətləri anlasın), hər qulağı olan (haqqı) eşitməz, hər baxan göz görməz (ki, ruzigarın hadisələrindən ibrət alsın). Dini dəlilləri bir-birinə zidd olan bu müxtəlif firqələrin səhv işlərinə və xətalarına (onlar hər bir işdə öz dəlillərinə əsaslanırlar), heç bir peyğəmbərin yolunu davam etdirməmələrinə, heç bir canişinin əməlinə tabe olmamalarına (əgər tabe olsaydılar, dinlərində ixtilaf olmazdı, ilahi əzabdan xilas olardılar), qeybə (Allaha və Qiyamət gününə) inanmamalarına, pislikdən (haram və şübhəli şeylərdən) çəkinməmələrinə necə heyrətlənməyim?! Şübhələrə (onlar üçün naməlum olanlara öz nadürüst rəylərinə əsasən) əməl edib nəfsi istəklərinə tabe olurlar. Onlar arasında yaxşı və bəyənilmiş özlərinin yaxşı bildikləridir, onların nəzərində pis və bəyənilməyən isə özlərinin pis hesab etdikləridir. Çətinliklərdə sığınacaqları, pənah yerləri özləridir. Örtülü işlərdə (ilahi elmlərdə) öz (nadürüst) rəylərini (hətta ağıla zidd olsa belə,) əsas götürürlər. Sanki onlardan hər biri (dini məsələdə) gördüyü hər bir şeydə (bəyan etdiyi hər bir məsələnin hökmündə) özü özünün qırılmaz iplərdən və möhkəm dəlillərdən yapışmış İmamıdır (onlara istinad edir, öz nadürüst rəyinə əsasən ictihad etdiyi hər bir hökmün ilahi hökm kimi olduğuna inanır).

←87-ci xütbə

Nəhcül-bəlağə. 88-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

89-cu xütbə→

İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbərin besətindən, cahiliyyət dövründən danışdığı və camaata moizə etdiyi) xütbələrindəndir. Allah-təala peyğəmbərlərdən heç birinin qalmadığı, camaatın müxtəlif firqələrinin nadanlıq və azğınlıq zülmətində yuxuya getməsinin uzandığı bir vaxtda Həzrət Peyğəmbəri peyğəmbərliyə seçdi. Fitnələr bütün yer üzünü bürümüş, işlər bir-birinə dəymiş, müharibə alovu şölələndirilmiş, dünyanın nuru, işığı gizlənmişdi. Dünyanın nadürüstlükləri aşkar olmuş, yarpağı saralmışdı və (camaat) onun xeyrindən bəhrələnmirdi. Suyu sovrulmuş, qurumuşdu. Hidayət və qurtuluş nişanələri məhv olmuş, həlakət və bədbəxtlik bayraqları aşkara çıxmışdı. Dünya öz əhlinə pis nəzərlərlə baxaraq onu istəyənlərə üzünü turşutmuşdu. (Hər cür çətinliyə mübtəla olmuşdular və bir an rahatlıqları yox idi.) Səmərəsi fəsad və puçluq, yeməyi isə murdar ət idi. Şüarı qorxu və xof, yolları qılınc yolu idi. İbrət götürün, ey Allah bəndələri! Öz atalarınızın, qardaşlarınızın (indi) girov və giriftarı olduqları (qiyamət günündə) nadürüst inanclarını və çirkin əməllərini yada salın! (Ondan xilas olmaq üçün heç bir çarələri yoxdur.) Öz canıma and olsun ki, sizin zəmanənizdən onların dövranına qədər uzun vaxt ötməmişdir, sizinlə onların arasından illər, əsrlər keçməmişdir. Siz bu gün onların bellərində olduğunuz vaxtdan (o qədər də) uzaqda deyilsiniz. Allaha and olsun! Həzrət Peyğəmbər ata-babalarınıza mənim bu gün sizlərə xatırlatdıqlarımdan başqa bir şey eşitdirmədi. (Buna görə də Allaha, Peyğəmbərə qarşı çıxmaq üçün «bizlərə təbliğ etməyə bir kimsə yox idi» deyə bilməzsiniz.) Bu gün sizin qulaqlarınız dünən onların qulaqlarının olduğundan zəif deyil. O zaman onların gözləri iti deyildi və bu dövrdə sizlərə verilən ürək və gözlər kimi ürəklər verilmişdi. Allaha and olsun! Siz onlardan sonra onların bilmədikləri bir şeyi görüb bilmədiniz, onların məhrum olduğu, bəhrələnmədikləri bir şeyə sahib olmadınız. Və (bu itaətsizlik nəticəsində) bəlaya (Müaviyə və Bəni-Üməyyənin fitnə-fəsadına) ürcah oldunuz. (Bu bəla dikbaş bir dəvə kimidir ki,) cilovu cövlan edən, yüyəni boşdur (belə bir dəvəyə minən təhlükəyə yaxın olar). Günahkarların yığdıqları şey (sərvət və məqam) sizi aldatmasın. (Təsəvvür etməyin ki,

həmişə belə olacaq.) Çünki o, müəyyən bir vaxta qədər düşən kölgə kimidir (həmişəlik qalmayacaq və tezilklə yox olacaq).

←88-ci xütbə

Nəhcül-bəlağə. 89-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

90-cı xütbə→

İmam Əli əleyhis-salamın (Haqq-təalanın bir sıra sifətlərini zikr etdiyi, xalqa axirət səfərinə azuqə toplamağa dair nəsihət verdiyi) xütbələrindəndir. Həmd olsun Allaha ki, gözlə görülmədən (ağılla, nişanələri vasitəsilə) tanınmışdır. (Çünki vücudu mümkün olanı gözlə görmək olar. Heç bir hədlə məhdudlaşmayan vücudu vacib olanı isə görmək olmaz.) Düşüncə və fikir işlətmədən (aləmləri) yaradandır. O, elə bir Allahdır ki, göylər bürclərə, mənzillərə və böyük qapıları olan hicablara (cazibə və itələmə qüvvəsinin köməyi ilə bir-birinə cəzb edilməyən atmosferdəki asılı kürələr) malik olmadığı vaxt O həmişə olmuşdur, vardır və bərqərardır. Qaranlıq gecə, sakit dəniz, enli yolları olan dağ (iki dağ arasındakı böyük dərələr), əyri-üyrülükləri olan (hər tərəfə çıxışı olan) geniş yol, döşənmiş yer üzü, güc-qüdrət sahibi məxluqun olmadığı vaxtda da (O) var idi. Odur misli və oxşarı olmayan məxluqatı yaradan (heçdən və yoxluqdan varlıq yaradan) və ixtira edən, (məhv olduqdan sonra) onların varisi, bərqərar və var olan. Odur məxluqatın mə'budu və onların ruzi verəni. Günəş və ay onun rizası ilə (iradəsinə və hikmətinə uyğun) hərəkət edir və (O) hər bir təzəni köhnəldir, hər uzağı yaxınlaşdırır. (Onların dövr etməsi ilə hər şeyin ömrü sona yetər, məhv və yox olar). Məxluqun ruzisini bölüb, nişanələrini, işlərini və nəfəslərinin sayını, gözlərinin xəyanətini (gizlincə, rəmzlə və ya işarə ilə baxmaqlarını), onların sinəsində gizlənənləri (fikirlərini, düşüncələrini), analarının bətnində yerləşdikləri və zahir olduqları (dünyaya gəldikləri) yeri, onların işlərini (əvvəldən axıra qədər onların bütün cüzi və külli halətlərini) lap sonuna qədər bilir. Odur rəhmətinin genişliyilə yanaşı düşmənlərə əzabı ağır olan və rəhməti dostlarını bürüyən Allah. (Heç bir iş onu başqa bir işdən saxlamır.) Ona qarşı çıxana qəhr edər. Onun əleyhinə olanı həlak edər, Ondan uzaqlaşanı xar edər, Onunla düşmənlik edənə qalib gələr. Ona təvəkkül edən hər kimsəni qane edər (hər kəs öz işini Ona tapşırsa, onun dünya və axirət işlərini yerinə yetirər), Ondan (bir şey) istəyənə əta edər, Ona borc verənə (Onun yolunda öz malından keçənə) Öz borcunu ödəyər. Ona şükr edənləri mükafatlandırar. Ey Allah bəndələri, (Axirətdə əməl tərəzisində) çəkilməmişdən qabaq özünüzü (dünyada ədalət tərəzisində)

çəkin (doğru yola qədəm qoyaraq Allaha və Peyğəmbərə itaət edin). Sizinlə hesab-kitab çürüdülməmiş (çarəsiz qalmamış) özünüzdən hesab sorun (öz çirkin əməllərinizdən peşman olub tövbə edin). Boğazlarınızın yolu daralmamış və tutulmamış (ölüm yetişməmiş) nəfəs alın (nə qədər ki, sağsınız, fürsəti əldən verməyin) və sizi zorla, kobudluqla (axirətə) aparmamış müti olun. Bilin ki, özünə kömək olmayan kimsəyə öz tərəfindən öyüd verən, (günahdan) çəkindirən olmasa (Allah ona kömək etməz, ağlını «Əmmarə» nəfsinə qalib gəlmək üçün gücləndirməz), başqasından ona qadağa qoyan və nəsihətçi çıxmaz.

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ أَلْحَمْدُ لِلّهِ الَّذِي كَلَّتِ الْأَلْسُنُ عَنْ غايَةِ صِفَتِهِ وَ الْعُقُولُ عَنْ كُنْهِ مَعْرِفَتِهِ وَ تَواضَعَتِ الْجَبابِرَةُ لِهَيْبَتِهِ وَ عَنَتِ الْوُجُوهُ لِخَشْيَتِهِ وَ انْقادَ كُلُّ عَظِيمٍ لِعَظَمَتِهِ وَ صَلاتُهُ وَ سَلامُهُ عَلى سَيِّدِنا أَشْرَفِ الْمُرْسَلِينَ وَ خاتِمِ النَّبِيِّنَ مُحَمَّدٍ وَ اٰلِهِ الْأَئِمَّةِ الْهادِينَ شُهَداءِ اللهِ عَلى خَلْقِهِ. اللّٰهُمَّ والِ مَنْ والاهُمْ وَ عادِ مَنْ عاداهُمْ وَ انْصُرْ مَنْ نَصَرَهُمْ وَاخْذُلْ مَنْ خَذَلَهُمْ وَالْعَنْ مَنْ ظَلَمَهُمْ يا سَمِيعَ الدُّعاءِ

«Nəhcül-Bəlağə» müqəddəs İslam dininin və şərafətli Cə'fəri məzhəbinin bütün həqiqətlərini ehtiva edən, bəşəriyyəti əbədi səadət və ağalığa yönəldən bir kitabdır. Bu, hədər yerə deyilmiş söz deyil və iki əsasa (əql və elmə) söykənir. Alimlər və insaf sahibləri onu mütaliə edib dərindən düşündükdən sonra bunu təsdiqləyəcəklər. Bəndəniz bir neçə il bu yolda addımlayaraq şərafətli Seyyid Rəzinin (rizvanullah əleyh) mövla Əmirəl-möminin (əleyhis-salam) sözlərindən toplayıb tərtib etdiyi, düzgün hərəkələnmiş səhih nüsxəsini hamının faydalana biləcəyi tərcümə və şərhlə birgə əziz dindaşlarıma, soydaşlarıma hədiyyə etmək istəmişdir. İndi bu ilahi uğur mənə də qismət olmuşdur. (Lüğətə, şərhlərə, əlyazma və çap nüsxələrinə müraciət etmək, alimlər və fəzilət sahiblərilə müzakirə aparmaqla) kitabı heç bir səhvsiz, heç bir müdaxiləsiz (çünki İmam əleyhis-salamın sözünün müqabilində heç kimin müdaxilə və söz demək haqqı yoxdur) və düzgün hərəkələnmiş şəkildə hazırladım. Bu kitabı Onun razı olduğu bir tərzdə tamamlamaq üçün Allah-təaladan uğur diləyirəm.

يا رَبِّ أَعْطِنِى جَمِيعَ ما سَأَلْتُكَ وَ زِدْنِى مِنْ فَضْلِكَ لا أَرْجُو غَيْرَكَ وَلا أَثِقُ إِلّا بِكَ يا أَرْحَمَ الرّاحِمِينَ

Fani bəndə: Əliyyənnəqi Feyzul-İslam İsfahani Ali-Məhəmməd əd-Dibac.
1366 H.Q.

←89-cu xütbə

Nəhcül-bəlağə. 90-cı xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

91-ci xütbə→

İmam Əli əleyhis-salamın «əl-Əşbah» adı ilə məşhur olan xütbəsidir. Bu, böyük və əzəmətli xütbələrdəndir. (İmam əleyhis-salam bu xütbəni ona görə buyurmuşudur ki,) bir nəfər o böyük şəxsiyyətdən Allahı sanki aşkar görürmüş kimi vəsf etməyi xahiş etmişdir. Həzrət bu xahişdən (böyük Allahı cisimlərə xas sifətlərlə təsvir etməyin mümkünlüyünə xahiş sahibinin inanmasından) qəzəbləndi. Məs'ədə ibn Sədəqə Həzrət İmam Cə'fər Sadiq ibn Məhəmməd əleyhimas-salamdan bunları nəql edir: Əmirəl-möminin əleyhis-salam Kufədə minbərdə bu xütbəni ona görə bəyan etmişdir ki, bir kişi Həzrətə yaxınlaşaraq dedi: «Ya Əmirəl-möminin! Allahımızı bizlərə elə vəsf et ki, Ona olan məhəbbətimiz və elmimiz artsın». İmam əleyhis-salam (belə cahil sualdan) qəzəbləndi və camaatı hamılıqla namaza çağırdı. Camaat o qədər yığışdı ki, məscid doldu. O Həzrət rəngi dəyişmiş və qəzəbli halda minbərə qalxaraq böyük Allaha şükr edib Həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) salam və salavat göndərərək buyurdu: Həmd olsun Allaha ki, əta etməyi kəsməsi və bağışlamaması malını, dövlətini artırmaz, səxavət və bəxşişi sərvətini azaltmaz. Çünki (bəndələritək əta və bəxşişi topladıqlarından verməz, əta etdiyini yaradar. Buna görə də İmam əleyhis-salam buyurur:) Allahdan başqa hər bir bəxşiş edənin malı azalar. Haqq-təaladan başqa bəxşişi kəsən hər kəs pislənilməlidir. Odur böyük nemət, nəsib və bəhrələri (Öz bəndələrinə) ehsan edən. Yaradılmışlar Onun böldüyü payı yeyənlərdir, (Allah) onların rüzisinin zəmanətçisidir. (Varlıqları onun üzərində qurulan) yediklərini nəsib etmiş və müəyyənləşdirmişdir. Ona yol tapmaq (hidayət olmaq) istəyənlərə, Onun dərgahında olanlar üçün çalışanlara (peyğəmbər və vəsilərin əxlaqına, sözlərinə əməl etməklə əldə olunan əbədi cənnət və səadətin) yolunu aydın və işıqlı etmişdir. Ondan istənilən şeydəki əta və bəxşişi, istənilməyən şeydəki ehsanından çox deyil. İlk olan (mövcud olan hər bir şeyin başlanğıcı) Odur. Deməli, Onun üçün bir başlanğıc olmayıb ki, Ondan öncə nəsə olsun. Son olan (fani olan hər şeyin qayıdış yeri) Odur. Deməli, Onun üçün bir qayıdış yoxdur ki, Ondan sonra bir şey olsun. (İnsanların onun vasitəsilə əşyanı gördüyü) gözlərin

bəbəklərinin Ona çatmasına (Onu zahiri gözlə görmələrinə) və Onu dərk etməsinə mane olan Odur. Onun üçün ruzigar dəyişməz (əmrinə zidd rəftar etməz) ki, halında (qüdrət və gücsüzlük, yoxsulluq və varlılıq, sağlamlıq və xəstəlik və bu kimi) dəyişikliklər olsun. Bir yerdə deyil ki, köçmə və (bir yerdən başqa yerə) hərəkət Ona rəva olsun. Dağ mədənlərinin nəfəs çəkə-çəkə çölə çıxartdığı saf gümüşü, xalis qızılı dənizlərin gülə-gülə aşkar etdiyi sədəfləri, (camaatın böyük əziyyətlə əldə etdiyi) yup-yumru dürr və mirvarini, (dəniz bitkisi olan) mərcan salxımlarını (xülasə, yerdə və dənizdə olan xəzinə və mədənlərin hamısını bir nəfərə bəxş etsə) bağışlasa, Onun bəxşiş və səxavətinə təsir etməz, Onun nemətlərini tükəndirməz. Camaatın istəklərinin tükəndirə bilmədiyi (bəşəriyyətin xəbərsiz olduğu) sonsuz gizli nemətlər Ondadır. Çünki O, elə bir səxavət sahibidir ki, istəyənlərin istəkləri Onun bəxşişini azaltmaz, israrlarla istəyənlərin diləkləri Onda xəsislik yaratmaz (çünki paxıllıq və nöqsan mümkünə xasdır, vacibə aid deyil). Ey sual verən, (düşüncə əsasında Allahı vəsf etmək istəsən) nəzər sal və Qur'anın sənə göstərdiyi (öyrətdiyi) yolla Onun sifətlərindən hər birinin ardınca get. (Allah-təalanı həmin sifətlə vəsf et). Qur'anın hidayət nuru ilə aydınlığa (səadətə, qurtuluşa) çıx. Şeytanın səni öyrənməyə vadar etdiyi və kitabda (Qur'ani-Kərimdə) onu bilmək sənə vacib qılınmadığı, Həzrət Peyğəmbər və doğru yol göstərən İmamların sünnəsində izi-tozu olmayan (bəyan edilməyən) sifətlər barədə elm və biliyi Allahın öhdəsinə burax. (Onu öyrənməyə, ona inanmağa çalışma.) Bu, Allah-təalanın sənin öhdənə qoyduğu haqqın son həddidir (ki, Onu Qur'ani-Kərimdə, Həzrət Peyğəmbərin, doğru yol göstərən İmamın hədislərində bəyan edilmiş adlar və sifətlərlə çağırasan, vəsf edəsən). Bunu bil ki, elm və bilikdə qüvvətli və möhkəm olanlar (pak İmamlar əleyhimus-salam) o kəslərdir ki, örtülü, pərdəli olan və təfsirlərin bilmədikləri barəsində etirafları onları örtülü şeylərin qarşısında asılmış qapılara girməkdən ehtiyacsız etmişdir. Allah-təala da onların elm və biliklərinin əhatə etmədiyi şeylərə çatmaqda acizilk və gücsüzlüklərini etiraf etmələrini mədh etmiş və onların həqiqət və zatı barədə danışıb, bəhs etməyi əmr etmədiyi bir şey haqda düşünməmələrini dönməzlik və mətanətlilik adlandırır. Belə isə sən də Qur'anın göstərdiyi yolla kifayətlən (qavrayışına uyğun gəlməyən, bilməli olmadığın şeylər haqqında düşünmə). Pak və nöqsansız Allahın əzəmətini və böyüklüyünü öz ağlınla ölçmə ki, həlak və puç olarsan. (Çünki) O, elə güclüdür ki, əgər bütün xəyallar Onun qüdrət və gücünün sonunu tapmaq üçün can atsalar, şeytani vəsvəsələrə bulaşmamış

düşüncə və fikirlər qeyb və görünməyən aləmlərdə padşahlığının son həddinin böyüklüyünə varmaq istəsələr, ürəklər sifətinin keyfiyyətini, necəliyini tapmaq üçün Ona heyran və vurğun olsalar, ağıllar sifətlərinin həqiqəti aşkar olmadığına görə zatının əslini başa düşmək üçün çox maraqlansalar, (ağıllı insanlar düşüncələrini işlətsələr) Allah-təala, (gücü və qüdrəti) həlakət yolunu, qeyb aləmlərinin qaranlıqlarını keçərək (hər yerdən əli üzülərək) ixlasla Ona üz tutmuş olsalar belə, onların ağıl və düşüncələrini geri döndərər. (Bu təhlükəli yolları keçib bir yerə çatmadıqda və Onun zatının, sifətinin həqiqətini dərk etmələri) qadağan edilib geri qayıtdıqları vaxt bu yola düşməyin səhv olduğunu, Onu tanımağın dərinliklərini dərk edilmədiyini, Onun izzət və böyüklüyünü ölçməyin ağıl, düşüncə sahiblərinin ürəklərindən belə keçmədiyini (Onu tam dərk etməkdən söhbət belə gedə bilməz) etiraf edərlər. Odur oxşarı yaradılmamış, surət və örnəkdən iqtibas etmədən, özündən əvvəlki xaliq və mə'buddan nümunə götürməyə ölçü və əndazə olmadığı halda məxluqatı xəlq edən. Öz padşahlığının güc və qüdrəti, Onun hikmətinin nümunə və nişanələrinin (dilə gələrək) dediyi qəribəliklər, mövcudatın (başqasına) olan ehtiyacları, öz qüdrəti ilə onları ayaq üstə saxlamalarını etiraf etmələri kimi zəruri sübut və qəti dəlilləri bizə göstərdi və bizi Onu tanımağa yönəltdi. Onun sənətinin nümunələri və hikmətinin nişanələri yaratdığı bütün şeylərdə aşkardır. Beləliklə, yaratdığı hər bir şey (cansız şeylər və bitkilər kimi) dilsiz olsa belə (zahirdə bir şey deməsələr də), Onun varlığına dəlil və sübutdur. (Bu mövcudatın) nəzmi, nizamı Onun xaliqliyinin bariz sübutu, Onun yaratmasına möhkəm (ağıla əsaslanan) dəlildir. (İndi Onun bütün məxluqatın yaradıcısı olan yeganə və misilsiz Allah olması aydınlaşdığı vaxt, Onun paklığı və müqəddəsliyi barədə buyurur:) Şəhadət verirəm ki, Səni öz yaratdığın müxtəlif üzv, bir-birinə birləşmiş, Sənin hikmətinin uzaqgörənliyi, nizamı ilə (dərinin və ətin altında) gizlənən kiçik oynaqları olan məxluqata bənzədən əslində həqiqətən də Səni tanımamış, Sənin bənzərin, oxşarın olmadığına yəqinlik əldə edə bilməmişdir. (Cism təsəvvür etmişdir. Cismin isə yeni yaranış, yox olma və imkan tələbatı vardır.) Sanki bütpərəstlərin (qiyamət günündə) ibadət etmiş olduqları bütlərə nifrət edərək تَاللهِ إِن كُنّا لَفِى ضَلالٍ مُبينٍ إِذْ نُسَوّيكُمْ بِرَبِّ الْعالَمِينَ «Allaha and olsun ki, sizi aləmlərin Rəbbinə bərabər tutduğumuz zaman biz haqq yoldan açıq-aydın azmışdıq» deyəcəklərini eşitməmişdir. (Qur'ani-Kərimin Şuəra surəsinin 97-98-ci ayələri.) Yalan söylərlər Səni bütlərinə bənzədib öz əbəs düşüncələrinə görə yaradılmışlar

kimi qələmə verərək və fikirlərində Səni hissələri olan cism kimi güman edərək öz naqis ağılları ilə Sənin üçün müxtəlif məxluqlar kimi miqdar, ölçü olduğuna inanaraq Səni (məxluqlarla) bərabərləşdirənlər. Şəhadət verirəm ki, Səni yaratdığın bir şeylə bərabər bilən Səndən üz döndərmişdir. Səndən üz döndərən isə Sənin tərəfindən nazil edilmiş, açıq-aydın ayələrə, bütün bunları (Sənə bənzər və oxşar bilənlərin küfrünü) bəyan edən Sənin aşkar dəlil və sübutlarının (əqli əsaslandırmaların) hökmünə (qarşı) kafirdir. Şəhadət verirəm: Sən elə bir Allahsan ki, Sənin üçün ağıllarda son və nəhayət yoxdur. Buna görə də düşüncələrin mənşəyində keyfiyyət və necəliyə malik deyilsən, ağıllarda düşüncələrdə bir hədlə hüdudlanmazsan və yerdən yerə dəyişməklə vəsf edilməzsən. (Çünki məhdudiyyət və dəyişiklik mümkünül-vücudun tələbatlarındandır.)

Bu da həmin xütbənin (əşyanın xilqəti və pak Allahın yaradılmışların sifətlərindən uzaq olmasının bəyan edildiyi) bir hissəsidir

Böyük Allah yaratdığının varlıq və mövcudluğunu müəyyən etmiş və onu gücləndirərək möhkəmləndirmişdir. (Belə ki, azalıb çoxalmayacaqdır.) Lütfkarlığına (hikmət və məsləhətinə) görə onu nizamlamış, hər birini, yaradıldıqları iş üçün ayırmışdır (günəşin nur saçması, buludun yağması və arının bal toplaması kimi). Deməli, (yaradılmışlardan heç biri) onlar üçün təyin olunmuş hədləri aşmadı və məqsədə çatmaqda səhlənkarlıq etmədi (öz vəzifələrinə uyğun əməl etdilər). Vəzifə tapşırıldığı vaxt Onun iradə və istəyini yerinə yetirmək üçün vəzifəni çətin sanmadı (itaətsizlik etmədilər). Necə itaətsizlik edə bilər ki, bütün əşyalar Onun iradə və istəyindən yaranmışdır. (Deməli, o, Allahın təkvini əmrinə itaət edərək təvazökarlıq boyunbağısını boynundan asmışdır.) Odur düşüncə işlətmədən, əvvəlcə təsəvvür etmədən yaradan, ruzigarda baş verən hadisələrin sınaq və təcrübəsindən istifadə etmədən, heyranedici məxluqları yaratmaqda köməklik və yoldaşlıq edəcək şəriki, bənzəri olmadan müxtəlif növ məxluqatı xəlq edən Allah. Fərmanına uyğun olaraq xəlq etməsi və yaratması başa çatdı. (Onun iradə və istəyi əsasında məxluqlar yarandı.) Ona itaətlə boyun əyib dəvətini qəbul etdilər. Elə bir məxluq yox idi ki, əmrində lənglik və süstlük etsin, əmrini yerinə yetirməyi təxirə salsın. Əşyanın əyriliklərini düzəltdi, (onları hikmət əsasında yaratdı) hədlərini aydın və aşkar şəkildə müəyyən

etdi (layiq olduqları şeylə onları bəhrələndirdi). Güc və qüdrəti ilə onların bir-birinə zidd olan xüsusiyyətlərini, müxtəlif təzadlarını (istilikdən tündməcazlıq, soyuqdan soyuqqanlılıq, rutubətdən istiqanlılıq, quraqlıqdan məyusluq kimi ünsürləri bir məzacda) uyğunlaşdırıb yığdı. Onları ayrılmamaları üçün bir-birinə birləşdirdi. (Biri digərindən üstün olan) müxtəlif hədd və ölçülərdə, sifət və xasiyyətlərdə yerləşdirdi. Xilqətlərini möhkəmləndirib öz iradə və istəyinə uyğun yaratdığı (məxluqlar) heyrətamiz məxluqlardır.

Bu xütbənin bir hissəsi səmanın vəsfi haqqındadır

(Allah-təalanın əşyanın yaradılmasındakı güc və qüdrətinin vəsfinin ardınca Həzrət Əli əleyhis-salam ecazkar məxluq sayılan və Onun gücünə, qüdrətinə dəlalət edən səmanın necə yaradıldığını bəyan etmişdir:) Səmanın geniş yollarını (bir şeydən) asılmadan nizamlayıb bərqərar etdi, böyük parçalarını bir-birinə birləşdirdi, onunla oxşarları arasında bağlılıq yaratdı. Onun fərmanı ilə yerə enənlər (rəhmət daşıyan mələklər) və bəndələrinin əməllərini, rəftarını qeydə alan (yazan) göylərə yüksələnlər üçün (gediş-gəliş yolunu) çətinliyini asanlaşdırdı. Səma tüstü və buxar olduğundan, bir-birindən arası çox olan hissələrin birləşərək toplanmalarını əmr etdi. Onun bağlanmış qapılarını yığıldıqdan sonra açdı. Parlaq ulduzlardan onun yollarına gözətçi qoydu (ki, şeytanların ora gəlməsinin qarşısını alıb mələklərin sözlərini eşitməyə qoymasın. Sonrakı cümlələrdə İmam əleyhis-salam buna toxunur) Öz güc və qüdrəti ilə onu havanın qatlarında (açılmış səmada) titrəməkdən və dağılmaqdan qorudu. Öz yerində dayanıb Onun buyruq və iradəsinə tabe olmağını əmr etdi. Onun hər şeyi göstərən (işıqlıq verən) günəşini günün əlaməti, nuru məhv olmuş ayı isə gecənin nişanəsi etdi. (Ayın işığının məhv olması onun işığının bəzi gecələrdə qismən, bəzən də tamamilə gizlənməsinə işarədir). Sonra onları getməli olduqları yolda hərəkətə gətirdi və getməli olduqları mənzil və yollarda hərəkətlərini müəyyən etdi ki, onların hərəkətlərinə görə gecənin gündüzdən üstünlüyü olsun, illərin sayı və işlərin hesabı onların hərəkətinin əsasında bilinsin. Göyün fəzasında fələyi (ulduzların orbiti olan fırlanan kürə və cismi) asılı vəziyyətdə saxladı. Ağ dürr kimi (bizə nisbətən uzaqlığına görə) gizlin olan ulduzları və (bizlərə yaxın olmaları səbəbindən) qəndil kimi işıqlı olan ulduzları onun zinətinə, bəzəyinə çevirdi. Onun (səmanın) (ox kimi) deşən

parlaq ulduzlarını oğurluq yolla qulaqlarını dikmiş şeytanlara tərəf atdı. Hərəkətsiz ulduzları, həmişə hərəkətdə olanları, enib-yüksələnləri (batıb-doğmalarını), uğurunu və uğursuzluğunu (müvafiq olanları və müvafiq olmayanlarını Öz iradəsi və əmri ilə) ram və bərqərar etdi.

Bu xütbənin bir hissəsi mələklərin vəsfi barəsindədir Pak Allah Özünün səmavi hakimiyyətindən biri olan göyləri yaratdıqdan sonra oraları məskunlaşdırmaq və onun üst qatını abadlaşdırmaq üçün misilsiz və heyrətamiz məxluq olan bir dəstə mələk yaratdı. Onlara göylərlə fəzanın genişliyi arasındakı enli yollarda yer verdi. O enli yolların arasında pak və təmiz yerlərdə əzəmət və böyüklük pərdələrinin arxasında (onları ibadət və itaəti üçün hazırlanmış yerlərdə) onların təsbih edənlərinin avazı ucalır. Qulaqları kar edən o iztirablı və narahat səslərin arxasında onların, gözlərinin görməyə taqəti olmadığı nur və işıq parıltıları var. Deməli, öz yerlərində heyran və sərgərdan dayanırlar. Allah-təala onları cürbəcür surət və şəkildə, qanadlı yaratdı ki, zikr edə-edə Onun böyüklüyünü və ucalığına həmd etsinlər. Yaradılmışlarda Pərvərdigarın yaratmağının aşkar və aydın olanlarını (nişanələrini) özlərinə çıxmırlar (insan kimi Allahlıq iddiasında bulunmurlar). Xaliqi və yaradıcısı yalnız Allah olan bir şeyi yaratdıqlarını iddia etmirlər. (Bütləri Allaha şərik çıxan bütpərəstlərdən fərqli olaraq özlərini Allaha şərik bilməzlər.) Onlar sözlərində Allahdan önə keçməyən, Onun əmrinə, fərmanına uyğun hərəkət edən sevimli bəndələrdir. Onları (bəzilərini) Öz vəhyinin yerlərdə qoruyucusu qoyub Öz qadağa və əmrlərinin əmanətlərini peyğəmbərlərə çatdırmaq üçün təyin etdi. Mələklərin hamısını şəkk-şübhədən (şeytanın vəsvəsəsindən) mə'sum saxladı. Onların arasında Allahın razı olduğu yoldan dönən yoxdur. Onlara kömək edərək ibadətlərinə imkan yaratdı. Sakitlik və vüqar tələb edən təvazökarlığı qəlblərinin şüarına çevirdi. (Şeytan və nəfsi-əmmarə qarşısını ala bilmədiyi) asan olan öz şükr və həmd qapılarını onlar üçün açdı. Özünün təkliyinə, tovhidə dəlalət edən aşkar əlamətləri (qəti dəlilləri) onlar üçün qaldırdı. Günahların yükü onların çiyinlərini əymədi. (Günah etmirlər, çünki şəhvətlərə və nəfsi-əmmarəyə malik deyildirlər). Bir-birinin ardınca keçən gecə-gündüzlər onları dəyişmədi (buna görə də insan kimi zəifləyib qocalmır, sınmırlar). İmanlarını heç bir şəkk və şübhə sarsıtmadı. (Allahın birliyinə olan) möhkəm və güclü inamlarına, etiqadlarına heç bir zənn və güman yol tapmadı (ki, zənn və yəqinlik bir-biri ilə döyüşərək imanlarında süstlük yarada bilsin). Onlar

arasında (bir-biri ilə məqam üstünlüyünə görə) kin və düşmənçilik məşəli alovlandırılmadı. (Heç biri digərinə paxıllıq etmədiyinə görə aralarında düşmənçilik yaranmır.) Heyrət və sərgərdanlıq onlara aid olmadığına görə ürəklərində yer verdikləri Allahı tanımanı (heç kəs) onlardan oğurlaya bilməz. (Çünki heyranlıq və sərgərdanlığın mənşəyi ağılla xəyalın mübarizəsidir. Xəyal isə onlara yol tapa bilməz.) Allah-təalanın əzəməti və böyüklüyü sinələrinin ortasında yer tapıb (Allahdan başqa heç kəs ürəklərinə yol tapmayıb). (Şeytani) vəsvəsələr onlara tamah salmadığına görə düşüncələrinə hakim kəsilməyib (və qəlblərini çirkləndirməyib, onları Allahı yada salmaqdan çəkindirməyib). Mələklərin bir dəstəsi yağış dolu buludların arasında, böyük və uca dağlarda, yolların itirildiyi zülmətin qaranlığında yerləşiblər. Mələklərin bəzilərinin ayaqları torpağı deşib yerin ən son nöqtələrinə gedib çıxıb. Ayaqları hava və boş yerin arasındakı ağ bayrağa bənzəyir. Ayaqlarının altında onları çatdıqları və yerləşdikləri yerdə saxlayan xoşətirli külək vardır. Allaha ibadət və itatət onları hər şeydən saxlayıb və imanın həqiqətləri onlarla Allahı tanıma arasında vasitəçi olmuşdur. (Əqidələrinin gözəlliyi Allahı tanıyıb ibadət etmələrinə səbəb olmuşdur.) Allaha yəqinlkləri və inamları onları başqasına diqqət etməkdən daşındırmış, Allaha şövq və sevgilərinin çoxluğundan bütün diqqətləri Ona yönəlmişdir. İstədiklərini Ondan istəyirlər və başqa birisindən təvəqqeləri yoxdur. Allahı tanımağın şirinliyini dadmışlar və Ona məhəbbət, sevgi ilə dolu olan doydurucu camdan içmişlər. (Allah-təalanın qüdrət və əzəmətini bildiklərinə görə) Onun (əzabının) xof və qorxusu ürəklərinin xallarına qədər kök atıb yer tutmuşdur. İbadət və itaətin çoxluğundan belləri bükülmüş, Ona rəğbət və meylin çoxluğu onların ahu-zarını sona yetirməmişdir. (Daima ibadətlə məşğuldurlar.) Məqam və rütbələrinin yüksəkliyi təvazökarlıq kəndirini boyunlarından açmamışdır (böyük məqamlarına rəğmən çox təvazökardırlar). Xudpəsəndlik və özündən razılıq onlara yol tapmayıb ki, öz ibadətlərini çox hesab etsinlər. Onların Haqqın cəlalı və böyüklüyü müqabilində ahu-zarları və təvazökarlıqları özlərinin gözəl əməllərini böyük saymalarına (ona əhəmiyyət vermələrinə) səbəb olmamışdır. İşdə (ibadət və bəndəlikdə) göstərdikləri səylərin çoxluğunun süstlüyü onlara hakim kəsilməmişdir. Onların Allahlarına olan rəğbətləri azalmır ki, Ona olan ümidlərə göz yumsunlar (və başqasına ürək bağlamırlar). Münacat və (Allah-təala ilə) razü-niyazlarının uzunluğu dillərinin ətrafını qurutmur, işlər onları məşğul etmir ki, pünhan səslər və Haqla olan razü-niyazları kəsilsin.

İbadət və itaət üçün dayandıqları yerlərdə çiyinləri bir-birindən ayrılmır (hamılıqla çiyin-çiyinə ibadət sıralarına düzülüb Allaha ibadətlə məşğul olur və öz yerlərindən dönmürlər). (İbadətin əziyyətindən və itaətin çoxluğundan) rahatlıq və dinclik istəmirlər ki, Allah-təalanın əmr və fərmanından boyun qaçıraraq təqsirkar olsunlar. (Çünki əziyyət və rahatlıq heyvani məzacın tələbatlarındandır və mələklər belə sifətlərdən azaddır.) Onların (ibadətdə) qərar və səylərinə anlaşılmazlıq və unutqanlıq qalib gəlməz və məkr və yalan, oxlu şəhvətlər, nəfsi istəklər onların (itaətdəki) səy və zəhmətlərini yox edə bilməz. (Çünki mələklərin şəhvət qüvvəsi yoxdur ki, ona aldanaraq ibadətdən əl çəksinlər.) Ərş sahibini (Allah-təalanı) ehtiyac günü üçün ehtiyat saxlayırlar. Yaratdıqları ondan üz döndərib məxluqata üz tutduqları vaxt belə onların meyl və rəğbətləri Onadır. Ona ibadətin ən yüksək, son həddinə çatmırlar. Mələklərin Allaha ibadət və itaətlə məşğul olmaq şövqü və sevgisi onların qəlblərində olan məhəbbətdəndir. Bu məhəbbət onlardan heç vaxt ayrılmayan Onun rəhmətinə ümiddən və əzabının qorxusundan ibarətdir (həmişə xof və ümid içində olar və bir an belə ibadətdən ayrılmazlar). Onların nəzərində əzab xofunun və qorxusunun səbəbləri aradan getməyib ki, öz xidmət və səylərindən əl çəksinlər və süstləşib tənbəlləşsinlər. (Dünyəvi) tamahlar onları əsir-yesir etməyib ki, (dünyadakı) səy və zəhmətlərin çoxluğunu (əbədi axirət səadətini qazanmaq üçün olan) ciddi-cəhddən üstün tutsunlar. Öz etdikləri əməlləri və yerinə yetirdikləri ibadətləri böyük sanmadılar (ki, bu səbəbdən məğrurlaşaraq öz əməllərinin mükafatına ümid etsinlər). Əgər böyük sansaydılar, (ibadətələrinin mükafatına olan) ümidləri cürbəcür qorxu və xofu onlardan götürərdi. (Ancaq onlar həmişə qorxu və xof içindədirlər.) Şeytanın hakimiyyəti cəhətdən onların Allahları barədə ixtilafları olmamışdır. (Şeytan onları ələ keçirməyib ki, Allah-təala barədə bir-birinin ziddinə söz söyləsinlər.) Ayrılıqları və bir-birinə düşmənçiliyin pisliyi onları ayırmamışdır. Bir-birinə paxıllıq və kin onlara yaxın düşməmişdir. Cürbəcür şəkk və şübhələr onları dəstə-dəstə etməmiş, əzm və iradələr, qərarlar onları bir neçə yerə bölməmişdir. (Böyük əzm və iradələri Allaha ibadət və itaətə sərf olunur.) Mələklər imanın əsir-yesiridirlər. (Belə ki, ondan əl çəkib ilahi əmr və fərmanın ziddinə rəftar etmələri qeyri-mümkündür.) Meyl, (haqdan) dönmə, (ibadətdə) süstlük və tənbəllik onları imandan ayrı salmamışdır. Göy qatlarında bir qabıq yeri (qədər belə yer) yoxdur ki, orada səcdə edən bir mələk və ya tələsik (Allahın əmrini yerinə yetirməyə) çalışan, səy göstərən

mələk olmasın. Allahlarına ibadətin və itaətin çoxluğu nəticəsində elmlərini və yəqinliklərini artırırlar. Allahlarının izzəti və qüdrəti qəlblərindəki əzəmət və böyüklüyü çoxaldır.

Bu xütbənin bir hissəsində yerin yaradılması və su üzərinə sərilməsi bəyan edilir

Böyük Allah yeri (yerin çoxunu) erkək heyvanın öz dişisinə hücum edərkən həyəcanlandığı kimi çalxalanan (su) dalğaların arasında erkək heyvanların şəhvani həyəcan və məst vaxtı ağzı köpükləndiyi tək biri digərini itələyən əzəmətli dalğaları tələtümdə olan su ilə dolu dənizlərdə batırdı. Sonra tələtümlü su ona sərilən yerin ağırlığı altında həyəcan və dikbaşlıqdan əl çəkdi və təvazökarlıq yolunu seçdi. Yer onun içinə bataraq sərildikdə dalğanın həyacanı və enib-qalxması sakitləşdi. Öz çiyinləri ilə (ətrafları ilə) suyun üzərində çevrildikdə (yerləşdikdə) su (dalğaları) zəlil oldu və sındı (sakitləşdi). Dalğaları səs-küy və qovğadan sonra sakitləşərək məğlub oldu və boynunu cilovun dəmir halqalarına qoyaraq itaətcil oldu. (Qısası, torpağın suda yerləşməsindən sonra onun çalxalanması dayandı və dalğaları sakitləşdi.) Yer çox dalğalı suyun arasında yerləşib onu təkəbbür, boyun əyməmək və böyüklükdən (öz dalğalarının coşub daşması nəticəsində səs-küy salmaqdan) saxladı. Sürətlə axmasına (altına-üstünə çevrilməsinə) mane oldu. Su yüngülləşmə və enişlərdən sonra öz yerinə oturdu. Boyun əyməmək və sıçrayışdan (bir-birinin üstünə çevrilməkdən) sonra yerin ətrafını bürüdü. Onun həyəcanı yerin aşağı nahiyələrində sakitləşdikdə Allah-təala böyük və uca dağları onun çiyinlərində (kənarlarında) yerləşdirdi. Yerin yuxarılarından su çeşmələrinin yolunu açdı və geniş çöllərə, onun ətrafına, yan-yörəsinə yaydı. Yerin hərəkətini bərk, böyük və hündür daş parçasından olan hərəkətsiz dağlara görə sabit etdi. Yer də dağların onun səthinin kənarlarına batması, dərinliklərinə sancılması, onun çökəklik və hündürlüklərində yerləşməsi nəticəsində hərəkətdən və silkələnmədən aramlıq tapdı. Allah-təala göylə yerin arasını geniş açaraq havanı onun sakinlərinin nəfəs alması üçün hazırladı. Yer əhlini (onun üzərində yaşamaq üçün) bütün ehtiyaclarını ödəyən şeylərlə birgə yaratdı. Sonra hündür olduğuna görə su çeşmələrinin enib çatmadığı və kiçik çayların yüksəkliklərinə yol tapmadığı bitkisiz torpaqları öz ixtiyarına buraxmadı.

Onun ölmüşlərini diriltmək üçün havada yaranan buludu xəlq etdi ki, (yerə su versin) onun bitkilərini cücərtsin. Yer üzərinə yağmaq üçün hazır və bir-birindən aralı, dağınıq olan parlaq bulud parçalarını birləşdirdi. Beləliklə, çox sulu ağ buludlar təlatümə gələrək yağmağa hazır oldu. Dirildilmiş dairəvi buludların ətrafında Onun işığı parıldadı, işığı böyük ağ bulud parçaları ilə üst-üstə düşüb qurtarmamış dalbadal yağan buludları göndərdi. Ağırlığı səbəbindən aşağı enməyə meylli olan yağış yerə yaxınlaşdı və cənub küləyi buludu ardı-arası kəsilmədən hərəkət etdirərək yağışını çıxardı (heyvanların döşündən süd sağan kimi sağdı). Sonra bulud (ağır yüklü dəvə sinəsi üstə yerə çökən kimi) öz sinəsini və ətraflarını yerə söykədi (yağış yağdı). Özündə olan çoxlu suyu aşağı axıtdı. Allah-təala quru çöllərə otlar, boş dağlarda isə təzə-tər ələflər bitirdi. Beləliklə, yer üzü zinət verilmiş çəmənlikləri ilə şadlanar (gözəl görünər), üzərində bitib və onu bəzəyən parlaq və təzə-tər tumurcuq və güllərlə fəxr edib öyünər (yam-yaşıl olar). Allah-təala həmin bitkiləri insanların azuqəsinə və heyvanların ruzisinə çevirdi, (istədikləri hər bir yerə gedib gəlmələri üçün) yerin ətrafında geniş yollar açdı. Yolların arasında gedib-gələnlər üçün (ulduzlar və dağlar kimi) əlamətlər, nişanələr qoydu (ki, ətraf aləmə yol tapa bilsinlər). Allah-təala yeri açdıqdan sonra insanı yaratmaqla öz əmrini yerinə yetirdi. Adəm əleyhis-salamı seçdi və onu bütün digər məxluqlarından üstün, fəzilətli etdi. Onu özünün ilk məxluqu edərək cənnətdə məskunlaşdırdı. Orada ruzisini bol etdi. Yeməyi qadağan olan şeyi ona tapşırdı, bu işi görməyinin günah və itaətsizlik olduğunu, məqamına təhlükə, ziyan vura biləcəyini ona öyrətdi. Sonra Allahın əvvəlcədən onun barəsində olan elminə uyğun olmaq üçün Adəm Allah-təalanın qadağan etdiyi işi gördü. Tövbə etdikdən sonra Allah yer üzünü onun nəsli ilə abadlaşdırmaq, onu (onunla olan və ya sonradan dünyaya gələcək) bəndələrinə höccət (dəlil-sübut) və (başlanğıca və məada) yolgöstərən etmək üçün Adəm əleyhis-salamı yerə endirdi. Onun ruhunu aldıqdan sonra insanları sübut və dəlillə möhkəmlənən Allahı tanımaq məsələsində öz başlarına buraxmadı. Biri-birinin ardınca Onun əmrlərini çatdıran peyğəmbərlərinin, seçilmişlərinin dilindən göndərdiyi dəlil və sübutlarla onlardan əhd-peyman aldı. (Onları doğru yola yönəltdi.) Bu minvalla peyğəmbərimiz Məhəmməd (səlləllahu əleyhi və alih) vasitəsilə hüccətini tamama yetirdi və üzrxahlıq yeri qoymadı. Bununla qorxutmalarına da son verdi. Ruziləri təyin etdi (ölçüsünü müəyyənləşdirdi), onu azaldıb çoxaltdı və (bəndələri arasında) azlıq və bolluqla böldü. Bu bölgüdə

ədalətlə rəftar etdi (hər kəsə Öz hikmətinə və məsləhətinə uyğun, onun bacarığı müqabilində bağışladı) ki, ruzi qazanmağın asanlıq və çətinlikləri ilə istədiyi hər kimsəni sınağa çəksin, bununla da varlıların şükrünü və yoxsullarının səbrini yoxlasın. (Görsün ki, varlılar şükr, yoxsullar səbr edirmi?) Sonra ruzilərin bolluğunu yoxsulluq və pərişanlığın çətinliklərilə yanaşı qoydu. İnsanların sağlamlıqlarını qəfil xəstəliklərlə bağladı və böyük şadlıqları boğaz qurudan qüssə, kədərlərə çevirdi, (varlını kasıb, sağlamı xəstə və şadı qəmgin etdi). Ömürləri müəyyən edib bəzilərinə uzun, bəzilərinə isə qısa ömür verdi. Bəzilərini qabağa, bir dəstəsini təxirə saldı və ölümün (batmaq, yanmaq, xəstəlik, öldürülmək və bu kimi) səbəblərini yaratdı. Ölümü (quyudan vedrə çəkən kimi) ömürlərin uzun kəndirlərini kəsənə və onların düyünlənmiş qısa iplərini qırana çevirdi (ki, ömürlərinin uzunluğuna ümidvar olan qüvvətli insanlar bilsinlər ki, ölüm güclü və zəif tanımır). (İmam əleyhis-salam bu fəsildə dərin mənalı bəlağət və fəsahətin ən yüksək həddi olan sözlərlə Haqq-təalanın bütün növ məxluqlarından söz açaraq eşidənləri Allahın işlərinin xırdalıqlarını belə bilməsindən agah edir və buyurur:) Allah-təala öz sirlərini gizlədənlərdən, bir-birilə yavaşdan danışanların gizli söhbətindən, zənn və gümanlarla ürəklərdə olan fikirlərdən, əminliklə çıxarılan qərarlardan, gözucu oğruncasına və yavaşca (başqası hiss etmədən) baxılan baxışlardan, ürəklərdə gizlənəndən (heç kəsin agah olmadığından), hicab və pərdələrlə örtülmüş (heç bir kəsə aşkar olmayan), görünməz şeylərdən qulaq dəliklərinin oğruncasına və yavaşdan eşitdiklərindən, yayda kiçik qarışqaların, qışda isə həşəratların və gəmiricilərin özünə yer tapdığı deşiklərdən xəbərdardır. Övladları ilə aralarına ayrılıq düşən qadınların ah-nalə səsləri və hönkürtülərindən, (addımlayanların) addımlarının ahəstə səsindən, meyvələrin ağacların damar və köklərinin qılaflarındakı yetişmə yerindən, dağların mağara və dərələrində heyvanların gizləndiyi yerlərdən, ağcaqanadların ağacların gövdə və qabıqlarında gizləndiyi yerlərdən, yarpaqların budaqlara (ağac budaqlarına) bitişdiyi yerdən də agahdır. Bellərdən çıxıb qanla qarışmış nütfələrin yerləşdiyi bətnləri, havada qabarmış buludları və onların birləşdiyi yeri, buludların üst-üstə yığıldığı yerdə yağış dənələrinin yağmasını, burulğanların yer üzünü örtdüyünü (toz-torpaq və çör-çöpü), yağışlardan törəmiş sellərin məhv etdiklərini (bina, imarət və bu qəbildən tikililəri), həşəratın qumsallıqlarda hərəkətini və batmasını, quşların uca dağların başındakı yuvalarını və xoşsəsli quşların qaranlıq yuvalarında

nəğmə oxumalarını da bilir. Dənizdəki dalğaların yetişdirdiyi sədəflərin arasında olanlardan (ləl və mərcandan), gecə qaranlığının örtdüklərindən, yaxud günəşin üzərinə saçdıqlarından, ardı-arası kəsilmədən qaranlığın pərdələrindən və işıq üzərinə parıltıları düşənlərdən, hər addımın nişanəsindən və hər hərəkətin asta səsindən, hər sözün sədasından və hər dodağın tərpənməsindən xəbərdardır. Hər canlının yerini, hər zərrənin çəkisini, əzm və iradəsi olan hər nəfəsin səsini və hay-huyunu, meyvə ağaclarını və ya ağacdan düşən yarpaqları, yaxud bətnin və nütfənin yerləşdiyi və ya qanın toplaşıb bağlanaraq ət tikəsi kimi olduğu yeri və ya məxluqun surətinin yaranaraq doğulması kimi yer üzərində olan hər şeyi bilir. Bu elm və biliyin Ona (insanda olduğu kimi) məşəqqət və əziyyəti olmadı, yaratdıqlarını qoruyub-saxlamaqda heç bir maneə ilə üzləşmədi. Məxluqların işlərini idarə etməkdə yorulmadı, süstləşmədi, əksinə, Onun elmi bütün yaradılanları əhatə edir. Ədaləti onları bürüyüb, fəzl və kərəmini onların halına şamil edib. Onun məqamına layiq olan (Allahı tanıma, ibadət, nemətə şükr etmə və təşəkkürü) dərk etməyənlərin təqsirlərindən keçdi. (İmam əleyhis-salam Allaha həmd və şükr etmək, yaratdıqlarını vəsf etmək, əzəmətini və böyüklüyünü, kamal və cəlal sifətlərini bəyan etməklə başa saldı ki, Onu zahiri gözlə deyil, ürəyin gözü ilə görmək olar. O, Allaha münacat və razü-niyaz etmək niyyətilə ərz etdi:) Allahım, Sənsən gözəl vəsflərə və sonsuz nemətləri sayılmağa layiq olan. Əgər Səni (lütf və kərəmini) arzulayırıqsa, Sən arzuladığımızdan daha yaxşı və daha üstünsən. Əgər Sənə (rəhmət və əfvinə) ümid ediriksə, Sən ümidlərimizdən daha əziz və daha böyüksən. İlahi, Sən elə bir şeydə (bəlağətli və aydın nitqdə) mənə qüdrət vermisən ki, onunla Səndən qeyrisini mədh edib Səndən başqa heç kəsə həmd-səna demərəm. Onunla bəhrəsiz və ümidsiz mövqelərə, şəkk və bədgüman yerlərə (məxluqun yanına) üz tutmaram. (Çünki onların özləri zavallı və möhtacdır.) İnsanların mədhindən və (Sənin nemətinlə) ərsəyə çatan məxluqlara tərif söyləməkdən dilimi saxlamısan. İlahi, hər məddah tərifləndən muzd, haqq umar. Mən Sənin rəhmət azuqələri və əfv xəzinələrinə yol göstərmənə (əta etdiyin ən böyük mükafata) ümidvaram. Xudaya, bura (təzim və tovhidlə məşğul olduğum yer) Sənə xas olan vahidliklə Səni tanıyan və buna görə də şükr və sənaya Səndən qeyrisini layiq bilməyən kimsənin yeridir. (Deməli, hər kəsin minbərə çıxmağa və oradan hər sözü danışmağa ləyaqəti çatmaz.) Mənim yoxsulluq və ehtiyacımın da yolu Sənədir ki, onun bədbəxtliyini Sənin fəzl və ehsanından

başqa (heç bir şeylə) ödəmək olmaz, onun çətinliyini Sənin səxavət və bəxşişindən qeyri heç nə aradan götürməz. (Sənin zikrinə məşğul olduğumuz) Belə bir məqamda, Öz razılığını bizə yetir, əllərimizi Səndən qeyrisinə doğru yönəltmə. Çünki Sən istədiyin hər şeyə qadirsən.

İmam Əli əleyhis-salamın Osman öldürüldükdən sonra camaatın ona bey’ət etdiyi vaxt (hicrətin otuz beşinci ilinin zilhiccə ayının iyirmi beşində, cümə günü) buyurduğu kəlamlarındandır. Məndən əl çəkib başqasını istəyin. Müxtəlif sifətləri və rəngləri olan bir işə qol qoyuruq. (Belə ki,) ürəklərin ona dözümü yoxdur (camaatın belə hadisələrə dözümü yoxdur) və ağıllar onun yükünü çəkməyəcəklər (inkar edəcəklər). Üfüqləri qara bulud (zülm, sitəm və bid’ət) bürüyüb (haqq-həqiqət günəşi onun altında gizlənib), aydın yol (İslam hökmlərinin həqiqəti) dəyişib. Bilin ki, mən sizin dəvətinizi (bey’ətinizi) qəbul etsəm, özümün bildiyim kimi rəftar edəcəyəm. Və (xəlifəliyi qəbul edib işə başlasam) danışanın (nəfsi istəklərinə uyğun və şəriətə zidd olan) sözünə, (özümdən əvvəlki xəlifələrin yolu ilə getmədiyimə görə məni) məzəmmət edənin qınağına qulaq asmayacağam. Əgər məni buraxsanız (xəlifə seçməsəniz), sizlərdən (insanlardan) biri kimi olaram və bəlkə də sizlərin (haqsız xəlifənin nalayiq rəftarları barədə) sözlərinizə daha çox qulaq asaram (və hüququnuzu qoruyaram), özünüzə vali və hakim etdiyiniz şəxsin (İslamın buyurduqlarına uyğun əmr versə) əmrlərini daha yaxşı yerinə yetirərəm. (Buna görə də) mənim sizlərə vəzir və müşavir olmağım, əmir və hakim olmağımdan daha yaxşıdır.

İmam Əli əleyhis-salamın xütbələrindəndir: Allaha həmd və şükr etdikdən, Həzrət Peyğəmbərə salamdan sonra, ey camaat, mən fitnə-fəsadın gözünü kor qoydum. Onun zülməti tələtümə çəkdikdən, çətinlikləri artdıqdan sonra məndən başqa heç kəsin bu fitnə-fəsadı (dəf etməyə) cürəti çatmırdı. Məni tapmayacağınız vaxt gəlməmiş (hər şeyi bildiyimə görə dini hökmləri və məsələləri) məndən soruşun. And olsun canım qüdrətinin əlində olana ki, bu zamandan qiyamət gününə qədər (baş verəcək) elə bir şeyi (bir xəbəri) məndən soruşmazsınız (ki, cavab verməyim) (hakimiyyətə gəlməklə insanların hidayətinə və ya azmasına səbəb olan) yüz nəfəri (bir qədər az və ya çoxunu) doğru yola yönəldənlər və yüz nəfəri azdıranlar barədə sorğu-sual etməzsiniz ki, sizə (dəvələri istədikləri yerə dartan sarbanlar kimi) həmin dəstənin dəvət edənləri, öndə gedənləri və qovanları (hakimləri), onların endikləri və yükləndikləri (toplaşma yerləri), onlardan ölənlər və öldürülənlər barədə xəbər verməyim (öncədən deməyim). Məni tapmasanız (aranızda olmasam), pis hadisələrlə, çətin işlərlə üzləşdikdə sual soruşduqlarınızın çoxu (çox məəttəl qaldıqlarından) başlarını yerə dikəcək (susacaq və bu pis hadisələrdən və çətin işlərdən çıxış yolunu tapmayacaqlar). Cavab verənlərdən çoxu da (cahilliklərinə və nadanlıqlarına görə, cavab verməyə) qorxacaq (aciz qalacaq). Bu o vaxt olacaq ki, sizin aranıza çoxlu müharibə, (onun fitnə-fəsadından) çətinlik düşəcək, (çarəsizlik və əlacsızlıqdan) dünya sizə dar gələcək, bəla günlərini (çətin vaxtları) uzun sanacaqsınız (hər bir saatı sizlərə bir gün qədər və daha uzun gələcək). Nəhayət, Allah-təala sizlərin içindən yaxşı əməl sahiblərinə qələbə nəsib edəcək. Fitnələr (camaata) üz tutduqda (batillə haqq, fəsadla doğru) səhv salınacaq, aradan getdikdə isə (fitnəkarlar məhv olacaq və camaat batildən, fəsaddan) hali olacaq. (Onda haqla doğrunu başa düşəcək, öz cahilliklərini və nadanlıqlarını etiraf edəcəklər, Çünki) fitnələr üz tutduqda (onların nadürüstlükləri) məlum olmaz, arxa çevirdikdə (aradan getdikdə) tanınarlar. (Nə qədər ki, fitnə-fəsad tüğyan edər, haqq gözə görünməz, onun alovu səngiyəndə haqq aşkara çıxar.) Fitnələr (hər yerdə) küləklər tək dolanarlar, bir şəhərə çatar və bir şəhərdən keçərlər. Agah olun, fikrimcə, sizin üçün

fitnələrin ən təhlükəlisi (ən böyüyü və ən çətini) Bəni-Ümməyyənin fitnəsidir. O, kor və qaranlıq bir fitnədir. (Onda doğru qurtuluş yolu itib, dinə və dünyaya ziyanı açıq-aşkar görünür.) Onların hakimiyyəti hər yanı bürüyəcək, bəla və çətinlikləri (pərhizkarlara və şiələrə) məxsus olacaq. Həmin fitnələrə gözüaçıq baxan hər kəs (Bəni-Ümməyyənin çirkin işlərinin əleyhinə çıxsa) bəla və çətinlik ona üz tutacaq. Kim buna göz yumsa (onların çirkin işlərinə iradını bildirməyib əmr və qadağalarına boyun əysə), bəla ondan uzaq olacaq (rifahda və əmin-amanlıqda) qalacaq. Allaha and olsun, məndən sonra Bəni-Ümməyyə sizlər üçün (sağarkən sağıcını) dişləyən, əli-ayağı ilə (başına) vuran, təpikləyən və süd sağmağa qoymayan, soncuq atan qoca dəvə kimi pis hakimlər olacaqlar. (Xülasə, yaxşılara əziyyət verib öldürəcək, müsəlmanların beytülmalından haqqı çatanlara heç nə verməyəcəklər.) Daima sizlərə hakim kəsiləcəklər ki, onlara xeyir verən və ziyan vurmayanlardan başqa bir kəs (yer üzündə) qalmasın. (Onlara itaət etsinlər və ya ən azı məqsədlərinin əleyhinə söz danışıb addım atmasınlar.) Onların bəlası və hakimliyi (sizin üstünüzdən) kəsilməyəcək. Belə ki, sizlərdən birinin onlardan intiqam alması qulun sahibindən və tabe olanın tabe olduğu şəxsdən intiqam alması kimidir. (Onların əlaltılar satın almış qullarına bənzəyirsiniz ki, öz haqqınızı qoruya bilmirsiniz.) Onların pis, qorxulu, (müharibə, qantökmə, qarət, oğurluq və namussuzluğun adət olduğu) cahiliyyət dövrü camaatının rəftarına oxşayan fitnə-fəsadları sizlərə tuş gələcək. O fitnədən nicat və hidayət üçün nə bir əlamət, nə də (haqq yolu üçün) görünən bir nişanə vardır. Biz Əhli-Beyt o fitnələrin günahından nicat tapacağıq (fitnəkarların əməllərindən bezərək Allah-təalanın buyruqlarına uyğun rəftar edəcəyik) və həmin vaxtlar (kimsəni aşkarda haqq yoluna) dəvət edə bilməyəcəyik. Sonra Allah-təala onları zəlil və xar edib zorla (ətrafa) dartacaq (bəla və müsibətlə) dolu camdan su verəcək, kimsənin (Bəni-Abbasın) vasitəsilə dərini ətdən ayıran tək o fitnələri sizdən uzaqlaşdıracaq. Onlara qılınc (zərbəsindən) başqa bir şey hədiyyə etməyəcəklər və qorxu, xofdan başqa bir şey geyindirməyəcəklər. O zaman (Bəni-Ümməyyənin hökuməti süqut edib hamısı zəif, gücsüz və zəlil olduqda) Qüreyş dünyanı və onda olan bütün şeyləri əldən verib onun yerinə bir dəvəni öldürmək qədər (bir saat) olsa belə, məni görməyi və bu gün onların bəzilərindən istədiyim və mənə vermədikləri bütün şeyləri onlardan qəbul etməyimi arzulayacaqlar.

İmam Əli əleyhis-salamın (Allah-təalanın bəzi sifətlərinin xatırılandığı, peyğəmbərlər və vəsilərinin mədh edildiyi və sonda camaata öyüd-nəsihət verildiyi) xütbələrindəndir. Hər şeydən üstün olan Allahdır, uca himmətlilər belə Onu dərk edə bilməz və zəkalı insanların zirəkliyi ona çatmaz. (Zatının həqiqətinin əslini başa düşməzlər, çünki müəyyən bir hədlə məhdudlaşmır ki, onu dərk etmək mümkün olsun.) Əvvəldir və Onun üçün son yoxdur ki, axırına çatılsın.

Bu xütbənin bir hissəsi peyğəmbərlər (Həzrət Peyğəmbər və pak İmamlar) haqqındadır

Allah-təala peyğəmbərləri ən üstün saxlanclarda (atalarının bellərində) əmanət saxladı və ən yaxşı yerlərdə (analarının bətnində) yerləşdirdi. Onları yaxşı bellərdən pak-pakizə bətnlərə köçürdü. Onlardan biri dünyadan getdikdə başqa birisi ondan sonra Allahın dinini yaymaq üçün ayağa qalxmışdır (ilahi hökmlərin təbliği ilə məşğul olmuşdur). Nəhayət, Allah-təala tərəfindən peyğəmbərlik və nübuvvət mənsəbi Həzrət Məhəmməd səlləllahu əleyhi və alihə yetişdi. O Həzrəti ən yaxşı mədənlərdə (əvvəlki peyğəmbərələrin belində) və ən əziz köklərdə (bətnlərdə) yetirdi. (O böyük şəxsiyyəti) Peyğəmbərlərini ondan aşkarladığı və Öz (vəhyinin) əmanət saxlayanlarını seçdiyi (yaratdığı) bir ağacdan (Həzrət İbrahim əleyhis-salamın nəslindən) əkdi. Onun əsli əsillərin ən yaxşısı, onun nəsli nəsillərin ən xeyirlisi, şəcərəsi şəcərələrin ən yaxşısıdır. (O Həzrət bütün peyğəmbərlərdən əfzəldir.) O, hərəmdə bəslənmiş və ucalıq, şərafətlə (bostanında) boy atmışdır. (Məkkeyi-Müəzzəmədə dünyaya gəlib tərbiyə almışdır.) O ağacın uzun budaqları (on iki İmam) və hər kəsin əlinin çatmadığı bir meyvəsi var. O Həzrət pərhizkarların rəhbəri, görənlərin gözünün işığı, parlaq çıraq, nur saçan ulduz və şöləsi bərq vuran çaxmaqdır. Onun üslubu dözümlülük, istiqaməti isə hidayət və yol göstərməkdir. Onun sözü (haqqı batildən) ayıran, hökmü və fərmanı ədalətli və düzdür. O böyük şəxsiyyətə elə bir vaxtda peyğəməbərlik verildi ki, uzun müddət idi ki, heç

kəsə risalət verilmirdi və camaat öz vəzifələrini yerinə yetirməkdə doğru yoldan azmış, əvvəlki peyğəmbərlərin ümməti qəflət, nadanlıq içrə sərgərdan olmuşdu. (Allah-təala Həzrətə peyğəmbərlik verməklə onları doğru yola yönəltdi, azğınlıqdan xilas etdi.) (Ey Allah bəndələri,) Allah sizə rəhmət etsin, aşkar nişanələr (İmamlar əleyhimus-salamın fikirləri) əsasında əməl edin. (Çünki onlar azğınlıq zülmətində nicat və qurtuluş nişanəsi, çırağıdır). Bu, (sizi) Darüs-Səlama (əbədi cənnətə) dəvət edən işıqlı və aydın yoldur (dindir). Siz elə bir saraydasınız ki, (gözəl əməllərinizlə) Allah-təalanın razılığını rahatlıqla əldə edə bilərsiniz. (Nə qədər ki, bu dünyadasınız və fürsətiniz var, əbədi cənnətə ehtiyat toplayın.) Elə bir yerdəsiniz ki, (əməl) dəftərləriniz açıq (hələ bağlanmayıb və möhürlənməyib) və (əməllərinizi qeydə almaq üçün yazanlardakı) qələmlər işdə, bədənlər sağ-salamat və dillər danışmaqdadır. (Çirkin əməllərə görə) tövbələr və (yaxşı) əməllər qəbul olunar.

←93-cü xütbə

Nəhcül-bəlağə. 94-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

95-ci xütbə→

İmam Əli əleyhis-salamın (Peyğəmbər salavatullahın vəsfi barəsində) xütbələrindəndir. Allah-təala insanların (doğru yoldan) azaraq (öz işlərində) sərgərdan qaldıqları, səhv və bəsirətsizliklərinə görə fitnə-fəsad yoluna qədəm qoyduqları bir vaxtda Həzrət Məhəmmədə peyğəmbərlik verdi. (Yersiz) İstək və arzular onları yaxalamış, təkəbbür və xüdpəsəndlik onları yanlışlıqlara vadar etmiş, cəhalət və nadanlıqları onları quşbeyin və qanmaza çevirmişdi. Belə ki, pərişan və öz işlərində narahat (idilər), nigarançılıq və nadanlığa mübtəla olmuşdular. Sonra Həzrət Mustafa (səlləllahu əleyhi və alih) (onlara) nəsihət etməyə çalışdı, doğru yolla hərəkət etdi, (onları) hikmət, bilik və gözəl öyüdlərə dəvət etdi (ki, bədbəxtlikdən qurtularaq dünya və axirət səadətini qazansınlar).

←94-cü xütbə

Nəhcül-bəlağə. 95-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

96-cı xütbə→

İmam Əli əleyhis-salamın (Allah-təalaya həmd-səna edildiyi və Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – vəsf olunduğu) xütbələrindən biridir. Həmd olsun Allaha ki, əvvəldir (bütün varlıqların mənşəyidir), Ondan əvvəl bir varlıq yoxdur və axırdır (bütün yaradılmışların qayıdışı onadır). Ondan sonra bir şey yoxdur. (Əlamət və nişanələrə görə) görünən və aşkardır. Ondan daha aşkar bir şey yoxdur və (zatının əsli) gizlin və məxfidir. Ondan daha görünməz olan bir şey də yoxdur. (Başqa sözlə desək,) görünən və qüdrətlidir. Onun fövqündə bir şey yoxdur (bütün varlıqlar Onun güc və qüdrəti qarşısında acizdir). Əşyanın batinindən və onun cüziyyatından xəbərdardır. Heç nə Ondan (əşyaya) daha yaxın deyil. Bu xütbənin bir hissəsində Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəsfi verilir: Onun qərar tutduğu məkan (peyğəmbərlik verildiyi Məkkeyi-Müəzzəmə) ən yaxşı məkan, yetişdiyi yer (ilahi hökmləri yaydığı Mədineyi-Teyyibə) ən şərafətli yerdir. (O böyük şəxsiyyət) Kəramət və alicənablıq yataqlarında (ali məqamlı bellər və pak bətnlərdə meydana gəlmiş) və (hər cür zahiri və batini eyblərdən, nöqsanlardan təmiz, uca) sağlam daldanacaqlarda (böyümüşdür). Yaxşı əməl sahiblərinin qəlbləri Onun vurğunudur və (ağıllı insanların) gözlərinin bəbəyi heyranlıqla Ona dikilib (ki, bütün dünyanı başına almış azğınlıq və cəhalətdə nə etdiyini görsünlər. Gördülər ki,) Allah-təala o Həzrətin vasitəsilə çoxdankı kinləri məhv etdi (xalqın arasından yığışdırdı) və düşmənçilik atəşini söndürdü. (Əmirəl-möminlə Salman kimi) iman qardaşları arasında ülfət və dostluq yaratdı, özününkülər (Həmzə ilə Əbu-Ləhəbin) arasına (İslama və küfrə görə) ayrılıq saldı. O böyük insanın zühuru və ərsəyə çatması ilə möminlərin zillət və çarəsizliyini başucalığına, şadlıq, üstünlük və böyüklüyə çevirdi, kafirləri isə bədbəxtliyə düçar etdi. Sözlərinin bəyanı və susmağının (da) dili var idi.

İmam Əli əleyhis-salamın (zülmkarın son nəticədə öz cəzasını görəcəyini, Allah-təalanın ondan sorğu-sual edəcəyini bildirdiyi, sonra öz qoşununu Müaviyə və qoşunu ilə müharibədə səhlənkarlıqlarına görə danlayıb qınadığı) kəlamlarındandır. Allah-təala zülmkara möhlət versə, onun sorğu-sualından heç vaxt keçməz. Yolunun ortasında, ağızın suyunu belə keçməyə qoymayan boğazı qurudan qəmli və kədərli bir yerdə (dünyadakı çətinliklər və ölümün ağır anlarında) pusqudadır. (Sanki onun yolunun üstündə dayanıb ki, onu lazım olan vaxtda cəzasına çatdırsın.) Agah olun. And içirəm canım güc və qüdrətinin əlində olana ki, bu dəstə (Şam qoşunu) sizlərə qalib gələcək. Bu, onların haqqa sizdən daha layiqli olmalarına görə deyil, əmirlərinin (Müaviyənin) batilini qazanmağa (fərmanını yerinə yetirməyə) tələsmələrinə və sizin mənim haqqım üçün gec tərpənmənizə görədir. (Padşah və əmirin) ümmət və rəiyyətlər(i) hər an öz rəhbərlərinin zülmünün qorxusu ilə sabahı açırlar (ki, məbada itaətsizliklərinə görə cəzalandırsın). Ancaq mən səhərləri öz rəiyyətimin qorxusu ilə açıram (Allahdan qorxduğuma görə onlara zülmü rəva görmürəm, onlar isə mənə zülm edir, sözümə qulaq asmırlar.) Sizi düşmənlə cihada, döyüşə getməyə çağırdım, getmədiniz və (döyüşə getməyin xeyrini və getməməyin ziyanını) xatırlatdım, eşitmədiniz, gizlində və aşkarda sizi dəvət etdim, yerinə yetirmədiniz, öyüd-nəsihət verdim, qəbul etmədiniz. Siz burada olsanız da yox kimi deyilsinizmi? (Sözlərimi eşitməyib öyüdlərimdən faydalanmırsınız.) Sizlər qulamlar və rəiyyət olsanız da böyüklər və başçılar kimisinizmi? (Özünüzü rəy sahibi hesab edərək mənim kimisinə itaət etmirsiniz) hikmətləri (və böyüklüyü, dünya və axirət səadətini əhatə edən sözləri) sizlər üçün deyirəm, (vəhşi heyvan kimi) ondan ürkürsünüz, sizlərə gözəl öyüdlərlə nəsihət verirəm, ondan uzaqlaşırsınız (qəbul etmirsinz). Sizləri fitnə-fəsad salanlarla (Şam əhli ilə) cihada rəğbətləndirirəm, sözüm sona çatmamış hamınızı Səba övladları kimi dağınıq görürəm. Öz məclislərinizə qayıdırsınız (gedib gəlirsiniz), bir-birinizi öz öyüdlərinizlə aldadırsınız (hər birisi başqasına «elə etmək, belə etmək lazımdır» deyir, ancaq özü isə bir addım belə atmır).

Hər səhər erkən sizləri (düşmənlə döyüşə hazır olmağınız üçün şümşad çubuğu kimi) düzəldirəm, hər axşam əyilmiş kamanın arxası kimi üstümə qayıdırsınız (döyüşə getməkdən boyun qaçırırsınız). Öyüd verən aciz qaldı və qulaq asan (işi) çətin sandı. (Bundan sonra, belə rəftarla mənim nəsihətimin sizə təsiri yoxdur.) Ey bədənləri burada olanlar, ağılları isə tapılmayan, düşüncələri müxtəlif olanlar! (Bir yerdə toplaşıb ağılın göstərişinə əməl etməyən və işlərdə hər biri öz nadürüst düşüncələrinin ardınca gedənlər). Onlara (nifaq, ikiüzlülük və fikir ayrılıqlarına) görə başçıları (fitnə-fəsada) mübtəla və giriftar olanlar. Sizin əmiriniz (İmam əleyhis-salam) Allaha itaət edir. Siz isə onun göstərişinə uyğun rəftar etmirsiniz. Şam əhlinin başçısı (Müaviyə) Allaha qarşı günah və itaətsizlik edir, onlar isə onun mütiləridir. Allaha and olsun, istərdim ki, Müaviyə sizlər üçün sərraf kimi mənimlə alver etsin, (on gümüş dirhəmə bərabər olan) bir qızıl dirhəm verim və bir gümüş dirhəm alım, sizin on nəfərinizi məndən alsın və qoşunundan bir nəfər versin. Ey Kufə əhli, sizdə (rəftarınızda olan) üç şeyə və (əsla sizdə olmayan) iki şeyə görə qəmə, kədərə batmışam. (Sizdə olan üç şeyin birincisi budur ki,) qulağınız olsa da karsınız, (ikincisi) danışsanız da lalsınız və (üçüncüsü) gözünüz olsa da korsunuz (qulağınız, diliniz və gözünüz olsa belə, haqqı eşitmir, demir və görmürsünüz. Ancaq sizdə olmayan iki şeyin birincisi budur ki,) müharibə vaxtı (döyüşə girərkən) doğruluqda və dönməzlikdə azad insanlar kimi deyilsiniz (qorxu və ümidsizlikdən özünüzü düşmən qarşısında qul və nökər kimi göstərirsiniz, doğruluğa və azadlığa dəliliniz yoxdur) və (ikincisi) bəlada, çətinliklərdə etimad oluna biləcək həqiqi qardaşlar deyilsiniz. Əlləriniz torpağa bulaşsın (yoxsulluğa, pərişanlığa mübtəla olub xeyir görməyəsiniz!) Ey sarbanları uzaqlaşmış, bir tərəfdən toplaşanda başqa tərəfdən dağılan dəvələrə bənzəyənlər (sizin mənim ətrafımdan dağılmağınıza gəlincə isə) Allaha and olsun, güman edirəm ki, müharibə şiddətlənsə və döyüş alovu şölələnsə, qadın (doğum zamanı) qarnındakı uşaqdan uzaqlaşdığı kimi Əbu Talibin oğlundan uzaqlaşıb dağılışacaqsınız. (Dağılışdıqdan sonra uşağın anasının qarnına qayıtması mümkünsüz olduğu kimi dağıldıqdan sonra sizləri toplamaq da qeyri-mümkün olacaq.) Mənim Rəbbim tərəfindən (öz doğru dürüstlüyümə) sübutum və dəlilim var, öz Peyğəmbərimin göstərişi ilə doğru yolla gedirəm (O Həzrət tərəfindən xəlifəliyə təyin olunmuşam), aydın və aşkar bir üsulla (müqəddəs İslam dininin buyurduğu kimi) rəftar edirəm (və öz gözaçıqlığımla səhv yollar arasından), haqq yolu tapmışam və onunla

gedirəm. (Belə olan halda, necə ətrafımdan dağılışıb uzaqlaşır və sözlərimə əməl etmirsiniz?) Öz peyğəmbərinizin əhli-beytinə (Əmirəl-möminin və onun övladlarına) baxın və onların yolundan çıxmayaraq əməllərinə tabe olun ki, heç vaxt sizi doğru yoldan çıxarmaz, həlakət və azğınlığa qaytarmazlar. Əgər onlar (xəlifəlik, cihad və ya başqa işlərdə evdə) əyləşsələr (qiyam etməsələr), siz də (evinizdə) əyləşin (və onlara itaət edin), əgər ayağa qalxsalar (hər hansı işdə qiyam etsələr), siz də qalxın (onlara kömək və yardım edin) və onlardan önə keçməyin (öz bildiyinizə əsasən rəftar etməyin) ki, azğın və sərgərdan olarsınız. Və arxada da qalmayın (əmrlərindən və qadağalarından qəflətdə olmayan) ki, biçarə və həlak olarsınız. Mən Məhəmmədin (səlləllahu əleyhi və alih) səhabələrini görmüşəm və sizlərdən heç birinin onlar kimi olduğunu görmürəm. (Ona görə ki,) onların səhərlər saçları dağınıq və tozlu olar, gecələri səcdə və qiyam halında oyaq keçirərdilər. Alınları ilə üzləri arasında növbə qoymuşdular. (Gah alınlarını, gah da üzlərini torpağa qoyardılar.) Qayıdışı (qiyaməti) xatırlayaraq köz kimi yanardılar (iztirablı və narahat idilər). Alınları səcdənin uzunluğundan keçilərin dizləri kimi (qabar bağlamış) idi. Pak Allah zikr ediləndə əzab və cəzanın qorxusundan, savab və mükafata ümiddən gözlərindən axan yaşlardan yaxaları islanar və şiddətli küləkli günlərdə ağacın titrədiyi kimi əsərdilər.

İmam Əli əleyhis-salamın (camaatın Bəni-Üməyyənin zülm və sitəminə mübtəla olacağı barədə) kəlamlarındandır. Allaha and olsun, Bəni-Üməyyə (hakimiyyətləri dövründə) həmişə zülm edəcək, Allahın halal etmədiyi heç bir haramını qoymayacaq, pozmadıqları (müsəlmanlarla bağladıqları) heç bir əhd-peyman buraxmayacaqlar. (Müaviyə İmam Həsən əleyhis-salamla olan müqavilənin ziddinə rəftar etdiyi kimi, öz əhd-peymanlarına xilaf çıxarlar.) Zülm və sitəmlərinin daxil olmadığı, fəsad və pozğunluqlarının əhatə etmədiyi və rəftarlarının pisliyinin əhlini pərən-pərən salmadığı nə bir gildən düzəldilmiş ev, nə də yundan toxunmuş bir çadır. (Xülasə, nə bir şəhər, nə bir kənd və nə də bir biyaban) qalacaq. Camaat (onların zülm və sitəmlərinin ağırlığından) gözüyaşlı iki dəstəyə çevriləcəklər: Biri öz dininə (onların qorxusundan öz dini borclarına əməl edə bilmədiyinə) görə göz yaşları axıdacaq və başqası dünyasından ötrü (gözünün qabağında mal-dövlətini çapıb taladıqlarına və onun qarşısını almaq gücündə olmadıqlarına görə) ağlayacaq. Sizlərdən birinin onlardan birinə yardımı və xidməti ağası yanında olanda (qorxusundan) ona itaət edən, olmayanda isə (cəsarətlənərək) dalınca pis danışan nökərin öz ağasına xidməti kimi olacaq. (Sınaq məqamında aydın olacaq ki,) onların fitnə-fəsadları müqabilində sizlərin ən böyüyü Allaha hüsnü-zənni daha çox olandır (Onun istəyinə təslim və razı olandır). Allah-təala sizləri sağ çıxarsa (fitnə-fəsadlardan xilas olsanız), şükr edin, əgər (müsibət və çətinliyə) giriftar olsanız, səbr edin və dözümlü olun. Çünki (çətinliklərə dözən) pərhizkarlar və müttəqilər nicat taparlar (Allah onların əcrlərini puç etməz).

←97-ci xütbə

Nəhcül-bəlağə. 98-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

99-cu xütbə→

İmam Əli əleyhis-salamın (dünyanın etibarsızlığı və ona ürək bağlamamaq barədə) xütbələrindəndir. Allah-təalaya verdiyi nemətlərə görə şükr edir, öz işlərimizdə Ondan kömək diləyirik. Bədənlərimizin (xəstəliklərdən) sağlamlığını istədiyimiz kimi din və əqidədə (xəstəlik, nadanlıq, azğınlıq və itaətsizlikdən) sağlam olmağımızı da Ondan istəyirik (bizi öz ixtiyarımıza buraxmasın ki, doğru yoldan azmayaq). Ey Allah bəndələri! Sizlərə, onu tərk etməyə meyliniz olmasa da (sizi tərk etməsini istəməsəniz də son nəticədə) sizi buraxan (və qiyamətdə sizə xeyri olmayan) və təzə qalmasını istəsəniz də bədənlərinizi köhnəldib çürüdən dünyadan əl götürməyi tövsiyyə edirəm. Sizlərlə dünyanın hekayəti yolla gedən və (sürətlərinə və iti getmələrinə görə) sanki yolu başa vurmuş, (uzaqdan görünən) bir nişanəni öz məqsədlərinə çevirib ona çatmış səyahətçilərin hekayətinə bənzəyir. (Bu dünyada sizin ömrümüzün tez keçməsi son mənzil olan ölümə çatmağınız kimidir.) Öz məqsədinə çatmaq üçün miniyini bacardığı qədər ən son məsafəyə çapmaq niyyətində olan süvari nə qədər də ümidvardır. Nəyə ümid edir o kəs ki, varlığı, mövcudluğu ondan əl çəkməyən (cəmi) bircə gündür və onu dünyadan ayırmaq üçün tələsik və sürətlə qovan, borcunu tələb edəni vardır. (Ölüm yaxasından yapışacağı və qaçmağa yolu olmadığı halda insan dünyanın nəyinə ürək bağlayır?) Dünyanın izzətinə və onunla öyünməyə ürək bağlamayın. Onun bər-bəzəyinə və nemətlərinə aldanaraq sevinməyin. Və onun əzab-əziyyətlərindən ahu-fəğan etməyin. Çünki dünyadakı izzət və onunla öyünmək aradan gedəcək, (dünyanın) bər-bəzək və nemətləri məhv olacaq, əzab-əziyyətləri sona yetəcək. Onda keçən hər zaman (istər yaxşı keçsin, istərsə də pis) sona çatacaq, onda olan hər canlı yox olacaq (öləcək. Deməli, ağıllı o şəxsdir ki, hər şeyi müvəqqəti olan dünyaya ürək bağlamasın). (Ölən və heç bir izi qalmayan) əcdadlarınızdan qalan nişanələrdən (xoşagəlməz işlərdən) sizləri çəkindirəcək bir şey yoxdurmu? Dərindən düşünsəniz, (onların) keçmişlərində ibrət və öyüd yoxdurmu? Sizdən öncəkilərinizin bir daha qayıtmadıqlarını və onların canişinlərinin sağ qalmadıqlarını görmədinizmi? Gündüzü gecə, gecəni də səhər edən dünya əhlini müxtəlif hallarda görmürsünüzmü? Birinin öldüyünü və ona

ağladıqlarını, başqasına (ölənin müsibətinə görə) başsağlığı verdiklərini, birinin xəstələnərək üzü üstə torpağa döşəndiyini və (dərdə) giriftarlığını, başqasının xəstəyə baş çəkməyə getdiyini, başqa birisinin can üstə olmasını, birinin dünyanı istədiyini və ölümün onun dalınca olduğu, başqasının (qiyamət gününün hesabından və sorğu-sualından) qafil və xəbərsiz olduğunu, Allahın isə ondan qafil olmadığını, vaxtın keçməsinin təsirindən qalanların da getdiyini (öncəkilər dünyanı tərk etdikləri kimi başqaları da öləcəkdir)... Agah olun! Çirkin işləri görməyə tələsərkən ləzzətləri viran qoyan, eyş-işrətləri pozan, arzuları qıran ölümü yada salın. Allah-təaladan Onun vacib haqqını (ibadət və itaət) yerinə yetirmək (buna hazır olmaq uçun) və saya-hesaba gəlməyən nemət, ehsan və yaxşılıqlarının çoxluğuna şükr etmək üçün kömək istəyin.

İmam Əli əleyhis-salamın (özünün öldürüləcəyinə və qeybi xəbərlərdən olan Həzrət Sahib əz-Zamanın zühuruna işarə etdiyi) başqa bir xütbəsidir. Şükrlər Öz fəzilət və ehsanını məxluqlara səpən, səxavət və bəxşişini hamıya şamil edən Allaha məxsusdur. Ondan çatanlara (sağlamlıq, xəstəlik, şadlıq və əziyyət) görə şükr edir, əmrlərini (vacibat və müstəhəbatı) yerinə yetirmək üçün Ondan kömək istəyirik. Şəhadət veririk ki, Ondan başqa (sitayişə layiq) Allah yoxdur və Məhəmməd (səlləllahu əleyhi və alih) Onun bəndəsi və elçisidir. Onu əmr və fərmanlarını aşkar edib (bəyan edib) Allahı xatırlatması (Allahı tanıtması) üçün göndərdi. O da əmanət və düzlüklə risaləti təbliğ etdi (ilahi hökmləri çatdırdı). Dünyadan yol göstərən kimi getdi və bizim aramızda Haqqın bayraq və nişanəsini (Allah yolunu göstərən Qur'ani-Kərimi və müqəddəs İmamları əleyhimus-salam) qoyub getdi. O bayraqdan önə keçən (Onun hökmlərinə nəyisə artırıb azaldan dindən) xaric oldu, müxalif olub itaət etməyən (o Həzrətin əməllərinə etinasız olan) həlak oldu. Onunla birlikdə olan isə Haqqa qovuşdu (səadət tapdı). O bayrağı saxlayan səbrlə və ağır-ağır söz danışar və bir işi görmək üçün gec yerindən qalxar, (çünki ağıllı adam hər işini fikirləşər və məsləhətlə söz danışıb addım atar və) qalxdıqda isə (düşündükdən sonra qalxmağı məsləhət gördükdə) tələsər (tez iş görər). (Zahiri xəlifəliyə təyin olunaraq düşmənlərlə döyüşdükdə və) sizlər Onun fərmanına boyun əydiyiniz, onu barmaqla göstərdiyiniz vaxt ölüm onu yaxalayacaq (məl'un İbn Mülcəm mübarək başının ortasına qılınc endirəcək) və bu səbəbdən də dünyadan köçəcək. Ondan (öldürülməsindən) sonra Allah-təalanın istədiyi bir müddət (Bəni-Üməyyə, Bəni-Abbas və onlardan sonrakıların hakimiyyəti) İlahinin sizi toplayaraq dağınıqlıqdan xilas edəcəyi kimsəni (Sahib-əz-Zaman əccələllahu fərəcəh) aşkar edənə qədər ləngiyəcəksiniz (bədbəxtlik, çarəsizlik və dağınıqlığa giriftar olacaqsınız). (Bütün işlərin nizamlanması üçün) dünyaya üz tutmayan (işlərin cilovunu əlinə almayıb xanənişin olan) aranızdakı İmama tamah salmayın (çünki Allah belə məsləhət bilib) və qeybdə olan İmami-Zamandan ümidinizi üzməyin. Çünki ola bilsin ki, Onun iki ayağından biri (zahiri hakimiyyəti) yerindən çıxaraq büdrəsin və digər ayağı (batini

hakimiyyəti) yerində qalsın və (elə bir gün gəlib çatar ki,) sabitləşib güclənməsi (din və dünya işləri Onun vücudu ilə nizamlanması) üçün hər iki ayağı (zahiri və batini hakimiyyəti yerinə) qayıdar. Agah olun ki, Məhəmməd səlləllahu əleyhi və alihin ailəsi (müqəddəs İmamlar əleyhimus-salam) asimanda olan və biri batdıqda digəri çıxan ulduzlar kimidir. (Onlardan biri dünyadan getdikdə başqa birisi onun yerini tutar. Və yer üzü heç vaxt onların vücudundan uzaq olmaz.) Bununla da Allah-təalanın sizə olan nemətləri bütövlənəcək və arzu etdiyiniz sizə veriləcək (mütləq o Həzrətə yetişəcək, Haqq dövlətini görmək arzunuza çatacaqsınız).

İmam Əli əleyhis-salamın (özündən sonra baş verəcək) ağır hadisələri ehtiva edən xütbələrindəndir. Odur hər bir əvvəldən əvvəl (başlanğıc, deməli, hər bir əvvəl Ondan sonra gəlir) və hər bir axırdan da son olan Allah (deməli, hər son olan da Ona qayıdır). Əvvəl (başlanğıc) olduğuna görə Onun əvvəli (başlanğıcı) olmamalıdır. (Yoxsa O, hər şeyin başlanğıcı olmazdı.) Son olduğuna (hər bir şey Ona qayıtdığına) görə, axırının olmaması vacibdir. (Yoxsa hər şey Ona qayıtmazdı. Qısası, əzəli və əbədidir, Ondan əvvəl bir şey olmayıb və sonra da bir şey olmayacaq.) Gizlində və aşkarda, ürəyin və dilin vəhdəti ilə (nifaq və ikiüzlülükdən uzaq olaraq) şəhadət verirəm ki, Ondan başqa Allah yoxdur. Camaat, düşmənçiliyiniz və mənə qarşı olmağınız sizləri günaha (sözlərimi təkzib etməyə) vadar etməsin. (Deyəcəyim şeylər barəsində) mənə itaətsizlik sizləri heyran və sərgərdan etməsin. Məndən bir şey (qeybdən xəbər) eşitdikdə gözlərinizi bir-birinizə dikməyin (heyrətə gələrək inkar etməyin). And olsun dənəni (yerin altından) yarana və insanı Yaradana ki, sizə xəbər verdiyimi (özümdən demirəm) Peyğəmbər səlləllahu əleyhi və alihdəndir. O, ümmi olub, (onun bütün buyurduqları ilahi vəhydir və kimsədən öyrənməyib) yalan danışmayıb və (onun buyurduqlarını) dinləyən (yəni, İmam əleyhis-salam) nadan olmayıb. (Xülasə, bu xəbər Həzrət Peyğəmbərə olan ilahi vəhydir) Sanki mən bir şəxsi (Müaviyəni və ya Əbdülməlik ibn Mərvanı) çox azğınlıq içrə Şama səs salırmış (camaatı toplayırmış) və öz bayraqlarını Kufənin ətrafına sancırmış kimi görürəm. Ağzını açan kimi (camaatı qılıncdan keçirər), cilovu dartılar, (çox dikbaş olar) və ayağını yerə daha möhkəm basar (zülmü hər yanı bürüyər). Fitnə və çaxnaşmalar dövrünün kişilərini dişlərinin dibinə qədər sancar (camaat qətl, qarət, dərd və kədərə mübtəla olar), müharibə dalğaları hərəkətə gələr (ağır müharibələr baş verər), gündüzlər (zülm və sitəmə görə) tutqun və qarmaqarışıq, gecələr isə (dərd və kədərdən) bağırları yaran olar. (Qısası, o azğın kişi Kufəni viran edərək camaatı bir dəqiqə belə asudə buraxmaz). O azğının (fitnə-fəsad toxumundan) əkini göyərəndə, onun budaqları boy atanda (camaata hakim kəsiləndə) onun şeqşeqiyyəsi səslənəndə (yəni, haqsız fərmanlar verəndə), qılıncının qığılcımları parlayanda (qudurğanlığı və

özbaşınalığı ən son həddə çatanda və xofu güclü ürəklərə yol tapanda) xilası mümkün olmayan fitnə və fəsad bayraqları möhkəmlənər, qaranlıq gecə və dalğalı dəniz kimi (bir-birinin ardınca camaata) üz tutar. Belədir, Kufəni neçə qasırğalar yaracaq (viran qoyacaq) və üstünə ən güclü küləklər əsəcək (onda qanlar töküləcək). Az zamandan sonra bir dəstə başqa dəstənin üstünə düşəcək (bir-birilə toqquşacaqlar) və (insanlıq sünbülündən) ayaq üstə olan (güclü olan) biçiləcək (öldürüləcək). Biçilənlər (zəif və gücsüz olan, fitnəkarların əl-ayaqları altında) əziləcəklər. (Qısası, bir-birinin ardınca həlak olacaq, hər il fitnə-fəsad zəmilərində əkilən toxumlardan insan ölüləri göylərə sovrulacaq.)

İmam Əli əleyhis-salamın bu barədə deyilmiş xütbələrindəndir. (Əvvəlki xütbədə olduğu kimi ağır hadisələrdən xəbər verir, başlanğıcda qiyamət gününün çətinliklərini xatırladır.) Qiyamət günü elə bir gündür ki, Allah-təala həmin gün hesabları çürütmək və əməllərin cəzasını vermək üçün keçmişdəki və gələcəkdəki bütün yaradılmışları toplayar. Onlar xarlıq və təvazökarlıqla ayaq üstə dayandıqları halda və (izdihamın çoxluğundan və istiliyin şiddətindən) tər cilov kimi ağızlarının ətrafını bürüyər və yerin zəlzələsi onları titrədər. Onlardan ən yaxşısı və ən çox sevinəni (dünyadakı bəyənilən əməllərinə görə) addımını sabit saxlamağa bir yer hazırlamış və öz asayişi üçün (oradakı çətinliklərdən və həmin günün iztirablarından, narahatlığından qurtulmaq üçün) geniş bir yer əldə etmiş kimsədir.

Bu xütbənin (o böyük şəxsiyyətdən sonra baş verəcək fitnə-fəsad, qan tökülməsi və çətinliklər barədə olan) bir hissəsidir

(Məndən sonra) Qaranlıq gecənin (xilas yolu olmayan) saatları kimi fitnələr baş verəcək, onun qarşısını almaq üçün kimsə qiyam etməyəcək. (Heç kimin bu fitnələrin alovunu söndürməyə və fitnəkarlarla döyüşməyə qüdrəti olmayacaq) və heç bir bayraq (qoşun) onları rədd etməyəcək (aradan götürüb fitnəkarları məğlub edə bilməyəcək). Bu fitnələr cilovlanmış, üzərinə palan qoyulmuş, sarbanın dartdığı, ona minmiş şəxsin çapdığı dəvə kimi sizə üz tutacaq (xülasə, sizi bədbəxt və çarəsiz etməyə hazır olacaq), fitnəkarlar elə bir dəstə olacaq ki, verdikləri əzab-əziyyət qarətlərindən daha çox olacaq (fitnə-fəsad salmaqda məqsədləri qənimət qazanmaq deyil, daha çox insanları məhv etməkdir. Nəhayət) Boyun əyməyənlərin onları zəlil və xar saydıqları, yer üzündə qədirləri və məqamları bilinməyən, səmalarda isə məşhur olan bir dəstə (xudpəsəndlərin həqarət gözü ilə baxdıqları, ilahi dərgahına yaxın və canından keçmiş Allahpərəst insanlar) Allah rizasına görə həmin fitnəkarlarla cihad edəcək. Bu fitnələrin baş verdiyi vaxt Allah-təalanın qəzəbi nəticəsində yaranan və izi, tozu, səs-sorağı olmayan (qəflətən peyda olan) qoşunun əlindən vay sənin halına, ey Bəsrə! (Onların gəlişi ilə)

az sonra sakinlərin qırmızı ölümə (öldürülməyə) və toz-torpaq içində aclığa (çöhrələri bozardan və qaraldan qəhətçiliyə) düçar olarlar.

İmam Əli əleyhis-salamın (dünyanın vəfasızlığı barədə) xütbələrindəndir. Dünyaya ondan üz döndərib uzaq duranların nəzərlərilə baxın (mə'sum İmamların və ardıcıllarının yolundan nümunə götürün və dünyapərəstlərin ardınca getməyin). Çünki Allaha and olsun, dünya tezliklə sakinlərini özündən uzaqlaşdırar və nemət, dövlət, asayiş sahiblərini müsibətə, kədər və hüznə salar. Ötənlər və arxa çevirənlər (gənclik, sağlamlıq, güc və qüvvət) geri qayıtmaz. Sonra gələnlər isə (nemət və ya əzab, yaxşı və ya pis olacağı) məlum olmaz ki, onun (yaxşını əldə etmək) üçün gözləyəsən (çalışın ki, onun pislərindən uzaqlaşasınız). Onun sevinci kədərlə qarışıb (çünki onda şad olan sevdiyi şeylərin həmişəlik qalmayacağına görə kədərlidir) və insanlarının gücü, qüdrəti, gəncliyi zəifliyə, gücsüzlüyə və qocalığa gəlib çıxır. Dünyada xoşunuza gələn şeylərin (vəzifə, mal-dövlət, alicənablıq, qadın, zinət və bu kimi şeylərin) çoxluğu sizi aldatmasın, çünki dünyada əliniz çatan şeylərdən sizin nəsibiniz (qiyamət günündə onun hesabının əzabı və çətinliyi ilə müqayisədə çox) azdır. Allah rəhmət etsin o kişiyə ki, (dünyanın işləri, öz əvvəli və axırı barədə) düşünür, (dünyanın müvəqqətiliyindən) ibrət götürür və gözləri açılır. (İnanır) ki, dünyada qalan tezliklə məhv olacaq. (Onda olanı yox kimi sanır.) Axirətdə mövcud olan isə sarsılmaz və əbədidir. (Onda olmayanı da olmuş sanır.) Hesaba gələnlərin (ömrün saatlarının) sonu çatar, gözlədiyiniz hər şey (ölüm və qiyamət) gələndir və bu gələcək də yaxındadır.

Bu xütbənin (bilikli və gözüaçığın nadan və azğından üstünlüyü barədə) bir hissəsidir

Bilikli o kəsdir ki, öz qədrini bilir (Allahın və Peyğəmbərin göstərişinə uyğun rəftar edir). İnsanın cahilliyi, nadanlığı üçünsə özünü tanımaması kifayət edər (azğınlıq yoluna qədəm qoyar və şeytanın təhrikinə, nəfsi-əmmarəyə uyaraq xoşbəxtlik sərmayəsini bada verər). Allah yanında ən düşmən bəndələr o bəndələrdir ki, Allah-təala onları öz başlarına buraxıb (səadətə çatmaq xoşbəxtliyini onlardan alıb). Belə ki, (onlar din və dünya

işlərində) doğru yoldan çıxaraq yol göstərənsiz hərəkət edər (nadanlığın ucsuz-bucaqsız çöllərində çaşqın və sərgərdan qalaraq nə edəcəyini bilməzlər). Dünyanın əkin və zəmisinə (dünyəvi xeyri olan işlərə) dəvət edildikdə iş görər, axirətin əkin və zəmisinə (xalqa xidmət və Xaliqə ibadətə) çağırıldıqda isə tənbəllik edərlər. Sanki (dünya işlərində) gördükləri onlar üçün vacibdir (hər bir işi, hətta haram olsa belə, görməyə elə hazırdırlar ki, sanki vacib bir işi yerinə yetirir və onu tərk etməyin əzabından qorxurlar) və (axirət işlərində) təxirə saldıqları (məsuliyyət) isə boyunlarından düşmüş kimidir. (İlahinin əmr və qadağalarına elə göz yumurlar ki, elə bil bu barədə onlara göstəriş verilməmişdir.)

Bu xütbənin (fitnə-fəsadın qələbəsi və iman əhlindən qeyriləri üçün qurtuluşun olmaması barədə) bir hissəsidir

Bir zaman gələcək ki, (məclislərdə) iştirak etdikdə heç kəsin tanımadığı və olmayanda da kimsənin axtarmaq fikrinə düşmədiyi adsız-sansız Allahpərəst mömindən başqa heç kəs ondan (zamanın fitnə-fəsadından) xilas olmayacaq. Belə insanlar (möminlər) qaranlıq gecədə hərəkət edənlər üçün yol göstərən çıraqlar və aydın nişanələrdir. Camaat arasında fitnə-fəsad və söz-söhbət yaymır, xalqın eyblərini və pisliklərini aşkar etmirlər. (Onlar) səfeh və boş söz danışan deyillər. Allah-təala rəhmət qapılarını onlar üçün açır və əzabının çətinliklərini onlardan kənar edir. Ey camaat! Tezliklə elə zaman gələcək ki, qab çevrildikdə içindəkilər töküldüyü kimi İslam alt-üst olacaq. Ey camaat! Allah sizləri zülm və sitəmdən amanda saxlayıb, imtahana çəkməkdən isə sizə pənah verməyib. Bütün kəlam sahiblərindən daha əzəmətli və böyük olan Allah (Qur'ani-Kərimin Mu'minun surəsinin 30-cu ayəsində) buyurmuşdur: إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ وَإِن كُنَّا لَمُبْتَلِينَ «Şübhəsiz ki, (Nuhun tufanı və qövmünün qırılması) hadisəsində (başqalarına ibrət üçün) nişanələr vardır. Biz (bəndələrin yaxşısını pisini) imtahana çəkirik!» (Seyyid Rəzi buyurur)

İmam Əli əleyhis-salamın كُلَّ مُؤْمِنٍ نُوَمَةٍ kəlamı şər və fəsadı az olan adsız-sansız şəxsdir. مَسَايِيحُ sözü مِسْيَاح sözünün cəmidir və fitnə-fəsad məqsədilə camaat arasına çıxıb, söz-söhbət yayanlar barədə işlənir. مَذَايِيعُ sözü مِذْيَاع başqasının eybini və pisliyini eşidib faş edənlərə və hər yerdə söyləyənlərə deyilir. بَذُور - بُذُرُ sözünün cəmidir, çox səfeh və sözləri

boş, mənasız olan kəs barədə işlədilir.

İmam Əli əleyhis-salamın («Cəməl» döyüşünə gedərkən Bəsrə camaatının Təlhə və Zübeyrlə birgə Aişəni dəvəyə mindirərək onun ətrafında toplaşıb Əmirəl-möminlə döyüşmək istədiyi vaxt buyurduğu) xütbələrindəndir. (Burada məqsəd o böyük şəxsin «Cəməl» səhabələrilə haqqı dirçəltmək və batili məhv etmək üçün döyüşdüyünü camaata çatdırmaq olmuşdur.) Allaha həmd və şükrlər etdikdən, Xatəmün-nəbiyyinə salamdan sonra: (Agah olun!) Böyük Allah heç birisinin haqqın bir kitabını oxumadığı, peyğəmbərlik və vəhy iddiasında olmadığı halda (ki, o Həzrət barədə şəkkə düşərək ona iftira atsınlar) ərəblərin arasından Məhəmmədi (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçdi. Beləlikə, (o, haqqı izhar və İslamı sübut etmək üçün) ardıcılları ilə birgə əleyhdarlarına qarşı döyüşüb onları nicat yerlərinə yönəltdi (haqq, səadət və xoşbəxtlik yoluna dəvət etdi). Ölüm kafir və azğınlıq vaxtlarında yaxalamasın deyə onları cəhalət və nadanlıqdan xilas etmək üçün (fitnə-fəsad və azğınlıq yükünün ağırlığından) aciz, əlacsız və çarəsiz (ağır yüklü) dəvə kimi sınana qədər çalışdı (ki, əbədi əzaba düçar olmasınlar). O Həzrət yalnız heç vaxt heç bir xeyir və yaxşılığı olmayan həlak olmuşdan başqa onları mənzillərinə (səadət və xoşbəxtliyə) çatdırana, azğınlıqdan xilas və qurtuluş yolunu onlara göstərənə və onları öz yerlərinə yerləşdirənə qədər yollarının üstündə dayandı (hökmlərin təbliğində səhlənkarlıq etmədi, onları fitrətləri olan İslam dininə etiqada vadar etdi). Sonra dəyirmanları fırlanmağa başladı (həyatları, işləri nizamlandı) və nizələri düzəldi (güclənərək azğınların azğınlıqlarına, zalımların zülm və sitəmlərinə boyun əymədilər). Allaha and olsun, mən İslam qoşununun önündə idim və küfr qoşununu hamılıqla arxa çevirib (öz dinlərindən əl çəkib) toplaşıb ram olana (itaət edənə) qədər qovdum. (Heç vaxt) zəif və gücsüz olub qorxmadım, xəyanət və süstlük etmədim. And olsun Allaha, (indi bu döyüşdə də) haqqı böyründən çıxarmaq üçün batili yarıram. (Seyyid Rəzi buyurur:). Bu xütbə daha öncə (otuz üçüncü xütbədə) bəyan olunsa da hazırkı rəvayətin həcminin az və çoxluğu baxımından fərqli olduğuna görə yenidən qələmə alınması lazım gəldi.

İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbərin şə'ninə tərifdən sonra Bəni-Üməyyə dövlətinin süqutuna toxunduğu və daha sonra camaata öyüd-nəsihət verdiyi) xütbələrindəndir. (Həqiqi günəşin doğmasından və aləmi fəth edən İslam günəşinin parlamasından öncə camaat azğınlıq və bədbəxtliyin son həddində idi ki,) Allah-təala (yaxşı və pis əməl sahiblərinə) şahid və sübut olmaq, (yaxşı insanlara əməllərinin mükafatına görə) müjdə vermək, (günahkarları ilahi əzabdan) qorxutmaq üçün Məhəmmədi (səlləllahu əleyhi və alih) peyğəmbərliyə seçdi. Uşaqlıqda və kiçik yaşlarında yaradılmışların ən yaxşısı, ixtiyar çağında (qırx yaşında) onların ən səxavətlisi və seçilmişi, təbiəti və xilqəti bütün paklardan daha pak (Adəm əleyhis-salamdan Abdullaha qədər həmişə peyğəmbərlərin və onların vəsilərinin belində olmuşdur) və bəxşişi rəhmət yağışını istəyənlərin təvəqqisində daha çox idi. (Ey Bəni-Üməyyə!) Dunyanı yalnız cövlan edən, çilov və dar bağlanmamış palanla, tapdıqdan sonra onun xoşluğundan və ləzzətinin şirinliyindən faydalandınız və onun döşündən süd əmməyi bacardınız. (Onu öz başına buraxılmış, sarbansız dəvə kimi müftə əldə etdiniz. Bu ona görə belə oldu ki,) onun haramı (İmam əleyhis-salamdan əvvəlki xəlifələr və onların ardıcıllarının) ailələri üçün sidr ağacı tək tikansız idi, (asanlıqla onun meyvəsindən dadırdılar. Yəni, qadağan olunmuş işləri görürdülər və qiyamət gününün əzabından qorxuları yox idi). Onun halalı isə onlardan uzaqlaşıb yox olmuşdu (sözləri və əməlləri İslam dininin ziddinə idi). (Siz güman etməyin ki, dünya həmişə bu minvalla gedəcək və Bəni-Üməyyə dövləti olacaq.) Allaha and olsun, dünyanı müəyyən vaxta qədər uzanan kölgə tək ürəyiniz istəyən kimi tapmısınız. Yer üzü sizlər üçün boş və sahibsizdir, orada əlləriniz açıqdır. (Həqiqi) rəhbərlərin əlləri sizdən (sizə hakimiyyətdən) saxladılıb. Sizin qılınclarınız onlara hakimdir, onların qılıncları isə üstünüzdən yığışdırılıb. (Ancaq) bilin ki, hər tökülən qanın intiqam alanı, hər bir haqqın tələb edəni var. Bizim qanlarımızı alan özü barədə hökm verən hakim kimidir (ki, dəlil və sübutsuz elminə əsasən özü barədə hökm verir). Bizim qanımızı və haqqımızı alan istədiyini (tutmaq

istəsə) tutmaqda aciz olmayan, qaçan heç bir kimsənin çəngindən çıxa bilmədiyi Allahdır. Allaha and içirəm, ey Bəni-Üməyyə! Qısa bir vaxtda biləcəksiniz ki, hakimiyyətiniz və dünyadakı dövlətiniz (bir neçə günlük hakimiyyətinizdən sonra) qeyrilərinin əlinə düşəcək və düşməninizin (Bəni-Abbasın) sarayına köçəcək. Agah olun! Gözlərin ən yaxşı görəni xeyrə və yaxşılığa nəzər salan (fitnə və fəsada nəzər salmayan) gözdür. Bilin ki, qulaqların ən yaxşı eşidəni öyüd-nəsihəti saxlayaraq qəbul edən qulaqdır. Ey camaat! Nəsihət verənin çırağının şöləsindən qəbul edib (öz səadət və xoşbəxtlik yolunuzun) çırağını işıqlandırın. Və suyu bulanmamış və çirklənməmiş təmiz çeşmədən çəkin (elm və maarifi mə'sum İmamlardan öyrənin). Ey Allah bəndələri! Öz cəhalət və nadanlığınıza etimad etməyin, istəklərinizin dalınca düşməyin. Çünki belə bir mənzilə daxil olan kimsə çay sahilində selin altını boşaldaraq yardığı və uçmaq üzrə olan yerdə mənzil salan şəxs kimidir. (Cəhalət, nadanlıq və nəfsi istəklərinin dalınca düşən adam) həlakəti (onun ağır yükünü) öz belinə yükləyərək ağlına gələn fikrə görə bir yerdən başqa yerə dolandırar (hər zaman bir yol seçər, hər gün yeni fikir və düşüncələrə düşər). Yapışmayanı yapışdırmaq, yaxınlaşmayanı yaxınlaşdırmaq istər (onun fikir və düşüncələrinin əsasında nadanlıq və nəfs dayandığına görə ölüncəyə qədər azğınlıq vadisində heyran və sərgərdan qalar). Allahdan qorxun, qəm-kədərinizi dağıda bilməyənin, möhkəm dayandığınız işləri (yerinə yetirməyə borclu olduğunuz ilahi hökmləri) öz rəyinə əsasən sındıranın (fəsad törədənin) yanında şikayət etməyin (din və dünya işlərində elə bir insana müraciət etməlisiniz ki, İmam və ya İmamın canişini olsun). Allahın buyurduğunu dirçəltməkdən başqa bir şey İmamın öhdəsində deyil. (Bunlar beşdir) moizə (və Həzrət Peyğəmbərin buyuruqlarını) söyləmək, öyüd-nəsihət verməyə çalışmaq, sünnəni (Allahın Rəsulunun hökmlərinə uyğun rəftarı) dirçəltmək, layiq olduğu şəxslər barədə həddin tətbiqi və (beytülmaldan) payları yiyələrinə çatdırmaq. Odur ki, (İmam və canişininin vəzifələri ilə tanış olduğunuza görə haqdan başqa yola qədəm qoymayın və dinin kökündən, qollarından xəbəri olmayan şəxslərə hörmət əli uzatmayın) elm ağacı qurumamış (İmam və canişini dünyadan köçməmiş) və elmdən, bilikdən feyz almaqdan (hadisələrin və ruzigarın ağırlığı nəticəsində) məhrum qalaraq başınız özünüzə qarışmamış elm və bilik əxz etməyə çalışın. Qadağan edilmişləri (müqəddəs şəriətin haram etdiklərini) törədənləri bundan çəkindirin və özünüz də onları etməyin. Çünki

siz özünüz bu işləri görmədikdən sonra pis əməldən çəkindirməyə məmur olunmusunuz.

İmam Əli əleyhis-salamın (İslam dinini vəsf və Həzrət Peyğəmbəri mədh etdiyi, həmçinin öz səhabələrini Müaviyə və Şam qoşunu ilə döyüşdə səhlənkarlıqlarına görə məzəmmət etdiyi) xütbələrindəndir. Həmd İslamı (onun həqiqətlərini bütün ağıllı insanlar üçün) aydın və aşkar edən, ona qədəm qoyan (müsəlman olan) üçün onun bulaqlarının yollarını asanlaşdıran, heç kəsin (münafiq və kafirlərin) üstün və qalib gələ (aradan götürə) bilməməsi üçün onun sütun və dayaqlarını (kök və qollarını əqli və elmi dəlil kimi iki sütun üzərində quran) möhkəm və güclü edən Allaha məxsusdur. Özünü İslama bağlayan (onun göstərişinə uyğun rəftar edən) üçün dünyada qətl, qarət və oğurluqdan, axirətdə isə əzabdan əmin-aman (bir yer), ona qədəm qoyan (müsəlman olan və Allahın birliynə, Həzrət Peyğəmbərin Onun elçisi olduğuna şəhadət verən kafir) üçün sülh və barışıq (nişanəsi), onun vasitəsilə söz danışan üçün dəlil və sübut (çünki İslamda hər bir işin həqiqiliyinə dair dəlil-sübut var), onun danışanı ilə düşmənçilik edən üçün şahid və sübut, ondan aydınlıq istəyən (doğru yola qədəm qoyaraq azğınlığın zülmətindən xilas olmaq istəyən) üçün nur və (yol göstərən) işıq, düşünən üçün (varlığın həqiqətlərini dərk etməyə) fəhm, (yaradılmışlar barədə) təfəkkür edən üçün ağıl, fərasətlə haqq yolunu axtaran üçün nişanə (nicat), (səhv iş görməmək barədə) qərar qəbul edən üçün bəsirət, öyüd alan üçün ibrət, (onun doğruluğunu) təsdiq və etiraf edən üçün (əzabdan) nicat qapıları və təvəkkül, (Allaha) etimad edən üçün əminlik, (işini Allaha) həvalə edən üçün asayiş və (çətinliklərdə) dözümlü olan üçün sipər etdi. Deməli, İslam yolların ən işıqlısı və dinlərin ən aydınıdır. Onun minarəsi (doğruluq və düzlüyü) yüksəkdə (aşkarda), yolları parlaq (görünən), çıraqları (Həzrət Peyğəmbər və o Həzrətin vəsiləri nadanların qəlblərinin zülmətinə) işıq saçandır, yarış meydanında öndədir və sonu (Allah dərgahına yaxın olmaqda) ucalıqdır. Yarış atlarını (süvariləri Allah dərgahına yaxınlaşmaq üçün bir-birindən önə keçsinlər deyə) bir yerə yığandır. Onun yarışı üçün təyin olunmuş mükafat o qədər nəfis və gözəldir ki, hamıda ona rəğbət vardır. Onun at çapanları şərafətli və alicənab, yolu (Allahın və Peyğəmbəri) təsdiq,

nişanəsi saleh əməllər, sonu (məsuliyyətin boyundan düşdüyü an olan) ölüm və hazırlıq meydanı dünya, cıdır düzü qiyamət, mükafatı isə cənnətdir.

Bu xütbənin bir hissəsi Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəsfidir

(Həzrət Peyğəmbər ilahi hökmlərin təbliğinə çox səy göstərərək) hidayət və nicat atəşinin şölələrini alovlandırdı ki, iqtibas götürən ondan faydalansın və (hidayət) nişanəsini (elm və maarif dağının zirvəsində) işıqlandırdı ki, (karvandan uzaq düşən), yolda qalıb sərgərdan olan yol tapsın (əbədi xoşbəxtlik qazansın). (İlahi,) o Həzrət (peyğəmbərliyin təbliğində) Sənin doğru əməl sahibi və əmanətdarın, qiyamət günündə (bəndələrin halətlərinə) şahidin, Sənin tərəfindən (yaradılmışlar üçün) seçilmiş nemət və bəxşiş, (camaat üçün) rəhmət və mehribanlıq olan haqqa, doğruluğa göndərdiyin elçindir. İlahi, Öz ədalətinlə onun qismət və bəhrəsini (yaxınlıq və məqamının ən yüksək həddini) nəsib et, ona Öz fəzl və kəramətinlə böyük mükafat və saysız-hesabsız nemətlər əta et. İlahi, onun binasını əvvəlki qurucuların binasından (onun dinini sələfləri olan peyğəmbərlərin dinindən) uca (zahir və qalib) et, onun nemət süfrəsini (risalətin təbliğində zəhmət və əziyyətlərinin mükafatını) Öz yanında əziz et. Məqam və mənzilini dərgahında yüksəlt və onu böyüklüyün ən yüksək həddinə çatdır, (bütün yaradılmışların müqabilində) üstünlük əta elə! Bizi onun ümməti və dostları (möminlər və pərhizkarlarla) məhşur et ki, (günah və itaətsizlikdən) xəcalətli, (pis əməllərdən) peşman, (doğru yoldan) azmış, əhdini pozan, yoldan azdıran və (bəla, çətinliklə) sınanmışlardan olmayaq. (Seyyid Rəzi buyurur:) Xütbənin bu fəsli daha öncə (yetmiş birinci xütbədə) bəyan olunsa da iki rəvayətdə fərq olduğuna görə burada bir daha təkrar vermişik.

Bu, xütbənin öz səhabələrinə buyurduğu (onları Müaviyə və Şam qoşunu ilə döyüşmədiklərinə görə danladığı) hissəsidir

(Siz kafir, bütpərəst və qədir-qiymətsiz olduqdan sonra) Allahın kəramət və nəvazişi nəticəsində məqam, rütbə və böyüklük tapdınız. (Heç bir əhəmiyyəti olmayan) kənizləriniz əzizlənir, qonşularınız (sizinlə müqavilə bağlayan kafirlər) həmin ilahi kəramətdən bəhrələnir, (buna görə də canları, mal və namusları hər bir təhlükədən qorunur), onların müqabilində heç bir fəzilətə

və (əsl-nəcabətcə) məziyyətə sahib olmadığınız halda və heç bir yaxşılıq etmədiyiniz kəslər sizlərə təzim edərək baş əyirlər. Sizin qələbə və hakimiyyətinizdən qorxusu olmayanlar, səltənət və hakimiyyətinizin çatmadığı kimsələr sizdən qorxurlar. İlahi peymanların pozulduğunu görüb qəzəblənmirsiniz, ancaq (ilahi əhd-peymanların müqabilində heç bir əhəmiyyəti olmayan) atalarınızın peymanlarının pozulmasına razı deyilsiniz və bunu biabırçılıq sayırsınız. (Siz o şəxslərsiniz ki,) İlahi hökmlər sizə gəlirdi (sizdən soruşurdular), sizdən keçirdi (siz cavab verirdiniz) və sizə qayıdırdı (şikayət çəkişmələri barədə hökm verirdiz). Öz məqam və rütbənizi zülmkarlara (Müaviyə və ardıcıllarına) verərək işlərinizin cilovunu onların əlinə tapşırmısınız. Onlar (şəriət məsələlərində) şübhələrə və batil inanclara əməl etdikləri, şəhvət və nəfsi istəklərinin ardınca düşdükləri halda ilahi hökmlərdə onlara təslim olaraq itaət etdiniz. (Lakin bilin ki, bu hakimiyyət və qüdrət onlara qalmayacaq.) Allaha and olsun, sizləri hər bir ulduzun altına səpsələr də (şəhərlərə dağıtsalar da) Allah-təala sizi onların ən pis günü üçün bir yerə yığar (ki, onlardan necə intiqam alındığını görəsiniz).

İmam Əli əleyhis-salamın Siffeyn döyüşünün günlərinin birində (öz səhabələrini Şam qoşununa məğlub olub qaçmalarından, qayıtmalarından və fəthlərindən sonra danladığı) buyurduğu kəlamlarındandır. (Döyüş meydanından) qaçmağınızı və düşmənə arxa çevirmənizi sıralarınızdan gördüm. Pis xasiyyətli, alçaq zülmkarlar və səhrada yaşayan ərəblər olan Şam əhli sizi qovdular. Halbuki siz ərəblərin igid və cömərdlərindənsiniz, burun (digər bədən üzvlərinə nisbətən) öndə olduğu kimi şərafətli, dəvənin hürgücləri kimi hündür və onlardan daha böyüksünüz. (Belə olan halda, məğlubiyyət və qaçmaq sizə yaraşan deyildi.) İşin sonunda sizi qovmuş olduqları kimi onları qovduğunuzu, sizi uzaqlaşdırdıqları kimi səngərlərindən uzaq saldığınızı, qılınclarla öldürüb köklərini kəsdiyinizi və biçarə etdiyinizi gördükdə sinəmin dərdləri şəfa tapdı. (Qəm və kədərim yox oldu. Qaçmaqlarının nəticəsində) hovuz və axurlarından məhrum edilərək uzaqlaşdırılmış, qovulan təşnə dəvələr kimi birinciləri sonuncularına minənədək (bir-birinin üstünə düşənədək) onlara nizə vururdunuz.

İmam Əli əleyhis-salamın baş verəcək fitnə-fəsad, tökülən qanlar barədə buyurduğu xütbələrindəndir. (Allah-təalaya şükr, Həzrət Peyğəmbəri mədh etmiş, öz kamal və kəramətindən bəzilərinə toxunmuşdur.) Həmd (Rəbb olduğunun dəlili sayılan) Öz xəlq etdikləri və yaratdıqları səbəbindən məxluqlara aşkar olan, Öz dəlil və sübutları (qüdrətinin nümunələri) ilə onların qəlblərində zahir olub görünən Allaha məxsusdur. Yaratdıqlarını fikir və düşüncə işlətmədən yaratdı. Çünki düşüncələr batinləri (daxili idrak qüvvəsi) olanlardan qeyrisinə məxsus deyil və Allah-təala Öz-özlüyündə batinə malik deyil. (Belə ki, bir şeyi dərk etmək üçün idrak qüvvəsinə ehtiyacı olan, əlbəttə, mümkünlər qismindəndir və vacibul-vücud mümkünlərdən ola bilməz.) Onun elmi görünməzlərin batininə və əslinə nüfuz edər. (Onun üçün maneə, hicab yoxdur) və ən xırda düşüncə və (heç kəsin bilə bilməyəcəyi ürək) sirləri əhatə edir.

Bu xütbənin bir hissəsi Peyğəmbərin (səlləllahu əleyhi və alih) vəsfidir

Böyük Allah Həzrət Peyğəmbəri peyğəmbərlərin (Ali-İbrahim) şəcərəsindən, (hidayət və nicat nurunun saçdığı) nur çırağından, (başqalarından daha şərəfli və fəzilətli olan) alının yuxarısından, «Bəthanın» (Məkkeyi-Müəzzəmənin) göbəyindən, qaranlığın çırağından (o böyük şəxsin ata-babaları sərgərdan şəxslərə yol göstərən çıraq kimi idi) və hikmət bulaqlarının gözündən (hamısının dini və şəriəti var idi, başqaları elm və hikməti onlardan öyrənirdilər) seçdi.

Bu xütbənin (özünün vəsfi və səhabələrinin məzəmmət edərək buyurduğu) bir hissəsidir

(İmam əleyhis-salam) Öz tibbi və müalicəsilə (ölüm saçan xəstəliklərə və cürbəcür dərdləri müalicə etmək üçün xalqın arasında) həmişə gəzən (ruhani) bir təbibdir. Məlhəmlərini (elm və maarifini nadanlıq və azğınlıq qılıncı ilə yaralanmış ürəklərin yarası üçün) gücləndirərək hazırlamış,

alətlərini (pis işləri qadağan etməyin və ilahi əzabla qorxutmağın atəşində) qızdıraraq basmışdır. Lazım olan hər yerdə məlhəmlərini, dağ çəkən alətlərini müalicəyə ehtiyacı olan yaralı yerlərin üstünə qoyar: (elmdən) kor qəlblərə, (haqqı eşitməyən) kar qulaqlara, (doğru söz danışmayan) lal dillərə. Bu ruhani təbib öz dərman və müalicələri ilə qəflət, nadanlıq, heyrət və sərgərdanlıq xəstəliklərinə əlac edir. (Ancaq) xəstələr hikmət və irfan nurundan istifadə etməyib parlaq elm və maarif tonqallarına od salmayıblar. Deməli, onlar otlayan (şüursuz və bütün səyləri yalnız yeyib-içməyə yönələn) heyvanlara və (heç nəyi dərk etməyən) bərk özül daşlarına bənzəyirlər. Gizlinlər bəsirət sahibləri üçün açıldı və haqq yolunu səhv salanlara aşkar oldu. Qiyamət öz üzündən pərdəni götürdü və onun əlaməti, nişanəsi fərasət sahibinə, zirəklərə əyan oldu. Nə olub ki, sizləri cansız bədən və bədənsiz can görürəm və (sizləri) pərhizkarlıq olmadan ibadət edən (dəyanətsiz müharibə edən), xeyirsiz tacir (məğlub olan), yuxulu kimi oyaq, yoxmuş kimi mövcud, kor tək görən, lal tək danışan (kimi görürəm. Düşmənin sizi ələ keçirdiyini görür və gücünüz olsa da onun qarşısını almırsınız).

(İmam əleyhis-salam bu fəsildə axirəz-zamanda baş verəcək fəsadlardan və insanların vəziyyətindən xəbər verir) Bu fitnə-fəsad bayrağı (axirəzzəmanda) azğınlıq qütbündə sancılan və şaxələri səpələnən (hər yanı bürüyən), sizləri öz piyaləsi ilə ölçən (azdıran) və əli ilə (şıltaq heyvan kimi) döyən (zəlil və xar edən) azğınlıq bayrağıdır. Bu bayrağın bayraqdarı İslam ümmətindən xaric olaraq azğınlıq (yolunun) üstündə dayanmışdır. Həmin gün sizlərdən (müsəlmanlardan) qazanın dibində qalan (az) qalıq və ya çuvalın təkində qalan dən hissəcikləri tək az miqdardan başqa qalanı olmaz. Azğınlıq bayrağı sizləri dabbaqlıq gönü sürtən kimi sürtər, biçilmiş əkinin döyülməsi kimi döyər (sizi son dərəcə zəif və xar edər). Allahını sevən mömini (əziyyət vermək üçün) böyük dəni kiçik dənlərin arasından seçən quş kimi sizin aranızdan ayırar. Bu yollar sizi hara aparır? (Batil əqidələr və nadürüst düşüncələrlə hara gedirsiniz?) (Cəhalət və nadanlığın) qaranlıqları sizi necə heyran və sərgərdan edir? Yalanlar (yersiz arzular) sizi nə cür aldadır? Sizləri (azdırmaq üçün) haradan gətirirlər? Sizləri (haqq yoldan) necə döndərirlər? Deməli, hər zamanın bir taleyi, hər gedənin bir dönüşü var. (Bu fitnə-fəsadlar müəyyən bir vaxtda baş verəcək.) Belə isə öz ilahi aliminizdən (İmam əleyhis-salamdan öyüd-nəsihət) eşidin və öz qəlblərinizi (qəbul etməyə) hazırlayın, sizi çağırdıqda (qəflət yuxusundan) oyanın. Hər qövmün

rəhbəri, öndə gedəni öz ardıcıllarına həqiqəti deməlidir. Öz dağınıqlığını yığışdırmalı, (fikir dağınıqlığını və boş düşüncələri özünə yaxın buraxmamalı) zehnini hazırlamalıdır (ki, eşitdiklərini artırıb azaltmadan başqalarına çatdırsın). Deməli, o ilahi alimin (din və dünya) işi yumru dənələri (daxili görünən) açan tək sizlər üçün açdı, şirəsini çıxarmaq üçün ağacın qabığını soyan kimi qabığını təmizlədi (hər bir işi sizlərə aydınlaşdırdı). Azğınlıq bayrağı qalxdığı zaman batil və nadürüstlük öz yerlərini tutar, cəhalət və nadanlıq öz miniklərinə minər, (batil hər yanı bürüyəcək, cəhalət bərpa olar) tuğyan və fitnə çoxalar, haqq yola dəvət edənlər azalar. Ruzigar parçalayan yırtıcı kimi hücuma keçər (çox qan tökülər), batilin erkək dəvəsi sakitlikdən sonra səslənər (məst olar, yəni, batil güclənər). Camaat günahlara görə bir-birinə qardaş olar, dinə görə isə bir-birindən uzaqlaşar, yalana görə dostlaşar, həqiqətə düşmən kəsilər (günahkarlarla dost, qardaş olarlar, yaxşılardan bezib uzaqlaşarlar). O çağlarda övlad (atasının) qəzəb(in)ə (və qüssəsinə), yağış isə istilik və hərarətə səbəb olar (camaat ondan xeyir görməyib ziyanını çəkəcəkdir), alçaq adamlar çoxalar, yaxşı insanlar isə az tapılar. O zamanın adamları canavar, padşahları yırtıcı, orta və zəif insanları (zülmkarlara) yem, kasıblar isə (çətinlik və incikliyə görə) ölü (kimi) olar. Həqiqət itib-batar, yalan yayılar. Dostluq sözdə, camaatın bir-birilə düşmənçiliyi isə ürəklərdə olar. Fəsad və pozğunluq (zina onlar arasında iftixara və) əsil-nəsəb hesab olunar, iffət və namusluluq təəccübə səbəb olar. İslam dəri paltar kimi tərsinə geyilər (camaat əyninə İslam paltarı geysə də, sözləri və əməlləri İslamın əmrlərinin ziddinə olar).

İmam Əli əleyhis-salamın (Allah-təalanın kamal və cəlal sifətləri, mələklərin vəsfi, insanların dünyaya aldanması, qiyamət gününün sorğu-sualı və Həzrət Peyğəmbərin yaxşı əməllərindən bəziləri barədə) xütbələrindəndir. Mövcud olan hər şey Allah qarşısında boyun əyir və Ondan asılıdır. (Hər bir mövcudun varlığı Onun güc və qüdrətinin əlindədir.) Hər yoxsulu ehtiyacsız edən, hər zəlil və xarı hörmətli edən, hər acizi qüdrətliyə çevirəndir, hər məzlumun pənah yeridir. Hər danışanın sözünü eşidər, hər dinməzin sirlərindən agahdır, hər canlının ruzisini vermək Onun öhdəsinədir, hər ölənin qayıdışı Onadır. Gözlər Səni görməyiblər ki, Səndən xəbər versinlər (necə olduğunu bəyan etsinlər), yaratdığın vəsf edənlərdən əvvəl var idin. Məxluqları tənhalıq qorxusuna görə yaratmadın, onları faydalanmaq üçün xəlq etmədin. İstədiyin hər bir şey Səndən qabağa keçməz, tutduğun şey çəngindən çıxmaz. Sənə qarşı günah və itaətsizlik edən kimsə Sənin hakimiyyətini azaltmaz, Sənə itaət edib yolunla gedən, mülk və padşahlığını artırmaz. Qəzavü-qədərindən razı, şad olmayan əmrini döndərə bilməz, fərmanından üz döndərən Səndən ehtiyatsız olmaz. (Əksinə, əmrindən üz döndərməklə belə sənə möhtac olar.) Hər örtülü Sənin üçün aşkardır, heç bir gizlin Səndən gizlin deyil. (Gizlin və aşkar, hüzuru olmaqla olmamaq Onun üçün eynidir. Çünki Onun zatı ilə eyni olan elmi hər şeyi əhatə edir.) Sən həmişə varsan və Sənin üçün son yoxdur, Sən sonsan (hər şeyin qurtaracağı Sənə qayıdır). Deməli, Səndən (əmr və fərmanından) qaçmaq olmaz və Sən (hər şeyin) qayıdış yerisən. Deməli, Səndən (əzabından) Sənə (rəhmətinə) qaçmaqdan başqa yol yoxdur. Hər bir canlının alın tükü Sənin (güc və qüdrətinin) əlindədir və hər insanın dönüşü Sənə doğrudur. İlahi, Sən hər eyb və nöqsandan uzaq, təmizsən. Sənin yaratdıqlarından gördüyümüz bizim nəzərimizdə necə də böyükdür! Sənin güc və qüdrətinin qarşısında onun böyüklüyü necə də kiçikdir! Sənin padşahlığından (Allahlığından ağıl gözü ilə) gördüklərimiz nə qədər qorxuludur! Bu gördüklərimiz Sənin padşahlığında (Allahlığında) bizlərə görünməz olanların yanında nə qədər miskindir. Səndən dünyaya nə qədər də çox nemətlər gəlib və onlar Axirət nemətlərinin yanında necə də aşağıdırlar!

Bu xütbənin (mələklərin vəsfi barədə) bir hissəsidir

Mələklərdən bəzisini öz səmalarında məskunlaşdırdın və öz yer üzündən yüksəltdin. Onlar (bütün mələklər) Səni məxluqlardan (peyğəmbərlər və onların vəsilərindən başqa) daha yaxşı tanıyır, Səndən daha çox qorxur və (bu baxımdan) onlardan Sənə daha yaxındırlar (məqam və rütbələri daha yüksəkdir). (Onlar ataların) bellərində yerləşməyib, (anaların) bətnlərindən çıxmayıblar, pis sudan (spermadan) yaranmayıblar. Ruzigarın hadisələri onları bir-birindən ayırmayıb, dağınıq salmayıb. Onlar Sənin yanındakı məqam və mənzilləri ilə, bütün istəklərini Səndə cəmləşdirmələrinə (Səndən başqa bir şeyi nəzərlərində tutmurlar) rəğmən, Sənə ibadətlərinin çoxluğu, əmr və fərmanından bir an olsa belə, qəflətdə qalmamaları ilə belə yenə də onlara gizli olan əslini və həqiqətini aşkar görsələr, əməllərini (Sənin əzəmət və böyüklüyünün müqabilində) kiçik sanaraq (itaətdə təqsirlərinə görə) özlərini danlayıb məzəmmət edəcəklər. Başa düşəcəklər ki, Sənə (Zatına) layiq olan ibadəti yerinə yetirməyiblər.

(Bu fəsildə camaatın dünya malına aldanmasını məzəmmət edərək ölümün çətinliklərini xatırladır) İlahi, Səni hər eyb və nöqsandan təmiz, yüksək hesab edirəm ki, məxluqların yaradıcısı və varlığın pərəstişgahısan. İmtahan və sınağından yaxşı çıxan məxluqların üçün saray (Cənnət) yaratmısan, orada qadınlar və xidmətçilər, qəsrlər, çaylar, gəmilər bərqərar etmisən, yeməli, içməli şeylərdən və meyvələrdən süfrə açmısan. Dəvət edəni (Həzrət Peyğəmbəri) göndərdin ki, (camaatı) ona tərəf çağırsın. Dəvət edənə cavab verməyib təşviq etdiyin nemətlərə rəğbət göstərmədilər, həvəsləndirdiyin yaxşılıqlara müştaq olmadılar. (Əksinə), murdara (dünyaya) üz tutaraq onu yeməklə rüsvay oldular, onunla dostluğa razılaşdılar. Hər kim nəyə aşiq olarsa, bu məhəbbət onun gözünü kor, ürəyini xəstə edər. (Belə ki, onun eybini görməyərək çirkinliklərini də gözəl sanar.) Deməli, o, (dünyanın fəsadlarına) görməyən gözlə baxar, (həqiqətləri) eşitməyən qulaqla dinləyər. Əbəs istəklər onun ağlını didib, dünya ürəyini öldürərək özünə valeh edib. O, dünyanın və dünyadan əlində bir şey olanın bəndəsidir. Dünya hansı səmtə dönsə, ora dönər, hara üz tutsa, ora yönələr. Allah tərəfindən qadağanedici və nəsihətçi olandan (Qur'ani-Kərimdən) qəflətdən oyanmayıb, öyüd almır. Halbuki götürülmüşlərin necə də qəfil yaxalandıqlarını və pozmaq, dönüş və qayıdışa imkanı olmadıqlarını («Xudaya bizi dünyaya

qaytarsan, əmr və fərmanlarına əməl edəcəyik» demələri üçün imkanı olmadıqlarını), təsəvvür etmədiklərinin (ölümün) onları necə haqlayaraq rahatlıqla yaşadıqları dünyadan ayırdığını, vəd olunan axirətə çatdırdıqlarını görürlər. Onların başına gələn çətinliklər vəsf olunmaz. Can verməyin çətinliyi, əldən gedənə görə qəm və kədər onları bürüyür, əl-ayaqlarını süstləşdirir və rənglərini dəyişir. Ondan sonra onlarda ölümün təsiri artır, hər birinin özü ilə sözü arasına manea düşür. (Söz danışa bilmir.) Öz əhli-əyalı arasında gözü ilə (onların iztirab və narahatlıqlarını) görür, qulağı ilə (onların ah-naləsini) eşidir, ağlı yerində, fəhmi bərqərardır. Ömrünü necə başa vurduğunu, ruzigarını necə keçirdiyini fikirləşir. Topladığı malları, onları qazanmaq üçün (halala və harama) göz yumduğunu, onları (halallığı və haramlığı) aşkar və şübhəli yerlərdən əldə etdiyini yada salır. Doğrudan da o, mal-dövlət toplamağın ziyanlarına (ona görə olan cəzalara) düçar olub və onlardan ayrıldığında (bundan) agah olub. Bu mal-dövlət ondan sonra həmin naz-nemətdən istifadə edib xoş günlər keçirən sağ insanlara qalacaq. Deməli, o mal-dövlətin rahatlığı (onun xoş güzəranı) ondan qeyrisi üçündür və o yükün dəyəri (məsuliyyəti) isə onun kürəyindədir. Həmin kişi də o mal-dövlətin girovundadır. (O mal-dövlətin hesab-kitabından qurtulmayıb və qaçmağa yolu yoxdur.) Ölüm vaxtı ona aşkar olanların (çətinliklərin) təsirindən peşman olaraq əlini dişləriylə gəmirər, həyatı boyunca meyl etdiklərinə meylsiz olar. Arzu edər ki, ey kaş o malları özü yox, məqam və rütbəsini arzuladığı, malına həsəd apardığı başqa bir şəxs yığaydı. Ölüm (izləri) onun qulaqları da dili kimi işdən düşənə (heç bir söz eşitməyənə) qədər ardı-arası kəsilmədən onun bədənində görünər. Öz əhli-əyalı arasında elə hala düşər ki, nə dinib danışar, nə qulağı eşidər, öz gözlərini onların üzlərinə baxmaq üçün açar, onların dillərinin hərəkətini görüb sözlərini eşitməz. Sonra ölüm (izləri) daha da artıb ondan yapışacaq, qulaqlarını bürüdüyü (heç nə eşitmədiyi) kimi gözlərini də bürüyəcək (artıq heç nə görməyəcək) və canı bədənindən çıxacaq. Beləliklə, öz əhli-əyalı arasında murdar bir ət olar ki, ondan qorxaraq uzaq durarlar. Nə ağlayana yoldaşlıq edər, nə də çağırana cavab verər. Bundan sonra onu götürüb yerdəki (son) mənzilinə (qəbrə) gətirəcək və onu orada (tənha qoyub) əməlinə tapşıracaq, onu görməkdən əl çəkəcəklər. (Daha sonra İmam əleyhis-salam qiyamət günü yaradılmışların necə geri dönəcəyini şərh edir.) O zaman ki Allah-təalanın insanlar üçün təyin etdiyi vaxt qurtaracaq, aləmin müqəddəratı bitəcək və yaradılmışların axırı əvvəlinə qovuşacaq (hamı öləcək) və Allahın istədiyi

insanların yeniləşməsi (ölülərin dirilməsi) üçün fərmanı çatacaq. (O zaman) Səmanı hərəkətə gətirib yaracaq, yeri alt-üst edərək titrədəcək, dağları yerindən qopararaq ətrafa dağıdacaq, Allahın heybət, cəlal, əzəmət və qələbəsinin qorxusundan dağlardan bəziləri-bəzilərinə çırpılacaq. Yerin altında kim varsa, hamısını üzə çıxardacaq. Deməli, onları köhnəldikdən sonra yeniləşdirib, üzvləri dağıldıqdan sonra bir yerə yığacaq. Sonra gizli iş və əməllərinə görə sorğu-sual etmək istədiyi üçün onları bir-birindən ayıracaq. Onları iki dəstəyə ayırıb (dünyada yaxşı işlər görüb itaət edən) bir dəstəyə nemət əta edəcək, (pislik edib itaətsiz olan) dəstədən intiqam alacaq. Ancaq itaət əhlinin mükafatını rəhmətində qərar verəcək, Öz əbədi cənnətində yerləşdirəcək. Elə bir cənnət ki, daxil olanlar bir daha ondan çıxmaz, (isti, soyuq, qocalıq, cavanlıq və bu kimi şeylərlə) halları dəyişməz, qorxu onlara üz tutmaz, xəstəliyə mübtəla olmazlar, təhlükə ilə üzləşmədikləri, səfərlərin onları dəyişib (qəribçiliyin qəm-kədərini, evdən uzaqlığın qüssəsini çəkməmələri üçün) bir yerdən başqa yerə aparmaz. Ancaq günah əhlinin cəzası budur ki, onları ən pis yerə (cəhənnəmə) daxil edəcək, əllərini boyunlarına keçirəcək, alınlarının tüklərini ayaqlarına bağlayacaq və əyinlərinə (çox pis qoxulu yağ olan) qətran köynək, alov saçan paltarlar geydirəcək. İstisi çox yandıran əzabda, qapıları (çölə çıxa bilməmələri üçün) sakinlərinin üzünə bağlı olan evdə qalacaqlar. Çox yandırıcı, hay-həşiri, alovu ərşə çıxan və qorxunc səsli atəşdədirlər. O atəşdə olanlar çölə çıxmaz, ona əsir düşəndən fidyə (əsiri azad etmək üçün verilən mala deyilir) qəbul olunmaz, (çünki cəhənnəm odunda yananın özünü qurtarmaq üçün verməyə malı olmaz, tutaq ki, olsa belə, qəbul edilməz), qandal və bəndləri sınmaz. Onun üçün bir müddət yoxdur ki, sona yetsin, nə də onun sakinləri üçün müəyyən zaman var ki, başa çatsın. (Və onları əzabdan qurtarsın. اللّٰهُمَّ إنّا نَعُوذُ مِنْها بِرَحْمَتِكَ الَّتِی سَبَقَتْ غَضَبَكَ İlahi Sənin qəzəbindən öndə olan rəhmətinə pənah gətiririk.)

Bu xütbənin bir hissəsi Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – (və o Həzrətin vəsilərinin) vəsfi barəsindədir

Həzrət Peyğəmbər dünyanı kiçik görürdü, onu xırda sanırdı (ona ürək bağlamadı) və ona əhəmiyyət verməyib onu aşağı hesab etdi. Bilirdi ki, Allah-təala onu seçib və dünyanı (məhəbbət və dostluğunu) ondan uzaqlaşdırıb, kiçik və aşağı olduğuna görə onu Həzrətdən qeyrisinin

nəzərində cilvələndirdi. (Dünyanı dünyapərəstlərə nəsib etdi.) O böyük şəxs də qəlbən dünyadan üz döndərib meylsizlik etdi və ya onu yada salmağı öz nəfsindən uzaqlaşdırdı (onu xatırlamaqla məşğul olmadı). Onun zinətindən bəzənmiş paltar istəməmək və ya orada yaşamağı arzulamamaq üçün dünyanın zinət və bəzəyinə baxmamağı sevərdi. Allahının tərəfindən (dəlil və sübutla) hökmləri təbliğ etdi, ümmətini və ardıcıllarını (ilahi əzabla) qorxudub öyüd-nəsihət verdi, onları müjdələyərək Behiştə dəvət etdi. (Biz on iki İmam əleyhimus-salam) Peyğəmbərlik şəcərəsindənik. İlahi risalət və sifarişin endiyi, mələklərin gedib-gəldiyi bir xanədandanıq. Biz mərifət və bilik mədənləri, hikmət çeşmələriyik. Bizim dost və yarlarımız ilahi rəhmətin intizarındadırlar. Düşmən və bədxahlarımız Allahın qəzəbinə hazırdır. (Əhli-beytin düşmənləri mütləq qəzəbə düçar olacaqlarına görə bu ilahi əzablarını gözləmiş olmaları kimidir.)

İmam Əli əleyhis-salamın (Allaha yaxın olmağın və İslamın əlamətlərini qoruyub saxlamağın yolları barədə) xütbələrindəndir. Allah-təalaya tərəf yaxınlaşmağın ən yaxşı yolu (ondur, onların birincisi) Allahın birliyini, vahidliyini və Onun elçisinin (Məhəmmədin - səlləllahu əleyhi və alih -) peyğəmbərliyini təsdiqləyib etiraf etməkdir. (İkincisi) İslamın (əzəmətli sütununun) ucalmasına səbəb olan Allah yolunda (kafirlərə və dinin düşmənlərinə qarşı) cihad və müharibə etməkdir. (Üçüncüsü) (İlahi bəndələr üçün) fitri və təbii olan ixlas kəlməsidir («La ilahə illəllah» deməkdir). (Dördüncüsü) İslam dininin dinlik nişanəsi (dinin ən böyük sütunu) olan namaz qılmaqdır. (Əzəmət və əhəmiyyətinə görə onu dinin özü adlandırmışdır.) (Beşincisi) Allah tərəfindən müəyyən edilmiş pay olan zəkatdır. Onu ödəmək (imkanı olanlara) vacibdir. (Altıncısı) əzab üçün sipər olan Ramazan ayının orucudur. (Yeddincisi) Allahın evinə Həcc ziyarətinə getmək, onun Ümrə əməllərini yerinə yetirməkdir. Həcc və Ümrə yoxsulluğu, pərişanlığı aradan götürər, günahı yuyub paklaşdırar. (Səkkizincisi) Malın, sərvətin artmasına və ömrün uzanmasına səbəb olan sileyi-rəhm (qohum-əqrəbaya yaxşılıq edib xeyir vermək). (Doqquzuncusu) Sədəqədir (yoxsullara və əlacsızlara edilən ehsandır). Gizli verilən sədəqə günahı örtər. (Buna görə Allah-təala müsibət və günahın nəticələrini azaldar.) Aşkar sədəqə pis ölümü (qəfil ölüm, suda batmaq, yanmaq, dağıntıların altında qalmaq və bu kimi ölümləri) dəf edər. (Onuncusu) Bəyənilmiş işlər görmək (yaxşılıq, xeyirxahlıq və qardaşların arasını düzəltmək). Yaxşı əməllər insanı zillət və xarlığa düçar olmaqdan qoruyar. (Yaxşı əməl sahibi dünyada və axirətdə başıuca olaraq zillətə və bədbəxtliyə düçar olmayacaq.) Allahı xatırlamağa tələsin ki, Allahı anmaq zikrlərin ən yaxşısıdır. Pərhizkarlara vəd verdiyinə (cənnətə) rəğbət göstərin ki, Onun vədi ən doğru vəddir. Öz peyğəmbərinizin hidayəti və göstərdiyi yolla gedin ki, onun yol göstərməyi hidayətlərin ən üstünüdür. Onun sünnəsi və yoluna uyğun rəftar edin. Çünki onun yolu ən doğru yolgöstərən sünnə və yoldur. Ən yaxşı deyim olan Qur'anı öyrənin. Ondakılar barədə fikirləşib düşünün ki, Qur'an qəlblərin

baharıdır. (Ürəkdə elm və hikmətin hər cür güllərini bitirir.) Onun hidayət nuru ilə (cəhalət və nadanlıq xəstəliyindən) şəfa diləyin ki, Qur'an sinələrin (xəstəliklərinin) şəfasıdır. Onu gözəl oxuyun (sözlərini səhvsiz oxuyub mənasına riayət edin və hökmləri barədə düşünün) ki, o, deyimlərin ən faydalısıdır. (Qur'anı bilənin rəftarı onun göstərişinə uyğun olmalıdır. Çünki) Elminin ziddinə hərəkət edən alim cəhalət və nadanlıqdan özünə gəlməyən cahil və nadana bənzəyir. (Elmin faydası olmayan yerdə bir tədbir qalmaz.) Əksinə, onun aqibəti üçün dəlil və sübut (Qiyamət günündə cahilə əzab üçün olan dəlil və sübutdan) daha çox, həsrət və kədəri daha artıq, Allah yanında məzəmmət və qınağı daha boldur.

İmam Əli əleyhis-salamın (dünyanı məzəmmət etdiyi və ondan uzaqlaşmaq barədə) xütbələrindəndir. Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra, sizləri dünyadan (ona ürək bağlamaqdan) çəkindirirəm. Çünki dünya (dünyapərəstlərin ağzında) şirin və (onların nəzərində) yam-yaşıldır. Şəhvətlərə və əbəs istəklərə bürünmüşdür. Tez ötüb-keçən mal-dövləti ilə (istəyənlərinə) dostluq izhar edər, azacıq zivərləri ilə (camaatı) heyrətə salaraq şad edər. (Yersiz və güvənilməyən) Arzular və (nadanları) aldatmaq üçün özünü bəzəmişdir (öz istəyənlərinin din və dünya sərmayələrini oğurlamaq üçün özünü fahişə kimi bəzər). Onun şadlığı sabit deyil, dərd və kədərindən rahatlıq yoxdur, çox aldadıcı və ziyankardır. Halları dəyişəndir. Fani, məhv və puç olacaq. (Hamını) həlak edən qarınquludur (yerin qarnı heç vaxt insandan doymaz və ruzigarın gərdişi insanları məhv etməkdən usanmaz). Ondan razı olan dünyapərəstlərin arzusu başa çatan zaman dünya olduğundan qabağa getməyəcək. Necə ki, Allah-təala (Qur'ani-Kərimin Kəhf surəsinin 45-ci ayəsində) buyurub: كَمَاءٍ أَنْزَلْنَاهُ مِنَ السَّمَاءِ فَاخْتَلَطَ بِهِ نَبَاتُ الْأَرْضِ فَأَصْبَحَ هَشِيمًا تَذْرُوهُ الرِّيَاحُ وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ مُّقْتَدِرًا yəni: Dünya göydən yağdırdığımız yağmura qarışıb (onunla yetişən), sonra sübh çağı (səhəri gün) dönüb küləyin sovurduğu quru çör-çöp olan yerdəki bitkiyə bənzəyir. Allah hər şeyə (hər bir işə) qadirdir. (Dünyanın rahatlığı və xoşgüzəranlığı qısa zaman ərzində quruyub varlığı fanilik küləyilə sovrulan yam-yaşıl bitkiyə bənzəyir.) Kimsə dünya malından boğaz qurudan göz yaşlarından (qəm və kədərdən) başqa sevinc və şadlıq görmədi. Pisliklərinin vurduğu ziyandan başqa bir kimsəyə xoş üz göstərmədi. (Dünyaya arxa çevirərək nemətini ondan almasından başqa heç kəs öz istəyi ilə dünyadan öz qarnını doydurmadı və öz arzusuna çatmadı.) Bu dünyada bəla buludu üstünə dalbadal yağış yağdırmaqdan savayı dolu yağışlar onu xoşbəxt eləmədi. (Dünyanın işi belə olduğuna görə) layiqdir ki, (dünya) səhərin erkən çağlarında insanın dostu, yarı olub ona yoldaşlıq etsin və gecə dəyişərək düşməninə çevrilsin. Onun bir tərəfi şirin və şəffaf olsa da başqa bir tərəfi acı və (öldürücü xəstəlik olan) vəbalıdır. Heç kəs müsibət və kədərlərinin ağrı-acısını dadmaqdan savayı onun xoşluğundan muradına yetməz, səhərini

xof və qorxu qanadlarında açmadan bir gecəni belə rahatlıq və asayiş qanadında başa vurmaz. Çox aldadıcıdır. Onda nə varsa, hamısını aldadar. Fani olasıdır, ondakıların hamısı fani olar. Təqva və pərhizkarlıqdan başqa onun azuqələrinin heç birində xeyir və yaxşılıq yoxdur. Hər kim dünya malından azacıq qazansa, onu (qiyamətdə hesab-kitabın ağırlığından) çox qoruyacaq bir şey əldə etmişdir. Hər kim çox qazansa, (hesab-kitab vaxtı) onu həlak edəcək, (dünyada da) tezliklə zay olacaq bir şeyə sahib olmuşdur. Nə çoxdur dünyaya etimad edib ona ürək bağlayan, dünyanın isə dərdə saldığı insanlar. Nə çoxdur dünyadan əmin olan və dünyanın isə yerə sərdiyi insanlar. Nə çoxdur böyük məqam sahibi olan və dünyanın isə kiçildərək alçaltdığı kimsələr. Nə çoxdur fəxr edən və özündən razı olan, dünyanın isə zəlil, xar etdiyi kimsələr. Dünyanın səltənəti və rəhbərliyi dövredicidir (gah ona, gah buna) və onun xoş güzəranı (küdurətlə) bulanıqdır. Onun (dünyapərəstlər üçün təmiz olan) saf suyu (aqil və gözüaçıq insanlar üçün) şor və çirklidir. Onun şirinliyi ağacın şirəsi kimi çox acıdır. Onun təamı ölümcül zəhərlər, vasitələri (ona ürək bağlanan şeyləri) çürümüş və tikə-tikə olmuş kəndirlər kimidir. Onun dirisi ölümə, sağlamı isə xəstəliyə doğru hərəkət edir. Onun hakimiyyəti əldən çıxmış, dəyərlisi əlaltı olmuş, varlısı müsibətə düşmüş, qonşusunun (dünyada yaşayanın) malı qarət edilmişdir. Sizdən əvvəlkilərin olduğu yerlərdə deyilsinizmi? Hələ onların ömürləri daha uzun, izləri daha qalımlı, arzuları daha çox, insanları daha hazır və qoşunları daha sıx idi. Dünyaya necə vardısa, elə də pərəstiş edib seçdilər. Sonra dünyadan özləri ilə yola götürəcək azuqəsiz, yol getmək üçün miniksiz köçdülər (öldülər). Sizlər (ata-babalarınızın öldüyü vaxt) dünyanın özünü (və ya kimsəni ölməmələri üçün) fidyə verdiyini və ya onlara yoldaşlıq etdiyini, yaxşılığa görə onlara kömək etdiyini eşitmisinizmi? (Xeyr!!!) Əksinə, ömürlərinin direklərini çətinliklər və dərdli müsibətlərlə laxladaraq tərpədib və üzlərini, alınlarını torpağa sürtüb, mehtərlərinin əl-ayaqlarını təpiklə döyəcləyib. Köməkliyi bu olub ki, ruzigarın ağır hadisələrini başlarına gətirib. Belə isə, dünyanın ona yaxınlaşıb onu seçənlərə və etimad edənlərə dəyişdiyini və tanımsızlığını (düşmənçiliyini) gördünüzmü? Hətta ondan həmişəlik ayrılaraq köçdülər (bir daha onlar üçün qayıdış yoxdur). Onlara aclıqdan başqa bir azuqə, darısqallıqdan (gor) başqa bir yer, qaranlıqdan (qəbir) başqa bir işıq verdimi? Onların dalınca çətinliklərə görə peşmançılıqdan başqa bir şey tədarük gördümü? Belə bir (vəfasız) dünyanı seçir, ona ürək bağlayır, onu əldə etməyə tamahlanıb çalışırsınız? Ona

bədgümanlıq etməyib orada yaşayanda təhlükəsindən qorxu-hürküsü olmayan üçün pis bir saraydır. Özünüz bilsəniz də agah olun ki, (əvvəl-axır) dünyanı tərk edib ondan köçəcəksiniz. «Güc və qüdrətdə bizdən üstün olan varmı?» deyənlərdən ibrət alın. (Hamısı öldülər və) taxta miniklərə mindirilib gorlarına tərəf aparıldılar. Onlara süvari demirlər (çünki süvari miniyinin ixtiyarı əlində olana deyilir). Gorlarına qoysalar da onlara qonaq demirlər. (Çünki qonaq öz ayağı ilə bir yerə gedər və ona qulluq edərlər.) Onlar üçün yerin dibindən qəbirlər, torpaqdan kəfənlər, çürümüş və sınıq sümüklərdən qonşular müəyyən olundu. Onlar elə qonşudurlar ki, çağırana cavab verməz, (özlərinə edilən) zülm və sitəmin qabağını almaz, növhəyə etina etməzlər. Üstlərinə yağış yağsa, şadlanmaz, yoxsulluq üz versə, ümidsiz olmazlar. (Dünyanın qəm, kədər və çətinliyindən azad, özlərinə qapalıdırlar.) Hamılıqla bir yerdədirlər və tənhadırlar, qonşudurlar və bir-birindən uzaqdırlar. (Çünki bir-birlərinin vəziyyətindən xəbərləri yoxdur.) Bir-birləri ilə yaxındırlar və görüşmürlər, qohumdurlar və qohumluqlarını bildirmirlər. Səbrlidirlər və ürəklərində kin yoxdur, nadandırlar (heç nəyi dərk edib anlamırlar) və kinləri aradan getmişdir. Onların qəm və kədərindən kimsə qorxmur, onların köməyinə, yoldaşlıqlarına ümid də yoxdur. Yerin üstünü altına, (dünyanın) genişliyini darlığa (qəbrə), öz əhli və dostları ilə olmağı qəribçilik və tənhalığa, işıqlığı qaranlığa çevirmişlər. Torpaqdan lüt-üryan ayrıldıqları (yarandıqları) kimi yerin təkinə gəldilər (qayıtdılar). Öz əməl və işləri ilə dünyadan həmişəlik həyata və əbədi saraya köçdülər. (Orada yenidən diriləcək və bir daha ölməyəcəklər, istər yaxşı, istərsə də pis əməl sahibi olsunlar.) Allah-təala (Qur’ani-Kərimin Ənbiya surəsinin 104-cü ayəsində) buyurur: كَمَا بَدَأْنَا أَوَّلَ خَلْقٍ نُّعِيدُهُ وَعْدًا عَلَيْنَا إِنَّا كُنَّا فَاعِلِينَ «İnsanları ilk dəfə yaratdığımız kimi dirildib əvvəlki halına salarıq. Bizim bu vədimiz mütləqdir, onu yerinə yetirəcəyik».

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın ölüm mələyi (əleyhis-salam) və onun insanların ruhunu almasını xatırladığı xütbələrindəndir. (Allah-təalanın zatının əslinin dərkedilməz olmasına da işarə buyurur.) Onu (can almaq üçün) mənzilə daxil olarkən hiss edib başa düşürsənmi? Yaxud da onu can alanda görürsənmi? (Xeyr!!!) (Heyrətləndiricidir ki,) anasının qarnında olan uşağın ruhunu necə alır? Anasının bəzi üzvlərindənmi ona yol tapır? Yoxsa ruh Allahının izn və fərmanı ilə Ona tərəf gedir? Yaxud ölüm mələyi uşaqla birlikdə onun anasının daxilində məskunlaşıb? Özü kimi olan (yoxluqdan vücuda gələn) məxluqu (ölüm mələyini) vəsf etmək gücündə olmayan öz Allahını necə vəsf edər?

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

İmam Əli əleyhis-salamın (dünyanı məzəmmət və axirətə təşviq etdiyi) xütbələrindəndir. Sizi dünyadan çəkindirirəm, çünki dünya sabit yer deyil. Ora su və bitki istəyəcəyiniz (rahat qalacağınız) eniləsi yer deyil. Özünü aldadıcı şeylərlə bəzəmiş və öz bəzək-düzəyi ilə (camaatı) aldatmışdır. Allahının yanında xar və alçaq bir saraydır. (Bu səbəbdən də) Onun halalını haramla, yaxşısını pislə, həyatını ölümlə və şirinini acı ilə qarışdırdı. Allah-təala onu dostları üçün saf və sağlam yaratmamış (əksinə, darlıq və çətinlikləri onlara nəsib etmişdir) və onu düşmənlərinə verməyə xəsislik etməmişdir. Xeyri və yaxşılığı az, (deməli, himmət sahiblərinin ona rəğbəti yoxdur) şəri və pisliyi hazırdır (deməli, onda amanda deyillər). Başına toplaşanlar fani və məhv, abadlığı xarab olar, dövləti əldən çıxar. (Deməli, ağıllı insanlar ona ürək bağlamazlar.) Uçuq-sökük bina kimi dağılacaq sarayda nə xeyir və yaxşılıq olar? Bəs o sarayda azuqəsi yeyilib qurtaran kimi başa çatan ömürdən necə? Bəs yolun keçilməsitək sonu yetişən müddətdən necə? Allahın sizə vacib qıldığını öz istəklərinizə çevirin. (İbadət və bəndəliyi qazanmaq üçün səy göstərib çalışın.) Sizdən istədiyini (fərmanına əməl etməyi) yerinə yetirmək üçün Ondan kömək və yardım istəyin. (Heç vaxt bu istəkdən qəflətdə qalmaq olmaz. Çünki əbədi xoşbəxtliyi qazanmağın mənşəyi diləyən hər kimsəyə əta etdiyi uğurdur.) Ölümün dəvətini, sizləri çağırmamış öz qulaqlarınıza eşitdirin (çox təhlükəli bir yola azuqə yığın ki, öləndə əliboş olarsınız). Zahid insanlar bu dünyada (zahirdə) gülsələr də, ürəkləri (Allah xofundan) ağlayar, (nəzərlərdə) şad görünsələr də (ilahi əzabdan) kədər və hüznləri ağırdır. Onlara verilənlərə (vəziyyətlərinin yaxşılığına) görə qibtə edilsələr də (ibadət və bəndəlikdə olan təqsirlərə görə) nəfslərinə olan qəzəbləri çoxdur. Ölümü xatırlamaq qəlblərinizdən qaçıb-gizlənmiş (onun çətinliklərini nəzərə almırsınız) və sizi yalan arzular bürümüşdür. Deməli, dünya sizlərə axirətdən daha çox hakim kəsilmiş, keçici dünya əbədi və daimi axirətdən daha çox sizləri özünə tərəf çəkmişdir. Allahın dinində siz hamınız (bir) qardaşsınız. Batinlərin natəmizliyi və düşüncələrin pisliyindən başqa bir şey sizlərin arasına ayrılıq salmayıb. Buna görə də bir-birinizin yükünü götürmür, (heç bir işdə bir-

birinizə kömək etmir), öyüd-nəsihət vermir, (ehtiyaclı günlərinizdə) bir-birinizə yaxşılıq və xeyiriniz çatmır, dostluq etmirsiniz! Sizlərə nə olub ki, dünyanın azını tapanda sevinirsiniz, məhrum qaldığınız axirətin çoxunu itirməyiniz isə sizləri kədərləndirmir? Dünyanın (malının) azının əlinizdən çıxması sizə iztirab verib narahat edir. Əldən verdiyinizin narahatlığı və iztirabı sizin üzlərinizdə və dözümünüzün azlığında aşkara çıxır. Sanki dünya sizin əbədi məkanınız, onun malı isə sizin üçün həmişəlik qalandır!!! Eyblərinizin üzünüzə deyilmək qorxusundan başqa heç nə sizlərdən heç kimi öz (din) qardaşı ilə görüşdə onun eybini deməkdən və barəsində pis danışmaqdan çəkindirməz. Doğrudan da axirəti əldən verib dünya ilə dostlaşmaqda bir-birinizə əsl dost olmusunuz. Sizin hər birinizin dini onun dili ilə yalaması qədərdir (dildə etiraf edib ürəyinizdə inanmırsınız). Sizin belə rəftarınız öz əxlaqından uzaqlaşaraq ağasının razılığına şərait yaradanın işinə bənzəyir (buna görə də istədiyiniz hər bir işi əminliklə görürsünüz).

İmam Əli əleyhis-salamın (təqva və pərhizkarlığa çağırdığı, dünyanı məzəmmət etdiyi, dünyadan uzaqlaşıb axirətə yaxınlaşmağa təşviq etdiyi) xütbələrindəndir. Həmd və şükrlər O Allaha məxsusdur ki, həmdi nemətlərlə və nemətləri şükrlə bağlayıb (nemətlərin müqabilində həmd etməyi vacib buyurub və eyni zamanda şükr etməyi nemətin bolluğunun səbəbinə çevirib). Bəlalarına görə şükr etdiyimiz kimi nemətlərinə də həmd edirik. Boynuna vəzifə qoyulmuş şeyə (ibadət və bəndəliyə) süstlük, tənbəllik edən, yerinə yetirilməsi qadağan olunmuş şeyə (günah və itaətsizliyə) tələsən nəfslərin müqabilində Səndən kömək və yardım istəyirik. Onun elminin əhatə etdiyi və kitabının (bəndələrin əməllərinin qeydə alınması üçün təyin etdiyi Lövhi-məhfuzun) hamısını qeyd etdiyi günahlara görə Ondan bağışlanmaq diləyirik. Elə bir elm ki, qüsurlu və məhdud deyil (böyük və kiçik günahları bilir) və heç nəyi buraxmayan (heç nəyin qeydi unudulmayan) kitab gizlinləri (ölümün ağrı-acılarını, qəbr evinin sorğu-sualının, qiyamət günü hesab-kitabın ağırlığını və s.) aşkar görən, vəd edilmişlərə (pərhizkarlara əbədi cənnət, günahkarlara isə həmişəlik yanan atəşə) agah olan şəxsin imanı tək Ona iman gətiririk. Elə bir iman ki, ixlası ilə şirki silib atar (insanı təkallahlı edər), yəqinliyi ilə şəkk-şübhəni aradan götürər (buna görə də əsil möminlər Allahın, Peyğəmbərin və onun vəsilərinin əmrlərinə dərhal əməl edərlər). Şəhadət veririk ki, şəriki olmayan tək Allahdan başqa layiqli mə'bud yoxdur. Şəhadət veririk ki, Məhəmməd (səlləllahu əleyhi və alih) Onun bəndəsi və elçisidir. (Səmimi qəlbdən və saf niyyətlə verilmiş) bu iki şəhadət (gözəl) sözləri və (bəyənilmiş) əməlləri yüksəldir. (Allah dərgahında qəbul olunar. Sözdə və əməldə ibadətin qəbulu da bu iki aydın əsasın deyilməsi və inanılmasından asılıdır.) Bu iki şəhadətin qoyulduğu tərəzinin gözü yüngül olmaz və iki şəhadətin götürüldüyü tərəzinin gözü ağır gəlməz (bu iki şəhadətə iman olmasa, heç bir əməl qəbul olunmaz). Ey Allahın bəndələri! Sizə (axirət səfərinə) azuqəni, (ilahi əzabdan) pənah olan təqvanı və Allahdan qorxmağı tapşırıram. Bu, (sahibini mənzil başına) çatdıran azuqə və (çətinlikdən) azad edən bir pənah yeridir. Ən yaxşı eşidən, dəvət edən (Həzrət Peyğəmbər) camaatı ona dəvət etdi və ən yaxşı dərk edən (İmam

əleyhis-salam) onu dərk etdi (ona əməl etdi). Dəvət edən onu eşitdirdi, dərk edən isə nicat tapdı. Ey Allahın bəndələri! Təqva və Allah qorxusu Tanrının dostlarını haram iş görməkdən saxlayır, (əzab) xof və qorxusunu ürəklərində yerləşdirir. Belə ki, onları gecələr (namaz üçün) oyaq və istinin cırhacırında (oruc üçün) təşnə saxlayır. Deməli, (axirət) dincliyini (dünyada) əziyyətə və (o günün) sirablığını (bu günün) susuzluğuna dəyişdilər. Ölümü yaxın bilərək yaxşı işlər görməyə tələsdilər, arzunu yalan sanaraq ömrün başa çatmasını nəzərdə tutdular. Deməli, dünya məhv olası bir saray, əziyyət, halların dəyişməsi və ibrətdir. Fanilik və yoxluq vəsilələrindən biri də ruzigarın (məhv etmək üçün) oxunu kamanın çilləsinə qoymasıdır. Onun oxları boşa çıxmaz, yaraları sağalmaz, ölüm oxunu diriyə, xəstəlik oxunu sağlama, çətinlik və əziyyət oxunu xilaskara tərəf atar. Qarnı doymayan yeyən, susuzluğu yatmayan içəndir.

Əzab-əziyyət vasitələrindən biri də insanın yeməyəcəyi bir şeyi hazırlaması, yaşamayacağı evi tikməsi, sonra da malını götürmədən və binanı özü ilə aparmadan Allahın yanına getməsidir (dünyadan köçməsidir, boş əllə, evsiz-eşiksiz və əbədi həsrətlə köçür). Halların dəyişməsinin nümunəsi isə budur ki, (yoxsulluğuna və pərişanlığına görə) rəhm olunan bir kişiyə (indi xoş güzəranına və imkanına görə) qibtə edilir, (sərvət və nemətinin çoxluğuna görə) qibtə olunana isə (indi zəlilliyinə və çarəsizliyinə görə) rəhm edirlər. Bu ürək acıması (onun əlindən) getmiş nemətə və (onun yerinə) gələn çətinlikdən başqa bir şeyə görə deyil. İbrətlərdən biri budur ki, bir insan (ömrünü sərf edib çox əziyyətdən sonra) arzusuna çatmağa yaxınlaşan vaxt ölüm ümidini kəsir. Nə arzusuna yetir (ki, yaxşı yaşasın), nə də (ölümün çəngindən) xilas olur (ki, hər halda, ümidsiz olsa belə, yaşasın). İlahi, (əcəba,) bu nə olan şeydir ki, sevinci və şadlığı aldadıcıdır (belə ki, öz aşiqlərini ibadət və bəndəlikdən çəkindirir) və doyanları (axirətdə) susayar, kölgəsi (cəhənnəmdə) istilik yaradar? Nə gələcək (ölüm) keçəndir, nə də keçmiş (əldən çıxanlar) qayıdandır (ki, bir iş görsün). İlahi, (əcəba,) diri ona qoşulmaq üçün ölüyə nə qədər yaxın, ölü ondan əbədi ayrılığına görə diridən nə qədər də uzaqdır? Cəzasına görə çəkilən əzabdan başqa (dünyada) pislikdən alçaq bir şey, (axirətdə) onun üçün təyin olunan mükafatından qeyri (dünyada) yaxşılıqdan gözəl bir şey yoxdur. Dünya barədə eşitdiyiniz hər bir şeyin böyüklüyü onu görməkdən daha artıq, axirətdən gördüyünüz hər şey onu eşitməkdən daha mühümdür. Deməli, (axirətin vəziyyətini) eşitmək və (peyğəmbər, İmam

vasitəsilə) qeybdən, gizlindən xəbər tutmağınız sizi görməkdən qane edər. Bilin ki, dünyada az çatıb axirətdə çox olması, axirətdə az çatıb, dünyada çox olmasından yaxşıdır. (Mükafatı əbədi cənnət olan haram dinar-dirhəmdən gözünü çəkmək əbədi əzab cəzası ilə onu yığmaqdan daha yaxşıdır). Deməli, azlığı xeyir gətirən və çoxluğu ziyan vuran nə qədər şey var! Sizə vəzifə edilənlər çəkindirildiyinizdən və qadağan olmuşlarınızdan daha geniş və asandır. Sizə halal edilənlər haram olunmuşlardan daha çoxdur. Belə isə çox üçün azdan əl çəkin, genişlik və asanlıq üçün darlığı və çətinliyi buraxın. (Dünya malını qazanmaq üçün bu qədər çalışmayın, çünki) sizin ruzinizə zəmanət verilib (mütləq sizə çatacaq) və saleh əmələ (Xaliqə ibadət və xalqa xidmətə) borclu edilmisiniz. Deməli, zəmanət verilmiş ruzini istəmək sizlərə vacib edilmiş saleh əməli yerinə yetirməkdən əvvələ keçməməlidir. Ancaq Allaha and olsun, (din və əqidələrinizə) şəkk, şübhə düşüb və əminliyiniz, inamınız sarsılıb. Sanki sizə zəmanət verilmiş (ruzi istəmək) vacibə çevrilmiş, sizlərə vacib qılınmış (saleh əməl görmək) isə boynunuzdan götürülmüşdür. Odur ki, əmələ (ibadət və xidmətə) tələsin və qəfil ölümdən qorxun. Çünki ruzinin qayıtmasına ümid olsa da ömrün qayıtmasına heç bir ümid yoxdur. (Deməli, əməldə qüsura yol vermək və ömrü ruzi istəməyə sərf etmək səhvdir.) Bu günün ruzisindən fövtə gedənin sabahın ruzisinin artırılmasına ümid var. Dünən ömürdən itənin bu gün qayıdacağına ümid yoxdur. Ümid gələcəkdə (ruzi), ümidsizlik isə (ömürdədir) keçmişdədir. Deməli, (Qur’ani-Kərimin Ali-İmran surəsinin 102-ci ayəsində buyurulduğu kimi:) اتَّقُواْ اللهَ حَقَّ تُقَاتِهِ وَلاَ تَمُوتُنَّ إِلاَّ وَأَنتُمْ مُّسْلِمُونَ İlahi əzabdan qorxun. Pərhizkar olun. Ona layiq bir pərhizkar. Müsəlman olmamış ölməyin (Allahın və Peyğəmbərin əmrlərinə əməl edin ki, müsəlman kimi öləsiniz).

←113-cü xütbə

Nəhcül-bəlağə. 114-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

115-ci xütbə→

İmam Əli əleyhis-salamın yağış dilədiyi vaxt buyurduğu xütbələrindəndir. İlahi, dağlarımız çatlayaraq quruyub, torpaqlarımız toza bələnib. Heyvanlarımız analar övladlarının müsibətində nalə çəkdikləri kimi susuzluqdan axurlarında heyran və sərgərdan qalıb nalə çəkirlər. Otlaqlara və su içdikləri yerə su həvəsi ilə gedib-gəlməkdən yorulub əldən düşüblər. İlahi, nalə edənlərin naləsinə və diləyənlərin arzusuna rəhm qıl. İlahi, heyvanların keçidlərdəki sərgərdanlığına və axurlarında (ot-ələf tapmadıqlarına görə) çəkdikləri naləyə rəhm et. İllərin qəhətçiliyi arıq (zəif, gücsüz və biçarə) dəvələr tək bizlərə üz tutduğu, yağış ehtimalı olan buludların əleyhimizə çıxdığı vaxt (buludlar görünüb ürəklərdə yağış yağacağına ümid yaratsalar da yağmırdılar) Sənin fəzl və kərəminə olan ümidlə (öz evlərimizdən) bayıra çıxdıq. Sən qəmlinin ümidi, istəyənin diləyini yerinə yetirənsən. Camaatın (hər yerdən) ümidinin üzüldüyü, buludların yağmamasından heyvanların öldüyü bir vaxt Səni çağırırıq (Səndən istəyirik) ki, bizi (çirkin) iş, əməl və günahlarımızla mühakimə etməyəsən. Çox yağmurlu bulud, buludlu bahar, heyrətamiz bərəkətli çiçəklərinlə, ölənləri (quruyanları) diriltdiyin, aradan gedəni (nemət və bolluq) qaytardığın iri dənəli bol yağışınla rəhmətini bizə şamil et. İlahi, Səndən dirildən, doyduran, çox, bütöv, yaxşı, bərəkətli, içməli və bitki bitirən su istəyirik. Çiçəkləri yetişsin, budaqları meyvə versin, yarpaqları təzə-tər olsun ki, aciz bəndələrini bədbəxtlikdən qurtarasan, ölmüş (qəhətlik görmüş) şəhərlərini dirildəsən (onların nemətini bol edəsən). İlahi, Səndən su istəyirik ki, onunla yüksəkdəki torpaqlarımız çiçəklə dolsun, enişlərimizdən (çay və arxlarda) axsın, ətraf və dövrəmizi (şəhər və kəndləri) bolluğa yetirsin, meyvələrimiz çoxalsın, heyvanlarımıza yaxşı olsun, bizdən uzaqda olan camaata da çatsın, həmişə günün altında olan yerlər (səhra və tarlalar) istifadə etsin (doysun). Ehtiyacı olan məxluqlarına, (çöllərə) buraxdığın (və azuqəsi olmayan) vəhşi heyvanlara geniş bərəkətindən və saysız kərəmindən bəxş et. Bizə rəvan, arası kəsilmədən yağan yağış göndər ki, torpaq islansın (quraqlıqdan xilas olsun). Elə bir yağış ki, başqa yağışı dəf etsin (damlaları sürətlə başqa damcıları yusun və

sürət gətirsin). İşığı yağmursuz, üfüqdəki geniş buludu faydasız, səpələnmiş buludları ağ, az yağışı soyuq küləkli yağışdan olmasın ki, qəhətlik görənlər onun çiçəklərinin çoxluğundan firavanlığa (bol nemətə) çatsınlar, çətinlik görənlər onun bərəkətindən rahatlıq tapsınlar. Çünki Sən məxluqların ümidsiz olduğu vaxt yağış göndərir, rəhmətini (dünya əhlinə) şamil edirsən. Sənsən hakim və (ehsanı ilə) öyülən. (Seyyid Rəzi buyurur:) Xütbədəki heyrətamiz kəlmələrin mənası budur: İmam Əli əleyhis-salamın buyurduğu انْصاحَتْ جِبَالُنا – yəni, «dağlar quraqlıqdan parçalandı» sözləri (ərəblər arasında) انصاحَ الثَّوْبُ «paltar sökülən kimi», eləcə də انْصاحَ النَّبْتُ وَ صاحَ وَ صَوَّحَ «bitki tək soldu» kimi də deyilir. O Həzrətin buyurduğu وَهامَتْ دَوابُّنا «heyvanlarımız təşnədir» sözündə هُيامٌ təşnəlik mənasında işlənmişdir. Həzrətin buyurduğu حَدَابِيرُ السِّنِينَ ifadəsində حَدابير sözü حِدْبَار-ın cəmidir. Yol getməkdən arıqlamış dəvə deməkdir. Xütbədə isə quraqlıq və susuzluq olan il belə dəvəyə bənzədilmişdir. (Ərəb şairlərindən biri) Zurrummə demişdir: حَدَابِيرُ ما تَنْفَكُّ إلّامُناخَةً عَلى الْخَسْفِ أَوْ تُرْمى بِهَا بَلَداً قَفْراً Yəni: Onlar yol getməkdən arıqlamış dəvələrdilər ki, yalnız aclıq axurlarında və ya onları susuz, otsuz şəhərlərə aparanda bir-birindən ayrılırlar. O Həzrətin buyurduğu وَلاقَزَعٍ رَّبابُها cümləsindəki قَزَع səpələnmiş buludun kiçik parçalarına deyilir. O Həzrətin buyurduğu وَلاشَفّانٍ ذِهَابُها onun təqdiri (onda gizlənmiş söz) وَلا ذَاتَ شَفّانٍ ذِهَابُها deməkdir. شَفَّان soyuq külək ذِهَاب az yağış mənasını verir. Deməli, Həzrət (وَلا ذَات شَفَّانٍ ذِهَابُها cümləsində) dinləyicinin məsələdən xəbəri olduğuna görə sözünü çıxarmışdır.

←114-cü xütbə

Nəhcül-bəlağə. 115-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

116-cı xütbə→

İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbəri mədh etdiyi və o böyük şəxsin bəzi sifətlərini bəyan etdiyi) xütbələrindəndir. Böyük Yaradan Həzrət Mustafanı məxluqları Allah-təalanın yoluna dəvət etmək və (qiyamətdə) onların ibadətlərinə və günahlarına şahid, sübut olmaq üçün göndərdi. (O, vəzifənin icrasında) heç bir süstlük, təqsir və səhlənkarlıq olmadan Allahının hökmlərini təbliğ etdi, Allah yolunda onun düşmənləri ilə üzr, bəhanə gətirmədən və zəifliyi, gücsüzlüyü yaxına qoymadan döyüşdü. Odur pərhizkarların rəhbəri və hidayət olanların (doğru yolu taparaq xilas olmaq istəyənlərin) gözü.

Bu xütbənin (Həccac ibn Yusifin meydana gəlməsini, Kufə əhlinə hakim kəsilərək onlara etdiyi zülmü, sitəmləri xəbər verdiyi, çirkin əməllərinin nəticəsindən onları agah etdiyi) bir hissəsidir

Mənim qeybdən bildiklərimi və sizə aşkar olmayanları (Həccacın fitnələrini) bilsəniz, əlbəttə, (öz evlərinizdən və başınızı balınca qoyub yatmaqdan əl çəkərək) quru torpağa (biyabanlara) üz tutarsınız (iztirab və narahatlıqdan biyabanlarda yaşamağı şəhərlərdən üstün tutarsınız). Gördüyünüz (çirkin) işlərə (Həccacın zülmü və qan tökmələri ilə nəticələnəcək öz İmamınızın göstərişlərinə əməl etməmənizə) görə uşağı öləndə sinə və üzlərinə şillə vuran, öz mallarını başsız, gözətçisiz buraxıb gedən arvadlar kimi ağlayarsınız. Sizlərdən hər bir kişinin başı özünə elə qarışacaq, çarəsiz qalacaq ki, başqasından xəbəri olmayacaq. Ancaq (indi rahat əyləşmisiniz və narahat deyilsiniz. Çünki mənim bildiklərimi bilmirsiniz və) sizə verilən öyüd-nəsihətləri (İmama itaət edib ardınca getmək barədə Həzrət Peyğəmbərin əmrlərini) unutdunuz. Sizi çəkindirdikləri (bəyənilməmiş rəftarınızın nəticəsində axır ki, zalım və qəddar xəlifələri sizə hakim edəcək) işlərdən rahat oldunuz. Buna görə də rəy və düşüncələriniz başıpozuq, işləriniz dağınıq və qarmaqarışıq oldu. (Həyatınızda necə rəftar etməli olduğunuzu bilmirsiniz və öz ayağınızla fitnə-fəsad alovuna girərək düşməni özünüzə hakim edəcəksiniz. Sizin bu yolunuz rüsvayçılıq olduğuna görə)

istəyirəm ki, Allah mənimlə sizin aranızda ayrılıq salsın və məni sizlərdən daha layiq olanlara (Həzrət Peyğəmbərə, Həmzəyə, Cə'fərə və zülm, sitəmi qəbul etməyənlərə) qovuşdursun. (Çünki) Allaha and olsun, onlar bəyənilmiş rəy və düşüncəli, çox helmli və səbrli kişilər, zülm və sitəmi rəva görməyən doğru, haqq söz sahibi idilər (azğınlıq yoluna qədəm qoymazdılar). Bir-birini ötməklə, qabaqlamaqla doğru yolla gedib aydın (hidayət və nicat) yoluna tələsdilər. Deməli, əbədi axirətə, gözəl şadlığa, eyşi-nuşa çatdılar (cənnət onların nəsibi oldu). Agah olun! And olsun Allaha, (cihadda süstlük və səhlənkarlığınıza, zalımların qarşısını almadığınıza görə işiniz o yerə çatacaq ki,) Bəni-Səqif qəbiləsindən bir oğlan (Həccac ibn Yusif) sizlərə hakim kəsiləcək, təkəbbüründən paltarını yerlə sürüyəcək. Haqdan üz döndərərək çox zülm, sitəm törədəcək, sizin göyərtinizi yeyəcək, (malınızı qəsb edəcək) və piyinizi əridəcək. (Sizi həmişə zülm və sitəmə məruz qoyub incidəcək.) Nəyin varsa gətir, ey Əbu Vəzəhə. (Seyyid Rəzi buyurur:) Deyirəm: «Vəzəhə» deməkdə məqsəd «xunfəsa»dır. (Bu sözün lüğətdə mənası «xunfəsa» deyil, Həccac onu «xunfəsa»ya aid etmişdir). Bu sözlər Həccacın gəlişinə işarədir. Həccacın «vəzəhə» ilə əhvalatı olub və burada onu bəyan etməyin yeri deyil.

İmam Əli əleyhis-salamın (öz səhabələrini məzəmmət etdiyi) kəlamlarındandır. (Siz son dərəcə paxıl və xəsissiniz. Bu səbəbdən də) malları onları (məxluqlara) ruzi qərar verən üçün bağışlamır (kasıblara və zəiflərə ehsan etmirsiniz). Canları onu yaradanın yolunda təhlükəyə salmırsınız (özünüzü Allah yolunda cihada hazırlamırsınız). Allahın dininin səbəbinə Onun bəndələrinin yanında əziz, hörmətlisiniz, amma Allahı bəndələrinin yanında əziz tutmursunuz (Onun əmr və qadağalarına əməl etmirsiniz). Elə isə sizdən əvvəl olmuşların mənzillərində qərar tapmağınızdan, ən yaxın qardaş və dostlarınızdan ayrılmağınızdan ibrət götürün (ki, siz də onlar kimi bu dünyadan gedəcək və əməllərinizin cəzasına çatacaqsınız).

Nəhcül-bəlağə. 117-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın («Cəməl» döyüşü qurtardıqdan sonra öz səhabələrini öyərkən) buyurduğu kəlamlarındandır. Siz haqqa yardımçı, dində qardaş, çətin gündə (döyüş meydanında) sipər, sirr səhabələrinin xasları və başqalarının deyil, (mənim) dostlarımsız. Sizin köməyinizlə (haqqa) arxa çevirənlərə qılınc çalır, (haqqa) üz tutanların itaət və tabeçiliyinə ümid bağlayıram. Belə isə nadürüstlük və şübhənin yol tapmadığı öyüdlə mənə yardım edin (dediklərimi qəbul edin). Allaha and olsun, mən (İmamlıq və onlara rəhbərlikdə) camaat üçün ən layiqli insanam.

İmam Əli əleyhis-salamın (Nəhrəvan döyüşündən sonra, Şam əhlinin İraq ətrafına hücum çəkərək camaata zülm və sitəm etdiyi vaxt) buyurduğu kəlamlarındandır. O böyük şəxs (qoşun göndərmişdi və onlara kömək üçün başqa bir qoşun da göndərmək istəyirdi) camaatı yığaraq cihada təşviq etdi. Onlar uzun müddət sakit dayanaraq heç nə demədilər. Sonra İmam əleyhis-salam buyurdu: (Sizə nə olub?) Dilsiz-ağızsız olmusunuz, lalsınız (ki, bir söz danışmır və cihada getməyə süstlük edirsiniz)? Onların bir dəstəsi dedi: «Ya Əmirəl-möminin. Əgər sən getsən, biz də sənin lə gedərik». (Bu söz həqiqətə uyğun deyildi və döyüşə getməmək üçün bir bəhanə idi.) Sonra İmam əleyhis-salam buyurdu: Sizə nə olub ki, haqqın yoluna gəlmir, doğru yola hidayət olmursunuz? Belə bir vaxtda mənim (döyüş üçün şəhərdən) çıxmağım yaraşan işdirmi? Belə vaxtda sizlərdən mənim bəyəndiyim və güclü, qüdrətli bir igid sərkərdə döyüşə gedər. Mənə yaraşmaz ki, qoşunu, şəhəri, beytülmalı, torpağa görə xəracın (yer vergisinin) yığılmasını, müsəlmanların idarəçiliyini, müraciətçilərin hüquqlarının təminini başlıbaşına buraxım və qoşunla bayıra çıxaraq (əvvəl göndərdiyim başqa) qoşunun ardınca gedib boş qutuda ox kimi hərəkət edim. (Xülasə, narahat və nigaran qalım.) Mən dəyirmanın qütbü və mismarıyam ki, dəyirman mənim ətrafimda fırlanır (işlərin nizam-intizamla davam etməsi, camaatın asayişi və qoşunun döyüş meydanında sıraya durması mənim burada olmağıma görədir). Mən öz yerimdəyəm. Mən buradan ayrılsam, dəyirman məhvərindən çıxar, aşağıdakı daşı titrəyər (əgər olmasam, işlərin nizamı pozular). Allaha and olsun, mənim sizinlə getməyim barədə fikir pis bir rəy və fikirdir (onun fitnə-fəsadı aydın görünür). And olsun Allaha, düşmənlə görüşdə şəhadətə (Allah yolunda ölümə)-əgər nəzərdə tutulubsa-ümidim olmasaydı, hər an atıma minib cənub və şimal küləkləri əsən vaxta qədər (həmişəlik) sizlərdən uzaqlaşar, sizə yoldaş olmaq istəməzdim. (Çünki) çox tə'nə vuran, eyb axtaran, haqdan üz döndərən, məkrli və hiyləgərsiniz. Sizin sayınızın çox, qəlblərinizin birliyinin az olmasının xeyri yoxdur. Sizləri yalnız (fitrətcə haqqı istəməyən) azğınlardan başqa kimsənin həlak və puç olmadığı haqq və aşkar yola

yönəltdim. Müqavimət göstərib dayanan behiştə gedəcək, ayağı büdrəyən (batil yola qədəm qoyan) cəhənnəm oduna salınacaq.

İmam Əli əleyhis-salamın (özünü və mə'sum İmamlar əleyhimus-salamı mədh, camaata, onlara itaət etməyi əmr etdiyi, saleh əməllərə həvəsləndirdiyi və qiyamət gününün əzabının ağırlığını xatırlatdığı) kəlamlarındandır. Allaha and olsun, göstərişləri çatdırmağı, vədlərə vəfa etməyi və bütün mənaları (Qur'ani-Kərimin təfsiri və tə'vilini) öyrəndim (Həzrət Peyğəmbər mənə öyrətdi). Elm və mərifət (biliklər və Allahı tanımağın) qapıları, (dində və dünyada qurtuluş üçün) işıqlı yol biz Əhli-beytin (İmam və o böyük insanın on bir övladının əleyhimus-salam) yanındadır. (Deməli, əbədi səadətə çatmaq və bədbəxtlikdən xilas olmaq üçün bizə itaət olunub ardımızca gedilməlidir.) Agah olun! Böyük Allahın dininin hökm və qanunları bir (bizim dediklərimiz elə Allahın Peyğəmbərinin buyuruqlarıdır və onlarda fərq yoxdur) və yolları isə hamardır (onda əyri-üyrülük, yəni, azğınlıq yoxdur). (Deməli,) hər kim bu hökmlərə tabe olub bu yola qədəm qoydusa, haqqa qovuşub ondan bəhrələndi. Hər kim bunu qəbul etmədisə (hökmlərə itaət etməyib bu yola qədəm qoymadı), azğın və peşman oldu. Azuqələrini onun üçün toplandığı və fikirlərin (yaxşı və pis niyyətlərin, şər və xeyir əməllərin) aşkar olduğu gündən (qiyamətdən) ötrü (Allah Peyğəmbər və mə'sum İmamların göstərişinə) əməl edin! Hər kimsəyə onun başındakı ağıl və düşüncəsi xeyir yetirməsə, ondan uzaqda, gizlində olan ağıl xeyir verməkdə daha aciz olar. Hərarəti yüksək, dərinliyi çox, bəzəyi dəmir və içməyi zərdab olan oddan qorxun. Agah olun! Camaatın arasından Allah-təalanın bir kimsəyə əta etdiyi yaxşı ad ona minnətdar olmayan kimsə üçün miras qoyduğu var-dövlətdən daha yaxşıdır.

İmam Əli əleyhis-salamın (Siffeyn döyüşündə baş vermiş «Hərir» gecəsi hadisəsindən sonra buyurduğu) kəlamlarındandır. (Hadisə haqda otuz altıncı xütbənin şərhində yığcam məlumat verilmişdir. Şam ordusu məğlub olub İraq qoşununda qələbə və fəthin nişanələrini gördükdə Əmr ibn Asın məkri, hiyləsilə döyüşdən əl çəkdilər və Qur'anları nizələrinə sancaraq iki hakimin qəzavətini xahiş etdilər. İraq qoşununun çoxu xahişi qəbul etsə də, İmam əleyhis-salam buna razı deyildi və onları xahişin qəbulundan çəkindirdi. Onlarsa çox israr edərək «onların xahişini qəbul etməsən, Osman ibn Əffanı öldürdüyümüz kimi səni də öldürərik» dedilər. Həzrət onların israrı və çirkin sözlərinin nəticəsində hakimliklə razılaşaraq ordusuna onu qəbul etməyə icazə verdi.) Səhabələrindən biri ayağa qalxaraq dedi: Bizi (iki hakimin) qəzavətə razılaşmaqdan çəkindirib sonra ona əmr etdin. Başa düşmədik ki, bu iki əmrdən hansı doğru yola, hidayətə daha yaxındır? İmam əleyhis-salam əlini əlinə çırparaq buyurdu: Bu (heyrət və sərgərdanlıq) ayıqlıq və ehtiyatını əldən verən kimsənin (sözümə tabe olmayaraq iki hakimin-yəni, Əbu Musa və Əmr ibn Asın hakimliyini qəbul etməyə məni vadar edənin) cəzasıdır!! Bilin ki, Allaha and olsun, aldanmayaraq qəzavətə razılaşmamağınızı əmr etdiyim vaxt sizləri Allahın xeyir və yaxşılıq bəxş etdiyi (nəsibiniz fəth və qələbə idi) meylinizin isə olmadığı bir işə (Şam əhli ilə döyüşə) vadar etmişdim. Müqavimətiniz olsaydı (mənim ardımca gəlsəydiniz), sizə yol göstərərdim, əyri olsaydınız, düzəldərdim. Məndən (mənə itaətdən) imtina etsəydiniz, sizləri məcbur edərdim (əmrlərimi yerinə yetirməniz üçün sizi öldürər və ya zülm verərdim). Bu yolun hər anı (mənim və sizin üçün) əminlik idi, ancaq kimin köməyi, yoldaşlığı ilə? Kimdən yardım istəməklə? Sizin özünüz mənə dərd və xəstəlik (məğlubiyyətimin səbəbkarı) olduğunuz halda sizinlə (köməyiniz və yoldaşlığınızla məğlubiyyət və düşmənin özümə hakim kəsilmək xəstəliyini) müalicə etmək istəyirəm. Tikanın meylinin tikanda olduğunu bilsə də, tikanla ayağındakı tikanı çıxarmaq istəyənə bənzəyirəm. İlahi, bu əlacsız dərdin təbibləri usandılar, kəndirlə quyudan su çəkənlər yorulub taqətsiz qaldılar (bu qövmün doğru yola yönələcəyinə ümidimiz yoxdur, Sən Özün əlac qıl). Hanı İslama

çağrılanda onu qəbul edənlər, Qur’anı oxuyub onu möhkəmləndirənlər (ona uyğun əməl etdilər) və cihada ruhlandıranlar (onları təşviq etdilər). Sonra (düşmənlə döyüş, müharibə meydanına getməyə) aşiq oldular, dəvələr (onları bir-birindən ayıranda) balalarına aşiq olduqları kimi. Qılınclarını qınlarından çıxararaq dəstə-dəstə, səf-səf yerin ətrafını (döyüş meydanını) bürüdülər. (Düşməni mühasirəyə aldılar. Bu fəthlər və qələbələr müsəlmanlara yalnız ona görə nəsib oldu ki,) bəziləri həlak oldu (öldürüldü), bəziləri isə sağ qaldı. Sağ qalmalarına (döyüşdə ölmədiklərinə) sevinməzlər. (Desəydilər «filankəs döyüşdən sağ çıxıb», buna sevinməzdilər. Çünki əbədi həyatı haqq yolunda ölməkdə görürdülər.) Ölənlərə görə başsağlığı istəməzdilər. Gözləri (Allahın xofundan) ağlamaqdan ağardı. Qarınları oruc tutmaqdan arıqladı, dodaqları dua etməkdən qurudu. Rəngləri oyaq qalmaqdan saraldı, üzlərinə təvazökarlığın qubarı (izləri) əyləşdi. Onlar (imanda) qardaşlarım (və dostlarım) idilər ki, getdilər. Layiq olanı budur ki, onların (onlarla görüşün) təşnəsi olub ayrılıqlarına və uzaqlıqlarına görə əllərimizi çeynəyək. (Çünki sizin aranızda onlar kimiləri tapılmaz.) Şeytan öz yollarını (azğınlığı) sizlərə asanlaşdırır və kələfdən bir-bir düyün açmaqla dininizin möhkəmliyini sarsıtmaq, sizlərdə birlik, ittifaq əvəzinə təfriqə, ayrılıq və ayrılığın nəticəsində fitnə-fəsad yaratmaq istəyir (ki, nəticədə haqdan əl çəkib kafir olasınız). Belə isə onun vəsvəsə və əfsunlarından üz döndərin (ona aldanıb əmrilə oturub-durmayın). Sizə öyüd-nəsihəti hədiyyə, ərməğan edəndən (İmam əleyhis-salamdan) onu qəbul edib qoruyun (dünya və axirət səadətini qazanmaq üçün onu qəbul edib əməl edin).

İmam Əli əleyhis-salamın Nəhrəvan xəvaricinin iki hakimin qəzavətinə razılıqlarını inkar edib öz sözlərinin üstündə durduqlarına (və Müaviyə ilə, Şam ordusu ilə döyüşə hazırlaşdıqlarına) görə onların qərargahına təşrif apardığı vaxt onlara dediyi kəlamlarındandır. İmam əleyhis-salam sonra buyurmuşdur: «Sizin hamınız Siffeyn döyüşündə bizimlə idinizmi? Dedilər ki, bəzilərimiz olub, bəzilərimiz yox. İmam buyurdu: «İki dəstəyə bölünün. Siffeyndə olanlar bir cərgədə, olmayanlar da başqa cərgədə dursun ki, hər dəstə ilə sözlərinə uyğun danışım. Sonra qışqıraraq camaata buyurdu ki, danışmaqdan çəkinin və sözlərim (eşitmək) üçün sakit olun, ürəklərinizi mənə yönəldin. Hər kimsəni şəhadət verməsi üçün istəsəm, biliyinə və məlumatına uyğun o barədə danışsın. Sonra İmam əleyhis-salam onlara çox mətləbləri, o cümlədən bunları buyurdu: Şam əhli hiylə, kələk və yalanla Qur'anı nizələrinə taxanda «onlar bizim qardaşlarımız, bizim kimi müsəlmandırlar, müharibəni qurtarıb döyüşə son qoymaq istəyirlər, Qur'ana üz tutmuşlar və rahatlıq, asayiş diləyirlər, istəklərini qəbul edib qəm, kədərlərini dağıtmağımız məsləhətdir» demədinizmi? Mənsə sizə dedim: «(Qur'anı nizəyə keçirməklə bizdən sülh istəyən) Şam əhlinin bu işinin zahiri iman, allahpərəstlik, batini isə zülm və sitəmdir. Əvvəli mehribanlıq, sonu peşmançılıqdır. Öz gedişatınızı izləyin, getdiyiniz yolu davam etdirin və (onlarla) cihad, müharibə üçün dişlərinizi bir-birinə sıxın (dözümlü olun ki, qələbə qazanasınız). Fəryad çəkən harayçıya (sizi Qur'anla aldadan Müaviyə və Əmr ibn Asa) fikir verməyin ki, onun istəyi qəbul edilsə, sizi azdırar (həyatınızı ağırlaşdırar və sərgərdan qoyar), saymasanız, zəlil və xar olar. (Lakin sözlərimi və nəsihətlərimi qəbul etmədiniz və) bu iş (iki hakimin qəzavəti ilə razılaşmağınız) baş tutdu və sizləri onda çalışan gördüm. Allaha and olsun ki, iki hakimin qəzavətindən imtina edib onun yükünün altına getməzdim və onun hər vacib işi mənə fərz olmazdı. Allah-təala o işi tərk etməyin günahını mənə yükləməzdi. (Çünki haqqın əleyhinə hərəkət etməmişdim, əksinə, ilahi göstərişə uyğun olaraq bu işə qarşı çıxmışdım.) And olsun Allaha! Əgər bu işi görsəydim, mənə itaət edilməyə layiq olardım və Allahın Kitabı (Qur'ani-Kərim) mənimlədir. Onunla həmsöhbət və yoldaş

olandan ayrılmamışam. Sonra (İmam əleyhis-salam Həzrət Peyğəmbərin səhabələrinin iman və dönməzliklərini xatırladaraq müxaliflərin sözlərini rədd etmək üçün buyurur:) Biz Həzrət Peyğəmbərlə (səlləllahu əleyhi və alih) birgə idik və (kafirlərlə, müşriklərlə döyüşürdük və) atalarla oğullar, qardaşlar və qohum-əqrabalar bir-birini qətlə yetirir, qanlarını axıdırdılar. (İslamın irəliləyişi üçün bunlara əhəmiyyət vermir, o böyük şəxsin əmrlərinə qarşı çıxmırdıq.) (Üzləşdiyimiz) hər müsibət və çətinliyə (Allaha və Peyğəmbərə) imandan, haqq iş görməkdən, (o Həzrətin) əmr və fərmanlara təslim olmaq və yaraların yanğısına dözməkdən başqa bir şey artırmırdıq. Ancaq (indi biz kafir və müşriklərlə çəkişmirik ki, onlarla həmin yolla döyüşək, əksinə,) bu gün küfrə meyl, əyrilik (haqdan əl çəkmək), səhv salınma (haqqın batillə) və (səhv) tə'vil (yəni, haqq-ədalətin ziddinə söz danışmaq) kimi İslama daxil edilənlərin nəticəsində öz müsəlman qardaşlarımızla döyüşürük. Hərgah, onun səbəbinə Allahın bizim dağınıqlığımızı bir yerə yığacağı, onun təsirindən aramızda qalanla (ülfət və dostluqla) bir-birimizə yaxınlaşacağımız vasitəni tapsaq (sülhə, mehribanlığa və İslamın güclənməsinə səbəb olan yol tapsaq), ona meyl, rəğbət göstərib qeyrisindən (müharibədən) imtina edəcəyik.

İmam Əli əleyhis-salamın döyüş vaxtı səhabələrinə buyurduğu kəlamlarındandır. Sizlərdən hər bir kişi düşmənlə üzləşəndə özündə qəlbinin qüvvətləndiyini (şücaət) hiss edib qardaşlarından birində xof, qorxu görsə, Allahın ona əta etdiyi üstünlük və igidliyə görə düşməni qardaşınızdan da özünüzdən uzaqlaşdırdığı kimi dəf etməlidir. Odur ki, (mənə nə, hər kəs özünü müdafiə etməlidir və qorxağa düşmənin hakim olması layiqdir deməsin). (Deməsin ki,) Allahın istəyi olsaydı, onu da belə (şücaətli və qorxmaz) edərdi. (Çünki) ölüm tələskənliklə axtarandır, (hamını tapar), durub dayanan (öləcəyindən qorxaraq belə bir vaxtda öz qardaşını müdafiə etməyən igid) çəngindən çıxa bilməz, ondan qaçan onu aciz edib gücdən salmaz. (Onun əlindən qaçıb xilas olmaq mümkün olmadığından) ən əziz ölüm öldürülməkdir. (Çünki dünyada yaxşı adın qalmasına və axirətdə savaba səbəb olur). And olsun Əbu Talibin oğlunun canı əlində olana ki, min qılınc zərbəsi mənə Allaha itaətdən qeyri yataqda ölümdən daha asandır.

İmam Əli əleyhis-salamın (öz səhabələrini pisləyib danladığı) kəlamlarındandır. Sanki sizləri (yolda) bir-birinə sürtülən kərtənkələlərin dərisinin səsi tək (döyüşdən qaçmaq üçün hər şeyi bir-birinə qatarkən) səs-küy salan (hay-həşir qoparan) görürmüş kimiyəm. Haqqı qəbul etmir (düşmənə müqavimət göstərmir) və zülmün, sitəmin (zülmkarın) qarşısını almırsınız. Sizi (cənnətə gedən) yolda azad buraxıblar. Nicat və qurtuluş özünü ona atan (Allah yolunda döyüşən), ölüm və bədbəxtlik isə dayanan (cihaddan imtina edən) üçündür.

←123-cü xütbə

Nəhcül-bəlağə. 124-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

125-ci xütbə→

İmam Əli əleyhis-salamın öz səhabələrini cihada (və döyüş qaydalarını öyrənməyə) həvəsləndirdiyi kəlamlarındandır. (Döyüş meydanında düşmənlə üzbəüz gəldikdə) zirehlinizi önə, zirehsizinizi arxaya keçirin, dişlərinizi bir-birinizə sıxın (döyüşdə dönməz olmaqla çətinlikləri özünüzə asanlaşdırın). Çünki döyüşdə dönməzlik qılıncları başlardan daha da uzaqlaşdırar (döyüş meydanının çətinliklərinə dözmək qələbə və fəth üçün hər təbdirdən daha yaxşıdır). Nizələrin ətrafında əyilib-bükülün, (düşmənə nizə ilə zərbə vurarkən özünüzü endirib qaldırın və yaxud düşmən sizə nizə endirəndə özünüzü uzaq tutun), çünki nizələri bu üsulla vurmaq (onları əyilib-bükülmədən vurmaqdan) daha təsirli olur (və yaxud özünə az dəyir). Nəzərlərinizi yerə dikin (hər tərəfə baxmayın), çünki gözü yummaq qəlbin gücünün və ürəklərin rahatlığının artmasına (düşməndən qorxmamağa) səbəb olar. Səslərinizi alın (hay-küy salmayın), çünki mətanət və sakitlik (hər şeydən) xofu, qorxunu daha tez uzaqlaşdırar (qorxaqlar döyüş meydanında hay-küy salar, igidlər isə söz danışmayıb öz işlərini görərlər). Bayrağınızı yerindən hərəkət etdirib ətrafını boşaltmayın (ki, hamının diqqəti bayrağa yönəldiyinə görə qoşunun məğlubiyyətinə səbəb olar). Onu dilavərlərdən, hər pis hadisənin sizə yetişməsinə mane olanlardan və qorunub saxlanılması lazım olanı müdafiə edəndən başqa hər kəsə tapşırma. (Əlbəttə, belə insanlar zəfər çalmaqdan və ya həlak olmaqdan başqa heç vaxt bayrağı əllərindən verməzlər.) Çünki (döyüşün) bəla və çətinliklərinə o adamlar dözər ki, bayrağın ətrafına dolanaraq onu sağdan, soldan, arxadan və qabaqdan qorusun. (Düşmənə) təslim olmasın deyə ondan dala qalmasın və onu tənha qoymamaq üçün qabaqa keçməsin. Kişi (döyüş meydanında) onunla üzbəüz gələn düşməndən qorunmalı və (onu məğlub etdikdən və ya öldürdükdən sonra) öz qardaşına (yoldaşına) kömək etməlidir. Öz düşmənini buraxıb qardaşına tərəf yönəlməməlidir ki, qardaşının düşməni ilə əlbir olub (onu aradan götürüb) birlikdə ona qəsd etsinlər. Allaha and olsun, dünyanın qılıncından qaçsanız, axirətin qılıncından salamat çıxmayacaqsınız (cihada gedib Allah yolunda qılınc çalmasanız, əbədi əzabdan xilas ola bilməyəcəksiniz. Nəyə görə özünüzü qılınc çalmağa və düşmənin qarşısını

almağa hazırlamırsınız? Bir halda ki,) siz ərəbin zadəganları və böyük (hörmətli) şəxslərindənsiniz. Həqiqətən də (döyüşdən) qaçmağınız Allahın qəzəbinə (Allah-təalanın rəhmətindən uzaqlaşmağa), zillət, çarəsizlik və əbədi rüsvayçılığa səbəb olar. Qaçanın ömrü artmaz və qaçmaq onun ölümünə mane olmaz. Allaha doğru gedən (cihad edənin şövqü) suya çatan təşnə kimi olmalıdır. Cənnət nizələrin ətraflarının altındadır. Bu gün xəbərlər aşkar olacaq (qılınc vurarkən, ölərkən, öldürərkən hər kəsin sözünün düzlüyü və səhvliyi aydınlaşar). Allaha and olsun, mənim onlarla (düşmənlərlə) görüşə olan həvəsim onların şəhərlərinə olan həvəslərindən daha çoxdur. İlahi, əgər onlar haqqı rədd edib onunla düşmənçilik niyyətində olsalar, insanlarını pərən-pərən et, aralarına fikir ayrılığı sal və onları öz günahlarında həlak et. Onlar dayandıqları yerdən heç vaxt uzaqlaşmazlar (fitnə-fəsad törətmək qərarlarından əl çəkməzlər. Siz, mənim tərəfdarlarım, onlarla döyüşüb etiraz etməsəniz), düşmənin canını bədənindən çıxaran dalbadal nizələr vurulmasa, beynini yarıb sümüklərini sındıran, ayaqlarını, biləklərini və qıçlarını qıran qılınclar çalınmasa (öz pozğunluqlarını davam etdirib sizləri məğlub edəcəklər). Qoşunlar dəstə-dəstə və ardı-arası kəsilmədən onlarla üzləşməsə, saysız-hesabsız əsgərlər qələbə və yardım üçün hər bir yandan toplanıb arxada saxlanan ehtiyat atlarla onlarla döyüşməsə, yerlərindən tərpənən deyillər. Tərpənməzlər-arxasında böyük ordunun dayandığı (beş səmti – yəni, önləri, arxaları, sağları, solları və qəlbləri nizamlı, düzümlü olan) çoxlu qoşunlar onların şəhərlərinə daxil olana qədər. Atları dırnaqları ilə bir-birinə yanaşı torpaqlarını (evlərini) və heyvanlarının örüşlərini tapdaq-tapdaq edənə qədər (qısası, onların hər şeyinə hakim kəsilərlər. Seyyid Rəzi buyurur:) Deyirəm: الدَّعْقُ sözünün mənası döyüb əzməkdir, yəni, «atlar onların torpaqlarını dırnaqları ilə döyüb əzərlər». وَنَوَاحِرُ الْأَرْضِ isə üzbəüz torpaqlar mənasında işlənmişdir. مَنَازِلُ بَنِى فُلان تَتَنَاحَرُ dedikdə isə filankəsin oğullarının evlərinin bir-birinin qarşısında olması mənasını verir.

İmam Əli əleyhis-salamın Əmr ibn As və Əbu Musanın qəzavətinə razılaşdıqlarını inkar etdikləri vaxt buyurduğu sözlərdəndir. Onda öz səhabələrini məzəmmət edərək buyurur: İnsanları hakim etmədik, əksinə, Qur'anı hakim qıldıq. Bu Qur'an iki cildin arasında yazılmış və dil açıb danışmayan xətdir. Ona (məqsədini bəyan etmək üçün) tərcüməçi lazımdır və ondan söz danışanlar insanlardır. Şam əhli bizdən Qur'anı aramızda hakim etməyi istədi. (Xahişlərini qəbul etdik, çünki) Allahın kitabından üz döndərənlərdən (Onun hökmünə tabe olmayanlardan) deyildik. Allah-təala da (Qur'ani-Kərimin Nisa surəsinin 59-cu ayəsində) buyurub: فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللهِ وَالرَّسُولِ «Əgər bir işin üstündə mübahisə və düşmənçilik etsəniz, (onun islahı üçün) Allaha və Peyğəmbərə (Qur'ana və sünnəyə) müraciət edin». Münaqişə və düşmənçilik zamanı Allaha müraciət etməyimiz Onun kitabına uyğun hökm çıxarmağımız, Peyğəmbərə üz tutmağımız isə onun sünnəsini və yolunu tutmağımız deməkdir. Əgər doğruluqla Allahın kitabından hökm çıxarılarsa (öz rəyinə uyğun təfsir və nadürüst izah deyil, Onun həqiqətlərini bəyan etmək istəsələr), o hökmə (İmamətə və xilafətə) biz (İmam əleyhis-salam və o Həzrətdən sonrakı İmamlar) hamıdan daha layiqik. Əgər Allahın Peyğəmbərinin sünnəsinə əsasən hökm verilsə, biz o hökmdə camaatdan daha üstünük. Deyirsiniz ki, özünlə onlar (Şam əhli) arasında hakimlik üçün möhlət qoydun (ki, iş bu yerə gəlib çatdı. Həmin gün və ya həmin həftə əmr etməliydin ki, Allahın kitabına nəzər salıb hökmü aydınlaşdırsınlar. Cavab budur:) Möhlət verdim ki, cahil götür-qoy etsin və alim güclənsin, bəlkə bir-birindən əl çəkib mehribanlaşdıqları bu müddətdə Allah-təala bu ümmətin işini islah etdi. Nəfəs yolları tutulmasın (haqqa çatmaları üçün onları məcbur etməyim) ki, haqqı tanımaq üçün tələsib (düşünüb araşdırmadan əleyhimizə olan və bizə qarşı döyüşə çalışan) ilk azğınların ardınca getməsinlər. (Onlara möhlət verdim ki, bu işi düzgün araşdırsınlar.) Həqiqətən də Allah yanında insanların ən üstünü odur ki, haqq ona ziyan yetirib kədərləndirsə də, batilsə ona xeyir verib faydaya yetirsə belə haqqı batildən çox istəsin. Belə isə nəyə görə dalğın və sərgərdansınız, sizləri haradan gətiriblər (ki, öz İmam və rəhbərinizi tanımayaraq belə çirkin

sözlərlə onun əleyhinə çıxırsınız)? Haqdan (uzaq düşərək) mat-məəttəl qalan, didərgin düşərək onu görməyən, zülmə və sitəmə ürcah olub ondan dönməyən, Allahın kitabından uzaq olan (onu başa düşməyən), (doğru) yoldan çıxan bir dəstə ilə (şamlılarla) döyüşə getməyə hazır olun. (Ancaq əfsus ki,) siz əmin olası, etimad ediləsi deyilsiniz ki, sizə əl uzatmaq mümkün olsun (qeyrətiniz yoxdur ki, sizdən kömək istəyim), nə də (çətinə düşəndə) yoldaşlıq umulacaq adamlar deyilsiniz. Siz müharibə atəşini alovlandırmaq üçün yaramırsınız (düşmənin istilasının qarşısını almırsınız). Off, sizin əlinizdən! (Çirkin söz və əməllərinizdən təngə gəldim.) Sizlərə görə çətinliyə və giriftarçılığa düşdüm. Bir gün (dinə kömək üçün) sizi çağırır, bir gün isə (düşmənlə döyüşmək barədə) sirrini deyirəm. Çağrıldıqda (mənə cavab vermək üçün) azad və doğru danışan insanlar və sirr verərkən əmin olunası, etimad ediləsi qardaşlar deyilsiniz (ki, mənim sirrimi saxlayıb faş etməyəsiniz).

İmam Əli əleyhis-salamdan əta və bəxşişləri (beytülmal, sədəqə və qənimətləri) nəyə görə camaat arasında bərabər böldüyünü, İslam dinini çoxdan qəbul edənlərə (döyüşlərdə iştirak edənlərə və ya) şərafətli, böyük insanlara üstünlük vermədiyini kəskin şəkildə soruşduqda buyurduğu sözlərdəndir: Rəhbəri olduğum kimsəyə zülm, sitəm edilməsində yardımçı olmağımı əmr edirsiniz? Allaha and olsun, nə qədər ki, müxtəlif zəmanələrdə gecə gündüzə, səmadakı bir ulduz (cazibə qüvvəsi ilə) başqa bir ulduza doğru gedir, görmərəm bu işi (heç vaxt belə iş görmərəm). Beytülmal mənim şəxsi malım olsaydı da onu müsəlmanlar arasında bərabər bölərdim. O, Allahın malı olduğu (əlimin altında olanlar və möhtaclar ondan bölgü ilə pay yedikləri) halda bunu necə etməyə bilərəm? (Birini başqasından necə üstün tuta bilərəm?) Daha sonra İmam əleyhis-salam (beytülmalın ona düşməyən şəxslərə verilməsinin törətdiyi fəsadlar haqda) buyurdu: Agah olun ki, beytülmalın ona düşən şəxsdən qeyrisinə bağışlanması rəva deyil, israfçılıqdır. Bu malı layiq olduğundan qeyrisinə vermək verənin dünyada (zahirdə) şə'nini ucaldar, (alan kimsə ona xoş gəlmək üçün boyün əyərək təvazökarlıq edər) axirətdə yerə vurar (əbədi əzab və çarəsizliyə səbəb olduğundan onu alçaldar). Camaat yanında xətir-hörmətli, Allah yanında xar edər. (Çünki Allah yanında hörmətli şəxs Onun qanunları ilə oturub-durandır). Allahın, Öz verdiklərinin şükründən məhrum qıldığı və dostluğunu Özündən qeyrisinə yönəltdiyi kimsələrdən başqa heç kəs öz malını hədərə sərf etmədi, haqqı çatmayana vermədi. Bir gün ayaqqabısı sürüşsə, (başına pis hadisə gəlsə), yardımlarına, yoldaşlıqlarına möhtac qalsa, elə onlardan pis yoldaş, çox başa qaxan dost olmaz.

←126-cı xütbə

Nəhcül-bəlağə. 127-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

128-ci xütbə→

İmam Əli əleyhis-salamın yenə də Xəvaric barədə buyurduğu kəlamlarındandır: Sizin (mənimlə) müxalifliyiniz (iki hakimi təyin edib onların qəzavəti ilə razılaşmaqla) xəta edib yolumu azmağımı güman etdiyinizə görədirsə, nəyə görə Məhəmmədin (səlləllahu əleyhi və alih) bütün ümmətini də (öz gümanınızda) mənim azmağımla azğın sanır, onlara mənim xətama görə yanaşır, mənim günahıma görə (onları) kafir adlandırırsınız? (Belə ki,) çiyinlərinizdəki qılınclarınızı həm sağlam, həm də xəstə yerlərə endirir, (öz zənninizlə günahkar sandığınızı da, təqsirsizi də öldürürsünüz. Öz gümanınızda) günah edənlə günahsızı qarışdırırsınız. (Müqəddəs İslam şəriəti, böyük günah törətmiş olsa belə, heç kəsi kafir saymasa da hamını kafir hesab edirsiniz. Necə ki,) bilirsiniz, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) arvadı ola-ola zina edəni daş-qalaq edib sonra onun namazına durardı (sizin əqidənizə görə isə varis müsəlman olsa belə, küfr irs çatmasının qarşısını alar), mirasını (onun) yaxınlarına verərdi. Qatili öldürüb irsini varisləri arasında bölər, oğrunun əlini kəsər, arvadı olmayan zinakara qamçı vurardı. Bundan sonra isə müsəlmanların qənimət götürdüklərindən onların payını verər, onlar da müsəlman qadınlarla nigah bağlayardılar. Deməli, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) onları (kafir saymayıb, əksinə,) onlarla günahlarına uyğun rəftar edib, onlar barədə Allahın haqqını yerinə yetirmiş, onların İslamdakı paylarının qarşısını almamış və adlarını müsəlmanların arasından çıxarmamışdır. Deməli, (bundan sonra onları pisləyib danlamaq üçün buyurur) sizlər şeytanın öz azğınlıqlarına (nadanlıq və öz nadanlığına inanmamağa) atdığı, heyrət və səfilliyə məcbur etdiyi ən pis insan və ən pis camaatsınız. (Şeytanın arxasınca getməyin təsirindən) tezliklə iki tayfa mənə görə həlak olacaq: dostluqda ifrata varan dost. Belə ki, sonsuz məhəbbəti onu batil yola (onu Allah və ya peyğəmbər sanmaları kimi) çəkəcək. Digəri isə öz həddini aşan və sonsuz düşmənçiliyinin nahaq yola vadar etdiyi (xəvaric və nəvasib kimi) düşməndir. Mənim haqqımda ən yaxşı iş görənlər mö'tədil dəstədəndirlər. Belə isə bu mötədil dəstəyə yoldaş olub böyük kütlənin (adil sultanın

ardıcıllarının) ardınca gedin. Çünki Allahın əli (bu) camaatın üstündədir. (Onlara qarşı) müxaliflikdən və ayrılıqdan çəkinin. Çünki tək qalan qoyun canavara yem olduğu kimi, camaatdan təcrid olan, tənha qalan da şeytana düçar olar. Agah olun, bir kimsəni bu yola dəvət edən (dində bid'ət yaradan) hər kəsi öldürün, mənim əmmaməmin altında olsa belə. (Bid'ətçini mən olsam belə öldürün. Bundan sonra qəzavət barədə buyurur:) İki hakim Qur'anın diriltdiklərinə həyat vermək, öldürdüklərini dəfn etməkdən qeyri bir iş üçün təyin olunmadılar. Qur'anı diriltmək onunla həmməqsəd olmaq (ona əməl etmək), onu öldürmək isə ondan ayrılmaqdır (ona uyğun rəftar etməməkdir). Əgər Qur'an bizi onlara doğru çəksə, onların arxasınca gedək, onları bizə tərəf çəksə, bizim arxamızca gəlsinlər. Belə isə ey atasızlar, mən şər iş görüb sizi aldadıb, səhvə düçar etmədim. Əksinə, bu iki kişini (Əbu Musa və Əmr ibn Ası) seçmək öz fikriniz idi. Biz də onlardan Qur'andan kənara çıxmayacaqları barədə əhd-peyman aldıq. Hər ikisi haqqı gözləri ilə görsələr də yollarını azaraq haqdan əl çəkdilər. Onların zülm və sitəmləri (Allahın qanunlarına zidd rəftarları) nəfslərinə görə idi və ona uyğun da rəftar etdilər. Qabaqcadan (sülhnamədə) əhd-peyman aldıq ki, hakimiyyət ədalət və düzlük üzərində qurulmalı, haqqı nəzərdə tutmalıdır. Ancaq onların pis fikirli olmaları və zülm, sitəmlə hökmranlıq etmələri bizimlə onların arasına ayrılıq saldı. (Müqaviləyə zidd rəftar etdiklərinə görə pislənməyə və danlağa layiqdirlər.)

İmam Əli əleyhis-salamın kəlamlarındandır. (Cəməl döyüşündən sonra Bəsrədə buyurub. Qeybdən verdiyi xəbərlər silsiləsindəndir.) Bəsrədə baş verəcək ağır hadisələrdən xəbər verir: Ey Əhnəf! Onu (zəncilərin qoşununun başçısını) toz-torpaqlı, haray-həşirli, cilov və atları səssiz, (atları və silahları olmayan), öz ayaqları ilə yeri döyəcləyən (çox fitnə-fəsad törədən) bir qoşunla qiyam edirmiş kimi görürəm. Ayaqları (barmağın enliliyi, qısalığı və yastılığı baxımdan) dəvəquşu ayağına bənzər. (Seyyid Rəzi buyurur:) İmam əleyhis-salam bu sözləri ilə zəncilərin başçısının qiyamına işarə edir. Bundan sonra İmam əleyhis-salam buyurur: Ölənlərinə kimsənin ağlamadığı (çünki onların hamısı qara qul olduqlarına görə ölənlərinə ağlamaq üçün qohumları yox idi), yox olanı axtarılmayan qoşunun əlindən vay olsun sizin quzğun qanadları tək qanadlı (tağlı), fil xortumu tək xortumlu (navdanlı), bəzəkli evlərinizə və abad küçələrinizə (onların hamısını dağıdıb viran qoyacaqlar). Mən dünyanı uzağa atıb onu ölçmüşəm (onun zahiri və batinini, keçmişini və gələcəyini bilirəm) və həqiqətlərini görürəm (onun etibarsızlığını, vəfasızlığını hər zaman görürəm).

Bu sözlər Həzrətin kəlamının tatarların (və monqolların kitablarda və tarixdə həkk olunmuş axıtdıqları müsəlman qanlarının) vəsf edildiyi bir hissəsidir

Mən sanki onları görürmüş kimiyəm. Üzləri qalxan kimi (yastı və yumru) çəkiclənmiş (çox ətli və nişanlı), ipək və diba (rəngli ipək) paltarlar geyinən, gözəl yedəkli atlar sürən bir dəstədir. Orada (ayaq qoyduqları yerdə) yaralananlar ölənlərin üstü ilə yeriyənədək, (onların əlindən) qaçanlar əsirlərdən az olanadək çoxlu qanlar axıdılar. (Camaatın çoxu onların zülm və sitəmlərinə mübtəla olar, qaçmağa yerləri olmaz.) O Həzrətin (İmam əleyhis-salamın qeybdən buyurduqlarının müəllimsiz və özündən deməsindən şübhəyə düşmüş) səhabələrindən biri dedi: «Ya Əmirəl-möminin! Allah sənə qeyb elmini əta etmişdir». İmam əleyhis-salam güldü və (şübhəsini aradan götürmək üçün) Kəlb qəbiləsindən olan o kişiyə dedi: Ey Kəlbi qardaşım! Dediklərim elmi-qeyb deyil, elm və bilik sahibindən öyrənilən şeylərdir.

(Onları Həzrət Peyğəmbərdən - səlləllahu əleyhi və alih – öyrənmişəm.) Elmi-qeyb qiyamət gününün vaxtını və Allah-təalanın Öz buyuruğunda saydıqlarını bilməkdir. (Loğman surəsinin 34-cü ayəsi:) إِنَّ اللَّهَ عِندَهُ عِلْمُ السَّاعَةِ وَيُنَزِّلُ الْغَيْثَ وَيَعْلَمُ مَا فِي الْأَرْحَامِ وَمَا تَدْرِي نَفْسٌ مَّاذَا تَكْسِبُ غَدًا وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ «Qiyamətin qopacağı vaxtı ancaq Allah bilir. Yağışı göydən O yağdırır, bətnlərdə olanı O bilir. Heç kəs səhər nə edəcəyini, hansı torpaqda öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, bilən və xəbərdardır!» Deməli, bətndəkilərin oğlan və ya qız, çirkin, yoxsa gözəl, səxavətli ya xəsis, bədbəxt ya xoşbəxt olduğunu bilən Allahdır. Kimin cəhənnəm odu üçün odun, kimin cənnət dərəcələrində peyğəmbərlərə yoldaş olacağından agahdır. Sadalanan (nümunə kimi birini şərh etdiyimiz) şeylər Allahdan başqa kimsənin bilmədiyi elmi-qeybdir. Ancaq bundan başqa Allah-təalanın Öz Peyğəmbərinə (səlləllahu əleyhi və alih) öyrətdiyi (açmağa icazə verdiyi) bir elm də var. Peyğəmbər bu elmi də mənə öyrədərək sinəmin onu saxlaması və ətraflarımın onu əhatə etməsi (əzbərləyərək saxlamağım) üçün dua etmişdir.

←128-ci xütbə

Nəhcül-bəlağə. 129-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

130-cu xütbə→

İmam Əli əleyhis-salamın peymanlar və tərəzilər barədə xütbəsidir: Ey Allah bəndələri! Siz və sizin bu dünyadakı arzularınız qalacağı müddət bəlli olan qonaq və borc sahibinin alacağını (borcunu) sizdən tələb etdiyi borclularsınız. Qonaq qalmağınızın müddəti qısa, borclarınız isə (yazanların yanında) qorunan əməllərdir. (İbadət və bəndəlikdir.) Nə çoxdur bir əməldə çalışan və (onu) zay edən (riyakarlar kimi). Nə çoxdur əziyyət çəkən və zərər görən (Xəvaric və Nəvasib tək). Siz xeyir və yaxşılığın arxa çevirdiyi, şər və pisliyin üz tutduğu, şeytanın insanları həlak və puç etməyə tamarzıdığı bir ruzigarda vaqe olmusunuz. İndi onun iş alətlərinin gücləndiyi, məkr və hiyləsinin hər yana yol tapdığı, ovunun asanlaşdığı bir vaxtdır. Camaata istədiyin hər bir yerdə düzgün nəzər sal: kasıbçılıq və fəqirlikdən əziyyət çəkməyən yoxsul (dözümü yoxdur və Allahın istəyinə razı deyil), Allahın nemətinə görə şükr edən, küfrə varmayan varlı, öz varidatını artırmaq üçün Allahın malına xəsislik etməyən, xəsis qulağı öyüd-nəsihət eşitməmək üçün ağırlaşmayan asi və dikbaş kimsəni görərsənmi? Haradadır sizin yaxşı və ləyaqətliləriniz, azad insanlarınız və kəramət sahibləriniz? Haradadır alış-verişdə pərhizkar, yolları pak olanlarınız? Hamısı bu alçaq dünyadan və əziyyət, bədbəxtlik sarayından tələsik köçmədilərmi? Siz məgər alçaqlıqlarına, ləyaqətsizliklərinə və adları çəkilməyə layiq olmadıqlarına görə onları pisləyib qınamağa dodaqların belə gəlmədiyi pis ovuntu kimi olan camaat arasında canişin olmusunuz? (Elə yaxşı insanların canişini olan sizlər o qədər rəzil və alçaq olacaqsınız ki, adınızı çəkmək üçün sizləri danlamağa belə layiq deyilsiniz. Belə bir müsibətdə deməliyəm ki,) إِنَّا لِلّٰهِ وَ إِنَّا إِلَيْهِ راجِعُونَ Yəni, biz hamımız Allahın bəndələri, qullarıyıq və Onun hökmünə, fərmanına doğru qayıdacağıq. Fəsad və pozğunluq aşkar olmuşdur (yaxşı işlər qadağan, qadağalar əmr olunub). Bunu dəyişdirəcək bir kimsə, nə də bunu qadağan edəcək şəxs yoxdur!! (Yaxşı işə dəvət etmir və pis işdən çəkindirmirlər.) Bu minvalla da cənnətdə, Allahın rəhmətinin sayəsində və Onun ən dəyərli dostlarından olmaq istəyirsiniz? Sizin düşüncələriniz nə qədər uzaq və nadürüstdür!! Allahı Onun cənnətinə getmək üçün (çirkin işlər görüb «rəhmli, kərəmli və bağışlayandır» deməklə) aldatmaq olmaz. Onun

razılığı itaət və bəndəlikdən başqa heç nə ilə qazanılmaz. Allah lə’nət etsin, (Allahın rəhməti onlardan uzaq olsun) yaxşı işlərə əmr edib özü onları yerinə yetirməyənlər və pis işlərdən çəkindirib özü belə işləri görənlərə.

İmam Əli əleyhis-salamın Əbuzər rəhmətullah (Mədinədən) Rəbəzəyə sürgün edilən zaman ona buyurduğu kəlamlarındandır. Ey Əbuzər! Sən Allaha (razılığına) xatir, qəzəbdən kükrədin. Elə isə, Ondan ötrü qəzəbləndiyinə ümid bağla. Bu qövm (Osman, Müaviyə və ardıcılları Həzrət Peyğəmbərin sünnəsinə, yoluna zidd rətfar etdiklərinə görə) səndən (onları biabır, rüsvay etməyindən) öz dünyası üçün qorxdu, sən isə öz dinin üçün onlardan qorxdun (ki, məbada aldanıb onların ardınca gedəsən). Səndən ona görə qorxduqlarını özlərinə ver (onların dünyasına göz yum) və qorxduğun şeyə görə onlardan qaç. Sənin onlara qadağan etdiyin şeylərə möhtac olan (onlara pis işləri qadağan etmisən və bunda hamının möhtac olduğu saysız xeyirlər var) və sənə qadağan etdiklərinə (dünyaya) ehtiyacı olmayan nə qədər də çoxdur. Sabah (qiyamət günündə) kimin xeyrə çatacağını, kiminin böyük həsrətə düşəcəyini biləcəyin gün yaxındadır. Səmalar və yer bəndənin üzünə bağlanarsa, həmin bəndə Allahdan qorxan və pərhizkar olarsa, Allah ona xilas yolu açar. Haqdan başqa bir şey sənlə ülfət bağlamaz, batildən başqa heç nə səndən hürkməz. Onların dünyasını qəbul etsəydin (onlarla əməkdaşlıq etsəydin), səni sevər, dünyadan özün üçün bir şey ayırsaydın (dünyapərəst olsaydın), səni dinc qoyardılar (sənə bir belə əziyyəti rəva bilməzdilər).

İmam Əli əleyhis-salamın (səhabələrini danlayıb məzəmmət etdiyi və özünün bəzi sifətlərinə işarə etdiyi) kəlamlarındandır. Ey bədənləri görünən və ağılları isə özlərinə gizlin olan (bir-birilə həmrəy olmayan) dağınıq qəlbli cürbəcür insanlar! Sizi böyük mehribanlıqla haqqa doğru yönəldirəm, ondan keçi şirin səsindən hürkən kimi hürkürsünüz. Sizlərin köməyi ilə gizlin ədaləti aşkar etməyim və ya (azğınların) əydikləri haqqı düzəltməyim nə qədər də çətindir! İlahi, Sən bizim işlərimizdən (döyüş və toqquşmalardan) agahsan. Bunlar nə hakimiyyətə, xəlifəliyə meylə, rəğbətə və nə də dünya malından bir şeyə sahib olmağa görədir, (şəhərlərdə fitnə-fəsad yayıldığına, camaata zülm, sitəm edildiynə, halalla haram dəyişdiyinə görə) Sənin (dəyişmiş dininin) nişanələrini qaytarmağımız, zülm görmüş bəndələrin əmin-amanlıqda, rahat olması, pozulmuş hökmlərin icra olunması, şəhərlərini islah edib asayişi bərqərar etməyimiz üçündür. İlahi, mən haqqa çatan, onu eşidən və qəbul edən ilk şəxsəm. Allahın Peyğəmbərindən (səlləllahu əleyhi və alihdən) başqa heç kəs namazda məndən öndə olmayıb. Sizlər (məndən əvvəlki xəlifələrin tutduğu yoldan) bildiniz ki, camaatın namusuna, canına, qənimətlərə və İslamın hökmlərinə hakim, müsəlmanlara İmam olana paxıllıq yaraşmaz ki, onların malını toplamağa tamah sala. Nə də cahil olmalıdır ki, öz cahilliyi ucbatından onları azğınlığa salsın, nə zalım olmalıdır ki, öz zülmü ilə onların kökünü kəsib pərişan etsin. Nə də günlərin dəyişməsindən qorxmalıdır ki, bir dəstəyə yoldaş olub başqasını xar etsin (güclülərin dostu olub möhtacları saymasın), nə hökm üçün rüşvət alan olmalıdır (mal alıb haqqı batil və batili haqqa çevirməsin) ki, xalqın haqqı tapdanaraq şəriətin hökmü bəyan edilməsin, nə də Həzrət Peyğəmbərin yolunu getməyənlərdən olsun ki, ümmət onu öldürsün.

←131-ci xütbə

Nəhcül-bəlağə. 132-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

133-cü xütbə→

İmam Əli əleyhis-salamın (Allah-təalaya şükr və Onun bəzi sifətlərinə işarə etdiyi) xütbələrindəndir. Şükr edirik Allaha, aldığı, verdiyi, ehsan etdiyi və sınadığı hər bir şey üçün. Odur hər gizlin şeydən agah və hər sirri, fikri bilən, sinələrdə gizlənənləri, gözlərin oğrun-oğrun baxdıqlarını görən (xırdanı və bütövü, aşkarı və gizlini əhatə edən). Şəhadət verirəm ki, Ondan başqa Allah yoxdur və Məhəmməd (səlləllahu əleyhi və alih) Onun tərəfindən seçilən və peyğəmbərlik veriləndir. Elə bir şəhadət ki, aşkarı gizlini ilə və ürək dillə razıdır (dildə deyib ürəkdə inanmayanlardan deyilik).

Bu xütbənin (dünyanın vəfasızlığı barədə və təqvaya, pərhizkarlığa dair vəsiyyətin olduğu) bir hissəsidir

Allaha and olsun, çox mühüm mətləbdir. Həqiqətdir, haqdır, oyun və zarafat deyil, doğrudur, yalan deyil. Bu mühüm mətləb çağırdığına eşitdirən, qovduğunu tələsdirən ölümdən başqa bir şey deyil. Camaatın çoxluğu (onların sərvəti, hökmranlığı və bər-bəzəkləri) səni aldatmasın. Səndən əvvəl olan və var-dövlət toplayıb yoxsulluqdan, kasıbçılıqdan uzaq duran, uzun-uzadı arzular bəsləyərək işin sonuna əmin olan və ömrünün başa catacağını güman etməyən şəxsə ölümün necə çatdığını, onu vətənindən oğurladığını, istirahət yerindən çıxardığını, ölüm çubuqlarında (tabutda) daşındığını, camaatın onu bir-birinin əlindən aldığını, çiyinlərinə götürərək barmaqları ilə saxladıqlarını görmüsən. Görmədinizmi, çoxlu arzularda olanların, möhkəm binalar tikərək çox var-dövlət toplayanların gor evində necə yaşadıqlarını, yığdıqlarının zay olduğunu, mallarının irs sahiblərinə çatdığını, arvadlarının başqalarına ərə getdiklərini? Nə yaxşı işlərini (ibadət və bəndəliklərini) artıra, nə də pis işlərinə (törətdikləri günaha) görə üzrxahlıq edib razılıq uma bilirlər. (Çünki öləndən sonra tövbə və qayıdış qəbul edilmir.) Hər kim təqvanı və pərhizkarlığı ürəyinin şüarına çevirdisə, xeyir əməllərdə başqalarından önə keçdi və əxlaqını xilas etdi. Təqvanın, pərhizkarlığın bəhrələrini qənimət bilin və cənnəti nəsibiniz edən işlər görün.

Çünki dünya qalmağınız və yaşamanız üçün yaradılmayıb. Əbədi məkanda (axirətdə) sərf etmək üçün özünə yol azuqəsi toplamaqdan ötrü bir keçiddir. Belə ki, (ondan köçməyə) tələsənlərdən olun (çünki onda süstlük qəflətə və mənzil başından qalmağa səbəb olur) və ayrılmaq üçün atlarınızı hazırlayın (nicat tapıb getməyə hazır olmaq üçün Allahın və Peyğəmbərin göstərişlərinə əməl edin).

←132-ci xütbə

Nəhcül-bəlağə. 133-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

134-cü xütbə→

İmam Əli əleyhis-salamın (Allah-təalaya sitayiş barəsində) xütbələrindəndir. Dünya və axirətin itaəti və cilovu (təvazökarlığın son həddi ilə) Allah-təalanın qüdrətinin əlindədir. (Sarvan dəvənin cilovunu istədiyi tərəfə çəkdiyi kimi, Onun da istədiyi şey olar.) Göylər və yerlər öz açarlarını Ona təhvil vermişlər (Ondan başqa qeyrisinin onlara təsiri və sahibliyi yoxdur). Yamyaşıl ağaclar hər səhər erkən Ona səcdə qılırlar (dilə gələrək Ona sitayiş edirlər). Onun əmrilə ağaclar budaqlardan işıq saçan (şöləli) alovlar yandırar. Və həmin ağaclar Onun iradəsi, təkvini əmrləri ilə yeməli, yetişmiş meyvə verirlər.

Bu xütbənin (Qur'ani-Kərimin əzəməti barədə) bir hissəsidir

Sizlərin aranızda olan Allah Kitabı dili yorulmaq bilməyən natiq (dünya və axirətin hər bir şeyi, mövzusu barədə yol göstərir), dirəkləri xarab olmayan bir ev (həmişə qalacaqdır və məhv olası deyil), dostları məğlub olmayan qalibdir (onun ardınca gedənlər həmişə əziz və hörmətlidirlər).

Bu xütbənin (Həzrət Peyğəbmərin vəsf edildiyi) bir hissəsidir

Allah-təala heç bir peyğəmbərin qalmadığı, söz davası, çəkişmə və mücadilənin (müxtəlif əqidə və fikir ayrılıqlarının) olduğu bir zamanda Həzrət Peyğəmbəri göndərdi. (Çünki cahiliyyət dövründə bir dəstə bütlərə, başqa dəstə şeytana, ayrı dəstə günəşə, bir tayfa Həzrət Məsihə və başqalarına sitayiş edirdilər.) Onu bütün peyğəmbərlərdən sonra gətirərək vəhyə o Həzrətlə xitam verdi (ondan sonra peyğəmbər göndərmədi). O böyük şəxsiyyət Allahdan üz döndərib uzaqlaşanlarla və Ona oxşar, tay tutanlara qarşı Allah yolunda cihad etdi.

Bu xütbədən (dünyanı görmək və axirəti istəmək barəsində) bir parçadır

Dünya qəlbi korların görmələrinin son həddindən başqa bir şey deyil. O, arxasında nə olduğunu görmür (dünyadan köçərək əbədi saraya gedəcəyinə

inanmır). Gözüaçıq insanlar isə gözünü düzgün açıb onu (faniliyini və puçluğunu) görür və onun arxasında başqa bir sarayın olduğunu bilirlər. Deməli, gözüaçıq nəzər salaraq dünyadan uzaqlaşar (ona ürək bağlamaz), korun isə bütün diqqəti onda olar. Görən (dünyanın qalmaq yeri olmadığını bildiyindən) ondan (axirət səfəri üçün) azuqə toplayar (təqva və pərhizkarlığı seçər), kor isə (dünyanı əbədi məkan təsəvvür etdiyinə görə) onun üçün azuqə yığar (var-dövlət toplamaq üçün Allahın və Peyğəmbərin göstərişlərinə göz yumar).

Bu xütbənin (Allahın Kitabına söykənmək barədə) bir hissəsidir

Bilin ki, o (kor qəlbli dünyapərəst), yalnız həyatda yaşamaqdan başqa sahib olduğu hər şeydən doyar, usanar. Çünki ölümdə rahatlıq tapmaz (dünyada Allahın və Peyğəmbərin əmrlərinə uyğun rəftar etmədiyinə görə ölümdən sonra rahatlıq tapmaz). Dünyada bəsirətli olmaq (ölümdən sonra olanlara inanmaq) hikmət mislində olmaqdan başqa bir şey deyil. O, kor qəlb üçün həyat və yaşayış, kor göz üçün bəsirət, kar qulaq üçün eşitmə, (ilahi rəhmətə susayan) təşnə üçün doymaq deməkdir. Onda (dünyadan) tam ehtiyacsızlıq və (əzabdan) sağlamlıq var. (Sizin qurtuluş və nicat yolunuz) Onun vasitəsilə (haqqı) gördüyünüz, danışdığınız və eşitdiyiniz Allah Kitabıdır. (Qur'ani-Kərimdir). Onun bəzi hissələri digər bəzi hissələrindən danışır (onun ayələrindən bir qismi başqa ayələri izah edir) və bəziləri isə bəzi başqalarının şahididir. (Bir ayənin məqsədini başa düşmək üçün başqa bir ayə sübut gətirilir.) (Buna görə də) Qur'anın ilahi maarif və ehkamda ixtilafı yoxdur, öz ardınca gələni, mömini Allahdan ayrı salmır. (Əksinə, onu hidayət və qurtuluşun əsas yoluna çıxarır.) Siz (əlinizdə belə böyük yol göstərən olduğu halda) öz aranızda kin saxlamaq üçün birləşmisiniz və heyvanlarınızın peyinində ot bitib. (Sizin bir-birinizlə dostluğunuz üzdə yam-yaşıl, əslində isə iyli, əziyyətverici təzək üstündə bitib və heç kəsin meyl salmadığı ot kimidir). Arzuların dostluğuna görə bir-birinizlə dostlaşdınız və var-dövlət toplamaq üstündə düşmənçilik etdiniz. Sizləri çirkin olan şeytan heyran, səfil etmiş və (nəfsi-əmmarə ilə) aldadaraq azdırmışdır. Özüm və sizlər üçün (şeytanın şərindən və nəfsi-əmmarədən xilas olmaqdan ötrü) Allahdan kömək istəyirəm.

←133-cü xütbə

Nəhcül-bəlağə. 134-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

135-ci xütbə→

İmam Əli əleyhis-salamın Ömər ibn Xəttab rumlularla döyüşə gedərkən o böyük insanla məsləhətləşdiyi vaxt buyurduğu kəlamlarındandır. Allah İslam əhlinin sərhəd və hüdudlarını qorumağa, övrətlərini (düşmənin bilməməli olduğu şeyləri) örtməyə zamin olmuşdur. Allah az olduqları və (düşməndən) intiqam ala bilmədikləri vaxt onlara yardım etdi. Az olduqları və özlərini qorumağa gücləri olmadığı vaxt onları yenilməkdən saxladı. (İslamın ilk illərində bugünkü kimi saysız-hesabsız əhaliyə, gücə-qüdrətə malik olmayan müsəlmanlara kömək edən Allah indi də yardımçı olacaq. Çünki) diridir və heç vaxt ölməyəcək. (Deməli, döyüş meydanına getmə. Çünki) sən özün bu düşmənə (Rum qeysəri və qoşunlarına) doğru gedib onlarla görüşdə məğlub olsan, ucqar şəhər və sərhədlərdəki müsəlmanlar üçün pənah yeri qalmayacaq. Onların (fitnə-fəsadın qarşısını almaq üçün) səndən sonra müraciət etməyə yerləri yoxdur. (Məsləhət budur ki, sən burada qalasan və öz yerinə) onların üstünə bir müharibə görmüş igid göndər. Döyüşün bəla və çətinliklərinə taqəti olan, öyüd-nəsihət eşidənləri onunla yola sal. Əgər Allah-təala (ona) zəfər yetirsə, bu elə sənin istədiyin olacaq. Başqa bir hadisə baş versə, sən müsəlmanların köməyi və pənahı olacaqsan (yenidən qoşun toplayıb onlarla döyüşə göndərə bilərsən).

İmam Əli əleyhis-salamın kəlamlarındandır. O böyük şəxsiyyətlə Osman arasında mübahisə baş verdikdə Müğəyrə ibn Əxnəs Osmana dedi: «Mən səni müdafiə etməyə onun üçün kifayət edərəm». Sonra İmam əleyhis-salam ona buyurdu: Ey özündən sonra övladı qalmayanın, Allahın rəhmətindən qovulmuşun oğlu! Ey köksüz-budaqsız şəcərənin (layiqli əsil-nəsəbi olmayanın) oğlu! Sən özünü mənimlə bərabər sanırsan?! Allaha and olsun ki, sənin dost olduğun kimsəyə Allah uğur və zəfər nəsib etməz, ayaq üstə saxladığın kimsə dayanmaz. Məclisimizdən bayıra çıx, Allah xeyir və yaxşılığı səndən uzaq etsın! Öz səylərinə (və düşmənçiliyinə) son qoy. (Mənimlə) mehribanlıq etsən, Allah rəhmətini sənə şamil etməsin.

İmam Əli əleyhis-salamın (bey'ətdən məqsədləri müqəddəs İslam dinini yaymaq deyil, hakimiyyət və dünya malı toplamaq olan səhabələrinə buyurduğu) kəlamlarındandır. Sizin mənimlə bey'ətiniz fikirləşmədən və düşüncəsiz deyildi. Mənimlə sizin işiniz bir deyil. (Çünki) mən sizi Allah (dini qaydaların yayılması) üçün sizsə məni özünüz (dünyanızın bəhrələrini əldə etmək) üçün istəyirsiniz. Ey camaat, öz nəfsinizlə mübarizədə mənə kömək edin (nəfsi istəklərinizin ardınca getməyib mənə itaət edin). Allaha and olsun, məzlumların haqqını zalımlardan almaq üçün ədalət və insafla hökm verəcəyəm. Zalımı (dəvənin burnuna həlqə keçirib cilovunu çəkdikləri kimi) burnunun halqasından dartıb ona meyli olmasa belə, haqqın su arxına çatdırana qədər gətirəcəyəm (zülmkarı zəlil və xar edəcəyəm ki, zavallıların haqqını ondan alım).

←136-cı xütbə

Nəhcül-bəlağə. 137-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

138-ci xütbə→

İmam Əli əleyhis-salamın Təlhə və Zübeyr barədə (bey'əti pozduqdan sonra, Osmanın qətlini onun adına çıxmaları barədə sözlərini rədd edərkən) buyurduğu kəlamlarındandır. Allaha and olsun! Haram işi (adıma çıxmağı) məndən əsirgəmədilər (Osmanın öldürülməsi və onun qətlinə razılığı yalandan mənim adıma çıxdılar) və mənimlə özləri arasında insafla, ədalətlə rəftar etmədilər. (Çünki insafları olsaydı, iddialarının puçluğu aydın idi. İddialarının səhvliyi bundadır ki,) özlərinin tərk etdikləri haqqı və tökdükləri qanı (məndən) tələb edirlər. Əgər mən bu qanın tökülməsində (Osmanın qətlində) onlarla birgə iştirak etmişəmsə, onlar da bundan faydasız qalmayıblar. Əgər mənsiz bu işi görüblərsə, onda özlərindən başqa heç kim sorğu-sual edilməməlidir. İlk ədaləti bu olsun ki, ədalətlə hökm verməyi özlərində icra etsinlər. Bəsirətim və gözüaçıqlığım mənimlədir, (əmələ zidd olan sözün ziyanını bilirəm və buna görə də kimsəni) səhvə yönəltmədim (Təlhə və Zübeyr kimi bir söz deyib əksinə iş görmədim) və (onların ardıcılları kimi) səhv yola salınmadım. Onlar zülmkar və günahkar bir dəstədirlər. (Həzrət Peyğəmbərin mənə xəbər verdiyi kimi) Qara gil (gil saf suyu bulandırdığı kimi ümmətin dincliyini əlindən alan fitnə-fəsad), əqrəb zəhəri (kin və düşmənçilik) və zülmət şübhəsi (nadanlıq və azğınlıq) onlardadır. Bu iş (camaatı çaşdırdıqları Osmanın qanının alınması barədə sözləri alim, zəkalı insanların yanında) aşkar oldu. Batil (haqqın ziddinə olan söz) kökündən qopardıldı və şər yayan dili kəsildi. Allaha and olsun, (fitnəkarların qarşısını almaq mənə vacib olduğuna görə) onlara bir hovuz düzəldib suyunu özüm çəkərəm, (onları döyüş meydanında elə məhv edərəm ki,) ondan doymuş qayıtmazlar və başqa yerdə də su içməzlər.

Həmin kəlamın (yenə də Təlhə, Zübeyr və ardıcılları barədəsindəki) bir hissəsidir

(Osmanın qətlindən) sonra (bey'ət etmək üçün) yeni doğmuş heyvanlar balalarına tərəf gedən kimi mənə üz tutub dalbadal «bey'ət etməyə gəlmişik» deyirdiniz. Əlimi əlimin üstünə qoydum, açdınız, arxaya apardım, özünüzə

tərəf çəkdiniz. (Mən də sizdən Allaha şikayət edərək deyirəm:) İlahi, (Qüreyş tayfasından olan) Təlhə və Zübeyr mənimlə (mən də həmin tayfadanam) qohumluq əlaqəsini kəsib zülm etdi, əhd-peymanını pozdu və camaatı mənim üstümə qaldırdı. Sən onların bağladıqlarını aç, süstləşdirdiklərini möhkəm et. Arzularında olub etdikləri rəftarlarında onlara (dünya və axirət) pisliyi nəsib et. (Onlarla döyüşdüyümə görə məni əsla danlaya və qınaya bilməzlər. Çünki) döyüşə başlamamışdan onlardan pozduqları bey'ətə qayıtmalarını istəyib hadisədən qabaq (bu iş barədə) düşünüb-daşınmalarını tələb etdim. Deməli, (mənim öyüd-nəsihətlərimi qəbul etməyib öz səhv fikirlərinin ardınca getdilər), neməti (Allah, Peyğəmbər və zəmanənin İmamına itaəti) xar sayıb (dünya və axirət) salamatlıqlarını əldən verdilər.

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّهِ الَّذِي ذَلَّتْ لَهُ رِقابُ الْجَبابِرَةِ وَ خَضَعَتْ لَدَيْهِ أَعْناقُ الْأَكاسِرَةِ لا مَلْجأَ وَ لا مَنْجا مِنْهُ إِلّا إِلَيْهِ وَ لا إِعانَةَ إِلّا بِهِ وَ لا اتِّكاءَ إِلّا عَلَيْهِ وَ الصَّلوةُ وَ السَّلامُ عَلى سَيِّدِ الْمُرْسَلِينَ وَ خاتَمِ النَّبِيِّينَ وَ حُجَّةِ رَبِّ الْعالَمِينَ مُحَمَّدٍ وَ اٰلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَ لا سِيَّما عَلى سُلالَةِ النُّبُوَّةِ وَ بَقِيَّةِ الْعِتْرَةِ وَ الصَّفْوَةِ صاحِبِ الزَّمانِ وَ مُظْهِرِ الْإِيمانِ وَ مُعْلِنِ أَحْكامِ الْقُرْانِ وَ مُطَهِّرِ الْأَرْضِ وَ ناشِرِ الْعَدْلِ فِي الطُّولِ وَ الْعَرْضِ الْحُجَّةِ الْقائِمِ الْمَهْدِيِّ الْإِمامِ الْمُنْتَظَرِ الْمَرْضِيِّ ابْنِ الْحَسَنِ الْعَسْكَرِيِّ. أَللّٰهُمَّ نَوِّرْ بِنُورِهِ كُلَّ ظُلْمَةٍ وَ هُدَّ بِرُكْنِهِ كُلَّ بِدْعَةٍ وَ اهْدِمْ بِعِزِّهِ كُلَّ ضَلالَةٍ وَ اقْصِمْ بِهِ كُلَّ جَبّارٍ وَ أَخْمِدْ بِسَيْفِهِ كُلَّ نارٍ وَ أَهْلِكْ بِعَدْلِهِ جَوْرَ كُلِّ جائِرٍ وَ أَجْرِ حُكْمَهُ عَلى كُلِّ حُكْمٍ وَ أَذِلَّ بِسُلْطانِهِ كُلَّ سُلْطانٍ امِينَ يا رَبَّ الْعالَمِينَ

«Nəhcül-Bəlağə» qaranlıqları işıqlandıran, yolunu azanların mayakı və günahdan çəkinənlərin örnəyidir. Hər ağıllı insan və tədqiqatçı onu dərindən düşündükdən sonra bu müqəddəs kitabın (Qur'ani-Kərimdən və Xatəmül-Ənbiya salavatullahın sözlərindən sonra) kitabların ən üstünü və dünyada misilsiz olduğunu təsdiqləyib etiraf edəcəkdir. Bütün bəşər övladları tərəfindən mütaliə olunması daha yaxşıdır. Çünki dünya fitnə-fəsaddan xali deyil və insanlar yalnız öz rəftar və sözlərində Əmirəl-möminin əleyhis-salamın yolunu tutmaqla əmin-amanlıq, rahatlıq və ağalığa çata bilərlər. Bu, (o böyük şəxsin lütfünə möhtac olan) mən bəndənin sözü deyil, hər insaflı ağıl sahibi (lap müsəlman və şiəməzhəb olmasa belə) bunu etiraf edərək Həzrət Peyğəmbərdən sonra Həzrət Əli əleyhis-salamın elm və mərifət çeşməsinin dünyanın sonuna qədər hər işin fəsad və məsləhətini bilib bəyan etmiş olmasına inanır. Onun söz və əməllərinin nümunəsini şərafətli Seyyid Rəzi (rizvanullah əleyh) bu şərəfli kitabda toplamışdır. Elm, bilik sahibləri İmam əleyhis-salamın elə bu həcmdə olan söz və əməllərinin də dünya və axirət səadətinə, ağalığa çatmağa kifayət etdiyini bilirlər. Buna görə də ötən dövrlərin üləma və alimləri (Allah onlara rəhmət etsin, o cümlədən

hədisşünas alim Nurinin - Allah ona rəhmət etsin - «Mustədrəkul-vəsail» kitabında bəyan etdiyi kimi) bu müqəddəs kitab barəsində «Əxul-Qur'an» (Qur'anın qardaşı) ifadəsini işlətmişlər. Başqa sözlə, Qur'ani-Kərim səmavi kitab olduğu və Allah-təalanın insanların islahı üçün peyğəmbəri Həzrət Mustafanın (səlləllahu əleyhi və alih) dilindən buyurduğu kimi, «Nəhcül-Bəlağə» də sözləri ilahi elm mənbəyindən süzülərək elm şəhərinin qapısı olan Əlinin (əleyhis-salam) dilindən axan bir kitabdır. Deməli, (indiyə qədər iki hissəsini çap edib yaydığımız və indi də ilahi qüdrət ilə üçüncü hissəsinə başladığımız) bu kitabı oxuyaraq həyatının təliminə çevirmək hamıya vacibdir.

اللّهُمَّ اهْدِنا إلی سَواءِ السَّبِیلِ فَإنَّكَ حَسْبُنا وَ نِعْمَ الْوَكِیلُ

Fani bəndə: Əliyyənnəqi Feyzul-İslam İsfahani Ali-Məhəmməd əd-Dibac.
1366 H.Q.

←137-ci xütbə

Nəhcül-bəlağə. 138-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

139-cu xütbə→

İmam Əli əleyhis-salamın baş verəcək ağır hadisələrə (və on ikinci İmamın-əccəlallahu fərəcəh-zühuruna) işarə etdiyi xütbələrindəndir. Camaatın doğru yolu öz nəfsinə çevirəcəyi (Məhəmmədin şəriətindən əl çəkərək öz nəfsi istəklərinin arxasınca gedəcəkləri) vaxt (İmami-Müntəzər qeyb pərdəsinin arxasından çıxaraq) həvayi-nəfsi doğru yola və qurtuluşa yönəldəcək (yolunu azmışları doğru yola gətirəcək). Camaatın Qur'anı öz düşüncə və rəyinə çevirdiyi vaxt rəyi Qur'ana qaytaracaq.

Bu xütbənin (İmami-Zaman əleyhis-salamın zühuru ərəfəsindəki fitnələrə işarə olunduğu) bir parçasıdır

(Həzrətin-ərvahuna fədah-zühurundan əvvəl çox cinayətlər olacaq.) Sizlərə (sonra gələnlərə qəzəbli yırtıcı şir kimi) dişlərini qıcayan (və ya dəvə tək) südlə dolu döşləri olan ağır müharibə və qırğınlar (yırtıcı şir tək hər şeyi məhv etməyə hazır olan döyüşlər, dəvə döşləri kimi döşləri ölüm şərbəti ilə dolu olan müharibələr) üz tutacaq. Onun südünü içmək (işin əvvəlində, döyüş meydanına atılanların və fəthə, qələbəyə ümidi olanların damağında) şirin, işin sonunda (toqquşmanın, ölüb-öldürmənin və onun müsibətlərinin hər yanı bürüdüyü vaxt) acı və pis dadandır (əziyyətlidir). Agah olun, (xəbər verdiyim) sabah (bundan sonra) baş verəcək və sabah tanımadığınız (barəsində xəbəriniz olmayan) bir şeylə gələcək: Padşahlar tayfasından olmayan bir hakim (İmami-Zaman əleyhis-salam) onların işlərini idarə edənləri əməllərinin pisliyinə görə sorğu-sual edəcək. Yer ciyərinin parçalarını onun üçün bayıra çıxaracaq (bütün qızıl, gümüş və s. mədənlər üzə çıxaraq o Həzrətin ixtiyarında olacaq) və açarlarını o böyük insana təslim edəcək. (Bütün şəhərlər onun ixtiyarına keçəcək.) Sonra məmləkətin ədalətlə idarə olunması yolunu sizə göstərəcək və kitabın və sünnənin tərk edilmişlərini (qanunlarını) dirildəcək (Qur'anın hökmlərini və Həzrət Peyğəmbərin sünnəsini icra edəcək).

Bu xütbənin bir hissəsidir

Sanki onu (Əbdülməliki) Şamda qışqıran (qoşun toplayıb) və bayraqları ilə Kufənin ətrafında gəzən görürəm. (İraqı ələ keçirib) bədxasiyyət, dikbaş dəvənin yeriməsi tək o diyarın əhlinə doğru üz tutur. Yerə başlardan xalça sərib (çoxlarını qətlə yetirib). Ağzını (didməyə hazırlaşan yırtıcı kimi) açıb və ayağını yerə bərk basıb (qoşunu çoxdur). Onun cövlanı uzaq və uzun, həmləsi ağır olar. Allaha and olsun, sizləri (sonra gələnləri) gözdəki sürmə tək azacıq qalana kimi hər tərəfə (şəhər və kəndlərə) pərən-pərən salacaq. (Sizin övladlarınızın Bəni-Üməyyənin əlindən çəkdiyi) çətinlik və əziyyət ərəblərin gizlənmiş ağılları onlara qayıdana qədər davam edəcək. (Heç bir zaman məsuliyyətin üzərinizə düşməməsini və fitnə-fəsaddan xilas olmağı istəyirsinizsə) əbədi və bərqərar sünnəsi, yolları, aydın nişanələri (Qur'an və sünnəsi), bütün peyğəmbərliyin üzərində durduğu yaxın əhd-peymanı (haqq İmamı və Həzrət Peyğəmbərin canişini) öz yolgöstərəninizə çevirin. Bilin ki, şeytan öz qədəminin izinə ayaq qoyub arxasınca getməniz üçün (aldadıcı) yolları sizlərdən ötrü asanlaşdırır (ki, rahatlığınızı itirib dünya və axirətdə çarəsiz və zavallı olasınız).

İmam Əli əleyhis-salamın (Ömərin vəfatından sonra Ömərin tapşırığı ilə xəlifəlik üçün) şura keçirildiyi vaxt (həmin məclisin ziyanı barədə) buyurduğu kəlamlarındandır. Heç kəs məndən qabaq haqqın dəvətinə, qohumlarla birləşməyə, ehsan və yaxşılığa (bir sözlə Allaha xoş gələn işlərə) tələsməmişdir. (Yaradılmasına Ömərin əmr verdiyi bu məclis kimi yerlərə qatılmıramsa, bu işdə haqq, həqiqət görmürəm. Buna görə də) sözlərimə qulaq asıb, dediklərimi nəzərinizdə saxlayın. Tezilklə, (bu məclisin keçirildiyi) bu gündən sonra xəlifəlik məsələsinin üstündə qılıncların çəkiləcəyini, əhd-peymanların pozulacağını görəcəksiniz. Hətta sizlərdən bəziləri (Təlhə və Zübeyr) azğınlara rəhbərlik edəcək, bəziləri isə nadanların (Osman və başqalarının) arxasınca gedəcəkdir. (Bütün bu fitnə-fəsadın, qırğınların əsası batil və nadürüstlük üzərində qurulan bu məclisin nəticəsidir.)

İmam Əli əleyhis-salamın camaatın qeybətini etməkdən çəkinmək barədə kəlamlarındandır: Layiqlisi budur ki, günahdan uzaq duranlar və Allahın günahlardan pərhiz saxlamaq nemətini bəxş etdiyi insanlar günahkarlarla və Allahın, peyğəmbərin əmrlərinə boyun əyməyənlərlə mehriban olsunlar. Layiqlisi budur ki, (Allah onlara nemət bəxş etdiyinə və günahlardan uzaq qalmaq uğuru nəsib etdiyinə görə) onlara şükranlıq və təşəkkür hakim kəsilsin (başqalarından danışmağa onlara macal verməsin), günahkarların qeybətini etməyə mane olsun. (Günahdan uzaq olanlara və günahsızlara başqasının qeybətini etmək yaraşmadığı bir halda) öz qardaşının (dindaşının) qeybətini edib onu törətdiyi günaha görə qınayanın halı necə olar?! (Belə bir günahkar şəxsin özü qeybətə daha layiq olduğu halda) Allahın onun qardaşının etdiyi günahdan daha böyük olan öz günahlarının üstünü örtdüyünü xatırlamırmı? Onu törətdiyi günaha görə necə qınaya bilər ki, özü də ona bənzərini etmişdir. Eynilə həmin günahı etməsə də, başqa tərzdə qardaşının günahından daha böyük günah olan Allaha itaətsizlik etmişdir (başqa bir günaha batmışdır). And olsun Allaha, böyük günaha batmamış, yalnız kiçik günahla itaətsizlik göstərmiş olsa belə, camaatda eyb axtarmağı və onlar barədə pis danışmağa olan cürəti (törətmədiyi böyük günahdan) daha böyükdür. (Sonra, İmam əleyhis-salam öyüd-nəsihət olaraq buyurur:) Ey Allah bəndəsi! Törətdiyi günaha görə heç kimsənin eybini axtarıb, haqqında pis danışmağa tələsmə ki, bəlkə o (batdığı günaha görə tövbə edər) bağışlanar. Öz nəfsində kiçik günahdan arxayın düşüb, rahatlanma (ona həqarət və kiçiklik gözü ilə baxma) ki, bəlkə onun nəticəsində əzaba düçar olarsan. Özündən qeyrisinin eybini və pisliyini bilən sizlərdən hər birisi öz eyblərinə görə (başqalarında eyb axtarıb, tənə vurmaqdan) çəkinməli, başqasının mübtəla olduğu günahdan çəkindiyinə görə şükürlə məşğul olmalıdır. (Bu nemətə görə şükr etmək başqasının eybini deməyə ona macal verməməlidir.)

İmam Əli əleyhis-salamın (qeybəti dinləməkdən çəkinmək və insanların pisliyinə danışanların sözlərinə qulaq asmamaq barədə) kəlamlarındandır. Ey camaat! Hər kim öz qardaşını (dindaşını) tanıyıb onun dinində (etiqadında) möhkəm və sözləri, əməlləri ilə doğru yolda olduğunu bilsə, camaatın onun barəsində sözlərinə (qeybətinə) qulaq asmamalıdır. Agah olun! (Sözün vurduğu ziyan oxun ziyanından daha ağır və çox olur. Çünki) bəzən kamandan ox atan oxçunun oxu boşa çıxır və (ancaq) söz (yalan olsa belə,) təsirsiz qalmır, onun batili və yalanı aradan gedir. (Bununla belə, onun günahı deyənin boynunda qalır. Çünki) Allah (deyilənləri) eşidən və şahiddir. Bilin ki, haqla batil arasında dörd barmaqdan (bu qədər məsafədən) başqa bir şey yoxdur. Bu sözlərinin mənasını İmam əleyhis-salamdan soruşduqda o Həzrət (bunun cavabında) barmaqlarını bir-birinə birləşdirərək qulaqları ilə gözləri arasına qoyaraq buyurmuşdur: Batil və səhv «eşitmişəm» dediklərin, haqq və doğru isə «görmüşəm» söylədiklərindir.

İmam Əli əleyhis-salamın (malını boş yerə sərf edən mal sahibini məzəmmət etdiyi) kəlamlarındandır. Haqdan qeyri yolda ehsan edib haqqı çatmayana bəxşiş verənin alçaq, pis insanların tərifindən, onlara bəxşiş verdiyi surətdə nadanların onun barəsindəki sözlərindən savayı bir nəsibi, bəhrəsi olmaz. Allah yolunda xəsislik etdiyi halda (əslində səxavət göstərməyib, əksinə, malını tələf və israf edən) əliaçıq və səxavətli olan nə qədər də çoxdur! Allahın sərvət yetirdiyi kimsələr, həmin maldan qohumlarına yardım etməli və o maldan (tanışlarını hər kəsə öz vəziyyətinə uyğun) layiqli qonaq etməlidir. Onunla əsiri, zavallını azad etməlidir. Ondan yoxsula və borcluya verməlidir. Haqqını (zəkat kimi vacib və sədəqə kimi müstəhəb) qaytarmaqda, hadisələri dəf etməkdə dözümlü olmalıdır. Bunları da (riyakarlıq və özünü göstərmək üçün deyil) savab və ilahi mükafat qazanmaq üçün etməlidir. (Bəyan edilən) bu bəxşişlərlə zəfər çalmaq dünyada ucalmağa, yaxşı ad-sana, yaxşılığa və axirətdə isə yüksək dərəcələrə çatmaq vasitəsinə səbəb olar. Əgər Allah istəsə.

←142-ci xütbə

Nəhcül-bəlağə. 143-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

144-cü xütbə→

İmam Əli əleyhis-salamın yağış istərkən buyurduğu xütbələrindəndir. Agah olun ki, sizi üzərində saxlayan yer və sizi kölgələri altında qərar verən göy sizin Allahınıza itaət edir. (Sizin istək və arzularınıza tabe deyillər ki, istədiyiniz zaman yer cücərsin və ya göylər yağdırsın.) Öz bərəkət və xeyrini (torpağın göyərməsi və göylərin yağdırmasını) nə sizə ürəyi yandığına, nə sizə yaxınlaşmağa, nə də sizdən xeyir və yaxşılığa (faydaya) ümid etdiklərinə görə sizə bağışlayırlar. Sizə xeyir çatdırmağa (Allah tərəfindən) məmur ediliblər. Əmrə itaət edərək sizin mənafeyinizi ödəmək üçün qalxmışlar. (Buna görə də) Allah nalayiq işlərlə məşğul olan bəndələrini meyvələrin azalması, bərəkətin saxlanılması və yaxşılıqlar xəzinəsinin qapısının bağlanması ilə sınayır ki, tövbə edən yuxudan oyanaraq tövbə etsin, günahı özündən uzaqlaşdırsın (bir daha günaha batmasın). Öyüd alan ibrət götürsün, ayağı özünü saxlayan (günah edib çirkin işlərə meyllənməsin). Allah istiğfarı (Allahdan bağışlanmaq istəməyi) ruzinin artmasının və mehr və rəhmət, yetişməsinin səbəbinə çevirmişdir. (Qur'ani-Kərimin Nuh surəsinin 11-12-ci ayələrində) Allah-təala buyurur: «اسْتَغْفِرُوا رَبَّكُمْ إِنَّهُ كَانَ غَفَّارًا يُرْسِلِ السَّمَاء عَلَيْكُم مِّدْرَارًا وَيُمْدِدْكُمْ بِأَمْوَالٍ وَبَنِينَ» Rəbbinizdən bağışlanmağınızı diləyin. O, günahları bağışlayandır. (Tövbə etdikdən sonra) O sizə dalbadal yağan bulud göndərər. Sizə mallar və oğullarla kömək edər (sizin mal-dövlət, oğul-uşaqlarınızı çox edər). Allah rəhmət etsin (bağışlasın) tövbəyə və (günahdan) dönməyə üz tutan, törətdiyi günahın silinməsini diləyən (Allah-təaladan öz pis əməlinin cəzasından keçməsini istəyən) və ölümünü qabaqlayan kişiyə. İlahi, biz (suyun, otun və yaşayış ehtiyaclarının qəhətliyindən) heyvanların və balalarımızın fəryadlarının ucaldığı pərdələrin və örtüklərin (evlərin) altından rəhmətini diləyən, nemətinin artmağına ümidli və cəzandan, qəzəbindən qorxan halda Sənə üz tutduq. İlahi, Öz yağışınla bizə su yetir, bizi ümidləri kəsilmişlərdən etmə. Bizi qəhətçilik və çətinlik illərində həlak etmə. Bizlərdən olan ağılsızların (pis əməl sahiblərinin) etdiyi işlərə görə bizləri cəzalandırma, ey mehribanların mehribanı! İlahi Pərvərdigara, sənə doğru gəldik. Sıxıntıların, çətinliklərin bizi zavallı etdiyi, məşəqqətli quraqlıq illərinin bizi yönəltdiyi, çətin mətləb və istəklərin acizləşdirdiyi,

başımıza dalbadal ağır fitnələrin, bəlaların gəldiyi bir vaxtda Sənə gizlin olmayan şeylərdən (çətinliklərdən) Sənə şikayətimiz var (xəbər veririk). İlahi, Səndən istəyirik ki, bizi (evlərimizə) ümidsiz qaytarma, kədərli yollama, günahlarımızla tutuşdurma (istəyimizə günahlarımıza uyğun cavab vermə) və əməllərimizlə müqayisə etmə (istəklərimizi fəzl və kərəminə uyğun qəbul et). İlahi, yağış, bərəkət, ruzi, mehr və rəhmətini bizə əta et, bizə su yetir. Elə bir su ki, xeyir verən, doyduran və (bitki) bitirən olsun və onunla əldən gedənləri (qurumuş bitkiləri) bitir və öləni (qurumuş torpaqları) dirilt. Bizə elə bir yağışla su ver ki, susuzluğu yox etsin və bol meyvələr yetirsin. Hamar torpaq ondan doysun, enişlərdən (çaylar və dərələrdən) axsın. Ağacları yarlı-yarpaqlı (yamyaşıl), qiymətləri ucuz etsin. Həqiqətən Sən istədiyin hər şeyə qadirsən.

←143-cü xütbə

Nəhcül-bəlağə. 144-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

145-ci xütbə→

İmam Əli əleyhis-salamın (mə'sum İmamların fəzilətləri barədə) xütbələrindəndir. Allah-təala peyğəmbərlərini seçib vəhyi onlara məxsus etdi. Peyğəmbərləri camaat üçün sübut və dəlilə çevirdi ki, onların (əməllərində) dəlili olmasın. («Sənin əmr və qadağalarınla tanış deyildik» deyilməsin.) Hamını peyğəmbərlər vasitəsilə haqq yola dəvət etdi. Agah olun ki, Allah-təala camaatın halını bilir. Ürəklərində olan gizli saxladıqları sirlərdən və düşüncələrdən xəbərsiz deyildir, əksinə, (peyğəmbərləri göndərməsi) kimin əməlinin daha yaxşı olduğunu sınamaqdan ötrüdür. Ondan ötrüdür ki, mükafatın (yaxşı əməlin) savabı (cənnət) və cəzanın (pis əməlin) əzabı (atəş) olsun. (Bu bəyanla ilahi sınağın səbəbinin nə olduğunu bildiyinizə görə.) Hardadır biz əhli-beytdən başqa elmdə (xilqətin sirləri, Qur'ani-Kərimin təfsiri və tə'vilində) özlərini bilikli sayanlar: Onların iddiası yalan və bizə zülmdür. Çünki Allah-təala bizə üstünlük verib və onları aşağı tutmuşdur. (Bu məqam və rütbəni) bizə əta edib onları bundan bəhrəsiz etmişdir. Bizi daxil edərək onları çıxarmışdır. Bizim vasitəmizlə doğru yol istənilər, korluq və azğınlıqdan gözün açılması dilənər. Həqiqətən də dinin başçıları - İmamlar Haşimdən yaranmış Qüreyşdəndir. (Əli və Fatimə əleyhimas-salamın nəslindən yaranmışlar.) İmamlıq və xəlifəlik onlardan qeyrisinə layiq deyil, onlardan başqa (haqsız olaraq hakimiyyətə gəlmiş) xəlifələrin (Həzrət Peyğəmbərə) canişin olmaq səlahiyyətləri yoxdur.

Bu xütbənin (Bəni-Üməyyə və tərəfdarlarını pisləyib məzəmmət etdiyi) bir hissəsidir

Dünyanı seçib axirətə arxa çevirdilər. Saf, içməli suya (təqva və pərhizkarlığa) göz yumub, iylənmiş sudan içdilər (əbədi əzabla razılaşdılar). Sanki onlardan pis işlərin ardınca gedərək onlarla ülfət bağlayıb, ram olan və razılaşan fasiq və günahkar birini (Əbdülməlik ibn Mərvanı) görürəm. Saçı belə çirkin işlərdə ağarmış, əxlaqı onunla boyanmışdır. (Onun hakimiyyəti uzun çəkmiş, çirkin işlər onun təbiətinə və zatına keçmişdir. Hər bir çirkin işi görməklə) batıracağından qorxusu olmayan dalğalı, böyük dəniz

və yandıracağını düşünmədiyi quru ota düşən alov kimi ağzı köpüklü halda (sərxoş) və qorxmadan üz tutar. (Belə bir zamanda) hardadır hidayət çırağı ilə işıqlanan ağıllar, təqva və pərhizkarlıq nişanəsi ilə baxan gözlər? Hardadır Allah üçün ayrılan və Allaha itaət edən, bəndəliyə qapanan ürəklər? (Hardadır Allaha ibadət və itaətdən başqa işi-peşəsi olmayan din rəhbərlərinin tərəfdarları? Bir halda ki, Bəni-Üməyyə) dünya malına hücum çəkərək haram uğrunda bir-birilə vuruşurlar. Behiştin və alovun nişanələri onlara görünür. Amma onlar cənnətdən üz döndərərək öz əməlləri ilə atəşə üz tuturlar. Allah onları (nicat yoluna) dəvət edib. Onlar hürkərək arxa çevirdilər. Şeytan onları (zəlillik və bədbəxtlik yoluna) çağırdı, onlar dəvətini qəbul edərək ona üz tutdular.

←144-cü xütbə

Nəhcül-bəlağə. 145-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

146-cı xütbə→

İmam Əli əleyhis-salamın (dünyanın məzəmməti və vəfasızlığı haqda) xütbələrindəndir. Ey camaat! Siz bu dünyada ölümlərin oxlarını atdığı hədəfsiniz (müxtəlif növ ölümlər: xəstəlik, qətl, yanğın, batmaq, quyuya düşmək, uçqunun altında qalmaq və sair buna oxşarlar sizi məhv etməyə hazırdırlar). Hər içiləndə boğaza sıçrayan bir su vardır. Hər loğmada boğazda ilişən bir sümük vardır. Dünyada bir neməti əldən verməmiş başqa bir nemətə yiyələnə bilməzsiniz. (Həmçinin) sizin uzun ömürlülərinizin (yalnız yaşı çox olanın deyil, hələ ömrü qalan gəncin və ya qocanın) ömrünün, həyatının bir günü məhv olmadan ömrünə (yeni) bir gün verilməz. Əvvəlki gün yediyi aradan getmədən çox yemək yeyən üçün yeni bir ləzzət gətirməz. Bir nişanə və izi aradan getməmiş onun başqa bir nişanə və izi yaranmaz. Təzəsi köhnəlməmiş onun üçün heç nə təzələnməz (məsələn, vüqar, səbr və helm qazanmaq üçün gənclik şadlığı itirilir). Onun üçün bir salxım bitməz, biçilən aradan getməmiş (bir əkin biçilməmiş, başqa əkin yaranmaz. Ata-anaları bu dünyadan getməmiş övladları onların yerlərində əyləşməzlər). Köklər olub keçiblər (ata-analar ölüblər) və biz budaqlarıq. (Onların övladlarıyıq.) Budaq kökü getdikdən sonra necə qala bilər?

Bu xütbənin (bid'ətə itaət etməkdən çəkindirən və sünnənin ardınca getməyi təşviq edən) bir parçasıdır

Elə bir bid'ət (dində olmayan bir şeyin dində yaradılması) yaranmayıb ki, onun səbəbinə bir sünnə (Həzrət Peyğəmbərin yol və üslubu) aradan götürülmüş olmasın. Belə isə bid'ətdən çəkinin və işıqlı yola qədəm qoyun (Həzrət Peyğəmbər səlləllahu əleyhi və alihin yolu ilə gedin. Çünki Həzrət Peyğəmbərin zamanında olan) köhnə işlər işlərin ən yaxşısıdır, yeni bid'ətlər isə ən pis şeylərdir. (Şəriətə zidd olduğuna görə hərc-mərclik, fəsad və çox pozğunluğa səbəb olar.)

İmam Əli əleyhis-salamın İran əhli ilə döyüşə gedərkən buyurduğu kəlamlarındandır. Onunla məsləhətləşən Ömər ibn Xəttaba demişdir: Bu işə (müqəddəs İslam dininə) yardım və ya onu xar etmək (lap əvvəldən qoşunun) azlıq və çoxluğu ilə olmamışdır (ki, kafirlərin qoşununun çoxluğundan və öz qoşunumuzun azlığından qorxaq). O, Allahın dinidir ki, onu (digər dinlərə) qalib edib. O, Allahın qoşunudur. Çatmalı olduğu mərtəbəyə çatana, aşkar olmalı olduğu yerdə aşkarlanana qədər onları hazırladı və kömək etdi. Biz Allah tərəfindən verilən vədi gözləyirik. Allah öz vədinə vəfa edərək qoşununa yardım edər. (Ömərin döyüş meydanına getməməli olduğu haqda fikrini sübutla əsaslandıraraq belə bəyan edir:) Din başçısının və məmləkətin hökmdarının yeri fəqərələri toplayıb onları bir-birinə birləşdirən ipə bənzəyir. Əgər ip qırılsa, fəqərələr bir-birindən ayrılaraq dağılar və heç vaxt bir yerə yığılmaz. Ərəblər bu gün az olsalar da, İslam dininə (və onun başqa dinlərə qələbə çalmasına) görə çoxdurlar. (Nifaqın, ikiüzlülüyün yol tapmadığı) birlik və bütövlüyünə görə qalibdirlər. Sən dəyirmanın ortasındakı mismar kimi (sakit və təmkinli) ol. (Müharibə) dəyirmanını ərəblərin vasitəsilə fırlat (qoşunu təchiz etməyə və işlərində nizam-intizam yaratmağa çalış). Onları müharibə alovuna daxil edərək özün döyüş meydanına getmə. Çünki sən bu torpaqdan (İslamın paytaxtı Mədineyi-Teyyibədən) bayıra çıxsan, ətraf və nahiyələrdən ərəblər (fürsət əldə edib) sənin lə olan peymanlarını pozacaq və fitnə-fəsad salacaqlar. (Sənə itaət etməkdən boyun qaçıracaqlar və məmləkətin nizam-intizam ipləri bir-birindən qopacaq). İş o yerə çatacaq ki, arxada qoyduğun sərhədləri qorumaq sənin üçün döyüş meydanına getməkdən daha mühüm olacaq. (Başqa cəhətdən də Sən döyüş meydanına daxil olsan,) iranlılar səni görəcək və deyəcəklər: Bu ərəblərin rəhbəridir. (Ondan başqa rəhbərləri yoxdur.) Onu aradan götürsəniz (qətlə yetirsəniz), rahatlıq taparsınız. Bu düşüncə onların sənə (sənin lə döyüşə) olan hərisliyini və səni (məhv etmək) tamahını daha da artırar. İranlıların müsəlmanlarla döyüşə gəlmələri barədə xatırlatmana gəlincə isə, (qorxusu yoxdur, çünki) səndən daha çox Allah-təala onların gəlişini xoşlamır və O, bəyənmədiyi şeyi (razı olmadığını) aradan

götürməkdə daha qüdrətlidir. Sayların çoxluğu barədə dediyinə gəlincə isə, (bunun üçün də narahatlıq yeri yoxdur, çünki) biz bundan əvvəl (Həzrət Peyğəmbərin vaxtında və İslamın ilk illərində kafirlərlə) qoşunun çoxluğu ilə döyüşmürdük, əksinə, Allah-təalanın yardımı, köməyi ilə döyüşürdük. (İndi qoşunun azlığından narahat olma. Allah bizə yardım göstərəcək və sonda qələbəni, zəfəri bizə nəsib edəcək.)

İmam Əli əleyhis-salamın (Həzrət Məhəmmədə peyğəmbərlik verilməsinə dair dediyi, gələcəkdə baş verəcək hadisələrdən xəbər verdiyi, camaata öyüd, nəsihət etdiyi, onları itaətə həvəsləndirdiyi) xütbələrindəndir. (Allaha şükr və sənadan) sonra, Allah Məhəmmədi (səlləllahu əleyhi və alih) haqqa və doğruluğa seçdi ki, bəndələrini bütlərə pərəstişdən çəkindirsin və Ona ibadətə, itaətə dəvət etsin. Şeytanın ardınca getməyi qadağan edərək Ona itaətə yönəltsin. Bəndələrinin nadan olduqları halda Allahlarını tanısınlar deyə, inkar etdikdən sonra Onu etiraf və inanmadıqdan sonra varlığını sübut etmələri üçün onu (bütün üfüqlərdə) aydın, möhkəm və güclü etdiyi Qur'anla göndərdi. Sonra özü görülmədən, onlara göstərdiyi güc və qüdrətilə özünü kitabında onlara aşkar etdi. (Öz kitabında) onları öz əzəmət və şövkəti ilə qorxudub məhv etdiyi qövmü müxtəlif əzablarla necə puç etməsindən, aralarına qəzəb orağı atdığı dəstəni (aradan götürdüyündən) agah etdi. Məndən sonra tezliklə sizin üçün elə bir zaman gələcək ki, onda haqq və doğruluqdan daha gizli, batil və nadürüstlükdən daha aşkar, Allaha və Onun Peyğəmbərinə qarşı yalandan daha çox bir şey olmayacaq. O zəmanənin camaatı üçün doğru-düzgün oxunan (düzgün təfsir və tə'vil edilən) Qur'andan qiymətsiz, mənasını təhrif edib dəyişdiklərindən (onu nəfsi istəkləri və batil qərəzləri ilə uyğunlaşdırsalar) bol məhsul olmaz. Şəhərlərdə ləyaqətli işlərdən daha pis və pis işlərdən daha ləyaqətli iş olmaz. Qur'anı daşıyanlar (onunla tanış olub məlumatı olanlar) ona etinasız olar (göstərişinə uyğun rəftar etməzlər) və hafizləri isə (onu əzbərdən avazla oxuyanlar əməl vaxtı) unudarlar. Deməli, Qur'an və onun əhli (yol göstərən İmamlar əleyhimus-salam və ardıcılları) uzağa atılmışlar və cəmiyyət arasında deyillər. Bunların hər ikisi bir yolda bir-birinə yoldaşdır. (Qur'anın göstərişinə uyğun rəftar edirlər. Həmin zəmanə əhlindən) bir kimsə Qur'ana və əhlinə hörmət qoymayıb yanında saxlamayacaq. (Çünki nəfsinə uyğun gəlmir.) Deməli, Qur'an və onun əhli həmin zəmanədə (zahirdə) camaatın arasında, onlarla olsalar da (əslində) aralarında olmayıb, onlarla deyillər. Çünki zəlillik və azğınlıqla doğru yol, hidayət bir yerə sığışmaz. Həmin (azğın) camaat (Qur'andan) ayrılmaq üçün əl-ələ verəcək və insanlardan

(Qur’ana tabe olanlardan) pərən-pərən düşəcəklər. Sanki (itaət edib ardınca getməli olduqları) Qur’an onların rəhbəri deyil, onlar Qur’anın rəhbərləridir!!! (Çünki onu öz batil qərəzləri və nadürüst düşüncələri əsasında təfsir, tə’vil edirlər.) Deməli, (Qur’anı arxaya atıb onun müddəalarına əməl etmədiklərinə görə) onlar üçün onun adından başqa bir şey qalmayıb və yazısından, xəttindən qeyri bir şeyini tanımırlar. Bu zəmanə gəlməmişdən qabaq (Bəni-Üməyyə və Bəni-Abbasın zülmü, sitəmi nəticəsində) yaxşı insanlara cürbəcür zülmlər olunacaq. Onların doğru sözünü Allaha yalan və böhtan sanacaq, yaxşı əməllərini çirkin işlərin cəzası ilə mükafatlandıracaqlar. (Çünki şəhvət və nəfslərinə tabe olaraq yaxşı insanların layiqli əməllərini nalayiq sanacaq və onları qətlə yetirəcək, incidəcəklər.) Sizdən əvvəl olanlar uzun arzularına və ölümləri naməlum olduğuna görə həlak olub əzab çəkərlər (uzun arzulardan çox asılı olub, ölümdən xəbərsiz qalarlar) ölüm onları yaxalayar. Elə bir ölüm ki, heç bir üzrü qəbul etməz, əllər tövbəyə, (çirkin əməllərdən) qayıdışa çatmaz (üzrxahlığa və tövbə etməyə macal olmaz) və müsibət, əzab (can vermək və əbədi əzab) onunla yoldaş olar. Ey camaat! Allahdan öyüd-nəsihət istəyən kimsə (nəsihət qəbul edənin əməlləri və sözləri Allahın buyuruqlarına uyğun olsa, hər xeyir işdə) uğur qazanar. Onun sözünü (Qur’ani-Kərimi) kim öz yolgöstərəninə çevirsə, yolların ən davamlısı olan bir yola yönəldilər. Çünki Allahı tanıyan (Onun sözlərini öz bələdçisinə çevirən şəxs əbədi əzabdan) rahat və asudə olar. Onun düşməni (Ona ibadət və bəndəlikdən boyun qaçıraraq yoluna qədəm qoymayan) isə qorxudadır. Allahın əzəmət və böyüklüyünü tanıyan (Onun hər şeyə qadir olduğunu bilən) kimsənin özünü böyük sanması (Onun əmr və qadağalarına tabe olmaması) yaraşan deyil. Allah-təalanın böyüklüyünün həddi-hüdudunun olmadığını bilən şəxslərin ləyaqət və məqamlarının aliliyi Onun müqabilində təvazökar olmalarındadır (əmrlərinə uyğun rəftar etmələrindədir). Onun güc və qüdrətinin hər imkanın fövqündə dayandığını bilən kəslərin sağlığı (əzabdan xilas olmaları) Ona tabe olmalarındadır. Sağlam insan qoturludan, şəfa tapan xəstədən uzaq durduğu kimi haqdan (Onun əhlindən, yəni, din başçılarından) uzaqlaşmayın. Bilin, nə qədər ki, Onu tərk edəni (Ona itaət etməyənləri) tanımamısınız, doğru yolu (haqq dini) dərk etməyəcəksiniz. Heç vaxt Qur’anla əhd-peymanınıza sadiq qalmayacaqsınız (Allaha və peyğəmbərə iman gətirməyəcəksiniz), nə qədər ki, əhdini pozub peymanını sındıranı (onlara meyl etməyəni) tanımamısınız. Onu uzağa atanı (onun hökmlərinə əməl

etməyəni) tanımayana qədər heç vaxt Allahın Kitabına əl vurmayacaqsınız (onun göstərişinə uyğun rəftar etməyəcəksiniz). (Doğru yola gəlməyəni, Qur'anla əhd-peymanlarını pozub onu tərk edənləri tanıdıqda və onlardan uzaqlaşdıqda) doğru yolu, əhd-peymana sadiqliyi, Qur'ana bağlanmağın üsulunu onun əhlindən (yol göstərən İmamlar əleyhimus-salamdan) diləyin. Çünki onlar elm və biliyi diri saxlayanlar, cəhalət və nadanlığı öldürənlərdir. (Buna görə ki,) onlardır hökmləri (bəyan etdikləri şəriət hökmləri və ilahi vəzifələr) sizləri elm və biliklərindən (söz deməməli olduğu yerlərdə) sakit dayanmaları sözlərindən (bəyanlarının gözəlliyindən) və zahirləri batinlərindən agah edən. (Sözləri ilə əməllərinin birliyi etiqadlarının düzgünlüyü və imanlarının doğruluğundandır.) Dinin əleyhinə deyildirlər (çünki dinin rəhbərliyi onların əlində olub və hər eybdən, günahdan mə'sumdurlar) və (hökmlərin heç birində) bir-biri ilə ixtilafları yoxdur. (Çünki onların elmləri vahid peyğəmbərlik mədənindən qaynaqlanır.) Deməli, din onların barəsində doğru danışan şahid (onların birliyinə və ixtilaflarının olmamasına şəhadət verir) və danışan bir sükutdur. (Zahirdə bir söz deməsələr də, əslində din haqqın onlarla və onların haqla olduğunu deyir.)

İmam Əli əleyhis-salamın Bəsrə əhli (Təlhə və Zübeyrin məzəmməti) barədə kəlamlarındandır. Təlhə və Zübeyrin hər ikisi özlərinin xalqın əmiri və hakimi olacaqlarına ümidvar olaraq, bunu dostları üçün deyil, özləri üçün istəyirlər. (Buna görə də bu döyüşdə) Allaha tərəf getməyib bir kəndir və iplə özlərini Ona yaxınlaşdırmırlar. Hər biri öz dostuna ürəyində kin bəsləyir. Tezliklə işlərin üstündən pərdə götürüləcək, kinləri üzə çıxacaqdır. Allaha and olsun, istədiklərini əldə etsələr (hakimiyyətə çatsalar), hər an hər biri başqasının canını alar, hər biri dostunu puç və məhv edər. (İndi) zülmkar bir dəstə (fitnə və qarışıqlıq üçün) qiyam etmişdir (biz də müdafiə olunmağa və qarşılarını almağa hazırıq). Haradadır (pis işlərdən çəkindirərək Allahdan) əcr və savab istəyənlər (ki, bizə kömək və yardım etsinlər?) Həqiqətən də sünnələr (hidayət və qurtuluş yolları) onlara aydındır (hamı bilir). Bu xəbər daha əvvəldən onlara bəyan olunmuşdur. (Buna görə də Osmanın qətlini əhd-peymanlarını pozmaq üçün bəhanəyə çevirən bu insanların sözlərinə qulaq asmaq lazım deyil. Çünki) hər azğınlıq üçün bəhanə və səbəb, hər əhd-peymanı pozmaq üçünsə bir şübhə var. (Ancaq) Allaha and olsun, mən əli başa, üzə və sinəyə vurmağın səsini matəmlərdə və ölüm xəbərini qasiddən eşidən, (inanmayaraq) ağlayanın başının üstünü kəsdirənlərdən (buncaya qədər inanmayandan) deyiləm.

←148-ci xütbə

Nəhcül-bəlağə. 149-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

150-ci xütbə→

İmam Əli əleyhis-salamın (ibn Mülcəm qılıncla o böyük şəxsin başına zərbə endirdikdən sonra) vəfatından öncə (ölümün hamıya çatacağı barədə dediyi, Allah və Peyğəmbərə tabe olmağı tövsiyə etdiyi və öz vəfatını xəbər verdiyi) kəlamlarındandır. Ey camaat! Hər insan ölümdən qaça-qaça onunla görüşür. Ömrün müddəti canın cıdır meydanıdır. (Mənzil başı ömrün başa çatması və ölümü qəbul etməkdir.) Ölümdən qaçmaq ona yaxınlaşmaqdır. Nə çox günlərimi bu gizli mətləblə maraqlanmaqla keçirmişəm. (Bu sirri tapdım və) Allah-təala onun (sizdən) gizli qalmasından qeyri bir şeyi istəməmişdir. Ondan agah olmağınız nə qədər də uzaqdadır. (Çünki) gizli bir elmdir. (Onu hər kəsə açmaq olmaz.) Mən (sizlərə) Allahı (barəsində) vəsiyyət edib tapşırıram ki, Ona heç nəyi şərik qoşmayasınız. Məhəmməd (səlləllahu əleyhi və alih) (haqqında) vəsiyyət edirəm ki, onun sünnəsini (hökmlərini) qədir-qiymətsiz və puç etməyin. Bu iki sütunu (Allahın birliyi və Həzrəti Peyğəmbərin şəriətini) qoruyub saxlayın. Və yandırın bu iki çırağı (nadanlıq və azğınlıq zülmətində sərgərdan qalmayasınız deyə). Bir-birinizdən (bu iki şeydən) uzaq və pərən-pərən düşməyənə qədər qınaq və məzəmmət olunmazsınız. (Allahın və Peyğəmbərin göstərişinə tabe olmağı çətin sanmayın, çünki) Allah-təala sizlərdən hər birinə taqəti və qüdrəti qədər vəzifə tapşırmış, nadanlara güzəşt etmişdir. (Belə isə, nadanların bilənlər qədər mükəlləfiyyəti yoxdur, çünki) sizin Allahınız mehriban bir Allah, dininiz möhkəm bir din (əyrilik ona yol tapmayıb) və rəhbəriniz (Həzrət Peyğəmbər və yol göstərən İmamlar əleyhimus-salam bütün ilahi hökmlərdə) bilikli bir rəhbərdir. Mən dünən sizinlə yoldaş və həmnişin idim. (Sağlamlıq, igidlik və gücümlə sizə xidmət edirdim.) Bu gün isə sizlər üçün ibrət və öyüdəm. (Bütün bu igidlik və qüdrətimə baxmayaraq, ölürəm.) Sabah sizdən uzaqlaşaraq ayrılacağam. (Öləcəyəm.) Allah mənə və sizlərə rəhmət etsin. Bu büdrəyən yerdə ayaq qoyduğum yer möhkəm olsa, (bu dünyada sağ qalsam,) deməli, (Allahın qəza- qədərinə razı olduğuma və Onun istədiyindən başqa şeyi istəmədiyimə görə) bu sizin muradınızdır, sizə yaxşıdır. Əgər ayağım büdrəsə (ölüm məni haqlasa), deməli, biz ağac budaqlarının kölgəsində, küləklərin əsdiyi yerdə və yerlə göy arasında

toplanıb, məhv olan və nişanələrini yerdəki küləklərin yox etdiyi buludların sayəsində olmuşuq. Mən sizin qonşunuz idim və bir müddət bədənim də sizə yoldaş idi. Tezliklə hərəkətdən sonra sakitləşmiş, danışdıqdan sonra susmuş cansız bədənimi görəcəksiniz. Mənim hərəkətsizliyim, gözlərimi önümə dikməyim və əzalarımın sakitliyi sizlər üçün ibrət olsun. Çünki bu hal ibrət götürənlər üçün hər bəlağətli söhbətdən, hər qəbul edilmiş sözdən daha nəsihətlidir. Mənim sizlərlə vidalaşmağım, ayrılmağım dostları görüşünə gələn bir kişinin ayrılığına və vidalaşmağına bənzər. (Qiyamət günündə Allahın ədalət dərgahında sizinlə görüşəcəyəm.) Sabah mənimlə olduğunuz günləri xatırlayacaqsınız. (Mən dünyadan köçdükdən, Bəni-Üməyyə və başqaları hakimiyyətə gəldikdən sonra mənim qədrimi biləcəksiniz.) Mənim fikirlərim sizə çatacaq. (Məlum olacaq ki, bu döyüşlərdə Allah-təalanın razılığını qazanmaqdan başqa məqsədim olmayıb.) Mənim yerim boşaldıqdan və orada başqa birisi dayandıqdan sonra məni tanıyacaqsınız.

İmam Əli əleyhis-salamın (özündən sonra) baş verən hadisələrə işarə etdiyi (İmami-Zaman əccələllahu fərəcəhun qeybə çəkilməsindən xəbər verdiyi) xütbələrindəndir. (Dünyapərəstlər) tutdular azğınlıq yollarını sağdan, soldan, göz yumdular hidayət və qurtuluşun düm-düz yollarına. (Dinləyənlər bu sözdən heyrətə gələrək bu hadisələrin nə vaxt baş verəcəyini Həzrətdən soruşanda buyurdu:) Tələsməyin. Baş verəcək pozğunluqları, olması gözlənilənləri və sabahın gətirəcəklərini (bundan sonra aşkar olacaqları) gec sanmayın ki, bir şey uğrunda tələsən onu tapdıqda ona çatmamağı qalır! Sabahın nişanələri (o zamanların çatacağı və həmin pozğunluqların baş verəcəyi zəmanənin insanlarının əməlindən aydın görünür) bu gün necə də yaxındır! Ey zəmanə camaatı, hər vəd olunmuşun gəlişinin vaxtı, xəbəriniz olmadığı fitnələrlə görüşə yaxınlaşmaq anıdır. Agah olun, bizdən fitnələri görən kimsə (Sahib əz-zaman əccələllah fərəcəh) həmin fəsadların zülmətində aydın çıraqla (İmamət və vilayət nuru ilə) hərəkət edəcək, yaxşılar kimi rəftar edəcək ki, o çətinliklərin bir düyününü açsın (azğınlığa düçar olanı xilas etsin) və bir əsiri (cəhalət və nadanlığın buxovlarından) azad etsin. (Kafirlərin) birliyini dağıdıb dağınığı (haqqı) bir yerə yığacaq. Camaatdan gizlində olar, axtaran arxasınca nə qədər nəzər salsa da bir izini, nişanəsini görməz. Bir dəstə bu fitnələrdə dəmirçi qılıncı cilaladığı kimi cilalanacaq (doğru yola gəlib xilas olacaq və o Həzrətin ardınca getməyə hazır olacaq. Belə ki,) onların gözləri Qur'anın nuru ilə işıqlanacaq, təfsiri qulaqlarında səslənəcək (Qur'an ayələrini oxuyub dərindən düşünəcək, təfsirini öz əhlindən öyrənəcək). Səhər erkən içdikdən sonra axşam da hikmət camını onlara içirdəcəklər. Bu xütbənin (cahiliyyət dövrünün insanları və Həzrət Peyğəbmərin səhabələri haqda olan) bir hissəsidir

(Müqəddəs İslam dini yaranmamışdan əvvəl bütün dünyanı azğınlıq bürümüşdü və insanlar müxtəlif pozğun işlərlə məşğul olurdular.) Onların (günah və itaətsizlik) zəmanəsi (öz) günah və cəzalarını başa çatdırmaları üçün uzun çəkdi. Zəmanələrinin sonu yaxınlaşana qədər ruzgarlarının ağır

hadisələrinə layiq olmaları üçün. (Rəis və başçılarından) bir dəstə pozğunluqlara bel bağlayıb ondan rahatlıq tapdı. Müharibə atəşini alovlandırmaq üçün əllərini qılıncla göyə qaldırdılar. (Həzrət Peyğəmbər öz səhabə və ardıcıllarını müqəddəs İslam dinini təbliğ edib yaymaq üçün elə tərbiyələndirdi ki,) İlahi qəzavü-qədər bəla və çətinlik dövrünün başa çatmasını tələb edənədək (müsəlmanlar güclənib dinləri dünyada məşhurlaşana qədər çətinliklərdə və düşmənlə döyüşdə) dözümlərini Allaha minnət qoymadılar, haqqın yolunda candan keçməyi böyük saymadılar. (Döyüşlərdə) qılınc çalmaları bəsirətlərinə (nadanlığa və şəhvətə görə deyil, Allaha və Peyğəmbərə inamlarına) görə idi. Yol göstərən və nəsihət verənlərinin (Həzrət Peyğəmbərin) əmrilə Allahlarına yaxınlaşdılar. Allah-təala bu Peyğəmbərin (səlləllahu əleyhi və alih) ruhunu aldıqdan sonra bir dəstə geriyə qayıtdı (Həzrət Peyğəmbərin əmr və qadağalarına arxa çevirib yenidən azğınlıq yoluna qədəm qoydular) və (azğınlıq) yolları onları məhv etdi. (Dünyada pozğunluğa, axirətdə isə əbədi əzaba düçar oldular.) Öz nadürüst düşüncə və rəylərinə etimad etdilər (hökmləri özlərindən səhv bəyan etməklə insanları ona tabe olmağa məcbur etdilər. Həzrət Peyğəmbərin) qohum-əqrabasından qeyrisinə tabe oldular. (Onları) sevməyə əmr edilmiş vasitədən (yəni, hidayət və qurtuluş vasitəsi olan Həzrət Peyğəmbərin Əhli-Beytindən) uzaq durdular. Binanı (din və imanı) möhkəm bünövrəsindən köçürərək layiq olmayan yerdə tikdilər. Onlar hər günahın mənbəyi, hər çətinliyə və nadanlığa daxil olanın qapılarıdır. (Batili və nadürüstlüyü istəyən hər kimsə onların ardınca gedər. Çünki onlar zəlillik və azğınlıq qapıları, fitnə-fəsadın, din və dünya işlərində pozğunluğun mənşəyidirlər.) Heyrət və səfalət içrə (dənizin dalğaları kimi) get-gəl edirdilər (çünki haqdan əl çəkmişdilər və dinin rəhbərinə tabe deyildilər) və bihuşluqda (cəhalət və nadanlıqda) Fironun ardıcılları kimi (öz əməllərinin əzab və cəzasından) qafil idilər. Bəziləri (xəlifələr kimi) axirətə göz yumub dünyaya yönəldilər, bəziləri də (Bəni Üməyyə kimi) dindən əl çəkib (doğru yol və qurtuluşdan) uzaqlaşdılar.

İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbəri vəsf, ərəblərə nəsihət etdiyi və çətin hadisələrdən xəbər verdiyi) xütbələrindəndir. Allahdan şeytanı uzaqlaşdırdığı və saxladığı yerlərdə, (ibadət, bəndəlik vaxtı və şeytana tabeçiliyə mane olan layiqli işlərdə Allahdan uğur diləyirəm) onun yalanlarına və tələlərinə (nəfsi istəklərə və dünyanın xoş görüşünə) düşməməkdə kömək diləyirəm. Şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi, elçisi, seçilmişi və bəyəndiyidir. Fəzlinin və böyüklüyünün tayı-bərabəri yoxdur, yoxluğunu heç nə əvəz etməz. Şəhərlər (sakinləri) zülmət azğınlığından və (bütpərəstlikdən), böyük nadanlıqdan, ünsiyyətdə kobudluq və pis əxlaqdan (daş qəlblilik və qan tökmədən) sonra Onunla (doğru yolun nuru ilə) işıqlandılar. İnsanlar (o Həzrətin peyğəmbərliyindən əvvəl) haramı və nalayiq olanı halal bilər, alimi və biliklini xar sayardılar. (Onları doğru yola yönəldəcək) peyğəmbərin olmadığı bir dövrdə yaşayıb, zülmətdə (küfr və azğınlıqda) ölürdülər. Siz, ey ərəb camaatı! (Görünməsi) yaxında olan bəlaların (fəsad və pozğunluqların) nişanələrisiniz (oxlarısınız). Qəflətdən və (insanın məhvinə, tükənməsinə səbəb olan) nemətin məstliyindən uzaq durun (çarəsiz qalmamaq üçün öz dininizə əhəmiyyət verin) və (dinə etinasızlığa görə) cəzanızın ağırlığından çəkinin. Şübhənin tozunda və qaranlığında (batilin haqla səhv salınmasında), fitnənin (yolunun) əyriliyində və kələ-kötürlüyündə, gizlinin aşkar olub üzə çıxmasında, qütbün asılmasında və onun oxunun fırlanmasında ləngiyin (düşünüb-daşınmadan dolaşıq və fitnə-fəsadın başlanğıcı olan işlərə girişməyin). (Çünki) fitnə və pozğunluq gizli yollarda üzə çıxar və rüsvayçılıq, çirkinlik yaradar. (Fitnə törədən səhv işlər əvvəldə az olar və yavaş-yavaş artar.) Onun böyüyüb artması (tədricən güclənən) gəncin böyüməsinə, nişanələri isə (çırpıldığı hər şeyi dağıdıb sındıran) daşın nişanələrinə bənzər. Zülmkarların hər biri başqası üçün bağladığı əhd-peymanla həmin fitnəni miras götürür. Onların (və azğınlığa aparan) ilki sonuncularının rəhbəri, sonuncuları isə (yaxşılara zülm etməkdə) ilklərinin ardınca gedəndir. Alçaq dünyaya (sahib olmağa) meylli, rəğbətlidirlər və (bu işdə) bir-birini ötüb keçirlər. İylənmiş, pis qoxulu murdar ətə çox tamah salaraq, onun üstündə bir-birilə düşmənçilik

edirlər. Az zamandan sonra davamçı öz rəhbərindən, rəhbər isə ardıcılından bezər, sonra düşmənçiliklə bir-birindən pərən düşərlər. Görüşəndə biri digərini lənətləyib söyər. Müqəddimə olan bu fitnədən sonra daha bir məhvedici, qırıcı fitnə gələr. (Bu fitnə insanları çox pərişan və puç edər.) Ürəklər gücləndikdən sonra tutulmağa və daralmağa meyl edər, kişilər sağaldıqdan sonra azğınlaşarlar. O fitnənin üz tutduğu vaxt istəklər korlanar. Onun yarandığı vaxt düşüncələr (doğrusu nadürüstü ilə) səhv salınar. (Nadan başını itirər) onu dəf etmək niyyətində olan hər kimsəni fitnə sındıraraq puç edər, onunla əlləşib (unutmağa) çalışanı əzib məhv edər. Həmin fitnədə insanlar vəhşi uzunqulaq kimi bir-birinin boğazını gəmirib əziyyət verəcəklər. Birləşdirən iplər (dinin qaydaları və şəriət hökmləri) qırılıb qopacaq, işlərin üstü örtüləcək. (Qurtuluş yolu görünməz olacaq.) Bu fitnədə (alimlərin söz deməyə qüdrətləri olmadığına görə) elm, bilik azalacaq, zalımlar dil açacaqlar. O fitnə çöllərdə yaşayanları öz cilovunun dəmiri ilə döyəcək, sinəsi ilə onları əzəcək. (Pozğunluq dikbaş atın insanı ayaqları altına salıb öldürmək üçün onun üstünə çıxması kimi hər yanı bürüyəcək.) O fitnənin toz-torpağında (nişanə və əlamətlərində) tək yol gedənlər (alimlər və fazillər) puç olacaq (aradan gedəcək) və atlılar (igidlər və güclülər) onun (qarşısının alınması) yolunda həlak olacaqlar (öldürüləcəklər. Qısası, bu fitnədən az adam sağ çıxacaq). O fitnə acı tale (ən ağır ilahi hökmlə) ilə gələcək, yeni və pak qanları sağacaq (çox qan töküləcək), dinin nişanələrinə (şəriət hökmlərinə) nüfuz edəcək (belə ki, şəriət qanunlarına uyğun rəftar olunmayacaq). Yəqinlik əhd-peymanlarını (haqq inam və əqidələri) bir-birinə vuracaq (onları dəyişəcək). Ağıllılar və uzaqgörənlər ondan qaçacaq, natəmizlər və bədxahlar ağıl, düşüncə işlədərək həmin yola qədəm qoyacaqlar. Şimşək kimi çaxacaq (qovğalı və hay-küylü olacaq və yaxud qılıncların səsi qınlarından çıxarılarkən və qan axıdılarkən hər yerdə eşidiləcək) və çox ağır, tələsik olacaq (əlini belinə qoyub işində tələsən insan kimi). Onda qohumlar və yaxınlar bir-birindən ayrılacaq. İslam dini ondan uzaqlaşıb ayrı duracaq. (Çünki dinin qaydalarına ziddir.) Ona nifrət edən (günahdan və qarışıqlıqdan uzaq olan) xəstədir (müxtəlif çətinliklərə düşmüşdür), köçən (ondan qaçmaq istəyən) isə qalandır (nicatı və xilası yoxdur).

Bu xütbənin (möminlərin və yaxşı insanların axirəz-zamanda vəziyyəti barədə olan) bir parçasıdır

(Möminlərdən) bəziləri öldürüləcək və qanları hədər gedəcək, bəziləri isə (zülmkarlardan) qorxaraq aman istəyəcəklər. Verilən andlara (münafiq və ikiüzlü insanların zahirən göstərdikləri) yalan imana aldanacaqlar (hiyləgərlər yalan andlarla və özlərini imanlı göstərməklə onları arxayın salar, son nəticədə həlak edərlər). (Həmin zamanlarda ilahi əzabdan xilas olmaq istəyirsinizsə) fitnə və bid'ətlərə bayraq, nişanə olmayın (pozğunluğa səbəb olmayın və dində hökm yaratmayın). Vəhdət ipinin bağlandığı və ibadətin, itaətin sütunlarının üzərində qurulmuş şeydən (müqəddəs İslam dinindən) əl çəkməyin. Allahın hüzuruna zülmkar deyil, məzlum kimi gəlin. Şeytanın yollarından (tələ və yalanlarından) və zülm, sitəm məkanlarından uzaq durun. Qarınlarınıza (az da olsa) haram loxma daxil etməyin. Çünki günahı sizə haram etmiş, (ən xırda işlərinizi bilən və əməllərinizə şahid olan), sizlərə itaət və ibadət yolunu asanlaşdırmış (hökmlərin heç birini sərtləşdirməyən) Allahın nəzərindəsiniz.

İmam Əli əleyhis-salamın (tovhid və Allahın sifətləri haqqında) xütbələrindəndir. Həmd o Allaha məxsusdur ki, yaratdıqlarının vasitəsilə Öz vücuduna və varlığına yolgöstərəndir. Yaratdıqlarının sonradan əmələ gəlmiş və yeni yaranmış olması Onun əzəliliyinə və başlanğıcının olmamasına dəlalət edir. Yaranmışların bir-birinə bənzəməsi Onun misli olmadığını göstərir. Hisslər Onun əslinə vara bilməz. Örtüklər Onu örtməz. Çünki Xaliqlə məxluq, Həddd-hüdud təyin edənlə təyin olunmuş və məhdud, Yaradanla yaradılmış arasında fərq var. (O Allaha şükrlər olsun ki,) Birdir, hesabla saya gələn deyil. Yaradandır, hərəkətsiz və əziyyətsiz (çünki hərəkət və dəyişmə mümkünül-vücuda xasdır və vacibül-vucudda qeyri-mümkündür). Eşidən və görəndir, qulaq (eşitmə) aləti olmadan və göz hədəqəsi çevrilmədən. (Çünki alət ehtiyac tələb edir.) Hüzuru var, görüşlə (və yerin yaxınlığı ilə) deyil və ayrıdır, yolun uzaqlığı ilə deyil. (Öz zatında hər şeydən başqadır, çünki O kamalın fövqündədir və Ondan qeyrisi son dərəcə nöqsanlıdır.) (Qüdrətin nişanəsi ilə) görünəndir, görməklə deyil. (Zatının əsli) gizlindir, lətafətinə (həcminin kiçikliyinə və dərisinin şəffaflığına) görə deyil. Əşyadan ayrıdır, (yaratmaq və yox etməkdə) onlara qalib, üstün, qüdrətli olmaqla (necə ki, «vacib»in şə'ninə layiqdir). Əşya Ondan ayrıdır, təvazökarlıq və Ona doğru qayıtmaqla. Onu (zatından törəmə sifətlərlə) vəsf edən Onu məhdud sanmışdır (Onun üçün məkan təyin etmişdir). Onu məhdud sanan isə Onu sayar (ədədlərə və çoxluqlara salar). Onu sayan (çoxluğun başlanğıcı və hissəsi hesab edən) Onun əzəli olmasını (inamını) pozmuşdur. «Necədir?» deyən Onu (zatından törənən sifətlərlə) vəsf etmək istəmişdir. «Haradadır?» deyən Onun üçün məkan ayırmışdır. Məlum, yaradılmış və qüdrət verilmişlər olmadığı vaxt bilən, yaradan və qüdrətli olmuşdur. (Çünki Onun zatı kamalı ilə eynidir. Deməli, O, əzəli və əbədi bilən, yaradan və qüdrətlidir.)

Bu xütbənin (xəlifəliyin o Həzrətə keçməsi, yol göstərən İmamların mədhi və camaata nəsihət barəsində olan) bir hissəsidir

(Agah olun) günəş (İmam əleyhis-salamın xilafəti zahirən) şəfəq saçaraq aşkarlandı və parıldayan (haqq və ədalət) parladı, üzə çıxan (Həzrətin dövründə baş verən fitnə və döyüşlərin nişanələri) aşkar oldu, əyri-üyrülük (nadanlıq və azğınlıq) düzəldi (aradan getdi). Allah-təala bir dəstəni (xəlifə və yoldaşlarını) başqa bir dəstəyə (İmam əleyhis-salam və ardıcıllarına), bir günü isə başqa bir günə döndərdi. Biz qəhətlik çəkənlər və quraqlıq görənlər yağışı gözlədiyi kimi, (İslam dininin yayılması üçün) vəziyyətin ruzigarın dəyişməsini gözləyirdik. (Haqq İmam ümmətin işləri üçün qiyam etməlidir və ümmətə də onu sevib tabe olmaq vacibdir. Çünki) rəhbərlər (on iki İmam əleyhimus-salam) yaradılmışlara (yol göstərmək) üçün Allaha (əmr və qadağalarına) tabe olub Onu bəndələrinə tanıtdırırlar. (Onların vasitəsi ilə Allah-təala tanınır və Ona sitayiş olunur. Buna görə də) onları tanıyandan başqa kimsə cənnətə daxil olmaz. Onlar da onu (onlara müti və tabe olmasını) tanısınlar. Onları inkar edən və Onların da (ədavət və düşmənçiliyinə görə) özlərindən saymadığı kimsədən başqa heç kəs atəşin içinə girməz. Allah-təala sizləri İslam üçün ayırıb, sizin onun üçün (çirkinlik, küfr və şirkdən) pak və layiq olmanızı istəyib. Bu, İslamın adının (dünyanın fitnə-fəsad və çətinliklərindən, axirətin əzabından) salamatlıq olduğuna və böyüklüyü, başucalığı ehtiva etdiyinə görədir. Böyük Allah onun yolunu (Məhəmmədin şəriətini digər yollardan və peyğəmbərlərin şəriətlərindən) üstün (onunla digər dinləri qüvvədən salaraq, İslamı dünyanın sonuna qədər saxladı) və zahiri elmdən (Qur'an və sünnədən) və batini hikmətdən (əqldən) ibarət olan dəlillərini (həqiqətlərini) aşkar etdi. Onun əsrarəngizliyi (alimləri və bilik sahiblərini heyrətə salan əlamət və nişanələri) məhv olub aradan getməz. Onda (ölmüş qəlblərə təravət gətirən, bunun nəticəsində müsəlmanların böyüklüyə və xoşbəxtliyə çatdığı) nemətlərin bahar yağışı mövcuddur, zülmətlərin çıraqları (yol göstərən İmamlar əleyhimus-salam) ondadır. Yaxşılıqların qapısı onun açarlarından (hökmlərinə tabe olmaqdan) qeyri bir açarla açılmaz (dünyadakı rahatlıq, böyüklük və əbədi cənnət qazanılmaz), qaranlıqlar (azğınlıq) onun çıraqlarından (əsl din rəhbərlərinin buyurduqlarına əməl etməkdən) başqa bir şeylə yox olmaz. Allah onun haramlarını qadağan etdi, örüşlərini bitirdi. (Onun mubahatını, yəni, onun halal olanlarını qadağan etmədi.) Ondadır şəfa axtaranların şəfası (nadanlıq və azğınlıq xəstəliklərinin əlacı) və (dünya və axirətdə) ehtiyacsız olmaq istəyənin ehtiyacsızlığı. (Müqəddəs İslam dininin ardınca gedən azğınlıq xəstəliyindən şəfa tapar, dünya və axirət səadətindən məhrum qalmaz.)

Bu xütbənin (azğınlıq yolunda sərgərdan qalan insanın təsvir edildiyi) bir parçasıdır

Allah-təalanın möhlət verərək əcəlini uzatdığı azğın kimsə (ilahi əzabı nəzərə almayan) qafillərin yoluna qədəm qoyur. Məqsədə yetirən yol olmadan, (yolda hərəkət etmədən) onu səadətə doğru çəkən rəhbər olmadan (rəhbərə itaət etmədən) gecəni günahkarlarla səhər edir.

Bu xütbənin (günahkarlar barədə söylənilən və eşidənlərə öyüd olan) bir hissəsidir

(Azğınlıq yoluna qədəm qoyan günahkarlar) Allah azğınlıqlarının cəzasını onlara göstərərək onları qəflət və itaətsizlik pərdələrinin arxasından çıxarmaq istəyənə qədər (heç bir itaətsizlikdən çəkinməzlər. Ölüm onları haqlayar). (Bu zaman) onlara arxa çevirən (əzab və bədbəxtliyi onların nəsibi etdiyi) axirətə üz tutar, onlara üz tutan (onlara zahiri şadlıq və sevinc verən) dünyaya arxa çevirərlər. Deməli, istədikləri və əldə etdikləri şeydən (dünyanın ləzzəti və xoşluğundan) xeyir götürə bilmədilər, (çünki özləri ilə gətirməmişdilər), çatdıqları arzularından (nəfsi-əmmarənin istəklərindən) bəhrələnmədilər. (Çünki onların getməsi ilə bütün arzular bada gedər.) Mən özümü və sizi bu hadisədən (səfillik, əzab və çarəsizlikdən) çəkindirirəm (ki, qəflət yuxusundan oyanın, dünyanın keçici ləzzət və şadlığına bel bağlamayın). İnsan özündən xeyir götürməlidir (bədbəxtlikdə və ziyanda qalmasın). Çünki (həqiqi) görən o kəsdir ki, (Allah, Peyğəmbər və pak İmamların öyüdlərini) eşidib (onlar barədə) düşünsün, (dünyaya) nəzər salaraq (onun vəfasızlığı ilə) tanış olsun və (keçmişlərdəki) ibrətlərdən faydalansın. Onda aydın, doğru (Allaha və peyğəmbərə itaət) yolda hərəkət edər. Bir şərtlə ki, bu yolda çuxur və dərələrə (nəfsi istəklərə) düşməkdən və (şeytani) səhv işlərin içində azmaqdan uzaq dursun. Öz ziyanına iş görüb azğınlara kömək etməsin. Haqqdan yolsuzluğa getməklə (onları pisliklərdən çəkindirməməklə), ya sözünü dəyişmək (Allahın razılığına zidd olsa belə, onların ürəyi istədiyi sözləri danışmaqla) və ya (əslində qorxmasa da) doğru sözü deməyə qorxmaqla. Belə isə, ey eşidən, huşsuzluqdan (azğınlıqdan) özünə gəl, öz qəflət (yuxundan) və xəbərsizliyindən (çirkin əməl və sözlərinin cəzasından) oyan, (qalımlığı və varlığı az, məhvi və yoxluğu yaxın olan dünya işlərində) tələskənlikdən rahatlıq tap. (Heç kəsdən heç nəyi və o

cümlədən yazmağı öyrənməyən) Ümmi peyğəmbərin - ona və əhli-beytinə Allahın salamı olsun - dili ilə sənə çatdırılan, qaçılmaz olan haqda diqqətlə düşün. Peyğəmbərin buyurduqlarını düşünməkdən üz döndərən və diqqətini ondan qeyrisinə (şeytana və nəfsi-əmmarəyə itaətə) yönəldənə müxalif ol, ondan uzaq dur. Onu şad olduğu şeylərlə (azğınlıq və bədbəxtliklə) baş-başa burax. (Çünki belə bir şəxslə ünsiyyət dünya və axirətdə bədbəxtliyə səbəb olar.) Fəxr, qürur, təkəbbür və xudpəsəndliyi özündən uzaqlaşdır. Öz qəbrini yada sal ki, yolun oradan keçəcək. Necə əməl etsən, elə də əvəzini alacaqsan, əkdiyini biçəcəksən. Bu gün (dünyada) qabaqcadan göndərdiyini sabah (qiyamətdə) əldə edəcəksən. Belə isə, özün üçün (məhşərdə) yer hazırla və (indi fürsətin varkən) öz (dönüş) gününə azuqə göndər. Deməli, ey dinləyən, (Allaha və peyğəmbərə itaətsizlikdən) çəkin. Ey bixəbər, (itaət və ibadətə) çalış və heç kəs səni (qiyamət günündən) agah insanlar (Peyğəmbər və mə'sum İmamlar) kimi xəbərdar etməz. (Belə isə, indi səni çəkinməli olduğun bəzi şeylərdən xəbərdar edirəm.) Allah-təalanın Qur'anda (ona əməl edənlərə) mükafat verdiyi, razı qaldığı (Öz rəhmətini şamil etdiyi) və onlar (əleyhinə çıxanlar) üçün cəza təyin etdiyi və qəzəbinə gələn möhkəm, qəti (aşılması mümkün olmayan) hökmlərindən biri budur ki, dünyadan köçən bəndə (ibadət və bəndəliklə) özünə əziyyət verib əməlini (zahirən) saflaşdırsa belə tövbə edib qayıtmadığı (aşağıda göstərilən beş) xislətdən biri ilə Allahının görüşünə getdiyində fayda görməyəcək. (Birincisi) Özünə ibadət və sitayişdə vacib etdiyi şeylərdə Allaha şərik qoşmaq. (İkincisi) öz qəzəbini başqasını öldürməklə (aradan götürməklə) soyutmaq. (Üçüncüsü) başqasının etdiyi çirkin bir işi demək. (Dördüncüsü) öz dinində bid'ət yaratmaq yolu ilə öz ehtiyacını istəmək üçün camaata üz tutmaq. (Beşincisi) camaatla nifaq və ikiüzlülüklə görüşmək və ya onların arasında iki dildə danışmaq. Bu (xatırlanan) məsəlin əzəmət və böyüklüyünü başa düş və onu düşün. Çünki məsəl özünə bənzəyənin, oxşarının göstəricisidir. (İmam əleyhis-salamın buyurduğu məsəl isə budur:) Heyvanların məqsədləri (şəhvət qüvvəsinin çoxluğuna görə) qarınlarıdır. (Həmişə suyun və ot-ələfin əsiridirlər.) Yırtıcıların məqsədi (qəzəb hissinin güclü olduğuna görə) düşmənçilik və başqalarına əziyyət verməkdir. (Qarınlarını doydurmaqla kifayətlənmir, qələbə və istila istəyirlər.) Qadınların məqsədi (şəhvət qüvvəsinin çoxluğundan və qəzəb hissinin şiddətindən) dünyadakı güzəranlarını bəzəyib orada fəsad və pozğunluq etməkdir. (Ancaq itaət edilməli olan sifətlər) möminlərin sifətləridir ki, (Allah-təalanın

müqabilində) təvazökar (boyun qaçırmayan), (camaata) nəsihət verən, mehriban və (Allahın qəzəbindən) qorxandır.

←152-ci xütbə

Nəhcül-bəlağə. 153-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

154-cü xütbə→

İmam Əli əleyhis-salamın (camaata öyüd-nəsihət verib pak İmamları öydüyü) xütbələrindəndir. Ağıllı insanın işinin sonunu (ölümü və qiyamət gününün haqq-hesabını) görən, öz eniş-yoxuşunu (xeyir və şərini) tanıyan qəlbinin gözü, (camaatı İslam dininə) dəvətə səsləyən (xeyri və şəri, səadət və bədbəxtlik yolunu onlara bəyan edən) carçı (Həzrəti Peyğəmbər) və (o Həzrətin şəriətinin əsaslarını düşmənlərin fəsad və pozğunluğundan) qoruyan keşikçidir. Belə isə, dəvət edəni qəbul edin və keşikçiyə tabe olun (ki, dünyada başıuca, axirətdə xoşbəxt olasınız. Bilin ki,) İkiüzlü insanlar fitnə dənizlərinin dibinə gömülmüş və sünnələrə (Həzrət Peyğəmbərin hökmlərinə) göz yumaraq bid'ətlərdən yapışmışlar (onlar nəfslərinə uyaraq hər hökmü icra edəcəklər). Möminlər (batil haqqa qalib gəldiyi üçün) kənara çəkilərək sakit dayanmış və azğın yalançılar dil açmışlar. Biz Əhli-Beyt (Həzrəti Peyğəmbərə yaxınlığa görə onun bədənində) köynək kimiyik, (o Həzrətin) səhabələriyik (Allah tərəfindən ona nazil olanlara iman gətirib təsdiqlədik), o, xəzinədir və (biz elmə, maarifə açılan) qapılarıq. Evlərə onların qapılarından qeyri yerdən daxil olmaq olmaz. Evlərə qapıdan başqa yerdən girənlərə oğru deyərlər.

Bu xütbənin (Əhli-Beyt əleyhimus-salamın fəzilətləri haqda olan) bir hissəsidir

Qur'anın elm və doğru yolun tərifi, mədhi barədə olan ayələri Onların barəsində nazil olmuşdur və Onlar bağışlayan Allahın xəzinələridir. (Buna görə də) söz demək üçün ağızlarını açsalar, doğrunu deyərlər, sakit otursalar, heç kəs onlardan qabağa getməz. Hər qövmün öndə gedənləri və rəhbərləri öz ardıcıllarına doğru deməlidir. Öz ağlını yönəltməli (dediklərimizin doğruluğunu dərk etmək üçün sözlərimizi diqqətlə, düşüncə ilə dinləməlidir) və axirət övladlarından olmalıdır. Çünki oradan gəlib və ora da dönər. (Allahı nəzərində saxlayıb, ondan, çıxmalı olduğu dünyaya ürək bağlamaz. Axirəti isə özünə əbədi məkan sanar.) Ürəyinin gözünü açıb bəsirətlə bir iş

görürsə, onu görməmişdən qabaq ziyanına, yoxsa xeyrinə olduğunu bilməlidir. Xeyrinədirsə - həmin işi görməli, ziyanınadırsa - ondan uzaqlaşmalıdır. Nadancasına iş görənlər başqa yolda hərəkət edənlər kimidir. İşıqlı yoldan uzaqlaşmaq onun yaxşılıqlarından uzaqlaşmaqdan başqa ona bir şey artırmaz. (Əyri yolda olanlar nə qədər çox yol getsələr, mənzil başından bir o qədər uzaqlaşarlar.) Biliklə bir işi görən işıqlı yolda addımlayan kimidir. Deməli, gözü olan insan (qəlbinin gözünü açaraq düşünüb iş görənlər) yolda hərəkət etdiklərini, yoxsa yolsuzluğa getdiklərini görməlidir. (İşin əvvəlində götür-qoy etməlidir. Allahın bəyəndiyi işlərdəndirsə, görməli, əks təqdirdə isə ondan uzaqlaşmalıdır.) Bil ki, hər zahir və aşkarın müqabilində batin və gizlin var. Zahiri yaxşı olanın batini də yaxşıdır. Zahiri çirkin və pis olanın batini də çirkin, natəmiz olar. (Bəzən də zahiri batininə uyğun olmur. Çünki) doğru danışan Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur: «Allah-təala bəndəni sevər (Öz rəhmətini onun halına şamil edər), onun əməlindən (haram və günahından) acığı gələr və (bəzən də) əməlini (yaxşı işlərini) bəyənər, onun sahibini sevməz». Bil ki, hər əməl, rəftar üçün bir bitki var və hər bitkinin də suya ehtiyacı var. Sular müxtəlifdir. Saf sudan içənin ağacı yaxşı, meyvəsi şirindir. Natəmiz və pis su içənin ağacı pis, meyvəsi acıdır.

←153-cü xütbə

Nəhcül-bəlağə. 154-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

155-ci xütbə→

İmam Əli əleyhis-salamın (Allah-təalanın sifətlərindən biri və) yarasanın yaradılışının əsrarəngizliyi haqda olan xütbələrindəndir. Həmd O Allaha məxsusdur ki, vəsflər Onu tanımağın həqiqətlərində aciz qalıb, əzəmət və böyüklüyü ağılları (Onun dərkindən) tutub saxlayıb. Onun səltənət və hökmranlığının əslinə yol tapmayıblar. (Çünki ağıllar məhdud, O isə qeyri-məhduddur.) Odur (varlığı zəkalıların nəzərində) görünən, gözlərin gördüyü hər bir şeydən daha sabit və aşkar olan Allah, haqq və doğru olan padşah. Ağıllar həd və hüdudunu sübut etmək üçün Onun zatının əslini qavraya bilmədilər ki, bənzərini tapa bilsinlər. (Çünki onun həddi-hüdudu yoxdur.) Xəyallar onu təsvir etmək üçün Ona yol tapmadılar ki, Onun bənzərini xəyallarında canlandıra bilsinlər. (Çünki Onun oxşarı yoxdur ki, Ona bənzədilsin.) Məxluqları nümunəsiz (başqasının yaratdığı numunə olmadan və nəzərdə tutmaqla təsvir etmədən), başqası ilə məsləhətləşmədən və bir yardımçıdan kömək istəmədən yaratdı. (İlahi) əmr və iradəsi ilə yaratdıqları nizamlandı, bərqərar oldu və Ona boyun əydilər. Əmrini qəbul edib rədd etmədilər və tabe olaraq boyun qaçırmadılar. Düşünüləsi, diqqət yetiriləsi, yaratdıqlarından biri də bizə göstərilən əsrarəngiz yaradılışlarından olan yarasalardakı qəribəlikləridir. (Onlarla bütün heyvanlar arasında fərq var. Çünki) hər şeyin gözünü açan gün işığı onların gözünü bağlayır, hər canlının gözünü bağlayan gecənin qaranlığı onların gözünü açır. Nur saçan günəşdən getdikləri yollara nur və işıqlıq istəməkdə, günəşin şəfəqləri saçan zaman istədiklərinə çatmaqda gözləri necə də kor və qaranlıqdır? Necə də Allah-təala günəşin şüalarının parıldamasıyla onları günəşin şəfəqlərinin saçdığı yerlərə getməkdən saxlamış, onları öz yerlərində gizlətmişdir? Onlar gündüzlər gözlərinin qapaqlarını oyuqlarına qoyaraq gecəni çırağa döndərib onunla ruzi axtarmaq üçün yola düşərlər. Gecənin qaranlığının zülməti onların gözlərinə mane olmaz (əksinə, hər şeyi görər), gecənin qaranlıq zülmətlərində getməkdən usanmazlar. Günəş öz rüxsarındakı pərdəni çəkdikdə (qaranlığı yox edərək parlayanda) şəfəqləri görünəndə, parıltısı və işıqları kərtənkələlərin də yuvasına çatanda (günəş hər yana saçanda) göz qapaqlarını gözlərinin ətrafına çevirər, gecənin qaranlığında topladıqları ilə

kifayətlənərlər. Gecəni onlar üçün ruzi vasitəsinə, gündüzü isə istirahət, rahatlıq vasitəsinə çevirən, ehtiyacları olanda uçmaları üçün ətlərindən onlara qanadlar yaradan Allah pakdır. Qanadları sanki (insanın) qulağın ətinə bənzəyir, lələyi və sümüyü yoxdur. Ancaq damarların yerini aydın-aşkar görürsən (quşların qanadlarındakı lələklər əvəzinə yarasanın qanadlarında damarlar var). Onların iki qanadı nazik deyil ki, (qanad çalanda) cırılsın, qalın da deyil ki, ağır olsun (onların uçuşuna mane olsun). Balaları onlara yapışmış və sığınmış halda uçurlar. Anası əyləşəndə əyləşər, anası uçanda da uçar. Bədənləri güclənib qanadları uçmağa hazır olana kimi, həyatın yollarını və xeyirlərini bilənə qədər analarından ayrılmazlar. Xaliqliyi Ondan öncə qeyrisi tərəfindən yaradılmış nümunə olmadan bütün varlıqları yaradan pakdır. (Varlığı hikmətinə və məsləhətinə uyğun yaratmışdır.)

←154-cü xütbə

Nəhcül-bəlağə. 155-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

156-cı xütbə→

İmam Əli əleyhis-salamın Bəsrə əhlinə xitabən buyurduğu və ağır hadisələrdən xəbər verdiyi kəlamlarındandır. O fitnə və pozğunluq dövründə kimin Allaha itaətə və bəndəliyə gücü çatarsa, bunu etməlidir. Mənə itaət edib tabe olsanız, mən Allahın istəyi ilə sizləri çox ağır və acı bir yol olsa da cənnət (əbədi ağalıq və səadət) yoluna aparacağam. O qadını (Aişənin mənə düşmən kəsilməsinin səbəbi budur ki,) qadınların düşüncəsinin süstlüyü yaxalamış, sinəsində kin və düşmənçilik dəmirçinin qazanı qaynayan tək cuşa gəlmişdir. Əgər onu mənə etdiklərini başqasına qarşı da görməyə vadar etsəydilər, bunu etməzdi. Bundan (bütün bu çirkin əməllər, düşmən kəsilmək, fitnə törətmək, müsəlmanların qanını tökmək və bu kimi işlərdən) sonra belə, əvvəlki (Allahın peyğəmbərinin vaxtındakı) hörməti və böyüklüyü qalır, (peyğəmbərin zövcəsi və möminlərin anası olduğuna görə əməllərinin cəzasını vermirik. Ancaq axirətdə) hesabı və sorğu-sualı Allahladır.

Bu sözlərin (iman barədə olan) bir hissəsidir

İman yolu (Allaha və Peyğəmbərə meyl etmək) yolların ən işıqlısı (əbədi ağalıq və səadətə çatmaq üçün) və çıraqdan daha parlaqdır. (Yolçusu heç vaxt azmaz.) İman səbəbindən layiqli əməllərə yol açılır, layiqli əməllər imana yol göstərir. (Səmərəsi saleh əməllər olan) iman səbəbindən elm və bilik abad olur. Elm səbəbindən ölümdən qorxu və xof yaranır. Ölümün təsirindən dünya sona yetir. (Çünki məzar dünyanın son mənzili, axirət mənzilinin isə ilkidir.) Dünyanın vasitəsilə axirət (də əbədi səadət) əldə olunur. Qiyamət səbəbindən cənnət pərhizkarlara yaxın, cəhənnəm isə azğınlara və nəfspərəstlərə aşkar olar. O meydanda son mənzilə doğru (əbədi cənnətdə səadətli və xoşbəxt, cəhənnəm atəşində bədbəxt olmağa) tələssələr də camaatın qiyamətdən qaçıb canlarını qurtarmağa yeri yoxdur (hamı ora daxil olmalıdır). Bu sözlərin (qəbir əhlinin qiyamətdəki halı, camaatın yaxşı işləri görməyə və pis işlərdən çəkinməyə, Qur'ani-Kərimə tabe olmağa həvəsləndirildiyi, fitnə-fəsadın baş verəcəyi haqda Həzrət Peyğəmbərin

buyurduğunun bəyan edildiyi) bir hissəsidir: (Qiyamətdə ölülər) qəbirlərdən çölə çıxar və son mənzillərinə (cənnətə və ya cəhənnəmə) gedərlər. Hər sarayın (cənnət və ya cəhənnəmin) öz əhli var. (Oraya getməyə hazırdırlar. Xoşbəxtlər və Allaha, Peyğəmbərə tabe olanlar cənnətə, bədbəxtlər və günahkarlar cəhənnəmə.) Onu başqa saraya çevirməzlər. (Cənnət əhli cəhənnəmə getməz, cəhənnəmdəkilər isə cənnətə gedə bilməzlər.) O saraydan çölə çıxmazlar. (Cənnət əhlindən olmaq istəyirsinizsə, Allaha, Peyğəmbərə tabe olub camaatı yaxşı əmələ və sözlərə yönəldin, nalayiq işlərdən çəkindirin. Çünki) yaxşı əməllərə dəvət və pis işlərdən çəkindirmək Allahın bəyəndiyi, sevdiyi xasiyyətlərdən olan iki sifət və əxlaqdır. (İlk baxışda heç bir ziyanı olmayacağı halda xeyir işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdən qorxmaq doğru deyil. Öldürüləcəyini və ruzisinin azalacağını ehtimal etmək də yersizdir. Əksinə, bilmək lazımdır ki,) bu iki iş ölümü yaxınlaşdırmaz və ruzini azaltmaz. (Dinin hökmlərini öyrənmək üçün) Allahın Kitabı (Qur'ani-Kərimə müraciət) sizinlə olsun. Çünki Allahın Kitabı (bəndənin Allahla birləşməsi üçün) möhkəm (heç vaxt qırılmayacaq) bir kəndir, (haqq yolda hərəkət üçün) aşkar (qaranlığın yol tapmadığı) bir nur, (Allah və peyğəmbərin elmində cahil və nadan olmaq xəstəliyinə) şəfa bəxş edən dərman, (haqq elm və maarifinə təşnə olanlar üçün) susuzluğu aradan götürən sirablıq, (ona) əl uzadana (xəta və büdrəmələrdən) qoruyucu, ondan asılan (hökmlərinə tabe olan) üçün (ilahi əzabdan) nicatdır. Onda əyrilik yoxdur ki, düzəlsin. (Onda ixtilaf tapılmaz ki, düzəlişə ehtiyac olsun.) Haqdan, həqiqətdən dönmür ki, ondan əl çəkilsin. (Dillərdə) çox təkrarlanmaqdan və qulaqları döyməkdən köhnəlməz. Onu dilinə gətirən doğru danışandır. (Çünki Qur'ani-Kərimdə həqiqətə zidd heç nə bəyan olunmamışdır.) Hər kim ona tabe olsa, (əbədi cənnətə) önə keçmişdir (xilas olmuşdur.). (Seyyid Rəzi buyurur:) Bir kişi (İmam əleyhis-salam danışarkən) üzü Həzrətə dayanıb dedi: «Bizə fitnələrdən xəbər ver. Həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) onun necə olacağı barədə soruşmusanmı?» Sonra İmam əleyhis-salam buyurdu: «Pak olan Allah (Ənkəbut surəsinin 1 və 2-ci ayələrində) الم أَحَسِبَ النَّاسُ أَن يُتْرَكُوا أَن يَقُولُوا آمَنَّا وَهُمْ لَا يُفْتَنُونَ «Əlif, lam, mim! Mənəm böyük Allah. İnsanlar yalnız (Allaha və peyğəmbərə) «İman gətirdik!» -demələri ilə onlardan əl çəkiləcəyinimi sanırlar? Onlar (fitnə-fəsadla) imtahan olunmayacaqlarmı?» kəlamını buyurduqda bildim ki, Həzrət Peyğəmbər - səlləllahu əleyhi və alih - bizim aramızda olduqca həmin fitnələr başımıza yağmayacaq. Sonra soruşdum: «Ya Peyğəmbər! Allahın

sənə, haqqında xəbər verdiyi bu fitnələr nədir?» Buyurdu: «Ey Əli! Məndən az sonra ümmətim (səhv düşüncələrin təsirindən) fitnə və pozğunluğa düşəcək.» Sonra dedim: Ya Peyğəmbər! Ühüd günündə bir dəstə müsəlman şəhadət məqamına çatanda, mən Allah yolunda öldürülməkdən saxlandıqda, öldürülməməyim mənə ağır gələndə (buna görə qəmgin olanda) mənə «müjdələr olsun sənə ki, bundan sonra öldürüləcəksən» deyə buyurmadınmı?» Sonra mənə buyurdu: «Dediklərin doğrudur. Şəhidliyi qəbul edərkən dözümün necə olacaq?» Dedim ki, «ya Peyğəmbər! Bu iş səbrlik deyil, müjdə və şükrdür. (Allah yolunda öldürülmək mənim üçün ən böyük nemət və ilahi bəxşişdir.) Sonra buyurdu: «Ey Əli! Məndən sonra müsəlmanların var-dövlətləri ucbatından fitnə-fəsada düşəcəkləri gün yaxındadır. (Mal-dövlətin azlığı və çoxluğu, halal və ya haram yolla qazanılması, xeyir və şər işlərə sərf edilməsi ilə sınağa çəkiləcəklər.) Dindarlıqlarına görə Allaha minnət qoyub, Onun rəhmət və mehribanlığını Onun qəzəbindən amanda, asudə qalmağı arzulayarlar (halbuki dində qorxu, həmçinin Allaha və Peyğəmbərə itaətsizliklə rəhmət arzusunda olmaq səhvdir). Onun qəzəbindən xatircəm olarlar (halbuki Onun qəzəbindən xatircəm olmaq və rəhmətindən uzaqlaşmaq da rəhmətinə ümidsiz olmaq kimi böyük günahlardandır). Nadürüst şübhələrə və (haqdan və qiyamət gününün cəzasından) qəflətə salan istəklərə görə haramı halal edəcəklər. Sonra (buna görə də) şərabı üzüm və xurma suyu(-na bənzətməklə), rüşvəti hədiyyə və ərməğan, sələmi alver adı ilə halal sayacaqlar.» Sonra dedim: «Ey Allahın Peyğəmbəri! Elə bir zəmanədə onları hansı təbəqənin insanları sayım? Onları mürtəd və kafir, yoxsa fitnəyə uyanlar hesab edim?» Buyurdu ki, (dində) «fitnə və sınaq» məqamında olanlardan.

İmam Əli əleyhis-salamın (öyüd-nəsihət, günahlardan çəkinmək və axirətə azuqə toplamaq barədə) olan xütbələrindəndir. Şükrlər O Allaha məxsusdur ki, şükr etməyi Özünü xatırlamağın açarına, yaxşılıq və bəxşişi artırma vasitəsinə, nemət və böyüklüyünə aparan yola çevirmişdir. Ey Allah bəndələri! Ruzigar indikilərdən də əvvəlkilərdən ötən kimi ötəcəkdir. (Sizdən əvvəlkilər öldülər, siz də diri qalmayacaqsınız.) Gedən (keçən ömür) geri dönməz, olan isə (yaxşı, yaxud pis) həmişə qalan deyil. Onun sonunun rəftarı ilkinki kimidir. (Keçmişdəkilər və gələcəkdəkilərlə eyni cür rəftar olunacaq.) İşləri bir-birini ötər, nişanələr isə bir-birinin yanındadır. (Onun işləri tez məhv olar. Deməli, ağıllı insanlar ruzigarın gərdişindən ibrət alaraq ona ürək bağlamasınlar. Dünya yoxluğa və yenilməyə elə sürətlə gedir ki,) sanki qiyamətdəsiniz. Sizləri sarvan doğuşlarından yeddi ay keçmiş və südləri qurumuş dəvələrini qovan kimi qovur. (Hamiləliyinin son aylarında olduqlarına görə mehribanlıqla, yavaş-yavaş sürülən dəvələrdən fərqli olaraq bu dəvələri yüngül olduqlarından bərk, sürətlə qovurlar.) Başını başqa şeylərlə (nəfsi istəklər və dünyanın bər-bəzəyi ilə) qatanlar bədbəxtliyin zülmətində sərgərdan qalar, (xilas ola bilməyəcəyi) pozğunluqlarla qarışar. (Azdıranların) şeytanları onu itaətsizliyə məcbur edər, pis əməlini gözündə bəzəyər. (Ey öz başını başqa şeylərlə qatan, bil ki, ibadət və bəndəlikdə) öndə gedənlərin sonu cənnətdir, təqsirkarların (günahkarların) sonu isə atəşdir. (Əbədi cənnət yalnız günahlardan çəkinilməklə qazanıldığına görə buyurur:) Ey Allah bəndələri! Bilin ki, təqva və günahlardan çəkinmə möhtərəmliyin hasarlı sarayı, günahkarlıq isə öz sakinini (bəla və çətinliklərdən) saxlamayan, ona pənah gətirəni qorumayan hasarlı zəlil saraydır. Agah olun, pərhizkarlıq günahların zəhərli dişindən uzaqlaşdırar, yəqinlik və inamla (Allaha və peyğəmbərə iman gətirməklə) yüksək məqamların sonu (əbədi cənnət) əldə olunar. Ey Allah bəndələri, Allahdan qorxun! Sizlərə ən əziz olan insanlar və onlardan sizin üçün ən sevimlisindən ötrü qorxun Allahdan (özünüzü fikirləşib öz hayınızda olun. Çünki təbii olaraq, heç kəsə özündən daha əzizi və sevimlisi yoxdur). Çünki

Allah sizin üçün haqq yolunu aşkar edib onun yollarını işıqlandırdı. Deməli, (işinizi asan sanmayın ki, ölümdən sonra ya) bədbəxtlik və zavallılıq yol yoldaşınız olacaq (Allahın və Peyğəmbərin göstərişlərinə uyğun rəftar etməyənlər üçün), ya da əbədi səadət və xoşbəxtlik (Allaha və peyğəmbərə itaət edənlər üçün). Belə isə, məhv olan günlərdən (dünyadan) qalacaq günlər (axirət) üçün azuqə yığın ki, azuqə yığmaq yolunu sizin üçün qoyublar. (Bu dünyadan) köçməyə məhkumsunuz və sizin (bu dünyadan) getməyiniz üçün tələsirlər. Deməli, siz dayanmış (getməyə hazır olan və), getməyə nə vaxt hökm olunacağını bilməyən atlılar kimisiniz (bu dünyadan gedəcəksiniz). Agah olun: axirət üçün yaradılmışın dünya ilə nə işi var? Tezliklə ondan alacaqları, günahının ziyanı və sorğu-sualının qalacağı var-dövləti neyləyir?! Ey Allahın bəndələri! Allahın vəd etdiyi xeyir və mükafat (itaət və bəndəlik) tərk olunası deyil. (Çünki Allahın fəziləti və yaxşılığı ən böyük, ən yaxşı ehsandır.) Pislik və cəzadan çəkindirdikləri (günah və itaətsizlik) isə istəniləsi deyil. (Çünki Allahın cəzası ən ağır cəzadır.) Ey Allah bəndələri, əməllərə görə haqq-hesab olunacaq gündən çəkinin (hər kəsin əməl dəftərinə baxıb, onların ən xırda yaxşı və pis əməllərini araşdıracaqlar). Həmin gündə saysız-hesabsız iztirab və narahatlıq olar, uşaqlar qocalarlar. Ey Allahın bəndələri, bilin ki, sizə özünüzdən olan gözətçilər və əndamınızdan olan casuslar qoyulub. (Mələklərdən) qoruyucular var ki, sizin əməllərinizi və nəfəslərinizin sayını düzgünlüklə qeydə alırlar (yazırlar). Gecənin qaranlığı sizin tükünüzü belə bu mələklərin gözündən yayındırmaz, möhkəm bağlanmış böyük qapı sizi onlardan gizlətməz. (Qısası, hər yerdə və həmişə sizinlədirlər. Dünya keçici olduğuna görə) sabah (ölüm) bu günə yaxındır. Bir gün onda olanlarla (yaxşı-pis, xeyir-ziyan) keçir, sabah da onun ardınca gəlir. (Sabahın yaxın olmağı və ölümün çatması elədir ki,) sanki, sizlərdən hər biriniz torpaqdan olan tənha mənzilinə və gorunun çuxuruna çatmışdır. Heyhat, tənha eviniz, qorxunc mənziliniz və kimsəsiz məkanınızdan. Sanki (qiyamət gününün hamını dirildən uca səsi) fəryadlar qulağınıza çatmış, qiyamət sizi tapmış və haqla batil arasında hökm vermək üçün üzə çıxmısınız (qəbirlərdən çıxmısınız). Bu vaxt sizdən (yersiz) bəhanələr və nadürüstlüklər (əbəs sübutlar) uzaqlaşmış, aradan getmiş və həqiqətlər sübut olmuşdur. Sizin hər yaxşı və pis işiniz öz yerinə qayıdar. Belə isə, (ölüm və ondan sonrakı çətinliklərdəki) ibrətlərdən dərs alın, ruzigarın dəyişməsindən öyüd götürün və (Allah və Peyğəmbərin)

qorxutmağından faydalanın. (Elə bir iş görün ki, özünüzü ilahi əzabdan qurtarasınız.)

İmam Əli əleyhis-salamın (Həzrət Məhəmmədə peyğəmbərlik verilməsi və Qur'ani-Kərimin tərifi haqda) xütbələrindəndir. Allah-təala bir müddət peyğəmbərin gəlmədiyi, camaatın müxtəlif firqələrinin qəflət, azğınlıq və nadanlıq yuxusunun uzandığı, möhkəm özüllərin (ilahi hökm və göstərişlər) viran olduğu vaxtda peyğəmbərini göndərdi. Peyğəmbər əlində olanla və itaət etməli olduqları nuru təsdiqləyib etiraf etməklə camaata tərəf gəldi. O (əlində olan və Həzrətin peyğəmbərliyinin sübutu, nadanlıq və azğınlıq zülmətini işıqlandıran) Qur'andır. İstəyin ki, dilə gəlsin. Heç vaxt (Qur'an öz-özünə və həqiqi şərhçi olmadan) dilə gəlməz, ancaq (biz Əhli-Beyt onun həqiqət və sirlərini bildiyimizə görə) mən sizlərə ondan xəbər verirəm (onun elm və hökmlərini bəyan edirəm). Agah olun, Qur'andadır (bundan sonra) gələnin elmi, keçmişin xəbərləri (səmaların və yerin, onun üzərində olanların yaradılışı, sizdən öncəkilərin vəziyyəti), dərdin (nadanlıq və azğınlığın) dərmanı və sizə aid olanların (dünya və axirət işlərinin, xeyir və ziyanların) nizama salınması.

Bu xütbənin (Bəni-Üməyyə, onların zülmkarlıqları və hakimiyyətlərinin süqutu barədə olan) bir hissəsidir

O zamanlarda (Bəni-Üməyyənin camaata hakim kəsiləcəyi vaxt) zülmkarların qəm, kədər, çətinlik və səfalət gətirmədikləri nə gildən bir ev, nə də bir çadır ev (şəhərlərdə tikilən ev və biyabanlarda salınan çadırlar) qalmayacaq. Həmin zəmanədə göylərdə onlar üçün üzr istəyən, yerdə isə kömək edən qalmayacaq. (Zülm hər yanı bürüdüyünə görə səma və yer əhli qarğış edəcək. Sonra Allah-təala onların kökünü kəsib pərən-pərən salacaq. Onların hakimiyyətləri dövründə törətdikləri zülm isə onun nəticəsidir ki,) siz xəlifəliyə layiq olmayan adamı seçmisiniz və (dünyada dost və haqq əhlinə düşmən olduğu halda) onu özü üçün olmayan bir yerdə əyləşdirmisiniz. Allah-təala zülm edənlərdən (istər Bəni-Üməyyə olsun, istərsə də qeyriləri) tezliklə intiqam alacaq, yeyiləndən yeyilənlə, içiləndən içilənlə. (Çox acı bitki olan) Hənzəlin yeyilənlərindən və (acı olan) səbr ağacının şirəsinin

zəhər dadan içilənlərindən. Geyilənlərdən isə qorxu libası və qılınc paltarı. (Çünki) onlar günah yükünü çəkən heyvan və günah azuqəsini daşıyan dəvələrdir. (Buna görə də) and içirəm, bir daha and içirəm ki, Bəni-Üməyyə məndən sonra xəlifəliyi ağızdan çölə atılan sinə xıltı kimi atacaq (əldən verəcək). Ondan sonra isə onu heç vaxt dadmayıb, gecə və gündüz bir-birini əvəz edənə qədər onun dadını bilməyəcək.

İmam Əli əleyhis-salamın (camaatla mehribanlıq və ünsiyyət barədə buyurduğu) xütbələrindəndir. Mən sizlər üçün yaxşı yoldaş və tərəf müqabili olub sizi öz səylərimlə arxadan qorudum. (Gələcək pozğunluqdan və hadisələrdən xəbərdar etdim ki, özünüzü onlara düçar etməyəsiniz.) Sizləri zillət, xarlıq kəndirlərindən və zülm, sitəm zəncirlərindən (çirkin olmaqdan) xilas etdim. Bu (sizlərin etdiyiniz) az sayda yaxşılıqların müqabilində təşəkkür etdiyimə, mənim yanımda törətdiyiniz və gözlərimlə gördüyüm çoxlu çirkin işlərinizə göz yummağıma görədir.

←158-ci xütbə

Nəhcül-bəlağə. 159-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

160-cı xütbə→

İmam Əli əleyhis-salamın (Allah-təalanın sifətləri haqda) xütbələrindəndir. Allahın əmri lazımi (rədd edilməyən) və Onun məsləhətinə, razılığına uyğun hökm, mehribanlıq və (bəlalardan, çətinliklərdən) əmin-amanlıqdır. Elm və bilik əsasında (hər şeyin) hökmünü buyurur. Helm və səbrlə (əfvə layiq günahı) bağışlayır. İlahi, aldığın və bəxş etdiyin hər bir şeyə, məlhəm verdiyin və mübtəla etdiyin xəstəliklərə görə Sənə şükrlər olsun. Elə bir şükr ki, Sənin üçün ən bəyənilmiş, Sənə doğru ən sevimli, Sənin yanında ən üstün şükr olsun. Elə şükr ki, (səmada və yerdə) yaratdığını doldursun, istədiyinə çatsın. Elə şükr ki, Səndən gizlədilməz və hüzurunda yasaq olunmaz. Elə şükr ki, onun sayı kəsilməz, kömək və yardımı yox olmaz. (Qısası, Sənə hər şükrdən üstün olan şükrlə şükr edirəm.) Deməli, (nə qədər çalışsaq da Sənin Allahlığına layiq şükr edə bilmərik. Çünki) biz Sənin böyüklük və əzəmətini dərk etmirik.Yalnız bunu bilirik ki, hər bir şey (imkan və ehtiyaca görə) Sənin dirçəlib, Sənə bağlıdır, Sənin yuxudan qabaq süstləşmədiyini (mürgüləmədiyini), yuxuya getmədiyini bilirik. Düşüncələr Sənin əslinə və zatına çatmayıb, heç bir göz Səni anlamayıb, gözləri Sən anlamısan. (Bəndələrin) əməllərin hesabını saya alırsan. (Günahkarları) kəkillərindən və (əməllərinin cəzası üçün) ayaqlarından tutarsan. Sənin yaratdıqlarından gördüyümüz, onun üçün işlətdiyin güc və qüdrətdən heyrətə gəlməyimiz, onu səltənət və hakimiyyətinin böyüklüyü sanaraq vəsf etdiyimiz nədir ki? Bir halda ki, bizdən gizlin olanlar, gözlərimizin görmədiyi və ağıllarımızın onda durub qaldığı (dərk etmədiyi), bizimlə onların arasında pərdələrin asıldığı şeylər daha böyükdür. Hər kəs ürəyini boşaldıb (heç nəyə diqqət yetirməyib) öz ərşini (yeddi göyün üstündəki) necə yaratdığını, məxluqlarını necə xəlq etdiyini, səmalarını havada necə asılı saxladığını, su dalğasının üstünə necə bəzək vurduğunu bilmək istəsə gözləri çönüb qalar, ağlı məğlub olar, qulağı işdən düşər və düşüncəsi sərgərdan qalar.

Bu xütbənin (sözü əməli ilə uyğun gəlməyənin iddiasının rədd edildiyi, camaatın dünyaya ürək bağlamamağa və peyğəmbərlərə itaətə həvəsləndirildiyi) bir hissəsidir

(Camaat arasında eləsi var ki, nəfsi istəklərinə tabe olaraq günahın içində itib-batmışdır. Bununla belə) öz gümanı ilə Allaha ümid bağladığını iddia edir! Böyük Allaha and olsun ki, yalan danışır! Necə ola bilər ki, ümidinin Allaha olması onun əməl və rəftarında görünməsin? Hər kəsin (nəyə) ümidvar olduğu əməlindən üzə çıxar, yalnız Allaha olan saf deyil, qarışıq ümiddən başqa. Hər qorxu aydın olar (onun nişanələri qorxanda görünər), yalnız Allahdan olan namünasib qorxudan başqa (qorxan kimsədə qorxudan əsər-əlamət görünmür). Böyük işlərdə ümidini Allaha bağlayır (əbədi cənnətdə yüksək məqamlarla birgə iki dünya rahatlığını arzulayır) və kiçik şeylərdə (fani dünya malında ümidini) Allahın bəndələrinə bağlayır. Allahın bəndəsi ilə elə rəftar edir (təvazökarlıq və itaət göstərir) ki, Allaha qarşı elə etmir. Allahın şə'ninə nə olub ki, bəndələri üçün edilən (təvazökarlıq və ümid) Ondan əsirgənir? Allaha ümid bəsləməkdə yalançı olmağa qorxursan? Yoxsa Onu ümid bəsləməyə layiq bilmirsən? (Əgər Onu öz ümidini doğrultmaqda aciz sanırsansa, bu, əsl küfrdür.) Allahın bəndələrinin birindən qorxan, bu qorxuya görə də onunla Allahı ilə etmədiyi rəftarı edən bəndənin halı da Allaha ümidvar olduğunu iddia edən kimsənin halı kimidir. Deməli, bəndələrdən olan qorxusunu nağd və mövcud, Allahın qorxusunu isə nisyə və vəd sanmışdır. Həmçinin nəzərində dünyaya əhəmiyyət verən, onun mövqeyi qəlbində böyük yer tapan, onu (malını) Allahdan (Allahın bəyəndiyi itaət və ibadətdən) üstün tutan, yalnız ona yönələn və ona (sahib olan hər kəsə) bəndəlik, itaət edən də Allaha ümid bəslədiyini iddia edən kimsə kimidir. (Çünki ümidi və qorxusu dünyadan, dünya sahiblərindəndir.) Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) ardınca getmək sənə kifayət edər. Dünyanın məzəmməti, onun eybli olması, rüsvayçılıq və pisliklərinin çoxluğunda sənin üçün sübut və yol göstərən olar. Çünki onun ətrafı (bağlılıq və sevgi) o Həzrətdən alınmış və onun tərəfləri (onun hər şeyinə bağlılıq) o böyük şəxsiyyətdən qeyrisi üçün hazırlanmışdır. Südünü (onun ləzzətini) içməsi qadağan olunmuş, onun bəzək-düzəklərindən uzaqlaşdırılmışdır. Bir daha peyğəmbərin ardınca getmək istəsən, Allahla danışmış (buna görə də Kəlimullah ləqəbi verilmiş) Musa əleyhis-salamın ardınca get. O demişdir: (Qur'ani-Kərimin Qəsəs surəsinin 24-cü ayəsi) رَبِّ إِنِّي لِمَا أَنزَلْتَ إِلَيَّ مِنْ خَيْرٍ فَقِيرٌ -Ey Rəbbim! Mən Sənin mənə nazil edəcəyin xeyrə möhtacam». Allaha and olsun, Musa Allahdan yeməyə çörəkdən başqa bir şey istəmədi. Çünki torpaqda bitən otu yeyirdi. Arıqlığına, ətinin azlığına görə otun yaşıllığı qarnının daxili dərisinin nazikliyindən görünürdü. Əgər üçüncü dəfə itaət

etmək istəyirsənsə, Zəburun sahibi və cənnət əhlinin xanəndəsi olan Davud əleyhis-salama itaət et. Öz əlləri ilə xurmanın liflərindən zənbillər toxuyaraq yoldaşlarına deyərdi: «Sizlərdən hansı biriniz bunları satmaqda mənə kömək edər? Onların puluna alınandan onun xörəyi bir arpa çörəyi idi. İsa ibn Məryəm əleyhis-salama tabe olmaq istəyirsənsə, de (yadına sal) ki, (yatarkən) daşı başının altına qoyaraq yastıq edərdi. Cod paltar geyinər, dadsız körək yeyərdi. Yavanlığı aclıq idi (son dərəcə ac olanda yemək yeyərdi ki, onu yeməkdən ləzzət alsın və əlavə yavanlığa ehtiyacı olmasın). Gecələr onun çırağı ayın işığı idi. Qışda daldalanacağı günəşin doğduğu və ya qürub etdiyi yer idi. (Evi yox idi.) Onun ətirli meyvə və göyərtisi yerin heyvanlar üçün bitirdiyi ot idi. Nə onu fitnə və fəsada salmağa arvadı var idi, nə də kədərləndirməyə övladı. Nə var-dövləti var idi ki, onu (Allaha diqqətdən) döndərsin, nə (dünya və onun əhlinə) tamahı yox idi ki, onu xar etsin. Onun miniyi iki ayağı (piyada gedərdi), xidmətçiləri isə iki əli idi. (İstədiyi hər işi özü görürdü.) (Peyğəmbərlərin üslubunun bəyanından əvvəl Həzrət Məhəmməd peyğəmbərin dünyaya bel bağlamamaq yolunu ümumi şəkildə bildiyinə görə, bir daha eşit:) Daha yaxşı və (bütün məxluqlardan) daha təmiz olan öz Peyğəmbərinə (səlləllahu əleyhi və alih) tabe ol, o böyük şəxsin ardınca get. Çünki o Həzrət tabe olan üçün itaətə layiqdir. Onunla bağlılığı olmasını istəyən üçün ən layiqli bağlılıqdır. (Onun səbri və dözümü dözümlü insan üçün nümunədir.) Allah yanında ən sevimli bəndələr öz peyğəmbərlərinə tabe olub onun nişanələrinin ardınca gedənlərdir. (Ancaq Həzrətin nişanəsi bu idi ki,) dünyanın tikəsini dişlərinin ətrafı ilə yeyərdi (ağız dolusu yeməzdi. Dünyada istifadə etməyə məcbur olduğundan çox istifadə etməzdi). Dünyaya gözünün ucu ilə baxardı (dünyaya heç cür ürək bağlamazdı). Bel baxımdan ən arıq və qarın baxımdan dünyanın ən ac insanı idi. Dünya ona təklif olundu, (Allah-təala Cəbrailin vasitəsilə dünyanı seçməyi ona təklif etdi). O isə onun qəbulundan imtina etdi. Allah-təalanın bir şeyi (dünya sevgisini) düşmən saydığını bildikdə, o da düşmən sandı. Xar bildiyini o da xar bildi. Kiçik qərar verdiyini o da kiçiltdi. (Buna görə də) Bizdə Allah və Peyğəmbərin düşmən sandığı dünya sevgisindən, Allah və Peyğəmbərin kiçik bildiyi dünyanı böyütməyimizdən başqa bir şey olmasaydı belə, bunlar Allaha itaətsizlik və Onun fərmanına qarşı çıxmaq üçün bəs edərdi. Peyğəmbər (səlləllahu əleyhi və alih) quru yerdə (süfrə açmadan) yeməyini yeyər, bəndə kimi oturardı. (Dizi üstə oturardı və ayağını ayağının üstünə aşırmazdı.) Öz əli ilə ayaqqabısının cırığını tikər, paltarına

yamaq vurardı. Çılpaq uzunqulağa minər, təkinə də (başqasını) alardı. Evinin qapısından surətlərin təsvir edildiyi pərdə asmışdı. Sonra arvadlarından birinə buyurmuşdur: «Ey qadın, bu pərdəni mənim gözümdən gizlət. Çünki gözüm ona sataşanda dünyanı və onun bəzək-düzəklərini yada salıram». Ürəkdən (doğrudan) dünyadan uzaq durmuş, onun xatirəsini özündən uzaqlaşdırmışdı. Onun bər-bəzəyinin gözünün önündən itməsini istəyirdi ki, həmin gözəl paltardan təsirlənməsin və oranın dinclik yeri olmasına inanmasın, orada ləngiməyə ümid bağlamasın. Onu (ona məhəbbəti) özündən qopararaq ürəyindən uzaqlaşdırdı və (bər-bəzəklərini) gözünün önündən itirdi. (Çünki ona qarşı çox bədbin idi.) Bir şeyi düşmən bilən (kəsin rəftarı) belədir. Ona gözü sataşmaqdan, yanında adının çəkilməsindən acığı gəlir. Allahın peyğəmbərinin (səlləllahu əleyhi və alih) yolunun hər anı dünyanın pislik və çirkinliklərində sənin yol göstərənindir. Çünki o Həzrət dünyada öz yaxınları (Əhli-Beyti) ilə qarın dolusu yemədi, məqam və (Böyük Allahın yanında) rütbəsinin böyüklüyünə rəğmən onun bər-bəzəkləri o Həzrətdən uzaqlaşdı. Belə isə, düşünən kimsə öz ağlına müraciət edərək baxmalıdır ki, Allah-təala Məhəmmədi (səlləllahu əleyhi və alih) bu vəziyyəti ilə sevdi, yoxsa xar edərək kiçik sandı? Əgər desə ki, «xar etdi», böyük Allaha and olsun, yalan danışaraq böyük böhtan atmış olar. Əgər «onu sevmişdir» desə, bilməlidir ki, Allah-təala o Həzrətdən qeyrisini dünyanı ona bağışlamaqla xar etdi. Deməli, itaətkar öz peyğəmbərinə tabe olmalı, onun nişanələrinin ardınca getməli, gəldiyi hər bir yerdə ona qoşulmalıdır. (Sözləri və əməlləri onun göstərişinə uyğun olmalıdır.) O Həzrətin ardınca getməsə, (dünya və axirətdə) puç olmaqdan amanda qalmaz. Çünki Allah Məhəmmədi (səlləllahu əleyhi və alih) qiyamətin nişanəsi (çünki ondan sonra peyğəmbər olmayacaq), cənnətin müjdəçisi və əzabla qorxudan qərar verib. (Deməli, hər şeydən agah olub.) Ac qarınla bu dünyadan çölə çıxdı (onun ləzzət və xoşluqlarından bəhrələnmədi) və axirətə (bütün günahlardan) sağlam qalmaqla daxil oldu. Öz yolunu tapana (öz ömrünü başa vurana) və Allahının dəvətini yerinə yetirənə (dünyadan gedənə) qədər daşı daş üstünə qoymadı (ev tikmədi). Deməli, Allah-təala o Həzrətin nemətinin vücudunu bizə rəhbər olmaq və onun ardınca getməyimiz üçün bizə əta buyurmaqla nə böyük ehsan və yaxşılıq etmişdir. Elə bir rəhbər ki, addımımızı onun ayağının izinə qoyaq. (Mən bütün ömrüm boyu o böyük insanın ardınca getdim. Belə ki,) Allaha and olsun, bu cübbəmə (köynəyimə) o qədər yamaq vurdurdum ki, onu tikəndən utandım. Birisi mənə dedi: «Onu (bu qədər yamaqdan sonra)

özündən uzaqlaşdırmırsanmı? Dedim ki, məndən uzaq ol عِنْدَ الصَّباحِ يُحْمَدُ الْقَوْمُ السُّرى yəni, gecə yol gedənlərə səhər erkən təşəkkür edilər.

İmam Əli əleyhis-salamın (böyük Peyğəmbəri mədh etdiyi və camaata öyüd-nəsihət verdiyi) xütbələrindəndir. Allah-təala Həzrət Mustafanı (dünya əhlinin qəlblərini) işıqlandıran (peyğəmbərliyin) nur, aşkar dəlil və sübutu ilə (möcüzələrlə), aydın yolla (İslam dini) və yol göstərən kitabla (Qur'ani-Kərim) seçdi. Onun əhli-beyti ən yaxşı əhli-beyt, şəcərəsi (o Həzrətin ata-babası) ən gözəl şəcərədir. Bu şəcərənin budaqları birbaşa və düz, (o böyük şəxsin əhli-beyti haqq işdə ifrat və azlıqdan-yəni, həddi aşmaq və təqsirdən uca və təmizdir) meyvələri yerə dağılmışdır. (Elmlərinə və maarifinə hamının əli çatandır). Dünyaya gəlməyi Məkkədə, hicrəti Mədinəyə olmuşdur. Orada onun adı ucalmış, dəvətinin səs-sədası yayılmışdır. (Oranın «ənsarlar» adlanan sakinləri kafirlərlə döyüşlərdə və düşmənləri məğlub etməkdə Həzrətə kömək etmişdir). Allah-təala onu kifayət edən dəlil (o Həzrətin digər möcüzələrindən əlavə Qur'ani-Kərim də peyğəmbərliyini sübut etmək üçün kifayətdir) və şəfa verən nəsihətlə, (qəlblərin xəstəliklərinə şəfa bəxş edən o Həzrətin sünnəsi və ehkamları ilə) və (İslama doğru) tədarük görən dəvətlə göndərdi. (Cahiliyyət dövründə aradan getmiş din və dünya işlərini bərpa etdi.) O Həzrətin vasitəsilə məlum olmayan şəriət hökmlərini aşkarladı, (cahiliyyət dövrünün) nadürüst bid'ətlərini məhv etdi və (Qur'an və sünnədə) bəyan etdiyi ehkamları üzə çıxardı. İslamdan qeyri bir din istəyən kimsənin bədbəxtliyi qəti, (səadət və xoşbəxtlik) ipi qırıq, (atəşə) üzü üstə düşməsi ağırdır. Onun (qiyamətdə) qayıdışı dərin kədər və ağrılı əzabladır. (Buna görə də) mən gözünü hər şeyə yumub Ona tərəf açan kimsənin təvəkkül etdiyi kimi Allaha təvəkkül edir, (yolçunu) cənnətə (İslama əməl etmək xoşbəxtliyinə) çatdıran, razılığını və şadlığını nəsib edən bir yolu Ondan diləyirəm. Ey Allahın bəndələri! Sizlərə Allahdan qorxmağı və Ona itaət etməyi tövsiyə edirəm. Çünki Onun əmrlərinə tabe olmaq sabah (qiyamətdə) nicata və həmişəlik (əzabdan) qurtuluşa səbəb olar. (Camaatı qiyamət gününün cəzasından) qorxutdu, sonra (peyğəmbərin vasitəsilə Öz hökmlərini) təbliğ və (onları səadət və xoşbəxtlik yoluna) təşviq edib (onu) təkmilləşdirdi. (Əbədi səadətə çatmağa aid olanı bəyan etdi.) Sizin üçün dünyanı, onun ayrılıb məhv olması və başqa şeyə çevrilməsini vəsf etdi. Sizi

bu dünyada heyran edənlərdən uzaqlaşın, çünki ondan az bir şey sizinlə gələcək (dünyanın zəngin mallarından yalnız kəfəndən artıq bir şey qazancınız olmayacaq, o da torpağın altında çürüyəcək). Dünya (şəhvət və nəfsi istəklərə tabeçiliyə görə) Allahın qəzəbinə ən yaxın saray, (haqqa, həqiqətə tabe olanların azlığına görə) Allahın razılığından (əbədi cənnətdən) ən uzaq saraydır. Belə isə, ey Allahın bəndələri, onun ayrılığına, halının dəyişəcəyinə inandığınıza görə (dünyadan tezliklə ayrılacağınızı, çəkdiyiniz əzab-əziyyətin başqasına nəsib olacağını bilirsiniz) çətinliklərə və (sizi axirətdən saxlayan) işlərə göz yumun. Dünyadan (ona aldanıb, vurğun olmaqdan) çəkinib qorxun, öyüd verən, çalışan və zəhmət çəkən xeyirxahın (İmam əleyhis-salamın) çəkindiyi kimi. (Camaatın çətinliklərdən xilas olmasına çalışıb, onların doğru yola yönəlməsi və nicatı üçün zəhmət çəkir.) Sizdən öncəki ruzigarların əhlinin korlanmasından gördüklərinizdən ibrət götürün ki, onların da ipləri bir-birindən ayrılmış, göz və qulaqları sıradan çıxmış, şərafət və böyüklükləri əllərindən getmiş, şadlıq və sevinc onlardan uzaq düşmüşdür. Övladları ilə olmaqları onlardan uzaqlığa, arvadları ilə yoldaşlıqları ayrılığa döndü. Bir-biri ilə öyünüb naz etmir, övlad əkmir, bir-birini görməyə getmirlər. Qonşu və yoldaş da deyillər. Ey Allahın bəndələri! (Bu sözlərdən) qorxun! Öz nəfsinə hakim olub nəfsi istəklərinin qarşısını alaraq ağlın və zəkanın köməyi ilə düşünənin (xeyrini və ziyanını başa düşənin qorxduğu) çəkindiyi kimi. Çünki (dinin) əmri aşkar, (qurtuluş) nişanəsi asılı, (əzabdan nicat) yolu hamar, (Allah və peyğəmbərin razılığını qazanmağın) vasitəsi görünən və doğrudur.

İmam Əli əleyhis-salamın (Siffeyn müharibəsindəki) kəlamlarındandır. Səhabələrindən biri o Həzrətdən soruşdu: Ətrafınızdakılar (üç xəlifə və onların davamçıları) sizi xilafətdən necə kənarda qoydular, halbuki siz bu məqama (onlardan və başqalarından) daha layiq idiniz? İmam əleyhis-salam (həm soruşana, həm də digərlərinə məlum olan və ya araşdırılması məsləhət olmayan bu yersiz sualdan xoşlanmadı və tünd şəkildə müxtəsər cavab verib belə) buyurdu: Ey Bəni-Əsəd (tayfasından olan dini) qardaş! Sən (atının) örkəni boş və yırğalanan bir şəxssən (az bir şübhə ilə iztirab və nigarançılığa düçar olan bir nadansan) və cilovu (öz miniyinin cilovunu) yersiz buraxırsan. Amma bununla belə (sual soruşmaq yeri olmamasına baxmayaraq,) sənin (Peyğəmbərlə) bağlılıq və qohumluğuna ehtiram səbəbindən (Həzrət Peyğəmbərin zövcələrindən biri, yəni, Zeynəb Bəni-Əsəd tayfasından olan Cəhşin qızı idi) və soruşmaq haqqına malik olduğun və bilmək istədiyin üçün bil: Biz nəsil (Peyğəmbərlə qohumluq) baxımından üstün və Allahın Peyğəmbərinə (səlləllahu əleyhi və alih) yaxınlıq (və məqam) baxımından daha möhkəm olmağımıza baxmayaraq, (üç xəlifə tərəfindən) xilafətlə bizə hökmranlıq edilməsinin səbəbi xilafətin rəğbət bəslənilən və istənilən olması idi. (Hətta ləyaqəti olmasa da hamı onu istəyirdi. Beləliklə,) bir dəstə onda paxıllıq etdi (və həmin məqama layiq kimsəni həmin kürsüdə oturmağa qoymadı) və digər bir dəstə (İmam əleyhis-salam) bəxşiş edərək (İslamın əsasını qorumaq üçün) gözünü ondan çəkdi. (Bizimlə onlar arasında) hakim Allahdır və Qiyamət günü qayıdış Ona tərəfdir. (İmam əleyhis-salam sonra İmrəul-Qeysin şe'rini misal gətirir:) «وَدَعْ عَنكَ نَهْباً صِيحَ فِی حَجَراتِهِ» «Ətrafında fəryad qoparılan qarətçinin hekayətini burax, danışma». Və gəl Əbu Süfyanın oğlundakı (Müaviyədəki və onunla müharibədəki) bu böyük (və təəccübləndirici) mətləbi eşit ki, həqiqətən ruzigar məni ağladandan sonra güldürdü. (Dövranın rəftarındakı qəribəliklərin çoxluğuna gülməyim gəldi.) Allaha and olsun ki, qəribəlik qalmayıb. Odur ki, qəribəliyi aradan aparan (onu son həddinə çatdıran və nəticədə ondan bir şey qalmayan) və əyriliyi çoxaldan bu böyük iş təəccüb doğurandır. İnsanların bir dəstəsi (Müaviyə və onun tərəfdarları) hiylə və kələk ilə Allahın nurunu çırağından söndürmək və

Onun suyunun qaynaq mənbəyi və yolunu çeşməsindən bağlamaq niyyətinə düşdülər. (İslamın hökmlərini aradan götürərək Həzrət Peyğəmbərin canişinini ev dustağı etmək istədilər.) Mənimlə özləri arasında vəba gətirən suyu bir-birinə qatışdırdılar (fitnə-fəsad, müharibə və qan axıdılmasına səbəb oldular). Buna görə də qəm və kədərlərin çətinlikləri bizdən və onlardan götürülsə, onları tam haqq yola çəkəcəyəm (ki, Allah və Peyğəmbərin razılığını əldə edərək xoşbəxt olsunlar). Başqa cür olsa isə (çəkinməli bir şey yoxdur. Çünki Allah Qur'ani-Kərimin Fatir surəsinin 8-ci ayəsində buyurur): « فَلَا تَذْهَبْ نَفْسُكَ عَلَيْهِمْ حَسَرَاتٍ إِنَّ اللَّهَ عَلِيمٌ بِمَا يَصْنَعُونَ» «Belə isə onların azğınlıqlarına görə çoxlu qəm-qüssə çəkməklə özünü həlak və məhv etmə. Çünki Allah onların etdiklərini biləndir (və onları əməllərinin cəzasına çatdıracaqdır)».

İmam Əli əleyhis-salamın (şə'ni uca olan Allahın bəzi sifətlərinin bəyanı barəsindəki) xütbələrindəndir. Şükr bəndələri yaradan, yeri döşəyən, bol suyu alçaq yerlərdə axıdan və bitkiləri yüksəkliklərdə bitirən Allaha layiqdir. Onun əvvəl olmasının başlanğıcı və əbədiliyinin sonu yoxdur. (Buna görə də buyurur:) Həmişə olmuş əvvəl və sonu olmayan əbədi Odur. (Əzəmət və böyüklüyünə görə ibadətə layiq olduğu üçün) alınlar torpağa qoyularaq Ona səcdə edib və qəlblər Onun tovhid və təkliyi barəsində yekdildir. Şeylərin hər birini yaradan zaman onların hədlərini müəyyənləşdirdi ki, Özü onlara oxşarlıqdan və bənzərlikdən üstün olsun. (Deməli, şeylərin məhdud olmaları Onun bənzərinin olmamasına bir dəlildir.) Düşüncələr Onu hədd, hərəkət, üzv və alətlərlə (zahiri və batini qüvvələrlə) fərz edə bilməz. (Çünki Onun mümkün varlığın tələblərindən olan hədd, hərəkət, üzv və aləti yoxdur.) Onun barəsində «nə vaxt olub?» deyilmir. Həmçinin nə vaxta kimi olacağı müəyyənləşdirilməz. (Ağıl qarşısında elə) əyandır ki, «nədən zahir oldu?» demək olmaz. (Gözlərdən elə) məxfidir ki, «nədə gizlənib?» deyilməz. (Çünki O, bütün səbəblərin səbəbidir və yer və məkanda olmaqdan uzaqdır). Cisim deyil ki, uzaqdan gözə çarparaq sonra yox olsun. Həmçinin pərdənin altında deyil ki, nəsə onu əhatə etsin. Onun şeylərə yaxın olması yapışmaqla və uzaq olması ayrılıqla deyil. Bəndələrindən (baş verən) gözaltı baxış, sözü təkrar edərək bir neçə dəfə demək və torpaq təpəyə yaxınlaşmaq Ona gizli deyil. Həmçinin O, qaranlıq gecədə və (ya) işıq saçan ayın kölgə saldığı (zülmətini yox etdiyi) və arxasınca nurlu günəşin gəldiyi sükutlu gecədə, batan və çıxan zamanda (ay batan kimi gün çıxanda və günəş batan kimi ayın görünməsində) və ruzigarın günlərinin gecənin gəlməsi və gündüzün getməsi ilə olan dövründə bir addım atılmasından xəbərsiz deyil. O, hər bir son və müddətdən, həmçinin hər bir saydan və sayılandan qabaq olub. (Çünki O, hər bir şeyin yaradanı olduğu üçün yaranmışlardan qabaq olmalıdır.) Hədləri təyin edənlərin ölçüləri, tərəf və cəhətlərin sonunu, yerlərin hazırlanmasını və məkanlarda yerləşərək məskunlaşmağı Ona nisbət vermələrindən uca və uzaqdır. (Buna görə də buyurur:) Hədd və son Onun yaratdığı varlığa layiqdir və Ondan başqasına (mümkün varlıqlara) nisbət verilir. Əşyaları

əzəli və əbədi əsas, mənşə və nümunələr əsasında yaratmayıb (çünki Onun yaratmasının mənşəyi olmayıb), bəlkə yaratdığını və həddini təyin etdiyini (nümunə və mənşəyi olmadan, sırf istəməklə) yaradıb. Vücuda gətirdiyinə surət və şəkil verdi və onun surətini gözəl və münasib etdi. Heç bir şey Onun (fərmanı) müqabilində itaətsizlik etməz (hər bir şey itaətkar və tabedir). İtaət və tabeçilikdən Ona bir xeyir və mənfəət nəsib olmur. Onun keçən ölülər barəsindəki elmi qalan dirilər barəsindəki elmi kimidir. Həmçinin Onun uca göylərdə olanlara elmi, alçaq yerlərdəkilərə elmi kimidir.

Bu da həmin xütbənin (insanın yaradılışının heyranediciliyi və yaradanın əzəmət və böyüklüyü barəsindəki) bir hissəsidir

Ey bərabər yaradılışla (heç bir nöqsan və çatışmazlığı olmadan) yaradılan insan! Ey qaranlıq uşaqlıqda və çoxlu pərdələrdə (bətn, uşaqlıq və ciftin, yəni, insanın dünyaya gələrkən ana bətnindən onunla birlikdə çıxdığı pərdənin qaranlığında) qorunmuş məxluq! Xalis gildən (və torpaq ünsürlərindən təşkil olunmuş insan bədənindən) başlanmısan və məlum ölçüyə (en, uzun, naziklik və qalınlıq aşkar olana) və bölünmüş müddətə (yeddi və ya doqquz ay, yaxud ondan az və ya çox hamiləlik dövrünə) qədər möhkəm yerə (ananın uşaqlığına) qoyulmusan. Ananın qarnında döl olmağına baxmayaraq, tərpənirdin. Sözə cavab vermir, səsi eşitmirdin. Sonra öz yerindən (ananın uşaqlığından) görmədiyin və xeyir yollarını bilmədiyin evə çıxarıldın. Sənə ananın döşlərindən süd əmmək yolunu kim göstərdi? Səni ehtiyacın olan zaman möhtac olduğun və istədiyin şeylə kim tanış etdi? (Məgər bütün bunlar yaradanın varlığına və mövcud olmasına bir dəlil deyil ki, sən Onun zatının həqiqət və mahiyyətini araşdırıb dərk etmək istəyirsən? Onun zatının həqiqət və mahiyyətini dərk etmək) necə də uzaqdır! (Çünki) şəkil, surət və əndam sahibinin sifətlərində (onları tanımaqda) aciz qalan kəs, onu yaradanın sifətlərində daha aciz və Onu, yaratdıqlarının hədd və sifətləri vasitəsi ilə dərk etməkdən daha uzaqdır.

İmam Əli əleyhis-salamın yanına toplaşaraq Osmanın nalayiq əməllərindən şikayət edilərkən buyurduğu kəlamlarındandır. (Osmanın özünün və nümayəndələrinin fitnə-fəsad və əyrilikləri Mədinə və digər şəhərlərdə yayıldıqdan sonra Mədinənin Həzrət Peyğəmbərin səhabələrindən olmuş və digər sakinlərinin bir dəstəsi, başqa şəhərlərin əhalisinə belə bir məktub yazdılar: Siz ki Allah yolunda cihad edərək din düşmənləri ilə vuruşmaq istəyirsiniz, tez bizim yanımıza gəlin. Sizin xəlifəniz dini məhv edib və aradan aparıb. Beləliklə, xalqın qəlbi Osmandan sındı və onu məqamından uzaqlaşdırmaq qərarına gəldilər. Misir, Bəsrə və Kufə əhalisinin böyük bir dəstəsi Mədinəyə gəldi.) Onlar (Osmandan İmama gileylənərək) o Həzrətdən onların tərəfindən Osmanla söhbət etməsini və onun onların razılığını təmin etməsini (pis davranmaqdan əl çəkərək dində yaratdığı bid'ətləri yox etməsini, Həzrət Peyğəmbərin səhabələrinə bu qədər zülm etməməsini və şəhərlərin hakimi vəzifəsinə düz insanları göndərməsini) istəməsini xahiş etdilər. Buna görə də İmam əleyhis-salam Osmanın yanına gedib belə buyurdu: Xalq mənim arxamdadır və məni sənin özləri arasında elçi və vasitə təyin edib. (Məndən onların sözlərini sənə çatdıraraq fəsadı aradan qaldırmağımı istəyiblər.) Allaha and olsun ki, sənə nə deyəcəyimi bilmirəm. (Nə dil ilə danışım ki, sənə təsir etsin? Sənin bid'ət və çirkin əməllərindən) sənin özünün xəbərsiz olduğun bir şey bilmirəm. Sənə tanımadığın və bilmədiyin bir iş (yerinə yetirdiklərinin haram olması) barəsində bələdçi deyiləm. (Bəlkə özün davranışının haram və dinə zidd olmasını bilirsən.) Bizim bildiyimizi sən də bilirsən. (Sənin gördüyün işlərin çirkinliyi bizə məlum və aşkar olduğu kimi sənin özünə də aşkar və məlumdur.) Bir şeydə səndən qabağa düşməmiş, səni ötməmişik ki, səni ondan xəbərdar edək. Heç bir hökmdə xəlvətə çəkilməmişik ki, onu sənə çatdıraq. Sən bizim gördüklərimizi görmüş və eşitdiklərimizi eşitmisən. Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) ilə biz ünsiyyətdə olduğumuz kimi, sən də ünsiyyətdə olmusan. Nə Əbu Quhafənin və nə də Xəttabın oğulları düzlüyə səndən layiq deyildi. Halbuki sən qohumluq baxımından Allahın Peyğəmbərinə (səlləllahu əleyhi və alih) onlardan daha yaxınsan. Həmçinin

sən Peyğəmbərin kürəkəni olmaqla Əbu Bəkr və Ömərin çatmadıqları bir məqama çatmısan. Odur ki, öz barəndə Allahdan qorx, Allahdan qorx! Çünki Allaha and olsun ki, sən kor olub sonra görən və nadan olub sonra öyrədilən olmayacaqsan. Həqiqətən yollar (Allahın hökmləri) aşkar və dinin nişanələri (Qur'an və Əhli-Beyt) möhkəm və bərqərardır. Odur ki, (əgər qəflətə düşmüsənsə) bil: Allah yanında bəndələrin ən üstünü (haqq yola) hidayət olunmuş və (başqalarını) hidayət edən, məlum sünnə (qayda) və yolu (Həzrət Peyğəmbərin sünnəsini) bərqərar edən (onun əsasında davranan) və batil və səhv bid'əti öldürən (aradan qaldıraraq xalqı onun səhvliyindən xəbərdar edən) ədalətli və düz başçıdır. Həqiqətən sünnələr aydın və aşkardır və onların öz nişanələri var. Həmçinin bid'ətlər aşkardırlar və onların (da) öz nişanələri vardır. Allah yanında bəndələrin ən pisi isə özü azğın olan və başqaları onun vasitəsi ilə azğınlığa düşən, (Allahın Peyğəmbərindən) götürülmüş sünnəni öldürən və məhv olmuş bid'əti dirildən (haqdan əl götürüb batili yaymaq istiqamətində çalışan) zalım başçıdır. Mən Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) belə buyurduğunu eşitmişəm ki: «Qiyamət günü zalım başçını gətirəcəklər və onun nə kömək edəni olacaq (ki, onu cəhənnəm odundan xilas etsin), nə də üzrxahı (ki, əzabı ondan dəf etsin). Beləliklə, o, cəhənnəm oduna atılacaq və dəyirman fırlanan kimi onda fırlanacaq. Sonra cəhənnəmin quyusunda və dibində həbs olunaraq saxlanılacaq». Səni Allaha and verirəm ki, bu ümmətin öldürülən başçısı olmayasan. Çünki bundan əvvəl deyilirdi (Həzrət Peyğəmbər buyurub) ki: Bu ümmətdə bir başçı qətlə yetiriləcək və (onun öldürülməsi nəticəsində) qiyamətə kimi qan axıdılması və döyüş (qapısı) açılacaq, işlər onlara şübhəli və qaranlıq görünəcək, aralarında fitnə-fəsadı yayacaq və onlar haqqı batildən seçə bilməyəcəklər. Həmin fitnə-fəsadlarda çoxlu çaxnaşma törədər, haqdan əl götürərlər. Həmçinin çox iztirablı və nigaran olarlar. Buna görə də (səksən ildən artıq olan), uzun illərdən və ömürü başa vurduqdan sonra (katib və məmurun) Mərvan (ibn Həkəm) üçün düşmənin qarət edərək sürətlə sürdüyü dəvə kimi olma ki, səni istədiyi yerə sürsün. Osman o Həzrətə dedi: Xalqla danış mənə möhlət versinlər ki, onlara edilmiş zülmləri aradan qaldırım. İmam əleyhis-salam buyurdu: Mədinədə olana möhlət lazım deyil. Onda olmayanın möhləti isə sənin əmrin ona çatana kimidir.

←163-cü xütbə

Nəhcül-bəlağə. 164-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

165-ci xütbə→

İmam Əli əleyhis-salamın tovuz quşunun yaradılışının heyranediciliyini xatırlatdığı xütbələrindəndir. Allah təəccüblü və qəribə varlıqlar yaradıb: bəziləri (insan və heyvanlar kimi) canlı, bəziləri (cansız təbiət kimi) cansız, bəziləri (dağlar kimi) hərəkətsiz və bəziləri (ulduzlar kimi) hərəkət edəndir. Onun yaradılışının gözəlliyi və qüdrətinin böyüklüyünə şəhadət verən aşkar dəlillərdən ağılların, qarşısında tabe olaraq inandıqları şeyi bərqərar etdi. Belə ki, (ağıllar) Onun varlığını iqrar edərək əmrinə tabedirlər və ağılların inandıqları şeyin Onun birliyinə olan dəlilləri, bizim qulaqlarımızda fəryad qoparırlar. Həmçinin quşların yerin dəliklərində, (iki dağın arasında yerləşən) geniş dərələrdə və dağların başında yerləşdirdiyi müxtəlif şəkillilərini yaratdı. Onların cürbəcür qanadları və müxtəlif görkəmliləri vardır. Onların boyunlarına itaətkarlıq və tabeçilik cilovu salınıb və açıq hava və geniş fəzanın boşluqlarında qanad çalırlar. Onları bu aşkar heyranedici surətlərdə yaratdı, halbuki bundan öncə yox idilər. (Onları yoxdan yaratdı.) Onları (ət və dərilərində) gizlənmiş oynaqların möhkəm sümükləri ilə bir-birinə birləşdirdi. Onların bəzisini (dəvəquşu və hacıleylək kimisini) iti yerimək və asan uçmaq üçün yüksəklikdə uçmaqdan saxladı və onu elə yaratdı ki, yerə yaxın uçur. Növbənöv quşları hikmət və məsləhətə əsaslanan qüdrət və yaradılışı ilə müxtəlif rənglərdə sıraladı. (Hər birini məxsus bir rəngdə yaratdı.) Beləliklə, onların bəzisi elə bir rəngin qəlibinə salınıb ki, ona başqa bir rəng qarışmır, bəzisi isə bir rəngə salınıb və boynunda elə bir boyunbağı cizgilənib ki, onun rəngi bədəninin digər yerlərinin rənginin əksinədir. Quşların yaradılış baxımından ən heyrətləndiricisi tovuz quşudur ki, Allah onu ən möhkəm ölçüdə yaradıb və rənglərini kökünü (piy, sümük və damarla) bir-birinə birləşdirdiyi qanadla və uzunluğunu çox etdiyi quyruqla ən gözəl qaydada nizama salıb. Nə vaxt (cütləşmək istəsə və) dişi tovuzquşuna tərəf getsə, quyruğunun burulğanını açar və onu qaldıraraq başına kölgə salar. Həmin quyruq (bir yerə yığılanda və açılaraq yayılanda) sanki Darəyn (gəmisinin) yelkənidir ki, gəmiçi onu bir tərəfdən digər tərəfə çevirir. O, rəngləri ilə lovğalanaraq özünü öyür. Quyruğunun hərəkəti ilə öyünür və nazlanır. Xoruzlar kimi cütləşir və bala

verməsi üçün öz dişisi ilə çox şəhvətli erkəklər kimi yaxınlıq edir. (İmam əleyhis-salam burada tovuzquşunun cütləşməsinin belə olmamasını güman edən şəxsin sözünü puç etmək üçün buyurur:) Tovuzquşunun cütləşməsi barəsində dediklərimdə səni müşahidə etmək və göz ilə görməyə göndərirəm və (sözünü) etimad edilməyən zəif və səhv dəlilə əsaslandıran kəs kimi deyiləm. (Çünki həmin şəxs deyir: Belə deyirlər. Mən isə deyirəm: Get gör!) Əgər onların zənn etdikləri kimi olsa - erkək tovuzquşunun öz dişisini mayalandırması, erkəyin gözündən axaraq göz qapaqlarının kənarlarında yığılan göz yaşı vasitəsi ilə olsa və dişi tovuzquşu onu öz dimdiyi ilə götürüb daddıqdan sonra yumurta qoysa və erkək tovuzquşunun cütləşməsi gözdən çıxan yaşdan başqa bir yol ilə olmasa, hər halda bu (yanlış) güman ala qarğanın cütləşmə üsulundan (onların dimdiklərini bir-birinin üstünə qoyaraq cütləşmələrindən) daha təəccüblü və qəribə deyil. (İmam əleyhis-salam sonra yenə də tovuzquşunun vəsfinə davam edərək buyurur: Ağlıq və şəffaflığının çoxluğundan) onun lələklərinin sümüklərini gümüş millər təsəvvür edər və həmçinin həmin lələklərin üstündə bitənləri - heyrətamiz dairələr və boyunbağıları (sarılıq və parlaqlıqda) xalis qızıl və (yaşıllıqda) zəbərcəd (qızıla çalar yaşımtıl rəngli qiymətli daş) parçaları sanarsan. Buna görə də əgər onun qanadını yerin bitirdiyi gül və çiçəklərə oxşatsan, deyəcəksən ki: O, hər baharın çiçəklərindən toplanmış bir dəstə güldür. Əgər onu geyimlərə oxşatsan, (deyəcəksən ki:) rəsm və şəkil işlənmiş bəzəkli və ya Yəməndə toxunmuş gözəl rəngli və qəşəng paltar kimidir. Əgər zinət əşyalarına bənzətsən, (deyərsən ki:) cəvahirlə bəzədilmiş gümüş arasında yerləşdirilmiş rəngarəng üzük qaşları kimidir. Çox işvəli sevincək şəxsin nazlanması kimi yol gedir. Tam diqqət və mülahizə ilə öz quyruq və qanadına baxır. Köynəyinin və paltarının (müxtəlif) rənglərinin gözəlliyindən qəhqəhə ilə gülür. Gözü ayaqlarına sataşanda isə haray qopararaq uca səslə ağlayır, sanki aşkarcasına, köməyə bir kimsə çağırır və (bu əməli ilə) özünün (ayaqlarının çirkinliyindən olan) qəm-qüssənin həqiqiliyinə şəhadət verir. Çünki ayaqları (nə ağ, nə də qara, bəlkə torpaq rəngində olan) xoruzun ayaqları kimi nazikdir (və çirkindir) və onun baldırının sümüyü tərəfdən (xoruzun ayağında olan və elə də aşkar olmayan tikan kimi) gizli bir tikan qabarır. Boynunun arxasında yalının yerində nəqş edilmiş bir yaşıl kəkil var. Boynunun çıxacağı bardaq kimidir (nazik və uzundur). Boynunun batacağı isə qarnının altına qədər (çox yaşıl olan və rəng qoyulmasında istifadə edilən) Yəmən basması və ya cilalı güzgüyə bükülmüş rəngli və bəzəkli ipək

kimidir. Tovuzquşu sanki özünü qara çadraya bürüyüb. Amma təravət və parıltının çoxluğundan, ona çoxlu gözəl yaşıl rəngin qatışdırıldığı güman edilir. (Şəffaflıq və aydınlığının çoxluğundan onun qaralığı yaşıla çalır və baxanda hər an bir rəngdə görünür. Odur ki, buyurur:) Qulağının yarığında qələmin ucuna bənzər (nazik) bir xətt var və o, rəng baxımından çox ağ olan çobanyastığı gülüdür (onun kimidir). O, qara rəng içində parıldayan ağ xətt kimidir. Tovuzquşunun bəhrələnmədiyi rəng çox azdır. O, çox cilalı, parlaq, işıqlı və gözəl olduğu üçün həmin rəngi daha yaxşı göstərib. Beləliklə, o, (rənglərə boyanmasında) bahar yağışlarının və çox isti günəşlərin yetişdirmədiyi (bəlkə eyb və nöqsanlardan pak və uzaq olan Allahın hikmət əsasında yaradılışın əvvəlindən başdan-ayağa müxtəlif heyranedici rənglərlə yaratdığı) dağınıq çiçəklər kimidir. O, bəzən öz tük və lələklərindən xaric olaraq paltarını çıxarıb lütlənir. Beləliklə, tükləri bir-birinin ardınca tökülür və yenə bir-birinin ardınca bitir. Tükləri yarpaqlar ağacdan tökülən kimi tökülür. Sonra bir-birinin ardınca tükləri tökülməmişdən qabaqkı şəklinə düşənə kimi bitir. (Belə ki,) onun heç bir rəngi əvvəlki rənglərin əksinə olmur və heç bir rəng öz yerindən başqa yerdə durmur. (Düşən hər bir tük və lələyin yerinə həmin şəkil və rəngdə olan bir tük və lələk çıxır.) Əgər onun lələklərinin tüklərindən birinə diqqətlə baxsan, (onların rəngə boyanmaları) sənə (bir dəfə) qızılgül qırmızısı, bir dəfə zəbərcəd yaşılı, bəzən isə qızıl sarısı rəngində görünər. Buna görə də dərin və dəqiq dərrakələr bu heyvanın yaradılışının necəliyini necə qavraya, əqli düşüncələr onu necə dərk edə və ya vəsf edənlərin sözləri onun necəliyini necə nəzmə çəkə bilər?! Halbuki həmin heyvanın ən kiçik hissəsi (tükü) fikirləri onu dərk etməkdə və dilləri öz vəsfində aciz qoyub. Buna görə də eyb və nöqsan sifətlərdən pak və uzaqdır o Allah ki, ağılları gözlər önündə cilvələnən və onların məhdud, yaranmış, mürəkkəb və rənglənmiş şəkildə dərk etdikləri varlığın vəsfində məğlub edib, dilləri Onun həqiqətinin necəliyinin bəyanında bacarıqsız və sifətlərinin şərhində aciz edib. Həmçinin eyb və nöqsan sifətlərdən pak və uzaqdır o Allah ki, kiçik qarışqa və balaca ağcaqanadların ayaqlarını, eləcə də onlardan böyüklərin - balıq və fillərin yaradılışını möhkəm edib. Özünə vacib edib ki, ruh və can verdiyi heç bir cüssə, onun üçün ölüm vədəsi və yoxluq sonluğu müəyyənləşdirməyincəyə qədər hərəkət edib tərpənməsin.

Bu da həmin xütbənin Cənnətin necəliyi barəsindəki bir hissəsidir

Əgər qəlb gözü ilə sənin üçün Cənnətdən vəsf edilənlərə baxsan (və onlar barəsində fikrə dalaraq düşünsən), nəfsin mütləq bu dünyada olan və onun, nəzərdə cilvələnən istək, ləzzət və bər-bəzəklərindən uzaqlaşar. Fikir və düşüncə ilə kökləri Cənnət arxlarının kənarında müşk dəfinələrində basdırılmış ağacların yarpaqlarının bir-birinə dəymələrinin səsindən, təzə və təravətli mirvari salxımların nazik və qalın budaqlardan asılmasından, heç bir çətinlik olmadan (ağacın başına çıxmadan və ya daş və çubuq vasitəsi ilə salınmadan) yığılan və yığanın arzusuna uyğun olaraq onun ixtiyarında duran (onu zəhmətsiz yığması üçün arzulaması ilə yaxınlaşan) rəngarəng meyvələrin həmin ağacların güllərinin tumurcuqlarından zahir olmasından çaş-baş qalar. Cənnət əhli üçün onun saraylarının qarşısında pak və təmiz ballar və saflaşdırılmış şərbətlər dolandırılır (ki, istəyən götürüb içsin). Cənnət əhli həmişəlik evə (əbədi Cənnətə) daxil olana və yerdəyişmə və səfərlərdən qurtarıb rahatlanan zamana kimi ilahi əta və bəxşişlər daim hallarına şamil olan dəstədir (və onlar Allah və Peyğəmbərə tabedirlər). (İnsan öləndən sonra qiyamət başlanana kimi səfər çətinliklərinə düçar olan şəxs kimidir və ölüm, bərzəx aləmi və qiyamətin çətinliklərindən nicat tapıb, yükünü Cənnətdə açandan sonra yolun əziyyətlərindən qurtulur, rahatlıq tapır.) Buna görə də ey dinləyici, əgər qəlbini qəflətən sənə çatacaq şeyə - heyranedici mənzərələrə məşğul etsən (fikrə dalaraq onların barəsində düşünsən), canın onlara çatmağın şövqündən bədənindən çıxar və həmin mənzərələrə çatmağa tələsdiyin üçün mənim bu məclisimdən qəbristanlıq əhlinin qonşuluğuna gedərsən (dünyaya və onda olanlara göz yumaraq ölümü gözləyərsən). Allah fəzl və mehribanlığı üzündən bizi və sizi yaxşı əməl sahibilərinin mənzillərinə (əbədi Cənnətə) getmək üçün qəlbən səy göstərib çalışanların (Allah və Peyğəmbərin razılığını əldə edənlərin) zümrəsində yerləşdirsin. (Seyyid Rəzi deyir:)

Bu xütbənin bir neçə qeyri-adi kəlməsinin mənası belədir:

O Həzrət əleyhis-salamın buyuruğundakı «يَؤُرُّ بِمُلاقَحَةٍ» «yəurru bimulaqəhəti» birləşməsində «يَؤُرُّ» «yəurru»nun kökü olan «أَرَّ» «ərrə» kəlməsi yaxınlıq etmək barəsində metaforadır. Ərəblər kişi qadın ilə yaxınlıq edəndə onun barəsində «أَرَّ الرَّجُلُ الْمَرْأَةَ» «ərrə ər-rəculu əl-mər'ətə» deyirlər. O Həzrət əleyhis-salamın digər «كَأَنَّهُ قِلْعُ دارِيٍّ عَنَجَهُ نُوتِيُّهُ» buyuruğundakı «قِلْع» «qil'» kəlməsi yelkən mənasındadır. «دارِيٍّ» «Dariyy» «دارَيْن» Darəynə mənsub

deməkdir. O, dəniz kənarında olan bir şəhərdir ki, oradan ətir gətirilir. «عَنَجَهُ» «Ənəcəhu»nun mənası isə döndərməkdir. Ərəblər birinə dəvənin başını döndərdiklərini çatdırmaq istəyəndə «عَنَجْتُ النّاقَةَ كَنَصَرْتُ أَعْنُجُها عَنْجاً» deyirlər. «نُوتِيّ» «Nu’tiyy» isə gəmiçi mənasındadır. O Həzrət əleyhis-salamın «ضَفَّتَىْ جُفُونِهِ» «zəffətəy cufunihi»dən məqsədi tovuzquşunun göz qapağının iki tərəfidir. «ضَفَّتان» «Zəffətan» hər iki tərəf mənasındadır. İmam əleyhis-salamın «فِلَذَ الزَّبَرْجَدَ» «filəz əz-zəbərcədə» birləşməsindəki «فِلَذُ» «filəz» kəlməsi «فِلْذَةٍ» «filzə»nin cəmidir və onun mənası tikə və parça deməkdir. «كَبائِسُ» «Kəbais» kəlməsi «كَباسَة» «kəbasə»nin cəmidir və o, «عِذْق» «izq» xurma salxımı mənasındadır. «عَسالِيج» «Əsalic» budaqlar deməkdir və onun təki «عُسْلُوج» «usluc»dur.

İmam Əli əleyhis-salamın (səhabələrinə öyüd-nəsihət verdiyi) xütbələrindəndir. Gərək kiçiyiniz böyüyünüzün arxasınca getsin və böyüyünüz kiçiyinizə qarşı mehriban olsun. Cahiliyyət dövrünün (Həzrət Peyğəmbər ilahi elçi kimi göndəriləndən qabaqkı zamanın) zalımları kimi olmayın ki, (onlar) nə din və şəriətdə araşdırma aparır, nə də Allahı tanımaqda ağıl işlədirdilər (nadan idilər və eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın hökmlərindən xəbərsiz idilər) - quşların yumurtladıqları yerdə tapılan (və quş yumurtası olması təsəvvür edilən) yumurta kimi ki, sındırılması (kiminsə onu sındırması) günahdır və (əgər salamat saxlanılsa) içindən ziyanverici bala çıxacaq.

Bu da həmin xütbənin (müsəlmanların parçalandıqdan sonra yenidən birləşərək Bəni-Üməyyəni aradan götürmələrindən xəbər verdiyi və səhabələrini məzəmmət etdiyi) bir hissəsidir

(Müsəlmanlar) bir-birləri ilə isinişib birləşdikdən sonra bir-birlərindən ayrılacaq və öz köklərindən (haqq İmam və dinin təməlinin ətrafından) dağılışacaqlar. Beləliklə, bəziləri bir budaqdan (hidayət və doğru yol imamlarının - əleyhimus-salam - birindən) tutar və hara getsə, onunla birgə olar (göstərişlərinə uyğun davranar). Nəhayət, Allah onları tezliklə, payız fəslində bulud parçaları bir-birinə birləşdiyi kimi Bəni-Üməyyənin ən pis günü (hakimiyyətlərinin devrilməsi) üçün bir yerə toplayar. Allah onları bir-birinin üzərində yerləşən buludlar kimi bir-birlərinə qarşı mehriban edər, birləşdirər və çoxaldar. Bundan sonra, Allah onlar üçün qapılar açar ki, qaldırıldıqları yerdən selcəsinə, iki bağın (Allahın Qur'ani-Kərimdə əhvalatını bəyan etdiyi Səba əhlinin iki bağının) seli kimi yola düşərlər (hərəkət edərək bir-birlərinin köməyinə tələsərlər). (O, çox əzəmətli bir sel idi ki, Səba əhlinin hamısını həlak etdi və) heç bir təpəcik ondan salamat və heç bir yüksəklik öz yerində bərqərar qalmadı. Onun yolunu nə dağın möhkəmliyi, nə də yerin hündürlüyü bağladı. (İndi həmin dəstəni də heç kəs

məğlub edə bilməz.) Allah onları yaratdığı (və elə selin də yatağı olan) dərələrin arasında səpələyər və çeşmələr kimi yerdə axıdar. (Xülasə, saylarını çoxaldar və onlara güc və qüdrət əta edər.) Onların vasitəsi ilə bir dəstədən (zalımlardan) digər dəstənin (zülmə məruz qalmışların) haqqını alar və bir dəstənin (Bəni-Üməyyənin) şəhərlərinə digər bir dəstəni (Bəni-Abbası) qoyar, təyin edər. And olsun Allaha ki, onların əllərində olan şey padşahlıq və hökmdarlıqdan (onların padşahlıq və hakimiyyətlərindən) sonra quyruq odda əriyən kimi əriyər (onların izzət, dövlət, sərvət və bütün şeyləri aradan gedər). Camaat! Əgər bir-birinizi haqqa (İmam əleyhis-salama) kömək etməkdən saxlamasaydınız (kömək etsəydiniz) və batil və nahaqqı (Müaviyəni) alçatmaqda süstlük etməsəydiniz, (qüdrət və düzlük baxımından) sizin kimi olmayan kəs sizə (şəhərlərinizə) tamah salmazdı və sizə ağalıq edən kimsə güclənməzdi. Lakin siz (öz İmam və başçınızın əmrlərinə tabe olmadığınız üçün) Bəni-İsrailin sərgərdanlığı kimi avara-sərgərdan qaldınız (azğınlığa düşdünüz. İsrail oğulları Musa əleyhis-salama qarşı itaətsizlik etdikləri üçün qırx il avara-sərgərdan qaldılar və Allahın Qur'ani-Kərimdə əhvalatını bəyan etdiyi həmin çöllükdən bir yerə yol tapa bilmədilər). Canıma and içirəm ki, məndən sonra sizin sərgərdanlığınız (Bəni-İsrailin sərgərdanlığından) bir neçə qat artırılacaqdır. Ona görə ki, siz haqqı arxaya atdınız, (Həzrət Peyğəmbərə) daha yaxın olanı (özünüzdən) ayırdınız və (o Həzrətə) uzaq olanla birləşdiniz. (İmam əleyhis-salama tabe olmayıb fitnə-fəsaddan başqa bir məqsədləri olmayan xəlifələrin və Müaviyənin arxasınca getdiniz.) Bilin! Əgər öz bələdçi və yol göstərəninizin arxasınca getsəydiniz, o sizi Allahın Peyğəmbərinin (əbədi möhtərəmlik və səadət) yoluna aparardı və siz yoldan azmaq əziyyətindən qurtular və çox ağır yükü boyunlarınızdan uzağa atardınız (dünyada yazıqlığınıza, axirətdə isə əzaba düçar olmağınıza səbəb olan günah etməzdiniz).

←165-ci xütbə

Nəhcül-bəlağə. 166-cı xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

167-ci xütbə→

İmam Əli əleyhis-salamın xilafətinin əvvəlində buyurduğu xütbələrindəndir. Allah-təala Kitabı (Qur'ani-Kərimi bəndələr üçün) bələdçi olaraq göndərdi və onda yaxşı və pisi (etiqad, söz və əməlin hansının pis və hansının yaxşı olmasını) bəyan etdi. Buna görə də yaxşılıq yolunu tutun ki, (Allah və Peyğəmbərə tərəf) hidayət olunub (məqsədə) çatasınız. Həmçinin pislik tərəfdən uzaq olun ki, (sizi haqq və həqiqətə çatdıran) doğru yol ilə hərəkət edəsiniz. Vacibləri yerinə yetirin, vacibləri yerinə yetirin! Onları (riya və özünü göstərmək üçün deyil) Allaha görə (Onun rəhmətinə yaxınlaşmaq üçün) yerinə yetirin ki, sizi Cənnətə çatdırsın. Allah (Qur'anda və Həzrət Peyğəmbərin sünnəsində) məchul olmayan (bəlkə hamıya məlum olan) şeyi haram etdi (buna görə də ondan xəbərsiz olan üzrlü sayılmır) və heç bir eyb və nöqsanı olmayan şeyi halal buyurdu. Müsəlmanın ehtiramını (İslamın əzəmətinə görə) bütün hörmətlərdən üstün etdi. Müsəlmanların hüquqlarını (dində) ixlas (yəni, riyakarlıq olmadan tam sədaqət və saflıqla ibadət və bəndəlik etmək) və tovhid (Allah-təalanı tək bilmək) ilə öz yerlərində bir-birinə bağlayıb. Buna görə də (təkallahlı və ixlası olan şəxsə müsəlmanların hüquqlarına riayət etmək vacibdir. Belə olmasa, bu onun ixlas və tovhidi ilə ziddiyyət təşkil edər. Odur ki, buyurur:) Müsəlman o kəsdir ki, müsəlmanlar (Allah və Peyğəmbərin buyurduğu) haqq (yerlər) istisna olmaqla onun dilindən və əlindən salamat və rahat olsunlar (dili ilə yalan, qeybət və böhtan danışmasın və başqalarını incitməkdən və zülm etməkdən əl saxlasın). Allahın vacib etdiyindən başqa, müsəlmana ziyan vurmaq halal deyil. (Amma əgər kimsə müsəlmanı nahaq yerə öldürsə, ondan qisas alınması və öldürülmüş şəxs kimi onun da öldürülməsi vacibdir.) Hamı üçün ümumi olan və sizlərin hər birinizə məxsus hadisəyə tələsin. O, ölümdür (ölümə və dünyadan köçməyə hazır olun). Çünki insanlar (onların bir dəstəsi) sizin qarşınızdadır (sizdən qabağa düşüblər) və qiyamət sizi arxadan qovur. (Sanki bir karvan qabaqcadan gedib və karvanın başçısı arxada qalanları qabaqda gedənlərə çatmaları üçün sürətlə aparır. Buna görə də) yüngülləşin ki, (özünüzü ağır yüklər altından nicat verib karvana) birləşəsiniz. Sizin birinciniz saxlanılıb və onlar axırıncınızın yolunu gözləyirlər (ki, hamı

toplaşsın və birlikdə qiyamətə daxil olasınız). Çünki (qiyamətdə) sizdən (hər şeyi) soruşacaqlar, hətta yerlər və dördayaqlılar barəsində. Allaha itaət edin və Ona qarşı itaətsizlik göstərməyin. Yaxşılıq görən zaman onu əldə edin (ki, dünya və axirətinizə xeyri var) və pislik görəndə ondan uzaq olun (ki, sizi əzaba düçar edər).

İmam Əli əleyhis-salamın xilafətində bey'ət edildikdən sonra buyurduğu kəlamlarındandır. (Təlhə ilə Zübeyr bey'ətlərini pozaraq Bəsrəyə getdilər, orada fitnə və çaxnaşma yaradaraq müsəlmanların mallarını qarət etdilər və yaxşı insanları öldürdülər.) Səhabələrdən bir dəstəsi o Həzrətə dedi: Kaş ki, Osmana qarşı (onu öldürməyə) toplaşanları cəzalandıraydın (və bey'ətlərini pozan kimsələrin heç bir bəhanələri qalmayaydı). İmam əleyhis-salam buyurdu: Qardaşlar (dindaşlar)! Mən sizin bildiyinizdən xəbərsiz deyiləm (bəlkə həm keçmişi, həm gələcəyi, həm də indini bilirəm). Lakin mənim (Osmanı öldürənlərdən intiqam almağa) necə gücüm çatar, halbuki (onu öldürmək üçün) toplaşmış (və bu çaxnaşmanı da yaradan) dəstə öz güclülüyünün son həddində qalmaqdadır və biz onlara deyil, onlar bizə ağalıq edirlər?! Bilin! Osmanı öldürənlər sizin qullarınızın kömək olduğu və çöldə yaşayanlarınızın birləşdiyi bir dəstədir (bu işi hamı əlbir olaraq görüb). Onlar sizin aranızdadırlar (hələ Mədinədən xaric olmayıblar və əgər məqsədinizi başa düşsələr), sizə istədikləri əziyyəti verərlər (və heç kəsin onların qarşısını almaq qüdrəti yoxdur). İstədiyiniz şeyə gücünüz var? (Bu barədə fikirləşib onlarla vuruşmaq üçün bir kömək nəzərdə tutmusunuz? Sizin istədiyiniz) bu iş nadanlığa əsaslanan bir işdir və onların (çoxlu) kömək və yardımçıları var (ki, ehtiyacları olan zaman onlardan kömək istəyirlər). Camaat bu intiqam söhbəti ortaya gələndə bir neçə dəstə olur. Bir dəstə sizin gördüklərinizi görür (nəzərləri budur ki, gərək intiqam alınsın). Bir dəstə sizin görmədiyinizi görür (deyir ki, gərək onun qatillərinə kömək edilsin). (Digər) bir dəstə (isə) nə bunu, nə də onu görür (bu işdə susub dayanıb və heç bir nəzəri yoxdur). Buna görə də (Osmanın qatillərindən intiqam almaq, əhəmiyyəti onun öldürülməsindən də çox olan bir böyük fitnə-fəsadın yaranmasına səbəb olacaq. Odur ki,) xalqın rahatlıq tapması, qəlblərin öz yerində qərar tutması və haqların münasib yerdə asanlıqla alınması üçün səbrli olun. Mənim yanımda sakit və rahat olun (tələsməyin və bu cür öyüd-nəsihət verməyin), sizə necə əmr verəcəyimə baxın (göstərişlərimə tabe olun). Güc və qüvvəni məhv edərək aradan aparan və süstlük və xarlıqla nəticələnən bir iş görməyin. Tezliklə, nə qədər ki,

yumşaqlıqla mümkündür bu işi yumşaqlıq və mülayimliklə düzəldəcəyəm. Başqa bir çarə və çıxış yolu tapmadığım zaman (mülayimlik bir fayda verməyəndə) isə, «son dərman dağlamaqdır».

←167-ci xütbə

Nəhcül-bəlağə. 168-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

169-cu xütbə→

İmam Əli əleyhis-salamın Cəməl əhli (dəvəyə minmiş Aişənin tərəfdarları) Bəsrəyə gedən zaman buyurduğu xütbələrindəndir. Allah (bəşəriyyət üçün) doğru yol bələdçisi olan Peyğəmbəri natiq (xeyir və şər yolu açıqlayan) Kitab (Qur'ani-Kərim) və bərqərar (qiyamətə kimi qalacaq və əyriliyin yol tapa bilmədiyi) iş (din və qanun) ilə göndərdi. Onunla müxalif olan kəsdən başqa heç kəs məhv olmaz. Həqiqətən (Həzrət Peyğəmbərin sünnəsi kimi göstərilən) naməlum və qaranlıq bid'ətlər Allahın onlardan qoruduğu (onlara əməl etməməyə nail etdiyi və nəticədə salamat qalan) kəs istisna olmaqla (insanlar üçün) məhvedicidir. Allahın höccətinə (İmam əleyhis-salama) tabe olmaq sizin (din və dünya) işlərinizin qorunmasıdır. Buna görə də məzəmmət və məcbur edilmiş olmadan ona tabe olun. And olsun Allaha, (ya) gərək (mənə) tabe olasınız, ya da Allah haqq xilafəti sizdən başqasına keçirsin. Beləliklə, o, sizdən başqasına (Bəni-Üməyyə və Bəni-Abbasa) qayıdana kimi, heç vaxt onu sizə qaytarmaz. Həqiqətən onlar (Təlhə, Zübeyr və onların tərəfdarları Osmanın intiqamını almaq üçün deyil) mənim xilafətimə razı olmadıqlarına görə toplaşaraq bir-birlərinə kömək edirlər və mən sizin birliyinizə xələl gəlməsindən (dininizdə ziddiyyət yaranaraq təfriqəyə düçar olmağınızdan) qorxmayana kimi (onların itaətsizliklərinə) səbr edirəm (ki, bəlkə peşman oldular və hələ də bu səbrimdə qalmaqdayam). Çünki əgər onlar (gerçəkləşdirmək istədikləri) bu zəif və səhv fikri sona çatdırsalar (davam etdirsələr), müsəlmanların (din və dünya işlərinin) nizam-intizamı bir-birinə dəyəcək (onların birlik və vəhdət kəndirləri qırılacaq). Həqiqətən onlar Allahın onu əta etdiyi şəxsə paxıllıq etdikləri və həsəd apardıqları üçün bu dünyanı (xilafət və əmirliyi) istəyirlər. Buna görə də hökmləri (İslamın hökmlərini) başıaşağı çevirmək (Allahın mənə məxsus etdiyi xilafəti məndən almaq) istəyiblər. (Əgər bizə tabe olsanız) sizin bizim boynumuzda olan haqqınız Allahın Kitabına və Onun Peyğəmbərinin (səlləllahu əleyhi və alih) davranış üsuluna əməl etmək, Onun haqqını əda etmək (göstərişlərini yerinə yetirmək) və Onun hökmlərini ucaltmaqdır (yaymaqdır ki, bunların nəticəsində nicat tapasınız).

İmam Əli əleyhis-salamın kəlamlarındandır. O Həzrət Bəsrənin yaxınlığına çatanda, həmin diyarın əhalisinin bir dəstəsi onun yanına bir ərəb göndərdilər ki, onlar üçün o Həzrətlə Aişənin ətrafındakıların vəziyyətləri barəsindəki həqiqətləri öyrənərək aydınlaşdırsın (ki, onların bu müharibəni etmək haqları var, ya yox?) və beləliklə, əhalinin şəkk-şübhə və tərəddüdləri aradan qalxsın. Əmirəl-möminin əleyhis-salam da özünün onlarla olan rəftarını bəyan etdi. Bununla da həmin şəxs o Həzrətin haqq olmasını (və Cəməl əhlinin batil və nahaq olmalarını) başa düşdü. (Dəlil-sübutdan) sonra (İmam əleyhis-salam) ona buyurdu: Bey'ət et. Həmin şəxs dedi: Mən bir dəstənin elçisiyəm və onların yanına qayıdana (və məsləhətləşənə) kimi özbaşına bir iş görmərəm. İmam əleyhis-salam buyurdu: Bax (de görüm), əgər tərəfindən mənim yanıma gəldiyin kəslər, səni onlar üçün yağış yağmış (ot və suyu olan) bir yer tapmaq üçün qabağa göndərsələr və sən onların yanına qayıdıb ot və su (tapdığın yer) barəsində xəbər versən, amma onlar sənə tabe olmayıb otsuz-susuz yerdə oturaq salsalar, nə edərsən? Həmin şəxs dedi: Mən onları buraxıb müxalifət edərək otu və suyu olan yerə gedərəm. İmam əleyhis-salam buyurdu: Onda (mənimlə bey'ət etmək üçün) əlini uzat. Həmin şəxs dedi: And olsun Allaha ki, mənə hərtərəfli dəlil gətirildiyi üçün bey'ətdən üz döndərə bilmədim və beləliklə, İmam əleyhis-salamla bey'ət etdim. (Bəli, öyüd-nəsihət və haqq söz hidayət və nicat tapmağa layiq olan kəsə mütləq öz təsirini göstərir. Seyyid Rəzi deyir: Hədis və tarix kitablarında Bəni-Cərm ibn Zəban ibn Hülvan qəbiləsinə mənsub) həmin şəxs Kuləyb Cərmi adı ilə tanınır.

İmam Əli əleyhis-salamın Siffeyndə Şam əhli ilə qarşılaşmaq (müharibə etmək) qərarına gəldiyi zaman buyurduğu kəlamlarındandır. (Bəndə hər halda-aşkar və gizlin, pis və yaxşı, çətin və rahat halların hamısında Allah-təalaya üz tutaraq dua etməlidir. Çünki istər mövcud, istərsə də ehtimal edilən zərərin dəf edilməsi həm ağıl, həm də təcrübə baxımından vacibdir. Dua zərər-ziyanı dəf edən, uzaqlaşdıran bir amildir. Bütün bunlara görə İmam əleyhis-salam halların ən çətini olan müharibə, qan axıdılması və düşmənlə qarşılaşmaq zamanında tək olan Allaha belə üz tutur:) Allahım! Ey uca göyün və həmçinin gecə ilə gündüzün dolanma, günəşlə ayın seyr etmə və firlanan ulduzların gəl-get yeri etdiyin və sakinlərini Sənə ibadət və bəndəlikdə yorulmayan bir dəstə mələk etdiyin saxlanılan səmanın Rəbbi! Ey insanların qərar tutma məkanı və həşərat, dördayaqlılar, göz ilə görünənlər və (çox kiçik olduğundan) göz ilə görünməyən saysız-hesabsız varlıqların get-gəl yeri etdiyin bu yerin Rəbbi! Ey yerin (hərəkət və tərpənməkdən qorunması üçün onun) mismarları və (mənbə, bitki və digər faydalarından istifadə etmələri üçün) yaranmışların söykənəcəyi etdiyin möhkəm dağların Rəbbi! (Ey qadir Allah, Səndən istəyirəm ki:) Əgər bizi düşmənlərimizə qalib etsən, zülmkarlığı bizdən uzaq et və bizi haqq və düzlükdə möhkəmləndir! Əgər düşmənlərimizi bizə hakim etsən, şəhidliyi bizim ruzimiz edərək bizi fitnə-fəsaddan qoru! (Sonra öz səhabələrini düşmənlərlə döyüşə həvəsləndirərək buyurur:) Haradadır kişiyə lazım olan şeyi qorumaq üçün düşmənin qarşısını alan? Haradadır çətinliklər zamanı bağlı olduğu şeyə riayət edən qeyrətli? (Əgər döyüşdən üz çevirsəniz) ar arxanızdadır (qaçmağınızı eşidən hər bir kəs sizi məzəmmət edəcək) və (əgər Allah yolunda din düşmənləri ilə cihad etsəniz) Cənnət qarşınızdadır (yeriniz əbədi Cənnətdir)!

İmam Əli əleyhis-salamın (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın bəzi sifətləri barəsindəki) xütbələrindəndir. Şükr olsun o Allaha ki, göylə yer Ondan başqa bir göy və yeri gizlətmir.

Bu da həmin xütbənin (o Həzrətin Ömərin özündən sonra yaradılması göstərişini verdiyi şuranın üzvlərindən biri ilə söhbəti barəsindəki) bir hissəsidir

Bir nəfər (Sə'd ibn Əbi Vəqqas) mənə dedi: Ey Əbu Talibin oğlu, sən xilafətə hərissən! Dedim: Allaha and olsun ki, siz daha həris və (xəlifəlik ləyaqətindən və ya Peyğəmbərdən) daha uzaqsınız. Mən isə (xilafətə) daha layiq və (mənsub olma baxımından Allahın Peyğəmbərinə) daha yaxınam. Mən öz haqqımı tələb edirəm və siz mənimlə onun arasında maneçilik yaradırsınız. Nə vaxt onu almaq istəyirəmsə, üzümü döndərirsiniz (öz haqqıma çatmağa qoymursunuz). Beləliklə, orda olanların hüzurunda dəlil-sübutu onun qulağına çırpdıqdan (cavabını dəlil ilə verdikdən) sonra ayılaraq (qəflət yuxusundan) oyandı. Elə çaş-baş qaldı ki, mənə nə cavab verəcəyini bilmədi. (İmam əleyhis-salam sonra Allaha şikayət edərək belə deyir:) Allahım! Qüreyş və onlara kömək edənlərə qarşı Səndən kömək istəyirəm (ki, onlardan intiqam alasan). Çünki onlar mənim qohumluq əlaqələrimi kəsdilər (mənim Allahın Peyğəmbəri ilə olan qohumluğumu nəzərə almadılar), mənim məqam və dərəcəmin böyüklüyünü kiçik saydılar (məni özləri ilə bir dərəcədə hesab etdilər) və mənə məxsus xilafət məsələsində mənimlə düşmənçilik etmək üçün birləşdilər. Bundan sonra dedilər: Bil ki, sənin aldığın da haqdır, tərk etdiyin də! (İddia edirdilər ki, haqq onların əlindədir və mənim onu almağımla tərk edərək haqqımdan vaz keçməyim birdir. Kaş ki, aldıqlarının mənim haqqım olmasını etiraf edəydilər. Onda onun müsibət və çətinliyinə dözmək daha asan olardı.)

Bu da həmin xütbənin Cəməl yoldaşları (Təlhə, Zübeyr və onların tərəfdarları) barəsindəki bir hissəsidir

(Təlhə ilə Zübeyr Əmirəl-möminin əleyhis-salamla bey'ətlərini pozub müxalifət etmək fikrinə düşdükdən sonra həcc bəhanəsi ilə Mədinədən Məkkəyə getdilər.) Sonra (Aişəni böyük bir qoşunla birgə Məkkədən götürərək) hərəkət etdilər və Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) zövcəsini (Aişəni, satıcılar) kənizi alan zaman (ora-bura) çəkdikləri kimi çəkirdilər (bir şəhərdən digər şəhərə aparırdılar). Onunla birlikdə Bəsrəyə tərəf getdilər. (Xülasə, Təlhə ilə Zübeyr) öz arvadlarını evlərində qoydular. Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) evdə qoyduğunu isə özlərinə və başqalarına göstərdilər. Elə bir qoşunun içində ki, aralarındakıların hər biri mənə itaət etmək və tabe olmağı öz öhdəsinə götürmüş və məcburi deyil, könüllü şəkildə mənimlə bey'ət etmişdi. Beləliklə, mənim Bəsrədəki məmur və icraçımın (Osman ibn Hüneyfin), müsəlmanların beytülmallarının xəzinədarlarının və həmin diyardan olan digərlərinin yanına getdilər. Bir dəstəni səbrlə öldürdülər (zindanda saxladılar və ya o qədər döyüb incitdilər ki, nəhayət öldü). Bir dəstəni hiylə və kələklə şəhid etdilər. (Odur ki, İmam əleyhis-salam Cəməl yoldaşlarının zülm və haqsızlıqlarına görə buyurmuşdur:) And olsun Allaha, əgər müsəlmanlardan (hətta) bir nəfəri ələ keçirib onu heç bir günahı olmadan, bilərəkdən öldürsəydilər, həmin qoşunun hamısını öldürmək mənə halal olardı. Çünki həmin qoşun orda olub və nəhy əz münkər edərək pis iş görməkdən (günahsız müsəlmanı öldürməkdən) çəkindirməyib və onun (yer üzündə fitnə-fəsad törətmək və mənimlə müharibə etmək qəsdi ilə ki, bu həm də Allah və Peyğəmbərlə müharibə etmək kimidir) öldürülməsinin qarşısını nə dil, nə də əl ilə almayıb. (Bir nəfər günahsız müsəlmanın öldürülməsi müqabilində həmin qoşunun hamısını öldürməyin halal olması məsələsini) burax! (Onların hamısını öldürmək həm də bu cəhətdən halaldır ki,) onlar müsəlmanlardan qoşunların daxil olanının sayı qədər öldürüblər. (Buna görə də həmin qoşunun hamısını öldürmək lazımdır.)

İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbərin mədhi, İmamət vəzifələri, pərhizkarlığa təşviq və dünyanın məzəmməti barəsindəki) xütbələrindəndir. Həzrət Peyğəmbər Allahın vəhyinin əmanətçisi, peyğəmbərlərinin sonuncusu, rəhmətinin müjdəçisi və əzabından qorxudandır. Camaat! İnsanların xilafət məqamına ən layiqlisi, onların həmin işdə (dövlətçilik siyasəti, düşmənlə müharibə, döyüş tədbirləri və rəiyyətin işlərinin nizama salınması baxımından) ən güclü və bacarıqlısı və Allahın əmrini (və hökmlərini) ən yaxşı bilənidir. Buna görə də əgər hər hansı bir fitnəkar (bu barədə) fitnə törətməyə başlasa, (əvvəlcə) ondan haqqa qayıtması istənilir. Əgər o imtina edərək boyun qaçırsa, öldürülür. (Müaviyə Şam əhlinə Əmirəl-möminin əleyhis-salamla müxalifətinin dəlilini belə açıqlayırdı ki: Mənim o Həzrətin xilafət məsələsində iştirakım olmayıb və ona bey'ət etməmişəm. Təlhə ilə Zübeyr isə bey'ətlərini pozmağa belə bəhanə gətirirdilər ki: Bey'ət etməyimizdən peşman olaraq səhvimizi başa düşmüşük. İmam əleyhis-salam onların öz məntiqlərinə əsaslanaraq sözlərinin puç və səhv olmasına toxunaraq buyurur:) Canıma and olsun ki, əgər İmamət camaatın hamısı toplaşmayınca gerçəkləşməsə, onda heç vaxt baş tutmaz. (Çünki imam təyin edilən zaman camaatın hamısının bir yerə toplaşması qeyri-mümkündür.) Lakin ondan başı çıxanlar (səhabələrin böyükləri və xeyir-şər yollarına bələd olanlar, elə ki biri ilə bey'ət etdilər) İmam təyin edilən zaman orada olmayanlar barəsində hökm edərlər (onları görülmüş işi qəbul etməyə məcbur edərlər). Buna görə də belə olan halda, orada iştirak edən qayıtmamalı (bey'ətini pozmamalı) və qaib olan (başqasını) seçməməlidir. Bilin ki, mən iki nəfərlə vuruşuram: Biri onun üçün olmayan şeyi iddia edir (Müaviyə kimi ki, ləyaqəti olmadan xilafət iddiasında idi) və digəri, öhdəsinə götürdüyü şeydən üz döndərir (Təlhə ilə Zübeyr kimi ki, vəfa etmələri zəruri olan bey'ətlərini pozmuşdular). Ey Allahın bəndələri! Sizə təqvalı olmağı və Allahdan qorxmağı tövsiyə edirəm. Çünki təqva bəndələrin bir-birlərinə tövsiyə edərək tapşırdıqları ən yaxşı şeydir və o, Allah yanında, aqibətlərin ən yaxşısıdır (işlərin ən yaxşısı dünyada təqva ilə sona çatanıdır). Həqiqətən sizinlə (zahirdə müsəlman olan) qiblə əhli arasında

müharibə qapısı açılıb və bu bayrağı (onlarla müharibəni və onun şərtlərini, həqiqətlərdən) agah və gözüaçıq, (çətinliklərdə) səbrli, haqq və həqiqəti bilən şəxsdən (İmam əleyhis-salamdan) başqa heç kəs əlinə götürməz. Odur ki, sizə əmr olunan şeyləri yerinə yetirin və çəkindirildiyiniz şeylərə əməl etməyin. Araşdırma aparmayınca (bizim əmr etdiklərimizi və çəkindirdiklərimizi başa düşüncəyə qədər) heç bir işdə (onu qəbul və ya rədd etməkdə) tələsməyin. Çünki sizin (nadanlıq üzündən) inkar etdiklərinizi dəyişdirməyə bizim haqqımız var. Bilin ki, sizin arzulayaraq rəğbət bəslədiyiniz və sizi bəzən qəzəbləndirən, bəzən də şad edən bu dünya, sizin nə məskunlaşmaq və qalmaq evinizdir, nə onun üçün yaradıldığınız yer və nə də dəvət olunduğunuz məkandır. Bilin ki, nə dünya sizin üçün qalacaq və nə də siz onda qalacaqsınız. Əgər sizi özü (öz zinət və bər-bəzəyi) ilə aldadıbsa, öz pisliyindən (dərd, əziyyət və çətinliklərindən) də çəkindirib. Odur ki, çəkindirməsinə görə aldatmasını tərk edin və qorxutmasına görə tamahlandırmasını özünüzdən uzaqlaşdırın (yalançı bər-bəzəyinə aldanmayın və onun müxtəlif bəla və çətinliklərini gözünüzdə canlandırın). Tərəfinə çağırıldığınız evə doğru (getmək üçün) bir-birinizi ötün (əbədi yer olan axirət rahatlığını əldə etmək üçün dünyada Allaha və Peyğəmbərə tabe olun). Qəlblərinizi ondan (dünyanı sevməkdən) uzaqlaşdırın. Sizlərdən heç biriniz, dünyadan, ondan alınmış şeyə görə (əlindən çıxan hər şeyə görə baş-gözünə vurub ağlamaq səsini ucaldan) kəniz kimi nalə etməməlidir (əlindən çıxan heç bir şeyə görə qəm-qüssəyə batmamalıdır). Allahın itaətinə (itaətinin çətinliklərinə) səbr etmək və Öz Kitabında (Qur'ani-Kərimdə) qorunmasını əmr etdiyi şeyi qorumaqla Onun nemətinin kamilləşdirilməsini istəyin. (Çünki itaətə səbr və Qur'anın göstərişlərinə əməl etmək saysız nemətlər əldə edilməsinə səbəb olur.) Bilin ki, dinin əsas və təməlini möhkəmləndirmiş olsanız, dünya malının məhv olması və əldən çıxması sizə bir ziyan vurmayacaqdır. (Həmçinin bunu da) bilin ki, öz dininizi zay etdikdən sonra dünyadan qoruduqlarınız sizə bir xeyir verməyəcək. Allah bizim və sizin qəlblərinizi haqq və qurtuluşa doğru yönəltsin və (həm) bizə və (həm də) sizə (itaət, müsibət və günahla qarşılaşanda) səbr əta etsin.

←172-ci xütbə

Nəhcül-bəlağə. 173-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

174-cü xütbə→

İmam Əli əleyhis-salamın (Təlhə ilə Zübeyrin Bəsrəyə tərəf hərəkət edərək onu müharibə ilə hədələmələri xəbəri çatanda) Təlhə ibn Ubeydullah barəsindəki kəlamlarındandır. (İndiyə kimi) müharibə ilə hədələnməmişdim və heç kəs məni qılınc zərbəsi ilə qorxutmamışdı. Və mən Rəbbimin verdiyi kömək (və düşmənə qalib gəlmək) vədəsinə arxayınam. (Təlhənin Bəsrəyə tərəf getməsinin səbəbinə gəldikdə isə:) Allaha and olsun ki, o, özünü Osmanın intiqamını almağa hazırlamaq üçün tələsməyib. Bəlkə onun özündən intiqam alınmasından qorxur. Çünki onun Osmanın qatillərindən biri olması güman edilir. Osmanın qatilləri arasında (onu öldürməyə) ondan hərisi yox idi. Buna görə də Osmanın intiqamını almaq adı altında qoşun toplamaqla məsələnin şübhəli və qaranlıq qalması və şəkk və tərəddüd yaranması üçün xalqı yanıltmaq istəyir. Allaha and olsun ki, o, Osman barəsində (yerinə yetirməsi lazım olan və haqq da onlardan biri olan) üç işdən heç birini yerinə yetirmədi. Əgər Əffanın oğlu onun güman etdiyi kimi zalım idisə, onda gərək onun qatillərinə yardım edəydi və onun köməkçilərindən uzaqlaşaraq onlarla düşmənçilik edəydi. Əgər (indi öz dilinə gətirdiyi və xalqın arasında yaydığı kimi Osman) məzlum idisə (və onu öldürmək haram sayılırdısa), gərək onun qatillərinin qarşısını alaraq (Osmanın çirkin əməllərinə görə) üzr istəyənlərdən olaydı. Əgər bu iki işdə şəkk və tərəddüddə idisə (Osmanın zalım və ya məzlum olmasını bilmirdisə), gərək ondan uzaqlaşaraq bir kənara çəkiləydi və xalqı onunla öz ixtiyarına buraxaydı. Lakin o, bu üç işin heç birini etmədi (əksinə, fitnə alovunu alışdırdı və xalqı onu öldürməyə həvəsləndirdi) və (indi) yolu tanınmamış və (bey'ətini pozmaq üçün gətirdiyi Osmanın intiqamını istəmək və onun məzlum öldürülməsi kimi) bəhanələri səhv olan işə girişib.

←173-cü xütbə

Nəhcül-bəlağə. 174-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

175-ci xütbə→

İmam Əli əleyhis-salamın (dinləyənlərə öyüd-nəsihət verdiyi və öz fəzilətlərinə toxunduğu) xütbələrindəndir. Ey (qiyamət, hesab və sorğu-sualdan) qafil olan, amma (söz və əməl dəftərində heç bir artırma və azaltma olmadan qeyd olunmaqla) nəzərdən qaçırılmayanlar! Ey (dünyaya aldanmaq nəticəsində eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın əmr və qadağalarını) kənara qoymuş və (dünyanın mal, zinət və bər-bəzəkləri, eləcə də ürək bağladıqları şeylər tezliklə) geri alınacaq kəslər! Nə olub ki, sizi Allahdan uzaqlaşmış və Ondan başqasına üz tutaraq dostluq edən görürəm? Siz çobanın vəbalı otlaq və dərd verən çeşməyə tərəf apardığı (hara aparıldıqlarını bilməyən) dördayaqlılar kimisiniz. O qoyun kimi ki, bıçaqlar (başını kəsmək) üçün hazırlamağa görə ona ot verilir və o, bu yaxşılığın edilməsindən və yetişdirilməsindən məqsədin nə olmasını bilmir, gününü həyatı və işini yeyib doymaq güman edir. And olsun Allaha ki, əgər sizlərdən hər birinizin haradan gəlib hara gedəcəyini, bütün hallarını bəyan etmək istəsəm, bacararam. Amma mənim barəmdə Allahın Peyğəmbərinə (səlləllahu əleyhi və alih) kafir olmağınızdan (məni ondan üstün hesab etməyinizdən) qorxuram (halbuki mən keçmiş, gələcək və indikilər barəsində xəbər verəcəyim hər bir şeyi ondan öyrənmişəm). Bilin ki, mən həmin xəbərləri öz səhabələrimin küfr və mübaliğənin yol tapa bilmədiyi seçilmişlərinə çatdıracağam. And olsun Həzrət Peyğəmbəri haqq və doğru olaraq göndərmiş və onu yaranmışlardan üstün etmiş Allaha ki, (bu sözü) doğru deyirəm. O Həzrət bu xəbərlərin hamısını, həlak olacaq (əzaba düçar olacaq) şəxsin məhvini, nicat tapanın (yeri Cənnət olanın) qurtuluşunu və xilafətin işinin sonunu mənə xəbər verib. Başıma gələcək (işlərin hamısını) heç bir şeyi saxlamadan istisnasız olaraq iki qulağıma deyərək mənə çatdırıb. (Xülasə, mənə keçmiş, gələcək və indiki zamandan xəbər verib.) Camaat! Vallah sizi bir itaətə həvəsləndirirəmsə, onda özüm sizdən qabağa keçirəm. Həmçinin sizi hər hansı bir günahdan çəkindirməmişdən qabaq özüm ondan çəkinirəm.

İmam Əli əleyhis-salamın (xalqa öyüd-nəsihət verdiyi və Qur'ani-Kərimin fəzilətləri barəsindəki) xütbələrindəndir (ki, onu öz xilafətinin əvvəllərində buyurub). Allahın (Qur'ani-Kərimdəki dünya və axirət barəsindəki) söhbətindən faydalanın (ki, o, fayda və mənfəətlərin ən yaxşısıdır). Allahın (Həzrət Peyğəmbərin dili ilə olan) öyüdlərindən bəhrələnin (ki, nicat tapasınız). Allahın nəsihətini qəbul edin (ki, əzabın çətinliklərindən qurtulasınız). Çünki Allah (hamıya) aşkar olan dəlillərlə sizə (günahkarlarınıza görə) əzab vermək üçün bəhanə yeri qoymayıb (onlar «biz bilmirdik, bizə nə üçün əzab verirsən?»deyə bilməyəcəklər) və (bütün) dəlilləri sizə çatdıraraq tamamlayıb. Həmçinin əməllərdən hansını sevdiyini (yerinə yetirilməsini əmr etdiyini) və pis hesab etdiyini (yerinə yetirilməsini qadağan etdiyini Qur'ani-Kərimdə və Həzrət Peyğəmbərin sünnəsində) sizin üçün bəyan edib ki, Onun sevdiyinə tabe olub pis hesab etdiyindən uzaqlaşasınız. Çünki Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) buyurardı ki: «Cənnət çətinliklərə (narahatçılıq və əziyyətlərə dözmək, itaətdə səbrli olmaq və günahlardan çəkinməyə), od isə (nəfsi) istəklərə (və günah və itaətsizliklərə) bürünüb.» Bilin ki, Allahın itaəti olan şeylərin hər birinin yerinə yetirilməsi (insana) ağır gəlir və Allaha itaətsizlik olan hər bir şey meyl və istəyə müvafiqdir. (Çünki nəfsin şəhvət qüvvəsinə tabe olması ağıl qüvvəsinə tabeçiliyindən çoxdur.) Buna görə də Allah o şəxsi bağışlasın ki, şəhvəti özündən uzaqlaşdıraraq nəfsin istək və arzularına tabe olmur. Çünki nəfs, (şəhvətpərəstliyinin) cilovlanması ən çətin şeydir və o, həmişə istək və arzuları nəticəsində itaətsizliyə meyllidir. Ey Allahın bəndələri, bilin ki, mömin öz nəfsinə qarşı bədbin olmayınca, ona həmişə nöqsan tutmayınca və ondan yerinə yetirdiyindən (ibadət və bəndəlikdən) daha artıq tələb etməyincə gecəni səhər etməz və səhərini axşama çatdırmaz. (Odur ki, nəfs möminə hakim ola və onu aldada bilmir.) Belə isə (Allahın rəhmətinə qovuşmaqda) sizdən qabağa düşmüş və önünüzdən keçmiş o kəslər kimi olun ki, dünyadan çadırlarını köçən adamın öz çadırını sökməsi kimi sökdülər və onu (onun yaşayış müddətini) mənzillərin qət edilməsi kimi sona çatdırdılar (dünyaya və onun malına qətiyyən bağlılıqları olmadı). Bilin ki, bu Qur'an

(düz yola istiqamətləndirməsində) xəyanət etməyən öyüdverən, azdırmayan bələdçi və (söhbətində) yalan deməyən natiqdir. Bu Qur'anla oturan (onu oxuyaraq barəsində fikrə dalıb düşünən) elə bir kəs yoxdur ki, onun yanından duranda hidayət və qurtuluşu artmamış və ya korluq və azğınlığı azalmamış olsun. Heç kəs Qur'andan (onu öyrənəndən, mənalarında düşünəndən və hökmlərinə əməl edəndən) sonra (öz dünya və axirəti üçün bir şey öyrənməyə) möhtac olmaz. Və (həmçinin) heç kəs Qur'andan (onunla tanış olandan) qabaq (öz xeyir və ziyan yolunu müxtəlif elm və kitablar vasitəsi ilə tapacağını güman edib ondan) ehtiyacsız olmaz. Buna görə də (zahiri və batini, ruhi və cismani) xəstəlik və dərdlərinizin sağalmasını ondan istəyin və çətinliklərdə,bəlalara məruz qalanda ondan kömək diləyin. Çünki Qur'anda ən böyük xəstəlik olan küfr, nifaq (ikiüzlülük), həlakət və azğınlıq üçün şəfa və əlac mövcuddur. Odur ki, onun vasitəsi ilə (Qur'ana tabe olmaqla şəfanı) Allahdan istəyin və onu sevməklə (Qur'ana əməl etməklə) Allaha üz tutun. Onu (Allahın) bəndələrindən bir şey istəmək vasitəsi etməyin. Çünki bəndələr Qur'an kimi heç bir şeylə Allaha üz tutmayıblar. (Allahdan bir şey istəmək və Ona yaxınlaşmaq üçün Qur'anı ən yaxşı vasitə hesab ediblər.) Bilin ki, Qur'an (qiyamətdə) şəfaəti qəbul ediləcək şəfaətçi və sözü təsdiq ediləcək doğruçudur. Qur'an qiyamət günü kimə şəfaət etsə (kimin söz və əməlinin doğruluğuna şəhadət versə), onun həmin şəxs barəsindəki şəfaəti qəbul olunar. Həmçinin Qur'an qiyamət günü (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın hüzurunda) kimi çirkin və nalayiq bilsə (küfr, ikiüzlülük, pis davranış və şəhvətpərəstliyi barəsində şəhadət versə), sözü həmin şəxsin ziyanına təsdiqlənər. Çünki qiyamət günü bir carçı belə fəryad qoparar ki: «Bilin! Qur'an əkinçilərindən başqa hər bir əkinçi öz əməlinin və əkdiyi şeyin nəticəsinin əsiridir». Belə isə siz onun əkinçisi və arxasınca gedənlərdən olaraq onu Rəbbinizə tərəf bələdçi edin, ondan öyüd-nəsihət götürün, ona zidd düşüncələrinizi ittiham edin (söz və əməldə düşüncələrə etimad etməyin) və nəfsi istəklərinizi onun qarşısında xəyanətkar bilin (onu nəfsi istəklər əsasında yozub təfsir etməyin ki, əzaba düçar olarsınız). Yaxşı əməl, yaxşı əməl! (Allaha çox ibadət və bəndəlik edin və onun azı ilə kifayətlənməyin.) Sonra onu sona çatdırın, sona çatdırın! Möhkəm və mətin olun, möhkəm və mətin olun! (Din işində möhkəm və mətanətli olun və ayağınızı doğru yoldan kənara qoyub hara gəldi üz tutmayın. Günahlar qarşısında) səbrli olun, səbrli olun (və nəfsi istəklərə tabe olmaqdan çəkinin)! Çəkinin, çəkinin (Allahın çəkindirdiklərindən uzaq

olun)! Sizin üçün son və axır var, özünüzü ona (əbədi Cənnətə) çatdırın. Sizin üçün bayraq və əlamət (Həzrət Peyğəmbər və o Həzrətin haqq canişinləri) var. Buna görə də (gözəl son və nəticəyə çatmaq üçün) öz əlamətinizlə hidayət olunun və nicat tapın. İslamın fayda və mənfəəti (əbədi ağalıq və xoşbəxtliyi) var, onu əldə edin. Allaha üz tutun və sizə vacib etdiyi haqqını və (Qur'an və sünnədə) bəyan etdiyi hökmlərini yerinə yetirin. Mən qiyamət günü sizin üçün şahidlik edəcəyəm və (əzabdan qurtularaq nicat tapmağınız üçün) sizin tərəfinizdən dəlil-sübut gətirəcəyəm. Bilin! Bundan qabaq təqdir edilmiş şey (xəlifələrin xilafəti və onun o Həzrətə keçməsi) baş verdi. Həmçinin barəsində Allahın hökm və istəyi olan şey (fitnələr və qan tökülməsi bundan sonra) bir-birinin ardınca qarşıya çıxacaqdır. Mən (sizinlə) Allahın vədi və Onun dəlili (Qur'ani-Kərim) əsasında danışıram. Allah-təala (Fussilət surəsinin 30-cu ayəsində) buyurur: «إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا تَتَنَزَّلُ عَلَيْهِمُ الْمَلَائِكَةُ أَنْ لاَّ تَخَافُوا وَلَا تَحْزَنُوا وَأَبْشِرُوا بِالْجَنَّةِ الَّتِي كُنتُمْ تُوعَدُونَ»
«Rəbbimiz Allahdır-deyən (Onun Rəbb olmaqda təkliyini iqrar edən), sonra (həmin sözün üstündə) duran (Allahın əmrlərini yerinə yetirərək qadağan etdiklərindən uzaq olan) kəslərə (ölüm zamanı) mələklər nazil olacaq (və deyəcəklər) ki, (çətinliklərdən) qorxmayın və (əlinizdən çıxanlara) kədərlənməyin. (Dünyada) vəd olunduğunuz Cənnətlə gözünüz aydın olsun». Siz «Rəbbimiz Allahdır» demisiniz. Odur ki, (öz etirafınıza əsasən) Onun Kitabına, aydın yol olan hökm və göstərişinə və layiqli ibadət və bəndəlik yoluna əməl etməkdə sabitqədəm olun. Ondan xaric olmayın, onda bid'ət qoymayın və onunla müxalifət etməyin. Çünki ayaqlarını həmin yoldan kənara qoymuş kimsələr qiyamət günü Allahın rəhminə yol tapa bilməzlər. Buna görə də xasiyyətlərin dəyişməsindən və əvəz olunmasından çəkinin (doğruçuluq, yalançılıq, söz gəzdirmə və islahatçılıqda ikiüzlülükdən uzaq olun). Dilinizi bir edin (bir cür söz danışın). Kişi gərək öz dilini qorusun (yersiz danışmasın). Çünki dil, sahibinə qarşı itaətsizdir. (Əgər cilovunu buraxsa, onu təhlükəli yerə ataraq məhv edər.) Allaha and olsun ki, pərhizkar bəndə dilini (yalan, töhmət, qeybət, söyüş, dedi-qodu və bu kimi şeylərdən) saxlamayınca pərhizkarlığının ona bir xeyir verməsini görmürəm. (Pərhizkar əgər dilini saxlamasa, pərhizkarlığının heç bir xeyri olmaz. Çünki pərhizkar ancaq bütün günahlardan uzaq olub çəkinmək nəticəsində öz əməllərindən bəhrələnə bilər.) Doğrudan da möminin dili qəlbinin arxasındadır (sözü qəlbindən gəlir və etiqadına əsaslanır), münafiqin qəlbi isə dilinin arxasındadır (dediyinə etiqadı yoxdur). Çünki mömin bir söz demək

istəyəndə fikrə dalar və düşünər. Əgər yaxşı və məsləhət olsa, onu deyər, pis və nalayiq olsa isə, gizlədər (onu deməkdən çəkinər). Münafiq isə dilinə gələni deyər və hansı sözün ona xeyirli və hansının ziyanlı olmasını bilməz. Həmçinin Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) buyurub: «Bəndənin qəlbi möhkəmlənməyincə imanı möhkəmlənməz. Onun qəlbi isə dili möhkəm olmayınca möhkəmlənməz». (Çünki dil qəlbin dilmancıdır və onun möhkəmlik və səbatı dildən asılıdır.) Buna görə də sizlərdən əli müsəlmanların qan və malından pak, dili isə onların abırlarını tökmək və şərəflərinə hörmətsizlikdən uzaq halda, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahla görüşməyə (Onun rəhminə layiq olmağa) qadir olan kəs gərək elə etsin. (İslamın şərtləri və imanın zərurətlərindən biri müsəlmanın digər bir müsəlmanın əlindən və dilindən əmin-amanlıqda olmasıdır.) Ey Allahın bəndələri! Bilin ki, mömin keçən il halal bildiyini bu il də halal bilir və keçən il haram hesab etdiyini bu il də haram hesab edir. İnsanların yaratdıqları (xəlifələrin əsasını qoyduqları) bid'ətlər (hökmlər) sizə haram olan şeyi halal etmir, bəlkə halal yalnız Allahın halal buyurduğu və haram ancaq Allahın haram etdiyidir. Təcrübə və sınaq ilə işləri möhkəmləndirmisiniz (fikrinizi işə salmısınız və nəticədə sizin üçün yaxşı pisdən və haqq batildən ayrılıb). Özünüzdən qabaqkılarla öyüd-nəsihət verilmisiniz (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Qur'ani-Kərimdə yaxşı əməl sahiblərinin xoşbəxt, pis əməl sahiblərinin isə əzaba düçar olacaqlarını buyurub). Sizə misallar çəkilib (Qur'ani-Kərimdə haqqın batildən seçilməsi üçün misallar çəkilib). (Düzlüyü hamıya bəlli olan) aydın işə (İslam dininə) tərəf dəvət olunmusunuz. Buna görə də (qəlbinin qulağı) kar olandan başqa heç kəs ona (münasibətdə) kar qalmaz (qulaqlarını tutmaz) və (qəlbinin gözü) kor olan kəsdən başqa heç kəs ona (münasibətdə) kor qalmaz (gözlərini yummaz). Allahın çətinliklərə düçar etmək və işlərdə sınamaq ilə fayda çatdıra bilmədiyi kəs moizə və öyüddən bəhrələnməz (çünki bəlanın və hiss olunan işlərdə edilən sınağın təsiri öyüd-nəsihətin təsirindən daha çoxdur). Ona qarşısından (bir-birinin ardınca) nöqsan və ziyan dəyər və nəticədə (nadanlıq və azğınlığının artması nəticəsində) nalayiq və çirkini yaxşı, bəyənilən və yaxşını isə çirkin bilər. İnsanlar iki dəstədirlər: (Birincisi) şəriətə tabe olan (söz və əməli Qur'an və sünnə əsasında olan) kəs və (ikincisi) bid'ət yaradan ki, (pis işlərə əmr edən nəfsə və şeytana tabe olar və) əlində nə Allahdan aşkar bir dəlil olar, nə sünnədən (Həzrət Peyğəmbərin sünnəsindən) və nə də Qur'ani-Kərimdən. Eyb və

nöqsan sifətlərdən pak və uzaq olan Allah (keçmiş peyğəmbərlərin davamçılarından) heç kəsə bu Qur'an kimi (onda olan öyüdlər kimi) öyüd verməyib. O, Allahın (heç vaxt qırılmayan) möhkəm ipidir (və hər kim ondan yapışsa, dünyanın bədbəxtliyindən və axirət əzabından qurtular). O, Allahın (qədəm basana) xəyanət etməyən yoludur. Qəlbin baharı və elm və bilik çeşmələri ondadır. (Çünki ayələri oxumaq və onların mənalarında fikirləşərək düşünmək müxtəlif elm və mərifət çiçəklərini bitirir. Həmçinin onun ayələrinin hər biri elm və hikmət mənbəyidir ki, ruhların həyatı onlara bağlıdır.) Qəlbin ondan başqa cilası yoxdur. (Qur'anı) yada salanların (və ona əməl edənlərin) getmələrinə və unutqanların və ya özlərini unutqanlığa vuranların qalmalarına baxmayaraq, (öyüdün sizə heç bir təsiri olmasa da hər halda mən deyirəm): Xeyir və yaxşılıq görəndə ona kömək edin (onu yerinə yetirin), şər və pislik görəndə isə ondan keçin (uzaqlaşın. Yəni, İmam əleyhis-salamın əmr və qadağalarına tabe olaraq onun müxaliflərindən və bey'ətlərini pozanlardan üz döndərin). Çünki Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) buyurardı: «Ey Adəm övladı! Yaxşılıq et və pisliyi burax (tərk et). Belə edəndən sonra sən xoşrəftarlı və orta yol ilə gedənsən (haqq yolun ortasına qədəm qoymusan və heç vaxt azmazsan). Bilin ki, zülm üç qisimdir: Bağışlanmayan zülm, məsuliyyətə alınacaq zülm və məsuliyyətə alınmadan bağışlanmış zülm. Bağışlanmayan zülmə gəldikdə, o, Allaha şərik qoşmaqdır. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Nisa surəsinin 48-ci ayəsində) buyurur: «إِنَّ اللهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ» «Allah Ona şərik qoşanları bağışlamır». Bağışlanan zülmə gəldikdə, o, bəndənin bəzi kiçik günahlar etməklə özünə olan zülmüdür. Məsuliyyətə alınan zülm isə bəndənin digər bəndəyə olan zülmüdür. Axirətdə olan qisas və əvəzçıxma çətin və ağırdır. Orada qisas bıçaq yarası və qamçı vurmaqla deyil, yara və qamçı onun yanında kiçik sayılan bir qisasdır. Odur ki, Allahın dinində ikirəngli və ikiüzlü olmaqdan çəkinin. Çünki meyl və rəğbətiniz olmayan haqq barəsində bir yerə toplaşmaq (əl-ələ verərək bir olmaq) sevdiyiniz batilə görə parçalanmaqdan daha yaxşıdır. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah təfriqə və parçalanmaya görə keçmişlərdən və qalanlardan heç kəsə xeyir əta etməyib. Camaat! Xoş o adamın halına ki, öz nöqsan və eybləri onu xalqın nöqsanlarından saxlayır. Həmçinin xoş o adamın halına ki, evində oturar (fitnə-fəsad yaratmaz, əmr be mə'ruf və nəhy əz münkər etmək, eləcə də pozğunluqların qarşısını almağa hazır olar), öz ruzisini yeyər (başqalarının malında gözü olmaz), Rəbbinə itaətlə məşğul olaraq öz

günahına ağlayar (tövbə edərək qayıdar) və nəticədə başı öz işlərinə qarışar və xalq ondan (onun əlindən) rahat olar.

İmam Əli əleyhis-salamın Əbu Musa Əş'əri və Əmr ibn As barəsində (Nəhrəvan Xəvarici ilə) olan kəlamlarındandır. (Nəhrəvan Xəvarici İmam əleyhis-salama qarşı üsyankarlıq edib «nə üçün Allahın dini barəsində insanları hakim etdin və indi ki sənin əleyhinə hökm çıxarıblar, onların hökmlərini qəbul etmirsən?» deyib etiraz etdikdən sonra, o Həzrət onların cavabında buyurdu:) Sizin böyüklərinizin nəzəri iki kişini (Əbu Musa Əş'əri və Əmr ibnAsı) seçmək oldu (ki, onlar haqq ilə batil arasında hökm çıxarsınlar) və biz onlardan Qur'an əsasında davranaraq ondan kənara çıxmamaları, dillərinin onunla olması və qəlblərinin ona tabe olması əhdini aldıq. (Onlarla əhd bağladıq ki, zahirdə özlərini Qur'ana tabe kimi göstərərək batində öz fikirləri əsasında davranıb hökm çıxarmasınlar.) Amma onların hər ikisi yollarını azıb Qur'andan əl çəkərək haqqı tərk etdilər, halbuki onu görürdülər (bilirdilər ki, xilafətə məndən başqa heç kəsin ləyaqəti yoxdur). Meyl və istəkləri zülm və zülmkarlıq, adət və yolları əyrilik və yanlışlıq (azğınlığa qədəm basmaq) idi (və buna görə də haqqı bilə-bilə ona zidd hökm çıxardılar). Düzgün və haqq hökm çıxarmaq və Qur'ana əməl etmək barəsində bizim onlarla olan şərtimiz onların zülm və haqsızlığa əsaslanan düşüncə və hökmlərindən qabaqdır. Onlar haqq yoldan çıxıb şərtimizə zidd olaraq batil və nahaqqın xeyrinə hökm çıxaran zamandan bizim əlimizdə dəlil var.

İmam Əli əleyhis-salamın (xilafətinin əvvəlində eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın sifətləri, Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) mədhi barəsindəki və eşidənlərə öyüd-nəsihət verdiyi) xütbələrindəndir. Allah-təalanı bir iş digər bir işdən saxlamır. Zaman onu dəyişdirmir. (Çünki O, zamanın yaradanıdır, zamanı əhatə edib və vacibəl-vücud varlıqdır. Dəyişmək isə vücudu mümkün olan varlığın xüsusiyyətlərindəndir.) Heç bir yer və məkan Onu əhatə etməz. (Çünki haradasa yerləşmək və qərar tutmaq cisim və maddi varlıq olmağı tələb edir. O isə cisim deyil.) Heç bir dil Onu (Onun zatının mahiyyət və həqiqətini) vəsf edə bilməz. Su damcılarının sayı, göyün ulduzları, küləyin havaya səpələdiyi şey, qarışqanın sərt daşlar üzərində hərəkəti və zülmət və qaranlıq gecədə kiçik qarışqaların yataqları Ona gizli deyil. Yarpaqların düşdükləri yeri və gözaltı baxışları bilir. Bənzəri olmamış, varlığında şəkk-şübhə olmayan və din və yaratması inkaredilməz olan Allahdan başqa bir mə'budun (ibadət olunanın) olmamasına şəhadət verirəm, niyyəti düz (səmimi qəlbdən), batini (riyakarlıq və özünü göstərməkdən) saf, yəqin və inamı (şəkk və tərəddüddən) pak və tərəziləri ağır (gözəl əməlləri çox) olan şəxsin şəhadəti kimi! Həmçinin şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi və elçisidir ki, Onun yaratdıqları arasından seçilib, hökmlərinin bəyan edilməsi üçün bəyənilib, qiymətli lütflərinə məxsus edilib və gözəl xəbər və tapşırıqlarının çatdırılması üçün seçilib. Onun vasitəsi ilə hidayət və nicat nişanələri aşkar olub və korluq və azğınlıq zülmətləri işıqlanıb. Camaat! Dünya onu istəyəni və ona arxalananı aldadır, onun vurğunu olan (və onu özü üçün istəyən) kimsəyə simiclik etmir (çirkinliklərə düçar edir) və ona qalib gələnə (malını əldə edənə) qələbə çalacaqdır (məhv edəcəkdir). And olsun Allaha ki, heç vaxt nemət bolluğu və həyatın şadlığında olan heç bir tayfanın firavanlıq və şadlığı etdikləri günahlardan başqa bir şey səbəbindən zavala uğramayıb. Çünki (əgər onlar nemət nankorluğu və günah etməklə yenə nemətə layiq olsaydılar, nemətin onlardan əsirgənməsi birindən layiq olduğu şeyi əsirgəmək olardı ki, bu da zülmdür. Allahın zülm etməsi isə qeyri-mümkündür, necə ki, Ənfal surəsinin 51-ci ayəsində buyurulur:) «أَنَّ اللهَ لَيْسَ

بِظَلَّٰمٍ لِّلۡعَبِيدِ» «Allah bəndələrə əsla zülm edən deyildir». Əgər insanlar çətinliklər onlara üz tutanda və nemətlər onlardan alınanda düzgün niyyət və vurğun qəlblərlə Rəbblərinə pənah aparsalar, O, əldən çıxanı onlara qaytarar və hər bir fəsadı onlar üçün islah edər, düzəldər. Mən sizin (xilafəti qəsb edərək Həzrət Peyğəmbərin vəsiyyətinə uyğun davranmayan kəslərə tabe olmaq kimi nalayiq əməlləriniz nəticəsində cahiliyyət dövrünün insanları kimi) durğunluq və boşluğa düçar olmağınızdan (Peyğəmbərin dinindən uzaqlaşaraq zaman keçdikcə dindən əl götürüb nadanlıq və azğınlıq nəticəsində puç və yanlış düşüncələrə tabe olmağınızdan) qorxuram. Bir sıra işlər olub keçdi (xəlifələr haqları olmadan iş üstünə gəldilər) ki, siz onlara meyl göstərərək haqdan əl götürdünüz və mənim yanımda bəyənilməyən və xoşagəlməz insanlar idiniz. Əgər (Allahın Peyğəmbərinin - səlləllahu əleyhi və alih - zamanında) malik olduğunuz üsul və qayda (çirkinliklərdən sonra) sizə qayıtsa, xoşbəxtlərdən olacaqsınız. Mənim vəzifəm ancaq (işlərin düzəlməsi və öyüd-nəsihət vermək istiqamətində) səy və təlaş göstərməkdir. Əgər (sizin üç xəlifənin zamanındakı çirkin söz və əməllərinizi) demək istəsəydim, deyərdim. (Lakin onları əfv etmək və onlara göz yummaq məsləhətdir.) Allah olub keçənləri əfv etsin, bağışlasın.

İmam Əli əleyhis-salamın Zi'ləb Yəməni ondan «ey Əmirəl-möminin, Rəbbini görmüsən?» soruşan zaman buyurduğu kəlamlarındandır. İmam əleyhis-salam buyurdu: Məgər görmədiyim şeyə ibadət edərəm?! (Halbuki ibadət məbudla danışmağı, eləcə də rəhmət, bağışlanma və təvazökarlıq istənilməsini tələb edir. Və bu cür işlər ibadət olunanın hüzurunda olmağı və onu görməyi tələb edir.) Buna görə də (sual verən şəxs elə zənn etdi ki, Rəbbi görməkdən məqsəd Onu göz ilə görməkdir. Odur ki) dedi: Onu necə görürsən? (Halbuki Onu görmək qeyri-mümkündür.) İmam əleyhis-salam buyurdu: Gözlər Onu aşkar dərk etməzlər, lakin qəlblər imanın həqiqətləri vasitəsi ilə (Onun vücudunu, təkliyini, hər şeyin sahib və idarə edəni olmasını və digər sifətlərini təsdiqləməklə) Onu dərk edərlər. Hər şeyə yaxındır (əhatə edib), amma yapışmayıb. Hər şeydən uzaqdır, amma ayrı deyil. (Çünki yapışmaqla olan yaxınlıq və ayrılıqla olan uzaqlıq cismin xüsusiyyətlərindəndir.) Danışır (söz yaradır, amma) təfəkkür və düşüncəsiz. (Çünki düşünmək nadanlığın, naçarlığın nəticələrindəndir və Allah ondan pak və uzaqdır.) İstəyəndir (yaradandır, amma) qərara gəlmədən və hazırlaşmadan. Yaradandır (amma əl, ayaq və bu kimi), hər hansı bir üzvün rolu (köməyi) olmadan. (Çünki köməyə, möhtac varlığın ehtiyacı olur. O isə zatı zəngin və mütləq ehtiyacsızdır. Zahir və aşkar olmasının çoxluğu səbəbindən) gizliliklə vəsf edilməyən lətifdir. (Çünki bir şey Onu əhatə etməyib. Öz əli altında olanlara zülm edən zalımlar kimi) zülmkarlıqla vəsf edilməyən böyükdür. (Çünki mütləq ədalətlidir.) Elə bir görəndir ki, (hiss orqanlarından) heç bir hissə malik olmaqla vəsf edilməz. (Çünki hisslər mümkün varlığın sifətlərindəndir.) Mehribandır, (amma) ürəyiyananlıq və acıma ilə yox (fəzl və lütfü ilə)! Yaranmışlar Onun əzəmət və böyüklüyü qarşısında xar və təvazökardırlar (çünki onların hamısı Onun istək və iradəsi müqabilində ramdırlar) və qəlblər (Onun izzət və əzəməti qarşısında) Onun (əzabının) qorxusundan iztirablı və nigarandırlar.

←178-ci xütbə

Nəhcül-bəlağə. 179-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

180-ci xütbə→

İmam Əli əleyhis-salamın öz səhabələrinin məzəmməti barəsindəki xütbələrindəndir. Vacib etdiyi işə, təqdir etdiyi əmələ və məni sizinlə (sizin nifaq və ikiüzlülüyünüzlə) sınadığına görə Allaha şükr edirəm, ey o dəstə ki, nə vaxt əmr etdimsə tabe olmadınız və çağırışımı qəbul etmədiniz. Əgər (düşmənlə müharibədə) sizə möhlət verilsə, boş sözlər danışmağa başlayırsınız (boşboğazlıq edib mənasız sözlər danışırsınız), əgər qarşıya döyüş çıxsa, zəiflik və süstlük göstərirsiniz (qorxudan gizlənirsiniz). (Həmçinin) İmamın yanında toplaşan insanlara (İmam əleyhis-salama tabe olanlara) tənə vuraraq onları məzəmmət edirsiniz. Əgər naçar şəkildə çətinliyə (müharibəyə) düçar olsanız, geriyə dönər, dal-dala qayıdarsınız. (Sizin sabitqədəm insanlar olmadığınıza və heç cür yola gəlməməyinizə baxmayaraq, mən lütf etmək və rəiyyətsevərlik səbəbindən deyirəm: Siz yox,) düşməniniz atasız (tərbiyəçisiz) qalsın! Kömək etmək (onu gecikdirmək) və haqqınız (onu almaq) üçün çalışaraq səy göstərmək barəsində (bunların heç biri istiqamətində addım atmamaqla) nəyi gözləyirsiniz? Ya ölümü, ya da xarlığı seçməlisiniz. (Bunlardan biri sizi tapmalıdır. Ya döyüş meydanında ölmək, ya da düşmən tərəfindən xar edilərək alçaldılmaq ki, ikincisi ölməkdən daha çətin və ağırdır.) Allaha and olsun, əgər əcəlim çatsa, əlbəttə, çatacaq da mənimlə sizin aranızda elə bir halda ayrılıq salacaq ki, sizinlə bir yerdə olmaqdan bezmişəm və tək qalmışam (sizin münafiqlik, ikiüzlülük və çirkin əməllərinizin nəticəsində dünyadan heç bir köməkçisi olmayan kimi gedəcəyəm). Əməllərinizin əvəzini Allah verəcək! Sizi (bir-birinizə kömək etmək üçün) bir yerə toplayacaq bir din və sizi (düşmənin qarşısını almağa) hazır edən bir qeyrət yoxdur? Məgər təəccüblü deyil ki, Müaviyə heç bir kömək etmədən və bəxşiş vermədən (ixtiyarlarında döyüş sursatı qoymadan və pul vermədən) alçaq və nanəcib zalımları çağırır və onlar ona tabe olurlar, amma mən İslam ümmətinin yadigarı və müsəlman xalqın yerdə qalanı olan sizləri, kömək etmək və hər birinizin payı miqdarında bəxşiş verməklə çağırıram, siz isə mənim ətrafımdan dağılışaraq müxalifət edirsiniz?! Mənim əmr və fərmanımdan razı deyilsiniz və ondan şad olmursunuz və nə də qəzəb və

inciklik ətrafında toplaşırsınız. Mənim üçün mənimlə görüşməsini istədiyim ən sevimli şey ölümdür (ki, onunla sizin əlinizdən qurtulum. Çünki sizin qəm-qüssənizdən ölümdən başqa bir şeylə qurtulmaq mümkün deyil). Həqiqətən sizə Qur'anı (onun maarif və həqiqətlərini) öyrətdim, sizin aranızda dəlil-sübutla hökm çıxardım, sizi tanımadığınız şeylə tanış etdim və ağızlarınızdan çıxarıb atdığınız şeyi sizin üçün dadlı-tamlı etdim (nadanlıq üzündən pis sandığınız şeylərin yaxşılıqlarını sizə aşkar etdim). Kaş ki, kor görəydi və ya yatan oyanaydı! Başçıları Müaviyə və müəllimləri zinakar arvadın oğlu (Əmr ibn As) olan dəstə Allaha (Onun hökmlərinə) nadan olmağa nə qədər də çox yaxındır!

İmam Əli əleyhis-salamın kəlamlarındandır. O, səhabələrindən birini (Abdullah ibn Quəyni) göndərdi ki, (Siffeyn müharibəsində) Kufə qoşunundan olan və (Şam əhli ilə müharibədən sonra) Nəhrəvan Xəvaricinə birləşmək istəyən, amma o Həzrət əleyhis-salamdan qorxan dəstədən (Bəni Naciyənin başçısı Xirrit ibn Raşid və onun ətrafındakılardan) bir xəbər gətirsin. Həmin şəxs qayıdanda o Həzrət soruşdu: Onlar qorxmayıb öz yerlərində qalıblar, yoxsa qorxub köçüblər? Həmin şəxs dedi: Ya Əmirəl-möminin, köçüblər. İmam əleyhis-salam buyurdu: Onları görüm (Allahın rəhmindən) uzaq düşsünlər, necə ki, Səmud tayfası (itaətsizlik edərək Salehin dəvəsinin ayaqlarını kəsdi və bununla da Allahın rəhmətindən) uzaq düşdü (və məhv oldu)! Bil ki, nizələr onlara tərəf uzananda və qılınclar təpələrinə enəndə etdikləri işdən peşman olacaqlar. Bu gün şeytan onları (bizdən) ayırıb parçalamaq (və öz davamçısı etmək) istəyib. Sabah (qiyamətdə isə) onlarla əlaqəli olmasını inkar edərək onlardan uzaqlaşacaq. Buna görə də onlara (onların əzaba layiq olmaları üçün) hidayət və nicatdan (hidayət yolundan) xaric olmaları, azğınlıq və korluğa (azğınlıq və korluq dərəsinə) düşmələri, haqdan (ona tabe olmaqdan) üz döndərmələri və azğınlıqda (azğınlıq yolunda) tüğyan və itaətsizlik etmələri kifayətdir.

İmam Əli əleyhis-salamın Nauf (ibn Fuzalə) Bikalidən nəql edilmiş xütbələrindəndir. (Nauf) deyir: Əmirəl-möminin əleyhis-salam bu xütbəni bizə Kufədə (o Həzrətin bacısı Umm Haninin oğlu) Cə'də ibn Hübəyrə Məxzuminin dikəltdiyi daşın üzərində dayanaraq oxuyub. O Həzrətin əynində uzun yun paltar var idi. Qılıncının qayışı və ayaqqabısı xurma ağacının yarpaqlarından idi (toxunmuşdu). Onun alnı (səcdənin çoxluğundan) dəvənin dizlərinin qabarı kimi idi. Beləliklə, (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın mədh və tərifi və qüdrət və gücü, təqva və pərhizkarlığa həvəsləndirmək və dünyaya ürək bağlamamaq barəsində) buyurdu: Şükr o Allaha layiqdir ki, bütün yaradılmışların və işlərinin sonunun (yaradılmışların işlərinin sonunun) qayıdışı Ona tərəfdir. Lütfünün böyüklüyü, (təkliyinə olan) dəlilinin aşkarlığı, bəxşişinin çoxluğu və (İslam dini ilə boyunlara qoyduğu) haqqa görə Ona şükr edirik. Elə bir şükr ki, Onun haqqını əda edərək şükrünü yerinə yetirsin və Onun mükafatına yaxınlaşdıraraq bəxşişinin artmasına səbəb olsun. Onun fəzl və bəxşişinə ümidvar olan, xeyir verməsini arzulayan, (çətinlikləri) dəf etməsinə arxalanan, lütf və kərəmini etiraf edən və söz və əməli ilə Ona tabe olan şəxsin istəməsi kimi Ondan kömək diləyirəm. Yəqin və inamla Ona (Onun fəzl və kərəminə) ümidvar olan, kamil imanla Ona (Onun Allahlığına) üz tutan, itaətkarlıqla Ona qarşı təvazökar olan, təkliyinə etiqad bəsləməklə Ona qarşı tam sədaqətli və səmimi olan, şükr etməklə Onu böyük bilən və (Ondan başqa bir sığınacaq və pənah yeri tanımadığı üçün çətinliklərdə) rəğbət və səylə Ona pənah aparan şəxsin iman gətirməsi kimi Ona iman gətiririk. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah doğulmayıb (atadan yaranmayıb) ki, Onunla izzət və əzəmətində şərik olsun. (Çünki ata övladın cinsindəndir və izzət və böyüklükləri bir-birinə şamil olur.) Doğmayıb (dünyaya uşaq gətirməyib) ki, aradan gedərək Özündən sonra miras qoysun. Vaxt və zaman Onu ötməyib. (Çünki O, vaxt və zamanın yaradanıdır.) Artmaq və azalmaq bir-birinin ardınca Onu əhatə etməyib. Bəlkə (göyün, yerin və digər varlıqların yaradılışında) bizə göstərdiyi gözəl nizam və möhkəm qanunlarla (vücudunun varlığı) ağıllara aşkar olub. Odur ki, Onun

yaratmasının dəlil və şahidlərindən biri sütunsuz sabit və bərqərar qalmış və direksiz dikəldilmiş göylərin yaradılışıdır. Allah onları çağırdı (yaratmaq istədi). Onlar da itaət və tabeçiliklə dayanıb durmadan və duruxmadan (Onun çağırışını) qəbul etdilər (var oldular). Əgər onlar (vəziyyətləri ilə) rübubiyyəti təsdiq və qəbul, itaət və bəndəliyi iqrar etməsəydilər, onları Öz ərşinin yeri, (yaxın) mələklərin məkanı və bəndələrinin gözəl söz və əməllərinin qaldırıldığı yer etməzdi. Onların ulduzlarını nişanələr edib ki, çaş-baş qalmış şəxs yer üzünün geniş yolları ilə get-gəl edəndə onlarla yol axtarsın. Gecənin pərdəsinin çox qaranlığı onların nurunun işığını örtməyib və qaranlıq gecələrin zülmət pərdələri, göydə görünən ayın nurunun işıltısını aradan qaldırmağa qadir deyil. Buna görə də pak və qüsursuzdur o Allah ki, nə zülmət gecənin qaranlığı, nə də gecənin, dərin yerlərin künclərində və bir-birinə yaxın tutqun rəngli dağların qüllələrində rahatlıq tapanları Ona gizli deyil. Üfüqdə və göyün bir tərəfində göy gurultusundan gələn səs, buludun səpələnərək yox olan (gözlərə görünməyən) ildırımları, qopması ulduzların düşməsinə nisbət verilən küləklərin və yağışın yağmasının öz yerindən uzaqlaşdırdığı (yerə) tökülən yarpaqlar Ona gizli deyil. Yağışın hər bir damcısının hara düşüb harada qərar tutacağını, kiçik qarışqanın (öz yükünü) haradan çəkib hara apardığını, ağcaqanadın ruzisi üçün nəyin kifayət etməsini və dişinin (döllü olarkən) qarnındakının nə (erkək, yoxsa dişi) olmasını bilir. Şükr o Allaha layiqdir ki, kürsü, ərş, göy, yer, cin və insan mövcud olmamışdan olub. (Çünki yaradanın yaradılmışdan qabaq mövcud olmasının zəruriliyi tam aydın məsələlərdəndir.) Düşüncə ilə dərk edilmir və zəka ilə müəyyənləşmir. Heç bir istəyən Onu yayındırmır. (Çünki Onun zatı elminin özüdür və Onun elminə qəflət yol tapa bilməz.) Əta və bəxşiş etmək Onu (Onun nemət xəzinəsini) azaltmır. (Çünki istəyən an istədiyini yaradır.) Göz ilə görünmür. Haradasa olmasını demək olmaz. Bənzəri olmaqla vəsf edilməz. (Əl və ayaq kimi) bir üzvün köməyi ilə yaratmır. Hisslərlə dərk edilmir. (Cisim olmadığı üçün cismin xüsusiyyətlərindən olan bu sifətlərlə vəsf edilmir.) İnsanlarla müqayisə edilməz (onlara oxşadılmaz. Çünki Onun oxşarı yoxdur). O Allah ki, Musa ilə (yaratdığı) bir sözlə danışdı və ona üzv və alətlərsiz, danışıqsız və (boğazda yerləşən və vasitəsi ilə səs çıxan) dilçəklərsiz Öz nişanələrindən böyük bir şey göstərdi (ki, o söz idi). Ey Rəbbini vəsf etmək üçün özünü zəhmətə salan kəs! Əgər düz deyirsənsə, pak hücrələrdə məskunlaşmış (və Allahın əzəmət və böyüklüyündən) başlarını aşağı salan və ağılları yaradanların ən yaxşısını vəsf etməkdə çaş-baş və aciz

qalan Cəbraili, Mikaili və Allahın dərgahına yaxın olan mələklər qoşununu vəsf et. (Əgər onlar Onun zatının həqiqətini dərk edə bilmirlərsə, sən zəif bəndə onlardan qabaq Onun həqiqətini dərk etməkdə aciz və zəifsən.) Sifətlərlə o kəslər dərk edilirlər ki, şəkil və alətləri var və o kəs ki, ömrü sonu yoxluğa doğru çəkiləndə başa çatır. Buna görə də Ondan başqa bir tanrı yoxdur. (Çünki əgər olsaydı, əlbəttə ki, dərk edilərdi.) O, hər bir qaranlığı Öz nuru ilə işıqlandırıb və hər bir nuru Öz qaranlıqlaşdırması ilə zülmətə bürüyüb (hidayətin işıqlılığı Onun lütfünün, azğınlığın qaranlığı isə Onun qəzəbinin nəticəsidir). Ey Allahın bəndələri! Sizə pərhizkar olmağı və (isti və soyuqdan qorunmağınız üçün) sizə gözəl paltarlar geyindirmiş və sizin üçün yaşayış vasitələrini hazırlamış Allahdan qorxmağı tövsiyə edirəm. (Sizin üçün belə bir şərait yaratdığı halda nə üçün günah və itaətsizliklə Onun nemət və bəxşişlərinə nankorluq edirsiniz? Nə üçün Ondan uzaqlaşaraq dünyaya ürək bağlamısınız, halbuki) əgər kimsə dünyada qalmaq üçün bir vasitə əldə edə bilsəydi və ya ölümü dəf etməyə bir yol tapsaydı, o, Davud əleyhis-salamın oğlu Süleyman olardı ki, peyğəmbərlik vəzifəsindən və böyük məqam və dərəcəyə malik olmaqdan əlavə cin və insanlara hakim və padşah idi. (O, dünya və axirətə aid bütün vasitələrə malik olmaqla dünyada qalmağa hamıdan çox layiq idi. Amma) elə ki özünün təqdir edilmiş rüzisini istifadə etdi və həyat müddətini sona çatdırdı, yoxluq yayları ölüm oxları ilə onu diz çökdürdü (və o, dünya ilə vidalaşdı). Şəhərlər onsuz və evlər boş qaldı və başqaları onları irs apardılar. Sizin üçün keçən dövrlərdə ibrət vardır (ki, keçmişlərin bu dünyadan necə üzülüşmələrinə nəzər salasınız). Haradadır Əmaliqə və onların övladları? Haradadır (Misir şahları olmuş) Fironlar və (onların heç bir nişanələri qalmamış) övladları? Haradadır peyğəmbərləri öldürən, Allahın elçilərinin hökmlərini söndürən (məhv edən) və zalımların ən'ənələrini dirildən (həmin əsasda davranan) Rəss şəhərlərinin əhalisi? Haradadır o kəslər ki, qoşunlarla hər tərəfə gedərək minlərlə nəfəri məğlub edirdilər və ordu toplayaraq şəhərlər tikirdilər?!

Bu da həmin xütbənin (zühuru gözlənilən İmam -əccələllahu təala fərəcəh - barəsindəki) bir hissəsidir

(İmami-Zaman əleyhis-salam) hikmət (şeylərin həqiqətləri barəsindəki elm, zahidlik və ibadət) qalxanını geyinib və onu ona üz tutmaq, tanımaq və özünü (dünyaya bağlılıqdan) azad etmək kimi şərtləri ilə mənimsəyib. Hikmət o

Həzrətin axtardığı itik və istədiyi arzudur. O Həzrət (fitnə-fəsad çoxalaraq) İslam qərib (zəif) düşəndə və (dəvə əzab-əziyyət görən zaman etdiyi kimi) öz quyruğunu tərpədərək boğazının qabağını yerə qoyanda gözlərdən uzaqlaşaraq bir guşəyə çəkilər. O Həzrət Allahın dəlilinin qalanlarının (hidayət və nicat İmamları əleyhimus-salamın) yerdə qalanı və peyğəmbərlərin canişinlərinin canişinidir. («اللّهُمَّ أَظْهِرْ بِهِ الْعَدْلَ وَ أَيِّدْهُ بِالنَّصْرِ وَانْصُرْ ناصِرِيهِ وَ اخْذُلْ خاذِلِيهِ وَ اقْصِمْ قاصِمِيهِ وَ اقْصِمْ بِهِ جَبابِرَةَ الكُفْرِ وَ اقْتُلْ بِهِ الكُفّارَ وَالْمُنافِقِينَ وَ جَمِيعَ الْمُلْحِدِينَ امِينَ يا أَرْحَمَ الرّاحِمينَ» «Allahım! Onun vasitəsi ilə ədaləti bərqərar et. Onu Öz köməyinlə gücləndir. Ona kömək edənə kömək et və onu köməksiz qoyanı köməksiz qoy. Onu sındıranları sındır. Onun vasitəsi ilə küfr zülmkarlarını məhv et. Onun əli ilə kafirləri, münafiqləri və bütün dinsizləri öldür. Amin, ey rəhimlilərin ən rəhimlisi!»)

İmam əleyhis-salam sonra buyurdu: Camaat! Mən sizə peyğəmbərlərin öz ümmətlərinə verdikləri öyüdləri verdim. Vəsi və canişinlərin peyğəmbərlərdən sonrakılarla davranışda etdiklərini (mülayimlik və mehribanlığı) sizinlə etdim. Sizi öz (öyüd-nəsihət) qamçımla ədəbləndirdim, düz yola gəlmədiniz. Sizi qorxutmaq vasitəsi ilə (haqq yola) sövq etdim, toplaşmadınız (mənə tabe olmadınız)!! Əcriniz Allah yanında! Gözləyirsiniz ki, məndən başqa bir İmam gəlib sizi yola gətirərək doğru yol göstərsin?! Bilin! Dünyanın üz tutanı arxa çevirdi və arxa çevirəni üz tutdu. (Haqq İmama tabe olmamaq nəticəsində dünyanın yaxşılığı arxa çevirdi və onun pisliyi, yəni, cahiliyyət dövrünün əməli meydana çıxdı.) Allahın yaxşı işlər görən bəndələri köç etmək (dünyadan getmək) qərarına gəldilər və dünyanın davamlı olmayan azını axirətin fani olmayan çoxuna satdılar (dəyişdilər və onun qəm-qüssəsindən nicat tapdılar. Deyəsən İmam əleyhis-salamın bu cümlədən məqsədi özünün şəhid edilməsindən xəbər verməkdir). Qanları Siffeyn müharibəsində tökülən qardaşlarımız (dindaşlarımız) bu gün diri olmayıb qəm-qüssə çəkib bulanıq su içməməklə (bu dövrün çətinliklərini görməməklə) nə ziyan ediblər?! (Xülasə, dünyadan köçüb belə bir günü görməyənlərin xoş halına!) Allaha and olsun ki, onlar Allahı (Onun rəhmini) əldə etdilər. Allah da onların əməllərinin mükafatını verdi və (dünyada olan) qorxu və vahimədən sonra onları qorxusuz və rahat evdə yerləşdirdi. Haradadırlar mənim haqq yolu öz minikləri etmiş və (ömürlərini) düzlük və doğruluqla (sona çatdırıb) köçmüş qardaşlarım? Haradadır Əmmar (ibn

Yasir)? (O, doxsandan yuxarı yaş ilə Siffeyn müharibəsində şəhid edilib.) Haradadır (Əbulhəysəm Malik) ibn Təyhan? Haradadır Zuşşəhadəteyn? Haradadır onların qardaşlarının (dindaşlarının) onlar kimiləri (İbn Bədil, Haşim ibn Utbə və digərləri) ki, (hamısı Siffeyn müharibəsində şəhid oldular və) bir-birləri ilə ölüm (haqq yolda şəhid olmaq) barəsində əhd bağladılar və başları (öldürüldükdən sonra) günahkarlara (Müaviyə və tərəfdarlarına) göndərildi? Nauf deyir: İmam əleyhis-salam bu sözdən sonra əlini mübarək saqqalına vuraraq çox ağladı və buyurdu: Heyf və əfsus, o qardaşlarım (dindaşlarım) üçün ki, Qur'anı oxuyaraq onu möhkəm bildilər (möhtərəm saydılar), vacib olan şeydə düşünərək onu bərqərar etdilər (onun əsasında davrandılar), sünnəni dirildərək bid'əti məhv etdilər, cihada çağırılanda (onu) qəbul etdilər və başçıya inanaraq ona tabe oldular. Sonra uca səslə (belə) fəryad qopardı: Ey Allahın bəndələri, cihad, cihad! Bilin ki, mən elə bu gün qoşun hazırlayacağam. Kim Allaha tərəf getmək istəyirsə, gərək getsin. Nauf deyir: Bundan sonra Hüseyn əleyhis-salamı on min nəfərlik qoşuna, Qeys ibn Sə'di on min nəfərə, Əbu Əyyub Ənsarini on min nəfərə və onlardan başqalarını da başqa sayda qoşunlara əmir və başçı təyin etdi. Həzrət (Şam əhli ilə vuruşmaq üçün) Siffeynə qayıtmaq istəyirdi. Beləliklə, hələ cümə günü gəlib çatmamışdı ki, İbn Mülcəm məl'un (Allah ona lə'nət etsin) o Həzrəti zərbətlədi. Buna görə də qoşunlar geri qayıtdılar. Biz öz çobanını itirmiş və hər bir tərəfdən canavarların oğurladıqları qoyunlar kimi idik.

←181-ci xütbə

Nəhcül-bəlağə. 182-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

183-cü xütbə→

İmam Əli əleyhis-salamın (Allah-təalanın həmd və şükrü barəsindəki) xütbələrindəndir. Şükr o Allaha layiqdir ki, (göz ilə nişanə və əlamətləri) görünmədən tanınıb və əziyyət çəkmədən (və alət və vasitələrsiz yaranmışların) yaradan(ı)dır. Varlıqları güc və qüdrəti ilə yaradıb və böyüklük və üstünlüyü ilə itaətsizlik və ağalıq edənlərdən itaət və bəndəlik etmələrini tələb edib. (Çünki Onun qarşısında hər bir böyük kiçikdir. Buna görə də təvazökarlıq və itaətkarlığı əmr edib.) O, Öz bəxşişi ilə böyüklərin ağa və böyüyüdür. Yaratdıqlarını dünyada yerləşdirən və (hikmət və mərhəmətinə əsasən) peyğəmbərlərini (hidayət etmək üçün bir-birinin ardınca) cin və insanlara tərəf göndərən Allah Odur. (Peyğəmbərləri göndərdi) ki, onlar (insan və cinlər) üçün dünyanın (nadanlıq və azğınlıq) pərdəsini aradan qaldırsınlar, onları dünyanın pislik və çətinliklərindən qorxutsunlar (xəbərdar etsinlər), onlar üçün onun (dünyanın vəfasızlığı) barəsində məsəllər çəksinlər (hekayətləri açıqlasınlar ki, onlar dünyaya aldanıb vurulmaqdan nicat tapsınlar), onları onun (dünyanın) eyb və çatışmazlıqlarından xəbərdar etsinlər və onlar (günah və itaətsizliyin ziyanından) xəbərsiz və qafil olan zaman onların vasitəsi ilə ibrət götürəcəkləri (ayılaraq özlərinə gələcəkləri) sözü - sağlamlıq, rahatlıq, xəstəlik və çətinlik kimi halların dəyişəcəyini, onun halal və haramını (bu yollarla qazanılması), itaətkarlar üçün Cənnət və möhtərəmlik, günahkarlar üçün isə od və xarlıq hazırlanmasını xatırlatsınlar. Allaha üz tutub bəndələrinə əmr etdiyi şəkildə şükr edirəm. Hər bir şey üçün miqdar və ölçü, hər bir ölçü üçün müddət və hər bir müddət üçün yazı müəyyənləşdirib (ki, onda dəyişiklik ola bilməz).

Bu da həmin xütbənin Qur’anın vəsfi (və xalqa öyüd-nəsihət) barəsindəki bir hissəsidir

Qur’an (yaxşılıqlara) əmr edən (və pisliklərdən) çəkindirəndir (Allah onda insanları yaxşı işlərə əmr edərək pis işlərdən çəkindirib). (Zahirdə) dinməz

(əslində isə) natiqdir. (Çünki zahiri baxışda hərflərdən başqa bir şey deyil. Amma onda bütün ilahi əmr və qadağalar mövcuddur və o, onların hamısını bəyan edir.) Allahın bəndələrinə olan dəlil və sübutudur ki, onlardan onun barəsində (ona əməl etmək barəsində) söz alıb və onları onun girovunda qoyub. (Odur ki, ona tabe olmaqdan başqa bir yolla əzabdan nicat tapmaq mümkün deyil.) Onun nurunu kamilləşdirib (onda qiyamətə kimi olan səadət və xoşbəxtlik, eləcə də bədbəxtlik yolunu göstərib). Həmçinin Öz dinini (İslamı) onun vasitəsi ilə kamala çatdırıb. Öz Peyğəmbərinin (səlləllahu əleyhi və alih) canını o vaxt aldı ki, o, Qur'anın hidayət və qurtuluşa səbəb olan hökmlərinin xalqa təbliğ olunması və çatdırılmasını bitirmişdi. Buna görə də Allahın əzəmət və böyüklüyünü (O, Özü) Öz böyüklüyünü (Qur'ani-Kərimdə) zikr etdiyi kimi yad edin. Çünki O, Öz dininin (hökmlərinin) bir hökmünü (də) sizdən gizli saxlamayıb və bəyənilən və bəyənilməyən heç bir şeyi onun üçün (kitab və sünnədə) aşkar nişanə və bəlli əlamət qoymadan tərk etməyib ki, ondan (bəyənilməyəndən) saxlasın və digərinə (bəyənilənə) əmr etsin. Odur ki, Onun razılıq və istəyi, eləcə də qəzəb və qadağası, gələcəkdə (də keçmişdəki ilə) birdir. Bilin ki, Allah sizin üçün heç vaxt səbəbindən sizin keçmişlərinizə qəzəbləndiyi şeyə razılıq verməyəcəkdir. Həmçinin keçmişlərinizə razılıq verdiyi şeyə görə heç vaxt sizə qəzəblənməyəcəkdir. (Odur ki, İmam əleyhis-salam buyurur:) Aşkar yolda hərəkət etməkdən və özünüzdən qabaqkı kişilərin sözlərini təkrar etməklə danışmaqdan başqa bir çarəniz yoxdur. Həqiqətən Allah sizin yaşayış ruzinizin əldə edilməsinə zəmanət verir. Həmçinin sizi şükr və həmd etməyə həvəsləndirib və sizə, öz dillərinizlə Onu yada salmağı vacib edib. Sizə təqvalı və pərhizkar olmağı tapşırıb. Onu Öz razılığının son dərəcəsi edib və bəndələrindən istəyib (ki, günahlardan çəkinərək Ondan qorxsunlar, Ona itaət istiqamətində çalışsınlar). Buna görə də nəzərləri altında olduğunuz və alın tüklәriniz, yatıb-durmaq və oturub-qalxmağınız əlində olan (sizin barənizdə istədiyi şeyi dərhal gerçəkləşdirməyə qadir olan) Allahdan qorxun. Əgər (öz sirrinizi) gizlətsəniz və heç kəsə deməsəniz, bilər (və yaxşıya savab, pisə cəza verər). Əgər (onu) aşkar etsəniz, yazar. (Yəni,) sizə möhtərəm gözətçilər (mələklər) təyin edib ki, (onlar sizin söz və əməllərinizi yazırlar və) heç bir haqqı qələmdən salmaz və nahaq və edilməmişi yazmazlar. (Onlar elə diqqətlidirlər ki, yaxşı əməl hətta kiçik olsa belə, insan tərəfindən yerinə yetirilən kimi yazılar və qələmlərindən düşməz.) Bilin ki, hər kim təqvalı olaraq Allahdan qorxsa, Allah-təala fitnə-fəsadlardan çıxmaq yolunu və

zülmətlərdən (nadanlıq və azğınlıq zülmətlərindən) işıqlıq və aydınlığı ona göstərər, onu arzuladığı yerdə (Cənnətdə) əbədi olaraq saxlayar. Onu Öz yanındakı əziz mənzildə - Özü (Öz dostları) üçün seçdiyi evə daxil edər. Həmin evin kölgəsi Allahın ərşi, işığı isə Onun razılığıdır. Oranın zəvvarları mələklər, dostları isə Onun peyğəmbərləridir. Buna görə də (Allaha ibadət və xalqa xidmətlə) axirətə tərəf tələsin və ölümləri (ölümə səbəb olan xəstəlikləri) qabaqlayın (ölümdən qabaq azuqə götürərək elə iş görün ki, Allah və Peyğəmbər razı olsunlar). Çünki insanların arzularının qırılması, ölümün onları haqlaması, tövbə və qayıdış qapısının onların üzünə bağlanması (və onların qəm-qüssədə qalmaları) yaxındır. Odur ki, siz (qəflətən, dünyaya) qayıtmağı istəyən keçmişləriniz kimi olacaqsınız. Siz qalmaq yeriniz olmayan dünyada yol keçən müsafirsiniz. Sizin ondan köçməyiniz elan və azuqə götürməyiniz əmr olunub. (Odur ki, tələsin, yol üçün azuqə götürün və Allaha və Peyğəmbərə tabe olun ki, avara-sərgərdan qalmayasınız.) Bilin ki, bu nazik dərinin (bədəninizin dərisinin) oda dözümü yoxdur. Belə isə (ona düçar olmaqla) özünüzə rəhm edin ki, siz özünüzü dünyada müsibət və çətinliklərlə sınamısınız (onun ən kiçik uğursuzluğuna dözə bilməmisiniz). Məgər hər hansı birinizin bədəninə batan tikandan, qana bulaşmasına səbəb olan sürüşməkdən və onu yandıran isti qumdan (səhra qumunun onu yandırmasından) necə nalə edib inildəməsini görməmisiniz? Bəs onun halı odun iki təbəqəsi arasında-yandırıcı daşla yataq yoldaşı və şeytanla yoldaş olanda necə olacaq?! Bilirsinizmi ki, cəhənnəm sahibi oda qəzəblənəndə, od onun qəzəbindən (coşub tələtümə gələrək) bir-birinə çırpılır (üst-üstə yığılır) və onu incidəndə (onun üstünə qışqıranda) səbrliliyi əldən verərək onun verdiyi əziyyət nəticəsində cəhənnəmin qapıları arasında fəryad qopararaq sıçrayır? Ey qocalığın zəifliyinə düçar olmuş pirani qoca! Od boyunbağılar boyunların sümüklərinə yapışanda və qandal və zəncirlər yapışaraq bazuların ətlərini yeyəndə necə olacaqsan? (Əgər günah və itaətsizlik nəticəsində bu əzaba düçar olsan, nə edəcəksən?) Buna görə də ey bəndələr dəstəsi, nə qədər ki, xəstəlikdən (ölümdən) qabaqkı sağlamlıq və (qəbrdəki) sıxıntı və çətinlikdən qabaqkı genişlik və rahatlıqda dincsiniz (Allahın və Peyğəmbərin razılığını əldə edərək ölümdən sonrakı çətinlikdən nicat tapmaq imkanınız var), Allahdan qorxun, Allahdan qorxun! Öz boyunlarınızı, onlar girov qoyulub getməmişdən (qurtulması qeyri-mümkün olandan) qabaq (cəhənnəm odundan) azad etməyə çalışın. Gözlərinizi oyaq saxlayın (gecə oyaq qalanlardan olun), qarınlarınızı arıqladın (oruc tutun),

qədəmlərinizi işə salın (xeyir işdə addımlayın), mallarınızı (Allah yolunda) bağışlayın, cisminizi ruhunuza qurban verin və bu işdə simiclik etməyin. Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Qur'ani-Kərimin Məhəmməd surəsinin 7-ci ayəsində) buyurur: «إِن تَنصُرُوا اللَّهَ يَنصُرْكُمْ وَيُثَبِّتْ أَقْدَامَكُمْ» «Əgər Allaha yardım göstərsəniz (itaət və bəndəlik etsəniz), O da sizə yardım göstərər və sürüşkənliklərdə qədəmlərinizi möhkəmləndirər (və sizi çətinlik və giriftarçılıqdan qurtarar).» Həmçinin (Hədid surəsinin 11-ci ayəsində) buyurur: «مَن ذَا الَّذِي يُقْرِضُ اللَّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ وَلَهُ أَجْرٌ كَرِيمٌ» «Kimdir o kəs ki, (itaət və bəndəlikdə) Allaha (riyakarlıq və özünü göstərmək olmadan) gözəl borc versin, Allah da onun əvəzini qat-qat artırsın. Onu həm də çox qiymətli bir mükafat gözləyir.» O, sizdən zillət və xarlığa görə yardım, malın azlığı və ehtiyac üzündən borc istəməyib. Göylərin və yerin qoşunları Ona məxsus və (hamıya) qalib və alim ola-ola O, sizdən yardım istəyib. Sizdən borc istəyib, halbuki göyün və yerin xəzinələri Onundur və O, ehtiyacsız və təriflənəndir. Onun yardım və borc istəməsi ona görədir ki, O, sizin hansı birinizin daha çox yaxşı işlər görməyinizi sınamaq istəyib. Belə isə Allahın evində (Cənnətdə) Onun qonşuları (gözəl əməl sahibləri) ilə olmaq üçün yaxşı işlərə tələsin. Allah, peyğəmbərlərini onlarla tanış edib, mələklərinə onların görüşünə getməyi əmr edib və onların qulaqlarını həmişə odun səsini eşitməkdən qoruyub (ki, məbada həmin səsi eşitməklə solğun olalar). Həmçinin onların bədənlərini çətinlik və əziyyət görməkdən qoruyub. (Qur'ani-Kərimin Hədid surəsinin 21-ci ayəsində buyurulur:) «ذَلِكَ فَضْلُ اللَّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ» «Bu, Allahın lütf və bəxşişidir ki, onu istədiyi kimsəyə əta edir. Allah çox böyük mərhəmət, kərəm sahibidir.» Eşitdiklərinizi deyirəm və Allahdan həm özüm, həm də sizin üçün (yaxşı işlər görməyə nail olmaq və pis işlərə əmr edən nəfsə və şeytana tabe olmamaq istiqamətində) yardım diləyirəm. O, (Ondan yardım istəmək) bizə kifayətdir və O, (işləri həvalə etmək üçün) gözəl vəkildir.

İmam Əli əleyhis-salamın Bəni-Təyy qəbiləsindən və Xəvaricdən (onların şairlərindən) olan Bürc ibn Müshirə buyurduğu kəlamlarındandır. Bürc ibn Müshir «hökm ancaq Allaha məxsusdur» deyərkən o Həzrət onun sözlərini eşitdi. Sonra buyurdu: Ey mırıx (batini çirkin olan ağılsız), sus! Allah çirkinləşdirsin səni! And olsun Allaha ki, haqq (İmam əleyhis-salam) zahir oldu və sən onda (qoşunun içində) arıq və aciz idin (heç kəs sənə etina etmirdi) və səsin gizlin idi (sözünə qulaq asan yox idi). Elə ki batil və nahaq fəryad qopartdı, (bu sözləri deməyə cürət tapdın və) keçinin buynuzunun aşkar olması kimi zahir oldun.

Buradan başlayaraq xütbələr fəslinin sonuna kimi «Nəhcül-Bəlağə»nin əlyazma və çap nüsxələrində xütbələrin sıraları bir-birindən fərqlidir. Bəzi nüsxələrdə yüz yetmiş səkkizinci kəlamdan sonra sıralar bir-birindən fərqlənir

İmam Əli əleyhis-salamın xütbələrindəndir. Rəvayət edilib ki, Əmirəl-möminin əleyhis-salamın Həmmam deyilən abid səhabə və ardıcıllarından biri o Həzrətə dedi: Ey Əmirəl-möminin, pərhizkarları (onların sifətlərini) mənə elə vəsf et ki, onları görmüş kimi olum. İmam əleyhis-salam onun cavabında duruxdu və gec tərpəndi. (Çünki cavabı gecikdirməyi daha məsləhət bilirdi.) Sonra qısa şəkildə buyurdu: Ey Həmmam, sən özün Allahdan qorx və yaxşı işlər gör ki (Qur'ani-Kərimin Nəhl surəsinin 128-ci ayəsində buyurulur): «إِنَّ اللهَ مَعَ الَّذِينَ اتَّقَواْ وَّالَّذِينَ هُم مُّحْسِنُونَ» «Allah pərhizkarlar və yaxşı işlər görənlərlədir». Həmmam bu cavaba qane olmadı (öz istəyində israr etdi) və nəhayət, o Həzrəti and verdirdi. Buna görə də o Həzrət Allaha həmd və şükr edib Peyğəmbərə (səlləllahu əleyhi və alih) salam göndərdikdən sonra buyurdu: Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah məxluqatı yaradarkən onların itaət və bəndəliyindən ehtiyacsız, günah və itaətsizliklərindən qorxusuz və amanda idi. Çünki günahkarların itaətsizliyinin Ona bir ziyanı yoxdur və tabe olanların itaəti Ona bir xeyir gətirmir (bəlkə itaətə əmr etmək və itaətsizlikdən çəkindirməkdən məqsəd bəndələrin özlərinin mənfəət əldə etmələridir). Buna görə də ruzi və asayiş vasitələrini onların arasında böldü və dünyada hər bir kəsi (hikmət və məsləhət əsasında yoxsulluq və varlılıq, yaxşılıq və pislik kimi layiq bildiyi) bir mərtəbədə yerləşdirdi. Pərhizkarlar dünyada fəzilətlərə malikdirlər (başqalarından üstündürlər). (Çünki) danışıqları doğruluğa əsaslanır (Allahın və Peyğəmbərin razılığına müvafiq şəkildə danışırlar), geyimləri ortadır (həyatlarında ifrata varmaq və ya həddən aşağı olmaq yoxdur) və (xalq arasında) təvazökarlıqla davranarlar. Onlar Allahın onlara rəva bilmədiyi şeyə göz yumar (harama mürtəkib olmaz) və onlara xeyir verən elmə qulaq verərlər. Çətinlik zamanı başqalarının asayiş və rahatlıqda olduqları kimidirlər (ilahi təqdirə boyun əyərək Allahın istədiyinə razıdırlar və onlar üçün çətinliklə rahatlıq birdir). Əgər Allahın onlar üçün (dünyada) müəyyənləşdirdiyi əcəl olmasaydı, savab şövqü və əzabın qorxusundan canları bir göz qırpımı belə bədənlərində qalmazdı. Onların nəzərində Allah böyük, Ondan başqası isə (hər nə olmasından asılı olmayaraq) kiçikdir.

Onların Cənnətə yəqin və inamları onu, sakinlərinin rahatlıq içində olmalarını görən şəxsin yəqin və inamı kimidir. Həmçinin oda imanları onu sakinlərini əzaba düçar halda görən şəxsin imanı kimidir. Qəlbləri qəmgin, zərər-ziyanları təhlükəsiz (hamı onların zərər-ziyanından xatircəm və qorxusuzdur, çünki başqalarını incitmək və hər bir günahın mənşəyi dünyanı sevməkdir ki, onların da ona meylləri yoxdur), bədənləri (oruc tutmaq, çoxlu ibadət və bəndəlik etmək və qənaət nəticəsində) arıq, (dünyadakı) istəkləri az (naçarlıqdan möhtac olduqlarından artıq bir şey istəmirlər) və nəfsləri pak və təmizdir (şəhvət arxasınca getmirlər). (Dünyada olan) bir neçə qısa günü səbrlə başa çatdırarlar və onun arxasınca həmişəlik rahatlığı (sonsuz Cənnət nemətini) əldə edərlər. Bu iş Rəbblərinin onlar üçün hazırladığı çox qazanclı və mənfəətli bir ticarətdir. (Onlar özlərini ibadət və bəndəliyə hazırladıqları üçün Allah da səadətə qovuşmaq yolunu onlara göstərib.) Dünya onlara üz tutdu (öz mal və bər-bəzəyini onlara göstərdi), onlar isə ondan üz döndərdilər (ona göz yumdular); onları çətinliklərə əsir etdi, onlar isə canlarını qurban verərək (onun çətinliklərinə dözdülər və sonda) özlərini ondan qurtardılar. Gecə olanda (namaz üçün) ayaq üstə duraraq Qur'anın ayələrini diqqət və düşüncə ilə oxuyarlar və onu oxumaq və barəsində düşünməklə özlərini qəmləndirərlər. Onun vasitəsi ilə öz dərdlərinə əlac etməyə çalışarlar (Qur'anı oxumaq və ona əməl etməklə qiyamətin əzab və çətinliklərindən nicat tapmaq istəyərlər). Beləliklə, şövqə gətirən və ümidverici (yaxşı əməl sahiblərinin mükafatını bəyan edən) bir ayə ilə rastlaşanda ona tamah salarlar və şövqlə ona baxarlar, sanki ayənin, barəsində xəbər verdiyi mükafat onların gözləri önündədir və onu görürlər. Həmçinin qorxu və vahimə olan (pis əməl sahiblərinin cəzasından danışan) bir ayə ilə rastlaşanda qəlblərinin qulaqlarını ona elə açarlar ki, sanki cəhənnəmin (onun əhlinin) nalə və fəryadları qulaqlarının dibindədir. (Allah qarşısında rüku etmək üçün) qamətlərini əyər və (səcdə etmək üçün) alın, əllərinin içi, diz və barmaqlarının uclarını yerə qoyaraq Allah-təaladan özlərinin (qiyamət əzabından) azad olmalarını istəyərlər. Gündüz olanda isə səbrli, alim, yaxşı əməlli və pərhizkardırlar. Qorxu (Allah qorxusu) bədənlərini, yonulmuş oxların nazikliyi kimi arıqladıb. Görən onların xəstə olduqlarını güman edər, halbuki heç bir xəstəlikləri yoxdur (bəlkə əzabın qorxusundan arıqlayıblar), (onlardan eşitdiyi sözləri başa düşmədiyi üçün) sərsəri və dəli olduqlarını deyər, halbuki dəli deyildirlər, bəlkə böyük iş (qiyamətin fikri) fikirlərini qarışdırıb. Özlərinin az işlərindən razı olmurlar

və çoxu çox saymırlar. Beləliklə, özlərini (itaətdə səhlənkarlıq gümanı ilə) günahlandırarlar və öz əməllərindən qorxarlar (ki, məbada bəyənilməyə). Əgər onlardan birini (yaxşı əməlinə görə) tərifləsələr, barəsində deyilənlərdən qorxar və deyər: Mən özümü başqalarından daha yaxşı tanıyıram və Rəbbim məni mənim özümdən də yaxşı tanıyır. Allahım, (özündənrazılığa səbəb olan bu) deyilənlərə görə məni cəzalandırma, məni onların güman etdiklərindən də üstün et və onların bilmədikləri günahlarımı bağışla! Pərhizkarların birinin nişanəsi budur ki, sən onu din işində güclü, yumşaqlıq və gözəl xasiyyətlilikdə uzaqgörən, imanda yəqin sahibi, elmdə (elm axtarışında) həris, səbrlilikdə alim, zənginlikdə mö'tədil (israf etməyib varını yersiz xərcləməyən), ibadət və bəndəlikdə təvazökar görərsən və o, yoxsulluq və imkansızlığında bəzənmiş görünər (ki, heç kəs onun yoxsulluğundan xəbərdar olmasın). Onlar çətinlikdə səbrli, halal axtaran, hidayət və qurtuluşda şad, tamah və hərislikdən uzaqdırlar. (Beləsi) yaxşı işlər görməsinə baxmayaraq, qorxu içindədir. Gecə, onun səy və tələşı (Allah-təalanın nemətlərinə görə) şükr etməyə sərf olunur. Gündüz, istəyi Allahı zikr etmək, yada salmaqdır. Gecəni öz qəflətindən qorxan halda (ki, məbada vəzifələrində səhlənkarlıq etmiş olar) başa vurar və gündüz Allahın lütf və mehribançılığından (onu müsəlman və Məhəmmədə və Məhəmməd əhli-beytinə tabe olanlardan etməsindən) şad və sevincək olar. Əgər nəfsi meylli olmadığı şeydə ona qarşı itaətsizlik etsə (ibadət və bəndəlikdə çətinliklə ram olsa, o da) nəfsin sevdiyi şey barəsindəki istəyini yerinə yetirməz. Onun gözünün işığı əbədi olan şeydir və çiyrindiyi, qalmayan şeydir (gözünü axirətə dikib və dünyaya arxa çevirib). O, səbri elmlə və sözü əməl ilə qarışdırır. (Çünki elm və ağla əsaslanmayan səbr və əməl ilə birgə olmayan söz xoşagəlməzdir.) Onu arzusu qısa (məhdud), səhv və xətası az, qəlbi təvazökar, nəfsi qane, yeməyi az, işi asan, dini qorunmuş, şəhvət və istəyi yox və qəzəbi yatırılmış görərsən. Xalq onun yaxşılığına göz dikib və pisliyindən rahat və xatircəmdir. Əgər (Allah və Peyğəmbərdən) qafil və xəbərsiz insanlar içərisində olsa, xəbərdarların zümrəsində sayılar. (Çünki onun qəlbi Allahı zikr etməklə məşğuldur.) Əgər xəbərdarların içərisində olsa, qafillərdən sayılmaz. Ona zülm edəni bağışlayar, onu məhrum edənə yaxşılıq və ehsan edər və ondan ayrılana birləşər. Söyüş söyməkdən və çirkin sözdən uzaqdır və sözü mülayim olar. Ondan xoşagəlməz bir iş görünməyib və bəyənilən işi aşkardır. Onun yaxşılığı üz tutub və pisliyi arxa çevirib. Çətinliklərdə vüqarlı və dözümlü, acı anlarda səbrli, dinclik və

rahatlıqda şükr edəndir. Nifrət etdiyi kimsəyə zülm etməz və sevdiyi şəxsə görə günaha düşməz. (Öz nəfsi istəklərinə tabe olan və zalım insanların əksinə olaraq sevmək və ya nifrət bəsləmək onun öz şər'i vəzifəsini yerinə yetirməsinə mane olmur.) Şahid gətirilməmişdən qabaq haqqı qəbul edər. Ona tapşırılan şeyi zay etməz və yadına salınan şeyi unutmaz. Heç kəsi xoşagəlməz ləqəblərlə (kafir, fasiq, münafiq və çirkin kəlmələrlə) çağırmaz və qonşuya ziyan vurmaz. İnsanların başına gələn acı hadisələrə sevinməz. Batil və nahaq yola qədəm qoymaz və haqq yoldan kənara çıxmaz. Əgər sakit otursa, sakitliyi onu qəmləndirməz və əgər gülsə, gülüş səsi ucalmaz. Ona zülm edilsə, Allah onun intiqamını alana kimi səbr edər. Nəfsi onun əlindən əzab və çətinliyə düçardır. (Çünki onun istəklərinə zidd davranır.) Xalq onun əlindən rahatlıqdadır. (Çünki xalqı incitmək nəfsi istəklərə tabe olmaq nəticəsində mümkündür.) Axirət işində özünü əziyyətə salar və xalqı özündən (öz işindən) dincliyə çatdırar. Onun şəxslərdən uzaqlaşması (dünyapərəstlərə) rəğbətinin olmamasına və (onlardan) uzaq olmasına görədir. Tanışlarla yaxın olması (Allah adamları ilə) xoşrəftar və mehriban olmağa görədir. Uzaqlaşmasının səbəbi özündən razılıq və özünü böyük tutmaq deyil və yaxınlaşması (ikiüzlü adamlarda olduğu kimi) hiylə və kələk yolu ilə deyil. Bu xütbəni nəql edən deyir: (Söz bu yerə çatanda) Həmmam özündən getdi və elə həmin özündən getməklə də dünyadan köçdü. Sonra Əmirəl-möminin əleyhis-salam buyurdu: Bilin! Vallah onun üçün bundan (belə bir hadisənin baş verməsindən) qorxurdum. Daha sonra buyurdu: Düzgün nəsihətlər əhlinə belə (təsir) edir. Orada olanlardan biri (Xəvaricdən olan Abdullah ibn Kəvva) dedi: Ey Əmirəl-möminin, sənin vəziyyətin necədir? (Nə üçün bu nəsihətlər sənə təsir etmir və ya əgər belə olacağını bilirdinsə, nə üçün onun ölümünə səbəb oldun?) İmam əleyhis-salam buyurdu: Vay olsun sənə! Hər bir əcəlin öz vaxtı var ki, ondan keçmir (gec və tez olmur) və səbəbi var ki, onu aşmır. Odur ki, özünü şeytanın sənin dilinə üfürdüyü bu cür sözlərdən saxla (bir daha demə. Çünki İmama etiraz etmək şeytanın azdırmaları və göstərişlərindəndir).

İmam Əli əleyhis-salamın münafiq və ikiüzlü insanları vəsf etdiyi xütbələrindəndir. Bizə itaət və tabeçilik uğuru nəsib etdiyi və bizi günah və itaətsizlikdən saxladığı üçün Allaha şükr edirik. Ondan, bizə olan nemətini kamil həddə çatdırmasını və əlimizi ipinə (Qur'ani-Kərimə) birləşdirməsini istəyirik. Və şəhadət veririk ki, Məhəmməd Onun bəndəsi və elçisidir ki, Allahın razılığını əldə etmək üçün hər bir çətinliyə qatlaşdı və Onun (hökmlərinin təbliği) yolunda hər bir qəm-kədəri qurtum-qurtum içdi (peyğəmbərlik dövründə qarşılaşdığı hər bir çətinliyə səbr etdi). Yaxınları və qohumları neçə cür idilər. (Bir dəstəsi fədakar və onu sevənlərdən ibarət idi ki, can və mallarını o Həzrətin yolunda verirdilər. Bəziləri isə düşmən və münafiq idilər və onu məhv etmək istəyirdilər.) Uzaq və yadlar o Həzrətlə düşmənçilik etmək üçün bir yerə toplaşdılar. Ərəblər noxtalarını qıraraq o Həzrətə tərəf üz qoydular və onunla müharibə etmək üçün öz yük dəvələrinin qarnını döyəclədilər (ki, tez çatsınlar). Nəhayət ən uzaq məkan və get-gəl yerlərindən düşmənçiliklə o Həzrətin yaşadığı yerə və yurda daxil oldular. (Xülasə, onunla düşmənçilik üçün uzaq yollardan müharibə etməyə gəldilər.) Ey Allahın bəndələri! Sizə təqvalı olaraq Allahdan qorxmağı tövsiyə edirəm və (zahirdə müsəlman, batində isə kafir olan) ikiüzlü insanlardan (onların hiylə və kələklərindən) çəkindirirəm. (Məbada onların söz və əməllərinə aldanaraq onların arxasınca gedəsiniz.) Çünki onlar azğın və azdıran (özləri zəlalət və azğınlıq yolu ilə gedir və başqalarını da doğru yoldan saxlayaraq özlərinə yoldaş edirlər), həmçinin sürüşmüş və sürüşdürəndirlər (özləri günah və səhv işlər görürlər və başqalarını da səhvə salırlar). Özlərini müxtəlif rənglərə və hallara salarlar (hər an və hər bir məclisdə öz danışıq və davranışları ilə, puç məqsəd və yanlış fikirləri ilə sadəlövh insanları aldatmaq üçün bir rəngə düşərlər). Sizin üçün bütün vasitələri nəzərdə tutublar və bütün pusqularda güdükdədirlər. (Əgər onların fikirlərini başa düşüb onlardan uzaqlaşsanız, sizi digər vasitələrlə aldatmaq qərarına gələrlər ki, hər nə cür olur-olsun sizi özlərinə qoşsunlar. Paxıllıq, ikiüzlülük, düşmənçilik və şəkk-şübhə içində olmaqdan) qəlbləri xəstədir. Onların zahirləri isə pak və təmizdir. (Belə ki, onların həqiqəti sevən və haqq istəyən

olmaları güman edilər.) Gizli yol gedirlər (öz planlarını heç kəsin başa düşmədiyi şəkildə işə salır və fitnə-fəsad yaradırlar) və meşənin sıx ağacları arasında (ovu tutmaq üçün yavaş-yavaş hərəkət edən ovçu kimi) tərpənirlər. Sifətləri dərmana oxşayır və sözləri şəfavericidir. Amma əməlləri əlacı olmayan bir dərddir. Rifaha (insanların rifah içində olmalarına) paxıllıq edirlər (onlarla dostlaşaraq rahatlıqlarını əllərindən alırlar) və (onların) çətinlik və bədbəxtliyə düşmələrinə çalışırlar (aralarında söz gəzdirərlər ki, birlikləri dağılsın və onları bədbəxtliyə düçar etsinlər). Həmçinin ümidləri (xalqın ümidlərini) qırarlar (onları Allahın bəyəndiyi işlərdən saxlayarlar). Hər bir yolda birini torpağa səriblər (məhv etmək üçün çoxlu yollar nəzərdə tutublar), hər bir qəlbdə vasitələri var (hər bir şəxslə onun meyl və istəyinə uyğun şəkildə danışa bilirlər) və hər bir qəm-kədərdə göz yaşı tökərlər (ki, onun vasitəsi ilə öz məqsədlərini həyata keçirsinlər). Bir-birlərini tərifləməyi bir-birlərinə borc verər və onun əvəzini gözləyərlər (öz içərilərindəkilərdən birini tərifləyərlər ki, o da əvəzində onu tərifləsin). İstəkləri olanda onda (müqabil tərəfi istəklərini yerinə yetirməyə məcbur edənə kimi) israr edərlər. Danlayanda (birinin səhvini başa salmaq istəyəndə) pərdələri götürərlər (bütün eyblərini açaraq rüsvay edərlər). Əgər onları (bir işdə) hakim təyin etsələr, israf edərlər (haqqa zidd hökm çıxararlar). Hər bir haqqın qarşısında bir batil, hər bir düzlüyün müqabilində bir əyrilik, hər bir dirinin qarşısında bir qatil, hər bir qapıya bir açar və hər gecə üçün bir çıraq hazırlayıblar (məqsədlərinə çatmaq üçün müxtəlif hiylə və kələklərdən istifadə edərlər). Ümidsizlik və (xalqın malından) ehtiyacsızlığı öz tamah və hərislikləri üçün vasitə edərlər ki, bazarlarını qoruyaraq nəfis sandıqları mallarını işə salsınlar (hiyləbazlıqla özlərini dünyaya rəğbətsiz göstərərək ehtiyacsızlıq nümayiş etdirirlər ki, öz məqsədlərinə çatsınlar). (Səhv söz) deyirlər və (onu haqqa) bənzər və oxşar göstərirlər. (Məqsədlərini) açıqlayırlar və onu bəzəyirlər (haqq şəklinə salırlar). Batil yolu asan göstərərlər (ki, hamı ona qədəm qoysun) və darı (zəlalət və azğınlığı) əyərlər (ki, azğınlıqdan qurtarmaq, nicat tapmaq mümkün olmasın). Beləliklə, onlar şeytanın ardıcılları və odun şölələridirlər. (Qur’ani-Kərimin Mucadilə surəsinin 19-cu ayəsində buyurulur:) «أُوْلَئِكَ حِزْبُ الشَّيْطَانِ أَلَا إِنَّ حِزْبَ الشَّيْطَانِ هُمُ الْخَاسِرُونَ» «O dəstə şeytanın yoldaş və ardıcıllarıdır. Bilin ki, şeytanın ardıcılları ziyana uğrayanlardır.»

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّهِ عَلى ما عَرَّفَنا مِنْ نَفْسِهِ وَ أَلْهَمَنا مِنْ شُكْرِهِ وَ فَتَحَ لَنا مِنْ أَبْوابِ الْعِلْمِ بِرُبُوبِيَّتِهِ وَ دَلَّنا عَلَيْهِ مِنَ الْإِخْلاصِ لَهُ فِي تَوْحِيدِهِ وَ جَنَّبَنا مِنَ الْإِلْحادِ وَ الشَّكِّ فِي أَمْرِهِ وَ الصَّلوةُ عَلى عَبْدِهِ وَ رَسُولِهِ الْبَشِيرِ النَّذِيرِ السِّراجِ الْمُنِيرِ سَيِّدِ الْأَنْبِياءِ وَ الْمُرْسَلِينَ مُحَمَّدٍ وَ الِهِ الْأَئِمَّةِ الطَّيِّبِينَ. اللّهُمَّ عَجِّلْ فَرَجَهُمْ وَ انْصُرْ شِيعَتَهُمْ وَ أَهْلِكْ أَعْدائَهُمْ مِنَ الْأَوَّلِينَ وَ الْاخِرِينَ امِينَ رَبَّ الْعالَمِينَ

Kim diqqət və düşüncə ilə «Nəhcül-Bəlağə»ni mütaliə etsə, əbədi səadətə yol tapar. Kim ona əməl etsə, Allah və Peyğəmbərin razılığını əldə edər və onun nəticəsində dünya həyatında başı uca və qəlbi diri, qəbr və qiyamətdə rahat, Cənnətdə isə kam alan olar. Bu müqəddəs kitab, bəşəriyyətin hidayətçi və bələdçisi olan İslam elm və hikmətlərinin xülasəsidir və o, səadət və xoşbəxtliyə çatmaq üçün cahilcəsinə təəssübdən əl çəkən və bu kitabı özünə örnək edən kəsi məqsədinə çatdırır. Çünki onda nadanlıqlar üzərindən pərdə götürülüb, həqiqətlər aşkar edilib və oxucu bu əsərdə hər bir hadisədən xəbərdar olur. Buna görə də onunla tanış olan və ona əməl edən kəs azğınlıq yoluna qədəm qoymaz və avara və sərgərdan qalmaz. Onun bir fəslini diqqətlə mütaliə edən insaflı kəs bizim sözümüzün düzgünlüyünə və doğruluğuna inanar. Allaha şükr edirəm ki, uzun illərdən bəri onun məziyyət və xüsusiyyətləri ilə tanış olub bütün məclis və yığıncaqlarda hamını Əmirəl-möminin əleyhis-salamın kəlam və əməllərini araşdırıb onlara tabe olmağı tövsiyə edən məni ərəb dilini bilməyənlər üçün tərcümə və şərh etməyə müvəffəq edib. İndi dördüncü hissənin tərcümə və şərhinə başlayır və qadir Allahdan istəyirəm ki, bu və sonrakı iki hissəni başa çatdırmağa məni müvəffəq etsin.

اللّهمَّ أَغْنِنِي بِمَسئَلَتِكَ عَنْ مَسْئَلَةِ خَلْقِكَ وَارْحَمْنِي بِرَحْمَتِكَ يا أَرْحَمَ الرّاحِمِينَ

Fani bəndə: Əliyyənnəqi Feyzul-İslam İsfahani Ali-Məhəmməd əd-Dibac.

İmam Əli əleyhis-salamın (Allah-təalanın vəsfi, Həzrət Peyğəmbərin mədhi, nəsihət, təqva və pərhizkarlıq barəsindəki) xütbələrindəndir. Həmd o Allaha layiqdir ki, səltənətinin nişanələrindən və böyüklüyünün əzəmətindən qüdrət və bacarığının heyranlıqlarını aşkar etdi, gözləri mat və heyran qoydu və insanların zehnlərindən keçən fikirləri Öz sifətinin həqiqətlərinin dərkindən saxladı. (Ağıl sahibləri Onun yaratdıqlarının müqabilində mat-məəttəl qalıblar və onların ağılları Onun həqiqətlərini dərk etməkdən acizdirlər.) Şəhadət - iman, inam, niyyət saflığı və itaət üzündən olan bir şəhadət - verirəm ki, Allahdan başqa bir tanrı yoxdur. (Bu şəhadətdə qəlbimlə dilim birdir və onda təqlid və riya yoxdur.) Şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi və elçisidir. Onu o vaxt göndərdi ki, qurtuluş nişanələri və dinin aşkar yolları aradan getmiş, viran olmuşdu (insanlar zəlalət və azğınlıqda addımlayır, nəfsi istəklərin arxasınca gedirdilər). Belə olan halda, o, haqqı aşkar etdi, xalqa nəsihət verdi, (danışıq və davranışda) düzlük və doğruluğa hidayət etdi və mötə'dil yolu tutmağı əmr etdi. Allah ona və onun Əhli-Beytinə salam göndərsin. Ey Allahın bəndələri! Bilin ki, Allah sizi boş yerə yaratmayıb, (heyvanlar kimi) özbaşına buraxmayıb (bəlkə sizin üçün vəzifə və hökmlər müəyyənləşdirib ki, hər birini öz vaxtında yerinə yetirəsiniz), sizə verdiyi nemət və bəxşişlərin miqdarını bilir və mərhəmət və lütfünü sayıb (ki, sizin şükr etməyinizi və naşükürlüyünüzü sınasın). Belə isə zəfər və qələbəni (düşmənə qalib gəlməyi) və hacətin rəva olmasını Ondan diləyin, öz istəyinizi Ondan istəyin və əta və bəxşişi Onda axtarın ki, sizinlə Onun arasında asılı pərdə və bağlı qapı yoxdur. O, hər yerdə və hər bir vaxt və zamanda hazırdır və hər bir insan və cinlə birlikdədir. Əta və bəxşiş Onu (onun nemətlərini) azaltmır və (onlarda) nöqsan yaratmır; Ondan istəyən Onun nemətini sona çatdırmır; arzulayan Onun xəzinələrinin sonuna çatmır; heç kəs Onu digərindən saxlamır; bir səs Onu özünə məşğul edərək Onun digər səsi eşitməsinə mane olmur; (nemət) bağışlamaq Ona (eyni zamanda digər neməti) almağa mane olmur; qəzəb etmək Ona rəhm etməyə mane olmur; mehribanlıq Onu əzab etməkdən saxlamır; gözə görünməzlik Onun aşkar olmasına mane deyil və aşkar olmaq Onu gözə görünməzlikdən ayırmır.

Həm yaxındır, həm uzaq, həm yuxarıdadır, həm də aşağıda, həm aşkardır, həm gizli və həm gizlindir, həm də aşkar. Cəzalandırıb, amma cəzalanmayıb. (Hamının hesabını O edir. Amma heç kəsin Onun hesabını aparmaq dərki və qüdrəti yoxdur.) Yaradılmışları fikirlə yaratmadı və heç bir işdə onlardan yardım istəməyə möhtac deyil. (Çünki vücudu vacib olan varlıq acizlikdən uzaq və pakdır.) Ey Allah bəndələri! Sizə təqvalı və Allaha itaətkar olmağı tövsiyə edirəm. Çünki təqva (sahibini səadətə çəkən) cilovdur və (işlərin nizam-intizamını saxlayan) sütuna bənzəyir. Belə isə onun möhkəm bağlarına sarılın və həqiqətlərindən yapışın ki, gözlərin (qorxu və vahimədən) bərəli qalaraq qırpılmadığı və ətrafına nəzər sala bilmədiyi, qaranlığın hər yeri bürüdüyü və doğmaqları yaxın olan on aylıq hamilə dəvə sürüsünün sahibsiz qaldığı gündə sizi rahatlıq və əmin-amanlıq məkanları, geniş yerlər, qorunan hasarlar və hörmət bəslənilən mənzillərə çatdırsın (heç bir çətinliyi və giriftarçılığı olmayan əbədi Cənnətə aparsın). Və Sur (İsrafilin suru) çalınacaqdır. Həmin vaxt bütün canlar bədənlərdən çıxacaq və bütün dillər lal olacaqdır (ölüm hamını bürüyəcək); uca dağlar və möhkəm daşlar parçalanaraq dağılacaq, onların sərt daşı parlaq ilğım kimi görünəcək və onların durduqları və sakin olduqları yerlər hamar (alçaq-hündürsüz) olacaq (abadlıq və heç bir nişanə qalmayacaq). Beləliklə, (həmin gün) nə şəfaət edəcək (günahın əvf edilərək bağışlanmasını istəyən) şəfaətçi, nə çətinliyi dəf edəcək qohum, nə də xeyir verəcək üzr və bəhanə olacaq. (Xülasə, təqva və pərhizkarlıqdan başqa bir sığınacaq yoxdur.)

İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbərin Allah tərəfindən göndərilmə zamanına toxunaraq təqva və pərhizkarlığa tövsiyə etdiyi, dünyanın çirkinliklərini açıqladığı və ölüm çatmamışdan yaxşı işlər görməyə təşviq etdiyi) xütbələrindəndir. Allah, Həzrət Peyğəmbəri o vaxt göndərdi ki, nə bir nişanə qalmışdı (axırıncı peyğəmbərlə o Həzrət arasındakı zaman fasiləsi insanları haqq yoldan uzaqlaşdırmışdı), nə parıldayan bir işıq (haqq şəriət gizlin qalmışdı və heç kəs Allaha itaət etmirdi), nə də aydın bir yol var idi. (Hamı azğınlıqda və nadanlıqda sərgərdan idi. Belə bir vəziyyətdə o Həzrət bəşəriyyəti hidayət edərək bədbəxtlikdən nicat verdi.) Ey Allahın bəndələri! Sizə təqvalı olmağı və Allaha itaət etməyi tövsiyə edirəm və dünyadan çəkindirirəm. Çünki dünya köç etmək diyarı və qəm-qüssə və dərd yeridir. Onun sakini gedən, məskunlaşanı ayrılandır. O öz əhlini bərk küləklər gəmiləri dənizlərdə hərəkətə gətirib titrətdiyi kimi titrədərək çəkişməyə salar. Beləliklə, sərnişinlərin bəziləri boğularaq həlak olarlar. Bəziləri isə nicat taparaq dalğaların üzərində çabalayarlar və küləklər onları bir tərəfdən digər tərəfə apararaq qorxu və nigarançılıqlara düçar edər. Boğulanı bir daha tapmaq mümkün deyil. Nicat tapan isə həlak olmağa tərəf gedir. Ey Allahın bəndələri! İndi ki, dillər açıq, cisimlər sağlam, bədən itaətkar, get-gəl yeri genişdir və fürsət qalmaqdadır, yoxluğun tələsməsindən və ölümün gəlib çatmasından qabaq iş görün (Allaha ibadət və xalqa xidmət edin). Onun sizin yanınıza gəlməsini gerçəkləşmiş bilin və intizarını çəkməyin.

İmam Əli əleyhis-salamın (özünün Peyğəmbərə yaxınlıqda tək olması, xilafətə daha layiq olması və başqasının bu məqama layiq olmaması barəsindəki) xütbələrindəndir. Məhəmmədin (səlləllahu əleyhi və alih) qoruyucu olan (Qur'an və onun sünnəsini qoruyan və onun sirlərindən xəbərdar) səhabələrinin böyükləri bilirlər ki, mən heç vaxt bir saat belə Allah və Peyğəmbərin əmrindən kənarda olmamışam və igidlərin qaçdıqları və addımların qayıtdıqları (heç kəsdə düşmənin qarşısını almaq cürəti olmayan) yerlərdə (çətinlik və müharibələrdə) Allahın məni əziz tutduğu şücaət və igidliklə öz canımı Həzrət Peyğəmbərdən əsirgəməmişəm. Allahın Peyğəmbəri - səlləllahu əleyhi və alih - başı mənim sinəmdə olan halda canını tapşırdı və onun ruhu o mənim əllərim üzərində olanda bədənindən ayrıldı və mən (təbərrük və türbət kimi) əlimi üzümə çəkdim. O Həzrətin (səlləllahu əleyhi və alih) qüslünü öz öhdəmə götürdüm və mələklər mənə kömək etdilər. Sonra ev və onun ətrafı (orada olanlar və get-gəl edən mələklər) ağlayaraq nalə qopardılar. Mələklərin bir dəstəsi enir, digər bir dəstəsi isə yuxarı qalxırdılar. Onların o Həzrətə qıldıqları namazın səsi, onu qəbrinə qoyana kimi qulağımdan getmirdi. Belə olan halda, kim o Həzrətə həyat və ölümündə məndən daha yaxın və layiqdir?! (Kim layiq və yaxın olmaq iddiası etsə yalan deyib və özünü nahaq yerə onun xəlifə və canişini hesab edib.) Gözüaçıqlıq və bəsirətlə (şəkk və tərəddüd etmədən) tələsin. Gərək düşmənlə müharibədə sizin niyyətləriniz düz olsun (nifaq və ikiüzlülük olmadan öz haqq imamınıza tabe olasınız). Ondan başqa bir tanrı olmayan Allaha and olsun ki, mən haqq yoldayam (söz və əməllərim eyni ilə Allah və Peyğəmbərin buyurduqlarıdır). Bizim düşmənlərimiz isə batil sürüşkənliklərdədirlər (pis işlərə əmr edən nəfsə və şeytana tabedirlər). Eşitdiklərinizi deyirəm (ki, haqqı batildən seçəsiniz) və Allahdan (sizə giriftar olmuş) özüm üçün və sizə (keçmiş əməllərinizə üçün) bağışlanma istəyirəm (ki, bir də azğınlıq yoluna qədəm basmayasınız və haqq imama tabe olasınız).

←188-ci xütbə

Nəhcül-bəlağə. 189-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

190-cı xütbə→

İmam Əli əleyhis-salamın (Allahın elminin varlıqları əhatə etməsi, təqva və pərhizkarlığa təşviq, müqəddəs İslam dininin vəsfi, Həzrət Peyğəmbərin Allah tərəfindən göndərildiyi zaman və Qu'rani-Kərimin mədhi barəsindəki) xütbələrindəndir. Allah, otlayan heyvanların çöllərdəki səs və naləsindən, bəndələrin gizlindəki günahlarından, balıqların böyük dənizlərdəki get-gəllərindən və suyun bərk küləklər vasitəsi ilə dalğalanaraq bir-birinə dəyməsindən xəbərdardır. Şəhadət verirəm ki, Məhəmməd Allahın seçilmişi, vəhy (hökmü) gətirəni və Onun rəhmət və mehribanlıq elçisidir. Allah-təalaya həmddən və Həzrət Mustafanın mədhindən sonra, sizi pərhizkarlığa və yaradılışınızın başlanğıcı Ondan olan, qayıdış və dönüş yeriniz Ona tərəf olacaq, ehtiyac və istəklərinizin həyata keçməsi Ondan asılı olan, arzu və diləyinizin sonu olan, doğru yolunuz Ona tərəf olan və pənah və sığınacağınız O olan Allahdan qorxmağa tövsiyə edirəm. Çünki təqva və Allahdan qorxmaq ürəklərinizin dərdlərinin dərmanı, qəlblərinizin korluğunun görməsi, cisimlərinizin xəstəliyinin şəfası, sinələrinizin fəsadının düzəlməsi, nəfslərinizin çirkinin təmizlənməsi, gözlərinizin örtüklərinin aydınlığı, qəlblərinizin qorxusunun əmin-amanlığı və (nadanlıq) zülmətlərinizin qaranlıqlarının nurudur. Buna görə də Allaha itaət və tabeçiliyi (bədənə yapışmayan) üst paltarı deyil, alt köynəyi kimi öz adətiniz edin. Və (hətta onu) köynəyin altında bədəninizin daxili bir hissəsi edin, əndamınızda gizlədin onu. (Xülasə, elə bir iş görün ki, sizin bütün bədən üzvləriniz Allaha itaətkar və tabe olsun.) İşlərinizdə Onu hakim bilin (bütün işlərdə Allahın əmr və qadağalarına tabe olun) və (onu qiyamətə) daxil olacağınız zaman üçün çeşmə, istəyinizi almaq vasitəsi, (çətin hadisələrdən) qorxu gününüz üçün qalxan, qəbirləriniz arasındakı çıraqlar, qorxu və vahimənizin uzunluğunda ünsiyyət yoldaşı və kədərli yerlərinizin yüngüllüyü təyin edin. Çünki Allaha itaət və tabeçilik üz tutan təhlükəli (və məhvə səbəb olan) yerlərdən, qarşıya çıxması gözlənilən qorxulardan və (günahkarlar üçün) yandırılmış odun istiliyindən qoruyucudur. Buna görə də kim təqva və pərhizkarlığı öz peşəsi etsə, çətinliklər ona yaxınlaşandan və üz tutandan

sonra ondan uzaqlaşar; işlər acılıqdan sonra onun üçün şirinləşər; dalğalar (fitnə-fəsad) ardıcıl gəldikdən sonra ondan uzaqlaşar, çətinliklər incidərək əziyyətə saldıqdan sonra ona asanlaşar; lütf və ehsan (Allahın lütf və mərhəməti) qəhətlikdən sonra ona çoxalar; rəhmət və mərhəmət uzaqlaşdıqdan sonra ona üz tutar; nemətlər azalandan sonra ona artar və bərəkət az yağışdan sonra yağan dolu yağış kimi ona çatar. Belə isə Özünün (Qur'ani-Kərimdəki) öyüdləri ilə sizi bəhrələndirmiş, (peyğəmbərlər vasitəsi ilə) sizə Öz hökmləri ilə nəsihət vermiş və nemət verməsi ilə sizə minnət qoymuş Allahdan qorxun. Buna görə də Ona ibadət və bəndəlik üçün öz nəfslərinizi ram edin və Ona itaət haqqını yerinə yetirin (əmr etdiklərini yerinə yetirərək qadağan etdiklərindən çəkinib uzaq olun). (Təqva və itaətin vəsfindən) sonra (bilin), bu İslam Allahın dinidir ki, (O ondan başqasını bəyənmir və) onu Özü (Özünü tanıtdırmaq) üçün seçib, Öz qayğısı ilə bəsləyib, onun təbliği üçün yaratdıqlarının ən yaxşısını (Həzrət Peyğəmbəri-səlləllahu əleyhi və alih-) seçib və onun sütunlarını (qanun və hökmlərini) Öz məhəbbəti üzərində qurub. (Buna görə də Allahı sevən kəs İslamın hökmlərinə tabedir.) Onun izzəti ilə (başqa) dinləri xar və həqir (nəsx) edib; onun böyüklüyü ilə millətləri cılızlaşdırıb; onun qələbəsi ilə düşmənləri qədir-qiymətsiz və kiçik edib; onun köməyi ilə müxalifləri məğlub edib; onun sütunu (əsas kök və qanunları) ilə azğınlıq (nadürüst əqidələr) dirəklərini viran edib; teşnələri (elm və maarif susuzlarını) onun hovuzlarından doydurub; onun su daşıyanları (imamlar əleyhimus-salam) vasitəsi ilə hovuzları doldurub (Qur'ani-Kərimin ayələrinin təfsir, yozum və hökmlərinin yerlərini bəyan edib). Sonra onu elə (möhkəm və qüvvətli) edib ki, dəstəyi ayrılan və zəncirləri açılan deyil. Təməli viran, sütunları xarab olmaz. Onun ağacı yerindən çıxarılmayacaqdır. Onun müddətinin sonu yoxdur (qiyamətə kimi bərqərar olacaq və onu nəsx etmək üçün peyğəmbər göndərilməyəcəkdir). Hökmləri köhnəlməyəcək və budaqları sındırılmayacaq. (Heç vaxt hansısa bir alim, elmi əsaslarla onun hökmlərindən hansı birininsə düzlüyünü inkar edə bilməz.) Yolları daralmayacaq, asanlıqları çətinləşməyəcək, ağlığı qara, düzlüyü əyri, çubuğu əyilmiş, geniş yolu qumluq, çıraqları söndürülmüş və şirinliyi acılıq olmayacaq. Buna görə də İslam, Allahın onun təməlini haqda yerləşdirdiyi (batil və əyriliyin işləmədiyi) və özülünü möhkəm etdiyi sütunlardır. O, arxları su ilə dolu olan çeşmələr, işıqları parlaq olan çıraqlar, gedənlərin, vasitəsi ilə yol axtardıqları nişanələr, vasitələri ilə yollar tapılan əlamətlər

və daxil olanların onlarla doyduqları (tabe olanların dünya və axirətdə xoşbəxt olduqları) bulaqdır. Allah razılığının sonunu, hökmlərinin ən üstününü, itaət və bəndəçiliyinin ən yüksəyini onda qoyub. Buna görə də Allah yanında bu dinin təməli möhkəm, binası uca, dəlili aşkar, işığı parlaq, səltənəti əziz və nişanələri ucadır. Onu yox etmək mümkün deyil. (Heç kəsdə onu məhv etmək və ya ona tənə vurmaq qüdrəti yoxdur.) Belə isə onu möhtərəm və böyük tutaraq ona tabe olun. Onun haqqını əda edin (əmrlərini yerinə yetirərək qadağan etdiklərinin ətrafına belə firlanmayın). Onu öz yerinə qoyun (hökmlərindən heç birini dəyişdirməyin ki, dünyada ziyan görər, axirətdə isə əzaba düçar olarsınız). (İslam dininin şərafət və böyüklüyünün bəyanıdan) sonra (bil ki,) eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (onun təbliği üçün) Məhəmmədi (səlləllahu əleyhi və alih) haqq olaraq göndərdi, o zaman ki, (çaxnaşma, giriftarçılıq və nahaq qan tökülməsinin çoxluğundan) dünyanın bitməsi (hər bir millətin dünyasının sonu, fəsad nəticəsində) yaxınlaşmışdı, (onların, ölümləri vasitəsi ilə) axirət işindən xəbərdar olmaları (onlara) üz tutmuşdu, onun şadlıq və sevinci parladıqdan sonra qaranlıqlaşmışdı, öz əhlini (çətinliklərə düçar etmişdi və çıxış yolu tapa bilmirdilər), onun yatağı narahatlaşmışdı və cilovu qatilin əlinə verilmişdi. Bu, müddətin sona çatdığı, (viranlıq) əlamətlərin(in) yaxınlaşdığı, əhalinin əldən getdiyi, halqanın sındığı, kəndirin qırıldığı, nişanələrin köhnəldiyi və məhv olduğu, eyblərin aşkar olduğu və onun uzun müddətinin qısaldığı zamanda idi. Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah o Həzrəti Öz peyğəmbərliyinin təbliğatçısı, ümmətin kəramətlilik amili, zəmanə əhlinin baharı (sevinci), köməkçilərin baş ucalığı və yardımçılarının izzəti etdi. Sonra ona Qur’anı nazil etdi. Qur’an, nuru azalmayan çıraq, işığı sönməyən məşəl, dibi bilinməyən dəniz, gedərkən azğınlığa aparmayan yol, nuru tükənməyən parlaq şüa, dəlili azalmayan ayıran (haqqı batildən ayıran), təməli viran olmayan bina, (əhlinin) xəstəliklərində qorxu olmayan şəfa (çünki o, cismi və ruhi olmasından asılı olmayaraq qarşıya çıxa biləcək bütün xəstəliklərə şəfadır), yardımçıları məğlub olmayan şərəf və izzət, köməkçiləri basılmayan haqdır. Buna görə də Qur’an imanın mə’dəni və onun mərkəzidir; ədalət bağları və onun hovuzlarıdır; elmin çeşmələri və onun dənizləridir; İslamın binasının daşları və onun sütunlarıdır; haqqın səhraları və onun hamar çölləridir. O, elə bir dənizdir ki, su daşıyanlar onu boşaltmazlar; elə bir bulaqdır ki, su çəkənlər onun suyunu azaltmazlar; elə bir çeşmədir ki, daxil olanlar onu əskiltməzlər

(alimlər onun bütün sirrini dərk edə bilməyəcəklər), elə mənzillərdir ki, müsafirlər onların yolunu itirməzlər; elə nişanələrdir ki, yol gedənlər onları nəzərdən qaçırmazlar; elə təpələrdir ki, üz tutanlar onlardan aşa bilməzlər. Allah onu alimlərin susuzluqlarının yatırıcısı, müctəhidlərin qəlblərinin baharı, yaxşıların yollarının məqsəd və sonu, sonrasında ağrı qalmayan dərman, onunla zülmət olmayan nur, tutacaq yeri möhkəm olan ip, hündür qalası möhkəm olan sığınacaq, onu sevənin izzət və baş ucalığı, ona daxil olanın sülh və əmin-amanlığı, tabe olanın hidayət və qurtuluşu, onu özünə nisbət verənin üzrü, ona əsaslanaraq danışanın dəlili, onun vasitəsi ilə düşmənlə mübahisə edənin şahidi, onu dəlil gətirənin qələbəsi, ona əməl edənin qoruyucusu, onu işlədənin iti miniyi, nişanə axtaranın nişanəsi, başa tutanın qalxanı, yadında saxlayanın elmi, nəql edənin xəbəri, (xalq arasında) hökm verənin hökmü edib (çünki Qur'an hər bir iş barəsində haqq olan hakimdir və ondan başqa bir şeyin hökm vermək haqqı yoxdur. Buna görə də Qur'andan başqasından olan hökm nadürüstdür).

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın (namaz, zəkat və əmanəti əda etmək barəsində) öz səhabələrinə tövsiyə etdiyi kəlamlarındandır. Namaz işinə riayət edin (ki, o, möminin me'racı, dinin sütunu və qiyamətdə bəndədən soruşulacaq ilk şeydir. Əgər qəbul olmuş olsa, digər əməllər də qəbul olar. Qəbul edilməyib hesaba alınmadıqda isə əməllərin heç biri insana bir fayda verməz). Onu qoruyun (onun qılınmasının fəzilətli vaxtından qafil olmayın) və onu çox yerinə yetirin. Onun vasitəsi ilə (Allaha) yaxınlaşın. Çünki (Qur'ani-Kərimin Nisa surəsinin 103-cü ayəsində buyurulduğu kimi «كَانَتْ عَلَى الْمُؤْمِنِينَ كِتَابًا مَّوْقُوتًا») namaz möminlərə yazılmış və vaxtı müəyyən edilmiş bir vacibdir. Məgər Cəhənnəm əhlinin (Qur'ani-Kərimin Muddəssir surəsinin 42-43-cü ayələrində olduğu kimi «مَا سَلَكَكُمْ فِي سَقَرَ قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ») onlardan «sizi Cəhənnəmə salan nədir?» soruşularkən verdikləri bu cavaba ki, «onlar deyəcəklər: Biz namaz qılanlardan deyildik» (cani-dildən) qulaq asmırsınız? Namaz günahları yarpağın (ağacdan) tökülməsi kimi tökür və ilmələrin (heyvanların boyunlarından) açılması kimi açıb boşaldır. Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) namazı insanın qapısının ağzında olan və insanın gün ərzində beş dəfə içində çimdiyi su çeşməsinə bənzədib. Belə olan halda, (məlumdur ki,) həmin şəxsdə heç bir çirk qalmayacaqdır. Onun haqqını möminlərdən o şəxslər tanıyıblar ki, malın (dünya malının) zinəti, övlad və var-dövlət kimi göz aydınlığı olan şeylər onları ondan saxlamır. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Qur'ani-Kərimin Nur surəsinin 37-ci ayəsində) buyurur: «رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ» «O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz.» Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) Cənnətlə müjdələnməsinə baxmayaraq, özünü namaz üçün çətinliyə salırdı (çox namaz qılırdı). Səbəb eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın (Ta-ha surəsinin 132-ci ayəsindəki) bu buyuruğu idi ki: «وَأْمُرْ أَهْلَكَ بِالصَّلَاةِ وَاصْطَبِرْ عَلَيْهَا» «Əhlinə (əhli-beyt və ümmətinə) namaz qılmağı əmr et və özün də onun yerinə yetirilməsində səbrli ol.» Buna görə də o Həzrət həm öz əhlinə namazı əmr

edirdi, həm də özünü onun çətinliklərinə səbrli olmağa məcbur edirdi. Sonra, zəkat müsəlmanlar üçün namazla birlikdə tanışlıq vasitəsi edilib (onun əda edilməsi namaz kimi Allaha yaxınlaşma vasitəsidir). Zəkat, onu öz istəyi, rəğbət və sevinclə əda edən kəs üçün kəffarə (və günahların örtüyü), eləcə də oddan (Cəhənnəm odundan) saxlayan və qoruyandır. (Onu ödəyən) heç bir kəs onun fikrində olmamalı və ona görə çox kədərlənməməlidir. Çünki (malın fikrində olmaq və kədərlənmək var-dövlətə bağlılıq səbəbindəndir və ona bağlı olmaq Allaha yaxınlaşmağa ziddir və) onu könülsüz verib (əvəzində) ondan üstün olan şeyə (əbədi Cənnətə) ümidvar olan kəs (Allahı sevmək iddiasında yalançı və) Həzrət Peyğəmbərin sünnəsinə nadandır. O, (yəni, zəkatı ürəksiz verən şəxs) savab və mükafat əldə etməkdə ziyana uğrayıb (çünki savab və mükafatı əməl müqabilində verirlər, bu əməl isə Allahın razılığının əksinədir) və əməldə azğındır (çünki göstərişlərə zidd davaranıb). Onun peşmançılığı çoxdur (çünki vəzifəsini yerinə yetirməsinə baxmayaraq, onun nəticəsindən məhrumdur).

(Namaz və zəkatı yerinə yetirdikdən) sonra əmanəti əda edin. Çünki onun əhli olmayan (ona xəyanət edən) kəs naümid edilər. Həqiqətən əmanət ucaldılmış göylərə, sərilmiş yerlərə və yüksəldilmiş möhkəm dağlara təqdim və təklif edildi. Onlardan hündür, geniş, uca və böyük bir şey yoxdur. Əgər bir şey yüksəklik, ya genişlik və ya qüvvətlilik, yaxud da qüdrətlilik səbəbindən (o əmanəti qəbul etməkdən) imtina etsəydi, mütləq göylər, yerlər və dağlar imtina edər, təslim olmazdı. Lakin (onların əmanəti qəbul etməkdən çəkinmələrinin səbəbi əmrdən boyun qaçırmaq və itaətsizlik deyil, üzrxahlıq cəhətindən idi və) onlar cəzadan (ona xəyanət etməkdən) qorxdular və onlardan daha zəif olan insanın bilmədiyi şeyi bildilər. «O, çox zalım və nadandır.» (İmam əleyhis-salam burada namaz, zəkat və əmanətin əda edilməsinin əksinə çıxmaq barəsində belə buyurur:)

Bəndələrin gecə və gündüz ərzində etdikləri, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha gizlin deyil. O, onların ən kiçik işlərindən agah, əməllərindən xəbərdardır. Sizin bədən üzvləriniz Onun şahidləri, bədənləriniz qoşun və əmrinə tabe olanlar, düşüncələriniz gözətçiləridir və sizin gizlilərinizOnun yanında aşkardır.

←190-cı xütbə

Nəhcül-bəlağə. xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

192-ci xütbə→

İmam Əli əleyhis-salamın (Müaviyənin fikirlərinin daha dolğun və tökdüyü tədbirlərin o Həzrətin tədbirlərindən daha yaxşı olmasını güman edən kəsin zənninin səhv olması barəsindəki) kəlamlarındandır. Allaha and olsun ki, Müaviyə məndən zirək deyil, əksinə, o, vəfasızlıq və xəyanət edib, günah və itaətsizliklə məşğuldur. Əgər hiyləgərlik və vəfasızlıq xoşagəlməz olmasaydı (Allah ona əzab müəyyənləşdirməsəydi), mən insanların ən zirəngi olardım. Amma (bilin ki,) bütün hiylə və vəfasızlıqlar günahdır və hər bir günah itaətsizlikdir. Qiyamət günü əhd-peymanını pozmuş hər bir kəs üçün bir bayraq və nişanə olar və o, onunla tanınar (günahı üzə çıxaraq onu oda aparar). Allaha and olsun ki, mən (həmişə onların məkr və hiylələrindən xəbərdar olduğum üçün) qəflətə düşüb qəfillənmirəm ki, barəmdə kələk və hiylə işlətsinlər və çətinlik və giriftarlıqlarda aciz qalmır və zəif düşmürəm.

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

İmam Əli əleyhis-salamın (nicat yoluna təşviq etdiyi, haqqa tabe olanların azlığından nigaran olmamaq barəsindəki və pis işlərdən çəkindirməyi tapşırdığı) kəlamlarındandır. Ey insanlar! Hidayət və nicat yolunda ona tabe olanların azlığından (və müxaliflərin çoxluğundan) qorxub vahiməyə düşməyin. Çünki insanlar toxluğu az, aclığı isə çox olan bir süfrənin başına toplaşıblar. Ey insanlar! (Günah və itaətsizliyə) razı olmaq və (itaət və bəndəlikdən) qəzəbə gəlmək insanları bir yerə toplayır (əzaba hazırlayır, hətta həmin əməli yerinə yetirən bir nəfər olmuş olsa belə! Çünki o, razı olmaq və ya qəzəblənməklə həmin işi görmüş kəs kimidir.) Səmudun (bu qəbilənin peyğəmbəri olmuş Həzrət Salehin) dəvəsini bir nəfər kəsib öldürdü. Allah isə onların hamısını əzaba düçar etdi. Ona görə ki, onlar dəvəni öldürməyə razı olmuşdular. Bu səbəbdən eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Qur'ani-Kərimin Şüəra surəsinin 157-ci ayəsində) buyurur: «فَعَقَرُوهَا فَأَصْبَحُوا نَادِمِينَ» «Səmud tayfası dəvəni kəsib öldürdülər və sonrakı səhərdə (Həzrət Salehin onlara xəbər verdiyi əzabın nişanələrini müşahidə edən kimi) peşman oldular.» Beləliklə, (dəvənin öldürülməsini onların hamısına nisbət verib. Çünki imkanlarının olmasına baxmayaraq, dəvəni öldürənə mane olub qarşısını almadılar. Hətta onun əməlinə razı da oldular və) əzabları belə oldu ki, onların yerləri, (zəlzələ və imarətlərinin) batması nəticəsində qızmış kotan düz yerdə səs edən kimi səs etdi. Ey insanlar! Kim düz yol ilə hərəkət etsə, abadlığa çatar (və susuzluqdan qurtular). Kim səhv və əyri yol ilə getsə (ayağını düz yoldan kənara qoysa), otsuz-susuz çöllüyə düşər (susuzluqdan ölər. Xülasə, kim Allah və Peğəmbərin göstərişlərinə uyğun davransa, xoşbəxt olar. Şeytana və pis işlərə əmr edən nəfsə tabe olan kəs isə əzaba düçar olacaq).

İmam Əli əleyhis-salamın, xanımlar xanımı Fatimə əleyhas-salamı torpağa tapşırarkən buyurduğu nəql edilmiş kəlamlarındandır. O, sanki Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) ilə, o Həzrətin məzarı müqabilində dayanıb sir danışırdı: Salam olsun sənə, ey Allahın Peyğəmbəri, məndən və sənin kənarına enmiş (Bəqi qəbristanlığında, ya evində, ya da Həzrət Peyğəmbərin hərəmində dəfn edilmiş) və sənə tez qovuşmuş qızından! (Alimlərin məşhur nəzərinə əsasən, Həzrət Fatimə atasından sonra dünyada yetmiş beş gün yaşayıb.) Ey Allahın Peyğəmbəri! Mənim sənin seçilmişinə (onun ayrılığına) səbrim azaldı və ona (onun getməsinə) görə taqət və gücüm əldən çıxdı. Amma mənim üçün, səndən ayrılmağı və sənin müsibət və qəminin çətinliyini gördükdən sonra səbrliliyin yeri var. Halbuki sənin başını qəbirinin ləhədinə (çuxuruna) mən qoydum və ruhun bədənindən mənim boynumla sinəm arasında çıxdı. (Bu qədər məhəbbət və bağlılıqla nələr çəkdiyim məlumdur. Amma yenə səbr və dözümlülüyə yer var. Çünki) «Biz Allahınıq və Ona tərəf qayıdacağıq.» Həqiqətən əmanət (Fatimə əleyhas-salam) geri qaytarıldı və girov təhvil alındı. Amma (bu müsibətdə) bundan sonra həmişə qəm-qüssədə olacaq və Allah mənim üçün sənin məskunlaşdığın diyarı seçənə (məni sənə birləşdirənə) kimi gecəm oyaqlıqla keçəcək. Çox tezliklə qızın sənə, ümmətinin o məzluma zülm etməkdə birləşmələrindən (onun haqqını tanımamalarından, qabırğasını sındırmalarından, bətnindəki uşağı salmalarından və Fədəyini qəsb etmələrindən) xəbər verəcək. Buna görə də ondan baş verənlərin hamısını soruş və bizimlə necə rəftar etmələrini xəbər al. Onlar bizə bu qədər zülm etdilər, halbuki sənin getməyindən bir (o qədər də çox) müddət keçməmişdi və sənin xatirələrin unudulmamış, itməmişdi. Sizin hər ikinizə salam olsun, qəzəblənmiş, incimiş və qəlbi sıxılmış şəxsin deyil, (məhəbbət və sevgi ilə) vidalaşanın salamı! Buna görə də getsəm, bu, məhəbbətin olmamasından deyil. Həmçinin əgər qalsam, bu, Allahın səbrlilərə vəd etdiklərinə qarşı pis gümanda olmaqdan deyil. (Sizin yanınızdan gedirəm. Amma hər yerdə sizi xatırlayacağam.)

←193-cü xütbə

Nəhcül-bəlağə. 194-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

195-ci xütbə→

İmam Əli əleyhis-salamın (dünyaya ürək bağlamamaq və itaət və bəndəliyə həvəsləndirmək barəsindəki) kəlamlarındandır. Ey insanlar! Həqiqətən dünya keçid evi, axirət isə qalmaq yeridir. Buna görə də keçid yerindən qərar tutulacaq yeriniz üçün (azuqə) götürün. (Nə qədər ki, dünyadasınız, axirətdə xoşbəxt olmağınız üçün Allaha ibadət və xalqa xidmət edin.) Sizin sirlərinizi bilənin yanında pərdələrinizi tam götürməyin (Allaha itaətsizlik etməyin). Bədənləriniz dünyadan çıxarılmamışdan, qəlblərinizi ondan çıxardın. (Ölümü asanlıqla qarşılamaq üçün dünyaya ürək bağlayaraq vurğun olmayın. Çünki) siz dünyada sınaq qarşısındasınız və ondan başqası (axirət) üçün yaradılmısınız. Biri ölən zaman (dünyapərəst) insanlar deyirlər: (Mal-dövlətdən) yerdə nə qoydu? Mələklər isə deyirlər ki: Qarşıya (ibadət və bəndəlikdən) nə göndərdi? Allah atalarınızı bağışlasın! Bir hissəni (mallarınızın bir hissəsini) qarşıya göndərin (Allahın göstərişi əsasında paylayın) ki, sizin xeyriniz ondadır. Hamısını yerdə qoymayın ki, sizin ziyanınızadır (bunun çoxlu çətinlikləri vardır).

İmam Əli əleyhis-salamın (axirət səfəri üçün azuqə tədarükü görməyə həvəsləndirdiyi) kəlamlarındandır ki, öz səhabələrinə (işa namazından sonra) onunla öyüd-nəsihət verərdi: Allah sizi bağışlasın! Səfər (axirət səfərinin) təchizatlarını hazır edin. Çünki aranızda köç etmək çağırışı ucalıb. Dünyada qalmağı az sanın (ona ürək bağlamayın) və əliniz çatan layiqli azuqə (itaət və bəndəlik) ilə (Allaha tərəf) qayıdın. Çünki sizin qarşınızda kələ-kötür keçid və döngələr, qorxunc və dəhşətli mənzillər vardır (ölümün çətinlikləri, qəbr və Bərzəx aləminin giriftarçılıqları və qiyamət gününün sorğu-sual məntəqələri qarşınızdadır) ki, onlara daxil olmaq və onlarda dayanmaq məcburiyyətindəsiniz. Bilin ki, ölümün gözucu baxışları sizə tərəfdir və sanki onun sizə batırdığı caynaqlarında əsirsiniz (ondan qurtula bilməzsiniz). Çirkin, çox çətin və ağır işlər sizi ondan gizlədib. Buna görə də dünyaya bağlılıqları (özünüzdən) uzaqlaşdırın və özünüzü pərhizkarlıq azuqəsi ilə gücləndirin. (Seyyid Rəzi deyir:) Bundan qabaq (84-cü xütbədə) bu kəlamın bəziləri bu rəvayətdən fərqli bir rəvayətdə keçdi.

İmam Əli əleyhis-salamın Təlhə ilə Zübeyr onunla xilafətdə bey'ət edib onlarla məsləhətləşməyi tərk etməsi və işlərdə onlardan kömək istəməməsindən şikayətləndikdən sonra, onlara buyurduğu kəlamlarındandır. Həqiqətən siz azdan (məsləhətləşməməkdən və sizə böyük görünən meyl və istəklərinizə uyğun davranmamaqdan) narazı idiniz və çoxu arxaya atdınız. Mənə deyin görüm, sizin nədə haqqınız olub və mən onu sizdən əsirgəmişəm? Yaxud (müsəlmanların beytülmalından) hansı payı özüm götürüb sizə verməmişəm? Yaxud hansı haqq və ixtilaflı məsələ olub ki, müsəlmanlardan biri onu mənim yanıma gətirib və mən onda (onun hökmünü bəyan etməkdə) aciz qalmışam və ya onu bilməyib hökmündə səhv etmişəm? (O adam məsləhətləşər ki, işin yolunu bilmir; köməyi o adam istəyər ki, aciz qalır.) Allaha and olsun ki, mən xilafəti istəmirdim, hakimiyyətə meylim yox idi. Amma siz məni dəvət edərək ona məcbur etdiniz. Xilafət mənə çatandan sonra isə mən Allahın kitabına (Qur'ani-Kərimə) və bizim üçün (onda) müəyyənləşdirdiyi və onun əsasında hökm çıxarmağımızı əmr etdiyi göstərişlərə nəzər salaraq tabe oldum. Həmçinin Peyğəmbərin (səlləllahu əleyhi və alih) qoyduğu sünnəyə baxıb (onun) arxasınca getdim. Bu barədə sizin və sizdən başqasının nəzər və fikirlərinə möhtac deyildim və elə bir hökm qarşıya çıxmayıb ki, onu bilməyib sizinlə və digər müsəlman qardaşlarla məsləhətləşmə aparım. Əgər belə olsaydı (hökmlərdən hansısa birini bilməsəydim) sizdən və başqalarından üz çevirməzdim (məsləhətləşmə aparardım). Beytülmalın bölüşdürülməsində bərabər və yeksan davranmağımın (sizi digər müsəlmanlarla bərabər bilib heç kəsi digərindən üstün tutmamağımın) səbəbi barəsində dediklərinizə gəldikdə isə (bilin ki): Mən bu məsələdə də öz nəzərim və nəfsi istəklərlə hökm çıxarmamışam. Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) gətirərək bərqərar etdiyi hökmlər həm mənim, həm də sizin əlinizdədir (onları dəyişdirmək, əvəz etmək olmaz). Allahın, bölüşdürülməsi və müəyyənləşdirilməsi barəsində göstəriş verdiyi və barəsində hökm imzaladığı şeydə də sizə ehtiyacım yox idi. Buna görə də Allaha and olsun ki, mənim yanımda sizin və sizdən qeyrisinin məndən şikayətlənərək məzəmmət etməyiniz üçün heç bir haqqınız

yoxdur. Allah bizim və sizin qəlblərinizi haqqa yönəltsin (ki, söz və əməldə Onun razılığını əldə edək) və həm bizə, həm də sizə səbr əta etsin (ki, dünya və onun malına görə Onun göstərişlərinə zidd davranmayaq).

İmam əleyhis-salam sonra belə buyurdu:

Allah haqqı görüb ona kömək edəni (ona qarşı bir söz danışmayıb bir addım atmayanı) və ya gördüyü zülmün qarşısını alıb zalıma qarşı məzluma yardımçı olanı bağışlasın!

İmam Əli əleyhis-salamın Siffeyn müharibəsi günlərində səhabələrindən bir dəstənin Şam qoşununu söyməsini eşidərkən buyurduğu kəlamlarındandır. Mən sizin (Şam əhalisinə qarşı) söyüş söyməyinizi bəyənmirəm. (Sonra İmam əleyhis-salam buyurur:) Amma əgər onların əməllərini açıqlasanız və vəziyyətlərini (zülm və sitəmlərini, şəhvət və nəfsi istəklərə tabe olmalarını, haqq yoldan çıxmalarını və bu kimi sözləri) xatırlatsanız, bu, danışarkən (söyməkdən) daha yaxşı və (etiraz edərək «onlarla nə üçün müharibə edir, vuruşursunuz?» deyən kəsə) dəlil gətirmək məqamında daha tutarlı və yetərli olar. Yaxşı olar ki, onları söyməyin əvəzinə belə deyəsiniz: Allahım! Bizim və onların qanlarını tökülməkdən qoru; bizimlə onların aralarını düzəlt; onlara azğınlıqlarından nicat ver ki, haqdan xəbərsiz olan onu tanıya bilsin və azğınlıq və düşmənçilik hərisi və vurğunu olan kəs ondan əl çəksin.

İmam Əli əleyhis-salamın Siffeyn müharibəsi günlərinin birində oğlu Həsən əleyhis-salamın döyüş meydanına tələsdiyini görərkən buyurduğu kəlamlarındandır. Mənim yerimə bu gəncə sahib durub onu saxlayın (onun döyüşməsinin qarşısını alın). Məbadə məni kədərləndirsin. Çünki mən bu iki gəncin yəni, Həsənlə Hüseyn əleyhimas-salamın ölümünə xəsislik edirəm (razı deyiləm) ki, onların ölümü ilə Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) nəsli kəsilməsin. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) O Həzrət əleyhis-salamın «إمْلِكُوا عَنِّی هذَ الْغُلامَ» «mənim yerimə bu gəncə sahib durun» kəlamı ən gözəl və fəsih kəlamlardandır.

İmam Əli əleyhis-salamın (Siffeyn müharibəsində), səhabələri onunla «həkəmiyyət» (döyüşən tərəflər arasında hakim təyin etmək) məsələsi barəsində müxalifət edərkən buyurduğu kəlamlarındandır. Camaat! Mənim əmr və fərmanım həmişə - indi müharibə sizi zəif və aciz salana kimi - özüm istəyən şəkildə olub. Allaha and olsun ki, siz müharibəyə könüllü gəlmisiniz, (onu) tərk edən də sizsiniz, halbuki o, düşmənlərinizi daha zəif və aciz salıb. (Buna görə də əgər müxalifət etməsəydiniz Müaviyəyə və Şam qoşununa qalib gələrdiniz və zəfər sizinlə olardı. Amma nə edim?!) Dünən əmr verən idim, bu gün isə əmr edilən; dünən çəkindirən və qadağan edən idim, bu gun isə çəkindirilərək saxlanılan. Siz sağ qalmağı sevdiniz. Mən sizi xoşlamadığınız bir şeyə məcbur etmək istəmirəm. (Sizi müharibə aparmağa məcbur etməyə gücüm çatmır və ya məcbur etməyim məsləhət deyil.)

İmam Əli əleyhis-salamın Bəsrədə səhabələrindən olmuş Əla ibn Ziyad Harisi xəstə ikən Əlanın yanına gedəndə, onun evinin genişliyini görüb buyurduğu kəlamlarındandır. Dünyada bu evin genişliyi ilə nə etmisən? Halbuki sən onun genişliyinə axirətdə daha möhtacsan. (Çünki bu evdə bir neçə gündən artıq qalmayacaqsan. O birində isə həmişəlik qalacaqsan.) Bəli, əgər bu evin genişliyi ilə axirət evinin genişliyini də əldə etmək istəyirsənsə, onda qonaq qəbul edərək qohum-əqrabanla əlaqədə ol, ondan şəriətin (xums, zəkat, sədəqə və digər vacibi və müstəhəbbi) haqlarını ver ki, belə olan halda, bu evin genişliyi vasitəsi ilə axirət evinin genişliyini də qazanmı(ş olar)san. Sonra Əla o Həzrətə dedi: Ey Əmirəl-möminin, qardaşım Asim ibn Ziyaddan sənə şikayət edirəm. O Həzrət buyurdu: Nə üçün? Dedi: O, (tərkidünya rahiblər kimi) cod paltar geyinərək dünyadan uzaqlaşıb. Həzrət buyurdu: Onu mənim yanıma gətirin. O gələndə (Həzrət ona belə) buyurdu: Ey özünün düşmənciyəzi! Murdar və xəbis (şeytan) səni avara edib (və səni bu yola sövq edərək onu sənin gözündə gözəlləşdirib). (Təklik və dərvişliyi öz peşən etməklə) arvad-uşağına rəhm etmirsən? Belə güman edirsən ki, Allah pak şeyləri sənə halal edib, amma sənin onlardan bəhrələnməyini xoşlamır? Sən, Allahın bir neməti sənə halal edərək sənin ondan bəhrələnməyini istəməməsindən aşağısan! (Çünki bu, peyğəmbərlərin və onların canişinlərinin məqamıdır.)

Asim dedi: Ey Əmirəl-möminin, mənim işim sənin kimidir ki, paltarın cod, yeməyin isə bərk və dadsızdır! Həzrət buyurdu: Vay olsun sənə! Mən sənin kimi deyiləm. Çünki Allah-təala haqq rəhbər və imamlara özlərini yoxsullarla bir tutmağı vacib edib ki, yoxsul və kasıbın qəm-qüssəsi onu sıxıb narahat etməsin.

İmam Əli əleyhis-salamın, bir şəxs xalqın əlində olan və onların arasında yayılmış (bir-birinə zidd) uydurma hədislər və müxtəlif rəvayətlər barəsində sual edərkən buyurduğu kəlamlarındandır. İmam əleyhis-salam (onun cavabında) buyurdu: Həqiqətən xalqın əlində olan hədislər haqq və batil, doğru və yalan, nəsx (ləğv) edən və nəsx edilən, ümumi (hamıya şamil olan) və xüsusi (bəzilərinə şamil olan), möhkəm (mənası aşkar olan) və mütəşabih (mənası aydın olmayan), (səhv və yanlışlıqdan) qorunmuş və mövhumdurlar (güman və xəyala əsaslanırlar). Doğrudan da Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) öz zamanında o Həzrətə yalanlar quraşdırdılar və nəhayət, o qalxıb xütbə oxuyaraq buyurdu: «Kim qəsdən və bilərəkdən mənə yalan nisbət versə, yanını mütləq oda (Cəhənnəm oduna) qoyacaqdır.» Həqiqətən sənə hədisi (Həzrət Peyğəmbərdən) dörd nəfər (dörd dəstədən biri) nəql edəcək ki, beşincisi yoxdur: (Birincisi:) İkiüzlü şəxs ki, zahirdə iman gətirərək özünü İslamın qaydaları ilə nümayiş etdirir, (halbuki) günahdan çəkinmir və qəsdən Həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) yalan nisbət verir. Əgər camaat onu münafiq və yalançı hesab etsəydi hədisini qəbul etməz və dediklərinə inanmazdılar. Lakin (onun batinindən xəbərdar olmadıqları üçün barəsində belə) deyirlər: O, Həzrət Peyğəmbərin-səlləllahu əleyhi və alih - səhabələrindəndir ki, onu görüb və hədisi ondan öyrənib. Beləliklə (bu səbəbdən), onun dediklərini qəbul edirlər. Həqiqətən Allah sənə münafiq və ikiüzlü adamlar barəsində xəbər verib, onları vəsf edib və səni ondan agah edib. Həzrət Peyğəmbərdən sonra qalmış münafiqlər azğınlıq başçılarına və (insanları) yalan və böhtanla oda (Cəhənnəmə) çağıran kimsələrə (Müaviyə və başqaları kimilərinə) yaxınlaşdılar. Sonra (hədis uydurmaqla) onları işlərin ixtiyar sahibi və xalqın mal və canına hakim etdilər. Və onların vasitəsi ilə dünyanı yedilər (onun malını zülm ilə əldə etdilər). (Şeytanın şərindən və pisliklərə əmr edən nəfsdən) Allahın qoruduqlarından başqa insanlar həmişə şahlar və dünya ilə yoldaşdılar. (Buna görə də Allahın və Peyğəmbərin razılığının əksinə olan heç bir işdən çəkinmirlər.) Beləliklə, bu münafiq dörd nəfərdən biridir. (İkincisi:) O

şəxsdir ki, Allahın Peyğəmbərindən bir şey eşidib və onu düzgün əzbərləməyib; onda səhvə düçar olub, amma bilərəkdən yalan deməyib. Beləliklə, o, əlində olanı nəql edir, ona əməl edir və belə deyir: Mən onu Həzrət Peyğəmbərdən (səlləllahu əleyhi və alih) eşitmişəm. Buna görə də əgər müsəlmanlar bilsəydilər ki, o, hədisi səhv başa düşüb, (həmin hədisi) ondan qəbul etməzdilər. Əgər o özü də səhv etməsini bilsəydi, onu tərk edər, nəql etməzdi. (Üçüncüsü) O şəxs ki, Allahın Peyğəmbərindən (səlləllahu əleyhi və alih) bir şey əmr etməsini eşidib. (O Həzrət) sonra həmin şeyi qadağan edib, o isə həmin qadağadan xəbərsizdir. Yaxud qadağan etdiyi bir şeyi eşidib. (Peyğəmbər) sonra həmin şeyi əmr edib və o, bunu bilmir. Beləliklə, o, nəsx edilmişi yadında saxlayıb, nəsx edəni isə əldə etməyib. Amma əgər həmin hədisin nəsx edilmiş olmasını bilsəydi, onu nəql etməzdi. Həmçinin müsəlmanlar da onu ondan eşidən zaman hədisin nəsx edilmiş olduğunu bilsəydilər, ona əməl etməzdilər. (Dördüncüsü) Digər şəxs isə Allaha və Peyğəmbərə yalan nisbət verməyib, Allahın qorxusundan və Həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) ehtirama görə yalana nifrət edib, səhv və xəta da etməyib, əksinə, eşitdiyini olduğu kimi əzbərləyib; ona bir şey artırmayıb və ondan bir şey azaltmayıb; nəsx edəni əzbərləyərək ona əməl edib və nəsx edilmişi nəzərdə saxlayaraq ondan çəkinib, ümumi və xüsusini tanıyaraq hər birini öz yerinə qoyub (ümumini xüsusinin, xüsusini ümuminin yerində işlətməyib); onun mütəşabih və möhkəmini bilib (mütəşabihdə diqqətli və ehtiyatlı olub və möhkəmə və mənası aşkar olan hədisə əməl edib). (Bəzən zamanın tələbinə uyğun olaraq) Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) iki mənası olan bir söz deyirdi. Biri müəyyən şey və zamana məxsus olan, digər biri isə hər şey və bütün zamanlara şamil olan söz. (O sözlərin hər ikisi bir şəkildə görünürdü. Amma deyilmə yerindən və digər cəhətlərdən məqsəd məlum olurdu və səhv aradan qalxırdı.) Buna görə də Allah və Onun Peyğəmbərinin (səlləllahu əleyhi və alih) həmin sözdən məqsədinin nə olmasını bilməyən kəs onu eşidirdi və başa düşmədiyi üçün onu olduğunun əksinə, nəzərdə tutulanın ziddinə və deyiləndən başqa cür izah edirdi. Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) səhabələrinin (heç də) hamısı o Həzrətdən (bir şey) soruşub onu başa düşmək üçün səy göstərmirdi. (O Həzrətdən bir şey soruşmamaları və çalışqanlıq göstərməmələri o həddə idi ki,) hətta bədəvi ərəb və bir qəribin gəlib o Həzrət əleyhis-salamdan onların eşitmələri üçün bir şey soruşmasını istəyirdilər. Amma mən bu barədə qarşıma çıxanların hamısını o Həzrətdən

soruşaraq əzbərlədim. Deməli, insanların ixtilafları və onların rəvayət və hədislərdə çaşbaş qalmalarına bu amillər səbəb olur.

İmam Əli əleyhis-salamın (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın göylər, yer və dağların yaradılışının heyranediciliyində qüdrət nümayiş etdirməsi və bacarığı barəsində) xütbələrindəndir. Allah-təalanın qüdrət və səltənətinin (nişanələrindən) və Onun gözəl yaradılışının heyranediciliyindən biri, çox ləpələnən qarmaqarışıq dərin dənizin suyundan quru və hərəkətsiz yeri yaratmasıdır. Ondan sonra (onun buxarından) göylərin bir-birinin üstündə yerləşmiş qatlarını yaratdı və onları, birgə olmalarından sonra bir-birindən ayıraraq yeddi səma etdi. Sonra onlar Rəbblərinin əmri ilə özlərini saxladılar və onlar üçün müəyyənləşdirdiyi yerdə qərar tutdular (dağılaraq bir-birlərindən ayrılmadılar). Qədərsiz mavi su və (Allah-təalanın əmrinə) mütləq şəkildə tabe olan dənizin öz qoynuna aldığı yeri möhkəmləndirdi. Və həmin dəniz, Allahın əmr və fərmanı müqabilində ram, əzəməti qarşısında itaətkardır və Onun qorxusundan onun axması və hərəkət etməsi dayanmışdır. Həmçinin onun (yerin) böyük və sərt daş parçalarını, hündür təpələrini və dağlarını yaratdı və onları öz yerlərində möhkəmləndirərək qərar tutmalı olduqları yerdə saxladı. Beləliklə, onların başları havaya ucaldı, kökləri suda batdı. Və həmin dağları hamar və alçaq yerlərdən qaldırıb dikəltdi, onların köklərini ətraflarındakı yerlərdə və möhkəm məkanlarda basdırdı. Beləliklə, həmin dağların başlarını çox ucaltdı, onların ucalıqlarını ətrafa çəkdi. Onları yerin sütun və dirəyi etdi və yerin mıxları kimi onları ona batırdı. Beləliklə, hərəkətdə olan yer öz əhlini silkələməkdən, yaxud yükü ilə (suda) batmaqdan və ya bir yerdən digər bir yerə getməkdən durdu. Yeri, suları dalğalandıqdan sonra saxlayan, ətrafı rütubətlənib islandıqdan sonra qurudaraq yaratdıqları üçün rahatlıq yeri edən və onu onlar üçün dərin, sakit, axarsız və hərəkətsiz dayanmış (qoynundakı yeri silkələməmək üçün hamısı birdən öz yerindən hərəkət etməyən) dənizin üzərinə sərmiş Allah hər bir eyb və nöqsan sifətlərdən pak və uzaqdır. Möhkəm küləklər həmin dənizi alt-üst və o tərəf-bu tərəf edir və yağış dolu buludlar (yağmaları nəticəsində) onu hərəkətə gətirir. «Bu nişanələrdə Allah-təaladan qorxan kəs üçün ibrət və öyüd vardır.» (Çünki Allahdan qorxmayanlar onlara diqqət etmirlər.)

İmam Əli əleyhis-salamın (səhabələri Şam əhli ilə mühari-bədə süstlük edib bəhanə gətirərək onun əmrlərini yerinə yetirməkdən boyun qaçırarkən onlardan şikayətləndiyi) xütbələrindəndir. Allahım, Sənin bəndələrindən kim bizim zülm və sitəm deyil, ədalət və düzlük, fitnə-fəsad deyil, din və dünyanın islahı üçün dediyimiz sözləri eşidəndən sonra onu qəbul etmirsə, onun müxalifət etməsinin səbəbi Sənə yardımdan boyun qaçırmaq və Sənin dinini izzətli etməkdə tənbəllik göstərməkdən başqa bir şey deyil. Buna görə də ey bütün şahidlərin ən böyüyü, Səni və yer və göylərində sakin etdiyin şeylərin hamısını (cin, insan və mələkləri) ona qarşı (onun, Sənin dininə etinasızlıq mənasında olan mənə qarşı müxalifət etməsinə) şahid tuturam (ki, mən Sənin əmrlərinin təbliğində səhlənkarlıq etməmişəm). Belə olan halda, bu şahid tutmaqdan sonra Sən (bizi) onun yardımına ehtiyacsız edən və onu günahına (bizimlə müxalifətinə) görə cəzalandıransan.

←203-cü xütbə

Nəhcül-bəlağə. 204-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

205-ci xütbə→

İmam Əli əleyhis-salamın (Allah-təalanın bəzi sifətləri barəsindəki) xütbələrindəndir. Həmd o Allaha məxsusdur ki, (zat və sifətlərində) yaratdıqlarına bənzər olmaqdan uca, vəsf edənlərin sözlərindən yüksək və (onları) aciz edəndir. (Heç kəsin Onun həqiqətini vəsf etmək qüdrəti yoxdur.) Yaradılışının (yaratdıqlarında olan) qəribəlik və heyranediciliyi ilə görənlər üçün aşkar, izzətinin böyüklüyü ilə xəyal və güman sahiblərinin düşüncələrindən gizlindir. Başqasından öyrənmədən, (elmini) artırmağa ehtiyac olmadan və (başqasının elmindən) bəhrələnmədən (hər şeyi) biləndir. Fikrə dalıb düşünmədən bütün yaranmışların yaradanıdır. O, elə bir Allahdır ki, qaranlıq və zülmətlər Onu əhatə etmir, aydınlıqlardan işıq istəmir, gecə Onu bürümür və gündüz Ona şamil olmur. Onun (əşyaları) dərk etməsi görmə vasitəsi ilə deyildir. Həmçinin Onun elmi başqasından xəbər almaq nəticəsində deyil.

Bu da həmin xütbənin Peyğəmbər (səlləllahu əleyhi və alih) barəsindəki bir hissəsidir

Allah Həzrət Peyğəmbəri nur (elm və peyğəmbərlik nuru) ilə göndərdi və onu (peyğəmbərliyə) seçməkdə (bütün yaranmışlardan) üstün etdi. Onun vasitəsi ilə bütün dağınıqlıqları bir birinə bağladı (aləmdə olan nizamsızlıq və fitnə-fəsadları islah etdi) və onunla (onun qüdrəti ilə) həmişə qalib olanları məğlub etdi. (O Həzrəti kafir, müşrik və münafiqlərə hakim etdi.) Onun vasitəsi ilə çətini asan və kələ-kötürü hamar etdi və nəhayət, azğınlığı sağ və soldan (şərq və qərbdən) uzaqlaşdırdı.

İmam Əli əleyhis-salamın (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın bəzi sifətlərinə işarə etdiyi, Həzrət Peyğəmbərin mədhi, yaxşıların və Allah-təalanın dostlarının vəsfi barəsindəki və öyüd-nəsihət verdiyi) xütbələrindəndir. Şəhadət verirəm ki, Allah-təala (heç bir işdə zülm və sitəmlə deyil, bütün işlərdə) ədalətlə (ümumi quruluşa, hikmət və mənfəətə uyğun) davranan adil və (Qur'ani-Kərimdə haqq ilə batili bir-birindən) ayıran hakimdir. Və şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi, elçisi və bəndələrinin başçısıdır. Allah məxluqatı (bellərdən bətnlərə) gətirən zaman onları iki cərgə (xeyir və şər) etdi və o Həzrəti xeyir dəstəsinə saldı. O Həzrətin nəsəbində zinakarın payı yox idi və günahkar şərik olmadı. Bilin ki, Allah xeyir və yaxşı (işlər) üçün onun əhli olan adamlar (mömin və pərhizkarlar), haqq (din) üçün sütunlar (peyğəmbərlər), itaət və bəndəlik üçün qoruyucular (hidayət imamları əleyhimus-salam) müəyyənləşdirib. Hər bir itaətdə (yaxşı işdə) sizin üçün Allah tərəfindən bir kömək vardır (Allahın lütf və yardımı sizin halınıza şamildir) ki, dilləri iti və qəlbləri (haqqa) arxayın edir. Həmin köməkdə ehtiyacsızlıq istəyən üçün ehtiyacsızlıq və (xəstəliklərə boyun əyərək az şeyə görə Allah və Peyğəmbərin itaətindən əl götürüb özlərini dünya və axirətdə bədbəxt edənlər üçün deyil, mənəvi xəstəliklərdən) şəfa istəyənlər üçün şəfa vardır. Həmçinin bilin ki, Allahın elminin qoruyucuları olan bəndələri (elmin qorunması onlara tapşırılmış hidayət imamları əleyhimus-salam və din başçıları) qorunmalı şeyi (istedad və dərketmə qabiliyyəti olmayan kəsdən) qoruyurlar (yaxud onu hadisələrin zay edib aradan aparmaması üçün öyrədilməsi münasib olmayan kəsdən gizli saxlayırlar); onun çeşmələrini cari edirlər (istedadı olan kəsə öyrədirlər); bir-birlərinə (elm və hikmət) dolu piyalələr içirdir və sudan doymuş halda qayıdırlar. Onlar şəkk, töhmət və pis gümanlara düşmürlər, qeybət və başqasının pisliyinə danışmaq onların yanına tələsmir. (Xülasə, onların məclisləri şəkk, töhmət, pis gümanlar, qeybət və pis danışıqlardan boş olur.) Allah onların fitrət və xasiyyətlərini bu gözəl sifətlərlə yaradıb (bu sifətlərlə elə tərbiyə ediliblər ki, sanki bu, onların fitrət və təbiətləridir) və bir-birləri ilə bu cür dostluq edir və ünsiyyətdə olurlar. Beləliklə, onlar (xalqın içində,

yaxşısı) götürülən və (işə yaramayanı) çölə tökülən təmizlənmiş toxum və dənin üstün olması kimidirlər. Həmin toxumu digərlərindən təmizləmək seçib fərqləndirib və imtahan xalisləşdirib. (Xülasə, onlar seçilmiş insanlardırlar.) Buna görə də gərək insan, şərəf və böyüklüyü bu sifətləri qəbul etməklə qəbul etsin, qiyamətin çətinliyindən, o gəlib çatmamış çəkinsin (əzaba düçar olmasına səbəb olan bir iş görməsin). Həmçinin insan gərək günlərin qısalığına və bu mənzildə (dünyada) dayanmağının azlığına nəzər salıb düşünsün (qəflət yuxusuna getməsin) ki, bu mənzili digər mənzil (axirət) ilə əvəz edə bilsin. Gərək digər mənzil üçün, eləcə də həmin evdə lazım olmasını bildiyi şey üçün gözəl əməl yerinə yetirsin. Buna görə də (rəzil sifətlərdən uzaq qalmış) o sağlam qəlb sahibinin xoş halına ki, onu (haqq yola) hidayət edənə tabe olur, məhvə sürükləyəndən uzaqlaşır; onu gözüaçıq edənin gözüaçıqlığı və ona göstəriş verənə tabe olmaqla (çətinlik və giriftarçılıqlardan) salamatlıq yoluna çatıb və qapıları bağlanmamış və vasitələri əldən çıxmamış (ölməmiş) nicat (əzabdan qurtuluş) yoluna tələsib, tövbə və (Allaha) qayıdış qapısının açılmasını istəyir və (tövbə ilə) günahı (özündən) uzaqlaşdırır. Həqiqətən onlar yol üstündə dayanıblar və aydın yol aşkar olub.

İmam Əli əleyhis-salamın (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın nemətlərinə şükr barəsində) çox oxuduğu dualarındandır. Həmd o Allaha layiqdir ki, ölmədiyim, xəstələnmədiyim, bədənimin narahat olmadığı, özümün ən pis əməlimə (onun cəzasına) düçar olmadığım, övladsız qalmadığım, dinimdən qayıtmadığım, Rəbbimi inkar etmədiyim, imanımdan nigaran olmadığım, dəli olmadığım və məndən qabaqkı ümmətlərin əzabına düçar olmadığım bir halda gecəmi səhər etdi. İxtiyarsız və (itaətdə səhlənkarlıq baxımından) öz nəfsinə zülm edən bir bəndə olduğum halda səhəri açmışam. Allahım, mənə etiraz etmək haqqı Sənə məxsusdur və mənim bir üzr və bəhanəm yoxdur; Sən mənə verdiyindən başqa bir mənfəət əldə etmək qüdrətim yoxdur; Sən məni qoruduğundan başqa bir pislikdən çəkinə bilmirəm. Allahım, Sənin zənginliyində əliboş və kədərli, Sənin hidayət və nicatında azğın, Sənin səltənət və qüdrətində məzlum, ixtiyar Sənin əlində ola-ola (Sənin, istədiyini etməyinə baxmayaraq,) məğlub və xar olmağımdan Sənə pənah aparıram. Allahım, mənim canımı (göz, qulaq, əl, ayaq və digər bədən üzvləri kimi) əziz üzvlərimdən aldığın ilk əziz şey və mənim yanımda qoyduğun əmanət nemətlərin qaytarılanlarının birincisi et. Allahım, Sənin sözlərindən çıxmağımızdan (göstərişlərinə əməl etməməyimizdən), yaxud Sənin dinindən (çıxıb) fitnə və azğınlığa düşməyimizdən və ya Sənin tərəfindən gəlmiş hidayət və nicatdan qabaq nəfsi istəklərimizin bizə hakim olmasından Sənə pənah aparırıq.

İmam Əli əleyhis-salamın Siffeyndə (eşidənlərə öyüd-nəsihət verdiyi və onların dünya və axirət xeyirlərinin açıqlanması barəsində) buyurduğu xütbələrindəndir. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Allah-təala məni sizə hakim etməklə sizin boynunuzda mənim üçün bəzi haqlar təyin edib. Mənim sizin boynunuzda haqqım olduğu kimi, sizin də mənim boynumda haqqınız vardır. Haqq, vəsf edilərək barəsində danışılan zaman hər şeydən geniş, əməl etmək zamanı isə ən dar şeydir. Kimin başqasının boynunda haqqı varsa, başqasının da onun boynunda haqqı var. Həmçinin başqasının onun boynunda haqqı varsa, onun da (həmin başqasının boynunda) haqqı var. Əgər birinin, boynunda başqalarının haqqı olmadan başqalarının boynunda haqqı olsa, belə bir haqq ancaq eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha məxsusdur. Onun yaratdıqlarının (hətta peyğəmbərlər və övliyaların Onun boynunda heç bir) belə bir haqları yoxdur. Çünki Onun qüdrət və qüvvəsi vardır. Onun müxtəlif qəza-qədəri hər nə barəsində cari olsa, o, ədalətlidir. Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, lütf və kərəminə görə və çox səxavətli, bəxşiş sahibi olduğu üçün itaət etməyi bəndələrin boynundakı Öz haqqı edib və Özünün onların etdiklərinə verdiyi mükafatı bir neçə qat artırıb. Sonra eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Öz haqlarının bəzilərini, insanların bəzilərinin müqabilində digərlərinə vacib edib və haqları müxtəlif vəziyyətlərdə bərabər müəyyənləşdirib. Onların bəzilərini digər bəziləri müqabilində vacib edib və həmin haqların bəziləri ancaq digər bəziləri müqabilində gerçəkləşir. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın vacib etdiyi haqların ən böyüyü valinin rəiyyətin və rəiyyətin valinin boynunda olan haqqıdır. Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah bu hökmü vali ilə rəiyyətin hər birinə vacib edib və onu, onların bir-birlərini sevmələri üçün nizam-intizam və rahatlıq vasitəsi və dinlərinin izzəti edib. Buna görə də rəiyyətin halı, hökmdarların gözəl rəftarlarından başqa bir şeylə yaxşılaşmır. Həmçinin hökmdarların halları rəiyyətin onların göstərişlərini yerinə yetirməkdə əzmkarlıq göstərmələrindən başqa bir şeylə yaxşılaşmır. Buna görə də rəiyyət valinin və vali rəiyyətin

haqqını əda etsə, aralarındakı haqq möhtərəm, dinlərinin qayda-qanunları bərqərar, ədalət və düzlüyün nişanələri bərpa və sünnələr (Həzrət Peyğəmbərin hökmləri) öz yerində icra olar və onun nəticəsində dövran düzələr, dövlət və hökumətin daimiliyinə ümid bəslənilər və düşmənlərin tamahları yoxa çıxar (yadlar onlara hakim ola bilməzlər). Əgər rəiyyət valiyə qalib gəlsə (onun əmr və çəkindirmələrini yerinə yetirməsə), yaxud vali rəiyyətə qarşı həddi aşaraq zülm etsə, onda söz ayrılığı baş verər (sözləri bir olmaz və onlar bir-birləri ilə yekdil olmazlar), zülm nişanələri üzə çıxar, dində fitnə-fəsadlar çoxalar və sünnəyə əməl etmək tərk edilər. Beləliklə, nəfsi istəklərə əməl edilər və şəriətin hökmləri icra edilməz. İnsanların dərdləri (oğurluq, qan tökülməsi, təhlükə, bahalıq və çətinlik) çoxalar və böyük haqqın əda edilməməsi və batil və nahaqqın həyata keçməsi üçün heç kəs kədərlənməz. Nəticədə həmin zamanda yaxşı əməl sahibləri xar, pis əməl sahibləri isə möhtərəm olarlar və (günahların saysız-hesabsız olmasına görə) Allahın, bəndələri məsuliyyətə alması çoxalar. Buna görə də həmin haqqın əda edilməsində sizlər bir-birlərinizə öyüd-nəsihət verin və kömək edin (ki, nəticədə dünya və axirət səadət və xoşbəxtliyini əldə edəsiniz). Çünki heç kəs Allaha layiq itaət və tabeçiliyin həqiqətinə çatmır, hətta Onun razılığını qazanmağa həris olub əməl və bəndəlikdə çox çalışsa belə! Amma Allahın bəndələrə vacib etdiyi haqlardan biri də onların öz aralarında imkan olan və gücləri çatan qədər haqqı icra etmək üçün bir-birlərinə öyüd-nəsihət vermələri və kömək etmələridir. Heç kəs - hətta məqam və dərəcəsi hər nə qədər böyük olsa və dində üstünlüyə malik olsa belə, Allahın Öz haqqından ona kömək edilməsini vacib etdiyi yardımdan ehtiyacsız deyil. (Buna görə də haqq yolda və ona vacib olan şeydə başqasının yardımına ehtiyacı olmayan bir kimsə yoxdur.) Həmçinin heç kəs, hətta xalqın kiçik saydığı və gözlərdə balaca görünən şəxs, haqqın əda edilməsində başqasına yardım göstərməkdə və ya onun özünə yardım göstərilməsində əhəmiyyətsiz deyil. Sonra (həmin vaxt) o Həzrət əleyhis-salamın səhabələrindən biri uzun bir söhbətdə o Həzrətə cavab verib onu çox tərifladi və İmama, eşitdiklərinə tabe olduğunu bildirdi. Sonra İmam əleyhis-salam buyurdu: Yanında Allahın cəlalı böyük olan və qəlbində Onun məqamı uca olan kəsin gözündə Allahın böyüklüyü və yüksək məqamlılığına görə Ondan başqa hər bir şey kiçik görünməyə layiqdir. Belə olmağa daha layiqli (Allahın böyüklüyü müqabilində heç bir böyüklük görməməli) kəs, barəsində Allahın neməti çox olan və Allahın gözəl ehsanlar etdiyi kimsədir. Çünki Allah kimə çox nemət veribsə, Allahın

onun boynunda olan haqqının böyüklüyü də artıb. Saleh insanların gözündə hökmdarların ən pis vəziyyətləri onların öyünməyi və özlərini tərifləməyi sevmələrinin güman edilməsi, həmçinin onların əməllərinin lovğalıq və özündən razılıq kimi başa düşülməsidir. Mən sizin mənim, tərifləməyi və (sizdən) tərif eşitməyi sevməyimi güman etməyinizi xoşlamıram. Allaha şükr olsun ki, mən belə deyiləm. Əgər özümün mədh edilərək tərifləmməyimi sevsəydim də, bu istəyimi əzəmət və böyüklüyə daha layiq olan, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha təvazökarlığa görə tərk edər, özümdən uzaqlaşdırardım. İnsanların çoxları bir işdə çalışıb səy göstərdikdən sonra mədh və tərifi şirin hesab edirlər. Amma hələ qalmış və yerinə yetirmədiyim haqlar və icrasında naçar olduğum vacibi əməllərin müqabilində Allaha itaətimə və sizinlə xoş rəftarıma görə mənə gözəl tərifləmməyin. Mənə zülmkarlara (xoş gəlmək üçün) deyilən sözləri deməyin. Qəzəbli insanlardan (qəzəblənmələrinə görə) çəkinərək gizlədilən şeyləri məndən gizlətməyin. Zahirdə dostluq göstərmək, yaltaqlıq və (dil ilə) rüşvət verməklə mənimlə ünsiyyətdə olmayın. Mənim barəmdə belə güman etməyin ki, əgər haqq deyilsə, o mənə ağır gələcək və mən özümü böyük tutmaq istəyirəm. (Mənimlə haqq söz deyilməyən itaətsiz hakimlər kimi davranmağınızı istəmirəm.) Çünki deyilən haqq sözü və ya təklif edilən ədalətlilik və düzlüyü ağır sanan kəsə haqq və ədalətə əməl etmək daha ağırdır. Buna görə də haqqı deməkdən və ya ədalətli məsləhətlərdən çəkinməyin. (Qorxub çəkinmədən mənimlə haqq söz danışın, düzlük və ədalət hesab etdiyiniz şeyi bəyan edin.) Çünki mən, Allahın mənim nəfsimə daha malik və güclü olduğu yerlərdə kifayət etməsi istisna olmaqla, nə səhv etməkdən yüksəkdəyəm, nə də öz işimdə ondan amandayam. (Buna görə də buyurur:) Həm mən, həm də siz Ondan başqa tərbiyə edən və yetişdirən olmayan Rəbbin ixtiyarındakı bəndə və quluq. O, bizim özümüzün ixtiyarımız olmayan şeylərimizin maliki və ixtiyar sahibidir. (Buna görə də böyüklük Ona layiqdir və Ondan başqalarının vəzifəsi bəndəlik və itaətkarlıq etməkdir.) O bizi (içində) olduğumuz nadanlıqdan çıxardaraq xeyrimizə olan elmə sövq etdi; bizim azğınlığımızı hidayət və doğru yola çevirdi və bizə korluqdan sonra görmə bəxş etdi.

İmam Əli əleyhis-salamın (Allah ilə münacatında Qüreyşdən və o Həzrətin haqqını qəsb edənlərdən şikayət kimi buyurduğu) kəlamlarındandır. İlahi, Qüreyşə və onlara kömək edənlərə qarşı (onlardan intiqam almağa) Səndən kömək istəyirəm. Çünki onlar mənim (Həzrət Peyğəmbərlə) qohumluq əlaqələrimi qırdılar (və məni təyin etdiyi xilafəti qəsb etdilər), mənim qabımı (məqam, dərəcə və abır hörmətimi) dağıtdılar və başqasından daha layiq olduğum haqqa görə mənimlə vuruşmaq üçün bir yerə toplaşdılar. Və dedilər: Bil ki, sənin onu əldə etməyin də haqdır, onun səndən alınması da! İndi istəyirsən qəm-qüssə ilə səbr et, istəyirsənsə də təəssüf və kədərlə öl. (Yəni, xilafətin qəsb edilməsinə razı olmasan səbr etmək və ya ölməkdən başqa bir çarən yoxdur.) Beləliklə, həmin zamanda əhli-beytimdən başqa bir dost, müdafiə edən və köməkçinin olmamasını gördüm və ölümün onları haqlamasına heyfim gəldi. (Əhli-Beytimin məhv olmaması üçün dava-dalaşa razı olmadım.) Buna görə də tikan batmış gözlərimi yumdum və boğazımda sümük qalmasına baxmayaraq, ağzımın suyunu uddum; qəzəbi yatırmaq üçün (çox acı bir bitki olan) əbucəhl qarpızından da acı olan və ürəyə böyük bıçaqlardan da çox ağrı verən şeyə səbr etdim. (Seyyid Rəzi deyir:) Bu kəlam (və Cəməl əhli barəsindəki aşağıdakı hissə) bundan qabaq bəyan edilmiş (yüz yetmiş birinici) xütbədə keçdi. Amma mən bu iki rəvayətdə olan fərqlərə görə onu burada bir daha gətirdim.

Bu da həmin kəlamın o Həzrət əleyhissalamla müharibə etmək qəsdi ilə Bəsrəyə gedənlər barəsindəki bir hissəsidir

(Təlhə, Zübeyr və onların tərəfdarları) mənim tərəfimdən təyin edilmiş hakimlərin (Osman ibn Hüneyf və başqalarının), müsəlmanların mənim ixtiyarımda olan beytülmallarının xəzinədarlarının və əhalisinin hamısı mənə tabe olan və bey'ət etmiş şəhərin sakinlərinin yanına getdilər. Onların arasında təfriqə salaraq mənə münasibətdə olan birliklərini parçaladılar. Şiələrim və tərəfdarlarıma hücum edərək onların bir dəstəsini (beytülmalın gözətçilərini) hiylə və haqsızlıqla öldürdülər. Onların (şiələrin) bir hissəsi

isə qılınc çalmaq üçün dişlərini sıxdılar, (müxaliflərə qarşı) həmin qılınclarla vuruşdular və nəhayət, sədaqətlə (pak iman və etiqad ilə) Allaha qovuşdular (öldürüldülər).

İmam Əli əleyhis-salamın Cəməl müharibəsində Təlhə ilə Əbdürrəhman ibn Əttab ibn Usəydin öldürülmüş cəsədlərinin yanından keçərkən buyurduğu kəlamlarındandır. Hər halda Əbu Məhəmməd (bu, Təlhənin künyəsidir) burda öz diyarından uzaq və qərib düşüb. Bilin, Allaha and olsun ki, mən yer üzündə Qüreyş tayfasından birinin meyidinin sərilməsini istəmirdim. İntiqamı Əbdül Mənaf övladlarından aldım. (Cəməl müharibəsində Aişə ilə birgə olan və onlardan Əbdürrəhman ibn Əttab və Abdullah ibn Rəbiədən başqa heç biri öldürülməyən) Cuməh qəbiləsinin böyükləri isə əlimdən qaçdılar. Həqiqətən də onlar layiq olmadıqları işə boyun uzatdılar və ona çatmamış boyunları sındırıldı. (Dünyapərəstlik üçün xilafət və əmirliyi ələ almaq istədilər, amma arzularına çatmadılar.)

İmam Əli əleyhis-salamın (əsl arif və həqiqi mömin barəsində buyurduğu) kəlamlarındandır. Həqiqətən (mömin) öz ağlını (pərhizkarlıqla, Allah və Peyğəmbərə tabeçiliklə) elə dirildib və nəfsini (zahidlik, bəndəlik və nəfsi istəklərə tabe olmamaqla) elə öldürüb ki, onun eni (bədəni) nazikləşib, bərki (ürəyi) yumşalıb və çox nurlu (bir) parıltı işıq saçıb ona. (O, yüksək tovhid və Allahı tanımaq məqamına çatıb.) Beləliklə, onun nuru ona yolu (hidayət və nicat yolunu) göstərib. O, həmin nurla (haqq) yolda hərəkət edib. Və mərtəbələr (zahidlik, pərhizkarlıq və ibadət) onu (yüksəldərək) əmin-amanlıq qapısı və yaşayış yerinə sövq edib. (Zahidlik və ibadətin mərtəbələrindən hər biri onu digər mərtəbəyə çatdırar və o, nəhayət, əbədi Cənnəti əldə edər.) Həmçinin ayaqları bədəninin rahatlığı ilə, öz qəlbini məcbur etdiyi iş (haqqın nişanələrində fikirləşərək düşünmək) nəticəsində və Rəbbini razı saldığı şey (itaət və bəndəlik) vasitəsi ilə təhlükəsiz və rahat yerdə möhkəmlənib.

İmam Əli əleyhis-salamın öz səhabələrini cihada (Allah yolunda vuruşmağa) həvəsləndirdiyi kəlamlarındandır. Allah sizdən Onun (nemətlərinin) şükrünü yerinə yetirməyinizi istəyir və Öz hökmdarlıq və səltənətini sizin üçün saxlayıb (yer üzünün başçı və rəhbəri olmağa ancaq Onun dostları layiqdirlər). Geniş müsabiqə meydanında (dünyada) sizə çovqanı (başçılıq və ağalığı) ələ almaq üçün bir-birinizlə yarışmaq möhləti verib. Buna görə də paltarlarınızın bağlarını möhkəm bağlayın və (paltarlırınızın) beldən aşağı düşən artığını böyrəklərə kimi qatlayın (paltarlarınızın ayağın üstünə düşən ətəyini yığın, yaxud çox yeyib-içməkdən çəkinin, necə ki, buyurur:) İş fikrində olmaqla qonaqlıq bir araya sığmaz. (Buna görə də əgər bir iş görmək fikrindəsənsə, canına qulluq etməyi tərk et). Yuxu gündüzün qərarlarını necə də çox pozur və bir-birinə vurur. Qaranlıqlar necə də çox qərarların yada düşməsini zehnlərdən silir.

İmam Əli əleyhis-salamın (keçmişlərdən öyüd və ibrət götürmək barəsindəki) kəlamlarındandır ki, onu (Təkasur surəsinin 1 və 2-ci ayələrini yəni,) «أَلْهَاكُمُ التَّكَاثُرُ حَتَّى زُرْتُمُ الْمَقَابِرَ» «bir-birinizə öyünməyiniz sizi (Allahı və qiyamət gününü yada salmaqdan) yayındırdı, o vaxta qədər ki, qəbrlərin ziyarətinə getdiniz» ayəsini oxuduqdan sonra buyurmuşdur. Qəribədir, bu, (ölülərlə öyünən üçün ağıl və düşüncədən) nə qədər də uzaq bir niyyət və məqsəddir! (Allahın əzabından) necə də çox qafil və xəbərsiz ziyarətçilərdirlər! Necə də hədsiz rüsvayçı bir iş! Həqiqətən diyar və şəhərləri gedənlərdən boş gördülər, halbuki yada salmaq və xatırlamaq yeri idi. Əsl yada salmaq və xatırlamaq yeri!! (Fəxr etmək və öyünmək məqsədi ilə) onları uzaq yerdən çağırdılar. Onlar atalarının torpağa gömüldükləri yerlərlə fəxr edirlər, yoxsa bir-birləri qarşısında məhv olanların sayı ilə öyünürlər?! (Ölülərlə öyünənlər pis və qanmaz adamlardırlar ki,) cansız düşmüş cəsədlərdən və onların ətalətdə olan hərəkətlərindən (dünyaya) qayıtmalarını istəyirlər (halbuki bu, adi halda və Allah-təalanın istəyi olmadan qeyri-mümkündür). Hər halda ölülər öyünməyə səbəb olmaqdansa, ibrət alınmağa daha layiqdirlər; onların görüşündə təvazökarlıq etmək onları şan-şöhrət vasitəsi etməkdən daha ağıllı addımdır!! Həqiqətən onlara qaranlıq baxışlarla baxdılar və onlar barəsində nadanlıq və cəhalət dəryasına daxil oldular (və buna görə də onların qəbrləri ilə öyündülər). Əgər onları (onların başlarına gələnləri) viran olmuş geniş şəhərlər və boş qalmış evlərdən soruşsalar, (bu şeylər vəziyyətləri ilə) deyəcəklər ki: Onlar itkin və nişanəsiz halda yerin altına getdilər (məhv oldular) və siz nadanlıq və xəbərsizliklə onların arxasınca gedirsiniz; siz onların başlarını tapdalayır, cəsədlərinin üstündə dayanır, kənara atdıqlarında otlayır (dünya malından yerdə qoyduqlarına ürək bağlayır) və xarabalıqlarında (köçdükləri evlərdə) məskunlaşırsınız. Həqiqətən sizinlə onlar arasında olan günlər çox ağlayır və sizin üçün nalandırlar. Onlar sizin həyatınızın sonunun qabağa getmişləridir ki, çeşmələrinizə (ölüm, qəbir və Bərzəx aləminə) sizdən tez çatıblar. Onlar hörmətli məqama, iftixar və öyünmə vasitələrinə malik idilər, bəziləri padşah, bəziləri isə onların rəiyyəti idilər. Bərzəxin dərinliklərində elə yol

ilə getdilər ki, həmin yolda yer onların ətlərini yeyib və qanlarını içib. Beləliklə, qəbirlərinin çuxurlarında inkişaf və hərəkəti olmayan cansız, aşkar olmayan gizlin və itkin halda səhəri açarlar. Qorxu onları qorxutmur və vəziyyətin pisliyi onları qəmləndirmir. Zəlzələlərdən iztirab keçirib narahat olmur və möhkəm göy gurultusunun səsinə qulaq vermirlər. Qaib və gizlidirlər ki, heç kəs onların qayıdışını gözləmir. Zahirdə hazırdırlar (gordadırlar və uzağa getməyiblər), amma məclislərdə hazır olmurlar (iştirak etmirlər). Bir yerə toplaşmışdılar, dağılışdılar; bir-birilərinə adət etmişdilər, ayrıldılar. Xəbərlərinin gəlib çatmaması və şəhərlərinin sükuta batması müddətin uzunluğu və mənzillərinin uzaqlığına görə deyil, bəlkə onlara elə bir piyalə içirdiblər ki, danışıqlarını lallığa, eşitmələrini karlığa və hərəkətlərini ətalətə çevirib. Buna görə də onlar, vəziyyətləri düşünülmədən vəsf edilsələr, torpağa düşüb yatmış şəxslər kimidirlər. Qəbristanlıq əhli, bir-birləri ilə əlaqə saxlamayan qonşular və bir-birinin görüşünə getməyən dostlardırlar. Onların aralarındakı tanışlıq nisbətləri köhnəlib və qardaşlıq əlaqələri qırılıb. Beləliklə, onların hamısı bir yerə toplaşmalarına baxmayaraq, tək və kimsəsizdirlər, dost olmalarına baxmayaraq, bir-birlərindən uzaqdırlar. Gecələrinin gündüzü və gündüzlərinin gecəsi yoxdur. Gecə ilə gündüzün hansında köçüblərsə (və qəbristanlıq yoluna düşüblərsə), o, onlar üçün həmişəlikdir. (Əgər gecə olubsa, onun gündüzü olmaz və əgər gündüz olubsa, onun gecəsi gəlməz.) Həmin evin çətinliklərini təsəvvür etdiklərindən daha ağır müşahidə etdilər və həmin dünyanın nişanələrini (savab və cəzasını) fikirləşdiklərindən daha böyük gördülər. Beləliklə, həyatın o iki sonluğu (ölümdən sonrakı zamanın xoşbəxtlik və bədbəxtliyi) onlar üçün qayıdış yerinə (Cənnət və Cəhənnəmə) kimi uzanır və həmin müddətdə (Cəhənnəmliklər üçün) qorxu və (Cənnətliklər üçün) ümidvarlığın son dərəcəsi və həddi mövcuddur. Buna görə də əgər ölümdən sonra dilə gəlsəydilər (danışa bilsəydilər), gözləri ilə görüb dərk etdiklərini bəyan edə bilməzdilər. Onların nişanələrinin gözdən itməsi və xəbərlərinin kəsilməsinə (heç kəsin onları görməməsinə və sözlərini eşitməməsinə) baxmayaraq, ibrət alan gözlər onları görür və ağıl qulaqları onları eşidir ki, onlar nitqdən ayrı digər bir yolla (öz vəziyyətləri və ibrətlə belə) deyirlər: O gülümsər və təravətli üzlər tutularaq çirkinləşdi; o incə və nazik bədənlər cansız qalıb; köhnə və cırıq paltarlar geyinmişik (kəfənimiz çürüyüb və bədənlərimiz dağılıb); yatağımızın (qəbrimizin) darlığı bizi çox əziyyətə salıb; vahimə və qorxu bizə irs qalıb (bizdən əvvəlkilərin çəkdikləri qəbr əzabı bizə də gəlib

çatıb); sükuta dalmış mənzillər üstümüzə viran olub (qəbirlərimiz dağılıb); gözəl bədənlərimiz məhv və göyçək üzlərimiz çirkin olub və qorxulu mənzillərdə qalmaq müddətimiz uzanıb. Qəm-qüssədən qurtula və sıxıntıdan genişliyə çıxa bilmədik!! İndi əgər ağıl və düşüncə ilə onların vəziyyətlərini təsəvvür etsən və ya pərdə arxasındakılar – (yəni,) onların qulaqlarında torpaq altındakı heyvanlar tərəfindən nöqsan yaranması və (qulaqların) kar olması, gözlərinə torpaqdan sürmə çəkilməsi və batması, dillərin itilikdən sonra ağızlarda parça-parça olması, qəlblərin oyaqlıqdan sonra sinələrdə ölərək hərəkətdən düşməsi, üzvlərinin hər birində onu çirkinləşdirən və məhv edən yeni çürüntülərin yaranması, ona ziyan dəyməsi yollarının asanlaşması, belə ki, bədənlərinin zərər-ziyanlar müqabilində təslim olması və onları dəf edəcək əllərin, nalə və fəryad qoparacaq qəlblərin olmaması - sənə aşkar olsa, qəlblərdəki kədəri və gözlərdəki tikanı görərsən ki, onlar üçün bu rüsvayçılıq və məşəqqətlərin hər birində dəyişməyən hal və aradan qalxmayan çətinlik vardır. Yer, dünyada naz-nemət içində olan, kef çəkmək və ucalığın yetişdirməsi olan nə çox möhtərəm bədəni və heyranedici rəng sahibini yeyib! O, qəm-kədər zamanı şadlığa üz tutardı və həyatının gözəlliyinə xəsis, boş və əbəs işlərə həris olduğu üçün ona müsibət və kədər gələndə kef çəkməyə üz tutar və özünü qəm-qüssədən yayındırardı. Beləliklə, dünya ona və o, dünyaya güldüyü halda (hər birinin diqqəti digərində olanda) çox qəflət içində olan həyatın şadlıqları əsnasında birdən fələk onu öz tikanı ilə sancdı və qüvvələrini darmadağın etdi (müxtəlif bəla və dərdlərə düçar etdi). Ölüm alətləri ona yaxından tamaşa edirdilər. Beləliklə, o, tanış olmadığı kədərə düçar oldu və bundan qabaq üzləşmədiyi gizli əzab-əziyyətlərlə yoldaş oldu. Xəstəliklər nəticəsində onda çoxlu zəiflik və süstlük yarandı. Amma belə olan halda, yenə də öz sağlamlığına tam inamı var idi (ölmək ehtimalı vermirdi). Qorxub tez təbiblərin istiliyin soyuqluqla müalicə edilməsi və soyuqluğun istiliklə aradan qaldırılması kimi ona adət etdirdikləri şeyə üz tutdu. Amma soyuq dərman istilik xəstəliyini söndürmür, əksinə, onu artırırdı. Həmçinin isti dərman soyuqluq xəstəliyinə onu oynadaraq ağırlaşdırmaqdan başqa bir şey etmir, sağaltmırdı. Münasib mürəkkəb və bəsit dərmanların bir-birinə qatışdırılması ilə onun təbiəti mötə'dilləşmədi və əksinə, həmin tərkiblər hər bir dərdə kömək edərək onu gücləndirirdi. Nəhayət, (xəstəlik və dərdin çətinlik və uzunluğu nəticəsində) onun təbibi süstləşərək aciz qaldı (onun sağalması üçün hansı dərmandan istifadə edəcəyini bilmədi), xidmətçisi yaddan çıxardı (əlini ondan üzdü),

arvad-uşağı və onun qəmini çəkənlər dərdini açıqlamaqdan yoruldular və onun vəziyyətini soruşanların cavabında lal oldular (nəticəsi olan bir söz demədilər). Və onun yanında bir-birləri ilə gizlətdikləri qəmli xəbərdən danışdılar. Biri deyirdi: Onun vəziyyəti elə olduğu kimidir. Digəri onları onun yaxşılaşacağına ümidvar edirdi. Başqa biri onlara onun ölümünə görə təsəlli verirdi və həmin xəstədən qabaqkıların yolu ilə gedilməsini yadlarına salırdı. (Deyirdi ki: Bizdən qabaqkılar bu dünyadan köçüb gediblər. Biz də onlara tabe olub bu dünyadan getməyə naçarıq.) O, bu vəziyyətdə dünyadan ayrılıq və dostlardan uzaqlıq (quşunun) qanadlarına mindiyi əsnada, birdən qəm-qüssələrindən biri ona hücum edər. Beləliklə, onun zirəklik və düşüncələri sərgərdan qalaraq işdən düşər, dilinin rütubəti quruyar. Nə çox mühüm suallar ki, onların cavabını bilər, amma bəyan etməkdə aciz qalar. Nə çox qəlbini ağrıdan səslər ki, onları (ata kimi) ehtiram göstərdiyi böyükdən və ya (övlad kimi) mehriban olduğu kiçikdən eşidər, amma (cavab verməк qüdrəti olmadığı üçün) özünü karlığa vurar. Həqiqətən ölümün, hamısının bəyan edilməsi və ya dünya əhlinin ağıllarının onları dərk və qəbul etməsi çox çətin olan müşkülləri vardır.

İmam Əli əleyhis-salamın (Allahı zikr etməyin fəziləti və Allahın zikrinə məşğul kimsələrin vəsfi barəsində olan) kəlamlarındandır ki, onu (Nur surəsinin 37-ci ayəsi) «رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ» «o kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən yayındırmaz» ayəsini oxuyarkən buyurmuşdur: Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Öz zikrini və Onu yada salmağı qəlblərin cilası və nuru edib ki, onun vasitəsi ilə (Onun əmr və qadağalarını) karlıqdan sonra eşidər, qaranlıqdan (nadanlıqdan) sonra görər, düşmənçilik və ədavətdən sonra itaətkar və ram olarlar (Onun razılığını qazanarlar). Nemət və bəxşişləri əziz olan Allahın həmişə bəzi zaman mərhələlərində və şəriətlərin nişanələrinin itdiyi zamanlarda, düşüncələrində onlarla gizli danışdığı və ağıllarının dərinliklərində söhbət etdiyi bəndələri vardır. (Onlar həmişə Allahı zikr edərək ağıl və düşüncələri ilə Onunla danışarlar.) Onlar çırağı (hidayət və nicat çırağını) göz, qulaq və qəlblərindəki oyaqlıq və sayıqlıq nuru ilə işıqlandırıblar. (Xalqa) Allahın günlərini (müsibət və itaətsizlik nəticəsində məhv olmuş keçmişlərin əhvalatlarını) xatırladırlar (bəyan edirlər ki, ibrət götürsünlər) və (onları) Onun əzəmət və böyüklüyü ilə qorxudurlar (deyirlər ki: Allahdan qorxun və günah etməyin. Çünki O, hər yerdə var və hər şeyi görür və sizi məhv etməyə qadirdir). Onlar çöldəki bələdçi kimidirlər ki, orta yol ilə gedən (ədalət və sədaqətlə davranan) kəsin yolunu mədh edirlər və (onu azğınlıqdan) nicat tapdığı üçün müjdələyirlər. Sağ və sol tərəfə gedən (hər bir işdə ifrata varan və ya səhlənkarlıq edən) kəs üçün isə yolunu pisləyərək onu məhv olmaqdan çəkindirirlər. Onlar bu sifətlərlə həmin qaranlıqların (nadanlıq zülmətlərinin) çıraqları və şübhələrin (azğınlıq şübhələrinin) bələdçiləridirlər. Həqiqətən Allahı zikr etməyin öz adamları var ki, onlar onu dünyanın əvəzində götürüblər. Ticarət və alış-veriş onları Ondan yayındırmır. Onlar ömür günlərini Allahı zikr etməklə keçirirlər. Allahın haram və qadağan etdiklərindən çəkindirən sözlərlə xəbərsizlərin qulaqlarında fəryad qoparırlar. Başqalarını ədalət və düzlüyə buyurur və özləri onu yerinə yetirirlər. Bəyənilməyənlərdən (çirkin söz və əməllərdən) çəkindirir, özləri də çəkinirlər. (Axirətə elə iman və yəqinləri var) sanki

dünyanı sona çatdırıb axirətə daxil olublar, oradadırlar və (bu) dünyadan sonra olanları (başqalarının xəbərdar olmadıqları axirət işlərini) gözləri ilə görüblər. Elə bil ki, Bərzəx əhlinin orada olduqları müddətdəki gizli hallarından xəbərdardırlar və qiyamət, vədlərini onlara sübut edib (onun barəsində heç bir şəkk-şübhələri yoxdur). Beləliklə, dünya əhlinin gözləri qarşısından həmin səhnələr üzərindəki pərdələri elə götürüblər (iman və yəqin nuru ilə gördüklərini elə faş ediblər) ki, sanki onlar (digər) insanların görmədiklərini görür və başqalarının eşitmədiklərini eşidirlər. Əgər onları ağlın ilə, bəyənilən məqamları və layiqli məclislərində təsəvvür etsən (onların ibadət və bəndəlik hallarını nəzərində canlandırsan) - ki, əməllərinin hesab dəftərini açıblar və əmr edilib yerinə yetirmədikləri və ya çəkindirilib səhlənkarlıq etdikləri hər bir kiçik və böyük iş üçün nəfslərinin hesabını aparmağa hazırdırlar, öz ağır günahlarını arxalarına yükləyiblər və onu götürməkdə aciz qalıblar, ağlamaqlarını boğazda boğublar, (hesab aparan zaman) ağlayaraq nalə edə-edə özlərindən sorğu-sual edirlər və təqsirlərindən peşman olub onları etiraf edərək özlərinin Rəbbinə ah-nalə edib fəryad qoparırlar (bağışlanmalarını istəyirlər, xülasə, onları bu halda gözünün önünə gətirsən) - hidayət və nicat nişanələri və gecə çıraqlarını görərsən ki, mələklər onların ətrafına toplaşıblar, onlara rahatlıq və (əzabdan) xatircəmlik nazil olub və göyün (bərəkət) qapıları onların üzünə açılıb. Və onlar üçün Allahın xəbərdar olduğu yerdə şərəfli məkanlar hazırlanıb. Beləliklə, Allah onların (özləri ilə Allah arasındakı hesablarını araşdırılmasındakı) səylərindən razı və məmnundur və onların (günahlardan peşman olma) üsullarını bəyənib. Allah ilə münacat etməklə (günahlardan) bağışlanma mehini hiss edirlər. Onlar Allahın fəzl və kərəminə möhtaclıq girovu və Onun əzəmət və böyüklüyü müqabilində təvazökarlıq əsirləridirlər. Qəm-qüssənin çoxluğu qəlbləri və ağlamağın çoxluğu gözləri yaralayıb. Onların Allaha meyl və rəğbət yolu olan hər bir qapını döyən əlləri var. (Ona yolu olan hər bir qapını döyərək daxil olarlar.) İstəklərini o kəsdən diləyirlər ki, genişliklər Onun yanında daralmır (hər nə qədər bağışlasa və əta etsə səxavət və kərəm dəryasından bir şey əskilmir) və istəyənlər ondan naümid olmurlar. Belə isə sən özün öz hesabını apar. Çünki başqalarının hesabını səndən başqa bir mühasib aparacaq. (Başqalarının hesabını araşdırmağın sənə heç bir xeyri yoxdur. Gərək həmişə öz fikrində olasan və öz hesabını diqqətlə araşdırasan.)

İmam Əli əleyhis-salamın (xalqa öyüd verdiyi) kəlamlarındandır ki, onu (İnfitar surəsinin 6-cı ayəsi) «يَا أَيُّهَا الْإِنسَانُ مَا غَرَّكَ بِرَبِّكَ الْكَرِيمِ» «Ey insan! Səni Kərim olan Rəbbinə qarşı aldadan nədir (ki, göstərişinə əməl etmir, itaətsizlik göstərirsən?)» ayəsini oxuyarkən buyurmuşdur: «Ey insan! Səni Kərim olan Rəbbinə qarşı aldadan nədir?» ayəsinin xitab etdiyi günahkarın dəlil və sübutu ən səhv dəlillərdəndir. Və o, bəhanəsi heç qəbul edilməyən aldanmış kimsədir. Həqiqətən o özünün nadan qalmasına israr edib. Ey insan! Səni günah etməyə nə cürətləndirdi? Rəbbin müqabilində səni məğrur edən nə oldu? Səni, özünü məhv etməyə nə alışdırdı? Məgər dərdinin dərmanı yoxdur, yaxud yuxudan ayılmayacaqsan? Başqasına rəhm etdiyin şeydə öz canına yazığın gəlmir? Çox vaxt birini günün altında görür və onun üstünə kölgə salırsan və ya birini bir dərdə düçar olmuş görürsən ki, dərd onun bədənini yandırır və sən mehribançılıq səbəbindən ona ağlayırsan. Belə isə səni öz dərdinə (günahlarına) səbrli edən, müsibətlərinə dözümlü edən və səni, sənin üçün canların ən əziz və istəklisi olan öz canına ağlamaqdan saxlayan, təmkinli edən nədir? Allahın qəzəbinin gecə ikən haqlaması qorxusu səni necə qorxutmur, halbuki Ona qarşı itaətsizliklərlə Onun qəzəb yollarına düşmüsən? Buna görə də öz qəlbinin süstlük dərdini əzm və (itaətdə) çalışqanlıqla, gözünün qəflət yuxusunu oyaqlıqla dərman et. Allaha itaətkar ol və Onun zikri ilə ünsiyyətdə ol. Sən Ondan üz döndərərkən Onun sənə üz tutmasını təsəvvüründə canlandır (və fikir yolu ilə bax) ki, səni Öz əfv və bəxşişinə çağıraraq fəzl və kərəminə bürüyüb, amma sən Ondan üz döndərərək başqasına üz tutmusan. Bütün bunlarla yanaşı Allah uca, üstün və qüdrətli olmasına baxmayaraq, nə qədər də çox kərimdir və sən, alçaq və aciz olmağına baxmayaraq, çox itaətsizlik etməkdə nə qədər də cürətlisən, halbuki Onun (əfv və bağışlama) pərdəsinin pənahında yaşayır və lütf və ehsanının genişliyində gəzirsən! Amma O, nəinki bəxşiş və mərhəmətini səndən əsirgəməyib və Özünün (bağışlama) pərdəsini sənin (günahların) üzərindən götürməyib, bəlkə sənin üçün yaratdığı nemət və bəxşişdə və ya örtdüyü günahlarında, yaxud uzaqlaşdırdığı bəlalarında bir göz qırpımı Onun lütfündən uzaq olmamısan (halbuki sən yenə də Ona itaətsizlik istiqamətində

çalışırsan). İndi Ona (Onun göstərişlərinə) tabe olmaq barəsində nə düşünürsən? Allaha and olsun ki, əgər bu sifət (Allahın sənə üz tutması və sənin Ondan üz çevirməyin) qüvvələri bir və qüdrətləri bərabər olan iki şəxsdə olsaydı (və onlardan üz tutandan uzaqlaşan sən olsaydın) elə özün xoşagəlməz xislətlər və rəftarlarının pisliyinə görə öz ziyan və pisliyinə (öz əleyhinə) hökm verən ilk kəs olardın. (Bəs sənin özün öz pisliyinə hökm verdiyin bir halda, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah müqabilində özünü necə hiss edirsən?) Haqq və düz deyirəm (ki, həqiqətən) dünya səni aldatmayıb, bəlkə sən ona aldanmısan. Dünya sənə öyüd-nəsihətləri aşkar edib və səni ədalət və bərabərliklə xəbərdar edib. Sənə cisminin dərdə düçar olacağı və gücünün azalacağı kimi verdiyi vədlərdə daha doğruçu və vəfalıdır və sənə yalan demir və aldatmır səni. Nə çox nəsihət verən ki, sən onu təqsirləndirirsən (onun ibrətlərindən nəticə çıxarmırsan və sənin nəfsi istəklərinə zidd olduğu üçün ona əhəmiyyət vermirsən). Və nə çox doğru xəbər ki, sən onu yalan sanırsan. Əgər dünyanı xaraba şəhərlər və boş evlərlə tanımaq istəsən, onun gözəl nəsihətçi və öyüd verən olduğunu görərsən ki, mehriban yoldaş kimi səni məhvə çəkməyə qıymır. (Buna görə də buyurur:) Dünya ona ürək bağlamayan üçün gözəl ev və onu vətən (öz həmişəlik yaşayış yeri) etməyən üçün gözəl yerdir. Dünya əhlinin sabahkı (qiyamətdəki) xoşbəxtləri bu gün dünyadan qaçan (və onun malına ürək bağlamayan, vurulmayan) kimsələrdir. Yer möhkəm titrəyəndə və onun qorxu və çətinlikləri ilə qiyamət gerçəkləşəndə, hər bir din əhli öz dininə, bütün sitayiş edənlər öz mə'budlarına və bütün tabe və davamçılar öz rəhbərlərinə qovuşanda (söz və əməllərinin araşdırılması üçün bir yerə toplaşanda) Allahın ədaləti müqabilində havaya salınan hər bir nəzər və yerdə atılan hər bir yavaş addıma düzlük və doğruluqla əvəz veriləcək. (Həmin gün hər bir pis və yaxşı iş, hətta kiçik olsa belə, aşkar olacaq və onun barəsində sorğu-sual ediləcək.) Beləliklə, həmin gün çox dəlil və sübutlar batil olacaq və insanın sığındığı çox üzr və bəhanələr qəbul edilməyəcək. Buna görə də öz əməlindən, vasitəsi ilə bəhanələrin qəbul ediləcək və dəlilin möhkəmlənəcək şeyi istə. Sənin onun üçün qalmayacağın şeydən (dünyadan) sənin üçün qalacaq şeyi (Allaha itaət və xalqa xidməti) götür. Öz səfərin üçün hazır ol. (Çətinliklərindən) nicat və qurtuluş işığına nəzər sal (gör hardan saçır və hara gedir) və yəhəri cəld və çevik dəvələrin belinə bağla (axirət səfəri üçün azuqə və minik tədarükü gör ki, yolda qalmayasan və çətinliklərlə qarşılaşmayasan).

İmam Əli əleyhis-salamın (öz vəsfindəki) kəlamlarındandır (ki, onda zülm, sitəm və haqsızlıqdan uzaq olmasını bəyan edib). And olsun Allaha ki, gecəni (iti tikanları olan) dəvətikanının üstündə oyaq keçirməyim və (əl, ayaq və boynumun) zəncirlə bağlanaraq öldürülməyim, mənim üçün qiyamət günü Allah və Peyğəmbərə, bəndələrin bəzilərinə zülm edib dünya malından bir şey qəsb etmiş halda qovuşmaqdan daha xoşdur. Sürətlə köhnəlməyə və çürüməyə doğru gedən (cavanlıq və güclülüyü çox tez qocalıq və zəifliklə əvəz olan) və torpaq altında qalması uzun çəkəcək nəfsə görə kiməsə necə zülm edim?! And olsun Allaha, (qardaşım) Əqili çox yoxsul və pərişan halda gördüm və məndən sizin buğdanızdan (beytülmaldan) bir batman istədi. Həmçinin onun uşaqlarını qəm-kədərdən tutqun rəngdə, toz-torpaqlı saçlarla gördüm, sanki üzləri mavi rənglə (indiqo ilə) qaraldılmışdı. Əqil öz istəyində təkid edərək sözünü təkrar edirdi və mən onun söhbətinə qulaq asırdım. Güman edirdi ki, mən öz dinimi ona sataraq öz yolumdan əl götürüb onun arxasınca gedəcəyəm (hər nə desə yerinə yetirəcəyəm). Buna görə də onun üçün bir dəmir parçası qızdırıb bədəninə yaxınlaşdırdım ki, ibrət götürsün. O, qızarmış dəmir parçasının ağrısından xəstənin nalə etməsi kimi nalə edib fəryad qopardı və az qalmışdı ki, ondan yansın. Ona dedim: Ey Əqil, analar matəmində ağlasınlar! İnsanın oynamaq üçün qızdırdığı dəmir parçasından nalə qoparırsan, amma məni qüdrətli Allahın qəzəbindən yandırdığı oda tərəf çəkirsən?! Sən bu (az) əziyyətə görə nalə qoparırsan, amma mən Cəhənnəm odundan fəryad qoparmayım?! Əqilin əhvalatından daha təəccüblüsü bir şəxsin axşam, ağzıbağlı qabdakı hədiyyə ilə və nifrət edib barəsində bədbin olduğum, sanki ilanın tüpürcəyi və ya qusmağı ilə qatışdırılmış halva ilə yanımıza gəlməsidir. Ona dedim: Bu hədiyyədir, zəkatdır, yoxsa sədəqə? Zəkat ilə sədəqə biz əhli-beytə haramdır. Dedi: Sədəqə və zəkat deyil, hədiyyədir. (Bu hədiyyəni gətirməkdən məqsədi batil olduğu və əslində onun hədiyyə adlandırdığı şey rüşvət olduğu üçün) dedim: Anan matəmində ağlasın. Məni Allahın dininin yolu ilə gəlib aldadırsan? (Məni bu yolla aldatmaq istədiyini) dərk edib anlamırsan, yoxsa dəlisən və

yaxud boş-boş danışırsan? Allaha and olsun, əgər yeddi iqlimi onların göylərinin altında olan bütün şeylərlə birlikdə mənə versələr ki, bir qarışqanın ağzından arpanın qabığını çıxarmaqla Allaha itaətsizlk edim, etmərəm. Həqiqətən sizin dünyanız mənim yanımda çəyirtgənin ağzında çeynədiyi yarpaqdan da ucuz və dəyərsizdir. Əlinin əldən çıxan nemət və qalmayacaq ləzzətlə nə işi? Ağlın yuxuya getməsindən (və onun dünyanın fitnə-fəsadlarını başa düşməkdən xəbərsiz qalmasından) və sürüşmənin (və azğınlığın) çirkinliyindən Allaha pənah aparıram və (bütün hallarda) ancaq Ondan kömək diləyirəm.

İmam Əli əleyhis-salamın (var-dövlətli olmağı istəmək və yoxsulluğa düçar olmamağı diləmək üçün olan) dualarındandır. Allahım, mənim abrımı varlılıqla qoru və şəxsiyyətimi yoxsulluqla alçaltma ki, Sənin ruzi verdiklərindən ruzi istəməyim, yaratdıqlarının pis əməllərində mehribançılıq axtarmayım, mənə bir şey əta edən kəsi mədh etməyə məcbur olmayım və mənə bir şey verməyən kimsənin pisliyinə danışmağa düçar olmayım. Bütün bunlardan sonra Sən verib verməməkdə ixtiyar sahibisən. Çünki hər bir şeyin ixtiyar və qüdrəti Sənin əlindədir.

İmam Əli əleyhis-salamın (dünyanın məzəmməti və ölülərin hallarının bəyanı barəsindəki) xütbələrindəndir. Dünya, (əhli) qəm-qüssəyə bürünmüş, hiylə və xəbisliklə məşhurlaşmış (vəfasızlığı gözüaçıq insanlara gizli olmayan) bir evdir. O, həmişə bir halda qalmır. Ona gələnlər (onun yanmaq, batmaq, uçmuş tavanlar altında qalmaq və müxtəlif xəstəliklərə düçar olmaq kimi dərd və əziyyətlərindən) salamat qalmazlar. Onun halları müxtəlifdir və növbələri dəyişməkdədir (bəzən nemət verər, bəzən də zəhmət). Onda kef çəkmək (nəfsin istəklərinə tabe olmaq) məzəmmət edilib və onda rahatlıq tapılmır. Onun əhli, onda bəla oxlarına hədəfdir ki, dünya öz oxlarını onlara tərəf atır (hər birini bir dərdə düçar edir) və ölümlə məhv edir. Ey Allah bəndələri! Bilin ki, həm siz və həm də bu dünyada sizi əhatə edən şeylər (onun mal, bina və bər-bəzəyi) sizdən qabaq keçənlərin yolundasınız. Onların ömürləri sizinkindən daha uzun, şəhərləri daha abad və nişanələri daha mühüm idi. Onların səsləri kəsilib (danışmırlar), küləkləri yatıb (təkəbbür və məğrurluqları aradan gedib), bədənləri çürüyüb, şəhərləri boş qalıb və nişanələri yoxa çıxıb. Ucaldılmış qəsrlər, möhkəm tikililər və böyük balışları möhkəm daşlar və ləhədə (qəbrin içində olan çuxura) birləşmiş qəbirlərlə əvəz ediblər. O qəbirlər ki, onların astanası viran olub və binası torpaq ilə möhkəmlənib. Həmin qəbirlər bir-birlərinə yaxındırlar. Amma sakinləri qərib və tənhadırlar. (Hər birinin qəbrinin digərinin qəbrinə yaxın olmasına baxmayaraq, onlar bir-birləri ilə görüşmürlər.) Onlar elə bir məhəllə sakinləri arasında məskunlaşıblar ki, (bir-birləri ilə qaynayıb-qarışmadıqları üçün) qorxu içindədirlər; zahirdə rahat olan bir dəstənin içindədirlər, amma əzab-əziyyətdədirlər (bir işləri yoxdur, amma əslində saysız zəhmət və məşəqqətlərə düçardırlar). Vətənlərə (özlərinin həmişəlik yaşayış yerlərinə) uyuşmurlar. Yaxın və qonşu olmalarına baxmayaraq, qonşular kimi bir-birləri ilə qaynayıb-qarışmırlar. Çürüntü onları öz sinəsi ilə yediyi və daş-kəsək onları udduğu (məhv etdiyi) halda onların arasında necə görüş ola bilər?! Özünüzün onların getdikləri yerə getmiş olduğunuzu, həmin yatağın (qəbrin) sizi girov götürməsini və həmin əmanət yerinin sizi qoynuna almasını təsəvvür edin. Belə isə (ey dünyaya aldananlar) əgər sizin

işləriniz (qəbir və Bərzəx aləmi) sona çatsa və ölüləri qəbirlərdən (hesabları araşdırmaq üçün) çıxarsalar, sizin vəziyyətiniz necə olacaq? (Qur'ani-Kərimin Yunus surəsinin 30-cu ayəsində deyilir ki:) «هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَّا أَسْلَفَتْ وَرُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ» «Həmin vaxt hər bir kəs əvvəlcədən qabağa göndərdiyi şey (yerinə yetirdiyi əməl) ilə imtahan ediləcək (onun xeyir-ziyanını görəcək) və həqiqi ixtiyar sahibi olan Allahın hüzuruna qaytarılacaqdır. Onların uydurduqları şey (bütləri Allahın şəriki bilib onların şəfaətlərinə göz dikmələri) işlərinə yaramayacaq».

İmam Əli əleyhis-salamın (Allahın mədhi və əfv edilərək bağışlanma istəmək barəsindəki) dualarındandır. Allahım, Sən öz dostlarınla bütün dostlardan çox dostsan və onların Sənə təvəkkül etdikləri işlərinin islah edilməsinə onların özlərindən də hazırsan (hər bir şeyə qadir olduğun üçün istəyən kimi hər bir işi görürsən). Batinlərini görür, düşüncələrindən xəbərdarsan və gözüaçıqlıq və ağıllarının miqdarını bilirsən. Beləliklə, onların sirləri Sənin yanında aşkardır və qəlbləri Sənə doğru yönəlib. Tənhalıq onları vahiməyə salanda Sənin zikrin onlarla ünsiyyətdə olur, qəm-qüssə onlara qalib gələndə Sənə pənah aparmağa sığınırlar. Çünki bilirlər ki, işlərin sükanı Sənin (qüdrət və qüvvət) əlindədir və onların mənşəyi Sənin qəzavü-qədərindir. Allahım, əgər nə istəyəcəyimi bilməsəm və öz istəyimdə çaş-baş qalsam, məni xeyrim olan şeyə yönəlt və qəlbimi xeyir və yaxşılığım olan şeyə tərəf döndər ki, əgər məni istiqamətləndirsən, bu Sənin hidayət etmələrinin münasib olmayanı və istəkləri rəva etməklərinin qəribə və təəccüblüsü deyil. (Çünki Sən hidayət edən və istəkləri rəva edənsən.) Allahım, mənimlə ədalətinlə deyil, əfv və bağışlamanla davran. (Çünki ədalətlə rəftar etmək cəzalanmağıma və çətinliyə düşməyimə səbəb olar.)

İmam Əli əleyhis-salamın (Ömər barəsində tövriyə yolu ilə buyurduğu, yəni, zahirdə onu tərifləməsi kimi görünən, amma batində onu məzəmmət etdiyi və buna görə də üçüncü xütbədə buyurduqları ilə heç bir ziddiyyət təşkil etməyən) kəlamlarındandır. Allah filankəsin (Ömər ibn Xəttabın) şəhərlərinə bərəkət versin və qorusun ki, o, (Bəzilərinin fikrincə) əyriliyi düzəltdi (azğınları yola gətirdi), xəstəliyi müalicə etdi (bir sıra şəhərlərin əhalisini İslam dininə qovuşdurdu), sünnəni bərqərar etdi (Peyğəmbərin hökmlərini icra etdi) və fitnə-fəsadı arxaya atdı (onun zamanında bir fitnə baş vermədi). Dünyadan pak paltar və az eyblə getdi (Osman kimi özünü çirkinliklərə bulaşdırmadı). Xilafətin xeyrini əldə etdi və onun şərini qabaqladı (nə qədər ki, var idi xilafət işi nizam-intizamda idi və onda heç bir pozğunluq yaranmadı). Allahın itaətini yerinə yetirərək itaətsizlikdən çəkinib Onun haqqını əda etdi. O (dünyadan) köçdü, (lakin) onları (müsəlmanları) elə haçalanmış yollarda qoyub getdi ki, o yollarda yolunu azan hidayət, hidayət edilmiş isə yəqinlik tapmaz.

İmam Əli əleyhis-salamın xalqın onunla bey'ətinin necəliyi barəsindəki kəlamlarındandır və bundan qabaq (əlli üçüncü və yüz otuz yeddinci kəlamda) bunun bənzəri başqa kəlmələrlə keçdi. (Mənimlə bey'ət etmək üçün) əlimi açdınız, mən yumdum, onu çəkdiniz, mən saxladım. Ondan sonra susuz dəvələr su nohurlarına daxil olanda basabas saldıqları kimi izdihamla üstümə töküldünüz. Nəhayət, ayaqqabının ipi (ayaqlardan) açıldı, əba (çiyindən) düşdü, zəif ayaq altında qaldı və xalqın mənimlə bey'ət səbəbindən sevinci o həddə çatdı ki, uşaqlar şad oldular və zəif qoca, çətinlik və məşəqqətdə olan xəstə və yeni yetişmiş qızlar rübəndsiz onun tamaşasına gəldilər.

İmam Əli əleyhis-salamın (pərhizkarlığa yiyələnmək və ölüm haqqında, eləcə də dünyaya aldanmamaq barəsində buyurduğu) xütbələrindəndir. Pərhizkar olmaq və Allahdan qorxmaq (dünya və axirətdə) hidayət və nicat açarı, qiyamət günü üçün azuqə, hər bir əsirlikdən (şəhvətlər və nəfsi istəklərdən) azadlıq vasitəsi və hər bir məhvdən qurtuluşdur. Təqva ilə hacət istəyənin diləyi rəva olur, (əzab və çətinlikdən) qaçan nicat tapır və (Allah-təaladan) çoxlu əta və bəxşişlər əldə edilir. Buna görə də indi ki, əməl yuxarı qalxır (qəbul edilir), tövbə və (günahdan) qayıdış xeyir verir, dua eşidilir (hacətləri qəbul edirlər), dinclik və rahatlıq vaxtıdır (arada ölüm iztirabı və nigarançılıq yoxdur) və qələmlər (yaxşı və pis əməlləri yazanların qələmləri) işləyir (öləndən sonra işdən düşən kimi deyil) iş görün (axirət səfəri üçün azuqə götürün). (Cavanlıqdan qocalığa, güclülükdən zəifliyə) dəyişən ömrün, yaxud (işdən) saxlayan xəstəlik və dərdin və ya (həyatı) oğurlayan ölümün müqabilində ibadət və itaətə tələsin! Çünki ölüm sizin sevinc və ləzzətlərinizi məhv edərək istəklərinizi yox edəcək və düşüncələrinizi uzaqlaşdıracaq. O, sevilməyən görüşçü, (hər nə qədər şücaətli və güclü olsan da) məğlub olmayan mübariz və sorğu-suala tutulmayan intiqamçıdır. Onun tələləri sizi tutub, qəm-qüssə və həlakətləri sizi əhatə edib, (oxlarının) ucları sizi hədəf alıb, üstünlük və qüdrəti aranızda əhəmiyyətlidir və zülmü ardıcıl olaraq sizə çatır. Qılıncının zərbəsinin boşa çıxması çox az mümkündür. Buna görə də kölgələrinin qaranlığının, dərdlərinin şölələnməsinin, çətinliklərindən yaranan özündən getmələrin tutqunluqlarının, dərdlərin canı almalarının, qara geyindirmələrinin və pis dadı daddırmasının sizi haqlaması yaxındır. (Ölüm istəyib-istəməməkdən asılı olmayaraq hamını tapacaq) sanki qəflətən sizin yanınıza gəlib, sir danışanlarınızı susdurub, müşavirlərinizi dağıdıb, nişanələrinizi məhv edib, şəhərlərinizi sahibsiz qoyub və varislərinizi, irslərinizi (həmin vaxt sənə) xeyri olmayan məxsus qohumlar, (sənin ölümünün) qarşısını almayan qəmli qohumlar və (sənin ölümündən) kədərlənməyən xoşhallar arasında bölüşdürmək üçün göndərib. Belə isə (itaət və bəndəlikdə) səy və tələş edin və azuqə götürülən yerdə (axirət

səfərinə) hazır olaraq azuqə götürün. Dünya həyatı keçib gedənlərinizi aldatdığı kimi sizi aldatmasın. O kəslər ki, onun südünü sağdılar (ondan çox bəhrələndilər), ona aldandılar (ləzzət və şadlıq onları qiyamət gününün hesabından qafil etdi), onun sayını ləğv etdilər (günlərini qəflət və xəbərsizliklə sona çatdırdılar) və onun təzəsini köhnəltdilər (cavanlığı qocalığa çatdırdılar). Evləri gorlar, var-dövlətləri isə başqalarının mirası oldu.Qəbrlərinin üstünə gələni tanımazlar, onlara ağlayana əhəmiyyət verməzlər və onları çağırana cavab verməzlər. Buna görə də dünyadan çəkinin. Çünki o, çox hiyləgər, aldadan və ələ salandır. O, bağışladığını geri alan və geyindirdiyini soyundurandır. Onda olan rahatlıq həmişəlik deyil və onun çətinlikləri sona çatmır, dərd-bəlası sakitləşmir. (Buna görə də ağıllı adam belə bir dünyaya ürək bağlamaz və mümkün olan qədər Allah və Peyğəmbərin razılığını əldə edər.)

Bu da həmin xütbənin zahidlər barəsindəki bir hissəsidir

Zahidlər (zahirdə) dünya əhlindən olan, amma (batində) onun əhli olmayan bir dəstədirlər. Buna görə də dünyada onun əhli olmayan kəs kimidirlər (çünki ona ürək bağlamayır, onu müvəqqəti ev sanırlar). Onların dünyadakı əməlləri (ölümdən sonra) gördükləri şey üçündür. Qorxduqları əzabı dəf etməyə tələsirlər. (Dünya əhli ilə oturmalarına baxmayaraq, əslində) bədənləri axirət əhli arasında seyrdədir (iş-gücləri onlarladır). Dünya əhlinin, bədənlərinin ölməsinə əhəmiyyət verməsini görərlər. Onlar isə öz diri qəlblərinin ölməsinə əhəmiyyət verərlər. (İnsanların həmişə qalacaq qəlbi buraxıb fani bədənə yapışmalarını görərlər. Amma onların fikirləri bu olar ki, qəlbin ölməsinə nə səbəb olub və ona çarə qılmaq üçün nə etməlidirlər.)

İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbərin-səlləllahu əleyhi və alih-mədhi barəsindəki) xütbələrindəndir ki, onu Bəsrəyə gedərkən (Bəsrə yaxınlığındakı) «Zi-qar»da buyurub. Vaqidi onu «Cəməl» kitabında nəql edib. Həzrət Peyğəmbər məmur edildiyi şeyi bəyan edib və Rəbbinin sifarişlərini (hökmlərini xalqa) çatdırıb. Beləliklə, Allah onun vasitəsi ilə bir-birindən ayrılmış şeyi nizam-intizama saldı, dağınıqları bir yerə topladı və sinələrdə şölələnən düşmənçilikdən və qəlblərdə alovlanan kin-küdurətdən sonra qohumlar arasında birlik yaratdı.

İmam Əli əleyhis-salamın, səhabələrindən olmuş Abdullah ibn Zəməəyə buyurduğu kəlamlarındandır. Abdullah o Həzrətin xilafəti zamanında onun yanına gələrək (beytülmaldan) bir mal istədi. İmam əleyhis-salam buyurdu. Bu mal nə mənimdir, nə də sənin, bəlkə müsəlmanların (müharibədə kafirlərə qalib gəlib əldə etdikləri) qənimətləri və onların qılınclarının məhsuludur. Buna görə də əgər sən döyüşlərində onlarla şərik olmusansa, onda onlar kimi sənin də payın var. Əks təqdirdə (sənin payın yoxdur, çünki) onların əllərinin topladıqları başqalarının ağzı üçün deyil.

←223-cü xütbə

Nəhcül-bəlağə. 224-cü xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

225-ci xütbə→

İmam Əli əleyhis-salamın (dilin natiq deyil nitq vasitəsi olması barəsindəki, eləcə də öz zəmanəsinin adamlarını və gələcək insanları vəsf etdiyi) kəlamlarındandır. (Əmirəl-möminin əleyhis-salam bir gün bacısı oğlu Cə'də ibn Hübeyrə Məxzumiyə camaata xütbə oxuması göstərişini verdi. Cə'də minbərə çıxanda danışa bilmədi. Sonra o Həzrət özü ayağa durub minbərə çıxdı və müfəssəl bir xütbə oxudu ki, onun bir hissəsi belədir.) Bilin, dil insanın bir parçasıdır ki, əgər şəxs aciz olsa, söz onunla yoldaşlıq etməz. Həmçinin əgər şəxs bacarıqlı olsa, söz dilə imkan verməz. Biz (Peyğəmbər Əhli-Beyti) söz şahlarıyıq (söz bizim əmrimizə tabedir) və onun kökləri bizə batıb və budaqları bizim üstümüzə sərilib (hər bir məsələni lazım olan zaman fəsahət, bəlağət və dolğunluğun son həddində bəyan edə bilirik). Allah sizi bağışlasın, bilin, siz elə bir zamanda yaşayırsınız ki, onda haqq danışan az, dil doğruçuluqda süst və haqqı axtaran xardır. İnsanlar (Allah və Peyğəmbərə) itaətsizliyə hazırlaşıblar və (nəfsi istəklərə tabe olmaq üçün) bir-birləri ilə uyuşmaqda yoldaşlıq edərək birləşiblər. Cavanları pis xasiyyətli, qocaları günahkar, alimləri ikiüzlü və danışanları yaltaqdır. Kiçikləri böyüklərinə hörmət qoymur və varlıları yoxsullarına əl tutmur.

İmam Əli əleyhis-salamın kəlamlarındandır. Ze'ləb Yəmani, Əhməd ibn Qutəybədən, o, Abdullah ibn Yəziddən və o, Malik ibn Dihyədən nəql edib ki: Biz Əmirəl-möminin yanında idik və insanlar arasındakı fərqlərdən (bədənlərinin, əxlaqlarının və davranışlarının yaxşı və pisliyindən) söz düşdü. O Həzrət buyurdu: Maya və yaradılışlarının mənşə və başlanğıcı onlar arasında ayrılıq salıb. (Onların fərqlərinin səbəbi vücuda gəldikləri və yaradıldıqları ünsürlərin müxtəlif olmasıdır.) Bu, onların şor və şirin yerin və bərk və yumşaq torpağın bir parçası olmalarına görədir. (Xülasə, onların müxtəlif olmalarının səbəbi müxtəlif yerlərdə yetişən qida məhsullarından təşkil olunmuş nütfələrdir.) Buna görə də onlar (nütfələri təşkil olunan qidaların yetişmə) yerlərinin yaxın olması qədər bir-birlərinə yaxındırlar (və xasiyyətləri birdir). Eləcə də həmin yerin fərqliliyi miqdarında (sifətlərində) bir-birlərindən fərqlidirlər. Buna görə də (bəzən) gözəl üzlü ağlı az, uzun boylu az himmətli, gözəl əməlli çirkin üzlü, qısa boylu uzaqgörən, gözəl təbiətli pis xislətə bürünmüş, avara-sərgərdan və çaşqın qəlbli ağılı dağınıq və tutqun və xoş dilli qəlbi iti (bilikli və gözüaçıq) olur.

İmam Əli əleyhis-salamın Allahın Peyğəmbərini (səlləllahu əleyhi və alih) qüsl verib kəfənləyərkən buyurduğu kəlamlarındandır. Atam-anam sənə fəda olsun, ey Allahın Peyğəmbəri! Həqiqətən sənin ölümünlə başqalarının (digər peyğəmbərlərin) ölümü ilə kəsilməyən şey - nübüvvət, ilahi hökmlər və səma xəbərləri kəsildi. (Sən öz müsibətində) tək və yeganəsən. Belə ki, digər müsibətlərə təsəlli verənsən. (Çünki sənin müsibətin bütün müsibətlərdən böyükdür.) (Öz vəfatınla dünyadan köçməyinlə isə) ümumisən. Belə ki, insanlar səndə (sənin matəmində) yeksandırlar. (Bu müsibətdə heç kəs kədərsiz deyil.) Əgər səbrliliyə əmr edib nalə, fəryad və fəğan qoparmaqdan çəkindirməsəydin, (sənin ayrılığına görə çox ağlamaqla) həmişə göz yaşlarımın bulaqlarını qurudardım və dərd-qəm daimi və hüzn və kədər həmişə bərqərar olardı. Sənin müsibətində göz yaşının quruması, hüzn və kədərin daimi olması azdır. Amma ölüm elə şeydir ki, onu aradan qaldırmaq mümkün deyil və onu dəf etmək imkansızdır. Atam-anam sənə fəda olsun, bizi Rəbbinin yanında yada sal və öz yadında saxla (bizi unutma və Allah-təaladan günahlarımızın bağışlanmasını istə).

İmam Əli əleyhis-salamın (Allah-təalanın bəzi sifətləri barəsində və Həzrət Peyğəmbərin-səlləllahu əleyhi və alih-mədhindəki) xütbələrindəndir. Şükr o Allaha layiqdir ki, hiss və duyğular Onu (Onun zat və həqiqətini) dərk etməz, məkanlar Onu əhatə etməz, gözlər Onu görməz və pərdələr Onu örtməzlər. Və yaratdıqlarının yaranması və zahir olması ilə Öz vücudunun qədimlik, əbədilik və varlığına dəlildir. Həmçinin yaranmışların bir-birlərinə oxşamaları Onun bənzərinin olmamasına dəlildir. O, Öz vədinə əməl edən və bəndələrinə zülm etməkdən uzaq olan Allahdır. Yaratdıqları ilə ədalətlə davranır və Öz hökmünü onlara düzlük və doğruluqla icra edir. Əşyaların hadis (sonradan yaradılmış) olmaları ilə Öz əzəliliyinə, onların nişanələri etdiyi acizlikləri ilə Özünün qüdrətliliyinə və onların naçarlıq üzündən barəsində narahat olduqları fanilikləri ilə Öz əbədiliyinə (ağıllardan) şahidlik etmələrini istəyib (ki, onlar hər bir hadis və yaradılmışın yaradanının olması və Allahın hadis olmaqdan və naqislikdən pak və uzaq olması qərarına gəlsinlər). O, bir və təkdir, amma ədəd və say əsasında olan birlik və təklik yox! Həmişə olub və var, amma müddət və zaman hesabı ilə yox! (Çünki zamanın yaradıcısı Odur.) Durub və bərqərardır, amma sütun və hamilərlə (onu saxlayan şeylə) yox! (Çünki hər bir şey Ona söykənir və arxalanır.) Zəkalar Onu dərk edər, amma (hisslərlə) dərk etmək yolu ilə yox. (Çünki O, zehinlərdə sığışmaqdan pak və uzaqdır.) Görünənlər (və ya gözlər) Onun vücudunun varlığına şəhadət verirlər, amma birgə, bir yerdə olmasına görə yox. (Çünki məhdud deyil ki, bir yerdə olsun, digər bir yerdə isə olmasın və ya göz Onun başını görsün.) Düşüncələr Onu əhatə etməyib (Onun zatının dərinliyini və həqiqətini dərk etməyiblər), bəlkə düşüncələr vasitəsi ilə düşüncələrə aşkar olub. (Ağıl düşüncə yolu ilə Ona yol tapıb, amma Onun zatının həqiqətini dərk etməyib. Çünki cisim deyil və buna görə də düşüncələr Onu əhatə etmir.) Həmçinin düşüncələrlə düşüncələrdən (onların Onu əhatə etməsindən) imtina edib. (Çünki mümkün varlığın düşüncəsi vacibul-vücud varlığa yol tapa bilməz və buna görə də Onu əhatə edə bilməz.) Eləcə də düşüncələri düşüncələrin yanında mühakiməyə gətirib.

Onun böyüklüyü, nəhayətlərin Ona çatıb Onu cisim olaraq böyük göstərmələri şəklində deyil. Həmçinin Onun əzəməti sonluqların Onda sona çatmaları və Onu bədənə malik böyük kimi göstərmələri qismindən deyil. Bəlkə Onun şə'n, səltənət və padşahlığı böyükdür. Və şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi, seçilmiş elçisi və saleh əməlli sevimlisidir. Allah ona və onun əhli-beytinə (xalqı hidayət etdikləri üçün) salam çatdırsın. Allah onu (insanların qəbul etmələri labüd olan və dəlil gətirmək məqamında kifayət edən) vacib və lazımi dəlillər, aşkar qələbələr və açıq-aydın yol ilə göndərdi. Buna görə o Həzrət də Allahın hökm və sifarişini onun vasitəsi ilə haqqı batildən ayıraraq çatdırdı; insanları nümayəndəsi olduğu doğru yola apardı; doğru yol və aşkar nişanələrə dəlalət edən bayraqları sancdı (ki, heç kəs batili haqq ilə və azğınlığı düzlüklə səhv salmasın). Həmçinin İslamın kəndirlərini möhkəmləndirdi, iman və yəqinin dəstəklərini bərkitdi (ki, həmin kəndir və dəstəklərdən yapışan hər bir kəs azğınlıq və bədbəxtlikdən nicat tapsın və başqası ona hakim olmasın).

Bu da həmin xütbənin (qarışqa, çəyirtkə və bu kimi) bir qism heyvanların yaradılışlarının qəribəlik və heyranediciliyinin vəsfinə dair bir hissəsidir

Əgər insanlar Allah-təalanın qüdrətinin əzəməti, nemət və bəxşişinin böyüklüyü barəsində fikirləşərək düşünsələr, (azğınlıqdan doğru) yola qayıdar və (qiyamətdəki) yandırıcı odun məşəqqət və çətinliklərindən qorxarlar (Allah və Peyğəmbərin göstərişlərinə zidd davranmazlar). Amma qəlblər xəstə və gözlər kordur! Məgər yaratdığı kiçik heyvanın yaradılışını, eləcə də onun (bədən üzvlərinin) bir-birinə birləşmələrini necə möhkəm etməsinə, (bütün kiçikliyinə baxmayaraq,) onun üçün qulaq və göz yaratmasına və onu mütənasib sümük və dəri ilə bəzəməsinə baxmırlar?! Göz ucu baxışla görünməyən və fikirləşməklə dərk edilməyən kiçik gövdəli və nazik bədənli qarışqaya baxın ki, öz yolunu necə gedir və ruzisini əldə etmək üçün necə tələsir. Dəni öz yuvasına daşıyır və onu (çətin gün üçün) anbarında hazır saxlayır. Yayda qış və (isti günlər) gələndə qayıtmaq (soyuq günlərin qayıtması) üçün dənləri toplayır. Allah onun ruzisinə zamindir və halına uyğun olaraq onun ruzi yolunu açıb. Nemət və bəxşişi çox olan Allah, ondan qafil deyil. Əvəz verən Allah onu məhrum və paysız qoymaz, hətta (bir şey bitməyən) quru daşın və ya (bir yerdən digər yerə aparılmayan) sərt daşın içində olsa belə! Əgər qarışqanın qida boruları, yuxarı və aşağısı,

qarnında olan qabırğaları və başında olan göz və qulağı barəsində fikirləşsən, onun yaradılışından (Allahın onun yaradılışındakı hikmət və tədbirindən) heyrətə gələrək onu vəsf etməkdə çətinliyə düşərsən. Buna görə də qarışqanı, yaradılışında heç bir yaradan şərik olmadan (yaradan) və heç bir qüdrətli kömək etmədən əl və ayaqları üzərində saxlayan, dirək və bədən üzvləri üzərində quran Allah (fikir və düşüncəyə yerləşməkdən) çox-çox uca və üstündür. Əgər öz düşüncə yollarını qət edərək onun sonuna çatsan (bütün fikir və düşüncələrini işə salsan), dəlil və sübut hər bir şeyin (digərindən) fərqlənməsində işlədilmiş dəqiqliyə və canlıların növbənöv olmalarının əhəmiyyətinə görə səni ancaq və ancaq bu nəticəyə gətirib çıxaracaq ki, qarışqanın yaradanı elə həmin xurma ağacının yaradanıdır. (Buna görə də İmam əleyhis-salam buyurur:) Onun yaratdıqları arasında böyük-kiçik, ağır-yüngül və güclü-zəif yoxdur və onların hamısı (Onun kamil qüdrəti müqabilində) bərabərdirlər. (Buna görə də belə güman etmə ki, bu kiçik olduğu üçün çətin, digəri isə böyük olduğu üçün asandır.) Həmçinin (Onun qüdrəti müqabilində) göy, hava, külək və su (bunların hər birinin yaradılması) da bərabərdir. Həmçinin günəş, ay, bitki, ağac, su və daşa, gecə ilə gündüzün dolanmasına (bir birini əvəz etməsinə), dənizlərin axmasına, dağların çoxluğuna, qüllələrin uzunluğu və dillərin müxtəlifliyinə baxın. Buna görə də yaradanı inkar edənin və nizama salana inanmayanın vay halına! Belə güman edirlər ki, onlar, (səhra və dağlarda özbaşına bitən və) əkəni, toxum səpəni olmayan bitki kimidirlər və onların müxtəlif surətlərini yaradan olmayıb. Onlar, barəsində iddia etdikləri şeydə dəlil və sübuta malik deyildirlər və əzbərləyərək inandıqları şeydə araşdırma və yəqinləri yoxdur. (Bəlkə onların iddiaları yalnız məğrurluq və güman əsasındadır.) Məgər bənnası olmamış bina və ya canisi olmayan cinayət var? (Hər bir işin onu görmüş amilə möhtac olması zəruri və aşkar bir məsələdir ki, onu inkar etmək səhv və batil bir düşüncədir və onu inkar edən kəs nadan və azğındır.) İstəyirsənsə (qarışqa kimi) çəyirtkədən danış (onun yaradılışının heyranediciliyində fikrə dalaraq düşün) ki, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, onun üçün iki qırmızı göz yaradıb, (ay kimi) iki parıltılı bəbək işıldadıb. Ona gizli (gözlə görünməyən) qulaq qoyub və münasib ağız açıb. Onun üçün (yaşayış yolu və öz xeyir-ziyanını bildiyi) güclü hissiyyat yaradıb və həmçinin vasitəsi ilə (bitkini) kəsib ayırdığı iki diş (verib). Həmçinin oraq (kimi iki ayaq verib) ki, onunla qaçır. Əkinçilər əkinlərinə görə ondan qorxurlar və hətta söz qoyub birləşsələr belə, onun qarşısını ala

bilməzlər. Nəhayət, uçub əkinlərə gələrək onda istədiyini edər, halbuki onun bütün gövdə və bədəni nazik bir barmaq ölçüsündədir. Buna görə də (dərk edilməkdən) pak və uzaqdır o Allah ki, göylər və yerdə olanlar (mələklər və Allaha itaət edənlər) ixtiyar və çarəsizliklə (rahatlıq və çətinlikdə) Ona səcdə edirlər, üzlərini torpağa sürtürlər (itaətkarlıq və zəifliklərini bildirirlər), məcburiyyət və zəiflik üzündən itaət edərək hökmünə tabe olurlar və qorxu üzündən cilovlarını Onun əlinə verirlər. Quşlar Onun əmr və fərmanının ixtiyarındadırlar. O, onların tüklərinin və nəfəslərinin sayını bilir. Onların əl və ayaqlarını su və quruda möhkəmlədib (bəzilərini dəniz, bəzilərini isə səhra sakini edib). Ruzilərini müəyyənləşdirib və onların növlərindən xəbərdardır: bu qarğa, bu qartal, bu göyərçin və bu dəvəquşudur. Hər bir quşu adı ilə çağırıb (hikmət və məsləhətə uyğun yaradıb) və ruzisinə zəmanət verib. (Yağışı olan) ağır buludu yaradıb, yağışını axıdıb, hər bir yerin ondan olan payını müəyyənləşdirib, yerə quruluqdan sonra su verib və quraqlıqdan sonra onda bitki bitirib.

←227-ci xütbə

Nəhcül-bəlağə. 228-ci xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

229-cu xütbə→

İmam Əli əleyhis-salamın tovhid barəsindəki xütbələrindəndir. Bu xütbə özündə elmin (Allahı tanımaq elminin) digər xütbələrin toplamadığı əsas və qaydalarını toplayıb: Onun üçün keyfiyyət və necəlik (zata əlavə edilən sifətlər) müəyyənləşdirən kəs Onu tək bilmir. Onun üçün misil və bənzər (şərik) güman edən kəs Onun həqiqətinə çatmayıb (Onu tanımayıb). Onu (bir şeyə) oxşadan kəs Onu nəzərdə tutmayıb. Ona işarə edən və Onu xəyala gətirən kəs Onu istəməyib. Öz zatı ilə tanınan şey (həqiqət və zatı tanınmış, dərk edilmiş şey) yaradılmış və məxluqdur. Özündən başqası ilə var olan hər bir şey nəticədir. O, faildir, (işləri görəndir) amma alət və vasitələrdən istifadə etmədən! (Çünki alət və vasitələrə möhtac olmaq mümkün varlığın sifətlərindəndir. Ruzi, əcəl və bu kimi şeyləri) təyin edəndir, amma fikir və düşüncə işlətmədən. (Çünki Allah düşüncəyə möhtac olmaqdan pak və uzaqdır.) Ehtiyacsızdır, amma başqasından bəhrələnməklə yox. (Varlıların ehtiyacsızlıqları başqalarından bəhrələnmək vasitəsi ilədir. Allah-təala isə bundan pak və uzaqdır. Çünki o, naqislik və möhtaclığın zəruri nəticələrindəndir.) Zaman və vaxtlar onunla yoldaş deyildirlər. Alət və vasitələr Ona yardım etmirlər. (Çünki alətləri O yaradıb və hər bir kömək və yardımdan ehtiyacsızdır.) Onun mövcudluğu zamanlardan, varlığı yoxluqdan və əzəlilik və əbədiliyi başlanğıcdan qabaqdır. (Çünki hər bir şey Onda sona çatır, O Özü isə sonsuzdur.) Onun hiss və idrak qüvvələrini yaratması ilə Onu dərk etmə vasitəsinin olmaması məlum olur. Əşyalar arasında ziddiyyət və ixtilaf yaratması ilə Onun zidd və müxalifinin olmaması bilinir. Onun əşyalar arasında tay və yoldaş təyin etməsi ilə Onun tay və yoldaşının olmaması başa düşülür. (Çünki hiss, zidd və tayları yaradan Odur.) İşıqlıqla qaranlığı, aşkarla gizlini (ağla qaranı), quru ilə yaşı və isti ilə soyuğu bir-birinə zidd edib. (Müxtəlif ünsürlər kimi) bir-birindən ayrı və uzaq olan zidd şeyləri birləşdirəndir; (ruh ilə bədən kimi) bir-birlərindən ayrı olanları tay və yoldaş edəndir; (qəlbləri və müxtəlif istəkləri bir-birinə qovuşdurmaq kimi) bir-birindən uzaq olanları yaxınlaşdırandır və bir-birinə yaxın olanları bir-birindən ayırandır (ölüm ilə ruhla bədən arasında ayrılıq salmaq kimi).

Heç bir hədd ilə məhdud deyil (çünki məhdudluq vacib varlığa deyil, mümkün varlığa aiddir), ədəd və say ilə sayılmaz (çünki O, onun üçün ikinci fərz edilməyən həqiqi təkdir). Alətlər özlərini (mümkün varlıqları) məhdudlaşdırırlar və vasitələr öz bənzərlərinə işarə edirlər. (Çünki Allah cisim deyil ki, məhdudlaşsın və Ona işarə edilsin.) (Ərəb dilində zamanın başlanğıcını bildirən) «مُنْذُ» («munzu») kəlməsi alət və vasitələrin qədim olmalarına mane olub. Həmçinin (keçmiş zaman felinin əvvəlinə gələndə keçmiş zamanı indiki zamana yaxınlaşdıran, gələcək zaman felinin əvvəlinə gələndə isə azaldan) «قَدْ» («qəd») kəlməsi əzəlilik və əbədiliyin qarşısını alıb. Eləcə də (ikinci cümlədəki inkarı birinci cümləyə birləşdirmək üçün olan) «لَوْ لا» («lau la») kəlməsi kamil olmaqdan uzaqlaşdırıb. Həmin alət və vasitələrlə onların yaradanı ağıllara aşkar olub (ağıllar tərəfindən tanınıb). Həmçinin onlarla, gözlərlə görünməkdən imtina edib. Durğunluq və hərəkət Ona şamil olmur. (Onun barəsində «hardasa qalıb» və ya «bir yerə gedib» demək olmaz.) Onun (məxluqatda) qoyduğu şey Onun Özünə necə cari olsun, yaratdığı şey Onun Özündə necə yaransın və icad etdiyi şey Onda necə icad olsun ki, belə olsa (fərzən durğunluq və hərəkət Onda cari olsa) zatı (artıqlıq və nöqsanla, yəni, hərəkət və durğunluqla) dəyişər və mahiyyəti parçalanar. Həmçinin həmin surətdə Onun həqiqəti əzəlilik və əbədilikdən imtina edər. (Çünki hər bir cisim hadisdir, sonradan yaranmadır.) Əgər (hərəkət və durğunluqda) Onun üçün ön və qabaq tapılsa, arxa da olacaq. (Onda O, başlanğıc olmayacaq, halbuki vacib varlıq başlanğıcların başlanğıcıdır.) Əgər naqisliklə yoldaş olsa, kamilləşmək istəyəcək (halbuki vacib varlığın kamilləşmək istəməsi qeyri-mümkündür). Bu vaxt - (yəni, əgər Onda hərəkət və durğunluq olmuş olsa) hər bir şey Onun varlığının dəlili olduqdan, imtina və qeyri-mümkünlük dəlili ilə Onun, Ondan başqasına (mümkün varlıqlara) təsir edən şeyin təsirindən uzaq olması məlum olduqdan sonra, Onda məxluq olmaq nişanəsi aşkar olacaq və O, (digər yaranmışlar kimi) yaradanın varlığına dəlil olacaq. O Allah ki, haldan hala düşmür (dəyişmir), zavala uğramır və qayib və gizli olması rəva deyil. Doğmayıb ki, doğulmuş (başqasının nəticəsi) olsun (çünki doğan, mürəkkəb və başqasının nəticəsidir); doğulmayıb ki, məhdud olsun (çünki hər bir doğulmuş şey hadisdir və onun varlığı ata-anaya qayıdır, onlara bağlıdır). Onun zatı övladları olmaqdan uca və qadınlarla yaxınlıq etməkdən pak və uzaqdır. (Çünki övladı olmaq və qadından ləzzət almaq məxluq və yaranmışın xüsusiyyətlərindəndir.) Xəyal və düşüncələr Ona çatmaz ki, (fikirdə) Onu

məhdud və mövcud etsinlər; dərk və qavrama itiliyi Onu fikrə gətirməz ki, təsəvvür etsin (bir şəkil və formaya salsın); hisslər Onu dərk etməz ki, Onu hissi varlıq etsin; əllər ona toxunmaz ki, Ona çatsınlar. O, bir hala dəyişmir və halların birindən digərinə keçmir. (Çünki dəyişmək və keçmək cismin xüsusiyyətlərindəndir.) Gecə və gündüzlər Onu köhnəltmir, qocaltmır. Aydınlıq və qaranlıq dəyişmir Onu! Hissələrdən heç biri, bədən və üzvlər, artırma xassələrdən heç biri, başqasının Onunla olması və heç bir hissə ilə vəsf edilməz. Həmçinin Onun barəsində «həd və sonu var; bitdi və tükəndi; şeylər, yuxarı qaldırmaq, yaxud endirmək üçün Onu əhatə edirlər; bir tərəfdən digər tərəfə aparmaq və ya düz saxlamaq üçün bir şey Onu götürdü» deyilməz. Əşyalara daxil olmayıb və onlardan xaric də deyil (bəlkə hər şeyi əhatə edib və hər şeyi biləndir). Xəbər verir, amma dil və dilçəklər vasitəsi ilə yox; eşidir, amma dəliklərlə (qulağın deşikləri ilə) və alətlərlə (eşitmə alətləri ilə) yox; danışır, amma kəlmələrlə yox; (hamının söz və əməllərini) əzbər bilir, amma hafizə qüvvəsi vasitəsi ilə yox (və ya hər bir şeyi qoruyur, amma Özünün başqası tərəfindən qorunmağa ehtiyacı yoxdur); istəyir, amma düşünmədən; sevir və şad olur, amma riqqətə gəlmək və mehribançılıq səbəbindən yox; nifrət bəsləyir və qəzəblənir, amma məşəqqət və çətinliyə görə yox (bəlkə məhəbbət və razılığı müvəffəqiyyət və rəhmət, nifrət və qəzəbi isə rəhmətindən uzaq düşməkdir). Olmasını istədiyi hər bir şeyə «ol!» deyir və o, mövcud olur. (Bu söz) nə (qulaqlara) daxil olan səs vasitəsi ilədir, nə də eşidilən harayla. Allahın kəlamı Onun yaratdığı işindən başqa bir şey deyil. Onun bənzəri bundan qabaq mövcud olmayıb (bəlkə yenidir) və əgər qədim olsaydı, mütləq ikinci allah (və vacibəl-vücud) olardı (və bu qeyri mümkündür). (Allah-təala barəsində) «yoxluqdan sonra var oldu» deyilməz. (Çünki Onun vücudunun nə vaxtsa olmaması olmayıb. O, qədim və əzəlidir. Əgər elə deyilərsə) onda yeni yaranmışların sifətləri Ona şamil olar, Onunla yeni yaranmışlar arasında (seçilmə və üstünlüyə səbəb olan) bir fərq qalmaz və Onun onlardan heç bir məziyyət və üstünlüyü olmaz. Beləliklə, yaradanla yaradılmış bərabər və vücuda gətirənlə vücuda gətirilən yeksan olar. O, məxluqatı başqasından qalmış nümunəsiz yaratdı və onları yaratmaq üçün yaratdıqlarının heç birindən kömək istəmədi. Yeri yaratdı və onu (ona) məşğul olmadan (Öz kamil qüdrəti ilə) saxladı. Onu sakitlik olmayan yer (dalğalanan su) üzərində möhkəmləndirdi. Yeri dirəklərsiz dikəltdi, sütunlarsız ucaltdı, əyilməkdən qorudu və düşmək və yarılmaqdan saxladı. Onun mıxlarını möhkəmləndirdi, sədlərini (dağlarını) basdırdı, çeşmələrini

axıtdı və çaylarını yardı. Beləliklə, tikdiyi süstləşməyib və qüvvətləndirdiyi zəifləməyib. Öz səltənət və böyüklüyü (qüdrət və bacarığı) ilə yerə (və onda olanlara) hakim olan Odur. Odur Öz elm və biliyi ilə onun necəliyini bilən. Böyüklük və izzəti ilə onun hər şeyindən üstündür. İstədiyi heç bir şey Onu aciz qoya bilməz, Ondan boyun qaçıra bilməz və nəhayət, ona qalib gələr. Onların tələsəni Ondan qaça bilməz ki, Ondan qabağa keçsin, qabaqlasın Onu. Dövlətli və varlıya möhtac deyil ki, Ona pay versin. Hər bir şey Ona təvazökar və Onun əzəmət və böyüklüyü qarşısında xar və həqirdir. Onun xeyir və ziyanından (bəxşiş və cəzalarından) yayınmaq üçün səltənət və padşahlığından digər bir yerə qaçmaq gücləri yoxdur. Onun tay və bərabəri olmaq üçün bir bənzəri yoxdur. Əşyaları varlıqlarından sonra vücudları yox olana kimi məhv edən Odur. (Həmin şeylər elə yox edilirlər ki, sanki heç əvvəldən olmayıblar.) Dünyanın yaradıldıqdan sonra yox olması, onu icad etmək və yaratmaqdan daha təəccüblü (və ağır) deyil. Necə də təəccüblü olsun, axı əgər dünyanın bütün canlıları: quşlar, dördayaqlılar, axşamüstü öz tövlələrinə qayıdanlar, səhrada otlayanlar və onların müxtəlif növləri, qanmaz və kütbeyinlər və onların zirəkləri bir yerə toplaşsalar, bir ağcaqanadı yaratmağa gücləri çatmaz, onu yaratmaq yollarının necə olmasını dərk edə bilməz, ağıl və düşüncələri onu bilməkdə mat-məəttəl qalar və gücləri aciz və süst olar. Məğlub olmalarını bildikləri, onu yaratmaqda aciz qalmalarını iqrar və onu yox etməyə qadir olmamalarını etiraf etdikləri halda, əldən-ayaqdan düşmüş və yorğun vəziyyətdə qayıdarlar. Naqisliklərdən pak və uzaq olan Allah dünya məhv olandan sonra (qiyamətdən qabaq) tək qalar və onu yaratmamışdan öncə olduğu kimi Onunla birgə heç nə olmaz. Həmçinin onun yoxluğundan sonra vaxt, məkan, an və zamansız olar. Dünyanın yox olması ilə müddətlər, vaxtlar, illər və saatlar da yox olarlar. (Çünki onların hamısı fələyin yox olması ilə yox olan zamanın hissələridir.) Beləliklə, (hər şeyə) qalib, tək və bütün işlərin qayıdışı Ona tərəf olan Allahdan başqa bir şey olmayacaq. Yaradılışın əvvəlində məxluqat qüdrət və ixtiyara malik deyildi. Onların fanilik və yox olmaları da hər cür imtinasız və boyun qaçırmasız olacaqdır. Əgər onlar imtina edə bilsəydilər, həmişəlik qalardılar. Yaradılış zamanı məxluqatın heç birini yaratmaq Ona çətin deyildi və vücuda gətirib yaratdıqlarını yaratmaq Onu yorub əldən salmadı. (Çünki işin çətin gəlməsi və yorğunluq cismin xüsusiyyətlərindəndir.) O, yaratdıqlarını Öz səltənətini möhkəmləndirmək, yox olmaq və azalmaqdan qorxduğu, (Ondan) qabağa düşə biləcək bənzərinə

qarşı onlardan kömək istəmək, (Ona) hücum edə biləcək düşməndən uzaq olmaq, padşahlığını uzatmaq, hansısa bir şərik Onunla şərikliyində qalib gəldiyi və fəxr etdiyi, qorxu və vahimədə olub onlarla ünsiyyət qurmaq istəyi üçün var etməyib. Beləliklə, varlıqları yaratdıqdan sonra (qiyamətdən qabaq) məhv edəcək, amma onların bir haldan digər hala düşmələri və onların işlərini idarə etmək nəticəsində darıxaraq təngə gəldiyi, rahatlıq və dincliyə çatmaq və onlardan nəsə Ona ağır gəldiyi üçün yox. Onların ömürlərinin uzunluğu Onu bezikdirməyib ki, nəticədə Onu, onları tezliklə yox etməyə vadar etsin. Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah varlıqların nizamını lütf və mərhəməti ilə bərqərar edib, onları Öz əmr və fərmanı ilə (dağılmaqdan) saxlayıb və qüdrəti ilə möhkəmləndirib. Sonra onları məhv olduqdan sonra onlara ehtiyacı olmadan və onların heç birindən kömək almadan qaytaracaq, amma bu, vahiməli və qorxulu vəziyyətdən ünsiyyət halına qayıtmağa, nadanlıq, korluq və azğınlıqdan elm və istəyə, yoxsulluq və ehtiyaclılıqdan varlılıq və ehtiyacsızlığa və həqirlik və zəiflikdən izzətlilik və qüdrətliliyə dönməyə görə deyil.

←228-ci xütbə

Nəhcül-bəlağə. 229-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

230-cu xütbə→

İmam Əli əleyhis-salamın (hidayət imamları əleyhimus-salamın məqam və dərəcələri və) qarşıya çıxacaq acı hadisələr barəsindəki xütbələrindəndir. Bilin! Atam-anam o kəslərə fəda olsun ki, (məndən sonra yolunu azmışlara bələdçi və xalqın imamıdırlar və) onlar, adları (böyüklükləri) göydə (mələklərin yanında) məşhur, yerdə (insanların çoxunun azğınlığına görə onların yanında) isə naməlum olan bir dəstədəndirlər. İşlərinizin dağınıqlığından, (dini və dünyəvi) əlaqələrinizin kəsilməsindən, azyaşlı uşaqları iş üstünə gətirməyinizdən və (onları böyüklərə və qocalara) rəhbər etməyinizdən yaranacaq hadisələrdən xəbərdar olun və gözləyin. Bu hadisələr o vaxt baş verəcək ki, (haram halala qalib gəldiyi üçün) möminə qılınc vurmaq halal yol ilə bir dirhəm qazanmaqdan daha asan olacaq. Bu hadisələr alanın savabı verəndən çox olan zaman baş verəcək. Bu işlər o vaxt olacaq ki, içməmiş sərxoş olacaqsınız və (sizin sərxoşluğunuzun) səbəbi nemət (onun bolluğu) və rifah içində yaşamağınız olacaqdır. Məcburiyyət və naçarlıq olmadan and içəcək və sıxıntıya düşmədən yalan deyəcəksiniz. Bu hadisələr bəla və çətinliklər sizi (yaxşılarınızı) palan dəvənin belindəki güvənləri gəmirdiyi kimi çeynəyən (əziyyətə salan) zaman baş verəcək. Bu çətinlik nə qədər də uzun və bu arzu və ümidvarlıq (həmin çətinliklərdən qurtulmaq arzusu) necə də uzaqdır!! Camaat! Belləri sizin əllərinizin ağır yüklərini götürmüş dəvələrin (pisliklərə əmr edən nəfsin) cilovunu buraxın. (Günaha aludə olmayın və Allah və Peyğəmbərin göstərişlərinə zidd davranmayın) və öz sultanınızdan (İmami-Zamana itaət və tabeçilikdən) uzaqlaşmayın. Yoxsa (dağılışacağınız təqdirdə) işləri gördükdən (çirkin əməllərinizdən) sonra özünüzü məzəmmət edərsiniz (və peşman olarsınız). Üz tutduğunuz fitnə-fəsad alovunu şölələndirməyə (və nahaq qan tökülməsinə) qorxusuz daxil olmayın, həmin yoldan dönün və yolun ortasını onun üçün boş saxlayın (kənara çəkilin ki, gəlib keçsin. Çünki sizin onun qarşısını almaq gücünüz yoxdur. Buna görə də boş yerə çalışmayın. Ona görə ki,) öz canıma and olsun ki, mömin həmin fitnənin alovunun şöləsində həlak olar, müsəlman olmayan isə salamat qalar. Mən sizin aranızda qaranlıqda yanan çıraq kimiyəm ki, yanına gələn hər bir kəs onun işığından bəhrələnir.

Buna görə də ey camaat, (mənim öyüdümü) eşidin və əzbərləyin, qəlblərinizin qulaqlarını hazır edin ki, (sözlərimin nəyə işarə olduğunu) başa düşəsiniz.

İmam Əli əleyhis-salamın (pərhizkarlığa tövsiyə etdiyi və ölümü və ölüləri yada saldığı) xütbələrindəndir. Ey camaat! Sizə pərhizkarlığı və Allahdan qorxmağı, sizə verdiyi nemətlərinə, sizə çatan ətalarına və sizi (xeyir və şər, rahatlıq və çətinliklə) sınamasına görə Ona çox şükr etməyi tövsiyə edirəm. Nə çox nemət ki, sizə məxsus edib və (nə çox) rəhm və mərhəmət ki, halınıza şamil olub. (Həmin nemət və mərhəmətlərdən biri budur ki,) siz öz günah və çirkin işlərinizi aşkar etmisiniz və O (Özünün eybləri örtmək və günahları bağışlamaq sifəti ilə) sizi örtüb (rüsvay və biabır etməyib və bu Onun böyük nemətlərindəndir) və cəzalandırmasına səbəb olan iş görmüsünüz, amma sizə möhlət verib. Həmçinin sizə ölümü yada salmağı və ondan az qafil olmağı tövsiyə edirəm. Siz, sizdən qafil olmayan şeydən (ölümdən) necə qafilsiniz? Sizə möhlət verməyən kəsə (ölüm mələyinə) necə tamah salmısınız və hərissiniz? Buna görə də gördüyünüz ölülər (sizə) öyüd verən olmaq üçün kifayətdirlər. Onları çiyinlər üzərində qəbirlərinə tərəf apardılar, halbuki (çiyinlərə öz ixtiyarları ilə) qalxmamışdılar, qəbirlərinə qoyuldular, halbuki (qəbrə özləri) düşməmişdilər. Beləliklə, (bu dünyadan elə əl çəkib gediblər və heç bir nişanələri qalmayıb) sanki onlar dünyanı qurub abadlaşdıranlar olmayıblar və yerləri həmişə axirət olub. Məskunlaşdıqları dünyadan xaric oldular və hürkdükləri gorda yerləşdilər. Əl çəkdikləri dünyaya bulaşmışdılar və tərəfinə getdikləri axirəti zay etmişdilər. (İndi peşman və acizdirlər.) Nə çirkin işdən (tövbə edib) qayıda bilirlər, nə də yaxşı işləri çoxalda bilirlər. (Çünki axirət müəyyən edilmiş vəzifələri yerinə yetirmək yeri deyil. Bu bədbəxtçilik ona görədir ki,) dünyaya alışdılar və dünya onları aldatdı, ona güvəndilər və dünya onları yerə vurdu (məhv etdi). Belə isə - Allah sizi bağışlasın! - abadlaşdırılmasına əmr edildiyiniz, barəsində həvəsləndirildiyiniz və tərəfinə çağırıldığınız (axirət) mənzillərinizə tərəf sürət götürərək bir-birinizlə yarışın! Allaha itaətə səbrlilik və itaətsizliklərdən uzaq olmaqla Onun sizə olan nemətlərini kamilləşdirin. Çünki sabah (ölümün gəlib çatacağı zaman) bu günə yaxındır. Günün saatları necə də sürətlə keçir; ayın günləri necə də tez arxada qalır; ilin keçməsində

aylar necə də sürətlidir; ömrün illəri necə də tez keçir (ki, onların tez keçmələri həyatın sona çatması və ölümün yaxınlaşması ilə nəticələnir).

İmam Əli əleyhis-salamın (imanın vəsfi barəsindəki) xütbələrindəndir. İmanın (Allahın varlığını təsdiq etmək, Həzrət Peyğəmbərin ilahi elçi olmasına yəqini olmaq və məsum imamlar əleyhimus-salamın vilayətlərinə etiqad bəsləməkdən ibarət olan) bir hissəsi qəlblərdə sabit və bərqərardır (və o, həqiqi imandır ki, dəlil və sübut vasitəsi ilə əldə edilir və insanları azdıran kimsələrin yaratdıqları şəkk-şübhə və azğınlıqlar onu aradan qaldıra bilmir). Onun (dəlil və sübut yolu ilə əldə edilməyən) digər bir hissəsi isə müəyyən edilmiş vaxta (dünyadan köçülənə) kimi qəlblə sinə arasında müvəqqətidir və aradan getməsi ehtimal olunur (istər təqlid edən şəxsin etiqadları kimi yəqinliyi olan olsun, istərsə də güman edilən və xəyali. Çünki belə bir iman qəlbdə sabitləşməyib və yer almayıb). Buna görə də (istər sabit, istərsə də müvəqqəti iman qəlbdə olan bir məsələ olduğu və ondan xəbərdarlıq mümkün olmadığı üçün) sizdə (pis güman və ya çirkin əmələ görə) ikrah yaranan zaman onun (iman əhli və ya kafir olması) barəsində ölüm onu haqlayana kimi səbr edin. (Amma əgər o öz çirkin əməlindən əl çəkməsə və eləcə dünyadan köçsə) onda (belə olan surətdə, onun özünə də ikrahla yanaşılmalı və ondan uzaqlaşılmalıdır. Çünki) o həmin vaxt nifrətə layiq olur. (Ona görə ki, ölümdən sonra iman əldə edilməsi və qazanılması üçün bir vəzifə və iş yoxdur.) Hicrət (zəlalət və azğınlıqdan hidayət və qurtuluşa, küfrdən imana köçmək) Həzrət Peyğəmbərin peyğəmbərliyə göndərilməsinin əvvəlində vacib olduğu kimi vacibdir. Allahın yer üzü əhlinin (küfr ölkələrində) imana tərəf hicrət etmələrini (təqiyyə ilə) gizlədən dəstəyə və (İslam ölkələrində) aşkar edənlərə ehtiyacı yoxdur. Yer üzündəki höccəti (Allahın nümayəndəsini) tanımayınca hicrət adı heç kəsə qoyulmur və şamil olmur. Buna görə də mühacir, Allahın höccətini tanıyan və onu təsdiqləyərək qəbul edən kəsdir. Höccətin xəbəri çatan, qulağı onu eşidən və qəlbində yer tutan kəsə zəif və aciz adı verilməz. (Allahın höccətini tanımaq ləyaqəti hamıda olmadığı və onu tanımağın həqiqəti ancaq sadiq və saf möminlərə məxsus olduğu üçün İmam əleyhis-salam sözünün davamında belə buyurur:) Bizi tanımaq çox çətin bir işdir ki, Allahın qəlbini iman üçün

sınaqdan keçirmiş olduğu (imanı qəbul etməyə layiq bildiyi) mömin bəndədən başqa heç kəs onu götürmür və onun yükünün altına girmir. Həmçinin bizim hədis və sözlərimizi ancaq əmanətçi və inanılmış sinələr və mətin ağıllar qoruyub saxlayarlar. (İmam əleyhis-salamın məqsədi dinləyiciləri özünə tərəf hicrət etməyə və o Həzrətin hədislərinə tabe olmağa təşviq etmək olduğu üçün onlara sual vermək göstərişi verərək buyurur:) Ey insanlar! Məni itirməmişdən, (itaətsiz dəvə kimi hürküb sahibinin əlindən qaçaraq) öz cilovunu tapdalayan və adamlarının ağlını başlarından çıxaran fitnə-fəsad (Bəni-Üməyyənin fitnə-fəsadları) ayaq tutmamışdan (onların fitnələri hər yeri bürüyərək insanları haqq yoldan və öz zəmanə imamlarını tanımaqdan saxlayandan) qabaq, (ilahi maarifi, şəriət hökmlərini və qiyamətə kimi baş verəcək şeyləri) məndən soruşun ki, mən göyün yollarını yerin yollarından daha yaxşı bilirəm.

İmam Əli əleyhis-salamın (təqva, dünyaya ürək bağlamamaq, ölümdən sonrakı çətinliklər və bəlalarda səbrli olmaq barəsindəki) xütbələrindəndir. Allaha bağışladığı nemətlərə görə şükr edirəm. Və Ondan haqlarını yerinə yetirmək (elm və maarif əldə etmək və vacib və müstəhəbbi əməlləri yerinə yetirmək) üçün kömək istəyirəm ki, Onun qoşunu (mələklər, peyğəmbərlər, peyğəmbərlərin haqq canişinləri və onların tabe və davamçıları insanları düz yoldan azdıranlara və azmışlara) qalib, qüdrəti böyükdür. Şəhadət verirəm ki, Məhəmməd (səlləllahu əleyhi və alih) Onun bəndəsi və elçisidir: (insanları) Allaha itaət etməyə və tabe olmağa dəvət etdi, Onun dini yolunda cihad edib vuruşmaqla düşmənlərinə qalib gəldi. Düşmənlərin o Həzrəti inkar etməkdə birləşərək yekdil olmaları və onun nurunu söndürmək (dinini məhv etmək) üçün çalışaraq səy göstərmələri, onu cihaddan saxlamırdı. Buna görə də təqvadan və Allah qorxusundan yapışın. Çünki pərhizkarlıq tutacağı möhkəm olan bir kəndir və zirvəsi bərk olan bir sığınacaqdır. (O, dünya və axirət bədbəxtliyindən nicat tapmağa və qurtulmağa səbəb olur. Ölüm gəlib çatmamışdan itaət və bəndəliklə, eləcə də bağışlanmaya səbəb olan vasitələrlə) ölümə və onun çətinliklərinə doğru tələsin, gəlməmişdən (özünüzü) onun üçün bəzəyin və daxil olmamışdan hazır olun. Çünki qiyamət (savab və cəza veriləcəyi zaman), işin sonudur (və ölüm onun ilk mənzilidir). Ölüm ağıllıya öyüd vermək, nadan və qafilə isə ibrət olmaq üçün yetərlidir. Sona (qiyamətə) çatmamışdan qabaq qəbirlərin darısqallığı, (sərvət, övlad və dostlardan ayrılmağa görə yaranan) qəm-qüssənin çoxluğu, (qiyamətin vəziyyətindən) xəbərdar olacağınız yerin (Bərzəxin) qorxusu, qorxu və vahimənin ardıcıl gəlməsi, (qəbrin təzyiqi nəticəsində) qabırğaların yerlərinin dəyişməsi, qulaqların (qorxunc səslərdən) tutulması, ləhədin (qəbirdəki çuxurun) qaranlığı, Allahın (peyğəmbərlərinin dili ilə) xəbər verdiyi əzabın qorxusu, qəbrin örtülməsi və (vasitəsi ilə qəbrin ağzı bağlanan) enli daşın möhkəmləndirilməsi kimi şeyləri bilirsiniz. Belə isə, ey Allahın bəndələri, Allahdan qorxun, Allahdan qorxun! Çünki dünya sizə (axirət yolu olan və sizdən qabaqkıların keçdikləri) bir yoldan keçəcəkdir.

(O, hamını həmin yol ilə aparır və heç kəsi yerdə qoymur.) Siz qiyamətlə bir ipə bağlanmısız (sizinlə onun arasında uzun bir fasilə və zaman yoxdur). Sanki qiyamət öz əlamət və nişanələrini aşkar edib, bayraqlarını (qabaqkılara birləşməyin müqəddiməsini) yaxınlaşdırıb və sizi (hesab və sorğu-sual üçün) öz yolu üstündə saxlayıb. Sanki çətinliklərini önə gətirib və (yükün, belindən götürülməsi üçün sinəsini yerə qoyan dəvə kimi) sinələrini açıb (ağrılı əzablarını üzə çıxarıb). Dünya öz sakinlərindən əl çəkib və onları öz himayəsindən çıxarıb. Odur ki, keçən bir gün və ya başa çatan bir ay kimi idi. Onun təzəsi köhnəldi və kökü arıqladı (bədənlər zəifləyərək gücsüzləşdi). (Onları) darısqal yerdə (qiyamətin, çətinlikləri ağır və qurtulmaq qeyri-mümkün olan) qarmaqarışıq və böyük işlər, əziyyətlə dolu, uca səsli, parlaq şöləli, qorxunc naləli, alovları yatmaq bilməyən yandırıcı, odunu çox alovlu, təhdidi qorxunc, dibi naməlum, kənarları zülmət, qazanları çox qaynar və cəzaları rüsvayedici olan (dar yerində saxlayacaqlar). (Pərhizkarlar barəsində isə Allah-təala Qur'ani-Kərimin Zumər surəsinin 73-cü ayəsində belə buyurur:) «وَسِيقَ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ إِلَى الْجَنَّةِ زُمَرًا حَتَّى إِذَا جَاؤُوهَا وَفُتِحَتْ أَبْوَابُهَا وَقَالَ لَهُمْ خَزَنَتُهَا سَلَامٌ عَلَيْكُمْ طِبْتُمْ فَادْخُلُوهَا خَالِدِينَ» «Rəbbindən qorxanlar (dünyada pərhizkar olanlar) dəstə-dəstə Cənnətə doğru aparılacaqlar. (Mələklər onları aparacaqlar. Nəhayət, ora çatınca onun qapıları açılacaq və Cənnətin qapıçıları onlara deyəcəklər: Salam olsun sizə, pak və pakizəsiniz: dünyada özünüzü günahlara bulaşdırmadınız. Buna görə də Cənnətə daxil olun və həmişəlik orada qalın.)» Beləliklə, əzabdan xatircəm, məzəmmətdən kənar və oddan uzaq olarlar. Cənnət onlara görə rahatlanıb, (gözləmə halından xaric olub) onlar da öz mənzil və məskənlərindən şaddırlar. (Bunlar) o kəslərdirlər ki, dünyada əməlləri təmiz və gözəl, gözləri isə (Allah xofu və əzabın qorxusundan) ağlar olub. Dünyada onların gecələri itaətkarlıq etmələri və bağışlanma istəmələrinə (gecəni ibadət və bəndəliklə keçirdiklərinə) görə gündüz (kimi), gündüzləri isə (əzabdan) qorxduqları və (dünyadan) uzaqlaşdıqları (və razü-niyazla məşğul olduqları) üçün gecə (kimi) olub. Buna görə də Allah Cənnəti onların qayıdış yerləri, şadlığı isə mükafatları edib. Onlar həmişəlik padşahlığa, həmçinin sabit və dəyişməz nemət və şadlığa, Cənnətə və onun sakinlərinə daha layiqdirlər. Belə isə, ey Allahın bəndələri, (indi ki, Cənnət və Cəhənnəm əhlinin halını eşitdiniz,) nicat tapanınızın riayət edərək xeyir qazandığı, zay edəninizin isə pozaraq ziyana düşdüyü şeyi qoruyun. Əməlinizlə öz ölümlərinizi qabaqlayın. (Elə olun ki, ölüm gələndə iztirab və narahatlıq keçirməyəsiniz.) Çünki siz

qarşıya göndərdiyiniz şeyin girovusunuz və yerinə yetirdiyiniz şeylərə görə cəzalandırılacaqsınız (əvəz alacaqsınız). Sanki ölüm sizi haqlayıb. Buna görə də nə (öz çirkin əməllərinizin düzəldilməsinə) nail olmaq üçün qayıdış var, nə də (etdiyiniz) günah və büdrəmələrdən xilas olacaqsınız. Allah bizi və sizi Özünün və Peyğəmbərinin itaətinə vadar etsin və rəhmətinin çoxluğu ilə bizdən və sizdən (günahlarımızdan) keçsin. (Yuxarıda deyilmiş məsələlərdə fikrə dalıb düşündükdən sonra) öz yerinizdə oturun (lazımsız yerə həddinizi aşmayın), bəla və çətinliyə (küfr və azğınlığa) səbrli olun, əl və qılınclarınızı dillərinizin istəklərində işə salmayın (davakar olmayın və söyüş söyərək boş sözlər danışmayın). Həmçinin Allahın yerinə yetirilməsini vəzifə kimi təyin etmədiyi şeyə tələsməyin. Çünki sizdən hər kim Allahın, Onun Peyğəmbəri və elçisinin və o Həzrətin əhli-beytinin haqqını tanımış halda öz yatağında ölsə, şəhid olmuş kimi ölüb və onun əvəzi (mükafatı) Allahladır. O, fikrində olan yaxşı əməlin savabına layiqdir və bu fikir onun qılınc çəkməsinin yerini tutur. Hər bir şeyin müddəti və sona çatma zamanı vardır (ki, həmin müddəti keçməyincə çalışmağın faydası olmaz).

İmam Əli əleyhis-salamın (pərhizkarlıq və dünyaya ürək bağlamamaq barəsində buyurduğu) xütbələrindəndir. Şükr o Allaha layiqdir ki, şükrü (nəticəsində saysız nemətləri) yaranmışlar arasında yayılıb, Onun (dininin yolunda düşmənlərinə qarşı cihad edən mələklər, peyğəmbərlər, onların haqq canişinləri və möminlərdən ibarət) qoşunu qalibdir və böyüklüyü (hər şeydən) üstündür. Ona bir-birinin ardınca olan (ağılların, müqabilində heyran olduğu və dillərin saymaqda aciz qaldığı) nemətlərinə və böyük bəxşişlərinə görə şükr edirəm. O Allah ki, çox səbrlidir (günahkarları tez cəzalandırmır) və (onların əfv edilməsi mümkün olan günahlarını) bağışlayır. Barəsində qərar çıxardığı (təqdir etdiyi) şeydə ədalət və insafla (hikmət əsasında) davranıb. Baş verənləri və baş vermişləri bilir. (Onun gələcək və keçmiş barəsindəki elmi birdir. Başqasını) təqlid etmədən və (heç kəsdən) öyrənmədən, hansısa bir uzaqgörən sənətkarın nümunəsindən istifadə etmədən (çünki O, başlanğıcların başlanğıcı və birincisidir ki, Onun üçün hansısa bir birinci fərz edilmir), səhv və xəta ilə qarşılaşmadan və (məsləhətləşmə aparmaq üçün ağıllı və alim insanlardan ibarət) bir dəstəni bir yerə toplamadan (çünki O, elmin özüdür və buna görə də məsləhətləşməyə ehtiyac yaranmasına səbəb olan səhv və xəta Ona yol tapa bilməz) Özünün (zatının eyni olan) elmi ilə yaranmışları vücuda gətirən və (heç kəsin mane olub qarşısını ala bilmədiyi) əmr və fərmanı ilə onları yaradandır. Və şəhadət verirəm ki, Məhəmməd (səlləllahu əleyhi və alih) Onun bəndəsi və elçisidir. Onu insanlar çoxlu zəlalət və azğınlıqlar içərisində dolaşdıqları və çaşqınlıq və iztirab içərisində batıb-çıxdıqları bir zamanda göndərdi. Həlakət və bədbəxtlik cilovları onları sürükləyirdi (və dünya və axirət çətinliklərinə tərəf çəkirdi) və qəlblərinə azğınlıq qıfılları vurulmuşdu. (Belə ki, onlarda haqq və həqiqət nuru tapılmırdı.) Ey Allahın bəndələri! Sizə təqvalı olmağı və Allahdan qorxmağı tövsiyə edirəm. Çünki təqva Allahın sizin boynunuzda olan haqqıdır və o, Allahın sizin haqqınızı (əməllərinizə əvəz) verməsini zəruriləşdirərək bərqərar edən amildir. Həmçinin sizə tövsiyə edirəm ki, Allahdan təqvalı olmaq üçün kömək diləyəsiniz (sizi təqvalı və pərhizkar olmağa müvəffəq etməsini istəyəsiniz)

və təqvadan Allah (Ona yaxınlaşmaq) üçün yardım istəyəsiniz. (Pərhizkar olun ki, Allaha yaxınlaşasınız.) Çünki təqva bu gün (dünyada) pənah və (çətinliklər müqabilində) qalxan, sabah (qiyamətdə) isə Cənnət yoludur. Onun yolu aşkar, yolçusu xeyir götürən və əmanət saxlayanı (Allah) qoruyandır. (Onun yanında əmanət itmir və məhv olmur, bəlkə O, qiyamət günü onları çox artıq xeyirlə geri qaytaracaqdır.) Təqva həmişə özünü keçmiş insanlara və qalanlara göstərib və göstərməkdədir (ki, ondan bəhrələnsinlər). Çünki onlar sabah (qiyamətdə) ona möhtacdırlar. O sabah ki, Allah yaratdıqlarını qaytaracaq (ölüləri dirildəcək), (dünya və onun malından) verdiklərini alacaq və əta etdiyi (saysız nemətlərin hansı yollarda sərf edilməsi) barəsində soruşacaq. Buna görə də təqvanı qəbul edib onu sədaqətlə öz şüarı edən kəslər nə qədər də azdırlar. Onlar say baxımından azdırlar və eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın vəsf və tərifinə layiqdirlər ki, (Qur'ani-Kərimin Səba surəsinin 13-cü ayəsində) buyurur: «وَقَلِيلٌ مِّنْ عِبَادِيَ الشَّكُورُ» «Mənim çox şükr edən bəndələrim azdırlar». Belə isə qulaqlarınızla təqvaya (onun vəsfini eşitməyə) tərəf tələsin (ki, başa düşəsiniz), səy və tələşınızla ona riayət edin (ki, nicat tapasınız) və onu keçən (əldən çıxmış) hər bir şeyin müqabilində əvəz və canişin, hər bir müxalifin (haqq yolunun əleyhdarının) qarşısında müvafiq (tərəfdar) edin. Təqva vasitəsi ilə yuxunuzu qaçırdın (qəflət yuxusundan oyanın) və gününüzü ayırın (dünyaya ürək bağlamayın). Onu qəlblərinizin ayrılmaz yoldaşı edin (heç vaxt ondan uzaqlaşmayın) və günahlarınızı onunla yuyun. Xəstəliklərinizi onunla müalicə edin və onunla ölümü qabaqlayın (elə bir iş görün ki, ölümdən heç bir nigarançılığınız olmasın). Təqvanı zay edib əldən çıxarmış kəsdən ibrət götürün. Məbada ona tabe olan kəs sizdən ibrət götürmüş olsun. Bilin! Təqvanı (təkəbbür, xudbinlik, riyakarlıq və özünü göstərmək kimi xislətlərə düçar olmaqdan) qoruyun və özünüz də onun vasitəsi ilə qorunun. (Çünki təqva əzab müqabilində sığınacaq və qalxandır.) Dünyadan uzaq və axirətə aşiq və vurğun olun. Təqvanın ucaltdığı kimsəni alçatmayın (pərhizkarları xar sanmayın ki, bu, təqva və pərhizkarlığa ziddir) və dünyanın qaldırdığı kəsi yüksək məqamlı hesab etməyin. Dünyanın ildırımlı buluduna (parıldayan malına) göz dikməyin. Onun danışanına qulaq asmayın, çağıranının dəvətini qəbul etməyin (dünyapərəstlərlə isnişərək get-gəl etməyin), parıltısında işıqlıq axtarmayın və nəfis mallarına tovlanmayın. Çünki onun ildırımı yağışsız, söhbəti yalan, malları qarət (olunmuş şeylər) və nəfis malları oğurluqdur. Bilin! Dünya, özünü (kişilərə) göstərib üzünü

döndərən əxlaqsız qadına bənzəyir. Həmçinin hərəkət edərkən dayanıb əmrə tabe olmayan itaətsiz ata bənzəyir. O, çox xəyanətkar yalançı, naşükür davakar, (haqq yoldan) sapan cəfakar, (doğru yoldan) çox uzaqlaşan, narahat və qarmaqarışıqdır. Onun adəti (bir haldan digər bir hala və bir şəxsdən digər şəxsə) keçmək, ayağının altı titrəyən və qeyri sabit, möhtərəmliyi xarlıq, səy və çalışması oyun və zarafat, yüksəkliyi alçaqlıqdır. Dünya, malı almaq (quldurluq), soyğunçuluq, qarətçilik, məhv və həlak etmək evidir. Onun əhli ayaq üstədir (çətinliklərin çoxluğundan bir an olsun belə rahatlıq və dinclikləri yoxdur), qovulurlar, (qabaqkılara) birləşəcəklər və (mal, arvad, övlad, qohum və dostlardan) ayrı qalacaqlar. Onun yolları çaş-baş salan (gedənlər, hara getdiklərini və hara çatacaqlarını bilmirlər), daldanacaqları acizləşdirən (insanlar onda bir sığınıcaq tapmırlar və əllərini bir yerə ilişdirə bilmirlər) və məqsədləri ümidsizləşdirəndir (heç kəs onda öz istəyinə çatmır). Buna görə də sığınacaqlar dünyapərəstləri (bəla və çətinliklərə) təslim edib və onları saxlamayıb, mənzillər onları kənara atıb və zirəkliklər onları acizləşdirib və yorub. Buna görə də (dünya əhlinin) bəzisi nicat tapıb, (amma) ayaqları kəsilib və yaralıdır. Bəzisi ayrılmış ət kimi, bəzisi başı kəsilmiş bədən, bəzisi isə tökülmüş qan kimidir. Bəzisi (qəm-qüssədən) əllərini gəmirər, bəzisi (heyfslənərək) əllərini bir-birinə vurar, bəzisi (çarəsizilkdən) yanaqlarını dirsəklərinə qoyar, bəzisi öz fikrini məzəmmət edərək səhv sanar, bəzisi öz məqsədindən daşınar. Halbuki tədbir töküb çarə qılmaq fürsəti əldən çıxıb (onların xeyri yoxdur), gözlənilməz bəla üz tutub (ölüm gəlib çatıb və iş-işdən keçib) və həmin vaxt qaçmaq zamanı deyil. (Allah Qur'ani-Kərimin Sad surəsinin 3-cü ayəsində buyurur: «كَمْ أَهْلَكْنَا مِن قَبْلِهِم مِّن قَرْنٍ فَنَادَوْا وَّلَاتَ حِينَ مَنَاصٍ» «Biz onlardan əvvəl neçə-neçə nəsilləri məhv etdik. Onlar (qaçmaq üçün) fəryad edib kömək diləyirdilər, lakin artıq qaçıb can qurtarmaq vaxtı deyildi».) (Ölüm gəlib çatdıqdan sonra ondan qaçmaq və ya bir iş görmək xülyası həqiqətdən) çox-çox uzaqdır!!! Həqiqətən əldən çıxan əldən çıxdı, keçən keçdi (günahları islah etmək və səhv və çirkin işlərin yerini doldurmaq zamanı arxada qaldı) və dünya, (əhlinin arzularına uyğun şəkildə deyil) öz ürəyi istəyən kimi keçdi. (Qur'ani-Kərimin Duxan surəsinin 29-cu ayəsində buyurulur:) «فَمَا بَكَتْ عَلَيْهِمُ السَّمَاء وَالْأَرْضُ وَمَا كَانُوا مُنظَرِينَ» «Beləliklə, göy və yer əhli dünyapərəstlərin həlakına ağlamadı (özlərini qəmləndirmədilər) və onlar (əzabdan qurtulmaq yolunu tapmaq üçün) möhlət verilənlərdən deyildilər».

İmam Əli əleyhis-salamın xütbələrindəndir ki, bəziləri onu «Qasiə» («قاصِعَه») xütbəsi adlandırırlar. O, təkəbbür və itaətsizlik göstərmiş, Adəm əleyhis-salama səcdə etməmiş, təəssübkeşlik göstərib haqqı qəbul etməməsini aşkar etmiş ilk varlıq olmuş, məğrurluq və xudbinliyə qapılmış şeytanın (Allah ona lə'nət etsin) məzəmməti və (eləcə də) insanları onun yol və üsuluna tabe olmaqdan çəkindirmək barəsindədir (və bu xütbə «Nəhcül-Bəlağə»nin xütbələrinin ən uzunudur). Şükr o Allaha layiqdir ki, qüdrətlilik və böyüklüyü (qüdrət və böyüklük libasını) geyindi (qüdrətlilik və böyüklük ancaq Ona məxsusdur ki, heç nə Onu zəif sala bilməz və Onun həqiqətinə çata bilməz) və bu iki sifəti yaratdıqlarına deyil, Özünə məxsus etdi. (O, bu sifətlərdə tək və yeganədir. Çünki Ondan başqa hər bir şey zatən qüvvətsiz, əlaltı və hər şeydə başqasına möhtacdır.) Onları Özündən başqasına qadağan və haram etdi (buna görə də heç kəs onların iddiasını edə bilməz və əgər etsə cavab verməli olacaq, cəzalandırılacaq) və Öz cəlalı üçün seçdi. Bəndələrindən bu iki sifətdə Onunla çəkişmə aparan (özünü qüdrətli və böyük tutan) kəs üçün lə'nət (rəhmindən uzaqlıq) müəyyənləşdirib. Beləliklə, bu iki sifəti Özünə məxsus etdiyinə görə dərgahına yaxın olan mələkləri, onların təvazökarlarını təkəbbürlülərdən (cindən olub mələklərin arasında Adəmə səcdə etməyə əmr olunan şeytandan) seçib ayırmaq üçün sınadı. Qəlblərin gizlinlikləri və gözlərdən örtülü olan qeybləri bilməsinə baxmayaraq, (Qur'ani-Kərimin Sad surəsinin 71-74-cü ayələrində bildirildiyi kimi) buyurdu: «إِنِّي خَالِقٌ بَشَرًا مِن طِينٍ فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُّوحِي فَقَعُوا لَهُ سَاجِدِينَ فَسَجَدَ الْمَلَائِكَةُ كُلُّهُمْ أَجْمَعُونَ إِلَّا إِبْلِيسَ» «Mən palçıqdan bir insan yaradacağam. Mən onu tamamlayıb Öz ruhumdan üfürən kimi ona səcdə edin (təzim edərək təvazökarlıq göstərin. Yaxud onu öz qibləniz edin. Çünki Allahdan başqası üçün ibadət və bəndəlik səcdəsi etmək qadağandır). Beləliklə də, mələklərin hamısı birlikdə səcdə etdi, İblisdən başqa!» (Xülasə, o, Adəmə səcdə etmədi, çünki) təkəbbür və öyünmə ona üz tutdu. Beləliklə, öz yaradılışı ilə Adəmə öyünərək nazlandı və öz əslinə (yaranmış olduğu oda) təəssüb göstərərək aşkarcasına Haqqın əmrindən boyun qaçırdı. (Və dedi: Onu palçıqdan, məni isə oddan yaratmısan. Mən ki, ondan

yaxşıyam, ona nə üçün səcdə etməliyəm?) Beləliklə, Allahın düşməni (Şeytan) təəssübkeşlərin başçısı və təkəbbürlülərin qabaqda gedənidir ki, təəssübkeşliyin təməlini qoydu, Allahla (Ona məxsus olan) əzəmət və böyüklüyündə çəkişdi, (layiq olmadığı) izzət və ucalıq libası geyindi və (layiq olduğu) zillət və xarlıq geyimini kənara atdı. Məgər Allahın onu təkəbbür və itaətsizliyinə görə necə kiçiltdiyini və məğrurluğuna görə necə alçatdığını görmürsünüz? Buna görə də onu dünyada (Öz rəhmətindən) qovdu və axirətdə onun üçün alovlanan od hazırlayıb. Əgər Allah-təala Adəmi parıltısı gözləri qamaşdıran və gözəlliyi ağılları məğlub edən (ağılların, müqabilində heyran və məəttəl qaldıqları) nurdan və ya gözəl iyi insanları bürüyən xoş ətirli şeydən yaratmaq istəsəydi, mütləq yaradardı. Əgər (elə) yaratsaydı, boyunlar Adəmin müqabilində əyilərdi və onun barəsindəki sınaq mələklərə asan olardı. (Şeytan durmadan ona səcdə etməyə tələsər və onu özündən aşağı təsəvvür etməzdi). Lakin eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah yaratdıqlarını (başqalarından) fərqləndirmək və ayırmaq, təkəbbür və itaətsizliyi aradan qaldırmaq və özünü bəyənmək xüsusiyyətini onlardan uzaqlaşdırmaq üçün əsl və səbəbini bilmədikləri bəzi şeylərlə imtahan edir (ağlın hikmətini dərk etmədiyi şəriət hökmlərinin çoxu da bu qəbildəndir). Buna görə də Allahın şeytan barəsindəki işindən ibrət götürün ki, onun uzun müddətli ibadət və bəndəliyini, çoxlu səy və tələşını (təkəbbür və itaətsizliyinə görə) heç və puç etdi. Halbuki o, Allaha altı min il ibadət etmişdi ki, onun dünya, yoxsa (bir günü dünyanın əlli min ilinə bərabər olan) axirət illərindən olması məlum deyil (siz bilmirsiniz və dərkiniz naqisdir). (Bu,) bir saatlıq təkəbbürlülük və itaətsizliyə görə (oldu ki, o özünü Adəmdən üstün bildi və ona səcdə etmədi)! Belə isə kim şeytandan sonra onun günahı kimi bir günah (təkəbbür və itaətsizlik) etməklə Allahın əzabından amanda qala bilər? Əsla! Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah heç vaxt heç bir insanı, səbəbindən bir mələyi (şeytanı) Cənnətdən çıxardığı işlə ora daxil etməyəcək. Allahın göy əhli (mələklər) və yer əhli (insanlar) barəsindəki hökmü birdir. Onunla yaratdıqlarının heç biri arasında Onun yaranmışlara haram edib ancaq Özünə məxsus etdiyi şeyi (əzəmət və böyüklüyü) rəva bilmək barəsində icazənamə yoxdur. Odur ki, ey Allahın bəndələri, Allahın düşməninin (şeytanın) sizi öz dərdinə (təkəbbür və itaətsizliyə) düçar etməsindən (özü kimi təkəbbürlü və itaətsiz edərək Allahın rəhmətindən uzaqlaşdırmasından), sözləri ilə sizi (doğru yoldan) saxlayaraq narahat etməsindən və qoşununun (davamçılarının) atlı və

piyadalarını sizin ətrafınıza toplamasından qorxun. Canıma and olsun ki, o, kamanının yayına sizin üçün şər (azdırmaq) oxu qoyub və sizi nişan alaraq onu bərk özünə tərəf çəkib. Sizə yaxından ox atıb (ki, səhv getməsin). Və (Allahın, Qur'ani-Kərimin Hicr surəsinin 39-cu ayəsində nəql etdiyi kimi belə) deyib: «رَبِّ بِمَا أَغْوَيْتَنِي لَأُزَيِّنَنَّ لَهُمْ فِي الْأَرْضِ وَلَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ» «Ey Rəbbim! (Adəmə səcdə etmədiyim üçün) məni azdırdığına görə mütləq mən də yer üzündə Adəm övladlarının qarşısında günahları yaxşı göstərəcəyəm (ki, itaətdən qalsınlar) və onların hamısını azdıracağam». Halbuki (o, bu sözü bilmədən) qeybdən xəbər verərək və səhv gümana əsaslanaraq deyib. (Amma) qürurun övladları, təəssübkeşliyin qardaşları və təkəbbürlülük, cahillik və nadanlıq süvariləri onun iddiasını təsdiqləyərək gerçəkləşdirdilər. Nəhayət, sizin (doğru yoldan çıxmış) itaətsiziniz ona tabe oldu və (buna görə də) onun sizin barənizdəki (sizi azdırmaq üçün olan) tamah və hərisliyi möhkəmləndi. Buna görə də gizlinin necəliyi aşkar oldu. (Onun vəsvəsələrinin nişanələri sizin qəlblərinizdə aşkar olub ki, çəkinmədən Allahın göstərişlərinə zidd davranırsınız.) Onun sizi ələ keçirməsi gücləndi və öz qoşununu sizə yaxınlaşdırdı. Beləliklə, onlar sizi zillət və xarlıq mağaralarına atdılar və ölüm (məhv olma) çalasına tulladılar. Sizi gözlərə nizə batırmaq, boğazları kəsmək, burunların deşiyini əzişdirmək kimi ağır yaralarla, həmçinin ölüm yerinizə atmaq qəsdi və buruna taxılan məcburiyyət və qəzəb noxtasının halqası ilə, sizin üçün hazırlanmış oda tərəf sürükləmək istəyi ilə tapdalayaraq məhv etdilər. Beləliklə, şeytan, sizin dininizi yaralamaq (ona ziyan vurmaq) və dünyanızda alov qızışdırmaqda (fitnə-fəsad yaratmaqda), aşkarcasına düşmənçilik edib onlara qarşı (vuruşmaq üçün) toplaşdığınız (bir-birinizdən kömək istədiyiniz) düşmənlərdən də böyük və tutuşdurucu amilə çevrilib. Buna görə də öz güc və tələşınızı onu dəf etməyə səfərbər edin. Allaha and olsun ki, o, sizin soyunuza (atanız Adəmə) öyünərək nazlanıb, şan-şöhrətinizi (qüdrət və məqamınızı) məzəmmət edib və nəsəbinizi (qohum-əqrabalıq əlaqələrinizi) kiçildib və alçaldıb. O, sizin üçün (sizi azdırmaq üçün) öz süvarilərini səfərbər edib, piyadaları ilə sizin yolunuzun fikrinə düşüb (ki, azğınlıqda qalaraq hidayət və nicat yoluna qədəm basmayasınız). Sizi harada ovlasalar tələyə salarlar, barmaqlarınızın ucunu kəsərlər. Hiylə və bicliklə (onlardan) imtina edə və əzm və iradə ilə (onları) dəf edərək özünüzdən uzaqlaşdıra bilməzsiniz. Halbuki siz zillət və xarlıq dəryası, dar halqa, ölüm düzənliyi və bəla və çətinliyin (dünyanın bəla və çətinliklərinin) cövlan etdiyi yerdəsiniz

(onlara düçarsınız və pis işlərə əmr edən nəfsi öldürməkdən və ona tabe olmamaqdan başqa heç cür şeytanın şərindən qurtula bilməzsiniz). Buna görə də qəlblərinizdə gizlənmiş təəssübkeşlik alovu və cahiliyyət dövrünün kin-küdurətlərini söndürün ki, müsəlmanda olan bu təkəbbür, itaətsizlik və özündənrazılıq şeytanın qıcıqlandırmalarından və onun öyünmələri, məhv etmələri və vəsvəsələrindəndir. Özünü aşağı tutmağı başlarınızın üzərinə qoyaraq lovğalıq və özündən razılığı ayaqlarınız altına atmaq qərarına gəlin. Təkəbbür və məğrurluğu boyunlarınızdan uzaqlaşdırın və təvazökarlıqdan sizinlə düşmən olan şeytan və onun qoşunu arasında tamamilə silahlanmış qoşun yerinə istifadə edin. Çünki onun hər bir millətdən qoşunları, yardımçıları, atlı və piyadaları vardır (ki, onlar sizi bəla və məhvə düçar etmək üçün ona kömək edərək təkəbbür və məğrurluğu sizin gözlərinizdə yaxşı göstərirlər). Anasının oğluna (Habilə) qarşı lovğalanmış itaətsiz təkəbbürlü (Adəm əleyhis-salamın oğlu Qabil) kimi olmayın. O, Allahın ona heç bir üstünlük verməməsinə baxmayaraq, qardaşına qarşı təkəbbür göstərdi. Ona həsəddən yaranan təkəbbür və məğrurluq üz tutdu və qəzəb odundan onun qəlbində təəssübkeşlik və kin yarandı. Və şeytan onun burnuna təkəbbür və özünü böyük tutmaq küləyi üfürdü. Elə özündən razılıq və itaətsizlik ki, Allah təkəbbür və məğrurluqdan sonra ona peşmançılıq verdi. Və qiyamətə kimi, qatillərin günahını ona yoldaş etdi. Bilin ki, siz Allahla düşmənçiliyi aşkar etmək və möminlərlə müharibə etmək üçün (ev-eşiklərinizdən) xaric olmaqla zülmkarlıqda çox cəhd göstərdiniz və yer üzündə fitnə-fəsad törətdiniz! Buna görə də təəssübdən doğan təkəbbür və cahiliyyət öyünmələrində Allahdan qorxun, Allahdan qorxun! Çünki təkəbbür düşmənçilik amili və şeytanın üfürmə meydanlarıdır ki, həmin üfürmələrlə keçmiş ümmətləri və ötən nəsilləri (Nuh, Ad və Səmud tayfalarını və Firon və Nəmrud kimilərini) aldadıb və nəticədə onun nadanlıq zülmətlərinə və azğınlıq tələlərinə doğru tələsiblər. Belə ki, onun sövq etməsi müqabilində ram və sürükləməsi qarşısında (onun dalınca düşməkdə) sakit (təslim) idilər. Onlar, qəlblərin barəsində yeksan olduğu və keçmişlərin, bir-birinin ardınca güdazına getdikləri işə - ürəklərin səbəbindən (kin-küdurət və paxıllıqdan) sıxıldığı təkəbbür və lovğalığa tərəf tələsdilər. Xəbərdar olun! Qorxun və çəkinin o böyüklərinizə və başçılarınıza tabe olmaqdan ki, (xalq arasında qazandıqları) yüksək məqam və ad-sandan təkəbbürlülüyə düçar oldular, öz nəsəblərinə (vücuda gəldikləri ailələrinə) qədərindən artıq öyündülər, (öz gümanlarında) xoşagəlməz və çirkin olan şeyi Rəbblərinə nisbət verdilər ,

Allahın qəzavü-qədəri ilə müharibə etmək və nemətləri ilə vuruşmaqla Onun onlara etdiyi yaxşılıqları inkar etdilər. Buna görə də onlar təəssübkeşlik təməlinin dirəkləri, fitnə və çaxnaşma dayağının sütunları və cahiliyyət fəxr və öyünmələrinin qılınclarıdırlar. Buna görə də Allahdan qorxun və sizə verdiyi nemətlərinə (təkəbbür və məğrurluqla) nankor və sizə etdiyi yaxşılıqlarına görə paxıl olmayın. Yaxşı və başçı sandığınız pis və alçaqlara tabe olmayın. Çünki onlar sizin tutqun lilli sularını öz duru və təmiz suyunuz ilə bir yerdə içdiyiniz, xəstəliklərini öz sağlamlıqlarınız ilə qatışdırdığınız və batil və əyriliklərini öz haqq və düzlüyünüzə daxil etdiyiniz kimsələrdir. Halbuki onlar fisqin (Allahın itaətindən çıxmağın) əsası, günah və (Allah, Peyğəmbər və İmamla) müxalifətin yavər və ayrılmaz yoldaşıdırlar. Şeytan onları azğınlıq daşıyan dəvələr, vasitələri ilə xalqa hökmranlıq etdiyi qoşun və xalqın dilində danışan dilmanc edib ki, sizin ağıllarınızı oğurlasın (yalan sözlərlə sizi Allahın zikrindən və axirəti yada salmaqdan qafil edərək saxlasın), gözlərinizə daxil olsun (dünya həyatı və günahları sizin nəzərinizdə gözəlləşdirsin və nəticədə Allahın nişanələrinə nəzər salmaqdan qalasınız), qulaqlarınıza üfürsün (sizə o qədər puç və çirkin sözlər öyrətsin ki, Allahın və Peyğəmbərin sözlərinə qulaq asmayasınız). Beləliklə, (ağıllarınızı oğurlamaq, gözlərinizə daxil olmaq, qulaqlarınıza üfürməkdən əldə etdiyi nəticə budur ki,) sizi özünün (həlak və məhvetmə) oxunun nişangahı, (zillət və xarlıq) ayaqaltısı və əl tutacaq yeri edir. Buna görə də (indi ki, şeytanın təkəbbürlü insanların vasitəsi ilə sizi azdırmasını başa düşdünüz, onlara tabe olmayın və təkəbbür və məğrurluğu öz şüarınız etməyin və) Allahın cəzalandırmasından və Onun (nəmrudçular, fironçular və başqaları kimi) sizdən qabaqkı təkəbbürlülərə gəlib çatmış əzablarından ibrət alın, üzlərinin torpağa atıldığı və böyürlərinin düşdüyü yerlərdən (qəbirlərdən) öyüd götürün (qarşısından pərdələr asılan üzlərin torpağa qoyulmasına və sincab yataqlara qoyulan böyürlərin quru yerə sərilməsinə nəzər salın) və zəmanənin çətin hadisələrindən Allaha pənah apardığınız kimi, təkəbbür və məğrurluq yaradan şeylərdən də Ona pənah aparın. (Hətta təkəbbür yaradan amillərdən Allaha pənah aparmaq zəmanənin hadisələrindən Ona pənah aparmaqdan daha mühümdür. Çünki təkəbbür axirət əzab və ağrılarına, zəmanənin hadisələri isə dünya işlərində əzab-əziyyətə səbəb olur və axirət ağrı-acıları daha mühümdür. Ona görə ki, onlardan nicat tapılması qeyri-mümkündür.) Əgər Allah, bəndələrindən kiməsə təkəbbürlülük və öyünmək icazəsi versəydi (bu işi kiməsə rəva

bilsəydi), bu icazəni Öz peyğəmbərlərinə və dostlarına verərdi. Lakin (heç kəsi istisna etmədən) onları təkəbbürlülük və öyünməkdən çəkindirərək onların təvazökarlıq etmələrini bəyənib. Beləliklə, onlar (da Allahın təvazökarlıq barəsindəki əmr və göstərişinə tabe olaraq itaətkarlıq və təvazökarlığın çoxluğundan) üzlərini yerə qoyub sifətlərini torpağa sürtdülər və öz (xidmət və mehribançılıq) qanadlarını möminlər və Allaha ibadət edənlər üçün aşağı saldılar (lovğalanaraq öyünmədilər). Peyğəmbərlər və Allahın dostları zəif sayılan (insanlar və dünyatələblərin, öz nəzərlərində zəif və aciz sandıqları) bir dəstə idilər ki, Allah onları aclıqla sınamışdı, çətinliklərə düçar etmişdi, qorxu yerləri ilə imtahana çəkmişdi və çirkinliklərdən təmizləyərək paklaşdırmışdı. Buna görə də (peyğəmbərlər və Allahın dostları, dünyanı bu minvalla keçirdikləri üçün) varlılıq və yoxsulluğun sınaq və imtahan yerlərini bilmədiyiniz üçün Allahın razılıq və qəzəbinin (meyarının) var-dövlət və övlad sahibi olmaq olmasını güman etməyin (ki, var-dövlətə və övlada sahib olmaq Onun razılığının, olmamaq isə qəzəbinin nişanəsi deyil). Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Qur'ani-Kərimin Mu'minun surəsinin 55-56-cı ayələrində) buyurur: «أَيَحْسَبُونَ أَنَّمَا نُمِدُّهُم بِهِ مِن مَّالٍ وَبَنِينَ نُسَارِعُ لَهُمْ فِي الْخَيْرَاتِ بَل لَّا يَشْعُرُونَ» «Məgər elə zənn edirlər ki, onlara verdiyimiz mal-dövlət və övladla Biz onların yaxşılıqlarına tələsirik? (Belə deyil) bəlkə şüurları yoxdur və anlamırlar (ki, onları mal və övladla sınayırıq və günah və itaətsizliklərini nə qədər artırıb onun nəticəsində əzaba düçar olmalarını yoxlamaq üçün onlara möhlət veririk)». Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Özünün təkəbbürlü və məğrur bəndələrini onların gözünə zəif görünən dostları ilə sınayır. (Bu məsələyə şahid kimi Musa ilə Fironun əhvalatını gətirmək olar.) Musa ibn İmran onunla birgə olan qardaşı Harunla (onların hər ikisinə Allahın salamı olsun) Fironun yanına gəldi. Onların əyinlərində yun paltar, əllərində taxta əsa var idi. Onunla şərt kəsdilər ki, əgər İslamı qəbul etsə (Allahın birliyini və Musanın peyğəmbərliyini təsdiq etsə), padşahlığı davam edəcək və izzət və hörməti öz yerində qalacaq. Firon (öz tərəfdarlarına) dedi: Bu iki nəfərə təəccüb etmirsiniz ki, gördüyünüz bu yoxsul və xar vəziyyətdə ola-ola mənimlə möhtərəmliyimin öz yerində qalması və padşahlığımın davam etməsini şərt kəsirlər?! (Onları məzəmmət edərək camaata dedi: Əgər bu iki nəfər Allah tərəfindən gəliblərsə,) bəs nə üçün qollarından qızıl bilərziklər asılmayıb? (Xülasə, Firon bu sözləri dedi,) çünki qızılı və onu toplamağı böyük bilərək (Musa ilə Harunun əynində

gördüyü) yunu və onu geyinməyi xar sandı. Əgər eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah peyğəmbərlərini göndərəndə onlara qızıl xəzinələri, xalis qızıl mədənləri və hər cür ağac əkilmiş bağlar vermək, eləcə də göyün quşlarını və yerin canlılarını onlara qoşmaq istəsəydi, edərdi bunu. Əgər belə etsəydi, onda sınaq mənasını itirər, əvəz vermək düz olmaz və xəbərlərə (səmadan gələn xəbərlərə və ilahi tapşırıqlara) lüzum olmazdı. Həmçinin onda (belə bir peyğəmbərin dəvətini) qəbul edənlərə sınanmışların savabı düşməzdi, (həmin peyğəmbərə) iman gətirənlər yaxşı əməl sahiblərinin savabına layiq olmazdılar (çünki onların imanları əlacsızlıqdan olub) və adlar mənalarla uyğun gəlməzdi. Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Öz peyğəmbərlərini qəlb və gözləri ehtiyacsızlıqla dolduran qaneçiliklə (aza razı olmaqla) və göz və qulaqları əzab-əziyyətlə dolduran yoxsulluq və kasıblıqla, iradə və qərarlarında güclü, gözlərin (zahiri) vəziyyətlərindən gördüyü şeydə isə zəif edib. Əgər peyğəmbərlər heç kəsin onlara hakim olmaq niyyətinə düşə bilmədiyi qüvvəyə, zülmə məruz qalmamaları həddə ağalığa və insanların boylanacaqları səltənət və padşahlığa malik olsaydılar və (onların dəbdəbələrini görmək üçün) dəvələrin palanlarının düyünləri bağlansaydı (camaat dünyanın hər tərəfindən səfər edib onların yanına köçsəydi), bu, insanlar üçün ibrət götürmələrində (tabe olmalarında) daha asan olardı və onlar öyünmək və təkəbbürlülükdən daha uzaq olardılar (heç vaxt heç bir kəs onlarla müxalifət etməzdi). İnsanlar onlara hakim olan qorxu və ya onları meylli edən rəğbət və istəyə görə iman gətirərdilər. Onda (belə olan surətdə) niyyətlər saf olmazdı və yaxşılıqlar (ibadətlər) bölünmüş (bir hissəsi dünya, bir hissəsi isə axirət üçün) olardı. Amma eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah belə istəyib ki, peyğəmbərlərə tabe olmaq, kitabları təsdiq etmək, Onun zatı müqabilində əyilmək, əmrinə təslim olmaq və itaət və bəndəliyinə boyun qoymaq ancaq Ona görə olan işlər olsunlar və onlara özlərindən başqa heç bir eyb (istək, qorxu, riya, özünü göstərmək və sairə) qarışmasın. (Bu, imtahan və sınağın böyüklüyünə görədir. Odur ki,) imtahan və sınaq hər nə qədər böyük olsa, savab və mükafat da bir o qədər çoxdur. Məgər eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın keçmişləri, Adəmin (Allahın salam və salavatı olsun ona) zamanından bu dünyanın son nəfərinə kimi, nə ziyanı olan və nə də xeyir verən, nə görən və nə də eşidən (müqəddəs Kə’bənin tikildiyi) daşlarla sınadığını görmürsünüz?! Beləliklə, həmin daşları Özünün «Beytul-haram»ı (müşriklərin ora daxil olmalarını, eləcə də

ona sığınmış kəsi oradan çıxarmağı haram buyurduğu möhtərəm evi) etdi. Ora Allahın insanlar üçün dikəltdiyi bir evdir (onların toplaşdıqları və həm dünya, həm də axirət xeyirlərinə olan bir məkandır). Sonra onu yerin daşlıq olmaq baxımından ən çətinində, dünyanın yüksək yerlərinin ən az kəsək və torpağı olanında və dərələrin yerin bir tərəfində qərar tutan ən darında yerləşdirdi. (Həmin evi) nahamar dağlar, narın qumlar, suyu az çeşmələr və (su, ot və münasib havası olmadığı üçün) nə dəvə, nə at və nə də inək və qoyunu kökəlməyən bir-birindən uzaq kəndlərin arasında (yerləşdirdi). Sonra Adəm əleyhis-salama və onun övladlarına ona tərəf yollanmalarını, üz tutmalarını əmr etdi. Beləliklə, «Beytul-haram» onların səfərlərinin xeyirvermə yeri və yüklərinin düşürülmə məkanına çevrildi. (Həccin vacibi əməllərini yerinə yetirmək nəticəsində qazandıqları axirət xeyrindən əlavə, oranın onlar üçün dünya mənfəəti də vardır.) Könüllərin meyvələri abadlıqdan uzaq otsuz-susuz çöllüklərdən, enişli dərələrin yüksəkliklərindən, dənizlərin (əhatəyə alması nəticəsində yerin digər hissələrindən) ayrı düşmüş adalarından həmin evə düşər (səfalı insanlar orada toplaşaraq bir-birlərindən mənəvi mənfəətlər əldə edərlər). (Onlar uzaq yerlərdən səfər edərək çox çətinliklə ora çatarlar) və nəhayət, («sə'y» əməli və təvafda) tam itaətkarlıq və təvazökarlıqla öz çiyinlərini tərpədərlər, evin kənarında «təhlil» (la ilahə illəllah) deyərlər. Allahın razılığını əldə etmək üçün saçı pıtlaşıq və üzü toz-torpağa bulaşmış halda «hərvələ» edərlər (tələsik yeriyərlər). Paltarlarını arxaya atıblar (həmişə geyindikləri paltarı əyinlərindən çıxarıb «ehram» paltarı geyiniblər). Saçlarını qırxmamaları və onların çoxalmaları nəticəsində öz yaradılışlarının gözəlliklərini (məhbuslar kimi) çirkinləşdiriblər. Allah onları («Beytul-haram»ın ziyarətində bu əməllərlə) imtahan edib. Elə bir böyük, çətin, aşkar və kamil imtahan ki, onu Öz rəhmətinin əldə edilməsi və Cənnətinə çatmaq amili edib. Əgər eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah Özünün hörmətli evini və böyük ibadətgahlarını bağlarda, arxlarda, sıx ağaclı, meyvələri əlçatan və binaları bir-birinə birləşmiş yumşaq və hamar yerdə, yaxın kəndlərdə, qırmızıyanaq buğda və yaşıl çəmənliklər arasında, gül-çiçəkli ot dolu yerlərdə, təravətli zəmilərdə və abad yollarda yerləşdirmək istəsəydi, onda mükafatın miqdarını imtahanın azlığına uyğun şəkildə az edərdi. Əgər evin təməli və tikildiyi daşlar yaşıl zümrüd və qırmızı yaqutdan, eləcə də nurlu və parıltılı olsaydı, belə bir bina könüllərdə şəkkin çəkişməsini azaldar, şeytanın səy və tələşını qəlblərdən silər və xalqdan tərəddüd iztirabını və nigarançılığını

uzaqlaşdırardı. Lakin Allah, təkəbbür və məğrurluğu qəlblərdən çıxarmaq və təvazökarlığı canlara yerləşdirmək üçün bəndələrini müxtəlif çətinliklərlə sınayır, onlardan növbənöv çalışqanlıqlarla bəndəlik etmələrini istəyir və onları təbiətən xoşlanılmayan şeylərlə imtahan edir ki, həmin imtahanı Öz lütf və fəzlinə açılmış qapı və əfv və bağışlamasının asan vasitələri etsin. Odur ki, dünyada fitnə-fəsad törətmək (onun cəzası), axirətdə zülmün ziyanı və məğrurluq və təkəbbürlülüyün pis nəticəsi barəsində Allahdan qorxun, Allahdan qorxun! Çünki fitnə-fəsad, zülm və məğrurluq şeytanın ən böyük tələ və hiyləsidir. O, elə bir hiylədir ki, öldürücü zəhər kimi insanların qəlbinə daxil olur (və onları məhv edir). Buna görə də şeytan heç vaxt aciz qalmır və heç kəsin - nə elminə görə alimin, nə də köhnə paltarına görə yoxsulun - ölüm yerini səhv salmır. Allah mömin bəndələrinin əl, ayaq və digər üzvlərinin (günah və itaətsizlikdən) dinc qalması, gözlərini yerə dikmələri, canlarının təvazökarlığı, qəlblərinin xarlığı və təkəbbür və lovğalığı onlardan uzaqlaşdırmaq üçün onları namazlar, zəkatlar və vacib günlərdə oruc tutmağa çalışmaq vasitəsi ilə fitnə-fəsad, zülm və təkəbbürlülükdən qoruyur. Çünki gözəl üzlərin təvazökarlığa görə torpağa sürtülməsi və kiçikliyi bildirmək üçün (səcdə zamanı) şərəfli üzvlərin (yeddi yerin) yerə yapışdırılması namazdadır. Özünü kiçiltmək və heç bilmək üçün qarınların bellərə yapışması orucdadır. Həmçinin yerin meyvələrini (arpa, buğda, xurma və kişmişi) və ondan başqasını (dəvə, inək, qoyun, qızıl və gümüşü) yoxsul və fağırlara vermək zəkatdadır. Bu ibadətlərin aşkar öyünmələri və özünü yekə tutmaqları necə xar etmək və (dünya bədbəxtliyi və axirət əzabına səbəb olan) aydın təkəbbür və məğrurluqları aradan qaldırmaq kimi mənfəətlərinə nəzər salın. (İmam əleyhis-salam burada Kufə əhlini fitnə-fəsad və zülmə səbəb olan yersiz təəssübkeşlik və məğrurluğa görə məzəmmət edərək buyurur:) Mən (insanların hallarına) nəzər saldım. İnsanlardan sizdən başqa bir şeyə görə təəssübkeşlik və təkəbbürlük edən elə birisini tapmadım ki, (heç olmasa) nadanların səhvə düçar olmalarını əhatə edən səbəbə və ya səfeh və qanmazların ağıl və fikirləri ilə uyğun gələn dəlilə əsaslanmamış olsun. Amma siz elə bir işə görə təəssübkeşlik və təkəbbürlülük edirsiniz (bir-birinizə öyünürsünüz) ki, (heç zahirdə, nadan və ağılsızların yanında da) ona bir səbəb və dəlil tapılmır. Şeytan (oddan olan) əslinə görə Adəmə qarşı təəssübkeşlik və məğrurluq etdi və onu xilqət və yaradılışında məzəmmət edərək dedi: Mən oddanam, sən isə palçıqdansan. (Buna görə də nadanın gözündə təəssübkeşliyə dəlil ola bilən səbəbdən

təəssübkeşlik və məğrurluq etdi.) Ümmətlərin çoxlu nemətlər içərisində olan və istədikləri kef və ləzzətlərdən bəhrələnən varlıları nemətlər (var-dövlət, övladlar və əl altında olanların onları böyük saymaları) səbəbindən təəssübkeşlik və təkəbbürlülük etdilər. Beləliklə, dedilər: «Bizim mal-dövlətimiz və övladımız (sizinkindən) daha çoxdur və bizə əzab da verilməyəcəkdir.» Buna görə də əgər təəssübkeşlik və təkəbbürlülükdən başqa bir çıxış yolunuz yoxdursa, onda gərək sizin təəssübkeşliyiniz nəcib sifətlər, bəyənilən işlər və gözəl şeylər - ərəb sülalələri və qəbilə başçılarından olan böyüklərin və igidlərin rəğbət göstərilən xislətlər, böyük ağıllar, yüksək məqamlar və xoşagələn sifətlər vasitəsi ilə onda bir-birlərini üstələməyə çalışdıqları sifət, iş və şeylər - üçün olsun. Odur ki, qonşunun haqqına riayət etmək, əhd-peymana vəfa etmək, yaxşılara tabe olmaq, təkəbbürlülərə qarşı çıxmaq, yaxşılığı (yaxşı işi) götürmək, zülmdən əl çəkmək, qan tökməyi (onun günahını) böyük bilmək, xalqla ədalətli və insaflı olmaq, qəzəbi boğmaq və yer üzündə fitnə-fəsad törətməkdən çəkinmək kimi tərifə layiq xislətlər üçün təəssübkeşlik edin. Çirkin və pis əməllərinə görə sizdən qabaqkı ümmətlərə gəlmiş əzab və çətinliklərdən qorxun! Onların başlarına gələnləri (öz) xeyir-şərinizdə yad edin (hansı işin nəticəsinin nə olmasına nəzər salın). Onlar kimi olmaqdan çəkinin (ki, pis əməl və çirkin danışıqlara görə siz də əzab və çətinliyə düçar olarsınız). Onların iki (yaxşı və pis) hallarının fərqləri barəsində düşündükdən sonra (xeyirli və yaxşı yola qədəm qoyun və) vasitəsi ilə hörmətli və izzətli olduqları, düşmənləri onlardan dəf edən, salamat qalmalarına və nemət və rahatlıqlarının artmasına səbəb olmuş, (birlik) iplərini kəramət və böyüklüyə birləşdirmiş işi - parçalanmadan (nifaq və ikiüzlülükdən) çəkinmələri, mehribanlıqları (vəhdət və birlikləri) və bir-birlərini mehribanlığa (həmrəylik və yekdilliyə) həvəsləndirərək tövsiyə etmələrini-seçin. Həmçinin (şər və pis yola ayaq basmayın və) qəlblərdə kin bəsləmək, sinələrdə düşmənçilik daşımaq, insanların bir-birlərinə arxa çevirmələri və əllərin bir-birinə kömək etməməsi səbəbindən keçmişlərin bel fəqərə sümüyünü sındırmış və güclərini süstləşdirmiş hər bir işdən uzaq olun. Eləcə də sizdən qabaqkı möminlərin (Bəni-İsraildən və digər tayfalardan olan imanlıların) vəziyyətləri, sınaq zamanı və əziyyət çəkərkən necə olmaları barəsində düşünün. Məgər onlar digər insanlardan daha ağır vəziyyətdə (cəfa içərisində), başqalarından daha çox əziyyət çəkən deyildilər və həyatları dünya əhlindən daha sıxıntılı deyildi?! Fironlar onları nökər və qulluqçu

edirdilər, əzabın çətinliyini onlara daddırırdılar (oğullarının başını kəsir, qızlarını saxlayırdılar) və acılığı onlara qurtum-qurtum içirdirdilər (əzab-əziyyətin ən son həddinə düçar etmişdilər onları. Onların bir dəstəsi fironların nökərləri, digər bir dəstəsi isə əkinçiləri idilər. Əlindən heç bir iş gəlməyəndən isə bac alırdılar). Buna görə də onlar həmişə həlakolma xarlığı və hökm (fironların hökmü) altında və istismar vəziyyətində idilər. (Fironların əmrlərindən) boyun qaçırmaq üçün çarə və (onların zülmlərindən) müdafiə üçün yol tapmırdılar. Nəhayət, Allah onların Onun məhəbbəti yolunda əziyyətlərə səbr etməkdə çalışqanlıq göstərmələrini və Ondan qorxduqları üçün iyrəncliklərə dözmələrini nəzərə aldı. Onları ağır çətinliklərdən xilas etdi və onlara xarlıq və həqirliyin əvəzində izzət və möhtərəmlik, qorxunun əvəzinə dinclik əta etdi. Beləliklə, əmr verən hökmdarlar və yol göstərən rəhbərlər oldular. Allah tərəfindən onlara arzusunda olduqlarından da çox izzət və böyüklük bağışlanıldı. Beləliklə, cəmiyyətləri bir yerə toplaşanda, fikirlər birgə, qəlblər bir, əllər bir-birinə yardımçı, qılınclar bir-birinə kömək, uzaqgörənliklər dərin və qərarlar yekdil olanda onların necə olmalarına nəzər salın. Məgər yer üzünün (şəhərlərin) böyüyü və insanların hər şeyinin ağası deyildilər?! Sonra onların işlərinin (kef çəkmələrinin) axırında (aralarında) parçalanma yarananda, mehribanlıq və birlikləri bir-birinə dəyəndə, sözləri ilə qəlbləri arasında fərq yarananda, dəstə-dəstə olub bir-birlərinin canına düşəndə və bölünərək bir-birləri ilə vuruşanda düçar olduqları şeyə (çətinliklərə) nəzər salın. Allah (həmin çirkin əməllərinə görə, Buxtunəsr və digər zalımlar vasitəsi ilə) izzət və böyüklük libasını onların əyinlərindən çıxartdı, nemət bolluğunu onlardan aldı və sizin öyüd götürənlərinizin ibrət almaları üçün onların başlarına gələnlərin əhvalatı aranızda qaldı. Həmçinin (Zəbih) İsmayılın övladlarının, (İbrahim Xəlilin oğlu) İshaqın oğullarının və İsrail övladının (Yaqub ibn İshaqın) əleyhimus-salam-başlarına gələnlərdən ibrət götürün ki, sərgüzəştlər (hər bir əsrin insanlarının sərgüzəştləri) necə də bir-birinə uyğun və əhvalatlar (bir-birinə) necə də yaxındır! (Yəni, sizin vəziyyətinizlə keçmişlərin vəziyyətləri bir-birinə oxşayır. Buna görə də yaxşı olar ki, onların əhvalatlarından ibrət götürəsiniz.) Onların Kəsralar (əcəm şahları) və Qeysərlər (Rum şahları) onlara ağalıq edib hakim olan gecələrdəki (zamanlardakı) sərgüzəştləri, parçalanma və bir-birlərindən ayrılmalarının necəliyi barədə fikrə dalın və düşünün. Onları əkin yerlərindən (abadlıqlardan), İraq çaylarından (Dəclə-Fəratdan) və dünyanın

yaşıllıqlarından yovşan bitən, bərk küləklər əsən və yaşayış çətin olan yerlərə qovdular. (Onları otsuz-susuz və abadlıqdan uzaq olan çöllüklərə göndərdilər.) Beləliklə, onları yoxsul, kasıb və yaraya və dəvə tükünə yoldaş halda tərk etdilər (dəvə otaran etdilər). Onlar ev və məskən baxımından tayfaların ən həqiri və oturaq salma baxımından ən bədbəxti idilər (yaşadıqları yerlərin nə suyu var idi, nə də otu). Nə bir başçının ətrafına toplaşırdılar ki, ona sığınsınlar (bu bədbəxtlik və çətinlikdən nicat tapmaları üçün onları bir dinə dəvət edərək bir iş ətrafına toplayacaq bir kimsə yox idi), nə də dostluq və mehribanlığın kölgəsi altına yığışırdılar ki, onun izzət və böyüklüyünə arxalansınlar (etimad edərək rahatlanmaları üçün bir başçı və rəhbərləri yox idi). Beləliklə, nigaran vəziyyət, ixtilaflı əllər (bir-biri ilə yoldaşlıq etmədən) və parçalanmanın çoxluğu ilə ağır çətinlik və qızları diri-diri torpağa basdırmaq, bütlərə sitayiş, qohumlardan uzaqlıq və hər bir yolda soyğunçuluq etmək kimi cəhalət və nadanlıq içərisində idilər. Sonra da, Allahın, onlara peyğəmbər (peyğəmbərlərin sonuncusu Həzrət Məhəmmədi-səlləllahu əleyhi və alih-) göndərdiyi, onları onun şəriətinə tabe etdiyi və həmin peyğəmbərin dəvəti ilə onları toplayaraq bir-biri ilə mehribanlaşdırdığı zaman onlara verdiyi nemətlərinə nəzər salın. Baxın ki, nemət və rahatlıq özünün kəramət qanadlarını onların üzərinə necə sərdi, onlar üçün rifah və bolluq çaylarını necə rəvan etdi və şəriət (o Həzrətin şəriəti) onları öz bərəkətli xeyirlərində necə topladı. Beləliklə, (xoşbəxtlik, möhtərəmlik və asayişin son yüksək həddini onlara tədarük gördüyü üçün) onun nemətində qərq oldular və onun həyatının ləzzətindən məmnun qaldılar. Həyatları qalib şahın (müqəddəs İslam dininin) kölgəsində quruldu və vəziyyətlərinin yaxşılığı onları böyüklük və qələbənin kənarında yerləşdirdi. Qüdrətli şahlığın ucalığı sayəsində işlər onlara asanlaşdı (dünya və axirət səadəti üz tutdu onlara). Beləliklə, onlar aləmdə olanlara fərman verənlər və yerlərin (şəhərlərin) şahları idilər. Onlara hakim olmuşlara hakim oldular və onlara əmr verənlərə əmrlər verirdilər. Onlara nizə atılmır, daş tullanmırdı!! (İslam dini onlara elə bir güc və qüdrət verdi ki, dünyanın işlərinin idarəçiləri və aləmdə olanlara hakim oldular və heç kəs onlara hakim ola bilmirdi.) Bilin ki, siz (yaranmışların ən xeyirlisi olan Həzrət Peyğəmbərin şəriətinə iman gətirmək nəticəsində izzət və şərəf tapdıqdan sonra) əllərinizi itaət və tabeçilik kəndirindən çəkdiniz (Allahdan və Peyğəmbərdən üz çevirərək uzaqlaşdınız), Allahın ətrafınıza çəkilmiş hasarında cahiliyyət hökmləri (İslamdan qabaqkı dövrün adətləri) ilə uçuq yaratdınız (öz imam və

rəhbərinizə itaət etmədiniz və onun nəticəsində öz dünya və axirətinizi bərbad etdiniz). Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, bu ümmətin boynuna aralarında yaratdığı, kölgəsinə daxil olduqları və kənarında qərar tapdıqları bu ülfət və mehribançılıq bağlantısında qiymətini, yaratdıqlarından heç bir kəsin bilmədiyi bir nemətlə (ülfətə səbəb olan din ilə) haqq qoyub (zəhmətə qatlaşmadan nemət verib). Çünki qarşılıqlı ülfət və mehribanlığın dəyəri hər bir qiymətdən artıq və hər bir böyüklükdən böyükdür. (Ona görə ki, ülfət və birliklə dünya və axirət səadəti və xoşbəxtliyi əldə edilir.) Bilin ki, siz hicrətdən sonra (nadanlıq və azğınlıqdan bilik və hidayətə nail oldunuz və sonra bir daha təəssübkeşlik, məğrurluq, bir-birinizlə düşmənçilik və fitnə və çaxnaşma yaratmaq səbəbindən) bədəvi ərəb (nadanlıq və azğınlıq çölçüləri) oldunuz. Həmçinin dostluqdan (bir yerə toplaşdıqdan) sonra (bir-birinə müxalif və düşmən olan) dəstələrə parçalandınız. İslamla, onun adından başqa heç bir əlaqə və bağlılığınız yoxdur. İmandan, onun nişanəsindən başqa bir şey tanımırsınız!! (Ancaq dildə kəlmeyi şəhadətləri deyirsiniz. Amma İslamın hökmlərindən bir şey öyrənməmisiniz və həmçinin imanın həqiqətini dərk etməmisiniz.) Deyirsiniz ki: «Oda gedərik, amma xarlığa razı olmarıq»?! («النّارَ وَ لاَ الْعارَ» «Oda gedərik, amma xarlığa razı olmarıq» məsəlini zillət və xarlığa boyun əyməyən kəslər deyirlər. Bu məsəl haqq barəsində deyilsə, çox gözəldir. Amma əgər batil və nahaq barəsində deyilsə, səhvdir. Əgər Kufə əhlinin məqsədi o Həzrət olmuş olsa və ya onlarla Şam əhlinin məqsədləri ümumi müraciət olmuş olsa, bu, fitnə, qalmaqal və İslamın göstərişlərinə ziddir. Buna görə də İmam əleyhis-salam onları məzəmmət edərək sözlərini davam edir:) Sanki siz İslamın hörmət pərdəsini yırtmaq və peymanını sındırmaqla (hökm və şərtlərinə əməl etməməklə) onu başıaşağı və tərsinə çevirmək (məhv etmək) istəyirsiniz (necə ki, kafir, münafiq və düşmənlər onu məhv etmək niyyətindədirlər). Elə bir peymanı ki, Allah, onu yer üzündə (düşmənlərin hücum edərək sizə hakim olmalarının qarşısında) sizin üçün sığınacaq və yaratdıqları arasında (onların iztirab və nigarançılıqlarını aradan qaldırmaq üçün) əmin-amanlıq və rahatlıq (vasitəsi) edib (ki, bəşəriyyət hər hansı bir işdə çarəsiz qalanda və əli bütün yollardan üzüləndə İslamın peymanına, yəni, onun hökm və göstərişlərinə üz tutub tabe olsun). Əgər siz (belə bir dinə malik olmağınıza baxmayaraq,) İslamdan qeyrisinə sığınsanız (öz şücaətinizə, cəmiyyət və qohum-əqrabalarınızın çoxluğuna arxalanaraq onun hökmlərinə tabe olmayıb göstərişlərinə hörmətlə

yanaşmasanız), kafirlər sizinlə vuruşacaqlar. Həmin vaxt Cəbrail, Mikail, Mühacirlər və Ənsar da olmayacaq ki, sizə kömək etsin (necə ki, Həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih - zamanında edirdilər). Allah aranızda (qələbənin hansınıza nəsib olması barəsində) hökm çıxarana kimi (heç bir kömək olmadan) ancaq qılınc ilə vuruşacaqsınız. Allahın (keçmiş ümmətlərə olan) əzabı, (qəlbləri) sıxan və ağrıdan bəla və çətinlikləri, (qəzəb) dövranlar(ı) və (çarəsi olmayan) hadisələri barəsindəki məsəl və sərgüzəştləri əliniz altındadır. (Allah Qur'ani-Kərimdə Nuh, Ad, Səmud və digər tayfaların sərgüzəştlərini bəyan edib.) Buna görə də Allahın məsuliyyətə alacağına nadan olmağınız, bərkə çəkməsini yüngül saymağınız və əzabına düçar olmamağınız səbəbindən Onun əzabını(n gəlib çatmasını) uzaq sanmayın. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, keçmiş ümmətləri onların «əmr be mə'ruf və nəhy əz munkər»i tərk etmələrindən ayrı bir səbəbdən Öz rəhmindən uzaqlaşdırmayıb. (Onlar bir-birlərinə yaxşı işlər görməyi əmr etmir, nalayiq əməllərdən çəkindirmirdilər.) Odur ki, Allah ağılsız və qanmazları günah etdiklərinə, ağıllıları isə pisliklərdən çəkindirmədiklərinə görə lə'nətləyib (Öz rəhmindən uzaqlaşdıraraq ağır əzaba düçar edib). Bilin ki, siz İslamın bağını qırdınız (təəssübkeşlik və məğrurluq ilə ülfət və dostluğa göz yumaraq bir-birinizlə düşmənçilik etdiniz), onun hüdudlarını tərk etdiniz (müəyyənləşdirdiyi vəzifələrə əməl etmədiniz) və hökmlərini (xüsusilə hökmlərinin ən böyük və mühümü olan «əmr be mə'ruf və nəhy əz münkər»i) aradan qaldırdınız. (Amma mən ki, sizin itaət etməyiniz vacib olan imam və rəhbərinizəm və Həzrət Peyğəmbərə - səlləllahu əleyhi və alih-ən yaxın adam olmuşam, məmur edildiyim şey əsasında davranıram. Buna görə də) bilin ki, Allah mənə zülmkarlar, əhdini sındıranlar və yer üzündə fitnə-fəsad törədənlərlə vuruşmağı əmr edib. Odur ki, əhdini pozanlarla (Cəməl əhli olan Təlhə, Zübeyr və onların tərəfdarları ilə) vuruşdum (və onları diz çökdürdüm), haqdan əl götürənlərlə (Şam əhli ilə) cihad edərək döyüşdüm və dindən xaric olanlara (Nəhrəvan Xəvaricinə) qəzəb edərək onları xar və zəlil etdim. Rədhə şeytanına gəldikdə isə: (vuruşmaq və öldürmək əvəzinə) onun barəsində nəticəsində ürəyinin döyüntüsünü və sinəsinin titrəməsini eşitdiyim qorxunc bir nə'rə ilə kifayətləndim. Əgər Allah izn versə (istəsə və mən sağ qalsam), ikinci dəfə zalımlardan (Əmr ibn Asın hiylə və kələyi ilə Qur'anları nizələrin başına sancıb Siffeyn müharibəsini dayandıran Müaviyə və onun ətrafındakılarından) yerdə qalanlara tərəf gedəndə, şəhərlərin kənarlarına

dağılanlar istisna olmaqla, dövləti və qüdrəti onlardan alacağam (və hamısını məhv edəcəyəm). (O Həzrət burada öz şücaət, qəhrəmanlıq, məqam, dərəcə və böyüklüyünü xatırladaraq buyurur:) Mən uşaqlıqda ərəbin kürəyini yerə vurmuşam (İslamın ilkin çağlarında onların böyüklərini öldürmüşəm) və Rəbiə və Muzərin (bu qəbilələrin) yeni yetişmiş budaqlarını (igidlərini) sındırmışam. Siz mənim Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanında yaxın qohumluq (əmioğluluq və kürəkənlik), yüksək məqam və xüsusi ehtiram səbəbindən olan qədir-qiymət və dərəcəmi bilirsiniz (ki, mən o Həzrətin yanında belə böyük bir hörmət və məqama malik idim və məni xilafətə təyin etmişdi). O məni uşaqlıqdan öz yanında böyüdüb. O məni sinəsinə sıxar, yatanda qucağına alar, bədənini bədənimə sürtər, öz xoş ətrini mənə iylədər, (ata öz övladına etdiyi kimi) ağzıma çeynənmiş yemək qoyardı. O mənim sözümdə yalan, əməlimdə səhv və xəta tapmadı. Peyğəmbər (səlləllahu əleyhi və alih) süddən ayrılandan sonra Allah mələklərinin ən böyüyünü o Həzrətə yoldaş etdi ki, gecə-gündüz onu nəciblik yollarına və dünyanın gözəl xislətlərinə doğru yönəltsin. Mən dəvə balası anasının dalına düşüb getdiyi kimi onun arxasınca gedirdim. O, hər gün öz xislətlərindən bir bayraq və əlamət ucaldır (biruzə verir) və mənə ona yiyələnməyi əmr edirdi. (Peyğəmbərliyə təyin edilməmişdən qabaq) hər il (bir ay insanlardan uzaqlaşaraq ibadət və bəndəliklə məşğul olmaq üçün Məkkə yaxınlığındakı dağlardan biri olan) Hirada məskunlaşardı. Həmin müddətdə mən onu görərdim və onu məndən qeyrisi görməzdi. Həmin zamanda İslam Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) və (o Həzrətin arvadı) Xədicənin evindən başqa heç bir evə daxil olmamışdı və mən onların üçüncüsü idim. Vəhy və (ilahi) elçilik nurunu görür və nübuvvət və peyğəmbərlik ətrini duyurdum. (Vəhy nazil olan zaman o Həzrətlə birgə idim və heç bir tərəddüd olmadan nazil olanlara iman gətirirdim.) O Həzrətə (səlləllahu əleyhi və alih) vəhy nazil olanda şeytanın səsini eşitdim. Dedim: Ey Allahın Peyğəmbəri, bu nə səsdir? Buyurdu: Bu şeytanın səsidir ki, o, pərəstiş edilməkdən ümidsizliyə qapılıb sən mənim eşitdiklərimi eşidir, gördüklərimi görürsən (hər şeydə mənimlə bərabərsən), sən yalnız peyğəmbər deyilsən, lakin vəzirsən; sən xeyir və yaxşılıqdasan. (Sən bütün zahiri və mənəvi kamilliklər toplususan və elə bir yoldasan ki, dünya və axirət xeyri və yaxşılığı ondadır.) Qüreyşin böyüklərindən ibarət bir dəstə Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) yanına gələndə mən onunla bir yerdə idim. Onlar dedilər: Ey Məhəmməd! Sən elə böyük bir iş (nübuvvət və

peyğəmbərlik) iddia edirsən ki, nə sənin ataların və nə də sənin nəslindən bir nəfər onu iddia etməyib. İndi biz səndən bir iş görməyini istəyəcəyik. Əgər bizim üçün onu yerinə yetirsən və onu bizə göstərsən, biləcəyik ki, (Allah tərəfindən göndərilmiş) peyğəmbər və elçisən. Amma əgər yerinə yetirməsən, biləcəyik ki, cadugər və yalançısan. Peyğəmbər - səlləllahu əleyhi və alih - buyurdu: Nə istəyirsiniz? Dedilər: Bu ağacı çağır, kötükləri ilə (yerdən) çıxıb (gəlib) qarşında dayansın. Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: Allah hər şeyə qadirdir. Əgər sizin bu istəyinizi rəva etsə, iman gətirib haqqa şəhadət verəcəksiniz? Dedilər: Bəli. Buyurdu: Mən istədiyinizi sizə göstərəcəyəm. Amma bilirəm ki, xeyir və yaxşılığa (bütün dünya və axirət xeyirlərini özündə toplamış İslama) bağlanmayacaqsınız. Sizin aranızda eləsi var ki, (öz kafirliyində qalıb Bədr müharibəsində öldürüləcək və) quyuya atılacaq. Həmçinin (sizin aranızda) qoşunları toplayacaq kimsə var. Bundan sonra Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurdu: Ey ağac, əgər sənin Allaha və qiyamət gününə imanın varsa və mənim Allahın peyğəmbəri olmağımı bilirsənsə, öz köklərinlə yerindən çıx və Allahın əmri ilə mənim qarşımda dayan. O Həzrəti haqq (düz və doğru) olaraq göndərən Allaha and olsun ki, ağac kökü ilə yerdən çıxdı və quşların qanadlarının səsinə bənzər ağır səslə gəlib qanad çalan quş kimi Peyğəmbərin (səlləllahu əleyhi və alih) əlləri arasında dayandı və özünün böyük budağını Allahın Peyğmbərinin (səlləllahu əleyhi və alih) başına, budaqlarının bəzilərini isə mənim çiynimə atdı. Mən o Həzrətin (səlləllahu əleyhi və alih) sağ tərəfində dayanmışdım. Həmin dəstə onu görəndən sonra təkəbbürlülük və məğrurluq üzündən dedi: De ki, onun yarısı sənin yanına gəlsin, digər yarısı isə öz yerində qalsın. Beləliklə, Peyğəmbər ağaca həmin istəyin gerçəkləşməsi əmrini verdi. Sonra onun yarısı heyrətləndirici gəliş və gurultulu səslə o Həzrətə tərəf üz tutdu (o Həzrətin əmrini birincidən daha sürətli şəkildə yerinə yetirdi) və az qalmışdı ki, Allahın Peyğəmbərinə (səlləllahu əleyhi və alih) sarılsın. Onlar yenə naşükürlük və ədavət üzündən dedilər: Əmr et bu yarı hissə qayıdıb əvvəl olduğu kimi öz yarısına birləşsin. Sonra Peyğəmbər - səlləllahu əleyhi və alih - əmr etdi və ağac qayıtdı. Mən dedim: İbadətə Allahdan başqası layiq deyil. Ey Allahın Peyğəmbəri! Mən sənə ilk iman gətirən və həmçinin ağacın Allahın əmr və istəyi ilə yerinə yetirdiyini, sənin peyğəmbərliyini təsdiq etmək və əmrinə ehtiram üçün etdiyini etiraf edən ilk kimsəyəm. Sonra həmin dəstədəkilərin hamısı dedi: Çox yalançı cadugərdir! Bu, onun çox çevik olduğu heyrətləndirici bir cadudur! (Çünki fikrə dalıb

düşünmədən istədiyini etdi. Həmçinin dedilər:) Səni işində bu şəxsdən başqası təsdiqləyir? Onlar məni nəzərdə tuturdular. Mən o dəstədənəm ki, onlara Allah yolunda heç bir tənə vuranın tənəsi mane olmur. Onların üzləri doğruçuların üzləri, sözləri gözəl əməl sahiblərinin sözləridir. Gecə abadlaşdıran, gündüz isə nişanə və bələdçidirlər (gecə oyaq qalaraq axirətlərini abadlaşdırırlar. Gündüz də xalqı haqq yola istiqamətləndirirlər). Özlərini Qur'an ipindən (onun azğınlıq və bədbəxtçilikdən nicat tapmağa səbəb olan elm və maarifinə) asarlar və Allahın yollarını və Onun Peyğəmbərinin sünnəsini dirçəldərlər. (Dinin nişanələrini yayaraq onun hökmlərinə əməl edərlər.) Təkəbbür göstərməz, məğrurluq, haqsızlıq və pozğunçuluq etməzlər. Qəlbləri Cənnətdə, bədənləri isə işlə məşğuldur (qəlbləri Cənnətə yönəlib, bədənləri isə yaxşı işlərlə və bəndəliklə məşğuldur).

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa buyurduğu kəlamlarındandır. Abdullah, Osman (zülmkarlıqlarına, müsəlmanların beytülmalını dağıtdığına və gördüyü çirkin işlərə görə) mühasirədə olan zaman (müsəlmanlar onu xilafət məqamından uzaqlaşdırmaq istəyirdilər və o, öldürülmək qorxusundan çölə çıxmağa cürət etmədiyi üçün) ondan o Həzrətə bir məktub gətirdi. Osman həmin məktubda o Həzrətdən, xalqın onu xilafətə namizəd kimi irəli sürmələri hay-küyünün yatması üçün Yənbudakı malikanəsinə getməsini istəmişdi. Halbuki həmin istəyin bənzərini bundan qabaq da etmişdi. Buna görə də İmam əleyhis-salam buyurdu: Ey Abbasın oğlu! Osman məni böyük vedrə ilə su daşıyan dəvə kimi etməkdən, (həmin dəvə kimi) gedib-gəlməyimdən başqa bir şey istəmir. (Bundan qabaq yanıma adam) göndərdi ki, (Mədinədən) çıxım. Ondan sonra (yenə adam) göndərdi ki, (ona kömək etmək üçün Yənbudan Mədinəyə) gəlim. İndi də (səni) göndərir ki, çıxım. Allaha and olsun, (kömək edərək) onu elə müdafiə etdim ki, (onunla bir yerdə olmaqda çox çalışmağımın nəticəsində) günahkar olmağımdan qorxdum. (Çünki o, gördüyü nalayiq işlərə görə müdafiə edilməyə layiq deyildi.)

İmam Əli əleyhis-salamın kəlamlarındandır ki, onda özünün Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) (Məkkədən Mədinəyə) hicrətindən sonrakı vəziyyətinin necəliyini və o Həzrətə birləşməsini açıqlayıb: (Həzrət Peyğəmbər Məkkədən Mədinəyə hicrət edən zaman mənə əmr etdi ki, hərəkət edəcəyi axşam onun yatağında yatım. Onun səhərisi gün müşriklər Peyğəmbərin getdiyini və yataqda yatan şəxsin mən olduğumu bildilər. O Həzrətin hicrətindən üç gün sonra piyada onun arxasınca yola düşdüm.) Beləliklə, Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) getdiyi yolu tutdum. Hər addımı onun fikri ilə atırdım (və hər mənzildə onu soraq edirdim) ki, nəhayət, Ərəcə (Məkkə ilə Mədinə arasında yer adıdır) çatdım. (Seyyid Rəzi deyir:) Bu cümlə (o Həzrətdən nəql edilmiş) uzun bir kəlamdandır. (Seyyid Rəzi daha sonra belə deyir:) O Həzrət əleyhis-salamın «فَأَطَأُ ذِكْرَهُ» «hər addımı onun fikri ilə atırdım» cümləsi ixtisar və fəsahətin son həddinə çatıb. (Həmin sözdən) məqsəd budur ki, mən (Məkkədən) çıxandan Ərəcə çatana kimi o Həzrəti (səlləllahu əleyhi və alih) soraqlaşırdım. Odur ki, bu kəlamı belə bir heyrətləndirici metafora üçün gətirib.

İmam Əli əleyhis-salamın (insanın nə qədər ki, sağdır, ibadət və bəndəliyi əldən çıxarmamasının zəruriliyi barəsindəki) xütbələrindəndir. (Allaha həmd və Həzrət Peyğəmbərə və onun Əhli-Beytinə salamdan sonra, bilin ki, dünya həmişə qalmayacaq. Buna görə də) nə qədər ki, həyat genişliyindəsiniz (sağsınız), dəftərlər (əməl dəftərləri gözəl söz və əməllərin yazılması üçün) açıqdır (bağlanmayıb), tövbə və (pisliklərdən) qayıdış sərilib (qəbul edilir), üz döndərən (günahkar çirkin əməldən əl götürüb tövbə etməyə) çağırılır, pis əməl sahibinə (çirkin əməlinin yerini yaxşı əməllərlə doldurmaq üçün) ümidvarlıq verilir, əməl çırağı sönməyib fürsət əldən çıxandan, vaxt sona çatandan, tövbə qapısı bağlanandan, mələklər göyə qalxandan (qələmlər əməl dəftərinə yaxşı və ya pis bir şey yazmaqdan saxlanılandan) qabaq (bacardığınız qədər Allah və Peyğəmbərin göstərişlərinə uyğun) iş görün. Buna görə də gərək insan (ölüm - yəni, heç bir iş görmək imkanı olmayan zaman gəlib çatmamışdan qabaq) özündən özü, həyatdan ölüm, yoxluqdan varlıq və ötəridən daimi üçün nəticə əldə etsin (dünyada özünü işə vadar etsin ki, onun nəticəsi axirətdə dərdinə dəysin). Ölüm çatana kimi fürsət və işin görülməsinə qədər möhlət verilmiş halda Allahdan qorxan (və əməldə çalışan) kəs, o şəxsdir ki, nəfsini noxtalayıb və onun cilovu öz ixtiyarındadır və beləliklə, nəfsin noxtası ilə özünü Allahın qadağan etdiklərindən saxlayıb və onun cilovu ilə özünü Allaha itaət və tabeçiliyə tərəf çəkir.

İmam Əli əleyhis-salamın «Həkəmeyn» (Əmr ibn As və Əbu Musa Əş'əri) barəsindəki və Şam əhalisinin məzəmmətindəki xütbələrindəndir. Şamlılar daşürəkli və tüfeyli insanlar və alçaq kölələrdir (nökərlərdir) ki, ordan-burdan toplaşıblar və müxtəlif qarışıqlardan yığılıblar. (Hər biri bir yerdən gəlib bir-birinə birləşmiş dəstədirlər və əsil-nəcabətləri məlum deyil.) Onlar (İslamın hökmləri) öyrədilməyə, (gözəl xislətlərlə) tərbiyə edilməyə, (xeyir və şər) təlim edilməyə, təcrübələndirilməyə, rəhbərlik edilməyə və (uşaqlar kimi) əllərindən tutulmağa layiq kimsələrdəndir (ki, özbaşına bir iş görməsinlər). Onlar nə (Məkkədən Mədinəyə hicrət edərək Həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih - yanına gələn) Mühacirlər və (İslamı qəbul edərək o Həzrətə kömək edən Mədinə əhli olan) Ənsardan, nə də Mədinədə yerləri olan (və hicrətdən qabaq İslamı qəbul edən) və imanda möhkəm olan kəslərdən idilər. Bilin ki, Şam əhalisi özləri üçün sevdikləri şeyə (İraq əhlinə qalib gələ bilmələrinə) ən yaxın olanı (Əmr ibnAsı) seçdilər. Siz isə insanların sevmədiyiniz şeyə (Şam əhlinin sizə qalib gəlmələrinə) ən yaxınını (Əbu Musa Əş'ərini) seçdiniz. Sizin Abdullah ibn Qeys ilə qarşılaşmağınız dünən idi (çox yaxındır. Mən Bəsrəyə, Cəməl müharibəsinə gedəndə eşitdiniz) ki, deyirdi: «(Ey Kufə əhli, İmama kömək etməyin, çünki) bu qarşıdurma və müharibə fitnədir (ki, ondan uzaq olmaq lazımdır). Odur ki, oxlarınızın yayının kirişini işə salmayın və qılınclarınızı qınına qoyun». Əgər düz deyirdisə, məcbur edilmədən (bizim yanımıza) gəlməkdə (və Siffeyn müharibəsində İraq qoşununda hazır olaraq bizə kömək etməkdə) səhv edib. (Çünki öz əqidəsinə zidd davranıb və belə bir şəxsin hökm çıxarmaq səlahiyyəti yoxdur.) Əgər yalan deyirdisə, onda ona töhmət vurmaq olar. Odur ki, Əmr ibn Asın sinəsində olanları Abdullah ibn Abbasın vasitəsi ilə məhv və dəf edin (Abdullah ibn Abbası öz nümayəndəniz edin ki, hiyləgər Əmr ilə o bacara bilər), zamanın fürsətini əldən çıxarmayın və İslamın uzaq şəhərlərini (fitnəkarların və zalımların onlara hakim olmasından) qoruyun. Məgər şəhərlərinizə nəzər salmırsınız ki, (sizi məhv edərək var-dövlətinizi qarət etmək üçün) onlarda müharibə aparırlar? Məgər özünüzün möhkəm daş parçalarınızı (qüdrət və gücünüzü) görmürsünüz ki,

ona ox vururlar? (Sizin zəiflik və acizliyə düçar olmağınızı və nəticədə məğlub olub təslim olmağınızı istədiklərini görmürsünüz?!)

Nəhcül-bəlağə. 239-cu xütbə (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın Məhəmməd Əhli-Beyti əleyhimus-salamı (onların fəzilətlərini) bəyan etdiyi xütbələrindəndir. Məhəmməd əhli-beyti (pak imamlar-salavatullah əleyhim əcməin) elm və biliyi dirildənlər və nadanlıq və cəhaləti öldürənlərdir. (Onlardan elm əldə edilir və vasitələri ilə nadanlıq dəf edilir.) Onların səbrlilikləri alimliklərindən xəbər verir (çünki səbr etmək lazım olan yerləri bilib ancaq həmin yerlərdə səbrlilik edərlər) və həmçinin zahirləri batinlərindən (gözəl söz və əməlləri paklıq və saflıqlarının kamilliyindən) və sükutları sözlərinin düzlük və doğruluğundan! (Çünki insanın sükut edərək yersiz danışmaması onun sözlərinin elm və hikmət əsasında olmasına bir dəlildir.) Haqq ilə müxalifət etməzlər (ondan üz döndərməzlər) və onun barəsində ixtilaf və ziddiyyətləri yoxdur (sözləri bir şəkildədir). Onlar İslamın sütunları və sığınacaqlarıdır (öz elmləri ilə onu qoruyur və hökmlərini xalqa öyrədərək onlara azğınlıq və nadanlıqdan nicat verirlər). Haqq onların vasitəsi ilə öz əslinə və yerinə qayıdır, batil və nahaq onun yerindən uzaqlaşır, məhv olur və haqq zahir olanda (batilin) dili kəsilir. (Onların elm və biliyi nəticəsində haqq və həqiqət aşkar, batil və nahaq isə məhv olur.) Dini (və onun hökmlərini) bildilər, qavradılar, amma sırf eşitməyə və nəql etməyə əsaslanan qavrama ilə deyil, elmə və riayət (əməl) etməyə əsaslanan qavrama ilə! (Çünki əgər belə olmasaydı, başqalarından bir üstünlükləri olmazdı.) Elmi rəvayət edənlər çox, ona əməl edənlər isə azdır.

Bu fəsildə ağamız və başçımız Əmirəl-möminin Əli əleyhis-salamın düşmənlərinə və şəhərlərin rəhbərlərinə (yazdığı) məktubları toplanıb və o Həzrətin məmurları ilə olan əhd-peymanlarının bir hissəsi, eləcə də Əhli-Beyt və dostlarına tapşırıqları (öyüd-nəsihətləri) də fəslə daxildir.

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

الْحَمْدُ لِلّهِ الْفاشِی فِی الْخَلْقِ أَمْرُهُ وَ حَمْدُهُ الظّاهِرِ بِالْكَرَمِ مَجْدُهُ الْباسِطِ بِالْجُودِ يَدَهُ الَّذِی لا تَنْقُصُ خَزائِنُهُ وَ لا تَزِيدُهُ كَثْرَةُ الْعَطاءِ إِلّا جُوداً وَ كَرَماً إِنَّهُ هُوَ الْعَزِيزُ الْوَهّابُ وَ الصَّلوةُ وَ السَّلامُ عَلى عَبْدِهِ وَ رَسُولِهِ سَيِّدِ الْأَنْبِياءِ وَ الْمُرْسَلِينَ مُحَمَّدٍ وَ اِلِهِ الْهُداةِ الْمَهْدِيِّينَ

اللّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَ الِ مُحَمَّدٍ وَ عَجِّلْ فَرَجَهُمْ وَ أَهْلِكْ عَدُوَّهُمْ مِنَ الْجِنِّ وَ الْإِنْسِ مِنَ الْأَوَّلِينَ وَ الْاخِرِينَ

«Nəhcül-Bəlağə» peyğəmbərlərin sözlərinin cövhəri, Qur'ani-Kərim həqiqətlərinin sirlərinin açıqlaması, azğın və düşkünlərin xilasedicisidir. Əmirəl-möminin əleyhis-salamın Seyyid Şərif Rəzi (əleyhir-rəhmə) tərəfindən nümunələri müqəddəs «Nəhcül-Bəlağə» kitabında toplanmış kəlam və əməllərinə tabe olmayınca qan tökülməsi, fitnə-fəsad, zülmkarlıq, ikiüzlülük, özündənrazılıq və bədbəxtlik bəşəriyyətdən uzaqlaşmayacaq və dünyada sülh və asayiş, ədalət, vəhdət və xoşbəxtlik bərqərar olmayacaq. Bu kitabda insanın həyat və asayişinə aid hər bir şey olduğu üçün o, əməl edən hər bir kəsin başucalığı və xoşbəxtliyinə zamindir.

Bu sözlər əql və elm sütunları üzərində bərkidilib və boşboğazlıq və naqqallıq deyil. Əgər inanmırsınızsa, öz alim və tanınımış şəxsiyyətlərinizlə bir yerə toplaşaraq barəsində ətraflı fikirləşib düşünün ki, həqiqətlərini dərk edəsiniz.

Xeyir və yaxşılıq, asayiş və gözəllik axtaran hər bir kəs, gərək «Nəhcül-Bəlağə»ni özünə örnək etsin. Buna görə də bədbəxt o böyük və başçıdır ki, bu kitabı oxumayıb; aciz o rəhbər və tayfa başçısıdır ki, onun göstərişlərinə əməl etmir; avara-sərgərdan o xalqdır ki, əməlləri «Nəhcül-Bəlağə»nin buyuruqları ilə uyğun gəlmir; xoşbəxt o kəslərdir ki, bu tərcümə və şərhin dörd hissəsini diqqətlə oxuyub və əməl ediblər və indi beşinci hissəni dərk etməyə nail olurlar. Çünki biz lazım olan bütün nöqtələrə (hamının

səviyyəsində olan xülasə şəklində və hamının başa düşdüyü sadə dildə) toxunmuş və onları yada salmışıq. Bu məsələ elm və bilik əhlinə bəllidir. Hissələrdə Allah və Peyğəmbərin razılığına zidd bir söz yazılmamasına, elm şəhəri olan Əli əleyhis-salamın hüzurunda əməlimin qəbul edilməsinə və qiyamət günü günahlarımın bağışlanmasına səbəb olacağına ümid bəsləyirəm.

اللهُمَّ اخْتِم عَمَلی بِأَحْسَنِهِ وَ اجْعَلْ ثَوابی مِنْهُ الجَنَّةَ بِرَحْمَتِكَ

امین یا رَبَّ العالَمینَ

Fani bəndə: Əliyyənnəqi (Feyzul-İslam) İsfahani Ali-Məhəmməd əd-Dibac,

1368 H.Q.

İmam Əli əleyhis-salamın Mədinədən Bəsrəyə *(Təlhə, Zübeyr və onların tərəfdarları ilə müharibəyə)* gedərkən yoldan Kufə əhlinə göndərdiyi məktublarındandır. *(O, Maul-uzəybə çatanda bu məktubu Kufə əhlinə yazdı və onları Osmanın öldürülmə səbəbindən xəbərdar edərək öz köməyinə çağırdı. Məktubu Kufəyə imam Həsən və Əmmar ibn Yasir ilə göndərdi.)*
Allahın bəndəsi Əmirəl-möminin Əlidən alicənab yardımçı və ərəbin şərafətlilərindən olan Kufə əhlinə:
Allaha həmd və Peyğəmbərə salamdan sonra, mən sizi Osmanın işindən *(və onun öldürülmə səbəbindən)* elə xəbərdar edirəm ki, onu eşitmək görmək kimi olsun. *(Kufə əhlindən həmin hadisədə olmayanlar orada olanlar və görənlər kimi olsunlar.)* Xalq *(yaramaz əməllərinə görə)* Osmana çirkin və nalayiq sözlər dedi. Mən *(Həzrət Peyğəmbərlə Məkkədən Mədinəyə sülh və asayiş üçün gəlmiş)* Mühacirlərdən biri idim ki, *(fitnə-fəsad və qan tökülməsinə nifrət bəsləyərək ondan uzaq gəzirdim və)* xalqın ondan razı olmasını çox istəyir, onu az məzəmmət edirdim. *(Ona həmişə öyüd-nəsihət verir və davranışını dəyişməyə çağırırdım.)* Və *(amma)* Təlhə və Zübeyrin onun barəsindəki ən yüngül davranışları kəskin mövqe tutmaq, ən yavaş sövq etmələri isə *(vəziyyətin kəskinləşməsini)* daha da sürətləndirmək idi.[1]
Həmçinin Aişə fikirləşib düşünmədən, qəflətən onun barəsində qəzəbləndi.[2]
Sonra *(Təlhə, Zübeyr və Aişə camaatı onu öldürməyə sövq etdilər və)* bir qrup hazırlaşaraq onu öldürdü. *(Buna görə də onlar Osmanın intiqamını almaq fikrinə düşməməlidirlər, bəlkə onlardan intiqam alınmalıdır.)* Xalq heç bir ikrah və məcburiyyət olmadan öz meyl və istəyi ilə mənə bey'ət etdi. *(Bəs görəsən Təlhə, Zübeyr və onların ətrafındakıların mənə qarşı çıxmalarının və fitnə və çaxnaşma yaratmalarının səbəbi nədir?!)*
Və bilin ki, *(Təlhə, Zübeyr və Aişənin fitnələri nəticəsində)* hicrət diyarı *(Mədinə)* boşalıb və əhalisi ondan uzaqlaşıb. *(Mən naçar qalıb ordan çıxdım.)* Fitnə qazanın qaynaması Kimi qaynayaraq cuşa gəlib. *(Hərc-mərclik səbəbindən oranın sakitlik və asayişi aradan gedib.)* Fitnə *(dinin)* qütbünə *(yəni, İmam əleyhis-salama)* qarşı yönəlib. Odur ki, öz əmir və imamınıza doğru tələsin *(ona kömək və yardım edin)* və Allahın istəyi ilə

düşmənlərinizlə *(Təlhə, Zübeyr və onların ətrafındakılarla)* müharibə etməyə çalışın.

Şərhlər

1. ↑ *Onlar Osmana nəinki heç vaxt öyüd-nəsihət vermirdilər, əksinə, həmişə fətnə-fəsad yaratmaq fikrində idilər. Buna görə də camaatı yaxın-uzaq yerlərdən toplayaraq onu öldürməyə həvəsləndirirdilər. Belə ki, Zübeyr deyirdi: Onu öldürün, o, sizin dininizi dəyişdirib. Osman öz evində mühasirədə olarkən belə deyirdi: Vay olsun Təlhəyə! Mən ona hər cür hörmət etdim, o isə indi mənim qanımı tökmək fikrinə düşüb.*
2. ↑ *O, Osman beytülmalı ancaq öz qohum-əqrəbası arasında bölüşdürdüyü üçün özündən çıxdı və camaatı onu öldürməyə vadar edərək dedi: «» «Nə'səli öldürün, Allah Nə'səli öldürsün!» Yəni, bu axmaq şeyx və ağılsız qocanı öldürün! Allah onu öldürsün! Nə'səl Mədinədə yaşayan uzunsaqqallı bir yəhudinin adı idi. Aişə belə deməklə Osmanı ona bənzədirdi. Rəvayət edilib ki, bir gün Osman minbərə çıxmışdı və məscid camiyyətlə dolu idi. Aişə pərdə arxasından əlini çölə çıxartdı və Həzrət Peyğəmbərin nə'leyn və köynəyini camaata göstərərək dedi: Bunlar Peyğəmbərin nə'leyn və köynəyidir və onlar köhnəlməmiş sən onun din və sünnəsini dəyişdirmisən. Onlar orada bir-birlərinə kobud sözlər dedilər.*

İmam Əli əleyhis-salamın Kufə əhlinə olan məktublarındandır (ki,həmin məktubda onlara) Bəsrə (müharibəsindəki) qələbəsindən sonra (minnətdarlıq edib). Allah siz Kufə əhlinə Peyğəmbərinizin əhli-beyti tərəfindən (əvəzindən) itaətkarlarına və nemətinə şükr edənlərə verdiyi mükafatların ən gözəlindən versin ki, (bizim fərmanımızı) eşitdiniz və (ona) tabe oldunuz və (dinə yardım etməyə) çağırıldınız və qəbul etdiniz (və sonda Allah düşmənlərini məğlub edib əldən saldıq).

İmam Əli əleyhis-salamın onun tərəfindən qazı təyin edilən Şüreyh ibn Harisə yazdığı məktublardandır (ki, onda dünyaya və dünya malına bel bağlamağın ziyanlarından danışıb). Rəvayət edilib ki, Əmirəl-möminin tərəfindən də qazı olan Şüreyh ibn Haris, o Həzrətin xilafəti zamanında səksən dinara bir ev alıbmış. Bu xəbər İmama çatanda, onu çağırtdıraraq deyib ki, mənə sənin səksən dinara ev almağın və sənəd yazaraq bir neçə nəfəri şahid tutmağın barəsində xəbər çatıb. Şüreyh cavab verir ki, ey Əmirəl-möminin, elə olub. Ravi deyir: Həzrət qəzəbli şəxsin baxışları ilə ona baxaraq belə buyurdu : Ey Şüreyh, bil ki, tezliklə sənin yanına (yazdığın) sənədə baxmayan və şahidlərdən (bir şey) soruşmayan bir kimsə (Əzrail) gələcək, səni həmin evdən gözün baxa-baxa (heyran və sərgərdan, yaxud köçəri kimi) çıxaracaq və hər şeydən ayrı, göruna tapşıracaq. Odur ki, ey Şüreyh, bax! Məbada bu evi başqasının pulu ilə almış olasan, yaxud onun pulunu halal olmayan şeylə vermiş olasan ki, əgər belə olsa dünya və axirət zərər-ziyanını qazanmış olarsan!! (Çünki əgər evi başqasının malı və ya haram malla almış olsan, dünyadan lazımınca bəhrələnməyəcək, axirətdə isə əzaba düçar olacaqsan.) Bil (ki), əgər ev alanda mənim yanıma gəlsəydin, sənin üçün bu (aşağıdakı) kimi bir sənəd yazardım. Onda həmin evin çox (yəni, səksən dinar) deyil heç bir dirhəmə də alınmasına rəğbət göstərməzdin. Həmin sənəd budur: Bu, xar və həqir bəndənin, (mütləq öləcək və evindən axirət evinə) köçmək üçün çıxmış ölüdən, yox olanların yeri və məhv edilmişlərin nişanəsi olan yalan diyarda aldığı bir evdir. Bu evin dörd hasarı var: Birinci hasar xoşagəlməz və acınacaqlı hadisələrə (dağıntı, xəstəlik, çətinlik və oğurluğa) gedib çıxır. İkinci hasar qəmlər amilinə (əzizlərin ölümü, arzu və sərmayənin əldən getməsinə), üçüncü hasar məhv edici istək və arzulara və dördüncü hasar azdırıcı şeytana gedib çıxır.Bu evin qapısı isə dördüncü hasardandır. İstək və arzulara uymuş bu şəxs, belə bir evi ölüm üçün çıxmış şəxsdən qənaət kəramətindən xaric olmaq və istək və xarlıq həqirliyinə daxil olmaq bahasına alıb. Bu alıcıya aldığı şeydə satıcı tərəfindən dəyən (və onun zamin olmasına səbəb olan, yəni, satıcının, əvəzini ödəməli olduğu) ziyan və pisliyin intiqamı padşahların canlarını

məhv edən, itaətdən çıxanların canlarını alan və (İran şahları) Kəsra, (Rum şahları) Sezar, (Yəmən şahları) Tübbə, (qəbilə sahibi olan Himyər ibn Səba ibn Yəşğəb ibn Yə'rəb ibn Qəhtanın övladları) Himyər kimi fironların səltənətlərini aradan aparan və mal üstünə mal toplayaraq onu çoxaldan, (binalar) tikib ucaldıb onları bəzəyərək zinətləndirənləri, sərvət toplayan və ev, bağ və əşyalarını öz gümanları ilə övladları üçün nəzərdə tutaraq toplayanları aradan aparanın (yox edən ölüm mələyinin) öhdəsinədir. (Allah tərəfindən haqq və batil,) cənnətlik və cəhənnəmliklər barəsində qəti hökm veriləndə, O, onları sorğu-sual ediləcək və mükafat veriləcək yerə göndərəcək. Orada, pozğun və puç işlər görənlər ziyana uğrayarlar. (Pis işlərə əmr edən nəfsin) istəklərinə tabeçilikdən azad olan və dünyaya bağlılıqdan sağlam qalan ağıl bu sənədə (onun düzlüyünə) şahiddir. (Dünyaya ürək bağlamış və nəfsi istəklər əlində əsir olan kimsə isə bu sözlərə inanmaz və ona görə də onun düzlüyünə şəhadət verməz.)

İmam Əli əleyhis-salamın öz qoşun başçılarından bəzilərinə (İmam əleyhis-salam tərəfindən Bəsrənin hakimi olmuş və sərgüzəştlərinin bir hissəsi 171-ci xütbənin şərhində deyilmiş Osman ibn Hüneyfə) məktublarındandır. (İmam ona düşmənin itaət etməyəcəyi təqdirdə onlarla vuruşmağı əmr edir.) (Cəməl əhli «Təlhə, Zübeyr, Aişə və onların tərəfdarları» Bəsrəyə çataraq müharibəyə hazırlaşdıqdan sonra Osman ibn Hüneyf İmam əleyhis-salamı onların məqsədlərindən xəbərdar etmək üçün ona məktub yazdı. O Həzrətin Osman ibn Hüneyfə cavab olaraq yazdığı məktubun bir hissəsi belədir:) Əgər itaət kölgəsinə qayıtsalar (fitnə-fəsaddan əl çəkərək asayiş bərqərar edilməsini istəsələr) bu, elə bizim sevdiyimiz (istədiyimiz) şeydir. Amma əgər işlər onları düşmənçilik və üsyankarlığa sövq etsə (müharibəyə hazırlaşsalar), sənin əmrinə tabe olanlarla, əmrinə tabe olmayanlara qarşı qalx və döyüş. Sənin dalınca gedən kimsə ilə sənə yardım etməkdən çəkinən kimsəyə möhtac olma (kömək etməyənlərə möhtac olduğunu sanma). Çünki bir işə meyli olmayan kimsənin (orada) olmaması olmasından daha yaxşıdır, oturması durmasından daha xeyirlidir. (Ona görə ki, meyli olmadan məcburiyyətlə bir işə başlayan şəxs öz sirrini açа bilər və nəticədə başqaları da onun dalınca gedərək işdən qalarlar.)

İmam Əli əleyhis-salamın Əş'əs ibn Qeysə (-onun barəsində 19-cu xütbənin şərhində bir az danışılıb) məktublarındandır. O, (Osman tərəfindən) Azərbaycanın hakimi idi. Sənin işin (və hakimliyin) sənin üçün ruzi və yemək deyil. (Səni ona görə hakim etməyiblər ki, bir şey tapan kimi ondan özbaşına yeyəsən.) O iş sənin boynunda olan bir əmanətdir (ki, qoruyaraq onun yolunda, dinin hökmlərinə zidd bir addım atmamalısan). Səndən özündən üstün olan kimsə üçün gözətçi olmağını istəyiblər. (Sən elə bir əmirin əli altındasan ki, səni gözətçi təyin edib və sənə vilayəti onun tərəfindən qorumağı tapşırıb. Buna görə də) rəiyyətin işində öz istədiyin kimi davrana bilməzsən. (Sənə əmr edilməmiş bir iş görə bilməzsən.) Sənə əmr və fərman gəlməyincə böyük işə girişə bilməzsən. Sənin əllərində bənzərsiz və böyük Allahın mallarından var. Sən onları mənə təhvil verənə kimi mənim xəzinədarlarımdan birisən. Ümidvaram ki, mən sənin üçün vali və əmirlərin ən pisi olmayım. (Bu hökmün sənin dünya və axirətinə də xeyri var.) Salama layiq kimsəyə salam olsun!

←5-ci məktub

Nəhcül-bəlağə. 6-cı məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

7-ci məktub→

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır (ki, onu Şama Cərir ibn Abdullah Bəcəlli vasitəsi ilə göndərib və onda öz xilafətinin haqq və düzgün olmasını sübut edərək Osmanı öldürməkdən uzaq olduğunu açıqlayıb). Əbu Bəkr, Ömər və Osmanla bey'ət edənlər (onları xilafətə təyin edənlər) həmin yolla mənimlə bey'ət edərək əhd-peyman bağladılar (işlərin idarəçiliyini mənə tapşırdılar). Odur ki, (xilafətin Allah və Peyğəmbər tərəfindən təyin edilmə ilə deyil, ümmətin ümumi rəyi ilə bərqərar olmasına və xalqın ümumi rəyə gələrək Əbu Bəkr, Ömər və Osmanı xəlifə təyin etmələrinə əqidə bəsləyən sizlər bilməlisiniz ki, məni də xilafətə həmin şəxslər, yəni, xalq kütləsi təyin edib. Buna görə də) orada (beyətdə) olanların (Təlhə və Zübeyr kimilərin) ondan başqasını seçmək haqqları yoxdur. Orda olmayanın da (sənin kimilərin də) onu qəbul etməmək haqqı yoxdur. (Sizin əqidənizə görə xilafət məsələsində) məşvərət aparmaq Mühacirlərin (Məkkədən Mədinəyə gələrək Həzrət Peyğəmbərə-səlləllahu əleyhi və alih-qoşulanların) və Ənsarın (Mədinədə Həzrət Peyğəmbərə iman gətirərək yardım edənlərin) haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar. Əgər kimsə (xəlifədə) eyb və nöqsan tapması səbəbindən (bəhanəsi ilə, məsələn, Müaviyənin Osmanın öldürülməsini ona nisbət verməsi kimi) və ya (dində rəva olmayan şeyi ona daxil etmək Təlhə, Zübeyr və onların tərəfdarlarının əhd-peymanlarını pozmaları kimi) bid'ət nəticəsində onların əmrlərindən (onların gördükləri işlərdən) boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər (öyüd-nəsihət fayda verməsə və) onların göstərişlərini qəbul etməsə, (sizin əqidənizə görə) onunla möminlərin yolundan başqa bir yol ilə getdiyi üçün vuruşarlar. Allah (da) onu üz tutduğu şeyin öhdəsinə buraxar. Ey Müaviyə, canıma and olsun, əgər ağlına müraciət etsən (fikrə dalıb düşünsən) və nəfsi istəklərinə göz yumsan, (yersiz danışmaz, Osmanın öldürülməsini mənimlə peyman bağlamamağına bəhanə gətirməzsən) görərsən ki, mən Osmanın qanında (öldürülməsində) ən təmiz adam olmuşam; bilərsən ki, mən ondan uzaqlaşaraq bir guşəyə çəkilmişdim. Amma sən (nəfsi isətəklərə uyaraq)

böhtan atıb onun öldürülməsini mənə nisbət verirsən və sənə məlum olan şeyi gizlədirsən. Salama layiq kimsəyə salam olsun!

Bu da imam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındadır (ki, onda onu, o Həzrətə yazdığı məktuba görə məzəmmət edib və onun nadanlıq və azğınlığını xatırladıb). Allaha həmdü-səna və Həzrət Peyğəmbərə salamdan sonra: Səndən mənə müxtəlif sözləri bir-birinə yapışdırıb məktub bəzədiyin öyüd-nəsihət gəlib çatdı. (Bəzi mətləblər əldə edərək bu məktubda onları bir-birinə yapışdırmısan, halbuki onların bir-biri ilə heç bir əlaqəsi yoxdur. Onların hər birinin harada və necə işlədilməsinin gərəkliyini bilmədiyin üçün) öz azğınlığın səbəbindən bu məktubu hazırlamısan və fikir və düşüncənin pisliyindən onu (mənə) göndərmisən! Məktub düz yola istiqamətləndirəcək gözü (bəsirət və gözüaçıqlığı) və nicat yoluna sövq edəcək başçısı və cilovdarı olmayan kimsədəndir. Nəfsi istək onu (belə bir işə) vadar edib, o da qəbul edib, azğınlıq onun rəhbəri olub, o da onun dalınca gedib. (Buna görə də) o, sayıqlayaraq boşboğazlıq edib və bihudə fəryad qoparıb (mənası başa düşülməyən nadürüst sözlər deyib); yolunu azaraq səhv edib (belə nalayiq sözlər yazıb). Bu da həmin məktubun bir hissəsidir

(O Həzrətə bey'ət edənlərlə bey'ət etməyənlərin boyunlarına düşən vəzifələrin bərabərliyi barəsində:) (Ey Müaviyə, mənimlə bey'ət etmək və peyman bağlamaq məsələsində Bəsrə əhalisi, Təlhə, Zübeyr, sən və Şam əhlinin vəzifəsi yeksan və bərabərdir.) Çünki o bir bey'ətdir ki, (Məhəmməd - səlləllahu əleyhi və alih – ümmətinin dayaq nöqtəsi saydığınız Mühacirlər və Ənsar toplaşaraq həmin məsələdə birləşiblər və onların, barəsində qərara gəldikləri heç bir bey'ətdə) rəy və fikir iki olmur və onda (başqa bir rəy) seçmək başdan başlanmır, (necə ki, Əbu Bəkr, Ömər və Osman və onlarla bey'ət barəsində belə əqidədəsiniz. Odur ki, həmin bey'ət məclisində olan kəs peymanı pozaraq başqasını seçə bilməz və orada olmayanın onu qəbul etməmək haqqı yoxdur. Buna görə də) hər kim peymanı pozaraq ondan əl götürsə, (müsəlmanların din və ayinlərinə) tənə vurandır. (Elə isə onunla çıxdığı yola qayıdana kimi vuruşmaq lazımdır.) Onun (qəbul edilib-edilməməsi) barəsində fikrə dalan da münafiq və ikiüzlüdür. (Çünki sizin

əqidə və əməl təcrübənizə görə həmin şəxsin rədd və ya qəbul etmək barəsində fikirləşməsi, möminlərin getdikləri yol və ona tabe olmağın vacibliyində şəkk-şübhədə olması və onun meylinin səmimiyyət və saflıqla olmaması deməkdir. Ona görə ki, əgər onun doğrudan da meyli olmuş olsaydı, fikirləşib duruxmadan möminlərin toplaşaraq barəsində birləşdikləri şeyi qəbul edərdi.)

İmam Əli əleyhis-salamın Cərir ibn Abdullah Bəcəlliyə, onu (bey'ət almaq üçün) Müaviyənin yanına (Şama) göndərərkən yazdığı məktublardandır. Allaha həmd və Həzrət Peyğəmbərə (səlləllahu əleyhi və alih) salamdan sonra: mənim məktubum sənə çatan kimi Müaviyəni işini sona çatdıraraq bir tərəf barəsində qəti qərara gəlib hazırlaşmağa vadar et. (Sərgərdanlığı özündən uzaqlaşdırsın və səni yubatmasın, bey'ət etməkdə bəhanə axtararaq bu gün–sabah etməsin.) Sonra ona camaatı məcburiyyət və nigaranlıqla öz vətən və asayiş yurdundan didərgin salan dağıdıcı müharibə ilə xaredici sülh və barışıq arasında sərbəst seçim etmək imkanı ver. (Çünki barışıq acizliyin nişanəsidir. İmam əleyhis-salam burada hər iki halda, istər müharibə etsə, istərsə də barışıq etsə qələbənin onunla olacağını başa salmaq istəyir və bu sözlərlə onu hədələyir.) Beləliklə, əgər müharibəni seçsə, amannaməni ona tərəf at və qayıt. Amma sülh və barışığı qəbul etsə, ondan bey'ət al. (Vəzifəni tezliklə yerinə yetirərək geri dön və bizi gözü yolda qoyma). Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Müaviyəyə məktublarındandır. (Müaviyə o Həzrətə məktub göndərərək ondan Osmanın qatillərini ona təhvil verməyi istəmişdi. İmam əleyhis-salam bu məktubu ona cavab olaraq yazıb və orada öz fəzilət və kəramətlərini, həmçinin İslam və imanda öncül olmasını xatırladaraq buyurur:) Beləliklə, qəbiləmiz (Qüreyş) Peyğəmbərimizi öldürmək və bizim kökümüzü kəsmək (məhv etmək) istədi. Bizim üçün qəm-qüssə yaratdılar, barəmizdə nalayiq işlərə əl atdılar və bizi (həyatın) asayiş və şirinliyindən məhrum etdilər. Qorxu və vahiməni ancaq bizə aid etdilər və bizi məcburi olaraq sərt dağa (otsuz, susuz Şe'b Əbu Talibə) getməyə vadar etdilər (və orada bizi mühasirəyə aldılar; bütün bunlar Həzrət Peyğəmbərin ilahi elçi kimi göndərilməsinin yeddinci ilinin əvvəlində baş verdi) və bizə qarşı müharibə alovu qızışdırdılar. Biz Allahın istəyi ilə düşmənin şərini Onun Peyğəmbərindən uzaqlaşdırdıq. (O Həzrətə bir xəsarət dəyməyə qoymadıq.) Bizim (Peyğəmbərə iman gətirmiş Əbu Talib və Həmzə kimi) möminlərimiz Peyğəmbəri himayə etməyin mükafatını (Allahın razılığını) diləyir, (Abbas və Mət'əm ibn Ədiyy kimi İslamı qəbul etməmiş) kafirlərimiz (isə o Həzrətlə) qohumluqlarına görə (onu) himayə edir və yardım göstərirdilər. (Biz Bəni-Haşimdən başqa) Qureyşdən müsəlman olan digər kimsələrin bizim qədər (kafir və müşriklərdən) qorxu və vahimələri yox idi. Səbəb onların (müşriklərlə) and və peymanlarının olması, ya da (onlarla) qohum olmaları idi. (Bu səbəblər) onu qorxu və vahimədən saxlayırdı və o, öldürülməkdən (ölüm təhlükəsindən) amanda olurdu. (Allah müşriklərlə müharibə və onların şərlərinin uzaqlaşdırılmasını əmr edəndə və) savaş, camaatın (qorxu və vahimədən) geri çəkilmələri həddinə qədər çətinləşəndə, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) öz əhli-beytini qabağa verir və onların vasitəsi ilə səhabələri və qoşununu nizə və şəmşirlərin (yaradacağı yaraların) istiliyindən qoruyurdu. (O Həzrətin əmisi oğlu) Ubeydə ibn Haris (ibn Əbdülmüttəlib) Bədr müharibəsində (Bədr Məkkə yolunda, Mədinə yaxınlığında qazılmış quyunun adıdır), (o Həzrətin əmisi) Həmzə Ühüd müharibəsində (Ühüd Mədinə yaxınlığındakı bir dağın adıdır) və (qardaşım) Cə'fər Mu'tə müharibəsində (Mu'tə Şam ətrafında yer

adıdır) öldürüldü. İstəmədiyim üçün adını çəkmədiyim kimsə də (İmam əleyhis-salam), onlar kimi öldürülməyi və (Allah yolunda) şəhid edilməyi istəyirdi. (Mənim də şəhid olmaq və öldürülmək arzum var idi.) Lakin onların ömürləri daha tez sona çatdı və adını çəkmədiyim şəxsin ölümü təxirə düşdü. (Peyğəmbər mənə xəbər verdi ki, sən də öldürüləcəksən. İmam yüz əlli beşinci kəlamda bu mətləbə işarə edib.) İndi (Həzrət Peyğəmbəri qorumaq və İslam dinini yaymaq üçün çəkdiyim bu qədər əziyyət və çətinliklərdən sonra) ruzgara təəccüb edirəm ki, elə bir zamana gəlib çıxmışam ki, dinin yardımı üçün mənim kimi çalışmamış və İslamda mənim (Allaha və Peyğəmbərə iman gətirməkdə) malik olduğum birincilik və öncüllük iftixarıma malik olmayan birisi mənimlə bərabər hesab edilir. Heç kəs belə bir iftixar əldə edə bilməz. Ancaq iddia edən (Müaviyə) iddia edərək (özü barəsində) mənim bilmədiyim və Allahın da tanımasını güman etmədiyim belə bir şey deyər. (Çünki Allaha və Peyğəmbərə ilk iman iftixarı məndən başqasına nəsib olmayıb ki, Allah da onu tanısın.) Hər halda həmd-səna Allaha məxsusdur (ki, məsləhət bilib sənin kimisini mənim qarşımda qoyub, sən də haqq və həqiqətə zidd nalayiq şeylər iddia edirsən). Amma Osmanın qatillərini sənə göndərməklə bağlı istəyin barəsində: mən bu barədə fikirləşdim və gördüm ki, onları sənə və səndən başqasına göndərmək mənim öhdəmdən xaricdir. (İmam sonra Müaviyəni hədələyərək buyurur:) Canıma and olsun, əgər azğınlıq və düşmənçilikdən əl çəkməsən, tezliklə səni axtaranları tanıyacaqsan ki, onlar bu axtarışlarında səni səhrada, dənizdə, dağda və düzənlikdə zəhmətə salmayacaqlar (birbaşa sənin sorağına gələcəklər). Amma bu axtarış səni incidərək qəmləndirəcək və bu ziyarətçilərlə görüşmək və onları görmək səni sevindirməyəcək (sənin sorağına elə gələcəklər ki, deyəcəksən: Ey kaş, mən onları tələb etməyəydim). Salama layiq kimsəyə salam olsun!

Bu da, imam Əli əleyhis-salamın Müaviyəyə məktublarındandır (ki, İmam əleyhis-salam onda Müaviyənin çirkin əməllərini məzəmmət edir, ona öyüd-nəsihət verir və onu işlərinin pis nəticəsi ilə qorxudur). Özünü (dünyapərəstlər üçün) bəzəyərək gözəl göstərən və ləzzətləri ilə aldadan yaşadığın dünyanın pərdələri səndən (gözün önündən) götürülən zaman nə edəcəksən? (Dünya) səni (öz dostluğuna) dəvət edib, (sən də) qəbul etmisən; qabağına düşüb dalınca getmisən; sənə əmr edib itaət etmisən. (Ölüm, əzab və günahların cəzası ilə nə edəcəksən?) Qarşını alacaq birisinin səni saxlaması (onun gələcəyi zaman) yaxındır. (Ölüm gəlib çatıb səni) o şeydən (əzab və cəzadan) xəbərdar edəcək ki, heç bir nicat verən səni xilas edə bilməyəcək. Buna görə də (bu çətin keçidləri nəzərə alaraq nəfsi istəklərə tabe olmayıb) bu işdən (layiq olmadığın xilafət iddiasından) əl çək və özünü hesab və sorğu gününə hazırla. Sənə çatacaq şey (ölüm və ondan sonrakı çətinliklər) üçün qolunu çırma (çevik ol, çalış). Qulağına (Əmr ibn As və Mərvan kimi) azğınları dinləmək imkanı vermə (onların sözlərinə qulaq asma və göstərişlərinə tabe olma). Əgər belə etməsən (bu öyüd-nəsihəti qəbul etməsən), səni özün barəndə qafil olduğun şeydən xəbərdar edirəm: sən naz-nemət içərisində qərq olmusan, (nemət səni üsyankar edib və buna görə də) şeytan səndə (sənin qəlbində) yer tutub və öz arzusuna çatıb, sənin (vücudunda) can və qan kimi hərəkət edib. (Sənə elə hakim olub ki, etdiyin hər bir iş, dediyin hər bir söz onun göstərişi ilədir. İmam əleyhis-salam bundan sonra onu məzəmmət edərək buyurur:) Ey Müaviyə, siz (Üməyyə övladları) heç bir xeyir və yaxşılıq iftixarına, möhtərəmlik və şərəfə malik olmadan nə vaxtdan rəiyyətə hakimlik və müsəlmanlara başçılıq ləyaqətinə sahib olmusunuz?! (Bundan qabaq heç bir işdə fəzilət və üstünlüyün olmayıb ki, sənin xilafət və əmirlik iddiası etməyinə səbəb olsun.) (İnsanı şeytanın və nəfsi istəklərin davamçısı edən) bədbəxtlik tarixçələrinin bərpa olmasından Allaha pənah aparıram! Səni həmişə arzulara aldanmaqdan və zahirinlə batininin iki cür olmasından çəkindirirəm. (Dünyapərəstlik, münafiqlik və ikiüzlülükdən qorx. Sonra onu müharibə ilə hədələyərək buyurur:) Məni döyüşə çağırmısan. Elə isə camaatı bir tərəfə qoyaraq özün mənim yanıma

gəl. Hər iki qoşunu döyüşdən saxla ki, günahın, bizlərdən hansının qəlbinə qələbə çalması, pərdənin (qəflət pərdəsinin) kimin gözü önündən asılması məlum olsun.(Camaatı öz hallarına qoy ki, kimin Allah yolunda qılınc çalması, haqq yolda dayanması və qaçmaması bilinsin.) Mən Əbul-Həsənəm, sənin babanı (ciyər yeyən anan Hindin atası Ütbə ibn Rəbiəni), dayını (Vəlid ibn Ütbəni) və qardaşını (Hənzələ ibn Əbu Süfyanı) öldürən! Mən onları Bədr müharibəsində məhv etdim. Həmin qılınc (indi də) məndədir. Həmin ürəklə düşmənimlə üz-üzə gəlirəm. Başqa din seçməmiş, yeni peyğəmbər götürməmişəm. (İslamın hökmlərinin heç birinin əksinə hərəkət etmirəm.) Mən bir yoldayam ki, siz öz ixtiyarınızla onu tərk etdiniz və ona məcburiyyət üzündən daxil olmuşdunuz. Belə güman edirsən ki, (məndən) Osmanın intiqamını almağa gəlmisən?! Halbuki Osmanın harada öldürülməsini (və onu kimlərin qətlə yetirmələrini məndən yaxşı) bilirsən. Əgər (doğrudan da) intiqam almaq istəyirsənsə, oradan (onu öldürmüş Təlhədən, Zübeyrdən və digərlərindən) intiqam al. Səni sanki (onun intiqamını bəhanə edən, əslində isə) müharibədən, dəvələrin yükün ağırlığından qopardıqları fəryadları kimi fəryad edib şivən qoparan görürəm, qorxursan ki, (o,) dişlərini sənə batırsın (sənə üz tutsun). Sanki sənin qoşununu görürəm ki, aldıqları ardıcıl zərbələr, baş verəcək çətin hadisələr və bir-birinin ardınca torpağa düşmələri nəticəsində çarəsizlikdən məni Allahın kitabına dəvət edirlər (ki, müharibədən əl götürüm). Həmin qoşun haqqa kafir və onu inkar edənlərdir (ki, mənə bey’ət etməyiblər), yaxud bey’ət edib (sonra ondan) əl götürüblər. (İraq münafiqləri o Həzrətə bey’ət edəndən sonra əhdlərini pozaraq Şama, Müaviyənin yanına getmişdilər.)

←10-cu məktub

Nəhcül-bəlağə. 11-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

12-ci məktub→

İmam Əli əleyhis-salamın düşmənə tərəf göndərdiyi qoşuna olan tövsiyələrindəndir. Nə vaxt siz düşmənlə rastlaşsanız və ya düşmən sizinlə rastlaşsa (qarşı-qarşıya gəlsəniz), gərək sizin qoşunun düşərgəsi hündür yerlərdə (təpələrdə), ya dağların ətəyində, ya da çayların kənarında olsun ki, sizə kömək etsin, (onların əllərinin sizə çatmasına) mane olsun. Həmçinin sizin (düşmənlə) döyüşünüz gərək bir, yaxud iki tərəfdən olsun. (Çünki bir neçə tərəfli döyüşün nəticəsi pərakəndəlik, zəiflik və məğlubiyyətdir.) Dağların yüksəklikləri və hamar təpələrin üstündə özünüz üçün gözətçi qoyun ki, düşmən sizə tərəf gəlməsin, istər («məbada gəlsin» deyib) qorxduğunuz yerdən, istərsə də (həmin istiqamətdən gəlməməsindən) əmin və arxayın olduğunuz yerdən. (Ola bilər ki, gözlənilmədən həmin yerdən gəlsin. Belə olanda gözətçilər uzaqdan düşmənin gəlməsini görüb sizi xəbərdar edərlər və siz, onların qarşısını almaq fikrində olarsınız.) Bilin ki, qoşunun qabağında gedənlər onun gözətçiləridir və qoşunun qabağındakıların gözətçiləri (qoşunun qabağında gedən bir neçə nəfər) kəşfiyyatçılardır. Bir-birinizdən ayrılmaq və pərakəndəlikdən çəkinin. (Bir yerdə) düşən zaman (oturaq salanda) hamılıqla düşün və (hərəkət edərək) köçəndə hamılıqla köç edin. Gecə sizi bürüyəndə (axşam gəlib çatanda) nizələri (öz ətrafınızda) dairəvi (şəkildə) yerləşdirin (ki, düşmən gecə basqın edəndə müdafiə alətləri əliniz çatan yerdə olsun). Yuxunu dadmayın (rahat yuxuya getməyin), az miqdar və suyu ağızda dolandıraraq çölə tökmək qədər istisna olmaqla! (Mürgü vurun, amma rahatlıqla yatmayın. Çünki düşmən oyaq olar və gecə basqın etmək fikrinə düşə bilər.)

İmam Əli əleyhis-salamın (səhabə və şiələrindən olmuş) Mə'qil ibn Qeys Riyahiyə olan tövsiyələrindəndir. İmam əleyhis-salam (bu məktubu) onu (Mədaindən) üç min nəfərlə, Şam (qoşunu) istiqamətinə öz qoşununun başçısı kimi göndərəndə yazıb (və məktubda Mə'qilə düşmənlə döyüş üslubunu öyrədir). (Mükafat və cəzasına) qovuşmaqdan başqa çarən olmayan Allahdan qorx! Sənin Ondan başqa son (gedəcək) yerin yoxdur. Ancaq sənlə vuruşanla vuruş. (Çünki sənlə vuruşmayan kimsə ilə vuruşmaq zülmdür və təqvalı, pərhizkar şəxs heç kəsə zülm etməz.) Havanın sərin olduğu səhər və axşam vaxtları yol get və (havanın isti olduğu) gündüz çağı (günorta) camaatı (istirahət etmələri və dincəlmələri üçün) saxla və yavaş hərəkət etdir. (Tələsmə ki, zəiflər də güclülərlə birlikdə gedə bilsinlər.) Gecənin əvvəlində yol getmə. Allah onu köç etmək üçün deyil, dincəlmək, istirahət etmək və rahatlanmaq üçün nəzərdə tutub. Odur ki, gecənin əvvəlində bədən və miniyini rahat burax. Gecəni dincəldikdən sonra (dan yeri sökülməmişdən) səhər görünməyə başlayanda və ya dan yeri sökülən zaman Allah tərəfindən yetişəcək xeyir-bərəkətlə yola düş. Düşmənlə üz-üzə gələn zaman öz qoşununun ortasında dayan. Düşmənə, nə vuruşmaq istəyən adam qədər yaxınlaş, nə də onlardan döyüşdən qorxan adam qədər uzaq ol. Mənim əmrim sənə çatana qədər gözlə. Kin və düşmənçilik sizi onları (haqq yola) dəvət etməmişdən və hərtərəfli dəlillərlə başa salmamışdan qabaq onlarla savaşa başlamağa vadar etməsin.

İmam Əli əleyhis-salamın qoşun sərkərdələrindən olan iki nəfərə (Ziyad ibn Nəsr və Şüreyh ibn Haniyə) göndərdiyi məktublarındandır. (Həmin məktubun mətni belədir:) Malik ibn Haris Əştəri sizə və sizin tabeçiliyinizdə olanlara başçı və əmir təyin etdim. Beləliklə, onun əmrinə qulaq asıb itaət edin və onu (özünüzə) zireh və sipər edin. Çünki o, süstlük (bacarıqsızlıq), büdrəmək (səhvə yol vermək), həmçinin çeviklik və cəldlik ehtiyat və ağıllılığa daha uyğun sayılan yerdə asta tərpənmək, asta hərəkət etmək daha yaxşı olan yerdə isə tələskənlik etmək qorxusu olan adamlardan deyil. (Malik Allahın razılığını əldə etmək üçün çalışaraq heç vaxt süstlüyə yol verməz, bihudə sözlər danışaraq yersiz bir iş görməz.)

İmam Əli əleyhis-salamın Siffeyn müharibəsində düşmənlə (Şam qoşunu ilə) qarşılaşmamışdan qabaq öz qoşununa olan tövsiyələrindəndir (ki, onda onlara qələbə yolunu göstərib və onları qadınları incitməkdən çəkindirib). Onlar (Şam qoşunu) sizinlə döyüşə başlamayınca siz müharibə etməyin (müharibəyə başlamayın). Çünki Allaha şükr olsun ki, sizin dəlil və sübutunuz var. Sizin, onlar döyüşə başlamayınca onlarla müharibəyə başlamamağınız da, onlara qarşı olan digər bir sübut və dəlilinizdir. Buna görə də əgər (onlar müharibəyə başlayaraq sizi də döyüşə vadar etsələr və) Allahın əmr və istəyi ilə (onlar meydandan) qaçmaq və məğlubiyyətlə üzləşsələr, qaçanları öldürməyin, acizləri yaralamayın, yaralını öldürməyin, qadınları hətta sizin şərəfinizi söysələr və başçı və böyüklərinizə nalayiq sözlər desələr belə, (onları) incitməklə təhrik etməyin. Çünki onların güc, can (iradə) və ağılları zəif və süstdür. Bizə (Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – zamanında) əmr olundu ki, onlardan əl götürək, halbuki onlar müşrik idilər. (Deməli, zahirdə İslamı qəbul etdiklərini bildirsələr, mütləq onlara toxunaraq incitməkdən çəkinmək lazımdır). Cahiliyyətdə kişi bir qadını daş və ya çomaq ilə vursaydı, buna görə onu və övladlarını məzəmmət edərdilər.

İmam əleyhis-salam düşmənlə qarşılaşanda və döyüşə hazırlaşan zaman (Allahla münacat və razü-niyaz edərək Ondan kömək istəyib belə) deyirmiş: Allahım, (bizim) qəlblər(imiz) Sənə tərəf yönəlib, boyunlar(ımız Sənə doğru) uzanıb, gözlər(imiz) Sənə dikilib, ayaqlar(ımız) Sənin yoluna qoyulub və bədənlər(imiz Sənin itaətində) zəifləyib. Allahım, (Peyğəmbərinin bizim aramızdan getməsi ilə) gizli düşmən üzə çıxdı və kin qazanları qaynadı. Allahım, Peyğəmbərimizin (aramızda) olmaması, düşmənlərin çoxluğu, (nəfsi) istək və düşüncələrimizin pərakəndəliyindən Sənə şikayət edirəm. (Qur'ani-Kərimin Ə'raf surəsinin 89-cu ayəsində buyurulduğu kimi o, belə demişdi:) «رَبَّنَا افْتَحْ بَيْنَنَا وَبَيْنَ قَوْمِنَا بِالْحَقِّ وَأَنتَ خَيْرُ الْفَاتِحِينَ» «Ey Rəbbimiz! Bizimlə tayfamız arasında ədalətlə hökm et. (Bizim aramızda haqq və düzlüyü üzə çıxart ki, onlar bizlərdən kimin haqq olmasını başa düşsünlər.) Axı Sən hökm verənlərin ən yaxşısısan (ki, haqqı üzə çıxarırsan)».

İmam əleyhis-salam döyüş vaxtı səhabələrinə (düşmənlə vuruşmaq barəsində) buyurub: Arxasında qayıdış duran qaçış (meydandan qaçmaq), sonrası düşmənə hücüm olan məğlubiyyət sizə ağır gəlməsin. Qılıncların haqqlarını əda edin. (Düşmənə cəsurluqla qılınc endirin və onların) arxalarını yerə vurun (onları torpaq üstünə sərərək məhv edin). Özünüzü (düşmənin) içinə işləyən nizə atmağa və möhkəm qılınc çalmağa vadar edərək çox çalışın. Səsləri boğun. (İztirab və nigarançılığın sizə yaxınlaşmasına yol verməyin və sakit qəlblə düşmənə tərəf üz tutun.) Çünki o, qorxu və nigarançılığı daha çox uzaqlaşdırır. Toxumu cücərdən və insanı yaradan Allaha and olsun ki, (Müaviyə, Əmr ibn As, Mərvan və digərləri kimi münafiq və ikiüzlülər daxilən) İslamı qəbul etməyiblər. Amma (qorxudan) təslim olublar (özlərini müsəlman kimi göstəriblər) və küfrü (qəlblərində olan küfrü) gizlədiblər. Küfrə yardımçı tapan zaman onu üzə çıxartdılar. (Din ilə müxalifət və bizimlə döyüş bayrağı ucaltdılar.)

Nəhcül-bəlağə. 17-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab olaraq yazdığı məktublardandır. Məndən Şam vilayətini istəməyinə gəldikdə (bilməlisən ki): mən dünən sənə verməyərək əsirgədiyim şeyi bu gün verən kimsə deyiləm. (Çünki mənim oranı sənə verməməyimin səbəbi sənin haqqa qarşı çıxmağın və dinə laqeydliyindir ki, həmin səbəb indi də öz yerində qalmaqdadır.) «Müharibə ərəbi yeyib (öldürərək məhv edib), qalan canları almayaq!» kimi sözlərin barəsində bil və xəbərdar ol ki, haqqın yediyi (haqq yolunda şəhid olan) kimsə cənnətə yollanıb, batil və nahaqqın yediyi kimsə (nəfsi istəkləri yolunda öldürülən) isə cəhənnəm yolunu gedir. (Hər iki halda təəssüflənmək və qəmlənmək lazım deyil.) Bizim, müharibədə və (döyüşçü) kişilər baxımından bərabər olmağımız barəsində (dediklərin də düz deyil, çünki): Sənin şəkk və tərəddüd (bir neçə günlük dünya ağalığını əldə etmək) üçün olan səy və təlaşın mənim yəqinlik və inam (axirət səadəti və xoşbəxtliyi) üçün səyimdən artıq deyil; Şam əhalisinin dünyaya hərisliyi İraq əhalisinin axirət hərisliyindən çox deyil. «Biz Əbdül-Mənaf övladlarıyıq» sözünə gəldikdə, biz də eləyik. Amma Üməyyə Haşim kimi, Hərb Əbdülmüttəlib kimi və Əbu-Süfyan Əbu Talib kimi deyil. (Burada «mən də sənin kimi deyiləm» demək əvəzinə işarə ilə belə buyurdu:) Mühacir (Məkkədən Mədinəyə hicrət edən) əsirlik zəncirindən azad olan kəs kimi deyil. Nəsəbi pak olan da (həmin pak nəsəbə) yapışdırılmış kimi deyil. Nə danışıq və işləri düz olan, yalançı və pis əməlli kimidir, nə də mömin və dinə sığınan, münafiq və ikiüzlü kimi. Həqiqətən keçib cəhənnəm oduna düşən atasının (yaxud qohumlarının) yolunu davam etdirən övlad nə pis övladdır! (Sən pis övladsan ki, küfr, şirk, yalançılıq və ikiüzlülük nəticəsində ilahi əzaba düçar olan keçmişlərinin yolunu davam etdirirsən!) Bütün bu fəzilət və böyüklüklərdən əlavə nübuvvət və peyğəmbərlik fəziləti və şərəfi də bizim əlimizdədir. (Peyğəmbər biz Bəni-Haşimdən göndərilib.) Biz onun vasitəsi ilə hörmətlini xar, xar olanı isə hörmətli etdik. (Səadət və xoşbəxtlik düşmənlərini məhv edərək onu istəyənlərə dünya və axirət əzab və çətinliklərindən nicat verdik.) Allah ərəbi dəstə-dəstə öz dininə daxil edəndə, bu ümmətdən (bir dəstə) meyl və rəğbətlə, (digər bir dəstə isə)

naçarlıqdan təslim oldu. (İslamı çıxılmaz vəziyyətdə qalıb qəbul etdilər.) Siz (dünyaya) məhəbbət və ya (öldürülməkdən) qorxu səbəbindən dinə daxil olan kəslərdən idiniz. (Bu) o vaxt (baş verdi) ki, qabaqda gedənlər (İslama səmimiyyətlə) tabe olduqları üçün qalib gəlmişdilər və ilkin Mühacirlər fəzilət və böyüklüklərinə görə getmişdilər (və özlərinə şirk və küfrdən nicat vermişdilər). Bəs (indi ki, sənin vəziyyətin belədir) Şeytanın səndən bəhrələnməsinə və (onun) sənə yol tapmasına imkan vermə. (Şeytana tabe olub dalınca düşərək bu cür çirkin və nadürüst sözlər yazma, Allahın və Onun Peyğəmbərinin hökmlərinə tabe ol!) Salama layiq kimsəyə salam olsun!

←17-ci məktub

Nəhcül-bəlağə. 18-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

19-cu məktub→

İmam Əli əleyhis-salamın, Abdullah ibn Abbas onun tərəfindən Bəsrənin hakimi olan zaman ona yazdığı məktublarındandır. Ey Abbasın oğlu! Bil ki, Bəsrə Şeytanın endiyi yer və fitnələr tarlasıdır. (Bu şəhərin fitnə axtaranları çoxdur.) Buna görə də o diyarın əhalisinə yaxşılıq etməklə, onları şad edərək sevindir. Və (pis davranışla onları üsyana qaldırma. Əgər onlar keçmiş nalayiq işləri nəticəsində qorxu və vahimə içindədirlərsə, sən) onların qəlblərindən qorxu düyününü aç (onlarla elə rəftar et ki, sənin onların keçmiş əməllərinə göz yumduğunu başa düşsünlər). Sənin Bəni-Təmim qəbiləsi ilə pis rəftar etməyin və kobud davranmağının xəbəri mənə çatdı. Həqiqətən Bəni-Təmimin bir ulduzu batmamış, digər bir ulduzu parlayıb. Cahiliyyət və İslam dövründə heç kəs intiqam almaqda onlardan qabağa düşməyib. (Buna görə də bu cür adamlarla kobudluq və sərtliyə başlamaq olmaz.) Həmçinin (onlara qarşı kobudluq edilməməsinin digər səbəbi budur ki,) onlar bizə yaxın qohumdurlar. (Çünki Bəni-Haşimlə Bəni-Təmimin nəsəbi Həzrət Peyğəmbərin 16-cı babası İlyas ibn Müzərrə gedib çıxır. Buna görə də) bizim həmin qohumluq tellərini birləşdirməyimizdə savab, qırmağımızda isə günah vardır. Odur ki, ey Əbul Abbas – Allah səni bağışlasın – əlindən və dilindən çıxan yaxşı və pis işlərdə (danışıq və davranışında rəiyyətlə) yumşaq davran. Çünki biz danışıq və davranışımızda bir-birimizlə şərikik. (Ona görə ki, sən mənim tərəfimdən hakimlik edirsən.) Elə ol ki, sənin barəndə yaxşı gümanda olum və sənin haqqında fikrim süstləşməsin (heç vaxt yersiz söz danışma, mənim göstərişim olmadan bir iş görmə). Salama layiq kimsəyə salam olsun.

İmam Əli əleyhis-salamın onun tərəfindən hakim olan bəzi şəxslərə yazdığı məktublardandır. (Məktub müşrik olan və həmin hakimlərdən şikayət etmiş rəiyyətlərlə yumşaq davranmaq barəsindədir.) Allaha həmd və Peyğəmbərə salamdan sonra: hakim olduğun şəhərin (su və torpaq sahibi olan) əkinçiləri sənin kobudluğun, daşürəkliliyin, onları xar etməyin və zülmkarlığından şikayət ediblər (məni sənin hərəkət və davranışından xəbərdar ediblər). Mən (onların şikayətləri barəsində) fikirləşdim. Onları sənin onlara çox yaxınlaşmağına (çox hörmət və mehribançılığına) layiq görmədim. Çünki onlar müşrikdirlər. (Bəzi nəzərlərə əsasən həmin camaat müşrik deyil, atəşpərəst olublar.) Amma onlar uzaq olmaq və zülm edilməyə də layiq deyildirlər. Çünki (müsəlmanlarla) peyman bağlayıblar (cizyə, yəni, vergi verirlər və İslamın pənahındadırlar.) Buna görə də onlarla (davranışında) sərtliklə qarışıq olan mehribançılığı öz şüarın et və onlarla sərtqəlblilik və mehribançılıq arasında rəftar et. (Bəzən sərt, bəzən də mehriban ol.) Allahın istəyi ilə onlar üçün yaxınlaşdırmaqla lap yaxınlaşdırmağı və uzaqlaşdırmaqla lap uzaqlaşdırmağı bir-birinə qarışdır (mötə'dilliyi əldən vermə).

İmam Əli əleyhis-salamın Ziyad ibn Əbihə o, Bəsrə hökumətində Abdullah ibn Abbasın canişini olan zaman yazdığı məktublardandır. Abdullah həmin vaxt Əmirəl-möminin tərəfindən Bəsrə, Əhvaz, Fars və Kerman şəhərlərində hakim idi. Mən Allaha and içirəm, özü də tam sədaqətlə və düz ki, əgər mənə, sənin müsəlmanların beytülmalına istər az, istərsə də çox xəyanət etməyin və ya onu göstərişə zidd (yerlərə) sərf etməyin (barəsində xəbər gəlib) çatsa, sənlə sərt davranacağam. (Sənlə) elə sərt (davranacağam) ki, o (sərtlik), səni sərmayəsi az, yükü çox, zəlil və xar etsin. Salama layiq kimsəyə salam olsun!

Bu da imam Əli əleyhis-salamın Ziyad ibn Əbihə olan məktublarındandır (ki, burada ona mötə'dil və təvazökar olmağı əmr edir). (Malın sərf edilməsində) israf etmə, mötə'dil ol. (Ehtiyacdan nə artıq və nə də az sərf et.) Bu gün səhərin fikrində ol. Malından, öz ehtiyacın qədər dala at. (Ondan) artığını ehtiyac günün (axirət) üçün qabağa göndər (Allah yolunda yoxsul və möhtac kimsələrə bağışla). Allahın sənə (qəlblərini dünyaya bağlamayan və Onun göstərişlərinə müvafiq davranan) təvazökarlara verəcəyi mükafatı verməsinə (necə) ümid bəsləyirsən, halbuki Allah yanında (qəlbini dünyaya bağlayan və Onun əmrlərinə zidd hərəkətlər edən) təkəbbürlülərdənsən. Allahın sənə (səfillərə təkəbbür və riyakarlıq olmadan əl tutan) sədəqə verənlərin mükafatını vacib etməsi və verməsinə hərissən, halbuki eyş-işrətə qərq olub aciz, biçarə, dul qadın və yoxsulları ondan bəhrələndirmirsən! İnsana ancaq və ancaq öncə gördüyü işə görə mükafat veriləcək və o, əvvəlcədən göndərdiyi yerə daxil olacaq. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa yazdığı məktublardandır. İbn Abbas belə deyərmiş: «Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – kəlamından sonra bu söz kimi heç bir sözdən faydalanmamışam.» (İmam əleyhis-salam bu məktubda ona axirət işləri üçün sevinmək və kədərlənmək barəsində öyüd-nəsihət verib.) Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: insanı onun, əldən çıxarmamalı olduğu (əldən çıxarması təqdir edilməmiş) şeyə çatmaq sevindirir, əldə edilməsi (məsləhət) olmayan şeyə çatmaq isə kədərləndirir. Buna görə də (dünyanın xeyir-ziyanının qəza-qədərlə olmasını və mənfəətə sevinərək ziyandan qəmlənməyin insan üçün fitri olmasını bildiyin üçün) gərək sevincin axirət mənfəətinə görə olsun ki, (onun əldə edilməsi vasitəsini dünyada) tapmısan. Həmçinin qəm-qüssən əldən çıxmış axirət xeyiri üçün olmalıdır. Dünyadan əldə etdiyin şey üçün çox sevinmə. (Çünki dünya və onda olan şey sonda məhv olacaq.) Dünya malından əldən çıxmış şeylər üçün qəmli və səbrsiz olma. Sənin səy və tələşin, gərək ölümdən sonrakı işlərdə olsun. (Gərək çalışıb ölümdən sonrakı əbədi həyatın bağışlanma və xoşbəxtlik vasitələrini əldə edəsən.)

İmam Əli əleyhis-salamın, məl'un İbn Mülcəm onun başına qılınc vurduqdan sonra (fani) həyatla vidalaşmasına yaxın, vəsiyyət və tapşırıq yönlü kəlamlarındandır. (İmam əleyhis-salam bu sözlərində övladlarını İbn Mülcəmi əfv etməyə həvəsləndirib.) Mənim sizə vəsiyyət və tapşırığım Allaha heç nəyi şərik qoşmamağınız və Məhəmmədin (səlləllahu əleyhi və alih) sünnəsini məhv edib aradan aparmamağınızdır. (O Həzrətin göstərişlərinə zidd davranmayın.) Bu iki sütunu (Allaha şərik qoşmamaq və Həzrət Peyğəmbərin sözlərinə uyğun davranmağı) dikəldin (ki, müqəddəs İslam dininin binasının möhkəmliyi bu iki sütun ilədir). Bu iki çırağı nurlandırın (ki, nadanlıq və azğınlıq qaranlıqlarında sərgərdan qalmayasınız). (Əgər belə etsəniz) siz məzəmmət edilib qınanmazsınız. Mən dünən (sağlam bədən, qüdrət və şücaətlə) sizin dost və yoldaşınız idim. Bu gün isə sizin üçün ibrət və nəsihətəm. (Bütün cəngavərlik və böyüklüyümə baxmayaraq, əldən düşmüşəm.) Sabah sizdən ayrılacağam (öləcəyəm)! Əgər qalsam öz qanımın ixtiyar sahibiyəm (öz ixtiyarımla istəsəm İbn Mülcəmi cəzalandırar, istəsəm bağışlayaram). Əgər ölsəm, (onsuz da) ölüm mənim vədə yerimdir. (Ölsəm heç bir ixtiyara malik deyiləm və siz öz şər'i vəzifənizə əməl edin.) Əgər (onu) bağışlasam (bağışlamaq istəsəm), bağışlamaq mənim üçün (Allahın rəhmətinə yaxınlıq amili olan) itaət və bəndəlikdir. (Siz onu bağışlamaq istəsəniz) bağışlamaq sizin üçün xeyirxahlıqdır. Belə isə (siz onu) bağışlayın. (Çünki Allah-təala Qur'ani-Kərimin Nur surəsinin 22-ci ayəsində buyurur:) «أَلَا تُحِبُّونَ أَن يَغْفِرَ اللَّهُ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ» «Allahın sizi bağışlamağını istəmirsiniz? Allah bağışlayan və rəhm edəndir!» Allaha and olsun ki, ölümlə mənim yanıma xoşlamadığım (bir şey) gəlməyəcək və (ondan sonra) istəmədiyim bir şey aşkar olmayacaq. (Ölümə hazıram. Çünki ölümün arxasında əbədi səadət var və mən bu dünyadakı həyata vurulmamışam.) Mən (ölümə münasibətdə) su axtararaq (onu) tapan və bir şeyin arzusunda olub (onu) əldə edən şəxs kimiyəm. (Çünki gözəllik və xoşbəxtlik ölümdən sonradır, necə ki, Qur'ani-Kərimin Ali-İmran surəsinin 198-ci ayəsində buyurulur:) «وَمَا عِندَ اللهِ خَيْرٌ لِّلاَبْرَارِ» «Allah yanında olan (əbədi) nemətlər yaxşı əməl sahibləri üçün (dünya

mallarından) daha xeyirlidir». (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Bu kəlamın bir hissəsi bundan əvvəl xütbələr fəslində (149-cu kəlamda) keçdi. Amma buradakı bu kəlamda (Bəzi) əlavə sözlər var idi ki, onun ikinci dəfə gətirilməsini zəruriləşdirdi.

İmam Əli əleyhis-salamın əmlak və malları ilə necə davranılması barəsindəki vəsiyyətlərindəndir. O Həzrət bu vəsiyyətnaməni Siffeyn (müharibəsin)dən qayıtdıqdan sonra yazıb. Bu, Allahın bəndəsi və möminlərin başçısı Əli ibn Əbu Talibin Allahın razılığını əldə etmək üçün öz əmlak və malı barəsindəki göstərişidir ki, Allah onun səbəbi ilə məni cənnətə daxil etsin və mənə ona görə rahatlıq (axirət rahatlığı) əta etsin.

Bu da həmin vəsiyyətin bir hissəsidir

(Məndən sonra) tapşırıqlarımı Həsən ibn Əli yerinə yetirəcək. (O mənim vəsi və canişinimdir.) O mənim mal və sərvətimdən layiqli şəkildə (şəriətin hökmlərinə uyğun olaraq öz ehtiyaclarının aradan qaldırılmasında) sərf edəcək və doğrudan da ehtiyacı olan kimsələrə bağışlayacaq. Əgər Həsənin başına bir iş gəlsə (o, dünyadan köçsə) və Hüseyn sağ olsa, mənim Həsəndən sonrakı vəsi və canişinim odur və mənim tapşırıqlarımı onun kimi yerinə yetirər. Əlinin (əleyhis-salam) hədiyyəsindən Fatimənin iki oğluna (Həsən və Hüseyn əleyhiməs-salama) Əlinin digər oğlanlarına çatan qədər çatır. (Mənim malımdan digər qardaşlara verdikləri qədər götürsünlər.) Mən bu işin öhdəçiliyini Fatimənin iki oğluna Allahın razılığını əldə etmək, Həzrət Peyğəmbərə yaxınlaşmaq, ona ehtiram və o Həzrətlə qohumluq şərəfinə görə verdim. Və (İmam əleyhis-salam) malın öhdəçiliyini verdiyi şəxslə (Həsən əleyhis-salamla) şərt kəsir ki, bu malı olduğu kimi saxlasın (satmasın) və onun meyvəsini əmr edilən və yolu göstərilən yerlərdə sərf etsin. Həmçinin şərt kəsir ki, bu kəndlərin xurma ağaclarının yeni pöhrələrinin bir qələmini belə həmin kəndlərin yeri, xurma ağaclarının bitməsi səbəbindən dəyişik gələnə kimi satmasın. (Ağacların çoxluğu onları görəni belə gümana salana kimi ki, bu yer onun əvvəllər gördüyü yer deyil.) Bir yastığa baş qoyduğum və uşağı olan və ya hamilə olan kənizlərimin hər biri, öz övladlarının ixtiyarında qoyulurlar və (o kəniz) onun payıdır. Əgər həmin kənizin övladı ölmüş olsa və onun özü sağ olsa (yenə də) azaddır (və onu satmaq düz deyil. Çünki) kənizlik ondan götürülüb və (övlada verilmə yolu ilə olan) azadlıq,

onu azad edib. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) O Həzrət əleyhis-salamın bu vəsiyyətdəki «أَنْ لا يَبِيعَ مِن نَخْلِها وَدِيَّةً» «şərt kəsir ki, bu kəndlərin xurma ağaclarının yeni pöhrələrinin bir qələmini belə satmasın» cümləsində işlətdiyi «وَدِيَّةً» «vədiyyə» kəlməsi «فَسِيلَة» «fəsilə» (xurma ağacının qələmi) mənasınadır. Onun cəm forması isə «وَدِيّ» «vədiyy»dir. O Həzrətin «حتّى تُشْكِلَ أرْضُها غِراساً» «həmin kəndlərin yeri xurma ağaclarının bitməsi səbəbindən dəyişik gələnə kimi....» cümləsi ən fəsih kəlam və ən gözəl sözlərdəndir. Məqsəd budur ki, həmin kəndlərdə xurma ağaclarının bitməsi o qədər çoxalsın ki, onu görən onları (əvvəllər) gördüyü yerdən ayrı bir yer sansın və yer ona dəyişik təsir bağışlasın, (ağacların çoxluğundan) elə bilsin ki, həmin yer (əvvəllər gördüyü) o yerdən ayrı bir yerdir.

İmam Əli əleyhis-salamın zəkat yığmaq vəzifəsinə təyin etdiyi şəxsə yazdığı tövsiyələrindəndir (ki, onda zəkat almaq və yığmaq yollarını göstərir, zəkat verənlərlə mehriban olmaqdan danışır və zəkat kimi alınan dəvələri incitməməyi əmr edir). Biz burada həmin tövsiyədən bəzi cümlələri xatırladırıq ki, onların vasitəsi ilə İmam əleyhis-salamın haqqın sütunlarını dikəltməsi və kiçik, böyük, gizlin və aşkar işlərdə ədalət (bərabərlik və düzlük) nümunələrini üzə çıxarması bilinsin. Bir olan və şəriki olmayan Allahdan qorxub çəkinərək get. (Danışıq və davranışında Allahı nəzərində saxla.) Və (əmr və hökmü keçənlərdən olduğun üçün zalım hakimlər kimi) heç bir müsəlmanı qorxutma. Əgər onun ürəyindən olmasa, (torpaq və bağının) yanından keçmə. Ondan Allahın onun malında olan haqqından (onun verməsini əmr etdiyindən) artıq alma. Hər hansı bir qəbiləyə (məxsus yerə) çatanda, onların evlərinə daxil olma, sularının üstündə düş. Bundan sonra sakitcə, vüqarla onlara tərəf gedib aralarında dayan. Sonra onlara salam ver. Onlara salamı qısa etmə. (Onlara ehtiramsızlıq və hörmətsizlik göstərmə.) Sonra belə de: «Ey Allahın bəndələri! Allahın dostu və xəlifəsi, məni Allahın mallarınızda olan haqqını və payını (mallarınıza aid olan zəkatı) almaq üçün sizin yanınıza göndərib. Mallarınızda Allahın vəlisinə veriləcək Allah haqqı varmı?» Əgər biri «yox (mənim veriləcək zəkatım yoxdur)!» desə, ona müraciət etmə. (İkinci dəfə onun yanına getmə.) Əgər biri «var» desə, onu qorxutmadan, vahiməyə salmadan, sərtlik edərək çətinliyə düçar etmədən onunla birlikdə get. Sonra qızıl və gümüşdən sənə nə versə al. Əgər inək, qoyun və dəvəsi olmuş olsa, onun icazəsi olmadan onların yanına getmə. Çünki onların çoxu onundur. Dördayaqlıların yanına çatanda, onlara onların sahiblərinin ağası və ya ona qarşı sərt olan kəs kimi baxma. Heyvanı hürküdərək qorxutma və onu alanda yiyəsini incitmə. Malı iki hissəyə böl. Sonra onu (malın sahibini onlardan istədiyini seçməkdə) sərbəst burax. (Həmin iki hissədən birini) seçəndən sonra onun seçdiyinə toxunma. (Ona «niyə bunu seçdin?!» demə!) Ondan sonra yerdə qalanı iki hissəyə ayır və (yenə) onu (istədiyini seçməkdə) azad burax. Beləliklə, elə ki (onlardan

birini) seçdi, seçdiyinə toxunma. Onun malından yerdə Allahın haqqı (zəkat) miqdarında qalana kimi bölgünü davam etdir. (Bu cür davranışla) Allahın haqqını ondan al. Əgər (sənin zəkat kimi götürdüyünün onun seçdiyindən yaxşı olmasını güman etsə və) həmin bölgünün pozulmasını istəsə, sən (bölgünü) poz və hər iki hissəni bir-birinə qarışdır. Sonra Allahın onun malında olan haqqını almaq üçün bir daha etdiyin işləri yerinə yetir. Əldən düşmüş qoca dəvəni, (əl-ayağı) sınıq olanı və nöqsanlını (bir gözlü və bu kimini) zəkat kimi götürmə. Və (onları zəkat kimi təhvil aldıqdan sonra) dinindən əmin olduğun şəxsdən başqa heç kəsə tapşırma. (Həmin şəxsin danışıq və davranışının İslam dininin hökmlərinə uyğun olmasından arxayın olduqdan sonra malları ona tapşır.) Həmin şəxs müsəlmanların malına (münasibətdə) düz olmalıdır ki, onu onların hakimlərinə çatdırsın və o, müsəlmanların arasında bölsün. Onlara ancaq düz və mehriban adamı gözətçi et ki, kobudluq edib çətinliklərə salmasın və onları incidib yormasın. Sənin yanında yığılanları tez bizə göndər ki, Allahın əmr etdiyi yerə sərf edək. Sənin inandığın şəxs onları (bizim yanımıza gətirmək üçün) götürəndə, ona tapşır ki, dəvə ilə südəmər balasını bir-birindən ayırmasın, onun südünü çox sağmasın ki, (nəticədə) balasına ziyan dəyməsin, onu minərək yorub əldən salmasın və sağmaq və minməkdə onunla başqa dəvələr arasında bərabər davransın. (Ancaq birinin südünü sağmasın və ya bütün yol boyu təkcə birinə minməsin.) Həmçinin gərək yorulan üçün rahatlıq yaratsın. Ayağı yeyilmiş və getməkdən aciz olanını yavaş sürsün. Dəvələri yanından keçdikləri gölməçələr və su yığılan yerlərə salsın. Onları otlu yerlərdən (otsuz) yollara aparmasın (ki, onlar yol boyu otlayaraq güclənsinlər). Gərək onlara saatlarla (hər neçə saatda bir dəfə, yaxud otlaqlarda) istirahət versin (ki, rahat otlasınlar). Həmçinin gərək onlara su və ot olan yerdə imkan versin və onları boşlasın ki, bizim yanımıza yorğun və əzgin deyil, Allahın izn və əmri ilə, kökəlib dolu sümüklü gəlsinlər və biz də onları Allahın kitabının (Qur'ani-Kərimin) göstərişi və Peyğəmbərinin sünnəsi ilə (ehtiyacı olanlar arasında) bölüşdürüb paylayaq. Allahın istəyi ilə, deyilənlər sənin (Allah tərəfindən) mükafatlanmağın üçün çox münasib, hidayət və nicat tapmağın üçün isə çox yetərlidir.

İmam Əli əleyhis-salamın öz məmurlarından birini zəkat yığmağa göndərərkən, onunla (pərhizkarlıq, rəiyyətlə mehribanlıq və əli altında olanların və yoxsulların hüquqlarına riayət etmək barəsində) olan əhd-peymanlarındandır . Öz məmuruma gizlinliklərdə (düşüncəsində) və örtülü işlərində Allahdan başqa olan və görən və Ondan başqa gözətçi və işlərin tapşırılacağı kimsə olmayan yerdə Allahdan qorxub çəkinməyi əmr edirəm. Həmçinin əmr edirəm ki, üzdə Allahın əmrinə itaət edib gizlin və batində onun əksini etməsin (münafiq və ikiüzlü olmasın). Gizlin və aşkarı və danışıq və davranışı iki cür olmayan kəs əmanəti əda edib (Allahın göstərişini yerinə yetirib) və ibadət və bəndəliyi (riyakarlıq və özünü göstərməklə deyil) saf niyyət və düzlüklə yerinə yetirib. Ona əmr edərək göstəriş verirəm ki, onları (rəiyyət və əli altında olanları) incitməsin və onlara yalan deməsin (yaxud onlara yalan şey nisbət verməsin. Məsələn, «dəvəniz və ya əkininizin məhsulu bundan çoxdur, amma zəkat verməkdən yayınmağınız üçün onları gizlətmisiniz» kimi sözlər deməsin onlara). Onlara göstəriş verən olduğu üçün itaətsizlik səbəbindən onlardan üz döndərməsin (özünü onlardan ehtiyacsız sanmasın). Çünki onlar dində qardaş və dindaşdırlar, haqları hazırlamaq və ortaya çıxarmaqda yardımçıdırlar. Sənin bu zəkatda sabit payın, aşkar haqqın və yoxsul və acizlərdən ibarət şərik və ortaqların var. (Necə ki,) biz sənin haqqını tam şəkildə ödəyirik, sən (də) onların haqlarını tam şəkildə ödə. Əgər belə etməsən (onların haqqlarını kəssən), qiyamət günü sənin hamıdan çox düşmənin olacaq. Vay o adamın halına ki, Allah yanında onun düşmənləri yoxsullar, kasıblar, dilənçilər, qovulmuş səfillər, günah olmayan işlər üçün borca girənlər, öz malından, evindən və əhli-əyalından uzaqda aciz qalmış müsafirlər (səfərdə olanlar) olsun! Əmanətə (ilahi hökmə) xor baxan, xəyanətdə otlayan (ondan çəkinməyən) və özünü və dinini ondan təmizləməyən kəs dünyada özünə rüsvayçılıq rəva bilib və axirətdə daha çox xar və rüsvay olacaq. Ən böyük xəyanət və əyrilik ümmətə xəyanət etmək və ən çirkin hiylə isə, imamlara qarşı hiylə işlətməkdir. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Məhəmməd ibn Əbu Bəkr (Allah ondan razı olaraq mükafatlandırsın) ilə olan əhd-peymanlarındandır. İmam bu əhdi Misir hökumətini ona tapşırarkən yazıb. (Bu əhdnamədə ona camaat arasında ədalət və bərabərliklə davranmağı əmr edərək pərhizkarlığı, ölümün və qiyamət əzabının çətinliklərini yada salıb və sonda ona nəfsi istəklərlə mübarizə və namaza diqqət etmək barəsində nəsihətlər verib.) Qanadını onlar (Misir əhalisini) üçün yığ (hamı ilə təvazökar ol) və mülayim davran (elə iş gör ki, hamı sənin davranışından faydalansın). Onlarla gülərüz ol (əlin altında olanlara üzünü turşutma) və onları gözaltı baxmaqda və baxışını üzlərinə zilləməkdə bərabər tut. (Belə et) ki, böyüklər sənin onların xeyrinə zülm və sitəm etməyinə (düzlükdən uzaqlaşmağına) tamahlanmasınlar (əlləri altında olanlara zülm etməsinlər) və imkansızlar sənin ədalət və düzlüyündən məyus olmasınlar. Çünki ey Allah bəndələri, Allah-təala (qiyamət günü) sizin kiçik və böyük, aşkar və gizlin işləriniz barəsində soruşacaq. Buna görə də əgər əzab versə (sizi odda yandırsa), siz (özünüzə qarşı hamıdan) çox zalımsınız (çünki ona sizin günah və itaətsizliklәriniz səbəb olub). Əgər bağışlasa, O, çox kərim və böyükdür. Ey Allah bəndələri, bilin ki, pərhizkarlar keçici dünyanı və gələcək axirəti (onların xeyrini) qazanıblar. Beləliklə, onlar dünya əhli ilə dünyalarında (onun xeyrlərində) şərik oldular. Dünya əhli isə onların axirətlərində (onun xeyirində) şərik olmadılar. Onlar dünyada ən yaxşı mənzildə məskunlaşdılar və yeməlilərin ən yaxşısını yedilər. Beləcə, dünyadan əylənənlər kimi bəhrələndilər və itaətsizlərin aldıqları ləzzəti aldılar. Dünyadan sonra onları (məqsədə) çatdıran azuqə və (səadət) mənfəəti olan sövdələşmə ilə (axirətə) getdilər. Dünyada öz zahidliklərinin ləzzət və şirinliyini daddılar. Sabah, axirətdə Allahın yaxınlığında olacaqlarını yəqin etmişdilər, (Allahın rəhmətinin onlara çatacağını yəqinliklə bilirdilər. Belə) ki, istəkləri rədd edilməyəcək və rahatlıq və asayiş bəhrələri azalmayacaq. Odur ki, ey Allah bəndələri, (pərhizkarlara tabe olub fani dünyaya bel bağlamayın və) ölüm və onun yaxın olmasından qorxun və onun üçün tədarük görün. (Elə edin ki, ölüm çatanda nigarançılıq keçirməyəsiniz.) Çünki ölüm böyük təhlükəsi olan bir işlə gəlir. (Yaxşı işlər

görənlər üçün) heç vaxt pisliyi olmayan xeyir və yaxşılıqlar gətirir. Yaxud (pis işlər görənlər üçün) onunla heç vaxt yaxşılıq olmayan şər və pisliklər gətirir! Belə isə, Cənnətə Cənnət işləri görəndən və Cəhənnəmə Cəhənnəm işləri görəndən kim yaxın ola bilər? Siz ölümün qovduğu, təqib etdiyi kimsələrsiniz. Əgər dayansanız, sizi tutacaq, əgər ondan qaçsanız, sizi tapacaq. Ölüm sizə kölgənizdən də yaxındır (sizdən bir an belə ayrılmaz)! Ölüm sizin kəkillərinizə bağlanıb (ondan qurtula bilməyəcəksiniz) və dünya sizin arxanızca büküləcək (şəxs keçdikdən sonra bükülərək yığışdırılan xalça kimi). Belə isə, (axirət məsələsinə bu qədər etinasız olmayıb) dərinlik və istiliyi hədsiz, əzab və çətinliyi isə yeni olan oddan qorxun. (Cəhənnəm) elə bir yerdir ki, orada rəhmət və mehribançılıq yoxdur, istək qəbul edilmir, qəm-qüssə qurtarmır. (İndi) əgər Allahdan həm xof və qorxunuzun çox, həm də Ona güman və ümidinizin yaxşı olmasını bacarırsınızsa, qorxu ilə ümidi (bir yerə) toplayın. (Mütləq elə edin ki, həm qorxasınız, həm də ümidvar olasınız, nə qorxunuz çox olsun, nə də ümidiniz qorxunuzu üstələsin.) Çünki bəndənin Rəbbinə olan yaxşı güman və ümidi, Rəbbindən olan qorxusunun miqdarındadır və insanların Allaha nisbətdə ən nikbini Ondan ən çox qorxandır. Ey Məhəmməd ibn Əbu Bəkr, bil ki, mən səni qoşunlarımın ən böyüyü olan Misir əhlinə vali təyin etmişəm. Buna görə də dünyadan sənin bir saatın qalmış olsa belə, öz nəfsinlə müxalifət edərək dinini müdafiə etməlisən. Allahı, yaratdıqlarından birini (nahaq) şad etməklə qəzəbləndirmə. Çünki Allahdan başqasında olan şeylərin əvəzi, Onun yanında var, (amma) Allah yanında olan şeylərin əvəzi, Ondan başqasında yoxdur. (Əgər Allah razı olsa, başqasından nə qorxu və əgər O razı olmasa, başqasına nə ümid?) Namazı onun üçün müəyyənləşdirilmiş vaxtda yerinə yetir və bekarçılıqdan onu vaxtından əvvəl qılma. Həmçinin işin olduğu üçün onun vaxtını keçirmə və bil ki, əməllərinin hər bir şeyi namaza bağlıdır. (Əgər namazını yaxşı qılsan, başqa işləri də yaxşı yerinə yetirəcəksən. Onu zay etsən isə ondan qalan işləri daha xarab və pis edəcəksən)

Bu da həmin əhdin (Məhəmməd ibn Əbu Bəkri və Misir əhalisini münafiq və ikiüzlülərdən çəkindirmək barəsindəki) bir hissəsidir (Gərək sizin dil və qəlbiniz bir olsun və ikiüzlü olmayasınız, azğınların ardınca düşməyəsiniz.) Çünki qurtuluş (yolunun) başçısı (İmam əleyhis-salam) ilə həlakət (yolunun) başçısı (Müaviyə), Peyğəmbərin dostu ilə düşməni bir deyil. Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) mənə buyurub ki: «Mən ümmətim

üçün mömin və müşrikdən qorxmuram. Çünki Allah mömini imanına xatir (başqalarını yoldan azdırmaqdan) saxlayır. (Deməli, ondan müsəlmanlara ziyan dəyməz.) Allah müşriki də şirkinə görə zəlil və xar edir. (Müsəlmanlar da şirkinə görə onun sözlərinə qulaq asmaz və dalınca düşməzlər.) Amma mən sizin üçün qəlbən ikiüzlü və dildə alim olan kimsədən (ikiüzlülüyü qəlbində gizlədərək dilinə şəriət hökmlərini gətirənlərdən) qorxuram. O sizin bəyəndiyiniz şeyləri deyir, nalayiq hesab etdiyiniz işləri isə yerinə yetirir.

←27-ci məktub

Nəhcül-bəlağə. 28-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

29-cu məktub→

İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab olaraq yazdığı məktublardandır. Tək olan Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: məktubun gəlib mənə çatdı. Onda Allahın Məhəmmədi (səlləllahu əleyhi və alih) Öz dini üçün seçməsini və o Həzrəti qüdrət verdiyi səhabələrin yardımı ilə gücləndirməsini xatırladırsan. Deməli, zəmanə bizdən sənin barəndə təəccüblü şey gizlədibmiş ki, sən bizi Allahın bizim yanımızda olan xeyir-bərəkətindən və Peyğəmbərimizə görə bizə verdiyi naz-nemətdən xəbərdar etməyə başlamısan. Sən bu işində «Həcər»ə xurma vuran və yaxud öz müəllimini ox atmaq müsabiqəsinə çağıran şəxsə bənzəyirsən. İslamda insanların ən yaxşısının filankəslə filankəsin (Əbu Bəkr ilə Ömərin) olmasını güman edir, sonra elə şeyi (onları) xatırladırsan (tərifləyirsən) ki, əgər (dediklərin) düz olsa, ondan sənə bir pay çatmır, səhv olsa isə sənə bir ziyanı və xəcaləti yoxdur. Sənin (kimin) üstün və (kimin ondan) aşağı, (kimin) başçı və (kimin isə) əlaltı olması ilə nə işin var? Azad edilmişlər (Əbu Süfyan) və oğlanlarının (Müaviyənin) ilkin çağlarda Məkkədən Mədinəyə hicrət edənlər arasında ayrı seçkilik salmaq, onların mərtəbələrini müəyyənləşdirmək və təbəqələrini tanıtdırmaqla nə işi? (Sən ki, «azad edilənlər»dənsən və hələ də din və imanın həqiqətini dərk etməmisən, fəzilətli ilə üstünün və məqamı aşağı olanla əlaltının kim olmasını necə bilə bilərsən?) (Bu sözləri danışmaq ləyaqəti səndən) nə qədər də uzaqdır! Yarış oxlarından olmayan ox səs çıxartdı və xilafətə layiq kimsəyə tabe olmaqdan başqa bir şey rəva olmayan kimsə, xilafət və imamət barəsində hökm verməyə başladı. Ey insan, axsaq olmağına baxmayaraq, dayanmırsan? Əlinin qısa olduğunu görmürsən? Arxaya, qəzavü-qədərin sənin olmağını istədiyi yerə dönmürsən?! (Nə üçün ayağını yorğanından çölə çıxarır, xəcalət çəkib xəcalətlə başını aşağı salmırsan?) Məğlub olanın məğlubiyyətinin ziyanı və qalibin qələbəsinin xeyri sənə qalmayıb. Sən azğınlıq çölündə vurnuxursan və ayağını düz yoldan kənara qoymusan. Səni xəbərdar etmək (və özümü öymək) üçün deyil, Allahın (mənə əta etdiyi) nemətlərinə görə deyirəm: görmürsənmi (bilmirsənmi) Mühacir və Ənsarın bir hissəsi Allah yolunda öldürüldü və onların hamısı şərafət və fəzilət sahibi idi. Nəhayət,

bizim şəhidimiz (Həmzə ibn Əbdülmüttəlib Ühüd müharibəsində) öldürüldü və (onun barəsində) belə deyildi (Həzrət Peyğəmbər buyurdu): «سيّد الشهداء» «O, Allah yolunda şəhid olanların ağası və böyüyüdür». Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) onun namazını qılarkən yetmiş dəfə «Allahu əkbər» deməklə (bu fəziləti ancaq ona) məxsus etdi. Görmürsənmi (xəbərdar deyilsənmi) ki, Allah yolunda (Həzrət Peyğəmbərin səhabələrindən) bir dəstənin qolları (bədənlərindən) ayrıldı və onların hamısı fəzilət və şərafətə malik idi. Onların başına gələn iş bizlərdən də birinin (Cə'fər ibn Əbu Talibin) başına gəldi. (Mu'tə müharibəsində qolları bədənlərindən ayrıldı və onun barəsində belə) deyildi (Peyğəmbər onu belə adlandırdı): «الطَّيّارُ فِي الْجَنَّةِ وَ ذُو الْجَناحَينِ» «O, iki qanad sahibidir və Cənnətdə uçur». Əgər Allah insanın özünü tərifləməsini qadağan etməsəydi, danışan (İmam əleyhis-salam) saysız fəzilət və üstünlüklər sayardı ki, möminlərin qəlbləri onlarla tanış olar, eşidənlərin qulaqları inkar etməzdi. Buna görə də «ovun yoldan qaytardığı bir kimsəni özündən uzaqlaşdır». Biz Rəbbimizin tərbiyə etdiyi kimsələrik və sonrakı insanlar bizim tərbiyə etdiklərimizdir. Qədim şərəf və uzaq keçmişli böyüklük, bizə sənin qohumlarını özümüzə qarışdırmağa mane olmadı. Bir-birinə tay-tuş adamlar kimi (sizdən) qız aldıq, (sizə) qız verdik, halbuki siz həmin səviyyədə deyildiniz. Sizdə belə bir ləyaqət haradan ola bilər, halbuki Peyğəmbər bizdən, (Allahın Peyğəmbəri – səlləllahu əleyhi və alih – ilə hamıdan çox düşmənçilik edən və Bədr müharibəsində kafir kimi öldürülmüş) təkzib edən (Əbu Cəhl) sizdəndir! Əsədullah («أسَدُ الله» «Allahın şiri») bizdən (məqsəd o Həzrətin özü, ya da əziz əmisi - şəhidlərin ağası Həmzədir) Əsədul-əhlaf («أسَدُ الاَحْلاف» «andlar şiri») isə sizdəndir. Cənnət cavanlarının iki başçı və ağası bizdən (Həzrət Peyğəmbər –səlləllahu əleyhi və alih – buyurub: «هُما سَيِّدا شَبابِ أَهْلِ الْجَنَّةِ» «Həsənlə Hüseyn Cənnət cavanlarının başçılarıdırlar»), od əhli olan uşaqlar isə sizdəndirlər. Bütün aləmlərin qadınlarının ən yaxşısı (Fatimə salamullahi əleyha) bizdən, odun daşıyan qadın isə sizdəndir. (Qısası bunlar) bizim xeyrimizə olan çoxsaylı yaxşılıqlar və sizin ziyanınıza olan çoxsaylı pisliklər içərisində (işarə etdiyim azacıq bir hissə idi). Müsəlmanlığımız deyilənlərdir (bizim İslamda hamıdan qabağa düşməyimiz və onda olan xidmətlərimiz hamıya məlumdur) və (İslamdan qabaqkı) cahiliyyət dövründəki (şərəf və üstünlüyümüz) də inkar edilmir. Allahın kitabı (Qur'ani-Kərim) barəmizdə pərakəndə və dağınıq olanları bizim üçün bir yerə topladı. (Bizim xilafət və imamətə layiq olmağımıza şahiddir.) Bu, eyb və nöqsan sifətlərdən pak və uzaq olan

Allahın kəlamıdır (Qur’ani-Kərimin Ənfal surəsinin 75-ci ayəsində): «وَأُوْلُواْ الْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى بِبَعْضٍ فِي كِتَابِ اللهِ» «Qohumlar Allahın kitabında (Onun hökm və fərmanında) bir-birinə daha yaxındırlar». (Peyğəmbərin qohumlarının mən və mənim övladlarım olmasında heç bir şəkk-şübhə olmadığı üçün qohumluq ancaq ona məxsus olan şəxs o Həzrətin yerində dayanmağa daha layiqdir.) (Həmçinin) Allah-təalanın (Qur’ani-Kərimin Ali-İmran surəsinin 68-ci ayəsindəki) bu kəlamı: «إِنَّ أَوْلَى النَّاسِ بِإِبْرَاهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهَـذَا النَّبِيُّ وَالَّذِينَ آمَنُواْ وَاللهُ وَلِيُّ الْمُؤْمِنِينَ» «Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər (Məhəmmd) və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!» Deməli, biz bir dəfə (Həzrət Peyğəmbərlə) qohumluq və yaxınlığımıza görə (imamət və xilafətə başqalarından) daha layiqik, bir dəfə isə (o Həzrətə) tabe olaraq ardınca getdiyimizə görə. Mühacirlər (66-cı kəlamın şərhində toxunularaq izah edilən) Səqifə günündə Ənsara Peyğəmbərlə–səlləllahu əleyhi və alih–qohum olmalarını (xəlifəlik üçün) dəlil və sübut kimi gətirdilər və onlara qalib gəldilər. Buna görə də əgər qələbə çalmaq (xilafəti ələ almaq) Allahın Peyğəmbəri–səlləllahu əleyhi və alih–ilə qohumluğa görə gerçəkləşirsə (imamət bu yolla sübut olunursa), haqq (xilafət haqqı) bizə məxsusdur, sizə yox! (Çünki biz o Həzrətə daha yaxınıq.) Amma əgər qələbə, qohumluqdan ayrı bir şeylə gerçəkləşirsə (qohumluq dəlil və sübut deyilsə), onda Ənsar öz iddiasında qalmaqdadır. Belə güman edirsən ki, mən xəlifələrin hamısına (Əbu Bəkrə, Ömərə, Osmana) həsəd aparmış və onlara zülm etmişəm. Əgər sənin bu gümanın düz olsa, sənə qarşı cinayət törədilməyib ki, səndən üzr istənilsin?! (Çünki onun sənə heç bir dəxli yoxdur, şair Əbi Zuvəyb demişkən: «وَ عَيَّرَ الْواشُونَ إِنِّي أُحِبُّها» Ağzıgöyçəklər məşuqəmi, mən onu sevdiyimə görə qınayır, məzəmmət edirlər.) «وَ تِلْكَ شَكاةٌ ظاهِرٌ عَنْكَ عارُها» «Bu, ar və xəcaləti səndən uzaq olan günahdır (ey məşuqə)!» Deyibsən ki: məni (xəlifələrə bey’ət etmək üçün) burnuna çubuq soxulub çəkilən dəvə kimi çəkib apardılar ki, bey’ət edim. Allaha and olsun ki, məni pisləmək istəməyinə baxmayaraq, tərifləmisən; məni rüsvay etmək istəmisən, amma özün rüsvay olmusan. Müsəlmanın dinində şəkk və yəqin, inamında isə tərəddüd olmasa, onun zülm və sitəmə məruz qalması ona nöqsan və eyb deyil. (Xilafətimin sübutu üçün işarə etdiyim) bu dəlillərin bəyan edilməsindən məqsədim səndən başqalarıdır (icmanın gerçəkləşməsini iddia edən xəlifələrdir). Mən həmin dəlil və sübutların ancaq yeri gələn qədərini bəyan etdim (ki, sən öz azğınlığını başa düşəsən). Sonra mənimlə Osman arasında baş verənləri xatırladırsan (məni

ona kömək etmədiyim üçün zalım adlandırırsan). (Amma) onunla (yaxın) qohum olduğun üçün bu barədə sən cavab verməlisən. Buna görə də (de görüm,) mənimlə səndən hansı birimiz onunla daha çox düşmənçilik etdik və onun öldürülməsində bələdçi olduq? Ona kömək etmək istəyən, onun isə qoymayaraq özünü saxlamasını xahiş etdiyi kəs, yoxsa onun kömək istəməsinə baxmayaraq, köməyini əsirgəyən və ölümü (öldürülmək amillərini) ona tərəf istiqamətləndirən ki, nəhayət, qəzavü-qədəri (Allahın onun barəsindəki təqdiri) ona üz tutdu (və o öldürüldü)?! Allaha and olsun ki, belə deyil! (Sən münafiq və ikiüzlüsən. Çünki sən ona zülm etdin, indi isə özünü ürəyiyanan kimi göstərirsən. Allah Qur'ani-Kərimin Əhzab surəsinin 18-ci ayəsində sənin kimilər barəsində belə buyurur: «قَدْ يَعْلَمُ اللَّهُ الْمُعَوِّقِينَ مِنكُمْ وَالْقَائِلِينَ لِإِخْوَانِهِمْ هَلُمَّ إِلَيْنَا وَلَا يَأْتُونَ الْبَأْسَ إِلَّا قَلِيلًا») «Allah içərinizdən (müsəlmanların müharibəyə getmələrinə) mane olanları (münafiq və ikiüzlüləri) və qardaşlarına «bizə tərəf gəlin!» deyənləri tanıyır. Onlar ancaq az bir zaman (o da nifaq və özlərini göstərmək üçün) müharibəyə gəlirlər». (Mən bu sözlərimlə) Osmana ondan baş verən bid'ətlər üçün nöqsan tutmağımdan üzr diləmək istəmirəm. Əgər mənim ona yol göstərməyim (sənin gümanına görə) günahdırsa, onsuz da: «رُبَّ مَلُومٍ لا ذَنْبَ لَهُ» «günahsız yerə məzəmmət olunan çoxdur». «وَ قَدْ يَسْتَفِيدُ الظِّنَّةَ المُتَنَصِّحُ» «bəzən çox öyüd verən kəs (öyüd nəsihətinin müqabilində) töhmət və pis gümanlar qazanır». (Bu misra öyüd-nəsihət verməyə çalışan, axırda isə pis məqsədlər güdməkdə günahlandırılan şəxs barəsində məsəldir. Qur'ani-Kərim Hud surəsinin 88-ci ayəsində Həzrət Şüeybin öz qövmünə dediyi sözləri belə bəyan edir: «إِنْ أُرِيدُ إِلاَّ الْإِصْلاَحَ مَا اسْتَطَعْتُ وَمَا تَوْفِيقِي إِلاَّ بِاللهِ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ») «Mən yalnız bacardığım qədər sizi islah etmək istəyirəm. Mənim (işləri islah etməkdəki) müvəffəqiyyətim yalnız Allahın köməyilədir. Mən yalnız Ona təvəkkül etdim və məhz Onun hüzuruna dönəcəyəm!» (Məni müharibə ilə qorxudur və) deyirsən ki, sənin yanında mən və mənim səhabə və havadarlarım üçün qılıncdan başqa bir şey yoxdur! Ağladandan sonra güldürdün (bizi)! (Bu sözləri səndən eşidən kəs sənin İslam dinini ələ almağına ağlayandan sonra gülər. Sənin bu çərən-pərən sözlərin məni təəccübləndirərək güldürdü. Axı) sən Əbdülmüttəlib övladlarının düşmənlərdən çəkinərək üz çevirdiklərini və qılıncdan qorxduqlarını harada görmüsən? «لَبِّثْ قَلِيلاً يَلْحَقُ الْهَيْجا حَمَلْ» «Bir az ayaq saxla ki, Həməl (ibn Bədr – bu, Quşəyr ibn Kə'b ibn Rəbiə qəbiləsindən olan bir şəxsin adıdır) gəlib çatsın» («لا بأْسَ بِالْمَوْتِ إِذا الْموْتُ نَزَلَ» «Ölüm insana üz tutanda ondan heç bir qorxu yoxdur»). Tezliklə, axtardığın

(və barəsində çərənçilik, boşboğazlıq etdiyin) şəxs səni axtarar və uzaq sandığın şey sənə yaxınlaşar. Mən Mühacirlər, Ənsar və gözəl şəkildə onlara davamçı olan çox böyük qoşunla sənə tərəf tələsirəm. Onların sayı çox, toz-dumanları isə dağınıqdır. Ölüm köynəyi geyiniblər. Onlar üçün ən yaxşı görüş özlərinin Rəbbi ilə görüşdür. Bədr müharibəsi iştirakçılarının övladları və Bəni-Haşimin qılıncları da onlarladır. Sən özün qardaşın (Hənzələ ibn Əbu Süfyan), dayın (Vəlid ibn Ütbə) baban (Ütbə ibn Rəbiə – o, Müaviyənin anası Hindin atasıdır və adı çəkilənlərin hər üçü Bədr müharibəsində öldürülüblər) və qohumlarına qarşı işlədilmiş həmin qılıncların itiliyini yaxşı bilirsən. (Qur'ani-Kərimin Hud surəsinin 83-cü ayəsində Lutun qövmü barəsində belə buyurulur: «وَمَا هِيَ مِنَ الظَّالِمِينَ بِبَعِيدٍ») «O əzab sənin ümmətin içərisində olan zalimlərdən də uzaq deyildir!» (Gərək zalımlar bu cür əzab və çətinliklərə düçar olsunlar.)

İmam Əli əleyhis-salamın Bəsrə əhlinə olan məktublarındandır (ki, onda Bəsrə əhalisini onların çirkin əməllərindən keçdiyinə ümidvar edib və itaətsizlik etməkdən qorxudub). (Azğınların ardınca getmək nəticəsində) ipinizin qırılması (əhd-peymanı pozmaq), düşmənçilik və müxalifət etməyiniz (nalayiq işləriniz) nadan və xəbərsiz olduğunuz məsələlərdən deyildi. Amma mən sizin günahkarınızı bağışladım, qılıncı üz çevirib qaçanınızdan saxladım, üz tutanınızı (qayıdanınızı) qəbul etdim. Lakin bundan sonra əgər haqqa zidd pozğunçuluq və səhv düşüncələr sizi mənimlə düşmənçilik və müxalifətə sövq etsə, bilin ki, öz atlarını yaxına gətirərək öz minik dəvəsinə palan qoyan mən olacağam. Əgər məni özünüzə tərəf gəlməyə məcbur etsəniz, sizinlə elə döyüşə başlayacağam ki, Cəməl müharibəsi onun yanında (qazan dibi) yalayanın (qazanın dibini) yalaması kimi olsun. Hərçənd ki, sizə tabe olanın fəzilət və böyüklüyü və (sizə, mənə qarşı çıxmamaq barəsində) öyüd-nəsihət verənin haqqından da xəbərdaram. Eyni zamanda günahsıza vurulmuş töhmətdən və vəfalıya qarşı peymanını pozandan da keçməyəcəyəm. (Müharibə zamanı haqq ilə batili bir-birinə qatışdırmayacaq, kimin öldürülməli və kimin buraxılmalı, kimin cəzasına çatdırılmalı və kimin mükafatlandırılmalı olmasını yaxşı bilirəm.)

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır (ki, onda Müaviyəyə öyüd-nəsihət verərək onu işin sonunda olacaq əzab və bədbəxtlikdən qorxudub). Yanında olan şeylərə (nemətlərə) görə Allahdan qorx. Onun sənin boynunda olan haqqına (itaət, hökmlərinə tabeçilik və şükr haqqına) bax. Barəsində cahil və nadan olmaqda üzrlü sayılmayacağın şeyi tanımağa qayıt (öz zəmanənin imamına tabe ol). Çünki (əsası zəmanə imamının tanınması olan Allaha) itaət etmək və tabeçilik üçün aşkar nişanələr, aydın, düz və bəlli yollar və (Cənnət kimi) arzu olunan sonluq var. Zirəklər ona daxil olur, alçaqlar isə ondan boyun qaçırır, yayınırlar. (Allah və Peyğəmbərin göstərişlərinə zidd olan nalayiq işlər görürlər və nəticədə ona nail olmurlar.) Kim o yoldan çıxsa haqq yoldan kənara çıxıb və bilmədən azğınlıq çölünə ayaq basıb. Allah, nemətlərinin üzünü ondan döndərər (nemətlərini ondan alar) və əzab və çətinlikləri ona rəva bilər. Belə isə özünü qoru və nəfsindən qorx (onun göstəriş və istəklərinə uyğun davranma) ki, Allah (səadət və xoşbəxtlik) yolunu sənə göstərib. İşlərinin sənin öhdənə düşən qədərində öz atını zərər-ziyanın sonuna və küfr və üsyan diyarına (cəhənnəmə) sürmüsən və (istəklərinə tabe olduğun) nəfsin, səni şər və pisliyə (öz zəmanənin imamı ilə müxalifət etməyə) vadar edib, azğınlığa (əbədi bədbəxtliyə) atıb, pozğunçuluğa (Allah və Peyğəmbərə qarşı günah işlətməyə) məcbur edib və (hidayət və nicata gedən) yolları sənə çətinləşdirib. (Çünki nəfs, ona tabe olan şəxsin azğınlıq və zəlalət yollarından kənara çıxması üçün səadət və xoşbəxtlik yollarını ona çətinləşdirir.)

İmam Əli əleyhis-salamın Siffeyndən qayıtdıqdan sonra, Hazirində (Siffeyn bölgəsi yaxınlığında yer adıdır) Həsən ibn Əli əleyhiməs-salama yazdığı vəsiyyətlərindəndir. (Bu vəsiyyətnamə) yoxluq və ölümə yaxın olan, zamanı (onun keçərliyi və çətinliklərini) etiraf edən, ömür və həyata arxa çevirmiş, dövrana (onun çətinliklərinə) təslim, dünyaya bədbin, ölülərin evlərində məskunlaşmış və sabah (yaxın olan ölüm günü) ondan köçəcək atadan (xalqın hidayəti və düz yola gətirilməsi barəsində) əldə edilməz bir şey arzulayan, məhv olanların (ölülərin) yolu ilə gedən, (müxtəlif) xəstəliklərə hədəf, zamanın girovu olan, müsibət və qəmlərə nişangah, dünyaya qul (onun xoşagəlməz rəftarına düçar), hiylə və yalan diyarının (yaxşılarının səadət və xoşbəxtliyi və pis əməllilərinin bədbəxtliyinin) taciri, (borc yiyəsi kimi öz borcunu almayınca əl çəkməyən xəstəliklərə, ölümlə nəticələnən hadisələrə və) puçluqlara borclu, (əlindən qurtarmaq mümkün olmayan) ölümə əsir, möhnətlərlə müttəfiq, qəm-qüssəyə yoldaş (insan möhnət və qəm-qüssədən ayrılmır və sanki onlardan ayrılmamağa və yoldaş olmağa and içib), bəla və dərdlərə hədəf, nəfsi istəklərin torpağa yıxdığı və (qovuşacağı) ölülərin canişini olan oğula! Dünyanın mənə arxa çevirməsi, dövranın mənə itaətsizlik etməsi və axirətin mənə üz tutması barəsində bildiklərim məni başqasını yada salmaq və məndən sonra qalacaq (ev, var-dövlət və övlad kimi) şeylər üçün çalışmaqdan saxlayır. (Çünki belə bir vaxtda kimisə yada salmaq və ya nəyinsə qəmini çəkmək münasib deyil. Gərək səadət və xoşbəxtliyə səbəb olan fəzilətlər əldə etməyin fikrində olum.) Amma mənə camaatın qəm-qüssəsi deyil, yalnız öz qəm-kədərim aid edildiyi üçün (nə vaxt öz işimdən başqa iş və öz qəmimdən başqa qəmi yadımdan çıxartdımsa) düşüncəm məni təsdiqləyərək arzu və nəfsin istəklərindən saxladı, işimin həqiqətini (dünyadan köçməyi) aşkar etdi. Sonra məni onda oyun-oyuncaq olmayan səy və tələşə və yalanla qarışıq olmayan doğruluğa vadar etdi. (Xülasə, dünyanın mənə arxa çevirdiyini və axirət səfərinə hazırlaşmağın zəruriliyini gördüyüm üçün öz işimdən başqa işlər üçün olan hər bir düşüncəni özümdən uzaqlaşdırdım. Amma) səni vücudumun bir parçası gördüm (çünki övlad insanın bir parçasıdır), hətta vücudumun hamısı hesab

etdim (çünki övlad valideynin yerini tutaraq adını qoruyur). Belə ki, sənə bir şey gəlsə, mənə gəlmiş kimidir və əgər ölüm səni haqlasa məni haqlamış kimidir. (Qısası, sənin işlərin barəsində düşünməyim öz işim üçün düşünmək kimidir.) Sənin işin məni öz işlərim qəm-qüssəyə saldığı kimi kədərləndirir. Buna görə də (həmin səbəbdən) sağ qalmağımdan və ya ölməyimdən asılı olmayaraq bu məktuba möhkəm arxalanaraq onu sənə yazdım. (Bu elə bir vəsiyyətnamədir ki, əgər sən ona əməl etsən mənim qəlbim rahat olar.) Oğulcan, sənə təqvalı olaraq Allahdan qorxmağı, Onun əmr və hökmlərinə tabe olmağı, qəlbini Onu yada salmaqla abadlaşdırmağı (çünki bina evin kamilliyi olduğu kimi Allahı yad etmək də nəfsin kamillik amilidir) və Onun (itaət və tabeçilik) ipindən yapışmağı tövsiyə edir, tapşırıram. Əgər sən ondan yapışsan, hansı səbəb və ip sənինlə Allah arasında olan ip və səbəbdən möhkəm ola bilər?! Qəlbini öyüd-nəsihətlə (elm, hikmət və axirəti yada salmaqla) dirilt, zahidliklə (dünyaya ürək bağlamamaqla) öldür, yəqin və inamla (Allah və Peyğəmbərə iman gətirməklə) qüvvətləndir, hikmətlə (Allahın hökmlərini bilməklə) nurlandır, ölümü yada salmaqla zəlil və xar et (nəfsi istəklərə tabe olma) və (dünyanın) fanilik və yoxluğu(nu) etiraf etməyə məcbur et (onu dünyanın yox olacağını iqrar etməyə vadar et ki, oranın əbədi diyar olmasını zənn etməsin). Onu dünyanın pisliklərі və dərdləri ilə dərindən tanış et (ki, ona etimad etməsin), zamanın (acı hadisələrinin) hücumu və gecə ilə gündüzün pis keçməsi (insanın istək və arzularına uyğun olmaması) ilə qorxut. Keçənlərin xəbərləri (onların sərgüzəştlərinin necəliyi) ilə tanış edərək səndən qabaqkıların başına gələnləri onun yadına sal. Onların diyarlarını, qalıqlarını və nişanələrini gəz dolan, nə etdiklərinə, haradan köçdükləri və harada düşüb yerləşdiklərinə nəzər sal. Görəcəksən ki, onlar dostlardan ayrılaraq qürbət və tənhalıq diyarına düşüblər. Sanki az müddət sonra sən də onlardan biri olacaqsan. Belə isə (layiqli əməllərlə) öz mənzil və uyuyacağın yeri abadlaşdır, axirətini dünyana satma. Bilmədiyin şey barəsində söz söyləmə. Sənə aid olmayan şey barəsində söhbət etmə. Azğınlıq olmasından qorxduğun yoldan (onunla getməkdən) çəkin. Çünki azğınlıq sərgərdanlığı zamanı özünü saxlamaq, qorxulu işlər görməkdən daha yaxşıdır. Yaxşı işlərə əmr et ki, yaxşılardan olasan. Pis işləri əlinlə, dilinlə qadağan et. Öz səy və tələşınla onları (pis işləri) yerinə yetirən kəsdən ayrıl. Allah yolunda (din düşmənlərinə və pis işlərə əmr edən nəfsə qarşı) Ona layiq tərzdə cihad et. (İmkan və bacarığın olan qədər cihad etməkdən çəkinmə.) Allah yolunda, tənə vuranın tənəsindən qorxub çəkinmə.

(Başqalarını yaxşı işlərə əmr edərək pis əməllərdən çəkindirməkdə və digər ilahi hökmlərin icrasında kiminsə tənə vurması, sənə boynunda olan vəzifəni yerinə yetirməyə mane olmasın.) Harada olmağın və hansı çətinliklə üzləşməyindən asılı olmayaraq haqq-həqiqət uğrunda (ona yardım etmək üçün) çalış. (Bu yolda qarşıya çıxan heç bir hadisədən üz çevirmə.) Dində elm əldə et. (Onun hökmlərini öyrən.) Özünü xoşagəlməz işlərə səbr etməyə adət ver. Haqq yolda səbrli olmaq necə də gözəl xasiyyətdir! Bütün işlərində öz nəfsini Allahına tapşır. Çünki sən (belə olan halda,) onu qüdrətli sığınacağa və qoruyucuya tapşırmış olursan. İstədiyin şeyi ancaq Rəbbindən istə (Ondan başqasına üz tutma). Çünki bağışlamaq və vermək də Onun əlindədir, məhrum etmək də. (Hər bir işdə Allahdan) çoxlu xeyir dilə. Mənim vəsiyyət və tapşırığım barəsində dərrakə və fikir işlət, ondan üz çevirmə. Çünki sözün ən xeyirlisi və gözəli onun fayda verənidir (qulaq asanın eşidərək ona uyğun rəftar etmədiyi deyil, eşidərək əməl etdiyidir). Bil ki, (sahibinə) fayda verməyən bilikdə xeyir yoxdur. Öyrənilməsi münasib olmayan (sehr, cadu və bu kimi din və məzhəbə zidd) elmdən fayda əldə edilməz. Oğulcan, qocalaraq yaşlaşdığımı, zəiflik və süstlüyümün artmaqda olmasını görüb sənə vəsiyyət etməyə tələsdim. Zehnimdə olanları sənə çatdırmamış ölüm məni haqlayar və ya bədənimdə çatışmazlıq yarandığı kimi, düşüncəmdə də nöqsan yaranar, yaxud bəzi nəfsi istəklər və ya dünya fitnələri səni məndən tez qabaqlayar (nəfsi istəklərə tabeçilik və dünyaya ürəkdən bağlanmaq sənə hakim olmamışdan vəsiyyət etdim ki, birdən mənim öyüd-nəsihətlərimi qəbul etməzsən) və üsyankar dəvəyə dönərsən deyə, onda bir sıra fəzilətlər yazdım. Gəncin qəlbi (toxum səpilməmiş) boş yer kimidir. Hansı toxum səpilsə onu qəbul edər (bitirər). Buna görə də ürəyin (dünyaya vurğunluq səbəbindən) bərkiməmiş və ağıl və dərrakən (boş və puç işlərə) mübtəla olmamış səni ədəbləndirməyə başladım (din, hikmət, bilik və ibrət qaydalarını sənə xatırlatdım) ki, öz işlərində tam düşüncə ilə, təcrübə edənlərin sənin axtarmaq və sınaqdan keçirmək ehtiyacını aradan qaldırdıqları şeyə üz tutasan, təcrübə etməyə möhtac olmayasan və sınaqdan keçirməkdən qurtulasan. Beləliklə, bizim (çox zəhmətlə) əldə etdiyimiz ədəb (zəhmətsiz olaraq) sənə çatar və bizim üçün qaranlıq (gizlin və naməlum) olan şey, sənə aydın olar. Oğulcan, məndən əvvəlkilərin ömrü kimi (uzun) ömür sürməsəm də, onların işlərinə nəzər salıb, xəbərləri barəsində düşünərək onlardan qalan şeyləri seyr etmişəm. Nəticədə onlardan biri (kimi) olmuşam. Hətta onların işləri barəsində mənə çatan şeylərə görə sanki

birincisindən sonuncusuna kimi hamısı ilə yaşamışam. Beləliklə, onların işlərinin saf və yaxşısını bulanıq və pisindən və xeyrini ziyanından seçdim. Sənin üçün hər bir işin gözəlini seçdim, bəyənilmişini istədim və onun qaranlıq və naməlum olanını (məəttəlliyə səbəb olanını) səndən uzuqlaşdırdım. Sənin işin məni, mehriban atanı vadar edən şeyə vadar etdiyi vaxt və səni tərbiyə etmək və ədəbləndirmək qərarına gəldiyim zaman belə məsləhət gördüm ki, bu işi həyata (yeni) üz tutduğun, zəmanəni yeni dərk etdiyin (gənc və yeniyetməlik) və pak niyyət və təmiz nəfsə malik olduğun vaxtda görüm. Və bu işə Allahın kitabı, onun tə'vili (yozumu), İslamın (həqiqi) yolları, şəriət hökmləri və Allahın halal-haramını öyrətməklə başlayıram. Allahın kitabından başqa bir şeylə başlamıram sənin təliminə. Sonra xalqın nəfsi istəklər və (ziddiyyətli) rəylərə uymaları səbəbindən (əqidə və şər'i hökmlərdə) şübhələrə düşüb ixtilafa düçar olduqları şey barəsində sənin şübhəyə düşəcəyindən qorxdum. Onu sənin yadına salmağa meylim olmasa da, mənim üçün onu möhkəmləndirmək, səni həlak və məhvediciliyindən əmin olmadığım işdə təkbaşına buraxmaqdan daha xoşdur. Allahın, onda sənə qurtuluş və nicat müvəffəqiyyəti əta etməsini və səni düz yola hidayət etməsini diləyirəm. Beləliklə, bunları vəsiyyət edirəm sənə. Oğulcan, bil ki, vəsiyyətimdən öyrənəcəyin ən yaxşı şey Allahdan çəkinərək qorxmağın, Allahın sənə vacib etdiyinə kifayətlənməyin və (Əbu Talib, Seyyidüş-şühəda Həmzə və Cə'fər Təyyar kimi) keçmiş babaların və əməlisaleh əhli-beytinin qoyub getdiklərini əldə etməyindir. Çünki sən fikirləşərək düşündüyün kimi, onlar da öz sayıq düşüncələrini əldən vermədilər (özlərinə diqqət yetirərək səadət və xoşbəxtlik tapdılar). Beləliklə, nəticədə düşüncə onları bildiklərini yerinə yetirməyə və vəzifə daşımadıqlarından çəkinməyə yönəltdi. (Onlar özlərinə aşkar və məlum olan şeylərə inanaraq ona uyğun davrandılar, qaranlıq və naməlum qalan şeylərdən isə uzaqlaşdılar.) Beləliklə, əgər nəfsin, sənin qohumlarının (təcrübə edərək) keçdiklərini onlar kimi bilməməsinə baxmayaraq, qəbul etməkdən boyun qaçırırsa, sənin bu barədəki istəyin şübhələrə (qatma-qarışıq sözlərə) girişərək mübahisə və çəkişmələrə daxil olmaq deyil, başa düşmək, çalışmaq və elm və bilik əldə etmək olmalıdır. Ona nəzər salıb barəsində düşüncəyə dalandan qabaq öz Allahından kömək istə, müvəffəqiyyət qazanmağın üçün Ona üz tut və səni şəkk-şübhəyə salan və ya zəlalət və azğınlığa aparan bütün pis işləri tərk et. Beləliklə, ürəyinin təmizlənib saflaşaraq təvazökar və itaətkar olmasını, fikrinin kamilləşərək

(pərakəndəlikdən uzaqlaşıb) cəmlənməsini və o barədəki səyinin məqsədyönlü olmasını yəqin etdikdən sonra (bu vəsiyyətnamədə) dediklərimə nəzər sal və barəsində fikirləş. Əgər istədiyin fikir və düşüncə rahatlığını əldə edə bilməsən (ürəyin pak və itaətkar olmasa, düşüncələrin pərakəndə olsa, müxtəlif məqsədlərə malik olsan), bil ki, öz qabağını görməyən dəvə kimi anlaqsız addım atır və zülmət qaranlıqlara (azğınlıqlara) düşürsən. Anlayışı olmadan bilmədiyi yol ilə gedən və ya (haqqı batilə) qatışdıran kimsə dini istəyən adam deyil! Belə olan halda, dayanmaq və özünü saxlamaq (ağıl və elmin hökmünə) daha yaxındır. Buna görə də oğul can, mənim vəsiyyət və tapşırığımı yaxşı anla. Bil ki, ölümün sahibi həyatın da sahibidir, yaradan öldürəndir, yox edən, qaytarandır (bəla və çətinliklərə) düçar edən nicat verəndir. (Xülasə, işlərdə şəriksiz Allahdan başqa təsiredici yoxdur.) Dünya ancaq Allahın nemətlər, imtahanlar, axirət cəzası və bizim bilmədiyimiz şeylərdən istədiyini müəyyən etdiyi şey üzərində dayanıb. Buna görə də işlərdən hansısa sənə çətin gələndə, (onun hikmət və məsləhətə əsaslanmamasını sanma) onu sənin ondan xəbərsizliyin və nadanlığın hesab et. Çünki sən yaradılışının əvvəlində nadan idin, sonra bilik sahibi oldun. Sənin (hikmət və məsləhətini) bilmədiyin, düşüncənin barəsində sərgərdan qaldığı, görmənin azdığı və sonra görüb dərk etdiyin şeylər çoxdur. Buna görə də yaradan, ruzi verən və gözəl əndamını xəlq edəndən (Onun rəhmət ipindən) yapış. İbadət və bəndəliyin Ona olsun, Ona üz tut və qorxun Ondan olsun. Oğulcan, bil ki, Allah barəsində Peyğəmbər (səlləllahu əleyhi və alih) kimi heç kəs xəbər verməyib. Belə isə onu öz (səadət və xoşbəxtlik) bayraqdarın hesab et və (əzab və çətinliklərdən) nicat və qurtuluş rəhbərin bil. Mən (bu barədə) sənə öyüd-nəsihət verməkdə heç nəyi əsirgəmədim. Sən özün üçün (öz xeyrin üçün) fikir və düşüncələrində hər nə qədər səy və tələş etsən də, heç vaxt mənim sənin üçün olan fikir və düşüncələrim həddinə çata bilməzsən. Oğulcan, bil ki, əgər Rəbbinin şəriki olsaydı, sənin (hidayət edilməyin) üçün onun da peyğəmbərləri gələr, onun səltənət və hökmdarlıq nişanələrini görər, iş və sifətlərini tanıyardın. Amma Allah, Özünü vəsf etdiyi kimi təkdir. (Qur'ani-Kərimin Kəhf surəsinin 110-cu ayəsində buyurur ki: «أَنَّمَا إِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ» «Sizin tanrınız yalnız tək olan Allahdır».) Səltənətində heç kəs Ona qarşı çıxmır. O heç vaxt zavala uğramır və həmişə olub (əbədi və əzəlidir). O hər şeydən əvvəldir, amma (say mənasında olan) əvvəl olmaq və birinciliksiz. Həmçinin hər şeydən axırdır, sonluqsuz! O, rübubiyyətinin qəlb və ya gözün əhatə etməsi nəticəsində isbat

edilməsindən böyükdür. Buna görə də Onun sifətlərini (deyilən kimi) dərk etdikdən sonra, itaət və bəndəlik axtarışında, əzab və cəzasından qorxmaqda və qəzəbindən (rəhmətindən uzaqlaşmaqdan) çəkinməkdə qədir-qiyməti kiçik, qüdrəti az, acizliyi çox və Rəbbinə ehtiyacı böyük olan sənin kimisinə necə davranmaq layiqdirsə, elə hərəkət et. Çünki O, sənə yaxşılıqdan başqa bir şey əmr etməyib və səni çirkin işlərdən başqa bir şeydən çəkindirməyib. Oğulcan, səni dünya, onun necəliyi, aradan getməsi və əldən-ələ keçməsindən xəbərdar etdim. Sənə axirətdən və həmin diyarda onun əhli üçün hazırlanmış şeylərdən xəbər verdim. Dünya və axirət işləri barəsində sənin üçün misallar da çəkdim ki, onlardan ibrət götürərək ardınca gedəsən! Dünyanı sınaqdan keçirib tanıyan kimsə (arzu və istəklərinə) uyğun olmayan qəhətlik və dar yerdən, su və yeməyi bol və yaşıllıqları (geniş) olan yerə səfər edən müsafirlər dəstəsi kimidir. Onlar öz diyar və yerlərinin gen-bolluğuna çatmaq üçün yolun əziyyətləri, dostların uzaqlığı, səfərin çətinlikləri və yeməklərinin pisliyinə dözərlər. Beləliklə, həmin çətinliklərdən əziyyət və ağrı-acı hiss etməzlər. (Öz) yığdıqlarının həmin yolda xərcləməsində bir ziyan görməzlər. Onlar üçün onları mənzil və yerlərinə yaxınlaşdıran şeydən sevimli bir şey yoxdur. Dünyaya aldanan (və axirətə göz yuman) şəxs isə yeyib-içməyi bol, naz-neməti çox və (arzu-istəklərinə) müvafiq mənzildə olan və sonra ordan qəhətlik və darısqal yerə gələn dəstə kimidir. Gözlənilmədən yeni yerə çatan və ona doğru hərəkət edən zaman onlar üçün (əvvəl) olduqları yerdən ayrılmaqdan acı və ağır şey yoxdur! Oğulcan, özünü sənlə başqası arasında olan şeydə tərəzi et. Beləliklə, özün üçün bəyəndiyin şeyi başqası üçün də bəyən. Özün üçün istəmədiyin şeyi, başqası üçün də istəmə. Necə ki, sənə zülm edilməsini istəmirsən, sən də zülm etmə. Sənə yaxşılıq edilməsini istədiyin kimi, sən də yaxşılıq et. Başqalarında çirkin saydığın şeyi, özündə də çirkin say. Sən özün başqaları barəsində məmnun və razı olub rəva bildiyin şeyi, başqalarının da sənə rəva bilmələrindən razı ol. Bildiyin az olsa da bilmədiyin şeyi demə. Sənə deyilməsini istəmədiyin şeyi (sən də başqalarına) demə. Bil ki, məğrurluq və özünü bəyənmək xoşagəlməz və haqqa zidd bir xüsusiyyətdir və ağıla ziyan gətirər. Beləliklə, öz yaşayış və dolanışığını təmin etmək üçün çalış. Başqaları üçün xəzinədarlıq etmə. (Hərisliklə mal və sərvət yığaraq onu başqaları üçün saxlama.) Öz doğru yoluna çatanda (haqq yolu tapanda) isə, Rəbbin müqabilində ən təvazökar və itaətcil halda ol. Bil ki, qarşında uzaq məsafəli uzun və çox qorxulu bir yol var. Sən orada yaxşılıq axtarışına

və yükünün (ağır günah və itaətsizliklərdən) yüngül olması ilə birgə səni məqsədə çatdıracaq miqdarda azuqə götürməyə də möhtacsan. Buna görə də arxana taqət və bacarığından artıq yük götürmə ki, ağırlığı səni incidər (və yolda qalaraq başqalarına çata bilməzsən). Sənin azuqəni qiyamət gününə aparacaq və sabah, sən möhtac olduğun zaman onu sənə qaytaracaq möhtac və imkansız bir adam tapsan qənimət bil və azuqəni ona yüklə. Nə qədər ki, imkanın var, ona çox kömək et. Çünki ola bilər ki, (ehtiyac günü) onu axtarasan və tapmayasan. Sənin ehtiyacın olmayan zaman səndən borc istəyəni qənimət bil ki, möhtac olduğun gündə onu sənə qaytarsın. Bil ki, sənin qarşında çox təhlükəli və çətin bir keçid var. Orada yükü yüngül olan yükü ağır olandan xoşhaldır və ağır tərpənən sürətlə gedəndən pis və aciz vəziyyətdədir. Həmin yolda, sənin enəcək yerin, mütləq ya cənnətdir, ya da od. Buna görə də (həmin diyara) çatmamışdan özün üçün qabaqcadan hazırlıq görən göndər (ki, sənin üçün asayiş və rahatlıq yeri əldə etsin). Getməmişdən qabaq mənzil hazırla ki, ölümündən sonra razı salmaq vasitələri yoxdur və heç kəs dünyaya qayıtmır. (Orada yaxşı iş görmək mümkün deyil ki, günahdan keçsinlər, həmçinin dünyaya qayıtmaq olmur ki, pis işlərə görə tövbə edilsin.) Bil ki, göylər və yerin xəzinələri (qüdrətli və bacarıqlı) əllərində olan Allah sənə dua etmək və istəmək icazəsi verib və (onların) qəbul edilməsinə zəmanət verib. Sənə (istədiyini) vermək üçün istəməyini, mehribanlıq etməsi üçün rəhmət və mehribanlıq diləməyini əmr edib. Sənin lə Özü arasında Onu səndən ayıracaq bir kimsə qoymayıb. Səni Onun yanına şəfaətçi və vasitəçi aparmağa məcbur etməyib. Pis iş görəndə tövbə etməyinə mane olmayıb, (günahına görə) cəza verməyə tələsməyib. Rüsvay edilməyə layiq olduğun yerdə rüsvay etməyib səni. Tövbənin qəbul edilməsində səni əziyyətə salmayıb. Günahlara görə səni sıxıntıya salmayıb və rəhmətindən naümid etməyib. Hətta sənin özünü günahdan saxlamağını yaxşı iş (görmək) kimi dəyərləndirib. Sənin günah və pis işini bir günah, yaxşı və gözəl işini isə on bərabər hesab edib. Sənin üçün tövbə, peşman olaraq qayıtmaq və razı salmaq qapısı açıb. Beləliklə, nə vaxt çağırsan, səsini eşidər, nə vaxt Onunla münacat və razü-niyaz etsən, qəlbinin sirrini bilər. Belə isə, istəyini Ona çatdırarsan, ürəyinin sirrini Onun yanında açarsan və dərd-qəmindən Ona şikayət edər, Onunla dərdləşərsən. Ondan istəyərsən çətinliklərinin çarəsini və kömək və yardım diləyərsən Ondan. Ömür uzunluğu, can sağlığı və ruzi bolluğu kimi başqalarının verə bilmədikləri şeyləri, Onun rəhmət xəzinələrindən istəyərsən. Sənə Ondan

istəmək icazəsi verməklə, xəzinələrinin açarlarını sənin əllərinə verib. Beləliklə, istədiyin zaman dua vasitəsi ilə nemətlərinin qapılarını açar, bir-birinin ardınca rəhmət yağışlarının gəlməsini istəyərsən. Allahın sənə gec cavab verərək (dualarını) gec qəbul etməsi naümid etməməlidir səni. Çünki bəxşiş niyyət miqdarında olur. (Duanın qəbul olunması niyyətin saflığı və daimiliyndən asılıdır.) Ola bilər, sənin duanın qəbul edilməsi (ona görə) təxirə düşsün ki, istəyənin mükafatı daha böyük, ümidvar olanın bəxşişi daha çox olsun. (Çünki duanın qəbul olunması nə qədər geciksə, istək daha da artar və daha yaxşı razü-niyaz edilər. Nəticədə həmin şəxs bəxşiş edilməyə daha çox layiq olar.) Çox şey var ki, (Allah-təaladan) istəyərsən və o sənə verilməz. Amma dünyada və axirətdə sənə ondan daha yaxşısı verilər. Yaxud da duan sənin üçün daha yaxşı olan şeyə görə qəbul edilməz. Çox vaxt da elə şey istəyirsən ki, o sənə veriləcəyi təqdirdə dinin məhv olar. Buna görə də gərək gözəlliyi sənə qalan, günah və əzabı isə səndən uzaq olan şeyi istəyəsən. (Xülasə, əbədi səadət və xoşbəxtliyə səbəb olan şeyi istə. İstəklərin çoxu dünya malı və sərvət barəsində olduğu üçün İmam əleyhis-salam onu məzəmmət edərək belə buyurur:) Mal sənə qalmır. Sən də ona qalmayacaqsan. (Axirətdə səninlə birgə olmayacaq ki, sənə xeyir versin və sən də həmişə dünyada qalıb ondan bəhrələnməyəcəksən.) Bil ki, sən dünya üçün deyil, axirət üçün, qalmaq üçün deyil, yox olmaq üçün və yaşamaq üçün deyil, ölmək üçün yaradılmısan. Sən köç edilən yerdə, müvəqqəti diyarda və axirətə gedən yoldasan. (Buna görə də belə bir yerə ürək bağlamaq rəva deyil.) Sən əlindən qaçanın qurtula bilmədiyi və axtaranın əldən çıxarmadığı ölüm üçün bir ovsan və ölüm onu mütləq haqlayacaqdır. Belə isə ölümün səni özünə «ondan tövbə edərəm» deyib etdiyin günah zamanı haqlayaraq səninlə (həmin tövbə etmək barəsindəki) fikrin arasında ayrılıq salmasından qorx və çəkin. (Əgər belə olsa) həmin vəziyyətdə sən özünü məhv etmisən. (Çünki ağıldan uzaq belə bir fikirlə günah edib onun cəzasına düçar olmusan.) Oğulcan, ölümü və qəflətən düşəcəyin ölümdən sonrakı hadisələri çox yada sal ki, o sənin yanına gələnə kimi özünü hazırlayıb (silahını taxaraq) kəmərini bağlamış olasan. Məbadə ölüm səni qəflətən haqlasın və (sən ona hazır olmadığın üçün) qalib gəlsin sənə! Dünya əhlinin dünyaya ürək bağlamaları, güvənmələri, hərislikləri və onun üstündə bir-birləri ilə düşmənçilik etmələrinin səni aldatmasından qorx. Çünki Allah səni ondan xəbərdar edib. Dünya özü də özünü sənin üçün vəsf edib və pisliklərini açıb göstərib. (Onun başqaları ilə rəftarını görürsən.)

Dünyapərəstlər hürən itlər və ov axtaran yırtıcılardır (həmin heyvanlar kimidirlər). Onların bəzilərinin bəzilərindən xoşu gəlmir və bir-birlərinin üstünə qışqırır, güclüsü zəifini yeyir. Onların böyüyü zor gücünə kiçiyinə ziyan vurur. Onlar (bəzisinin) ayaqları bağlanmış dördayaqlılardır (dördayaqlılar kimidirlər). Digər qismi isə (başlı-başına) buraxılmış heyvanlardırlar ki, ağıllarını itiriblər və azğınlığa düşmüşlər. Onlar quru və sərt çöldə zərər-ziyan otlamaq üçün buraxılmış dördayaqlılardır! Onların nə qoruyacaq çobanları, nə də otaranları var! Dünya onları korluq və azğınlıq yoluna aparır və gözlərini hidayət və nicat nişanələrini görməkdən örtüb. Beləliklə, onlar onun azğınlığında sərgərdandırlar və onun naz-nemətləri içərisində qərq olublar. (Ona vurğunluq və ürək bağlamaq nəticəsində) onu öz rəbbləri ediblər. Bu cür, dünya onlarla oynayır (ağıllarını oğurlayır) və onlar da dünya ilə oynayırlar (başlarını ona qatıblar). Ondan sonra gələcək (ölüm, çətinliklər və qiyamət günü kimi) şeyləri unudublar!! Bir az döz və möhlət ver ki, qaranlıq açılsın. Deyəsən, kəcavələr çatdı (səfərdə olanlar gəldilər)! Tələsənin birləşəcəyi vaxt yaxındır. (Dünyaya könül verənlər tezliklə, hələ əbədi yerinə çatıb düşərgə salmamış qabaqkı karvana çatacaq və əməllərinin cəzasını alacaqlar.) Oğulcan, bil ki, mindiyi dəvə gecə-gündüz yol gedən kimsə özü yol getməsə də, miniyi onu aparar. İstirahət və dincəlməkdə olsa da yolu qət edər. Yəqin bil və inan ki, heç vaxt öz arzuna çatmayacaq və heç vaxt öz ölümündən qurtula bilməyəcəksən. Sən səndən əvvəlkilərin yolundasan. Belə isə (ölümə heç bir çarə olmadığı üçün mal və sərvətə görə) çalışmaqda yüngül keçin və dərinə getmə. Qazanılan şeydə səy və tələşını gözəlləşdir (həris olma ki, onun axırı həlak və məhv olmaqdır). Çünki çox çalışmaqlar var ki, malın əldən çıxmasına səbəb olur. Hər çalışan tapmaz və hər ortayollu ümidsiz və məhrum olmaz. Nəfsin səni saysız nemətlərə çatdırsa da, onu bütün alçaqlıq və rəzilliklərdən üstün tut, əzizlə. Çünki nəfsindən sərf etdiyin şeyin müqabilində, onu əvəz edəcək bir şey tapa bilməyəcəksən. Başqasına qul olma (mal və məqam tamahı ilə heç kəsə baş əymə). Allah səni azad yaradıb. Pisliklə (başqasının yanında abır tökməklə) qazanılan xeyrin (mal və məqamın) harası xeyirdir?! Çətinliklə əldə edilən asanlığın nə xeyri var?! Tamah və hərislik dəvələrinin səni sürətlə həlak suyunun başına aparmasından çəkin. (Dünya və onun mallarına tamah və hərislik nəticəsində haram işlər görmə ki, əgər etsən ilahi əzaba düçar olacaqsan.) Əgər sənlə Allah arasında başqa nemət sahibinin olmamasına bacarığın çatsa, et bunu! (Başqalarının yanında abrını tökmə.) Çünki sən

(dünya süfrəsindən) öz payını tapacaq, (sənə çatmalı olan) hissəni əldə edəcəksən! Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahdan çatan az, Onun yaratdıqlarından gələn çoxdan daha üstün və əzizdir, hərçənd ki, hər şey Ondandır. Susmağının nəticəsində əldən çıxan şeyi əldə etmək danışmağın nəticəsində əldən çıxan şeyi geri qaytarmaqdan daha asandır. Qabda olan şeyin qorunması onun qapağının bərk bağlanmasından asılıdır. Mənə sənin öz əlində olanı qoruyub saxlamağın başqasının əlində olanı istəməyindən daha xoşdur. (Mal və sərvətə malik olmaq insanı başqasına möhtac edən israfdan daha yaxşıdır.) Ümidsizliyin (yoxsulluğun) acısı başqalarına əl açmaqdan daha yaxşıdır. İffətli və ismətli iş, günah və xəta ilə olan varlılıqdan daha xeyirlidir. İnsan öz sirrini daha yaxşı qoruyur. (Çünki onun sirri gizlin saxlamaq üçün olan səyi başqalarından daha çoxdur.) Çox çalışanlar var ki, çalışdıqları şey onlara ziyan gətirir. Çox danışan hərzəçi olar. (Öz dünya və axirət işləri barəsində) düşünən bəsirətə çatar. Yaxşı işlər görənlərə qoşul ki, onlardan olasan. Pislərdən ayrıl ki, onlardan olmayasan. Haram nə qədər də pis yeməkdir! Zülmün ən pisi zəif və acizə zülm etməkdir. Yumşaqlıq və mehribanlığın sərtlik və kobudluq sayıldığı yerdə sərtlik və kobudluq yumşaqlıq və mehribanlıqdır. (Yumşaqlıq fayda verməyən yerdə sərtlik bəyənilir və ağlın bir iş görə bilmədiyi yerdə dəlilik lazımdır.) Çox vaxt dərman dərd, dərd isə dərman olar. (Bəzən birinə yoxsulluq və xəstəlik məsləhət və xeyir olur, varlılıq və sağlamlıq yox.) Çox vaxt öyüd verməsi gözlənilməyən kəs öyüd verər, öyüd verməsi istənilən kimsə isə xəyanət edər. (Çox vaxt ağıllı və uzaqgörən və ya nadan düşmən sənin xeyir-ziyanın barədə sənə öyüd verər, dostun isə xəyanət edərək sənə yaxşı yol göstərməz.) Arzulara güvənmək və dalmaqdan çəkin. Çünki arzu axmaqların və ağlı az olanların sərmayəsidir. Ağıl təcrübələri yadda saxlamaq, qorumaqdır. (Ağıllı adam təcrübələri əldən verməz. Ağılsız isə onları tez yaddan çıxardar.) Etdiyin ən yaxşı təcrübə sənə öyüd verən təcrübədir. Fürsət olan zaman o, qəmə çevrilməmişdən tələs. Hər axtaran (axtardığını) tapmaz və həmçinin hər səfərə gedən geri dönməz. (Dünyaya ürək bağlama. Fürsəti əldən vermə və axirət üçün azuqə götür. Çünki fürsət həmişə ələ düşmür və ölüm səfərinə gedən geri dönmür.) Ziyanlardan biri də azuqəni (təqva və pərhizkarlığı) əldən vermək (yaxud var-dövləti şəhvət və nəfsi istəklərə sərf etmək) və axirəti bərbad etməkdir. Hər bir işin bir sonu var. (Ağıllı o adamdır ki, işin sonunu fikirləşir.) Sənin üçün nə təqdir edilibsə, tezliklə sənə çatacaq. (Bu qədər əziyyət çəkmə və öz din və dünyanı

bərbad etmə. Mal və sərvət əldə etmək üçün dəniz və çöllükləri qət edən) tacir özünü məhvə və təhlükəyə atır. Nə çox elə az (mal) ki, bərəkəti çoxdan (çox maldan) daha artıqdır. (İsmətli peşə sahibinin əldə etdiyi şeyin xeyir-bərəkəti həm dünyada, həm də axirətdə günahkar varlının sərvətindən daha üstündür.) Alçaq və xar köməkçidə və (nifaq və ikiüzlülükdə) günahlandırılan dostda xeyir yoxdur. (Çünki həmin köməkçinin imkanı olsaydı özünü zillət və xarlıqdan qurtarardı. İkiüzlü dost da ona görə ki, həmin şəxsə inam yoxdur. Çünki o öz xeyrini güdər və dosta ziyan dəyməsi barəsində fikirləşməz, qayğılanmaz.) Nə qədər ki, zəmanənin cavan dəvəsi sənə ram olub, onunla asan və yüngül davran. Özünü bir şeyin çoxuna göz dikib təhlükəyə atma. (Mal və sərvətini çoxaltmaq üçün hərislik göstərmə ki, çətinliklərə düçar olarsan.) Mindiyin dəvənin itaətsizlik etməsindən çəkin! (İnadkarlıq və düşmənçilikdən çəkin. Yoxsa səni işlərdə elə çətinliklərə düçar edər ki, onlardan yaxa qurtara bilməzsən.) Özünü qardaşın (dindaş və dostun) səndən ayrılanda ona yaxınlaşmağa, üz döndərəndə mehribanlıq və dostluğa, simiclik edərək əsirgəyəndə ona bəxşiş etməyə, uzaqlaşanda ona yaxınlıq etməyə, sərtlik edəndə ona qarşı yumşaq olmağa və o, pis iş görəndə üzr istəməyə vadar et. (Qısası, onun pislikləri müqabilində yaxşılıq et.) Sanki sən onun qulu, o isə sənin nemət verənindir (kimi et bunları). Deyilənləri öz yerindən başqa yerlərdə işlətməkdən (münafiqlə bu cür davranmaqdan) və ya onları ləyaqətsiz (alçaq) adamlarla münasibətdə etməkdən çəkin. (Çünki münafiq və ləyaqətsiz adama yaxşılıq etmək şoranlığa toxum səpməkdir.) Dostunun düşməni ilə dostluq etmə. Əgər belə etsən öz dostunla düşmənçilik etmiş olarsan. Öz qardaşına (dindaş və dostuna) saf (niyyətlə) öyüd ver (ona öyüd verərkən Allahın razılığını əldə etməkdən başqa heç bir qəsdin olmasın), istər (onun sənin öyüdünə münasibəti) yaxşı olsun, istərsə də pis. Qəzəbini qurtum-qurtum ud (özünü cilovla). Çünki mən sonda ondan şirin və dadlı bir içki görmədim. Sənə qarşı qəzəbli və kobud olanla yumşaq davran. Çünki (sənin yumşaqlığın onu utandırar və) tezliklə o sənə qarşı yumşalar. (Müqabil tərəf başa düşən adam olanda belə etmək lazımdır. Başa düşən adam olmasa isə onun qəzəbi müqabilində sərtlik etmək lazımdır.) Düşməninlə yaxşı və xoş davran. Bu, iki qələbədən (intiqam alaraq onu cəzasına çatdırmaqdan və ya güzəşt edərək ona yaxşılıq etməyin birindən) daha şirindir. Qardaşınla (dindaş və dostunla) münasibətlərini kəsmək istəyəndə dostluğunun yerinin bir azını saxla ki, həmin dost nə vaxtsa o dostluq yeri ilə qarşılaşsa ora qayıda bilsin. Sənin

haqqında yaxşı və xoş fikirdə olanın zənnini doğrult. (O səni yaxşı bildiyi və səndən yaxşılıq umduğu üçün xeyir və yaxşı işləri tərk etmək rəva deyil.) Aranızdakı dostluğa güvənib arxalanaraq qardaşının haqqını pozma. Haqqını pozduğun kimsə qardaşın deyil. Ailən və qohumların sənə nisbətdə camaatın ən bədbəxti olmamalıdırlar. (Yaxınların bəxşiş və yaxşılıq edilmək baxımından başqalarından daha üstündürlər. Necə deyərlər: «Evə gərək olan çıraq məscidə yaraşmaz».) Səndən uzaq gəzənlə heç vaxt tanışlıq etmə. (Çünki istəməyən adamla tanış olmaq insanın həqir və xar olmasına və özünə zülm etməsinə səbəb olur.) Gərək qardaşının (dindaş və dostunun) səndən ayrılmaq bacarığı sənin onunla birləşməyindən və (həmçinin) onun pislik etməsi sənin yaxşılıqlarından üstün olmasın. (Xülasə, o nə qədər ayrılmağa şərait yaratsa da, sən birləşməyə səbəb olan şeyləri önə çək.) Sənə zülm edənin zülmü gözündə böyüməsin. Çünki o öz ziyanına (zalımlar üçün müəyyən edilmiş cəzaya) və sənin xeyrinə (sənin zülm və sitəmə səbr etməyə vəd edilmiş mükafata nail olmağına) çalışır. Səni sevindirənin mükafatı sənin onu qəmləndirməyin deyil! Oğulcan, bil ki, ruzi iki qisimdir: bir ruzini sən axtarırsan, bir ruzi isə səni axtarır və sən ona tərəf getməsən belə sənə çatar. Ehtiyac və yoxsulluq zamanı özünü alçaltmaq, varlı ikən isə zülm və kobudluq etmək necə də çirkin xasiyyətdir! Sənin dünyandan qazancın yalnız öz yerini (əbədi axirətini) abadlaşdırmağa sərf etdiyin miqdardır. (Bundan başqa sərf etdiyin və ya özündən sonra qoyub getdiyin şeylərin sənə xeyri olmayacaq və onlar əlindən yapışmayacaqlar.) Əgər əlindən çıxan şey üçün ah-zar edib inildəyirsənsə, onda sənə çatmayan şeylərə görə də ağlayaraq nalə qopar. Artıq baş vermiş şeylərə əsaslanıb, olmayanlara dəlil gətir. (Gördüyün şeylərə baxıb görmədiyin şeyləri dərk et ki, gözüaçıq və işbilənlərdən olasan.) Çünki işlər (dünyanın işləri) bir-birinə bənzəyir. İncidilərək əziyyət verilməyincə öyüddən faydalanmayanlardan olma. Çünki ağıllı adam ədəb vermək və öyrətməklə öyüdlənər, heyvanlar isə kötək yeməyincə tabe olmazlar. Sənə üz tutan qəm-qüssələri təmkinli düşüncələr və (Allah-təalaya olan) gözəl inamla özündən uzaqlaşdır. (Allahın istəyinə tabe ol ki, sənin səadət və xoşbəxtliyin ondadır.) Kim düz və orta yolu tərk etsə, haqdan uzaqlaşıb və özünə zülm edib. Dost qohum yerindədir. (Qohumun barəsində riayət etdiyin şeyləri onun barəsində də etməlisən.) Dost o kəsdir ki, gizlində də düz olsun. (Dostunun hüzurunda etdiklərini o olmayanda da həmin cür etsin. Belə olmasa münafiq və ikiüzlüdür və öz xeyrinə görə özünü dost kimi göstərir.) Nəfsi istəklər korluğa bərabərdir. (Kor bir şey görmədiyi

kimi nəfsi istəklər əsiri də qəlbi kor olduğu üçün yaxşı ilə pisi və öz xeyri ilə ziyanını bir-birindən ayıra bilmir.) Çox uzaq var ki, yaxından da yaxındır və çox yaxın var ki, uzaqdan da uzaqdır. (Çox vaxt yad insana xeyir verər, qohum isə ziyan vurar.) Qərib o adamdır ki, dostu yoxdur (hətta öz vətənində olsa belə). Haqqı (düz söz və əməli) aşanın yolu daralar. Öz qədir və məqamına uyğun (hərəkət edən) adamın qədri həmişəlik qalar. Əldə edərək yapışmalı olduğun ən möhkəm səbəb və ip sənin lə Allah arasında olan səbəbdir. (Allahın ipindən yapışan kəs heç kəsə möhtac olmaz.) Sənin barəndə laqeyd olan (xeyrinlə ziyanını bir hesab edən) kəs sənin düşmənindir. Bəzən tamah və hərislik (insanı) həlakətə sürükləyəndə ümidsizlik əldə etmək olar. (Çox vaxt insan zərər və bədbəxtçiliyinə səbəb olan şeyə tamah salır və həmin şeydən ümidsizləşmək onu əldə etmək kimidir.) Hər yırtıq (çirkinlik) açılmaz (açaraq üzə çıxarmağın yaxşı deyil). Hər fürsət ələ düşməz. (Elə isə onu qənimət bil və əldən vermə.) Çox vaxt görən (ağıllı) adam öz düz yolunda səhvə düşür və kor (nadan ağılsız) nicat yolunu tapır. Pisliyi təxirə sal, gecikdir. Çünki istədiyin vaxt ona tərəf tələsə bilərsən. Nadanla əlaqələri kəsmək, ondan ayrılmaq ağıllı ilə münasibət qurmağa bərabərdir. Kim zəmanədən əmin olsa, zəmanə ona xəyanət edər. Kim onu böyük sansa, onu zəlil və xar edər. Hər ox atanın oxu hədəfə çatmaz. Hökmdar (onun düşüncə və rəftarı) dəyişəndə zəmanə (vəziyyət) də dəyişər. Yoldan qabaq yol yoldaşını, evdən qabaq isə qonşunu soruş. Başqasından nəql etsən belə, gülünc söz danışmaqdan çəkin. (Çünki o, insanın başqaları yanında kiçilməsinə səbəb olur.) Qadınlarla məsləhətləşməkdən çəkin. Çünki onların nəzər və düşüncələri zəifliyə, qərarları isə süstlüyə doğru gedir. Hicab və örtüklə (ora-bura) baxmalarının qarşısını al. (Çölə çıxıb gözlərinin camaata sataşmasına icazə vermə.) Çünki hicabın möhkəmliyi (hicab örtmək və onunla zinətlənmək) onları daha yaxşı qoruyur. (Hər nə qədər hicabda olsalar, pozğunçuluqdan qorunmuş olarlar.) Onların çölə çıxmaları sənin onların yanına (kişi və qadınlığından asılı olmayaraq) inanılmayan və etibar edilməyən adamlar gətirməyindən pis deyil. Əgər bacarsan, elə et ki, səndən başqasını tanımasın. Qadını ona aid olmayan işə hakim etmə. Çünki qadın iş buyruqçusu deyil, ətirli bir güldür (gül kimidir. Buna görə də onu işləri yerinə yetirməkdən saxla). Onu əzizləyəndə ona aid olan şeylərdən kənara çıxma. Onu tamaha salma ki, başqası üçün şəfaət etsin, vasitəçilik etsin. Qısqanclıq edilməməli yerdə qısqanclıq etmək və pis gümana düşməkdən çəkin. (İffətli qadın barəsində pis gümana düşüb heç nədən özündən çıxma.)

Çünki bu iş, düz qadını əyriliyə və (nalayiq işlərdən uzaqlıq zinəti ilə) bəzənmiş qadını tərəddüdə və (o barədə) fikirləşməyə vadar edər. Əlin altında olanların və işçilərinin hər biri üçün bir iş müəyyənləşdir ki, (yerinə yetirməsə) həmin işə görə ondan yapışaraq sorğu-suala tuta biləsən. Çünki bu üsul onların sənin işlərini bir-birinin boynuna ata bilməmələri üçün daha münasibdir. Qohumlarına hörmət et, əzizlə onları. Çünki onlar sənin qol-qanadındırlar ki, onlarla uçursan; əsil-köküdürlər ki, onlara qayıdırsan (onlardan kömək və yardım alırsan və başucalığın onlarladır); sənin (yardımçı) əlindirlər ki, onlarla (düşmənə) hücum edirsən (qələbə qazanırsan). Sənin din və dünyanı Allah yanında əmanət qoyuram (ki, qorusun və qarşıya çıxacaq hər bir pis hadisədən saxlasın). Ondan sənin üçün indi və gələcəkdə, dünya və axirətdə ən gözəl təqdir və istəyini diləyirəm. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır (ki, onda onun xalqı düz yoldan azdırmasını xatırladıb və Allahdan qorxmaq və çəkinmək barəsində öyüd-nəsihət verib). İnsanların çoxunu həlak etdin: onları öz azğınlığınla aldatdın, öz (nifaq və ikiüzlülük) dənizinin dalğalarına atdın. Zülmətlər (azğınlıqlar) onları əhatə edib və şübhələr (əyriliklər) onların ətrafında ləpələnir. Beləliklə, öz doğru yollarından uzaqlaşdılar (haqdan sonra batilə tərəf getdilər). Keçmişlərinə qayıtdılar (dal-dala getdilər) və arxa çevirdilər. (Batil yoldan haqq yola) qayıtmış gözüaçıqları (ağıllıları) istisna olmaqla, (qalanları) əsl-köklərinə (sülalələrinin ad-sanına) arxalandılar (öyündülər). Bu cür onlar səni tanıyandan (sənin haqqa zidd addım ataraq xalqı aldatmağını biləndən) sonra səndən ayrıldılar. Onları çətinliklərə doğru çəkəndə (batilə sövq edəndə) və doğru yoldan qaytaranda (azdıranda), sənə kömək etməkdən Allahın yardımına qaçdılar. Belə isə, ey Müaviyə, özün (əzab və cəzaya düçar olmağın) barəsində Allahdan qorx və cilovunu Şeytanın əlindən çək (onunla əlaqələrini bir-birinə vur və nəfsinin ona tabe olmasının qarşısını al). Çünki dünya səndən ayrılacaq və axirət sənə yaxındır. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın onun tərəfindən (xilafətinin bütün müddəti ərzində) Məkkənin hakimi olan Qusəm ibn Abbasa (ibn Ədül Müttəlibə) məktublarındandır. Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: mənim qərbdəki (qərb şəhərlərindən olan Şamdakı) kəşfiyatçım məktub yazaraq məni Şam əhalisindən bir dəstənin həccə göndərilməsindən xəbərdar edib. Onların qəlbləri kor, qulaqları kar və gözləri anadangəlmə kordur. Onlar haqqı batildə (batil yolda) axtarırlar. (Belə güman edirlər ki, Müaviyəyə tabe olmaqla haqq dinə qovuşacaqlar.) Yaradılmışa tabe olub yaradana günah və Allaha itaətsizlik edirlər. (Müaviyəyə və onun tərəfdarının göstərişlərinə tabe olurlar və bu, Allahın hökmlərinə ziddir.) Din bəhanəsi ilə dünyanın südünü sağırlar. (Dünya malı əldə etmək üçün din və başqalarını pis işlərdən çəkindirmək adı ilə bir yerə toplaşaraq öz zəmanələrinin imamına qarşı çıxırlar.) Yaxşı əməl sahibləri və təqvalıların axirətlərinin əvəzinə mövcud dünyanı alırlar. (Əbədi xoşbəxtlik və Cənnətin yerinə Cəhənnəm alovu və ilahi əzabı götürürlər.) Yaxşı əməl sahibindən başqa heç kəs xeyir və yaxşılığa nail olmaz. Pis əməl sahibindən başqa heç kəs pis cəza görməz. Buna görə də çalışqan, ehtiyatlı və öz imam və rəhbərinə tabe olan ağıllı nəsihətçi kimi əlində olan şeydə (Məkkə hökuməti və onun nizam-intizam və sakitliyinin qorunmasında) möhkəm dur və müqavimət göstər. Məbada üzrxahlığa səbəb olacaq bir iş görəsən. Nemət firavanlığı zamanında çox şad olma (ki, bu, kibr və itaətsizliyə səbəb olur). Həmçinin çətinliklər zamanı qorxma və özünü itirmə (ki, bunlar məğlubiyyətə və cəsurluğun əldən çıxmasına gətirib çıxarır). Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Məhəmməd ibn Əbu Bəkrə məktublarındandır. Məhəmməd ibn Əbu Bəkrin Misir hökumətindən kənarlaşdırılaraq yerinə (Malik) Əştərin təyin edilməsi xəbərini eşidəndə qəmlənməsi o Həzrətə çatanda İmam bu məktubu yazıb. Əştər Misirə çatmamış yolda vəfat edib. (O, yolda öldürülüb. Onun başına gələnlər əlli üçüncü məktubun şərhində deyiləcək. İmam əleyhis-salam bu məktubda Malik Əştərin onun yerinə təyin edilməsinin məsləhət olmasının səbəbini açıqlayıb.) Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Əştəri sənin yerinə təyin etməyimdən narahat olmağın xəbəri mənə çatdı. Mən bunu sənin səy və tələş göstərməkdə ağır tərpənməyin və sənin çalışqanlığını artırmaq üçün etməmişəm. (Çünki sən əlindən gələni etmisən. Amma Əştərin bacardığı işləri sən bacarmazsan.) Sənin əlində olan şeyi (Misir hökumətini) ixtiyarından çıxartsam da, səni elə şeyə (şəhər və ya işə) təyin edəcəyəm ki, onun ağırlıq və əziyyəti az, hakimliyi isə sənə daha xoş olsun. Misirə vali təyin etdiyim şəxs (Malik, sənin kimi) bizim xeyrimizi düşünən və düşmənimizə qarşı cəsur və bacarıqlı bir adam idi (ki, sən belə deyilsən). Allah rəhmət eləsin ona və günahlarını bağışlasın ki, həyatını (səadət və xoşbəxtliklə) sona çatdırdı və ölümlə qarşılaşdı. Biz ondan razıyıq. Allah ona Öz rəhmətindən əta etsin və mükafatını bir neçə qat artıq etsin. Buna görə də (indi ki, Malik öldürüldü və Misirə çatmadı) düşmənə tərəf hərəkət et (şəhərdə qalma ki, düşmən sənə tərəf gəlsin), gözüaçıqlıqla yola düş (müharibə işində və üslubunda ehtiyat və sakitliyi əldən vermə) və sənlə döyüşənlə vuruşmağa tələs (ağır tərpənmə ki, sənə qalib gəlsin). (Onları) Rəbbinin yoluna dəvət et (ki, heç bir bəhanə yeri qalmasın və sənin onlarla müharibənin nəfsi istəklərə görə deyil, Allahın hökmü ilə olmasını bilsinlər). Allahdan çox yardım dilə ki, səni qəm-qüssəyə salan (düçar edən) şeylərdən qorusun və üz vermiş şeylərdə (çətinliklərdə) sənə yardım etsin, əgər Allah (fəth və qələbəni sənin üçün) istəsə!

İmam Əli əleyhis-salamın Məhəmməd ibn Əbu Bəkr Misirdə öldürüləndən sonra Abdullah ibn Abbasa məktublarındandır. (Abdullah ibn Abbas o Həzrət tərəfindən Bəsrənin hakimi idi. İmam əleyhis-salam bu məktubu yazaraq onu Məhəmməd ibn Əbu Bəkrin şəhid edilməsindən və Əmr ibn As və Müaviyənin qoşununun Misiri ələ keçirmələrindən xəbərdar edib.) Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Misir zəbt edildi. (Müaviyənin qoşunu oranı tutdu.) Məhəmməd ibn Əbu Bəkr (Allah ona rəhmət etsin) şəhid edildi. Allahdan onun əvəz və əcrini istəyirəm. O bizim üçün xeyrimizi düşünən və mehriban övlad, zəhmətkeş məmur, iti bir qılınc və qoruyucu sütun idi. Mən xalqı həvəsləndirərək ona tərəf getməyə çağırır, öldürülməmişdən qabaq ona kömək etməyi əmr edirdim. Onları gizlin və aşkar şəkildə (ona kömək etməyə) çağırırdım. (Özü də) bir dəfə yox, dəfələrlə öz çağırışıma əvvəldən başlayırdım. Beləliklə, onların bəziləri nigaran və meylsiz halda gəlirdilər, bəziləri yalandan bəhanə gətirirdilər. Bir dəstə də öz yerində oturaraq etina etmirdi. Allahdan tezliklə məni onlardan nicat verərək xilas etməsini istəyirəm. Allaha and olsun ki, mənim düşmənimlə qarşılaşanda şəhid olmaq (Allah yolunda öldürülmək) arzum olmasaydı və ürəyimi ölümə qızdırmasaydım, heç vaxt bunlarla bir gün belə qalmaq və üz-üzə gəlib qarşılaşmaq istəməzdim. (Çünki bu cür insanlarla düşmənə qalib gəlmək mümkün deyil. Buna görə də naçar qalıb onlarla yaşayıram ki, qələbə qazanmasam da, şəhadət və Allah yolunda öldürülməyə nail olum.)

İmam Əli əleyhis-salamın qardaşı Əqil ibn Əbu Talibə, bəzi düşmənlərə tərəf göndərdiyi qoşun barəsindəki məktublarındandır. Bu, Əqilin o Həzrətə yazdığı məktuba cavabdır. (Düşmənimin qələbə çalması və tərəfdar və şiələrimin mənə kömək etməmələri barəsində yazdıqların düz deyil.) Müsəlmanlardan ibarət böyük bir qoşunu ona (düşmənə) tərəf göndərdim. Bu xəbər ona çatanda, o, qaçmağa tələsdi və peşman halda geri döndü. Mənim qoşunum gün batana yaxın yolda ona çatdı. Sonra bir-birləri ilə «yox-yox» kimi vuruşdular. Beləliklə, boğazı bərk sıxılandan və yarımcan qalandan sonra bir saatdan artıq dayanmadan kədərlə xilas oldu. Deməli, ardıcıl çətinliklərlə qurtuldu. (Deyibsən ki, yaxınlarımı da götürüb sənin yanına tələsim və sağ qalsaq bir yerdə olaq, ölsək də bir yerdə ölək. Bunun cavabında belə deyirəm:) Qureyşi və onların azğınlıqda sürətlə irəliləmələri, düşmənçilikdə cövlan etmələri və sərgərdanlıqdakı itaətsizliklərini burax! (Onlar barəsində bir şey danışma.) Çünki onlar məndən qabaq Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) ilə müharibə etmək üçün müttəfiq olduqları kimi mənimlə döyüşmək və vuruşmağa da birləşiblər. Cəza verənlər mənim yerimə Qureyşi cəzalandırsınlar. (Ümid var ki, onlar zalımların müxtəlif zülm və əzablarına düçar olsunlar.) Çünki onlar mənim (Həzrət Peyğəmbərlə olan) qohumluq tellərimi qırdılar (bu qohumluğa hörmət göstərmədilər) və anamın oğlunun (Peyğəmbərin) hökumətini (xilafətini, mənə qarşı olan kinlərinə görə) məndən oğurladılar. Mənim (düşmənlə) müharibə barəsindəki nəzərimi soruşmusan (və demisən ki, kömək olmadan güclü düşmənlə müharibə aparmaq rəva deyil). Mənim fikrim Allaha qovuşana (Onun yolunda öldürülənə) kimi müharibəni düz sayanlarla (ilahi əhd-peymanı pozaraq Allah və Peyğəmbərin göstərişinə zidd davrananlarla) döyüşməkdir. Ətrafımda xalq kütləsinin çoxluğu mənim izzət və hörmətimi, onların ətrafımdan dağılmaları isə qorxu və vahiməmi çoxaltmır. (İstər kimsə mənə kömək etsin, istərsə də məndən uzaqlaşsın. Bunun heç birinə əhəmiyyət verməyib din düşməni qarşısında dayanaraq Allahın istəyini yerinə yetirəcəyəm.) Belə zənn etmə ki, atanın oğlu (İmam əleyhis-salam) xalq onu tək qoysa (kömək və yardım etməsə, düşmən

müqabilində) xar və zəlil olacaq, süstlük və acizlikdən zora tabe olacaq, (ram edilmiş dəvə kimi) cilovunu onu çəkənin əlinə verəcək və yaxud da minmək istəyənə minmək imkanı verəcək! (Qısası, düşmən qarşısında heç bir çətinlikdən qaçmayacağam.) Lakin (Qüreyş və qohumlar barəsində söz danışmaq, deyilənlərə görə öz məşuqəsinə xitab edən) Bəni-Suleym qardaşın (Bəni-Suleym qəbiləsindən olan Abbas ibn Murdas Selminin) dediyi kimidir ki:

فَإِنْ تَسْأَلِينِى كَيْفَ أَنْتَ؟ فَإِنَّنِى صَبُورٌ عَلي رَيْبِ الزَّمانِ صَلِيبٌ يَعِزُّ عَلَيَّ أَنْ تُري بِي كابَةٌ فَيَشْمَتَ عادٍ أَوْ يُساءَ حَبِيبٌ

«Əgər məndən soruşsan ki, «necəsən?», mən dövranın çətinliklərinə çox səbrli və vüqarlıyam. Mənim üçün məndə, düşməni şad edəcək, dostu isə qəmləndirəcək qəm-qüssənin görünməsi çox ağırdır. (Buna görə də Qüreyşdən söz açmır və onların pis rəftarlarından olan ürək ağrısı və incikliyimi açıqlamıram.)»

İmam Əli əleyhis-salamın Müaviyəyə məktublarındandır (ki, onda Müaviyəni məzəmmət edir və Osmana kömək edilməməsində onu günahlandırır).
Allaha həmd-səna edərək Onu hər bir eyb və nöqsandan pak bilirəm. (Əcəba) sənin haqqı zay etmək və etimad olunan şeyləri–Allahın bəyəndiyi və bəndələrinin dəlili olan həqiqətləri kənara atmaq nəticəsindəki şəhvətpərəstliyin, yeni nəfsi istəklərin və tabe olduğun çaşqınlıqlar nə qədər də çoxdur. Osman və onun qatilləri barəsində çox danışaraq çərənləməyinə (və onu məzlum kimi qələmə verməyinə) gəldikdə (bilməlisən ki): (sənin onun qisasını tələb etməyin yersizdir. Çünki) sən Osmana öz xeyirinə olan zaman kömək etdin. Onun xeyrinə olan zaman isə yardım etmədin. Salama layiq kimsəyə salam olsun.

İmam Əli əleyhis-salamın (Malik) Əştəri Misir əhalisinə vali təyin edəndə onlara yazdığı məktublarındandır. (İmam əleyhis-salam onları tərifləyərək onlara Malik Əştərə tabe olmağı əmr edib. O Həzrət əleyhis-salam Malik Əştəri Məhəmməd ibn Əbu Bəkrin yerinə Misirə göndərəndə oranın əhalisi iki dəstəyə bölünmüşdü. Onların bir hissəsi Osman və Müaviyənin tərəfdarı idilər və Məhəmmədlə müxalifət edirdilər. Əksəriyyət təşkil edən digər hissə isə Əmirəl-möminin Osmanın öldürülməsi istiqamətində səy etmiş dostları idilər. İmam əleyhis-salamın məktubu onlara xitab və müraciətdir.) Bu, Allahın bəndəsi Əmirəl-möminin Əlinin Allahın (yaratdığı) yer üzündə günah və itaətsizlik ediləndə, Onun haqqı tapdananda (əmr və fərmanlarına əməl edilməyəndə), beləliklə də, zülm həm yaxşı, həm də pis iş görənin, həm məskunlaşan, həm də səfərdə olanın başı üzərinə kölgə salanda, (xalq Allah və Peyğəmbərin buyuruqlarının əksinə hərəkət edəndə və nəticədə) sığınılaraq asudəlik və rahatçılıq əldə edilən yaxşı və bəyənilən bir iş tapılmayanda və heç bir pis və çirkin işin qarşısı alınmayan zamanda (yaxşılıqlar tərk edilərək pis işlərin yayıldığı Osmanın zamanında) Allaha xatir qəzəblənən tayfa və dəstəyə məktubudur. Beləliklə, Allah bəndələrindən elə birisini sizin yanınıza göndərdim ki, o, qorxulu günlərdə yuxuya getməz, qorxulu və vahiməli anlarda düşmən qabağından qorxub geri çəkilməz. O, (haqdan üz döndərərək azğınlığa düşmüş) pis əməl sahiblərinə qarşı odun yandırmasından da şiddətli və kəskindir. (O, düşmənləri əldən salan bir qəhrəmandır.) O, Məzhicdən (Məzhic qəbilə və tayfasından) olan Malik ibn Harisdir. Buna görə də onun sözlərinə qulaq asın və haqqa uyğun əmr və göstərişlərinə tabe olun. Çünki o, Allahın itiliyi korlaşmayan və zərbəsi təsirsiz qalmayan (vurulduğu yeri kəsən) qılınclarındandır. Buna görə də əgər o sizə (düşmənə tərəf) getməyi əmr etsə yola düşüb gedin. Əgər əmr etsə ki, getməyin, siz də getməyərək durun. Çünki o (heç bir işdə) mənim əmrim olmadan nə qabağa düşər, nə də arxaya çəkilər, nə üz döndərər və nə də irəli gedər. Mən onun sizin xeyrinizi istəməsi və düşmənə vurduğu cilovun möhkəm olması səbəbindən, onun barəsində sizi özümdən üstün tutdum. (Ona

ehtiyacımın olmasına baxmayaraq, onu sizin yanınıza göndərdim. O, düşmənə əldən salan cilov vurur.)

←38-ci məktub

Nəhcül-bəlağə. 39-cu məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

40-cı məktub→

İmam Əli əleyhis-salamın Əmr ibn Asa məktublarındandır (ki, onda onu azğınlığına və Müaviyəyə tabe olduğuna görə məzəmmət edir). (Düz yolda olan nicat tapmışlara salamdan) sonra (bil ki): Sən öz dinini azğınlığı aşkar olan və pərdəsi yırtılmış bir kəsin (Müaviyənin) dünyasına tabe etmisən. O öz məclisində hörmətli şəxsi nöqsanlı və başıaşağı edir və ünsiyyətdə olmaqla alimi nadan edir. İndi sən də (bir loxma yemək tamahı ilə) aslanın dalınca düşüb pəncələrinə baxaraq ovunun artığını ona atmasını gözləyən it kimi belə bir adamın dalınca gedir və ondan bəxşiş istəyibsən. Buna görə də həm dünyanı, həm də axirətini bada vermisən (dünyada özünü rüsvay etmisən, axirətdə də ilahi əzaba düçar olacaqsan)! Əgər haqdan yapışsaydın (bizə üz tutsaydın dünya və axirətdən) istədiyini tapardın. İndi (ki, haqdan üz çevirib azğınlığa düşmüsən), əgər Allah mənə səni və Əbu Süfyanın oğlunu ələ keçirmək imkanı versə sizi cəzalandıracağam. Amma əgər məni acizləşdirib (məndən sonra) qalsanız (bilin ki,) qarşınızda olan (ilahi əzab və cəza) sizin üçün daha pisdir. Salama layiq kimsəyə salam olsun.

İmam Əli əleyhis-salamın məmurlarından birinə yazdığı məktublarındandır (ki, onda onu əyriliyinə görə məzəmmət edib və hesabat verməsini tələb edib). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mənə səndən bir iş barəsində xəbər çatıb ki, əgər onu etmisənsə Rəbbini qəzəbə gətirmiş, imamına qarşı itaətsizlik etmiş və əmanətini xar etmisən. (Öz işində xəyanət etmisən və artıq, hakimlik ləyaqətini itirmisən.) Mənə (xəbər) çatıb ki, sən yeri silib-süpürmüsən. (Ağac və əkinəcəklərin məhsullarını özün üçün götürmüsən və rəiyyətə bir şey verməmisən.) Sonra ayaqlarının altında olan hər bir şeyi götürmüsən və əllərində olanı yemisən. (Beytülmalın mallarını götürüb özün üçün yığmısan.) İndi öz (mədaxil və məxaricinin) hesabını mənə göndər və bil ki, Allahın (qiyamət günündəki) hesabatı xalqın hesab-kitabından daha böyükdür. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın öz məmurlarından birinə olan məktublarındandır (ki, onda onu əhdini pozduğu və beytülmalı yediyi üçün məzəmmət edib). Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Mən səni öz əmanətimə (rəiyyətə hakimlik və onların bu dünya və axirət işlərinin islah edilməsinə) şərik və ortaq etdim. Səni köynəyim və paltarımın astarı (kimi) etdim. (Səni həmişə özümə ən yaxın və önəmli şəxs hesab edirdim.) Qohumlarımdan heç kəs əmanətin (beytülmala aid malların) mənə çatdırılmasında ahəngdarlıq və kömək etməkdə səndən etibarlı və sadiq deyildi. Bəs sən də dövranın əmin oğlunun əleyhinə olmasını, düşmənin ona hiddətlənməsini, xalqın əmanətinin (əhd-peymanlarının) məhv olmasını və bu ümmətin (qan tökmək və zülm etməyə) cürətlənərək dağılışmalarını görən kimi qalxanın arxasını çevirdin əmin oğluna (ona tabe olmaqdan əl götürdün)! Uzaqlaşanlarla birlikdə ondan uzaqlaşdın. Kömək etməyənlərlə əlbir olub ona kömək etmədin. Xəyanət edənlərə qoşulub ona xəyanət etdin. Beləliklə, nə əmin oğlu ilə yoldaşlıq etdin, nə də əmanəti əda etdin. Sanki sənin (din yolunda) çalışmağın Allaha görə deyildi. Elə bil ki, sən Rəbbindən (iman gətirmək üçün) dəlil və sübuta malik deyildin. (İmanı süst olanlar kimi Allahı tanımayaraq Ona laqeydcəsinə yanaşanlar kimi.) Sanki sən bu camaata qarşı hiylə və kələk işlədir və onları var-dövlət məsələsində aldatmaq istəyirdin. (Xülasə, sənin din və imanını üzə çıxarmaqdan məqsədin camaatı aldadaraq onların var-dövlərini oğurlamaq idi.) Xalqa xəyanət etməyin səni gücləndirdiyi üçün tez hücum edərək cəld tərpəndin və iti canavarın əldən düşmüş keçini oğurlaması kimi, onların dul qadın və yetimləri üçün yığdıqları var-dövlətlərindən əlinə düşəni oğurladın. Sonra həmin malı ürək genişliyi ilə (sevinc və şadlıqla), onu oğurlamağın günahından qorxub çəkinmədən Hicaza (Məkkəyə, yaxud da Mədinəyə) apardın. «Sənin kimi atadan heç olmaz!» (Vay olsun sənə!) Elə bil ki, sən ata-anandan (qalmış) miras payını (götürüb) ailənin yanına gətirmisən (beytülmalı ata-ananın mirası güman edibsən). Allaha həmdü-səna edib Onu hər bir eyb və nöqsandan pak və uzaq bilirəm. (Əcəba,) sənin məada və Allahın hüzuruna qayıdışa imanın yoxdur, yoxsa ki, (axirətdəki) hesab və sorğu-sualın dəqiqliyindən qorxmursan? Ey bizim

yanımızda əvvəllər ağıllılardan sayılan, (o malı) yeyib-içməyi necə düzgün və doğru hesab edirsən, halbuki haram yeyib-içdiyini bilirsən? Allahın bu malları onlar üçün müəyyənləşdirdiyi və bu şəhərləri (düşmənlərdən) vasitələri ilə qoruduğu yetimlər, yoxsullar, möminlər və mücahidlərin malları ilə kənizlər alır və arvadlarla nigah bağlayırsan?! Bütün bunlara görə Allahdan qorx və bu dəstənin mallarını özünə qaytar. Əgər bu işi görməsən və Allah mənə əlimin sənə çatması imkanını versə, Allah yanında sənin barəndə (səni cəzalandırmaq barəsində) dəlil gətirər və səni həmin o qılıncımla vuraram ki, onunla vurduğum kimsə ancaq və ancaq oda (cəhənnəmə) daxil olub. Allaha and olsun ki, əgər sənin etdiklərini Həsənlə Hüseyn (əleyhiməs-salam) etsəydi, onlarla barışmazdım və onlardan haqqı tələb edib zülm ilə əldə edilmiş batili uzaqlaşdırmayınca onlar məndən olan heç bir istəklərinə çatmazdılar. Aləmlərin Rəbbi olan Allaha and olsun ki, sənin onların mallarından götürdüklərin mənim üçün halal olsaydı da, onu özümdən sonra irs qoymağım məni sevindirməzdi. Buna görə də «dəvəni səhər tezdən yavaş otar!» ki, deyəsən axirətə (ölümə) çatmısan, torpaq altında gizlədilmisən; zülmkarın (əldən verdikləri üçün) qəm-qüssəsi səbəbindən fəryad qopardığı və (başqalarının haqqını) zay edənin (dünyaya) qayıtmağı arzuladığı yerdə əməlin sənə göstərilib, halbuki həmin zaman (ilahi əzabdan) qaçmaq vaxtı deyil.

İmam Əli əleyhis-salamın Ömər ibn Əbi Sələmə Məxzumiyə olan məktublarındandır. O, İmam tərəfindən Bəhreynin hakimi olub və o Həzrət, Məxzumini öz vəzifəsindən kənarlaşdıraraq yerinə Nö'man ibn Əclan Zurəqini təyin edib. (İmam əleyhis-salam bu məktubda Öməri tərifləyib və onu özü ilə müharibəyə aparmaq istədiyini bildirib. Ömər Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) zövcəsi Ummu Sələmənin oğludur. Nö'man Ənsarın böyüklərindən olub. «Rical» alimləri bu iki nəfəri Əmirəl-möminin əleyhis-salamın səhabələrinin yaxşılarından hesab ediblər və rəvayət nəql etməkdə onlara etimad edirlər. Bəzi kitablarda Ömərin adı Əmr ibn Əbi Sələmə kimi yazılır. Amma onun adının Ömər ibn Əbi Sələmə olması daha düzgündür. Çünki «Nəhcül-Bəlağə»nin nüsxələrinin çoxunda onun adı Əmr deyil Ömər kimi yazılıb.)

Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mən Nö'man ibn Əclan Zurəqini Bəhreynin vali və hakimi təyin etdim və əlini səni məzəmmət etmədən və qınamadan (ondan) üzdüm (səni öz yanıma çağırdım). Sən valiliyi gözəl yerinə yetirdin və əmanəti (beytülmalı) əda etdin. Belə isə (mənim yanıma) gəl ki, sənə qarşı pis gümanda deyiləm, səni məzəmmət edərək qınamıram və günahkar hesab etmirəm. Buna görə də (səni çağırmağımın səbəbi budur ki,) Şam əhlinin zalımlarına tərəf (onlarla müharibəyə) getmək qərarına gəlmişəm və sənin özümlə olmağını istəyirəm. Çünki sən, mənim Allahın istəyi ilə düşmənlə müharibə etmək və dinin sütunlarının qaldırılmasında (İslam hökmlərinin icrasında) arxalandığım şəxslərdənsən.

İmam Əli əleyhis-salamın, özünün Ərdəşir Xurrədəki (Farsda şəhər adıdır) valisi Musqələ ibn Hubəyrə Şeybaniyə olan məktublarındandır. Mənə bir xəbər çatıb ki, əgər sən onu etmisənsə öz Allahını qəzəbləndirmisən (Onun rəhməti sənə şamil olmayacaq) və imam və rəhbərini hirsləndirmisən (və gərək o səndən intiqam alsın. Çünki xəbər çatıb ki): sən müsəlmanların nizə və atlarının topladığı və yolunda qanları axıdılmış mallarını səni seçmiş ərəb qohumların arasında bölüşdürmüsən. (Torpaq altında) toxumu yaran və insanı yaradan Allaha and olsun ki, əgər (xəbər verilmiş) bu iş doğru olsa, məndən özünə qarşı xarlıq görəcəksən və mənim yanımda olan məqam və mövqeyini yüngülləşdirəcəksən. Buna görə də Rəbbinin haqqını yüngül sayma və dünyanı, dinini xarab etməklə abadlaşdırma ki, (qiyamət günü) əməlləri baxımından ziyana uğrayanların sırasında olarsan. Bil ki, sənin və mənim yanımda olan müsəlmanlar, bu malların bölüşdürülməsində bərabər hüquqa malikdirlər. (Hər bir kəs bulağın başına gedib qayıtdığı və bulaq fərq qoymadan hamıya su verdiyi kimi müsəlmanlar da) mənim yanıma o mallar üçün gəlib qayıdırlar. (Buna görə də sənin həmin malları ancaq öz qohum-əqrabana ayırmaq və bölmək haqqın yoxdur.)

İmam Əli əleyhis-salamın, Müaviyənin Ziyad ibn Əbihə məktub yazaraq onu (qardaş olmaları hiyləsi ilə) özünə birləşdirməklə aldatmaq istəməsini eşidərkən, Ziyada yazdığı məktublardandır. Xəbərdar oldum ki, Müaviyə sənə məktub yazaraq qəlbini (xoşbəxtlik yolundan) sapdırmaq və sənin itilik və çevikliyinə (zirəkliyinə) nüfuz etmək istəyir. Buna görə də ondan çəkinərək qorx. Çünki o, insanın qabaq və arxasından, sağ və solundan gələn və sonda birdən onun qəflət və nadanlıq anında nüfuz edərək ağlını oğurlayan (və dünyada məəttəlçilik və sərgərdanlığa, axirətdə isə əbədi əzaba düçar edən) bir şeytandır. Ömər ibn Xəttabın xilafəti zamanında Əbu Süfyandan nəfsi istəklər və şeytanın vəsvəsələri nəticəsində ölçülməmiş bir söz çıxdı. (Əmr ibn Asa belə dedi: Bu mənim onun anası ilə olan zinamın nəticəsidir.) Bu sözü deməklə nəsəb sübut olmur və onunla heç kəs irs aparmağa layiq olmur. (O Həzrət buyurur ki:) Belə səhv sözə ürək bağlayan şəxs dəvət edilmədən özünü şərab içənlərin içinə soxan və onların, hey rədd edərək uzaqlaşdırdıqları adama və (yük daşıyanın üstündən asılan və) qərar tutmayıb yellənən taxta kasaya bənzəyir. (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Ziyad o Həzrətin məktubunu oxuyandan sonra belə dedi: «Kə'bənin Rəbbinə and olsun ki, Əbu Süfyan deyilənlərə şəhadət verib». (Bu məsələ) həmişə onun nəzərində idi və nəhayət, Müaviyə onu çağırdı (və Ziyad da ona qoşuldu). İmam əleyhis-salamın kəlamında işlədilmiş «الواغِل» «əl-vağil» kəlməsi o adama deyilir ki, o həmişə özünü şərab içənlərin arasına soxub onlarla içib onlardan sayılmamaq istəyir və buna görə də onu qovaraq öz aralarına girməsinə mane olurlar. «النَّوْطُ الْمُذَبْذَبُ» «ən-nautul-muzəbzəb» birləşməsi isə taxta kasa, qədəh və buna bənzər şeyə deyilir ki, miniyin üstündəki yükdən asılır və yükün üstündə adam olanda və miniyi möhkəm sürəndə dayanmadan yellənir.

Nəhcül-bəlağə. 45-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın, onun tərəfindən Bəsrənin valisi olan Osman ibn Hüneyfə olan məktublarındandır. Həzrət bu məktubu Bəsrə əhlinin Osmanı qonaqlığa dəvət etməsini və onun qonaqlığa getməsini eşidəndə yazıb. (İmam əleyhis-salam onu həmin qonaqlığa getdiyi üçün məzəmmət edib. Osman və onun İmam əleyhis-salam tərəfindən Mədinənin valisi olmuş qardaşı Səhl ibn Hüneyf Həzrət Peyğəmbərin – səlləllahu əleyhi və alih – səhabələrindən olublar. Onların hər ikisi ömürlərinin sonuna kimi Əmirəl-möminin əleyhis-salamın şiə və dostlarından olublar. Buna görə də «Rical» alimləri bu iki qardaşın yaxşılığında ixtilaf və tərəddüdə düçar olmayıb onların nəql etdikləri hədisləri mötəbər və inanılmış hesab etmişlər. Cəməl əhli Bəsrəni alarkən Osman ibn Hüneyfin başına gələnlərin bir hissəsi yüz yetmiş birinci xütbənin şərhində deyilib.) Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: ey Hüneyfin oğlu, mənə xəbər çatıb ki, Bəsrə gənclərindən biri səni toy süfrəsinə dəvət edib və sən tələsik həmin süfrəyə doğru getmisən. Sənin üçün növbənöv ləzzətli yeməklər istənilib və qarşına böyük kasalar gətirilib. Sənin, kasıb və yoxsullarını qovan, varlıları isə dəvət edən bir camaatın qonaqlığına getməyini güman etməzdim. Buna görə də bu yeməkdən dişlədiyinə diqqət et. (Halal və ya haram olması) sənə məlum olmayan şeyi at (yemə). Qazanılma yollarının pak olmasını (halal və düz yolla əldə edildiyini) bildiyin şeyi ye. Bil ki, tabe və ardıcıl olan hər bir şəxsin bir imam və başçısı var ki, ona tabe olur və onun elminin nuru ilə aydınlıq axtarır. (Hər bir tabe və ardıcıl danışıq və davranışının düzlüyünü öz imamından öyrənir. Sən də gərək öz imamına tabe olub onun ardınca gedəsən.) Bunu da bil ki, sizin imamınız öz dünyasından iki köhnə paltarla (yəni, bədəni başdan ayağa kimi örtən qumaş köynək və şalvarla), yeməklərdən isə (iftar və obaşdanlıq və ya nahar və şam üçün) iki tikə çörəklə kifayətlənib. Sizin bu cür etmək qüdrətiniz yoxdur. Amma (heç olmasa) mənə pərhizkarlıq, çalışqanlıq, iffətlilik və düzlüklə kömək edin. Allaha and olsun ki, sizin dünyanızdan qızıl toplamamışam, onun qənimətlərindən çoxlu mal yığmamışam və əynimdəki köhnə paltardan başqa digər bir köhnə paltar hazırlamamışam. Bəli, göyün kölkə saldığı bütün

şeylərdən (dünya malından) yalnız Fədək bizim əlimizdə idi ki, bir dəstə adam (üç xəlifə) ona paxıllıq etdi (onu qəsb edərək əlimizdən aldı). Başqaları (İmam əleyhis-salam və əhli-beyti) da bəxşiş edərək ondan keçdilər. Allah gözəl hakimdir (və haqq ilə batil arasında hökm çıxaracaq). Mən Fədəyi və Fədəkdən qeyrisini nə edəcəyəm? Halbuki insanın yeri sabah (öləndən sonra) qəbir və gordur ki, onun qaranlıqlarında nişanələri məhv olacaq və xəbərləri itib gedəcək. Həmçinin elə bir çuxurdur ki, əgər onun genişliyi çoxalsa və gorqazanın əlləri onun genişliyində çalışsa daş-kəsək onu sıxar və torpaq bir-birinin üstünə yığılaraq deşiklərini örtər. Mənim fikir və düşüncəm bundadır ki, öz nəfsimi pərhizkarlıqla tərbiyə edərək xar edim ki, qorxu və vahiməsi çox olan gündə (qiyamətdə) asudə və rahat olsun və sürüşkənliyin kənarında möhkəm dayansın. Əgər istəsəm yolumu bu balın saf və təmizinə, buğda çörəyinin xalisinə və bu ipək paltarın toxunulmuşu istiqamətinə sala bilərəm. Amma Hicazda (Məkkə, Mədinə və onun digər şəhərlərində), yaxud (Yəmən şəhərlərindən olan) Yəmamədə kiminsə (imkansızlıqdan) bir tikə çörəyə ümidsiz olması və tox yatdığı vaxtı yadından çıxarması ehtimalı ola-ola nəfsi istəklərin mənə qalib gəlməsi və hərisliyin çoxluğunun məni yemək seçməyə vadar etməsi məndən necə də uzaqdır!! Həmçinin ətrafımda ac qarın və isti (susuz) ciyərlər ola-ola tox qarınla yatmaq, yaxud söz sahibinin (Hatəm ibn Abdullah Tainin) dediyi kimi olmaq, məndən çox uzaqdır. O deyib:

«Sənə bu dərd bəsdir ki, gecə tox qarınla yatasan və ətrafında keçi balasının dərisinin həsrətini çəkənlər olsun (nəinki yemək, heç bunu da tapa bilmirlər)». Dövranın çətinliklərində onlarla həmdərd olmadan, acı günlərində gözləri önündə durmadan mənə möminlərin əmir və başçısı deyilməsi ilə kifayətlənim?! Məni fikri ancaq ot olan bağlı heyvan, yaxud bir şey tapıb yemək üçün zir-zibili alt-üst edən və mədəsini əlinə düşənlə doldurараq onun üçün nəzərdə tutulan şeydən qafil olan açıb buraxılmış dördayaqlı kimi yaratmayıblar ki, gözəl təamlar yemək məni (əbədi xoşbəxtlikdən) saxlasın. Həmçinin məni bekar qalaraq əbəs yerə özbaşınalıq etmək və ya azğınlıq ipini çəkərək düşünmədən sərgərdanlıq yoluna yollanmağım üçün yaratmayıblar. Sanki sizlərdən birinin belə dediyini görürəm: «Əgər Əbu Talib oğlunun yeməyi budursa, onda zəiflik və süstlük onu tay-tuşları ilə döyüşdən və şücaətlilərlə rəqabət apararaq bərabərlik etməkdən saxlamayacaq!» Bilin ki, (suyun az çatdığı) çöl ağacının

taxtası bərkdir (möhkəmdir). Amma (suyu çox olan bağlarda əkilmiş) yaşıl ağacların qabıqları daha nazikdir. (Yağış suyundan başqa digər bir su tapmayan) səhra bitkilərinin alovlarının şöləsi daha çox saçır və onlar daha gec sönürlər. Mənimlə Rəsulullah (bağlılıq və birlik baxımından hər ikisi bir kökdən bitmiş) xurma ilə xurma və (bir-birinə birləşmiş) əl ilə bazu kimiyik. (Buna görə də) Allaha and olsun ki, əgər bütün ərəblər mənə qarşı müharibə etməyə birləşsələr onların qabağından qaçmaram və əgər ələ fürsət düşsə onlara tərəf tələsərəm (Allahın və dinin yardımı yolunda hamısının boynunu vuraram). Tezliklə yer üzünü bu baş-ayaq şəxsdən və başıaşağı gövdədən (Müaviyədən) təmizləməyə çalışacağam ki, daş-kəsək biçilmiş buğdadan ayrılsın. (Münafiq və ikiüzlünü möminlərin içindən qovub çıxaracaq və din yolunu azğınlıq yolkəsənlərindən təmizləyəcəyəm.)

Bu da həmin məktubun (dünyanın məzəmməti, pərhizkarlar və ona ürək bağlamayıb Allahın işindən qafil olmayanların mədhi barəsindəki) bir hissəsi və sonudur

Ey dünya, məndən uzaq ol ki, cilovun belindədir (cilovunu boynuna atıb buraxmışam səni). Mən sənin caynaqlarından sıçrayıb çıxmışam, tələlərindən qurtulmuşam, sürüşkənliklərinə (azğınlıqlarına) getməkdən çəkinmişəm. Oyun və şənliklərinlə tutub aldatdığın kəslər haradadırlar? Zinət və bəzəklərinlə fitnə və azğınlıqlara saldığın ümmətlər haradadırlar? İndi onlar gorlara girovdurlar və ləhədlərdə (qəbirdə olan çuxurlarda) itib-batıblar! Allaha and olsun ki, əgər sən görünən bir şəxs və hiss olunan bir cisim olsaydın, bəndələri arzular vasitəsi ilə aldatmağının, ümmətləri uçurumlara (bədbəxtliklərə) atmağının və padşahları məhvə təslim edərək onları nə düşülməsi və nə də qayıdılması (münasib) olmayan bəla və çətinlik nohurlarına salmağının əvəzində sənə ilahi hədd icra edərdim (Allahın günahlar üçün müəyyənləşdirdiyi cəzaları icra edərdim sənin barəndə). Mənim sənə aldanmağım baş tutan şey deyil. Sürüşkənliklərinə ayaq basan sürüşər, bol sularının üstünə çıxan batar və torunun iplərindən uzaq gəzən müvəffəqiyyət qazanıb (nicat tapar). Sənin əlindən salamat qalanın yataq yeri darısqal olsa (çətinlik və narahatçılıqla yaşasa) da, nigarançılıq keçirməz. (Çünki bu çətinliyin tezliklə keçib gedəcəyini bilir. Buna görə də buyurur:) Dünya onun gözündə ötüb keçməsi gəlib çatmış bir gün kimidir. Uzaq ol məndən! Allaha and olsun, sənə ram olmayacağam ki, məni xar edəsən; tabe

olmayacağam (əmrlərini yerinə yetiməyəcəyəm) ki, məni (istədiyin yerə) çəkib aparasan. Allaha and olsun – Allahın iradə və istəyini istisna edib and içirəm – nəfsimi elə tərbiyə edəcəyəm ki, yavanlığına bir tikə çörək tapanda sevinərək təəccüblənsin, duzla yavanlıq etməyə qane olub uyğunlaşsın və gözlərimin kasasını (ağlamağın çoxluğundan) öz halında qoyaram ki, suyu çəkilmiş bulaq kimi onun göz yaşı boşalsın. (O qədər ağlayaram ki, göz yaşım qurtarsın, qalmasın.) Otlayan heyvanın qarnı otladığı şeylərlə dolur və o, yanı üstə düşür (yatır) və qoyun sürüsü otdan doyandan sonra yatağına gedir. Əli (salavatullahi əleyh) də dördayaqlılar kimi öz azuqəsini yeyib yatsın?! Belə olsa gözləri aydın olsun ki, uzun illərdən sonra özbaşına buraxılmış və sürüdə otlayan dördayaqlının yolunu gedir (halbuki insanın əzm və düşüncəsinin yeyib-içmək olması ardır)! Xoş o adamın halına ki, qayıdış (qiyamət günü) qorxusu gözlərini oyaq saxlayan, yanlarını yataqlardan uzaqlaşdıran, dodaqları yavaş-yavaş Rəbblərini zikr edən və istiğfarın (bağışlanmaq istəyinin) çoxluğundan günahları (dağınıq buludlar kimi) dağılmış dəstənin içərisində Rəbbinin vacib etdiklərini əda edir, çətinliklərdə dözümlüdür, gecələr yuxu və mürgü qalib gələnə kimi yuxudan uzaqdır (və yuxu və mürgü qalib gələndə isə) yeri öz döşəyi və əlini yastığı edir! (Qur'ani-Kərimdə Mucadilə surəsinin 22-ci ayəsində buyurulur:) «Onlar Allahın firqəsidirlər. Bilin ki, Allahın firqəsi – məhz onlar, nicat tapıb əbədi səadətə qovuşanlardır.» Buna görə də ey Hüneyfin oğlu, Allahdan qorx (qarın otarmaqla məşğul olma). Gərək bir neçə tikə çörəklə kifayətlənəsən ki, o sənin oddan qurtulmağına səbəb olsun.

İmam Əli əleyhis-salamın icraçılarından birinə olan məktublarındandır (ki, onda ona rəiyyətlə mülayim və xoş davranmağı, lazım gələndə isə sərt olmağı əmr edir). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Sən mənim dinin qorunmasında köməklərinə arxalandığım, vasitəsi ilə günahkarın itaətsizliyini yatırtdığım və düşmənin qorxulu dilçəyini (sərhəddini) bağladığım kimsələrdənsən. Buna görə də səni qəmləndirən işlərdə Allahdan kömək istə və (rəiyyətlə işlərində) sərtlik və qatılığı bir az yumşaqlıq və mülayimliklə qatışdır (ki, ürəyini ələ almaq istəyəndə edə biləsən). Mülayimlik lazım olan zaman mülayim və mehriban ol. Sərtlikdən başqa bir şey yeriməyən vaxt da sərtlik və qatılıq et. Qanadını rəiyyət üçün endir, onlarla gülərüz ol və özünü yumşalt (mehriban, mülayim və xoşrəftar ol.) Gözucu baxmaq, gözünü zilləmək, işarə etmək və salam verməkdə onların arasında bərabər davran (birini digərindən üstün tutma) ki, böyüklər sənin zülm etməyinə tamah salıb həris olmasınlar (sənlə düşmənçilik fikrinə düşməsinlər) və zəiflər sənin ədalətindən naümid olmasınlar. Salama layiq kimsəyə salam olsun!

←46-cı məktub

Nəhcül-bəlağə. 47-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

48-ci məktub→

İmam Əli əleyhis-salamın məl'un İbn Mülcəm onu zərbətləyəndən sonra Həsən və Hüseyn əleyhiməs-salama olan vəsiyyətlərindəndir (və onları intiqam almaqdan çəkindirib və yaxşı işlərə əmr edib). Sizə təqvalı olmağı və Allahdan qorxmağı, eləcə də dünya sizi axtarsa da, sizin onu istəməməyinizi vəsiyyət edirəm. (Dünya malına hətta əlinizdə olsa belə, ürək bağlamayın.) Dünya malından əlinizdən alınmış şey üçün kədərlənməyin. Düz və doğru danışın. (Axirətdə) mükafat qazanmaq üçün iş görün. Zalıma düşmən, məzluma yardımçı və kömək olun. Sizə, bütün övladlarıma, əhli-beytimə və məktubum çatan hər bir kəsə təqvalı olmağı, Allahdan qorxmağı, işlərinizi qaydaya salmağı və aranızda ayrılığa səbəb olan ixtilafları həll etməyi vəsiyyət edirəm. Çünki mən sizin cəddinizin (səlləllahu əleyhi və alih) belə buyurduğunu eşitmişəm ki: «İki nəfərin arasını (parçalanmaya səbəb olan ixtilafları) düzəltmək bütün namaz və oruclardan yaxşıdır.» (Çünki xalq arasında parçalanma hakim olsa dini işlər sahmana düşməz, düşmən ağalıq edər və abadlıqlar viranlıqlara və xarabalıqlara çevrilər.) Yetimlər barəsində Allahdan qorxun, Allahdan qorxun. Belə ki, onların ağızları üçün növbə müəyyənləşdirməyin (gah tox, gah da ac saxlamayın onları). Onlar (aclıq, yalavaclıq və yiyəsizlik nəticəsində) sizin yanınızda məhv və heç olmasınlar. Qonşularınız barəsində Allahdan qorxun, Allahdan qorxun ki, onlar Peyğəmbərinizin sifariş etdiyi kimsələrdirlər. (Həzrət Peyğəmbər) daima onları (elə) tapşırırdı ki, biz onlara (qonşudan-qonşuya) miras müəyyənləşdirəcəyini (mallarında onlara bir pay ayıracağını) güman etdik. Qur'an barəsində Allahdan qorxun, Allahdan qorxun ki, başqaları ona əməl etməklə sizdən qabağa düşməsinlər. Dininizin sütunu olan namaz barəsində Allahdan qorxun, Allahdan qorxun. Rəbbinizin evi (əzəmətli Məkkə) barəsində Allahdan qorxun, Allahdan qorxun. Nə qədər ki, sağsınız onu boş qoymayın. Əgər o tərk edilsə (sizin getməməyiniz nəticəsində boş qalsa, ilahi əzab) sizə möhlət verməyəcək (və Allahın əzabına düçar olacaqsınız). Mallarınız, canlarınız və dillərinizlə Allah yolunda cihad etmək barəsində Allahdan qorxun, Allahdan qorxun. (Dinin yayılması və Allah və

Peyğəmbərin düşmənləri ilə vuruşmaqda heç nədən çəkinməyin.) Bir-birinizlə birlik və dostluğunuz olsun və qarşılıqlı bəxşişlər edin. Bir-birinizə arxa çevirmək və bir-birinizdən ayrılmaqdan qorxun. «Əmr be mə'ruf»u (başqalarını bəyənilən yaxşı işlər görməyə vadar etməyi) və «nəhy əz munkəri» (çirkin işlərdən çəkindirməyi) tərk etməyin ki, (əgər bunları tərk etsəniz) pis əməllilәriniz sizə hakim olarlar, sonra isə dua edərsiniz (Allahdan onları sizdən uzaq etməsini istəyərsiniz amma) qəbul olmaz. Sonra belə buyurdu: Ey Əbdülmüttəlib oğulları, sizi «Əmirəl-möminin öldürüldü, Əmirəl-möminin öldürüldü» deyib bu bəhanə ilə müsəlmanların qanlarına batmış halda görmək istəmirəm. (Mənim öldürülməyimi müharibə və qan axıdılması üçün bayraq etməyin.) Bilin ki, mənim əvəzimə ancaq qatilim öldürülməlidir. Baxın, əgər mən onun bu zərbəsi nəticəsində ölsəm, onun əvəzində ona bir zərbə vurun. Onu «muslə» etməyin. Çünki mən Allah Peyğəmbərinin (səlləllahu əleyhi və alih) belə buyurduğunu eşitmişəm ki: «Muslə etməkdən uzaq olub çəkinin, hətta qapağan it olsa belə.» (Çünki Allah adamları, qatilin əməlindən çox kədərli olsalar da bu cür cəza növünü bəyənmirlər. O, nadan və kobud adamların davranış tərzidir ki, onlar öz ürəklərində olan kinlərini bununla soyudur, qabalıqlarını üzə çıxarırlar.)

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır (ki, onda Müaviyəyə öyüd-nəsihət verib). Zülm etmək və yalançılıq insanın din və dünyasını məhv edir və nöqsan axtaranın yanında onun naqislik və gücsüzlüyünü üzə çıxarır. Sən bilirsən ki, əldən çıxması təqdir edilmiş şeyi (dünyadakı istəklər və ya Osmana öldürülməsindən sonra kömək edilməsini) əldə edə bilməyəcəksən. Bəzi dəstələr haqsız olaraq işin (imamət və xilafətin) fikrinə düşdülər və (həqiqi imama tabe olmamaq, əhdi pozmaq və vəzifə və dünya malı əldə etmək üçün) aşkar ilahi hökmü başqa yerə yozdular. (Öz meylləri ilə xilafəti camaatın rəyinə həvalə etdilər və öz arzularına çatmaq üçün Osmanın qisası məsələsini bəhanə etdilər.) Buna görə də Allah onları yalançı adlandırıb (və onlara yalançıların əzab və cəzasını verəcək). Belə isə o gündən qorx və çəkin ki, onda işinin sonunun yaxşı olmasını görən kəs şad olacaq, ixtiyarını Şeytana vermiş və onunla vuruşaraq müqavimət göstərməyən (cilovunu Şeytanın əlindən çəkməyən və onun istədiyi yerə apardığı) kəs isə peşman olacaq. Sən Qur'an əhli olmamağına baxmayaraq, (Siffeyn müharibəsində) bizi Qur'anın hökmünə dəvət etdin. (Qur'an əhli olmamağının dəlili, işlərinin onun hökm və göstərişinə zidd olmasıdır.) Biz sənə cavab vermədik və Qur'anın hökmünü qəbul etdik. Salama layiq kimsəyə salam olsun!

Bu da imam Əli əleyhis-salamın Müaviyəyə (öyüd-nəsihət verdiyi) məktublarındandır. Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: dünya (insan üçün) baş qatmaq və ondan başqasından (axirətdən) saxlamaq yeridir. Dünyatələb dünya malından bəhrələndikcə ona olan vurğunluq və hərisliyi də mütləq artacaqdır. (O, bir şey əldə edəndə ondan bəhrələnməmiş daha çoxunu arzulayar.) Dünyatələbi, heç vaxt onda tapdığı (dünya malı) əldə etmədiyindən (axirət nemətlərindən) ehtiyacsız etməyəcək. Halbuki topladıqdan sonra ondan ayrılmaq, möhkəmləndirməsindən sonra isə məğlubiyyət və bir-birinə vurmaq mövcuddur. Əgər (öz ömründən və ya zamanın hadisələrindən) keçənlərdən ibrət alsan, qalanında özünü saxlayaraq bəhrələnəcəksən. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın qoşunlarının başçılarına olan məktublarındandır. (Həzrət bu məktubda onların imamın boynunda, həmçinin özünün onların boynunda olan haqlarını bəyan edib və onlara ədalətli və əmrlərinə tabe olmağı əmr edib.) Bu, Allahın möminlərin başçısı və əmiri olan bəndəsi Əli ibn Əbu Talibin sərhədçilərinə olan məktubudur: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: valinin bir üstünlük tapması və nemət əldə etməsi onun rəiyyətlə olan münasibətlərinin dəyişməsinə səbəb olmamalıdır. (Məqam və vəzifə onu əli altında olanları incitməyə vadar etməməlidir.) Həmçinin Allahın ona qismət etdiyi nemətlər, onu Allahın bəndələri ilə daha yaxından tanış olmağa və qardaşları ilə mehriban olmağa məcbur etməlidir. (Kim belə etməsə Rəbbinin nemətlərinin şükrünü yerinə yetirməyib.) Bilin ki, sizin mənim boynumda olan haqqınız müharibə zamanından başqa sizdən heç bir sir gizlətməməyim (çünki müharibə sirlərinin faş olması ilə düşmən ondan xəbərdar olar), şəriət hökmlərindən başqa heç bir işi sizinlə məsləhətləşmə aparmadan yerinə yetirməməyim (şəriət hökmlərində məsləhətləşmə aparmaq lazım deyil, çünki siz bütün hökmləri məndən öyrənməlisiniz), haqlarınızın yerində sizə çatdırılmasında səhlənkarlıq etməməyim, möhkəmləndirərək sona çatdırmayınca ondan əl çəkməməyim və haqq və hüquq baxımından sizin mənim yanımda bərabər olmağınızdır (mənim birinizi digərinizdən üstün tutmamcağımdır). Beləliklə, mənim sizinlə rəftarım bu cür olduğu halda nemətləri sizə tamamlamaq Allahın öhdəsinədir. Mənim sizin boynunuzda olan haqqım isə tabeçilik və itaətkarlıq, mənim əmrlərimdən üz döndərməməyiniz, mənim məsləhət bildiyim işlərdə səhlənkarlıq etməməyiniz və haqq yolu üzərindəki çətinliklərə daxil olmağınızdır (haqqı tapmağınız üçün çətinliklərə qatlaşmağınızdır). Əgər siz mənim barəmdə bunları etməsəniz, mənim yanımda heç kəs sizin əyri yol ilə gedəninizdən xar və alçaq ola bilməz. Buna görə də onu bərk cəzalandıraram və o, mənim yanımda (həmin cəzadan) qurtulmaq imkanı əldə edə bilməz. Siz (də) öz (əliniz altında olan) başçılarınızla belə bir peyman bağlayın və Allahın, vasitəsi ilə işinizi islah

etdiyi şeylərdən özünüz onlara bağışlayın. (Onları xar etməyin ki, köməkləri vasitəsi ilə düşmənə qalib gələ biləsiniz.) Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın xərac toplayan məmurlarına olan məktublarındandır. (Həzrət bu məktubda xərac alanda camaatı incitməkdən və satılması ziyan olan şeyi satmağa məcbur etməkdən çəkindirir.) Bu məktub Allahın bəndəsi Əmirəl-möminin Əlidən xərac toplayanlaradır: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: kim ona üz tutacaq şeydən (qiyamət gününün hesab-kitabından) qorxmasa özü üçün qabağa onu (əzab və cəzadan) qoruyacaq qoruyucu göndərməz. Bilin ki, sizin üzərinizə qoyulmuş iş yüngül, onun savabı isə çoxdur. Əgər Allahın qadağan etdiyi zülm və haqsızlıq kimi şeylərə görə bir cəza olmasaydı da, onlardan çəkinmək müqabilində olan savab, onu istəməməyə bir bəhanə yeri qoymur. Belə isə xalqla mülayim və insaflı davranın və onların istəklərinə səbr və dözümlə yanaşın. Çünki siz rəiyyətin xəzinədarlarısınız (və xərac almaq üçün bir dəstə ilə ünsiyyətdə olur, iş görürsünüz və yığdıqlarınızı digər bir dəstəyə ötürməlisiniz. Belə işlə məşğul olan adam səbrli və təmkinli olmalıdır). Həmçinin ümmətin vəkili, imam və başçıların nümayəndələrisiniz (ki, onlar sizin vasitəsinizlə rəiyyət barəsində göstəriş verirlər). Heç kəsi istəyi barəsində qəzəbləndirərək hacətindən çəkindirməyin. Camaatdan xərac alan zaman onların qış və yay paltarlarını, iş heyvanlarını və qullarını satmayın. (Əgər xəracı ödəməyə malı yoxdursa, ehtiyacları olan şeyləri onlardan almayın.) Qətiyyən heç kəsə bir dirhəmə görə qamçı vurmayın. Namaz qılanların və (cizyə verərək İslamın pənahında olan) peyman bağlamışların heç birinin mallarına – vasitəsi ilə müsəlmanlara zülm edilən at və silah tapmağınız istisna olmaqla – toxunmayın. Çünki müsəlmanın onları (at və silahı) İslam düşmənlərinin əlində qoyması və nəticədə onların onun müqabilində qüdrətə malik olmaları rəva deyil. Özünüzə öyüd-nəsihət verməyi, qoşuna yaxşılıq etməyi, rəiyyətə kömək göstərməyi və Allahın dinini gücləndirməyi tərk etməyin. Allah yolunda münasib, sizə vacib və lazım olan şeyi yerinə yetirin. Çünki nöqsan sifətlərdən pak və uzaq olan Allah bizdən və sizdən Onun ehsan və yaxşılıqları müqabilində Ona şükr etməyimizi və gücümüz çatan

qədər Ona yardım etməyimizi istəyib, (hərçənd ki,) uca və böyük Allahın yardımı olmadan heç bir güc və qüdrət yoxdur.

İmam Əli əleyhis-salamın şəhərlərin hakimlərinə namaz (onun vaxtı) barəsindəki məktublarındandır. Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: zöhr (günorta) namazını camaatla günorta (günəş göyün ortasından qərb istiqamətinə meyl edən zamandan) günəşin kölgəsi keçi ağılı (keçilərin yatdıqları yerin divarı) qədər qayıdan zamana kimi (hər bir şeyin kölgəsi onun özü miqdarında olana kimi) qılın. Həmçinin onlarla əsr (ikindi) namazını günün (sonunda deyil) bir hissəsində–(günəşin batmasına) iki ağac yol getmək mümkün olan qədər vaxt qalan zaman, günəş (solğun deyil) ağ və görünən olanda qılın. Oruc tutmuş şəxs iftar edəndə və hacılar (Ərafatdan) Minaya yola düşəndə, onlarla məğrib (axşam) namazını qılın. Onlarla, işa (xüftən) namazını isə qırmızılıq (qərbdən) çəkiləndən gecənin üçdə birinə kimi qılın. Şəxs öz dost və yoldaşının sifətini görüb seçə bildiyi zaman da onlarla sübh namazını qılın. Namazı onlarla onların ən zəifi kimi qılın (müstəhəb olan yerləri azaldın) və fitnə-fəsada səbəb olmayın.

←52-ci məktub

Nəhcül-bəlağə. 53-cü məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

54-cü məktub→

İmam Əli əleyhis-salamın (Malik ibn Haris) Əştər Nəxəiyə (Allah onu bağışlasın) onu Məhəmməd ibn Əbu Bəkrin hakimiyyəti alt-üst və qarmaqarışıq olan zaman Misirə və onun ətraf bölgələrinə vali təyin edəndə yazdığı əhd-peymanlardandır. Bu, yaxşılıq və xeyirxahlıqlar (başqalarına kömək etməyin hökmləri, rəiyyətin təşkilatçılığının sirləri, ölkə idarəçiliyinin qaydaları, qoşun çəkməyin yolları və hamıya öyüd-nəsihət) barəsində yazılaraq toplanmış ən uzun əhdnamədir. Ruzi verən və bağışlayan Allahın adı ilə

Bu, Allahın bəndəsi Əmirəl-möminin Əlinin Malik ibn Haris Əştəri Misirə, oranın vergilərini yığmaq, düşmənləri ilə vuruşmaq, əhalisinin vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olmaq və şəhərini abadlaşdırmaq üçün vali təyin edən zaman onunla olan əhdindəki əmrləridir. Ona pərhizkarlıq edərək Allahdan qorxmağı, Onun hökmlərini üstün tutmağı və Öz kitabında (Qur'ani-Kərimdə) əmr etdiyi vacib və bəyənilmişlərə tabe olmağı əmr edir. Onlara (həmin vacib və bəyənilmiş şeylərə) əməl etmədən heç kəs xoşbəxt ola bilməz və hər bir kəs ancaq onlardan boyun qaçıraraq onları ayaq altına salmaqla bədbəxt olar. Həmçinin nöqsan sifətlərdən uzaq və pak olan Allaha (Onun dininə) qəlb, əl və diliylə yardım etməsini əmr edir. (Qəlbində iman və inamı olsun, əli ilə düşmənin qarşısını alsın, dili ilə isə yaxşı işlərə əmr edərək pis işlərdən çəkindirsin.) Çünki adı uca olan Allah Ona yardım edənə yardım etməyə, Ona (dininə) hörmət göstərənə izzət bəxş etməyə zəmanət verib. Ona əmr edir ki, şəhvət və istəklərin (tüğyan edən) zamanında öz nəfsini bassın və baş qaldıraraq itaətsizlik edən vaxt onun qarşısını alsın (ki, cilov onun əlinə düşməsin və çətinliklərə salmasın). Çünki Allahın rəhm etdiyi kimsə istisna olmaqla, nəfs hər bir kəsə pis işlər görməyi əmr edir. Ey Malik, sonra bil ki, mən səni səndən qabaq ədalətli və zalım hökmdarları olmuş şəhərlərə göndərirəm. Sən özündən qabaqkı hökmdarların işlərinə necə baxırsansa, xalq da sənin işlərinə həmin nəzərlərlə baxır. Sən onların barəsində nə deyirsənsə, camaat da sənin barəndə həmin şeyləri deyir. Allahın, bəndələrinin dillərində əzbər etdiyi (yaxşı və pis) sözlərdən, saleh

və yaxşı əməl sahiblərini tanıyıb bilmək mümkündür. Buna görə də sənin ehtiyac günü üçün tədarük gördüyün şeylərin ən yaxşısı saleh əməl olmalıdır. Öz nəfsi istəklərinə hakim ol. (Onların cilovunu əlində saxla ki, səni çətinliklərə salmasın.) Halal və rəva olmayan şeyləri nəfsinə qıyma, simiclik et. Çünki nəfsə xoşladığı və ya xoşlamadığı şeydə simiclik etmək insaf və ədalətdir. Rəiyyətlə qəlbən mehriban, xoş rəftarlı və yaxşı ol. Məbadə onlara qarşı yeməklərini qənimət bilən yırtıcı heyvan (kimi) olasan. Çünki onlar iki dəstədirlər: Ya sənin din qardaşındırlar, ya da yaradılışda sənin kimidirlər ki, ayaqları sürüşür, pisliklərə səbəb olan amillər onlara üz tutur və bilərəkdən və ya səhvən (bilmədən) onların əllərinə düşür. Buna görə də (məsum olan imam və peyğəmbərlərdən başqa heç kəs səhv və xətadan amanda olmadığı üçün hansısa bir hadisə onları bilərəkdən və ya səhvən pis işlərə salanda, onları bağışlamamağın rəva deyil. Belə isə) Allahın güzəşt edərək səni bağışlamasını istədiyin kimi, sən də güzəşt edib günahlarından keçməklə onları əfv et. Çünki sən onlardan, səni valiliyə göndərən səndən, Allah isə bu hökuməti sənə tapşıran, işlərini yerinə yetirməyini istəyən və səni onlarla sınayandan üstündür. (Sən onlarla nə cür davransan, O da sənin lə elə davranacaq.) Məbadə özünü Allahla mübarizəyə hazırlayasan (dinə qarşı çıxaraq xalqa zülm edəsən) ki, sən Onun qəzəbinə dözə bilməzsən və Onun bağışlamasına və mehribançılıqlarına möhtacsan. Heç vaxt əfv və güzəşt etməkdən peşman, cəzalandırmaqdan şad olma. Düçar olmamağını bacardığın qəzəbə tələsmə. (İtaətsizlik və qəlbiqaralıq üzündən) mən məmuram və (hər nə istəyiramsə) əmr edirəm və gərək mənim əmrimi qəbul etsinlər, demə. Bu, qəlbin qaralması, dinin zəifləməsi və nemətlərin dəyişərək zavala uğramasına səbəb olar. Səltənət və hökumət sənə əzəmət və böyüklük və ya lovğalıq və özündənrazılıq gətirən zaman Allahın səndən üstün olan səltənətinə, həmçinin Onun sənə nisbətdə sənin özünün aciz olduğun şeyə qadir olmasına nəzər sal və bax ki, bu baxış (Onun böyüklüyü barəsində düşünmək və Allahı hər şeyə qalib bilmək) lovğalıq və itaətsizliyi yatırdar, dikbaşlığının qarşısını alar və səndən uzaqlaşmış ağıl və düşüncəni sənə qaytarar. (Bu iş barəsində fikirləşmək sənin özünə gələrək lovğalıq və özündənrazılığı özündən uzaqlaşdırmağına səbəb olar.) Özünü Allahla Onun əzəmətində bir tutmaqdan və qüdrətində özünü Ona bənzətməkdən çəkin. Çünki Allah hər bir itaətsiz lovğanı xar edərək alçaldır. Allahla insaflı davran. (Onun əmrlərinə əməl edərək qadağan etdiklərindən çəkin.) Özün, yaxın qohumların və sevdiyin hər bir rəiyyət tərəfindən xalq barəsində insafı

əldən vermə. (Onlara nə özün zülm et və nə də yaxınlarının və dostlarının sənin adınla zülm etmələrinə imkan vermə.) Əgər belə etməsən zülmkar olarsan. Allahın bəndələrinə zülm edənlə, bəndələrin yerinə Allah düşmən olar. Allah, Onunla düşmən olanın dəlil və sübutunu puça çıxarar (üzrünü qəbul etməz). Həmin kəs (zülmdən) əl çəkərək tövbə edib (düz yola) qayıdana kimi Allahla müharibədə olar. Allahın nemətlərinin dəyişməsində (əldən çıxmasında) və Onun tez qəzəbə gətirilməsində (rəhmətindən uzaq düşülməsində Allahın bəndələrinə) zülm etməkdən təsirli bir şey yoxdur. Çünki Allah, məzlumların dualarını eşidən və zalımların pusqusunda dayanandır (onların intiqamını alacaq). Sənin üçün işlərin ən sevimlisi haqda orta yolu tutmaq, onu bərabərlik baxımından ümumiləşdirmək və rəiyyətin şad olmasına daha çox səbəb olan ədalətlilik olmalıdır. Çünki kütlənin qəzəbi bir neçə nəfərin razılığını məhv edir və kütlənin razılığı müqabilində bir neçə nəfərin qəzəbi əhəmiyyətsizdir. Rəiyyətin valiyə rifah və asayiş zamanı ən ağır yük olanı, çətinliklərdə ən az kömək edəni, ədalət və bərabərlik zamanı ən narazısı, istəklərdə ən çox israr edəni, bəxşiş veriləndə ən az şükr və minnətdarlıq edəni, rədd edəndə üzrü hamıdan gec qəbul edəni, dövranın çətinlikləri müqabilində səbr etməkdə ən zəifi xas təbəqədir. Dinin sütunu, müsəlmanların kütləvi birliyi və düşmənlər müqabilində (onların hücumlarının qarşısını almağa) hazır olan (tezliklə heç bir iş görməyə qadir olmayan bir neçə nəfər xas təbəqə deyil) xalqın ümumi hissəsidir. Buna görə də gərək onlarla birgə olasan və meyl və rəğbətin onlarla olsun. Rəiyyətin, özündən ən çox uzaqlaşdıraraq düşmən saymalı olduğun adamı camaatın eyblərini danışmaqda israr edəni olmalıdır. Çünki camaatın eyb və nöqsanları var və onları örtməyə ən layiq olan kəs, validir. Buna görə də camaatın sənə gizli olan eyblərini axtarma (arama) ki, sənin vəzifən sənə məlum olanları (onların eyb və nöqsanlarından bildiklərini) ört-basdır etməkdir. Səndən gizlin olan şeylər barəsində Allah hökm edəcək. Belə isə Allahın, sənin rəiyyətdən gizlətmək istədiyin eyblərini örtməsi üçün bacardıqca eyblərin (camaatın eyblərinin) üstünü ört. Camaatdan olan bütün kin düyünlərini aç. (Qəlbində onlardan kin saxlama.) Səni intiqam və cəzaya birləşdirən bütün telləri qır. Sənə görə düz olmayan hər bir şeydə özünü bilməməzliyə vur. Qeybətçi və söz gəzdirəni (onun dediklərini) təsdiqləmək və ona inanmaqda tələsmə. Çünki sözgəzdirən özünü öyüd verənlərin simasına salsa da xəyanətkar və hiyləgərdir. (Buna görə də onun dediklərini tez qəbul etmək sonrakı peşmançılığında heç bir fayda olmayan səhvə səbəb

ola bilər.) Öz (işlərin barəsindəki) məsləhətləşmələrinə xəsis adamı daxil etmə ki, o, səni yaxşılıqdan və bəxşiş verməkdən saxlayar, yoxsulluq və kasıblıqla qorxudar; nə ürəksiz və qorxağı (daxil et) ki, o səni işlərdə (onlara girişməkdə) süstləşdirər; nə də həris adamı ki, o, (ehtiyac günü üçün mal toplamaq) hərisliyinin çoxluğundan (xalqa) zülm etməyi sənin nəzərində gözəlləşdirər. Beləliklə, xəsislik, qorxaqlıq və hərislik bir-birindən ayrı müxtəlif xislətlərdirlər ki, Allaha qarşı pis gümanda olmaq onları bir yerə toplayır! Sənin vəzirlərinin (məmləkətin işlərinə təyin edərək nəzər və fikirlərindən istifadə etdiyin kəslərin) ən pisi səndən qabaq şər və pis əməlli insanların vəziri olmuş və günahlarda (nalayiq işlərdə) onlarla şərik və ortaq olmuş vəzirdir. Buna görə də o, (belə bir adam) sənin yaxın və xüsusi adamlarından olmamalıdır. Çünki onlar günahkarların köməkçiləri və zalımların qardaşlarıdırlar (yoldaşlarıdırlar). Halbuki sən onların yerinə (ölkənin işlərində) onlar kimi gözəl düşüncə və yaxşı icraçılıq bacarığına malik olanlar arasından üzərində onların (pis və şər adamların hökumətində mürtəkib olduqları) günah və çirkin əməlləri olmayan, zalıma zülmündə və günahkara günahında yardım etməyərək əlbir olmamış ən yaxşı vəzir tapa bilərsən. Sənin onlara çəkdiyin xərc yüngül (-çünki onlar sənin verdiyin az neməti çox hesab edib müqabilndə təşəkkür və minnnətdarlıq edərlər), onların sənə etdikləri yardım daha gözəl, sənə mehribançılıq üzündən olan meyl və rəğbətləri daha çox və səndən başqası ilə dostluqları daha az olar. Buna görə də onları öz xəlvət (iş) və məclislərində yaxın və xüsusi adamlarından et. Gərək sənin yanında onların ən üstünü o vəzir olsun ki, sənə, acı olan həqiqəti çox söyləyir və səni, Allahın Öz dostları üçün bəyənmədiyi danışıq və davranışında az tərifləyir, hərçənd acı söz və sənin istək və arzularını az tərifləmək ürəyinin sıxılmasına səbəb ola bilər. (Onun acı danışıq və davranışının sənə ağır gəlməsindən və onun bu tərzdə davranmasından şad olmasan da deyilən kimi et.) Pərhizkar və doğruçulara qoşul (həmişə onlarla otur-dur) və onları səni çox tərifləməyə və puç və bihudə işlər görməməyinə (və deyilməsi münasib olmayan şeylərə) görə səni sevindirməməyə vadar et, öyrət (ki, sənin diqqətinin özünə cəlb olunmasına şərait yaratmış olsunlar). Çünki tərifləməkdə çox israr etmək insanı özündənrazı edərək itaətsizlik yaradır. Yaxşı iş görənlə pis iş görən kəs sənin yanında bir səviyyədə olmamalıdır. Çünki bu, yaxşı əməl sahiblərini yaxşılıq etməkdə həvəsdən salar, pis əməlliləri isə pislik etməyə məcbur edər. Onların hər birinə özlərinin seçdikləri şeylə əvəz ver (yaxşı əməl sahibini

mükafatlandır, pislik edəni cəzalandır). Bil ki, valinin rəiyyətə yaxşılıq etməsindən, xərclərini yüngülləşdirməsindən və onlardan əsassız inciməməsindən yaxşı heç nə, onun onlara münasibətdə nikbinliyinə səbəb olmur. Buna görə də gərək bu barədə rəiyyətin barəsində nikbin olmağına səbəb olan işlər görəsən. Çünki nikbinlik səndən çoxlu çətinlikləri uzaqlaşdırar. Sənin ona qarşı nikbin olmağına ən layiqli kimsə, çox yaxşılıq edərək yaxşı sınadığın şəxsdir. Barəsində bədbin olmağına ən layiqli kimsə isə pis rəftar edərək az sınadığın şəxs olmalıdır. (Buna görə də onların yardımına ehtiyacın olanda, səndən pislik və sərtlik görmüş şəxsə deyil, ehsan və yaxşılıq etdiyin şəxsə etimad et.) Bu ümmətin başçı və böyüklərinin əməl etdikləri, (camaat arasında) ülfət və ünsiyyət yaranmasına səbəb olmuş və rəiyyəti (onun işlərini) sahmana salmış gözəl adət və qaydanı (məsləki) pozma. Keçmiş adətlərdən nəyəsə ziyan vuran ənənə və üsulları icra etmə. Çünki (əgər belə etsən, bil ki, xeyir əldə etməyəcəksən) savab və mükafat həmin (gözəl) adət və qaydaların kökünü qoyanın, günah isə həmin adətləri pozduğun üçün sənin olacaqdır. Sənin şəhərlərinin işlərini sahmana salan şeyləri möhkəmləndirmək və səndən qabaqkı insanların bərqərar etdiklərini bərpa etmək barəsində alimlərlə çoxlu müzakirələr və doğruçular, düz əməl sahibləri ilə danışıqlar apar (ki, nəticədə hökumətin həmişəlik qalsın və rəiyyətin işi layiqli tərzdə yerinə yetirilsin). Bil ki, rəiyyət (sənin fərmanın altında olanlar) bir neçə təbəqədən ibarətdir ki, bəziləri (bəzilərinin işləri) yalnız digər bəziləri ilə qaydaya, nizam-intizama düşür, bir dəstə, digər dəstəyə möhtacdır. Beləliklə, onların bəziləri (birincisi, Allahın düşmənlərinin qarşısını almağa hazır olan) Allah orduları, bəziləri (ikincisi) ümumi və xüsusi katiblər, digər bir qismi (üçüncüsü, şəriət hökmlərini xalq arasında ədalətlə icra edən) ədalətli qazılar, başqa bir hissəsi (dördüncüsü) insaflı və mülayim davranan işçilər (hökumət məmurları), bəziləri (beşincisi) himayədə olan cizyə verənlər (mal, can və namuslarının İslamın pənahında olması üçün vergi verən kafirlər) və xərac verən (Allahın haqqını ödəyən) müsəlmanlar, digər bir qismi (altıncısı) tacirlər və sənət sahibləri, başqa bir dəstəsi (yeddincisi isə) möhtac və miskinlərdən ibarət aşağı təbəqədir. Allah bu təbəqələrin hər birinin pay və səhmini zikr edib, onun vacibi ölçü və miqdarını Öz kitabında (Qur'ani-Kərimdə) və ya Peyğəmbərinin (səlləllahu əleyhi və alih) sünnəsində əhd və əmr formasında bəyan edib ki, onlar bizim yanımızda saxlanılaraq qorunub (həmin ölçü və öhdəçiliklər bizim əlimiz çatan yerdədir). Beləliklə, (bu dəstələrin xeyri

budur ki,) əsgərlər Allahın əmri ilə rəiyyət üçün (onları düşmənlərin şərindən qoruyan) qala və istehkam (kimi), valilərin zinət və bəzəyi, dinin izzəti və əmin-amanlıq yollarıdırlar. Rəiyyətin bərqərar olması ancaq onların mövcudluğundan asılıdır. Əsgərlərin nizam-intizam və asayişi isə Allahın onlar üçün müəyyənləşdirdiyi xəracdan (vacib edilmiş haqdan) başqa heç nə ilə təmin olunmur. Onlar, onun vasitəsi ilə düşmənləri ilə vuruşmağa güc və qüdrət əldə edirlər və işlərini sahmana salmaqda ona arxalanırlar. O (xərac), onların (əsgərlərin) ehtiyacları olan zaman işlədilir. Bu iki dəstənin (əsgərlər və xərac ödəyənlərin) dayağı və asayişi isə ancaq üçüncü dəstədən asılıdır ki, o, bağlantılar (alış-veriş və evlənmə məsələləri) barəsində hökm çıxaran qazılar, vergi və xərac toplayan məmurlar, ümumi və xüsusi işlərdə etimad edilən (hesablama işlərini tənzimləyən) katiblərdən ibarətdir. Bütün bu dəstələrin rahatlıq və asayişi isə ancaq gəlir və xeyirlərini toplayıb bazarlar yaradan və özlərindən başqalarının səy və tələşlərinin qura bilmədiyi işləri quran tacir və sənət sahibləri vasitəsi ilə təmin olunur. Bu dəstələrdən sonra möhtac və yoxsullardan ibarət aşağı təbəqə gəlir və (varlılara,) onlara əl tutaraq kömək etmək vacib və lazımdır. Allah yanında bu təbəqələrin hər biri üçün (yoxsulluq və acizlik deyil) gen-bolluq, firavanlıq var. (Buna görə də əgər bəzilərini bəzilərinə möhtac edibsə bu, yoxsulluq və qüdrətin azlığından deyil, hikmət və məsləhətə əsaslanır.) Bu dəstələrin hər birinin, valinin boynunda, onun işini sahmana salmaq miqdarında haqqı var. Vali Allahın ona vacib etdiyi şeyin öhdəsindən ancaq səy və tələş etmək, Allahdan yardım istəmək, özünü haqqın həyata keçirilməsinə hazırlamaq və çətin və asanlığından asılı olmayaraq hər bir işdə səbr etməklə gələ bilər. Buna görə də (işlərin icrasına) əsgərlərindən o adamı təyin et ki, Allah və Onun Peyğəmbəri (Onların razılığını əldə etmək) üçün, həmçinin imam və rəhbərin üçün (ona tabe olmaqda) daha çox öyüd qəbul edən, daha təmiz ürəkli (danışıq və davranışında düz), daha ağıllı və səbrli olsun. Həmin şəxs gec qəzəblənənlərdən, üzrü (günahkarın üzrünü) tez qəbul edənlərdən (rahatlığı qəzəblənərək üzrü qəbul etməməkdə görən qaba və kobud adamlar kimi olmayanlardan), əli altındakılara mehriban, güclü və qüvvətlilərə qarşı isə sərt olub baş əyməyənlərdən, sərtliyin yerindən qopartmadığı (sərtlik nəticəsində zülm etməyə enməyənlərdən) və yumşaqlığın (işlərin icrasında) yerində oturtmadığı (vəzifəsini yerinə yetirməkdən saxlamadığı) kimsələrdən olsun. Buna görə də şərəfli və nəcib ailələrdən olanlar, (xalqa xidmət və Yaradana tabe olmaqda) gözəl keçmişə malik kimsələrlə, həmçinin igidlər,

şücaətlilər, səxavətlilər və comərdlərlə otur-dur. (Ordu və ölkə başçılarını belə adamlardan seç.) Çünki onlar böyüklük toplusu və yaxşılığın qol-budağıdırlar. Belə isə övladlarına can yandıran valideyn kimi onların işlərinə can yandır. Onlara olan və onları qadir edən yaxşılığın, sənə böyük (ağır) gəlməməlidir. Onların müqabilində götürdüyün yoldaşlıq öhdəçiliyini, hətta kiçik olsa da, yüngül saymamalısan (Onlara həmişə yaxşılıq et, istər az olsun, istərsə də çox. Buna görə də əgər onlara böyük yaxşılıq etmək fürsəti qarşıya çıxsa və sən onu etsən, etdiyin yaxşılığı böyük sanma. Həmçinin əgər kiçik bir yaxşılıq etsən onu kiçik sayıb tərk etmə və yerinə yetir.) Çünki yaxşılıq onları sənə xeyirxah və xoşbin edər (və nəticədə əmrlərini lazımınca yerinə yetirərlər). Onların böyük işlərini yerinə yetirməyə arxalanmaq və ümid bəsləməklə az əhəmiyyətli işlərdə onlara kömək etməyi, yardım göstərməyi tərk etmə. (Heç vaxt «mənim kimi böyük işlərdə onlarla birgə olan adam üçün xəstənin halını soruşmağın, yeni dünyaya gəlmiş uşağa görə təbrik deməyin və bu kimi şeylərin elə də əhəmiyyəti yoxdur» demə!) Çünki sənin kiçik yaxşılığının öz yeri var və onlar ondan bəhrələnirlər. Eləcə də böyük yaxşılığının da öz yeri var ki, onlar ona da möhtacdırlar. (Xülasə, kiçik yaxşılığı tərk etmə və onları böyük yaxşılığın intizarında qoyma ki, bu, inciklik və pərişanlığa səbəb olar.) Gərək qoşun başçılarının ən seçilmişi və üstünü qoşunla (mal və sərvət) yoldaşlığında bərabərlik edəni, insaflısı (malın artığında deyil əsli və mayasında özünü onlarla bərabər biləni-çünki artığından bağışlamağa bərabərlik deyilməz) və qoşunun düşmənlə döyüşdə yekdil olması (döyüş zamanı ailələrinin vəziyyətlərinin yaxşı olmamasının qəmini çəkməmələri) üçün öz imkanatından (qoşunun onun əlində olan ərzaqından) asayişdə olmaları miqdarında onlara və ailələrinə ehsan edən kimsə olsun. Çünki sənin onlara qarşı mehribançılığın və kömək etməyin onların qəlblərini sənə doğru yönəldəcək və onları sənə mehriban edəcək. Valiləri şad edən ən gözəl şey şəhərlərdə ədaləti bərqərar etmək və rəiyyətin arasında məhəbbəti üzə çıxarmaqdır. Onların məhəbbəti ancaq sinələrinin (qəzəb və kindən) salamat qalması ilə üzə çıxır. Onlar valilərin qorunmasını istəmələri, onların ətrafında olmaları, hakimiyyətlərini ağır saymamaları və onların (hökumət) müddətinin başa çatmasını gözləməməkdən başqa heç bir şeylə (sağlam sinə ilə) xeyirxah olmurlar. Buna görə də onların arzularını yerinə yetir. Onları yaxşı yad et və sınaqdan keçib əziyyət çəkənlərin çalışqanlıqlarını dilə gətir. Çünki onların yaxşı iş görənlərini yad etmək şücaət sahibini həyəcanlandıraraq hərəkətə gətirər və Allahın istəyi ilə

oturanı (işdən qalanı) həvəsləndirər (yenidən işə başlamağa sövq edər). Buna görə də onların hər birinin zəhmət və işini onun özü üçün hesab et və birinin zəhmətini digərinə nisbət vermə (ki, zəhmətkeş, valinin ədalət və insafına bədbin olmasın və həmçinin başqaları da böyük işlərə girişsinlər). O, işini sona çatdıranda onu mükafatlandırmaqda səhlənkarlıq etməməlisən. Həmçinin kiminsə böyüklüyü səni onun kiçik zəhmət və işini böyük hesab etməyə, eləcə də birinin kiçikliyi onun böyük zəhmət və işini kiçik saymağa vadar etməməlidir. Aciz qaldığın çətin işləri, sənə şübhəli görünən (Allahın, onun barəsində olan hökmünü bilməkdə çaş-baş qaldığın) işləri Allaha (Onun kitabına) və Onun Peyğəmbərinə (onun sünnəsinə) həvalə et. Çünki nöqsan sifətlərdən pak və təmiz olan Allah (Qur'ani-Kərimin Nisa surəsinin 59-cu ayəsində) hidayət etmək istədiyi dəstəyə belə buyurub: «يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الْأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ» «Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə (imam, rəhbər və Həzrət Peyğəmbərin haqq olan xəlifə və canişininə) itaət edin. Əgər bir iş barəsində mübahisə etsəniz (ixtilafa düçar olsanız) onu, Allaha və Peyğəmbərə həvalə edin (belə hallarda onlara müraciət edin, nəfsi istəklər üzündən hökm çıxarmayın ki, bu məhvə səbəb olar).» Deməli, Allaha müraciət etmək Onun kitabından «möhkəm» olanları (mənasında şübhə və tərəddüd olmayanları) götürmək, Peyğəmbərə müraciət isə onun təfriqə yaratmayan və birləşdirici olan sünnəsini (hökmlərini) götürməkdir. Beləliklə, xalq arasında qəzavət və hakimlik üçün rəiyyətin ən yaxşısını seç. Eləsini ki, işlər ona çətin gəlməsin (hər bir hökmün öhdəsindən gəlsin və aciz qalmasın), çəkişməyə düşmüş kəslər dava və qalmaqal barəsində öz nəzərlərini ona qəbul etdirə bilməsinlər, mütəmadi olaraq səhvə yol verməsin, haqqı dərk edəndə ona qayıtmaqda aciz qalmasın (özü öz səhvini başa düşəndə və ya başqası onu səhvindən xəbərdar edəndə inadkarlıq göstərərək öz səhvinə israr edən deyil, ondan qayıdan olsun), nəfsi tamah və hərisliyə meylli olmasın (-çünki tamahkar olsa düzgün hökm çıxara bilməz), lazımınca düşünmədən az anlayışla kifayətlənməsin (bəlkə gərək araşdırma aparsın və axıra kimi lazım olan şeyi əldə etsin), şübhəli məqamlarda dayanaraq hamıdan çox götür-qoy etsin (şübhəli işlərdə həqiqəti əldə etməyincə hökm çıxarmasın), dəlil və sübutları hamıdan çox öyrənib mənimsəsin, şikayətçilərin müraciətlərindən hamıdan az bezsin, işlərin aydınlaşdırılmasında (olan əziyyətlərə) hamıdan çox təmkinli və dözümlü olsun, hökm aydınlaşanda hamıdan qətiyyətli olsun (məsələnin həqiqətini

dərk edən kimi tez onun hökmünü çıxarsın və hökmü gecikdirməsin və mübahisə edən tərəflərin məəttəl qalmalarına səbəb olmasın), çox tərifləmək onu xudbinliyə düçar etməsin və məcburiyyət və kələk onu (iki tərəfdən birinə) meylli etməsin. Bu sifətlərlə zinətlənmiş hakimlər az ələ düşürlər. (Onları tapmaq üçün çox çalışmaq lazımdır.) Bundan sonra onun çıxardığı hökmlərdən ətraflı xəbər tut, yoxla. (Məbada o, sonra düzəldə bilmədiyin səhvə yol vermiş olsun.) Ona o qədər bəxşiş et və yaşayışını elə gen-bol təmin et ki, üzr və bəhanə gətirməsinə yer qoymasın və həmin bəxşiş səbəbindən xalqa ehtiyacı az olsun (və rüşvət almağa heç bir bəhanəsi qalmasın, işlərində düzgün və doğru hökm çıxarsın). Öz yanında ona elə bir məqam və böyüklük ver ki, yaxınlarından başqa birisi onun (aradan götürülməsi) tamahına düşməsin və o, sənin yanında camaatın gözlənilmədən onu puç etməsindən qorxusuz və xatircəm olsun. Beləliklə, qazıları seçmək və onlar üçün saydığım sifətlər barəsində hərtərəfli fikirləş. Çünki bu din şər və pis əməlli adamların əlində əsir olub, onunla nəfsi istəklər əsasında davranılıb və onun vasitəsi ilə dünya istənilib. Sonra məmur və icraçılarının işlərinə nəzər sal, diqqət et. Onları sınaqdan keçirdikdən sonra işə təyin et. (Onların dindarlıq, düzlük və doğruluğunu sınamıyınca bir işə təyin etmə.) Onları öz istəyinlə, onlara kömək məqsədi ilə və özbaşına (məsləhətləşmədən) bir işə göndərmə. Çünki kimisə öz istəyinlə və özbaşına hər hansı bir işə təyin etmək (rəiyyətə) zülm və xəyanət budaqları toplumudur. Onları sınanılmışlardan, nəcib və ləyaqətli ailələrdən olan həyalılardan və İslamda öncül olanlardan istə (təyin et). Çünki onlar gözəl əxlaq və xasiyyətə, düzgün namus və şərəfə (özlərinə ar və bədnamlıq rəva bilməzlər), az tamaha və işlərin sonunu görməkdə düzgün fikrə (uzaqgörənliyə) malikdirlər. Sonra onların ərzaq paylarını gen-bol ver. Çünki bu iş onlara özlərini islah etməkdə (xasiyyətlərini yaxşılaşdırmaqda) qüvvət verir və əllərində olanları (müsəlmanların mallarını) yeməyə ehtiyac duymurlar. Həmçinin əgər əmrinə tabe olmasalar və ya əmanətinə xəyanət etsələr, bu, sənin onlara qarşı dəlil və sübutundur. Sonra onların işlərini təftiş et, yoxla. Onlara doğruçu və vəfalı müfəttişlər göndər. Çünki sənin onların işlərini gizlin şəkildə yoxlamağın onların düz və rəiyyətlə yumşaq və mülayim davranmağa məcbur olmalarına səbəb olar. (Əgər vali onların işlərinə nəzarət etməsə, onlar ədalət və insaf çərçivəsindən kənara çıxar və xalqa zülm edərlər). Özünü (xəyanətkar) yardımçı və köməkçilərdən qoru. Əgər onlardan biri xəyanət və nadürüstlük etsə və müfəttişlərinin onun

xəyanəti barəsindəki xəbərləri bir-biri ilə üst-üstə düşsə, həmin xəbərlərlə kifayətlən. Buna görə də gərək ona bədən cəzası verəsən və onu əməlinə görə tənbih edəsən. Sonra onu dəyərsiz və xar et, ona xəyanət damğası vur və töhmət və bədnamlıq arını (boyunduruq kimi) boynundan as (ki, nadürüst insanlar üçün ibrət olsun). Vergi işində vergi verənlərin xeyrinə araşdırma apar. Çünki verginin və vergi verənlərin xeyrində başqalarının dinclik və rahatlığı var. Başqalarının dinclik və rahatlığı ancaq vergi verənlərin vasitəsi ilə təmin olur. Çünki camaatın hamısı verginin və vergi verənlərin çörəkyeyənləridir. (Buna görə də əgər vergi və vergi verənlərin işləri düz olsa camaat rahatlıq və asayişdə olar. Amma bu məsələyə etina etməsən hamı çətinliyə düşər.) Sən vergi almaqdan çox (vergi alınan) yerlərin abadlığına diqqət yetirməlisən. Çünki vergi ancaq abadlıqla əldə edilir. Abadlıq yaratmadan vergi tələb edən kəs şəhərlərinin viranlığına və bəndələrin məhvinə başlayıb və onun işi ancaq qısa müddət davam edər. Buna görə də əgər vergi verənlər (müəyyənləşdirilmiş verginin) ağırlığından, (məhsula dəymiş) xəstəlik və bəladan, su payının kəsilməsindən (kəhrizlərinin tutulmasından və ya hovuzu və çayın bəndini selin aparmasından və bu kimi şeylərdən), yağış yağmaması və şeh düşməməsindən, suyun (sel və bu kimi şeylərin) örtdüyü yerin dəyişməsindən və ya susuzluğun (əkinləri) məhv etməsindən şikayətlənsələr onların vergilərini işlərinin düzələrək yaxşılaşacağına ümid bəslədiyin qədər yüngülləşdir. Onların yüklərini yüngülləşdirmək sənə ağır gəlməməlidir. Çünki onlara etdiyin bu güzəşt bir ehtiyatdır ki, onu şəhərlərin abadlığı və hökumətinin zinətləndirilməsi ilə sənə qaytaracaqlar. Həmçinin onların nikbinlik və təriflərini özünə cəlb edəcəksən və aralarında haqq-ədaləti bərqərar etməyindən şad və məmnun olacaqsan. Eyni zamanda onların yanında tədarük gördüyün şeylərlə - onlar üçün yaratdığın asayişlə, öz ədalətinlə qazandığın inamları ilə və etdiyin mülayimliklərlə güclərinin artmasına arxalanacaqsan. Beləliklə, qarşıya elə hadisə çıxa bilər ki, etdiyin yaxşılıqdan sonra onu onlara tapşırarsan və onlar onu sevinclə yerinə yetirərlər. Çünki abad məmləkətə hər nə yükləsən çəkə bilər (və bu, rəiyyətin vəziyyətinin yaxşılığı və onların öz hakimlərinə inam və etimadları nəticəsində mümkündür). Yer həmişə, əhalisinin yoxsulluğu üzündən viran olur. Rəiyyətin yoxsul və pərişan olmasının səbəbi isə hökmdarların ancaq (mal-sərvət) toplamaq fikrində olmaları, (hökumət və başçılıqda) qalmağa bədbinlikləri və hadisələr, ibrətlər və dövranın gedişi barəsindəki düşüncələrdən az bəhrələnmələridir. Ondan sonra katiblərinin

vəziyyətinə nəzər sal və onların (davranış və danışığı düz olanının) ən yaxşısını işə təyin et. (Düşmənin qarşısını almaq və dövlətçilik barəsindəki) plan və sirlərini açıqladığın məktubları elə adama həvalə et ki, (dindarlıq, əmanətə sadiqlik, xeyirxahlıq, təmizlik və bu kimi) bütün bəyənilmiş xüsusiyyətlərdə digər katiblərdən zəngin olsun. Elə bir adamı ki, məqam və böyüklük onu, camaatın və böyüklərin hüzurunda sənə qarşı çıxmaqdan çəkinməmək həddinə qədər cürətləndirməsin, qafillik və unutqanlıq məmurlarının məktublarının sənə çatdırılmasında və onlara sənin tərəfindən gözəl cavab verilməsində, eləcə də sənin üçün aldığı və sənin tərəfindən bağışladığı şeylərdə səhlənkarlıq etməsinə səbəb olmasın, sənin xeyrinə olan müqaviləni süst bağlamasın (onu möhkəm və tutarlı yazsın), sənin zərərinə bağlanmış müqavilənin düyününü açmaqda aciz olmasın və işlərdə öz yerini və qədir-qiymətini bilsin. Çünki öz məqam və işini bilməyən kəs başqasının yerini və işini heç bilməz. (Deməli, dövlət və hakimin xüsusi katibi öz rütbə və qədrini bilməlidir ki, hər bir kəsin məqam və işinə də bələd olsun.) Bir də onları öz ayıq-sayıqlığın, inamın və nikbinliyinə əsaslanaraq (işə) təyin etməməlisən. Çünki insanlar (işçi və məmurlar) vali və hökmdarların ürəklərini ələ almaq üçün özlərini bəzədilmiş və yaxşı xidmət edən kimi tanıtdırırlar. (Özlərindən əmanətə sadiqlik, nəfs paklığı və xeyirxahlıq biruzə verir və validən eyb və pisliklərini gizlədirlər ki, onu aldadaraq inam və nikbinliyini qazansınlar və divan işlərinə keçsinlər.) Halbuki (onlarda) özlərindən biruzə verdikləri və özlərini bəzədikləri şeylərin arxasında xeyirxahlıq və əmanətə sədaqətdən əsər-əlamət yoxdur. Lakin onları səndən qabaqkı yaxşılar üçün gördükləri işlərdə sına. Sonra onların xalq arasında tanınmışlarının ən yaxşılarını və əmanətdə məşhur və adı dillərdə olanların ən düzünü seç. Sənin bu sınağın Allaha və işləri sənə tapşıran kəsə (İmam əleyhis-salama) tabe olmağına bir dəlildir. İşlərinin hər biri üçün katiblərindən bir rəis və müdir təyin et ki, işlərin böyüklüyü onu məğlub və aciz, çoxluğu pərişan etməsin. Əgər katiblərində bir eyb və nöqsan olsa və sənin ondan xəbərin olmasa, həmin pisliyə görə səndən də yapışarlar. (Onun məsuliyyəti sənindir.) Sonra tacirlər və sənət sahibləri barəsindəki tapşırıqları qəbul et və (öz məmurlarına) onlara yaxşılıq etməyi tapşır (ki, onların mal və sərvətinə tamah salıb bəhanə gətirərək onları incitməsinlər və həvəsdən salmasınlar), istər onların (bir şəhərdə alıb-satanı və ya şəriki başqa yerdən göndərən və o, şəhərdə qalıb satan) məskunlaşaraq oturaq salanı olsun, istər öz mal və sərvəti ilə get-gəl edəni, istərsə də öz bədəni

(fiziki əməyi) ilə fayda verənlər (öz əl-qolları ilə xalqın ehtiyacı olan şeyləri hazırlayan sənətkarlar)! Çünki onlar mənfəət amili və mənbəyidirlər və malı sənin hakimiyyətinin əhatə dairəsində olan səhra, dəniz, düzənlik və dağlıqların çətin yollar və uzaq nöqtələrindən - camaatın toplaşmadığı və getməyə cürət etmədiyi yerlərdən gətirənlərdir. Beləliklə, tacirlər sərtlik qorxusu olmayan asudəlik, həmçinin şər və pislik gözlənilməyən sülh və barışıq adamlarıdır. Özün olan yerdə və şəhərlərinin kənar-bucağında onların işlərini yoxla. (Uzaq və yaxın yerlərdən onların rahatlığını istə ki, onlara bir zülm və sitəm olmasın.) Onlar barəsində olan bütün tapşırıqlarla bərabər bil ki, onların çoxunda hədsiz hərislik, çirkin və xoşagəlməz xəsislik, baha satmaq üçün möhtəkirlik (malları yığıb saxlamaq) və istədiyi kimi qiymət qoymaq (xisləti) var. Onların bu işləri xalqa ziyan dəyməsinə səbəb olur və bu, valilərə nöqsandır. Buna görə də möhtəkirliyin qarşısını al. Çünki Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) onu qadağan edib. (Möhtəkirliyin qayda-qanununları və onunla bağlı məsələlər fiqh kitablarında açıqlanıb.) Alış-veriş gərək asan, əyər-əskiyi olmayan tərəzilərlə elə qiymətə aparılsın ki, satana və alana zülm və haqsızlıq olmasın. Beləliklə, sənin qadağa qoymağından sonra möhtəkirlik edəni cəzalandır, elə cəzalandır ki, onun rüsvay olmasına (və başqalarının ibrət götürmələrinə) səbəb olsun. Amma həddini keçməsin. Sonra çarəsiz, aciz, yoxsul və möhtaclardan, eləcə də çətinlik, xəstəlik və zəifliyə düçar olmuşlardan ibarət aşağı təbəqə barəsində Allahdan qorx, Allahdan qorx! Çünki bu təbəqə içərisində həm həqirlik və biçarəliyini üzə çıxarıb istəyənlər, həm də bəxşişə möhtac olmasına baxmayaraq, (nəfsi pak olduğu üçün) onu zahirdə bildirməyənlər var. Allahın razılığını qazanmaq üçün Onun Öz haqqından, onlar barəsində sənə əmr etdiyini yerinə yetir və əlində olan beytülmalın bir hissəsini, eləcə də hər bir şəhərdə İslamın qənimət (yolu ilə) aldığı yerlərin taxıl və məhsulunun bir qismini onlara ayır. Çünki onların ən uzaqda olanı ən yaxında olan qədər pay və bəhrəyə malikdir. Səndən onların hər birinin hüquqlarına riayət etmək istənilib. Buna görə də şadlıq itaətsizliyi və naz-nemətə qərq olmaq səni onların halını bilməkdən saxlamasın. Çünki sən, barəsində səy və diqqətin çox olan böyük işləri möhkəmləndirməyin üçün kiçik işləri əldən çıxartmağa görə üzrlü sayılmırsan. Buna görə də səyini onlardan (işlərini düzəltməkdən) əsirgəmə və itaətsizlik səbəbindən onlardan üz döndərmə. Onların (yoxsul və zəiflərin) - gözlərin (camaatın) xar və həqirliklə baxdığı, xalqın kiçik saydığı kimsələrin - sənə əli çatmayanlarının işləri ilə maraqlan,

araşdır. Beləliklə, onlar (onların vəziyyətləri ilə maraqlanaraq araşdırma aparmaq) üçün özünün (Allahdan) qorxan və təvazökar olan inanılmış nümayəndəni təyin et ki, onların işlərini sənə çatdırsın. Sonra onların barəsində elə işlər gör ki, (qiyamətdə) Allaha qovuşacağın (Onun hesab və araşdırma aparacağı) gün üzrünü qəbul etsinlər. Çünki onlar rəiyyət arasında ədalət və insafa başqalarından daha çox möhtacdırlar. (Ona görə ki, onlar öz haqq və hüquqlarını qorumaq qüdrətinə malik deyildirlər.) Beləliklə, onların hər birinin haqqını əda etməkdə Allah yanında dəlil və sübuta malik ol (ki, heç bir məsuliyyət daşımayasan). (Az yaşlı) yetimləri və çarəsiz və (zəiflik ucbatından) özlərini xahişə hazırlamamış yaşlı qocaları öhdənə götür. Dediklərimiz (və sənin üçün proqram kimi müəyyənləşdirdiyimiz şeylərə əməl etmək) valilərə ağır və çətindir. (Ümumiyyətlə) haqqın hamısı ağırdır. Bəzən Allah onu gözəl mükafat və nicat axtaranlara, özlərini səbrə vadar edənlərə və Allahın vəd etdiyinin (əbədi Cənnətin) düzlüyünə inananlara yüngülləşdirər (sonra onlar onu asanlıqla icra edərlər). Vaxtının bir hissəsini sənə ehtiyacı olanlara ayır və həmin vaxt özünü onlar üçün (onların istəkləri ilə məşğul olmağa) hazırlayaraq ümumi məclisdə otur (ki, zəif və biçarələrin sənə əlləri çatsın). Beləliklə, səni yaradan Allaha (Onun razılığını əldə etməyə) görə (onlarla) təvazökar ol. Öz gözətçi və qarovulçularından olan əsgər və qapıçılarını (onlara mane olmaqdan) saxla ki, onların nümayəndələri kəkələmədən, qorxub çəkinmədən danışsın (ehtiyacını istəsin). Çünki mən Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) dəfələrlə belə buyurduğunu eşitmişəm ki: «Heç bir ümmət, zəifin haqqı güclüdən kəkələmədən, qorxub çəkinmədən alınmayınca paklaşmaz, ülviləşməz». Sonra onların sərtlik, kobudluq və söhbət qaydalarını bilməmələrinə döz və üzə vurma. Tündlüyü (pis xasiyyətliliyi) və özünü bəyənməyi (onlarla oturub durmaq və danışmağı özünə sığışdırmamağı) özündən uzaqlaşdır ki, Allah rəhmət qapılarını sənin üzünə açsın və itaət və tabeçilik mükafatını sənə əta etsin. (Onlardan birinə bir şey vermək istəyəndə) bağışladığın şeyi xoş üzlə bağışla (ki, o, istəyənin də ürəyinə yatsın). Həmçinin (əgər onun istəyini yerinə yetirməyə gücün çatmasa və ya onu yerinə yetirməyi məsləhət bilməsən, əsirgədiyin şeyi) mehribançılıq və üzrxahlıqla əsirgə (ki, o, səndən inciməsin və qəlbində sənə qarşı kin saxlamasın). İşlərinin içərisində bəziləri də var ki, onları gərək sən özün yerinə yetirəsən. Onlardan biri məmurlarına (onların mətləblərinə) katiblər aciz qalanda (özlərindən cavab verə bilməyəndə) cavab verməkdir. (Həmin işlə əgər vali şəxsən məşğul

olmasa katib və məmurlarının məəttəlçiliklərinə səbəb olar.) O işlərdən (digər) biri camaatın, (çoxluğuna görə) köməkçilərinin (məmurlarının) darıxmasına səbəb olan istəklərini sənə çatan gün yerinə yetirməyindir (onlara cavab verməyindir. Məmurlar öz rahatlıqları üçün həmin işləri dala atmaq istədikdə onlara sən özün baxmalı və onları təxirə düşməyə qoymamalısan). Hər günün işini həmin gün gör. Çünki hər günün özünə məxsus işi var. Vaxtın ən gözəl və fəzilətlisini özünlə Allah arasında olan şeylər (ibadət və bəndəlik) üçün müəyyənləşdir, ayır. (Məsələn, namazı bütün işləri yerinə yetirib qurtardıqdan sonra yorğun və həvəssiz deyil, ilk vaxtda, qıvraq və enerjili vaxtında qıl.) Hərçənd ki, əgər onda niyyət və məqsəd pak və rəiyyət ondan asayişdə olsa (xalqın işinə həsr etdiyin) vaxtların hamısı Allaha məxsusdur. Ancaq və ancaq Allaha görə olan vacib əməllərin yerinə yetirilməsi, gərək dinini Allah üçün xalisləşdirdiyin xüsusi vaxtda olsun. (Vaxtın ən yaxşısını ibadətə həsr etmək lazım olduğu kimi, ibadət vaxtlarının ən yaxşısını da vacib ibadətlərin yerinə yetirilməsində sərf etmək lazımdır.) Beləliklə, gecə və gündüzündə (onların bir hissəsində) bədənini Allahın ixtiyarında qoy (Ona ibadət et). Vasitəsi ilə Allaha yaxınlaşdığın şeyə (vacib əmələ) vəfalı ol. Çalış ki, (soyuq havada dəstəmaz almaq və isti havada oruc tutmaq kimi şeylər) bədənini əzginləşdirsə də, onları kamil şəkildə, eyb və nöqsansız (riyasız, özünü göstərmək və başqalarının diqqətini cəlb etmək məqsədi olmadan) yerinə yetirəsən. Namazını camaatla qılanda (camaat namazında, onu uzadaraq) xalqı özündən uzaq və incik, namazı isə (vacib yerlərini tərk etməklə) zay və xarab etmə. Çünki camaat içərisində əlil, xəstə, möhtac və işi olan var (ki, əlil və xəstənin namazı uzatmaq taqəti və gücü, işi olanın isə vaxtı yoxdur). Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) məni Yəmənə göndərəndə soruşdum ki, onlarla necə namaz qılım? Buyurdu: «Onlarla ən zəif və acizləri kimi namaz qıl və möminlərə qarşı mehriban ol!» Bu göstərişlərdən sonra məbada özünü rəiyyətin gözündən çox gizlədəsən. Çünki valilərin rəiyyətə görünməməsi sıxıntı (qanısoyuqluq), az elmlilik və işlərdən xəbərdar olmamağın bir hissəsidir. Həmçinin valilərin rəiyyətə görünməməsi (ölkə və rəiyyətin vəziyyəti barəsində) onlara gizli olan şeylər haqqındakı məlumatları örtülü saxlayır. Beləliklə, (belə olan halda, bəzən) valinin yanında böyük iş kiçik, kiçik iş isə böyük, gözəllik çirkinlik, çirkinlik isə gözəllik görünər və haqq və düzlük batil və nadürüstlüyə qarışar. Vali də adi bir insandır ki, xalqın ondan gizlədilən işlərindən xəbərdar ola bilmir.

Haqqın da elə bir əlamətləri yoxdur ki, onların vasitəsi ilə düzlə yalanın növləri tanınsın. Sən iki adamdan birisən: Biri budur ki, haqq və düzlüyü əda etməkdə səxavətli və əliaçıqsan. Belə olan halda, vacib haqqı əda etməyin və ya gözəl iş görməyin üçün üzə çıxmamağının səbəbi nədir? Yaxud da sən bərk və bəxşiş etməyən bir adamsan. Belə olan halda, (yenə də görünməməyə bir dəlil yoxdur, çünki) tezliklə xalq səndən bir şey istəməkdən əl çəkər. Çünki sənin bəxşişindən naümid olar. Halbuki xalqın səndən istəklərinin çoxu xərc və zəhməti olmayan - (onlara edilmiş) zülmdən şikayətlənmək (və onun qarşısının alınmasını səndən istəmələri), yaxud davranış və rəftarlarda insaflı və ədalətli olmağı istəmək kimi şeylərdir. Sonra (bil), valilərin bəzi yaxınları və qohumları var ki, özbaşınalıq, itaətsizlik, (xalqın malına) əliuzunluq və insafsızlığa adət ediblər (və rəiyyəti çətinlik və əziyyətə salırlar). Həmin sifətlərə səbəb olan amilləri kəsib uzaqlaşdırmaqla onların (şərlərinin) kök və əsaslarını qurut. (Ədalətli ol və ölkənin daxili vəziyyətindən xəbər bil ki, onlar sənin ədalətsizlik və xəbərsizliyindən özbaşınalıq, əliuzunluq və insafsızlıqlarına vasitə kimi istifadə edib rəiyyəti incitməsinlər.) Ətrafında olanlardan, əhli-beytin və qohumlarından heç kəsə torpaq vermə. Gərək heç kəs səndən tarla və əkinəcək alıb onun qonşuluğundakı camaata su mənbəyində ziyan vurmaq, yaxud müştərək görülməli işdə şərikli işin çətinlik və ağırlığını qonşulara yükləmək tamahına düşməsin. Belə olan halda, onun xeyir və mənfəəti sənin deyil, onların olacaq. Onun dünya və axirət eyb və məzəmməti isə sənə qalacaqdır. Haqq layiqli və bəyənilən olduğu üçün yaxından və uzaqdan (qohum və yaddan) olmasından asılı olmayaraq onu icra et. Bu işdə səbrli və (Allahdan) əvəz istəyən ol, hətta haqqı icra etmək nəticəsində qohum və yaxınlarına hər nə olsa belə! (Məsələn haqqı icra etmək üçün qohumlarından birindən qisas almaq lazım gəlsə də, et bunu.) Sənə olan ağırlıqla (və yaxınlarına olan çətinliklə), haqqın sonuna bax ki, (onun sonu) bəyənilən və bərəkətlidir. Əgər rəiyyət sənin barəndə zalımlıq gümanında olsa, üzr və dəlilini onlara açıqla və bu açıqlama ilə onların gümanlarını özündən uzaqlaşdır. Çünki sən bu işlə özünü (ədalət və insafa) öyrəşdirərək adət verər və rəiyyətə mehribançılıq göstərmiş olarsan. Həmçinin bu üzr gətirməklə sən onları haqqa vadar etmək barəsindəki istəyinə çatmış olarsan. (Onların sənin barəndə pis gümanda olmaları və səni məzəmmət etmələrindən qurtulmaq istəyirsənsə öz üzrünü açıqla ki, səhvdən çıxaraq sənin məhəbbətini qəlblərinə salsınlar.) Düşməninin səni çağırdığı və Allahın da razılığı olan sülh və barışıqdan

boyun qaçırma. Çünki barışıqda ordunun rahatlığı, qəm-kədərin asayişi və şəhərlər (onların əhalisi) üçün əmin-amanlıq vardır. Amma barışıqdan sonra düşmənindən çəkin və qorx. Çünki çox vaxt düşmən, özünü yaxınlaşdırır ki, (tərəf müqabilini) qəfildən haqlasın (sonra onun işini bitirsin, yaxud da onu çətinliyə salsın). Buna görə də ehtiyatlı olmağa və işi möhkəm görməyə adət et və tez, nikbinlik və yaxşı güman yükünün altına girmə. Əgər düşmənlə bir əhd bağlasan və öz tərəfindən ona aman (paltarı) geyindirsən (pənah versən), əhdinə vəfa et və verdiyin pənah və sığınacağa riayət et, özünü bağladığın əhd-peymana sipər et. Çünki insanlar, ziddiyyətli istəklərə və fikir ayrılığına malik olmalarına baxmayaraq, Allahın vacib buyurduqları içərisində əhdə vəfa etməyi uca tutmaq kimi heç nə barəsində yekdil deyildirlər. Müşriklər də müsəlmanlardan qabaq öz aralarında əhdə vəfa etməyi zəruri bilirdilər. Çünki əhdi pozmağın xoşagəlməz və pis nəticələrini başa düşmüşdülər (dadmışdılar. Belə isə müsəlmanlar onu yerinə yetirməyə daha layiqdirlər). Buna görə də öz verdiyin amana xəyanət edib əhdini pozma və düşmənini aldatma. Çünki (əhdi pozmaq Allaha qarşı çıxmaq və cürət etməkdir və) bədbəxt nadandan başqa heç kəs Allaha qarşı çıxmaz, cürət etməz. Allahın əhdi Onun rəhmət və mehribanlıqla bəndələri arasında yaydığı əmin-amanlıq və rahatlıqdır. (Onlara hərc-mərclik, qətl və fəsaddan qurtulmaları üçün əhdlərinə riayət etmələrini əmr edib.) Onu sığınacaq edib ki, möhkəmliyi ilə yaşayaraq ona pənah aparsınlar. Buna görə də onu pozmaq və onda hiylə işlətmək rəva deyil. Elə bir əhd-peyman bağlama ki, onda başqa yerə yozmaq, bəhanə gətirmək və hiylə və kələk işlətmək yolu olsun. Əhd-peymanı bərqərar edib möhkəmləndirdikdən sonra ikibaşlı söz işlətmə. Barəsində Allahın əhdinə (başqası ilə bağladığın peymana) riayət etməli olduğun işin çətinliyi səni, onu nahaq yerə pozmağa vadar etməsin. Çünki sənin, mükafatında asayiş və artım olmasına ümidvar olduğun çətin işə səbr etməyin, dünya və axirətdə əfv və bağışlanmasını istəmək yolu olmayan və bunu edə bilməyəcəyin hiylə və kələyin günah və cəzasından və Allah tərəfindən sorğu-suala tutulmağından qorxmaqdan daha yaxşıdır. (Başqası ilə bağlanmış peymana riayət edilməsinə təkid etmək və onu pozmaqdan qorxutmaq üçün İmam əleyhis-salam onu Allahın peymanı adlandırıb.) Qanlardan (adam öldürməkdən) və onu nahaq yerə tökməkdən qorx. Çünki nahaq qan tökmək kimi heç nə əzab və cəzanın çoxluğuna, sorğu-sualın böyüklüyünə, nemətin əldən çıxmasına layiq olmağa və ömrün sona çatmasına səbəb olmur. Nöqsan sifətlərdən pak olan Allahın, qiyamət günü,

barəsində bəndələr arasında hökm edəcəyi ilk şey tökülmüş qanlar olacaqdır. Buna görə də hökumətini haram qan tökməklə (dinin hökmlərinin əksinə adam öldürməklə) möhkəmləndirərək bərqərar etmək istəmə. Çünki haram qan tökmək hökuməti zəiflədərək süstləşdirən, hətta onu aradan aparan və (bir sülalədən digər sülaləyə) keçirən işlərdəndir. Sən qəsdən adam Öldürmək barəsində nə Allahın və nə də mənim yanımda üzrlü hesab edilməzsən. Çünki həmin təqdirdə (sözsüz-söhbətsiz) bədən qisası almaq (başqasını öldürdüyün kimi öldürmək) lazım gəlir. Əgər xəta və səhv üzündən başqasını öldürsən, qamçın və ya qılıncın işkəncə verməkdə həddini aşsa (hadisə, qəsd olmadan qətl ilə nəticələnsə) – deməli, yumruq vurmaq və ondan yuxarısı da öldürməkdir (bəzən ölümə səbəb olur) - hökumət qürurun səni, öldürülmüş şəxsin sahib və qohumlarına onun qanbahasını ödəməkdən saxlamamalıdır. (Tam təvazökarlıqla gərək onun qanbahasını ödəyəsən.) Özünü bəyənməkdən, səni məğrurluğa sövq edən şeylərə arxalanmaqdan və camaatın səni çox tərifləmələrini sevməkdən çəkin. Çünki bu hal şeytanın yaxşı əməl sahiblərinin yaxşılıqlarını aradan aparması üçün ən mühüm fürsətlərindəndir. (Şeytan həmişə belə fürsətin ələ düşməsini gözləyir. O, insanı məğrurluğa və tərifi sevməyə sövq edir ki, gördüyü yaxşı iş təsirsiz olsun.) Rəiyyətə, etdiyin yaxşılığa görə minnət qoymaqdan, gördüyün işi olduğundan artıq saymaq və ya ona verdiyin vədə vəfa etməməkdən çəkin. Çünki minnət qoymaq yaxşılığı nəticəsiz edir. İşi olduğundan artıq güman etmək (bir növ məğrurluq, zülm və yalandır və) haqqın nurunu söndürür (yaxşılıq və düzlüyü savabsızlaşdırır). Vədə vəfa etməmək də Allahın və xalqın qəzəbinə səbəb olur. Allah-təala (Səff surəsinin 3-cü ayəsində) buyurub: «كَبُرَ مَقْتًا عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ» «Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar.» Vaxtı çatmamış işlərdə tələsməkdən, çatılan zaman onların arxasınca düşüb bərk çalışmaqdan, kələfin ucu məlum olmayan zaman inadkarlıq göstərməkdən, yaxud ələ düşəndə onlarda süstlük göstərməkdən çəkin. Beləliklə, hər bir şeyi öz yerinə qoy və hər bir işi öz vaxtında yerinə yetir (ki, ədalət, bərabərlik və düzlük budur). Xalqın bərabər olduğu şeyi ancaq özünə məxsus etməkdən qorx. Hamının bildiyi işlərdə sənin diqqət etməli olduğun şey barəsində özünü nadanlığa vurmaqdan çəkin. (Malik olmadığın haqqı tələb etmə və heç edilmiş, tapdanmış haqqa göz yumma.) Çünki o, (zülmlə aldığın şey) səndən, başqası (məzlum) üçün geri alınacaqdır. Tezliklə işlər üzərindən pərdələr götürülər (gizlin olan şeylər üzə çıxar) və məzlumun və zülmə məruz qalanın haqqı səndən alınar. Qəzəbin

şölələnəndə, itaətsizliyin kəskinləşəndə, əlinlə hücum edəndə və dilin acılaşaraq çirkin sözlər danışanda özünü ələ al. Tələsməmək və hücumu təxirə salmaqla bu çirkin işlərdən çəkin ki, qəzəbin yatsın və (həmin vaxt) güc və ixtiyar taparaq özünü ələ alarsan. Rəbbinə doğru qayıdacağını çox yadına salıb fikirləşməyincə özünü ələ ala bilməyəcək, qəzəbdən qurtulmayacaqsan. Sənə səndən əvvəlkilərinin başlarına gələnləri – çıxardıqları ədalətli və düzgün hökmləri, yaxud əməl etdikləri gözəl ən'ənələri, yaxud da Peyğəmbərimizdən (səlləllahu əleyhi və alih) nəql etdikləri xəbərləri, ya da Allahın kitabındakı vacib əməlləri yerinə yetirmələrini - yada salmaq vacibdir. Beləliklə, bu işlərdən əməl etdiyimizi gördüyün şeyləri sən də et və bu əhdnamədə sənə tapşırdıqlarıma tabe olmağa çalış. Mən bu əhdnamə ilə sənə (ünvanlanmış) dəlillərimi möhkəmləndirdim ki, nəfsin istəklərə doğru tələsəndə heç bir bəhanən olmasın. Allahdan başqa pislikdən qoruyan və yaxşı işə nail edən heç bir kimsə qətiyyən yoxdur. Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) mənə olan vəsiyyətlərində əhd bağlayaraq tapşırdığı şey namaz və zəkata, eləcə də qullarınızla mehriban olmağa təşviq etmək və (bu yolda) çalışmaq idi və mən o Həzrətin vəsiyyət və tapşırığını sənə yazdığım əhdin sonluğu edirəm. Uca və əzəmətli Allahın iradə və istəyi olmadan heç (kəsdə) bir hərəkət və qüdrət yoxdur.

Bu da həmin əhdnamənin bir hissəsi və sonudur

Və mən Allahdan istəyirəm ki, rəhminin genişliyi və hər bir mətləbi vermək qüdrətinin böyüklüyü ilə məni və səni razılığı onda olan şeyə - Onun və yaratdıqlarının qarşısında aşkar üzrə malik olmağa, bəndələr arasında yaxşılıqla xatırlanmağa, şəhərlərdə gözəl nişanələr qoymağa, neməti tam və izzəti artıq olmağa müvəffəq etsin. Həmçinin mənim və sənin həyatını səadət və şəhadətlə (Allah yolunda öldürməklə) sona çatdırmasını diləyirəm. Biz Ona tərəf dönəcəyik. (Onun rəhmət və mərhəmətini axtarırıq.) Salam olsun Allahın elçisinə (Həzrət Mustafaya); ona və onun (hər bir eyb və nöqsandan) pak və təmiz Əhli-Beytinə Allahın salamı olsun!

İmam Əli əleyhis-salamın Təlhə və Zübeyrə olan məktublarındandır ki, (onda onların əhdlərini pozmaq haqqına malik olmadıqlarını isbat edib və) onu İmran ibn Hüseyn Xüzai vasitəsi ilə göndərib. Əbu Cə'fər (Məhəmməd ibn Addullah) Eskafi onu Əmirəl-möminin fəzilətləri barəsində yazdığı «Məqamat» kitabında bəyan edib. Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Gizləsəniz də bilirsiniz ki, camaat məni (mənə bey'ət etmək) istəyənə kimi mən onların fikrinə düşmədim (onların bey'ət etmələrini istəmirdim) və onlar mənə əl uzadana kimi, mən (bey'ət almaq üçün) onlara tərəf əl uzatmadım. Siz mənə tərəf gəlib bey'ət edən kimsələrdən idiniz. Xalq mənə nə (malik olduğum) güc və qüdrətə və nə də mövcud mal və sərvətə görə (ona tamah salıb) bey'ət etməyib. (Onlar öz ixtiyar və istəkləri ilə əl uzadaraq bey'ət ediblr.) Buna görə də əgər siz mənimlə ixtiyari surətdə bey'ət edib əhd bağlamısınızsa, nə qədər ki, gec deyil (onu pozmaqdan) qayıdın, (bu çirkin işdən) tövbə edib Allaha tərəf dönün. Əgər ürəksiz əhd bağlamısınızsa, itaət və tabeçiliyi üzdə göstərib (bey'ət edib) günah və itaətsizliyi gizlətməklə (ürəksiz əhd bağlamaqla) mənim (sizi sorğu-suala tutub cəzalandırmağım) üçün yol açmısınız (ki, sizdən «əgər batində meyliniz yox idisə, heç bir məcburiyyət və zor olmadan nə üçün bey'ət etdiniz?» deyə soruşum). Canıma and olsun (ki, mənimlə meyl və rəğbətlə, malik olduğunuz nadürüst məqsədə görə bey'ət etmisiniz. İndi həmin məqsədinizə çatmadığınız üçün əhdinizi pozmusunuz. Çünki) siz təqiyyə etməyə, qorxmağa və mənimlə bey'ətə könülsüzlüyünüzü bildirməməyə, Mühacirlərdən daha layiqli deyildiniz. (Ona görə ki, siz onlardan güclü idiniz və sizə güc gələrək zor işlətmək imkanı daha az idi.) Sizin üçün bey'ətə daxil olmamışdan onun yükünün altına girməməyiniz, onu qəbul etdikdən sonra əhdinizi pozmaqdan daha asan idi. (Öz əhdlərinizi pozmaq üçün hazırladığınız bəhanə budur ki,) siz Osmanı mənim öldürməyimi güman edirsiniz (və həmin bəhanə ilə siz, onun intiqamını almaq üçün mənimlə müharibə etmək fikrinə düşmüsünüz). Belə isə mənimlə sizin aranızda Mədinə əhalisindən (Məhəmməd ibn Müslimə, Usamə ibn Zeyd və Abdullah ibn Ömər kimi) şəxslər var ki, həm məndən, həm də sizdən uzaqlaşıblar (heç birimizə kömək etmirlər. Qoy onlar

şəhadət verib Osmanın qatilinin kim olmasını desinlər). Beləliklə, (əgər onlar Osmanı kimin öldürməsini desələr, bizlərdən) hər bir kəs, (barəsində verilmiş şəhadət əsasında) bu işdə əli olan miqdarı, boynuna almağa məcbur edilsin (və ondan qisas alınsın. Şübhəsiz ki, əgər onlar şahidlik etsəydilər Təlhə ilə Zübeyrin, Osmanın öldürülməsinin səbəbkarı olmaları, İmam əleyhis-salamın isə bu işdən uzaq olması məlum olardı.) Buna görə də ey qocalar, fikrinizdən daşının. (Nahaq yerə bəhanə gətirməyin və müharibə edib qan tökməkdən əl çəkin.) Çünki indi – (qiyamət günündəki) rüsvayçılıq ilə od bir yerə toplaşmamışdan, (dünyada) sizin qarşınıza çıxacaq ən böyük iş xəcalət və ardır. (Sizin barənizdə «peşman olub tövbə etdilər, qayıtdılar» deyilməsi, Həzrət Peyğəmbərin səhabələrinin öz zəmanələrinin imamı ilə müxalifət səbəbindən ilahi əzaba düçar olmalarından daha yaxşıdır. Çünki burada ar ilə od bir yerə toplanıb.) Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Müaviyəyə (nəsihət yönümlü) məktublarındandır. Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: nöqsan sifətlərdən pak və uzaq olan Allah, dünyanı axirət üçün yaradıb və (bütün gizlin və aşkar olan şeyləri bilməsinə baxmayaraq) dünya əhlini onda sınağa çəkib ki, onlardan hansının əməllərinin daha yaxşı olmasını bilsin (başqalarına göstərsin). Biz dünya üçün yaradılmamışıq və onun (işləri) üçün çalışmağa göndərilməmişik. (Hamının ruzi əldə etmək üçün çalışmağa məcbur olmasına baxmayaraq, əsas səy və tələş axirət işləri üçün olmalıdır.) Bizi dünyaya onunla sınanmağımız üçün gətiriblər (ki, yaxşı əməl sahibləri ilə pis əməl sahibləri məlum olsunlar). Allah məni səninlə və səni mənimlə sınayıb və bizim birimizi digərimizə dəlil-sübut edib. Sən dünyanı əldə etmək üçün Qur'anı yozmağa tələsdin. Məndən, əlim və dilim cinayət və günahına batmadığı şeyi (Osmanın qanını) istəyibsən. (Nə özüm onu öldürmüşəm, nə də onun öldürülməsinə göstəriş vermişəm.) Sən Şam əhli ilə məni Osmanın qanında günahlandırdınız. Aliminiz cahilinizi, duranınız oturanınızı təhrik etdi. (Bu cür nadürüst sözlərlə bir-birinizi mənə qarşı ayağa qaldırdınız.) Buna görə də özün barəsində Allahdan qorx. Şeytana müqavimət göstərərək cilovunu onun çəngindən çıxart. Bizim və sənin yolun olan (hamımızın gedəcəyimiz) axirətə üz tut. Allahın, səni Öz tərəfindən əsl və kökünə işləyərək nəslini kəsən təcili bəlaya düçar etməsindən qorx. (O, elə bəla olar ki, səndən və nəslindən əsər-əlamət qoymaz). Mən, sənə görə, Allaha doğru olan bir and içirəm ki: əgər (insanları) bir yerə toplayan tale, mənimlə səni qarşılaşdırsa, həmişə səninlə qalacağam «حَتَّى يَحْكُمَ اللهُ بَيْنَنَا وَهُوَ خَيْرُ الْحَاكِمِينَ» «O vaxta kimi ki, Allah bizim aramızda Öz hökmünü versin (səni etdiyin zülm və haqsızlığın cəzasına çatdırsın). Axı O, hökm verənlərin ən yaxşısıdır!» (Ə'raf surəsi, 87-ci ayə)

İmam Əli əleyhis-salamın (barəsində on birinci məktubun şərhində bir az izahat verilmiş) Şüreyh ibn Haniyə onu (və Ziyad ibn Nəsri) özünün (Müaviyə ilə müharibə etmək məqsədi ilə) qabaqda Şama gedən (on iki min nəfərlik) qoşununa başçı təyin edən zaman buyurduğu tövsiyələrindəndir.

Hər səhər-axşam Allahdan qorx. (Onun göstərişlərinə zidd iş görmə.) Nəfsin barəsində aldadıcı dünyadan çəkin. Heç vaxt ondan əmin və xatircəm olma. Bil ki, əgər nəfsini sevdiyin şeylərin çoxundan (nəticədə sənə çatacaq) xoşagəlməzliklərinə görə saxlamasan və qarşısını almasan, arzu və istəklər sənə çoxlu zərər-ziyan vuracaq. Buna görə də nəfsinin (şəhvət və istəklərinin) qarşısını alaraq ona mane ol və qəzəb zamanı özündən çıxmağı özündən uzaqlaşdır.

İmam Əli əleyhis-salamın Mədinədən Bəsrəyə (Cəməl tərəfdarları ilə müharibə etmək üçün) hərəkət edərkən Kufə əhalisinə olan məktublarındandır (ki, onda, onlardan kömək istəyib). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: mən öz qəbiləmin məkanından (Mədinədən, Bəsrəyə getmək qəsdi ilə) çıxdım, halbuki (həqiqəti dərk etməyib öz zəmanəsinin imamını tanımayan şəxsin nəzərində) ya zalımam, ya da məzlum, ya təcavüzkaram, yaxud da təcavüzə məruz qalan. (Hər halda) mən, Allahı bu məktubum çatan hər bir kəsin yadına salıram ki, tez yanıma gəlsin. Əgər hərəkətim düz olsa (görsə ki, bu işdə düzgün davranıram), mənə kömək etsin. Hərəkətimin düz olmamasını gördükdə isə, məndən düzlüyə və onların razı olduqları şeyə qayıtmağı istəsin.

İmam Əli əleyhis-salamın şəhərlərin əhalisinə olan məktublarındandır ki, onda özü ilə Siffeyn (müharibəsində Şam) əhalisi arasında baş verənləri bəyan edib.

"İşimizin əvvəlində biz Şam əhli ilə zahiri görünüşdə Rəbbimiz bir, Peyğəmbərimiz bir və (camaatın hidayət və nicat istiqamətində) İslamda təbliğ üsulumuz eyni imiş kimi qarşılaşdıq. Biz onlardan Allaha və Onun Peyğəmbərinə imanlarını artırmalarını istəmirdik. Onlar da bizdən bunu istəmirdilər. (Amma zahirdə) iş bərabər və yeksan idi və Osmanın qanı məsələsindən (və bizim onun qatillərinə kömək etməkdə günahlandırılmağımızdan) başqa, aramızda heç bir ixtilaf və fikir ayrılığı yox idi. Biz həmin işdən uzaq və kənar idik. Buna görə də (onlar bu bəhanə ilə müharibəyə şərait yaradanda) onlara belə dedik: Gəlin bu gün fitnə alovunu söndürmək və xalqa rahatlıq verməklə bundan (müsəlmanların qanlarının vuruşda axıdılmasından) sonra əlac edə bilməyəcəyimiz şeyə çarə qılaq ki, işlər möhkəmlənərək qaydasına düşsün və biz haqqı öz yoluna qoya bilək. Dedilər: (Yox,) biz bu işə düşmənçilik və döyüşlə çarə qılacağıq! Beləliklə, (bizim nəsihətimizdən) boyun qaçırdılar və nəhayət, müharibə başlandı, onun şölələri qızışdı və iş çətinləşdi. Müharibə və döyüş bizi və onları dişinə alıb caynaqlarını bizə və onlara batıran zaman (döyüş ağırlaşanda və onlar məğlubiyyətə uğradıqlarını görəndə), onlar bizim (müharibədən qabaq, tərəfinə) çağırdığımız şeyi qəbul etdilər. Bu halda (bizdən döyüşdən əl götürməyimizi istədilər və biz) onların çağırışlarını qəbul edib istəklərinə doğru tələsdik ki, dəlilimiz (bizim haqq olmağımız) onlara aydınlaşsın və heç bir bəhanə yerləri qalmasın. (Biz onların istəklərini ona görə qəbul etdik ki, bizim məqsədimizin qan axıdılması olmamasını bilsinlər. Başa duşsünlər ki, bizim onlarla müharibə etmək haqqımız var idi. Ona görə ki, Osmanın qətlə yetirilməsi onlar üçün müxalifət etmək və vuruşmağa bəhanə və dəlil deyildi.) Buna görə də onlardan hər kim bu sözdə (bizi çağırdıqları və bizim də qəbul etdiyimiz Allahın kitabında) möhkəm olsa, deməli, Allah onu həlak və məhv olmaqdan qoruyub. İnadkarlıq göstərərək öz azğınlığında qalan

kimsə isə öz əvvəlki halına qayıdıb (əhdini pozub), Allah onun qəlbini (qəflət pərdəsi) ilə örtüb və onun başında pis hadisələr fırlanır. (Xülasə, Allahın kitabına tabe olan kəs xoşbəxt, ona arxa çevirən isə bədbəxt və ilahi əzaba düçar olacaq.)"

←58-ci məktub

Nəhcül-bəlağə. 59-cu məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

60-cı məktub→

İmam Əli əleyhis-salamın Hülvan qoşununun başçısı Əsvəd ibn Qütbəyə məktublarındandır. (Hülvan Bağdad ilə beş günlük yol fasiləsi olan bir şəhərdir. «Rical» alimləri Əsvəd ibn Qütbə barəsində bir şey yazmayıblar. Amma çox ehtimal ki, o, gözəl şəxsiyyətlərdən olub. İmam əleyhis-salam bu məktubda ona ədalətli olmağı əmr edib.) Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: valinin (hər bir kəs və hər bir işə münasibətdə) meyl və istəyi eyni olmasa, bu davranış onu, ədalətliliyin çoxundan saxlayar. Buna görə də camaatın (özününkü və yadın, böyük və kiçiyin, imkanlı və imkansızın) haqq olan işi sənin yanında bərabər olmalıdır. Çünki zülmün yerinə ədalətin və insafın nəticəsi və mənfəəti əldə edilməz. Bənzərini bəyənmədiyin işdən uzaq ol. (Başqalarının yerinə yetirmələrini layiqli saymadığın işi görmə.) Nəfsini, savabına ümid bəsləyib cəzasından qorxaraq Allahın sənə vacib etdiklərinə vadar et. Bil ki, dünya çətinlik diyarıdır. İnsan onda heç vaxt bir saat asudə və rahat olmayıb. Əgər olubsa da həmin saatın rahatlığı qiyamət günü onun qəm-kədərinə səbəb olar. Bil ki, heç vaxt heç bir şey səni haqdan ehtiyacsız edə bilməz. (Buna görə də batil və nahaq şeylərin ətrafına belə fırlanma.) Sənin boynunda olan haqlardan biri öz nəfsini (nəfsi istəklər və itaətsizlikdən) saxlamaq və rəiyyətin işlərində çalışaraq onların çatışmazlıqlarını islah etməkdir. Çünki bu yol ilə (Allahdan) sənə çatacaq xeyir və savab, sənin vasitənlə (rəiyyətə) çatan xeyirdən daha çoxdur. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın (qoşunun yolu üstündə yerləşən və) ordunun keçəcəyi yerlərin valilərinə məktublarındandır (ki, onlar və rəiyyət barəsində bəzi tapşırıqlar verib). Allahın bəndəsi Əmirəl-möminin Əlidən ordunun, (yerlərindən) keçəcəyi şəhərlərin xərac toplayanlarına və valilərinə: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mən sizdən (yerlərinizdən) keçəcək qoşunu yola saldım və onlara (camaatı) incidərək pislik etməmək kimi Allahın onlara vacib etdiklərini tapşırdım. Mən sizin özünüzün və (pənahınızda olan) zimmə əhlinizin yanında ordunun ziyan vurması barəsində pak və günahsızam. Ac və aciz olan və qarnını doydurmaq üçün (rəiyyətin malından özü və ya onun özü kimi sayılan atının doyması miqdarında götürməkdən başqa) bir yol tapmayan kəs istisnadır (və bu cür ziyan rəvadır). Buna görə də (ac və möhtac olmayan və) zülm üçün (camaatın malına) əliuzunluq edən qoşunu özünüzdən uzaqlaşdıraraq cəzalandırın. İcazə verdiyim şeydə ağılsızlarınızı onlara mane olaraq hörmətsizlik etməkdən saxlayın (ki, fitnə və çaxnaşma yaranmasın). Mən ordunun arxasındayam. Beləliklə, onların sizə etdikləri zülmləri, həmçinin onların Allahın köməyi və mənə müraciətdən başqa heç bir şeylə qarşısını ala bilmədiyiniz, rəftarları nəticəsində qarşılaşdığınız çətinlikləri mənə xəbər verin. Belə olan halda, mən Allahın kömək və istəyi ilə onu düzəldəcəyəm. (Sizin şikayətlərinizə baxıb onların zülm və haqsızlıqlarını sizdən uzaqlaşdıracağam.)

İmam Əli əleyhis-salamın tərəfindən (Fəratın sahilindəki şəhərlərdən olan) Hitin valisi olmuş (İmam əleyhis-salamın ən seçilmiş dost və şiələrindən) Kumeyl ibn Ziyad Nəxəiyə məktublarındandır. (İmam əleyhis-salam bu məktubda) onu, düşmənin onun olduğu şəhərdən qarətçilik üçün keçən qoşununun qarşısını almadığına görə məzəmmət edir (ki, nə üçün belə bir vaxtda öz şəhərini buraxıb digər bir düşmənin qarşısını almağa gedib). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: İnsanın təyin edilərək ona tapşırılan şeyi buraxıb ona həvalə edilməyən və başqasının öhdəsinə qoyulmuş işə görə zəhmət çəkməsi, aşkar acizlik və sahibini məhvə aparan düşüncədir. (Çünki onun mənşəyi ağlın azlığıdır.) Həmçinin sənin, vali və başçı təyin etdiyim sərhədləri heç bir hami və qoruyucusu və qoşunu (düşmən qoşununu) ondan qaytaran bir kimsəsi olmayan halda buraxıb (Fərat sahilindəki şəhərlərdən olan) Qerqisiya əhalisinə hücum edib onları qarət etməyin dağınıq nəzər və düşüncədir. Beləliklə, sən (bu işlərinlə) dostlarına hücum edib onları qarət etmək istəyən düşmənlərin (onların keçməsi) üçün bir körpü olmusan. Eyni zamanda möhkəm (güclü) çiyinlərin yox idi və səndən heç bir qorxu mövcud deyildi (ki, düşmənlərin öz yerlərində otursunlar). Nə dəliyi (düşmənin yolunu) bağladın və nə də düşmənin vüqar və qüdrətini sındırıb bir-birinə vurdun; nə şəhərinin əhalisinin (düşmənin qarşısını almaq) ehtiyacını tam təmin edənsən, nə də öz əmiri tərəfindən bir iş görən! (Buna görə də sənin kimisi valilik işinə yaramır.) Salama layiq kimsəyə salam olsun!

←61-ci məktub

Nəhcül-bəlağə. 62-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

63-cü məktub→

İmam Əli əleyhis-salamın Malik Əştəri (Allah ona rəhmət etsin) Misirə vali təyin edəndə onunla, həmin diyarın əhalisinə göndərdiyi məktublarındandır. (İmam əleyhis-salam bu məktubda Həzrət Peyğəmbərdən – səlləllahu əleyhi və alih – sonra başına gələnlərin bir hissəsini açıqlayıb.) Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Nöqsan sifətlərdən pak və uzaq olan Allah Məhəmmədi (səlləllahu əleyhi və alih) bəşəriyyəti (ilahi əzabdan) qorxudan və (insanların nicatı üçün Allah tərəfindən göndərilmiş) peyğəmbərlərə şahid kimi göndərmişdir. O Həzrət – səlləllahu əleyhi və alih – vəfat etdikdən sonra müsəlmanlar xilafət barəsində çəkişmə və qalmaqala düşdülər. Allaha and olsun ki, qəlbimə gəlmir və fikrimdən belə keçmirdi ki, ərəblər o Həzrətdən (səlləllahu əleyhi və alih) sonra xilafəti onun Əhli-Beytindən başqa birinə həvalə edəcək və (bütün tapşırıqlara və məni Qədir-Xumda və digər yerlərdə aşkar şəkildə xilafətə təyin etməsinə baxmayaraq,) o Həzrətdən sonra onu məndən əsirgəyəcəklər. Məni (yəni, hər bir ağıllı və agah şəxsi) camaatın beyət etmək üçün filankəsə (Əbu Bəkrə) tərəf tələsmələrindən başqa bir şey narahat etmədi (və ya təəccübləndirmədi). Beləliklə, (həmin vəziyyətdə) əl saxladım (onları öz ixtiyarlarına buraxdım). Nəticədə camaatın bir dəstəsinin dindən dönərək mürtəd olduqlarını və İslamdan qayıdaraq Məhəmmədin (səlləllahu əleyhi və alih) dinini məhv etmək istədiklərini gördüm. Qorxdum ki, İslam və müsəlmanların köməyinə başlamasam, onda nöqsan və dağıntı (yaranmasını) görərəm və onun müsibət və kədəri mənim üçün, nəticəsi (susuz adamın su sandığı) ilğım kimi (yaxınlaşanda) yoxa çıxan və ya bulud kimi səpələnən bir neçə günlük müvəqqəti mal olan sizə hakimlik və vilayəti əldən çıxarmaqdan daha ağır olar. Buna görə də həmin hadisə və dağıdıcı hərəkətlərin arasında ayağa qalxdım (İslam və müsəlmanlara kömək edərək onları məəttəlçilik və çaşqınlıqdan qurtardım). Nəticədə əyrilik və təxribatların qarşısı alındı və onlar məhv oldular, din (mürtəd və dağıdıcıların fitnələrindən) sakitlik taparaq (nigarançılıqdan) qurtulub öz yerində qərar tutdu. Bu da həmin məktubun (o Həzrətin cihadının haqqın icrası uğrunda olması və onun düşmənin çoxluğundan qorxmaması barəsindəki) bir hissəsidir

Vallah, əgər mən onlarla (Müaviyə və onun qoşunu ilə) təkbaşına qarşılaşsam və onlar (öz çoxluqları ilə) bütün yer üzünü doldursalar, (qətiyyən heç nədən) çəkinməz və qorxmaram. Mən onların düçar olduqları azğınlıqlar və özümün hidayət və nicat yolunda olmağım barəsində öz tərəfimdən bəsirətə, Rəbbim tərəfindən isə yəqinlik və inama malikəm. Allahla görüşü (Onun yolunda öldürülməyi) arzulayır və ümidvarcasına Onun gözəl savabını gözləyirəm. Amma mənim qəm-qüssəm bu ümmətin işlərinə onun ağılsız və pis əməllilərinin (Bəni-Üməyyənin) hakimlik etmələrindən, Allahın malını (müsəlmanların beytülmalını) əldən-ələ ötürmələrindən, Onun bəndələrini qul, yaxşılarını düşmən, pislərini isə dost etmələrindəndir. Çünki onlardan sizin (siz müsəlmanların) aranızda şərab içən və (bu çirkin işinə görə) İslamda təyin edilmiş qaydada şallaq vurulmuş kəs var. Onların içərisində (Əbu Süfyan və Müaviyə kimi) azacıq bəxşişlər verilməyincə müsəlman olmayıb İslamı qəbul etməyən kəslər var. (Əsas mətndə işlənmiş «رَضِيخَة» «rəzixə» kəlməsi İslam və müsəlmanlara münasibətdə qəlbləri yumşalıb kömək etmələri üçün kafirlərə verilən az miqdarlı bəxşişə deyilir.) Buna görə də əgər bu şəxslərin vali olmaq qorxusu olmasaydı, sizi (cihad və vuruşa) çox vadar etməz, (tənbəlliyə görə) məzəmmət etməz, sizi həvəsləndirmək üçün bu qədər çalışmaz və (düşmənlə döyüşməkdən) boyun qaçırıb süstlük edəndə sizi azad buraxardım (öz halınızda qoyardım). Ətrafınızın mühasirə edilməsini, diyarınızın zəbt edilərək ixtiyarınızda olan şeyləri əllərinə almalarını və şəhərinizdə müharibə etmələrini görmürsünüzmü?! (Müaviyənin sizin bəzi şəhərlərinizi almasını və indi də məmləkətin hamısını öz əlinə keçirmək üçün müharibə etməsini görmürsünüz?!) Allah bağışlasın sizi! Düşmənizlə döyüşə gedin, özünüzü yerə yük etməyin (evdə qalıb süstlük etməyin). Yoxsa xar olar, biçarəliklə geri dönər və nəsibiniz ən alçaq şey olar. Müharibənin qardaşı (döyüşkən və cəngavər şəxs) oyaq və sayıqdır. (Düşməndən xatircəm olub) yatan kəsin düşməni yuxuya getməz. (Düşməndən xatircəm olmasını güman edib yatan kəs bilməlidir ki, düşmən ondan rahat və xatircəm deyil.) Salama layiq kimsəyə salam olsun.

İmam Əli əleyhis-salamın Əbu Musa Əş'əriyə olan məktublarındandır. O, İmam əleyhis-salam tərəfindən Kufənin hakimi idi. İmam əleyhis-salam kufəliləri Cəməl tərəfdarları ilə (Təlhə, Zubeyr, Aişə və onların ətrafındakılarla) müharibəyə çağıranda Əş'ərinin camaatı ona yardım etməyə gəlməkdən çəkindirərək müxalifət etməyə vadar etməsi xəbəri o Həzrətə çatanda bu məktubu yazıb. (Əbu Musa həmin vaxt belə deyirmiş: Bu, müsəlmanlar arasına düşmüş bir fitnə-fəsaddır və ondan uzaq olmaq lazımdır. Həzrət Peyğəmbərdən – səlləllahu əleyhi və alih – hədis nəql edirmiş ki, ümmətin arasında fitnə zahir olanda siz kənara çəkilin. Bu xəbər İmam əleyhis-salama çatanda oğlu imam Həsən əleyhis-salamı bu məktub ilə Kufəyə göndərdi və onda Əbu Musanı bu çirkin işinə görə hədələyərək məzəmmət etdi.) Allahın bəndəsi Əmirəl-möminin Əlidən Abdullah ibn Qeysə: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Səndən mənə sənin həm xeyrinə, həm də ziyanına olan bir söz çatıb. Buna görə də mənim elçim sənin yanına gələndə ətəyini çırma, kəmərini möhkəm bağla və deşik və yuvandan (Kufədən) çölə çıx. (Kərtənkələ kimi deşiyə girib rahat qalacağını güman etmə.) Səninlə olanları (yoldaşlarını) çağır və həvəsləndir (bizə kömək etməyə vadar et). Beləliklə, əgər (bizim işimizi) düzgün sayıb inansan (bizə tərəf) gəl. Amma qorxsan (bizim arxamızca getməkdə süst olsan), uzaqlaş (hökumət və qoşundan kənar ol). Allaha and olsun ki, harada olsan gətirərlər səni və yağını südünə və əridilmişini donmuşuna qatmayınca səni azad buraxmazlar. Oturmağa fürsət tapmaz və arxandan qorxduğun kimi önündən də qorxarsan. (Nə önündən və nə də arxadan heç cür rahatlığa malik olmazsan.) Cəməl tərəfdarlarının fitnəsi sənin güman etdiyin qədər asan bir fitnə deyil. O, çox böyük və ağır bir müsibət və dərddir ki, gərək onun dəvəsini minib çətinliklərini asan və dağlıqlarını düzənlik edəsən. (Bu hadisədən qafil olub onu asan sanmaq olmaz. Onun alovunun yatırılması üçün çalışmaq lazımdır.) Buna görə də ağlını topla, işini ələ al və payını tap. (Xülasə, işinin xeyir və ziyanı barəsində yaxşıca fikirləş.) Əgər (bizə kömək etmək) istəmirsənsə qurtuluş olmayan dar yerə uzaqlaş, çəkil. (Nicat tapmayacağın yerə get.) Bu işi başqalarının sona çatdırmaları və sənin

yuxuda olmağın, nəticədə «filankəs haradadır?» deyilməməsi daha məsləhətdir. (Kənara çəkil. Çünki bu müharibə sənin köməyin olmadan da aparılar. Sənin orada olmağınla olmamağın birdir.) Allaha and olsun ki, bu müharibə və döyüş haqq olan kəsin (İmam əleyhis-salamın) əli ilə haqq olaraq düzgün aparılır. O, dindən və haqq yoldan uzaqlaşmış kəslərin etdiklərindən qorxub çəkinmir. (Çünki haqq olan kəsin batil və nadürüstdən qorxusu yoxdur.) Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab məktublarındandır (ki, onda, onun sözlərinin səhv olmasını bəyan edir və onu məzəmmətləyir). Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: yada saldığın kimi biz sizinlə (İslamdan qabaq) dost və birgə idik. Amma dünənki gün (İslam) bizimlə sizi bir-birimizdən ayırdı. Biz iman gətirdik (Allahın elçisinə – səlləllahu əleyhi və alih – inandıq), siz isə kafir oldunuz. Bu gün (o Həzrətdən sonra) biz düz dayanmışıq (dinin göstərişlərinə əməl edirik), siz isə fitnə-fəsada üz tutdunuz (dinin yolundan kənara çıxdınız). Sizin müsəlmanınız (Həzrət Peyğəmbərin dövründə də) İslamı ancaq icbarla və İslamın böyük şəxsiyyətlərinin hamısı (Məkkənin fəthindən qabaq) Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) dost və yoldaşı olandan sonra qəbul etdi. Demisən ki, mən (Məhəmmədin atası) Təlhəni və (Abdullahın atası) Zübeyri öldürmüş, Aişəni uzaqlaşdıraraq işini naməlum saxlamış və Bəsrə ilə Kufədə enmişəm (Məkkə ilə Mədinədən uzaqlaşmışam)! Bu, sənin ondan uzaq olduğun bir işdir. (Bu hadisələrin sənə heç bir dəxli yoxdur.) Buna görə də sənə bir ziyan dəyməyib və onlara görə sənə üzr və bəhanə gətirməyə lüzum yoxdur. (Sənin qəzavət edərək öz zəmanənin imamına etiraz etmək haqqın yoxdur.) (Sənin birgə və yoldaş olan) Mühacirlər və Ənsarla (onların olduqları qoşunla) görüşümə (mənimlə müharibə etməyə) gələcəyini xatırladırsan, halbuki hicrət qardaşın (Əmr ibn Əbu Süfyan Bədr müharibəsində) əsir olan gün sona çatdı. Buna görə də əgər (mənimlə müharibə etməyə) tələsirsənsə rahat ol. Çünki (biz mütləq bir-birimizlə qarşılaşacağıq. Ona görə də) mənim sənin görüşünə gəlməyim (əlinə keçirdiyin şəhərlərdə sənin lə vuruşmağım) daha münasibdir ki, Allah səni cəzalandırmaq üçün məni göndərmiş olur. (Ona görə ki, fitnə-fəsadla məşğul olanların qarşısını almağa mən başqalarından daha layiqəm.) Sənin mənim görüşümə gəlməyin (mənim əlimdə olan şəhərlərdə mənimlə müharibə etməyin) isə Bəni-Əsəd (qəbiləsi şairlərindən olan) qardaşın dediyinə bənzəyir ki: مُسْتَقْبِلِينَ رِياحَ الصَّيْفِ تَضْرِبُهُمْ بِحاصِبٍ بَيْنَ أَغْوارٍ وَ جُلْمُودِ

«Xırda daşları çuxurların və böyük daşların arasından götürüb onlara vuran yay küləklərinə üz tutarlar.» (Məqsəd budur ki, ox, nizə və qılınclar həmin küləklərin xırda daşları kimi sənə və qoşununa yağacaq.) Sənin (ana) babanı (Ütbə ibn Rəbiəni), dayını (Vəlid ibn Ütbəni) və qardaşını (Hənzələ ibn Əbu Süfyanı) bir yerdə (Bədr müharibəsində) vurduğum qılınc yanımdadır. Allaha and olsun ki, sən mən bildiyim kimisən: qəlbin pərdələnib (fitnə və azğınlıq pərdəsi ilə elə örtülüb ki, öyüd-nəsihət ona heç bir fayda vermir) və ağlın zəif və azdır (ki, haqq yola qədəm qoymursan). Sənin barəndə belə deyilsə daha yaxşı olar ki: sən, xeyrinə deyil, ziyanına olan hündür bir pis yeri sənə göstərən nərdivana çıxmısan. Çünki sən sənin olmayan itiyi axtarmısan və sənin olmayan heyvanı otarmısan. Elə şeyi istəyirsən ki, ona layiq deyilsən və onun mədənindən uzaqsan. Buna görə də sənin sözün əməlindən nə qədər də uzaqdır!! Əmilərinə və dayılarına (qohumlarına) çox tez oxşadın. Bədbəxtçilik və puç arzular onları Məhəmmədi (səlləllahu əleyhi və alih) inkar etməyə vadar etdi. Buna görə də onları sənin bildiyin yerlərdə (Bədr, Hüneyn və başqa müharibələrdə) öz həlak yerlərinə atdılar (öldürdülər). Böyük hadisənin qarşısını almadılar, meydanı boşaltmayan və heç süstləşməyən qılıncların müqabilində himayə edərək kömək göstərilməsi lazım olan şeydən çəkinmədilər. Osmanı öldürənlər barəsində çox danışdın. Elə isə sən də xalqın daxil olduğu şeyə daxil ol. (Sən də başqaları kimi itaət edərək tabe ol.) Bundan sonra mənim yanımda onlara qarşı iddia irəli sür ki, mən səni və onları Allahın kitabına (tabe olmağa) vadar edim. Aldatmaq istədiyinə (Osmanın intiqamı adı ilə Şam hökumətini sənə verməyimi planlaşdırmağına) gəldikdə (bilməlisən ki): bu, uşağı süddən ayırarkən süd (içməməsi) üçün onu aldatmağa bənzəyir. Salama layiq kimsəyə salam olsun!

Bu da imam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır. (Müaviyə məktub yazaraq o Həzrətin Şam hökumətini ona verməsini, onu özünün canişini etməsini və yanına çağırmamasını istəmişdi. İmam əleyhis-salam bu məktubu ona cavab olaraq yazıb və onda, onun sözlərinin səhv olmasını və istədiyi şeylərə layiq olmamasını xatırladıb.) Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Sənin diqqətlə baxıb aşkar işlərdən faydalanmağının (mənim xilafətimin düzlük və haqq olmasına yəqin edib inanmağının) vaxtı çatıb. Nahaq iddialar (Şam hökuməti və canişinlik iddiası) etmək, qorxub çəkinmədən özünü yalanlara (onun azğınlıq çölünə) atmaq (və qiyamət əzabını nəzərə almamaq), sənin məqam və mərtəbəndən üstün olan şeyi (müsəlmanlara xəlifəlik və hakimliyi) iddia və yalan (yolu) ilə özünə yapışdırmaqla keçmişlərinin (qohumlarının azğınlıq) yolları ilə getdin (və düz yoldan uzaqlaşdın). Haqdan (Allahın və Peyğəmbərin göstərişlərindən) uzaqlaşdığın və sənə ət və qanından da lazımlı şeyi (mənim xilafətimi) inkar edib tabe olmadığın üçün sənə tapşırılan şeyi (beytülmalı) oğurladın. Onu (Həzrət Peyğəmbərin Qədir-Xum və bir çox digər yerlərdə mənim barəmdə buyurduqlarını) sənin qulağın qoruyub saxlayıb («eşitməmişəm» deyə bilməzsən) və sinən onunla dolub («xəbərim yoxdur, bilmirəm» deyə bilməzsən). Haqdan və düzlükdən sonra aşkar azğınlıqdan, həmçinin haqqı aşkar etdikdən sonra yanlışlıq və batilə qarışmaqdan başqa nə var? Buna görə də şübhədən və haqq ilə batili bir-birinə qatmaqdan qorx. Çünki (şübhələr yaradan) -cfitnə, neçə vaxtdır öz pərdələrini asıb (hazırlayıb) və onun zülməti gözləri torlu və görməz edib. Səndən mənə sözləri qarmaqarışıq (bir-birinə aidiyyatı olmayan) bir məktub gəlib çatıb ki, onun (sözlərinlə dəm vurduğun) sülh və barışıq gücü zəif və yetərsizdir. Onda elə hiylələr var idi ki, onları sənin elm və təmkinin uydurmamış, bir yerə toplamamışdır. (Əksinə, sən onları nadanlıq, həyasızlıq və ağılsızlıqla hazırlamısan.) Sən bu puç sözlərinlə hamar qumluqda batan və qaranlıq yerdə ehtiyatsız hərəkət edən (öz ayağının qabağını körməyən) kimsəyə bənzəyirsən. Özünü elə uca yerə qaldırmısan (məndən səni canişin etməyimi istəmisən və həmin məqamı umursan) ki, ora çatmaq çətin, nişanələri isə

yüksəkdir. Ora (heç kəsin əli çatmayan uca dağların qüllələrində yuva quran iti caynaqlı və yüksək uçuşlu) qartal (belə) çata bilməz. Onunla Əyyuq (süd yolunun sağında çox yüksəklikdə olan kiçik, aydın və qırmızı bir ulduzdur ki, Ülkər ulduzunun arxasında olur və ondan qabağa keçmir) bir ola bilər. Allah göstərməsin ki, sən məndən sonra işlərinin həlli üçün müsəlmanlara hakim olasan, yaxud sənə onların biri üzərində əqd (– nigah, alver, icarə və bu kimi şeylər), yaxud əhd (bey'ət, aman, himayə və buna bənzər işlər) üçün bir vəzifə verim! Buna görə də indi özünü hazırlayaraq düşün. Çünki əgər Allahın bəndələri sənə tərəf hərəkət edənə (qoşunumuz sənինlə döyüşə gələnə) kimi nöqsan və başısoyuqluğunu davam etdirsən, qapılar üzünə bağlanacaq və bu gün səndən qəbul edilə bilən iş (onda) qəbul edilməyəcək. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa (dünyada sevinməmək və kədərlənməmək barəsində öyüd-nəsihət verdiyi) məktublarındandır. Bu məktub bundan öncə (iyirmi ikinci məktubda) başqa ibarələrlə keçdi. Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Bəndə həmişə əldən çıxarması təqdir edilməmiş şeyə çatanda sevinir. Ona çatması təqdir edilməmiş şeyə görə isə kədərlənir. Buna görə də dünyadan əldə etdiyin ən yaxşı şey ləzzət və şadlığa çatmaq və (intiqam almaq və incitməkdə) qəzəb işlətmək deyil, batil və nahaqqı yatırmaq (məhv etmək) və haqq və düzlüyü diriltmək (bərpa etmək) olmalıdır. Gərək sevincin qabaqcadan göndərdiyin (sabahına tədarük gördüyün) şey üçün, kədərin görmədiyin (dünyada axirət üçün yerinə yetirmədiyin) iş üçün, fikir-düşüncən isə ölümdən sonra üçün olsun.

Nəhcül-bəlağə. 67-ci məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın onun tərəfindən Məkkənin hakimi olan Qusəm ibn Abbasa məktublarındandır. (İmam əleyhis-salam bu məktubda ona həcc mərasimini bərqərar etməyi əmr edir, camaatla ünsiyyətdə olmayıb qapalı olmaqdan çəkindirir və Məkkə əhalisinin hacılardan kirayə almalarını qadağan edir.) Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Həcci camaatla birgə bərqərar et (onun əməllərini bilməyənlərə öyrət və həcci yerinə yetirmək üçün onları bir yerə topla) və «Allahın günlərini» (keçmiş ümmətlərin çirkin əməllərinə görə aldıqları cəzaları) onların yadına sal. (Vaxtların ən yaxşısı olan) səhər və axşamüstü onlarla otur, (dini) hökm soruşana fitva ver, nadana elm öyrət və alimlə söhbət et. Gərək sənin, dilindən başqa camaata söz çatdıranın olmasın. (Hər nə istəyirsənsə özün birbaşa onlara de. Məğrur insanlar kimi xəbər göndərmə.) Həmçinin üzündən başqa qapıçın olmamalıdır. (İstəyən hər bir kəs maneəsiz səni görə bilməlidir.) İstəyi olanın sənինlə görüşməsinə mane olma. Çünki əgər həmin istək işin əvvəlində sənin qapılarından düzəlməsə, onu işin sonunda düzəltdiyin üçün təriflənməzsən. (İstək sahibi, işin əvvəlində çəkdiyi zəhmətlər nəticəsində ruhdan düşdüyü üçün səni tərifləməz.) Allahın malından (müsəlmanların beytülmalından) yanında yığılanlara bax (onunla məşğul ol). Onu yanında olan ailəli və ac kəslərə ver, (həqiqətən) fağır, yoxsul və möhtac olanlara çatdır. Ondan artıq qalanını bizim yanımıza göndər ki, yanımızda olanlar arasında paylayaq. Məkkə əhalisinə göstəriş ver ki, (həmin diyarın əhalisindən olmayıb evlərdə) məskunlaşanlardan muzd və kirayə almasınlar. Çünki nöqsan sifətlərdən pak olan Allah (Qur'ani-Kərimin Həcc surəsinin 25-ci ayəsində) buyurur: («إِنَّ الَّذِينَ كَفَرُوا وَيَصُدُّونَ عَن سَبِيلِ اللَّهِ وَالْمَسْجِدِ الْحَرَامِ الَّذِي جَعَلْنَاهُ لِلنَّاسِ سَوَاء الْعَاكِفُ فِيهِ وَالْبَادِ») Kafir olub Allaha və Peyğəmbərə iman gətirməyənlər və camaatı Allahın yolundan, itaət və bəndəlikdən, hamı üçün etdiyimiz və) onda «akif» (oranın əhli) ilə «badi» (qərib) bərabər olan (Məscidül-Həramdan döndərənlərə şiddətli əzab daddıracağıq).» «عاكِف» «Akif»dən məqsəd Məkkədə yaşayan, «بَادِ» «badi»dən məqsəd isə həmin diyarın sakini olmayıb həccə gedəndir. Allah

bizi və sizi Özünün sevdiyi (əmr buyurduğu) gözəl əməl və layiqli işlərə müvəffəq etsin. Salama layiq olana salam olsun!

İmam Əli əleyhis-salamın (zahiri) xilafətə çatmamışdan qabaq Salman Farsiyə (Allah ona rəhmət etsin) olan məktublarındandır (ki, onda onu dünyaya aldanmaqdan çəkindirib). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Dünya əl vuranda yumşaq, zəhəri isə həlakedici olan ilan misalındadır. Buna görə də səni dünyada şad edən şeydən (maldan) uzaq ol. Ona görə ki, onun malından bir azı (ancaq bir kəfən) səninlə birgə qalacaqdır (qəbrə gedəcəkdir). Həmçinin onun qəm-kədərini özündən uzaqlaşdır. Çünki ondan ayrılacağına və onun halının dəyişəcəyinə inanırsan (bilirsən ki, nəhayət ondan ayrı qalacaqsan və onun rəftarı hər an əvvəlki vaxtdakı rəftarına ziddir. Buna görə də ona ürək bağlama və bir neçə günlük yaşayış üçün özünü qəmləndirmə). Dünya ilə ünsiyyət və əlaqən çox olan zaman ondan daha çox qorx. Çünki dünyapərəst ona ürək bağlayıb şad olanda, dünya onu həmin şəraitdən çətinliyə tərəf çəkir, yaxud onunla ünsiyyət və əlaqəyə arxalanıb dinclik tapanda onu həmin haldan (çıxarıb) qorxu və vahiməyə düçar edir. (Buna görə də ağıllı adam bu cür düşmənlə dostluq etməyə aldanmamalıdır, əksinə, o, özünü dost kimi göstərəndə ondan daha çox uzaqlaşmalıdır.) Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Haris Həmdaniyə məktublarındandır. (O, Əmirəl-möminin əleyhis-salamın səhabələrindən və deyəsən, o Həzrətə tabe olanlardan olub. Həmdan Yəməndə olan bir qəbilənin adıdır. Bu, böyük bir məktubdur ki, Seyyid Şərif Rəzi əleyhir-rəhmə onun bir hissəsini burada bəyan edib. Onun mövzusu gözəl və nəcib əxlaq və xasiyyət, eləcə də bəyənilən davranış qaydalarıdır.) Qur'an ipindən yapış (onun hökm və göstərişləri əsasında davran), onu özünə öyüd-nəsihət verən et və halalını halal, haramını haram bil (ki, dünya və axirət səadətini və xoşbəxtliyini sənə nəsib etsin). Bundan əvvəl olmuş həqiqətlərə inan. (Həzrət Peyğəmbərdən əvvəl olmuş peyğəmbərləri və onların Allah tərəfindən öz ümmətlərinə gətirdiklərini təsdiq et.) Dünyanın keçmişindən onun qalan hissəsi üçün ibrət al. (Onun qalan hissəsini keçmişi ilə müqayisə et, tutuşdur və bil ki, qalan da keçən kimi minlərlə dərd-qəmlə ötüb keçəcək.) Çünki onun bir hissəsi digər hissəsi kimidir və sonu əvvəlinə bağlıdır. Onun hamısı məhv olan və aradan gedəndir. Allahın adını uca tut və haqq, doğru və yerindən başqa Ona and içmə. (Yaxud Ona, and içilməsi münasib və layiqli olan yerdə and iç. Buna görə də Onun adına yalandan və ya əhəmiyyətsiz şey üçün and içməkdən çəkin, qorx.) Ölümü və ölümdən sonrakı vəziyyətləri çox yadına sal (ki, bu sənin üçün ən böyük moizə edən və öyüd-nəsihət verəndir). Möhkəm şərti olmadan onu arzulama. Əməl sahibinin özündə layiqli bilib başqa müsəlmanlarda nalayiq hesab etdiyi hər bir işdən çəkin. (Özün üçün bəyənmədiyin işi başqasına rəva görmə. Həmçinin özün üçün münasib bilmədiyin şeyi camaata namünasib güman etmə.) Gizlində edilərək aşkarda xəcalət gətirən hər bir işdən çəkin. (Gizlində çirkin və günah iş görüb camaat xəbər tutanda xəcalət çəkməyinə səbəb olan işdən çəkin.) Əməl sahibindən (nə üçün belə etməsini) soruşanda inkar etdiyi və ya üzr istədiyi hər bir işdən uzaq ol. (Heç vaxt kiminsə barəsində söz gəzdirmə, yalan quraşdırma.) Şərəf və heysiyyətini söz oxlarına hədəf etmə. (Onu ağzıgöyçəklər və eyb axtaranların dilindən qoru.) Hər eşitdiyini xalqa demə ki, bu yalançılığın nişanəsidir. Xalqın sənə dediklərini rədd edib yalan sanma ki, bu da nadanlığa dəlildir. (Çünki ola bilər ki, sənə deyilənlər düz olmuş olsun. Buna

görə də onu inkar etmək haqqa nadan olmaqdır.) Qəzəbini ud və qüdrətin olan zaman (cəzalandırmaqdan) keç. Əsəbləşəndə təmkinli ol və imkan və qüdrətinin olmasına baxmayaraq, (intiqam almaqdan) uzaq ol ki, gözəl savab sənin olsun. (Qiyamət günü Allah səndən intiqam almasın və mərhəmətini sənə nəsib etsin.) Allahın sənə əta etdiyi hər bir nemətin şükrünü yerinə yetir. Allahın sənə bəxş etdiyi nemətlərin heç birini zay etmə. Gərək Allahın sənə əta etdiyi şeyin nişanəsi səndə görünsün. Bil ki, möminlərin ən gözəli özündən, qohum-əqrəbasından və malından bağışlamaq baxımından daha yaxşı olanıdır. Həmçinin bil ki, sənin qabaqcadan göndərdiyin gözəllik (Allah yolunda verdiyin və əta etdiyin şeyin gözəlliyi) sənin üçün toplanaraq qalır (qiyamət günü onun savabını əldə edəcəksən). Özündən sonra qoyduğun şeyin gözəlliyi isə başqası üçündür (onun xeyri varisə nəsib olur). Zəif nəzər və düşüncə və xoşagəlməz əməl sahibi ilə oturub-durmaq və yoldaşlıq etməkdən çəkin. Çünki insan öz dostu ilə həmxasiyyət olur. (Buna görə də onu dostuna oxşadırlar.) Böyük şəhərlərdə məskunlaş. Çünki müsəlmanlar orada bir-birinin yanındadırlar (və onlardan elm və bilik əldə etmək və səadət və xoşbəxtlik yollarını öyrənmək olar). (Allahdan) qafil olmağa və (Onu) yaddan çıxarmağa, (yaxşılara) zülm etməyə səbəb olan və Allaha itaət və bəndəlik yolçularının az olduğu (küfr ölkələri və kəndləri kimi) yerlərdən çəkin. Düşüncəni işinə yarayan şeylərə vadar et (puç işlərə sərf etmə). Bazarların başında oturmaqdan çəkin. Çünki ora Şeytanın yeri və fitnə-fəsadın üzə çıxdığı məkandır. (Çox vaxt bu yerlərdə dünya işləri və dinə zidd əməllərlə məşğul olurlar. Buna görə də bacardıqca oradan uzaq olmaq lazımdır. Əl altında olan və) sənin ondan üstün olduğun (Allahın səni ondan üstün etdiyi) kəs barəsində çox düşün, qayğılan. Çünki sənin onun barəsində fikirləşməyin, şükr yollarından biridir. (Bu qayğılanmaq ilə Allahın sənə verdiyi nemətlərin şükrünü yerinə yetirmiş kimi olursan.) Cümə günü namazda iştirak edənə kimi səfərə çıxma. Allah yolunda (din düşmənləri ilə cihada) getmək, yaxud üzrlü olduğun (və namaz vaxtına kimi qala bilmədiyin) səfər bundan istisnadır. Bütün işlərində Allaha itaət et, tabe ol (Onun göstərişləri əsasında hərəkət et). Çünki (səadət və xoşbəxtlik onunla əldə edildiyi üçün) Allaha itaət hər bir şeydən üstündür. İbadət və bəndəlikdə öz nəfsini tovla. (Onu aldadıb cəzadan qorxutmaq və savaba sevindirmək vasitəsi ilə şəhvətdən saxla və itaətə vadar et.) Onunla yumşaq davran (Onu çox çətinliyə salma) və onu məğlub etmə (öhdəsinə ağır vəzifələr qoyma). Güzəşt və sevinc zamanı onu haqla (asudə və şad olanda

onu itaət və bəndəliyə məcbur et, əlbəttə, gündəlik namazlar kimi) yerinə yetirilməsi sənin üçün vacib olan şeylərdən qeyrisi üçün. Çünki onun (vacibatın) yerinə yetirilməsi və vaxtında həyata keçirilməsi zəruridir (şad və ya qəmgin olmaqdan asılı olmayaraq onları mütləq yerinə yetirmək lazımdır). Sən dünya malı əldə etmək üçün Rəbbindən (Ona itaətdən) qaçarkən ölümün səni haqlamasından qorx. Yaramaz əməl sahibləri ilə yoldaşlıq etməkdən çəkin. Çünki pis pisliyə birləşər. Allahı uca və böyük bil, Onu sevənləri sev. Qəzəbdən çəkin. Çünki o, şeytanın qoşunlarından olan böyük bir qoşundur (ki, onun vasitəsi ilə səni bədbəxtliyə çəkir). Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın onun tərəfindən Mədinənin hakimi olmuş (və qırx beşinci məktubun şərhində yaxşılığını xatırlatdığımız) Səhl ibn Hüneyf Ənsariyə, həmin diyarın əhalisindən Müaviyəyə birləşmiş bir dəstə barəsindəki məktublarındandır (ki, İmam əleyhis-salam ona bu hadisəni əhəmiyyətsiz sayıb kədərlənməməyi buyurmuşdur). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mənə xəbər çatıb ki, sənin yanında olanlardan bəziləri gizlində Müaviyəyə birləşirlər. Onların əldən çıxması və sənə olan köməklərinin (qoşun və rəiyyətinin sayının) azalmasına görə ruhdan düşüb kədərlənmə. Onlar (cəzalandırılmaları) üçün azğınlıq (xəstəliyi), sənin üçün isə onlardan şəfa tapmaq (onların əzab-əziyyətlərindən qurtulmağın) bəsdir. Onların qaçdıqları şey hidayət və qurtuluş, (tərəfinə) tələsdikləri şey isə azğınlıq və nadanlıqdır. Onlar dünyanı sevənlərdir ki, tələsik ona üz tutublar. Onlar (bizim davranış üsullarımızdan) ədalət və düzlüyü tanıyıb gördülər, eşitdilər, qulaqlarında saxladılar və bildilər ki, bizim yanımızda olan insanlar haqq-hüquq baxımından bərabərdirlər. Buna görə də (onların arasında hər bir şeyi ancaq bərabər bölüşdürməyimizi görüb) qaçdılar ki, özləri mənfəət əldə edib başqalarını nəsibsiz qoysunlar. Allah onları rəhmindən uzaq etsin!! Allaha and olsun ki, onlar zülm və sitəmdən qaçmayıb və ədalət və insafa qovuşmayıblar. Biz Allahın, istəyəcəyi təqdirdə bu xilafət işinin çətinliklərini bizim üçün asanlaşdıracağına və nahamarlıqlarını hamarlaşdıracağına ümidvarıq . Sənə salam olsun!

Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

İmam Əli əleyhis-salamın (Əbdül-Qeys qəbiləsindən olan) Münzir ibn Carud Əbdiyə məktublarındandır. (İmam əleyhis-salam) onu bəzi şəhərlərə (Farsa) hakim təyin etmişdi. Münzir o Həzrətin onu təyin etdiyi bəzi işlərdə xəyanət etmişdi. (Xərac pullarından dörd min dirhəm oğurlamışdı. İmam əleyhis-salam bu məktubda onu məzəmmət edərək öz yanına çağırmışdır. Həmçinin öz qəbiləsi Əbdül-Qeys ilə Həzrət Peyğəmbərin hüzuruna gəlib İslamı qəbul etmiş atası Carudu tərifləmişdir. Axır ki, «Rical» alimləri Münziri zəif hesab edir və onun rəvayətlərinə etimad etmirlər.) Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Atanın yaxşılığı məni aldatdı və sənin, onun üsuluna tabe olub onun yolu ilə gedəcəyini güman etdim. Birdən mənə xəbər çatdı ki, xəyanət etmisən: nəfsi istəklərinə tabe olmaqdan əl çəkmirsən, axirətin üçün azuqə toplamırsan, öz dünyanı axirətini viran etməklə abadlaşdırırsan və dinindən qırılaraq qohum-əqrəbana birləşirsən. Əgər səndən mənə çatan şey (xəyanət) düz olsa, sənin əhlilləşmiş dəvən və ayaqqabının bəndi səndən yaxşıdır. Sənin kimisi isə sərhədin qorunmasına, ya iş görülməsinə, yaxud məqamı yüksəldilməyə, yaxud əmanətə şərik edilməyə və ya xəyanət və əyriliyin qarşısının alınmasına təyin edilməyə layiq deyil. (Sərhədlərin qorunması, şəhərlərin hökuməti və ya işlərin icrasına başçılığı sənə tapşırmaq yaraşan iş deyil.) Buna görə də Allahın istəyi ilə bu məktubum sənə çatan zaman mənim yanıma gəl. (Seyyid Rəzi deyir:) Bu Münzir həmin kəsdir ki, Əmirəl-möminin əleyhis-salam onun barəsində belə buyurub: O, öz sağ-soluna çox baxır, əynindəki iki «bürd»ü (çox qiymətli Yəmən paltarı) ilə öyünür və ayaqqabılarının toz-torpağını çox təmizləyir. (Yəni, o, özü və paltarı ilə öyünən və bəzənən təkəbbürlü və məğrur bir şəxsdir.)

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbasa (Allah onu bağışlasın) məktublarındandır (ki, onda ona öyüd-nəsihət verir). Allaha həmd və Həzrət Mustafaya salamdan sonra: Sən öz əcəlindən qabağa düşə bilməyəcəksən. Sənə çatmayan şey sənin ruzin deyil. (Ölümünün ixtiyarı sənin əlində deyil. Həmçinin sənə çatmayacaq şeyi əldə edə bilməzsən.) Bil ki, ruzigar iki gündür: bir günü sənin xeyrinə, bir günü isə ziyanınadır. Dünya şadlıqların fırlanaraq əldən ələ keçdiyi diyardır. (Hər kəsin öz növbəsi var.) Buna görə də dünyadan sənin xeyrinə olan şey, hətta aciz olsan (başqaları onun qarşısını alsalar) belə, sənə çatacaqdır. Həmçinin (güclü olsan da) onun sənin ziyanına olan şeylərinin qarşısını zor və güc ilə ala bilməzsən.

İmam Əli əleyhis-salamın Müaviyəyə olan məktublarındandır (ki, onda onu məktubunun nadürüstlüyünə görə məzəmmət edərək hədələyib). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mən sənə dalbadal cavab vermək və məktubuna qulaq asmaqla (nadan və azğın olduğun üçün öyüd-nəsihətin sənə heç vaxt xeyir verməyəcəyi və fitnə-fəsaddan əl çəkməyəcəyin barəsindəki) nəzər və düşüncəmi süstləşdirirəm, fərasət və zirəkliyimi (yəqin və inamımı) səhvə salıram (halbuki sənin kimisinin cavabında susmaq lazımdır. Amma mənim cavab verməyimin səbəbi ancaq və ancaq yumşalaraq bir daha səni başa salıb bəhanə gətirməyinə yer qoymamaqdır). Sən hiylə və «zirəngliklə» məndən bəzi şeylər istəyəndə və cavab almaq üçün mənə məktub göndərəndə yalan və pərişan yuxu görən ağır yatmış şəxsə, yaxud da ayaq üstə durmaqdan aciz və biçarə qalmış (nə yol gedə bilən, nə də ayaq üstə dayana bilən) və qarşıya çıxacaq şeyin xeyrinə və ya ziyanına olacağını bilməyən kimsəyə bənzəyirsən. Sən onun kimi deyilsən, bəlkə o sənə oxşayır. (Sənin vəziyyətin başqasına oxşamaqdan da pisdir. Çünki sən bədbəxtlik və biçarəlikdə təksən. Sən ancaq və ancaq özünə oxşayırsan.) Allaha and olsun ki, əgər (əsaslanaraq ona uyğun davranmalı olduğum məsləhətə görə) qalmağını istəməsəydim tərəfimdən sənə sümüyü sındıran və əti əridən (səni məhv edən) zərbə vuranlar (müharibə və döyüşün çətinlikləri) gəlib çatardı. Bil ki, sənin yaxşı işlərə qayıtmağına və nəsihət verənin öyüdlərinə qulaq asmağına (öz zəmanənin imamına üz tutaraq göstərişlərini icra etməyinə) şeytan mane olur. Salama layiq kimsəyə salam olsun!

İmam Əli əleyhis-salamın Rəbiə və Yəmən əhli üçün yazdığı əhdnamələrdəndir (ki, onda onlarla Qur'ani-Kərimə tabe olmaq, vəhdət və birlik barəsində əhd bağlayıb.) Bu əhdnamə (Əbul Münzir) Hişam ibn (Saib) Kəlbinin xətti ilə nəql edilmişdir. Bu, Yəmən əhli və Rəbiə qəbiləsinin həm məskunlaşmışları, həm də köçərilərinin Allahın kitabı (ona əməl etmək) barəsində bir araya gəldikləri əhddir ki: (başqalarını) ona tərəf dəvət etsinlər, onun əsasında əmr etsinlər, ona dəvət edib əmr verəni (onun sözlərini) qəbul etsinlər, onun müqabilində heç bir şey almasınlar və onu dəyişdirməyə razı olmasınlar. (Bu əhdə sadiq qalsınlar və dünya malı əldə etmək üçün aldanıb Qur'andan əl götürməsinlər.) Həmçinin onlar müxalif və etinasızların qarşısını almaq üçün vəhdət (birlik) yaradaraq bir-birlərinə köməkçi olsunlar: çağırışları (sözləri) bir olsun, birinin töhmət vurması və qəzəblənməsi və ya bir dəstənin digər bir dəstəni təhqir etməsi və söyməsinə görə əhdlərini pozmasınlar. Onların hazır və qaibləri, ağlı az olanları və alimləri, həlim və nadanları bu əhdnamədə möhkəmdirlər. Beləliklə, bu əhdnamə ilə Allahın peymanı onların öhdəsinə düşdü (və gərək ona əməl etsinlər). (Çünki) Allahın peymanı barəsində sorğu-sual ediləcəkdir. (Bu əhdnaməni) Əli ibn Əbi Talib yazdı.

İmam Əli əleyhis-salamın xalqın onunla bey'ətinin əvvəlində Mədinədən Müaviyəyə yazdığı məktublarındandır. (O Həzrət, bu məktubda Müaviyəyə və onun dostlarına, ona bey'ət etməyi əmr edir.) Bu məktubu (Əbu Abdullah Məhəmməd ibn Ömər) Vaqidi Cəməl kitabında nəql edib: Allahın bəndəsi Əmirəl-möminin Əlidən Əbu Süfyanın oğlu Müaviyəyə: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mənim sizin barənizdəki üzrümdən (mülayimlik və laqeydliyimin səbəbindən) xəbərdarsan və (bundan əvvəl) sizdən (sizləri özümə bey'ət etməyə dəvət etməkdən) uzaqlaşmağımı bilirsən. Nəhayət, çarəsi olmayan və qarşısı alınmaz şey (Osmanın öldürülməsi və ya ondan qabaqkı digər hadisələr) baş verdi. Hekayə uzun, söz çoxdur. (Onları deməyə fürsət yoxdur və ya onlara göz yummaq daha yaxşıdır.) Keçən keçdi, gələn gəldi. (Əvvəlki xəlifələrin dövrləri keçdi və haqq olan xilafətin zamanı gəlib çatdı.) Buna görə də yanında olanlardan (mənim üçün) bey'ət al və yoldaşlarından bir dəstə ilə yanıma gəl. Salama layiq kimsəyə salam olsun!

←75-ci məktub

Nəhcül-bəlağə. 76-cı məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

77-ci məktub→

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbası Bəsrədə öz canişini edəndə ona olan tövsiyələrindəndir (ki, onda Abbasa xalqla mehriban olmaq və qəzəbdən uzaq olmaq barəsində öyüd-nəsihət verib). Xalqla gülərüz, məclis yoldaşı və düz ol. (Heç kəsin sənlə görüşünə mane olma. Elə yerdə otur ki, hamı yanına yol tapa bilsin. Hamının hörmətini saxla. Onları çətin və ağır işlərə məcbur etmə və aralarında ədalət və insafla hökm et. Xalqa) qəzəblənməkdən çəkin. Çünki o, şeytandan olan (ondan sənə çatan) yelbeyinlikdir. Bil ki, səni Allaha (Onun mərhəmətinə) yaxınlaşdıran hər bir iş, oddan (qiyamət gününün cəzasından) uzaqlaşdırır. Səni Allahdan uzaqlaşdıran hər bir iş isə oda yaxınlaşdırır.

İmam Əli əleyhis-salamın Abdullah ibn Abbası Xəvaricə (düşüncə və danışıqlarının səhv olması barəsində) dəlil gətirmək üçün göndərəndə buyurduğu tövsiyələrindəndir (və onda onu Qur'ana istinad edib dəlil gətirməkdən çəkindirib). Onlarla Qur’anla mübahisə etmə (Qur’andan dəlil gətirmə). Çünki Qur’an (tə'vil, təfsir, batini və zahiri məna kimi) çoxlu ehtimal və yozumlara malikdir. (Onlardan birini) sən deyərsən (digər birini isə) onlar deyərlər (beləliklə, mübahisə uzun çəkər). Onlara sünnəyə əsaslanaraq dəlil gətir. Çünki onlar heç vaxt sünnəyə əsaslanan dəlildən qaçmağa yol tapa bilməzlər. (Həmin sözlərin düz və doğru olmasını qəbul etməkdən başqa bir çarələri olmaz.)

İmam Əli əleyhis-salamın Əbu Musa Əş'əriyə onların (onunla Əmr ibn Asın) hökm çıxarmaq (xəlifə seçmək) üçün təyin edildikləri (şərhi 35-ci xütbədə deyilmiş «Daumətul-Cəndəl» adlı) bir yerdən o Həzrətə yazdığı məktuba cavab məktublarındandır. Bu məktubu Səid ibn Yəhya Əməvi (özünün) Məğazi (adlı) kitabında bəyan edib. İnsanların çoxu (dünya və axirətdə) öz nəsib və qismətlərinin çoxundan məhrum oldular. Beləliklə, dünyaya üz tutdular (ayaqlarını haqdan kənara qoydular və) nəfsi istəkləri ilə danışdılar (Allah və Peyğəmbərin öz zamanlarının imamına tabe olmaq barəsindəki sözlərinə göz yumdular). Mən bu işdə (xilafət məsələsində) təəcüblü bir yerə gəlib çıxmışam. Orada nəfsləri onları kibr və məğrurluğa vadar etmiş bir neçə dəstə toplaşıb. Buna görə də mən (onlarla mülayim davranıram və) onların çiban və yaralarını müalicə edirəm. Çünki qanın (birdən) bağlanmasından (və sonra müalicənin çətinləşməsindən) qorxuram. (Ey haqq və həqiqətdən xəbərsiz və ey nadan) bil (mənim onlarla mülayim davranmağımın səbəbi budur) ki, Məhəmməd – səlləllahu əleyhi və alih – ümmətinin işlərinin nizam-intizama düşməsinə və onların arasında ülfət və dostluq yaranmasına məndən həris (çox çalışan) bir kimsə yoxdur. Bu işimlə gözəl savab və qayıdış yeri, sığınacaq istəyirəm və hətta sən məndən ayrılarkən malik olduğun ləyaqətdən (özünü göstərdiyin paklıq və yaxşılıqdan) dönsən (və nəfsi istəklərinlə Qur'ani-Kərimə zidd hökm versən) belə, mən tezliklə verdiyim vədə və qoyduğum qərara vəfa edəcəyəm. Çünki bədbəxt və ziyana uğramış o adamdır ki, ona verilmiş əql və təcrübədən məhrum qallmış olsun. Mən danışan birisinin batil və nahaq söz deməsindən və həmçinin Allahın məsləhət bildiyi bir işi pozmaqdan uzaq olduğumu (yaxud əsəbləşdiyimi və halımın pozulmasını) bildirirəm. Buna görə də tanımadığın şeyi burax. (Bilmədiyin şeyin ətrafına belə fırlanma və ehtiyat və düşüncəni əldən vermə.) Çünki insanların pis əməlliləri xoşagəlməz (haqq və həqiqətə zidd) sözlərlə sənə tərəf tələsirlər (ki, sənin ağlının azlığından istifadə edib müsəlmanları zəlalət və azğınlıq yoluna apararaq bədbəxt etsinlər). Salama layiq kimsəyə salam olsun!

←78-ci məktub

Nəhcül-bəlağə. 79-cu məktub (2006)
Müəllif: Seyid Rəzi
Tərcüməçilər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli, Etibar Quliyev

---

İmam Əli əleyhis-salamın (zahirdə) xilafətə çatanda ordu başçılarına məktublarındandır (ki, onda onları haqqa tabe olmağa əmr edərək batil və nahaqdan çəkindirib). Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: sizdən qabaqkılarınızın həlak olmalarının səbəbi bu olub ki, onlar xalqı haqdan (hidayət və nicat yolundan) saxlayıblar və xalq da onu alıb (qəbul edərək tabe olub, yaxud satıb, yəni, əldən verərək ona qarşı etinasız olub). Həmçinin onları batilə (zəlalət və azğınlığa) vadar ediblər və onlar da ona tabe olublar.

Bu fəsildə (hissədə) Əmirəl-möminin Əli əleyhis-salamın hikmətli söz və nəsihətləri toplanıb və ona, o Həzrətdən soruşulmuş bəzi sualların cavabları və nəzərdə tutduğu şeylər barəsində bəyan etdiyi qısa kəlamları əlavə edilib.

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّهِ الْأَوَّلِ بِلا أَوَّلٍ كانَ قَبْلَهُ وَ الْاخِرِ بِلا اخِرٍ يَكُونُ بَعْدَهُ الَّذِي قَصُرَتْ عَنْ رُؤْيَتِهِ أَبْصارُ النّاظِرِينَ وَ عَجَزَتْ عَنْ نَعْتِهِ أَوْهامُ الْواصِفِينَ وَ الصَّلاةُ عَلى عَبْدِهِ وَ رَسُولِهِ سَيِّدِ الْأَوَّلِينِ وَ الْاخِرِينَ الصّادِقِ الْأَمِينَ مُحَمَّدٍ وَ اٰلِهِ الْأَئِمَّةِ الطَّيِّبِينَ الْهُداةِ الْمَهْدِيِّينَ

اللّهُمَّ إِنِّي أَسْئَلُكَ بِحُرْمَةِ وَجْهِكَ الْكَرِيمِ وَ بِحُرْمَةِ نَبِيِّكَ مُحَمَّدٍ صَلَواتُكَ عَلَيْهِ وَ اٰلِهِ وَ بِحُرْمَةِ أَهْلِ بَيْتِ رَسُولِكَ أَمِيرِ الْمُؤْمِنِينَ عَلِيٍّ وَ الْحَسَنِ وَ الْحُسَيْنِ وَ عَلِيٍّ وَ مُحَمَّدٍ وَ جَعْفَرٍ وَ مُوسى وَ عَلِيٍّ وَ مُحَمَّدٍ وَ عَلِيٍّ وَ الْحَسَنِ وَ الْخَلَفَ الْباقِى صَلَواتُكَ وَ بَرَكاتُكَ عَلَيْهِمْ أَنْ تُصَلِّىَ عَلَيْهِمْ أَجْمَعِينَ وَ تُعَجِّلَ فَرَجَ قائِمِهِمْ بِأَمْرِكَ وَ تَنْصُرَهُ وَ تَنْتَصِرَ بِهِ لِدِينِكَ وَ تَجْعَلَنِي فِى جُمْلَةِ النّاجِينَ بِهِ وَ الْمُخْلِصِينَ فِى طاعَتِهِ بِرَحْمَتِكَ يا أَرْحَمَ الرّاحِمِينَ

«Nəhcül-Bəlağə» elə bir kitabdır ki, əgər dünyanın ağıllıları, alimləri və natiqləri insanların səadət, xoşbəxtlik və asayişi barəsində bir söz demək və ya yazmaq istəsələr, onun kimi deyə və yaza bilməzlər. Çünki o elə bir şəxsin dil və qələmindən çıxıb ki, elmlər və ilahi maarifin nümunəsidir və peyğəmbərlərin sonuncusundan (səlləllahu əleyhi və alih) sonra bütün bəşəriyyətdən üstündür. Bü kitab möcüzədir. Çünki bəşəriyyət onun kimisini gətirməyə qadir deyildir. Əlbəttə, ola bilər ki, bəziləri bu nöqtəni dərk etməyib mənim sözlərimi puç sansınlar. Amma mən uzun illər dini elm və

maariflə məşğul olub onu dərk etdikdən sonra bu mübarək kitab və onun ərəb və fars dillərində olan şərhlərini mütaliə etdiyim və onun barəsində yüzlərlə təfsir, fiqh, hədis, fəlsəfə, kəlam, tarix, lüğət, rical və digər elmlərin kitablarını diqqətlə oxuyub araşdırdığım üçün bu sözü tam əminliklə bütün bəşəriyyətə xatırladıram. Həmçinin Allaha şükr edir və «elm şəhərinin qapısı» Həzrət Əmirəl-möminin hüsn-rəğbətindən baş ucalığı duyuram ki, məni bu kitabın beş hissəsinə tərcümə və şərh yazmağa nail edib və mənə ancaq məhdud bir təbəqənin istifadə etdiyi (və hər bir kəsin öz dərki miqdarında ondan dünya və axirət mənfəəti qazanması üçün onu ümumi

kütlənin istifadəsinə çatdırmaq yolunu bilmədikləri) bir kitabı dünyanın hər yerində yaymaq və həm seçilmiş təbəqə həm də avam təbəqəni onun məziyyət və xüsusiyyətləri ilə tanış etmək bacarığı verib. İndi (bu kitabın son hissəsi olan) altıncı hissəni yazmağa başlayıram və ümidvaram ki, Allahın istəyi ilə tezliklə oxucularaın ixtiyarına veriləcəkdir.

اللّهُمَّ صَلِّ عَلی مُحَمَّدٍ وَ اٰلِهِ وَ وَفِّقْنا فِی یَوْمِنا هذا وَ لَیْلَتِنا هذِهِ وَ فِی جَمِیعِ أَیّامِنا لِاسْتِعْمالِ الْخَیْرِ وَ هِجْرانِ الشَّرِّ وَ شُکْرِ النِّعَمِ وَ اتِّباعِ السُّنَنِ مُجانِبَةِ الْبِدَعِ وَ الْأَمْرِ بِالْمَعْرُوفِ وَ النَّهْیِ عَنِ الْمُنْکَرِ وَ حِیاطَةِ الْإِسْلامِ وَانْتِقاصِ الْباطِلِ وَ إِذْلالِهِ وَ نُصْرَةِ الْحَقِّ وَ إِعْزازِهِ وَ إِرْشادِ الضّالِّ وَ مُعاوَنَةِ الضَّعِیفِ وَ إِدْراكِ اللَّهِیفِ امِینَ یا رَبَّ الْعالَمِینَ

Fani bəndə: Əliyyənnəqi Feyzul-İslam İsfahani Ali-Məhəmməd əd-Dibac.

---

1 İmam Əli əleyhis-salamın (Həzrət Sahibəzzamanın–Allah onun mübarək zühurunu tezləşdirsin–əzəmət və böyüklüyündən xəbər verdiyi) hədisində deyilir: Onun vaxtı çatanda alicənab başçı və dinin rəhbəri (gizlin qalmadan və nigarançılıqdan çıxıb öz səltənət və xilafət məqamında) yerini tutacaq. Sonra (möminlər, dünyanın müxtəlif yerlərindən) bulud parçaları payız fəslində bir yerə toplaşıb bir-birlərinə birləşdikləri kimi o Həzrətin yanında bir yerə toplaşacaqlar. (Bu kəlam aşkar şəkildə İmami-Zaman əleyhis-salamın sağ olmasına, düşmənlərdən gizlin olmasına, yer üzünü seyr etməsinə və Allah istəyən zaman üzə çıxacağına dəlalət edir. Seyyid Rəzi əleyhir-rəhmə deyir:) (Əsas mətndə işlədilmiş) «يَعْسُوبُ الدِّينِ» «yə'subuddin» kəlməsinin mənası «alicənab başçı»dır. (O Həzrətin işlətdiyi «ضَرَبَ بِذَنَبِهِ» «zərəbə bizənəbihi» kəlməsinin mənası budur ki, İmami-Zaman nigarançılıqdan sonra öz yerini tutacaqdır. Çünki «يَعْسُوب» «yə'sub» lüğətdə «bal arılarının şahı» mənasındadır ki, günün çox hissəsini iki qanadı ilə uçur, quyruğunu yerə qoyduqdan sonra isə hərəkət və uçuşu dayandırıb öz yerində durur.) «قَزَع» «Qəzə» (istər sulu, istər də) susuz və yağışsız (nazik) bulud parçalarıdır. (Lüğət yazan alimlər də onun mənasını deyilən kimi yazıblar. Həzrət Sahibəzzaman əleyhis-salamın əshabı ona görə payızın bulud parçalarına oxşadılıb ki, payız qışın əvvəlidir və dağınıq buludlar həmin vaxt bir-birlərinə tez birləşirlər.)

2 İmam Əli əleyhis-salamın (Əmirəl-möminin əleyhis-salamın səhabələrinin əzəmətli, xas və yaxşılarından olmuş Sə'sə'ə ibn Sauhan Əbdini təriflədiyi) hədisində deyilir: Bu xütbə oxuyan mahir və zirəkdir. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) (Əsas mətndəki «شَحْشَح» «şəhşəh» kəlməsindən) məqsəd xütbə oxumaqda mahir, zirək və usta olan və dolğun söz söyləməkdə bacarığı olan şəxsdir. Danışıq və hərəkəti iti olan hər bir şəxsə «شَحْشَح» «şəhşəh» deyirlər. «شَحْشَح» «şəhşəh» bundan başqa yerdə bəxşiş etməyən xəsis və simic mənasında işlədilib.

3 İmam Əli əleyhis-salamın (çəkişmə və dava-dalaşın ziyanı barəsindəki) hədisində deyilir: Çəkişmə və dava-dalaşda çətinlik və məhv olma vardır. (Çünki əgər şəxs çalışaraq onda israrlı olsa günaha düçar olar, ona göz yumub əl çəksə isə məğlub olar və zülmə məruz qalar. Hər iki halda əziyyətə və çətinliyə düşər. Belə olan şəxs pərhizkarlıqdan qalar, necə ki, iki yüz doxsanıncı kəlamda bu nöqtəyə təkid edilib. Buna görə də gərək insan elə iş görsün ki, çəkişmə və düşmənçilik qarşıya çıxmasın. Seyyid Rəzi əleyhir-rəhmə deyir:) İmam əleyhis-salamın (əsas mətndəki) «قُحَم» «quhəm» kəlməsindən məqsədi «məhv olmaqlıqlar»dır. Çünki çəkişmə çox vaxt insanları çətinliklərə və məhvə düçar edir. «قُحْمَةُ الْأعْرابِ» «Quhmətul-ə'rab», yəni, «ərəb çölçülərinin çətinlikləri» də ondan götürülüb. Məqsəd budur ki, onlar qəhətlik və quraqlığa düçar olurlar. Belə ki, bu, onların var-yoxlarını aradan aparır, heyvanlarından ətsiz quru sümükdən başqa bir şey qoymur və var-yoxlarının məhv olmasının mənası da elə budur. «قُحْمَةُ الْأعْرابِ» «Quhmətul-ə'rab»ın (mənası) barəsində başqa cür də deyilib və o budur ki, qəhətlik və quraqlıq onları abad şəhərlərə getməyə məcbur edir. Yəni, çöllərin quruması (və onda ot və suyun olmaması) onları möhtac edir və şəhərə gəlməyə vadar edir.

4 İmam Əli əleyhis-salamın (qız üçün ər seçmək barəsindəki) hədisində deyilir: Qadınlar (qızlar) həddi buluğa çatan zaman (onların ərə getmək və öz hüquqlarını ələ almaq vaxtları çatanda) ata qohumları (onu ərə verməyə ana qohumlarından) daha layiqdirlər. (Seyyid Rəzi-rəziyəllahu ənhu-deyir:) (Əsas mətndə olan «نَصُّ الْحَقائِق» «nəssul-həqaiq» kəlməsinin yerinə) «نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq» da rəvayət edilib. «نَصّ» «nəss» hər bir şeyin son həddi və axırıdır. Məsələn, yol getməkdə «نَصّ» «nəss» heyvanın getməyə qadir olduğu hərəkətin son həddidir. Sən o vaxt «نَصَصْتُ الرَّجُلَ عَنْ الْأَمرِ» «nəsəstur-rəculə ənil-əmr», yəni, «filan şey barəsində filan kişidən sualımı sona çatdırdım» deyirsən ki, həmin şey barəsindəki suallarını onda olanları əldə edənə kimi verib sona çatdırmış olasan. Buna görə də Həzrətin «نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq»dan (bu cümlədən) məqsədi, qızların, uşaqlığın sonu olan və uşağın böyüklük həddinə çatdığı «həddi-buluğ»a yetişmələridir. Həzrətin (نَصُّ الْحِقاقِ «nəssul-hiqaq») kəlamı, bu mənada ən dolğun və heyrətləndirici metaforalardandır. Buyurur ki, qızlar həmin həddə (ərə getmək vaxtına) çatan zaman onu ərə vermək istəsələr qızın ata qohumları– əgər qardaşlar və əmilər kimi ona məhrəm olsalar–onu ərə verməyə anadan

daha layiqdirlər. «حِقاقِ» «hiqaq» (kəlməsi) ananın, qızı barəsində qızın ata qohumları ilə çəkişməsi mənasında olan «مُحاقَّة» «muhaqqə»dən götürülüb. «مُحاقَّة» «muhaqqə» onların hər birinin digəri ilə, qızı ərə verməyə daha layiq olması barəsində çəkişmə aparması və qalmaqalıdır. «جادَلْتُهُ جِدالاً» «cadəltuhu cidalən» kimi olan «حاقَقْتُهُ حِقاقاً» «haqəqtuhu hiqaqən», yəni, onunla çəkişdim və dava etdim, ibarəsi də ondan götürülüb. Deyiblər ki: «نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq» əqlin həddi buluğa, kamillik həddinə çatmasıdır. Çünki İmam əleyhis-salam (bu kəlamda) o sonun və zamanın çatmasını nəzərdə tutub ki, onda haqq və hökmlər (qıza) vacib olur. «نَصُّ الْحَقائِق» «Nəssul-həqaiq» rəvayət edən kəs, «حَقائِق» «həqaiq»i «حَقِيقَة» «həqiqə»nin cəmi hesab edib. Bu deyilənlər Əbu Ubəyd Qasim ibn Səlamın bəyan etdiyi məna idi. Mənim fikrimcə isə burada «نَصُّ الْحِقاقِ» «nəssul-hiqaq»dan məqsəd, qızın, ərə getməsi və öz hüquqlarını ələ alması rəva olan həddə çatmasıdır. Çünki o, dəvə barəsində işlədilən «حِقاق» «hiqaq»-a oxşayır və o, «حِقّ» «hiqq» və «حِقَّة» «hiqqə»-nin cəmidir. Bunların mənası üç yaşı tamam olmuş və dörd yaşına keçmiş dəvədir və o, həmin vaxt minilmək və yaxşı sürülməsi mümkün olan həddinə çatır. «حَقائِق» «həqaiq» də «حِقَّة» «hiqqə»nin cəmidir və hər iki rəvayətin («نَصُّ الْحَقائِق» «nəssul həqaiq» və «نَصُّ الحِقاقِ» «nəssul-hiqaq»-in) mənası birdir. (Bizim dediyimiz) bu (məna), ərəbin məslək və yoluna, deyilmiş birinci mənadan daha çox oxşayır.

5 İmam Əli əleyhis-salamın (iman barəsindəki) hədisində deyilir: İman qəlbdə ağ nöqtə kimi yaranır, zahir olur. İman artdıqca həmin ağ nöqtə də artır. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) (Əsas mətndəki) «لُمْظَة»«lumzə», nöqtə və ya onun kimi ağ bir şeydir. Aşağı dodağında ağ xal olan ata deyilən «فَرَسٌ أَلْمَظ» «fərəsun əlməz» (ifadəsi) də bu mənadan götürülüb.

6 İmam Əli əleyhis-salamın (borcun zəkatı barəsindəki) hədisində deyilir: Əgər birinin alacağı varsa və həmin borcu (borcludan) alıb-almayacağını bilmirsə, onu alanda üzərindən keçmiş il üçün onun zəkatını (verilməsi layiq olan kəsə) verməsi vacibdir. (Seyyid Rəzi əleyhirrəhmə deyir:) (Əsas mətndəki) «الدَّيْنُ الظَّنُونُ» «əd-dəyn əz-zənun» borc sahibinin borcludan alıb-almayacağını bilmədiyi borcdur. Belə ki, borc yiyəsi onun barəsində zənn və gümandadır. Bəzən onun çatacağına ümid bəsləyir, bəzən də naümiddir. Bu, (məqsədə dəlalət edən) ən fəsahətli və dolğun kəlamlardandır. Həmçinin sənin axtardığın, amma tapıb-tapmayacağını bilmədiyin hər bir şey «الظَّنُون»

«əz-zənun»dur. (Cahiliyyət dövrünün məşhur şairlərindən olmuş və ərəblərin, onun şe’rlərinə mahnı qoşub oxuduğu) Ə’şanın sözü də bu mənadadır ki: ما يُجْعَلُ الْجُدُّ الظَّنُونُ الَّذِی جُنِّبَ صَوْبَ اللَّجِبِ الْماطِرِ مِثْلَ الْفُراتِیِّ إذا ماطَما یَقْذِفُ بِالْبُوصِیِّ وَ الْماهِرِ «Suyunun olub-olmaması barəsində zənn və güman edilən və səs–küylü axar yağışın gəlməsindən uzaq olan quyunu, Fəratın tüğyan edən zamanda (suyun çoxluğu və dalğaların tələtümü nəticəsində) gəmi və mahir üzgüçünü diz çökdürən suyuna tay tutmaq olmaz.» (Bu cümlə simic və xəsis adamla comərd və əliaçığın bərabər olmaması barəsində bir məsələdir. Şe’rin mətnində olan) «جُدّ» «cudd» (kəlməsi) çöl və səhrada olan köhnə quyu mənasındadır. «الظَّنُون» «Əz-zənun» isə suyunun olub-olmaması bilinməyən bir quyudur.

7 İmam Əli əleyhis-salam, müharibəyə göndərdiyi qoşunu ötürərkən (onlara öyüd-nəsihət verib belə) buyurmuşdur: Bacardıqca qadınlardan uzaq olun. (Seyyid Rəzi–rəhiməhullah–deyir:) Bu kəlamın mənası budur ki, (müharibə zamanı) qadınları yadınıza salmaqdan və onlara ürək bağlamaqdan çəkinin və özünüzü onlarla yaxınlıq etməkdən saxlayın. Çünki bu, qeyrət və kişilik gücünü süstləşdirir, qəti qərarlara xələl gətirərək onlarda boşluq yaradır, insanı düşmən müqabilində məğlub edir və müharibəyə gedərək onda səy və tələş göstərməkdən uzaqlaşdırır. Bir şeydən çəkinən şəxs (barəsində «أَعْذَبَ عَنْهُ» «ə’zəbə ənhu», yəni,) «ondan uzaqlaşıb və özünü ondan saxlayıb» deyilir. Özünü yemək-içməkdən saxlayan kəsə «عاذِب» «azib» və «عَذُوب» «əzub» deyilir.

8 İmam Əli əleyhis-salamın (23-cü xütbədə paxıllıq etməmək və həsəd aparmamaq barəsindəki) hədisində deyilir: Qələbə axtaran mahir qumarbaz kimi olsun ki, qələbəni əvvəlcə öz qumar oxlarından gözləyir. (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) (Əsas mətndə olan) «یاسِرُون» «yasirun», alıb kəsdikləri dəvənin üstündə qumar oxları ilə qumar oynayan kəslərdir. «فالِج» «falic», qələbə axtaran və mahir mənasındadır. (Bu barədə belə) deyirlər: «فَلَجَ عَلَیْهِمْ وَ فَلَجَهُمْ» «fələcə ələyhim və fələcəhum», yəni, dostlarına qalib gəldi və onlardan uddu. (Döyüş meydanında) hərif çağıraraq rəcəz oxuyan şəxs belə deyir: «لَمّا رَأَیْتُ فالِجاً قَدْ فَلَجا» «ləmma rəaytu falicən qəd fələca» yəni, «o zaman ki, qələbə çalanı qalib gələndə gördüm.»

9 İmam Əli əleyhis-salamın (Həzrət Peyğəmbərin - səlləllahu əleyhi və alih - şücaət və cəsurluğu barəsindəki və oxşarı doqquzuncu məktubda keçmiş) hədisində deyilir: Biz qorxu və vahimə qızaranda (döyüş çətinləşəndə) özümüzü Allahın elçisi (səlləllahu əleyhi və alih) vasitəsi ilə qoruyurduq və bizlərdən heç kəs düşmənə o Həzrətdən yaxın deyildi. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) Bu sözün mənası budur ki, düşməndən qorxu artanda və müharibənin sancmaqları ağırlaşanda müsəlmanlar Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) vuruşan tərəfə qaçırdılar və Allah-təala o Həzrətin bərəkətindən onlara yardım göndərirdi. Onlar da həmin Həzrət vasitəsi ilə qorxduqları şeydən xatircəm olub rahatlanırdılar. Həzrətin «إِذَا احْمَرَّ الْبَأْسُ» «qorxu və vahimə qızaran zaman» ibarəsi, döyüşün ağırlığını məcazi dillə anlatmaqdır. Bu barədə bir neçə fikir deyilib. Onların ən yaxşısı budur ki, Həzrət, müharibənin qızışmasını istilik və qırmızılığı öz əməl və rəngində toplayan oda bənzədib (ki, həm yandırıcıdır həm də şöləli). Bu nəzəri Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) (Taif ilə Məkkə arasındakı yerin adı ilə adlandırılan) Hüneyn müharibəsində müsəlmanların qılınc çalmalarını görən zaman buyurduğu söz də təsdiqləyir. O, (Qeys qəbilələrindən olan) Həvazən döyüşü idi (ki, Həzrət onda buyurdu): «الْآنَ حَمِيَ الْوَطِيسُ» «indi müharibənin təndiri qızışdı». (Əsas mətndəki) «وَطِيس» «vətis» (kəlməsi) od yandırılan yer mənasındadır. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) onların döyüşlərinin qızışmasını odun alışaraq şölələnməsinə bənzədib.

Bu fəsl sona çatdı və biz özümüzün bu bölümün əvvəlindəki üsulumuza (o Həzrətin buyurduğu kəlmələrin təfsiri deyil, İmam əleyhis-salamın sözlərinin bəyan edilməsi olan məqsədimizə) qayıdırıq

253 Müaviyənin qoşununun (İraqın qədim şəhərlərindən olan) Ənbara hücum edərək qarətçilik və soyğunçuluq etməsi xəbəri İmam Əli əleyhis-salama çatanda, o Həzrət təkcə piyada (Kufədən) çıxaraq (Kufə yaxınlığındakı) Nuxəyləyə kimi gəldi. Camaat (onun arxasınca gəlib) xidmətinə yetişərək belə dedi: Ey Əmirəl-möminin! Sənin yerinə biz onlara bəsik. Sonra Həzrət (onların məzəmmətində belə) buyurdu: Allaha and olsun ki, siz mənə özünüz (sizə gələn ziyanlar) üçün bəs deyilsiniz, başqaları üçün necə bəs ola bilərsiniz? Əgər məndən əvvəlki rəiyyətlər hakimlərinin zülmündən

şikayətlənirdilərsə, bu gün mən öz rəiyyətimin zülmündən şikayətlənirəm. Sanki mən tabe, onlar rəhbərdirlər, yaxud mən əmri yerinə yetirən, onlar isə əmr verəndirlər! (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) İmam əleyhis-salam bu sözü – bizim, bir hissəsini xütbələr fəslində (iyirmi yeddinci xütbədə) bəyan etdiyimiz uzun bir söhbətdə –deyəndə, səhabələrindən iki nəfər qabağa çıxdı və onların biri dedi: Mənim özümdən və qardaşımdan başqa heç kəsə gücüm çatmır. Ey Əmirəl-möminin! Bizə istədiyin şeyi əmr et, yerinə yetirək. İmam əleyhis-salam buyurdu: Mənim istədiklərim sizinlə hara kimi qabağa gedər və siz iki nəfərin əlindən nə gələr?

254 Deyirlər ki, Haris ibn Hut (və ya Xut) İmam Əli əleyhis-salamın yanına gələrək deyib: Elə bilirsən mən Cəməl əhlinin (Təlhə, Zübeyr, Aişə və onların tərəfdarlarının) azğınlıqda olmasını güman edirəm? İmam Əli əleyhis-salam (onun məzəmmətində) buyurub: Ey Haris! Sən öz altına baxdın (onların batil və səhv sözlərini qəbul etdin), amma üstünə və yuxarı baxmadın (mənim haqq və doğru sözlərim barəsində isə düşünmədin), beləliklə, çaş-baş və avara qaldın! Sən haqqı tanımadığın üçün onun əhlini də tanımadın, batili tanımadığın üçün onun davamçılarını və arxasınca gedənlərini də tanımadın. Haris dedi: Mən Sə’d ibn Malik (Sə'd ibn Əbi Vəqqas) və Abdullah ibn Ömər (ibn Xəttab) ilə kənara çəkilib bir guşəyə gedirəm. Sonra İmam əleyhis-salam buyurdu: Sə’d ilə Abdullah ibn Ömər haqqa kömək etmədilər və batili tərk etmədilər. 255 İmam Əli əleyhis-salam (padşahın həmsöhbəti barəsində) buyurmuşdur: Padşahın həmsöhbəti şir minmiş kəs kimidir. Xalq onun məqam və yerinin arzusundadır, o isə öz yerindən daha yaxşı xəbərdardır (ki, nə qədər təhlükəlidir).

256 İmam Əli əleyhis-salam (yaxşılıq barəsində) buyurmuşdur: Başqalarının övladlarına yaxşılıq və mehribançılıq edin ki, sizin övladlarınızın hörmətini saxlasınlar.

257 İmam Əli əleyhis-salam (böyüklərin sözləri barəsində) buyurmuşdur: Elm və bəsirət sahiblərinin sözü əgər düz olsa (dünya və axirət dərdləri üçün) dərman, səhv olsa isə dərddir (fitnə-fəsada səbəb olar. Buna görə də hikmət sahibi və alim çalışmalıdır ki, səhv söz deməsin. Çünki deyiblər ki: «زَلَّةُ الْعالِمِ زَلَّةُ الْعالَمِ» «alimin büdrəməsi aləmin büdrəməsidir.»)

258 Bir kişi İmam Əli əleyhis-salamdan imanın (mənasının) nə olmasını ona başa salmasını istədi. O Həzrət (sözün hürkəkliyi barəsində belə) buyurdu: Hamı eşitsin deyə sabah mənim yanıma gəl və mən sənə xəbər verim ki, əgər sən mənim sözlərimi unutsan başqası onu əzbərləsin. Çünki söz hürkək ov kimidir. Biri (öz hafizəsi ilə) onu oğurlayır, başqa birisi isə (kütbeyinliyinə görə) onu əldən çıxarır. (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Biz o Həzrətin həmin kişinin cavabında buyurduqlarını bu fəslin keçən hissəsində (otuzuncu kəlamda) bəyan etmişik və o, «iman dörd dirək (sütun) üzərində möhkəmlənib» (cümləsi ilə başlayan) kəlamıdır. 259 İmam Əli əleyhis-salam (gəlib çatmamış şey üçün qəmlənməmək barəsində) buyurmuşdur: Ey Adəm övladı! Bu gün sabah (onun ruzisi) üçün kədərlənmə. Çünki əgər sabah sənin ömründən olsa, Allah sənin ondakı ruzini yetirəcək. (Buna görə də yaxşı olar ki, insan özünü gəlib çatmamış günlərə görə əldən salmasın və hər gün həmin gün üçün çalışsın.)

260 İmam Əli əleyhis-salam (dostluq və düşmənçilik barəsində) buyurmuşdur: Dostunu sev, amma həddi aşmaq miqdarında yox (onu bütün sirlərdən xəbərdar etmə). Ola bilər ki, o, bir gün sənin düşmənin olsun (və peşman olasan). Həmçinin düşmənlə orta səviyyədə düşmənçilik et (aradakı pərdələri tam götürmə). Ola bilər ki, günlərin bir günü o, sənin dostun olsun (və onda sən xəcalətli və başıaşağı olarsan).

261 İmam Əli əleyhis-salam (dünya və axirət üçün çalışmaq barəsində) buyurmuşdur: İnsanlar dünyada iki dəstədirlər: Biri dünyada dünya üçün işləyir və dünya onu özünə məşğul edərək axirətindən (axirət işlərindən) saxlayıb. O, varislərinin yoxsulluğa düçar olmalarından qorxur (onlar üçün mal və sərvət toplayır ki, birinə möhtac olmasınlar), öz yoxsulluğu barəsində isə xatircəmdir. Beləliklə, öz həyatını başqasının xeyrinə sona çatdırır. Digəri isə dünyada axirət üçün işləyir, dünyadan onun üçün olan (təqdir edilmiş) şey işləmədən ona çatır. Beləliklə, o, hər iki pay və mənfəəti toplayıb və hər iki dünyanı əldə edib. Həmçinin Allahın yanında da hörmətli olub və Allahdan istədiyi hər bir hacət və istəyi rəva olar. (Çünki onun Allah yanında hörmətli olması istəklərinin rəva olmasına səbəb olur.)

262 Nəql edilib ki, Ömər ibn Xəttabın xilafəti zamanında onun yanında (Allahın əzəmətli Məkkə şəhərindəki evi) Kə'bənin zinəti və bu zinətin

çoxluğu barəsində söhbət düşür və bir dəstə belə deyir: Əgər onları götürüb müsəlmanların qoşununa xərcləsən savab və mükafatı çox olar, Kə'bə zinəti nə edir? Ömər də onları götürmək qərarına gəlir. Bu barədə Əmirəl-möminin Əli əleyhis-salamdan sual soruşur. O Həzrət (Kə'bənin zinətlərinə toxunmamaq barəsində belə) buyurur: Qur'an Peyğəmbərə (səlləllahu əleyhi və alih) nazil oldu və mallar dörd qisim idi: (Birincisi:) Müsəlmanların (öləndən sonrakı) malları ki, onları hesab əsasında varislər arasında böldü və payladı. (İkincisi:) Qənimət (qələbə nəticəsində düşməndən əldə edilən şey) ki, onu, ona layiq olan kimsələr arasında böldü. (Üçüncüsü:) Xums (qazanc və alverin beşdə biri) ki, Allah onu müəyyənləşdirdiyi yerdə yerləşdirdi (və onun kimlərə çatmalı olmasını buyurdu). (Dördüncüsü:) Sədəqələr (zəkat və bəxşişlər) ki, Allah onu (da) öz yerinə qoydu (ondan kimlərin istifadə etməsini müəyyənləşdirdi). Kə'bənin zinəti həmin vaxt da onda idi və Allah onu öz vəziyyətində saxladı (onları xərcləmək və sərf etmək barəsində bir göstəriş vermədi). (Allah) onu unutqanlıq səbəbindən tərk etmədi və onun yeri Allaha gizli və qaranlıq deyildi. Buna görə də (bütün mallar barəsində hökm verdiyi, Kə'bənin zinəti barəsində isə heç nə buyurmadığı üçün sən də) onu Allah və Peyğəmbər qoyduğu kimi öz yerinə qoy. Ömər dedi: Əgər sən olmasaydın, biz (Allahın hökmünü bilmədiyimiz üçün) rüsvay olardıq. O, zinətləri öz yerinə qoydu (onları heç yerə sərf etmədi).

263 Rəvayət edilib ki, İmam Əli əleyhis-salamın yanına Allahın malından (beytülmaldan) oğurluq etmiş iki kişini gətirirlər. Onlardan biri qul və kölə və beytülmalın əmlakı, digəri isə camaatdan birinin qulu idi. Buna görə də o Həzrət (beytul-maldan oğurluq etmiş hansı şəxsin əlinin kəsilməsi barəsində) buyurdu: Beytülmala məxsus olan bu qula gəldikdə, ona (şər'i) həd və cəza icra edilmir (onun əlini kəsmək lazım deyil, çünki) beytülmalın bir hissəsi digər hissəsini yeyib. Amma o biri barəsində (şər'i) həd icra edilir. (İmam) sonra onun əlini kəsdi.

264 İmam Əli əleyhis-salam (öz çətinlikləri barəsində) buyurmuşdur: Əgər ayaqlarım bu sürüşkənliklərdə möhkəm qalsa (xilafətim sabitləşsə və daxili müharibələrdən qurtulsam) bir sıra şeyləri dəyişdirəcəyəm (müxaliflərin bid'ətlərini aradan apararaq hökmləri, Allahın Peyğəmbərinin – səlləllahu əleyhi və alih – göstərişlərinə uyğun şəkildə həyata keçirəcəyəm).

265 İmam Əli əleyhis-salam (təqdir edilmiş şeylərlə razılaşmağın gərəkliyi barəsində) buyurmuşdur: Tam yəqinlik və inamla bilin ki, Allah bəndəyə, o nə qədər çox zirək, çox çalışqan və hiylə-kələkdə çox bacarıqlı olsa da, ilahi elmdə onun üçün təqdir edilib müəyyənləşdirilmiş şeydən artıq nəsib etməyib. Həmçinin bəndənin zəif və aciz olmasına görə, onunla, ilahi elmdə onun üçün təqdir edilmiş şeyin ona çatması arasında fasilə və ayrılıq salmayıb. Bu sirdən agah olan və onu həyata keçirən kəs (dünya və axirətdə) qazanc əldə etmək rahatlığı baxımından insanların ən üstünüdür. Ona göz yumaraq onda şəkk edən ziyana düçar olmaq baxımından insanların ən giriftarıdır. Nə çox nemətə çatan ki, nemətə görə yavaş-yavaş əzab və cəzaya yaxınlaşıb. Nə çox çətinliyə düçar olan ki, giriftarçılığına görə ona ehsan və yaxşılıq edilib. Buna görə də ey (bu sözləri) eşidən kəs! Çox şükr et və az tələs, ruzindən sənə çatanla kifayətlən və razı ol (ki, insana, çatması labüd olan miqdardan artıq verilmir).

266 İmam Əli əleyhis-salam (ibadətə təşviq edərək) buyurmuşdur: (Dünyanın yox olacağına dair) elminizi (axirətə göz yumub dünyaya ürək bağlamaq üçün) nadanlıq (la əvəz) etməyin, (ölüm barəsindəki) yəqinliyinizi şəkkə çevirməyin. (Buna görə də) əgər (dünyanın yox olacağını) bilirsinizsə (axirət üçün) iş görün, (ölümə) yəqin edəndə (azuqə götürərək) irəli durun.

267 İmam Əli əleyhis-salam (tamah və arzudan uzaq olmaq barəsində) buyurmuşdur: Tamah (insanı) suyun üstünə apararaq geri qaytarmayandır (insanı suyun yanına aparar və onu sudan doydurmadan geri qaytarar. Kim ona düçar olsa məhv olar və ondan qurtula bilməz) və o, (öz əhd-peymanına) vəfa etməyən zamindir. Nə çox su içən ki, sudan doymamış çeçiyir. (Nə çox tamahkar və həris ki, mətləbini əldə etmək yolunda ona çatmamış və bəhrələnməmiş məhv olur.) Rəğbət göstərilən şeyin dəyəri hər nə qədər böyük olsa onu əldə etməmək və tapmamağın kədəri də bir o qədər çox olar. Arzular bəsirət gözlərini kor edir. (Təqdir edilmiş) pay və qismət, ona tərəf getməyən şəxsə tərəf gəlir. (İnsan onu əldə etmək üçün çalışmasa və onu arzulamasa da təqdir edilmiş pay və qismət ona çatacaqdır.) 268 İmam Əli əleyhis-salam (zahirin yaxşı, batinin isə pis olması barəsində) buyurmuşdur: Allahım, zahirimin gözlərin müqabilində (xalqın gözlərinin qarşısında) yaxşı, batinimin isə gizlətdiklərim şeylərdə Sənin yanında çirkin olmasından, özümü camaatın yanında Sənin məndən də (yaxşı) xəbərdar olduğun şeylərlə

riyakarcasına qorumağımdan, beləliklə, xalqa zahirdə yaxşı görünüb pis əməllərimi Sənə tərəf gətirməyimdən və nəticədə bəndələrinə yaxınlaşaraq Sənin razılıqlarından (və mərhəmətindən) uzaqlaşmağımdan Sənə pənah gətirirəm.

269 İmam Əli əleyhis-salam (Həzrət Sahibəzzamanın zühurunu xəbər verərək) buyurmuşdur: Əlbəttə! Aydın gündüzdən yaranan qaranlıq gecənin qalan hissəsində (qüdrəti ilə) gecələdiyimiz Allaha and olsun ki, filan-bəhmən olmayıb.

270 İmam Əli əleyhis-salam (əzmkarlıq göstərərək çalışmağın mədhində) buyurmuşdur: Davam etdirdiyin az iş (onun xeyir verməsi), bezib yorulduğun (və nəticədə tərk edilən) çox işdən ümidvericidir.

271 İmam Əli əleyhis-salam (vacibi əməllərə təşviq edərək) buyurmuşdur: Müstəhəbbi əməllər vacibata ziyan vuranda (xələl gətirəndə) həmin müstəhəbbiləri tərk edin. 272 İmam Əli əleyhis-salam (itaətə rəğbət göstərmək barəsində) buyurmuşdur: Səfərin (axirət səfərinin) uzaqlığı yadında olan kəs hazırlıq görər (təqva və pərhizkarlığı öz şüarı edər).

273 İmam Əli əleyhis-salam (ağla tabe olmaq barəsində) buyurmuşdur: Görmək (qəlbin xəbərdar və agah olması) gözlə deyil. Çünki bəzən gözlər öz sahibinə yalan deyir. Amma ağıl ondan öyüd-nəsihət istəyənə xəyanət etmir (onu səhvə düçar etmir).

274 İmam Əli əleyhis-salam (öyüd-nəsihətə qulaq asıb tabe olmaq barəsində) buyurmuşdur: Sizinlə moizə və nəsihət (onlara qulaq asıb tabe olmaq) arasında qəflət və xəbərsizlik pərdəsi vardır.

275 İmam Əli əleyhis-salam (ifrat və səhlənkarlıq barəsində) buyurmuşdur: Nadanınız (işi nadanlıq ucbatından) çox edir, aliminiz isə (işi öz vaxtından) təxirə salır.

276 İmam Əli əleyhis-salam (elmin bəhanə yollarını bağlaması barəsində) buyurmuşdur: Elm və (dinin hökmlərini) bilmək («Allah kərimdir, rəhimlidir, bizim əziyyət çəkməyimizə və bəndəlik etməyimizə ehtiyacı yoxdur» deyən)

bəhanə axtaranların yolunu bağlayır. (Buna görə də din, kitab və Peyğəmbərlə tanış olan şəxsin bəhanəsi qəbul deyil.)

277 İmam Əli əleyhis-salam (işi vaxtında yerinə yetirməyən şəxsin məzəmmətində) buyurmuşdur: Kimi tələsdirirlərsə (ölümü tez çatırsa) möhlət istəyir (ki, ibadət və bəndəlik etsin), kimə möhlət verirlərsə və tələsdirmirlərsə (ömrü uzundursa, ölümün) təxirə düşməsi ilə («vaxtım var və gələcəkdə yerinə yetirərəm», deyib) bəhanə axtarır (bu günün işini sabaha saxlayır).

278 İmam Əli əleyhis-salam (şadlığa ürək bağlamamaq barəsində) buyurmuşdur: Ruzigar xalqın «xoş halına» dediyi hər bir şey üçün bir pis gün gizlədib. (Zəmanə insanda gördüyü nemətə paxıllıq edər və onu, onun əlindən alar. Buna görə də ağıllı adam dünyanın şadlıqlarına ürək bağlamaz və rahat oturmaz.) 279 İmam Əli əleyhis-salamdan qəzavü-qədər (onun necəliyi) barəsində sual soruşdular. O Həzrət (onun barəsində düşünməkdən çəkindirərək belə) buyurdu: O, qaranlıq bir yoldur, onunla getməyin (ki, şübhələr nəticəsində onların həllində aciz və sərgərdan qalar, yolunuzu azarsınız); dərin bir dənizdir, ona daxil olmayın (ki, müxtəlif düşüncələrdə qərq olarsınız); Allahın sirridir, özünüzü onda (onu aydınlaşdırmaq üçün) əziyyətə salmayın (ki, xeyir görməz və bir yerə çatmazsınız).

280 İmam Əli əleyhis-salam (itaətsizliyin ziyanı barəsində) buyurmuşdur: Allah bir bəndəni (günahı nəticəsində) alçaldanda elm və biliyi ona qadağan edər.

281 İmam Əli əleyhis-salam (gözəl xasiyyətlərə həvəsləndirərək) buyurmuşdur: Keçmiş zamanlarda mənim Allah yolunda (Əbuzər Qəffari və ya Osman ibn Məz'un adlı) bir qardaş və dindaşım var idi ki, dünyanın onun gözündə kiçik olması, onu mənim gözümdə böyüdürdü. Qarnı ona hakim deyildi. Beləliklə, tapmadığı şeyi arzulamır, tapanda isə onu çox işlətmirdi. Günün çoxunu sakit idi (danışmırdı), danışanda isə danışanlara qalib gəlir (başqasının danışmasına yer qoymurdu) və soruşanların susuzluqlarını (elm suyundan olan moizə və öyüd-nəshətlə) yatırdardı. (Allaha itaət və bəndəlik, xalqla səbrlilik nəticəsində) zəifləmiş, əldən düşmüşdü və onu zəif sanırdılar. Amma (hər hansı bir işdə) səy və tələş etmək zamanı çatanda

qəzəbli aslan və çox zəhərli səhra ilanı (kimi) idi. (İşi mütləq yerinə yetirir və ya düşməni məğlub edirdi; biri ilə mübahisə edəndə səbrsizlik etməzdi. Vaxtından qabaq) qazının yanına gedənə kimi dəlil-sübut gətirməzdi (dəlilini qazının yanına getdikdən sonra açıqlayardı. Bu, insanın nəzər və düşüncəsinin düzlüyünə bir dəlildir); bənzərində bəhanə yeri tapdığı işlərdə, şəxsin üzr və bəhanəsini eşitməyincə heç kəsi məzəmmət etməzdi (və bu üsul, ədalət və insafın zərurətlərindəndir); sağalmayınca (düçar olduğu) xəstəlikdən (heç kəsə) şikayətlənməzdi (sağalandan sonra da şikayətlənmək üçün deyil, başına gələnlərdən xəbərdar etmək məqsədi ilə deyərdi). Dediyini edərdi və etməyəcəyini deməzdi (çünki düzlük və doğruluğu öz şüarı etmişdi). Əgər sözdə ona qalib gəlirdilərsə də, sükutda məğlub edə bilmirdilər onu. (Yersiz danışıq və söhbətlərdə sakit idi.) Danışmaqdansa qulaq asmağa həris idi (faydalanmağı söyləməkdən üstün tutardı). Əgər qəflətən (düşünülmədən) ona iki iş üz tutsaydı, onların hansının nəfsi istəyə daha yaxın olmasına baxar və onunla müxalifət edərdi. Odur ki, siz də bu sifət və xislətlərə yiyələnin və onlara rəğbət göstərin. Əgər onların hamısına gücünüz çatmırsa, bilin ki, azı əldə etmək çoxu tərk etməkdən daha yaxşıdır. (Buna görə heç olmasa həmin xüsusiyyətlərin bəzilərinə də olsa yiyələnin.)

282 İmam Əli əleyhis-salam (günahı tərk etmək barəsində) buyurmuşdur: Əgər Allah (insanları peyğəmbərlər vasitəsi ilə) Ona qarşı günah və itaətsizlik etməkdən çəkindirməsəydi də, nemətlərinə şükr üçün Ona qarşı günah işlətməmək vacib olardı. (Çünki ağıl baxımından həm söz, həm də əməllə nemətə görə şükr etmək vacibdir. Buna görə də itaət və şükrün zərurət və tələblərindən olan günahın tərk edilməsi də vacib olacaqdır.)

283 İmam Əli əleyhis-salam (öz səhabə və yoldaşlarının münafiq simalarından olmuş) Əş'əs ibn Qeysə övladının ölümünə görə baş sağlığı verib onu səbr və dözümlülüyə təşviq edərkən (dözümsüzlük etməmək barəsində) buyurmuşdur: Ey Əş'əs! Əgər oğluna (onun ölümünə) görə kədərlənsən, (onunla) bağlılığına görə qəmlənməyə haqlısan (sənin övladının ölümünə görə kədərlənməyin yersiz deyil). Amma səbr etsən Allah yanında hər bir müsibət və kədərin canişini (əvəz və mükafatı) vardır. Ey Əş'əs! Əgər səbr etsən sənin barəndə qəza-qədər cari olacaq və sən savab və mükafat alacaqsan, amma dözümsüzlük etsən sənin barəndə ilahi hökm cari olacaq və sən həmin halda günahkarsan. Ey Əş'əs! Oğlun (dünyaya gələn

zaman) səni şad etdi, halbuki o, (sənin üçün) bəla və çətinlik idi və (ölümü ilə) səni kədərləndirdi, halbuki (sənin üçün) mükafat və mərhəmət vardır. (Buna görə də onun müsibətində səbrli olmağın daha münasibdir.)

284 İmam Əli əleyhis-salam Allahın Peyğəmbərini (səlləllahu əleyhi və alih) dəfn edən zaman o Həzrətin qəbrinin üstündə (onun vəfatının böyük itki olması barəsində) buyurmuşdur: Səbr gözəldir, amma səndən (ayrılmaqdan) başqa şey üçün, dözümsüzlük pisdir, lakin sənin (ölümün) üçün yox! Sənə görə (sənin vəfatın səbəbindən) yaranmış qəm-kədər böyükdür; səndən qabaqkı və səndən sonrakı kədər (sən Həzrətin qəminə nisbətdə) asan və kiçikdir.

285 İmam Əli əleyhis-salam (axmaqla yoldaşlıq etməyin ziyanı barəsində) buyurmuşdur: Axmaqla yoldaşlıq etmə. Çünki o (öz ağılsızlığı ucbatından) işini sənin nəzərində bəzəyib gözəlləşdirir və sənin də onun kimi olmağını (onun axmaqlıqlarına tabe olmağını) istəyir.

286 İmam Əli əleyhis-salamdan şərqlə qərb arasındakı məsafənin nə qədər olmasını soruşdular. O Həzrət (onların arasındakı məsafənin müəyyənləşdirilməsi barəsində belə) buyurdu: Günəşin bir günlük hərəkət və fırlanması miqdarında!

287 İmam Əli əleyhis-salam (dost və düşmən barəsində) buyurmuşdur: Dostların da üçdür, düşmənlərin də: dostların sənin öz dostun, dostunun dostu və düşməninin düşmənidir. Düşmənlərin isə sənin öz düşmənin, dostunun düşməni və düşməninin dostudur.

288 İmam Əli əleyhis-salam gördü ki, bir kişi düşmənina ziyan vurmaq üçün elə bir işdə səy və təlaş edir ki, özünə ziyan vurur. (Ziyan vurmağın məzəmmətində) buyurdu: Sən tərkinə minmiş şəxsi öldürmək üçün özünə nizə batıran kəs kimisən .

289 İmam Əli əleyhis-salam (öyüd-nəsihət qəbul etməmək barəsində) buyurmuşdur: (Ruzigar və öyüd verənlərdən götürülməli) ibrət və öyüdlər nə qədər də çoxdur, öyüd qəbul etmək isə nə qədər də az!

290 İmam Əli əleyhis-salam (dava-dalaşın məzəmmətində) buyurmuşdur: Çəkişmə və dava-dalaş istiqamətində çalışaraq israrlı olan kəs günah edib. Onda səhlənkarlıq və təmkinlilik göstərən isə zülmə məruz qalar. (Başqası ilə) dava-dalaş edən kəs (dava-dalaş əsnasında günahdan uzaq olub) pərhizkar ola bilməz. (Çünki dava-dalaşda təqva və pərhizkarlığın zərurətlərindən olan ədalətlilik və həddi aşmamaq çətindir.)

291 İmam Əli əleyhis-salam (tövbə etməyə həvəsləndirərək) buyurmuşdur: O günah ki, ondan sonra iki rəkət namaz qılmaq və Allahdan onu (o günahı) bağışlamasını istəmək miqdarında fürsət tapdım (qəflətən ölmədim), məni kədərləndirmədi.

292 İmam Əli əleyhis-salamdan soruşurlar ki: Allah bu qədər çox məxluqla (qiyamət günü) necə hesab aparacaq və sorğu-sual edəcəkdir? O Həzrət (Allahın hər şeyə qadir olması barəsində belə) buyurdu: Bu qədər çoxluqla onlara ruzi verdiyi kimi! Soruşdular: Onlar Onu görməyə-görməyə onlarla necə sorğu-sual aparacaq? Buyurdu: Onlar Onu görməyə-görməyə onlara ruzi verdiyi kimi! 293 İmam Əli əleyhis-salam (xəbər göndərmək barəsində) buyurmuşdur: Sənin qasidin (başqası üçün) sənin ağlını bəyan edir. (Buna görə də gərək zirək və bilikli olsun ki, sənin məqsədini şirin kəlmə və dolğun sözlərlə tərəf müqabilə başa sala bilsin.) Həmçinin sənin məktubun sənin tərəfindən danışan ən yetərli şeydir. (O, sənin dilin kimidir. Artıq-əskik danışaraq çətinliklərə düçar olmaq və məhvə gətirib çıxarmaq ehtimalı olan elçi kimi deyil.)

294 İmam Əli əleyhis-salam (dua etməyə həvəsləndirərək) buyurmuşdur: Dərd-qəmin çətinliyə salmış olduğu giriftar kəs, duaya bəla və dərddən amanda olmayan sağlam şəxsdən daha möhtac deyil. (Əksinə, onların hər ikisi Allaha dua edib Ondan kömək istəməyə möhtacdırlar. Biri sağalmasını, digəri isə sağlamlığının davamlı olmasını istəməyə möhtacdır.)

295 İmam Əli əleyhis-salam (dünyapərəstlərin məzəmmətində) buyurmuşdur: İnsanlar dünyanın oğullarıdır və kişini anasını sevməyə görə məzəmmət etməzlər. (Bu o sözə oxşayır ki: «pis əməl və çirkin işlər filankəsin təbiətinə çevrildiyi üçün onu məzəmmət etməzlər.»)

296 İmam Əli əleyhis-salam (ehtiyaclılara əl tutmaq barəsində) buyurmuşdur: Yoxsul və fəqir Allahın elçisidir. (Çünki Allahın onu ruzidən az bəhrələndirməsi buna oxşayır ki, varlı və imkanlı bəndəsini öz elçisi ilə sınamaq üçün yoxsulu onun yanına göndərib.) Buna görə də onu (yoxsulu) məhrum edən (ona kömək etməyən) Allahı məhrum edib (Onun, varlıların yoxsullara kömək etmələrinin zəruriliyi göstərişinə əməl etməyib.) Ona (yoxsula) bir şey verən isə Allaha verib (Onun göstərişinə əməl edib). 297 İmam Əli əleyhis-salam (zina barəsində) buyurmuşdur: Qeyrətli şəxs heç vaxt zina etməz. (O, kiminsə onun yaxınları ilə zina etməsini qəbul etmədiyi kimi, qeyrəti, onun özünün də ona haram olan qadınla yaxınlıq etməsinə icazə vermir.)

298 İmam Əli əleyhis-salam (ömrün başa çatması barəsində) buyurmuşdur: (İnsanı hər bir hadisədən) qorumaq üçün əcəl (ömrün sona çatma müddəti) kifayətdir. (Əcəl çatmayınca heç kəsin ölməməsi buna bənzəyir ki, əcəl onun qoruyucusudur.)

299 İmam Əli əleyhis-salam (mal və sərvətə bağlılıq barəsində) buyurmuşdur: İnsan övlad ölümündə yatar (səbr edər), mal və sərvətinin oğurlanmasında isə yatmaz (dözümsüzlük edərək çalışar)! (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Bu kəlamın mənası budur ki, insan övladlarının öldürülməsinə səbr edir, sərvətinin oğurlanmasına isə səbr etmir. (Çünki ölümdən sonra övladın qayıtması mümkün deyil, var-dövlətin qayıtması isə mümkündür.)

300 İmam Əli əleyhis-salam (dostluq barəsində) buyurmuşdur: Ataların dostluğu (dostluqlarının əsəri) oğullar arasında qohumluqdur (qohumluq kimidir. Çünki oğullar ataları arasında olan dostluq və düşmənçiliyi irs aparırlar və onların bir-birlərinə kömək etmələrinin kökü dostluqdur və qohumluq onun amillərindəndir). Və (buna görə də) qohumluq dostluğa, dostluğun qohumluğa ehtiyaclı olmasından daha möhtacdır. (İbn Əbil Hədid burada belə yazır: Birindən soruşurlar ki: «Qardaşını çox istəyirsən, yoxsa dostunu? Deyir: Əgər dost olsa qardaşımı.»)

301 İmam Əli əleyhis-salam (möminin zirəkliyi barəsində) buyurmuşdur:

Möminlərin gümanlarından çəkinin (ona əhəmiyyət verin). Çünki Allah haqq və düzlüyü onların dillərində qoyub.

302 İmam Əli əleyhis-salam (Allaha təvəkkül etmək barəsində) buyurmuşdur: Bəndənin eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın (qüdrət) əlində olan şeyə arxayınçılıq və inamı öz əlində olan şeyə inamından çox olmayınca, onun imanı doğru deyil.

303 İmam Əli əleyhis-salam Bəsrəyə gələndə (Həzrət Peyğəmbərin səhabələrindən olmuş və rical alimlərinin məzəmmət etdikləri) Ənəs ibn Maliki Təlhə və Zübeyrin yanına göndərdi ki, (o Həzrətin yanında) Allahın Peyğəmbərindən (səlləllahu əleyhi və alih) onların barəsində eşitdiyi sözü («Siz Təlhə və Zübeyr Əli ilə müharibə edəcəksiniz və ona qarşı zalımsınız» hədisini) onların yadına salsın. Ənəs isə bu barədə şəhadət verməkdən boyun qaçırdı və o Həzrətin yanına gələndə dedi: Peyğəmbərin o sözü mənim yadımdan çıxıb. Həzrət (ona qarğış edərək) buyurdu: Əgər yalan deyirsənsə, Allah sənə elə bir parlaq ağlıq vursun ki, əmmamə və çalma onu örtməsin (sənin üzünə elə ağ ləkələr salsın ki, əmmamə onu xalqın gözündən gizlədə bilməsin. Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Həmin ağlıqdan məqsəd qoturluqdur ki, ondan sonra Ənəsin hər iki üzündə zahir oldu və o, (xəcalətindən el arasında) ancaq rübənd ilə görünürdü.

304 İmam Əli əleyhis-salam (vacibata əhəmiyyət vermək barəsində) buyurmuşdur: Qəlblərin üz tutma və üz döndərmələri (hazırlıq və əzginlikləri) vardır. Buna görə də üz tutma zamanı onları (vacibatdan əlavə) müstəhəbbiləri də yerinə yetirməyə vadar edin. Üz döndərəndə isə vacibatın yerinə yetirilməsi ilə kifayətlənin. (Çünki vacibatı heç bir halda, hətta insanın qəlbi özünü Allah dərgahında lazımı səviyyədə hiss etməsə belə tərk etmək olmaz.)

305 İmam Əli əleyhis-salam (Qur'anı oxumağa və dərk etməyə təşviq edərək) buyurmuşdur: Sizdən qabaq olanların xəbəri (keçmişlərin əhvalatları), sizdən sonra olacaq şeylərin (qəbr, Bərzəx və qiyamətin necəliyi) xəbəri və sizin aranızda olanların (vacib, haram müstəhəb, məkruh və mübah şeylərin) hökmü Qur’andadır.

306 İmam Əli əleyhis-salam (şərin geri qaytarılması barəsində) buyurmuşdur: Daşı gəldiyi yerə qaytarın. (Pisliyi, həddi aşmamaq və dinin hökmlərinə zidd olmaması şərti ilə öz misli ilə cəzalandırın, əvəz çıxın.) Çünki şər və pisliyi şərdən başqa bir şey aradan aparmaz.

307 İmam Əli əleyhis-salam (səhabələrinin xaslarından, şiələrinin ləyaqətlilərindən və o Həzrətə tabe olanlardan olmuş) katibi Ubeydullah ibn Əbu Rafeyə (xəttin gözəlliyi barəsində) buyurmuşdur: Mürəkkəbqabını (onda olan rəngi toz-torpaq və çirkdən) təmizlə, qələminin ucunu uzun et (ki, mürəkkəb ondan kağız üzərinə yaxşı axsın), sətirlərin arasını geniş götür və hərfləri bir-birinə yaxın yaz ki, bu üsul xəttin gözəlliyi üçün daha uyğun və münasibdir.

308 İmam Əli əleyhis-salam (öz məqamı barəsində) buyurmuşdur: Mən möminlərin başçısı və rəhbəriyəm, mal və sərvət isə pis əməllilərin rəhbəridir. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) Bu kəlamın mənası budur ki, bal arısı öz başçısına tabe olduğu kimi möminlər də mənə tabedirlər, pis əməllilər isə var-dövlətə.

309 Yəhudilərdən biri İmam Əli əleyhis-salama dedi: Siz (müsəlmanlar) peyğəmbərinizi torpağa tapşırmamış onun barəsində ixtilaf və ziddiyyətə düşdünüz. Həzrət (yəhudilərin məzəmmətində) ona belə buyurdu: Biz onun barəsində deyil, ondan olan şey barəsində (onun ümmətində canişinlik məsələsinə görə) ixtilafa düşdük. (Onun peyğəmbərliyi, Allahın birliyi və buyurduqları barəsində fikir ayrılığımız yox idi.) Amma sizin ayağınızın dəniz suyundan olan yaşlığı qurumamış (Allah siz yəhudiləri fironçulardan nicat verərək dənizi sizin üçün yaranda və siz oradan keçəndə, fironçuları isə suda batıranda, bütün bu tovhid nişanələrini görməyinizə baxmayaraq, dənizin sahilinə çatıb orada bütlərə pərəstiş edən bir dəstəni görən kimi nadanlıq və itaətsizlik səbəbindən) öz peyğəmbərinizə (Həzrət Musa əleyhis-salama) dediniz: «اجْعَل لَّنَا إِلَـهًا كَمَا لَهُمْ آلِهَةٌ قَالَ إِنَّكُمْ قَوْمٌ تَجْهَلُونَ» (Ə’raf-138) «Bizim üçün onlarınkı kimi (görünən) bir tanrı düzəlt. Musa dedi: Siz doğrudan da çox nadan bir tayfasınız (və azğınlığa qərq olubsunuz ki, bu qədər tovhid nişanə və əlaməti görməyinizə baxmayaraq, yenə də bu cür yaramaz sözlər danışırsınız.).»

310 İmam Əli əleyhis-salama dedilər ki: (Döyüşlərdə) igidlərə nə ilə qalib gəldin (onları necə xar etdin və ya öldürdün)? O Həzrət (öz heybəti və camaatın ondan qorxması barəsində belə) buyurdu: (Döyüşdə) qarşılaşdığım hər bir kəs mənə öz ziyanına (onu öldürməyimə) kömək edirdi. (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Həzrət bu sözü ilə özünün heybət və qorxusunun qəlblərdə yer almasına (ki, igidlər ona görə özlərini itirərək məğlub olurdular) işarə edib.

311 İmam Əli əleyhis-salam oğlu Məhəmməd ibn Hənəfiyyəyə (fəqirlik və yoxsulluğun məzəmmətində) buyurmuşdur: Ey oğlum! Sənin üçün yoxsulluqdan qorxuram (ki, məbada yoxsulluq ucbatından camaata tamah əli açaraq Allahın verdiyinə razı olmayasan). Buna görə də ondan (onun şərindən) Allaha pənah apar ki, yoxsulluq dində məğlubiyyət və nöqsan yeridir. (Çünki yoxsulluq insanı xəyanətə, yalan danışmağa, alçaqlığa və haqqa kömək göstərməməyə vadar edə bilər və bunlar dində nöqsandır.) Həmçinin ağlın sərgərdanlıq yeridir (çünki səbrsiz yoxsul düz yolu itirər və görəcəyi iş barəsində ağlı çaş-baş, düşüncəsi sərgərdan qalar). O həm də düşmənçiliyə səbəb olar. 312 İmam Əli əleyhis-salam (sınaq və imtahan etmək məqsədi ilə) o Həzrətdən çətin və ağır bir sual soruşmuş şəxsə (bilən şəxsdən sual soruşmaq üsulu barəsində) buyurmuşdur: Çətinliyə salmaq üçün deyil, başa düşmək və öyrənmək üçün soruş. Çünki elm öyrənən nadan, alimə oxşayır (çünki elm əldə etməyə hazırlaşıb və düz yola ayaq basıb). Azğınlığa qədəm basan (başqasına qalib gəlmək və üstünlük əldə etmək istəyən) alim isə nadana bənzəyir (çünki o da nadan kimi layiq olmadığı şeyi tələb edir).

313 İmam Əli əleyhis-salam Abdullah ibn Abbas o Həzrətə nəzəri ilə uyğun olmayan məsləhət verən zaman (insanın öz imamına tabe olması barəsində) buyurmuşdur: Sən gərək (məsləhət yolu ilə) məni istiqamətləndirəsən və mən öz nəzər və düşüncəm ilə ona baxam. Amma əgər (sənin məsləhətinin səhv olmasını bilib) sənə tabe olmasam, sən mənə tabe ol.

314 Nəql edilib ki, İmam Əli əleyhis-salam Siffeyndən (müharibədən) qayıdıb Kufəyə gələn zaman (ərəb qəbilələrindən biri olan) Şəbamiyyinin yanından keçəndə arvadların Siffeyn (müharibəsinin) ölülərinə ağlamalarını eşitdi. Öz qəbiləsinin böyüklərindən olan Hərb ibn Şərhəbil Şəbamı Həzrətin

yanına gəldi. İmam Əli əleyhis-salam (arvadların müharibə zamanı şivən qoparmalarının məzəmmətində) ona belə buyurdu:

Arvadlarınız eşitdiyim bu ağlamaqları ilə sizə ağalıq edirlər? Onların bu nalə və fəryadlarının qarşısını almırsınız? (Gərək bunun qarşısını alasınız. Çünki belə bir vəziyyətdə onların ağlayaraq nalə etmələri kişilərin müharibədən qorxmalarına səbəb və onların döyüşə getmələrinə mane olur.)

Hərb istədi ki, minikdə olan o Həzrətin yanı ilə piyada getsin. İmam əleyhis-salam (cah-cəlal sevməyin ziyanı barəsində) ona buyurdu: Qayıt! Sənin kimisinin mənim kimisi ilə piyada gəlməyi hakim üçün bəla və çətinlik, mömin üçün isə zillət və xarlıqdır. (Hakim üçün ona görə bəla və çətinlikdir ki, bu iş ona ilahi əzab və cəzaya səbəb olan qürur və təkəbbürlülük gətirir. Möminin də bir miniyin yanı ilə piyada getməsi xarlıqdır. Çətinlik və bəlaya, eləcə də xarlığa səbəb olan hər bir şeyi tərk etmək isə vacibdir.)

315 İmam Əli əleyhis-salam Nəhrəvan müharibəsində Xəvaricin ölülərinin yanından keçən zaman (onların məzəmmətində belə) buyurdu: Çəkin cəzanızı ki, sizi aldadan kəs ziyan vurdu sizə! Dedilər: Ey Əmirəl-möminin, kim aldatdı onları? Buyurdu: Azdıran şeytan və pisliyə əmr edən nəfslər. Pisliyə əmr edən nəfs onları arzularla aldatdı, onlara itaətsizlik yolunu açdı və (müharibədə) qələbə qazanmağı vəd etdi onlara. Beləliklə, onları çətinliklə oda atdı (əbədi əzaba düçar etdi).

316 İmam Əli əleyhis-salam (günahlardan uzaq olmağa həvəsləndirərək) buyurmuşdur: Xəlvətlərdə (də) Allaha qarşı günah etməkdən çəkin. Çünki şahid, hökm edənin özüdür. (Əgər gizlində günah edilsə və şahid olmasa Allah həm şahiddir, həm də hökm edən. Hökm edən özü şahid olanda isə onun başqalarının şahidliyinə ehtiyacı olmur.)

317 Məhəmməd ibn Əbu Bəkrin (Allah ondan razı olsun) (Misirdə Müaviyənin qoşununun əli ilə) öldürülməsi xəbəri İmam Əli əleyhis-salama çatanda (o Həzrət onun üçün təəssüflənmək və kədərlənmək barəsində belə) buyurdu: Bizim onun üçün olan kədərimiz onların ona görə (onun öldürülməsinə görə) olan sevincləri miqdarındadır. (Onun barəsində bizim kədərimizin və onların sevinclərinin çoxluğu bərabərdir.) Amma (bizimlə

onlar arasındakı fərq budur ki,) onlar bir düşməni azaltdılar, biz isə bir dostu əldən verdik.

318 İmam Əli əleyhis-salam (bəhanəni qəbul etmək barəsində) buyurmuşdur: Allahın Adəm övladının üzr və bəhanəsini qəbul etdiyi yaş həddi altmış yaşdır.

319 İmam Əli əleyhis-salam (Allahdan başqasının yolunda qələbə qazanmağın məzəmmətində) buyurmuşdur: Günahın qalib gəldiyi kəs zəfər çalmayıb. (Allah itaətindən ayrı yerdə qələbə qazanmış kəs, nəfsi istəyə və şeytana tabedir və əslində günah ona qalib gəlib.) Pisliklə (günahla) qabağa gedən kəs (əslində) məğlub olub. (Çünki o, ən pis düşmən olan nəfsi istəyə məğlub olub və düşmənlərin ən pisinin əlində əsir olan kəs qələbə qazanmayıb.)

320 İmam Əli əleyhis-salam (zəkat verməyə təşviq edərək) buyurmuşdur: Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah varlıların mallarında yoxsulların ruzilərini vacib edib. Buna görə də varlı ondan (onun öz haqqını) əsirgəməsə yoxsul ac qalmaz. Ehtiyacsızlığı mütləq olan Allah (Qiyamət günü) onları bu işə görə sorğu-sual edəcəkdir.

321 İmam Əli əleyhis-salam (bəhanə gətirməməyin tərifində) buyurmuşdur: Üzr və bəhanə gətirməyə ehtiyacsızlıq, onun (üzr və bəhanənin) düzgün və yerində olmasından daha şərafətlidir.

322 İmam Əli əleyhis-salam (günahdan uzaq olmaq barəsində) buyurmuşdur: Sizin, eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah üçün yerinə yetirməli olduğunuz ən az şey, Ona qarşı günah işlədərkən (qəzəbinə səbəb olmamaq üçün) Onun nemətlərindən kömək istəməməyinizdir.

323 İmam Əli əleyhis-salam (bəndəlikdə səhlənkarlıq edənlərin məzəmmətində) buyurmuşdur: Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, acizlər (itaətdə acizlər kimi başısoyuqluq edənlər) səhlənkarlıq edən zaman itaəti zirək və gözüaçıqların (yaxşı işlər görən ağıllıların) qənimət və mənfəəti edib. (Onların səhlənkarlıqları müqabilində ağıllıların çalışqanlığı mənfəət və qazancdır.)

324 İmam Əli əleyhis-salam (padşahlar barəsində) buyurmuşdur: Padşahlar Allahın yer üzərindəki gözətçiləridirlər (ki, insanların bir-birlərinə ziyan vurmalarının və pislik etmələrinin qarşısını alırlar). 325 İmam Əli əleyhis-salam möminin vəsfində buyurmuşdur: Möminin sevinci üzündə, kədəri isə qəlbindədir. Sinəsi hər şeydən genişdir (çətinliklər zamanı səbri qədərsizdir); nəfsi hər şeydən xardır (təvazökarlığı çoxdur); itaətsizlikdən zəhləsi gedir, riya və gözəgirənliyə nifrət edir. (İşin sonu barəsindəki) kədəri uzun, (layiqli işlərdəki) səy və tələşı yüksəkdir. (Fikir və düşüncə nəticəsində) dinməzliyi çox, vaxtı (itaət və bəndəliyə) məşğul, (Allahın nemətlərinə) şükr edən və (bəla və çətinliklərdə) çox səbrlidir. Öz fikir və düşüncəsində (bəndəlik və işin sonu barəsində təfəkkürə) qərq olub, öz istəyində (başqasından bir şey istəməkdə) simiclik edir (ehtiyacını heç kəsə bildirmir), xasiyyəti yumşaq, təbiəti mülayimdir (təkəbbürlü, məğrur və başqalarını incidən deyil). O, quldan xar (hamıya qarşı çox təvazökar) olmasına baxmayaraq, nəfsi möhkəm daşdan da bərkdir (din yolunda şücaətlidir).

326 İmam Əli əleyhis-salam (başqalarının malında gözü olmamaq barəsində) buyurmuşdur: Ən böyük zənginlik xalqın əlində olan şeylərdə (var-dövlətdə) gözü olmamaqdır. (Çünki başqalarının malında gözü olmayan kəs varlılar kimi rifah və asayişdədir.)

327 İmam Əli əleyhis-salam (vədə vəfa etmək barəsində) buyurmuşdur: Bir şey istənilən şəxs, vədə verməyincə azaddır (istəsə edər, istəməsə etməz). 328 İmam Əli əleyhis-salam (arzu barəsində) buyurmuşdur: Əgər bəndə (bəsirət gözü ilə) ömrün müddətinə və onun rəftarına (onu yoxluq və faniliyə çəkməsinə) baxsa, arzuya və onun aldatmalarına nifrət bəsləyər (ondan uzaqlaşar və fikrini onunla məşğul etməz). 329 İmam Əli əleyhis-salam (var-dövlət barəsində) buyurmuşdur: Hər bir kəsin malında iki şəriki var: biri irs aparan, digəri isə hadisələr (bəla və müsibətlər. Buna görə də ağıllı adam elə bir iş görər ki, onun payı o iki şərikindən az olmasın).

330 İmam Əli əleyhis-salam (Allahdan istəmək barəsində) buyurmuşdur: İtaət və bəndəliyi olmadan (Allahdan) bir şey istəyən, kamanının yayı olmayan ox atan kimidir (ki, oxu hədəfə çatmaz). 331 İmam Əli əleyhis-

salam (elm barəsində) buyurmuşdur: Elm iki növdür: biri fitri (nişanələri əməldə aşkar) olan elm, digəri isə (öyrənmək və mütaliə ilə olan) eşidilmə elm. Eşidilmə elm fitri olmayınca fayda verməz (insanı elmin həqiqətlərinə çatdıraraq xoşbəxt etməz). 332 İmam Əli əleyhis-salam (fikir barəsində) buyurmuşdur: Düzgün fikir dövlət, üstünlük və sərvətə bağlıdır. Onların gəlməsi ilə gəlir və onların getməsi ilə gedir.

333 İmam Əli əleyhis-salam (yoxsulluq və varlılıq barəsində) buyurmuşdur: Yoxsulluğun zinəti abır-ismətdir. Varlılığın zinəti isə şükrdür. 334 İmam Əli əleyhis-salam (zalım barəsində) buyurmuşdur: Ədalət (qiyamət) günü zalıma məzluma zülm edilmiş gündən daha ağırdır. (Bu məsələnin şərhi 233-cü kəlamda keçdi.)

335 İmam Əli əleyhis-salam (bəyənilən işlərə təşviq edib nalayiq işlərdən çəkindirərək) buyurmuşdur: Sözlər qorunub (mələklər onları əməl səhifələrinə qeyd edirlər); gizli sirlər aşkar olub və (Muddəsir surəsinin 38-ci ayəsində buyurulur:) «كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ» «Hər kəs öz əməlinin girovudur (onun cəzasına çatacaq).» İnsanlar – Allahın qoruduğu (eyb və nöqsandan saxlayıb zinətləndirdiyi) kimsədən başqa – (inkişafda) naqis və (ağıldan) eyblidirlər. (Çünki) sual soruşanları insanı çətinliyə salıb incitmək istəyir, cavab verənləri (heç bir cavabda geri qalmamaq üçün) çətinliyi qəbul edir. Onların fikiri daha düz olanını da sevinc və qəzəb tez gözəl fikrindən döndərir. Ağlı onlardan möhkəm olan kəsə də gözucu bir baxış tez ziyan vurar (ağılın hökmünə zidd davranaraq hörmətini itirər) və bir kəlmə onu bir haldan digər hala salar (deyilən bir söz nəticəsində qəzəblənərək xoşagəlməz iş görər).

336 İmam Əli əleyhis-salam (dünyadan uzaq olmağa həvəsləndirərək) buyurmuşdur: Ey camaat! Allahdan qorxun (dünyaya və onun malına ürək bağlamayın). Nə çox adam ki, çatmayacağı şeyi arzulayır, yaşamayacağı binanı tikir, tezliklə tərk edəcəyi sərvəti toplayır və bəlkə də onu əyriliklə (əyri yol ilə) toplayıb və haqqın qarşısını alıb, (yəni,) ona haram yol ilə çatıb və ona görə günahların yükü altına girib. Beləliklə, (qiyamətdə) onun ağır yükü ilə qayıdacaq və (hesab və araşdırma zamanı) Rəbbinin hüzuruna həsrət və kədərlə gələcək. O, (belə bir şəxs Qur'ani-Kərimin Həcc surəsinin 11-ci ayəsində buyurulduğu kimi) «خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ»

«Həm dünyada, həm də axirətdə ziyana uğrayıb. Bu (hamıya) aşkar olan bir ziyandır.»

337 İmam Əli əleyhis-salam (günahdan kənar qalanlar barəsində) buyurmuşdur: Günahlara (onun edilməsinə) əli çatmamaq paklıqdandır (paklığa səbəb olan amillərdəndir).

338 İmam Əli əleyhis-salam (abır barəsində) buyurmuşdur: Abrın donmuş haldadır (qorunur). Ağız açmaq və istəmək onun damcılarıdır (onu tökür). Onu kimin yanında tökməyinə diqqət et. (Alçaq adamlardan bir şey istəmə. Çünki onlar istəyini yerinə yetirməsələr xəcalət çəkəcəksən, amma yerinə yetirsələr sənin həmişə qarşılarında əyilməyini istəyəcəklər.)

339 İmam Əli əleyhis-salam (yaltaqlıq barəsində) buyurmuşdur: (Birini) layiq olduğundan artıq tərifləmək yaltaqlıqdır (və ikiüzlülük nişanəsidir). Layiq olduğundan az tərifləmək isə acizlik (danışmaqda bacarıqsızlıq) və ya (ona) paxıllıqdır. (Deməli, ədalət və bərabərlik hər bir kəsi layiq olduğu qədər tərifləməyimiz və məqam və dərəcəsini həmin miqdarda üzə çıxarmağımızdır.)

340 İmam Əli əleyhis-salam (günah barəsində) buyurmuşdur: (Allah yanında) ən ağır günah insanın yüngül və kiçik hesab etdiyi günahdır. 341 İmam Əli əleyhis-salam (bəzi xislətlərin xeyir və ziyanı barəsində) buyurmuşdur: Kim öz eybinə (çatışmazlıqları və pisliklərinə) baxsa, başqasının eybini görməz. (Çünki öz pisliklərini düzəltməklə məşğul olar və başqasında eyb axtarmağa növbə çatmaz.) Allahın verdiyi ruziyə razı olan kəs, əlindən çıxan şey üçün kədərlənməz. (Çünki insanın bir şey tapması və onun şəxsin əlində qalması, onun ruzisinin həmin şey olmasının nişanəsidir. Bir şeyi axtarıb tapmırsa, yaxud tapır və sonra əldən çıxarırsa, deməli, o, onun ruzisi deyilmiş. Buna görə də bir şeyi əldə etməmək üçün və ya tapandan sonra əldən çıxarmağa görə kədərlənmək təqdir edilmiş ruziyə razı olmamağa dəlildir.) Kim zülm qılıncını (qınından) çəksə (çox zülm etsə) həmin qılıncla öldürülər (axirətdən əlavə dünyada da məhvə düçar olar). Kim (alət və vasitəsiz, çətin) işlərdə çalışsa və əziyyət çəksə (qəza-qədərdən asılaraq) həlak olar. Özünü çətinlik və əziyyət burulğanlarına atan (zəif

olmasına baxmayaraq, böyük işlərə girişən) kəs boğular (məhv olar). Kim pis yerlərə daxil olsa, xalq onun barəsində pis gümanda olar (hətta pis iş görməsə belə). Çox danışan kəs çox səhv edər (çünki danışanda fikirləşməz). Çox səhv edən kəsin həyası az olar (çünki çirkin iş onun peşəsi olar). Kimin həyası az olsa onun pərhizkarlıq və günahdan uzaqlığı (da) az olar. (Çünki həyası olmayan kəs heç bir nalayiq işi görməkdən çəkinməz.) Pərhizkarlığı az olanın qəlbi ölər (Allahın rəhmindən uzaq olar. Çünki qəlbin yaşaması günahdan çəkinməkdən asılı, ona bağlıdır). Qəlbi ölmüş şəxs oda daxil olar. (Çünki əbədi cənnət və Allahın rəhmi qəlbi ölənlər üçün deyil.) Kim xalqın eyb və nöqsanlarına baxıb onları bəyənməsə və sonra onları özünə rəva bilsə (özü etsə), deməli, o, elə axmaq və qanmazın özüdür. (Çünki o, düz və doğru bildiyi şeyin əksinə gedib və bu, qanmazlıq və axmaqlıqdır.) Qaneçilik (öz payına razı olmaq və ya qənaət) tükənməz sərvətdir. Ölümü çox yada salan kəs dünyadan aza razı olar. (Çünki ölümdən qafil olmaq insanda dünyaya hərislik gətirir.) Kim danışığının əmələ əsaslanmasını (dediyini etməli olduğunu) bilsə, barəsində qərara gəldiyi və əhəmiyyət verdiyi şeydən başqa az danışar.

342 İmam Əli əleyhis-salam (zalım barəsində) buyurmuşdur: Zalım insanın üç nişanəsi var: (birincisi:) günah və itaətsizliklə özündən üstün olana (Allaha) zülm edər; (ikincisi:) zor və üstünlüyü ilə əli altında olana zülm edər; (üçüncüsü:) zalımların dəstəsinə (söz, əməl və mal xərcləməklə) kömək edər.

343 İmam Əli əleyhis-salam (rahatlıq və çətinlik barəsində) buyurmuşdur: Çətinlik və sıxıntının ən son həddə çatmasında rahatlıq, bəla və müsibət halqalarının daralmasında dinclik vardır.

344 İmam Əli əleyhis-salam səhabələrinin birinə (arvad-uşaq barəsində) buyurmuşdur: İşinin çoxunu arvad-uşağına həsr etmə. Çünki əgər onlar Allahın dostu olsalar, Allah Öz dostlarını puç etməz (və onlara yardım etməkdə başqasına möhtac deyil). Amma əgər Allahın düşməni olsalar, Allahın düşmənləri üçün kədərlənərək iş görməyin nəyə gərəkdir?! (Onun düşmənlərinin vəziyyətini yaxşılaşdırmaq üçün çalışma. Çünki onlara kömək etmək əzab və cəzaya səbəb olur.)

345 İmam Əli əleyhis-salam (eyb axtarmaq barəsində) buyurmuşdur: Ən böyük eyb və qəbahət özündə olan sifəti (başqasında) nöqsan tutmaqdır.

346 İmam Əli əleyhis-salamın hüzurunda bir kişi oğlu olmuş digər bir kişini təbrik edərək belə dedi: Süvari (yaxud zəkalı və zirək) övladın mübarək olsun sənə! (Bu cümlə cahiliyyət dövründə ərəblərin şüarı idi. Onlar bu cümlə ilə təbriklərində uşağın süvarilik və xoşbəxtliyini proqnozlaşdırırdılar.) Sonra İmam əleyhis-salam belə buyurdu: (Uşağın olmasını təbrik edəndə) elə demə, de ki: Onu əta edən Allaha şükr olsun, sənə əta edilmiş övlad mübarək olsun, bu övlad tam kamala çatsın və onun yaxşı əməllərindən bəhrələnəsən.

347 İmam Əli əleyhis-salamın işçilərindən biri böyük bir ev tikmişdi. Buna görə də İmam əleyhis-salam (sərvətin aşkar olması barəsində belə) buyurdu: Dirhəmlər (gümüş pullar) başlarını üzə çıxartdılar (gizlətdiyin şeylər faş oldu). Ev sənin varlılığını vəsf edir (sənin varlılığının nişanəsidir).

348 İmam Əli əleyhis-salama dedilər: Əgər birinin evinin qapısını üzünə bağlasalar və onu orada (azuqəsiz) qoysalar, ruzisi haradan gələr? O Həzrət ruzi barəsində buyurdu: Əcəl və ölümü gələn yerdən! (Ölümü haradan gəlirsə Allah-təala ruzini də oradan göndərməyə qadirdir. Buna görə də qapının bağlı olması ölümün gəlməsinə mane olmadığı kimi, ruzinin də gəlməsinə mane olmur.)

349 İmam Əli əleyhis-salam adamları ölmüş bir tayfaya baş sağlığı verib səbr etmələrini tövsiyə edərək (ölüm barəsində belə) buyurdu: Onun bu ölümü nə sizdən başlayıb, nə də sizinlə qurtarır (ki, acı olsun. Əksinə, onda hamı bərabərdir). Sizin bu yoldaşınız (həyatı zamanı) səfərə çıxırdı (sizdən ayrılırdı). Buna görə də belə hesab edin ki, o öz səfərlərinin birinə gedib və sizin yanınıza qayıdacaq. Əgər qayıtmasa, (elə belə də olacaq) siz onun yanına gedəcəksiniz. (Buna görə də ondan ayrılmağa görə qəmlənmək yersizdir.)

350 İmam Əli əleyhis-salam (şükr və səbr etməyə həvəsləndirərək) buyurmuşdur: Ey insanlar! Allah gərək sizi (Onun) əzab və cəzasından qorxan gördüyü kimi, nemət və bəxşişlərindən də qorxan görsün. (Gərək

həmişə Allahın nemətlərinə şükr etməkdə diqqətli olasınız və naşükrlük etməyəsiniz ki, əzab və cəzaya düçar olmayasınız.) Həqiqətən əlində sərvəti artan və onu əzabın tədricən gəlməsi (gəlmə səbəbi) bilməyən (və naşükrlük edən) kəs qorxuludan xatircəm və arxayın (qafil) olub. Həmçinin yoxsullaşan və onu sınaq və imtahan (öz sınağı) bilməyən (və səbrliliyi əldən verən) kəs, ümid bəslənilərək arzulanan (səbrli şəxs üçün nəzərdə tutulmuş) mükafatı zay edib.

351 İmam Əli əleyhis-salam (nəfsin istəklərindən uzaq olmaq barəsində) buyurmuşdur: Ey nəfsin istəyinin əsirləri, dayanın (ona tabe olmayın)! Çünki dünyaya ürək bağlayanı müsibət və qəm-qüssənin dişlərinin səsindən (qəzəb və sərtlikdən yaranan ağır dərdləri eşitməkdən) başqa bir şey qorxutmur (necə ki, insan birinə qarşı qəzəblənəndə dişlərini bir-birinə sürtür). Ey insanlar! Nəfslərinizi ədəbləndirmək və islah etməklə özünüz məşğul olun (bəyənilənləri öz şüarınız edin) və onları (nalayiq) xislət və vərdişlərə cürət etməkdən qaytarın (ki, qiyamət cəzasından qurtulasınız).

352 İmam Əli əleyhis-salam (pis güman barəsində) buyurmuşdur: Birindən (birinin ağzından) çıxan söz barəsində nə qədər ki, yaxşı ehtimal verə bilirsən, pis güman etməməlisən. (Nə qədər ki, mümkündür, ona qarşı pis gümanda olma. Həmçinin birindən gördüyün işi bacardıqca yaxşı san. Amma bəzi yerlərdə uzaqgörənliyi əldən vermək olmaz. 110-cu kəlamda nikbinlik və bədbinliyin yerləri müəyyənləşdirilib.)

353 İmam Əli əleyhis-salam (salavat göndərməyə təşviq edərək) buyurmuşdur: Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahdan hacət və istəyin olanda, öz istəyini Allahın Peyğəmbərinə (səlləllahu əleyhi və alih) salavat göndərməklə başla və sonra öz hacətini istə. Çünki Allah Ondan istənilən iki hacətdən birini (Peyğəmbərə rəhmət və salam göndərməsi istəyini) qəbul edib digərini (sənin öz hacətini) qəbul etməməkdən çox-çox səxavətlidir.

354 İmam Əli əleyhis-salam (qalmaqal və çəkişmə barəsində) buyurmuşdur: Abrına simiclik edən (abırını qorumağı sevən) kəs, gərək (başqası ilə bir şey barəsində) mübahisə etməyi kənara qoysun. (Çünki mübahisə etmək, xüsusilə

eyb axtaranlarla çəkişmək insanın abrını aparır və qəlblərdə ona qarşı kin yaradır.)

355 İmam Əli əleyhis-salam (tələskənlik və süstlüyün məzəmmətində) buyurmuşdur: (Hər hansı bir işə) imkan yaranandan qabaq (onda) tələsmək və münasib vaxt və fürsət yaranandan sonra süstlük etmək axmaqlıq və qanmazlıqdandır. (Çünki tələsmək ifrat, süstlük isə səhlənkarlıqdır və ağıllı adam onların hər ikisindən uzaq olar.)

356 İmam Əli əleyhis-salam (faydasız sual barəsində) buyurmuşdur: Olmayacaq şey (məsələn, haqqında bəhs edilən fərzi məsələlər) barəsində sual soruşma. Çünki (şər'i hökmlər və həyati işlər kimi) mövcud şeylərdə sənin üçün məşğuliyyət və iş var (ki, gərək onlarla məşğul olasan). 357 İmam Əli əleyhis-salam (bəzi bəyənilən sifətlərə yiyələnməyə təşviq edərək) buyurmuşdur: Fikir saf və aydın güzgüdür (ki, işin sonu onda görünür). (Ruzigardan) ibrət götürmək qorxudan öyüdverəndir. Başqasından bəyənmədiyin şeydən (çirkinlikdən) uzaq olmağın ədəb və zinəti sənə bəsdir.

358 İmam Əli əleyhis-salam (əməl ilə birgə olan elm barəsində) buyurmuşdur: Elm əmələ bağlıdır. Buna görə də kim bildisə əməl etdi (əks halda, yəni, əgər zahirdə bilən kimi görünüb əməl etmirsə, deməli, əslində bilmir). Elm əməli çağırır (özünə tərəf dəvət edir). Əgər onu (onun dəvət və çağırışını) qəbul etsə həmin elmdən xeyir görülür. Əks halda isə elm əməldən uzaqlaşır (həmin elmdən xeyir görülmür, necə ki, nadanlıqdan xeyir əldə edilmir. Deməli, bu elm xeyir verməməkdə nadanlıqla bərabərdir).

359 İmam Əli əleyhis-salam (dünyadan uzaq olmaq barəsində) buyurmuşdur: Ey insanlar! Dünya malı məhvedici vəba gətirən doğranmış quru otdur. Buna görə də köçmək və qalmamaq onda qərar tapmaqdan daha xeyirli olan otlaqdan uzaq olun. (Çünki onda qalmaq və ona ürək bağlamaq bədbəxtliyə səbəb olur.) Onun az (bu yolu sona çatdıracaq) ruzi və xörəyi, onun sərvətindən daha pakdır. (Çünki onun dünyada zəhməti, axirətdə isə hesabatı daha azdır.) Onda (hərislik və tamahkarlıq ucbatından) çoxlu sərvət toplayanın (axirətdə) kasıb və yoxsul olması hökm edilib. (Çünki o, dünyada giriftar olub və azuqə götürə bilməyib.) Həmçinin ondan (qənaət etmək və qane olmaqla) ehtiyacsız olan (sərvət toplamayan) kəsin (qiyamət günündə)

rahat olmasına kömək edilib. Dünya, onun zinət və bəzəyinin heyrətləndirdiyi kəsin iki gözünü də anadangəlmə kor edib. (Sanki onda görmə əsər-əlaməti yoxdur.) Onunla dostluğu öz peşəsi edən kəs, fikir və zehnini kədərlərlə doldurar və həmin kədərlər onun qəlbində iztiraba səbəb olar. Bir iradə və istək onu (dünya malı əldə etmək üçün) məşğul və giriftar edər, digər bir iradə və istək isə onu qəmləndirər. O, nəfəs yolu (boğazı) tutulana (ölənə) kimi həmişə qəm-qüssə və düşgünlüklərin çəkişməsindədir. Beləliklə, qəlbinin iki damarı qırılmış (həlak olmuş) halda onu səhraya atarlar (qəbristanlıqda torpağa tapşırarlar). Allaha onun məhv olması, qardaş və dostlarına isə onu (qəbrə) atmaq yüngül və asandır. Mömin dünyaya ibrət gözü ilə baxır, naçarlıqdan məcbur olub qarnının ehtiyacı miqdarında qida və ruzi əldə edir və (dünya barəsindəki söhbəti) qəzəb və nifrətlə dinləyir. (İnsanın dünyadakı vəziyyəti isə belədir:) Əgər «filankəs varlı və imkanlı oldu» deyilsə (bir müddətdən sonra) «kasıb və yoxsul oldu» deyilər; əgər varlığına sevinsələr (digər bir gün) yoxluğuna kədərlənərlər. Budur insanın dünyadakı vəziyyəti və hələ (dünyapərəstlərin əzabın ağırlığı və çətinlik və giriftarlığın əbədiliyi səbəbindən Allahın rəhmi və asudəlikdən) naümid olacaqları gün (qiyamət) gəlməyib.

360 İmam Əli əleyhis-salam (Allahın savab və cəzası barəsində) buyurmuşdur: Eyb və nöqsan sifətlərdən uzaq və pak olan Allah, (itaətə möhtac olduğu və ya itaətsizlikdən qorxduğu üçün deyil) bəndələrini Öz əzabından saxlayıb onları cənnətə göndərmək üçün bəndəlik və itaətə savab və günaha cəza müəyyənləşdirib.

361 İmam Əli əleyhis-salam (fitnəkarların və fitnəkarlıq zamanının məzəmmətində) buyurmuşdur: İnsanlar üçün elə bir dövran gələcək ki, onda Qur'andan nişanədən (mənaları və həqiqətləri barəsində düşünmədən yazıb oxumaqdan), İslamdan isə addan (onun hökmlərinə əməl etmədən şəhadətləri deməkdən) başqa bir şey qalmayacaq. Həmin zamanda onların məscidləri bina (zinət və gözəlliyi) baxımından abad, hidayət baxımından isə (onlarda pərhizkar və hidayət edən olmadığı üçün) virandır və onların sakin və abadlaşdıranları (məsciddə toplaşanlar) yer üzünün ən pisləridirlər. (Çünki) onlardan fitnə xaric olar və onlarda itaətsizlik və günah yerləşər. Həmin fitnədən kənarlaşan hər bir kəsi ona qaytararlar və ondan arxada qalanı ona tərəf apararlar. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah buyurur:

Öz haqqıma and içmişəm ki, həmin insanlar üçün səbrli və ağıllıların onda (ondan qurtulmaqda) sərgərdan qaldığı bir fitnə göndərim. Həqiqətən (O, dediyini) edəndir. Biz Allahdan (fitnəkarlar kimi əbədi cəzaya düçar olmamağımız üçün) qəflət və xəbərsizlik günahından keçməsini istəyirik.

362 Nəql edilib ki, İmam Əli əleyhis-salam çox az vaxtlar istisna olmaqla həmişə minbərə çıxanda xütbədən qabaq (pərhizkarlıq barəsində belə) buyurardı: Ey insanlar! Allahdan qorxun. Heç kəs boş yerə yaradılmayıb ki, oynasın; özbaşına buraxılmayıb ki, yersiz və bihudə iş görsün. Onun özünü bəzəyərək gözəl göstərən dünyası pis baxışın ona çirkin kimi göstərdiyi axirətin əvəzi və yerini tutan deyil. Həmçinin ən yüksək əzm və çalışqanlıqla dünyadan istədiyini əldə edən aldanmış kəs, axirətdən ən az payını və nəsibini əldə etmiş digəri kimi deyil.

363 İmam Əli əleyhis-salam (bəyənilən və xoşagələn xislətlər barəsində) buyurmuşdur: (İnsanı dünya və axirət səadətinə qovuşduran) İslamdan uca heç bir şərəf və böyüklük yoxdur. Pərhizkarlıqdan (Allahdan qorxmaq və Ona itaət etməkdən) üstün izzət, çəkinməkdən (günahdan və haram olması şübhəli şeylərdən özünü saxlamaqdan) gözəl və möhkəm sığınacaq və tövbədən səmərəli və nicatverici şəfaətçi yoxdur. Qənaətdən zəngin xəzinə yoxdur və verilmiş ruziyə razı olmaq kimi heç bir sərvət yoxsulluğun qarşısını almır. Ona çatmış şeylə kifayətlənən kəs rahatlığa qovuşub və dinclikdə oturaq salıb. Dünyaya meyl və rəğbət ən ağır çətinliyin açarı və giriftarçılığın miniyidir. Hərislik, təkəbbür və həsəd insanı günahlara düşməyə çağırır. Şər və pislik bütün çirkinlikləri bir yerə toplayır (əhatə edir).

364 İmam Əli əleyhis-salam (Həzrət Peyğəmbərin–səlləllahu əleyhi və alih–səhabələrinin yaxşılarından olmuş) Cabir ibn Abdullah Ənsariyə (din və dünyanın dayağı barəsində) buyurmuşdur: Ey Cabir! Din və dünyanın möhkəmlik və bərqərarlığı dörd kəsin vasitəsi ilədir: öz elmini işlədən (onun əsasında davranan və onu xalqa öyrədən) alim, öyrənməyi eyb və ar bilməyən nadan, (başqası barəsində) öz yaxşılıq və ehsanında simiclik etməyən varlı, öz axirətini dünyaya satmayan yoxsul. Buna görə də alim öz elmini işlətməyəndə nadan öyrənməyi ar biləcək, varlı öz yaxşılıq və ehsanında xəsislik edəndə yoxsul axirətini dünyasına satacaq (nalayiq işlər

görəcək). Ey Cabir! Allah hər kimin nemətlərini (hər kimə əta etdiyi mal, sərvət, böyüklük və bu kimi lütfləri) artırsa, xalqın ona olan ehtiyacları (istəkləri) da artar. Buna görə də kim Allaha görə həmin nemətlərdə vacib olan şeyi yerinə yetirsə, Allah onları davamlı və həmişəlik edər. Amma kim onlarda vacib olanları Allaha görə yerinə yetirməsə Allah onları məhv və yox edər.

365 İbn Cərir Təbəri özünün tarix kitabında nəql edib ki, (İmam Əli əleyhis-salamın səhabələrinin yaxşılarından və) İbn Əş'əs ilə Həccaca qarşı müharibə etmək üçün üsyana qalxanlardan olmuş Əbdürrəhman ibn Əbi Leyla Fəqih camaatı cihada (Həccac ilə müharibəyə) həvəsləndirərkən belə deyirmiş: Biz (Siffeyn müharibəsində) Şam əhli ilə qarşılaşdığımız gün Əlinin – Allah saleh və xeyirxahlar içində onun dərəcəsini ucaltsın və ona şəhidlər və doğruçuların savabını əta etsin – (əmr be mə'ruf və nəhy əz münkər barəsində) belə buyurduğunu eşitdim ki: Ey möminlər! Kim zülm və sitəm edilməsini və xalqın xoşagəlməz və nalayiq işlərə dəvət edilməsini görsə və onu qəlbi ilə inkar etsə, (qiyamət gününün sorğu-sualından) qurtulub və (günahdan) uzaq olub. (Bu, insan əl və dili ilə həmin şeyi inkar və rədd edə bilməyəndə və ya qorxu və zərər yetirilməsindən amanda olmayan zaman üçündür. Ümumiyyətlə onun hökmü yerlərinin müxtəlifliyi ilə dəyişir.) Kim onu dili ilə inkar etsə savab qazanıb və onun mükafatı qəlbi ilə inkar edəndən çoxdur. Allahın sözünün (din, tovhid və itaətin) uca, zalımların sözlərinin (şirk, küfr, azğınlıq və günahın) alçaq və xar olması üçün onu qılıncı (vuruşma) ilə inkar edən kəs isə hidayət və nicat yoluna çatıb, (Allahın bəyəndiyi) düz yolda dayanıb və (Allah və Peyğəmbərə) yəqinlik və inam onun qəlbində nurlanıb (aşkar olub).

366 İmam Əli əleyhis-salam özünün bu məzmunda (əmr be mə'ruf və nəhy əz münkər barəsində) olan digər bir kəlamında da buyurmuşdur: Onlardan (inkar edənlərdən) bəziləri pisliklərі öz əl, dil və qəlbi ilə inkar edir. Beləliklə, o, gözəl xislətləri sona çatdırıb, kamala yetirib. Bəziləri əli ilə deyil, dil və qəlbi ilə inkar edir. O, iki gözəl xislətdən yapışıb, birini (əl ilə inkar etməyi isə) zay edib. Bəzisi isə əl və dili ilə deyil qəlbi ilə inkar edib. O, üç xislətin ən şərəfli ikisini zay edib və bir xislətdən (qəlb ilə inkar etməkdən) yapışıb. Bəziləri isə nalayiq işləri dil, qəlb və əli ilə inkar etmir. O, dirilərin ölüsüdür. Bütün yaxşı əməllər və Allah yolunda cihad etmək,

əmr be mə'ruf və nəhy əz munkərin müqabilində geniş dəryaya ağız suyu atmaq kimidir. (Çünki İslamın vücudu əmr be mə'ruf və nəhy əz münkər ilədir.) Əmr be mə'ruf və nəhy əz münkər əcəli yaxınlaşdırmır və ruzini azaltmır . Əmr be mə'ruf və nəhy əz münkərin ən gözəli, zalım padşahın yanında (onu zülmdən saxlayan, xeyir və yaxşılığa sövq edən) bir haqq və düz sözdür (haqq söz deməkdir). 367 Əbu Cuhəyfədən nəql edilib ki: Əmirəl-möminin Əli əleyhis-salamdan (əmr be mə'ruf və nəhy əz münkər barəsində) belə buyurmasını eşitdim: Məğlub olacağınız (bədbəxtçilik və ilahi rəhmdən uzaqda qalmağınız nəticəsində sizdən alınacaq) ilk şey əllərinizlə cihaddır (vuruşmaqdır ki, kafir və müşriklərlə müharibə etməyəcək, fasiq, zalım və günahkarlar barəsində Allahın müəyyən etdiyi cəza növlərini icra etməyəcək və onları məzəmmət edərək ədəbləndirməyəcəksiniz). Ondan sonra (itirəcəyiniz şey) dillərinizlə olan cihaddır (ki, günah və çirkin əməlləri eşidib görəcəksiniz, amma görməmiş və eşitməmiş sayacaqsınız). Ondan sonra isə qəlblərinizlə olan cihaddır (ki, zalım və pis əməl sahiblərinə xeyir yetirəcək, onlarla dostluq edəcək və onlara ehtiram göstərəcəksiniz). Buna görə də qəlbi ilə bəyənilən işi tanımayan və nalayiq əməli inkar etməyən kəs (yaxşı əməl sahiblərini sevməyən və pis əməlliləri düşmən hesab etməyən – bu, əmr be mə'ruf və nəhy əz münkər məsələsində vacib olan işin ən aşağı həddidir –) tərsinə çevriləcək və başı aşağı, ayağı isə yuxarı olacaqdır (dünyada rahatlığı olmayacaq və sərgərdan qalacaq, axirətdə isə səadətini əldən verərək əbədi cəzaya düçar olacaqdır).

368 İmam Əli əleyhis-salam (haqq və batil barəsində) buyurmuşdur: Haqq (zahirdə) çətin və ağır, amma (batində) şirin, batil isə (zahirdə) yüngül və asan, lakin (batində) vəbagətiricidir (məhvedicidir). 369 İmam Əli əleyhis-salam (insanların aqibəti barəsində) buyurmuşdur: Bu ümmətin ən yaxşısı üçün belə Allahın əzab və cəzasından arxayın və xatircəm olma. Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Ə'raf surəsinin 99-cu ayəsində) buyurub ki: «فَلا يَأْمَنُ مَكْرَ اللهِ إلاَّ الْقَوْمُ الْخَاسِرُونَ» «Allahın cəzasından ziyana uğramış tayfadan başqa heç kəs xatircəm olmaz.» Bu ümmətin ən pisi üçün belə Allahın rəhm və mərhəmətindən naümid olma. Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Yusuf surəsinin 87-ci ayəsində) buyurub ki: «إِنَّهُ لا يَيْأَسُ مِن رَّوْحِ اللهِ إلاَّ الْقَوْمُ الْكَافِرُونَ» «Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər.» (Buna görə də hamının işinin sonunun necə

olacağını Allah bildiyi üçün heç kəs zahiri vəziyyətə arxayınlaşıb onun aqibətindən xatircəm və ya naümid olmamalıdır.)

370 İmam Əli əleyhis-salam (xəsislik və simicliyin məzəmmətində) buyurmuşdur: Xəsislik pislik və çirkinliklər toplusudur. O, (insanın,) vasitəsi ilə hər bir pisliyə çəkildiyi cilovdur. (Çünki xəsislik insanı həsəd, hərislik, qohumlarla əlaqələri kəsmək, zəif və yoxsullara zülm etmək və bu kimi günahlara çəkir.)

371 İmam Əli əleyhis-salam (ruzi barəsində) buyurmuşdur: Ruzi iki növdür: sənin axtardığın ruzi və səni axtaran ruzi ki, sən ona tərəf getməsən də o, sənə tərəf gələcəkdir. Buna görə də ilinin qəm-qüssəsini gününün qəm-qüssəsinə yükləmə. Sənə hər gün həmin günün öz ruzisi bəsdir. Belə olan halda, əgər (ruzisinin qəm-qüssəsini çəkdiyin) il sənin ömründən olsa, Allah-təala yeniləşən hər sabahda sənə ayırdığı ruzini tez sənə çatdıracaq. Amma əgər (həmin) il sənin ömründən olmasa, sənin olmayan şeyin qəmini çəkməklə nə işin var? Heç bir axtaran sənin ruzində səndən qabağa düşə bilməz və heç bir güclü onda sənə qalib gələ bilməz (və onu sənin əlindən ala bilməz). Sənin üçün təqdir edilmiş şey heç vaxt gecikməyəcəkdir (öz vaxtında çatacaqdır. Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Bu kəlam (hər bir kəsin təqdir edilmiş ruzisinin gəlib çatması cümləsi) bu fəsildə bundan öncə (iki yüz əlli doqquzuncu kəlamda) keçdi. Amma burada daha aydın və geniş izahlı olduğu üçün kitabın əvvəlində qoyulmuş qaydaya əsasən onu bir daha, ikinci dəfə bəyan etdik.

372 İmam Əli əleyhis-salam (dünyanın uyuşmazlığı barəsində) buyurmuşdur: Nə çox gündüzə üz tutan ki, ona arxa çevirə bilməz (əcəl ona axşama çıxmağa imkan verməz). Nə çox gecənin əvvəlində (vəziyyətinin yaxşılığına) qibtə edilən ki, gecənin axırında ona ağlayanlar ayağa qalxdılar. (Bəli, gecənin əvvəlində taxt-tacı var idi, səhər tezdən isə torpağın altına getdi. Buna görə də ağıllı adam dünyaya və onun malına ürək bağlamaz və öz dinini və əbədi xoşbəxtliyini ona satmaz.)

373 İmam Əli əleyhis-salam (söz barəsində) buyurmuşdur: Nə qədər ki, danışmamısan, söz sənin əsirindir. Elə ki dilə gətirdin sən onun əsirisən. (Əvvəlcə sən ona hakim idin, indi isə o sənə hakimdir və istəsə sənə xeyir

gətirər, istəsə ziyan.) Buna görə də qızıl və gümüşü xəzinədə saxladığın kimi dilini də (ağız xəzinəsində) saxla. Çünki ola bilər ki, bir kəlmə, neməti əldən çıxarsın və qarşıya əzab və çətinlik gətirsin. (Buna görə də gərək çox danışılmasın və düşünmədən bir söz deyilməsin.)

374 İmam Əli əleyhis-salam (yenə də söz barəsində) buyurmuşdur: Bilmədiyini demə. (Çünki o, ya yalandır, ya da yalan ehtimalı olan bir şey. Nadanlıq və cahillik üzərində olan hər bir sözdən isə çəkinmək vacibdir.) Hətta bildiyin hər şeyi də demə. (Çünki sənin özünə və ya başqasına ziyanı ola bilər, birinin sirrini açmaq kimi.) Çünki eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah, sənin bütün bədən üzvlərinə bir sıra hökmlər vacib edib və qiyamət günü onlarla sənə qarşı dəlil gətirəcək. (Məsələn buyuracaq ki, sənə dili haqq söz danışmaq üçün verdim, sən isə itaət etmədiyin üçün əzab və cəzaya layiqsən.)

375 İmam Əli əleyhis-salam (günahdan uzaq olmağa həvəsləndirərək) buyurmuşdur: Allahın səni Ona qarşı günah işlətməkdə görməsi, Ona itaətdə isə tapmamasından qorx ki, ziyana uğrayanlardan olarsan. Güclənəndə, Allahın itaətində güclən. Zəifləyəndə, Allaha qarşı günah etməkdə zəiflə.

376 İmam Əli əleyhis-salam (öyüd verərək) buyurmuşdur: Gözünlə dünyanın etdiklərini (yalan və vəfasızlığını) görə-görə ona arxalanmaq, ürək bağlamaq nadanlıqdır. Savabına əmin olduğun zaman (nəticəsinin cənnət və əbədi rahatlıq olmasını biləndə) gözəl əməldə (itaət və bəndəlikdə) səhlənkarlıq etmək ziyana uğramaqdır. Sınamamış, hər bir kəsə etimad etmək acizlik və uğursuzluqdur (işdə uğursuzluğa səbəb olar. Çünki həmin şəxs kimə etimad etməsini bilmir və inama layiq adam axtara bilmir).

377 İmam Əli əleyhis-salam (dünyanın məzəmmətində) buyurmuşdur: Allaha qarşı ancaq dünyada günah edilməsi və Onun yanında olan şeyə (səadət və xoşbəxtliyə) ancaq dünyadan uzaqlaşmaqla nail olunması, dünyanın Allah yanında həqirliyinin nişanələrindəndir.

378 İmam Əli əleyhis-salam (gözəl əmələ həvəsləndirərək) buyurmuşdur: Əməlinin ağırlaşdırdığı (ibadət etməyən və yaxşı işlər görməyən tənbəl) kəsi soy və kökü qoçaqlaşdırmaz. (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Digər bir

rəvayətdə isə belədir: Öz məqam və dərəcəsini itirən kəsə atalarının məqam və dərəcəsi fayda verməz. 379 İmam Əli əleyhis-salam (işdə çalışmaq barəsində) buyurmuşdur: Bir şeyi axtaran kəs onu və ya onun bir hissəsini tapacaqdır. 380 İmam Əli əleyhis-salam (həqiqi yaxşılıq və pislik barəsində) buyurmuşdur: Arxasında od olan (ilahi əzaba səbəb olan) xeyir və yaxşılıq (dünya mənfəəti, əslində) xeyir və yaxşılıq deyil. Arxasında cənnət olan çətinlik və pislik (dünyada çəkilən əziyyətlər, əslində) çətinlik və pislik deyil. Cənnətdən aşağı hər bir nemət kiçik və əhəmiyyətsizdir. Oddan aşağı hər bir bəla və çətinlik rahatlıq və asayişdir. (Çünki o nemətə nemət demək olar ki, onun arxasında cəza olmasın. Həmçinin o çətinliyi çətinlik hesab etmək olar ki, onun arxasınca əbədi rahatlıq olmasın.)

381 İmam Əli əleyhis-salam (çətinliklər və nemətlər barəsində) buyurmuşdur: Bilin ki, bəla və çətinliklərdən biri yoxsulluqdur. Yoxsulluqdan daha çətini bədənin xəstə olmasıdır. Bədənin xəstə olmasından daha ağırı isə qəlbin xəstəliyidir. (Çünki o, axirət xoşbəxtliklərinin əldən çıxmasına səbəb olur.) Bilin ki, nemətlərdən biri var-dövlətin çoxluğudur. Var-dövlətin çoxluğundan daha yaxşı, sağlamlıqdır. Sağlamlıqdan daha yaxşı isə qəlbin pərhizkarlığıdır. (Çünki o, əbədi xoşbəxtliklərin əldə edilməsinə səbəb olur.) 382 İmam Əli əleyhis-salam (möminin vaxtı barəsində) buyurmuşdur: Möminin üç saatı var (gecə-gündüz saatlarını üç hissəyə bölməlidir): Rəbbi ilə razü-niyaz etdiyi saat (vaxtının səkkiz saatını Allahın işlərinə sərf etməlidir); öz məişətini (yaşayış ehtiyacını) təmin etdiyi saat (gecə-gündüzünün səkkiz saatını ticarət, müəyyən peşə və ya digər işlərə sərf etməlidir); özü ilə halal və gözəl şeylər arasında ləzzət almaq üçün ayırdığı saat. Ağıllı adama (əməli ağıla əsasən) bu üç şeydən başqası üçün səfər etmək rəva deyil: məişətini düzəltmək (ticarət, alver və iş) üçün, yaxud məad işində addımlamaq üçün ya da (ab-havanı dəyişmək və sağlamlıq üçün edilən səfərlər kimi) haram olmayan şeylərdən ləzzət almağa görə.

383 İmam Əli əleyhis-salam (dünya və onun malı barəsində) buyurmuşdur: Dünyaya (onun malına) rəğbət və meyl göstərmə (ona ürək bağlama) ki, Allah sənə onun çirkinliklərini göstərsin. (Çünki vurğun eybləri görmür və onun görən gözü kor olur. Öz işindən) xəbərsiz olma ki, səndən xəbərsiz deyildirlər. (Allah sənə və sənin işlərinə baxır.)

384 İmam Əli əleyhis-salam (danışmaq barəsində) buyurmuşdur: Danışın ki, tanınasınız. Çünki insan dilinin altında gizlənib. (Ağıllılar və alimlər danışmayınca məqamları məlum olmaz. Cahil və nadanın danışmaması daha yaxşıdır. Çünki dilin bağlılığı qəbahət və rüsvayçılıqları gizli saxlayır.) 385 İmam Əli əleyhis-salam (müşk barəsində) buyurmuşdur: Müşk gözəl ətirlidir. Onun qabı yüngül, iyi isə gözəldir.

386 İmam Əli əleyhis-salam (təvazökarlıq barəsində) buyurmuşdur: Öyünməyini kənara qoy, kibr və lovğalanmağı başından çıxart (hamıya qarşı təvazökar ol) və qəbrini yadına sal (ki, nalayiq işlərdən çəkinəsən).

387 İmam Əli əleyhis-salam (dünya malı üçün çalışmaq barəsində) buyurmuşdur: Dünyadan (onun malından halal yol ilə) sənə tərəf gələni götür və səndən üz çevirəndən (əlin çatmayandan) sən də üz çevir. Əgər sən (bu işi) etməsən (əlin çatmayan şeylərin arxasınca getsən), onda axtarış və istəyində ifrata varma (haram və günahdan uzaq ol və özünü və ailəni çox çətinliyə salma).

388 İmam Əli əleyhis-salam (gözəl söz barəsində) buyurmuşdur: Nə çox söz ki, (qəlblərə) təsiri hücum etmək və sıçramaqdan daha çoxdur. (Ola bilər ki, ağıllı adam qılınc və döyməklə görülə bilməyən işi sözlə görsün.)

389 İmam Əli əleyhis-salam (qənaətə həvəsləndirərək) buyurmuşdur: (Ruzidən) hər nə ilə kifayətlənmək (yaşayışı keçirmək) mümkündürsə o bəsdir. 390 İmam Əli əleyhis-salam (zülmə tabe olmamaq və alçalmamaq barəsində) buyurmuşdur: (Mərd üçün) ölüm alçalmaq və həqirlikdən üstün və daha yaxşıdır. Aza razı olmaq (varlılara) yaxınlaşmaq və yaltaqlıq etməkdən daha yaxşıdır. Oturduğu yerdə bir şey verilməyən (səy və tələş etməyib bir şey əldə etməyən) kəsə durduğu yerdə də verilməz. Ruzigar iki gündür: bir gün sənin şadlıq və kam almağın üçün, bir gün isə çətinlik və nakamlığın üçün. Buna görə də şadlıq günündə itaətsizlik etmə (naşükür olma) və çətinlik olan günündə səbrli ol (dözümsüzlük etmə və özünü alçaltma).

391 İmam Əli əleyhis-salam (ata ilə övladın bir-birlərinin boyunlarında olan haqqı barəsində) buyurmuşdur: Övladın atanın, eləcə də atanın övladın

boynunda haqqı var. Atanın övladın boynunda olan haqqı budur ki, o, eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allaha itaətsizlikdən başqa hər bir şeydə ataya tabe olmalı, itaət etməlidir. Övladın atanın boynunda olan haqqı isə budur ki, ona yaxşı ad qoysun (məsumlar əleyhimus-salamın özlərinin və ya övlad və ailə üzvlərinin birinin adını qoysun övladına), onu ədəbli və gözəl əxlaqlı tərbiyə etsin və ona Qur'an öyrətsin.

392 İmam Əli əleyhis-salam (təsiri olan və olmayan şeylər barəsində) buyurmuşdur: Göz dəyməsi, ovsun, cadu, ağzını xeyirliyə açmaq (məsələn xəstənin kimdənsə «ey sağlam» müraciətini eşitməsi və eşitdiyi kimi olacağına inanması) haqdır (onların hər biri öz təsirini göstərir). Ağzını pisliyə açmaq və xəstəliyin birindən digərinə keçməsi düz deyil (təsirsizdir). Gözəl iy, bal, minik minmək və yaşıllığa baxmaq qəm və kədərləri aradan aparan ovsunlardır və xəstələr onların vasitəsi ilə sağalarlar.

393 İmam Əli əleyhis-salam (xalqla eyniləşmək, uyuşmaq barəsində) buyurmuşdur: Xasiyyət və əxlaq cəhətindən xalqa yaxınlaşmaq (yaşayış tərzində onlar kimi olmaq) onların kinlərindən amanda olmaqdır (amanda olmağa səbəb olar. Çünki kim dinə zidd olmayan işlərdə xalqla uyuşsa, onlar kimi olsa onu sevərlər və qəlblərində ona qarşı kin saxlamazlar).

394 İmam Əli əleyhis-salam onunla danışanlardan biri, özündən böyük söz söyləyərkən (yersiz söz barəsində) buyurmuşdur: Qanad çıxarmamış uçdun və körpə ikən nərildədin. (Xülasə, bizim yanımızda belə sözlər danışmaq sənə yaraşmaz. Yaxud sənin kimisinin belə bir söz deməsi layiq deyil. Seyyid Rəzi-rəhiməhullah-deyir:) Burada (əsas mətndəki) «الشَّكِيرُ» «əş-şəkir»dən məqsəd quşun güclənərək möhkəmlənəndən qabaq çıxartdığı ilk qanadıdır. «السَّقْبُ» «əs-səqb» isə böyüyənə kimi nərildəməyən dəvə balası mənasındadır.

395 İmam Əli əleyhis-salam (hər işlə məşğul olmağın ziyanı barəsində) buyurmuşdur: Kim müxtəlif işlərlə məşğul olsa (müxtəlif işlər görmək istəsə) çarə qılmaq bacarıqları onu tərk edərlər (o, qıldığı çarələrdən heç bir nəticə əldə etməz və müvəffəqiyyət qazanmaz). 396 İmam Əli əleyhis-salamdan «لا حَوْلَ وَ لا قُوَّةَ إِلاَّ بِاللهِ» «Allahdan başqa heç bir qüdrət və qüvvə yoxdur» kəlamının mənasını soruşarkən o Həzrət buyurmuşdur: Biz Allahla birgə bir

şeyə malik deyilik (Onunla şərik deyilik) və O, bizi malik etməyincə heç bir şeyə (əndam, güc, ağıl və sairə) malik olmuruq. Buna görə də bizi bir şeyə malik edəndə – ki, Onun Özü bizdən daha qabaq malikdir – boynumuza vəzifə qoyur (nəyəsə əmr edir və ya nədənsə çəkindirir). Həmin şeyi (bir şeyə gücün çatmasını) bizdən alanda isə, o barədəki vəzifəni boynumuzdan götürür (həmin şey barəsində bizdən sorğu-sual etməyəcək).

397 İmam Əli əleyhis-salam Əmmar ibn Yasirin (rəhiməhullah) Müğeyrə ibn Şö'bənin sözlərinə cavab verməsini eşidəndə (dini dünya üçün vasitə etmiş şəxsə etina etməmək barəsində) ona buyurmuşdur: Ey Əmmar! Müğeyrəni öz ixtiyarında qoy (onun sözlərinə etina etmə). Çünki o, dindən dünyanı ona yaxınlaşdıran (dünyasına xeyri olan və yarayan) şeydən başqa bir şey götürməyib, öyrənməyib; qəsdən (bilərəkdən) özünü şübhələrə atıb ki, onları (haqqa və doğruya oxşayan əyrilikləri) öz səhv və büdrəmələrinə bəhanə gətirsin .

398 İmam Əli əleyhis-salam (Allaha təvəkkül etmək və arxalanmaq barəsində) buyurmuşdur: Varlıların Allah yanında olan savabı əldə etmək üçün yoxsullara qarşı təvazökar olmaları necə də gözəldir. Onlardan gözəl isə yoxsulların Allaha arxalanaraq varlılara etinasızlıqları və əyilməmələridir.

399 İmam Əli əleyhis-salam (ağlın xeyri barəsində) buyurmuşdur: Allah ağlı insanda ancaq ona görə əmanət qoyub (ona bağışlayıb) ki, insana günlərin birində onun vasitəsi ilə (onun gördüyü tədbirlərlə dünya fitnə-fəsadlarından və ya itaət və bəndəliklə axirət çətinliklərindən) nicat versin.

400 İmam Əli əleyhis-salam (haqqın batil üzərində qələbəsi barəsində) buyurmuşdur: Kim haqq ilə əlbəyaxa olsa (vuruşaraq onu aradan aparmaq istəsə), haqq onu yerə vurar (məhv edər. Çünki Allah haqqın yardımçısıdır və heç kəsin Onunla əlbəyaxa olmaq qüdrəti yoxdur). 401 İmam Əli əleyhis-salam (fikirləşmək barəsində) buyurmuşdur: Qəlb gözün səhifəsidir. (Gərək gözün gördüyü şey qəlbin səhifəsinə yazılsın, barəsində fikirləşərək düşünülsün, haqq və ya batil, xeyir və şər olması aydınlaşdırılsın.)

402 İmam Əli əleyhis-salam (pərhizkarlığın mədhində) buyurmuşdur: Pərhizkarlıq xasiyyətlərin başçısıdır. (Hər bir gözəl xasiyyət ona bağlıdır və pərhizkarlıq, onların hamısını əhatə edir.)

403 İmam Əli əleyhis-salam (müəllimə ehtiram göstərməyə təşviq edərək) buyurmuşdur: Dilinin itiliyini səni danışdırana (sənə danışmaq öyrədənə), eləcə də natiqlik bacarığını səni (natiqlikdə) düz yola istiqamətləndirənə yönəltmə.

404 İmam Əli əleyhis-salam (çirkinliklərdən uzaq olmaq barəsində) buyurmuşdur: Sənin ədəb və gözəlliyin üçün başqasında pis saydığın şeydən (çirkin işlərdən) uzaqlaşmağın kifayətdir. 405 İmam Əli əleyhis-salam (səbrlilik barəsində) buyurmuşdur: Kim (müsibət və qəm-qüssə baş verəndə dünyanın bəzək-düzəyinə bağlı olmayan) azad insanlar kimi səbr etsə, səbrlidir (və öz savabını alacaqdır). Əgər (həmin hadisədə dözümsüzlük edərək) səbr etməsə, təcrübəsiz nadanların unutması kimi yaddan çıxaracaqdır. (Həmin nadanlar hadisələrlə qarşılaşanda dözümsüzlük edərlər və sonra bir çarə olmamasını görüb susarlar. Onların bu susmağında savab yoxdur və əksinə, dözümsüzlüklərinə görə cəzalandırılacaqlar.)

406 Digər bir rəvayətdə deyilir ki, İmam Əli əleyhis-salam başsağlığı və ürək-dirək verdiyi Əş'əs ibn Qeysə (yenə də səbrlilik barəsində) buyurmuşdur: Əgər böyüklər və alicənablar kimi səbrlilik etsən, bu, (eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allahın yanında) gözəl və bəyənilən bir işdir. Amma səbrsizlik etsən, (həmin müsibəti) heyvanlar (çəkdikləri əziyyətləri) unutduqları kimi yaddan çıxaracaqsan. (Axır ki, naçarlıqdan səbrli olacaqsan, amma bu dəfə savabsız.)

407 İmam Əli əleyhis-salam dünyanın vəsfi və necəliyi barəsində buyurmuşdur: Dünya (öz zinət və bəzəyi ilə) aldadır, (bəla və çətinlikləri ilə) ziyan vurur və (sürətlə, tez) keçir (onlardan ayrılır). (Dünya həqir və alçaq olduğu üçün) eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah onu Öz dostlarının savabı, düşmənlərinin isə cəzası etməyə razı olmadı. Dünya əhli o karvan kimidir ki, (bir az istirahət edib yorğunluqlarını almaq üçün) düşdüyü əsnada birdən karvanbaşıları (karvanın qabağında gedən başçıları)

haray salar (ki: yola düşün, bura istirahət yeri deyil) və sonra onlar yola düşərlər.

408 İmam Əli əleyhis-salam oğlu (imam) Həsən əleyhis-salama (varislərə mal-sərvət saxlamağın ziyanı barəsində) buyurmuşdur: Oğulcanım! Özündən sonra dünyadan (dünyanın mal və sərvətindən) heç nə qoyma. Çünki onu iki şəxsdən biri üçün qoyursan: ya Allahın itaət və bəndəliyi yolunda sərf edən kəs üçün ki, belə olan surətdə o, sənin bədbəxt olmağına və ziyana uğramağına səbəb olan şeylə xoşbəxt olur. Ya da Allaha qarşı günah və itaətsizlik edən kəs üçün ki, belə olan halda, o, sənin onun üçün topladığın şeyə görə bədbəxt olur və sən onun günah etməsinə köməkçi və yardımçı olmusan. Bu iki haldan heç biri sənin, özün üçün seçib götürməyinə layiq və münasib deyil. (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Bu kəlam başqa cür də rəvayət edilib və o belədir: Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: dünyadan (dünya malından) sənin əllərində olanların səndən qabaq sahibi olub. Səndən sonra da digər bir sahibə çatacaq. Sən (onu) iki nəfərdən biri üçün toplayırsan: (Ya) o kəs (üçün) ki, sənin topladıqların barəsindəAllaha itaət edəcək və beləliklə, sənin, səbəbindən bədbəxt olduğun şeylə xoşbəxt olacaq. Ya da o kəs (üçün) ki, onu Allaha itaətsizlikdə işlədəcək və beləliklə, sənin topladığın şeylə bədbəxt olacaq. Bu ikisindən heç birini özün üçün seçməyin və eləcə də onun üçün öz çiyinlərinə yük (günah) götürməyin layiq deyil. Buna görə də keçən (ölən) üçün Allahın bağışlamasına, qalan üçün isə Allahın ruzisinə ümidvar ol. (Nə gedənə təəssüflən, nə də qalanın dərdini çək.)

409 İmam Əli əleyhis-salam o Həzrətin hüzurunda «أَسْتَغْفِرُ الله» «əstəğfirullah» (Allahdan bağışlanmaq istəyirəm) deyən şəxsə (istiğfar edib günahların bağışlanmasını istəməyin şərtləri barəsində) buyurmuşdur: Anan vayına otursun! İstiğfarın (həqiqi mənasının) nə olmasını bilirsən (ki, onu düşünmədən dilinə gətirirsən)? İstiğfar, yüksək məqamlı dəstənin (möminlərin) dərəcə və məqamıdır. O, altı mənası (şərti) olan bir addır. (Əgər altı şərtin hamısı bir yerdə toplanmış olsa istiğfar kamil, əks halda isə naqisdir.) Birincisi keçmiş günahdan peşman olmaq; ikincisi ona qayıtmağı həmişəlik olaraq tərk etmək qərarına gəlmək; üçüncüsü, boynunda ziyan və günah olmayan paklıqla Allaha qovuşmağın (mükafat əldə etməyin) üçün xalqın haqlarını əda etmək; dördüncüsü sənə (namaz, oruc və həcc kimi)

vacib olmuş, eləcə də əldən çıxardığın (yerinə yetirmədiyin) hər bir şeyin haqqını (qəzasını) yerinə yetirmək; beşincisi səy göstərib (bədənində) haramdan yaranmış əti hüzn və kədərlə o qədər əridəsən ki, dəri sümüyə yapışsın və onların arasında təzə ət bitsin; altıncısı budur ki, günahın şirinliyini bədəninə daddırdığın kimi ibadət və bəndəliyin əziyyətini də ona daddırasan. Belə olan halda, (deyilən şərtlər bir yerə toplanan zaman) «أَسْتَغْفِرُ اللهَ» «əstəğfirullah» (Allahdan bağışlanmaq istəyirəm) deyərsən.

410 İmam Əli əleyhis-salam (səbrliliyin xeyiri barəsində) buyurmuşdur: Səbrlilik qəbilədir (qəbilə və qohumlar insanı düşmənin şərindən qoruduğu kimi, səbr də insanı qoruyur. Yaxud də məqsəd budur ki, səbrliliyə görə xalq həmin şəxslə dostlaşar və onun yardımçısı olar, sanki o, qəbilə sahibi olub).

411 İmam Əli əleyhis-salam (insanın acizliyi barəsində) buyurmuşdur: Yazıq və aciz Adəm övladı: əcəli gizlidir (nə vaxt öləcəyini bilmir), xəstəlik və dərdləri naməlumdur (həmişə acı hadisələr və xəstəliklərə düçar olmaq təhlükəsindədir), əməli saxlanılır (əməl dəftərində yazılır və əgər özünün yadından çıxsa da unudulmaz). Ağcaqanad onu incidir, suyun boğazda qalması onu öldürür və tər onu iyləndirir. (Bütün bunlarla yanaşı belə bir kəsə lovğalıq və məğrurluq edərək öyünmək yaraşırmı?!)

412 Nəql edilib ki, İmam Əli əleyhis-salam öz səhabələrinin arasında oturmuşdu və onların yanından gözəl bir qadın keçdi. Səhabələri ona baxdılar. O Həzrət əleyhis-salam (qadınlara baxmaqdan çəkindirərək belə) buyurdu: Bu erkəklərin gözləri (kefli və sərxoş dəvə kimi) şəhvətə bərəlir və bu cür baxışlar onlarda şəhvət və ehtirasların həyacana gəlməsi və oyanmasına səbəb olur. Buna görə də sizlərdən biri ona xoş gələn qadına baxanda gərək öz arvadı ilə yaxınlıq etsin. Çünki o da (digər) qadınlar kimi bir qadındır. (Qadınlar hamısı ləzzət vermək baxımından birdirlər.) Sonra xəvaricdən biri dedi: Allah onu kafir Öldürsün, necə də alim edib onu?! Səhabələr sıçrayıb həmin şəxsi öldürmək istədilər. İmam əleyhis-salam buyurdu: Möhlət verin ona (işiniz olmasın). Söyüşün yerinə (öldürmək deyil) ya gərək o da söyülsün, ya da günahından keçilsin.

413 İmam Əli əleyhis-salam (ağlın mənfəəti barəsində) buyurmuşdur:

Ağlından sənə bu (mənfəət) bəsdir ki, o sənin üçün azğınlıq yollarını nicat yollarından seçir. (Çünki bu xeyir və mənfəət bütün xeyirləri əhatə edir.)

414 İmam Əli əleyhis-salam (yaxşı və xeyir işi kiçik saymamaq barəsində) buyurmuşdur: Yaxşı iş görün və onun azını kiçik hesab etməyin. Çünki onun kiçiyi (Allahın yanında) böyük, azı (azının savabı) çoxdur. Gərək sizlərdən heç kəs «başqası yaxşı iş görməyə məndən daha layiqdir» deməsin. Allaha and olsun ki, başqası daha layiq olar. (Çünki) yaxşı ilə pisin hər birinin öz adamı var və siz onlardan hər hansı birini tərk etsəniz, adamı onu sizin yerinizə yerinə yetirəcək (və onu yerinə yetirən daha layiqdir).

415 İmam Əli əleyhis-salam (səadətə çatmaq barəsində) buyurmuşdur: Kim öz gizlinini düzəltsə (düşüncəsini paklaşdırsa) Allah onun aşkarını düzəldər (gözəlləşdirər). Kim dini üçün iş görsə, Allah onun dünya işini təmin edər (çətinliklərdən qurtarar onu). Kim özü ilə Allah arasında olan şeyi gözəlləşdirsə (Allahdan başqasından gözünü çəksə) Allah onunla xalq arasında olanları gözəlləşdirər (xalqı ona qarşı mehribanlaşdırar).

416 İmam Əli əleyhis-salam (səbr və ağıl barəsində) buyurmuşdur: Səbr (eybləri) örtən pərdədir. Ağıl (pis işlərə əmr edən nəfsi) kəsən qılıncdır. Belə isə xasiyyətinin eyblərini səbrliliklə ört və nəfsini və şəhvətini ağıl ilə öldür. 417 İmam Əli əleyhis-salam (ehtiyacı olanlara əl tutmağa həvəsləndirərək) buyurmuşdur: Allahın bəzi bəndələri var ki, O, (digər) bəndələrinin xeyri üçün onlara nemətlər ayırır. Onlar nə qədər ki, (həmin nemətlərdən ehtiyaclılara və əl altında olanlara) bağışlayırlar, Allah həmin nemətləri onların əllərində saxlayır. Həmin nemətləri əsirgəyəndə (heç kəsə bir şey verməyəndə) isə onları onlardan alıb başqalarına həvalə edir (ki, möhtacların yolunda sərf etsinlər).

418 İmam Əli əleyhis-salam (sağlamlıq və varlılıq barəsində) buyurmuşdur: Bəndənin iki şeyə arxalanması yaraşmaz: sağlamlıq və varlılıq. (Çünki) onu sağlam gördüyün əsnada birdən xəstələnər; varlı gördüyün əsnada birdən yoxsullaşar.

419 İmam Əli əleyhis-salam (ehtiyaclılıqdan gileylənmək barəsində) buyurmuşdur: Kim ehtiyacından möminin yanında gileylənsə, sanki gileyini

Allaha deyib. (Çünki mömin Allahın dostudur.) Amma kim həmin ehtiyacından kafirə gileylənsə, sanki Allahdan gileylənib. (Çünki kafir Allahın düşmənidir.)

420 İmam Əli əleyhis-salam bayramların birində (orucluq bayramında) buyurmuşdur: Bu gün o adamın bayramıdır ki, Allah onun orucunu qəbul edib və namazını mükafatlandırıb (təzə paltar geyinən, amma Allahın yanında abrı olmayan kəsin yox). Allaha itaətsizlik və günah edilməyən hər bir gün bayram (şadlıq və şənlik) günüdür.

421 İmam Əli əleyhis-salam (haram malın ziyanı barəsində) buyurmuşdur: Qiyamət gününün ən böyük peşmançılığı o şəxsin peşmançılıq və əfsusudur ki, var-dövlətini haram yolla qazanıb və digər bir şəxs onu irs apararaq Allahın itaət və bəndəliyində sərf edib. Beləliklə, həmin şəxs cənnətə, haram var-dövləti qazanan isə oda daxil olar.

422 İmam Əli əleyhis-salam (çox çalışmağın ziyanı barəsində) buyurmuşdur: İnsanların alış-verişdə ən çox ziyana uğrayanı və səy və tələşdə ən ümidsizi o kəsdir ki, bədənini öz arzularına çatmaq üçün köhnəldib (özünü qocaldaraq ömrünü başa çatdırıb), amma qəza-qədərlər istəyində ona yardım etməyiblər (o, öz arzularına çatmayıb). Beləliklə, o, həsrət və əfsusla dünyadan gedər və (çox çalışmalarında qazandığı) günahları ilə axirətə daxil olar.

423 İmam Əli əleyhis-salam (ruzi barəsində) buyurmuşdur: Ruzi iki cürdür: biri səni axtarar, digərini isə sən axtararsan. Buna görə də kim dünyanı istəsə (ruzi üçün özünü çətinliyə salsa) ölüm onu axtarar, arxasınca düşər ki, dünyadan çıxarsın. Amma kim axirəti istəsə (itaət və bəndəliklə məşğul olaraq ruzi üçün ehtiyacından artıq çalışmasa) dünya onu axtarar ki, o, öz ruzisini ondan tam şəkildə alsın. (Xülasə, axirət istəyəni ruzi özü axtarar, dünyatələb isə ruzini özü axtarar.)

424 İmam Əli əleyhis-salam (Allahın dostlarının bəzi xislətləri barəsində) buyurmuşdur: Allahın dostları camaat dünyanın zahirinə (zinət və bəzəyinə) baxanda onun batininə (yox olacağına) baxanlar, camaat onun bu günü ilə məşğul olanda (dünya malı əldə etmək fikrində olanda) onun sonu ilə məşğul olanlardır (ölüm səfəri üçün azuqə toplayanlardır). Beləliklə, onlar dünyanın

onları öldürməsindən qorxduqları şeyi öldürərlər (ilahi əzab və cəzaya səbəb olan şeydən çəkinərlər), onun onları tərk edəcəyini bildikləri şeyini tərk edərlər (onlardan ayrılacağını bildikləri üçün onun malına ürək bağlamazlar), dünyadan başqalarının çox bəhrələnmələrinin (axirət bəhrələrinə nisbətdə) az olmasını və dünyanı əldə etmələrinin (əbədi səadəti) itirmək olduğunu (əbədi səadəti əldən çıxarmağa səbəb olmasını) görərlər. Onlar camaatın barışdığı şeylə düşmən, camaatın düşmən olduğu şeylə isə barışıqdadırlar (nəfsi istəklərdən çəkinərək onun müqabilində müqavimət göstərərlər). Kitab onların vasitəsi ilə tanındı (xalq Qur'anın hökmlərini dərk etdi) və onlar da həmin kitabla tanıdılar; kitab onların vasitəsi ilə öz yerində qaldı (dəyişdirilmək və azalıb-çoxalmaqdan qorundu) və onlar həmin kitabla qaldılar (malik olduqları bütün şeyləri ondan götürdülər). Öz ümid və arzularından (eyb və nöqsan sifətlərindən pak və uzaq Allahın savabından) üstün ümid, qorxularından (ilahi cəzadan) üstün qorxu görmürlər.

425 İmam Əli əleyhis-salam (ölümü yada salmaq barəsində) buyurmuşdur: Ləzzət və şadlıqların kəsilməsini və günahların qalmasını yada salın. (Ölümün fikrində olun. Çünki onun çatması ilə bir neçə günlük ləzzətlər aradan gedəcək və günahların cəzası həmişəlik olaraq qalacaqdır.)

426 İmam Əli əleyhis-salam (insanları sınayaraq imtahan etmək barəsində) buyurmuşdur: (İnsanları) sına ki, (onları) düşmən biləsən. (Çünki zahirdə insanların çoxu pis deyildirlər. Amma sınayanda pislikləri üzə çıxır. Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Bəziləri bu kəlamı Peyğəmbərdən (səlləllahu əleyhi və alih) nəql ediblər. Amma bu kəlamın Əmirəl-möminin əleyhis-salamdan olması nəzərinin dəlili, Sə'ləbin bu bəyanıdır: İbn Ə'rabi bizə nəql etdi ki, Mə'mun dedi: Əgər Əli əleyhis-salam «sına ki, düşmən biləsən» buyurmuş olmasaydı mən deyərdim ki, «insanları düşmən bil ki, onları sınayasan». 427 İmam Əli əleyhis-salam (şükr etmək, dua və tövbə barəsində) buyurmuşdur: Ola bilməz ki, Allah bəndənin üzünə şükr qapısını açsın (şükr etməyə əmr etsin), amma artım qapısını onun üzünə bağlasın (neməti artırmasın); dua və istəmək qapısını açsın (Ondan istənilməsinə əmr etsin), amma rəva olmaq qapısını üzünə bağlasın (onun istəyini qəbul etməsin); tövbə qapısını açsın, amma bağışlamaq qapısını onun üzünə bağlasın (günahlarını bağışlamasın).

428 İmam Əli əleyhis-salam (comərdlik barəsində) buyurmuşdur: İnsanların comərdliyə ən layiqlisi comərdlərin onda kök atdığı (ata-babaları yaxşı və comərdlərdən olmuş) kəsdir.

429 İmam Əli əleyhis-salamdan soruşdular ki, ədalətlilik üstündür, yoxsa səxavətlilik? O Həzrət (ədalətin səxavətdən üstün olması barəsində belə) buyurdu: Ədalət işləri öz yerinə qoyur, səxavət isə onları öz yerindən çıxardır. (Çünki səxavətli şəxs lazım olandan artıq bağışlayır.) Ədalət hamını saxlayır, səxavət isə ancaq bəxşiş edilmiş şəxsə xeyir verir. Buna görə də ədalət daha şərəfli və daha üstündür.

430 İmam Əli əleyhis-salam (nadanlığın məzəmmətində) buyurmuşdur: İnsanlar bilmədikləri şeyin düşmənidirlər. (Çünki nadanlar bildikləri şeyi elm, ondan qalan şeyləri isə səhv sanarlar, necə ki, Qur'ani-Kərimin Yunus surəsinin 39-cu ayəsində buyurulur: «بَلْ كَذَّبُواْ بِمَا لَمْ يُحِيطُواْ» «Qavraya bilmədikləri şeyi inkar edirlər.»)

431 İmam Əli əleyhis-salam (pərhizkarlıq və zahidlik barəsində) buyurmuşdur: Zahidlik və pərhizkarlığın hamısı Qur’anın iki kəlməsində xülasə edilib. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Hədid surəsinin 23-cü ayəsində) buyurmuşdur: «لِكَيْلَا تَأْسَوْا عَلَى مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ» «ki, heç vaxt əlinizdən çıxana kədərlənməyəsiniz və sizə verilənə sevinməyəsiniz.» Keçmişə heyfslənməyən və gələcəyə sevinməyən kəs, zahidliyi onun iki tərəfindən (keçmişə və gələcəyə etinasızlıqla) əldə edib.
432 İmam Əli əleyhis-salam (hökmdarlar barəsində) buyurmuşdur: Hökumətlər kişilərin (sınaq) meydanlarıdır. (Yarış atları müsabiqə meydanında tanındığı kimi insanların yaxşı və ya pis olmaları da onlar hakimiyyətə gələndə üzə çıxır.) 433 İmam Əli əleyhis-salam (işdə süstlük barəsində) buyurmuşdur: Yuxu gündüzün qərarlarını necə də çox pozur və məhv edir. (Bu kəlamın şərhi xütbələr fəslində 211-ci kəlamın şərhində deyildi.)

434 İmam Əli əleyhis-salam (yaşayış yeri barəsində) buyurmuşdur: Sənin üçün şəhərin biri digərindən daha münasib deyil. Şəhərlərin ən yaxşısı səni

çiyinlərinə alan (əhalisi səni istəyən və yaşayışında rifah və asayişdə olduğun) şəhərdir.

435 Əştərin (Allah onu bağışlasın) ölüm xəbəri İmam Əli əleyhis-salama çatanda (o Həzrət onun böyüklüyü və cəsurluğu barəsində belə) buyurmuşdur: Malik getdi, amma nə idi Malik! Allaha and olsun ki, əgər dağ idisə, ayrı qalmış və əzəmətli bir dağ idi; əgər daş idisə, elə möhkəm daş idi ki, (böyüklük və möhkəmliyindən) heç bir dırnaqlı heyvan ondan yuxarı qalxa bilmir və heç bir quş onun üzərindən uçmurdu. (O, tək və misilsiz idi, heç kəs ona qalib gələ bilməzdi. Seyyid Rəzi əleyhirrəhmə deyir:) (Əsas mətndəki) «فِنْد» «find» kəlməsi digər dağlardan ayrı olan dağ mənasındadır.

436 İmam Əli əleyhis-salam (işdə əzmkarlıq göstərərək onu davam etdirməyin mədhində) buyurmuşdur: Davam etdirilən az iş yorğunluq gətirən çox işdən daha yaxşıdır. (Bu kəlam elə 270-ci kəlamdır, amma kəlmələrində olan bir az fərqlə ki, onun şərhi orada deyildi.)

437 İmam Əli əleyhis-salam (sifətlərin inkişaf etməsi barəsində) buyurmuşdur: Birində (yaxşı və pisliyindən asılı olmayaraq) təəccüblü bir sifət və xislət olsa, onun bənzərlərini gözləyin. (Əgər həmin sifət yaxşı idisə daha yaxşı, pis idisə daha pis olacaq.)

438 İmam Əli əleyhis-salam söhbət əsnasında (şair) Fərəzdəqin atası Qalib ibn Sə'sə'əyə dedi: Çoxsaylı dəvələrini neylədin? Qalib dedi: Haqlar (xalqın onda olan haqları) onları dağıtdı (sədəqə, zəkat, qohum-əqrabaya kömək və borcun ödənilməsi kimi xeyirli yollarda işlədildi). O Həzrət əleyhis-salam (xalqın haqqını ödəməyin mədhində) buyurdu: Bu dağılmaq o dəvələrin dağılma yollarının ən tərifə layiqidir.

439 İmam Əli əleyhis-salam (dinin hökmlərini bilməməyin ziyanı barəsində) buyurmuşdur: Dinin hökmlərini bilmədən alver edən kəs ribaya (borcda harama və ilahi cəzaya səbəb olan faiz alıb verməyə) batar (düçar olar).

440 İmam Əli əleyhis-salam (naşükrlüyün ziyanı barəsində) buyurmuşdur: Kim kiçik müsibət və kədərləri böyük saysa, Allah onu onların daha böyüyünə düçar edər.

441 İmam Əli əleyhis-salam (şərəf və heysiyyət barəsində) buyurmuşdur: Kimin nəfsi möhtərəm və uca olsa (kim özünü şərəfli bilsə), şəhvətləri onun yanında xar olar (zillət və xarlığa düşməmək üçün onlara tabe olmaz).

442 İmam Əli əleyhis-salam (zarafatın ziyanı barəsində) buyurmuşdur: Növündən asılı olmayaraq zarafat etmiş hər bir şəxs mütləq ağlının bir hissəsini müəyyən şəkildə itirəcəkdir. (Zarafat ağlın yüngülləşməsinə səbəb olur.)

443 İmam Əli əleyhis-salam (qarşılıqlı ünsiyyətdə olmaq barəsində) buyurmuşdur: Sənin, sənə rəğbəti olan kəsə etinasızlığın pay və qismətin azlığıdır (azalmasına səbəb olur). Sənə etinasız olan kəsə rəğbət göstərməyin isə nəfsin zilləti və xarlığıdır (xarlığına səbəb olur).

444 İmam Əli əleyhis-salam (Abdullah ibn Zübeyrin məzəmmətində) buyurmuşdur: Zübeyr onun nəhs oğlu Abdullah böyüyənə kimi həmişə biz əhli-beytdən (qohumlarımızdan) idi. 445 İmam Əli əleyhis-salam (öyünmək və məğrurluğun məzəmmətində) buyurmuşdur: Adəm övladının fəxr etmək və öyünməklə nə işi ki, əvvəli nütfə, axırı isə iylənmiş leşdir; nə özünə ruzi verir, nə də öz ölümünü dəf edir.

446 İmam Əli əleyhis-salam (həqiqi zənginlik və yoxsulluq barəsində) buyurmuşdur: Zənginlik və yoxsulluq (qiyamət günü) vəziyyət məlum olandan və əməllər Allaha göstəriləndən sonradır. (Həqiqi varlı o kəsdir ki, qiyamət günü ilahi savab və əbədi cənnət onun nəsibi olsun. Həmçinin həqiqi yoxsul o kəsdir ki, həmin gün Allahın cəza və əzabına düçar olsun.)

447 İmam Əli əleyhis-salamdan şairlərin ən böyüyünün kim olmasını soruşublar. O Həzrət (İmrəul Qeys barəsində) buyurmuşdur: Şairlər bir dəstə mərc atlarında çapmayıblar ki, onların kamilliklərinin sonu girov qamışın götürülməsində bilinsin. (Şairlərin şe'rlərinin hamısı bir səpkidə deyil və ona görə onların birini digərindən üstün tutmaq olmaz.) Əgər kiməsə üstünlük vermək labüd və zəruri olsa, onda «azğın şah» üstündür. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) Həzrətin «الْمَلِكُ الضَّلِيلُ» «əl-məlikuz-zəlil», yəni, azğın şah ifadəsindən məqsədi İmrəul Qeysdir. (Onu şah adlandırmasının

səbəbi şe’rlərinin gözəlliyidir. Azğın adlandırılmasının səbəbi isə onun kafir və fasiq olmasıdır.)

448 İmam Əli əleyhis-salam (dünyadan uzaq olmağa həvəsləndirərək) buyurmuşdur: Bir azad kişi yoxdurmu ki, ağızda qalmış bu artığı (alçaq dünyanı) öz əhlinin (kafir və münafiqlərin) ixtiyarına buraxsın? Sizin canlarınızın qiyməti və dəyəri ancaq cənnətdir. Buna görə də onları həmin qiymətdən başqa heç nəyə satmayın.

449 İmam Əli əleyhis-salam (elm və dünya istəyən barəsində) buyurmuşdur: İki yeyən doymaz: elm axtarışı və arzusunda olan (ki, hər nə qədər məsələlər aşkar olsa yenə də digər bir məchulu məlum etmək istəyər) və dünya istəyən (ki, hər nə qədər dünya malı əldə etsə yenə də digər şeylər əldə etmək arzusunda olar).

450 İmam Əli əleyhis-salam (imanın bəzi nişanələri barəsində) buyurmuşdur: İmanın nişanəsi budur ki, sənə ziyan vuracaq yerdə doğru danışmağı sənə xeyir gətirəcək yerdə yalan danışmaqdan üstün tutasan və danışığın biliyindən artıq olmasın. Həmçinin başqası barəsində danışmaqda Allahdan qorxasan.

451 İmam Əli əleyhis-salam (tədbir tökmək və uzaqgörənliyə arxalanmamaq barəsində) buyurmuşdur: İlahi qəzavü-qədər hesablamaları (bəndənin özü üçün cızdığı planları) elə qabaqlayır ki, (bəzən) bəla və məhv tədbir tökmək və uzaqgörənlikdə olur. (Buna görə də insan təvəkküldən əl götürməməli, öz tədbir və fikirlərinə arxalanmamalıdır. Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Bu məna bundan qabaq (on altıncı kəlamda) kəlmələri bu kəlmələrdən bir qədər fərqli olan bir rəvayətdə keçdi.

452 İmam Əli əleyhis-salam (səbrlilik və tələsməmək barəsində) buyurmuşdur: Səbr və tələsməmək bir qarından olan ekizlərdirlər ki, onları himmət və möhkəm iradə doğur. (Səbrlilik və tələsməmək bir dərəcə və mərtəbədədirlər. Yüksək himmətə malik olan şəxs tez qəzəblənməyib səbr göstərdiyi kimi işlərdə tələskənlik də etmir və işin sonunu fikirləşir.)

453 İmam Əli əleyhis-salam (qeybət etməyin məzəmmətində) buyurmuşdur: Qeybət etmək və (birinin) arxasınca danışmaq aciz şəxsin cəhdidir (aciz

şəxsin öz düşmənindən intiqam ala bildiyi və ya həsəd apardığı şəxsin dalınca pis danışmaq üçün istifadə etdiyi yeganə vasitədir). 454 İmam Əli əleyhis-salam (bəndələrin imtahan edilmələri barəsində) buyurmuşdur: Nə çox adam ki, barəsindəki gözəl sözlər səbəbindən (xalqın onun barəsində olan xoş sözlərinə görə) fitnə və çətinliyə düşüb.

455 İmam Əli əleyhis-salam (dünya barəsində) buyurmuşdur: Dünya özü üçün deyil, başqası üçün yaradılıb. (Dünya axirət üçün bir yoldur ki, insan savab əldə etmək üçün gərək onda bəndəlik etsin; həmişəlik deyil ki, onda ancaq vaxtı yaxşı keçirməklə məşğul olsun!)

456 İmam Əli əleyhis-salam (Bəni Üməyyə dövlətinin dağılması barəsində) buyurmuşdur: Bəni-Üməyyə üçün bir möhlət zamanı və bir fürsət meydanı vardır ki, onda (səltənət və şahlıq atını) çaparlar. Aralarında xilafət və şahlıq üstündə dava-dalaş düşəndən sonra goreşənlər (alçaq və nanəciblər) aldatmaq yolu ilə onlara hakim olarlar . (Seyyid Rəzi-rəhiməhullah-deyir:) (Əsas mətndə passiv növün feli sifəti olan) «أَلْمُرْوَدُ» «əl-murvəd» kəlməsinin kökü «الْإِرْوادُ» «əl-irvad»dır və mənası möhlət və fürsət verməkdir. O, «مُفْعَل» «muf'əl» vəznindədir. Bu ən dolğun və heyrətləndirici sözlərdəndir. Sanki o Həzrət əleyhis-salam onlara verilmiş zaman möhlətini, onların axırına kimi çapdıqları və sona çatandan sonra işlərinin nizam-intizamı pozulan meydana bənzədib.

457 İmam Əli əleyhis-salam Ənsarın mədhində buyurmuşdur: Allaha and olsun ki, onlar var-dövlətləri, səxavətli əlləri və iti dilləri ilə İslamı süddən ayrılmış (və ya bir yaşı olan) at balası bəslənən kimi bəsləyərək yetişdirdilər.

458 İmam Əli əleyhis-salam (gözün açıq olması barəsində) buyurmuşdur: Göz düz bağırsağın bağıdır. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) Bu kəlam heyranedici metaforalardandır. Sanki Həzrət düz bağırsağı qaba, gözü isə bağa oxaşadıb ki, bağ açılanda qab öz vəziyyətində qalmır (içində olanlar çölə tökülür). Daha məşhur nəzərə əsasən bu kəlam Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) kəlamlarındandır. Bir dəstə isə onu Əmirəl-möminin əleyhis-salamdan nəql edib. Bu məsələni Mübərrəd «əl-Müqtəzəb»

kitabının «əl-ləfz bil-huruf» fəslində bəyan edib. Biz bu metafora barəsində özümüzün «Məcazatil-asaril-nəbəviyyə» adlı kitabımızda söhbət etmişik.

459 İmam Əli əleyhis-salam (Ömər ibn Xəttab barəsindəki) bir kəlamında buyurmuşdur: (Əbu Bəkrdən sonra) bir vali xalqa hakim oldu (Ömər xilafət məqamında oturdu). Beləliklə, (xilafət işini) bərpa etdi və müqavimət göstərdi (hamıya hakim oldu), nəhayət, (dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi) din qərar tutdu.

460 İmam Əli əleyhis-salam (qarşıya çıxacaq xoşagəlməz hadisələr barəsində) buyurmuşdur: İnsanlar üçün elə bir tikanlı (və çətin) zaman gələcək ki, onda varlı əllərində olanlarla möhkəm sancacaq (mal və sərvətində xəsislik edərək onu Allah yolunda verməyəcək), halbuki bu işə əmr olunmayıb. Eyb və nöqsan sifətlərdən pak və uzaq olan Allah (Qur'ani-Kərimin Bəqərə surəsinin 237-ci ayəsində) buyurub: «وَلا تَنسَوُاْ الْفَضْلَ بَيْنَكُمْ» «Bir-birinizə yaxşılıq etməyi unutmayın (bir-birinizə yardım edin)!» Həmin zamanda pis əməl sahibləri qalxaraq öyünər, yaxşı əməl sahibləri isə xar və zəlil olarlar. Və acizlər və biçarələrlə alver edərlər (onlara baha satarlar, onlardan alanda isə ucuz alarlar). Halbuki Allahın Peyğəmbəri (səlləllahu əleyhi və alih) acizlərə (yemək) satmağı (və ya onlarla alver etməyi) qadağan edib. (Çünki onlara kömək olunmalıdır, yaxud onlarla, aciz olmayanlarla aparılan alver kimi alver edilməlidir. Yəni, onlara kömək edilməsə də, heç olmasa alverdə onları aciz görüb aldatmaq olmaz və hamı ilə çəki və qiymətdə necə alver edilirsə onlarla da elə alver edilməlidir.)

461 İmam Əli əleyhis-salam (öz dost və düşməni barəsində) buyurmuşdur: Mənə görə iki nəfər həlak və məhv olacaqdır: (Biri məni sevməkdə) ifrata varan dost və (digəri mənə) yalan yapışdıran böhtançı (ki, mənə, məndə olmayan şeyi nisbət verər. Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Bu kəlam o Həzrət əleyhis-salamın bu (yüz on üçüncü) kəlamı kimidir ki: Mənim yolumda iki nəfər həlak oldu: ifrata varan dost və düşmənçiliyində həddini aşan düşmən. (Bu kəlamın şərhi öz yerində bəyan edilib.)

462 İmam Əli əleyhis-salamdan tovhid və ədalət (onların mənaları) barəsində soruşdular. O Həzrət buyurdu: Tovhid və Allahı tək bilmək Onu fikir və xəyala gətirməməyindir. (Çünki zehn və xəyala gələn şey sənin kimi

məxluqdur.) Ədalət Onu (Ona layiq olmayan şeylərdə) ittiham etməməyindir. (Çünki nalayiq iş görməyin səbəbi ya nadanlıq və cəhalətdir, ya da ehtiyac və naçarlıq ki, Allah bunların hər ikisindən uzaq və pakdır.) 463 İmam Əli əleyhis-salam (yersiz susmağın və yersiz danışmağın məzəmmətində) buyurmuşdur: Cəhalət və nadanlıqla danışmaqda xeyir olmadığı kimi hikmət və elmlə (danışmaq lazım olan zaman) susmaqda da xeyir yoxdur.

464 İmam Əli əleyhis-salam (Allahdan) yağış yağmasını istədiyi duada belə buyurmuşdur: Allahım, bizə itaətsiz bərk buludlarla (yük çəkməyən itaətsiz dəvələr kimi olan yağışsız buludlarla) deyil, itaətkar ram buludlarla (ram olub yük çəkən dəvələr kimi olan yağışlı buludlarla) su ver. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) Bu kəlam fəsahət və dolğunluğu heyrətləndirici olan kəlamlardandır. Belə ki, İmam əleyhis-salam gurultulu və vahiməli səsli, eləcə də parıltılı, işıqlı, küləkli ildırımlı və alovlu buludları (belində olan palan və yükləri yerə atmaq üçün) yüklə birlikdə sıçrayan və minənləri (yerə yıxmaq üçün) silkələyən itaətsiz dəvələrə, bu qorxulu şeylərə malik olmayan buludları isə südləri sağılanda itaətkarlıq edən və belinə minəndə xoş davranan ram dəvələrə oxşadıb. 465 İmam Əli əleyhis-salama dedilər ki: Ey Əmirəl-möminin, əgər (saqqalının) ağ tüklərini dəyişdirsəydin (onları rəngləsəydin) yaxşı olardı. Həzrət (rəng barəsində belə) buyurdu: Rəng zinət və gözəllikdir. (Amma) biz əzada və qəm-qüssədə olan bir tayfayıq. (Seyyid Rəzi əleyhir-rəhmə deyir:) Həzrətin («biz əzada və qəm-qüssədə olan bir tayfayıq» deməkdən) məqsədi Allahın Peyğəmbərinin (səlləllahu əleyhi və alih) vəfatıdır. (Rəng barəsində on yeddinci kəlamın şərhində də danışılıb.) 466 İmam Əli əleyhis-salam (iffətliliyin mədhində) buyurmuşdur: Allah yolunda şəhid olmuş mücahidin savabı (haram və nalayiq işlər görmək) qüdrət və imkanı olan, amma iffət-ismət göstərən kəsdən çox deyil. (Haram və nalayiq işlərdən çəkinən) iffətli şəxsin mələklərdən biri olması daha yaxındır. (Bu kəlam «Nəhcül-Bəlağə»nin nüsxələrinin çoxunda yoxdur. Biz onu İbn Əbil Hədidin nüsxəsindən nəql etdik.)

467 İmam Əli əleyhis-salam (qənaətin faydası barəsində) buyurmuşdur: Qənaət tükənməz sərvətdir. (Çünki qənaət və əldə olana qane olmaq ehtiyacı uzaqlaşdırır. Seyyid Rəzi-rəhiməhullah-deyir:) Bu kəlam Peyğəmbərdən (səlləllahu əleyhi və alih) (də) nəql edilmişdir.

468 İmam Əli əleyhis-salam Ziyad ibn Əbihi Abdullah ibn Abbasın yerinə Fars vilayəti və onun ətraf bölgələrinə vali təyin edən zaman aralarında olan uzun bir söhbətdə onu (rəiyyətdən) vergiləri qabaqcadan almaqdan çəkindirərək buyurmuşdur: (Rəiyyətlə) ədalətli və insaflı ol və yolu azmaqdan və zülmdən qorx. Çünki yolu azmaq (insafsızlıq) didərginliyə (onların didərgin düşmələrinə) səbəb olur və zülm, qılınca (rəiyyətlə vali arasında çəkişmə və dava-dalaş yaranmasına) gətirib çıxarır (yaxud zülm, valinin rəiyyətin əli ilə öldürülməsinə səbəb olur).

469 İmam Əli əleyhis-salam (günah barəsində) buyurmuşdur: (Allah yanında) ən ağır günah, insanın yüngül və kiçik hesab etdiyi günahdır.

470 İmam Əli əleyhis-salam (nadanı öyrətməyə təşviq edərək) buyurmuşdur: Allah alimlərdən öyrətmələri barəsində əhd-peyman almayınca nadanlardan öyrənmələri barəsində əhd-peyman almadı. (Nadanlara öyrənməyi o vaxt vacib etdi ki, ondan qabaq alimlərə öyrətməyi və elmlərini gizlətməməyi vacib etmişdi.)

471 İmam Əli əleyhis-salam (dostu əziyyətə salmağın məzəmmətində) buyurmuşdur: Qardaşların (dostların) ən pisi insanın ona görə zəhmətə düşdüyü (dostluğu çətinlik və əziyyətə səbəb olan) kəsdir. (Seyyid Rəzi-rəhiməhullah-deyir:) Çünki «تَكْلِيف» «təklif», yəni, taqətdən artıq olan şey məşəqqətə səbəb olur və məşəqqət insanı zəhmətə salan qardaş və dostun bais olduğu şər və pislikdir. Buna görə də o, qardaşların ən pisidir.

472 İmam Əli əleyhis-salam (dostu itirmək barəsində) buyurmuşdur: Mömin öz qardaşını (dostunu) qəzəbləndirən (və ya utandıran) zaman ondan ayrılıb. (Qəzəbləndirmək və ya xəcalətli etmək ayrılığa səbəb olur. Seyyid Rəzi-rəhiməhullah-deyir:) (Ərəb dilində) birini qəzəbləndirən zaman «حَشَمَهُ» «həşəməhu» və «أَحْشَمَهُ» «əhşəməhu» deyilir. Bəziləri onun, «xəcalətli etmək, utandırmaq» (mənasında) olmasını deyiblər. «إِحْتَشَمَهُ» «ihtəşəməhu» (yəni,) «onun qəzəblənməsini və ya xəcalətli olmasını istədi». Və bu, (elə) onun ayrılığını güman etməkdir.

About this digital edition

This e-book comes from the online library Wikisource[1]. This multilingual digital library, built by volunteers, is committed to developing a free accessible collection of publications of every kind: novels, poems, magazines, letters...

We distribute our books for free, starting from works not copyrighted or published under a free license. You are free to use our e-books for any purpose (including commercial exploitation), under the terms of the Creative Commons Attribution-ShareAlike 3.0 Unported[2] license or, at your choice, those of the GNU FDL[3].

Wikisource is constantly looking for new members. During the realization of this book, it's possible that we made some errors. You can report them at this page[4].

The following users contributed to this book:

- Eminn
- Araz Yaquboglu
- Samral
- NKOzi
- Cekli829
- Babək Akifoğlu

---

1. ↑ https://wikisource.org
2. ↑ https://www.creativecommons.org/licenses/by-sa/3.0
3. ↑ https://www.gnu.org/copyleft/fdl.html
4. ↑ https://wikisource.org/wiki/Wikisource:Scriptorium